# شَرْحُ

# رياض الصالحين

## مِن كَلَامِ سَيِّدِ المُرْسَلِين

لفضيلة الشيخ العلامة
محمد بن صالح العثيمين

المجلد الأول

قَالَ رَسُولُ اللَّهِ ﷺ :

﴿أَلا إِنِّي أُوتِيتُ الْقُرْآنَ وَمِثْلَهُ مَعَهُ﴾

Peyğəmbər ﷺ buyurmuşdur:
"Bilin ki, mənə Quran və onun bənzəri verilmişdir."

Şərh

# *Riyadus-Salihin*

İmam ən-Nəvəvi

**Şərh edən:**
**Muhəmməd ibn Saleh**
**əl-Useymin**

**Birinci cild**

**Redaksiya heyəti**

**Ə. Z. Musayev**
**M. N. Qarayev**
**A. X. Salehli**
**Əbu Muhəmməd**

**Kompüter tərtibatı**

**M. N. Qarayev**

# *Salehlər bağçası*

## *Müqəddimə*

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə onu azdıran tapılmaz, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ حَقَّ تُقَاتِهِۦ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم مُّسۡلِمُونَ﴾

**“Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!”[1]**

﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱتَّقُواْ رَبَّكُمُ ٱلَّذِي خَلَقَكُم مِّن نَّفۡسٖ وَٰحِدَةٖ وَخَلَقَ مِنۡهَا زَوۡجَهَا وَبَثَّ مِنۡهُمَا رِجَالٗا كَثِيرٗا وَنِسَآءٗۚ وَٱتَّقُواْ
ٱللَّهَ ٱلَّذِي تَسَآءَلُونَ بِهِۦ وَٱلۡأَرۡحَامَۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَيۡكُمۡ رَقِيبٗا﴾

**“Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir.”[2]**

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ وَقُولُواْ قَوۡلٗا سَدِيدٗا ٧٠ يُصۡلِحۡ لَكُمۡ أَعۡمَٰلَكُمۡ وَيَغۡفِرۡ لَكُمۡ ذُنُوبَكُمۡۗ وَمَن
يُطِعِ ٱللَّهَ وَرَسُولَهُۥ فَقَدۡ فَازَ فَوۡزًا عَظِيمًا﴾

---

[1] Ali-İmran, 102.

[2] ən-Nisa, 1.

**“Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar.”**[1]

Əziz müsəlmanlar, hamınıza, eləcə də özümə Allahdan qorxmağı nəsihət edirəm! Tərcümə edib hazırladığımız bu kitab, dəyərli bir kitabın şərhidir. Elə bir kitab ki, uca Allah ona bərəkət vermiş, əsrlər boyu saysız-hesabsız insanlar ondan faydanlanmış və indi də faydalanmaqdadırlar. Bu, hicri tarixi ilə VII əsrdə yaşamış, İmam Əbu Zəkəriyya Yəhya ibn Şərəf ən-Nəvəvinin ﷺ “Riyadus-Salihin” adlı kitabıdır. Elə bir elm tələbəsi yoxdur ki, onun evində bu kitabdan olmasın və bu kitabı oxumuş olmasın. Şübhəsiz ki, bu kitaba bu qədər bərəkət verən, Allahdır. Əsrlər boyu İslam alimləri öz məclislərində bu kitabdakı hədisləri öz tələbələrinə şərh etmişlər. Biz də, həmçinin, qərara gəldik ki, bu kitabdakı hədisləri və onların şərhini Azərbaycandilli müsəlmanlara çatdıraq. Xüsusilə qeyd etmək istəyirik ki, bu hədislərin şərhi Muhəmməd ibn Saleh əl-Useyminə ﷺ məxsusdur.

Hədislərin şərhinə başlamazdan əvvəl gəlin qısa şəkildə İmam Nəvəvinin tərcümeyi-halı ilə tanış olaq:

Əbu Zəkəriyya Yəhya ibn Şərəf ibn Murriy ibn Həsən ibn Hüseyn ibn Muhəmməd ibn Cuma ibn Hizam. İmam Nəvəvi hicrətin 631-ci ilində Nəva şəhərində anadan olmuş və hələ uşaq ikən Qurani Kərimi əzəbərləmişdir. Nəhayət, hicrətin 649-cu ilində atası onu Dəməşqə gətirmiş, orada o, alimlərin yanında elm almağa başlamış və beləliklə də, İslam elminə yiyələnmişdir. Müəllifin bu kitabla yanaşı başqa məşhur kitabları da vardır ki, tarix boyu müsəlmanlar onları sevə-sevə oxumuş və hələ də, oxumaqdadırlar. “Qırx hədis”, “İmam Muslimin Səhihinin şərhi”, “Təqrib”, “Rovdatut-Talibin”, “Əzkar” və başqa kitablarını misal göstərmək olar. İmam Nəvəvi ömrünü İslam elmlərini öyrənməyə sərf edir və nəhayət, hicrətin 676-cı ilində Beytulməqdis ziyarətindən geri qayıdarkən, Nəvaya atasına baş çəkməyə gedir və orada bərk xəstələnir. Elə bu xəstəlikdən də, o, vəfat edir və rəcəb ayının 24-ü Nəva şəhərində dəfn edilir. Allah onu Cənnət əhlindən etsin!

---

[1] əl-Əhzab, 70-71.

Nəvəvinin "Riyadus-Salihin" kitabına gəlincə, bu kitab olduqca dəyərli bir kitabdır. Ərəbcə "riyad" "rovdatun" sözünün cəm formasıdır. Rovda – bağça deməkdir. Salihin də, salih sözünün cəm formasıdır. Salih də – elə saleh deməkdir. Demək, "Riyadus-Salihin/Salehlər bağçaları" deməkdir. Məlumdur ki, çoxlu otlar və ağaclar olan, gözoxşayan yerlərə bağça deyilir. Eləcə də, Allahın və Onun rəsulunun ﷺ kəlamlarını özündə cəm edən kitablar bağçaya bənzəyir. Odur ki, Peyğəmbər ﷺ demişdir: "Cənnət bağçalarının yanından keçərkən, orada ayaq saxlayıb faydalanın." Səhabələr: "Cənnət bağçaları nədir?"– deyə soruşduqda, Peyğəmbər ﷺ: belə cavab vermişdir: "Bu, Allah zikr edilən məclislərdir."[1] Diqqət edin, Peyğəmbər ﷺ elm məclislərini Cənnət bağçalarına bənzədir. Əgər biz bir çox alimlərin yazdıqları kitablara nəzər salsaq, görərik ki, onlar öz kitablarını bu gözəl vəsflə vəsf etmişlər. Məsələn, "ər-Riyadun-Nədira fi Mənaqibil Aşərə", yaxud, "ər-Rovdatul-Bəhiyyə", yaxud "ər-Rovdul-Murbi" və s. İmam Nəvəvi رحمه الله bu kitabı 372 fəsilə bölmüş və bu fəsillərdə, fəslin ünvanına müvafiq hədisləri cəm etmiş, toplam 1896 hədis nəql etmişdir.

[1] Sunən ət-Tirmizi, 2/265; Silsilətul-Əhadisis-Səhihə, Albani, 2562.

# İmam Nəvəvinin رحمه الله müqəddiməsi

## Mərhəmətli və Rəhmli Allahın adı ilə!

Həmd, əl-Vahid/Tək, əl-Qahhar/hər kəsə üstün gələn, əl-Aziz/Qüdrətli və əl-Ğaffar,/günahları bağışlayan Allaha – qəlb və bəsirət sahibləri üçün xatırlatma, ağıl və düşüncə sahibləri üçün də ibrət olsun deyə gecəni gündüz ilə əvəz edən Allaha məxsusdur! O Allah ki, yaratdıqlarından bəzisini seçib, bu dünyada onlara zahid olmağı nəsib etmiş, habelə, onları öz nəfslərinə nəzarət etməklə, daim düşünməklə, öyüd-nəsihət almaqla və unutduqlarını xatırlamaqla məşğul etmiş, beləliklə də, onları Özünə itaət etməyə və əbədi qalacaqları axirət yurduna hazırlıq görməyə, üstəlik, Onun qəzəbinə səbəb olan və Cəhənnəmə aparan əməllərdən çəkinməyə, bütün bunları da, istənilən halda və şəraitdə uğurla başa çatdırmağa müvəffəq etmişdir. Mən, həmdlərin ən mükəmməli, ən təmizi, ən əhatəlisi və ən faydalısı ilə Allaha həmd edirəm!

Mən şahidlik edirəm ki, əl-Bərr/Xeyirxah, əl-Kərim/Səxavətli, ər-Rauf/Şəfqətli və ər-Rahim/Rəhmli olan Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd ﷺ Allahın qulu və rəsulu, habelə, Onun sevimlisi və əziz dostu, düz yol göstərən və doğru dinə dəvət edən bəndəsidir. Ona və digər peyğəmbərlərə, onların ailələrinə və digər əməlisaleh insanlara Allahın salavatı və salamı olsun!

Sonrasına gəlincə...

Uca Allah buyurur:

﴿ وَمَا خَلَقْتُ ٱلْجِنَّ وَٱلْإِنسَ إِلَّا لِيَعْبُدُونِ مَآ أُرِيدُ مِنْهُم مِّن رِّزْقٍ وَمَآ أُرِيدُ أَن يُطْعِمُونِ ﴾

**"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm."**[1] Bu ayə cinlərin və insanların yalnız Allaha ibadət etmək üçün yaradıldıqlarını aydın bildirir. Elə buna görə də, onlar nə üçün yaradıldıqlarına diqqət yetirməli və zahid olub dünya nemətlərinə könül bağlamamalıdırlar. Çünki dünya həyatı fanidir, əbədi yurd

---

[1] əz-Zariyat, 56-57.

deyildir. O, fərəh və sevinc diyarı yox, fəqət axirətə keçid yeridir, habelə, davamlı qərar tutulacaq yer yox, sadəcə ayrılıq çeşməsidir. Odur ki, insanların ən dərrakəliləri Allaha ibadət edənləri, ən ağıllıları da, dünyaya könül bağlamayanlarıdır. Uca Allah buyurur:

﴿إِنَّمَا مَثَلُ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا كَمَآءٍ أَنزَلۡنَٰهُ مِنَ ٱلسَّمَآءِ فَٱخۡتَلَطَ بِهِۦ نَبَاتُ ٱلۡأَرۡضِ مِمَّا يَأۡكُلُ ٱلنَّاسُ وَٱلۡأَنۡعَٰمُ حَتَّىٰٓ إِذَآ
أَخَذَتِ ٱلۡأَرۡضُ زُخۡرُفَهَا وَٱزَّيَّنَتۡ وَظَنَّ أَهۡلُهَآ أَنَّهُمۡ قَٰدِرُونَ عَلَيۡهَآ أَتَىٰهَآ أَمۡرُنَا لَيۡلًا أَوۡ نَهَارٗا فَجَعَلۡنَٰهَا
حَصِيدٗا كَأَن لَّمۡ تَغۡنَ بِٱلۡأَمۡسِۚ كَذَٰلِكَ نُفَصِّلُ ٱلۡأٓيَٰتِ لِقَوۡمٖ يَتَفَكَّرُونَ﴾

**"Dünya həyatının misalı göydən endirdiyimiz suyun misalına bənzəyir ki, onun sayəsində insanların və heyvanların yediyi yer bitkiləri bir-birinə qatışır. Nəhayət, yer öz bərbəzəyinə bürünüb rövnəqləndiyi və onun sakinləri** *onun məhsulunu yığmağa* **qadir olduqlarını güman etdikləri zaman gecə, yaxud gündüz əmrimiz yerə yetişər. Biz onu, elə bir biçilmiş sahəyə döndərərik ki, sanki dünən heç bol** *məhsulu* **olmamışdı. Biz ayələri düşünən bir qövm üçün beləcə izah edirik."**[1] Bu mənada bir çox ayələr vardır. Şair də, gözəl söyləmişdir:

Allahın elə zəkalı qulları var ki, onlar,
Dünyanı tərk edib, fitnədən çəkinərlər.
Onlar dünyaya baxıb, dərk etdilər ki,
Dünya, məxluqatçün vətən deyildir.
Beləcə, onlar onu, dəniz hesab etdilər,
Saleh əməlləri də, seyr edən gəmi qəbul etdilər.

Əgər bu dünyanın halı vəsf etdiyimiz kimi olarsa, bizim də halımız və yaradılışımızın qayəsi əvvəldə qeyd etdiyimiz kimidirsə, o halda, ibadət etməyə mükəlləf olan hər bir kəs əməlisaleh insanların yoluna yönəlməli, ağıl və bəsirət sahiblərinin yolunu tutub getməli, habelə, bizim dediyimiz işlərə hazırlıq görməli və xəbərdarlıq etdiyimiz məsələlərə də diqqət yetirməlidir. Bu deyilənləri yerinə yetirməyin ən salamat yolu və insanın tutduğu yolların ən düzü, insanların ən hörmətlisi və ən şərəflisi sayılan Muhəmməddən ﷺ rəvayət edilmiş səhih hədislərlə

---

[1] Yunus, 24.

tərbiyə edilməkdir. Ona və digər peyğəmbərlərə, Allahın salavatı və salamı olsun! Uca Allah buyurur:

﴿ وَتَعَاوَنُوا۟ عَلَى ٱلْبِرِّ وَٱلتَّقْوَىٰ ﴾

**"Yaxşılıq etməkdə və *Allahdan qorxub pis əməllərdən* çəkinməkdə bir-birinizə yardım edin."**[1]

Həmçinin, Rəsulullahdan ﷺ rəvayət edilmiş hədisdə xəbər verilir ki, o, belə buyurmuşdur: "Adam mömin qardaşının köməyində durduqca, Allah da ona kömək edər."[2]

O, həmçinin, demişdir: "Kim bir adamı yaxşı bir əməl etməyə yönəldərsə, ona, o əməli yerinə yetirən kimsənin savabı qədər savab çatar."[3]

O, həmçinin, demişdir: "Kim insanları haqq yola dəvət edərsə, ona, bu dəvəti qəbul edən kimsələrin savabı qədər savab çatar və bu, onların savabından heç bir şey əksiltməz."[4]

O, həmçinin, Əliyə رضي الله عنه demişdir: "Vallahi, əgər Allah sənin əlinlə bir nəfəri doğru yola yönəltsə, bu sənin üçün qırmızı dəvələrdən daha xeyirli olar."[5]

Bütün bunları nəzərə alaraq qərara gəldim ki, insana axirətdə uğur qazanmağın yolunu göstərən, onun batini və zahiri ədəblərini hasil edən, insanı yaxşı işlər görməyə rəğbətləndirən və onu pis əməllərdən çəkindirən, habelə, haqq yol üzərində olan kimsələrin ədəbinin başqa növlərini – zahidlik, nəfsi tərbiyə etmək, əxlaqı kamilləşdirmək, qəlbi təmizləmək və onu müalicə etmək, bədən əzalarının günahlardan qorunması və onların əyriliyinin düzəldilməsi və ümumiyyətlə, haqqı bilən adamların məqsədləri ilə əlaqəli səhih hədisləri müxtəsər şəkildə cəm edim.

Mən qarşıma məqsəd qoymuşam ki, bu hədislər toplusunu tərtib edərkən, yalnız mənası aydın olan, habelə, məşhur və mötəbər hədis

---

[1] əl-Maidə, 2.

[2] Səhih Muslim, 2699.

[3] Səhih Muslim, 1893.

[4] Səhih Muslim, 2674.

[5] Səhih əl-Buxari, 2942; Səhih Muslim, 2406.

kitablarında zikr edilmiş səhih hədisləri qeyd edim, habelə, hər bir fəsli mövzuya aid olan Quran ayəsi ilə başlayım, üstəlik, dəqiqləşdirilməsi lazım gələn kəlmələri dəqiqləşdirim, yaxud şərh edilməsi lazım gələn qəliz sözləri dəyərli qeydlərlə şərh edim.

Əgər mən hədisin sonunda: "Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir"– deyirəmsə, bu o deməkdir ki, həmin hədisi Buxari və Muslim rəvayət etmişdir.

Ümid edirəm ki, bu kitab tamamlanarsa, ona dəyər verən hər kəsi xeyirli işlərə yönəldər, üstəlik, onu günahlardan və həlakedici əməllərdən qoruyar.

Bu kitabdan faydalanacaq hər bir qardaşımdan xahiş edirəm ki, mənim üçün, mənim valideynlərim, şeyxlərim və digər əzizlərim üçün, habelə, cəmi müsəlmanlar üçün dua etsin. Mən yalnız səxavətli Allaha etimad edir, işimi yalnız ona həvalə edir və yalnız Ona söykənirəm. Allah mənə yetər, O, nə gözəl qoruyandır. Qüdrət və qüvvət yalnız Qüdrətli və Müdrik Allaha məxsusdur."

İmam Nəvəvinin sözü burada tamamlanır.

Nəvəvi müqəddiməsinin sonunda bu kitabdan faydalanacaq hər bir müsəlmandan xahiş edir ki, onun üçün, onun valideynləri, şeyxləri, digər əzizləri və cəmi müsəlmanlar üçün dua etsinlər. Odur ki, biz Allahdan istəyirik ki, Allah onun, onun valideynlərinin və cəmi müsəlmanların günahlarını bağışlasın, bizim hamımızı Peyğəmbərin ﷺ hovuzunun yanında həşr ediləcək və onlarla bərabər Cənnətə daxil olacaq kimsələrdən etsin.

Allahdan istəyimiz budur ki, bizi, bu kitabdakı hədislərin hamısını şərh etməyə müvəffəq etsin, bizim bu əməlimizi, bu kitabın əsli kimi bərəkətli və faydalı etsin. Əzəmətli Ərşin Rəbbi olan Qüdrətli Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bizləri, Özünün sevdiyi və razı qaldığı saleh əməlləri yerinə yetirməyə və haqqı deməyə müvəffəq etsin! Həqiqətən də, Allah hər şeyi Eşidəndir, duaları Qəbul Edəndir. Peyğəmbərimizə, Onun əhli-beytinə, onun səhabələrinə və onların ardıcıllarına Allahın salavatı və salamı olsun!

# Şərhçinin müqəddiməsi

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə onu azdıran tapılmaz, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱتَّقُوا۟ ٱللَّهَ حَقَّ تُقَاتِهِۦ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم مُّسْلِمُونَ﴾

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"[1]**

﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱتَّقُوا۟ رَبَّكُمُ ٱلَّذِى خَلَقَكُم مِّن نَّفْسٍ وَٰحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالًا كَثِيرًا وَنِسَآءً ۚ وَٱتَّقُوا۟ ٱللَّهَ ٱلَّذِى تَسَآءَلُونَ بِهِۦ وَٱلْأَرْحَامَ ۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا﴾

**"Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir."[2]**

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱتَّقُوا۟ ٱللَّهَ وَقُولُوا۟ قَوْلًا سَدِيدًا ﴿٧٠﴾ يُصْلِحْ لَكُمْ أَعْمَٰلَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَمَن يُطِعِ ٱللَّهَ وَرَسُولَهُۥ فَقَدْ فَازَ فَوْزًا عَظِيمًا﴾

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar."[3]**

---

[1] Ali-İmran, 102.

[2] ən-Nisa, 1.

[3] əl-Əhzab, 70-71.

Həqiqətən, ən doğru söz Allahın kitabı və ən doğru yol Muhəmmədin ﷺ yoludur. Əməllərin ən şərlisi dinə əlavə edilmiş yeniliklərdir. Hər bir yenilik bidət, hər bir bidət də zəlalətdir.

Bu, şeyx hafiz ən-Nəvəvinin yazdığı "Salehlər bağçası" adlı kitab üçün faydalı və uzun giriş xütbəsidir. Həqiqətən bu kitab çox gözəl kitabdır. Bundan öncə biz bu kitabı oxuyub onu şərh etməmişik.

Elə buna görə də qərara gəldik ki, onun şərhinə başlayaq. Allahdan istəyirik ki, bu şərhi xeyir üzərində tamamlayaq. Çünki bu kitab həm qəlbə aid, həm də bədən üzvləri ilə bağlı olan zahiri əməllərə fayda verən bir kitabdır. Odur ki, bu kitaba xüsusi diqqət yetirmək lazımdır.

*İmam Nəvəvi* رحمه الله bu kitabdan faydalananlardan, həm özü, həm valideynləri, həm də digər müsəlmanlar üçün dua etməyi istəmişdir. Biz də Allahdan istəyirik ki, onu, onun valideynlərini və digər müsəlmanları bağışlasın, bizi, onu və digər mömin qardaşlarımızı Cənnətdə bir yerə toplasın. Şübhəsiz ki, O, comərtdir, çox səxavətlidir. Həmçinin Allahdan istəyirik ki, bu kitabı tamamlamağı bizə müvəffəq etsin, onun vasitəsilə bizə fayda versin, onun müəllifini bağışlasın, İslama və müsəlmanlara etdiyi yaxşılıqların əvəzini versin. Müvəffəqiyyət Allahdandır.

**Şərhçi**

**Muhəmməd ibn Saleh əl-Useymin**

# Birinci fəsil

## İxlaslı olmaq, üstəlik, gizlində və aşkarda yerinə yetirilən hər bir əməl və deyilən hər bir söz üçün niyyət etmək

**Mövzu ilə bağlı ayələr:**

Uca Allah belə buyurur:

﴿ وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ وَيُقِيمُواْ ٱلصَّلَوٰةَ وَيُؤۡتُواْ ٱلزَّكَوٰةَۚ وَذَٰلِكَ دِينُ ٱلۡقَيِّمَةِ ﴾

**"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, hənliflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!"**[1]

﴿ لَن يَنَالَ ٱللَّهَ لُحُومُهَا وَلَا دِمَآؤُهَا وَلَٰكِن يَنَالُهُ ٱلتَّقۡوَىٰ مِنكُمۡ ﴾

**"Onların nə əti, nə də qanı, Allaha çatmaz. Ona yalnız sizin təqvanız çatar."**[2]

﴿ قُلۡ إِن تُخۡفُواْ مَا فِي صُدُورِكُمۡ أَوۡ تُبۡدُوهُ يَعۡلَمۡهُ ٱللَّهُ ﴾

**"De: "Kökslərinizdə olanı gizlətsəniz də, üzə çıxarsanız da, Allah onu bilir."**[3]

**Şərh:**

Müəllif ﷺ fəslə: "**İxlaslı olmaq, üstəlik, gizlində və aşkarda yerinə yetirilən hər bir əməl və deyilən hər bir söz üçün niyyət etmək**"- adı vermişdir:

Niyyət: Niyyətin yeri qəlbdir və heç bir əməl üçün dillə niyyət etməyin yeri yoxdur. Odur ki, kim namaz qılmaq, oruc tutmaq, həcc ziyarətini yerinə yetirmək, dəstəmaz almaq və digər əməlləri yerinə yetirmək istədikdə niyyətini dillə deyərsə, Allahın dinində olmayan bir

---

[1] əl-Bəyyinə, 5.
[2] əl-Həcc, 37.
[3] Ali-İmran, 29.

şeyi deməklə bidət etmiş olar. Çünki, Peyğəmbər ﷺ dəstəmaz aldıqda, namaz qıldıqda, sədəqə verdikdə, oruc tutduqda, həcc ziyarətini yerinə yetirdikdə, heç vaxt niyyəti dillə tələffüz etməmişdir. O heç vaxt: "Allahım, dəstəmaz almaq üçün niyyət etdim; Allahım, namaz qılmaq üçün niyyət etdim; Allahım, sədəqə vermək üçün niyyət etdim; Allahım, oruc tutmaq üçün niyyət etdim; Allahım, həcc etmək üçün niyyət etdim"– deməmişdir. Çünki niyyətin yeri qəlbdir. Allah qəlbdə olanları bilir və heç bir şey Ondan gizli qalmır.

Müəllifin bu fəsildə zikr etdiyi ayədə uca Allah buyurur: **"De: "Kökslərinizdə olanı gizlətsəniz də, üzə çıxarsanız da, Allah onu bilir."**[1]

İnsanın yerinə yetirəcəyi ibadətlərdə niyyəti sırf Allah üçün olmalı və bu ibadətləri Allahın xatirinə və Axirət yurdunu qazanmaq üçün yerinə yetirməlidir.

Uca Allahın: **"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!"**[2]– ayəsində əmr etdiyi də, elə budur. **"Dini məhz Allaha məxsus edərək"** yəni, əməli məhz Allaha məxsus edərək, mənasını verir. **"Namaz qılmaq və zəkat vermək"** yəni, bütün ibadətlərdə niyyətdə ixlaslı olmaq gərəkdir.

Məsələn, dəstəmaz alarkən, həm Allah üçün, həm də Allahın əmrini yerinə yetirmək üçün dəstəmaz aldığını niyyət etməlidir.

Demək, hər bir ibadətdə üç şeyə niyyət edilməlidir:

1. O ibadəti yerinə yetirməyə;
2. Onu Allah üçün etməyə;
3. Allahın əmrini yerinə yetirmək üçün etməyə.

Niyyətin ən kamil olanı da, elə budur. Həmçinin, namazda da: əvvəlcə namazın zöhr, əsr, məğrib, işa, fəcr və ya başqa bir namaz olduğuna niyyət edir. İkinci, namazı başqası üçün deyil, məhz Allah üçün qılacağına niyyət edir. Yəni, namazı özünü göstərmək və ya şan-şöhrət qazanmaq üçün, yaxud onu tərifləsinlər, ya da dünya malı əldə etsin

---

[1] Ali-İmran, 29.

[2] əl-Bəyyinə, 5.

deyə qılmamalıdır. Üçüncü, namazı Rəbbinin əmrini yerinə yetirmək üçün qılacağını niyyət etməldir. Bu xüsusda uca Allah belə buyurur: **"Namaz qıl."** [1] **"*Düşmənin hücum etməyəcəyindən* arxayın olduqda isə, namazı *lazımi qaydada* qılın."** [2] **"Namaz qılın, zəkat verin."** [3] Bu qəbildən ayələr çoxdur.

Müəllif bir çox ayələr zikr etmişdir ki, bunların hamısı niyyətin yerinin qəlb olmasına və Allahın bəndənin niyyətindən xəbərdar olmasına dəlalət edir. Adam bəzən, etdiyi əməli zahirdə insanlara saleh əməl kimi göstərir, lakin niyyəti bərbad olduğuna görə, əməli də bərbad olur. Çünki uca Allah qəlbdə olanları bilir. Qiyamət günü insan yalnız qəlbində olanlara görə haqq-hesaba çəkiləcəkdir. Bu xüsusda uca Allah buyurur: **"Şübhəsiz ki, *Allah* onu *dirildib* qaytarmağa qadirdir. Sirlərin yoxlanılacağı gün, onun nə bir qüvvəsi, nə də bir köməkçisi olar."** [4] Yəni, qəlblərin yoxlanılacağı gün. Başqa bir ayədə belə buyurur: **"Məgər o bilmir ki, qəbirlərdə olanlar çıxardılacağı və kökslərdə olanlar aşkar ediləcəyi zaman."**[5] Axirətdə, mükafatlandırma və cəzalandırma, əməl və münasibət qəlbdə olanlara görə olacaqdır.

Dünyada isə zahirdə görünənə etimad edilir və insanlarla zahiri hallarına görə rəftar edilir. Lakin bu zahiri əməllər batində olana müvafiq olarsa, onda adamın həm zahiri, həm də batini, həm gizlin əməlləri, həm də aşkar əməlləri islah olar. Yox, əgər zahiri əməllər batində olana müxalif olar və qəlb pis niyyətə qapanmış olarsa, onda bu ən böyük xəsarət olar. Belə ki, adam çalışır, yorulur, lakin etdiyi əmələ görə onun heç bir payı olmur. Bu xüsusda varid olmuş səhih hədisdə Peyğəmbər ﷺ demişdir: "Uca Allah buyurur: "Mən şərikliyə möhtac olmayanların ən alisiyəm. Kim etdiyi bir əməldə Məndən qeyrisini mənə şərik qoşarsa, onu öz şirki ilə birlikdə baş-başa buraxaram."[6]

---

[1] əl-İsra, 78.
[2] ən-Nisa, 103.
[3] əl-Bəqərə, 43.
[4] ət-Tariq, 8-10.
[5] əl-Adiyat, 9-10.
[6] Səhih Muslim, 2985.

Qardaşlarım, Allah xatirinə, niyyətləri sırf uca və nöqsansız Allah üçün edin!

Bil ki, bəzən xeyir əməl etmək istədikdə, şeytan sənin yanına gəlib: "Sən bu əməli özünü göstərmək üçün edirsən"– deyərək sənin iradəni qırmağa və səni həvəsdən salmağa çalışır. Lakin sən buna fikir vermə və şeytana uyma. Hətta sənə: "Sən bu əməli özünü göstərmək və şan-şöhrət qazanmaq üçün edirsən"– desə belə, niyyət etdiyini əməli yerinə yetir. Çünki, səndən: "İndi, bu əməli özünü göstərmək və şan-şöhrət qazanmaq üçün edirsən?"- deyə soruşsalar, sən "Xeyr!"– deyə cavab verərsən! Bil ki, bu, şeytanın sənin qəlbinə saldığı bir vəsvəsədir, sən ona fikir vermə, işinə davam et və: "Mən riyakarlıq edirəm" və ya buna bənzər sözlər demə.

**Mövzu ilə bağlı hədislər:**

١ - وعَنْ أَميرِ الْمُؤْمِنِينَ أبي حفْصٍ عُمرَ بنِ الْخَطَّابِ بْن نُفَيْل بْنِ عَبْد الْعُزَّى بن رياح بْن عبدِ اللَّهِ بْن قُرْطِ بْنِ رزاح بْنِ عَدِيِّ بْن كَعْبِ بْن لُؤَيِّ بن غالبِ الْقُرَشِيِّ العدويِّ ﷺ، قال: سمعْتُ رسُولَ الله ﷺ يقُولُ «إنَّما الأَعمالُ بالنِّيَّات، وإِنَّمَا لِكُلِّ امرئٍ مَا نَوَى، فمنْ كانَتْ هجْرَتُهُ إِلَى الله ورَسُولِهِ فهجرتُه إلى الله ورسُولِهِ، ومنْ كَانْت هجْرَتُه لدُنْيَا يُصيبُها، أَو امرَأَةٍ يَنْكحُها فهْجْرَتُهُ إلى ما هَاجَر إليْهِ» متَّفَقٌ على صحَّتِه. رواهُ إِماما المُحَدِّثِين: أَبُو عَبْدِ الله مُحَمَّدُ بنُ إِسْمَاعيل بْن إِبْراهيمَ بْن المُغيرة بْن برْدزْبَهْ الْجُعْفِيُّ الْبُخَارِيُّ، وَأَبُو الحُسَيْنِ مُسْلمُ بْن الْحَجَّاجِ بن مُسلمٍ القُشَيْريُّ النَّيْسَابُوريُّ ﷺ في صَحيحيهما اللَّذَيْنِ هما أَصَحُّ الْكُتُبِ المُصَنَّفَة.

**1.** Rəvayət edilir ki, möminlərin əmiri, Əbu Həfs Ömər ibn əl-Xattab ibn Nufeyl ibn Abduluzzə ibn Riyah ibn Abdullah ibn Qurt ibn Razah ibn Adiy ibn Kəb ibn Lueyy ibn Ğalib əl-Quraşi əl-Adəvi ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Əməllər ancaq niyyətlərə görədir və hər kəsə yalnız niyyət etdiyi şey qalacaq. Kimin hicrəti Allah və Onun Rəsulu ﷺ üçündürsə, onun hicrəti, Allaha və Onun Rəsuluna ﷺ aiddir. Kimin də hicrəti, əldə edəcəyi dünya *malına* və ya ev-

lənəcəyi qadına görədirsə, onun hicrəti, xatirinə hicrət etdiyi şeyə aiddir."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir. Bu hədisi mühəddislərin iki imamı - Əbu Abdullah Muhəmməd ibn İsmail ibn İbrahim ibn əl-Muğira ibn Bərdizbə əl-Cufi əl-Buxari və Əbul-Huseyn Muslim ibn əl-Həccac ibn Muslim əl-Quşeyri ən-Nisaburi رحمهما الله öz "Səhih"lərində rəvayət etmişlər.[1] O iki səhih kitab ki, Allahın kitabından sonra ən səhih kitablar sayılır.

**Şərh:**

Bu fəsil ixlasla, niyyətin xalis Allah üçün olunması və hər bir əməldə, deyilən hər bir sözdə, hər bir halda niyyətin sırf Allah üçün edilməsi ilə bağlı olduğu üçün müəllif bu mənada bir çox ayələr və hədislər zikr etmişdir. Müəllif bu fəsli Ömər ibn əl-Xattabın رضي الله عنه rəvayət etdiyi hədislə başlamışdır. Ömər رضي الله عنه demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Əməllər ancaq niyyətlərə görədir və hər kəsə yalnız niyyət etdiyi şey qalacaq."**

Bu iki cümlə barədə alimlər ixtilaf etmişlər:

Bəzi alimlər: "Bu iki cümlə eyni mənanı ifadə edir və ikinci cümlə birincinin təsdiqidir"– demişlər. Lakin bu doğru deyil. Çünki, cümlələrin əsli təsdiq deyil, təsis formasında olur. Həmçinin, dərindən düşünəndə bu iki cümlə arasında böyük fərq olduğu aydın olur. Odur ki, birinci cümlə səbəbi, ikinci cümlə isə nəticəni bildirir.

Birinci cümlə: səbəbdir, Peyğəmbər ﷺ həmin cümlədə hər bir əməl üçün mütləq bir niyyətin olduğunu bəyan edir. Deməli, ağlı başında olan və seçim ixtiyarı olan insanın etdiyi hər bir əməl üçün bir niyyətin olması labüddür. Yəni, ağlı başında, və seçim ixtiyarı olan adamın hər hansı bir əməli niyyətsiz etməsi mümkün deyil. Hətta bəzi alimlər belə demişlər: "Əgər Allah bizi niyyətsiz bir əməllə mükəlləf etmiş olsaydı, bu, gücümüzün çatmadığı bir əməl olardı!" Bu doğrudur, necə ola bilər ki, sən ağlın başında olduğu halda və məcbur olunmadan, öz ixtiyarınla niyyətsiz əməl edəsən. Bu mümkün olan bir şey deyil. Çünki əməl iradənin və qüdrətin nəticəsidir. İradə də öz növbəsində elə niyyətdir.

[1] Səhih əl-Buxari, 1; Səhih Muslim, 1907.

Demək, birinci cümlənin mənası budur ki, əməl edən elə bir insan yoxdur ki, onun niyyəti olmasın. Lakin, *onu da bilməliyik ki,* niyyətlər arasında böyük fərq olur, hətta bu fərq göylə yerin arası qədər böyük olur.

İnsanlardan bəzisinin niyyəti ən yüksək şeydə olur, bəzisinin də niyyəti ən alçaq şeydə olur. Hətta eyni bir əməlin iki nəfər tərəfindən, əvvəlində, ortasında və sonunda, hərəkətlərində və duruşlarında, sözlərində və əməllərində bir-birinə uyğun şəkildə yerinə yetirildiyini görürsən, amma *nəticə olaraq* onlar arasında göylə yer arasında fərq olur. Bunun hamısı niyyətlərin müxtəlif olmasına görədir.

Demək, əsas budur ki, niyyətsiz əməl yoxdur və bu niyyətlər fərqli və müxtəlif olur. Nəticə olaraq da Peyğəmbər ﷺ demişdir: **"Hər kəsə yalnız niyyət etdiyi şey qalacaq."** Belə ki, adama yalnız niyyət etdiyi qalır. Əgər adam şəri əməllərdə Allahın rizasını və Axirət yurdunu qazanmağı niyyət edərsə, ona nail olar, yox, dünyanı niyyət edərsə, ona nail ola da bilər, olmaya da bilər. Uca Allah buyurur: **"Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik."**[1] Uca Allah bu ayədə, "ona istədiyi şeyləri verərik" demir, əksinə **"istədiyimiz şeyləri"** deyir, həmçinin, "hər bir istəyənə" demir, **"dilədiyimiz kimsəyə"** deyir. Demək Allah hər bir şeyi Öz istəyinə bağlamışdır. Odur ki, insanlardan eləsi olur ki, ona dünyadan istədiyi hər bir şey verilir, eləsi olur istədiyinin bir qismi verilir, eləsi də olur ki, ona heç bir şey verilmir.

Lakin Axirəti istəyən barəsində uca Allah belə buyurur: **"Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar."**[2] Yəni, etdiyi əməlin müqabilində Allahın üzünü və Axirət yurdunu istəyənin mükafatı mütləq verilər. Demək, **"Hər kəsə yalnız niyyət etdiyi şey qalacaq."**

Peyğəmbərin ﷺ: **"Əməllər ancaq niyyətlərə görədir"** sözü və bundan sonrakı söz hər bir əməli *ölçmək üçün* bir tərəzidir. Lakin bu tərəzi batində olanı ölçmək üçündür. Buxari və Muslimin *istinad edərək* Aişədən رضي الله عنها rəvayət etdikləri hədisdə, Peyğəmbərin ﷺ: "Hər kim dinimizə

---

[1] əl-İsra, 18.
[2] əl-İsra, 19.

aid olmayan bir əməli edərsə, bu əməl rədd edilər"[1] sözü isə zahiri əməlləri ölçmək üçün tərəzidir. Elə buna görə də elm əhli: "Bu iki hədis, bütün dini özündə cəm edir"– demişlər. Yəni, Ömərin ﷺ rəvayət etdiyi: "Əməllər ancaq niyyətlərə görədir" hədisi batini əməlləri ölçmək üçün tərəzidir, Aişənin ﷺ rəvayət etdiyi: "Hər kim dinimizə aid olmayan bir əməli ona əlavə edərsə, bu əməl rədd edilər" hədisi isə zahiri əməlləri ölçmək üçün tərəzidir.

Sonra Peyğəmbər ﷺ bu hədisi tətbiq edərək bir məsəl çəkib deyir: **"Kimin hicrəti Allah və Onun Rəsulu ﷺ üçündürsə, onun hicrəti, Allaha və Onun Rəsuluna ﷺ aiddir. Kimin də hicrəti, əldə edəcəyi dünya *malına* və ya evlənəcəyi qadına görədirsə, onun hicrəti, xatirinə hicrət etdiyi şeyə aiddir."**

Hicrət: İnsanın küfr diyarından İslam diyarına köçməsidir. Məsələn, bir adam küfr diyarı olan Amerikada yaşayır, orada öz dinini aşkara çıxara bilmir və bu səbəbdən də, oradan İslam diyarına köçür. Buna hicrət deyilir.

İnsanlar hicrət xüsusunda fərqli olurlar:

Birinci: Onlardan eləsi var ki, hicrət etdikdə öz ölkəsini Allah və Onun rəsulu ﷺ üçün tərk edir. Yəni, Allahın, Öz peyğəmbərinin ﷺ dili ilə qanuniləşdirdiyi şəriətini yaşamaq üçün. Məhz belələri, xeyir qazanır və məqsədlərinə çatırlar. Ona görə də Peyğəmbər ﷺ: **"Onun hicrəti, Allaha və Onun Rəsuluna ﷺ aiddir"–** demişdir. Yəni, adam niyyət etdiyinə nail olar.

İkinci: İnsanlardan eləsi də var ki, onun hicrəti, əldə edəcəyi dünya *malına* görə olur. Yəni, bir adam dünya malı yığmağı xoşlayır və eşidir ki, filan İslam diyarında çoxlu mal qazanmaq əlverişli mühit vardır. Odur ki, küfr diyarından İslam diyarına, dinini möhkəmləndirmək məqsədi ilə yox, yalnız mal-dövlət xatirinə hicrət edir. Beləsi, dininə etinasız yanaşar və onun fikri-zikri yalnız dünya malı olar.

Üçüncü: Adam evlənmək istədiyi bir qadına görə, küfr diyarından İslam diyarına hicrət edir. Belə ki ona: "Qızımızı sənə yalnız İslam diyarında olsan verəcəyik və sən onu küfr diyarına apara bilməzsən"– deyilir. O da buna görə yaşadığı küfr diyarından, İslam diyarına hicrət edir.

---

[1] Səhih əl-Buxari, 2697; Səhih Muslim, 1718.

Niyyəti də, yalnız həmin qadınla evlənmək olur. Dünya və qadın xatirinə hicrət edən adam, Allah və Onun rəsulu ﷺ üçün hicrət etmiş sayılmır. Elə buna görə də Peyğəmbər ﷺ: **"Onun hicrəti, xatirinə hicrət etdiyi şeyə aiddir"**– demişdir. Peyğəmbər ﷺ burada: "Onun hicrəti, əldə edəcəyi dünya *malına* və ya evlənəcəyi qadına aiddir"– deməmişdir, sadəcə: **"xatirinə hicrət etdiyi şeyə aiddir"**– demişdir. Nə üçün belə qısa şəkildə demişdir!?

Bəziləri deyir ki, "cümlə uzun olmasın"- deyə belə demişdir. Çünki, Peyğəmbər ﷺ: "onun hicrəti əldə edəcəyi dünya *malına* və ya evlənəcəyi qadına aiddir"- demiş olsaydı cümlə uzun olardı. Odur ki, **"onun hicrəti, xatirinə hicrət etdiyi şeyə aiddir"**- demişdir.

Bəziləri də deyir ki, Peyğəmbər ﷺ dünya malına və qadına saygısızlıq olsun və onlardan üz döndərilsin deyə ikinci dəfə onları zikr etməmişdir. Çünki bunların hər ikisi, yəni dünya və qadın dəyərsizdir. Ən fəzilətli əməllərdən sayılan hicrətdə niyyət, dünya və qadın əldə etmək üçün olarsa, bu ən alçaq və ən rəzil niyyət sayılar. Bunlar dəyərsiz sayılsın deyə, Peyğəmbər ﷺ onların adını çəkmədən: **"onun hicrəti, xatirinə hicrət etdiyi şeyə aiddir"**- demişdir. Çünki bu cür niyyət pis və alçaq niyyətdir.

İstər birinci rəy, istər ikinci, istər də hər ikisi birlikdə olsun, hər bir halda dünya malı və ya evlənəcəyi qadın məqsədi ilə hicrət edən adamın niyyəti, Allah və Onun rəsulu ﷺ üçün hicrət edən adamın niyyətindən fərqli olaraq, əlbəttə ki, çox alçaq, rəzil və dəyərsiz bir niyyət hesab edilir.

Hicrət aşağıdakı qisimlərə bölünür:

Hicrət, ya məkana, ya əməli edənə, ya da əmələ aid olur.

**Birinci qisim:** Məkanı tərk etməkdir: Bu, insanın asiliklərin və günahların çoxaldığı bir məkandan köçməsidir. Ola da bilər ki, bu hicrət bir küfr diyarından, asiliklərin və günahların olmadığı digər bir küfr diyarına olsun.

Ən əzəmətli hicrət, küfr diyarından İslam diyarına köçməkdir. Əgər adam küfr diyarında dinini yaşaya bilmirsə, onda alimlər həmin küfr diyarından İslam diyarına hicrət etməyi vacib görmüşlər. Əgər adam küfr diyarında dinini yaşaya bilirsə və İslamın şüarlarını yerinə yetir-

dikdə ona mane olmurlarsa, o zaman ona hicrət etmək vacib deyil, əksinə, müstəhəbdir. Buna əsasən adamın yaşadığı küfr diyarında qalması, digər küfr diyarına köçməsindən daha münasibdir. Əgər adamın yaşadığı küfr diyarı onun vətənidirsə və orada dinini yaşaya bilmirsə, onda onun həmin yerdən çıxıb getməsi, hicrət etməsi ona vacibdir.

Həmçinin, adam İslam əhlindəndirsə və müsəlman ölkəsində yaşayırsa, onda onun küfr diyarına səfər etməsi caiz deyil. Çünki, bu səfər onun dininə və əxlaqına xətər toxundura bilər, adam malını əbəs yerə xərcləmiş olar, kafirlərin iqtisadiyyatını gücləndirmiş olar. Halbuki bizə bacardığımız qədər kafirlərlə sərt davranmaq əmr olunmuşdur. Bu xüsusda uca Allah buyurur: **"Ey iman gətirənlər! Yaxınlığınızdakı kafirlərlə vuruşun. Qoy onlar sizdə sərtlik görsünlər. Bilin ki, Allah müttəqilərlədir."**[1] Həmçinin buyurur: **"Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz."**[2]

Kafir, istər nəsrani, istər yəhudi, istər də ateist olsun, istər İslama mənsub olsun, istər də olmasın, kim olursa olsun fərqi yoxdur, o Allahın, Onun kitabının, Rəsulunun ﷺ və bütün möminlərin düşmənidir. O özünü necə göstərirsə göstərsin, yenə də düşmən sayılır.

Odur ki, adam küfr ölkəsinə yalnız üç şərtlə səfər edə bilər:

Birinci şərt: Səfər edən adamda kafirlərin şübhələrini dəf edə biləcək elm olmalıdır. Çünki kafirlər müsəlmanlara dinləri, peyğəmbərləri, kitabları, əxlaqları xüsusunda və ümumiyyətlə, hər bir şeydə şübhələr salırlar. Onlar belə edirlər ki, adam şəkk və tərəddüd içində qalsın. Məlum məsələdir ki, əgər adam, yəqinliyin vacib olduğu məsələlərdə şübhə edərsə, vacib olanı yerinə yetirmiş sayılmır. Belə ki, Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə, Axirət gününə, qədərə - onun xeyrinin və şərinin Allahdan olmasına yəqinliklə iman gətirmək vacibdir. Əgər adam bunlardan birində şəkk edərsə o kafir sayılar.

---

[1] ət-Tovbə, 123.
[2] ət-Tovbə, 120.

Deməkİ, kafirlər müsəlmanlara şübhə salırlar, hətta onların başçılarından bəziləri bunu öz dilləri ilə etiraf edib demişlər: "Müsəlmanları öz dinlərindən çıxardıb xristianların dininə salmağa cəhd etməyin. Onlara dinləri xüsusunda şübhə salmağınız kifayət edər. Çünki siz onlara dinləri xüsusunda şübhə salsanız, onları dinlərindən ayıracaqsınız. Bu da bizə yetər. Odur ki, siz onları içində zəfər, izzət və hörmət olan cənnətdən çıxarın, bu bəsdir. Lakin onları zəlalət və səfehlik üzərində qurulan xristian dininə salmağa cəhd etsəniz, bu mümkün olmayacaq. Çünki, nəsranilər yollarını azmışlar. Bu xüsusda Peyğəmbərdən ﷺ hədis də varid olmuşdur.[1] Məsih İsanın ﷺ dini haqq olsa da, o, öz zamanında, yəni, Muhəmməd peyğəmbərin ﷺ risaləti onu nəsx etməmişdən öncə haqq idi. İndi isə doğru yol və haqq, Peyğəmbərin ﷺ gətirdiyindədir."

İkinci şərt: Səfər edən adam, onu şübhələrdən qoruya biləcək qədər dindar olmalıdır. Çünki insan dini vasitəsilə şübhələri özündən dəf edə bilir. Dinində zəif olan adam isə kafir ölkəsinə getdikdə, orada batıb qalır. Çünki, dünyanın bərbəzəyi, şəhvani istəklər, şərab, zina və hər növ günah işlər oradadır. Əgər adam həmin ölkələrə gedərsə, qorxuruq ki, o bu çirkabın içində batsın. Adam yalnız özünü qoruya biləcək dini olduğu təqdirdə belə yerlərə gedə bilər. Deməkİ, adamda, onu şübhələrdən qoruyacaq dininin olması vacibdir.

Üçüncü şərt: Adam kafir ölkəsinə getməyə möhtac olduğu təqdirdə gedə bilər. Məsələn, adam xəstədir və müalicə almaq üçün kafir ölkələrinə səfər etməyə ehtiyacı var. Yaxud, elə bir elmə ehtiyacı vardır ki, həmin ixtisas üzrə İslam ölkələrində elm yoxdur və o kafir ölkəsinə gedib orada elm almalıdır. Ya da, adam kafir ölkəsi ilə ticarət etməyə möhtacdır. Bu halda ora gedib ticarəti edir, sonra da geri dönür. Deməkİ, adamın ora getməsi üçün mütləq zərurət olmalıdır. Elə bu səbəbdən də, mən, kafir ölkələrinə səyahət üçün gedənlərin günah qazandıqlarını güman edirəm və elə düşünürəm ki, onların bu səfər üçün xərclə-

---

[1] Sunən ət-Tirmizi, 2953, 2954. Tirmizinin rəvayətində belə deyilir: **"Yəhudilər qəzəbə düçar olanlar, nəsranilər isə yollarını azanlardır."** Tirmizi hədisin "həsən ğarib" olduğunu demişdir. İmam Əhmədin rəvayət etdiyi (4/378) hədisdə isə belə deyilir: **"Qəzəbə düçar olanlar yəhudilər, yollarını azanlar isə nəsranilərdir."**

dikləri hər bir qəpik onlara haramdır, onlar mallarını zay etmiş olurlar və Qiyamət günü buna görə hesaba çəkiləcəklər. Məgər istirahət etmək və ya dincəlmək üçün başqa yer tapa bilmirlər? Məgər bundan başqa məşğuliyyət bilmirlər? Axı onlar, həm vaxtlarını puç edirlər, həm mallarını zay edirlər, həm də əxlaqlarını pozurlar. Ən acınacaqlısı da budur ki, ailələri də onlarla bərabər olur və onlar azan səsi eşidilməyən, Allah zikr olunmayan, əksinə, yəhudi şeypurlarının və xristian zınqırovlarının səsi gələn kafir ölkələrinə gedirlər. Sonra özləri, həyat yoldaşları, oğlanları və qızları uzun müddət orada qalır və beləliklə də, çoxlu şər işlər görürlər. Allahdan əfv və salamatlıq diləyirik. Bu da, Allahın bizə göndərdiyi fəlakətlərə səbəb olan bir sınaqdır. Başımıza gələn və hal-hazırda yaşadığımız bu fəlakətlərin hamısı asiliklərin və günahların ucbatındandır. Bu xüsusda uca Allah buyurur: **"Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız *günahlar* üzündəndir. *Allah günahların* çoxunu bağışlayır."**[1]

Həqiqətən biz qəflət içindəyik. Biz öz ölkəmizdə əmin-amanlıq içindəyik. Bu günahları edənlər elə düşünürlər ki, sanki Rəbbimiz bizdən xəbərsizdir, sanki heç nə bilmir, sanki zalımları əzabla yaxalayanda qaçıb aradan çıxmaları üçün onlara möhlət vermişdir. İnsanlar hal-hazırda bu hadisələri yaşayırlar, lakin onların qəlbləri artıq sərtləşib. Allaha sığınırıq. Uca Allah buyurur: **"Biz onları əzabla yaxaladıq, onlar yenə öz Rəbbinə boyun əymədilər, *Ona* yalvarıb-yaxarmadılar."[2]** Yəni, biz onları əzabla yaxaladıq, onlara əzab gəldi, amma bununla yanaşı yenə də, onlar Allaha boyun əymədilər, dua edib Ona yalvarıb-yaxarmadılar, Onun qüdrətindən qorxmadılar, lakin – Allah qorusun – onların qəlbləri sərtləşdi və öldü. Hətta iş o yerə gəlib çatdı ki, ağır hadisələr belə qəlbə təsir etmədi, sanki qəlb buz parçasıdır. Qəlbin ölməsindən və sərtləşməsindən Allaha sığınırıq. Əgər insnların ağıl və düşüncələri, habelə, diri qəlbləri olsaydı, hal-hazırda düşdüyümüz bu həddə gəlib çatmazdılar. Hal-hazırda biz, dağıdıcı, həlakedici müharibə vəziyyətində, əsəblərə təsir edən kimyəvi qazlarla edilən müharibələrin yayıldığı

---

[1] əş-Şura, 30.

[2] əl-Muminun, 76.

bir vaxtda yaşayırıq. Amma bunula yanaşı, Allahın istədiyi kimsədən başqa, kimsənin yerindən tərpəndiyini görmürük. Şübhəsiz ki, bu xətadır. Elə insanlar var ki, bu ağır vəziyyətdə belə ailələrini götürüb ədəb-əxlaq olmayan, günahların yayıldığı kafir ölkələrində gəzintilərə çıxırlar. Allaha sığınırıq!

Allahın dininə dəvət məqsədi ilə kafir ölkələrinə getmək caizdir. Əgər adamın getməyinin ordakılara təsiri olacaqsa, o halda caizdir. Çünki bu, insanların faydası üçün olan səfərdir. Belə ki, küfr ölkələrində avam camaat həddən artıq çoxdur, İslam dini onlara gizli qalmışdır və İslamdan heç bir anlayışları yoxdur. Hətta onları aldadıb, İslam barəsində: "Bu, vəhşilərin, yırtıcıların və avamların dinidir"- demişlər. Xüsusən də, müsəlman kimi qələmə verdikləri insanlar tərəfindən törədilən bu hadisələri qərb ölkələri eşitdikdə: "İslam budurmu?! Bu ki vəhşilikdir!! Vəhşi heyvanlar kimi bir-birilərinə təcavüz edirlər, bir-birilərini yeyirlər"- deyirlər. Odur ki, müsəlmanların bu hərəkətlərinə görə insanlar İslam dinindən qaçırlar. Allahdan diləyirik ki, hamımızı doğru yoluna yönəltsin.

**<u>İkinci qisim:</u>** Əməli tərk etməkdir: Bu, insanın Allahın qadağan etdiyi günahları və asilikləri tərk etməsidir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməsin; mühacir də o kəsdir ki, Allahın qadağan etdiyi şeyləri tərk etsin."[1] Yəni, Allahın haram buyurduğu hər bir şeyi tərk edirsən. Bu haramlar istər Allahın haqqları ilə bağlı olsun, istər də insanların haqqları ilə, bunun heç bir fərqi yoxdur. Odur ki, söyüşü, haqsız yerə adam öldürməyi, kələk gəlməyi, başqasının malını haqsızcasına yeməyi, valideynlərin üzünə ağ olmağı, qohumlarla əlaqəni kəsməyi, Allahın haram buyurduğu hər bir şeyi tərk edirsən. Və əgər nəfsin səni bu haramlara sürükləsə və səni buna təhrik etsə yadına sal ki, Allah bunları haram buyurmuşdur, sonra onları tərk et və onlardan uzaqlaş.

**<u>Üçüncü qisim:</u>** Əməli edəni tərk etməkdir: Hərdən haram iş görən kimsəni tərk etmək vacib olur. Elm əhli demişdir: "Günah edən insan

---

[1] Səhih əl-Buxari, 10; Səhih Muslim, 41.

tərk edilməlidir. O insan ki, günahlara əhəmiyyət vermir." Əgər onun tərk edilməsində fayda və xeyir olacaqsa, onda günah edən adamı tərk etmək şəriətə uyğundur. Burada fayda və xeyir dedikdə, tərk olunan insanın öz dəyərini bilməsi və günahdan əl çəkməsi nəzərdə tutulur. Məsələn, bir adam alqı-satqıda kələk gəlmək üzrə tanınmış adamdır. Belə olduqda insanlar bu adamı tərk edirlər. Adam tərk olunduqdan sonra bu əməlinə görə peşman olur, tövbə edir və haqqa qayıdır. Bir başqası da sələmçiliklə məşğul olur. İnsanlar bu adamı da tərk edir, ona salam vermir və onu danışdırmırlar. Adam bunu bildikdə xəcalət çəkir və doğru yola qayıdır. Üçüncü birisi də, – ən betəri də elə budur – namaz qılmır. Bu adam mürtəd və kafir sayılır. Bu adamı tərk etmək vacibdir. Belə olduğu təqdirdə, onun salamına cavab verilmir, ona salam verilmir və o, səhv etdiyini başa düşüb Allaha və İslam dininə qayıdanadək onun çağırışına da cavab verilmir.

Əgər belə tərk edilmə adama xeyir və fayda verməyəcəksə və bu tərk etmək küfrə deyil, məhz günaha görədirsə, onda onu tərk etmək halal sayılmır. Küfr etməyə gəlincə, əgər tərk etmə ona görədirsə, onda faydası olsa da, olmasa da həmin adam tərk edilməlidir. Çünki kafir və mürtəd hər bir halda tərk olunur. Küfrdən aşağı dərəcədə olan günahları edən adamın tərk olunmasında fayda yoxdursa, onda onu tərk etmək halal sayılmır. Çünki Peyğəmbər ﷺ demişdir: "Heç bir müsəlmana üç gündən artıq qardaşı ilə küsülü qalması halal olmaz. Qarşı-qarşıya gəldikdə bu *ondan* üz çevirir, o da *bundan* üz çevirir. Onların ən xeyirlisi salamı birinci verib *sözə* başlayanıdır."[1]

Məlumdur ki, Əhlu-Sünnə vəl-Camaəyə görə, küfrdən aşağı dərəcədə olan günahlar insanı imandan çıxarmır. Bundan sonra tərk etmənin həmin adama fayda verib verməməsinə baxılır. Əgər tərk etmək adama fayda verəcək və onun bu günahdan əl çəkməsinə səbəb olacaqsa, onda bu adam tərk edilməlidir. Təbuk döyüşündən yayınan Kəb ibn Malik, Hilal ibn Umeyyə və Murara ibn Rəbinin رضي الله عنهم əhvalatı buna dəlildir.[2] O zaman Peyğəmbər ﷺ onları həm özü tərk etmiş, həm də müsəlman-

---

1 Səhih əl-Buxari, 6077; Səhih Muslim, 2560.

2 Səhih əl-Buxari, 4418; Səhih Muslim, 2769.

lara onları tərk etməyi əmr etmişdir. Lakin onlar bu tərk edilmədən böyük fayda götürmüş və Allaha üz tutmuşlar. Yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişlər ki, Allahın əzabından, ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allaha tövbə etmişlər və Allah da onların tövbəsini qəbul etmişdir.

Demək hicrətin növləri bunlardır: məkanın tərk olunması, əməlin tərk olunması, əməli edən adamın tərk olunması.

٢ - وَعَنْ أُمِّ الْمُؤْمِنِينَ أُمِّ عَبْدِ اللَّهِ عَائِشَةَ رضي الله عنها قالت: قال رسول الله ﷺ: «يَغْزُو جَيْشٌ الْكَعْبَةَ فَإِذَا كَانُوا بِبَيْدَاءَ مِنَ الأَرْضِ يُخْسَفُ بأَوَّلِهِم وَآخِرِهِمْ». قَالَتْ: قُلْتُ يَا رَسُولَ اللَّهِ، كَيْفَ يُخْسَفُ بَأَوَّلِهِم وَآخِرِهِمْ وَفِيهِمْ أَسْوَاقُهُمْ وَمَنْ لَيْسَ مِنْهُمْ،؟ قَالَ: «يُخْسَفُ بِأَوَّلِهِم وَآخِرِهِمْ، ثُمَّ يُبْعَثُونَ عَلَى نِيَّاتِهِمْ» مُتَّفَقٌ عَلَيْهِ: هذا لَفْظُ الْبُخَارِيِّ.

**2.** Möminlərin anası Ummu Abdullah Aişə رضي الله عنها rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "*Vaxt gələcək* bir ordu Kəbəyə doğru yürüş edəcək. Nəhayət, "Beydə" deyilən yerə gəlib çatdıqda, onların əvvəlincisindən axırıncısınadək *hamısı* yerin dibinə girəcək." Aişə deyir ki, mən soruşdum: "Ya Rəsulullah, necə ola bilər ki, onların əvvəlincisindən axırıncısınadək yerin dibinə girsin?! Axı onların arasında *alış-veriş üçün gəlmiş* bazar əhli və onlardan olmayan kimsələr də olacaq." Rəsulullah ﷺ dedi: "Onların əvvəlincisindən axırıncısınadək *hamısı* yerin dibinə girəcək, sonra da niyyətlərinə uyğun tərzdə diriləcəklər."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir,[1] lakin bu, Buxarinin rəvayət etdiyi mətndir.

**Şərh:**

Müəllifin zikr etdiyi bu hədisdə, Aişə رضي الله عنها Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: ***"Vaxt gələcək* bir ordu Kəbəyə doğru yürüş edəcək."** Yəni, şərəfli Kəbəyə doğru. Allah oranı hər bir şərdən qorusun və xilas etsin! Kəbə, Allahın evidir və onu İbrahim peyğəmbər عليه السلام

---

[1] Səhih əl-Buxari, 2118; Səhih Muslim, 2884.

öz oğlu İsmail peyğəmbərlə ﷺ birlikdə bina etmişlər. Onlar Kəbənin bünövrəsini qaldırarkən *dua edib* belə demişdilər: **"Ey Rəbbimiz! *Bu əməli* bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən!"** [1]

Bu evə Əbrəhə adlı bir nəfər Yəməndən böyük bir ordu ilə yürüş etmişdir. Ordunun başında nəhəng bir fil var idi. Əbrəhə bu fillə Kəbəni – Allahın evini – dağıtmaq istəyirdi. Lakin *onun qoşunu* Kəbəyə yaxınlaşıb Muğəmməs adlanan yerə çatdıqda, *qoşunun başında duran* fil tərslik edir və irəli getmək istəmir. Onlar səs-küy salıb fili nə qədər Kəbəyə yaxınlaşdırmaq istəsələr də, fil yerindən tərpənmir, üzünü yəmənə tərəf çevirdikdə isə sürətlə hərəkət etməyə başlayırdı.

*Rəvayət edilir ki,* Hudeybiyyə döyüşündə Peyğəmbərin ﷺ dəvəsi nərə çəkib inadkarlıq etdi və yerindən tərpənmədi. Səhabələr: "Qəsva[2] tərslik edir, Qəsva tərslik edir"– dedilər. Yəni, Qəsva inadkarlıq edir və heç bir səbəb olmadan yerə çökür. Onda Peyğəmbər ﷺ dedi: "Qəsva tərslik etmir. Bu onun adəti deyil."[3] Peyğəmbər ﷺ heyvanı müdafiə edir. Çünki, heyvan da olsa, ona zülm etmək olmaz.

Peyğəmbər ﷺ deyir: "Qəsva tərslik etmir. Bu onun adəti deyil. Lakin *bir zamanlar Məkkəyə daxil olmaq istəyən* fili tutub saxlayan Allah, indi də Qəsvanı saxladı. Canım Əlində Olan Allaha and olsun ki, müşriklər Allahın haram buyurduqlarına hörmət etməklə məndən nə istəsələr, onlara istədiklərini verəcəyəm!"

Xülasə budur ki, Yəmən tərəfdən, başında nəhəng bir fil olan böyük bir ordu Kəbəni dağıtmaq üçün ona tərəf yürüş edir. Ordu *Kəbəyə yaxın* Muğəmməs adlı yerə çatdıqda, fil getmək istəmir və tərslik edir. Onda adamlar onu *hər bir vasitə ilə* irəliyə tərəf tərpətmək istəyirlər, lakin heç bir faydası olmur. Odur ki, onlar yerlərində qalırlar. Bu zaman Allah onların üzərinə əbabil quşları göndərir. Əbabil: qatar-qatar çoxlu sayda quşlar deməkdir. Hər bir quş ayağında daş gətirib bir-bir onların üzərinə yağdırır. O daşlar ki, onların təpəsindən girib arxasından çıxırdı. Uca Allah buyurur: **"*Allah* onları sanki yeyilmiş əkin yarpağına dön-**

---

[1] əl-Bəqərə, 127.

[2] Peyğəmbərin ﷺ dəvəsinin adı.

[3] Səhih əl-Buxari, 2731.

**dərdi.”**[1] Yəni, onlar sanki, heyvanların yeyib viran qoyduğu əkin sahələrinə bənzəyirdi. Onlar darmadağın olmuş vəziyyətdə yerə sərildilər. Umeyyə ibn Səlt bu haqda belə deyir:

O fil Muğəmməsdə tutub saxlanıldı
Sanki sancılmış kimi, sürünməyə başladı.

Allah Öz evini, onu dağıtmaq üçün gələn o zalım padşahın hiyləsində qorudu. Uca Allah buyurur: **“Orada zülm etməklə *haqdan* dönmək istəyənlərə ağrılı-acılı bir əzab daddıracağıq.”**[2] Orada, yəni Məscidulharamda. Axır zamanda da bir qövm, yəni, böyük bir ordu Kəbəyə yürüş edəcək.

Peyğəmbər ﷺ demişdir: **“Nəhayət, “Beydə” deyilən yerə gəlib çatdıqda”**, yəni, geniş bir əraziyə çatdıqda, Allah onların əvvəlincisindən axırıncısınadək *hamısını* yerin dibinə soxacaq. Yəni, Allah həm onları, həm onların bazarlarını, həm də onlarla birlikdə olanların hamısını yerin dibinə batıracaq. Bu dəlildir ki, həmin ordu çox böyük olacaqdır. Çünki, onların yanında alış-veriş etmələri üçün bazarları da olacaqdır. Allah onların əvvəlincisindən axırıncısınadək *hamısını* yerin dibinə batıracaq. Peyğəmbər ﷺ bunu dedikdə Aişənin رضي الله عنها ağlına bir sual gəlir və deyir: **“Ya Rəsulullah, necə ola bilər ki, onların əvvəlincisindən axırıncısınadək yerin dibinə girsin?! Axı onların arasında *alış-veriş üçün gəlmiş* bazar əhli və onlardan olmayan kimsələr də olacaq.”** Bazar əhli: yəni alış-veriş üçün gələnlər. Çünki həmin bazar əhli Kəbəyə yürüş məqsədi ilə gəlməmişlər. Həmçinin, onların arasında onlardan olmayan elə insanlar olacaq ki, ordunun məqsədindən bixəbər olduqları halda onlara qoşulacaqlar. Odur ki, Peyğəmbər ﷺ dedi: **“Onların əvvəlincisindən axırıncısınadək *hamısı* yerin dibinə girəcək, sonra da niyyətlərinə uyğun tərzdə diriləcəklər.”** Yəni, hər kəsin öz niyyəti vardır. Bu, Peyğəmbərin ﷺ “Əməllər ancaq niyyətlərə görədir və hər kəsə yalnız niyyət etdiyi şey qalacaq”- sözünə bənzəyir.

Bu hədisdə ibrət vardır: kim batil əhli ilə, habelə fasiq və *Allaha* düşmən olan kimsələrin yanında olarsa, bəla gəldikdə onları da bürüyər.

---

[1] əl-Fil, 5.
[2] əl-Həcc, 25.

Yəni, əməlisalehini də, asi olanını da. Bəla gəldikdə əməlisalehi də, asi olanı da, xeyirxahı da, fasiqi də, mömini də, kafiri də, namaz qılanı da, təkəbbürlünü də bürüyür, heç kimi kənarda qoymur. Sonra onların hamısı Qiyamət günü öz niyyətlərinə uyğun olaraq diriləcəklər. Uca Allah buyurur: **"Elə bir bəladan qorxun ki, o, sizlərdən təkcə zalım olanlara üz verməz, *hamınızı bürüyər.* Bilin ki, Allah şiddətli cəza verəndir."**[1]

Hədisin bizim fəsilə aid olan hissəsi, Peyğəmbərin ﷺ: **"Sonra da niyyətlərinə uyğun tərzdə diriləcəklər"**- sözüdür. Bu söz Peyğəmbərin ﷺ "Əməllər ancaq niyyətlərə görədir və hər kəsə yalnız niyyət etdiyi şey qalacaq"- sözü kimidir.

٣ - وعَنْ عَائِشَة رضي الله عنها قَالَت: قالَ النَّبِيُّ ﷺ: «لا هِجْرَةَ بَعْدَ الْفَتْحِ، وَلكنْ جِهَادٌ وَنِيَّةٌ، وَإِذَا اسْتُنْفرتُمْ فانْفِرُوا» مُتَّفَقٌ عَلَيْهِ.

وَمَعْنَاهُ: لا هِجْرَةَ مِنْ مَكَّةَ لأَنَّهَا صَارَتْ دَارَ إِسْلامٍ.

**3.** Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "*Məkkənin* fəthindən sonra artıq hicrət etmək yoxdur. Lakin cihad və niyyət vardır. Cihada çağırıldığınız zaman tələsin!"

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[2]

Hədisin mənası budur ki, Məkkədən hicrət etməyə gərək yoxdur, çünki artıq Məkkə İslam diyarıdır.

**Şərh:**

Bu hədisdə Rəsulullah ﷺ Məkkənin fəthindən sonra hicrət etməyi inkar edib: **"Hicrət etmək yoxdur"**– demişdir. Bu inkar ümumi mənada deyil. Yəni, Məkkənin fəthi ilə hicrətə son qoyulmur, əksinə, "Tövbənin qəbul olunması dayandırılmayınca, hicrət etmək də, dayandırılmayacaq. Günəş batdığı yerdən çıxmayınca tövbənin qəbul olunması da dayandırılmayacaq."[3] Bu hədis də, həmin mənanı ifadə edir. Lakin

---

[1] əl-Ənfal, 25.

[2] Səhih əl-Buxari, 3900; Səhih Muslim, 1864.

[3] Sunən Əbu Davud, 2479; Musnəd İmam Əhməd, 4/99; Səhih əl-Cami, Albani, 7469.

Peyğəmbərin ﷺ hicrəti inkar etməsi, yalnız Məkkəyə aiddir. Bu xüsusda müəllifin özü də *hədisi zikr etdikdən sonra* bildirmişdir: "Məkkədən hicrət etməyə gərək yoxdur, çünki artıq Məkkə İslam diyarıdır." Yəni, bundan sonra Məkkə küfr diyarına çevrilməyəcəkdir. Elə ona görə də Peyğəmbər ﷺ, *Məkkənin* fəthindən sonra hicrət etməyi inkar etmişdir.

Əvvəllər Məkkə, müşriklərin hökmranlığı altında idi. O zaman onlar Rəsulullahı ﷺ Məkkədən çıxartdılar və o, Rəbbinin izni ilə Mədinəyə hicrət etdi. Səkkiz ildən sonra Peyğəmbər ﷺ yenidən Məkkəyə dönərək oranı fəth etdi, zəfər çaldı və qələbə qazandı. Odur ki, Məkkə, əvvəl olduğu kimi küfr diyarı deyil, əksinə, iman və İslam diyarına çevrildi. Bundan sonra bir daha oradan hicrət etmək olmadı. Bu da dəlildir ki, Qiyamətədək – ya da Allah istəyənədək, Məkkə heç vaxt küfr diyarı olaraq əvvəlki halına qayıtmayacaq, əksinə, İslam diyarı olaraq qalacaqdır.

Sonra Peyğəmbər ﷺ demişdir: **"Lakin cihad və niyyət vardır."** Yəni, bundan sonra cihad gəlir, Məkkə əhli Məkkədən cihad üçün çıxacaqlar.

**"Niyyət"**, yəni, Allah yolundakı cihadda sağlam niyyət. Belə ki, adam cihada çıxdıqda "Allahın kəlamı uca olsun" deyə niyyət etməlidir.

Sonra Peyğəmbər ﷺ demişdir: **"Cihada çağırıldığınız zaman tələsin!"** Yəni, rəhbəriniz sizi Allah yolunda cihada çağırarsa, bunun vacib olduğunu qəbul edərək ora tələsin. Bu halda cihad hər bir fərdə vacib sayılır. Əgər insanlar cihada çağırılarsa, onlara cihada çıxmaq vacib olar. Belə olduqda, yalnız Allahın üzürlü saydığı kimsələr cihaddan yayına bilər. Bu xüsusda uca Allah buyurur: **"Ey iman gətirənlər! Sizə nə olub ki, "Allah yolunda döyüşə çıxın!"– deyildikdə yerinizdə qaxılıb qalırsınız? Olmaya, axirətdən daha çox dünya həyatından razısınız? Halbuki dünya həyatının keçici zövqü axirətlə müqayisədə çox dəyərsiz bir şeydir. Əgər döyüşə çıxmasanız, *Allah* sizi ağrılı-acılı bir əzaba düçar edər və sizi başqa bir qövmlə əvəz edər. Siz isə Ona heç bir zərər yetirə bilməzsiniz, çünki Allah hər şeyə qadirdir."** [1] Bu, cihadın hər bir fərdə vacib olduğu məqamlardan biridir.

---

[1] ət-Tovbə, 38-39.

**İkinci hal:** Düşmən ölkəyə hücum etdikdə, yəni, düşmən hücum edib oranı mühasirəyə aldıqda, cihad hər bir fərdə vacib olur. Hər bir fərdə, hətta döyüşməyə qadir olan qadınlara və qocalara da vacib olur. Çünki, bu müdafiə cihadıdır. Müdafiə cihadının hücum cihadından fərqi ondadır ki, müdafiə cihadında insanların hamısı öz ölkəsini müdafiə etmək üçün döyüşə çıxmalıdır.

**Üçüncü hal:** Ordu səflərə düzüldüyü və iki ordu – kafir ordusu ilə müsəlman odusu – qarşı-qarşıya durduğu zaman, cihad hər bir fərdə vacib olur. Bu zaman heç bir kəs döyüşdən geri çəkilməməlidir. Bu xüsusda uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Kafirlərlə döyüş meydanında qarşılaşsanız, arxanızı onlara çevirməyin. Daha bir döyüş əməliyyatı keçirmək üçün bir tərəfə çəkilən və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla, kim belə bir gündə onlara arxa çevirərsə, Allahın qəzəbinə düçar olar. Onun gedəcəyi yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir."**[1]

Peyğəmbər ﷺ döyüş meydanından qaçmağı insanı həlak edən yeddi ən böyük günahlardan saymışdır. [2]

**Dördüncü hal:** bir adamın yardımına ehtiyac olduqda: yəni, elə yeni bir silah növü ola bilər ki, ondan yalnız tək-tük adam istifadə edə bilsin və insanlar da həmin adamın köməyinə möhtac olsunlar. Belə olduğu təqdirdə, rəhbər onu cihada çağırmasa da, həmin adama bu cihada qatılmaq vacib sayılır. Çünki insanlar onun köməyinə möhtacdırlar.

Bu dörd haldan dördündə də cihad hər bir fərd üçün vacib sayılır. Bundan qeyri cihadlar isə "fardu kifayə" sayılır.

Alimlər belə demişlər: Müsəlmanlara, Allahın düşmənlərinə qarşı, Allahın kəlamını ucaltmaq naminə ildə bir dəfə cihad etmələri vacibdir. Vətənin müdafiəsi üçün olan cihada gəldikdə isə, adam vətəni, sadəcə vətəndir deyə müdafiə etməməlidir. Çünki, sadəcə vətənimdir de-

---

[1] əl-Ənfal, 15-16.

[2] Peyğəmbər ﷺ demişdir: "Həlakedici yeddi günahdan çəkinin!" Səhabələr soruşdular: "Nədir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "Allaha şərik qoşmaq, sehrlə məşğul olmaq, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və zinada xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham etmək." (Səhih əl-Buxari, 2766; Səhih Muslim, 88).

yə vətəni müdafiə etmək xüsusunda həm kafir, həm də müsəlman eynidir. Belə ki, kafirlər də öz vətənlərini "vətəndir" deyə müdafiə edirlər. Lakin müsəlmanın öz vətənini qorumaqda məqsədi, Allahın dinini qorumaq olmalıdır. Çünki onun vətəni İslam diyarıdır və onu qorumaqda məqsədi ölkəsində olan İslamı qorumaq olmalıdır. Odur ki, yaşadığımız bu günkü şəraitə əsasən sadə camaata xatırlatmaq lazımdır ki, vətənin azadlığı naminə və ya bu kimi çağırışlar, heç də münasib çağırış deyil. İnsanları dini yöndə hazırlaşdırmaq lazımdır. Onlara belə deyilməlidir: "Biz hər şeydən öncə dinimizi müdafiə etməliyik. Çünki ölkəmiz dindar, yəni İslam ölkəsi olduğuna görə onun himayə olunmağa və qorunmağa ehtiyacı vardır." Demək, vətəni bu niyyətlə müdafiə etmək lazımdır. Onu, sadəcə "vətənimdir" deyə və ya "qövmümü qoruyuram" deyə niyyət edərək müdafiə etməyə gəldikdə isə, bunu kafir də edir, müsəlman da. Bu cür niyyət öz sahibinə Qiyamət günü fayda verməyəcəkdir. Əgər adam bu niyyətlərlə ölkəsini müdafiə edərkən ölərsə, *həqiqi* şəhid sayılmaz. Çünki Rəsulullahdan ﷺ, qəhrəman adı qazanmaq, təəssübkeşliyi üzündən və ya özünü göstərmək üçün vuruşan kimsələrdən hansının Allah yolunda olduğu soruşulduqda, o belə buyurmuşdur: "Hər kim Allahın kəlməsi uca olsun deyə vuruşarsa, o, Allah yolunda *vuruşmuş* sayılar." [1] Bu qeydə diqqət yetir: "Hər kim Allahın kəlməsi uca olsun deyə vuruşarsa." Burada "vətənimdir deyə"- deyilmir. Demək, əgər sən vətənin naminə vuruşursansa, *bu məsələdə* səninlə kafir eynidir. Lakin, vətənin İslam ölkəsi olduğuna görə, vətənində Allahın kəlamı uca olsun deyə vuruşursansa, bu halda sənin cihadın Allah yolunda olan cihad sayılar.

Rəvayət edilir ki, Peyğəmbər ﷺ belə demişdir: "Kim Allah yolunda yaralansa, – kimin Allah yolunda yaralandığını isə Allah daha yaxşı bilir, – Qiyamət günü *məhşərə* yarasından qan axdığı halda gələcək və *həmin qanın* rəngi adi qan rəngi, qoxusu isə müşk qoxusu olacaqdır."[2]

Diqqət edin, Peyğəmbər ﷺ insanın şəhid sayılması üçün, onun Allah yolunda vuruşmasını şərt qoymuşdur. Allah yolunda vuruşmaq deyildikdə isə, Allahın kəlməsi uca olsun deyə vuruşmaq qəsd edilir.

---

[1] Səhih əl-Buxari, 123; Səhih Muslim, 1904.

[2] Səhih əl-Buxari, 2803; Səhih Muslim, 1876.

Elm tələbələrinə vacibdir ki, vətən naminə döyüşməyin, doğru döyüş olmadığını insanlara bəyan etsinlər. *Yəni, adam,* yalnız, Allahın kəlməsi uca olsun deyə döyüşməli və “vətənim naminə ona görə döyüşürəm ki, o, İslam ölkəsidir, onu İslamın düşmənlərindən qoruyuram”- deməlidir. Bu cür niyyət edərsə, onun niyyəti səhih sayılar. Müvəffəq edən Allahdır.

٤ - وعَنْ أبي عَبْدِ اللَّهِ جابِرِ بْنِ عَبْدِ اللَّهِ الأَنْصَارِيِّ رضي الله عنهما قَالَ:كُنَّا مَع النَّبِيِّ ﷺ في غَزَاة فَقَالَ: «إِنَّ بِالْمَدِينَةِ لَرِجَالاً مَا سِرْتُمْ مَسِيراً، وَلاَ قَطَعْتُمْ وَادِياً إِلاَّ كَانُوا مَعكُم حَبَسَهُمُ الْمَرَضُ» وَفِي رِوايَةِ: «إِلاَّ شَرَكُوكُمْ في الأَجْرِ» رَواهُ مُسْلِمٌ.

ورواهُ البُخَارِيُّ عَنْ أَنَسٍ رضي الله عنه قَالَ:رَجَعْنَا مِنْ غَزْوَةِ تَبُوكَ مَعَ النَّبِيِّ ﷺ فَقَالَ: «إِنَّ أَقْوَاماً خلْفَنَا بالمدِينةِ مَا سَلَكْنَا شِعْباً وَلاَ وَادِياً إِلاَّ وَهُمْ مَعَنَا، حَبَسَهُمْ الْعُذْرُ».

**4.** Rəvayət edilir ki, Əbu Abdullah Cabir ibn Abdullah əl-Ənsari رضي الله عنهما demişdir: “Döyüşlərin birində biz Peyğəmbərlə ﷺ birlikdə ikən o belə buyurdu: “Mədinədə elə kişilər var ki, sizin getdiyiniz hər yerdə, keçdiyiniz hər vadidə sizin yanınızda idilər. Onlar xəstəlik üzündən səfərə çıxa bilmədilər.” Digər rəvayətdə: “Onlar savabda sizə şərik oldular”– deyilir.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Buxarinin Ənəsdən رضي الله عنه rəvayət etdiyi hədisdə isə deyilir: “Biz Peyğəmbərlə ﷺ birlikdə Təbuk döyüşündən qayıdarkən o belə buyurdu: “Mədinədə qoyub gəldiyimiz elə kişilər var ki, keçdiyimiz hər dağ yolunda və vadidə onlar bizim yanımızda idilər. Onların gəlməməsinin üzürlü səbəbi var.”[2]

**Şərh:**

Hədisin mənası budur ki, əgər insan yaxşı bir əməli etmək üçün niyyət edərsə, lakin onu *üzürlü bir səbəb* tutub saxlayarsa, ona, niyyət etdiyi əməlin savabı yazılar.

---

[1] Səhih Muslim, 1911.

[2] Səhih əl-Buxari, 2839.

Əgər adam *həmin əməli* üzürü olmadığı vaxtlarda yerinə yetirirdisə, yəni onu etməyə qüdrəti olduğu zaman yerinə yetirirdisə və sonradan onu yerinə yetirməyə aciz qalmışdırsa, onda həmin adama bu əməlin tam savabı yazılar. Çünki Peyğəmbər ﷺ demişdir: "*Mömin* bəndə xəstələndiyi və ya səfərdə olduğu zaman, ona evində, həm də sağlam olarkən etdiyi əməllərin savabı qədər savab yazılır."[1]

Əgər xeyirli bir əməli *yerinə yetirməyi* təmənna edən və onu yerinə yetirməyə həris olan bir adam, daim etdiyi xeyirli bir əməli üzürlü bir səbəbdən dolayı yerinə yetirə bilməsə, həmin adama bu əməlin savabı kamil yazılar.

Məsələn: Adam namazını davamlı olaraq məsciddə camaatla qılır. Və əgər yuxu, xəstəlik və ya bunlara bənzər *hər hansı üzürlü* bir səbəb onu tutub saxlayarsa, bu halda həmin adama, camaatla namaz qılmış adamın savabı qədər savabı yazılar. Həmçinin, adam davamlı olaraq nafilə namazlarını qılır. Lakin, *üzürlü* bir səbəb ona bu əməli yerinə yetirməyə mane olarsa, yəni, bu əməli yerinə yetirə bilməsə, bu halda həmin adama bu əməlin tam savabı yazılar. Yaxud, adam davamlı olaraq hər ayın üç gününü oruc tutur. Sonra bunu etməyə aciz qalır, yəni, *üzürlü* bir səbəb ona bu əməli yerinə yetirməyə mane olur, bu halda adama həmin əməlin savabı tam yazılar. Bu cür misallar çoxdur.

Yox, əgər adam həmin əməli davamlı yerinə yetirmirsə, o halda ona əməlin savabı yox, yalnız niyyətin savabı yazılar. Dəlili də budur ki, bir dəfə kasıb səhabələr رضي الله عنهم Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "*Ya Rəsulullah,* varlılar ən yüksək məqamlara və tükənməz nemətlərə nail olmaqla bizi ötüb keçdilər. Onlar bizim kimi namaz qılır və bizim kimi oruc tuturlar. Üstəlik sədəqə verir və kölə azad edirlər, biz isə bunları edə bilmirik." Peyğəmbər ﷺ buyurdu: "Sizə elə bir şey öyrədimmi ki, onu yerinə yetirməklə sizi ötüb keçənlərə çatasınız, sizdən sonra yaşayanlardan heç kəs sizə çata bilməsin və sizin etdiyinizi edənlər istisna olmaqla, aranızda olan kimsələrin ən xeyirlisi siz olasınız?" Onlar: "Bəli, ya Rəsulullah!"– dedikdə, o belə buyurdu: "Hər vacib namazdan sonra otuz üç dəfə "subhanəllah", otuz üç dəfə "əlhəmdulilləh" və

---

[1] Səhih əl-Buxari, 2996.

otuz üç dəfə "Allahu Əkbər" deyin!" *Bir müddətdən* sonra kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "*Ya Rəsulullah,* varlı qardaşlarımız bizim dediklərimizi eşitdilər və onlar da bu zikrləri etməyə başladılar. Onda Peyğəmbər ﷺ dedi: "Bu, Allahın lütfüdür, onu istədiyinə verər."[1] Allah böyük lütf sahibidir. Peyğəmbər ﷺ onlara: "*Niyyətinizə görə,* siz də onların əməllərinin savabını qazanırsınız"- demədi. Lakin, şübhə yoxdur ki, onlar niyyətlərinin savabı qazanırlar.

Ona görə Peyğəmbər ﷺ Allahın mal-dövlət verdiyi və bu mal-dövləti xeyir işlərə xərcləyən *varlı bir* adamı zikr edib demişdir: "*Bu varlıya qibtə edən* kasıb bir adam belə dedi: "Mənə də filankəsə verilənin bənzəri verilsəydi onun etdiyi kimi edərdim." Onda Peyğəmbər ﷺ dedi: "O da niyyətinə görə *savab qazanır*. Onların savabları eynidir."[2] Yəni, niyyətin savabında eynidirlər. Əmələ gəldikdə isə, həmin adama o əməlin savabı o vaxt yazılır ki, o həmin əməli davamlı yerinə yetirmiş olsun.

*Müəllifin zikr etdiyi* hədis dəlildir ki, Allah yolunda cihada çıxan adamın *atdığı hər* addımına görə ona savab yazılır. Ona görə də Peyğəmbər ﷺ belə demişdir: **"sizin getdiyiniz hər yerdə, keçdiyiniz hər vadidə və hər dağ yolunda sizin yanınızda idilər."**

Uca Allahın bu ayəsi də buna dəlildir: **"Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın deyə xərclədikləri elə bir kiçik və ya böyük məsrəf, keçdikləri elə bir vadi yoxdur ki, *buna görə* onlara *savab* yazılmasın."**[3]

Bunun bənzəri: Əgər adam evində lazımı qaydada dəstəmaz alar və ancaq namaz qılmaq məqsədilə məscidə gələrsə, *məscidə daxil olanadək* atdığı hər addıma görə, Allah onu bir dərəcə yüksəldər və onun bir gü-

---

[1] Səhih əl-Buxari, 843 və 6329; Səhih Muslim, 595.

[2] Sunən ət-Tirmizi, 2325; Sunən İbn Macə, 4228. Tirmizi *bu hədisin* "həsən səhih" *olduğunu* demişdir.

[3] ət-Tovbə, 120-121.

nahını silər. Bu Allahın lütfüdür. Belə ki, əməllər üçün olan bu vəsilələrin, bu cür, Peyğəmbərin ﷺ dediyi qədər savabı vardır. Müvəffəq edən Allahdır.

٥ - وَعَنْ أبي يَزِيدَ مَعْنِ بْن يَزِيدَ بْنِ الأَخْنَسِ رضي الله عنهم ، وَهُوَ وَأَبُوهُ وَجَدُّهُ صَحَابِيُّونَ، قَال: كَانَ أبي يَزِيدُ أَخْرَجَ دَنَانِيرَ يَتَصَدَّقُ بِهَا فَوَضَعَهَا عِنْدَ رَجُلٍ في الْمَسْجِدِ فَجِئْتُ فَأَخَذْتُهَا فَأَتَيْتُهُ بِهَا. فَقَالَ: وَاللَّهِ مَا إِيَّاكَ أَرَدْتُ، فَخَاصمْتُهُ إِلَى رسول اللَّهِ ﷺ فَقَالَ: «لَكَ مَا نويْتَ يَا يَزِيدُ، وَلَكَ مَا أَخذْتَ يَا مَعْنُ» رواه البخاريُّ.

**5.** Rəvayət edilir ki, həm özü, həm atası, həm də babası səhabə olmuş, Əbu Yezid Mə'n ibn Yezid ibn əl-Əxnəs رضي الله عنهم demişdir: “Atam Yezid sədəqə vermək üçün bir neçə dinar çıxarıb məsciddə bir kişinin yanına qoydu *ki, onu ehtiyacı olanlara versin*. Mən məscidə gəldikdə *o kişi həmin sədəqəni mənə verdi və* mən o dinarları götürüb atamın yanına gəldim. Atam dedi: “Vallahi, mən *bu dinarları* sənin üçün ayırmamışdım.” Mən *atamla birlikdə gedib* bunun hökmünü Rəsulullahdan ﷺ soruşduqda, o belə buyurdu: “Ey Yezid, niyyət etdiyin sədəqənin savabı sənindir. Ey Mə'n, aldığın dinarlar da sənindir!”

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin, zikr etdiyi bu hədisdə – Mə'n ibn Yezid və onun atasının əhvalatında – deyilir ki, Mə'nin atası Yezid bir neçə dirhəm çıxarıb məsciddə bir kişinin yanına qoydu ki, onu sədəqə olaraq kasıblara versin. Oğlu Mə'n də gəlib o pulu götürdü. Ola bilər ki, Yezidin pulu həvalə etdiyi adam, Mə'nin, Yezidin oğlu olduğunu bilmirdi. Ehtimal da var ki, Mə'n həmin pula daha ehtiyaclı olduğuna görə, adam pulu ona vermişdir.

Bu xəbər Yezidə çatdıqda o, oğluna dedi: **“Mən *bu dinarları* sənin üçün ayırmamışdım.”** Yəni, mən bu dirhəmləri sənə sədəqə vermək üçün ayırmamışdım. Odur ki, Yezid *bunun hökmünü öyrənmək üçün* Pey-

[1] Səhih əl-Buxari, 1422.

ğəmbərin ﷺ yanına getdi. Peyğəmbər ﷺ dedi: **"Ey Yezid, niyyət etdiyin sədəqənin savabı sənindir. Ey Mə'n, aldığın dinarlar da sənindir!"**

Peyğəmbərin ﷺ, **"Ey Yezid, niyyət etdiyin sədəqənin savabı sənindir"**- sözü əməllərin niyyətlərə görə olduğuna və adamın xeyirli bir əməli niyyət etdiyində, onun savabını qazanacağına dəlalət edir. Hərçənd, Yezid bu dirhəmlərin oğlu Mə'nə verilməsini niyyət etməmişdir, lakin o, bunları götürmüşdür. *Çünki* onun oğlu *bu dirhəmlərə* daha layiq idi. Odur ki, pul onun oldu. Elə ona görə də Peyğəmbər ﷺ Mə'nə dedi: **"Ey Mə'n, aldığın dinarlar da sənindir!"**

Bu hədis əməllərin niyyətlərə görə olmasına dəlalət edir. Müəllifin bu hədisi bu fəsildə gətirməsinin də *əsl* səbəbi budur. Həmçinin, *ona da dəlalət edir ki,* insana niyyət etdiyinin savabı yazılır. Hətta həmin əməl niyyətin əksinə baş vermiş olsa da. Bu qaydanın dörd qolu vardır:

Birincisi: Alimlərin dediyinə görə, əgər bir adam öz zəkatını, zəkata ehtiyacı olan adam hesab etdiyi bir kimsəyə verdikdən sonra, ona bəlli olsa ki, *zəkat verdiyi həmin* adam zəkat əhlindən deyil, əksinə o zəngin adamdır, o halda həmin zəkat ödənmiş sayılır. *Yəni həmin mal,* zəkat kimi qəbul olunur və *adamın* boynundan götürülmüş sayılır. Çünki adam niyyət etmişdir ki, onu zəkat əhlinə versin. *Bu cür* niyyət etdiyinə görə də ona niyyəti qalır.

İkincisi: əgər adam kiçik bir evi vəqf etməyi niyyət etsə, lakin *çaşıb* niyyətinin əksi olaraq böyük bir evi işarə edərək: "filan evimi vəqf etdim"- deyərsə, onun çaşıb dili ilə dediyi yox, niyyət etdiyi götürülür.

Üçüncüsü: Əgər ümrə ilə həccin fərqini bilməyən savadsız bir adam, təməttü həccindən əvvəl olan ümrəni yerinə yetirmək istədiyi halda, çaşıb, *həccin başqa bir növünü yerinə yetirən* insanlarla bərabər "Ləbbeykə Allahummə həccən"- deyib onlara qoşularsa, ona niyyət etdiyi yazılar. Həmin adam *həccin başqa bir növünü yerinə yetirən* insanlarla bərabər "Ləbbeykə həccən"- desə də, nə qədər ki, onun məqsədi ümrəni yerinə yetirməkdir, ona niyyət etdiyi yazılar. Onun çaşıb dili ilə dediyinin ona heç bir zərəri olmaz.

Dördüncüsü: Əgər bir kişi öz həyat yoldaşına: "Ənti taliqun"[1]- deyərsə, lakin qəsdi "sən nikahdan deyil, məhdudiyyətdən azadsan" olarsa, ona niyyət etdiyi yazılır və buna görə onun həyat yoldaşı boşanmış sayılmır.

Bu hədisdən, fiqhi mələlərlə bağlı çox sayda faydalar və geniş şəkildə yayılmış qaydalar çıxartmaq olar.

Hədisin faydalarından biri budur ki, adamın öz oğluna sədəqə verməsi caizdir. Buna dəlil odur ki, Peyğəmbər ﷺ sədəqə verməyi əmr edib, *insanları* ona təşviq etdiyi zaman, Abdullah ibn Məsudun رضي الله عنه həyat yoldaşı Zeynəb رضي الله عنها, öz malından sədəqə vermək istədikdə onun həyat yoldaşı Abdullah رضي الله عنه ona belə dedi: "Mən və oğlun, sədəqə verəcəyin *insanlar arasında* ən çox haqqı olan kimsələrik." Çünki İbn Məsud رضي الله عنه kasıb idi. Zeynəb رضي الله عنها dedi: "Xeyir, *bu belə deyil.* Mən bu barədə Peyğəmbərdən ﷺ soruşacam." Sonra o Peyğəmbərdən ﷺ soruşduqda o dedi: "İbn Məsud doğru söyləmişdir. Sənin ərin və övladın sədəqə verəcəyin *insanlar arasında* ən çox haqqı olan kimsələrdir."[2]

Hədisin faydalarından biri də budur ki, adamın öz övladına zəkat verməsi caizdir. Bir şərtlə ki, bu zəkatı verməklə o, öhdəsinə düşən vacib bir şeyi aradan qaldırmasın.

Məsələn: Bir insanın boynunda zəkat var və o bu zəkatı öz oğluna vermək istəyir ki, oğlu ondan xərclik istəməsin. Bu keçərli sayılmır. Çünki, adam zəkatı verməklə boynunda vacib olanı aradan qaldırmaq istəyir. Yox, əgər adam zəkatını oğluna versə ki, aparıb boynunda olan borcunu ödəsin, burada qəbahət bir şey yoxdur. Məsələn, adamın oğlu qəza törədib və boynundə *böyük məbləğdə* cərimə vardır. Ata da öz zəkatını ona verir ki, aparıb bu cəriməni ödəsin. Bu halda həmin zəkat keçərli sayılır. Çünki insanlardan ona ən yaxın olanı onun övladıdır. Atanın da bunu etməkdə məqsədi, öhdəsinə düşən vacibi aradan qaldırmaq olmamışdır. Onun məqsədi yalnız övladının boynunda olan bir şeyi ondan azad etmək olmuşdur. Yəni, məqsədi ona xərclik vermək

---

[1] Bu sözün iki mənası var: Birincisi, "sən boşanmışsan", ikincisi isə, "sən məhdudiyyətdən azadsan"- deməkdir.

[2] Səhih əl-Buxari, 1462.

deyildi. Əgər atanın məqsədi onun cəriməsini ödəmək olarsa, onda bu zəkat oğluna halaldır. Müvəffəq edən Allahdır.

٦ - وَعَنْ أبي إِسْحَاقَ سعْدِ بْنِ أبي وَقَّاصٍ مَالك بن أُهَيْبِ بْنِ عَبْدِ مَنَافِ بْنِ زُهرةَ بْنِ كِلابِ بْنِ مُرَّةَ بْنِ كعْبِ بنِ لُؤيٍّ الْقُرشِيِّ الزُّهَرِيِّ ﷺ، أَحدِ الْعَشرة الْمَشْهودِ لَهمْ بِالْجنَّة، ﷺ قال: «جاءَنِي رسولُ الله ﷺ يَعُودُني عَامَ حَجَّة الْوَداعِ مِنْ وَجعٍ اشْتدَّ بِي فَقُلْتُ: يا رسُول اللَّهِ إِنّي قَدْ بلغ بِي مِن الْوجعِ مَا تَرى، وَأَنَا ذُو مَالٍ وَلاَ يرثُنِي إِلاَّ ابْنةٌ لِي، أَفأَتصَدَّق بثُلُثَيْ مالِي؟ قَالَ: لا، قُلْتُ: فالشَّطْرُ يَا رسُولَ الله؟ فقالَ: لا، قُلْتُ فالثُّلُثُ يا رسول اللَّه؟ قال: الثُّلثُ والثُّلُثُ كثِيرٌ أَوْ كَبِيرٌ. إِنَّكَ إِنْ تَذرَ وَرثتك أغنِياءَ خَيْرٌ مِن أَنْ تذرهُمْ عالَةً يَتكفَّفُونَ النَّاس، وَإِنَّكَ لَنْ تُنفِق نَفَقةً تبْتغِي بِهَا وجْهَ الله إِلاَّ أُجرْتَ عَلَيْهَا حَتَّى ما تَجْعلُ فِي فِي امْرَأَتكَ. قَال: فَقلْت: يَا رَسُولَ الله أُخَلَّفُ بَعْدَ أَصْحَابِي؟ قَال: إِنَّك لن تُخَلَّفَ فتعْمَل عَمَلاً تَبْتغِي بِهِ وَجْهَ الله إِلاَّ ازْددْتَ بِهِ دَرجةً ورِفعةً ولعَلَّك أَنْ تُخلَّف حَتَى ينْتفعَ بكَ أَقَوامٌ وَيُضَرَّ بك آخرُونَ. اللَّهُمَّ أَمْضِ لأِصْحابي هجْرتَهُم، وَلاَ ترُدَّهُمْ عَلَى أَعْقَابِهم، لَكن الْبائسُ سعْدُ بْنُ خوْلَةَ « يرْثى لَهُ رسولُ الله ﷺ» أَن مَاتَ بمكَّةَ» متفقٌ عليه.

**6.** Rəvayət edilir ki, Cənnətlə müjdələnmiş on nəfərdən biri olan Əbu İshaq Səd ibn Əbu Vəqqas Malik ibn Uheyb ibn Abduмənaf ibn Zuhra ibn Kilab ibn Murra ibn Kəb ibn Lueyy əl-Quraşi əz-Zuhəri ﷺ demişdir: "Vida həcci ili ağır xəstələnmişdim deyə Rəsulullah ﷺ mənə baş çəkdi. Mən: "Ya Rəsulullah, gördüyün kimi xəstəliyim ağırlaşıb. Mənim var-dövlətim çox, qızımdan başqa da bir varisim yoxdur. Malımın üçdə ikisini sədəqə verə bilərəmmi?"– deyə soruşdum. O: "Xeyr!"– deyə cavab verdi. Mən: "Ya Rəsulullah, yarısını necə?"– deyə soruşdum. O *yenə*: "Xeyr"– dedi. Mən: "Ya Rəsulullah, üçdə biri necə?"– deyə soruşduqda, o, belə buyurdu: "Üçdə biri, üçdə biri də çoxdur *və ya böyükdür*. Şübhəsiz ki, varislərini zəngin qoyub getməyin, onları insanlara əl açan, kasıb bir vəziyyətdə qoyub getməyindən daha xeyirlidir. Allahın üzünü *görməyi* diləyərək xərclədiyin hər şeyin, hətta həyat yoldaşının ağzına qoyduğun *loxmanın* belə savabını qazanırsan." Mən de-

dim: "Ya Rəsulullah, mən *burada ölüb mömin* qardaşlarımdan geridəmi qalacağam?" Rəsulullah ﷺ: "Sən geri qalmayacaqsan! Allahın üzünü *görməyi* diləyərək etdiyin əməllər sayəsində sənin dərəcən və hörmətin artacaq. Ümid edirəm ki, sən uzun ömür yaşayacaqsan, hətta bəziləri səndən faydalanacaq, digərləri də zərər görəcəklər"– deyə cavab verdi, *sonra da:* "Allahım, səhabələrimin hicrətini tamamla, onları geri qaytarma! Yazıq Səd ibn Xəulə"– deyə, onun halına acıdı. Çünki o, Məkkədə vəfat etmişdi."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Müəllifin رحمه الله Səd ibn Əbu Vəqqasdan رضي الله عنه nəql etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ, ağır xəstəliyə tutulmuş Sədi رضي الله عنه ziyarət etməyə getdi. Bu *hadisə* Məkkədə baş vermişdi. Səd ibn Əbu Vəqqas رضي الله عنه Allah üçün öz şəhəri Məkkəni tərk edib, Mədinəyə hicrət edən mühacirlərdən idi. Peyğəmbərin ﷺ adəti idi ki, səhabələrindən xəstə olanlara baş çəksin. Beləcə, o, səhabələrinin hamısını ziyarət edərdi. O, nümunəvi öndər olduğuna görə insanların ən əxlaqlısı sayılır. Ona Allahın salavatı və salamı olsun. Həqiqətən o, insanların ən əxlaqlısı, səhabələrinə qarşı ən mülayim olanı və onları ən çox sevəni idi. Peyğəmbər ﷺ Sədə رضي الله عنه baş çəkməyə gəldikdə o dedi: **"Ya Rəsulullah, gördüyün kimi xəstəliyim ağırlaşıb."** Yəni, ona çox ağır bir xəstəlik üz vermişdi.

**"Mənim var-dövlətim çoxdur."** Yəni, Sədin رضي الله عنه çoxlu mal-dövləti var idi.

**"Qızımdan başqa da bir varisim yoxdur."** Yəni, mirasdan verilməsi vacib olanlar arasında bu qızdan başqa heç kimi yox idi.

**"Malımın üçdə ikisini sədəqə verə bilərəmmi?"** Yəni, üçdən iki payını!

**"O: "Xeyr!"– deyə cavab verdi. Mən: "Ya Rəsulullah, yarısını necə?"** Yəni, *var-dövlətinin* yarısını.

**"O *yenə*: "Xeyr"– dedi. Mən: "Ya Rəsulullah, üçdə biri necə?"– deyə soruşduqda, o, belə buyurdu: "Üçdə biri, üçdə biri də çoxdur."**

---

[1] Səhih əl-Buxari, 56; Səhih Muslim, 1628.

“**Sədəqə edə bilərəmmi?**” Yəni sədəqə olaraq verə bilərəmmi? Peyğəmbər ﷺ bunu ona qadağan etdi. Çünki bunu deyən vaxt Səd رضي الله عنه elə bir xəstəliyə tutulmuşdu ki, onun bu xəstəlikdən ölmək ehtimalı var idi. Elə buna görə də Peyğəmbər ﷺ ona malının üçdə birindən çoxunu sədəqə verməyi qadağan etdi.

Çünki adam ölüm ehtimalı olan bir xəstəliyə tutulduqda, ona, malının üçdə birindən çoxunu sədəqə verməyə icazə verilimir. Çünki onun mal-dövləti artıq başqasının, yəni, varislərin haqqına çevrilə bilər. Lakin heç bir xəstəliyi olmayan sağlam bir adam və ya ölüm ehtimalı olmayan yüngül bir xəstəliyə tutulmuş adam, malından istədiyi qədər sədəqə verə bilər. Yəni, malının üçdə birisini, yarısını, üçdə ikisini, hətta hamısını sədəqə verməsində ona günah yoxdur.

Lakin adamın, malının hamısını sədəqə verməsi düzgün deyil. Yalnız o halda malının hamısını sədəqə verə bilər ki, adamın ehtiyatda olan elə bir şeyi olsun ki, bunun sayəsində o, insanlara möhtac olmasın.

Xülasə budur ki, Rəsulullah ﷺ Sədə رضي الله عنه, malının üçdə birindən çoxunu sədəqə verməyi qadağan edib: **“Üçdə biri, üçdə biri də çoxdur”**– demişdir. Bu dəlildir ki, üçdə birdən az olarsa, bu daha yaxşı və daha kamil olar. Odur ki, İbn Abbas رضي الله عنهما demişdir: “Nə olaydı, insanlar üçdə birdən dörddə birə azaldardılar. Çünki Rəsulullah ﷺ: “Üçdə birini *verə bilərsən*, lakin üçdə biri də çoxdur”– demişdir.”

Əbu Bəkr رضي الله عنه demişdir: “Mən, Allahın Özü üçün razı olduğu ilə razı oluram.”[1] Yəni, beşdə biri ilə *razı oluram*. Odur ki, Əbu Bəkr رضي الله عنه malının beşdə birini vəsiyyət etmişdir.

Beləliklə də deyə bilərik ki, bu caiz olsa belə, günümüzdə *malının* üçdə birini vəsiyyət edənlərin əməli, ən əlverişli olana müxalifdir. Əfzəl olanı isə budur ki, üçdə birindən azını, ya dörddə birini, ya da beşdə birini *vəsiyyət edəsən.*

Fəqihlərimiz – Allah onlara rəhmət eləsin! – demişlər: “Əbu Bəkri رضي الله عنه örnək götürərək beşdə birini vəsiyyət etmək daha əfzəldir və bunun üzərinə heç nə artırılmamalıdır.”

---

[1] Bu xüsusda uca Allah buyurur: “Bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur” (əl-Ənfal, 41).

Hədisin davamında Rəsulullah ﷺ belə buyurur: **“Şübhəsiz ki, varislərini zəngin qoyub getməyin, onları insanlara əl açan, kasıb bir vəziyyətdə qoyub getməyindən daha xeyirlidir.”** Yəni, malını sədəqə etməyib onlara saxlasan və sən öləndən sonra onlar bu mala varis olsalar, onun sayəsində zəngin olarlar. Bu sənin üçün onları kasıb vəziyyətdə qoyub getməyindən daha xeyirli olar. Yox əgər onlara heç bir şey qoyub getməsən, onlar insanlara əl açıb, “mənə yardım edin, mənə yardım edin”- deyə dilənərlər.

Bu dəlildir ki, adam vəfat etdikdə varislər üçün var-dövlət qoyub gedərsə, bu onun üçün xeyirli olar. İnsan elə güman etməsin ki, var-dövlət qoyub gedərsə və *sonradan* kimsə ona zor gücünə yiyələnərsə, o, buna görə savab qazanmır. Əksinə, buna görə savab qazanır. Hətta Peyğəmbər ﷺ belə demişdir: **“Şübhəsiz ki, varislərini zəngin qoyub getməyin, onları insanlara əl açan, kasıb bir vəziyyətdə qoyub getməyindən daha xeyirlidir.”** Çünki, sən varislərin üçün var-dövlət qoyub getsən, onlar bu var-dövlətdən faydalanarlar. Bu varislər isə sənin yaxınlarındır. Yox, əgər var-dövlətini sədəqə olaraq versən, onda bu var-dövlətdən yadlar faydalanarlar. Hərçənd ki, yaxınlara verilən sədəqə, yadlara verilən sədəqədən daha fəzilətlidir. Çünki, yaxınlara verilən sədəqə həm sədəqə, həm də qohumluq əlaqələrini birləşdirmək sayılır.

Sonra Peyğəmbər ﷺ dedi: **“Allahın üzünü *görməyi* diləyərək xərclədiyin hər şeyin, hətta həyat yoldaşının ağzına qoyduğun *loxmanın* belə savabını qazanırsan.”** Yəni, Allahın üzünü *görməyi* diləyərək xərclədiyin dirhəmlərin, dinarların, paltarların, ev əşyalarının, yeməyin, ümumuyyətlə hər bir malın savabını qazanırsan.

Hədisin bu fəslə aid olan hissəsi, Peyğəmbərin ﷺ **“Allahın üzünü *görməyi* diləyərək”** kəlməsidir. Yəni, sən xərclədiyin malın sayəsində, Cənnətə girib orada Allahın üzünü görməyi qəsd edirsən. Çünki, Cənnət əhli – Allah həm bizi, həm də sizi onlardan etsin! – pak və uca Allahı görəcəklər. Onlar buludsuz bir gündə günəşi, habelə bədrlənmiş gecədə də ayı açıq-aydın gördükləri kimi, Allaha əyani olaraq gözləri ilə baxacaq. Yəni, onlar Allahı həqiqi mənada görəcəklər.

**“Hətta həyat yoldaşının ağzına qoyduğun *loxmanın* belə savabını qazanırsan.”** Yəni, hətta həyat yoldaşına yedizdirdiyin loxmaya görə

savab qazanırsan. Əlbəttə ki, əgər *bunu edərkən* sənin qəsdin Allahın üzünü *görmək* olarsa. Hərçənd, həyat yoldaşı üçün xərcləmək vacib əməldir və xərcləməsən o sənə, "ya xərclə, ya da boşa" deyər, amma buna baxmayaraq, zövcənə xərclədiyin mal sayəsində Allahın üzünü *görməyi* istəyərsənsə, Allah bu mükafatı sənə verər. Habelə, Allahın üzünü *görməyi* diləyərək öz övladlarına, anana, atana, hətta özünə belə xərcləsən, Allah buna görə sənə savab verəcəkdir.

Sonra Səd ﷺ dedi: **"Mən *burada ölüb mömin* qardaşlarımdan geridəmi qalacağam?"** Yəni, mən Məkkədə ölüb qardaşlarımdan geridəmi qalacam? Lakin Peyğəmbər ﷺ ona geridə qalmayacağını xəbər verib: **"Sən geri qalmayacaqsan!"**– dedi, sonra da bildirdi ki, əgər geri qalsa və sonra Allahın üzünü *görməyi* diləyərək əməllər etsə, bu əməllərin sayəsində Allah yanında dərəcəsi və hörməti artar. Yəni, fərz edək ki, sən geri qaldın və Məkkədən çıxmaq sənə müyəssər olmadı, amma sonra Allahın üzünü *görməyi* diləyərək əməllər etdin, onda uca Allah bunun sayəsində sənin dərəcəni və hörmətini artırar. Yəni, məkanda olan dərəcəni, məqamda olan hörmətini *artırar*. Hətta sən, *əvvəl* Məkkədən hicrət etmiş olduğun halda, orada qalıb *yaxşı* əməllərini orada etmiş olsan da, Allah, Nəim cənnətlərində sənin dərəcələrini artırar.

Sonra Peyğəmbər ﷺ dedi: **"Ümid edirəm ki, sən uzun ömür yaşayacaqsan."** Yəni, dünya həyatında ömrün uzun olacaq. Bu, həqiqətən də, belə oldu. Səd ibn Əbu Vəqqas ﷺ uzun ömür yaşadı. Hətta alimlərin dediyinə görə *bu hadisədən sonra* onun on yeddi oğlu və on iki qızı dünyaya gəlir. *Bildiyimiz kimi* əvvəlcə onun yalnız bir qızı var idi, lakin bundan sonra o həyatda qaldı və uzun ömür yaşadı. Allah da ona ruzi olaraq on yeddi oğlan və on iki qız övladı bəxş etdi.

Peyğəmbər ﷺ dedi: **"Ümid edirəm ki, sən uzun ömür yaşayacaqsan, hətta bəziləri səndən faydalanacaq, digərləri də zərər görəcəklər."** Bu da, həmçinin, baş vermişdir. Həqiqətən, Səd ﷺ uzun ömür yaşadı və İslamın bir çox fəthlərində onun böyük əməyi oldu. O, böyük və əzəmətli fəthlərdə iştirak etdi. Bununla da, onun sayəsində bəzi qövmlər, yəni müsəlmanlar faydalandı, digərləri də, yəni kafirlər zərər gördü.

Sonra Peyğəmbər ﷺ dedi: **“Allahım, səhabələrimin hicrətini tamamla!”** Peyğəmbər ﷺ Allahdan səhabələrinin hicrətini tamamlamasını istədi. Bu da, iki şeylə tamamlanır:

Birincisi: Onların imanda sabit qalmaları sayəsində. Çünki, adam imanda sabit qalarsa, hicrətində də sabit qalar.

İkincisi: Məkkədən çıxıb, Allah və Onun rəsulu ﷺ üçün hicrət etdikdən sonra yenidən oraya qayıtmamaları sayəsində. Çünki sən Allah və Onun rəsulu ﷺ öz ölkəni tərk edib oradan çıxsan, bu ölkənin məsəli, sədəqə verdiyin malın məsəlinə bənzəyir. *Tərk etdiyin* həmin ölkə, sədəqə olaraq verdikdən sonra geri qaytara bilmədiyin mala bənzəyir. İnsanın, Allah xatirinə tərk etdiyi hər bir şey belədir, yəni, geri qaytarılmır.

Məsələn: Allaha tövbə edərək, həm televizorun özündən, həm də onun içərisində olan şərlərdən uzaq durmaq üçün televizorlarını evlərindən çıxaran insanların əksəriyyəti buna müvəffəq olmamışlar. Belə ki, bu əməldən sonra onlar belə bir sual vermişlər: “Biz onu yenidən evə qaytara bilərikmi?” Biz isə cavabında belə deyirik: “Xeyr, olmaz. Onu Allah üçün çıxartdıqdan sonra yenidən qaytarmayın. Çünki insan nəyi Allah üçün tərk edirsə, *bir daha* ona geri qayıtmamalıdır. Məhz buna görə də, Peyğəmbər ﷺ, Rəbbinə dua edib Ondan səhabələrinin hicrətlərini tamamlamağı istəmişdir.

Peyğəmbər ﷺ dedi: **“Onları geri qaytarma!”** Yəni, onları imandan geri qoyma ki, geri dönməsinlər. Çünki küfr geri qalmaq, iman isə irəli getməkdir. Bu da ateistlərin iddia etdiklərinin tam əksidir. Belə ki, onlar, İslamı mürtəce bir din kimi vəsf edir və belə deyirlər: “Həqiqətən mütərəqqilik, insanın İslamdan kənara çıxması və dinsiz olmasıdır.” Yəni, imanla küfr, asiliklə də itaət arasında fərq qoymurlar. Əslində isə əsl tərəqqi imandadır. Öndə gedənlər də, məhz möminlərdir. Tərəqqi, imanın sayəsində olur. İmandan dönmək isə geriləməkdir. Peyğəmbərin ﷺ bu hədisdə dediyi kimi: **“Onları geri qaytarma!”**

Bu hədisdə çoxlu və böyük faydalar vardır:

Faydalardan biri budur ki, xəstəni ziyarət etmək Rəsulullahın ﷺ sünnəsi idi. Belə ki o, Səd ibn Əbu Vəqqası رضي الله عنه ziyarət etdi. Xəstə ziyarətində, həm ziyarət edən üçün, həm də xəstə üçün faydalar vardır:

Ziyarət edənə gəlincə, o, müsəlman qardaşının haqqını ödəmiş sayılır. Çünki müsəlman qardaşının haqlarında biri də budur ki, o xəstələndikdə onu ziyarət edəsən.

Həmçinin, insan xəstəni ziyarət etdikdə, *evinə* qayıdanadək Cənnət xürfəsində olar. Yəni, *evə* qayıdanadək Cənnətin bir yerə toplanmış meyvələrinin başında olar.

Habelə, xəstəni ziyarət edən üçün, Allahın ona bəxş etdiyi sağlamlıq nemətini xatırlatma vardır. Çünki, o, həmin xəstəni və ona üz vermiş bu xəstəliyi gördükdə, özünə baxıb, özünün sağlam olduğunu görür və bu sağlamlıq sayəsində Allahın ona verdiyi nemətin qədrini bilir. Çünki bir şeyin əksini gördükdə onun dəyəri bilinir.

Eləcə də, xəstəni ziyarət etmək *müsəlmanlar arasında* isti münasibət və sevgi yaradır. Adam xəstəni ziyarət etdikdə, bu ziyarət həmişəlik xəstənin yadında qalır və onu xatırlayır. Hər dəfə də bu ziyarəti xatırladıqda, onu ziyarət edəni sevməyə başlayır. Bu hadisə çox vaxt xəstə sağaldıqdan sonra baş verir. Belə ki, o səninlə görüşür və sənə öz təşəkkürünü bildirir. Sən də görürsən ki, bu əməldən onun qəlbi şad olur.

Xəstəyə gəldikdə isə, bu ziyarətin onun üçün də faydaları vardır: Belə ki, bu ziyarət onu şad edir, qəlbini genişləndirir, ona üz vermiş bu kədəri, üzüntünü və xəstəliyi aradan qaldırır. Həmçinin, ziyarət edən adam xeyir əməlləri, tövbəni, vəsiyyəti xəstənin yadına salır və o da bundan faydalanır. Boynunda olan borcları və ya bu kimi şeyləri vəsiyyət etmək istəyirdisə, bu xatırlatma ona böyük fayda verir.

Ona görə də alimlər deyirlər ki, xəstəni ziyarət edən adamın xəstəyə təsəlli verməsi, yəni onu fərəhləndirməsi gərəkdir. Adam xəstəyə, "Ma şaa Allah, sən bu gün xeyir içindəsən" və yaxud buna bənzər sözlər deməlidir. Xəstəyə: "Sən bu gün yaxşısan"– demək lazım deyil. Ola bilər ki, həmin gün adamın xəstəliyi dünənkinə nisbətən daha şiddətli olsun. Ona görə də xəstəyə: "Sən bu gün xeyir içindəsən"– desin. Çünki möminin başına gələn hər bir əməl onun xeyrinədir. Başına xeyir iş gəlsə də, müsibət gəlsə də, o xeyir içindədir. Odur ki, xəstəyə: "Allaha həmd olsun, sən bu gün xeyir içindəsən"– desin. Yaxud da, onun qəlbinə fərəh salan, buna bənzər sözlər desin.

Əcəl qaçılmazdır, əgər adamın əcəli bu xəstəlikdədirsə öləcək, yox, əgər onun əcəlinə *bu xəstəlikdən sonra* dünya həyatında edəcəyi əməllər yazılıbsa, onda sağ qalacaqdır.

Həmçinin, tovbə etməyi də xəstəyə xatırlatmaq lazımdır. Lakin bu birbaşa deyilməməlidir. Yaxsa xəstə bundan narahat olar və özlüyündə düşünər ki, əgər mənim xəstəliyim bu qədər təhlükəli olmasaydı, mənə tövbəni xatırlatmazdılar. Odur ki, xəstəyə xatırlatma olsun deyə, ilk olaraq tövbə edənləri tərif edən ayə və hədislərdən başlamalıdır.

Eləcə də vəsiyyət etməyi xəstənin yadına salmaq lazımdır. Ona birbaşa olaraq: "Əcəlin yaxınlaşıb, vəsiyyət et!"– deməməlidir. Əgər elə deyərsə, xəstə narahat olar. Odur ki, vəsiyyətlə bağlı hekayələri onun yadına salmalıdır. Misal üçün belə deməlidir: "Filankəsin borcu var idi... O, tədbirli adam idi. Ona görə də öz ailəsinə, onun borclarını ödəməyi tövsiyə edərdi." Yaxud buna bənzər, xəstəni narahat etməyən sözlər deməlidir. Alimlər demişlər: "Adam hiss etsə ki, xəstə ona ruqya oxunmasını istəyir, o zaman ona ruqya oxumalıdır. Məsələn, ona, Peyğəmbərdən ﷺ varid olan bu duaları oxuyur:

(( اللَّهُمَّ رَبَّ النَّاسِ، أَذْهِبِ الْبَاسَ، اشْفِهِ، وَأَنْتَ الشَّافِي، لاَ شِفَاءَ إِلاَّ شِفَاؤُكَ، شِفَاءً لاَ يُغَادِرُ سَقَمًا ))

"Ey insanların Rəbbi, bu xəstəliyi aradan qaldır və şəfa ver. Sənsən Şəfa verən! Sənin verdiyin şəfadan başqa şəfa yoxdur. *Ona* elə bir şəfa ver ki, bundan sonra *onda* heç bir xəstəlik qalmasın."[1]

(( رَبَّنَا اللَّهُ الَّذِي فِي السَّمَاءِ، تَقَدَّسَ اسْمُكَ، أَمْرُكَ فِي السَّمَاءِ وَالأَرْضِ، كَمَا رَحْمَتُكَ فِي السَّمَاءِ فَاجْعَلْ رَحْمَتَكَ فِي الأَرْضِ، اغْفِرْ لَنَا حُوبَنَا وَخَطَايَانَا، أَنْتَ رَبُّ الطَّيِّبِينَ، أَنْزِلْ رَحْمَةً مِنْ رَحْمَتِكَ وَشِفَاءً مِنْ شِفَائِكَ عَلَى هَذَا الْوَجَعِ ))

"Rəbbimiz göydə olan Allahdır. *Ey Rəbbimiz* Sənin adın müqəddəsdir. Sənin rəhmətin göydə olduğu kimi, hökmün də həm göydə, həm də yerdədir. Elə isə rəhmətini də yerə endir! Bizim günahlarımızı və

---

[1] Səhih əl-Buxari, 5675; Səhih Muslim, 2191.

xətalarımızı bağışla! Sən pak olanların Rəbbisən. Bu xəstəliyə qarşı Öz rəhmətindən elə bir rəhmət, elə bir şəfa endir ki, *xəstə* sağalsın."[1]

Ya da onun üçün "əl-Fatihə" surəsini oxuyur. Çünki, "əl-Fatihə" surəsi, həm də ruqyadır. Bu surə xəstələrə, əqrəb və ya ilan sancan adamlara, yaxud buna bənzər digər şeylər üçün oxunur.[2] Xəstəni ziyarət edən adam nə vaxt hiss etsə ki, xəstə ona ruqya oxunmasını istəyir, dərhal oxusun. Belə etsin ki, xəstə öz dili ilə, ona ruqya oxunmasını tələb etməsin. Çünki Peyğəmbər ﷺ belə demişdir: "Ümmətimdən yetmiş min nəfərin sorğu-sual olunmadan və əzab çəkmədən Cənnətə girdiyini gördüm." Sonra o dedi: "Bunlar özlərinə ovsun oxunmasını tələb etməyən, *müalicə məqsədilə* bədənlərinə dağ basdırmayan, *hər hansı bir hadisəni* uğursuzluq əlaməti hesab etməyən və yalnız Rəbbinə təvəkkül edən kimsələrdir."[3] Peyğəmbərin ﷺ "Bunlar özlərinə ovsun oxunmasını tələb etməyən... kimsələrdir" sözü o deməkdir ki, onlar heç kimdən özlərinə ruqya oxunmasını istəmirlər. Əgər görsən ki, xəstənin ürəyindən keçir ki, sən ona ruqya oxuyasan, onda oxu ki, o çıxılmaz vəziyyətə düşüb ruqya onunmasını *dili ilə* tələb etməsin.

Həmçinin, görsən ki, xəstə onun yanında çox dayanmağını istəyir, onda onun yanında çox dayan. Belə halda sən xeyir və savab qazanmış olarsan. Elə isə onun yanında qalma müddətini uzat və ona sevinc yaşat. Bəlkə də onun qəlbinə sevinc salmağın, onun şəfa tapması üçün bir səbəb ola bilər. Çünki xəstənin sevinci və onun qəlbinin fərəhlə dolması, şəfa tapmaq üçün ən böyük səbəblərdəndir. Əgər görsən ki, o, sənin qalmağını istəyir, onda o, yorulanadək onun yanında qal. Yox, əgər görsən ki, xəstə narahatdır və sənin qalmağını istəmir, yaxud onun yanından getməyini, habelə, ailəsinin gəlməsini və bir az rahatlıq tapmasını istəyir, onda çox qalma, ondan hal-əhval tut, sonra çıx get.

---

[1] Sunən Əbu Davud, 3892; Mustədrək əl-Hakim, 1/343-344. Hakim demişdir: "Buxari və Muslim, Ziyadə ibn Muhəmməddən başqa bu hədisin ravilərinin hamısına etimad etmişlər. Ziyadə ibn Muhəmmədə gəlincə, o, az sayda hədis rəvayət edən Misir şeyxlərindəndir." Zəhəbi "Təlxis" əsərində demişdir: "Buxari və başqaları *onun haqqında* "hədisi munkərdir" ifadəsini işlətmişlər."

[2] Çünki Peyğəmbər ﷺ "əl-Fatihə" surəsi ilə ruqya edən adamın əməlini təsdiq etmiş. Səhih əl-Buxari, 5749; Səhih Muslim, 2201.

[3] Səhih əl-Buxari, 5752; Səhih Muslim, 220.

Hədisin faydalarından biri də Peyğəmbərin ﷺ gözəl əxlaq sahibi olmasıdır. Şübhə yoxdur ki, Peyğəmbər ﷺ insanların ən əxlaqlısı idi. Bu xüsusda uca Allah buyurur: **"Nun. And olsun qələmə və qələmə alınanlara! Məhz Rəbbinin mərhəməti sayəsində sən dəli deyilsən. Şübhəsiz ki, sənin üçün tükənməz bir mükafat hazırlanmışdır. Həqiqətən də, sən böyük əxlaq sahibisən!"**[1] İnsanlar arasında ən böyük və ən gözəl əxlaq sahibi Rəsulullahdır ﷺ. Bu səbəbdən də o, öz səhabələrinə baş çəkər, onları ziyarət edər, onlara salam verərdi. Hətta o, balaca uşaqların yanından keçdikdə, *dayanıb* onlara salam verərdi.

Hədisin faydalarından biri də odur ki, bir işi görmək istədikdə elm əhli ilə məşvərət etmək lazımdır. Çünki, Səd ibn Əbu Vəqqas رضي الله عنه malından sədəqə vermək istədikdə, Peyğəmbərdən ﷺ məsləhət istədi və ona belə dedi: "Mənim var-dövlətim çox, qızımdan başqa da bir varisim yoxdur. Malımın üçdə ikisini sədəqə verə bilərəmmi?" Peyğəmbər ﷺ də ona "Xeyir!"– deyə cavab verdi.

Bu onu göstərir ki, hər bir sahəyə uyğun onun əhli ilə məşvərət edirsən. Məsələn, dinə aid olan hər hansı bir əmələ başlamaq istəyirsənsə, onda *dini sahədə* elmi olan adamla məsləhətləş. Çünki onlar dinə aid olan məsələləri başqalarından daha yaxşı bilirlər. Yox, əgər ev almaq istəyirsənsə, onda ev alqı-satqısı ilə məşğul olan ofislərlə məsləhətləş. Avtomobil almaq istədikdə də, avtomobil sahəsindəki mütəxəssislərlə məsləhətləş.

Ona görə də belə bir deyim var: "istixarə[2] edən yanılmaz, məsləhətləşən də peşiman olmaz."

Şübhə yoxdur ki, insan kamil deyildir. Özünün kamil olduğunu iddia edən insan isə naqis insandır. Odur ki, adam, ümmətə aid olan ən mühüm məsələlərdə başqaları ilə də məşvərət etməlidir. Həqiqətən, ruh yüksəkliyi və təəssübkeşlik, insanı, öz düşüncəsinə görə haqlı hesab etdiyi və qəbahət saymadığı bir əməli yerinə yetirməyə sövq edə bilər. Lakin, bu əməli yerinə yetirən adam, insanların dedi-qodularına görə, ya zamanında, ya məkanında, ya da durumunda doğru qərar ver-

---

[1] əl-Qələm, 1-4.

[2] Bir işə başlamaq istədikdə Allahdan uğur diləmək.

məmiş sayılar. Elə buna görə də Peyğəmbər ﷺ, fitnədən ehtiyat etdiyi üçün, Kəbənin, İbrahim peyğəmbərin ﵇ bünövrəsinə uyğun olaraq tikilməsini tərk etdi və Aişəyə ﵂ belə dedi: "Əgər sənin qövmün küfrdən təzə çıxmış olmasaydı, Kəbəni söküb, İbrahimin bünövrəsinə uyğun tikərdim. Habelə, ona iki qapı qoyardım ki, insanlar o qapının birindən daxil olar, o birisindən də çıxardılar."[1] Peyğəmbər ﷺ belə etmək istəmişdir ki, insanlar üçün, Allahın evinə daxil olmağa imkan yaransın. Lakin o, məsləhət olmasına baxmayaraq, dedi-qodu fitnəsindən ehtiyat etdiyi üçün bunu etmədi.

Bundan da şiddətlisi odur ki, uca Allah müşriklərin ilahlarını söyməyi qadağan etmişdir. Hərçənd müşriklərin ilahları söyülməyə, təhqir olunmağa və nifrət edilməyə layiqdirlər, lakin, onları söymək, hər cür eyb və nöqsanlardan uzaq olan Əzəmətli Rəbbimizi söyməklə nəticələndiyinə görə, uca Allah belə buyurmuşdur: ***"Müşriklərin* Allahdan başqalarına tapındıqlarını söyməyin. Yoxsa onlar da elmsiz olaraq düşməncəsinə Allahı söyərlər. Biz hər bir ümmətə öz əməllərini beləcə gözəlləşdirdik. Sonra isə onların dönüşü öz Rəbbinə olacaq, O da nə etdikləri barədə onlara xəbər verəcəkdir."**[2]

Xülasə budur ki, hər hansı bir şey öz-özlüyündə və öz sahəsinə görə gözəl ola bilər, lakin onu hər bir zamanda və ya hər bir məkanda, ya da hər bir halda etmək, yaxşı əməldən, hikmətdən, *sağlam* düşüncədən, səmimiyyətdən və sədaqətdən sayılmaz. Hətta bu şey, öz-özlüyündə haqq, doğru və həqiqət sayılsa da belədir. Bütün bunları bilmək lazımdır. Bundan əlavə, adam həmin işə başlamamışdan öncə, bu işdə elmli, hikmətli və nəsihət verən insanlarla məşvərət etməlidir ki, sabahkı gün əlində dəlil olsun. Çünki uca Allah, məxluqatın ən şərəflisi, ən sağlam düşüncəyə sahib olanı və ən kamil nəsihət verəni olan Muhəmmədə ﷺ belə buyurmuşdur: **"Elə isə onları əfv et, onlar üçün *Allahdan* bağışlanma dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et!"**[3] Ən sağlam fikrə və ən düzgün düşüncəyə sahib olan və ən kamil şəkildə nəsihət verən Rəsulullahın ﷺ halı budur.

---

[1] Səhih əl-Buxari, 126; Səhih Muslim, 1333.

[2] əl-Ənam, 108.

[3] Ali-İmran, 159.

Ola bilər ki, insanı təəssübkeşliyi bürüyər və o, tələsdiyindən belə deyər: "Bu *əməl* Allah üçündür, onu mən özüm yerinə yetirəcəm və haqqa tabe olacam." Bu adama belə deyirik: "Allah üçün, səni qınayanlara görə məni sorumlu tutma." Yaxud buna bənzər sözlər deyərik. Sonra da nəticə gözlənilməz olacaq. Həqiqətən, əksər hallarda, təəssübkeş olan adam, nə sonluqlara, nə də nəticələrə nəzər salar, nə də ki, hadisələri bir-biri ilə uyğunlaşdırar. Odur ki, əksər hallarda *təəssübkeş olan adamın* əli ilə elə bir fəsadlar baş verir ki, onu yalnız Allah bilir. Hərçənd, onun niyyəti yaxşı, məqsədi də gözəl idi, lakin, *bu niyyətə görə* hərəkəti gözəl olmadı. Çünki, gözəl niyyətlə, gözəl hərəkət arasında fərq var. Ola bilər ki, insan gözəl niyyət edər, lakin hərəkətə gəldikdə *onu* korlayır. Bəzən də olur ki, adamın niyyəti də pis olur. Əksər hallarda da niyyəti pis olanın hərəkəti də pis olur. Amma bununla yanaşı, hərdən elə olur ki, pis məqsədinə nail olmaq üçün, adamın hərəkəti yaxşı olur.

İnsana gözəl niyyətinə görə çox sağol deyilir, amma pis hərəkətinə görə bu deyilmir. Yalnız, *gözəl* öyüd-nəsihəti ilə tanınmış adamdan pis hərəkət gördükdə, ona üzr gətirilir. Yəni, onun üçün üzr axtarılır. Həmçinin, onun, haqqa müvafiq olmayan bu hərəkəti *başqaları tərəfindən* təkrarlanmamalıdır. Habelə, bu hərəkətə görə həmin adama eyib tutulmamalıdır. Əksinə, onun üçün üzr gətirilməli, *bu pis hərəkət* ona bəyan olunmalı və ona öyüd-nəsihət edilməlidir. Ona belə demək olar: "Qardaşım, sənin bu sözün və ya hərəkətin öz-özlüyündə yaxşı, gözəl və doğrudur. Lakin məqamına, zamanına və məkanına görə doğru deyil."

Xülasə budur ki, Səd ibn Əbu Vəqqasın ﵁ hədisi, insanın, daha kamil düşüncəyə və daha çox elmə sahib olan adamlarla məşvərət etməsinin gərəkli olmasına işarədir.

Hədisdə olan faydalardan biri də budur ki, məsləhət istəyən adam məsələni olduğu kimi izah etməli, onun səbəblərini, ona mane olan amilləri, ümumiyyətlə, məsələ ilə bağlı hər bir şeyi *ətraflı* deməlidir ki, məsləhət verən adama məsələnin həqiqi tərəfi bəlli olsun və məsləhətini bu həqiqət üzərində qursun. Ona görə də Səd ﵁ belə demişdir: **"Mənim var-dövlətim çox, qızımdan başqa da bir varisim yoxdur."**

**"Mənim var-dövlətim çoxdur"**- sözü, sədəqə verməyinin səbəbini açıqlayır. **"Qızımdan başqa da bir varisim yoxdur"**- sözü də, manea-

nin olmamasını açıqlayır. Yəni, varisimin olmadığına görə çoxlu sədəqə verməyimə mane olan amil yoxdur.

Məsləhət verən adam da, məsləhətində Allahdan qorxmalı və məsləhət istəyənin istəyinə uyğun olsun deyə təəssübkeşlik etməməlidir. Çünki bəzi adamlardan məsləhət istədikdə, onlar məsləhət istəyən adamın iki məsələdən hansı birinə meyil etdiyini gördükdə ona uyğun məsləhət verir. Məsləhət verən həmin adam belə deyir: "Mən, o adamın özünə münasib bildiyinə uyğun məsləhət vermək istəyirəm." Bu böyük bir xəta və xəyanətdir. *Odur ki, s*əndən məsləhət istəyən adama, razı qalsa da, qalmasa da, haqq və faydalı bildiyini deməyin vacibdir. Əgər belə etsən, *əsl* nəsihətçi sayılarsan və boynuna düşəni ödəmiş olarsan. Sonra həmin adam, nəsihəti qəbul edib, onu doğru hesab edərsə bu *sənin xeyrinə olar,* yox, əgər nəsihəti qəbul etməzsə, sənin boynundan yük götürülər. Amma onun danışığından nəticə çıxarsan ki, o, filan şeyi istəyir, sonra ona həmin şeyi məsləhət görsən, bu böyük bir xəta və xəyanət olar. Halbuki sən, *onun danışığından nəyə meyl etdiyi barədə* səhv nəticə də çıxara bilərsən. Nəticə çıxararsan ki, o filan şeyi istəyir, amma əslində onu istəmirmiş. Belə olduğu halda sən iki yöndən ziyana uğramış olarsan:

Birinci yön: Pis düşüncəyə görə;

İkinci yön: Pis məqsədə görə.

Peyğəmbərin ﷺ **"Xeyr!"**- sözü dəlalət edir ki, adam *cavab olaraq* "Xeyr!" sözünü işlədə bilər və bu sözü işlətməkdə qəbahət yoxdur.

Belə ki, həm Peyğəmbər ﷺ "Xeyr!" sözünü işlətmiş, həm də onun səhabələri onunla *söhbət zamanı* "Xeyr!" sözünü işlətmişlər. Məsələn, bir dəfə Cabirin رضي الله عنه dəvəsi taqətdən düşür və Peyğəmbər ﷺ ona yetişir. Belə ki, *dəstənin* sonunda getmək Peyəmbərin ﷺ adəti idi. Çünki o, *hər zaman* ümmətinin qayğısını çəkərdi. Dəstənin əvvəlində yox, sonunda ona görə gedirdi ki, bir adamın nəyəsə ehtiyacı olsa ona kömək etsin. Təvazökarlığa və gözəl qayğıya bir baxın!

Peyğəmbər ﷺ Cabirə رضي الله عنه yetişdi – çünki onun dəvəsi yorulub, taqətdən düşmüşdü və yeriyə bilmirdi – və *əlindəki ağacla* dəvəni vurdu.

*Sonra* onun üçün dua etdi və *Cabirə* ﷺ dedi: "Bir övqiyə[1] müqabilində onu mənə sat." Cabir, "Xeyr!"– dedi.[2] Peyğəmbər ﷺ də onun "Xeyr!" sözünə etiraz etmədi. *Bizim* bu hədisdə də, Səd Peyğəmbərə ﷺ **"Malımın üçdə ikisini sədəqə verə bilərəmmi?"**- dedikdə, o **"Xeyr"**- deyə cavab vermişdir. Deməк "Xeyr" kəlməsini işlətməkdə heç bir qəbahət yoxdur. Çünki bu, ədəbsizlik və pis əxlaq sayılmır. İndiki vaxtda əksər insanlar "Xeyr!" kəlməsini işlətməyi özünə ayıb sayır və onun əvəzinə "Sənin salamatçılığın" kəlməsini işlədir. Sənin dua edib adam üçün salamatçılıq diləməyin yaxşı bir işdir, amma "Xeyr!" desəydin bu sənin üçün eyib sayılmazdı.

Hədisin faydalarından biri də budur ki, qorxulu bir xəstəliyə tutulmuş adamın, malının üçdə birindən çoxunu sədəqə verməsi caiz deyil. Adam bunu yalnız varislər icazə verdikdən sonra edə bilər. Çünki, varislərin haqqı mala bağlıdır. Odur ki, adam xəstələndikdə malının üçdə birindən çoxunu sədəqə verə bilməz. Çünki, Peyğəmbər üçdə iki barəsində də, yarısı barəsində də **"Xeyr!"**- demişdir. Üçdə biri barəsində isə, **"Üçdə biri, üçdə biri də çoxdur"**- demişdir. Bu da dəlildir ki, adamın sədəqəsi, *malının* üçdə birindən az olmalıdır. Bu xüsusda İbn Abbas demişdir: "Nə olaydı, insanlar üçdə birdən dörddə birə azaldardılar. Çünki Peyğəmbər ﷺ: "Üçdə birini *verə bilərsən,* lakin üçdə biri də çoxdur"– demişdir."

Hədisin faydalarından biri də budur ki, adam ölüm ehtimalı olan bir xəstəliyə tutularsa, onun, malının üçdə birindən çoxunu nə sədəqə, nə məscid tikintisinə, nə hədiyyə, nə də başqa bir iş üçün verməsi caizdir. Üçdə birin üzərinə heç bir şey artırmamalıdır. Çünki Peyğəmbər ﷺ Sədə *malının* üçdə birindən çoxunu sədəqə verməyi qadağan etmişdir.

Faydalardan biri də budur ki, üçdə birdən aşağı, yəni, dörddə birə, beşdə birə və bundan da aşağı salmaq müstəhəbdir. Çünki, Peyğəmbərin ﷺ: **"Üçdə biri də çoxdur"** sözü, üçdə birdən aşağı salmağın müstəhəb olmasına işarədir. İbn Abbas bunu dəlil götürüb demişdir: "Nə olaydı, insanlar üçdə birdən dörddə birə azaldardılar. Çünki Peyğəmbər ﷺ: "Üçdə birini *verə bilərsən,* lakin üçdə biri də çoxdur"– demişdir."

---

[1] Bir övqiyə 40 dirhəmə bərabərdir.

[2] Səhih əl-Buxari, 2718; Səhih Muslim, 715.

Vəsiyyətin hökmü də, sədəqə kimidir. İnsanın, ölümündən sonra malının üçdə birindən çoxunu kiməsə vəsiyyət etməsi caiz deyildir. *Vəsiyyət edərkən* üçdə bir və ya ondan az olmalıdır. Vəsiyyətdə ən fəzilətli olan isə, malın beşdə birini vəsiyyət etməkdir. Çünki Əbu Bəkr ﷺ Allahın Özü üçün razı olduğu ilə razı olmuşdur.[1] Yəni, beşdə biri ilə. Odur ki, o, *malının* beşdə birini vəsiyyət etmişdir. Bundan sonra fəqihlərimiz – Allah onlara rəhmət eləsin! – belə demişlər: "Adam *ölümündən sonra* çoxlu mal qoyub gedərsə, onun beşdə birini vəsiyyət etməsi sünnədir."

Bu hədisin faydalarından biri də budur ki, adamın malı az, varisləri də kasıb olarsa, onda ən fəzilətlisi budur ki, heç bir şey vəsiyyət etməsin. Yəni, nə az bir hissəsini, nə də çox bir hissəsini *vəsiyyət etməlidir.* Çünki Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, varislərini zəngin qoyub getməyin, onları insanlara əl açan, kasıb bir vəziyyətdə qoyub getməyindən daha xeyirlidir."** Bəzi avamlar elə güman edirlər ki, mütləq vəsiyyət etmək lazımdır. Bu, yanlış fikirdir. Adamın malı az, varisləri də heç bir malı olmayan kasıblar olarsa, o, vəsiyyət etməməlidir. Yəni, əfzəl odur ki, vəsiyyət etməsin.

Bəzi avamlar elə güman edirlər ki, vəsiyyət etməsə savab qazanmayacaq. Əslində isə belə deyil. Əksinə, o, öz malını varislərinə saxlasa buna görə savab qazanacaq. Hətta varislər *öz miraslarını* zor gücünə alsalarda belə. Lakin adam Peyğəmbərin ﷺ: **"Şübhəsiz ki, varislərini zəngin qoyub getməyin, onları insanlara əl açan, kasıb bir vəziyyətdə qoyub getməyindən daha xeyirlidir"**– sözünü sünnə olaraq rəhbər tutub *vəsiyyət etməsə,* bunun savabı, malından sədəqə olaraq verdiyi zaman *qazanacağı savabdan* daha fəzilətlidir.

Hədisin faydalarından biri də, Məkkədən hicrət etmiş səhabələrin, orada vəfat etmələrindən qorxmalarıdır. Çünki Səd ﷺ belə demişdir: **"Mən *burada ölüb mömin* qardaşlarımdan geridəmi qalacağam?"** Bu cümlə sual cümləsidir. Belə ki, **"Geridəmi qalacağam?"** cümləsi, arzuolunmaz cavabı ola bilən sualdır. Yəni, o, Allah və Onun rəsulu ﷺ üçün

---

[1] Uca Allah buyurur: "Bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur." (əl-Ənfal, 41).

Məkkəni tərk etdikdən sonra, *səhabələrdən* geridə qalıb orada ölmək istəmirdi. Adamın Allah üçün tərk etdiyi hər bir şey belədir, yenidən ona qayıtmamalıdır. Əvvəldə, bu hədisin şərhində qeyd etmişdik ki, bəzi insanların hərəkətləri buna aiddir. Belə ki, onlar televizorun zərərlərinin və fəsadlarının xeyrindən çox olduğunu gördükdə, Allah üçün onu tərk edib sındırdılar və *belələiklə də* ondan yaxalarını qurtardılar. Bundan sonra isə gəlib: "Onu yenidən geri qaytara bilərikmi?"- deyə sual verirlər. Biz belə cavab veririk: "Nə qədər ki, Allahın üzünü diləmək xatirinə bir şeydən xilas olmusan, onu bir daha geri qaytarma. Allah üçün tərk etdiyin bir şeyi *yenidən* geri qaytarma."

Hədisin faydalarından biri də, Peyğəmbərin ﷺ möcüzəsinin təzahürüdür. Belə ki, Peyğəmbər ﷺ Sədə رضي الله عنه: **"Sən geri qalmayacaqsan!.. Ümid edirəm ki, sən uzun ömür yaşayacaqsan, hətta bəziləri səndən faydalanacaq, digərləri də zərər görəcəklər"**- demişdir. Həqiqətən də, bu, Peyğəmbərin ﷺ xəbər verdiyi kimi də oldu. Peyğəmbərin ﷺ bu sözündən sonra Səd رضي الله عنه, Ömərin رضي الله عنه və Müaviyənin رضي الله عنه xilafətinə qədər uzun müddət yaşadı. Peyğəmbərin ﷺ, gələcəkdə baş verəcək hadisə barədə xəbər verməsi və həmin hadisənin də onun xəbər verdiyi kimi baş verməsi, onun möcüzələrindəndir. Lakin bu, sadə bir xəbər deyildir, əksinə *həm də* ümiddir. Çünki Peyğəmbər ﷺ: **"Ümid edirəm ki, sən uzun ömür yaşayacaqsan"**- demiş və qəti hökm verməmişdir. Lakin məsələ onun təxmin etdiyi kimi də baş verir.

Hədisin faydalarından biri də budur ki, Allahın üzünü *görməyi* diləyərək *yaxşı* əməl edən elə bir insan yoxdur ki, bu əməlinin sayəsində onun dərəcəsi və hörməti artmasın. Hətta o, *bu əməli,* qalması halal olmayan bir məkanda etsə də, belədir. Çünki əməl bir şeydir, qalmaq isə başqa bir şeydir.

Buna əsasən elm əhlinin ən doğru rəyi odur ki, insan, qəsb olunmuş ərazidə namaz qılarsa, onun namazı səhihdir. Çünki, qadağa namaza aid deyil, əksinə, qadağa qəsbə aiddir. Demək, qadağa namazdan qeyri bir şeyə yönəlib. Odur ki, adamın qəsb olunmuş yerdə qıldığı namazı səhihdir. Amma o, bu qəsb olunmuş yerdə qalmağına görə günah qazanır. Bəli, əgər Rəsulullah ﷺ: "Qəsb olunmuş yerdə namaz qılma"- desəydi, onda biz belə deyərdik: "Qəsb olunmuş yerdə namaz qılsan,

namazın batildir." Necə ki, qəbirstanlıq barəsində: "Qəbirstanlıqda namaz qılsan namazın batildir"- deyirik. Çünki Peyğəmbər ﷺ belə demişdir: "Qəbirstanlıq və hamamdan başqa yer üzünün hər bir yeri namazğahdır."[1] Bu, cənazə namazına aid deyil. Çünki cənazə namazını qəbirstanlıqda qılmaq caizdir.

Hədisin faydalarından biri də budur ki, adam Allahın üzünü diləyərək bir şey xərcləyərsə, buna görə savab qazanar. Hətta, ailəsinə, həyat yodaşına və özünə xərcləsə belə – əgər bunu Allahın üzünü diləyərək edərsə – Allah buna görə ona savab verər. Demək insan, xərclədiyi hər bir şeydə Allaha yaxınlaşmağı niyyət etməlidir ki, buna görə o savab qazansın. Allahın üzünü diləyərək özünə, ailənə, dostlarına və ya istənilən bir insana xərclədiyin hər bir xırda və ya böyük şeyə görə Allah sənə savab yazar.

Peyğəmbərin ﷺ: **"Yazıq Səd ibn Xəulə"**- sözünə gəlincə, Səd ibn Xəulə ﵁ Məkkədən *Mədinəyə* hicrət etmiş mühacirlərdən idi. Lakin Allah onun qədərinə Məkkədə vəfat etməyi yazmış, o da orada vəfat etmişdir. Məkkədə vəfat etdiyinə görə Peyğəmbər ﷺ onun halına acımışdı. Səhabələr, mühacirin adamın, hicrət etdiyi torpaqda vəfat etməsini xoşlamırdılar.

Bu hədis barədə bacardığımız qədər danışdıq. Müəllif – Allah ona rəhmət eləsin! – bu hədisi niyyətlə bağlı fəsildə zikr etmişdir. Çünki Peyğəmbər ﷺ Sədə ﵁ belə demişdir: **"Allahın üzünü *görməyi* diləyərək etdiyin əməllər sayəsində sənin dərəcən və hörmətin artacaq."** Həmçinin belə demişdir: **"Allahın üzünü *görməyi* diləyərək xərclədiyin hər şeyin savabını qazanırsan."** Peyğəmbər ﷺ bu hədisdə ixlasa işarə edir. Belə ki, insan *hər hansı bir* əməli etdikdə, habelə malını xərclədikdə Allahın üzünü dilədikcə, buna görə onun dərəcələri artar və Allah yanında məqamı yüksələr." Müvəffəq edən Allahdır.

٧ - وَعَنْ أبي هُرَيْرة عَبْدِ الرَّحْمن بْنِ صخْرٍ ﵁ قال: قالَ رَسُولُ الله ﷺ: «إِنَّ الله لا يَنْظُرُ إِلى أَجْسامِكْم، وَلا إِلى صُوَرِكُمْ، وَلَكِنْ يَنْظُرُ إِلَى قُلُوبِكُمْ وَأَعمالِكُمْ» رواه مسلم.

---

[1] Sunən Əbu Davud, 492; Sunən ət-Tirmizi, 317; Sunən İbn Macə, 745; Musnəd Əhməd, 3/83; Hədisi Şeyx Albani "İrva əl-Ğəlil" əsərində səhih hesab etmişdir, 287.

**7.** Əbu Hureyra Abdur-Rəhman ibn Saxr ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Allah sizin bədəninizə və zahiri görünüşünüzə baxmır. Lakin O, sizin qəlbinizə və əməllərinizə baxır."

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Bu hədis uca Allahın bu kəlamına dəlalət edir: **"Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Ondan* ən çox qorxanınızdır."**[2]

Pak və uca olan Allah bəndələrinin bədənlərinin böyük və ya kiçik olmasına, yaxud sağlam və ya xəstə olmasına, habelə onların zahiri görünüşünə, onların gözəl və ya çirkin olmasına baxmır. Bunların hamısı Allah yanında heç hesab olunur. Həmçinin, Allah, nəsəbə, onun ali və ya aşağı olmasına, habelə, var-dövlətə və bu qəbildən olan heç bir şeyə baxmır. Allahla bəndə arasında təqvadan başqa bir bağlılıq yoxdur. Kim Allahdan daha çox qorxarsa, Allaha daha yaxın və onun yanında ən hörmətli olar. Odur ki, var-dövlətinə, gözəlliyinə, bədəninə, övladlarına, qəsrlərinə, avtomobillərinə və bu dünyada olan heç bir şeyə görə heç vaxt fəxr etmə. Əgər Allah sənə təqvalı olmağı nəsib etmişsə, *bil ki,* bu Allahın sənə olan lütfüdür və *buna görə də* Allaha həmd elə. Peyğəmbər ﷺ belə demişdir: **"Lakin O, sizin qəlbinizə və əməllərinizə baxır."** Demək, hər şeyin başında qəlb durur. Bu, müəllifin, kitabın əvvəlində ən birinci zikr etdiyi "Əməllər ancaq niyyətlərə görədir..." hədisini gücləndirir.

Hər şeyin başında qəlb durur. Nə çox insanlar var ki, zahiri əməli sağlam, yaxşı və salehdir, lakin, *niyyəti* xarab olduğu üçün *əməli* puç olur. Əsas olan niyyətdir. İki adamın bir səfdə, bir imama tabe olaraq namaz qıldığını görürsən, lakin onların namazları arasındakı *fərq,* məşriqlə məğrib arası qədərdir. Çünki qəlblər müxtəlifdir. Onlardan birinin qəlbi qafildir, bəlkə də – Allah qorusun! – namazını özünü göstərmək və bunun sayəsində dünya malı əldə etmək üçün qılır. Amma di-

---

[1] Səhih Muslim, 2564.

[2] əl-Hucurat, 13.

gərinin qəlbi namazdadır, qıldığı namaz sayəsində Allahın üzünü *görmək* və Peyğəmbərə ﷺ itaət etmək istəyir.

Deməк, onlar arasında böyük fərq vardır. Odur ki, əmələ *verilən hökm*, qəlbdə olan *niyyətə* görə olur. Qiyamət günü olan cəza və ya mükafat da, qəlbdə olan *niyyətə* görə olacaq. Bu xüsusda uca Allah buyurur: **"Şübhəsiz ki, *Allah* onu *dirildib* qaytarmağa qadirdir. Sirlərin sınaqdan keçiriləcəyi gün."** [1] Yəni, zahiri əməllər deyil, *qəlbdə olan* sirlər sınaqdan keçiriləcək. Bu dünyada insanlar arasında verilən hökm zahiri əməllərə görədir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Mən sadəcə bir insanam. Siz də *hərdən* bir-birinizlə mübahisə edirsiniz. Lakin, hüccət baxımından biriniz digərinizdən daha bəlağətli olur və mən də hökmü, eşitdiyim sözlərə görə onun leyhinə çıxarıram."[2] Lakin Axirətdəki hökm *qəlbdəki* sirlərə görə olacaqdır. Allahdan istəyimiz budur ki, bütün sirlərimizi pak etsin.

Bilgi, *qəlbdəki* sirlərə görədir: Əgər *qəlbindəki* sirr yaxşı və sağlam olarsa, *bu* xeyrə görə sevinər, yox, əgər əksi olarsa, onda bütün xeyirləri itirərsən. Uca Allah buyurur: **"Məgər o bilmir ki, qəbirlərdə olanlar çıxardılacağı və kökslərdə olanlar aşkar ediləcəyi zaman."**[3] Demək, bilgi, qəlbdə olanlara görədir.

Əgər uca Allah Öz kitabında, Onun elçisi ﷺ də öz sünnəsində niyyəti düzəltməyi vurğulayırsa, onda *hər bir* insana niyyətini düzəltməsi, qəlbini islah etməsi, qəlbinə nəzər salıb orada şübhə gördüyü təqdirdə, onu yəqinliklə aradan qaldırması vacibdir. Bəs bunu necə etməlidir? Əlbəttə ki, ayələrə nəzər salmaqla. *Uca Allah buyurur:* **"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır.**[4] Həmçinin, O, buyurur: **"Həqiqətən, göylərdə və yerdə möminlər üçün dəlillər var. Sizin yaradılışınızda və *Allahın yer üzünə* yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün neçə-neçə dəlil var."**[5] Əgər şeytan sənin qəlbinə şübhə

---

[1] ət-Tariq, 8-9.

[2] Səhih əl-Buxari, 6967; Səhih Muslim, 1713.

[3] əl-Adiyat, 9-10.

[4] Ali-İmran, 190.

[5] əl-Casiyə, 3-4.

salarsa, Allahın ayələrinə nəzər sal. Bu kainata bax, gör onu kim idarə edir. Bax gör, hadisələr necə cərəyan edir, Allah günləri – *qalibiyyəti və məğlubiyyəti,* insanlar arasında növbə ilə necə dəyişdirir. *Bütün bunlara nəzər salsan,* bilərsən ki, bu kainatı idarə edən, hikmət sahibi olan *Allah* var. Şirkə gəldikdə isə, qəlbini ondan təmizlə. Qəlbimi şirkdən necə təmizləyə bilərəm?

Qəlbimi *bu cür* təmizləyərəm: Öz nəfsimə: "Allaha asi olsam, insanlar mənə nə fayda verə bilərlər, nə də məni əzabdan xilas edə bilərlər. Yox, əgər Allaha itaət etsəm, onlar mənə savab verə bilməzlər"- deyərəm.

Savabı verən də, əzabı dəf edən də Allahdır. Əgər iş bu yerdədirsə, onda nə üçün Allaha şərik qoşursan, nə üçün ibadət etdikdə məxluqa yaxınlaşmağı niyyət edirsən? Odur ki, kim, Allaha yaxınlaşdıran əməl vasitəsilə məxluqa yaxınlaşmaq istəyərsə, Allah da ondan uzaqlaşar, insanlar da. Yəni, onun, Allaha yaxınlaşdıran əməl vasitəsilə məxluqa yaxınlaşması, onu yalnız Alahdan və insanlardan uzaqlaşdırar. Çünki Allah səndən razı qalarsa, insanları da səndən razı salar, sənə qəzəbi tutarsa, insanları da sənə qarşı qəzəbləndirər. Allahın qəzəbindən və əzabından Onun Özünə sığınırıq.

Xülasə budur ki, daim qəlbini müalicə et və qəlbin təmizlənənə qədər həmişə onu yu. Necə ki, uca Allah buyurur: **"Onlar o kəslərdir ki, Allah onların qəlbini təmizləmək istəməmişdir."**[1] Odur ki, qəlbin təmizlənməsi çox mühüm məsələdir. Allahdan istəyirəm ki, həm mənim, həm də sizin qəlbinizi təmizləsin, bizi Özünün ixlaslı və Peyğəmbərinə ﷺ itaət edən qullarından etsin.

٨ - وعَنْ أبي مُوسَى عبْدِ اللَّهِ بْنِ قَيْسٍ الأَشْعرِيِّ رضي الله عنه قالَ: سُئِلَ رسول الله ﷺ عَنِ الرَّجُلِ يُقاتِلُ شَجَاعَةً، ويُقاتِلُ حَمِيَّةً، ويقاتِلُ رِياءً، أَيُّ ذلِك في سَبِيلِ اللَّهِ؟ فَقَالَ رسول الله ﷺ: «مَنْ قاتَلَ لِتَكُون كَلِمةُ اللَّهِ هِيَ الْعُلْيَا مُتَّفَقٌ عليه.فهُوَ في سَبِيلِ اللَّهِ» متفقٌ عليه.

**8.** Rəvayət edilir ki, Əbu Musa Abdullah ibn Qeys əl-Əşari رضي الله عنه demişdir: "Rəsulullahdan ﷺ, qəhrəman adı qazanmaq, təəssübkeşliyi

---

[1] əl-Maidə, 41.

üzündən və ya özünü göstərmək üçün vuruşan kimsələrdən hansının Allah yolunda olduğu soruşuldu. Rəsulullah ﷺ buyurdu: "Hər kim Allahın kəlməsi uca olsun deyə vuruşarsa, o, Allah yolunda *vuruşmuş* sayılar."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Hədisin başqa ləfzində belə deyilir: "Kimisi öz yerini göstərmək üçün vuruşur. Bunlardan hansı biri Allah yolundadır?" Peyğəmbər ﷺ buyurdu: "Kim Allahın kəlməsi uca olsun deyə vuruşursa, o, Allah yolundadır."

Peyğəmbərin ﷺ: **"Hər kim Allahın kəlməsi uca olsun deyə"**- sözü, niyyətin sırf Allah üçün olmasına dəlildir. Müəllif də bu hədisi burada məhz ona görə zikr etmişdir. Niyyətdə ixlaslı olmaq.

Peyğəmbərdən ﷺ, bu üç növdən *istənilən* birinə görə vuruşanın hökmü barədə soruşuldu. *Yəni,* qəhrəman adı qazanmaq, təəssübkeşliyi üzündən və ya özünü göstərmək *üçün vuruşanlar barədə.*

**Qəhrəman adı qazanmaq üçün vuruşan:** bu o deməkdir ki, adam qəhrəmandır və döyüşməyi xoşlayır. Çünki, qəhrəman adam, qəhrəmanlıq sifətinə malikdir. Qəhrəmanlıq göstərmək üçün də, meydan olmalıdır. Ona görə də qəhrəman adam istəyir ki, Allah ona döyüş nəsib etsin və o, qəhrəmanlığını göstərsin. Belə olduqda, həmin adam qəhrəman olduğuna və döyüşməyi sevdiyinə görə vuruşur.

**Təəssübkeşliyi üzündən vuruşan:** qövmünün təəssübkeşliyi, qəbiləsinin təəssübkeşliyi, vətəninin təəssübkeşliyi, təəssübkeşliyin hansı növü olursa olsun.

**Öz yerini göstərmək üçün vuruşur:** Yəni, *vuruşur ki,* insanlar onu görsünlər və onun qəhrəman olduğunu bilsinlər. Peyğəmbər ﷺ bunlarla razı olmadı və cihad üçün meyar olan deyə, qısa və yığcam şəkildə belə buyurdu: **"Hər kim Allahın kəlməsi uca olsun deyə vuruşarsa, o, Allah yolunda *vuruşmuş* sayılar."**

---

[1] Səhih əl-Buxari, 123; Səhih Muslim, 1904.

Ümumi və əhatəli olsun deyə, Peyğəmbər ﷺ, *sualdakı* üç döyüş növünü təkrar zikr etməkdən vaz keçdi. Çünki ola bilsin ki, adam, ölkələri istila etmək üçün vuruşur və yaxud həmin qövmdən əsir olaraq qadın əldə etmək üçün vuruşur. Bir sözlə niyyətlərin həddi-hüdudu yoxdur. Lakin Peyğəmbərin ﷺ zikr etdiyi bu meyar, tam və ədalətli bir meyardır. Bundan aydın olur ki, bu günkü gün insanların əksəriyyətinin ifadə etdikləri danışıq dilinə düzəliş etmək vacibdir:

Bir qövmün danışıq dili *belədir ki,* onlar millətpərəstlik üzündən vuruşurlar. *Məsələn,* ərəb millətpərəstliyi: Ərəb millətpərəstliyi üçün döyüşmək cahiliyyə döyüşüdür. Kim o döyüşdə vəfat edərsə, şəhid sayılmaz. Həm dünyasını itirər, həm də Axirətini ziyana uğradar. Çünki, bu *döyüş* Allah yolunda deyildir. Ərəb millətpərəstliyi üzündən döyüşmək cahiliyyə döyüşüdür və bu, insana heç bir fayda vermir. Buna görə də, ərəb millətpərəstliyinə təbliğat nə qədər güclü olsa da, bundan heç bir fayda əldə etmirik. Yəhudilər ölkələrimizi zəbt etmişlər, biz isə parçalanmışıq. Bu millətpərəstlik meyarına, *ərəb olan* xristian və qeyri xristian kafirlər daxil olub, habelə, ərəb olmayan müsəlmanlar *da bu meyardan kənara* çıxıblar. Bunula da biz milyonlarla insanları itirmişik. Bu cür millətpərəstlik üzündən, bu qövmə, özlərində heç bir xeyir olmayan insanlar daxil olub. Elə bir insanlar ki, onlar bir şeyə daxil olarlarsa, onda rəzilliyə və ziyana uğrayarlar.

İkinci danışıq dili: vətən uğrunda vuruşan qövm. Əgər biz *yalnız* vətən uğrunda vuruşsaq, onda bizimlə öz vətənləri uğrunda vuruşan kafirlər arasında heç bir fərq olmaz. Çünki, kafir də öz vətəni uğrunda vuruşur və öz vətənini müdafiə edir. Yalnız, öz vətənini müdafiə etmək üçün ölən adam *həqiqi* şəhid deyildir. Biz müsəlmanıq və İslam ölkəsində yaşayırıq – Allahdan bizi İslam üzərində sabit etməsini istəyirik. Ona görə də, bizim üzərimizə vacib olan odur ki, ölkəmizdəki İslam *dini* uğrunda vuruşaq. Fərqə diqqət edin: ölkəmizdəki İslam uğrunda vuruşuruq. Belə ki, ölkəmizdə olan İslamı qoruyuruq. Uzaq şərqdə və ya qərbdə olsaq belə, İslam dinini himayə etməliyik. Ölkəmiz uzaq şərqdə də olsa, qərbdə də olsa, sadəcə vətənimiz uğrunda deyil, *həm də* İslam uğrunda vuruşacağıq. Odur ki, bu danışıq dilini düzəltməli və belə deməliyik: "Biz ölkəmizdəki İslam dini uğrunda vuruşu-

ruq", yaxud: "Vətənimiz İslam ölkəsi olduğu üçün, onun uğrunda vuruşuruq." Yəni, ölkəmizdəki İslamı müdafiə etmək üçün *vuruşuruq*. Lakin, sadəcə vətəndir deyə *niyyət etmək,* batil niyyətdir və o insana heç bir fayda vermir. Əgər vuruşmaq sadəcə vətən uğrunda, yəni vətənimdir deyə olarsa, onda mən müsəlmanam deyən insanla, mən kafirəm deyənin arasında fərq olmayacaq. Bu xüsusda zikr olunan, "vətəni sevmək imandandır" sözü və bunun Rəsulullahdan ﷺ varid olan hədis olması yalandır.[1] Əgər vətənə olan sevgi, onun İslam ölkəsi olduğuna görədirsə, onda onu sevməlisən, çünki o, İslam ölkəsidir. Belə olduğu halda sənin doğulduğun ölkə ilə, uzaq müsəlman ölkəsi arasında fərq yoxdur. Bunların hamısı İslam ölkəsidir və onları qorumaq bizə vacibdir. Hər bir halda, bilməyimiz vacibdir ki, ən doğru niyyət, ölkəmizdəki İslamı *müdafiə etmək,* yaxud ölkəmizi – o, vətəndir, deyə yox – İslam ölkəsidir, deyə müdafiə etmək üçün vuruşmaqdır.

Müdafiə döyüşünə gəldikdə: Məsələn, kimsə sənin evinə soxulub sənə hücum etsə, sənin malını mənimsəmək istəsə və ya sənin ailənin namusuna təcavüz etmək istəsə, Peyğəmbər ﷺ sənə əmr etdiyi kimi ona qarşı vuruşacaqsan. Bir dəfə Peyğəmbərdən ﷺ: "Əgər bir adam gəlib mənim malımı əlimdən almaq istəsə, *mən nə edim*?"- deyə soruşulduqda o belə dedi: "Malını ona vermə." Adam soruşdu: "Yaxşı, bəs mənimlə vuruşsa, necə olsun?" Peyğəmbər ﷺ: "Sən də onunla vuruş!"– dedi. Adam soruşdu: "Bəs məni öldürsə, necə?" Peyğəmbər ﷺ: "Sən şəhid olarsan!"– dedi. Adam soruşdu: "Bəs mən onu öldürsəm necə?" Peyğəmbər ﷺ: "O, Cəhənnəmlikdir!"– dedi.[2] Çünki, həmin adam həddi aşmış zalımdır. Hətta müsəlman olsa belə, kimsə gəlib səni öz ölkəndən və ya öz evindən çıxartmaq üçün səninlə vuruşarsa, sən də onunla vuruş. Əgər sən onu öldürsən, o Cəhənnəmlikdir, o səni öldürsə, sən şəhid olarsan. *Bu cür vəziyyyətdə heç vaxt,* "axı müsəlmanı necə öldürüm"- demə. Çünki, o, həddi aşmış birisidir. Möminlərlə münasibətdə, nə qohumluq əlaqəsinə, nə əhdə, nə də dinə qiymət verən, hədlərini aşmış zalımların qarşısında əllərimizi yanımıza salsaq, hökmran-

---

[1] Bu rəvayəti Əcluni "Kəşf əl-Xafə" əsərində zikr etmiş və demişdir: "Sağani *bu rəvayətin* qondarma olduğunu demişdir." Kəşf əl-Xafə, 1102.

[2] Səhih Muslim, 140.

lıq həmin həddi aşanların əlində olar və yer üzü islah olunduqdan sonra, orada fəsad törədərlər. Buna görə də biz: "Bu, hücum cihadı sinifindən deyil"- deyirik.

Hücum döyüşü: Məlum məsələdir ki, mən gedib müsəlmanla, ona hücum edib döyüşmürəm. Lakin o mömin də olsa, mən özümü, malımı və ailəmi qorumalıyam. Hərçənd, *qəlbində* imanı olan şəxsin, müsəlmana hücum edib, ailəsini və malını ələ keçirmək üçün onunla vuruşması heç vaxt mümkün deyil. Ona görə də, Peyğəmbər ﷺ belə demişdir: "Müsəlmanı söymək fasiqlik, ona qarşı vuruşmaq isə küfrdür." [1] manlara qarşı vuruşan insanın, ümumiyyətlə imanı yoxdur. Əgər adamın imanı yoxdursa və ya naqisdirsə, onda özünü müdafiə məqsədilə ona qarşı vuruşmaq vacibdir. Çünki Peyğəmbər ﷺ *ona sual verən adama* belə demişdir: "Sən də onunla vuruş!" Həmçinin demişdir: "Sən onu öldürsən, o, Cəhənnəmlikdir!" Həmçinin demişdir: "O, səni öldürsə, sən şəhid olarsan!" Çünki, sən malını, ailəni və özünü qorumaq üçün vuruşursan.

Xülasə budur ki, döyüşün iki növü var: *Onlardan biri də,* hücum döyüşüdür. Məsələn, insanların ölkələrinə hücum edib onlara qarşı döyüşürəm. Bu, yalnız müəyyən şərtlər daxilində caizdir.

Məsələn, alimlər belə demişlər: Azan İslamın rüknlərindən olmasa da, əgər hər hansı bir kəndin əhalisi azanı tərk edərsə, onlar *yenidən* azan verənə qədər, əmr sahibinə onlara qarşı vuruşmaq vacibdir. Çünki, onlar İslam ayinlərindən birini tərk etmişlər.

Əgər onlar bayram namazını tərk edər və: "Biz bayram namazını nə evlərimizdə, nə də açıq bir səhrada qılacağıq"- deyərlərsə, onda yenə, onlara qarşı vuruşmaq vacibdir. Hətta *azanı tərk edən* bir qövm desə ki, "Məgər azan İslamın rüknlərindəndir?", onda biz, onlara, "Xeyr, *İslamın rüknlərindən deyil*! Lakin o, İslam şüarlarındandır və siz azan verənəcən biz sizinlə döyüşəcəyik"- deyərik. Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, məsələn, iki qəbilə arasında təəssübkeşlik var və onlar bir-biri ilə vuruşurlar, onda, onları barışdırmaq bizə vacibdir. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstəyə qar-

---

[1] Səhih əl-Buxari, 48; Səhih Muslim, 64.

şı, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşmaq bizə vacibdir. Hərçənd, təcavüzkar dəstə də, mömindir, lakin müdafiə döyüşü ilə hücum döyüşü arasında fərq vardır. Hücum döyüşü, yalnız, şəriətin caiz gördüyü insanlara qarşı olur. Müdafiə döyüşünə gəldikdə isə, mütləq müdafiə olunmalıyıq.

Sizdən xahişim budur ki, bu məsələdə diqqətli olasınız. Çünki, jurnal və qəzetlərdə *daim:* Vətən! Vətən! Vətən! *Yazıldığını görürük.* Orada *heç* İslam zikr olunmur. Bu da, böyük nöqsandır. Ümməti doğru yola yönəltmək vacibdir. Allahdan həm bizi, həm də sizi sevib, razı qaldığı şeylərə müvəffəq etməyi diləyirik!

٩ - وعن أبي بَكْرَة نُفيْعِ بْنِ الْحارِثِ الثَّقفِي ﷺ أَنَّ النَّبِيَّ ﷺ قال: «إِذَا الْتقَى الْمُسْلِمَانِ بسيْفيْهِمَا فالْقاتِلُ والمقْتُولُ فِي النَّارِ» قُلْتُ: يَا رَسُول اللَّهِ، هَذَا الْقَاتِلُ فمَا بَالُ الْمقْتُولِ؟ قَال: «إِنَّهُ كَانَ حَرِيصاً عَلَى قَتْلِ صَاحِبِهِ» متفقٌ عليه.

**9.** Əbu Bəkrə Nufey ibn əl-Haris əs-Səqəfi ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İki müsəlman qılınc çəkib üz-üzə gələrsə, öldürən də, ölən də cəhənnəmlikdir." *Nufey deyir ki,* mən soruşdum: "Ya Rəsulullah, qatilin halı bəllidir. Bəs ölən niyə *cəhənnəmlikdir*?" Dedi: "Çünki o, *müsəlman* qardaşını öldürməyə həris idi."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

**"İki müsəlman qılınc çəkib üz-üzə gələrsə",** yəni, onların hər biri digərini öldürmək istəyir və *bu səbəbdən də* onun üzərinə qılınc çəkib. Həmçinin, onun üzərinə tüfəng və ya digər öldürücü silah, hətta daş və buna bənzər şeylər qaldırarsa, bu hökmə aid edilir.

Burada qılınc misal olaraq zikr olunub. Yəni, bu, yalnız qılınca aid deyil, eləcə də, iki müsəlman istənilən bir öldürücü vasitə ilə üz-üzə gələr və onlardan biri digərini öldürərsə, onda öldürən də, ölən də cəhənnəmlik olar. Bundan Allaha sığınırıq! Odur ki, Əbu Bəkrə ﷺ Peyğəmbrə ﷺ belə dedi: **"Qatilin halı bəllidir."** Yəni, onun cəhənnəmə

[1] Səhih əl-Buxari, 31; Səhih Muslim, 2888.

düşəcəyi bəllidir. Çünki o, mömin bir insanı qəsdən öldürmüşdür. Haqsız olaraq, qəsdən mömin adamı öldürən şəxs isə Cəhənnəm odunda olacaqdır. Uca Allah belə buyurur: **"Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm *olar*. Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar."**[1] Əbu Bəkrə ﷺ Peyğəmbrə ﷺ: **"Qatilin halı bəllidir"**- dedi. Bu cümlə, razılıq əlamətini bildirən münaqişənin bir növüdür. Yəni, qatılin cəhənnəmlik olacağına razılaşdıq, bəs ölən nə üçün? Necə cəhənnəmlik ola bilər, axı o oldürülüb? Peyğəmbrə ﷺ dedi: **"Çünki o, *müsəlman* qardaşını öldürməyə həris idi."** Bəli, o, öz qardaşını öldürməyə həris idi. Ona görə də, onu öldürmək üçün özü ilə öldürücü alət gətirmişdir. Lakin, o biri buna qalib gəldi və bunu öldürdü. Lakin bunun da niyyəti öldürmək idi və ölümlə nəticələnə bilən əməlinə görə, bu da qatil sayılır. Ona görə də Peyğəmbrə ﷺ belə dedi: **"Çünki o, *müsəlman* qardaşını öldürməyə həris idi."**

Bu hədis əməllərin niyyətlərə görə olmasına dəlalət edir. Belə ki, bu adam öz qardaşını öldürməyi niyyət etdiyi üçün, sanki onu etmiş kimi, yəni, onu öldürmüş kimi sayılır. Burdan da bizə, bu hədislə, Peyğəmbərin ﷺ: "Kim özünü qoruyarkən öldürülərsə, o şəhiddir, kim ailəsini qoruyarkən öldürülərsə, o şəhiddir, kim malını qoruyarkən öldürülərsə, o şəhiddir"[2] - sözü arasındakı fərq aydın olur Həmçinin, sənin malını əlindən almağa gələn kimsə haqqında, Peyğəmbər ﷺ belə demişdir: "Sən onu öldürsən, o, Cəhənnəmlikdir! O, səni öldürsə, sən şəhid olarsan!"

Belə ki, öz malını, ailəsini, canını, namusunu qoruyan insan, ona hücum edən həddi aşmış adamdan qorunur. *Çünki, adam* onun üzərinə, məhz onu öldürmək üçün hücum çəkmişdir. Belə halda, hücum edən adam ölərsə, o cəhənnəmlikdir, müdafiə olunan adam ölsə, o, şəhid və cənnətlik olar. Bu ikisinin arasındakı fərq bundadır. Bundan da aydın olur ki, kim öz *müsəlman* qardaşını öldürməyə niyyət etdikdən sonra,

---

[1] ən-Nisa, 93.

[2] Sunən Əbu Davud, 4772; Sunən ət-Tirmizi, 1421; Sunən İbn Macə, 2580. Bu hədisi şeyx Albani "Səhih əl-Cami" kitabında, 2580 və "İrva əl-Ğalil" kitabında, 708, səhih hesab etmişdir.

onu öldürərsə, o cəhənnəmlikdir, yox əgər onu öldürməyə niyyət etdikdən sonra, bunu bacarmazsa, əksinə, özü öldürülərsə, o da cəhənnəmlikdir. Öldürən də, ölən də cəhənnəmlikdir.

Bu hədis həmçinin, *adam* öldürməyin *ən* böyük günah olmasına dəlildir. Habelə, bu əməl adamı Cəhənnəmə salan səbəblərdən biridir. Bundan Allaha çığınırıq!

Həmçinin bu hədis dəlildir ki, səhabələr şübhələndikləri şeylər barəsində Peyğəmbərə ﷺ sual verər, o da, bunun cavabını onlara bildirərdi. Buna görə də, Quran və Sünnədə, həqiqi şübhə doğuran elə bir məsələ yoxdur ki, onun həlli tapılmasın. Bu məsələnin həlli, Quran və Sünnədəki həmin *dəlilin özündə* ya heç bir sual vermədən tapılar, ya da, *həmin dəlilin özündə* onun barəsində sual verilər və sonra da cavabı bildirilər. Buna, Peyğəmbərin ﷺ dəccal barəsində verdiyi xəbəri də misal çəkmək olar. Belə ki, Peyğəmbər ﷺ dəccalın yer üzündə qırx gün yaşayacağı barədə xəbər vermiş, sonra da belə bildirmişdir: "Birinci gün bir ilə, ikinci gün bir aya, üçüncü gün bir həftəyə, qalan günlər isə bizim adi günlərimizə bərabər olacaq." Səhabələr Peyğəmbərdən ﷺ: "Ya Rəsulullah, bu bir ilə bərabər olan günlərdə, bizə bir günün namazı kifayət edərmi?"– deyə soruşduqda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Xeyr, *kifayət etməz. Namazın vaxtlarını* təxmini təyin edin."[1] Bu hədis açıq-aydın dəlildir ki, Quran və Sünnədə, həlli tapılmayan heç bir şübhəli məsələ yoxdur. Lakin naqislik, məsələnin həlli qarşısında aciz qalan insanların fəhmlərindədir. Yaxud, təqsir insanın özündə olur: *bilmədiyi məsələni* öyrənmir, *məsələ barədə* düşünmür, *bu haqda* sual vermir və beləliklə də, o məsələ ona şübhəli qalır.

Lakin həqiqət budur ki, Quran və Sünnədə – Allaha həmd olsun! – elə bir şübhəli məsələ yoxdur ki, onun həlli orada tapılmasın. Bu həll ya *heç bir sual verilmədən* əvvəlcədən orada zikr olunur, ya da səhabələrin رضي الله عنهم suallarına cavab olaraq zikr olunur. Müvəffəq edən Allahdır.

١٠ - وَعَنْ أبي هُرَيْرَةَ رضي الله عنه قال: قال رسول الله ﷺ: «صَلاَةُ الرَّجُلِ في جماعةٍ تزيدُ عَلَى صَلاَتِهِ في سُوقِهِ وَبَيْتِهِ بضْعاً وعِشْرينَ دَرَجَةً، وذلِكَ أَنَّ أَحَدَهُمْ إِذا تَوَضَّأَ فَأَحْسَنَ

[1] Səhih Muslim, 2937.

الْوُضُوءَ، ثُمَّ أَتَى الْمَسْجِد لا يُرِيدُ إِلاَّ الصَّلاَةَ، لا يَنْهَزُهُ إِلاَّ الصَّلاَةُ، لَمْ يَخطُ خُطوَةً إِلاَّ رُفِعَ لَهُ بِهَا دَرجةٌ، وَحُطَّ عَنْهُ بِهَا خَطيئَةٌ حتَّى يَدْخلَ الْمَسْجِدَ، فَإِذَا دخل الْمَسْجِدَ كانَ فِي الصَّلاَةِ مَا كَانَتِ الصَّلاَةُ هِيَ التي تحبِسُهُ، وَالْمَلاَئِكَةُ يُصَلُّونَ عَلَى أَحَدكُمْ ما دام فِي مَجْلِسهِ الَّذي صَلَّى فِيهِ، يقُولُونَ: اللَّهُمَّ ارْحَمْهُ، اللَّهُمَّ اغْفِرْ لَهُ، اللَّهُمَّ تُبْ عَلَيْهِ، مالَمْ يُؤْذِ فِيهِ، مَا لَمْ يُحْدِثْ فِيهِ» متفقٌ عليه، وهَذَا لَفْظُ مُسْلمٍ.

**10.** Əbu Hureyra ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Bir adamın *məsciddə* camaatla qıldığı namazı, bazarda və ya öz evində qıldığı namazdan iyirmi və bir neçə dərəcə artıqdır. Belə ki, onlardan biri gözəl şəkildə dəstəmaz alıb, sonra yalnız namaz qılmaq məqsədilə *evindən* çıxar və yalnız *camaatla* namaz qılmaq üçün məscidə gedərsə, məscidə daxil olanadək atdığı hər addımına görə bir dərəcə yüksələr, bir günahı bağışlanar. Məscidə daxil olduqda, *camaatla qılınacaq* namazı gözlədiyi müddət ərzində, namaz qılırmış kimi savab qazanar. Sizdən biriniz namaz qıldığı yerdə qaldıqca, heç kəsə əziyyət vermədiyi və dəstəmazı pozulmadığı müddətcə mələklər onun üçün belə dua edərlər: "Allahım ona rəhm et! Allahım, onu bağışla! Allahım, onun tövbəsini qəbul et!"

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir,[1] lakin bu, Muslimin rəvayət etdiyi mətndir.

**Şərh:**

Əgər insan məsciddə camaat namazı qılarsa, bu namaz, evində və ya bazarda qıldığı namazdan iyirmi yeddi dəfə üstündür. Çünki, namazı camaatla qılmaq, Allahın vacib buyurduğu camaat namazını yerinə yetirməkdir.

Elm əhlinin söylədikləri rəylərdən ən doğrusu budur ki, camaat namazı hər bir fərdə vacibdir. Belə ki, bu xüsusda varid olan hədislərə əsasən, insana, namazını məsciddə camaatla qılması vacibdir. Habelə uca Allah Öz kitabında buna işarə edərək demişdir: **"Sən *səhabələrinin***

---

[1] Səhih əl-Buxari, 477; Səhih Muslim, 649.

**arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi səninlə birlikdə namaza dursun..."**[1]

Uca Allah qorxu halında *belə* camaat namazını vacib buyurdu. Əgər qorxu halında vacib buyurubsa, əminamanlıq halında *vacib olması* daha çox vacibdir.

Sonra Peyğəmbər ﷺ bunun səbəbini zikr edir: **"Belə ki, adam öz evində gözəl şəkildə dəstəmaz alıb, sonra evindən çıxıb məscidə gedər, onu evindən yalnız *camaatla* namaz qılmaq *niyyəti* çıxararsa, atdığı hər bir addıma görə Allah onu bir dərəcə yüksəldər və onun bir günahını bağışlayar."** Evinin məscidə yaxın və ya uzaq olması fərq etmir, o hər addımına görə iki fayda əldə edir:

**Birinci fayda:** Allah bu addıma görə onun dərəcəsini yüksəldir.

**İkinci fayda:** Allah bu addıma görə onun günahını bağışlayır. Bu, böyük bir lütfdür. Məscidə girənə qədər *bu cür davam edir.* Məscidə daxil olub, boynuna düşən namazları qıldıqdan sonra oturub *fərz* namazını gözləyərsə: **"Namazı gözlədiyi müddət ərzində, namazda olmuş sayılır."** Bu da, həmçinin, böyük nemətdir. Əgər *məsciddə* qalıb, uzun müddət namazı gözləyərsənsə, yəni, məsciddə salam namazı və başqa lazım gələn müstəhəb namazları qıldıqdan sonra oturub *fərz* namazını gözləsən, sənə namaz qılan kimsənin savabı qədər savab yazılar.

Bundan əlavə, dördüncü bir şey də var: Adam namaz qıldığı yerdə qaldıqca, mələklər onun üçün belə dua edərlər: **"Allahım, ona xeyir-dua nəsib et! Allahım, onu bağışla! Allahım, ona rəhm et! Allahım, onun tövbəsini qəbul et!"** *Məscidə* bu niyyətlə və bu əməllərə görə gələn adam üçün, bu da, həmçinin, böyük bir lütfdür.

Hədisin bizə lazım olan hissəsi, Peyğəmbərin ﷺ: **"Sonra evindən çıxıb *məscidə gedər*, onu evindən yalnız *camaatla* namaz qılmaq *niyyəti* çıxararsa"**- sözüdür. Bu da, həmin böyük savaba nail olmağın, niyyətdən asılı olmasına dəlalət edir.

Lakin, adam evindən namaz qılmaq niyyəti ilə çıxmasa, ona bu savab yazılmır. Məsələn, adam evindən dükanına getmək niyyətilə çıxır və *yolda* azan verildikdə namaz qılmağa gedir. Bu halda o, həmin sava-

---

[1] ən-Nisa, 102.

bı əldə etmir. Çünki, bu savabı, evindən yalnız namaz qılmaq niyyətilə çıxan adam qazanır.

Lakin, ola bilər ki, adama, dükanından və ya alış-veriş etdiyi yerdən çıxıb məscidə gedənə qədər də bu savab yazılsın. Əgər həmin yerdən dəstəmazlı olduğu halda çıxarsa. Müvəffəq edən Allahdır.

١١ - وَعَنْ أبي الْعَبَّاسِ عَبْدِ اللَّهِ بْنِ عبَّاسِ بْنِ عَبْدِ الْمُطَّلِب ﷺ، عَنْ رسول الله ﷺ، فِيما يَرْوى عَنْ رَبِّهِ، تَبَارَكَ وَتَعَالَى قَالَ: «إنَّ الله كتَبَ الْحسناتِ والسَّيِّئاتِ، ثُمَّ بَيَّنَ ذلك: فمَنْ همَّ بِحَسَنةٍ فَلمْ يعْمَلْهَا كتبَهَا اللَّهُ تبَارَكَ وَتَعَالَى عِنْدَهُ حسنةً كامِلةً، وَإنْ همَّ بهَا فَعمِلَهَا كَتَبَهَا اللَّهُ عَشْر حَسَنَاتٍ إلَى سَبْعِمَائِةِ ضِعْفٍ إلَى أَضْعَافٍ كثيرةٍ، وَإنْ هَمَّ بِسيِّئَةٍ فَلَمْ يَعْمَلْهَا كَتَبَهَا اللَّهُ عِنْدَهُ حَسَنَةً كامِلَةً، وَإنْ هَمَّ بِها فعَمِلَها كَتَبَهَا اللَّهُ سَيِّئَةً وَاحِدَةً» متفقٌ عليه.

**11.** Əbul-Abbas Abdullah İbn Abbas ibn Abdulmuttəlib ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ uca və ulu Rəbbindən belə rəvayət etmişdir: "Allah savab və günah işləri yazmışdır." Sonra o, bunları belə izah etdi: Kim bir savab iş görməyə niyyət etsə, sonra buna əməl etməzsə, uca və ulu Allah onun üçün Öz yanında tam bir savab yazar. Əgər o, savab iş görməyə niyyət edər və bunu yerinə yetirərsə, Allah onun üçün on mislindən yeddi yüzədək, hətta bundan qat-qat artıq savab yazar. Kim bir günah iş görməyə niyyət etsə, sonra buna əməl etməzsə, Allah onun üçün Öz yanında tam bir savab yazar. Əgər o, günah iş görməyə niyyət edər və bunu yerinə yetirərsə, Allah ona cəmi bir günah yazar."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Peyğəmbər ﷺ dedi: **"Allah savab və günah işləri yazmış."** Allahın savab və günah işləri yazması, iki mənanı əhatə edir:

**Birinci məna:** Əməllərin Lövhi-Məhfuzda yazılmasıdır. Həqiqətən, uca Allah hər bir şeyi Lövhi-Məhfuzda yazmışdır. Bu xüsusda

[1] Səhih əl-Buxari, 6491; Səhih Muslim, 131.

Allah təalə belə buyurur: **"Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq."**[1]

***İkinci məna:*** Əməllərin savablarının yazılmasıdır. Bu xüsusda uca Allah belə buyurur: **"Hər bir kiçik və böyük *əməl* yazılmışdır."**[2] Pak və uca Allah savab və günah işləri Lövhi-Məhfuzda yazmışdır. Əgər bəndə, o əməli yerinə yetirərsə, uca Allah bunu Öz hikmətinə, ədalətinə və lütfünə gərəkli olan şəkildə yazar.

**İki cür yazı var:**

**Əvvəlcədən yazılmış yazı:** Bunu İzzət və Cəlal sahibi olan Alahdan başqa heç kim bilmir. Bizim heç birimiz, hadisə baş verməyincə, Allahın bizim üçün xeyir və ya şərdən nə yazdığını bilmirik.

**Sonradan yazılan yazı:** Adam bir əməl edərsə, ona, hikmətə, ədalətə və lütfə uyğun olan yazılır. *Hədisdə deyilir*: **"Sonra o bunları izah etdi."** Yəni, sonra Peyğəmbər ﷺ bunların necə yazıldığını izah etdi. Bəyan etdi ki, adam, bir savab iş görməyə niyyət etsə, sonra buna əməl etməsə, uca Allah onun üçün tam bir savab yazar.

Buna misal: Bir adam Quran oxumaq üçün dəstəmaz almağı niyyət edir, sonra da bunu etmir və *dəstəmaz almaqdan* vaz keçir. Bu halda ona bu niyyətə görə tam bir savab yazılır.

Daha bir misal: Bir adam sədəqə verməyi niyyət edir və sədəqə verəcəyi malı da təyin edir. Sonra özünü saxlayır və sədəqə vermir. Bu halda ona bu niyyətə görə tam bir savab yazılır. Yaxud, adam iki rükət namaz qılmağı niyyət edir, sonra özünü saxayır və qılmır. Bu halda ona bu niyyətə görə tam bir savab yazılır.

Əgər sual verilsə ki: "Adam əməl etmədiyi halda ona necə savab yazıla bilər?" Ona belə cavab verərik: "Allahın lütfü genişdir. Adamın etdiyi bu niyyətin özü, savab əməl sayılır. Çünki qəlb çoxlu niyyət edəndir. Ya xeyirli əməli yerinə yetirməyi, ya da şər iş görməyi niyyət edir. Əgər xeyirli bir əməli yerinə yetirməyi niyyət edərsə, bu, savab əməl sayılar və onun üçün də yazılar. *Niyyət ediyi həmin* əməli yerinə yetirərsə, Allah onun üçün on mislindən yeddi yüzədək, hətta bundan

---

[1] əl-Qəmər, 49.

[2] əl-Qəmər, 53.

qat-qat artıq savab yazar. *Savabdakı* bu qədər fərq ixlas və itaətlə bağlıdır. Adam ibadətində nə qədər ixlaslı olarsa bir o qədər də çox savab qazanar. Habelə adam ibadətində nə qədər çox Peyğəmbərə ﷺ itaət edərsə, onun ibadəti bir o qədər də kamil olar və bir o qədər çox savab qazanar. Deməк, bu fərq, Allaha olan ixlasla və Peyğəmbərə ﷺ olan itaətlə ölçülür.

Günah işə gəlincə, Peyğəmbər ﷺ belə demişdir: **"Kim bir günah iş görməyə niyyət etsə, sonra buna əməl etməzsə Allah onun üçün tam bir savab yazar."** Məsələn, bir adam oğurluq etməyi niyyət edir, sonra izzət və cəlal sahibi olan Allahı xatırlayır və *qəlbinə* Allah qorxusu düşür, sonra da bu fikirdən vaz keçir. Belə olduqda, buna görə həmin adama tam bir savab yazılır. Çünki adam, günaha əməl etməyi Allah üçün tərk etmiş və buna görə də savab qazanmışdır. Bu xüsusda açıqlama başqa bir ləfzdə belə gəlmişdir: **"Çünki o, bunu Mənim xatirimə tərk etmişdir."**[1] Yəni, Mənə görə.[2] Məsələn, adam qeybət kimi münkər bir əməli etməyi niyyət edir, lakin sonradan, bunun haram olduğunu xatırlayır və Allah rizası üçün onu tərk edir. Buna görə də ona, tam bir savab yazılır.

Və əgər adam niyyət etdiyi o günahı edərsə, onda ona yalnız bir günah yazılar. Əlavə heç nə yazılmaz. Bu xüsusda uca Allah buyurur: **"Kim yaxşı əməl gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər. Kim pis əməl gətirərsə, ona ancaq gətirdiyinin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz."**[3]

Bu hədis, *əməllərin* niyyətə görə olmasına dəlalət edir. Belə ki, niyyət, öz sahibinə xeyir qazandıra bilər.

Biz *əvvəlki hədislərdə* zikr etmişdik ki, əgər adam pis bir əməli niyyət edər, sonra da bu pis əmələ aparıb çıxaran bir addım atarsa, lakin həmin pis əməli yerinə yetirməkdə aciz olarsa, onda o adama, bu əməli edənin günahı qədər günah yazılır. İki müsəlmanın qılınclarını çəkib üz-üzə gəlmələri barədə danışdıqda bunu açıqlamışdıq. Hədisdə deyilir: "İki müsəlman qılınc çəkib üz-üzə gələrsə, öldürən də, ölən də cə-

---

[1] Səhih Muslim, 129.

[2] Burada: "Mənə görə" sözü, Allahın sözüdür.

[3] əl-Ənam, 160.

hənnəmlikdir." *Səhabələr* soruşdular: "Ya Rəsulullah, qatilin halı bəllidir. Bəs ölən niyə *cəhənnəmlikdir*?" Dedi: "Çünki o, *müsəlman* qardaşını öldürməyə həris idi." [1] Müvəffəq edən Allahdır.

١٢ - وعن أبي عَبْد الرَّحْمَن عَبْدِ اللَّهِ بْنِ عُمَرَ بْنِ الْخطَّابِ، رضي الله عنهما قال: سَمِعْتُ رسول الله ﷺ يَقُولُ: «انْطَلَقَ ثَلاَثَةُ نفر مِمَّنْ كَانَ قَبْلَكُمْ حَتَّى آوَاهُمُ الْمبِيتُ إِلَى غَارٍ فَدَخَلُوهُ، فانْحَدَرَتْ صَخْرةٌ مِنَ الْجبلِ فَسَدَّتْ عَلَيْهِمْ الْغَارَ، فَقَالُوا: إِنَّهُ لا يُنْجِيكُمْ مِنْ هذهِ الصَّخْرَةِ إِلاَّ أَنْ تَدْعُوا الله تعالى بصالح أَعْمَالكُمْ.

قال رجلٌ مِنهُمْ: اللَّهُمَّ كَانَ لِي أَبَوانِ شَيْخَانِ كَبِيرانِ، وكُنْتُ لاَ أَغْبِقُ قبْلهَما أَهْلاً وَلا مالاً. فنأَى بي طَلَبُ الشَّجرِ يَوْماً، فلَمْ أُرِحْ عَلَيْهمَا حَتَّى نَامَا، فَحَلبْت لَهُمَا غبُوقَهمَا، فَوَجَدْتُهُمَا نَائِميْنِ، فَكَرِهْت أَنْ أُوقظَهمَا وَأَنْ أَغْبِقَ قَبْلَهُمَا أَهْلاً أَوْ مَالاً، فَلَبِثْتُ - وَالْقَدَحُ عَلَى يَدِي - أَنْتَظِرُ اسْتِيقَاظَهُما حَتَّى بَرَقَ الْفَجْرُ - وَالصِّبْيَةُ يَتَضاغَوْنَ عِنْدَ قَدَمى - فَاسْتَيْقظَا فَشَرِبَا غَبُوقَهُمَا. اللَّهُمَّ إِنْ كُنْتُ فَعَلْتُ ذَلِكَ ابْتِغَاءَ وَجْهِكَ فَفَرِّجْ عَنَّا مَا نَحْنُ فِيهِ مِنْ هَذِهِ الصَّخْرَة، فانْفَرَجَتْ شَيْئاً لا يَسْتَطِيعُونَ الْخُرُوجَ مِنْهُ.

قال الآخر: اللَّهُمَّ إِنَّهُ كَانتْ لِيَ ابْنَةُ عمٍّ، كانتْ أَحَبَّ النَّاسِ إِلَيَّ - وفي رواية: « كُنْتُ أُحِبُّهَا كَأَشد مَا يُحبُّ الرِّجَالُ النِّسَاءَ » - فَأَرَدْتُهَا عَلَى نَفسهَا فَامْتَنَعَتْ مِنِّي حَتَّى أَلَمَّتْ بِهَا سَنَةٌ مِنَ السِّنِينَ فَجَاءَتْنِي فَأَعْطَيْتُهَا عِشْرِينَ وَمِائَةَ دِينَارٍ عَلَى أَنْ تُخَلِّيَ بَيْنِي وَبَيْنَ نَفْسِهَا ففعَلَت، حَتَّى إِذَا قَدَرْتُ عَلَيْهَا - وفي رواية: « فَلَمَّا قَعَدْتُ بَيْنَ رِجْلَيْهَا » - قَالتْ: اتَّقِ الله ولا تَفُضَّ الْخاتَمَ إِلاَّ بِحَقِّهِ، فانْصَرَفْتُ عَنْهَا وَهِيَ أَحَبُّ النَّاسِ إِليَّ، وَتركْتُ الذَّهَبَ الَّذي أَعْطَيتُهَا، اللَّهُمَّ إِنْ كُنْتُ فَعْلتُ ذَلِكَ ابْتِغَاءَ وَجْهِكَ فافْرُجْ عَنَّا مَا نَحْنُ فِيهِ، فانفَرَجَتِ الصَّخْرَةُ غَيْرَ أَنَّهُمْ لا يَسْتَطِيعُونَ الْخُرُوجَ مِنْهَا.

وقَالَ الثَّالِثُ: اللَّهُمَّ إِنِّي اسْتَأْجَرْتُ أُجرَاءَ وَأَعْطَيْتُهُمْ أَجْرَهُمْ، غَيْرَ رَجُلٍ وَاحِدٍ تَرَكَ الَّذي لَّه وذهب، فثمَّرت أجره حتى كثرت منه الأموال، فجائنى بعد حين، فقال: يا عبد الله، أَدِّ

[1] Səhih əl-Buxari, 31; Səhih Muslim, 2888.

إِلَيَّ أَجْرِي، فَقُلْتُ: كُلُّ مَا تَرَى مِنْ أَجْرِكَ: مِنَ الإِبِلِ وَالْبَقَرِ وَالْغَنَمِ وَالرَّقِيق. فقال: يا عَبْدَ اللَّهِ لا تَسْتَهْزِئْ بِي! فَقُلْتُ: لاَ أَسْتَهْزِئُ بك، فَأَخَذَهُ كُلَّهُ، فاسْتاقَهُ فَلَمْ يَتْرُكْ مِنْه شَيْئاً، اللَّهُمَّ إِنْ كُنْتُ فَعَلْتُ ذَلِكَ ابْتغَاءَ وَجْهِكَ فافْرُجْ عَنَّا مَا نَحْنُ فِيهِ، فَانْفَرَجَتِ الصَّخْرَةُ فخرَجُوا يَمْشُونَ» متفقٌ عليه.

**12.** Rəvayət edilir ki, Əbu Abdurrəhman Abdullah ibn Ömər ibn əl-Xattab ﷛ demişdir: “Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: “Sizdən əvvəlkilərdən üç nəfər səfərə çıxdı və *yolda* gecələmək üçün bir mağaraya girdilər. *Onlar mağaraya daxil olduqdan sonra* dağdan böyük bir qaya parçası yuvarlanıb aşağı düşdü və mağaranın ağzını örtdü. Onlar dedilər: “Sizi bu qaya parçasından yalnız etdiyiniz saleh əməll-əriniz vasitəsilə Allaha dua etməyiniz xilas edə bilər.”

Onlardan biri dedi: “Allahım! Mənim çox qoca ata-anam var idi. Hər axşam onlara süd içirtməmiş nə ailəmə, nə də xidmətçilərimə süd verərdim. Bir gün heyvanları otarmaq üçün çox uzağa getdim və valideynlərim yatana qədər evə qayıda bilmədim. Axşam içəcəkləri südü sağıb gətirdikdə isə artıq onlar yatmışdılar. Onları oyatmaq və onlardan əvvəl ailəmə və xidmətçilərimə süd içirtmək istəmədim. Uşaqlar ayağıma sarılıb ağladıqları halda, mən əlimdə süd dolu bardaq sübh açılanadək onların yuxudan oyanmasını gözlədim. Nəhayət, yuxudan oyanıb südlərini içdilər. Allahım, əgər bu əməli Sənin üzünü dilədiyimə görə etmişəmsə, bizi, bu qayadan dolayı düşdüyümüz sıxıntıdan qurtar!” Qaya bir qədər aralandı, lakin onlar oradan çıxa bilmədilər.”

İkincisi dedi: “Allahım! Mənim bir əmim qızı var idi. Mən onu hamıdan çox sevirdim (digər rəvayətdə: onu, bir kişinin qadını istədiyi kimi istəyirdim). Mən onunla yaxınlıq etmək istədim, lakin o mənə yaxınlıq vermədi. Nəhayət, illərin birində qıtlıq vaxtı *ehtiyac üzündən* yanıma gəldi və mən ona, mənimlə yaxınlıq etmək şərtilə yüz iyirmi dinar verdim, o da buna razılıq verdi. Ona yaxınlaşdıqda (digər rəvayətdə: iki ayağı arasında oturduqda), o mənə: “Allahdan qorx! Haqqın olmadığı halda bakirəliyimi pozma!”– dedi. Mən də onu hamıdan çox sevdiyim halda, ondan uzaqlaşdım və ona verdiyim qızılları da ona ba-

ğışladım. Allahım, əgər bu əməli Sənin üzünü dilədiyimə görə etmişəmsə, bizi, düşdüyümüz bu sıxıntıdan qurtar!" Qaya bir qədər də aralandı, lakin onlar yenə də oradan çıxa bilmədilər."

Üçüncüsü dedi: "Allahım! Mən bir neçə adamı işə götürmüşdüm. Hamısının zəhmət haqqını vermişdim, yalnız biri öz zəhmət haqqını almadan getmişdi. Mən onun pulunu dövriyyəyə qoydum. Nəhayət, onun pulu ilə mallar artdı. Bir müddət sonra adam yanıma gəlib: "Ey Allahın qulu, zəhmət haqqımı ver!"– dedi. Mən də: "Gördüyün bu dəvələr, inəklər, qoyunlar, kölələr – hamısı sənin zəhmət haqqındır"– dedim. O dedi: "Ey Allahın qulu, mənə istehza etmə!" Mən də: "Sənə istehza etmirəm!"– dedim. Beləcə, o, malların hamısını sürüb apardı, heç nə saxlamadı. Allahım, əgər bu əməli Sənin üzünü dilədiyimə görə etmişəmsə, bizi, düşdüyümüz bu sıxıntıdan qurtar!" Qaya tamamilə aralandı və onlar *oradan* çıxıb getdilər."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Hədisdə: **"Üç nəfər səfərə çıxdı"**- deyilir. Yəni, üç kişi.

***"Yolda* gecələmək üçün bir mağaraya girdilər."** Yəni, gecəni orada keçirmək üçün. Mağara: Dağ və qayanın içinə doğru uzanan oyuqdur. İnsanlar, gecələmək üçün və ya günəşdən kölgələnmək üçün, yaxud buna bənzər şeylər üçün onun içinə daxil olurlar. Bu üç nəfər də gecələmək üçün o mağaraya girdilər. Bu zaman dağdan böyük bir qaya parçası yumbalanıb onların üzərinə düşdü və mağaranın ağzını örtdü. Onlar da bu qaya parçasını yerindən tərpədə bilmədilər. Çünki, o, böyük bir qaya parçası idi. Odur ki, onlar qərara gəldilər ki, saleh əməlləri vasitəsilə pak və uca Allaha təvəssül etsinlər.

Onlardan biri valideynlərinə olan mükəmməl qayğısını zikr etdi. İkincisi mükəmməl iffətini, üçüncüsü isə zahidliyini və səmimiliyini zikr etdi.

Birincisi, çox yaşlı ata-anası olduğunu bildirib deyir: **"Mən hər axşam onlara süd içirtməmiş nə ailəmə, nə də xidmətçilərimə süd verərdim."** Ailə dedikdə, həyat yoldaşı və uşaqlar nəzərdə tutulur. Hədisdə,

---

[1] Səhih əl-Buxari, 2215; Səhih Muslim, 2743.

***"Nə ailəmə, nə də malıma süd verərdim"***- deyilir. Mal deyildikdə isə, kölələr və başqa onlar kimi adamlar nəzərdə tutulur. Bu adamın qoyunları var idi və o, bu qoyunları *günün əvvəlində* otarmağa çıxarar, *günün sonunda* isə geri qaytarardı. Sonra da, bu qoyunları sağıb, *südünü* yaşlı ata-anasına verərdi. Sonra da, südün qalanını öz ailəsinə və xidmətçilərinə verərdi.

Adam belə deyir: **"Bir gün heyvanları otarmaq üçün çox uzağa getdim."** Yəni, *heyvanları otarmağa* otlaq yer axtarmaq üçün çox uzağa gedir. Qayıdanda da görür ki, ata-anası artıq yatıb. O, götür-qoy edir ki, görəsən ata-anasından öncə ailəsinə və xidmətçilərinə süd versin, yoxsa, ata-anası oyanana qədər onları gözləsin. Sonda, ikinciyə üstünlük verir. Yəni, dan yeri sökülənə qədər, əlində bardaq tutaraq ata-anasının oyanmasını gözləyir. Nəhayət, *ata-anası* yuxudan oyanıb südlərini içirlər. *Sonra da o südü* ailəsinə və xidmətçilərinə verir.

Sonra bu adam dua edib deyir: **"Allahım, əgər bu əməli Sənin üzünü dilədiyimə görə etmişəmsə, bizi, düşdüyümüz bu sıxıntıdan qurtar!"** Yəni, Allahım, əgər mən bu əməlimdə ixlaslı olmuşamsa – bunu Sənin xatirinə etmişəmsə - bizi, düşdüyümüz bu sıxıntıdan qurtar! Bu da, əməlin ixlasla, Allah üçün edilməsinə dəlildir. *Ümumiyyətlə,* ixlas, əməllərin qəbul olunması üçün ən böyük meyardır. *Adam dua etdikdən sonra,* Allah onun bu təvəssülünü qəbul edir və qaya parçası aralanır. Lakin, azacıq aralanır və onlar oradan çıxa bilmirlər.

İkincisinə gəlincə, o, Allaha mükəmməl iffəti ilə təvəssül edir. Belə ki, onun bir əmisi qızı var idi və o, bu qızı, kişilərin qadınları sevdiyi kimi olduqca çox sevirdi. Adam onunla yaxınlıq etmək istəyir, yəni, onunla zina etmək istəyir. Lakin qadın razı olmur və *onun təklifini* rədd edir. Nəhayət illərin birində qıtlıq baş verir və qadının *yemək-içməyi* tükənir. Yəni, onu kasıblıq və ehtiyac bürüyür. Odur ki, ehtiyac üzündən zinaya razılaşmaq zərurətində qalır. Bu cür etmək caiz deyil. Lakin, bu baş verir. Qadın əmisi oğlunun yanına gəlir və o, qadına yüz iyirmi dinar verir ki, onunla yaxınlıq etməyə razılıq versin. Qadın da, ehtiyacı üzündən və zərurətdən dolayı buna razılıq verdi. Kişi öz qadını ilə yaxınlıq etmək istədikdə, onun *ayaqları arasında* necə oturursa, o da bu cür oturub, o qadınla yaxınlıq etmək istədikdə, qadın ona çox heyrətverici

və əzəmətli bir söz deyir: **“Allahdan qorx! Haqqın olmadığı halda bakirəliyimi pozma!”**

Qadın onu Allahla qorxudur və ona bildirir ki, əgər bu əməli haqlı olaraq etmək istəyirsə, buna etirazı yoxdur. Lakin, bakirəliyinin haqsız yerə pozulmasını istəmir. *Demək,* qadın bilirdi ki, bu *böyük* günahlardandır. Ona görə də əmisi oğluna, “Alahdan qorx!”– deyir. Qadın, öz qəlbinin dərinliyindən gələn bu sözü ona dedikdə, həmin sözlər əmisi oğlunun qəlbinin dərinliyinə yeriyir. Adam onu hamıdan çox sevdiyi halda, ondan uzaqlaşır və ona verdiyi qızılları da, yəni yüz iyirmi dinarı ona bağışlayır.

Sonra bu adam dua edib deyir: **“Allahım, əgər bu əməli Sənin üzünü dilədiyimə görə etmişəmsə, bizi, düşdüyümüz bu sıxıntıdan qurtar!” Qaya bir qədər də aralandı, lakin onlar yenə də oradan çıxa bilmədilər.”** Bu Allahın nişanələrindəndir. Çünki, Allah hər şeyə qadirdir. Əgər Allah istəsəydi, qaya parçası birinci dəfədən tam şəkildə aralanardı. Lakin, bu üç nəfərin hər biri özünün saleh əməli vasitəsilə Allaha edəcəyi təvəssülünü tamamlasınlar deyə, pak və uca Allah, bu qaya parçasını mağaranın ağzında saxlayır.

Üçüncüyə gəldikdə isə, o, Allaha, əməlində olan dürüstlüyü, islahatı və ixlası ilə təvəssül edir. Bu adam xəbər verir ki, bir neçə adamı işə götürmüş və hamısının zəhmət haqqını vermiş, yalnız biri öz zəhmət haqqını almadan getmişdir. Sonra o, həmin adamın pulunu dövriyyəyə qoymuş və beləliklə də, o, alış-veriş və digər vasitələrlə bu maldan qazanc əldə etmişdir. Nəhayət, bu mal o qədər böyümüş ki, onun bir sürü dəvəsi, inəyi, qoyunu, kölələri və böyük mal-dövləti olmuşdur. Bir müddət sonra həmin adam qayıdıb gəlmiş və ona: “Ey Allahın qulu, zəhmət haqqımı ver!”– demiş, o da ona: “Gördüyün bu dəvələr, inəklər, qoyunlar və kölələr – hamısı sənin zəhmət haqqındır”- deyə cavab vermişdir. Adam ona: “Mənimlə istehza etmə! Mənim səndə qalan zəhmət haqqım az olmalıdır. Gördüyüm bu dəvələrin, inəklərin, qoyunların və kölələrin hamısı, necə mənim ola bilər? Sən mənimlə istehza etmə!”– demiş, o da ona: “Bunlar sənindir”- demişdir. Beləcə, həmin adam, malların hamısını sürüb aparmış və onun üçün heç nə saxlamamışdır.

*Sonra bu adam dua edib* deyir: **"Allahım, əgər bu əməli Sənin üzünü dilədiyimə görə etmişəmsə, bizi, düşdüyümüz bu sıxıntıdan qurtar!" Qaya tamamilə aralandı və onlar oradan çıxıb getdilər."** Çünki onlar, ixlasla, Allah üçün etdikləri saleh əməllərinin vasitəsilə təvəssül etmişdilər.

**Bu hədisdə *bir çox* faydalar və ibrətlər vardır:**

Birincisi, valideynlərin qayğısına qalmağın fəzilətidir. Belə ki, bu əməl, sıxıntıları aradan qaldıran və zülmətləri yox edən saleh əməllərdən biridir.

İkinci fayda, zinadan çəkinib iffətli olmağın fəzilətidir. Belə ki, adam zina etməyə qadir olduğu halda ondan çəkinib iffətli olarsa, şübhəsiz ki, bu, ən əfzəl əməllərdən sayılar. Peyğəmbərdən ﷺ rəvayət edilən səhih hədisdə belə deyilir: "Yeddi qisim insan vardır ki, Allah onları Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcəkdir." Onlardan bir də: **"Gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: "mən Allahdan qorxuram!"– deyən kişi."**[1]

*Hədisdə zikr olunan* bu adama, yaxınlıq etmək istədiyi qadın imkan verdikdə, o, Allahdan qorxduğu üçün bunu etmir. Beləliklə də, o, mükəmməl iffətə sahib olur. Ümid edirik ki, o, Allahın, Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə, Öz kölgəsi altında kölgələndirəcəyi yeddi qisim insandan biri olsun.

Bu hədis həmçinin, dürüst olmağın və başqasının xeyir əldə etməsi üçün çalışmağın fəzilətinə dəlalət edir. Adamın imkanı var idi ki, işçisi öz pulunu almaq üçün onun yanına gəldikdə, onun yalnız zəhmət haqqını versin və qalan malı mənimsəsin. Lakin, o, dürüst, etibarlı, qardaşına qarşı səmimi və sədaqəti olduğuna görə, onun pulu ilə əldə etdiyi qazancın hamısını ona verdi.

Bu hədisin faydalarından biri də, İzzət və Cəlal sahibi olan Allahın qüdrətinin bəyan olunmasıdır. Belə ki, uca Allah Öz izni ilə qaya parçasını oradan kənarlaşdırır. Bu qaya parçasını oradan götürmək üçün heç bir alət gətirilmədi, yaxud, onu yerindən tərpətmək üçün heç bir

---

[1] Səhih əl-Buxari, 660; Səhih Muslim, 1031.

adam çağırılmadı. Bu yalnız uca Allahın əmri ilə baş verdi. Allah bu qaya parçasına yuvarlanıb aşağı düşməyi və *mağaranın ağzını* örtməyi əmr etdi. Sonra da ona tədricən kənara çəkilməsini əmr etdi. Həqiqətən də, Allah hər şeyə qadirdir.

Hədisdə olan ibrətlərdən biri də budur ki, uca Allah duaları eşidəndir. Həqiqətən Allah, o adamların dualarını eşitdi və onların dualarını qəbul etdi.

Hədisdəki digər bir ibrət də budur ki, ixlaslı olmaq, sıxıntıların aradan qaldırılması üçün bir səbəbdir. Çünki onların hər biri belə dua etmişdir: **"Allahım, əgər bu əməli Sənin üzünü dilədiyimə görə etmişəmsə, bizi, düşdüyümüz bu sıxıntıdan qurtar!"**

Riyaya gəlincə, o kəs ki, əməllərini, insanlara göstərmək və ya şan-şöhrət qazanmaq, yaxud, insanlar onu təriflədinlər deyə edir, şübhəsiz ki, bu, puç olub gedən köpüyə bənzəyir. Bu əməlin sahibi, həmin əməldən heç bir fayda əldə etmir. Allahdan, həm bizə, həm də sizə ixlas nəsib etməsini diləyirəm. Həqiqətən, ixlas, hər bir şeyin başıdır. İbadətindən heç kəs üçün pay ayırma, onun hamısını tək olan Allah üçün et ki, Allah yanında qəbul olsun. Çünki, Peyğəmbərin ﷺ öz Rəbbindən rəvayət etdiyi hədisdə uca Allah belə buyurur: "Mən şərikliyə möhtac olmayanların ən alisiyəm. Kim etdiyi bir əməldə Məndən qeyrisini mənə şərik qoşarsa, onu öz şirki ilə birlikdə baş-başa buraxaram."[1] Müvəffəq edən Allahdır.

[1] Səhih Muslim, 2985.

# İkinci fəsil

## Tövbə

Alimlər demişlər: "Hər bir günaha görə tövbə etmək vacibdir. Əgər günah bəndə ilə uca Allah arasında olub, insan haqqı ilə əlaqəli deyilsə, onda tövbənin üç şərti olur:

1-cisi günahı etməkdən əl çəkmək;

2-cisi, etdiyi günaha görə peşman olmaq;

3-cüsü, o günahı bir daha etməyəcəyinə qətiyyətlə niyyət etmək.

Əgər bu üç şərtdən birinə əməl edilməzsə, adamın tövbəsi doğru sayılmaz.

Əgər günah insan haqqı ilə əlaqəli olarsa, onda tövbənin dörd şərti olur: yuxarıda sadalanan üç şərt və üstəlik, haqqına girmiş kimsənin haqqını özünə qaytarmaq. Belə ki, əgər bu haqq pul və ya başqa əşyadırsa, sahibinə qaytarılmalıdır. Əgər bu haqq, qisas tələb edən bir günahdırsa, günahkar adam öz cəzasını çəkəcəyini bildirməli, yaxud əfv edilməsini diləməlidir. Və əgər birisinin qeybətini etmişsə, haqq sahibindən halallıq almalıdır. Günahların hamısına görə tövbə etmək vacibdir. Əgər adam öz günahlarından bəzisinə görə tövbə edərsə, o halda, haqq əhlinin rəyinə əsasən həmin günahlara görə etdiyi tövbəsi doğru sayılır, tövbə etmədiyi günahları isə boynunda qalır. Quran və Sünnədəki dəlillər, üstəlik bu ümmətin İcmasının yekdil rəyi tövbənin vacibliyini göstərir.[1]

**Mövzu ilə bağlı ayələr:**

Uca Allah belə buyurur:

﴿وَتُوبُوٓاْ إِلَى ٱللَّهِ جَمِيعًا أَيُّهَ ٱلۡمُؤۡمِنُونَ لَعَلَّكُمۡ تُفۡلِحُونَ﴾

**"Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız."**[2]

﴿وَأَنِ ٱسۡتَغۡفِرُواْ رَبَّكُمۡ ثُمَّ تُوبُوٓاْ إِلَيۡهِ﴾

---

[1] Riyadus-Salihinin mətnidir.

[2] ən-Nur, 31.

**“Və Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da Ona tövbə edəsiniz...”**[1]

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ تُوبُوٓاْ إِلَى ٱللَّهِ تَوۡبَةٗ نَّصُوحًا﴾

**“Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən tövbə edin!”**[2]

**Şərh:**

**Tövbə:** lüğəti mənada qayıtmaq, şəri mənada isə, Allaha asilik etməkdən uzaqlaşıb Ona itaət etməyə qayıtmaq deməkdir.

Günahların ən böyüyü isə küfrdür. Adam küfrdən tövbə edib imana qayıtmalıdır. Bu xüsusda Qurani Kərimdə belə buyurulur: **“Kafir olanlara de ki, əgər *küfrə* son qoysalar, olub-keçənlər onlara bağışlanar.”**[3] Sonra, bundan bir pillə aşağıda olan böyük günahlara görə tövbə edilməlidir. Daha sonra da, dərəcəsinə görə üçüncü yerdə yerləşən kiçik günahlara görə Allaha tövbə edilməlidir. Hər bir adama, bütün günahlarına görə Allaha tövbə etməsi vacibdir.

Müəllif ﷺ burada tövbənin sadəcə üç şərtini zikr etmişdir. Lakin dəlillərə nəzər saldıqda, tövbənin beş şərti olduğunu görə bilərik.

**Tövbənin birinci şərti**, ixlasdır. Yəni, tövbə etdikdə insanın məqsədi, Allahın üzünü *görməyi* diləmək olmalıdır. O, təmənna etməlidir ki, Allah onun tövbəsini qəbul etsin və etdiyi günahı bağışlasın. Məqsədi də, özünü insanlara göstərmək, onlara yaxınlaşmaq və ya güc strukturlarının və rəhbərlərin əziyyətlərindən qorunmaq olmamalıdır. Onun məqsədi, yalnız Allahın üzünü diləmək, Axirət yurdunu qazanmaq və Allahdan günahının əfv olunmasını təmənna etmək olmalıdır.

**Tövbənin ikinci şərti**, insanın, etdiyi günahına görə qəlbən peşman olmasıdır. Çünki, insandakı peşmançılıq hissi, onun, tövbəsində sadiq olmasına dəlalət edir. Yəni, etdiyi əmələ görə üzülməli, ondan otrü narahat olmalı və Allaha tövbə etməkdən başqa heç bir çıxış yolunun olmadığını bilməlidir.

**Tövbənin üçüncü şərti,** insanın, etdiyi günahı bir dəfəlik tərk etməsidir. Bu, tövbənin ən mühüm şərtlərindəndir.

---

[1] Hud, 3.

[2] əl-Təhrim, 8.

[3] əl-Ənfal, 38

Günahı tərk etmək: Əgər adamın etdiyi günah, vacib bir əməlin tərkidirsə, o halda həmin adamın, bu vacib əməli yerinə yetirməsi, günahı tərk etməsi deməkdir. Məsələn, bir adam zəkatını çıxartmayıb və buna görə Allaha tövbə etmək istəyir. O halda, həmin adam, əvvəlki illərdə vermədiyi zəkatlarını mütləq verməlidir. Əgər adam valideyinlərinə qarşı qayğıda təqsirkardırsa və buna görə tövbə etmək istəyirsə, onda ona, valideynlərinin qayğısına qalmaq vacibdir. Yaxud, adam qohumları ilə əlaqə qurmaqda təqsirkardırsa və buna görə tövbə etmək istəyirsə, onda ona, qohumları ilə əlaqə qurmaq vacibdir.

Əgər adamın etdiyi günah, haram bir əməli yerinə yetirməkdirsə, o halda həmin adamın, dərhal bu günahı tərk etməsi vacibdir və bir an da olsa belə, o, bu günahın üstündə qalmamalıdır. Məsələn, bu günah sələm yeməkdirsə və buna görə həmin adam tövbə etmək istəyirsə, onda ona, dərhal bu sələmdən yaxa qurtarmaq, onu tərk etmək, ondan uzaqlaşmaq və sələm yolu ilə qazandığı malı özündən uzaqlaşdırmaq vacibdir. Yaxud, bu günah kələkbazlıq, insanlara yalan danışmaq, əmanətə xəyanət etməkdirsə və buna görə həmin adam tövbə etmək istəyirsə, bu halda ona bu günahları tərk etmək vacibdir. Əgər adam haram yolla qazanc əldə edibsə, ona, həmin pulu öz sahibinə qaytarmaq və ya buna görə ondan halallıq almaq vacibdir. Adamın etdiyi günah qeybət olarsa, o, insanların qeybətini etməyi tərk etməli və bir daha onların şərəf və namuslarına toxunmamalıdır. Əgər adam desə ki, mən tövbə etmişəm, lakin bununla yanaşı vacib olan əməlləri tərk etməkdə və ya haram olan əməlləri yerinə yetirməkdə davam edərsə, onda bu tövbə qəbul olunmur. Hətta bu cür tövbə Allahla istehza etməkdir. Sən Allaha asiliyində davam etdiyin halda, Ona necə tövbə edirsən?!

Əgər sən, insanlardan hər hansı birinə: "Mən sənə qarşı davranışıma görə tövbə edirəm, mən buna görə peşman olmuşam və bir daha belə etməyəcəm"- desən, sonra da həmin əməli dir daha edəcəyini qəlbində niyyət etsən və yenə həmin əmələ qayıtsan, sən onunla istehza etmiş sayılırsan. Əgər bu adi insana qarşı istehzadırsa, onda aləmlərin Rəbbi Allaha qarşı belə etsən necə olar?!

Həqiqi tövbə edən insan, günahı bir dəfəlik tərk edən kimsədir.

Qəribədir ki, bəzi adamlarla oturduqda, görürsən ki, o, sələm yemək olmaz deyir, lakin eyni zamanda özü sələmçiliklə məşğul olur, yaxud qeybət olmaz, insanların ətini yemək olmaz deyir, amma özü insanlar arasında hamıdan çox qeybət edir, yaxud yalan danışmaqdan və insanların əmanətinə xəyanət etməkdən şikayətlənir, lakin insanlar arasında hamıdan çox özü ən yalan danışır və əmanətə xəyanət edir.

Hər bir halda, insan, tövbə etdiyi günahı bir dəfəlik tərk etməlidir. Əgər adam həmin günahı tərk etməsə, tövbəsi rədd olunar və bu tövbə Allah yanında ona heç bir fayda verməz. Əgər tərk etmək istədiyin günah Allahın haqqı ilə əlaqəlidirsə, onda sən, özünlə Rəbbinin arasında tövbə etsən kifayət edər. Belə olduğu halda sən, etdiyin haram işləri və ya tərk etdiyin vacib əməlləri insanlara bildirməməlisən. Çünki bu günah, səninlə Allah arasında olan bir şeydir. Əgər Allah onu gizlətməklə və insanlardan ört-basdır etməklə, sənə Öz lütfünü göstərmişsə, Allaha tövbə etdikdən sonra heç vaxt etdiyin bu günah barəsində heç kəsə danışma. Peyğəmbər ﷺ demişdir: "Ümmətimin hamısı əfv ediləcək. Yalnız açıq-aşkar günah işlədənlərdən başqa. Birisi gecə bir günah edir və səhəri gün Allah onun bu günahını ört-basdır etdiyi halda dostlarına: "Ey filankəs, mən bu gecə filan, filan işləri görmüşəm"- deyir. Gecə Rəbbi onun günahının üstünə örtük çəkir, səhər isə o, Allahın bu örtüyünü açır."[1]

Lakin bəzi alimlər istisna edərək belə deyirlər: "Əgər bir insan, şəri cəza tətbiq edilən bir günah iş görərsə, onda o, bu cəzanı tətbiq edən rəhbərin yanına gedir və ona: "Filan günahı etmişəm və bu günahdan təmizlənmək istəyirəm"- deyir." Hərçənd, onun öz günahını ört-basdır etməsi daha əfzəldir. Yəni, bir adam, şəri cəzası olan günah bir iş görərsə, məsələn, zina edərsə, onda həmin adama, rəhbərin yanına gedib, özünə şəri cəzanın tətbiq olunması istəyərək: "Mən filan və filan günahları etmişəm"- deməyi mübah sayılır. Çünki, şəri cəza günahın kəffarəsidir.

Günahlara gəldikdə isə, Allah onu gizlətdiyi kimi, sən də onu gizlin saxla. Həmçinin, zina və buna bənzər günahları da, rəhbər istisna olmaqla, hamıdan gizlin saxla və heç kəsə açma. Madam ki, sən Allahla

---

[1] Səhih əl-Buxari, 6069; Səhih Muslim, 2990.

öz aranda o günahdan tövbə etmisən, Allah bəndələrinin tövbəsini qəbul edir və onun günahlarını əfv edir.

Lakin, günah səninlə insanlar arasındadırsa və bu günah kiminsə haqqı ilə bağlıdırsa, onu öz sahibinə qaytarmalısan. Onu qaytarmasan tövbə qəbul olmaz. Məsələn, bir şəxsdən oğurluq etmisən və buna görə tövbə edirsən, bu zaman oğurladığın malı öz sahibinə qaytarmalısan. Yaxud, bir şəxsin haqqını inkar etmisən, məsələn, sənin boynunda bir insana verəcəyin borc var və sən də bunu inkar etmisən, amma sonra Allaha tövbə etmisən. Bu halda, borcunu inkar etdiyin həmin borc sahibinin yanına gedib ona olan borcunu etiraf edirsən ki, adam öz haqqını götürsün. Əgər həmin adam artıq vəfat edibsə, onda həmin malı onun varislərinə verirsən. Birdən onun varislərini tanımasan və ya adamın özü yoxa çıxsa və sən də onun yerini tapa bilməsən, bu zaman həmin maldan azad olmaq üçün, onu həmin adamın adından sədəqə verirsən. Uca Allah bunu bilir və onun *savabını* həmin adama çatdıracaqdır.

Əgər birisini vurmusansa və ya buna bənzər bir yaramazlıq etmisənsə, onda həmin adamın yanına getməli və sən onu vurduğun kimi o da səni vurmalıdır. Əgər onun kürəyinə vurmusansa, o da sənin kürəyinə, başına vurmusansa, o da sənin başına və ya bədəninin hansı yerinə vurmusansa, o da səni vurmaqla səndən qisasını almalıdır. Bu xüsusda uca Allah buyurur: "**Pisliyin cəzası özü kimi pislikdir.**"[1] O, həmçinin buyurur: **"Kim sizə qarşı təcavüz etsə, siz də ona qarşı onun təcavüz etdiyi qədər təcavüz edin."**[2]

Əgər bir adama qarşı etdiyin günah, sözlə olmuşdursa – məsələn, onu insanların önündə söymüsən, yaxud danlamısan və ya utandırmısansa, o halda sən həmin adamın yanına getməli və ittifaq etdiyiniz bir şeyin müqabilində ondan halallıq almalısan. Hətta o sənə desə ki, mənə filan qədər dirhəm verməsən sənə hallallıq verməyəcəm, onda onun istədiyini verməlisən ki, sənə halallıq versin.

Hər hansı bir insanın haqqına girmisənsə, və bu haqq qeybətdirsə, yəni, sən adamın dalınca artıq-əskik danışmısansa və o, olmadığı yerdə başqalarına onun eyiblərini danışmısansa, buna görə halallıq almaq ba-

---

[1] əş-Şura, 40.

[2] əl-Bəqərə, 194.

rəsində alimlər ixtilaf etmişlər. Bəzi alimlər deyir ki, həmin adamın yanına getməli və ona: "Ey filankəs, mən insanların yanında sənin dalınca danışmışam, odur ki, xahiş edirəm məni bağışlayasan və mənə halallıq verəsən"- deməlisən. Bəzi alimlər isə belə demişlər: "Dərhal onun yanına getmirsən. Çünki, bunun təfsilatı var! Əgər adam sənin qeybət etdiyindən xəbər tutsa, onda onun yanına gedib halallıq alırsan. Əgər xəbər tutmasa, onun yanına getmirsən. Lakin, onun üçün bağışlanma diləyirsən və onun qeybətini etdiyin toplumun yanında onun yaxşı əməllərindən danışırsan. Çünki, yaxşı əməllər pis əməlləri silib aparır." Ən doğru rəy budur. Belə ki, qeybətini etdiyin adam, sənin bu qeybətindən xəbər tutmasa, sənə kifayət edər ki, onun qeybətini etdiyin toplumun yanında onun yaxşı əməllərindən danışasan və onun üçün: "Allahım, onu bağışla!"- deyə dua edəsən. Bu xüsusda varid olan hədisdə belə deyilir: "Adamın qeybətinin kəffarəsi, onun üçün bağışlanma diləməyindir."[1] Demək, tövbə ilə yanaşı, haqq sahiblərinin haqlarını da özlərinə qaytarmalısan.

**Tövbənin dördüncü şərti,** insanın, gələcəkdə bir daha həmin günaha qayıtmayacağına niyyət etməsidir. Yəni, gələcəkdə heç vaxt həmin günaha qayıtmayacan. Əgər niyyət etsən ki, əlimə fürsət düşən kimi həmin əmələ yenə qayıdacam, bu halda tövbə səhih sayılmır. Məsələn, bir adam öz pulunu Allaha asi olan işlərə sərf edir. Həmin pulla sərxoşedici içkilər alır, xarici ölkələrə gedib orada zina edir və sərxoşedici içkilər içir. Bir müddət sonra ona kasıblıq üz verir və o: "Allahım, sənə tövbə edirəm"- deyir. Halbuki, o yalançıdır. "Allahım, Sənə tövbə edirəm"- deyir, amma niyyət edir ki, işləri əvvəlki vəziyyətinə qayıtsa, əvvəl etdiyi əməlləri edəcək. Bu, aciz qalanın tövbəsidir. Çünki, tövbə etsən də, etməsən də fərq etməz, onsuz da sən həmin günahı etmək iqtidarında deyilsən. Elə insanlar var ki, ona kasıblıq üz verdikdə, "Günahları tərk etmişəm"- deyir. Amma qəlbində düşünür ki, itirdiyim şeylər geri qayıtsa, günahlara bir daha qayıdaram. Bu, qəbul olan tövbə

---

[1] İbn Əbu Dunyə, "Kitab əs-Səmt", 291; Əbu Şeyx "ət-Təubix və ət-Tənbih", 211; əl-Xəraiti, "Məsavi əl-Əxlaq", 211. Hafiz əl-İraqi bu hədisi "əl-Muğni" əsərində zəif hesab etmişdir. Bax: "əl-İhya", 3/133. "Kəşf əl-Xəfa" əsərində, 2/111, bu hədisin digər yollarına baxa bilərsən. Albani bu hədisi "əs-Silsilə əd-Daifə" əsərində, № 1519, zəif hesab etmişdir.

deyildir. Çünki bu, aciz qalanın tövbəsidir. Aciz qalanın tövbəsi isə ona fayda verməz.

**Tövbənin beşinci şərti,** tövbəni, onun qəbul olunduğu vaxt etməkdir. Əgər *adam* tövbəni, onun qəbul olunmadığı bir vaxtda edərsə, bu tövbə ona fayda verməz. Bu vaxt iki növdür:

Birinci növ: hər bir adamın özünə aid olan *vaxt.*

İkinci növ: hamıya aid olan ümumi *vaxt.*

Birinci növə gəlincə, qeyd etmək lazımdır ki, tövbəni, əcəl yetişməmişdən öncə yerinə yetirmək gərəkdir. Yəni, ölüm haqlamamışdan öncə. Əgər tövbə, əcəl yetişdikdən sonra olarsa, bu tövbə öz sahibinə heç bir fayda verməz. Bu xüsusda uca Allah belə buyurur: **"Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!"– deyənlərlə kafir kimi ölənlərin tövbəsi qəbul deyildir."**[1] Belə adamların tövbəsi qəbul olmur. Uca Allah, həmçinin, buyurur: **"Onlar əzabımızı daddıqda: "Biz, tək Allaha iman gətirdik və Ona şərik qoşduqlarımızı inkar etdik!"– dedilər. Lakin o zaman əzabımızı gördükdə iman gətirmələri onlara heç bir fayda vermədi. Bu, Allahın Öz qulları barəsində əzəldən bəri qüvvədə olan qanunudur. Onda kafirlər ziyana uğradılar."**[2]

Adamın əcəli gəldikdə və ölümünü əyani olaraq gördükdə, bu o deməkdir ki, o, artıq həyatdan ümidini üzüb. O, həyatdan ümidini üzdükdən və gedib tövbə edəcəyi üçün vaxtın qalmadığını bildikdən sonra tövbə etsə, onun tövbəsi yersiz sayılar. Bu, məcburiyyət qarşısında qalanın tövbəsidir. Bu tövbə ona fayda verməyəcək və ondan qəbul olunmayacaq. Tövbə bütün bunlardan əvvəl yerinə yetirilməlidir.

İkinci növə gəldikdə isə, bu, hamıya aid olan ümumi vaxtdır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Tövbənin qəbul olunması dayandırılmayınca, hicrət etmək də, dayandırılmayacaq. Günəş batdığı yerdən çıxmayınca, tövbə də dayandırılmayacaq."[3] Günəş batdığı yerdən çıxdıqda isə, tövbə heç kimə fayda verməyəcəkdir. Uca Allah buyurur: **"Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və**

---

[1] ən-Nisa, 18.

[2] Ğafir, 84-85.

[3] Sunən Əbu Davud, 2479; Musnəd İmam Əhməd, 4/99; Səhih əl-Cami, Albani, 7469.

**ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir."**[1] Ayədəki: **"Bəzi əlamətlər"**– deyildikdə, bu, günəşin batdığı yerdən çıxmasıdır. Bunu Peyğəmbər ﷺ belə təfsir etmişdir.

Demək, tövbəni onun qəbul olunduğu vaxt etmək lazımdır. Əgər belə olmasa adamın tövbəsi keçərli sayılmaz.

Sonra alimlər, bir günahda israr edənin, digər bir günaha görə etdiyi tövbəsinin qəbul olub olunmaması barədə ixtilaf etmişlər. Elm əhlinin bu barədə üç rəyi vardır!

1. Alimlərin bir qismi belə demişdir: "Əgər adam bir günahı israrla edirsə, digər bir günaha görə tövbə etsə, onun bu tövbəsi səhihdir. Yəni, həmin günaha görə etdiyi tövbəsi qəbul olar, israr etdiyi o biri günaha görə isə günah qazanar."

2. Bir qisim alimlər də belə demişlər: "Bir günahda israr edən adamın, başqa günaha görə etdiyi tövbəsi də qəbul olmaz."

3. Bəziləri isə buna təfsilat verərək belə demişlər: "Əgər adamın israr etdiyi günahla, tövbə etdiyi digər günah eyni cinsdəndirsə, bu tövbə qəbul olunmur, əks halda isə qəbul olunur."

Məsələn: Bir adam sələmlə məşğul olduğuna görə tövbə edir, lakin o, sərxoşedici içki içməkdə israr edir. Bəzi alimlər deyirlər ki: "Onun sələmə görə etdiyi tövbəsi qəbul olmur. Adam günahında israr edə-edə, Allaha necə tövbə edə bilər ki." Digərləri isə deyirlər ki: "Əksinə, onun tövbəsi qəbul olur. Çünki sələm bir şey, sərxoşedici içki içmək isə başqa bir şeydir." Müəllif رحمه الله məhz bu rəyi dəstəkləyərək belə deyir: "Şübhəsiz ki, haqq əhlinə görə bir günahı israrla edən adamın, başqa günaha görə etdiyi tövbəsi qəbul olur."

Göründüyü kimi bu məsələdə ixtilaf var, bəzisi, "qəbul olur"- deyir, bəzisi də "qəbul olmur"- deyir. Əgər günahlar eyni cinsdən olarsa, – məsələn, adam həm zinaya mübtəla olub, həm də qadınları seyr etməyə, onlara şəhvət hissi ilə nəzər salmağa və ya buna bənzər şeylərə mübtəla olubsa – onun, qadınlara şəhvət hissi ilə nəzər salmağında israr edərsə, zinaya görə etdiyi tövbəsi qəbul olurmu? Və ya əksinə? Bu məsələnin özündə də ixtilaf vardır. Bəziləri, "tövbə səhihdir", bəziləri isə, "səhih deyil"- deyir.

---

[1] əl-Ənam, 158.

Lakin bu məsələdə səhih olan budur ki, adam bir günahı israrla edirsə, digər bir günaha görə tövbə etsə, onun bu tövbəsi səhihdir. Amma həmin insana, əsla, tövbə edən adı verilmir. O, tövbə edənlərə verilən təriflərə layiq görülmür. Çünki, bu adam kamil şəkildə tövbə etməmişdir. Əksinə, naqis şəkildə tövbə etmişdir. Deməк o, *yalnız* bir günah işə görə tövbə etmiş və *yalnız* onun günahını öz üzərindən qaldırmışdır. Ona görə də, o adam, qətiyyən, tövbə vəsfinə layiq deyildir. *Onun barəsində* belə deyilir: "Onun tövbəsi naqis və qüsurludur. Qəlbə yatan rəy də məhz bu rəydir. Belə ki, həmin adama, qəti olaraq, tövbə edən vəsfi verilmir və həmin günaha görə etdiyi tövbədən də məhrum olunmur.

Müəllif ﷀ deyir ki: "Quran və Sünnədəki dəlillər, bütün günahlara görə tövbə etməyin vacibliyini göstərir." O, doğru söyləmişdir. Çünki tövbəyə təşviq edən, onun fəzilətini və savabını bəyan edən ayələr çoxdur. Habelə bu barədə Peyğəmbərdən ﷺ varid olan hədislər də çoxdur. Uca Allah Öz kitabında, həm çoxlu tövbə edənləri, həm də pak olanları sevdiyini bəyan etmişdir. Çoxlu tövbə edənlər o şəxslərdir ki, onlar, Allaha olan tövbələrini çoxaldırlar, hər dəfə bir günah etdikdə, dərhal Allaha tövbə edirlər.

Sonra müəllif uca Allahın bu ayələrini zikr edir: **"Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız."**[1] Uca Allah bu ayə ilə, gözü aşağı dikməyin vacibliyini göstərən iki ayəni xətm etmişdir. Həmin ayələr bunlardır: **"Mömin kişilərə de ki, *harama baxmayıb* gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini *zinadan* qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır. Mömin qadınlara da de ki, *harama baxmayıb* gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini *zinadan* qorusunlar. Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini *naməhrəmə* göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz *müsəlman* qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirmiş kişi xidmətçilərdən, yaxud qadınların**

[1] ən-Nur, 31.

**çılpaqlığını hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını *yerə* vura-vura yeriməsinlər. Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız."**[1]

Bu ayə, gözü aşağı dikməməyə görə tövbə etməyin vacib olmasına və cinsiyyət üzvlərinin *zinadan* qorunmasına dəlalət edir. Çünki gözü aşağı dikmək, baxmağı məhdudlaşdırmaq, baxmamaq və cinsiyyət üzvlərini qorumaq mənasını verir. Gözü aşağı dikməyi tərk etmək isə bunların əksi anlamındadır. Bütün bu günahların hamısı insanı həlaka, bədbəxtliyə və fəlakətə aparan səbəblərdəndir. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: "Mən özümdən sonra kişilər üçün ehtiyat etdiyim ən təhlükəli fitnə qadınlardır."[2] Başqa bir hədisdə də o demişdir: "İsrail övladlarının başına gələn ilk fitnə qadınlar xüsusunda olmuşdur."[3]

Məhz buna görə də düşmənlərimiz, yəni, İslam düşmənləri, daha doğrusu yəhudilərdən, nəsranilərdən, müşriklərdən, kommunistlərdən, *habelə* onların bənzərləri, tərəfdarları və davamçılarından olan Allahın düşmənləri, bütün var güclərini sərf edərək müsəlmanları qadınlar vasitəsilə fitnəyə salmağa çalışırlar. Onlar qadınları açıq-saçıq geyinməyə, kişilərlə qarışmağa, əxlaq pozğunluğuna çağırırlar. Və bu çağırışı öz dilləri, qələmləri və əməlləri vasitəsilə edirlər. Çünki onlar, insana, öz Rəbbini və dinini unutduran ən böyük fitnənin qadın olduğunu bilirlər. O qadınlar ki, ağıl sahiblərini belə fitnəyə salır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Mən, həm ağıl, həm də din baxımından sizin qədər nöqsanlı olan birisinin, ağıllı və ehtiyatlı bir kişinin ağlını apardığını görmədim."[4] Bundan daha aydın bir şeymi istəyirsən.

Əgər qadın ağıllı və ehtiyatlı bir kişinin ağlını aparırsa, bir fikirləş gör, nə ehtiyatı, nə iradəsi, nə dini, nə də kişiliyi olmayan, dar düşüncəli adamın halı necə ola bilər. Əlbəttə ki, ondan daha şiddətli və daha şiddətli olar. Allaha sığınırıq! Demək, qadınlar ağıllı və ehtiyatlı kişinin ağlını başından çıxara bilir. Bu, həqiqətdir. Ona görə də, uca Allah,

---

[1] ən-Nur, 30-31.

[2] Səhih əl-Buxari, 5096; Səhih Muslim, 2740, 2741.

[3] Səhih Muslim, 2742.

[4] Səhih əl-Buxari, 304; Səhih Muslim, 79.

gözləri aşağı dikməyi əmr etdikdən sonra, onun ardınca belə deyir: **"Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız."**[1] Uca Allahın, **"Hamınız Allaha tövbə edin"-** sözü dəlildir ki, bizə, biri-birimizə tövbə etməyi tövsiyə etmək və biri-birimizdən göz-qulaq olmaq lazımdır, hətta vacibdir ki, baxaq görək, adam günahına görə tövbə etdimi, yoxsa hələ *o günahı* etməkdə davam edir. Çünki ayədəki xitab hamıya aiddir: **"Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin!"** Uca Allahın: **"Bəlkə nicat tapasınız"**- sözü dəlalət edir ki, nicat tapmağın səbəblərindən biri də, tövbədir. Nicat sözünü elm əhli belə açıqlamışdır: Nicat: elə bir geniş kəlmədir ki, onunla diləklər həyata keçir və qorxular aradan qalxır. O, dünya və Axirət xeyrini özündə cəm edən kəlmədir.

Hər bir insan həm dünya, həm də Axirət xeyrini istəyir. Hətta kafir olsa belə, elə bir insan tapa bilməzsən ki, xeyir istəməsin. Lakin onlardan eləsi olur ki, bu xeyrə müvəffəq olur, eləsi də olur ki, müvəffəq olmur. Kafir də xeyir istəyir, lakin o, dünya xeyrini istəyir. Çünki onun hissləri, heyvani hisslərdir. Belə olduqda o, Allah yanında heyvandan da betərdir. **"Şübhəsiz ki, Allah yanında heyvanların ən pisi kafir olanlardır."**[2] Yer üzündə gəzən hər bir heyvandan betərdir. Bununla yanaşı, o da xeyir istəyir, o da rifah istəyir, o da bu dünyadan zövq almaq istəyir. Lakin bu dünya onun cənnəti, Axirət isə onun əzabı və cəhənnəm odudur.

Xülasə budur ki, hər bir insan öz niyyətinə görə nicat qazanmaq istəyir. Mömin, həm dünyada, həm də Axirətdə nicat qazanmaq istəyir. Kafir isə, Axirətə iman gətirmir və yalnız dünyada nicat qazanmaq istəyir.

Nicat qazanmağın səbəblərindən biri də, Allaha tövbə etməkdir. Necə ki, uca Allah buyurur: **"Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız."**[3] Yəni, nicat qazanmaq üçün tövbə edin. Bu da, istəklərə nail olmaqla və qorxuları aradan qaldırmaqla gerçəkləşir. Müvəffəq edən Allahdır.

---

[1] ən-Nur, 31.
[2] əl-Ənfal, 55.
[3] ən-Nur, 31.

**Mövzu ilə bağlı hədislər:**

١٣ - وعَنْ أبي هُرَيْرَةَ رضي الله عنه قال: سمِعتُ رسول الله ﷺ يَقُولُ: « واللَّه إِنِّي لأَسْتَغْفرُ اللهَ وَأَتُوبُ إِلَيْه في اليَوْمِ أَكثر مِنْ سَبْعِين مرَّةً » رواه البخاري.

**13.** Rəvayət edilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: “Mən Rəsululahın ﷺ belə dediyini eşitmişəm: “Allaha and olsun ki, mən hər gün yetmiş dəfədən çox Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm.”

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١٤ - وعن الأَغَرِّ بْن يَسار المُزَنِيِّ رضي الله عنه قال: قال رسول الله ﷺ: « يا أَيُّها النَّاس تُوبُوا إِلى اللَّهِ واسْتغْفرُوهُ فإِني أَتوبُ في اليَوْمِ مائة مَرَّة » رواه مسلم.

**14.** əl-Əğar ibn Yəsar əl-Muzəni رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: “Ey insanlar! Allaha tövbə edin və Ondan bağışlanma diləyin. Həqiqətən, mən gündə yüz dəfə tövbə edirəm.”

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

**Şərh:**

Müəllif رحمه الله tövbənin vacib olmasını və onun şərtlərini, habelə, bu vacibliyə dəlalət edən ayələri, fəslin əvvəlində zikr etmiş və biz də onun barəsində danışmışıq.

Müəllif رحمه الله bu iki hədisi sünnədən dəlil olaraq gətirmişdir. Çünki, hər hansı bir şey barəsində olan dəlillər bir-birini nə qədər gücləndirərsə, bir o qədər güclü və etibarlı olar, habelə, bir o qədər vacibliyə dəlalət edər. Müəllif, Əbu Hureyranın رضي الله عنه rəvayət etdiyi hədisi zikr edərək, Peyğəmbərin ﷺ and içib, hər gün yetmiş dəfədən çox Allahdan bağışlanma dilədiyini və Ona tövbə etdiyini xəbər verir. Budur, keçmiş və gələcək günahları bağışlanmış Rəsulullah ﷺ hər gün yetmiş dəfədən çox Allahdan bağışlanma diləyir. əl-Əğar ibn Yəsar əl-Muzəni رضي الله عنه rəvayət etdiyi hədisdə isə, Rəsulullah ﷺ belə buyurur: **“Ey insanlar!**

---

[1] Səhih əl-Buxari, 6307.

[2] Səhih Muslim, 2702.

**Allaha tövbə edin və Ondan bağışlanma diləyin. Həqiqətən, mən gündə yüz dəfə tövbə edirəm."**

Bu iki hədis *günahlara görə* tövbə etməyin vacib olmasına dəlalət edir. Çünki, Peyğəmbər ﷺ əmr edib buyurur: **"Ey insanlar! Allaha tövbə edin!"** İnsan Rəbbinə tövbə etdikdə iki fayda əldə edir:

**Birinci fayda:** Allahın və rəsulunun ﷺ əmrinə itaət etmək. Bütün xeyirlər Allahın və Onun rəsulunun ﷺ əmrinə itaət etməkdədir. Allahın və Onun rəsulunun ﷺ əmrinə itaət etmək dünya və Axirət xoşbəxtliyinin meyarıdır.

**İkinci fayda:** Allahın rəsulunu ﷺ örnək götürmək. Belə ki, Peyğəmbər ﷺ gün ərzində Allaha yüz dəfə tövbə edərdi. Yəni, "Allaha tövbə edirəm, Allaha tövbə edirəm...[1]"- deyərdi.

Tövbədə mütləq sadiq olmaq lazımdır. Belə ki, insan Allaha tövbə etdikdə günahı tərk etməlidir. Yoxsa ki, insan dili ilə tövbə edib, qəlbində həmin günahı *bir daha* yerinə yetirəcəyinə və ya vacib əməli *bir daha* tərk edəcəyinə meyl edərsə, onun tövbəsi ona *heç bir* fayda verməz. Yaxud, dili ilə tövbə edib, bədən əzaları ilə həmin günahda israr edərsə, *yenə* onun tövbəsi ona *heç bir* fayda verməz. Bu, daha çox Allaha istehza etməyə bənzəyir!

Necə ola bilər ki, günahı edə-edə: "Mən bu günahdan Allaha tövbə edirəm"- deyəsən və ya günahı *yenidən* edəcəyinə niyyət edə-edə: "Mən bu günahdan Allaha tövbə edirəm"- deyəsən.

Əgər insan başqa birisi ilə bu cür davransa, həmin adam ona: "Sən məni ələ salırsan, sən mənə istehza edirsən"- deyər. Adam bir şeyə bağlı olduğu halda, mənim yanımda ondan necə xilas ola bilər? Bu, əyləncə və oyun-oyuncaqdan başqa bir şey deyildir. Elə isə Aləmlərin Rəbbi ilə *bunu* necə edə bilər?!

İnsanlar arasında elələri var ki, sələmdən tövbə etdiyini deyir, lakin sələmlə məşğul olmaqda davam edir. Həmin adam sələmlə həm açıq-aşkar məşğul olur, həm də hiylə işlədərək. Biz dəfələrlə demişik ki, hiylə işlədərək sələmlə məşğul olanın günahı, açıq-aşkar sələmlə məşğul olanın günahından daha böyükdür. Çünki hiylə yolu ilə sələmlə məşğul olan adam ikiqat günaha batır:

---

[1] Yəni, "Ətubu iləllahi, ətubu iləllahi..."- deyərdi.

**Birincisi:** Sələmə batmaqla.

**İkincisi:** Allaha qarşı hiylə işlətməklə. Beləsi, elə bilir ki, uca Allah bilmir. Günümüzdə beləlari mövcuddur. İnsanlar arasında eləsi var ki, sələmlə açıq-aşkar məşğul olur. Bunların məsələsi aydındır. Lakin, eləlari də var ki, xəyanət edərək və hiylə işlədərək sələmlə məşğul olur. Görürsən ki, adamın dükanında illərlə yatıb qalan mallar var. Bir varlı, kasıb birisini yanına salıb dərisini soymaq üçün onu dükana gətirir. Onlar satlıq malı olan dükan sahibinin yanına gəlirlər. Varlı adam dükan sahibinə, məsələn, əvvəlcədən borc olaraq doqquz min pul verir. Dükan sahibi həmin malı formal olaraq əvvəlcə kasıba nisyə satır. Hamısı da bilir ki, bu həqiqi satış deyil. Çünki müştəri – borc alan – *aldığı* malı, heç o tərəf bu tərəfinə belə çevirmir, ona nəzər salmır və bu onun üçün əhəmiyyət də kəsb etmir. Hətta, qum dolu kisələr olsa da, ona desələr ki, bu kisədəkilər düyü və ya qənddir, onu götürər. Çünki bu onun üçün əhəmiyyət kəsb etmir. Onun üçün mühüm olan öz ehtiyacını qarşılamaqdır. Məsələn, dükan sahibi həmin malı ona, pulunu bir ilə ödəmək şərtilə on minə satır. Sonra adam bir az kənara çəkilir və aldığı malı belə yerindən tərpətmir. Bundan sonra borc nisyə alan adam, həmin malı yenidən dükanın sahibinə - məsələn - doqquz minə nəğd pula satır. Dükan sahibi də əvvəlcədən varlıdan aldığı pulu həmin kasıba verir. Sonra, dükan sahibi kasıbdan hissə-hissə alacağı on minin doqquzunu varlıya verir, yerdə qalan mini isə öz aralarında əvvəlcədən razılaşma yolu ilə bölürlər. Beləliklə, bu kasıbın malı iki nəfər tərəfindən yeyilir: Borc verən varlı tərəfindən, bir də dükanın sahibi tərəfindən. Onlar: "bu ticarət səhihdir"– deyirlər. Hətta bunu təshih – düzəliş – də adlandırırlar. Bu əməli edənlər belə deyirlər: "Gəl sənin üçün düzəliş edim" və ya "Gəl filan və filan işi sənin üçün səhihləşdirim." Subhanəllah, məğər bu təshihdir?! Allaha sığınırıq, bu, günah çirkabına bulaşmaqdır.

Ona görə də, - əgər tövbəsində Allahla sadiq olarsa, tövbənin qəbul olunması üçün, günahları həqiqi mənada tərk etmək, onlara nifrət etmək və həmin günahı etdiyimizə görə peşiman olmaq bizə vacibdir.

Bu iki hədis dəlildir ki, Peyğəmbərimiz Muhəmməd ﷺ insanlar arasında Allaha ən çox ibadət edəndir. Həqiqətən də, bu belədir. O,

bizim aramızda Allaha ən çox itaət edən, Ondan ən çox qorxan, Allahı ən yaxşı tanıyan birisidir – ona Allahın salavatı və salamı olsun!

Həmçinin, bu hədislər dəlildir ki, Peyğəmbər ﷺ həm sözləri, həm də hərəkətləri ilə xeyirli işlərə vəsilə olan müəllimdir. Belə ki, o, həm özü Allahdan istiğfar diləyir, həm də bunu insanlara əmr edir. Belə edir ki, *insanlar* onun əmrinə riayət etməklə və hərəkətinə tabe olmaqla ondan nümunə götürsünlər. Bu, Peyğəmbərin ﷺ öz ümmətinə olan ən mükəmməl nəsihətidir. Biz də, həmçinin, ondan nümunə götürməliyik. İnsanlara bir şeyi əmr ediriksə, onu ən birinci özümüz yerinə yetirməliyik, həmçinin, onlara nəyisə qadağan etdikdə, ondan ən birinci özümüz çəkinməliyik. Çünki, bu vəsf, Allaha dəvət edən əsl dəvətçinin vəsfidir və Allaha həqiqi dəvət də budur. Odur ki, sən də, əmr etdiyin şeyə birinci özün əməl et, qadağan etdiyin şeyi də *birinci* özün tərk et. Necə ki, Peyğəmbər ﷺ etmişdir. O, bizə tövbə etməyi əmr edib, özü də bizdən daha çöx tövbə etmişdir. Allahdan istəyirik ki, həm bizdən, həm də sizdən tövbələri qəbul etsin, həm bizi, həm də sizi doğru yola yönəltsin. Müvəffəq edən Allahdır.

١٥ - وعنْ أبي حَمْزَةَ أَنَس بن مَالِكٍ الأَنْصَارِيِّ رضي الله عنه خَادِمِ رسول الله ﷺ قال: قال رسول الله ﷺ: «للهُ أَفْرحُ بتَوبةِ عَبْدِهِ مِنْ أَحدِكُمْ، سقطَ عَلَى بعِيرِهِ، وقد أَضلَّهُ فِي أَرضٍ فَلاةٍ» متفقٌ عليه.

وفي رواية لمُسْلِمٍ: «للهُ أَشدُّ فرحاً بِتَوْبةِ عَبْدِهِ حِين يتُوبُ إِلَيْهِ مِنْ أَحَدِكُمْ كان عَلَى راحِلَتِهِ بِأَرْضٍ فلاةٍ، فانْفلتتْ مِنْهُ وعلَيْها طعامُهُ وشَرَابُهُ فأَيِسَ مِنْهَا، فأَتَى شَجَرةً فاضْطَجَعَ فِي ظِلِّهَا، وقد أَيِسَ مِنْ رَاحِلَتِهِ، فَبَيْنما هوَ كَذَلِكَ إِذْ هُوَ بِها قَائِمة عِنْدَهُ، فَأَخذ بِخطامِهَا ثُمَّ قَالَ مِنْ شِدَّةِ الفَرحِ: اللَّهُمَّ أَنت عبْدِي وأَنا ربُّكَ، أَخْطَأَ مِنْ شِدَّةِ الفرح».

**15.** Rəsulullahın ﷺ xidmətçisi Əbu Həmzə Ənəs ibn Malik əl-Ənsari رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Allah bəndəsinin tövbə etməsinə sizdən birinizin səhrada itirdiyi dəvəsini taparkən *duyduğu sevincindən* daha çox sevinir."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Muslimin rəvayətində deyilir: "Bəndə Allaha tövbə edərkən *Allahın* onun tövbəsinə sevinməsi, sizdən birinizin yeməyi və suyu üzərində olan dəvəsinə minib səhrada gedərkən, onu əlindən qaçırdıqdan və onu tapacağına ümidi qalmadıqdan sonra bir ağacın yanına gəlib onun kölgəsində uzanıb, bu vəziyyətdə ikən birdən dəvəsini yanında görüb, dərhal ovsarından tutub, sevincindan xəta edib: "Allahım, Sən mənim qulumsan, mən də Sənin rəbbinəm!" – deyərək sevinməsindən daha çox sevimlidir."

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

**Şərh:**

Bu hədisin isnadında Ənəs ibn Malik əl-Ənsarinin ﷺ Rəsulullahın ﷺ xidmətçisi olduğu xəbər verilir. Belə ki, Peyğəmbər ﷺ Mədinəyə hicrət etdiyi zaman anası onu Peyğəmbərin ﷺ yanına gətirib belə demişdir: "Bu, Ənəs ibn Malikdir, qoy sənə xidmət etsin." Peyğəmbər ﷺ də, onu qəbul etmiş və beləliklə Ənəs ﷺ Peyğəmbərin ﷺ xidmətçisi olmuşdur. Ənəs ﷺ xəbər verir ki, Rəsulullah ﷺ belə demişdir: **"Bəndə Allaha tövbə edərkən *Allahın* onun tövbəsinə sevinməsi, sizdən birinizin sevinməsindən daha şiddətlidir."** Görəsən səhrada dəvəsini itirdikdən sonra onu tapan adam kimdir. Peyğəmbər ﷺ bu əhvalatı belə zikr etmişdir: Bir adam səhrada ikən onun yanında heç kəs olmur. Yəni, nə *əlavə* su, nə yemək, nə də insanlar olur... Belə bir vəziyyətdə o, dəvəsini itirir və onu axtarmağa başlayır. Amma tapa bilmir. Bundan sonra adam bir ağacın altına gedir və orada yataraq ölümünü gözləyir! Adam artıq dəvəsini tapmaqdan və həyatından ümidini üzür. Çünki, onun yeməyi və içməyi dəvəsinin üzərində idi. Dəvə isə artıq qaçmışdı. Adam bu vəziyyətdə ikən birdən dəvəsini yanında, ovsarının da, altında yatdığı ağacından asıldığını görür. Bu sevinci necə təxmin etmək olar? Bu sevinci, bu vəziyyətə düşən adamdan başqa heç kim təsəvvür edə bilməz. Çünki bu, boyük sevincdir, ölümü gözlədikdən sonra yaşamağa olan sevinc. Ona görə də adam dərhal dəvənin ovsarından tutub

---

[1] Səhih əl-Buxari, 6309; Səhih Muslim, 2747.

[2] Səhih Muslim, 2747.

sevincindən belə dedi: "Allahım, Sən mənim qulumsan, mən də Sənin rəbbinəm!" Adam, Allaha tariflər edib: "Allahım, Sən mənim rəbbim, mən də Sənin qulunam!"- demək istəyir. Lakin sevincin şiddətindən xəta edib tərsinə, "Allahım, Sən mənim qulumsan, mən də Sənin rəbbinəm!"- deyir. Bu hədisdə bir çox faydalar vardır:

Hədis dəlildir ki, bəndə Allaha tövbə etdiyi zaman Allah onun tövbəsinə sevinir və bu əməli çox böyük sevgi ilə qarşılayır. Lakin bu o demək deyil ki, Allahın bizim əməllərimizə və tövbəmizə ehtiyacı var. Allahın bizə ehtiyacı yoxdur. Əksinə, bu, Allahın comərdliyi sevdiyindən dolayıdır. Həqiqətən, uca Allah əfv etməyi və bağışlamağı, intiqam almaqdan və cəzalandırmaqdan daha çox sevir. Ona görə də bəndənin tövbəsinə sevinir.

Bu hədis adamı tövbə etməyə təşviq edir. Çünki Allah tövbəni sevir. Tövbə də bəndənin xeyri üçündür.

Hədisin faydalarından biri də, izzət və cəlal sahibi olan Allahın fərəh sifətinin təsdiq olunmasıdır. Belə ki, Allah sevinir, qəzəblənir, nifrət edir və sevir. Lakin bütün bu sifətlər bizə məxsus olan sifətlər kimi deyildir. Çünki uca Allah belə buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."**[1] Bu fərəh Allahın böyüklüyünə və əzəmətinə layiq olan feli-sifətdir və bu fərəh məxluqatın fərəhinə bənzəmir.

Həmçinin bu hədis dəlildir ki, əgər insan, çaşıb dili ilə hər hansı bir sözdə xəta edərsə, hətta bu küfr olsa belə, buna görə cəzalandırılmayacaq. Hədisdə zikr olunan həmin kişi də küfr kəlməsi işlətmişdir. Çünki insanın Öz Rəbbinə: "Sən mənim qulumsan, mən də Sənin rəbbinəm!"- deməsi, şübhəsiz ki, küfrdür. Lakin bu, sevincin şiddətindən dolayı, xəta olaraq baş verdiyinə görə cəzaya məhkum deyil. Adam həmin an danışığını bilmir və xəta edir. Demək, adam xəta nəticəsində küfr sözü deyərsə, buna görə o cəzalanmır. Digər kəlimələr də bunun kimidir. Əgər adam, qəsdi olmadan, xəta nəticəsində bir kəsi söyərsə və ya qəsdi olmadan, xəta nəticəsində zövcəsini boşayarsa, ya da qəsdi olmadan, xəta nəticəsində qulunu azad edərsə bunların heç birinin boynuna bir şey düşmür. Çünki insan həmin şeyləri qəsd etməmişdir. Bu, qəsdsiz

[1] əş-Şura, 11.

içilən anda bənzəyir. Uca Allah buyurur: **"Allah sizi qərəzsiz içdiyiniz andlara görə cəzalandırmaz, lakin O, sizi qəlbinizin qərəzinə –** ***qəsdən içdiyiniz andlara*** **görə cəzalandıracaqdır."**[1] İstehza edən isə bunun əksinədir. Həqiqətən, istehza edən adam, küfr sözü deyərsə kafir olur. Hətta istehzanı zarafatla etmiş olsa belə. Bu xüsusda uca Allah belə buyurur: **"Onlardan** ***nə üçün istehza etdiklərini*** **soruşsan, deyərlər: "Biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq!" De: "Allaha, Onun ayələrinə və Onun Elçisinə istehzamı edirsiniz? Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz."**[2] İstehza edən adam dediyi sözün həm ləfzini, həm də mənasını qəsd edir. Çünki, *o bu sözü* ələ salmaq və istehza etmək üçün deyir. Məhz ona görə də kafir olur. Qəsd etmədən *küfr sözü deyən* adam isə bunun əksinədir. Onun dediyi söz nəzərə alınmır. Bu da uca Allahın rəhmətindəndir. Müvəffəq edən Allahdır.

١٦ - وعن أبي مُوسى عَبْدِ اللَّهِ بنِ قَيْسٍ الأَشْعَرِيِّ، ﷺ عن النَّبِيِّ ﷺ قال: «إن الله تعالى يبْسُطُ يدهُ بِاللَّيْلِ ليتُوب مُسيءُ النَّهارِ، وَيبْسُطُ يَدهُ بالنَّهارِ ليَتُوبَ مُسِيءُ اللَّيْلِ حتَّى تَطْلُعَ الشَّمْسُ مِن مغْرِبِها » رواه مسلم.

**16.** Əbu Musa Abdullah ibn Qeys əl-Əşari ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Günəş batdığı yerdən doğana qədər *hər* gecə Allah Öz əlini açar ki, gündüz günah edən kəslərin tövbəsini qəbul etsin, habelə, gündüz də əlini açar ki, gecə günah edən kəslərin tövbəsini qəbul etsin."

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١٧ - وعَنْ أبي هُريْرةَ ﷺ قال: قال رسول الله ﷺ: «مَنْ تاب قَبْلَ أَنْ تطلُعَ الشَّمْسُ مِنْ مغْرِبِهَا تَابَ الله علَيْه » رواه مسلم.

**17.** Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Günəş batdığı yerdən doğanadək *istənilən vaxt* tövbə edən kimsənin tövbəsini Allah qəbul edər."

---

[1] əl-Bəqərə, 225.
[2] ət-Tovbə, 65-66.
[3] Səhih Muslim, 2759.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٨ - وعَنْ أبي عَبْدِ الرَّحْمن عَبْدِ اللَّهِ بن عُمرَ بن الخطَّاب رضي الله عنهما عن النَّبيِّ ﷺ قال:
«إِنَّ الله عزَّ وجلَّ يقْبَلُ تَوْبَةَ العبْدِ مَالَمْ يُغَرْغِر» رواه الترمذي وقال: حديث حسنٌ.

**18.** Əbu Abdurrəhman Abdullah ibn Ömər ibn əl-Xattab رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Şübhəsiz ki, izzətli və qüdrətli Allah, bəndənin canı boğazına yetişənədək onun tövbəsini qəbul edər."

Bu hədisi Tirmizi rəvayət etmiş və: "həsən hədisdir"– demişdir.[2]

**Şərh:**

Müəllifin zikr etdiyi bu üç hədis də tövbəyə aiddir. Əbu Musanın رضي الله عنه hədisində Peyğəmbər ﷺ belə demişdir: **"Günəş batdığı yerdən doğana qədər *hər* gecə Allah Öz əlini açar ki, gündüz günah edən kəslərin tövbəsini qəbul etsin, habelə, gündüz də əlini açar ki, gecə günah edən kəslərin tövbəsini qəbul etsin."**

Bu, uca Allahın səxavətindəndir ki, tövbə gecikse belə onu qəbul edir. İnsan gündüz vaxtı bir günah etsə və buna görə gecə tövbə etsə, uca Allah onun tövbəsini qəbul edər. Həmçinin, gecə günah etsə və buna görə gündüz tövbə etsə, uca Allah onun tövbəsini qəbul edər. Hətta uca Allah, mömin bəndəsinin tövbəsini qəbul etmək üçün əlini açar.

Bu hədis, uca Allahın, tövbəni sevməsinə dəlalət edir. Bundan əvvəl zikr etdiyimiz: "Dəvəsini itirib sonra onu tapan adamın" əhvalatında xəbər verildiyi kimi, uca Allah, mömin bəndəsinin tövbəsinə, dəvəsini itirib, sonra onu tapan kişinin sevinməsindən daha çox sevinir.

Əbu Musanın رضي الله عنه hədisindən çıxan faydalardan biri odur ki, bu hədis uca Allahın əlinin olduğunu isbat edir. Həqiqətən də, bu belədir. Hətta "əl-Maidə" surəsinin 64-cü ayəsində Allahın iki əli olduğu xəbər verilir: **"Yəhudilər dedilər: "Allahın əli bağlıdır!" Dedikləri bu sözə görə onların öz əlləri bağlansın və lənətə gəlsinlər! Əksinə, *Allahın* hər iki əli açıqdır..."** Allahın Özünə nisbət etdiyi bu iki əlin varlığına

[1] Səhih Muslim, 2703.

[2] Sunən ət-Tirmizi, 3537; Sunən İbn Macə, 4252; Musnəd İmam Əhməd, 2/132; Şərh əs-Sunnə əl-Bəğəvi, 1306; Səhih əl-Cami, Albani, 1903.

və bunların Allaha aid olduğuna inanmaq vacibdir. Lakin bu iki əlin bizim əlimizə bənzədiyini düşünmək caiz deyil. Çünki uca Allah Öz kitabında buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."**[1] Həmçinin, Allaha isnad edilən bütün sifətlərin də Ona aid olduğunu qəbul etməliyik, lakin bu sifətlərdən heç birini yaradılanların sifətlərinə bənzətməməliyik. Çünki uca Allaha nə zatında, nə də sifətlərində bənzəyən bir şey vardır.

Bu hədisdə xəbər verilir ki, günahkar insanın tövbəsi geciksə də, Allah onu qəbul edir. Lakin tövbəni dərhal etmək vacibdir. Çünki insan nə vaxt öləcəyini bilmir və ola bilsin ki, tövbə etməzdən əvvəl əcəli yetişmiş olsun. Odur ki, günah etmiş insanın dərhal tövbə etməsi vacibdir. Lakin bununla belə, əgər o, tövbəni gecikdirərsə, Allah onun tövbəsini qəbul edər.

Həmçinin, bu hədis dəlildir ki, günəş batdığı yerdən çıxdıqda tövbənin qəbulu dayandırılır. Lakin kimsə belə bir sual verə bilər: "Məgər günəş batdığı yerdən çıxacaqdır? Hamıya məlumdur ki, günəş şərqdən çıxır!" Həmin adama belə cavab veririk: "Bəli, məlum olan odur ki, günəş məşriqdən çıxır. Allah günəşi yaratdığı vaxtdan bu günkü günümüzə qədər sürəkli davam edən də budur. Lakin axır zamanda Allah günəşə çıxdığı yerə qayıtmağı əmr edəcək və dövrə tərsinə olacaq. O zaman günəş batdığı yerdən çıxacaq. İnsanlar bunu gördükləri zaman hamısı iman gətirəcək. Hətta, kafir olan yəhudilər, nəsranilər, bütpərəstlər, kommunistlər və digərləri, yəni, hamı iman gətirəcək. Lakin, günəş batdığı yerdən çıxmamışdan öncə iman gətirməyən kəsə, sonradan iman gətirməsi fayda verməyəcək. Həmin an hamı tövbə edəcək, lakin o kəs ki, günəş batdığı yerdən çıxmamışdan öncə tövbə etməyib, onun sonradan etdiyi tövbəsi qəbul olmayacaq. Çünki, hər bir kəs bu möcüzənin şahidi olacaq. Qorxuducu möcüzələr gəldiyi zaman nə tövbə, nə də iman fayda verməyəcək.

Əbu Hureyranın رضي الله عنه, "Günəş batdığı yerdən doğanadək istənilən vaxt tövbə edən kimsənin tövbəsini Allah qəbul edər" hədisinə gəlincə, o da Əbu Musanın رضي الله عنه hədisi kimidir.

---

[1] əş-Şura, 11.

İbn Ömərin ﷺ rəvayət etdiyi: “Şübhəsiz ki, izzətli və qüdrətli Allah, bəndənin canı boğazına yetişənədək onun tövbəsini qəbul edər” hədisindəki ərəbcə “ma ləm yuğarğir” ifadəsi, “can boğaza yetişməyincə, ölüm ayağında xırıldamayınca” deməkdir. İnsanın canı boğazına yetişdikdə artıq tövbə yoxdur. Ölüm yetişdiyi anda tövbənin qəbul olunmayacağını digər dəlillər də isbat edilmişdi. Bu xüsusda uca Allah belə buyurur: **“Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: “Mən indi tövbə etdim!”– deyənlərin tövbəsi qəbul deyildir...”**[1]

Elə isə ey müsəlman qardaşım, etdiyin günahlara görə dərhal Allaha tövbə etməli, o günahların hamısından əl çəkməli, səhlənkarlaıq göstərib tərk etdiyin ibadətlərin hamısını yerinə yetirməli və Allahdan tövbənin qəbul olmasını diləməlisən. Müvəffəq edən Allahdır.

١٩ - وعَنْ زِرِّ بْنِ حُبَيْشٍ قَال: أَتيْتُ صفْوانَ بْنِ عسَّالٍ ﷺ أَسْأَلُهُ عن الْمَسْحِ عَلَى الْخُفَّيْنِ فقال: مَا جَاءَ بِكَ يَا زِرُّ؟ فقُلْتُ: ابْتغاءُ الْعِلْمِ، فقَال: إِنَّ الْملائِكَةَ تَضَعُ أَجْنِحتِها لِطَالِبِ الْعِلْمِ رِضا بمَا يَطلُبُ، فَقلْتُ: إِنَّه قدْ حَكَّ فِي صدْرِي المسْحُ عَلَى الْخُفَّيْنِ بَعْدَ الْغَائِطِ والْبوْلِ، وكُنْتَ امْرَءاً مِنْ أَصْحاب النَّبِيِّ ﷺ، فَجِئْت أَسْأَلُكَ: هَلْ سمِعْتَهُ يذْكرُ فِي ذَلِكَ شيْئاً؟ قال: نعَمْ كانَ يأْمُرنا إِذا كُنا سفراً أَوْ مُسافِرِين أَن لا ننْزِعَ خفافَنا ثلاثة أَيَّامٍ ولَيَالِيهِنَّ إِلاَّ مِنْ جنَابةٍ، لكِنْ مِنْ غائطٍ وبْولٍ ونَومٍ. فقُلْتُ: هَل سمِعتهُ يذكُر فِي الْهوى شيْئاً؟ قال: نعمْ كُنَّا مَع رسول الله ﷺ في سفرٍ، فبيْنا نحنُ عِنْدهُ إِذ نادَاهُ أَعْرابي بصوْتٍ له جَهْوَرِيٍّ: يا مُحمَّدُ، فأَجَابهُ رسولُ الله ﷺ نحْوا مِنْ صَوْته: «هاؤُمْ» فقُلْتُ لهُ: وَيْحَكَ اغْضُضْ مِنْ صَوْتِكَ فإِنَّك عِنْد النَّبِيِّ ﷺ وقدْ نُهِيتَ عَنْ هذا، فقال: واللَّه لا أَغْضُضُ: قَالَ الأَعْرابِيُّ: الْمَرْءُ يُحِبُّ الْقَوم ولَمَّا يلْحق بِهِمْ؟ قال النَّبِيُّ ﷺ: «الْمرْءُ مع منْ أَحَبَّ يَوْمَ الْقِيامةِ » فما زَالَ يُحدِّثُنَا حتَّى ذكر باباً من الْمَغْرب مَسيرةُ عرْضِه - أَوْ يسِير الرَّاكِبُ فِي عرْضِهِ - أَرْبَعِينَ أَوْ سَبْعِينَ عَاماً. قَالَ سُفيانُ - أَحدُ الرُّوَاةِ - قِبل الشَّامِ، خلقَهُ اللَّهُ تعالى يوْم خلق السموات والأَرْضَ مفْتوحاً لِلتَّوبة لا يُغلقُ حتَّى تَطلُعَ الشَّمْسُ مِنْهُ» رواه التِّرمذي وغيره وقال: حديث حسن صحيح.

[1] ən-Nisa, 18.

**19.** Rəvayət edilir ki, Zirr ibn Hubeyş ﷺ demişdir: "Mən xuflar üzərinə məsh etmək barədə soruşmaq üçün Safvan ibn Assalın ﷺ yanına getdim. O dedi: "Səni bura gətirən nədir, ey Zirr?" Dedim: "Elm öyrənməyə olan istəyim." O dedi: "Həqiqətən, mələklər elm tələb edən kəslərin istəyindən razı olduqlarına görə qanadlarını onların üzərinə sərərlər." Mən dedim: "Böyük və ya kiçik ehtiyacımı rəf etdikdən sonra xuflar üzərinə məsh etmək qəlbimi narahat edir. Sən Peyğəmbərin ﷺ səhabələrindən olmusan. Gəldim səndən soruşum ki, bu haqda onun bir şey dediyini eşitmisənmi?" O dedi: "Bəli. Biz səfərdə (və ya müsafir) olduqda, o bizə, – cənabət halı istisna olmaqla – üç gün üç gecə xufları çıxarmamağı əmr edərdi. *Beləliklə də,* biz böyük və ya kiçik ehtiyacımızı rəf etdikdən, yaxud yuxudan oyandıqdan sonra *dəztəmaz alarkən* xufları çıxarmazdıq." Sonra soruşdum: "Sən onun sevgi haqqında bir şey dediyini eşitmisənmi?" O dedi: "Bəli. Biz Rəsulullah ﷺ ilə birlikdə səfərdə ikən bir bədəvi onu uca səslə çağırıb dedi: "Ey Muhəmməd!" Rəsulullah ﷺ da eyni tərzdə ona cavab verdi: "Gəl görüm, *nə istəyirsən?*" Mən *o bədəviyə* dedim: "Vay sənin halına, səsini alçalt, sən Peyğəmbərin ﷺ qarşısındasan, belə müraciət etmək qadağandır." *Bədəvi* dedi: "Allaha and olsun ki, yavaş danışmayacağam." Sonra bədəvi *Peyğəmbərə* ﷺ dedi: "Adam bir qövmü sevir, lakin hələ onlara qoşulmayıb?" Peyğəmbər ﷺ dedi: "Adam Qiyamət günü sevdiyi kəslərlə bir yerdə olacaq."

Zirr ibn Hubeyş ﷺ *davam edib* dedi: "Sonra o, bizə çox şey danışdı və eni qırx və ya yetmiş il gedilən məsafəyə (və ya eni qırx və ya yetmiş il atlının getdiyi məsafəyə) bərabər olan qərb tərəfdə olan bir qapı barədə xəbər verdi."

Hədisin ravilərindən olan Sufyan dedi: "Bu qapı Şam istiqamətindədir. Uca Allah göyləri və yeri xəlq edərkən onu tövbə üçün açıq şəkildə yaratmışdır və Günəş oradan doğana qədər o qapı bağlanmayacaq."

Bu hədisi Tirmizi və başqaları rəvayət etmişlər.[1] Tirmizi: "həsən-səhih hədisdir"– demişdir.

---

[1] Sunən ət-Tirmizi, 3535, 3536; Sunən İbn Macə, 4070; Musnəd İmam Əhməd, 4/239; Musnəd əl-Humeydi, 881; Musannəf Abdur-Razzaq, 893, 895; Səhih İbn Hibban, 186; Səhih İbn Xuzeymə, 193; Şərh əs-Sunnə əl-Bəğəvi, 1315; Sunən əl-Beyhəqi, 1/276; Hilyə Əbu Nueym, 7/308; Mocəm əl-Kəbir, Təbərani, 7352; əl-Kamil İbn Adiy, 5/1806; Təfsir İbn Cərir ət-Təbəri, 8/72; Səhih ət-Tirmizi, Albani 2801.

**Şərh:**

Müəllif bu hədisi tövbənin nə vaxt qəbul olunmayacağını bildirmək üçün nəql etmişdir. Lakin hədisdə aşağıda qeyd edilən faydalar da vardır:

1. Zirr ibn Hubeyş ﷺ Safvan ibn Assalın ﷺ yanına elm almaq üçün getmiş, Savfan da ona: **"Mələklər elm tələb edən kəslərin istəyindən razı olduqlarına görə qanadlarını onların üzərinə sərərlər"** – demişdir. Bu çox əhəmiyyətli və dəyərli bir sözdür. Bu söz elmin və elm öyrənməyin nə qədər fəzilətli olduğunu göstərir. Əlbəttə ki, burada qəsd edilən elm şəri elmdir, yəni Rəsulullahın ﷺ gətirdiyi elm. Dünyəvi elmlər isə dünyada mənfəət əldə etmək üçündür. Lakin Quran və hədislərdə tərif olunan və öyrənilməsinə təşviq edilən elm, məhz Rəsulullahın ﷺ gətirdiyi elmdir. Bu, Allah yolunda edilən cihadın bir növüdür. Çünki bu din iki şeylə sabit qalmışdır: elm və silah. Hətta bəzi alimlər: "Elm öyrənmək, Allah yolunda silahla cihad etməkdən əfzəldir"– demişlər. Çünki şəriəti ancaq elm sayəsində qorumaq mümkündür. Hətta silahla cihad etmək üçün də elmə söykənmək gərəkdir. Mücahidin düşmən üzərinə yürüş etməsi, döyüşməsi, döyüş əsnasında hücuma keçməsi, habelə, qənimətləri bölüşdürməsi, əsirlər haqqında hökm verməsi və başqa bu kimi qərarlar yalnız elmə əsaslanmalıdır. Dolayısıyla elm, hər şey deməkdir. Elə buna görə də uca Allah buyurur: **"Allah sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaldar."**[1] Mələklərin öz qanadlarını elm tələb edən kimsənin üzərinə sərmələri, onun tələb etdiyi şeydən razı olduqlarına, habelə, ona sayğı və ehtiram göstərdiklərinə görədir. Kimsə çıxıb deyə bilməz ki: "Mən bunu hiss etmirəm." Hərgah Rəsulullah ﷺ bunu deyibsə, demək, bu, gözlə görünən həqiqət kimidir.

Necə ki, Allah rəsulu ﷺ hədislərin birində buyurur: **"Uca və ulu Rəbbimiz hər gecənin son üçdə birində dünya səmasına enir və buyurur: "Mənə dua edən varmı, onun duasını qəbul edim? Məndən istəyən varmı, ona istədiyini verim? Məndən bağışlanma diləyən varmı, onu bağışlayım?"**[2] Düzdür, biz Allahın dediyi bu sözləri eşitmirik,

[1] əl-Mucadilə, 11.
[2] Səhih əl-Buxari, 1145; Səhih Muslim, 758.

lakin bu xəbərin Peyğəmbərimizdən ﷺ səhih olaraq rəvayət edildiyinə görə buna etiqad edir və Allahın, həqiqətən də, belə dediyinə inanırıq. Odur ki, Rəsulullahın ﷺ qeyb elminə aid söylədiklərini, bu xüsusda varid olmuş səhih hədislərin hamısını qəbul etməli, üstəlik, bu deyilənləri gözümüzlə görür və qulağımızla eşidir kimi onlara yəqinliklə iman gətirməliyik.

Sonra bu rəvayətdə Zirr ibn Hubeyş ﵀ Safvan ibn Assala ﵁ böyük və ya kiçik ehtiyacını rəf etdikdən sonra xuflar üzərinə məsh etmək məsələsinin qəlbini narahat etdiyini bildirir. Çünki uca Allah Quranda: **"Ey iman gətirənlər! Namaza qalxdığınız zaman üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı *yuyun*"**[1] buyurur. Zirr ibn Hubeyş demək istəyir ki, böyük və ya kiçik ehtiyacı rəf etdikdən sonra xuflar üzərinə məsh etməyin caiz olub-olmaması məsələsi, hansının doğru olması onu narahat edir. Safvan ibn Assal ﵁ da ona bunun caiz olduğunu bəyan edir. Çünki Rəsulullah ﷺ onlara, səfər əsnasında məstlərini yalnız cunub olub qüsl etmələri lazım gəldikdə çıxarmalarını, böyük və ya kiçik ehtiyaclarını rəf etdikdən və ya yuxudan oyandıqdan sonra isə onları çıxarmamalarını əmr etmişdir. Bu da, məstlər üzərinə məsh etməyin caiz olduğuna dəlalət edir. Hətta adamın ayağında məstlər olduğu halda onların üzərinə məsh etməsinin ayağlarını yumasından daha əfzəl olduğunu göstərir.

Belə ki, Buxari və Muslimin Muğira ibn Şobədən ﵁ rəvayət etdiyi hədisdə xəbər verilir ki, bir dəfə o, Peyğəmbərlə ﷺ birlikdə səfərə çıxdı. Bu əsnada Peyğəmbər ﷺ dəstəmaz aldı və Muğira əyilib onun məstlərini çıxartmaq istədi. Lakin Peyğəmbər ﷺ: **"Dəymə onlara! Mən onları dəstəmazlı ikən geyinmişəm"– dedi və onların üzərinə məsh etdi."**[2] Bu hədis ayağında corab və ya məst olan bir kimsənin dəstəmaz alarkən ayaqlarını yumayıb corabın və ya məstin üzərinə məsh etməsinin daha əfzəl olduğuna dəlalət edir.

2. Adam, bir şeyin hökmünü bilmədikdə onu ən yaxşı bilən adamı axtarıb o məsələni ondan soruşmalıdır ki, aldığı cavabla bağlı qəlbində

---

[1] əl-Maidə, 6.

[2] Səhih əl-Buxari, 206; Səhih Muslim, 275.

heç bir şübhə qalmasın. Çünki bir qism insanlar bəzi şəri hökmləri eşidir, lakin onları tam başa düşmür, bu səbəbdən də şəkk və tərəddüd içində qalırlar. Buna rəğmən qəlblərindəki şübhəni aradan qaldıracaq bir kimsəni də axtarmırlar. Əlbəttə ki, bu, yanlışdır. Əksinə, insan tam xatircəm olanadək və qəlbində heç bir şübhə qalmayanadək başa düşmədiyi hökmləri soruşmağa davam etməlidir.

Budur, Zirr ibn Hubeyş ﷺ Safvan ibn Assaldan ﷺ məstlər üzərinə məsh etmək barədə və onun bu xüsusta Rəsulullahdan ﷺ bir şey eşidib-eşitmədiyi barədə soruşur. O da: "Bəli, Rəsulullah ﷺ bizə səfər əsnasında məstlərimizi yalnız cunub olub qüsl etməyimiz lazım gəldikdə çıxarmağı, böyük və ya kiçik ehtiyaclarını rəf etdikdən və ya yuxudan oyandıqdan sonra isə onları çıxarmamağı əmr edərdi"– deyə cavab verir.

3. Bu hədis, məstlər üzərinə məsh etməyin şəri hökm olduğuna dəlildir. Bu xüsusda Rəsulullahdan ﷺ mütəvatir yolla (çoxlu səhih isnadlarla) hədislər rəvayət edilmiş və əhli-sünnə də bu hədisləri qəbul etmişdir. Hətta əqidə mövzusunda kitab yazmış bəzi alimlər öz əqidə kitablarında məstlər üzərinə məsh etmək məsələsini də qeyd etmişlər. Çünki rafizilər bu məsələdə müxalif olub məstlər üzərinə məsh etməyi qəbul etməmiş və bunu inkar etmişlər.

Təəccüblüdür ki, məstlər üzərinə məsh etmək barədə hədisi rəvayət edənlərdən biri də, Əli ibn Əbu Talibdir ﷺ. Buna rəğmən rafizilər bunu inkar edirlər. Beləcə, məstlər üzərinə məsh etmək əhli-sünnənin şüarlarından olmuş və Rəsulullahdan ﷺ nəql edildiyinə heç bir şübhə olmayan mütəvatir hədislərdən biri olduğuna ittifaq edilmişdir. İmam Əhməd ﷺ demişdir: "Məsh barədə qəlbimdə heç bir şübhə yoxdur. Bu məsələyə dair Peyğəmbərdən ﷺ və onun səhabələrindən qırx hədis rəvayət edilmişdir."[1]

**Məstlər üzərinə məsh etməyin bəzi şərtləri vardır:**

Birinci şərt: məstlərin ayağa dəstəmazlı ikən geyilməsidir. Çünki Muğira ibn Şobə ﷺ Rəsulullahın ﷺ məstlərini çıxartmaq istədikdə,

---

[1] əl-Muğni, 1/206.

Rəsulullah ﷺ ona: **"Dəymə onlara! Çünki mən onları dəstəmazlı ikən geyinmişəm"** demiş və məstləri üzərinə məsh etmişdir.

Məstləri dəstəmazlı ikən geyinmək xüsusunda, ayaqları yuyub geyinməklə, altdakı ilk geyilmiş məst üzərinə məsh edib geyinmək arasında heç bir fərq yoxdur. Məsələn, tam şəkildə dəstəmaz alıb ayaqları yuduqdan sonra məstləri və ya corabları ayağına geyinsə, bunları dəstəmazlı halda geyinmiş sayılır. Həmçinin, öncədən dəstəmazlı ikən corab geyinib üzərinə məsh etdiyi halda, daha sonra bu corabın üzərindən – dəstəmazlı olduğu halda – başqa bir corab və ya məst geyinərsə, ikincisinin üzərinə məsh edə bilər. Fəqət belə olduğu halda məsh etmək müddəti, onun geyindiyi son corabın və ya məstin üzərinə məsh etdiyi müddətdən yox, dəstəmaz alıb ayaqlarını yuduqdan sonra ilk geyindiyi corab və ya məst üzərinə məsh çəkdiyi vaxtdan hesablanır. Səhih rəy də elə budur. Yəni üzərinə məsh edilmiş məst üstündən bir məst geyinsə, üstəkinə məsh edə bilər, lakin məsh etmə müddəti olaraq ilk məst üzərinə etdiyi məshi əsas götürməlidir.

Məst üzərinə məsh etmək üçün dəstəmaz aldıqda ayaqlar yuyulmalıdır. Və əgər adam üzürlü səbəbdən dolayı təyəmmüm edərsə, o halda onun məst üzərinə məsh etməsi caiz deyildir. Məsələn, bir adam səfərə çıxsa və səfər əsnasında dəstəmaz almaq üçün su tapmasa, beləliklə də, təyəmmüm etsə və təyəmmümmlü halda məstlərini ayağına geyinsə, sonra su tapsa və dəstəmaz almaq istəsə, məstlərini çıxarıb ayaqlarını yumalıdır. Belə halda məstlər üzərinə məsh etmək caiz deyil. Çünki məstləri, ayaqları da yuyulduğu dəstəmazdan sonra geyinməmişdir. Təyəmmüm isə sadəcə iki əzaya – üzə və əllərə edilir.

İkinci şərt: Məshin yalnız dəstəmaz üçün keçərli olmasıdır. Elə buna görə də Safvan ibn Assal رضي الله عنه: "Cənabət halı istisna olmaqla, biz böyük və ya kiçik ehtiyacımızı rəf etdikdən, yaxud yuxudan oyandıqdan sonra *dəztəmaz alarkən* məstləri çıxarmazdıq."– demişdir. Demək, adam cənabətli halda olduğu zaman, qüsl edib məstləri və ya corabları üzərinə məsh etməsi caiz deyil. Əksinə, onları çıxardıb ayaqlarını yumalıdır. Çünki qüsl etdikdə, *hər hansı bir əzanın üzərinə* məsh etmək yoxdur və yalnız zəruri halda – yaranın üstünü örtən sarğı, gips və s. üzərinə

məsh etmək caizdir. Odur ki, qüsl etdikdə başa məsh edilmir, başı yumaq gərəkir. Halbuki dəstəmaz aldıqda başa məsh edilir.

Üçüncü şərt: Məshi Rəsulullahın ﷺ təyin etdiyi müddət əsnasında etmək gərəkdir. Bu da müsafir olmayan üçün bir gün bir gecə, müsafir üçün isə üç gün üç gecədir. Muslimin "Səhih"ində rəvayət edilmiş hədisdə xəbər verilir ki, Əli ibn ƏbuTalibdən رضي الله عنه xuflar üzərinə məsh etməyin müddəti barədə soruşulduqda, o belə cavab vermişdir: **"Rəsulullah ﷺ üç gün üç gecə müsafir üçün, bir gün bir gecə də yerli sakin üçün vaxt təyin etmişdir."[1]** Bu müddət bitdikdə isə artıq məsh etmək caiz deyil, məstləri və ya corabları çıxardıb ayaqları yumaq vacibdir. Lakin əgər məshin müddəti bitdikdə dəstəmazlı olarsansa, o halda dəstəmazın pozulmaz. Yox əgər müddət bitdikdən sonra dəstəmaz almaq istəsən, o zaman ayaqlarını yumalısan.

Sonra Zirr ibn Hubeyş رحمه الله Safvan ibn Assaldan رضي الله عنه, Rəsulullahın ﷺ sevgi haqqında bir şey dediyini eşidib-eşitmədiyini soruşur. O da: "Bəli" deyir və bir bədəvinin Rəsulullahı ﷺ uca səslə çağırıb: "Ey Muhəmməd!"– dediyini və o bədəviyə: "Vay sənin halına, sən Rəsulullahı ﷺ uca səslə çağırırsan?!"– deyildiyini xəbər verir. Halbuki uca Allah buyurur: **"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər."**[2]

Lakin bir çox bədəvilərin ədəbi olmur. Çünki onlar həm mədəniyyətdən, həm də elmdən uzaqdadırlar. Rəsulullah ﷺ ona eyni ilə yüksək səslə cavab verir. Çünki Rəsulullah ﷺ insanlar arasında ən kamil əxlaq sahibidir. Hər adamla onun ağlına uyğun tərzdə rəftar edir. Bu bədəviyə də, onun xitab etdiyi kimi xitab edir. Bədəvi ondan: "Adam bir qövmü sevir, lakin hələ onlara qoşulmayıb"– deyə soruşur. Demək istəyir ki, adam bir toplumu sevir, lakin əməli onların əməlindən azdır və ya onların əməli kimi deyil. Belə olduğu halda o kimlərin yanında olacaq? Sevdiyi o adamlarla birlikdə ola biləcəkmi? Peyğəmbər ﷺ də

---

[1] Səhih Muslim, 276.

[2] əl-Hucurat, 2.

ona belə cavab verir: "Adam Qiyamət günü sevdiyi kəslərlə bir yerdə olacaq." Allaha həm-sənalar olsun! Bu, necə də böyük nemətdir! Hədisin bu hissəsini rəvayət edən Ənəs ibn Malik ﷺ Rəsulullahın ﷺ, Allahı və Onun rəsulunu ﷺ sevən kişiyə: **"Sən sevdiyin kəslə bir yerdə olacaqsan!"** dediyini söylədikdən sonra belə demişdir: "Biz Rəsulullahın ﷺ bu sözünə sevindiyimiz kimi heç bir şeyə sevinməmişdik. Mən də Rəsulullahı ﷺ, Əbu Bəkri, Öməri sevirəm və ümid edirəm ki, onlar qədər yaxşılıq etmiş olmasam belə, bu sevgimə görə onlarla bir yerdə olacağam."[1]

Biz də həmçinin, Allahı, Onun rəsulunu ﷺ, raşidi xəlifələri, Rəsulullahın ﷺ səhabələrinin hamısını və onlardan sonra gələn doğru yol göstərən öndərləri sevdiyimizə Allahı şahid tuturuq. Allahdan diləyimiz budur ki, bizə də onlarla birlikdə olmağı nəsib etsin.

Bu, müsəlman üçün bir müjdədir. Adam kimləri sevərsə, onlarla birlikdə olar. Hətta o adamın əməlləri az olsa belə, Cənnətdə sevdikləri ilə birlikdə olar, habelə, Allah ona onların yanında həşr olunmağı və onlarla birlikdə Rəsulullahın ﷺ hovuzundan su içməyi nəsib edər. Eləcə də, hər kim kafirləri sevərsə, – Allah uzaq eləsin – ola bilər ki onlarla birlikdə olar. Çünki kafirləri sevmək haramdır və bu əməl böyük günahlardan sayıla bilər. Odur ki, kafirlərə nifrət etmək müsəlmana vacibdir və müsəlman bilməlidir ki, kafirlər nə qədər dostluq, isti münasibət və sevgi nümayiş etdirsələr belə, onun düşmənidir. Çünki onlar sənə yalnız öz xeyirləri üçün yaxınlaşır. Sənin xeyrin üçün sənə yaxınlaşmalarını heç düşünmə. Əgər su ilə odu bir araya gətirmək mümkün olarsa, kafirlərin bizə olan sevgisi ilə onların bizə olan nifrətini də bir araya gətirmək olar. Belə ki, uca Allah onları "düşmən" adlandırır: **"Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın!"**[2] Başqa bir ayədə də O buyurur: **"Kim Allaha, Onun mələklərinə və elçilərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz ki, Allah da kafirlərə düşməndir."**[3]

---

[1] Səhih əl-Buxari, 3688; Səhih Muslim, 2639.

[2] əl-Mumtəhənə, 1.

[3] əl-Bəqərə, 98.

Allah hər kafirə düşməndir. Hər kafir də bizim düşmənimizdir. Hər bir kafir qəlbində bizə qarşı ancaq şər bəsləyər. Odur ki, kimliyindən və sənə nə qədər yaxın olmasından asılı olmayaraq, sən hər bir kafirə qəlbən nifrət etməlisən və onun sənin düşmənin olduğunu bilməlisən. Çünki uca Allah buyurur: **"Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın!"**[1] Elə isə Rəsulullahın ﷺ qoyduğu bu qaydanı özümüz üçün düstur etməliyik: **"Adam sevdiyi kimsələrlə birlikdə olacaq."**[2]

Odur ki, əziz qardaşım, sən də qəlbini Allaha, Onun rəsuluna ﷺ, raşidi xəlifələrə, Rəsululahın ﷺ möhtərəm səhabələrinə və onlardan sonra gələn doğru yol göstərən öndərlərə olan sevgi ilə doldur ki, onlarla birlikdə olasan. Uca Allahdan Öz lütfü və səxavəti ilə bizi buna müvəffəq etməsini diləyirik.

٢٠ - وعنْ أبي سعِيدٍ سَعْد بْنِ مالك بْنِ سِنانٍ الْخُدْرِيِّ رضي الله عنه أَن نَبِيَّ الله ﷺ قَال: «كان فِيمنْ كَانَ قَبْلكُمْ رَجُلٌ قتل تِسْعةً وتِسْعين نفْساً، فسأَل عن أَعلَم أَهْلِ الأَرْضِ فدُلَّ على راهِبٍ، فَأَتَاهُ فقال: إِنَّهُ قَتَل تِسعةً وتسعِينَ نَفْساً، فَهلْ لَهُ مِنْ توْبَةٍ؟ فقال: لا، فقتلَهُ فكمَّلَ بِهِ مِائةً، ثمَّ سألَ عن أعلم أهلِ الأرضِ، فدُلَّ على رجلٍ عالمٍ فقال: إنهَ قَتل مائةَ نفسٍ، فهلْ لَهُ مِنْ تَوْبةٍ؟ فقالَ: نَعَمْ، ومنْ يحُولُ بيْنَهُ وبيْنَ التوْبة؟ انْطَلِقْ إِلَى أَرْضِ كذا وكذا، فإِنَّ بها أُنَاساً يعْبُدُونَ الله تعالى فاعْبُدِ الله مَعْهُمْ، ولا تَرْجعْ إِلى أَرْضِك فإِنَّهَا أَرْضُ سُوءٍ، فانطَلَق حتَّى إِذا نَصَف الطَّريقُ أَتَاهُ الْموْتُ فاختَصمتْ فيهِ مَلائكَةُ الرَّحْمَةِ وملاكةُ الْعَذابِ. فقالتْ ملائكةُ الرَّحْمَةِ: جاءَ تائِباً مُقْبلا بِقلْبِهِ إِلى اللَّهِ تعالى، وقالَتْ ملائكَةُ الْعذابِ: إِنَّهُ لمْ يَعْمَلْ خيْراً قطُّ، فأَتَاهُمْ مَلكٌ في صُورَةِ آدمي فجعلوهُ بيْنهُمْ - أَي حكماً - فقال قيسوا ما بَيْن الأَرْضَين فإِلَى أَيَّتهما كَان أَدْنى فهْو لَهُ، فقاسُوا فوَجَدُوه أَدْنى إِلَى الأَرْضِ التي أَرَادَ، فَقبَضتْهُ مَلائكَةُ الرَّحمةِ» متفقٌ عليه.

---

[1] əl-Mumtəhənə, 1.

[2] Səhih əl-Buxari, 6168; Səhih Muslim, 2640.

وفي روايةٍ في الصحيح: « فكَان إِلَى الْقرْيَةِ الصَّالحَةِ أَقْربَ بِشِبْرٍ، فجُعِل مِنْ أَهْلِها » وفي رِواية في الصحيح: « فأَوْحَى اللَّهُ تعالَى إِلَى هَذِهِ أَن تَبَاعَدِى، وإِلى هَذِهِ أَن تَقرَّبِي وقَال: قِيسُوا مَا بيْنهمَا، فَوَجدُوه إِلَى هَذِهِ أَقَرَبَ بِشِبْرٍ فَغُفَرَ لَهُ ». وفي روايةٍ: « فنأَى بِصَدْرِهِ نَحْوهَا».

**20.** Əbu Səid Səd ibn Malik ibn Sinan əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən əvvəl yaşamış (ümmətlərdən olan) bir kişi doxsan doqquz adam öldürmüşdü. Sonra o, yer üzündə ən elmli adamın kim olduğunu soruşmuş və ona bir rahibi göstərmişlər. Nəhayət, rahibin yanına gəlib: "Mən doxsan doqquz adam öldürmüşəm. Tövbə *etsəm, qəbul* olarmı?"– deyə soruşmuşdur. Rahib: "Xeyr!"– deyə cavab verdikdə, adam onu da öldürmüş və beləcə, *öldürdüklərinin* sayını yüzə çatdırmışdır. Sonra yenə yer üzündə ən elmli adamın kim olduğunu soruşmuş və ona bir alimi göstərmişlər. Nəhayət, alimin yanına gəlib: "Mən yüz adam öldürmüşəm. Tövbə *etsəm, qəbul* olarmı?"– deyə soruşmuş, alim də *ona* belə cavab vermişdir: "Bəli, *qəbul olar.* Kim tövbə edənlə onun tövbəsi arasına girə bilər?! Sən filan yerə get. Orada uca Allaha ibadət edən insanlar var, onlarla birlikdə Allaha ibadət et və öz torpağına qayıtma, çünki ora pis *işlər gördüyün* yerdir." Adam yola düşdü və nəhayət, yolun yarısına çatdıqda, ölüm onu haqladı. Onda rəhmət və əzab mələkləri öz aralarında ona görə mübahisə etməyə başladılar. Rəhmət mələkləri dedilər: "O, tövbə edib qəlbini uca Allaha doğru yönəldərək gəlmişdir." Əzab mələkləri isə dedilər: "O heç vaxt xeyir iş görməmişdir." Bu vaxt onların yanına insan qiyafəsində bir mələk gəldi və onlar onu öz aralarında hakim təyin etdilər. O dedi: "İki yer (gəldiyi yerlə gedəcəyi yer) arasındakı məsafəni ölçün, hansına yaxın olarsa, ora aiddir." Ölçdükdə gördülər ki, o, gedəcəyi yerə yaxındır. Beləliklə də onun ruhunu rəhmət mələkləri götürüb apardılar."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

"Səhih"dəki rəvayətdə deyilir: "O, əməlisalehlərin yaşadığı kəndə bir qarış yaxın olduğu üçün həmin kəndin əhalisindən sayıldı."[2]

---

[1] Səhih əl-Buxari, 3470; Səhih Muslim, 2766.

[2] Burada İmam Muslimin "Səhih"indəki rəvayət nəzərdə tutulur, 2766.

"Səhih"dəki digər rəvayətdə deyilir: "Allah təalə yerin bu tərəfinə: "Yaxınlaş!" o tərəfinə[1] isə: "Uzaqlaş!"– deyə vəhy etdikdən sonra *mələklərə*: "Bu iki yer[2] arasındakı məsafəni ölçün!"– deyə buyurdu. Nəhayət, ölçdükdə gördülər ki, o adam *gedəcəyi* kəndə bir qarış yaxındır və günahları bağışlandı."[3]

Başqa rəvayətdə deyilir: "... o kəndə qəlbi ilə can atdı."[4]

**Şərh:**

Müəllif, Əbu Səid əl-Xudridən ﵁, Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: "Sizdən əvvəl yaşamış *ümmətlərdən olan* bir kişi doxsan doqquz adam öldürmüşdü." Sonra o, *tutduğu işdən* peşman oldu və tövbəsinin qəbul olub-olmayacağını öyrənmək üçün yer üzündə ən elmli adamın kim olduğunu soruşdu. Ona bir rahibi göstərdilər. O da elmi olmayan bir abid idi. Adam rahibə doxsan doqquz adam öldürdüyünü bildirib: "Tövbə *etsəm, qəbul* olarmı?"– deyə soruşduqda, rahib bu günahın böyük olduğunu düşünüb: "Xeyr, sənin tövbən qəbul edilməz!"– deyə cavab verdi. Adam cavabdan məmnun qalmayıb qəzəblənərək rahibi də öldürdü və beləcə, öldürdüklərinin sayını yüzə çatdırdı. Sonra yer üzündə ən elmli adamın kim olduğunu soruşmağa davam etdi və ona bir alimi göstərdilər. Nəhayət, alimin yanına gəlib yüz adam öldürdüyünü ona bildirdi və tövbə etsə tövbəsinin qəbul olub-olmadığını soruşdu. Alim də *ona* belə cavab verdi: "Bəli, *qəbul olar.* Kim tövbə edənlə onun tövbəsi arasına girə bilər?! Tövbə qapısı açıqdır. Sən filan yerə get. Orada uca Allaha ibadət edən insanlar var." Doğrusunu Allah bilir, amma çox güman ki, o adamın yaşadığı yer küfr diyarı idi. Elə buna görə də alim ona dinini qorumaq üçün Allaha ibadət edilən digər diyara hicrət etməsini tövsiyə etmişdir. Beləliklə, o adam tövbə edib peşman olduğu halda, dinini qorumaq üçün uca Allaha ibadət edilən

---

[1] Hədisdə "bu tərəf" deyildikdə onun getdiyi kənd – əməlisaleh insanların yaşadığı yer, "o tərəf" deyildikdə isə yaşadığı və günah işlətdiyi yer nəzərdə tutulur.

[2] Burada onun əməlisaleh insanların yaşadığı kənddən və günah işlətdiyi diyarından hansı birinə daha yaxın olduğunu ölçmək qəsd edilir.

[3] Burada İmam Buxarinin "Səhih"indəki rəvayət nəzərdə tutulur, 3470.

[4] Əvvəlki mənbə.

diyara hicrət etmək üçün yola çıxdı. Yolun yarısına çatdıqda, ölüm onu haqladı. Onda rəhmət və əzab mələkləri öz aralarında ona görə mübahisə etməyə başladılar. Çünki kafirin – Allah bizi küfrdən qorusun – canını əzab mələkləri, möminin canını isə rəhmət mələkləri alır. O üzdən də mübahisə etməyə başladılar. Rəhmət mələkləri: "O, tövbə edib və bura peşman olduğu halda gəlib"– dedilər. Əzab mələkləri isə: "O heç vaxt xeyir iş görməmişdir"– dedilər. Yəni tövbə etdikdən sonra yaxşı bir əməl etməmişdir. Beləcə aralarına mübahisə düşdü. Onda uca Allah onların yanına bir mələk göndərdi ki, aralarında hökm versin. Mələk dedi: "İki yer (gəldiyi yerlə gedəcəyi yer) arasındakı məsafəni ölçün, hansına yaxın olarsa, ora aid olsun." Yəni o diyarın əhlindən sayılsın. Əgər küfr diyarına yaxındırsa canını əzab mələkləri, yox iman diyarına yaxındırsa, onda canını rəhmət mələkləri alsın. Onlar məsafəni ölçdükdə gördülər ki, o, getdiyi İman diyarına, hicrət etdiyi küfr diyarından bir qarış yaxındır. Beləliklə də onun ruhunu rəhmət mələkləri götürüb apardılar. Bu hədisdən bir çox nəticələr çıxır ki, bunlardan da bəzisi bunlardır:

Bilərəkdən adam öldürən insan sonradan peşman olub tövbə edərsə, uca Allah onu tövbəsini qəbul edər. Buna Allahın Kitabındakı bu ayə dəlildir: **"Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar."[1]** Yəni Allah istəsə, şirkdən başqa bütün günahları bağışlayar. Bu da əksər alimlərin rəyidir.

Yalnız İbn Abbasdan ﷺ qatilin tövbə etməsinin ona heç bir faydası olmadığı rəvayət edilmişdir. Çünki uca Allah buyurur: **"Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm olar. Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar."[2]** Lakin doğru olan, əksər səhabələrin və alimlərin rəyidir. İbn Abbasın ﷺ dediyində məqsəd isə, qatillə onun öldürdüyü kimsə arasındakı tövbə ola bilər (yəni öldürülən adam halallıq verməyincə qatilin tövbəsi qəbul olmaz). Çünki bir kimsə bir adamı öldürdükdə,

---

[1] ən-Nisa, 48.

[2] ən-Nisa, 93.

onun boynunda üç haqq qalır. Birincisi Allahın, ikincisi öldürdüyü kimsənin, üçüncüsü də ölənin varislərinin. Allahın haqqına gəldikdə, şəkk yoxdur ki, uca Allah Ona tövbə edən kimsənin tövbəsini qəbul edir. Buna dəlil, Allahın bu ayəsidir: ***"Qullarıma mənim bu sözümü* de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır."**[1] O həmçinin buyurur: **"Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. Qiyamət günü onun əzabı qat-qat artırılar və onun içində zəlil olub əbədi qalar. Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər."**[2]

Öldürülənin haqqına gəlincə, qatilin tövbə etməsi heç bir fayda verməz və bu tövbə ilə ölənin haqqı ödənməz. Çünki o, artıq ölmüşdür. Belə olduğu halda ondan halallıq almaq və ya onu qanbahasından vaz keçməyə təşviq etmək mümkün deyil. Çünki qatil tövbə etmiş olsa belə, ölənin haqqı onun boynunda qalır. Qiyamət günü Allah onların arasında hökm verəcək. Ö ki qaldı ölənin varislərinin haqqına, qatil özünü onlara təslim edib: "Qatil mənəm. Artıq sizin əlinizdəyəm. İstəyirsiniz məni öldürün, istəyirsiniz qanbahası alın, istəyirsinizsə də məni əfv edin"– deyərək günahını etiraf etmədikcə tövbəsi qəbul olmaz. Qatillə ölənin arasında veriləcək hökmə gəlincə, o hökmü Qiyamət günü uca Allah verəcəkdir.

٢١ - عَنْ عبْدِ اللَّهِ بنِ كَعْبِ بنِ مَالكٍ، وكانَ قائِدَ كعْبٍ رضي الله عنه مِنْ بَنِيهِ حِينَ عَمِيَ، قال: سَمِعْتُ كعْبَ بن مَالكٍ رضي الله عنه يُحَدِّثُ بِحدِيثِهِ حِين تخَلَّف عَنْ رسول الله صلى الله عليه وسلم، في غزوةِ تبُوكَ. قَال كعْبٌ: لمْ أَتخلَّفْ عَنْ رسولِ الله صلى الله عليه وسلم، في غَزْوَةٍ غزَاها إلاَّ في غزْوَةِ تَبُوكَ، غيْرَ أَنِّي قدْ تخلَّفْتُ في غَزْوةِ بَدْرٍ، ولَمْ يُعَاتَبْ أَحد تَخلَّف عنْهُ، إِنَّما خَرجَ رسولُ الله صلى الله عليه وسلم والمسْلِمُونَ يُرِيُدونَ عِيرَ قُريْش حتَّى جَمعَ الله تعالَى بيْنَهُم وبيْن عَدُوِّهِمْ عَلَى غيْرِ ميعادٍ. ولَقَدْ

[1] əz-Zumər, 53.
[2] əl-Furqan, 68-70.

شـهدْتُ مَعَ رسـولِ اللَّهِ ﷺ ليْلَـةَ العَقبَـةِ حِـينَ تَوَاثَقْنَـا عَلَى الإِسْـلامِ، ومَـا أُحِـبُّ أَنَّ لِي بِهَـا مَشْهَدَ بَدْرٍ، وإِن كَانتْ بدْرٌ أَذْكَرَ فِي النَّاسِ مِنهَا. وكان من خبري حِينَ تخلَّفْتُ عَنْ رسول الله ﷺ، في غَزْوَةِ تبُوك أَنِّي لَمْ أَكُنْ قَطُّ أَقْوَى ولا أَيْسَرَ مِنِّي حِينَ تَخلَّفْتُ عَنْهُ في تِلْكَ الْغَزْوَة، واللَّهِ ما جَمعْتُ قبْلها رَاحِلتيْنِ قطُّ حتَّى جَمَعْتُهُما في تلك الْغَزوَةِ، ولَمْ يكُن رسول الله ﷺ يُريدُ غـزْوةً إِلاَّ ورَّى بغَيْرِهَا حتَّى كَانَتْ تِلكَ الْغَزْوةُ، فغَزَاها رسول الله ﷺ في حَرٍّ شَديدٍ، وَاسْتَقْبَلَ سَفراً بَعِيداً وَمَفَازاً. وَاسْتَقْبَلَ عَدداً كَثيراً، فجَلَّى للْمُسْلِمِينَ أَمْرَهُمْ ليَتَأَهَّبوا أُهْبَةَ غَزْوِهِمْ فَأَخْبَرَهُمْ بوَجْهِهِمُ الَّذي يُرِيدُ، وَالْمُسْلِمُون مَع رسول الله كثِيرٌ وَلاَ يَجْمَعُهُمْ كِتَابٌ حَافِظٌ « يُرِيدُ بذلكَ الدِّيَوان » قال كَعْبٌ: فقلَّ رَجُلٌ يُرِيدُ أَنْ يَتغَيَّبَ إِلاَّ ظَنَّ أَنَّ ذلكَ سَيَخْفى بِهِ مَالَمْ يَنْزِلْ فيهِ وَحْيٌ مِن اللَّهِ، وغَزَا رسول الله ﷺ تلكَ الغزوةَ حين طَابت الثِّمَارُ والظِّلالُ، فَأَنا إِلَيْهَا أَصْعرُ، فتجهَّز رسول الله ﷺ وَالْمُسْلِمُون معهُ، وطفِقْت أَغدو لِكَيْ أَتَجَهَّزَ معهُ فأَرْجعُ ولمْ أَقْض شيئاً، وأَقُولُ في نَفْسي: أَنا قَادِرٌ على ذلك إِذا أَرَدْتُ، فلمْ يَزلْ يتمادى بي حتَّى اسْتمَرَّ بالنَّاسِ الْجِدُّ، فأَصْبَحَ رسول الله ﷺ غادياً والْمُسْلِمُونَ معَهُ، وَلَمْ أَقْضِ مِنْ جهازي شيْئاً، ثُمَّ غدَوْتُ فَرجَعْتُ وَلَم أَقْض شَيْئاً، فَلَمْ يزَلْ يَتمادَى بِي حَتَّى أَسْرَعُوا وتَفَارَط الْغَزْوُ، فهَمَمْتُ أَنْ أَرْتَحِل فأَدْرِكَهُمْ، فَيَاليْتَني فَعلْتُ، ثُمَّ لَمْ يُقدَّرْ ذلك لي، فَطفقتُ إِذَا خَرَجْتُ في النَّاسِ بَعْد خُروجِ رسُول الله ﷺ يَحْزُنُنِي أَنِّي لا أَرَى لِي أُسْوَةً، إِلاَّ رَجُلاً مَغْمُوصاً عَلَيْه في النِّفاقِ، أَوْ رَجُلاً مِمَّنْ عَذرَ اللَّهُ تعالَى مِن الضُّعفَاءِ، ولَمْ يَذكُرني رسول الله ﷺ حتَّى بَلَغ تَبُوكَ، فقالَ وَهُوَ جَالِسٌ في القوْمِ بتَبُوك: ما فَعَلَ كعْبُ بْنُ مَالكٍ؟ فقالَ رَجُلٌ مِن بَنِي سلمِة: يا رسول الله حَبَسَهُ بُرْدَاهُ، وَالنَّظرُ في عِطْفيْه. فَقال لَهُ مُعَاذُ بْنُ جَبَلٍ ﷺ: بِئس ما قُلْتَ، وَاللَّهِ يا رسول الله مَا عَلِمْنَا عليْهِ إِلاَّ خيْراً، فَسكَت رسول الله ﷺ. فبَيْنَا هُوَ على ذلك رَأَى رَجُلاً مُبْيضاً يَزُولُ به السَّرَابُ، فقالَ رسولُ الله ﷺ: كُنْ أَبَا خَيْثمَةَ، فَإِذا هـوَ أَبُو خَيْثَمَةَ الأَنْصَارِيُّ - وَهُوَ الَّذي تَصَدَّقَ بصاع التَّمْر حين لَمزَهُ المنافقون، قَالَ كَعْبٌ: فَلَّما بَلَغني أَنَّ رسول الله ﷺ قَدْ توجَّهَ قَافلا منْ تَبُوكَ حَضَرَني

بَثِّي، فطفقتُ أتذكَّرُ الكذِبَ وَأَقُولُ: بِمَ أَخْرُجُ من سَخطه غداً وَأَسْتَعِينُ عَلَى ذلكَ بِكُلِّ ذِي رَأْيٍ مِنْ أَهْلِي، فَلَمَّا قِيلَ: إِنَّ رسول الله ﷺ قدْ أَظلَّ قادماً زاحَ عَنِّي الْبَاطِلُ حَتَّى عَرَفتُ أَنِّي لم أَنج مِنْهُ بِشَيءٍ أَبَداً فَأَجْمَعْتُ صِدْقَهُ، وأَصْبَحَ رسول الله ﷺ قَادماً، وكان إِذا قدمَ مِنْ سَفَرٍ بَدَأَ بالْمَسْجد فركَعَ فيه رَكْعَتَيْنِ ثُمَّ جَلس للنَّاس، فلمَّا فعل ذَلك جَاءَهُ الْمُخَلَّفُونَ يعْتذرُون إِليْه وَيَحْلفُون لَهُ، وكانوا بضعاً وثمَانين رَجُلا فقبل منْهُمْ عَلانيَتَهُمْ، وَبَايَعَهُمْ وَاسْتغفَر لهُمْ وَوَكلَ سَرَائرَهُمْ إِلى الله تعَالى. حتَّى جِئْتُ، فلمَّا سَلَّمْتُ تبسَّم تبَسُّم الْمُغْضب ثمَّ قَالَ: تَعَالَ، فجئتُ أَمْشي حَتى جَلَسْتُ بيْن يَدَيْه، فقالَ لِي: مَا خَلَّفَكَ؟ أَلَمْ تكُنْ قد ابْتَعْتَ ظَهْرَك، قَالَ قُلْتُ: يَا رَسُولَ الله إِنِّي واللَّه لَوْ جلسْتُ عنْد غَيْرِكَ منْ أَهْلِ الدُّنْيَا لَرَأَيْتُ أَني سَأَخْرُج منْ سَخَطه بعُذْرٍ، لقدْ أُعْطيتُ جَدَلا، وَلَكنِّي وَاللَّه لقدْ عَلمْتُ لَئن حَدَّثْتُكَ الْيَوْمَ حديث كَذبٍ ترْضى به عنِّي لَيُوشكَنَّ اللَّهُ يُسْخطك عليَّ، وإنْ حَدَّثْتُكَ حَديث صدْقٍ تجدُ عليَّ فيه إِنِّي لأَرْجُو فِيه عُقْبَى الله عَزَّ وَجلَّ، واللَّه ما كان لِي من عُذْرٍ، واللَّهِ مَا كُنْتُ قَطُّ أَقْوَى وَلا أَيْسر مِنِّي حِينَ تَخلفْتُ عَنك.

قَالَ: فقالَ رسول الله ﷺ: « أَمَّا هذَا فقَدْ صَدَقَ، فَقُمْ حَتَّى يَقْضيَ اللَّهُ فيكَ » وسَارَ رِجَالٌ مِنْ بَنِي سَلمة فاتَّبعُوني، فقالُوا لِي: واللَّهِ مَا عَلِمْنَاكَ أَذنبتَ ذَنْباً قبْل هذَا، لقَدْ عَجَزتَ في أن لا تَكُون اعتذَرْت إِلَى رسول الله ﷺ بمَا اعْتَذَرَ إِلَيهِ الْمُخَلَّفُون، فقَدْ كَانَ كافِيَكَ ذنْبكَ اسْتِغفارُ رسول الله ﷺ لَك. قَالَ: فوالله ما زَالُوا يُؤَنِّبُونني حتَّى أَرَدْت أَنْ أَرْجِعَ إِلى رسول الله ﷺ فأَكْذِب نَفْسِي، ثُمَّ قُلتُ لهُم: هَلْ لَقِيَ هَذا معِي مِنْ أَحدٍ؟ قَالُوا: نَعَمْ لقِيَهُ معك رَجُلان قَالا مِثْلَ مَا قُلْتَ، وقيل لَهمَا مِثْلَ مَا قِيلَ لكَ، قَال قُلْتُ: مَن هُمَا؟ قالُوا: مُرارةُ بْنُ الرَّبِيع الْعَمْرِيُّ، وهِلال ابْن أُميَّةَ الْوَاقِفِيُّ؟ قَالَ: فَذكَروا لِي رَجُلَيْنِ صَالِحَيْن قدْ شَهِدا بدْراً فِيهِمَا أُسْوَةٌ. قَالَ: فَمَضيْت حِينَ ذَكَروهُمَا لِي.

وَنهَى رسول الله ﷺ عن كَلامِنَا أَيُّهَا الثلاثَةُ مِن بَين من تَخلَّف عَنهُ، قَالَ: فاجْتَنبَنا النَّاس - أَوْ قَالَ: تَغيَّرُوا لَنَا - حَتَّى تَنكَّرت لِي في نفسي الأَرْضُ، فَمَا هيَ بالأَرْضِ التي أَعْرِفُ،

فَلَبِثْنَا عَلَى ذَلكَ خمْسِينَ ليْلَةً. فأَمَّا صَاحباي فَاستَكَانَا وَقَعَدَا في بُيُوتِهِمَا يَبْكِيَانِ وأَمَّا أَنَا فكُنتُ أَشَبَّ الْقَوْمِ وَأَجْلَدَهُمْ، فكُنتُ أَخْرُج فَأَشْهَدُ الصَّلاة مَعَ الْمُسْلِمِينَ، وَأَطُوفُ في الأَسْوَاقِ وَلا يُكَلِّمُنِي أَحدٌ، وآتِي رسول الله ﷺ فأُسَلِّمُ عَلَيْهِ، وَهُو في مجْلِسِهِ بعدَ الصَّلاةِ، فَأَقُولُ فِي نفسِي: هَل حَرَّكَ شفتَيهِ بردِّ السَّلامِ أَم لاَ؟ ثُمَّ أُصلِّي قريباً مِنهُ وأُسَارِقُهُ النَّظَرَ، فَإِذَا أَقبلتُ على صلاتِي نَظر إِلَيَّ، وإِذَا الْتَفَتُّ نَحْوَهُ أَعْرَضَ عَنِّي، حتى إذا طَال ذلكَ عَلَيَّ مِن جَفْوَةِ الْمُسْلمينَ مشَيْت حَتَّى تَسوَّرْت جدارَ حَائط أبي قَتَادَةَ وَهُوَا ابْن عَمِّي وأَحبُّ النَّاسَ إِلَيَّ، فَسلَّمْتُ عَلَيْهِ فَواللَّهِ مَا رَدَّ عَلَيَّ السَّلامَ، فَقُلْت لَه: يا أَبَا قتادَة أَنْشُدكَ باللَّه هَلْ تَعْلَمُني أُحبُّ الله وَرَسُولَه ﷺ؟ فَسَكَتَ، فَعُدت فَنَاشَدتُه فَسكَتَ، فَعُدْت فَنَاشَدْته فَقَالَ: الله ورَسُولُهُ أَعْلَمُ. فَفَاضَتْ عَيْنَايَ، وَتوَلَّيْتُ حَتَّى تَسَوَّرْتُ الْجدَارَ.

فبَيْنَا أَنَا أَمْشي في سُوقِ المدينةِ إِذَا نَبَطيٌّ منْ نبطِ أَهْلِ الشَّام مِمَّنْ قَدِمَ بالطَّعَامِ يبيعُهُ بالمدينةِ يَقُولُ: مَنْ يَدُلُّ عَلَى كعْبِ بْنِ مَالكٍ؟ فَطَفِقَ النَّاسُ يشيرون له إِلَى حَتَّى جَاءَنِي فَدَفَعَ إِلى كتَاباً منْ مَلِكِ غَسَّانَ، وكُنْتُ كَاتِباً. فَقَرَأْتُهُ فَإِذَا فيهِ: أَمَّا بَعْدُ فَإِنَّهُ قَدْ بلَغَنَا أَن صاحِبَكَ قدْ جَفاكَ، ولمْ يجْعلْك اللَّهُ بدَارِ هَوَانٍ وَلا مَضْيعَةٍ، فَالْحقْ بِنا نُوَاسِك، فَقلْت حِين قرأْتُهَا: وَهَذِهِ أَيْضاً من الْبَلاءِ، فَتيمَّمْتُ بِهَا التَّنُّور فَسَجرْتُهَا.

حَتَّى إِذَا مَضَتْ أَرْبَعُون مِن الْخَمْسِينَ وَاسْتَلْبَثِ الْوَحْيُ إِذَا رسولِ رسول الله ﷺ يَأْتِينِي، فَقَالَ: إِنَّ رسول الله ﷺ يَأْمُرُكَ أَنْ تَعْتَزِلَ امْرأَتكَ، فقُلْتُ: أُطَلِّقُهَا، أَمْ مَاذا أَفعْلُ؟ قَالَ: لا بَلْ اعتْزِلْهَا فلا تقربَنَّهَا، وَأَرْسلَ إِلى صَاحِبيَّ بِمِثْلِ ذلِكَ. فَقُلْتُ لامْرَأَتِي: الْحقِي بِأَهْلكِ فَكُونِي عِنْدَهُمْ حَتَّى يَقْضِيَ اللَّهُ في هذَا الأَمر، فَجَاءَت امْرأَةُ هِلالِ بْنِ أُمَيَّةَ رسول الله ﷺ فقالتْ لَهُ: يا رسول الله إِنَّ هِلالَ بْنَ أُميَّةَ شَيْخٌ ضَائعٌ ليْسَ لَهُ خادِمٌ، فهلْ تَكْرهُ أَنْ أَخْدُمهُ؟ قال: لا، ولَكِنْ لا يَقْربَنَّك. فَقَالَتْ: إِنَّهُ وَاللَّه مَا بِهِ مِنْ حَركةٍ إِلَى شَيءٍ، وَوَاللَّه ما زَالَ يَبْكِي مُنْذُ كَانَ مِنْ أَمْرِهِ مَا كَانَ إِلَى يَوْمِهِ هَذَا. فَقَال لِي بعْضُ أَهْلِي: لَو اسْتأْذنْت رسول الله ﷺ في امْرأَتِك، فقَدْ أذن لامْرأَةِ هِلالِ بْنِ أُمَيَّةَ أَنْ تَخْدُمَهُ؟ فقُلْتُ: لا أَسْتَأْذِنُ فِيهَا رسول

الله ﷺ ، ومَا يُدْرِيني مَاذا يَقُولُ رسولُ الله ﷺ إِذَا اسْتَأْذَنْتُهُ فِيهَا وَأَنَا رَجُلٌ شَابٌّ! فلَبِثْتُ بِذلك عشْر ليالٍ، فَكَمُلَ لَنا خمْسُونَ لَيْلَةً مِنْ حينَ نُهي عَنْ كَلامنا.

ثُمَّ صَلَّيْتُ صَلاَةَ الْفَجْرِ صباحَ خمْسينَ لَيْلَة عَلى ظَهْرِ بَيْتٍ مِنْ بُيُوتِنَا، فَبينَا أَنَا جَالسٌ عَلَى الْحال التي ذكَر اللَّهُ تعالَى مِنَّا، قَدْ ضَاقَتْ عَلَيَّ نَفْسِى وَضَاقَتْ عَليَّ الأَرْضُ بمَا رَحُبَتْ، سَمعْتُ صَوْتَ صَارِخٍ أوفي عَلَى سَلْعٍ يَقُولُ بأَعْلَى صَوْتِهِ: يَا كَعْبُ بْنَ مَالِكٍ أَبْشِرْ، فخرَرْتُ سَاجِداً، وَعَرَفْتُ أَنَّهُ قَدْ جَاءَ فَرَجٌ فَآذَنَ رسول الله ﷺ النَّاس بِتوْبَةِ الله عَزَّ وَجَلَّ عَلَيْنَا حِين صَلَّى صَلاةَ الْفجْرِ فذهَبَ النَّاسُ يُبَشِّرُوننا، فذهَبَ قِبَلَ صَاحِبَيَّ مُبَشِّرُونَ، وركض رَجُلٌ إِليَّ فرَساً وَسَعَى ساعٍ مِنْ أَسْلَمَ قِبَلِي وَأَوْفَى عَلَى الْجَبلِ، وكَان الصَّوْتُ أَسْرَعَ مِنَ الْفَرَسِ، فلمَّا جَاءَنِي الَّذي سمِعْتُ صوْتَهُ يُبَشِّرُنِي نَزَعْتُ لَهُ ثَوْبَيَّ فَكَسَوْتُهُمَا إِيَّاهُ ببشارَته، واللَّه ما أَمْلِكُ غَيْرَهُمَا يومَئذٍ، وَاسْتَعَرْتُ ثَوْبَيْنِ فَلَبسْتُهُمَا وانْطَلَقتُ أَتَأَمَّمُ رسول الله ﷺ يَتَلَقَّانِي النَّاسُ فَوْجاً فَوْجاً يُهَنِّئُونني بِالتَّوْبَةِ وَيقُولُون لِي: لِتَهْنِكَ تَوْبَةُ الله عَلَيْكَ، حتَّى دَخَلْتُ الْمَسْجِدَ فَإِذَا رسول الله ﷺ جَالِسٌ حَوْلَهُ النَّاسُ، فَقَامَ طَلْحَةُ بْنُ عُبَيْد الله رضي الله عنه يُهَرْوِل حَتَّى صَافَحَنِي وهَنَّأَنِي، واللَّه مَا قَامَ رَجُلٌ مِنَ الْمُهَاجِرِينَ غَيْرُهُ، فَكَان كَعْبٌ لا يَنْسَاهَا لِطَلْحَة. قَالَ كَعْبٌ: فَلَمَّا سَلَّمْتُ عَلَى رسول الله ﷺ ، قال: وَهوَ يَبْرُقُ وَجْهُهُ مِنَ السُّرُور: أَبْشِرْ بِخَيْرِ يَوْمٍ مَرَّ عَلَيْكَ، مُذْ ولَدَتْكَ أُمُّكَ، فقُلْتُ: أَمِنْ عِنْدِكَ يَا رَسُول اللَّهِ أَم مِنْ عِنْد الله؟ قَالَ: لاَ. بَلْ مِنْ عِنْد الله عَز وجَلَّ، وكانَ رسول الله ﷺ إِذَا سُرَّ اسْتَنَارَ وَجْهُهُ حتَّى كَأَنَّ وجْهَهُ قِطْعَةُ قَمر، وكُنَّا نعْرِفُ ذلِكَ مِنْهُ، فلَمَّا جلَسْتُ بيْنَ يديْهِ قُلتُ: يَا رسول اللَّهِ إِنَّ مِنْ تَوْبَتِي أَنْ أَنْخَلِعَ مِن مَالي صدَقَةً إِلَى اللَّهِ وإِلَى رَسُولِهِ.

فَقَالَ رَسُول الله ﷺ : أَمْسِكْ عَلَيْكَ بَعْضَ مَالِكَ فَهُوَ خَيْر لَكَ، فَقُلْتُ إِنِّي أُمْسِكُ سَهْمِي الَّذي بِخيْبَر. وَقُلْتُ: يَا رَسُولَ الله إِن الله تَعَالَى إِنَّما أَنْجَانِي بالصدق، وَإِنَّ مِنْ تَوْبَتِي أَن لا أُحدِّثَ إِلاَّ صِدْقاً ما بَقِيتُ، فوا لله ما علِمْتُ أحداً مِنَ المسلمِين أَبْلاُهُ اللَّهُ تَعالَى في صدْق الْحَديث مُنذُ ذَكَرْتُ ذَلكَ لرِسُولِ الله ﷺ أَحسَنَ مِمَّا أَبْلاَنِي اللَّهُ تَعالَى، وَاللَّهِ مَا

تعمّدْت كِذْبَةً مُنْذُ قُلْت ذَلِكَ لرَسُولِ اللَّهِ ﷺ إِلَى يَوْمِي هَذَا، وَإِنّي لأَرْجُو أَنْ يَحْفظني اللَّهُ تَعَالى فِيمَا بَقِي، قَالَ: فَأَنْزَلَ اللَّهُ تَعَالَى: ﴿ لَّقَد تَّابَ ٱللَّهُ عَلَى ٱلنَّبِيِّ وَٱلْمُهَٰجِرِينَ وَٱلْأَنصَارِ ٱلَّذِينَ ٱتَّبَعُوهُ فِى سَاعَةِ ٱلْعُسْرَةِ ﴾ حتَّى بَلَغَ: ﴿إِنَّهُۥ بِهِمْ رَءُوفٌ رَّحِيمٌ ﴿١١٧﴾ وَعَلَى ٱلثَّلَٰثَةِ ٱلَّذِينَ خُلِّفُوا۟ حَتَّىٰٓ إِذَا ضَاقَتْ عَلَيْهِمُ ٱلْأَرْضُ بِمَا رَحُبَتْ ﴾ حتى بلغ: ﴿ٱتَّقُوا۟ ٱللَّهَ وَكُونُوا۟ مَعَ ٱلصَّٰدِقِينَ ﴾ [التوبة: ١١٧، ١١٩].

قالَ كعْبٌ: واللَّهِ مَا أَنْعَمَ اللَّهُ عَلَيَّ مِنْ نِعْمَةٍ قَطُّ بَعْدَ إِذْ هَدانِي اللَّهُ لِلإِسْلام أَعْظمَ في نَفسِي مِنْ صِدْقِي رَسُولَ اللَّهِ ﷺ أَن لا أَكُونَ كَذَبْتُهُ، فأهلكَ كَمَا هَلَكَ الَّذِينَ كَذَبُوا، إن الله تَعَالَى قَالَ للَّذِينَ كَذَبُوا حِينَ أَنزلَ الْوَحْيَ شَرَّ مَا قَالَ لأحدٍ، فَقَالَ اللَّهُ تَعَالَى: ﴿ سَيَحْلِفُونَ بِٱللَّهِ لَكُمْ إِذَا ٱنقَلَبْتُمْ إِلَيْهِمْ لِتُعْرِضُوا۟ عَنْهُمْ ۖ فَأَعْرِضُوا۟ عَنْهُمْ ۖ إِنَّهُمْ رِجْسٌ ۖ وَمَأْوَىٰهُمْ جَهَنَّمُ جَزَآءًۢ بِمَا كَانُوا۟ يَكْسِبُونَ يَحْلِفُونَ لَكُمْ لِتَرْضَوْا۟ عَنْهُمْ ۖ فَإِن تَرْضَوْا۟ عَنْهُمْ فَإِنَّ ٱللَّهَ لَا يَرْضَىٰ عَنِ ٱلْقَوْمِ ٱلْفَٰسِقِينَ ﴾ [التوبة ٩٥، ٩٦].

قال كَعْبٌ: كنَّا خُلِّفْنَا أَيُّهَا الثَّلاثَةُ عَنْ أَمْر أُولئَكَ الَّذِينَ قَبِلَ مِنْهُمْ رَسُولُ اللَّهِ ﷺ حِينَ حَلَفوا لَهُ، فبايعَهُمْ وَاسْتَغْفَرَ لَهُمْ، وأرْجأَ رَسولُ اللَّهِ ﷺ أمْرَنا حتَّى قَضَى اللَّهُ تَعَالَى فِيهِ بِذلكَ، قَالَ اللَّه تَعَالَى: ﴿وَعَلَى ٱلثَّلَٰثَةِ ٱلَّذِينَ خُلِّفُوا۟ ﴾.

وليْسَ الَّذي ذَكَرَ مِمَّا خُلِفنا تَخَلُّفُنا عَن الغزو، وَإِنَّمَا هُوَ تَخْلِيفهُ إِيَّانَا وإرجاؤُهُ أَمْرَنَا عَمَّنْ حَلَفَ لَهُ واعْتذَرَ إِليْهِ فَقَبِلَ مِنْهُ. مُتَّفَقٌ عليه.

وفي رواية « أَنَّ النَّبِيَّ ﷺ خَرَجَ في غَزْوةِ تَبُوك يَوْمَ الخميسِ، وَكَان يُحِبُّ أَنْ يَخْرُجَ يَوْمَ الخميس ».

وفي رِوَايةٍ: « وَكَانَ لاَ يَقدُمُ مِنْ سَفَرٍ إِلاَّ نَهاراً في الضُّحَى. فَإِذَا قَدِم بَدأَ بالمسجدِ فصلَّى فِيهِ ركْعتيْنِ ثُمَّ جَلَس فِيهِ ».

**21.** Rəvayət edilir ki, Kəbin رضي الله عنه gözləri tutulduqdan sonra onu gəzdirən oğlu Abdullah ibn Kəb ibn Malik رضي الله عنه demişdir: "Mən Kəb ibn Malikin رضي الله عنه Təbuk döyüşündə Rəsulullah ﷺ ilə birlikdə iştirak etməyib, arxada qalmasından danışdığını eşitmişəm. Kəb belə rəvayət etmişdir: "Təbuk döyüşündən başqa, Rəsulullahın ﷺ apardığı döyüşlərin heç birindən yayınmamışdım. Bədr döyüşündən yayınmağıma gəlincə, ondan yayınanlar qınanılmamışdılar. Çünki *o vaxt* Rəsulullah ﷺ və müsəlmanlar Qureyşin karvanını ələ keçirmək üçün çıxmışdılar, lakin uca Allah onları vədələşmədikləri bir halda düşmənləri ilə üz-üzə gətirdi. Habelə, Əqəbə gecəsi İslamdan dönməyəcəyimizə dair beyət etdiyimiz zaman mən Rəsulullahla ﷺ birlikdə idim. İnsanlar arasında Bədr döyüşünün Əqəbə gecəsindən daha çox yadda qalmasına baxmayaraq, mənim üçün Əqəbədə iştirak etməyim Bədrdə iştirak etməkdən daha sevimli idi. Təbuk döyüşünə getməyib Rəsulullahdan ﷺ geridə qalmağıma gəlincə, həqiqətən, bu döyüşdən yayındığım vaxtda olduğu kimi heç vaxt qüvvətli və zəngin olmamışdım. Allaha and olsun ki, bundan öncə heç vaxt mənim iki minik heyvanım olmamışdı, lakin bu döyüş vaxtı mənim iki miniyim var idi. Rəsulullah ﷺ bir *topluma qarşı* döyüşmək istədikdə, başqa *bir topluma qarşı* döyüşmək istədiyini bildirərək, əsl məqsədini gizli saxlayardı. Nəhayət, Rəsulullah ﷺ Təbuk döyüşünə şiddətli bir istidə yola düşməyə qərar verdi. Qarşıda uzaq bir səfər, uzun səhra və çoxlu sayda düşmən olduğundan, Rəsulullah ﷺ müsəlmanlara əsl məqsədini açıqlayıb hara getmək istədiyini onlara bildirdi ki, bu döyüşə hazırlıq görsünlər. Rəsulullahın ﷺ yanında o qədər çox müsəlman var idi ki, onların sayı kitaba yerləşməzdi (bunun üçün ayrıca bir divan[1] təşkil etmək lazım idi).

Bu döyüşdən yayınmaq istəyənlər çox az idi. Onlar isə elə zənn edirdilər ki, Allahdan vəhy nazil olmayınca heç kəs bu işdən xəbər tutmayacaq. Rəsulullah ﷺ bu döyüşə meyvələrin yetişdiyi, kölgələrinin xoş olduğu, mənim də ona qoşulmaq istədiyim bir vaxtda çıxdı. Rəsulullah ﷺ və onunla birgə müsəlmanlar *döyüşə* hazırlaşırdılar. Mən də onlarla birlikdə hazırlıq görmək üçün səhərlər evdən çıxırdım, lakin heç bir iş görmədən *evə* qayıdıb öz-özümə deyirdim ki: "İstədiyim vaxt

---

[1] Divan: dövlət dəftərxanası.

bunu edə bilərəm." Camaat ciddi şəkildə döyüşə hazırlıq gördüyü halda mən səhlənkarlıq etməyə davam edirdim. Nəhayət, bir səhər Rəsulullah ﷺ müsəlmanlarla birlikdə yola düşdü, mən isə hələ də hazırlıq görməmişdim. Yenə evdən çıxıb, heç bir şey etmədən geri qayıtdım. Mən bu vəziyyətdə ikən onlar sürətlə uzaqlaşıb getdilər. Yola çıxıb onlara yetişmək qərarına gəldim. Kaş ki, bunu edəydim. Lakin bu mənə qismət olmadı. Rəsulullah ﷺ çıxıb getdikdən sonra insanlar arasına çıxdıqda məni ən çox kədərləndirən o idi ki, burada yalnız münafiqlikdə ittiham olunanlar və uca Allahın üzürlü saydığı zəiflər qalmışdı. Rəsulullah ﷺ Təbuka çatana qədər mənim barəmdə danışmadı. Təbukda ikən, səhabələrin arasında oturarkən soruşdu: "Kəb ibn Malik nə edir?" Bənu Səlimə qəbiləsindən olan bir nəfər dedi: "Ya Rəsulullah, onu *gözəl* libasları və yan-yörəsinə *özündən razı halda* baxması *döyüşdən* yayındırdı." Muaz ibn Cəbəl رضي الله عنه ona dedi: "Sənin dediyin necə də pisdir! Ya Rəsulullah, vallahi ki, biz onun barəsində xeyirdən başqa bir şey bilmirik." Rəsulullah ﷺ susdu. Bu əsnada o, *uzaqdan* ağ paltarlı bir adamı ilğım kimi görüb dedi: "*Bu gələn* Əbu Xeysəmə olmalıdır." O, həqiqətən də, bir saa[1] xurma sədəqə verdiyi üçün münafiqlərin istehza etdikləri Əbu Xeysəmə əl-Ənsari idi.

Rəsulullahın ﷺ Təbukdan qayıtdığını eşitdikdə məni kədər bürüdü və öz-özümə: "Sabah onun qəzəbindən necə qurtarım?"– deyə yalan danışmaq barədə düşünməyə başladım, bu işdə yardım üçün ailə üzvlərimdən müdrik adamlarla məsləhətləşdim. Camaatın: "Rəsulullah ﷺ Mədinəyə yaxınlaşıb"– dediyini eşitdikdə, batil fikirləri özümdən uzaqlaşdırdım və başa düşdüm ki, *uydurduğum* heç bir şey məni onun qəzəbindən qurtarmaz. Odur ki, düzünü demək qərarına gəldim. Səhəri gün Rəsulullah ﷺ Mədinəyə gəldi. O, hər hansı bir səfərdən qayıdanda, əvvəlcə məscidə gəlib orada iki rükət namaz qılar, sonra da oradakı adamlarla oturardı. Bunları etdikdən sonra, döyüşdən yayınanlar gəlib özlərinə bəraət qazandırmaq üçün bəhanələr gətirdilər və dediklərini əsaslandırmaq üçün and içdilər. Onların sayı səksəndən çox idi. Rəsulullah ﷺ onların aşkarda dedikləri bəraət və andlarını qəbul

[1] Saa: buğda, arpa, düyü və başqa bu kimi dənli bitkilərin ölçü vahididir. 1 saa = dörd ovuc = təqribən 3 kq.

etdi, onlardan bir daha əhd aldı, *Allahdan* onlar üçün bağışlanma dilədi, qəlblərində gizlətdiklərini isə Allaha həvalə etdi. Nəhayət, mən ona yaxınlaşdım. Ona salam verdikdə, qəzəbini hiss etdirən bir təbəssümlə təbəssüm edib: "Yaxın gəl!"– dedi. Mən yaxınlaşıb onun qarşısında oturdum və o mənə dedi: "Geridə qalmağa səni nə vadar etdi? Məgər sən minik almamışdınmı?"

Mən dedim: "Ya Rəsulullah, vallahi ki, əgər səndən başqa bir adamın qarşısında otursaydım, bir bəhanə ilə onun qəzəbindən qurtarardım, çünki mənim fəsahətli danışıq qabiliyyətim var. Vallahi, bilirəm ki, mən bu gün yalan danışıb səni razı salsam, sonra Allah elə edəcək ki, sən mənə qəzəblənəcəksən. Yox, əgər düzünü desəm, sənin mənə qəzəbin tutsa da, Qüdrətli və uca Allahın mənə gözəl aqibət nəsib edəcəyinə ümid edirəm. Vallahi, mənim heç bir üzürüm yoxdur. Vallahi, səninlə *birlikdə döyüşə* getməkdən yayındığım zaman həmişəkindən daha qüvvətli və daha varlı olmamışam."

Rəsulullah ﷺ buyurdu: "Buna gəlincə, bu, doğru söylədi. *Ey Kəb,* dur *get,* Allah sənin barəndə hökm verənə qədər gözlə." Mən qalxıb getdikdə Bəni Sələmə qəbiləsindən olan adamlar arxamca gəlib mənə dedilər: "Vallahi, biz sənin bundan əvvəl bir günah etdiyini bilmirik. Sən döyüşdən yayınan digərlərinin üzrxahlıq etdiyi kimi, Rəsulullahın ﷺ qarşısında üzrxahlıq etməyib aciz qaldın. Halbuki, Rəsulullahın ﷺ sənin üçün bağışlanma diləməsi sənin bu günahın üçün kifayət edərdi."

Vallahi, onlar məni o qədər qınadılar ki, Rəsulullahın ﷺ yanına qayıdıb bir az əvvəl dediklərimin yalan olduğunu demək istədim. Sonra onlardan soruşdum: "Məndən başqa belə edən bir kimsə oldumu?" Onlar dedilər: "Bəli, iki nəfər də sənin dediyini dedilər və sənə deyilən onlara da deyildi."

Mən: "Kimdir bu iki nəfər?" – deyə soruşdum. Dedilər ki: "Bu, Murara ibn Rəbi əl-Amri və Hilal ibn Umeyyə əl-Vaqifi."

Onlar Bədr döyüşündə iştirak etmiş, mənə nümunə olacaq əməlisaleh iki kişinin adını çəkdilər.

Onlar o iki nəfərin adını çəkəndən sonra fikrimdən dönməmək qərarına gəldim. Rəsulullah ﷺ döyüşdən yayınanlar arasında yalnız bizim üçümüzlə danışmağı müsəlmanlara qadağan etdi.

Camaat bizdən uzaqlaşdı *yaxud onların bizə qarşı münasibəti dəyişdi.* İş o yerə gəlib çatdı ki, bu yerlər mənim üçün qəribləşdi, sanki tanımadığım bir yer oldu. Biz əlli günü bu cür keçirtdik. O iki dostuma gəlincə, onlar evlərində oturub acizanə boyun əyərək ağlayırdılar. Mən isə daha gənc və daha güclü olduğum üçün evdən çıxırdım, müsəlmanlarla birlikdə namaz qılırdım və bazarlarda gəzib dolaşırdım, lakin mənimlə heç kəs danışmırdı. Namazdan sonra Rəsulullah ﷺ *səhabələrilə* oturarkən onun yanına gəlib ona salam verir və öz-özümə deyirdim: "Görəsən mənim salamımı almaq üçün dodaqlarını tərpətdimi?" Sonra ona yaxın bir yerdə namaz qılır və oğrun-oğrun ona baxırdım. Mən namaz qılanda o mənə baxırdı, mən ona tərəf baxdıqda isə o məndən üz çevirirdi.

Beləcə, müsəlmanların mənə olan soyuq münasibəti uzun müddət davam etdi. Bu əsnada *bir gün* əmim oğlu və insanlar arasında xətrini çox istədiyim Əbu Qətadənin bağının hasarına çıxıb ona salam verdim, lakin vallahi ki, salamımı almadı. Ona dedim: "Ey Əbu Qətadə, səni Allaha and verirəm, məgər bilmirsən ki, mən Allahı və Onun rəsulunu ﷺ sevirəm?" O susdu. Mən yenə Allaha and verib soruşdum, o susdu. Mən bir də Allaha and verib soruşduqda, o dedi: "Allah və Onun rəsulu ﷺ daha yaxşı bilir!" Onda gözlərim yaşla doldu və mən hasardan enib oradan uzaqlaşdım.

*Bir müddət sonra mən* Mədinə bazarında gəzib dolaşarkən, satmağa ərzaq gətirən Şam əhlindən olan bir kəndli: "Kim mənə Kəb ibn Malikin yerini göstərər?"– deyə soruşdu, bazardakılar da ona məni göstərdilər. O yaxınlaşıb Ğassan hökmdarının məktubunu mənə verdi. Mən yazıb-oxumaq bildiyim üçün, məktubu oxuyub gördüm ki, orada bu sözlər yazılıb: "Sonrasına gəlincə... Həqiqətən, bizə xəbər çatıb ki, dostun səndən üz döndərib. Allah sənin təhqir olunduğun və haqsızlığa məruz qaldığın bir yerdə yaşamana razı olmaz, gəl qoşul bizə, sənə layiqincə hörmət edək." Məktubu oxuduqdan sonra: "Bu da bir sınaqdır"– deyib, onu təndirə atıb yandırdım.

Əlli günün qırxıncı günü keçirdi, amma vəhy hələ də nazil olmamışdı. Elə bu vaxt Rəsulullahın ﷺ elçisi gəlib dedi: "Allahın rəsulu ﷺ sənə həyat yoldaşından uzaq durmağı əmr edir." Mən dedim: "Onu

boşayım, yoxsa nə edim?" Dedi: "Xeyr *boşama,* lakin ondan uzaq dur və ona yaxınlaşma!" Rəsulullah ﷺ eyni əmri digər iki dostuma da etmişdi. Mən həyat yoldaşıma dedim: "Valideynlərinin yanına get, Allah bu işdə hökm verənə qədər onların yanında qal!"

Hilal ibn Umeyyənin həyat yoldaşı Rəsulullahın ﷺ yanına gəlib ona dedi: "Ya Rəsulullah, həqiqətən, Hilal ibn Umeyyə haldan düşmüş və xadiməsi olmayan bir qocadır. Ona xidmət göstərməyimi də qadağan edirsən?" O dedi: "Xeyr, lakin sənə yaxınlaşmasın." Qadın dedi: "Vallahi ki, onun heç hərəkət etməyə taqəti qalmayıb. Vallahi, onun başına bu iş gələndən bu günədək elə hey ağlayır."

Sonra əhli-əyalımdan bəziləri mənə dedilər: "Bəlkə zövcənin sənə xidmət etməsindən ötrü Rəsulullahdan ﷺ izin istəyəsən, axı o, Hilal ibn Umeyyənin zövcəsinə izin verib." Mən dedim: "Bundan ötrü Allahın rəsulundan ﷺ izn istəməyəcəm, mən nə bilim ki, Allahın rəsulu ﷺ mənim müraciətimə nə cavab verəcək, həm də ki, mən cavanam." Mən daha on gün də bu vəziyyətdə qaldım və beləcə, camaatın bizimlə danışmasına qadağa qoyulmuş günlərin sayı əlliyə çatdı.

Nəhayət, əllinci gecənin səhəri evlərimizdən birinin damında sübh namazını qılıb uca Allahın *Quranda*[1] bizi vəsf etdiyi kimi – ürəyim təngə gəlib sıxılmış və gen dünya mənə dar gəlmiş halda oturmuşdum ki, birdən Səl dağına çıxmış bir adamın uca səslə: "Ey Kəb ibn Malik, sevin!"– deyə çağırdığını eşitdim. Mən dərhal səcdəyə qapandım və artıq qurtuluşun gəldiyini anladım. Rəsulullah ﷺ sübh namazını qıldırdıqdan sonra qüdrətli və uca Allahın tövbələrimizi qəbul etdiyini insanlara bildirdi, onlar da bizi müjdələməyə gəldilər. İki dostumun yanına da müjdəçilər getdi. Müjdəçilərdən biri atını çaparaq mənim yanıma gəldi. Əsləm qəbiləsindən də bir nəfər məni müjdələmək üçün dağa qalxdı. Səs atdan daha sürətli idi. Səsini eşitdiyim müjdəçi yanıma gəldikdə əynimdəki iki libasımı çıxardıb muştuluq olaraq ona geyindirdim. Vallahi ki, həmin gün mənim o iki libasdan başqa libasım yox idi. Odur ki, *səhabələrdən birindən* borca iki libas götürüb geydim və Rəsulullahın ﷺ yanına getdim. Səhabələr dəstə-dəstə məni qarşılayıb tövbəmin qəbul

---

[1] ət-Tovbə, 118.

olunması münasibətilə məni təbrik edir və: "Allahın tövbəsi sənin üçün xeyirli olsun!"– deyirdilər. Nəhayət, məscidə daxil oldum və gördüm ki, Rəsulullah ﷺ oturub, camaat da onun ətrafına toplaşıb. *Elə bu vaxt* Talhə ibn Ubeydullah رضي الله عنه ayağa qalxıb qaçaraq yanıma gəldi və əlimi sıxıb məni təbrik etdi. Vallahi ki, mühacirlərdən ondan başqa heç kəs ayağa qalxmadı. Kəb Talhənin bu hərəkətini heç vaxt unutmadı.

Kəb dedi: "Mən Rəsulullaha ﷺ salam verdikdə üzü sevincdən parıldayırdı. *Məni görəndə* dedi: "Anan səni dünyaya gətirdiyi gündən bəri sənin üçün ən xeyirli olan bu günün səadətilə sevin!" Mən: "Ya Rəsulullah, bu müjdə sənin tərəfindəndir, yoxsa Allah tərəfindən?"– deyə ondan soruşdum. O: "Xeyr, Allah tərəfindən"– deyə cavab verdi. Rəsulullah ﷺ sevindiyi zaman onun üzü nur saçardı, hətta ay parçasına bənzəyərdi. Biz də onun sevindiyini görkəmindən anlayardıq. Mən onun qarşısında oturduqda dedim: "Ya Rəsulullah! Tövbəmin qəbul olunduğuna görə malımdan Allah və Onun rəsulu ﷺ üçün sədəqə verəcəyəm." Rəsulullah ﷺ buyurdu: "Malının bir hissəsini özünə saxla. Bu sənin üçün daha xeyirlidir." Mən dedim: "Xeybər döyüşündən mənə çatan qənimət payımı özümə saxlayıram."

Mən dedim: "Ya Rəsulullah! Uca Allah məni *bu sıxıntıdan* ancaq doğru danışdığıma görə qurtardı. Tövbəmin bir qisminə o da aiddir ki, mən bundan sonra yaşadığım müddətcə yalnız doğru danışacağam."

Vallahi, bu sözləri Rəsulullaha ﷺ söylədiyim vaxtdan bəri, Allahın müsəlmanlardan kiməsə doğru danışmaq nemətini verdiyini bilmirəm. Allahdan istəyirəm ki, bundan sonra yaşadığım müddətcə də bu işdə məni qorusun. Sonra uca Allah bu ayəni nazil etdi: **"Allah, *müsəlmanlardan* bəzilərinin qəlbi *cihaddan* yayınmaq üzrə olduqdan sonra, Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarların da *əvvəlcə* tövbəsini qəbul etdi, sonra da onları bağışladı. Çünki *Allah* onlara qarşı Şəfqətlidir, Rəhmlidir. Geri qalmış üç nəfəri də *bağışladı*. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri *kədərdən* sıxılmış və yəqin bilmişdilər ki, Allahın *əzabından*, Onun Özünə sığınmaqdan başqa çarə yoxdur. Sonra *Allah* peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən,**

**Allah tövbələri qəbul Edəndir, Rəhmlidir. Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun."**[1]

Kəb dedi: "Vallahi, Allah məni İslam dininə yönəltdikdən sonra Onun mənə bəxş etdiyi nemətlər içərisində ən böyük neməti Rəsulullaha ﷺ doğru danışaraq, yalan danışıb həlak olanlar kimi həlak olmamağım idi. Uca Allah yalan danışanlar haqqında vəhy nazil etdiyi zaman, hər hansı bir *günahkar* adam üçün söylədiyinin ən betərini söylədi. Uca Allah buyurur: **"Yanlarına qayıtdığınız zaman, onlardan əl çəkəsiniz deyə, qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar. Qazandıqları *günahların* cəzası olaraq sığınacaqları yer Cəhənnəm olacaqdır. Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq adamlardan razı qalmaz."**[2]

Kəb dedi: "Rəsulullah ﷺ bizim üçümüzdən başqa, döyüşdən yayınanların and içib üzr diləmələrini qəbul etdi, onlardan *bir daha* beyət aldı və onlar üçün bağışlanma dilədi. Rəsulullah ﷺ bizim işimizi uca Allah bu haqda hökm verənədək təxirə saldı. Nəhayət, uca Allah belə buyurdu: **"Geri qalmış üç nəfərin *tövbəsini qəbul etdi...*"**[3] Uca Allah bu ayədə bizim döyüşdən geri qalmağımıza yox, Peyğəmbərin ﷺ yanında and içib üzür gətirdikdə andı və üzürü Peyğəmbər ﷺ tərəfindən qəbul edilən kəslərdən geri qalmağımıza və barəmizdəki hökmün *əlli gün* təxirə salınmasına işarə edirdi."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[4]

Bir rəvayətdə isə belə deyilir: "Peyğəmbər ﷺ Təbuk döyüşünə cümə axşamı günü çıxdı. O, cümə axşamı günü *səfərə* çıxmağı xoşlayardı."[5]

Digər bir rəvayətdə də belə deyilir: "Peyğəmbər ﷺ səfərdən ancaq gündüzün əvvəlində qayıdardı. Qayıtdığı vaxt da məscidə gəlib, iki rükət namaz qıldıqdan sonra orada oturardı."[6]

---

[1] ət-Tovbə, 117-119.

[2] ət-Tovbə, 95-96.

[3] ət-Tovbə, 118.

[4] Səhih əl-Buxari, 4418; Səhih Muslim, 2769.

[5] Səhih əl-Buxari, 2790.

[6] Səhih Muslim, 716.

**Şərh:**

Bu, Kəb ibn Malikin رضي الله عنه Təbuk döyüşündən yayınması barədə danışdığı rəvayətdir. Təbuk döyüşü hicrətin 9-cu ilində baş vermişdir.

Peyğəmbər ﷺ xristian dininə mənsub olan rumluların müsəlmanlarla döyüşmək üçün ordu topladığından xəbər tutduqda, ordu toplayıb onların üstünə getdi və iyirmi gün Təbukda gözlədi. Lakin orada heç bir düşmən ordusu görmədiyindən geri döndü. Bu hərbi yürüş xurmaların yetişdiyi isti günlərdə baş verdi. Həmin vaxt münafiqlər dünyanı axirətdən üstün tutub bu döyüşə qatılmadılar. Döyüşə getmək onlara ağır gəldi və onlar kölgəliklərə çəkilib tər xurmalar yeməyə üstünlük verdilər. Beləliklə də, *Allah yolunda* əziyyət çəkmək istəmədilər – Allah *müsəlmanları onların şərindən* qorusun!

İxlaslı möminlər isə Peyğəmbərlə ﷺ birlikdə döyüşə çıxdılar. Səfərin uzaq və məşəqqətli olması, üstəlik, tər xurmalar onların əzmini qıra bilmədi. Fəqət Kəb ibn Malik رضي الله عنه heç bir üzrü olmadığı halda bu döyüşdən geri qaldı. Kəb رضي الله عنه *hər zaman Allah yolunda cihad etmiş* ixlaslı möminlərdən idi. Odur ki, o, Rəsulullahın ﷺ apardığı döyüşlərinin heç birindən yayınmadığını bildirmişdir. Kəb ibn Malikin رضي الله عنه Rəsulullahla ﷺ birlikdə döyüşlərin hamısında iştirak etməsi, onun Allah yolunda vuruşan mücahidlərdən olması deməkdir. Bədr döyüşündən yayınmasına gəlincə, Kəbdən رضي الله عنه başqa bir çox səhabələr də bu döyüşdə iştirak etməmişdilər. Çünki Peyğəmbər ﷺ Mədinədən döyüş məqsədilə çıxmamış, bu səbəbdən də, onunla birlikdə üç yüz on nəfərdən bir az çox səhabə getmişdir. Çünki onların hədəfi Qureyş karvanını ələ keçirmək idi. Bu karvan Şamdan Məkkəyə yollanmışdı və Mədinədən gəlib keçəcəkdi. Elə buna görə də, Peyğəmbər ﷺ o karvanın qabağını kəsib onu ələ keçirmək istəyirdi. Çünki məkkəlilər Peyğəmbəri ﷺ və onun səhabələrini yurdlarından qovmuş, mallarını da qəsb etmişdirlər. Bu zülmdən dolayı məkkəlilərin malları Peyğəmbər ﷺ üçün qənimət idi və bu karvanı ələ keçirmək ona halal sayılırdı. Rəsulullahın ﷺ və onun səhabələrinin bu işi görməkdə məqsədləri qəsbkarlıq yox, əksinə, haqlarının bir qismini geri qaytarmaq idi.

Rəsulullah ﷺ üç yüz on nəfərdən bir az çox səhabə ilə Mədinədən yola çıxdı. Onların sadəcə yetmiş dəvə və iki atları vardı. Yanlarında yeyəcək ərzaqları da az idi. Lakin uca Allah dilədiyini gerçəkləşdirmək üçün möminləri düşmənləri ilə vədələşmədikləri bir halda qarşı-qarşıya gətirdi. Karvan başçısı – Əbu Sufyan Peyğəmbərin ﷺ karvanı ələ keçirmək üçün yola çıxdığını eşitdikdə, karvanının istiqamətini dənizin sahilinə tərəf yönəltdi və məkkəlilərə: "Gəlin karvanı qurtarın"– deyə xəbər göndərdi. Beləliklə də, qureyşlilər qəbilə başçıları və zadəganları ilə birlikdə toplanıb yola çıxdılar. Sayları doqquz yüz ilə min arasında idi. Onlar yurdlarından uca Allahın xəbər verdiyi kimi çıxmışdılar. Uca Allah onların barəsində belə buyurur: **"Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və *insanları* Allah yolundan sapdıran kəslər kimi olmayın."**[1] Onlar yolda ikən karvanın basqından qurtulduğunu, təhlükənin sovuşduğunu öyrəndilər və bir-birilərinə dedilər: "Karvan qurtuldu. Döyüşmək bizim nəyimizə gərəkdir?!" Lakin Əbu Cəhl dedi: "Allaha and olsun ki, biz gedib Bədrdə üc gün qalmayınca, orada dəvə kəsib, yemək yeyib şərab içməyincə geri qayıtmayacağıq. Beləcə, ərəblər bizim durumumuzdan xəbərdar olacaq və daim bizdən çəkinəcəklər." Hərçənd onlar özlərini dartaraq, lovğalanaraq və öyünərək belə dedilər, lakin ərəblər onların, ərəblərin heç vaxt uğramadığı dəhşətli bir məğlubiyyətə uğradıqlarından danışdılar.

Müşriklər, hicrətin ikinci ilində ramazan ayının on yeddisində müsəlmanlarla qarşılaşdılar. Uca Allah mələklərə: **"Mən sizinləyəm! İman gətirənlərə dəstək verin. Mən kafirlərin qəlbinə qorxu salacağam. Onların boyunlarını vurun və barmaqlarının hamısını kəsin!"– *deyə* vəhy etdi."**[2] Baxın, bu ayədə möminlərə dəstək vermək və onları sabitqədəm etmək, habelə, kafirlərin qəlbinə qorxu salınmaqdan söhbət gedir. Əlbəttə ki, belə halda zəfər də yaxın olmalıdır. Belə ki, uca Allah möminləri sabitqədəm etmiş, kafirlərin isə qəlbinə qorxu salmışdır. Uca Allah mələklərə: **"*Kafirlərin* boyunlarını vurun və barmaqlarının hamısını kəsin!"**[3] – deyə əmr etmişdir. Yəni onların bütün məfsəllərini

---

[1] əl-Ənfal, 47.

[2] əl-Ənfal, 12.

[3] Əvvəlki mənbə.

vurun. Bu iş sizin üçün asandır. Beləcə, müsəlmanlar onları qırıb çatdılar, onlardan yetmişini qətlə yetiirdilər, yetmişini də əsir aldılar. Öldürdükləri də, məkkəlilərin aşağı təbəqəsindən deyil, öndə gedənləri və böyükləri idi. Müsəlmanlar o ölülərdən iyirmi dördünü sürütləyərək Bədr quyularından birinə atdılar. Sonra Peyğəmbər ﷺ gəlib quyunun başında durdu və onlara: "Ey filankəsin oğlu filankəs!" – deyə, hər birinə adı və atasının adı ilə xitab edib dedi: "Rəbbinizin sizə vəd etdiyinin haqq olduğunu gördünüzmü?! Mən həqiqətən də, Rəbbimin mənə vəd etdiyinin haqq olduğunu gördüm." Onda səhabələr dedilər: "Ya Rəsulullah! Sən cansız cəsədlərlə necə danışırsan?!" Peyğəmbər ﷺ dedi: **"Vallahi, onlar məni sizdən daha yaxşı eşidirlər, lakin cavab verə bilmirlər."**[1] Onların cavab verməmələrinin səbəbi ölü olmalarıdır. Bu, Allahın biz müsəlmanlara olan lütfüdür. Hər dəfə bu hadisəni xatırladıqda Allaha çoxlu şükürlər etməliyik. Uca Allah, Peyğəmbərinə ﷺ yardım etmiş və bu günü **"Furqan –** ***haqla batilin*** **ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün"**[2] adlandırmışdır.

Bəli, həmin gün uca Allah haqla batili layiqincə ayırd etmişdir. Uca Allahın qüdrətinə bir baxın! Möminlərin sayı üç yüz on nəfərdən bir az çox, kafirlərin sayı isə min nəfər olduğu və üstəlik də, ərzaq və silah yönündən daha güclü olduqları halda, möminlər onlara qalib gəldi. Möminlərin dəvələrinin və atlarının sayının az olmasına rəğmən, Allah onlara zəfər bəxş etdi. Allah hansı bir qövmə yardım edərsə, onların qarşısında heç kəs dura bilməz. Bu xüsusda uca Allah belə buyurur: **"Siz zəif olduğunuz halda Allah, Bədrdə sizə yardım etdi. Elə isə Allahdan qorxun ki, bəlkə şükür edəsiniz."**[3] Lakin möminlər Məkkəni fəth etdikdən sonra on iki minlik ordu ilə Həvazin və Səqif qəbilələrinin üstünə getdikdə, *onların bir qismi* saylarının çoxluğu ilə qürrələnərək: "Biz bu gün az sayda olan düşmən qarşısında məğlub olmayacağıq"– dedilər. Fəqət üç min beş yüzlük bir orduya ilk həmlədə məğlub oldular. Peyğəmbərin ﷺ başçılıq etdiyi on iki minlik ordunun məğlub olmasının səbəbi, bəzilərinin: "Biz bu gün az sayda

---

[1] Səhih əl-Buxari, 1370; 3976; Səhih Muslim, 2873-2875.

[2] əl-Ənfal, 41.

[3] Ali-İmran, 123.

olan düşmən qarşısında məğlub olmayacağıq"– deməsi idi. Allah da onlara, saylarının çoxluğunun özlərinə heç bir faydası olmadığını göstərdi. Bu xüsusda uca Allah belə buyurur: **"Allah sizə Huneyn günündə də yardım etdi. O zaman çoxluğunuza aludə oldunuz, amma** ***bu*** **sizin karınıza gəlmədi. Yer üzü, genişliyinə rəğmən, sizə dar gəldi, axırrda geriyə dönüb qaçdınız."**[1]

Heç bilirsiniz, Bədrdə iştirak edənlər nəyə nail oldular? Allah onlara baxıb: "İstədiyinizi edin, artıq Mən sizin günahlarınızı bağışladım!"– dedi. Onların etdiyi hər bir günah bağışlanmışdır. Çünki onlar, bu əməlləri ilə borclarını əvvəlcədən ödəmişlər. Bu döyüş hər bir möminin xeyrinə olmuşdur. Hətta Hatib ibn Əbu Bəltəə ﷺ Peyğəmbərin ﷺ Məkkəyə yürüş edəcəyini məkkəlilərə xəbər vermək üçün onlara bir məktub yazdı və onu bir qadına verdi ki, məkkəlilərə çatdırsın. Lakin uca Allah vəhy yolu ilə Öz Peyğəmbərini ﷺ xəbərdar etdi. Onda Peyğəmbər ﷺ Əli ibn Əbu Talibi ﷺ və Zubeyr ibn əl-Əvvamı ﷺ o qadının arxasınca göndərdi. Nəhayət, gəlib "Rovdatu Xax" deyilən bir bağçada qadına çatdılar və ondan: "Məktub hardadır?"– deyə soruşdular. Qadın: "Məndə heç bir məktub yoxdur"– deyə cavab verdi. Onlar dedilər: "Allah bizə yalan söyləmədi. Biz də yalan söyləmirik. Məktub hardadı? Ya məktubu verəcəksən, ya da səni soyunduracağıq." Onda qadın *saçlarının arasından* məktubu çıxartdı. Baxdılar ki, bu, Hatib ibn Əbu Bəltəənin ﷺ qureyşlilərə yazdığı məktubdur. Beləcə, onlar məktubu Peyğəmbərə ﷺ gətirdlər. Allaha həmd olsun ki, məktub qureyşlilərə yetişmədi. Bu da Allahın müsəlmanlara və Hatibə ﷺ olan lütfü idi. Səhabələr məktubu Peyğəmbərə ﷺ verdikdə, Peyğəmbər ﷺ Hatibə ﷺ dedi: "Bu nədir, ey Hatib?!" Hatib ﷺ üzr dilədi. Onda Ömər ﷺ dedi: "Ya Rəsulullah, izin ver bu münafiqin boynunu vurum." Peyğəmbər ﷺ ona belə cavab verdi: **"O, Bədr döyüşündə iştirak edib. Məgər uca Allahın Bədrdə döyüşənlərə baxıb: "İstədiyinizi edin, artıq Mən sizin günahlarınızı bağışladım!"– dediyini bilmirsənmi?!"**[2] Hatib ﷺ də Bədr əhlindən idi.

---

[1] ət-Tovbə, 25.

[2] Səhih əl-Buxari, 4274; Səhih Muslim, 2494.

Xülasə budur ki, Kəb رضي الله عنه Bədr döyüşündə iştirak etmədiyi üçün günah qazanmamışdır. Çünki Peyğəmbər ﷺ döyüş üçün yox, karvanı ələ keçirmək üçün yola çıxmış, lakin uca Allah onları – vədələşmədikləri halda, düşmənləri ilə qarşı-qarşıya gətirmişdi. Allaha həmd olsun ki, Bədr döyüşü, mübarək bir döyüş olmuşdur.

Daha sonra Kəb رضي الله عنه Minadakı Əqəbə beyətini zikr etmiş, həmin vaxt səhabələrin Peyğəmbərə ﷺ beyət etdiklərini xatırlatmış və: "Mənim üçün Əqəbə beyətində iştirak etmək Bədrdə iştirak etməkdən daha sevimli idi"– demişdir. Sadəcə olaraq Bədr döyüşü daha məşhur bir hadisə olduğuna görə, insanlar daha çox ondan bəhs edərdilər. Kəb رضي الله عنه sanki bu sözü ilə özünə təsəlli verib: "Bədr döyüşündə iştirak etməsəm də, Əqəbə beyətində iştirak etmişəm"– demək istəyirdi. Uca Allah Kəbdən رضي الله عنه və bütün səhabələrdən razı olsun!

Sonra Kəb رضي الله عنه Təbuk döyüşündən yayındığı vaxtda olduğu kimi heç vaxt qüvvətli və zəngin olmadığını, o vaxtadək heç vaxt iki miniyi olmadığını, lakin bu döyüş vaxtı iki miniyi olduğunu xəbər vermişdir. Odur ki, demək olar ki, Kəb رضي الله عنه artıq döyüşə hazır vəziyyətdə idi.

Peyğəmbər ﷺ bir *topluma qarşı* döyüşmək istədikdə, adətən başqa *bir topluma qarşı* döyüşmək istədiyini bildirərək, əsl məqsədini gizli saxlayardı. Bu, onun hərbi hazırlıqda nə qədər müdrik və nə qədər tədbirli olduğunu göstərir. Belə ki, əgər gedəcəyi yeri bildirsə idi, düşmən bundan xəbər tutub daha çox hazırlıq görər və ya yerləşdiyi yerdən qaça bilərdi. Məsələn, cənuba getmək istədikdə, özünü şimala getmək istəyən kimi, şərqə getmək istədikdə də, özünü qərbə getmək istəyən kimi göstərərdi ki, düşmən onun əsl məqsədindən xəbər tutmasın. Yalnız Təbuk döyüşündə belə etməmiş və vəziyyəti səhabələrinə açıq-aydın bildirmişdir. Bunun da bir neçə səbəbi vardır:

Birincisi, bu döyüş meyvələrin yetişdiyi, istilərin artdığı zamanda baş verəcəkdi. İnsan isə xilqətcə rahatlığa və tənbəlliyə meyillidir.

İkincisi, Mədinə ilə Təbuk arasında çox uzun məsafə vardı. Səfər boyu çöllər və qumlar, habelə, susuz qalmaq və günəş altında durmaq var idi.

Üçüncüsü, düşmən rum ordusu idi, sayları da çox idi. Peyğəmbərin ﷺ əldə etdiyi məlumatlara görə onlar böyük bir ordu qurmuşdular.

Elə buna görə də Rəsulullah ﷺ, möminlərin hazırlıq görməsi üçün onlara uzaq bir yerə, Təbuka – böyük bir ordu ilə döyüşməyə gedəcəkləri barədə xəbər verdi.

Beləliklə, müsəlmanlar Peyğəmbərlə ﷺ birlikdə yola düşdülər. Geridə sadəcə Allahın münafiq edərək rəzil etdiyi kimsələr və bir də üç kişi qaldı. Bunlar: Kəb ibn Malik, Murara ibn ər-Rəbi və Hilal ibn Umeyyə رضي الله عنهم idi. Hərçənd onlar ixlaslı mömilər idi, lakin Allahın bildiyi və dilədiyi hikmətlərdən dolayı geridə qalmışdılar. Bunlardan başqa geridə qalanlar isə nifaq bataqlığına batmış münafiqlər idi. Allah bizləri qorusun!

Peyğəmbər ﷺ çox sayda olan səhabələri رضي الله عنهم ilə birlikdə Təbuka yollandı. Nəhayət, gəlib Təbuka çatdılar, lakin orada qaldıqları müddətdə Allah onları düşmənləri ilə qarşı-qarşıya gətirmədi. Peyğəmbər ﷺ iyirmi gün orada gözlədikdən sonra Mədinəyə qayıtdı.

Bu hədisdə Kəb ibn Malik رضي الله عنه Rəsulullahın ﷺ və səhabələrinin səfərə hazırlıq görüb Mədinədən çıxdıqlarını, həmin vaxt isə özünün hələ də hazırlıq görmədiyini, müsəlmanlarla birlikdə bu səfərə çıxa bilmədiyini xəbər verir. O, hər sabah: "Bu gün hazırlıq görüb çıxaram. Gedib müsəlmanlara yetişərəm"– deyir, lakin heç bir hazırlıq görmürdü. Bu minvalla heç bir hazırlıq görmədən günlər keçdi və müsəlmanlara yetişmək ehtimalı qalmadı.

Bu dəlildir ki, əgər adam xeyirli bir işi vaxtında görməzsə, o işi görməkdən məhrum ola bilər. Uca Allah kafirlər barədə belə buyurur: **"Biz onların ürəklərini və gözlərini ilk dəfə ona iman gətirmədikləri kimi tərsinə çevirər və onları öz azğınlıqları içərisində sərgərdan dolaşan vəziyyətdə tərk edərik."[1]** Deməli, insan haqqı bildikdən sonra onu qəbul etməsə və dərhal ona əməl etməsə, – Allah qorusun! – fürsəti əldən buraxıb o xeyirdən məhrum ola bilər. Bu, Peyğəmbərin ﷺ: "Əsl səbir, müsibətin ilk anındakı səbirdir"[2] hədisində buyurulduğu kimi, insanın ilk anda səbir etmədiyi halda səbrin savabından məhrum olması kimidir.

[1] əl-Ənam, 110.
[2] Səhih əl-Buxari, 1283; Səhih Muslim, 926.

Elə isə qardaşlarım, yaxşı işlər görməyə tələsin və bu işləri sonraya saxlamayın. Yoxsa, günlər keçdikdən sonra o işi görməyə aciz qalacaq, tənbəllik sizi basacaq, şeytan və nəfsi istəkləriniz sizə qalib gələcək, beləliklə də, o işi görməyi təxirə salacaqsınız. Baxın, Kəb ibn Malik رضي الله عنه hər gün: "Hazırlıq görüb çıxaram"– deyə niyyət etdi, lakin günlər keçməsinə rəğmən döyüşə gedə bilmədi.

Kəb رضي الله عنه deyir ki: "Həmin vaxt mən Mədinə bazarına çıxdıqda, nə Allahın Rəsulunu ﷺ, nə Əbu Bəkri رضي الله عنه, nə Öməri رضي الله عنه, Osmanı رضي الله عنه, nə Əlini رضي الله عنه, nə də ki İslamı ilk əvvəl qəbul etmiş mühacirləri və ənsarı رضي الله عنهم görə bilirdim. Gördüklərim ancaq, ya cihada getməyən – Allah qorusun! – münafiqlikdə ittiham olunan kimsələr, ya da Allah tərəfindən üzürləri qəbul edilən üzürlü kimsələr idi." Kəb Mədinədə yalnız belə kimsələr qaldığı halda, onlarla bərabər oturub-durduğuna görə özünü qınayırdı.

Rəsulullah ﷺ Təbuka çatanadək onu yada salmadı və onun haqqında heç soruşmadı. Nəhayət, bir gün Təbukda səhabələri ilə bir məclisdə ikən: "Kəb ibn Malik hardadı?"– deyib onun barəsində soruşdu. Bənu Sələmə qəbiləsindən bir nəfər onun barəsində xoşagəlməz sözlər söylədi. Lakin Muaz ibn Cəbəl رضي الله عنه onu müdafiə etdi. Peyğəmbər ﷺ isə susdu, nə Kəbə رضي الله عنه tənə vuran adama, nə də onun cavabını verənə bir söz dedi. Bu əsnada Peyğəmbər ﷺ uzaqdan ağ paltarlı bir adamı ilğım kimi görüb dedi: "*Bu gələn* Əbu Xeysəmə olmalıdır." Doğrudan da, o, Əbu Xeysəmə رضي الله عنه idi. Peyğəmbər ﷺ bunu ya öz fərasəti ilə, ya da baxışlarının iti olmasıyla təyin etdi. Şəkk yoxdur ki, o, istər görmək, istər eşitmək, istər nitq söyləmək, istərsə də başqa işlərdə hər kəsdən fərasətli idi. Ona qadınlarla yaxınlıq etmək xüsusunda otuz kişinin gücü qədər güc verilmişdir. Habelə, ona digər işlərdə də əlavə güc verilmişdi. Hədisdə adı çəkilən Əbu Xeysəmə رضي الله عنه, Peyğəmbər ﷺ səhabələrini sədəqə verməyə təşviq etdikdə, bir saa xurma sədəqə verdiyinə görə münafiqlərin istehza etdiyi səhabədir. Peyğəmbər ﷺ səhabələrini sədəqə verməyə təşviq etdikdə, hər kəs imkanı daxilində sədəqə verdi. Həmin vaxt səhabələrdən biri çoxlu sədəqə gətirdikdə, münafiqlər: "Bu, riyakar adamdı. Çox sədəqə verməkdə məqsədi Allahı razı salmaq deyil"– deyər, kasıb birisi də az miqdarda sədəqə verdikdə, mü-

nafiqlər: "Allahın bunun gətirdiyi bir saa (dörd ovuc) sədəqəyə ehtiyacı yoxdur"– deyərdilər.[1]

Baxın bu münafiqlərə! Uca Allahın buyurduğu kimi, bunlar möminlərə hər cür tənə edirlər: **"Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir."**[2]

Münafiqlər belədirlər, hər zaman müsəlmanların başına bəla olmuşlar. Xeyirxahlıq edən bir kimsə gördükdə ona tənə edər, ibadətində zəif olan birisini gördükdə də, yenə tənə edərlər. Münafiqlər Allahın ən xəbis qullarıdır. Onlar Cəhənnəmin ən alt təbəqəsində olacaqlar. Günümüzdəki münafiqlər də, təqva əhlini, dəvətçi, insanlara yaxşı işlər görməyi əmr edən və onları pis işlərdən çəkindirən müsəlmanları gördükdə: "Bunlar rəsmiyyətpərəslərdi; bunlar sərtlik göstərənlərdi; bunlar qanunsevənlərdi; bunlar geridə qalmışlardı!" kimi sözlər deyərlər. Bunların hamısı Peyğəmbərin ﷺ zamanındakı münafiqlərin günümüzədək gəlib yetişən qalıqlarıdır. Deməyin ki: "Aramızada münafiq yoxdur." Əksinə, aramızda münafiqlər var və onların bir çox əlamətləri vardır. İbn əl-Qeyyim رحمه الله "Mədaric əs-Salikin" əsərinin birinci cildində münafiqlərin bir çox əlamətlərini zikr etmişdir. O əlamətlərin hamısı Allahın kitabında zikr edilmişdir. Odur ki, bir adamın yanında xeyirxah bir insan barəsində danışdıqda həmin adam, barəsində danışılan adam haqqında "O rəsmiyyətçidir, o sərtdir" – deyərsə, yaxud, gücü çatan qədər sədəqə verən insanı gördükdə, "O paxıldır, Allahın onun verdiyi sədəqəyə ehtiyacı yoxdur" – deyərsə, bil ki, həmin adam münafiqdir. **"Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir."**[3]

Bu hədisdən biz iki böyük fayda əldə etdik:

Birincisi budur ki, insan xeyirli işi təxirə salmamalı, səhlankarlıq və ya tənbəllik etməməli, əksinə, öndə getməyə çalışmalıdır. Məscidə ge-

---

[1] Səhih əl-Buxari, 1326; Səhih Muslim, 1692.

[2] ət-Tovbə, 79.

[3] ət-Tovbə, 79.

dən, lakin ön cərgədə durmayan, əksinə, arxa cərgələrə keçən kimsələr haqqında Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Bəzi adamlar *ön cərgədə durmaqdan* ta o vaxta qədər geri qalacaqlar ki, axırda Allah onları geri salacaq.[1]"**[2] İnsan işlərini sonraya saxlamağa adət edərsə, Allah onu geri salar, öndə gedənlərdən olmasına yardım etməz. Odur ki, Allah tərəfindən yaxşı işlər görməyə dair bir əmr gəldikdə, o işləri görməyə tələsin.

İkinci fayda da budur ki, münafiqlər möminlərə tənə edərlər. Bir qədər əvvəl qeyd etdiyimiz kimi, müsəlmanlar çoxlu sədəqə verdikdə, münafiqlər: "Onlar riyakar adamlardır"– deyər, müsəlmanlar imkanları daxilində az miqdarda sədəqə verdikdə isə: "Allahın bunun gətirdiyi bir saa (dörd ovuc) sədəqəyə ehtiyacı yoxdur"– deyərlər. Necə ki, Əbu Xeysəmə haqqında: "Allah bunun verdiyi bir saa xurmaya möhtac deyildir"– demişdilər. Onlar münafiqdilər, iman gətirməzlər. Halbuki sədəqə vermək barədə Peyğəmbər ﷺ demişdir: **"Kim halal *yolla qazandığı* maldan sədəqə verərsə, – Allah ancaq halal olanı qəbul edir, – Allah bu sədəqəni sağ əli ilə qəbul edər, sonra da onu sahibi üçün, biriniz öz dayçasını bəsləyib böyütdüyü kimi, dağ boyda olanadək böyüdər."**[3] Başqa bir hədisdə də o belə buyurmuşdur: **"Yarım xurma da olsa sədəqə verməklə özünüzü Cəhənnəm odundan qoruyun!"**[4] Uca Allah da Quranda belə buyurur: **"Zərrə qədər yaxşılıq edən kəs *etdiyinin əvəzini* alacaqdır. Zərrə qədər pislik edən kəs də *etdiyinin əvəzini* alacaqdır."**[5] Allah subhanəhu və təalə yaxşılıq edənlərin savabını puç etməz.

Kəb رضي الله عنه davam edib deyir ki, Peyğəmbərin ﷺ Təbukdan qayıtdığını eşitdikdə, o gələndə ona nə deyəcəyimi düşünməyə başladım, hətta Peyğəmbər ﷺ məni qınamasın deyə yalan danışmaq fikrinə düşdüm

---

[1] Onları Öz rəhmətindən və lütfündən, habelə hörmət qazanmaqdan və elmə yiyələnməkdən uzaq salacaq.

[2] Rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ, bəzi səhabələrin *ön cərgələrdə durmağa* ləngidiklərini gördü və onlara belə buyurdu: "Qabağa keçin və mənə tabe olun. Sizin arxanızdakılar da sizə tabe olsunlar. Bəzi adamlar *ön cərgədə durmaqdan* ta o vaxta qədər geri qalacaqlar ki, axırda Allah onları geri salacaq." Səhih Muslim, 438.

[3] Səhih əl-Buxari, 1410; Səhih Muslim, 1014.

[4] Səhih əl-Buxari, 6023; Səhih Muslim, 1016.

[5] əz-Zəlzələ, 7-8.

və ona deyəcəyim barədə ailə üzvlərimdən müdrik adamlarla məsləhətləşdim. Peyğəmbər ﷺ Mədinəyə yaxınlaşıqda batil fikirləri özümdən uzaqlaşdırdım və həqiqəti demək qərarına gəldim."

Nəhayət, Peyğəmbər ﷺ Mədinəyə gəlib məscidə daxil oldu. Səfərdən Mədinəyə qayıtdıqda əvvəlcə məscidə girib namaz qılmaq onun adəti idi. Odur ki, Rəsulullah ﷺ məscidə girib namaz qıldı, sonra da oradakı camaatla oturdu. Bu əsnada, heç bir üzrləri olmadığı halda döyüşdən yayınan münafiqlər gəlib özlərinə bəraət qazandırmaq üçün bəhanələr gətirdilər və dediklərini əsaslandırmaq üçün and içdilər. Rəsulullah ﷺ onların bəraət və andlarını qəbul etdi, onlardan bir daha əhd aldı, *Allahdan* onlar üçün bağışlanma dilədi. Lakin bunun o münafiqlərə heç bir faydası yoxdur. Çünki uca Allah buyurur: **"Onların bağışlanması üçün dua etsən də, etməsən də, *hətta* onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır."**[1]

Kəb رضي الله عنه deyir ki: "Lakin mən Peyğəmbərə ﷺ düzünü deməyə qərar verdim. Məscidə daxil olub ona salam verdim. O isə, qəzəbini hiss etdirən bir təbəssümlə – yəni, məndən narazı olduğunu bildirərək təbəssüm etdi və: "Yaxın gəl!"– dedi. Ona yaxınlaşdıqda məndən: "Geridə qalmağa səni nə vadar etdi?" – deyə soruşdu. Mən dedim: "Ya Rəsulullah, bu döyüşdən yayınmağıma dair heç bir üzürüm yoxdur. Bundan əvvəlki döyüşlərdə heç vaxt mənim iki miniyim olmamışdı. Və əgər mən dünyadakı padşahlardan birinin qarşısında otursaydım, bir bəhanə ilə onun qəzəbindən qurtarardım, çünki Allah mənə fəsahətli danışıq qabiliyyəti verib. Lakin bilirəm ki, mən bu gün yalan danışıb səni razı salsam, Allahın mənə qəzəbi tutacaq."

İmana bir baxın! Kəb deyir ki, mən sənə yalan danışa bilmərəm. Əgər sənə yalan danışsam və sən də bu gün məndən razı qalsan, şübhəsiz ki, sonra Allahın mənə qəzəbi tutacaq.

Odur ki, Kəb رضي الله عنه gerçəyi olduğu kimi anlatdı, Rəsulullah ﷺ da onun haqqında veriləcək hökmü sonraya saxladı.

Bundan çıxan bəzi faydalar vardır:

Birincisi budur ki, Allah subhanəhu və təalə qulunun qəlbində gözəl niyyət olduğunu görəndə onu günaha batmaqdan qoruyur. Belə ki,

---

[1] ət-Tovbə, 80.

Kəb ibn Malik ﵁ Rəsulullahın ﷺ yanına gedərkən uca Allah onun qəlbindəki yanlış fikirləri sildi və o, Rəsulullaha ﷺ doğrunu söyləmək qərarına gəldi.

İkincisi budur ki, adam səfərdən qayıdarkən evinə getməmişdən əvvəl məscidə gedib iki rükət namaz qılmalıdır. Çünki bu, Peyğəmbərin ﷺ həm sözlə ifadə etdiyi, həm də əməli ilə yerinə yetirdiyi sünnəyə aiddir. Şərh etdiyimiz hədis onun əməli ilə yerinə yetirdiyi sünnəyə aiddir. Sözlə ifadə etdiyi sünnəyə gəlincə, rəvayət edilir ki, Cabir ibn Abdullah ﵄ səfərlərin birində dəvəsini Peyğəmbərə ﷺ satdı və Mədinəyə qədər o dəvəni minəcəyinə dair şərt qoydu. Peyğəmbər ﷺ bu şərtlə razılaşdı və dəvəni onun ixtiyarına buraxdı. Cabir Mədinəyə yetişdikdə, Peyğəmbərin ﷺ ondan əvvəl ora çatdığını gördü. Nəhayət, Peyğəmbərin ﷺ yanına gəldikdə, Peyğəmbər ﷺ ona: "Dəvəni burada saxla, məscidə gir, iki rükət namaz qıl!"– deyə əmr etdi.[1]

Bu günkü gün insanların çox azı müstəna olmaqla onların bu sünnəni yerinə yetirdiklərini güman etmirəm. Bu da, onların bu sünnədən xəbərsiz olduqlarına görədir. Yoxsa bu, Allaha həmd olsun ki, asan bir şeydir. Bunu evinin yaxınlığındakı həmişə namaz qıldığın məsciddə də qıla bilərsən, şəhərdəki başqa bir məsciddə də qıla bilərsən. Hər iki halda sünnəyə riayət etmiş olacan.

Üçüncü fayda budur ki, Kəb ibn Malik ﵁ inandırmaq qabiliyyəti olan və fəsahətli birisi olmasına rəğmən, təqvasına və Allahdan qorxduğuna görə yalan danışmaqdan imtina edib Peyğəmbərə ﷺ həqiqəti söyləmişdir.

Dördüncüsü budur ki, qəzəbli adam gülümsəyə bilər. Birisi: "Gülümsəməyin qəzəbdən, yoxsa razılıqdan dolayı olduğunu necə biləcəyik?"– deyə soruşsa, deyərik ki: "Bu, bir çox əlamətlə bilinə bilər. Məsələn, üzünün rəngi və cizgiləri dəyişməklə. Adam bu əlamətlərdən qarşısındakının qəzəbdən dolayı, yoxsa razılıqdan dolayı gülümsədiyini bilə bilər."

Beşincisi budur ki, ayaq üstə duran adam oturan adama salam verə bilər. Belə ki, Kəb ﵁ ayaq üstə ikən salam vermişdir. Peyğəmbər ﷺ də ona: "Yaxın gəl!"– demişdir.

---

[1] Səhih əl-Buxari, 2097; Səhih Muslim, 715.

Altıncısı budur ki, adam birisinə deyəcəyi sözü uzaqdan yox, yaxından deyərsə, daha yaxşı anlaşılar. Belə ki, Rəsulullah ﷺ Kəb ibn Malik ؓ ilə uzaqdan da danışa bilərdi, lakin ona yaxına gəlməyi əmr etmişdir. Çünki belə etmək, dinləmək, cavab vermək və qınamaq üçün daha münasibdir. Elə buna görə də Rəsulullah ﷺ ona: "Yaxın gəl!"– demişdir.

Yeddincisi, Kəb ibn Malikin ؓ tam yəqinliklə inanmasıdır. Çünki o belə demişdir: "Mən bu gün bir bəhanə ilə Rəsulullahın ﷺ qəzəbindən qurtara bilərəm, lakin bu gün gətirdiyim üzrə görə bir daha üzr gətirə bilməyəcəm və sabah Allahın mənə qəzəbi tutacaq."

Səkkizincisi budur ki, Allah sirləri və gizlin işləri bilir. Kəb ibn Malik ؓ qorxdu ki, Allah onun Peyğəmbərə ﷺ dediyi sözünü və onunla olan söhbətini eşidər və barəsində ayə nazil edər. Necə ki, əri barədə Peyğəmbərə ﷺ şikayət edən qadın haqqında ayə nazil etmişdir. Bu qadın, Peyğəmbərin ﷺ yanına gəlib ona: "Sən mənə anam kimi məhrəmsən"– deyən əri barədə şikayət etmiş, uca Allah da bu ayəni nazil etmişdir: **"Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi eşidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir."**[1]

Bu rəvayətdə Kəb ؓ xəbər verir ki, o, Rəsulullahın ﷺ yanına gəlib ona həqiqəti söyləmiş, nə bədəni, nə də malı ilə bağlı heç bir üzrünün olmadığını, bundan əvvəl heç bir döyüşdə indiki kimi iki miniyinin birdən olmadığını bildirmiş, Peyğəmbər ﷺ də: **"Buna gəlincə, bu, doğru söylədi"**– demişdir. Peyğəmbərin ﷺ Kəbin ؓ doğru danışdığını deməsi, bu səhabə üçün şərəf və fəxr olaraq yetərlidir. Sonra Rəsulullah ﷺ ona: **"Get, Allah sənin barəndə hökm verənə qədər gözlə!"**– deyə buyurdu.

Kəb ؓ Allahın əmrinə təslim olduğu və Allaha iman gətirdiyi, habelə, Allah istəmədiyi bir işin olmadığına, əksinə, hər bir işin Onun istədiyi kimi olacağına inandığı halda çıxıb getdi. Bənu Sələmə qəbiləsindən olan qohumları onun arxasınca gedib onu qərarından döndərmək istədilər və dedilər: "Sən bundan əvvəl belə bir günah işlətməmisən –

---

[1] əl-Mucadilə, 1.

yəni indiyədək heç vaxt Rəsulullahın ﷺ apardığı döyüşlərin heç birindən yayınmamısan. Onun sənin üçün bağışlanma diləməsi kifayət edər. O sənin üçün bağışlanma diləyərsə, Allah səni bağışlayar. Qayıt Rəsulullahın ﷺ yanına, dediklərinin yalan olduğunu söylə və: "Mənim üzrüm var"– de ki, o, üzürxahlıq edənlər üçün bağışlanma dilədiyi kimi sənin üçün də Allahdan bağışlanma diləsin." Kəb رضي الله عنه əvvəl-əvvəl onların dediklərini etmək istədi, lakin Allah onu qorudu və barəsində, Qiyamət günündək Kitabından oxunacaq bu böyük fəziləti nazil etdi.

Kəb رضي الله عنه deyir ki, onlardan: "Mənim kimi edən başqa birisi varmı?"– deyə soruşdum. Onlar da: "Bəli, Hilal ibn Umeyyə və Murara ibn Rəbi də sənin kimi düzünü dedilər və sənə deyilən onlara da deyildi"– dedilər və Bədr döyüşündə iştirak etmiş, mənə nümunə olacaq əməlisaleh iki kişinin adını çəkdilər."

Bəzən Allah insanın qarşısına elə birisini çıxarır ki, o ondan örnək götürüb şər əməldən əl çəkir. Burada da, onlar Bədr döyüşündə iştirak edən və Allahın ən fəzilətli qullarından sayılan o iki nəfərin adını çəkəndə, Kəb رضي الله عنه: "Onlarda mənim üçün örnək var"– deyib yoluna davam etdi və geri dönmədi.

Rəsulullah ﷺ camaata onlardan əlaqəni kəsməyi və onlarla danışmamağı əmr etdi və müsəlmanlar da onlardan tamamilə əlaqəni kəsdilər. İş o yerə gəlib çatdı ki, onlar sanki ağlını itirmiş dəli tək yollarda gəzib-dolaşır, özlərinin də yad bir şəhərdə olduğunu hiss edirdilər. Çünki heç bir kəs nə onların salamını alır, nə də onlara salam verirdi. İnsanların ən gözəl əxlaqlısı olan Peyğəmbər ﷺ belə onlara salam vermirdi.

Kəb رضي الله عنه deyir ki: "Mən Rəsulullahın ﷺ yanına gəlib ona salam verirdim, lakin salamımı almaq üçün dodaqlarını tərpədib-tərpətmədiyini bilmirdim. Ən xeyirli müsəlman toplumunda insanın, tərk edilərək tək qalmasının nə demək olduğunu dərk edə bilirsinizmi? Beləsinə gen dünya dar gələr. Həqiqətən də, gen dünya onlara dar gəldi və onlar Allaha sığınmaqdan başqa çarə qalmadığını başa düşdülər. Onların bu halı əlli gün, yəni, tam bir ay və iyirmi gün davam etdi. Camaat onlardan əlaqələrini tamamilə kəsdi. Onlara nə salam verirdilər, nə də onların salamını alırdılar. Heç kəsin yaxınlaşmadığı qotur dəvələr kimi ol-

muşdular. Onların vəziyyəti ağırlaşdı, canları sıxıldı və onlar Allaha üz tutdular. Lakin buna rəğmən Kəb ﷺ camaatla birgə namaz qılmağı tərk etmədi. O, camaat namazına gəlir və Peyğəmbərə ﷺ salam verirdi. Lakin axır vaxtlarda, qəlbindəki sıxıntı və utancdan dolayı o da camaat namazını tərk etdi. Çünki nə bir xoş sözlə, nə də bir qınaqla onu danışdırmayan, ondan tamamilə əlaqəni kəsmiş bir camaata qatılıb onlarla birgə namaz qılmaqdan utanırdı. Onlar tam əlli gün bu halda qaldılar.

Nəhayət qırx gün keçdikdən sonra Rəsulullah ﷺ onlara xəbər göndərdi ki, həyat yoldaşlarından da uzaq dursunlar. Vəziyyət o həddə çatdı ki, Rəsulullah ﷺ onları həyat yoldaşlarından ayırdı.

Cavan olduğu halda həyat yoldaşından uzaq duran Kəbin ﷺ halını təsəvvür edirsinizmi? Həqiqətən də, ağır imtahandır. Buna rəğmən, Kəb ﷺ Rəsulullahın ﷺ, "Allahın rəsulu ﷺ sənə həyat yoldaşından uzaq durmağı əmr edir" xəbərini ona gətirən səhabədən: "Onu boşayım, yoxsa nə edim?"– deyə soruşdu. Çünki əgər Rəsulullah ﷺ: "Onu boşa!"– deyə əmr etsəydi, Allaha və Rəsuluna ﷺ itaət edərək, heç tərəddüd etmədən onu boşayardı. Lakin Rəsulullahın ﷺ elçisi ona: "Sənə həyat yoldaşından uzaq durmağı əmr etdi"– deyib, bu əmrin nə mənasına, nə də ləfzinə heç bir şey əlavə etmədi, yəni, Rəsulullahın ﷺ sözünü dəyişmədən, necə var elə də təkrar etdi. Bu, səhabənin ədəbidir. Nə: "Güman edirəm ki, onu boşamanı qəsd etdi"– dedi, nə də: "Güman edirəm ki, boşamanı qəsd etmədi"– dedi, əksinə, heç bir izah vermədi. Sadəcə: "Peyğəmbər ﷺ belə dedi."– deyə Kəbə xəbər verdi. Kəb ﷺ də həyat yoldaşına: "Valideynlərinin yanına get!"– dedi, o da getdi.

Kəb ﷺ davam edib deyir ki: "O iki dostuma gəlincə, onlar evlərində oturub acizanə boyun əyərək ağlayırdılar." İnsanlar onlardan əlaqəni kəsdiklərinə, onlara tərəf baxmadıqlarına, onlara salam vermədiklərinə və onların salamını almadıqlarına görə onlar bazara çıxa bilmirdilər. Bu acınacaqlı hala dözmədiklərinə görə evlərində oturub ağlayırdılar.

Kəb ﷺ deyir ki: "Mən isə daha gənc və daha güclü idim." Çünki yaşca o üç nəfərin ən kiçiyi idi. O, camaat namazına qatılır, Mədinə ba-

zarlarında gəzib dolaşır, lakin heç kəs onunla danışmırdı. Çünki Peyğəmbər ﷺ səhabələrə o üç nəfəri tərk etməyi əmr etmişdi. Səhabələr də Peyğəmbərə ﷺ itaətdə ən nümunəvi insanlar idilər.

Kəb رضي الله عنه deyir ki: "Mən məscidə gəlib namaz qılır, namazdan sonra Rəsulullah ﷺ səhabələrilə oturarkən onun yanına gəlib salam verir və öz-özümə deyirdim: "Görəsən mənim salamımı almaq üçün dodaqlarını tərpətdimi, yoxsa tərpətmədimi?" Yəni salamımı aldığını eşitmirdim." Peyğəmbər ﷺ insanların ən gözəl əxlaqlısı olmasına rəğmən ona vəhy edilmiş əmrə tabe olaraq belə davranırdı.

Kəb رضي الله عنه deyir ki: "Mən ona yaxın bir yerdə namaz qılır və oğrun-oğrun ona baxırdım." Yəni, mən namaz qılanda hərdən ona nəzər salırdım və görürdün ki, "Mən namaz qılanda o mənə baxır, mən ona tərəf baxdıqda isə o məndən üz çevirir." Bütün bunları o, məndən əlaqəni kəsdiyinə görə edirdi.

Kəb رضي الله عنه davam edib deyir: "Müsəlmanların mənə olan soyuq münasibəti uzun müddət davam etdi. Bu əsnada *bir gün* əmim oğlu və insanlar arasında xətrini çox istədiyim Əbu Qətadənin bağının hasarına çıxdım." Kəb qapıdan yox, divarı aşıb həyətə girdiyini xəbər verir. Ehtimal ki, qapı kilidli imiş. Daha doğrusunu Allah bilir.

O deyir: "Ona salam verdim, lakin vallahi ki, salamımı almadı." Bu, onun əmisi oğlu və ən çox sevdiyi insanlardan biri idi. Buna rəğmən onun salamını almadı. Adam, camaat tərəfindən tərk edilmiş olmasına, kimsənin onunla danışmamasına, ona salam verməməsinə və salamını almamasına rəğmən əmisi oğlu ona mərhəmət göstərmədi. Bütün bunlar Allaha və Rəsuluna ﷺ olan itaətdən irəli gəlirdi. Çünki səhabələr – Allah onların hamısından razı olsun! – Allah yolunda heç kəsin onları qınamasından çəkinməz və Allahın dini xüsusunda, – ən yaxınları olsa belə, – heç kəsə güzəştə getməzdilər.

Kəb رضي الله عنه ona: "Səni Allaha and verirəm, məgər bilmirsən ki, mən Allahı və Onun rəsulunu ﷺ sevirəm?!"– dedi. O cavab vermədi. Kəb رضي الله عنه yenə soruşdu: "Səni Allaha and verirəm, məgər bilmirsən ki, mən Allahı və Onun rəsulunu ﷺ sevirəm?!" O yenə cavab vermədi. Adam iki dəfə Allaha and verib ondan "Allahı və rəsulunu ﷺ sevdiyimi bilirsənmi?"- deyə soruşur. Halbuki Əbu Qətadə رضي الله عنه onun Allahı və Rəsu-

lunu ﷺ çox sevdiyini bilirdi. Nəhayət, üçüncü dəfə ona: "Səni Allaha and verirəm, məgər bilmirsən ki, mən Allahı və Onun rəsulunu ﷺ sevirəm?!" deyəndə, Əbu Qətadə ona nə "hə", nə də "yox" dedi, sadəcə: "Allah və Onun rəsulu ﷺ daha yaxşı bilir!"– deyə cavab verdi. Əslində bu, verilən suala cavab deyildi.

Kəb ﷺ deyir ki: "Onda gözlərim yaşla doldu." Onun ağlamasının səbəbi, ən çox sevdiyi insanlardan olan əmisi oğlunun bu əzəmətli anddan sonra onu danışdırmaması idi. Əslində bu and vermə məsələsi ibadətə aid olan bir məsələdir. Çünki onun: "Səni Allaha and verirəm, məgər bilmirsən ki, mən Allahı və Onun rəsulunu ﷺ sevirəm?!"– sözü *Əbu Qətadədən ona* şahidlik etməsini tələb etməkdir. Buna rəğmən, Əbu Qətadə ﷺ onun Allahı və Rəsulunu ﷺ sevdiyini bildiyi halda yenə ona şahidlik etməmişdir. Elə ona görə də onun gözləri yaşla doldu.

Kəb ﷺ davam edib deyir: "Bir gün mən Mədinə bazarında gəzib dolaşarkən, satmağa ərzaq gətirən Şam əhlindən olan bir nəbətiy[1] (kəndli): "Kim mənə Kəb ibn Malikin yerini göstərər?"– deyə soruşdu." Baxın, şər əhli daim fürsət axtarır. Kəb ﷺ deyir ki, o adam mənim barəmdə soruşduqda: "Kəb mənəm"– dedim. O yaxınlaşıb mənə bir məktub verdi. Mən yazıb-oxumağı bilirdim." Çünki o vaxt yazıb-oxumağı bacaran adamlar az idi. "Məktubu oxuyub gördüm ki, yazılıb: "Sonrasına gəlincə... Həqiqətən, bizə xəbər çatıb ki, dostun (yəni Rəsulullah ﷺ) səndən üz döndərib." Bu, kafir Ğassan hökmdarının sözləri idi. "Allah sənin təhqir olunduğun və haqsızlığa məruz qaldığın bir yerdə yaşamana razı olmaz, gəl qoşul bizə, sənə layiqincə hörmət edək." Yəni, sənə mal, mülk və vəzifə verək.

Lakin Kəb ﷺ Allaha və Rəsuluna ﷺ iman gətirmiş, Allahı və Rəsulunu ﷺ sevən bir adam idi. O, məktubu oxuduqdan sonra: "Bu da bir sınaqdır"– dedi. Bəli, doğru söyləyirdi. Əgər ən yaxınları tərəfindən belə tərk edilən, tənha qalan və hər kəsdən sərt münasibət görən bu adamın qəlbindəki imanında azacıq belə zəiflik olsaydı, kralın məktubu ilə ayağına qədər gəlmiş bu fürsətdən istifadə edər və onun yanına gedərdi. Lakin onun sabit imanı vardı. Odur ki, məktubu təndirə atıb yandır-

---

[1] Nəbətiy: ərəb ya da əcəm olmayıb çöllərdə su çıxartmaqla məşğul olan adamlara deyilir.

dı. Belə etdi ki, məktub yanında olduğu halda nəfsi ona kralın yanına getmək üçün vəsvəsə verməsin. Nəfsini boğmaq və əlində kralın yanına getmək üçün bir məktub saxlamamaq üçün onu yandırdı. Hədisin bu hissəsindən çıxan faydalar bunlardır:

Birincisi budur ki, adam camaat tərəfindən tərk edilib tənha qaldıqda və bu yükü daşımaq iqtidarında olmadıqda, camaat namazına getməyə bilər. Necə ki, Kəb ibn Malikin ﵁ iki dostu evdə oturub camaat namazına getmirdilər. Çünki bu, həqiqətən də, çox ağır və sıxıntılı bir haldır. Təsəvvür edin, adam məscidə gəlir, lakin heç kəs ona salam vermir, heç kəs onun salamını almır və hamı onunla əlaqəni kəsir. Buna dözmək çox çətindir. Odur ki, alimlər bu halı camaat namazına getməmək üçün üzr hesab etmişlər.

İkinci fayda səhabələrin Peyğəmbərin ﷺ əmrinə möhkəm sarılmalarıdır. Əbu Qətadə ﵁ ilə Kəb ibn Malik ﵁ arasında baş verənlər buna dəlildir.

Üçüncüsü, insan, onun sıxıntı anından istifadə edib onu həlaka və zəlalətə sürükləmək istəyən şər əhlinə qarşı ayıq olmalıdır. Belə ki, Ğassan kralı, Kəb ibn Malikin ﵁ sıxıntılı halından istifadə edib onu dinindən sapdıraraq və öz tərəfinə çəkmək istəmişdir.

Dördüncüsü, Kəb ibn Malikin ﵁ Allahın dinində sabit qalması, onun ixlaslı möminlərdən olması və Allahın barələrində: **"İnsanlar arasında: "Allaha iman gətirdik!"– deyənləri də var. Amma Allah yolunda əziyyətə məruz qaldıqda insanların fitnəsini Allahın əzabı ilə eyni tuturlar."**[1] – dediyi kimsələrdən olmamasıdır. Bəzi insanlar: "Allaha iman etdik"– deyir, lakin imanları zəif olur; Allah yolunda azacıq əziyyətə məruz qaldıqda – Allah qorusun! – dindən dönür, günah işlər görür və Allaha itaət etmirlər.

Kəb ibn Malik ﵁ Allah yolunda necə böyük əziyyətlərə məruz qaldı, lakin o, səbir etdi, bu imtahanın savabını Allahdan umdu və bu sıxıntıdan qurtulmağı gözlədi. Axırda Allah ona və onun iki dostuna, onlardan əvvəl heç kəsə nəsib etmədiyi bir qurtuluş nəsib etdi. Onları tərif edən, Qiyamət gününədək oxunacaq ayələr nazil etdi. Biz bu gün bu ayələri Quranda, namazlarımızda oxuyuruq. Bu da böyük bir fəzi-

[1] əl-Ənkəbut, 10.

lətdir. Onların qissələri Qiyamət gününədək bu şəkildə namazlarda – beş vaxt namazda, nafilə namazlarında, səsli və səssiz qılınan namazlarda oxunacaqdır.

Beşinci fayda budur ki, insan, onu doğru yoldan azdıracaq və ya azdırma qorxusu olan bir fitnə gördüyü zaman onu aradan qaldırmalıdır. Belə ki, Kəb رضي الله عنه sonradan o kralın yanına getməyə meyl edəcəyindən və o məktubdan da bir vəsiqə kimi istifadə edəcəyindən qorxduğu üçün onu təndirə atıb yandırmışdır.

Davud peyğəmbərin عليه السلام oğlu Süleyman peyğəmbərin عليه السلام başına gəlmiş hadisə də buna bənzəyir. O zaman, bir axşam çağı ona *üç ayağı üstündə durub bir ayağının* dırnağını yerə vuran, qaçağan atlar göstərildikdə, gün batanadək başı onlara qarışdı və əsr namazını buraxdı. Bu atlar onu Allahı anmaqdan – əsr namazından yayındırdığına görə o, özü özündən intiqam almaq üçün həmin atları gətizdirdi və onların boyunlarını və ayaqlarını qılıncla vurmağa başladı. Bu xüsusda uca Allah buyurur: **“*Süleyman* dedi: “Mən, *günəş* üfüqdə batanadək nemətə olan məhəbbəti Rəbbimi zikr etməkdən üstün tutdum –** ***atlar məni əsr namazından yayındırdı.” Süleyman*****: “Onları yanıma qaytarın!”– dedi, sonra da, o atların qıçlarını və boyunlarını *qılıncla* vurmağa başladı.”**[1]

Xülasə budur ki, əgər səni Allahı zikr etməkdən yayındıran malın mülkün varsa istənilən vasitə ilə onu özündən uzaqlaşdır ki, o səni Allahı zikr etməkdən yayındırmasın. Əlbəttə ki, insanı Allahı zikr etməkdən yayındıran hər bir şey onun ziyanınadır. Bu xüsusda uca Allah buyurur: **“Ey iman gətirənlər! Nə mallarınız, nə də övladlarınız sizi Allahın zikrindən yayındırmasın! Bunu edənlər ziyana uğrayanlardır.”**[2]

Kəb رضي الله عنه davam edib deyir ki: “Qırx gün keçmişdi, amma vəhy hələ də nazil olmamışdı.” Bu cür böyük və əzəmətli məsələlərdə vəhyin bir müddət nazil olmaması Allahın hikmətindəndir. Necə ki, bu hadisədə, habelə, ifk[3] hadisəsində bəlli bir müddət Peyğəmbərə ﷺ vəhy nazil ol-

---

[1] Sad, 32-33.

[2] əl-Munafiqun, 9.

[3] Bu, münafiqlərin Peyğəmbərin ﷺ zövcəsi və möminlərin anası Aişəyə رضي الله عنها böhtan atdıqları məşhur hadisədir.

mamışdır. Bu, Allahın hikmətindəndir ki, insanlar Onun hadisə ilə bağlı nazil edəcəyi vəhyi səbirsizliklə gözləsinlər. Düşünsünlər ki, görəsən aləmlərin Rəbbi hansı vəhyi nazil edəcəkdir.

Beləcə qırx gün vəhy nazil olmadı. Qırx gün tamamlandıqdan sonra Peyğəmbər ﷺ Kəb رضي الله عنه və onun iki dostu – Hilal ibn Umeyyəyə رضي الله عنه və Murara ibn Rəbiyə رضي الله عنه xəbər göndərdi ki, həyat yoldaşlarına yaxınlaşmasınlar. Hilal ibn Umeyyənin رضي الله عنه zövcəsi, Rəsulullahın ﷺ yanına gəlib Hilalın رضي الله عنه xidmətçisinin olmadığını və buna görə onun xidmətə ehtiyacı olduğunu bildirdi. Rəsulullah ﷺ o qadına, ərinin onunla yaxınlıq etməməsi şərtilə ona xidmət etməsinə izn verdi. Qadın dedi: "Vallahi, onsuz da onun heç hərəkət etməyə taqəti qalmayıb." Yəni onun qadınla yaxınlıq etməyə halı yoxdur. Çünki Peyğəmbər ﷺ onların tərk olunmasını əmr etdiyi gündən bu günədək, sonunun necə olacağını bilmədiyindən dolayı qırx gün idi ki, elə hey ağlayırmış.

Kəb رضي الله عنه davam edib deyir ki: "*Bundan sonra on gün keçdi və* əllinci gecənin səhəri evimizin damında sübh namazını qılıb uca Allahın *Quranda*[1] bizi vəsf etdiyi kimi – ürəyim təngə gəlib sıxılmış və gen dünya mənə dar gəlmiş halda[2] oturmuşdum ki, birdən Səl[3] dağına çıxmış bir adamın uca səslə: "Ey Kəb ibn Malik, sevin!"– deyə çağırdığını eşitdim. Mən dərhal səcdəyə qapandım və artıq qurtuluşun gəldiyini anladım."

Peyğəmbərin ﷺ məscidindən də bir nəfər atını minib onu müjdələməyə gəlirdi. Bəzi müjdəçilər də, Hilal ibn Umeyyənin رضي الله عنه və Murara ibn Rəbiyənin رضي الله عنه yanına getdilər ki, onları da Allahın onların tövbəsini qəbul etdiyi münasibəti ilə müjdələsinlər. Müsəlmanların bir-birilərinin halına sevinmələrinə bir baxın! Hər kəs bir yandan müjdə verməyə tələsir.

Kəb رضي الله عنه deyir ki, həm Səl dağının üstündən səslənərək məni müjdələyən adam, həm də atını çaparaq məni müjdələməyə gələn adam – hər ikisi mənim yanıma gəldi. Əlbəttə ki, muştuluq səslənən adama çat-

---

[1] ət-Tovbə, 118.

[2] Onlar məscidə getdikdə heç kim onları danışdırmırdı, salam verdikdə heç kim onların salamını almırdı, kimsə onların yanından keçdikdə onlara salam vermirdi və beləliklə gen dünya onlara dar gəlmişdi.

[3] Mədinədə tanınmış bir dağın adıdır.

malı idi. Çünki səs atdan daha sürətli idi. Odur ki, əynimdəki iki libasımı – izarımı və ridamı çıxardıb muştuluq olaraq ona verdim." Həmin an o, hər şeyini o müjdəçiyə verdi. Çünki Allahın, onların tövbəsini qəbul etməsi və bu xüsusda ayə endirməsi böyük bir müjdə idi. Həmin gün onun o iki libasdan başqa libası yox idi. Odur ki, yaxınlarından və ya qonşularından birindən borca iki libas götürüb geydi və Rəsulullahın ﷺ yanına getdi. Gedəndə gördü ki, artıq Rəsulullah ﷺ sübh namazından sonra, Allahın o üç nəfərin tövbəsi barədə nazil etdiyi ayələrlə insanları müjdələmişdir. Çünki Rəsulullah ﷺ səhabələrinin və ümmətinin Allaha tövbə etmələrini və Ona üz tutmalarını çox istəyər və buna sevinərdi.

Kəb رضي الله عنه deyir ki, mən Rəsulullahın ﷺ yanına getdikdə, səhabələr dəstə-dəstə məni qarşılayıb Allahın tövbəmi qəbul etməsi münasibətilə məni təbrik edirdilər." Yəni camaat şəklində yaxınlaşıb Allahın onun tövbəsini qəbul etməsi münasibətilə onu təbrik edirdilər. Həqiqətən də, səhabələr özləri üçün istədiklərini qardaşları üçün də istəyən kimsələr idi. Uca Allah onların tövbəsini qəbul etməsi barədə nazil etdiyi ayələrə görə səhabələrdən kimsə onlara həsəd aparmadı. Əksinə, onları müjdələdilər və təbrik etdilər. Nəhayət, Kəb رضي الله عنه məscidə daxil oldu. Hədisin bu bölümündən çıxan faydalar bunlardır:

Birincisi, Peyğəmbərin ﷺ sərt şəkildə o üç nəfərdən əlaqəni kəsməsidir. Hətta onlara həyat yoldaşlarından uzaq durmağı da əmr etmişdir. Kişini həyat yoldaşından ayırmaq isə ağır məsələdir.

İkincisi, adamın öz zövcəsinə: "Valideynlərinin yanına get, onların yanında qal!"– deməsi, talaq sayılmır. Çünki Kəb ibn Malik رضي الله عنه "Valideynlərinin yanına get" sözü ilə talaq vermə arasında fərq qoydu. Demək, adam öz zövcəsinə "Valideynlərinin yanına get" desə, lakin onu boşamaq niyyətində olmasa, onu boşamış sayılmaz. Yox əgər bu və ya buna bənzər sözlə boşamağı niyyət edərsə, o halda artıq qadın boşanmış sayılar. Çünki Peyğəmbər ﷺ demişdir: **"Əməllər niyyətlərə görədir. Hər kəsə yalnız niyyət etdiyi şey qalacaq..."**[1]

Üçüncüsü, səhabələrin Peyğəmbərin ﷺ əmrlərini can-başla yerinə yetirmələridir. Belə ki, Kəb Peyğəmbərin ﷺ əmrini yerinə yetirməyə

---

[1] Səhih əl-Buxari, 1; Səhih Muslim, 1907.

tərəddüd etməmişdir. O: “Gedim Peyğəmbərdən ﷺ xahiş edim, bəlkə mənə izin verdi”, yaxud bu xəbəri gətirən səhabəyə: “Get, Peyğəmbərə ﷺ xahiş elə, bəlkə mənə izin verdi”– deməmiş, əksinə, əmri dərhal yerinə yetirmişdir.

Dördüncü, Peyğəmbərin ﷺ öz ümmətinə qarşı mərhəmətli olmasıdır. Belə ki, o, bu üç səhabəyə öz zövcələrindən uzaq durmağı əmr etdikdən sonra, Hilal ibn Umeyyənin رضي الله عنه zövcəsinə ərinin yanında qalmasına rüsxət vermişdir. Çünki həmin vaxt Hilal رضي الله عنه, həyat yoldaşının ona xidmət etməsinə möhtac idi.

Beşincisi, bir məsələ ilə bağlı fitva soruşduqda, yaxud şahidlik etdikdə və ya başqa bu kimi hallarda bir adam haqqında, – o istəməsə də, – bəzi bilgilər vermək caizdir. Belə ki, Hilal ibn Umeyyənin رضي الله عنه zövcəsi ərinin onunla yaxınlıq etmək istəyinin olmadığını bildirmişdir.

Altıncısı, əgər adamın başına belə bir hadisə gəlmiş və insanlar ondan əlaqəni kəsmiş, üstəlik, onların arasında olmaq ona əziyyət verir və o, buna tab gətirə bilmirsə, bu halda o, camaat namazına getməyə bilər. Bu onun üçün üzr sayılır. Çünki əgər o belə halda məscidə getsə, qəlbi narahat olacaq və namazını rahat şəkildə qıla bilməyəcək. Necə ki, Kəb ibn Malik رضي الله عنه sübh namazını evinin damında qılmışdır. Bu fayda haqda bir qədər əvvəl, Hilal ibn Umeyyənin رضي الله عنه və Murara ibn Rabiyənin رضي الله عنه məscidə gəlməmələri qissəsində danışmışıq.

Yeddincisi, səhabələrin müjdə vermək üçün bir-biriləri ilə yarışmağa belə həris olmalarıdır. Belə ki, müjdə, müsəlmana sevinc bəxş edən bir xəbərdir. Müsəlmanı sevindirmək isə Allaha yaxınlaşdıran ibadətlərdən biridir. Çünki bu bir yaxşılıqdır, Allah da yaxşı iş görənləri sevir və onların savablarını puç etmir. Odur ki, müsəlman qardaşını sevindirəcək bir şey gördüyün zaman, onu sevindirəcək bir xəbər eşitdikdə, yaxud ona aid gözəl bir yuxu gördükdə və ya başqa bu kimi hallarda onu müjdələyin. Çünki belə etdiyin halda onu sevindirmiş olarsan.

Səkkizincisi, müjdəni gətirən adama bu müjdəyə görə hədiyyə vermək gərəkdir. Belə ki, Kəb ibn Malik رضي الله عنه bu müjdəni ona gətirən adama öz libasını hədiyyə etmişdir. Buna aid bir misal da, Abdullah ibn Abbasın رضي الله عنهما hərəkətidir. Belə ki, İbn Abbas رضي الله عنهما həcc ziyarətinə gedənlərə təməttu həccini yerinə yetirməyi tövsiyə edər, yəni ihrama ümrə

niyyəti ilə girmələrini, ümrəni bitirdikdən sonra ihramdan çıxmalarını, sonra həcc üçün təkrar ihrama girmələrini tövsiyə edərdi. Lakin Ömər ibn əl-Xattab ﷺ təməttu həccini məsləhət görməzdi. Çünki o, zəvvarların ayrıca bir vaxtda ümrə və ayrıca həcc ziyarətlərini yerinə yetirmələrini, beləliklə də, Kəbənin ətrafının davamlı şəkildə həcc və ümrə ziyarətçiləri ilə dolu olmasını istəyirdi. Bu, sadəcə onun ictihadıdır və o, bu ictihada görə savab qazanır. Yoxsa ki, Peyğəmbərin ﷺ sünnəsini yerinə yetirmək daha münasibdir.

Xülasə budur ki, bir gün bir nəfər bu məsələ ilə bağlı Abdullah ibn Abbasa ﷺ müraciət etdi. İbn Abbas ﷺ ona təməttu həccini yerinə yetirməyi – əvvəlcə ümrə ziyarətini yerinə yetirməyi, sonra ihramdan çıxmağı, daha sonra da yenidən həcc niyyəti ilə ihrama girməyi tövsiyə etdi. Sonra həmin adam yuxuda bir nəfərin ona: "Sənin həcc və ümrə ziyarətin Allah tərəfindən qəbul edilmişdir"– dediyini gördü. Adam gəlib ona bu fitvanı verən İbn Abbasa ﷺ yuxusunu danışdı. İbn Abbas ﷺ buna çox sevindi və həmin adama: "Gözlə, gəlirəm"– dedi, sonra da, gedib evdən bir şey götürdü və həmin şeyi yuxu ilə onu müjdələyən o adama hədiyyə verdi. Çünki bu yuxu İbn Abbasın ﷺ verdiyi fətvasının doğru olduğuna dəlalət edirdi. Xülasə budur ki, sizə müjdə verən adam üçün ən azından dua edin. Muştuluq olaraq az da olsa ona bir şey hədiyyə edin. Təbii ki, gücünüz yetdiyi qədər verin.

Kəb ﷺ davam edib deyir: "Nəhayət, məscidə daxil oldum və gördüm ki, Rəsulullah ﷺ oturub, camaat da onun ətrafına toplaşıb. *Elə bu vaxt* Talhə ibn Ubeydullah ayağa qalxıb qaçaraq yanıma gəldi və əlimi sıxıb məni təbrik etdi. Vallahi ki, mühacirlərdən ondan başqa heç kəs ayağa qalxmadı." Kəb ﷺ Talhənin ﷺ bu yaxşılığını heç vaxt unutmadı. Çünki Talhə ﷺ qalxıb onu qarşılamış, əlini sıxmış və onu təbrik etmişdi.

Kəb ﷺ gəlib Rəsulullahın ﷺ önündə durdu. Rəsulullahın ﷺ üzü sevincdən parıldayırdı. Çünki Allah o üç nəfərin – Allaha və Onun Rəsuluna ﷺ doğru söyləmiş o kişilərin tövbəsini qəbul etmiş və onların imanlarında səmimi olduqlarını xəbər vermişdi. O kişilər ki, insanlar əlli gün onlardan əlaqəni kəsmiş, hətta qırxıncı gün onlara zövcələrindən uzaq durmaq əmr edilmiş və böyük bir sıxıntı keçirmişdilər.

Rəsulullah ﷺ Kəbi رضي الله عنه görəndə dedi: "Anan səni dünyaya gətirdiyi gündən bəri sənin üçün ən xeyirli olan bu günün səadətilə sevin!" Rəsulullah ﷺ həqiqətən də, doğru söyləmişdir. Həmin gün onlar üçün ən xeyirli gün idi. Çünki o gün, uca Allah o üç nəfərin tövbəsini qəbul etdiyini Öz kəlamı ilə bildirmiş və bu barədə Quranda oxunacaq ayələr nazil etmişdir. Habelə bu əhvalatı Muhəmmədə ﷺ Cəbrail عليه السلام vasitəsilə nazil etdiyi, Qiyamətədək qorunacaq və oxunacaq ayələrlə xəbər vermiş, daim oxunan müqəddəs Kitabında onlardan bəhs etmişdir. O üç səhabədən başqa, – Allahın Quranda zikr etdiyi peyğəmbərlər və başqa kişilər istisna olmaqla, – hekayələri əbədiləşdirilmiş başqa bir kimsə yoxdur. Bu, Allahın Kitabından bir ayə olaraq mehrablarda, minbərlərdə və başqa yerlərdə oxunan bir hekayədir. Onu oxuyan hər kəs hər bir hərfə görə on savab qazanır. Bu ayələrin nazil olduğu gün, əlbəttə ki, Kəb رضي الله عنه üçün anasının onu dünyaya gətirdiyi gündən bəri ən xeyirli gün sayılır.

Kəb رضي الله عنه deyir ki, mən ondan: "Ya Rəsulullah, bu müjdə sənin tərəfindəndir, yoxsa Allah tərəfindən?"– deyə soruşdum. O: "Xeyr, Allah tərəfindəndir"– deyə cavab verdi." Bu tövbənin Allah tərəfindən olması onlar üçün daha şərəfli, daha üstün və daha böyük hadisə idi.

Kəb رضي الله عنه dedi: "Mən onun qarşısında oturduqda dedim: "Ya Rəsulullah! Tövbəmin qəbul olunduğuna görə malımdan Allah və Onun rəsulu ﷺ üçün sədəqə verəcəyəm." Yəni malının hamısını Rəsulullaha ﷺ vermək istəyirdi ki, o, bu malı istədiyi kimi paylasın. Lakin Rəsulullah ﷺ ona: "Malının bir hissəsini özünə saxla. Bu sənin üçün daha xeyirlidir"– deyə buyurdu. Kəb رضي الله عنه də onun buyurduğu kimi etdi. Hədisin bu hissəsindən çıxan faydalar bunlardır:

Birincisi, bir kimsəni sevindirəcək dini və dünyəvi bir xəbər olduqda onu müjdələmək və təbrik etmək sünnəyə aiddir. Necə ki, mələklər İbrahimi عليه السلام: **"həlim xasiyyətli bir oğlan uşağı"[1]** ilə, yəni İsmail عليه السلام ilə və: **"elmli bir oğlan uşağı"[2]** ilə, yəni İshaq عليه السلام ilə müjdələmişdilər.

İkincisi, bir adamın əlini sıxmaq və onu sevindirən bir xəbərdən dolayı onu təbrik etmək üçün ayağa qalxmaq caizdir. Burada ayağa qal-

[1] əs-Saffat, 101.
[2] əz-Zariyat, 28.

xıb gələn adama tərəf getməklə və ya ayağa qalxıb yerində durmaqda heç bir fərq yoxdur. Əgər insanlar bunu adət halına salmışlarsa, hər ikisini etmək caizdir. Çünki buna dair şəriətdə heç bir qadağa varid olmamışdır. Qadağa və təhzir bu məqsədlə ayağa qalxana yox, adamın zatına görə ayağa qalxmağa aiddir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Qoy insanların ayağa qalxıb qarşısında durmağını xoşlayan adam Cəhənnəmdəki yerini hazırlasın!”**[1]

Bu məsələyə dair elm əhli belə demişdir: “Ayağa qalxmaq üç qismdir:

1. Adamı qarşılamaq üçün ayağa qalxmaq;
2. Adama ehtiram göstərmək üçün ayağa qalxmaq;
3. Oturan adamın qarşısında ayağa qalxmaq.

**Birincisi,** yəni adamı qarşılamaq üçün ayağa qalxmaq caizdir. Sünnədə bu öz əksini həm əmr, həm feil, həm də təsdiq formasında tapmışdır.[2]

Bunu səhabələrinə əmr etməsinə gəlincə, Peyğəmbər ﷺ, bənu Qureyzə qəbiləsi haqqında hökm vermək üçün hakim təyin edilən Səd ibn Muaz رضي الله عنه gələrkən, onun üçün ayağa qalxmağı əmr edib: **“Qalxın böyüyünüzü qarşılayın!”**[3]– demişdir. Rəvayət edilir ki, Xəndək döyüşündə Səd ibn Muaz رضي الله عنه *qolundakı* vena damarından yaralanmışdı. *Qolda olan* vena *damarı,* insanın qolunun ortasında, bükülən yerində yerləşən *və qanı ürəyə aparan* damardır. Əgər o partlasa insan ölə bilər. Onda o, Allaha dua etmişdir ki, qureyzəlilər haqqında şad xəbəri (onların məğlub olduqlarını) eşitməyincə onun canını almasın. Belə ki, qureyzəlilər Ovs qəbiləsinin müttəfiqləri olmasına rəğmən Rəsulullaha ﷺ xəyanət edərək, Xəndək döyüşündə müşriklərin tərəfinə keçmişdilər. Bu döyüşdə yaralanan Səd رضي الله عنه: “Allahım, qureyzəlilər haqqında mənim könlümü şad etməyincə canımı alma!”– deyə dua etmişdir. Səd رضي الله عنه Peyğəmbər ﷺ üçün o qədər dəyərli bir insan idi ki, o yaralandıqdan sonra, yaxınları onu ziyarət etsinlər deyə, onun üçün Məscidin yanında

---

[1] Sunən Əbu Davud 5229; Musnəd İmam Əhməd, 4/93, 100; Səhih əl-Cami, 5957.

[2] Yəni, Peyğəmbərin ﷺ səhabələrinə belə etməyi buyurması, özünün də belə etməsi və bir də səhabələrinin etdiyini görüb bunu onlara qadağan etməməsi hədislərdə varid olmuşdur.

[3] Səhih əl-Buxari, 4121; Səhih Muslim, 1768.

kiçik bir çadır qurulmasını əmr etmişdir. Özü də onu tez-tez ziyarət edirdi.

"Qureyzəlilər *məğlub olduqdan sonra* Səd ibn Muazın *onlara dair* hökm verməsinə razılaşdılar. Onda Peyğəmbər ﷺ Sədin yanına adam göndərdi və Səd uzunqulağına minib *onun yanına* gəldi. Çünki, Sədin yarası artıq onu taqətdən salmışdı. Səd yaxınlaşdıqda Peyğəmbər ﷺ: **"Qalxın böyüyünüzü *qarşılayın*!"**– deyə buyurdu. Sonra Peyğəmbər ﷺ ona dedi: "Qureyzəlilər sənin *onlara dair* hökm verməyinə razıdırlar." Səd: "Onlar barədə verdiyim hökm yerinə yetiriləcəkmi?"– deyə soruşdu. Peyğəmbər ﷺ: "Bəli!"– deyə buyurdu. Qureyzəlilər də Peyğəmbərin ﷺ dediyini təsdiqlədilər və: "Bəli! Verdiyin hökm yerinə yetiriləcəkdir."– deyə cavab verdilər. Səd Peyğəmbəri ﷺ və səhabələri işarə edərək, "Burada olanların hamısı barəsindəmi?"- deyə soruşdu. Səhabələr də: "Bəli."- deyə cavab verdilər. Səd dedi: "Qətiyyətlə hökm verirəm ki, onların döyüşçüləri edam edilsin, qadınları və uşaqları əsir alınsın, malları da qənimət olaraq götürülsün!" Peyğəmbər ﷺ buyurdu: **"Sən yeddi göy üzərində olan Allahın hökmü ilə hökm verdin!"**[1]

Peyğəmbər ﷺ onun verdiyi hökmün icra edilməsini əmr etdi; beləliklə də, onlardan yeddi yüz kişi edam edildi, qadınları və uşaqları əsir alındı, malları da qənimət olaraq götürüldü. Bu hədisin mövzumuza aid olan hissəsi, Peyğəmbərin ﷺ: **"Qalxın böyüyünüzü qarşılayın!"**– deməsidir. Bu da, Peyğəmbərin ﷺ əmrinə aid olub, birisini qarşılamaq üçün ayağa qalxmağın caiz olduğuna dəlalət edən sünnədir.

Peyğəmbərin ﷺ təqriri, yəni səhabəsinin bir adam üçün ayağa qalxdığını görüb bunu ona qadağan etməməsi isə, Kəb رضي الله عنه məscidə daxil olduqda Talhə ibn Ubeydullahın رضي الله عنه ayağa qalxıb onu qarşılaması və Peyğəmbərin رضي الله عنه də bunu görüb ona etiraz etməməsidir.

Feili sünnəyə dəlil isə Rəsulullahın ﷺ Ciranədə döyüşüdən sonra yanına gəlmiş Səqif qəbiləsinin nümayəndələrini qarşılamaq üçün ayağa qalxmasıdır.[2] Deməк adamı qarşılamaq üçün ayağa qalxmaq caizdir.

**<u>İkinci qism</u>,** bir adama ehtiram göstərmək üçün ayağa qalxmaqdır. Bu da caizdir. Xüsusilə də, əgər camaat bunu adət halına salmış və gələn

---

[1] Səhih əl-Buxari, 4121; Səhih Muslim, 1768.

[2] Səhih əl-Buxari, 2307-2308.

adam üçün ayağa qalxmayan kimsəyə pis baxırsa, belə etmək icazəlidir. Hərçənd Sünnəyə görə bunu etməmək daha yaxşıdı, lakin əgər camaat arasında bu bir adət halına salınmışdırsa, o halda ayağa qalxmaq icazəlidir.

**Üçüncü qism** isə, oturan adamın qarşısında ayağa qalxmaqdır. Yəni oturan adamın qarşısında ona təzim etmək məqsədilə durmaq. Bu cür qalxmağı və ya durmağı şəriət qadağan edir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Əcəmlər bir-birilərini təzim etmək üçün ayağa qalxdıqları kimi, siz də ayağa qalxmayın!"**[1] Hətta imam taqəti olmadığından namazı oturulu halda qılarsa, arxasında namaza duranlar, - ayaq üstə durmaq iqtidarında olsalar belə, padşahlarının qarşısında dik duran əcəmlərə oxşamamaq üçün oturulu halda namaz qılmalıdırlar.[2]

Bir adama təzim etmək məqsədilə ayağa qalxmaq qadağandır. Yalnız zəruri halda bunu edən adama günah yazılmaz. Məsələn, adam ayağa qalxmayacağına görə cəzalandırılacağından qorxsa, o halda ayağa qalxa bilər. Eyni ilə ehtiram göstəriləcək birisinə ehtiram göstərmək, yaxud düşməni zəlil və alçaq göstərmək üçün ayağa qalxmaq da, zəruri hala aiddir. Necə ki, Hudeybiyyə sülhü əsnasında, Muğira ibn Şöbə رضي الله عنه Peyğəmbəri ﷺ ucaltmaq və qureyşlilərin onun yanına göndərdikləri elçiləri zəlil və alçaq göstərmək üçün əlində qılınc Peyğəmbərin ﷺ yanında ayaq üstə durmuşdur.[3]

---

[1] Sunən Əbu Davud 5230; Musnəd İmam Əhməd, 5/253; Şeyx Albani bu hədisin isnadının "zəif", lakin mənasının "səhih" olduğunu bildirib demişdir: "Bu isnadda keçən Əbu Məzruq adlı ravi, "zəif" ravidir... Lakin hədisin mənası səhihdir. İmam Buxari "əl-Ədəb əl-Mufrad" əsərində (946) Ənəsin رضي الله عنه belə rəvayət etdiyini nəql etmişdir: "Səhabələr heç kəsi Peyğəmbəri ﷺ görmək istədikləri qədər çox görmək istəmirdilər. *Lakin buna rəğmən* onlar Peyğəmbəri ﷺ gördükdə, onun üçün ayağa qalxmazdılar. Çünki onlar Peyğəmbərin ﷺ bu əməli xoşlamadığını bilirdilər." Silsilə əl-Əhadis əd-Daifə, 346.

[2] Cabirin رضي الله عنه rəvayət etdiyi hədis buna dəlildir. O demişdir: "Bir dəfə Peyğəmbər ﷺ xəstəliyindən dolayı namazı oturulu halda qıldı. Biz də onun arxasında namaza durduq. Əbu Bəkr رضي الله عنه Peyğəmbərin ﷺ gətirdiyi təkbirləri bizə eşitdirirdi. Birdən Peyğəmbər ﷺ bizə tərəf çevrildi və bizim ayaq üstə durduğumuzu görüb işarə etdi. Biz də oturduq və namazı oturulu halda qıldıq. O salam verdikdən sonra dedi: "Bir az bundan öncə az qala fars və rumluların etdikləri kimi edəcəkdiniz. Belə ki, onların padşahları oturulu olduqları halda onlar padşahlarının qarşısında ayaq üstə dik dayanırlar. Siz belə etməyin..." Səhih Muslim, 413.

[3] Səhih əl-Buxari, 2731-2732.

Muğiranın bu hərəkəti dəlildir ki, biz müsəlmanlar həm sözdə, həm də əməldə, kafirlərə qarşı sərt olmalıyıq. Çünki uca Allah bizə belə əmr etmişdir: **"Ey Peyğəmbər! Kafirlərlə və münafiqlərlə vuruş. Onlarla sərt davran!"**[1] O, həmçinin, buyurur: **"Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər.....** ***Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir*** **ki, kafirləri qəzəbləndirsin."**[2] Yenə bir ayədə O buyurur: **"Allah yolunda möminlərə üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz"**[3]

Təəssüflər olsun ki, günümüzdə kafirləri sevindirən, onların kefinə kef qatan, hətta Allahın xoşuna getməyən, əksinə, Onu qəzəbləndirən və əzaba düçar olmalarına səbəb olacaq küfrlə dolu bayramlarında onlara qatılan "müsəlmanlarımız", dinə hörmət qoymayan kimsələr vardır.

İbn əl-Qeyyim ﷺ "Əhkam Əhl əz-Zimmə" əsərində dediyi kimi: "Aramızda elə kimsələr var ki, onların gözündə, *dinin beş quruşluq* dəyəri yoxdur. Onlar kafirlərin bayramında iştirak edir və onları təbrik edirlər."

Axı sən Allahın və sənin düşmənlərini necə sevindirə bilərsən?! Əksinə, sən onları üzəcək, qəzəbləndirəcək və son dərəcə rahatsız edəcək işlər görməlisən. Bizə belə əmr olunub. Çünki onlar həm bizim, həm də Allahın və Onun dininin, mələklərin, peyğəmbərlərin, siddiqlərin, şəhidlərin və əməlisalehlərin düşmənidirlər.

Xülasə budur ki, Muğira ibn Şöbə ﷺ Peyğəmbəri ﷺ ucaltmaq və qureyşlilərin onun yanına göndərdikləri elçiləri zəlil və alçaq göstərmək üçün əlində qılınc Peyğəmbərin ﷺ yanında ayaq üstə durmuşdu. Hətta səhabələr həmin vaxt adətən etmədikləri bir hərəkəti etdilər. Səhabələr Peyğəmbərin ﷺ ağzından çıxan tüpürcəyi ovuclarına alıb onu üzlərinə və bədənlərinə sürtməyə başladılar, halbuki onlar belə şey et-

---

[1] ət-Tovbə, 73.
[2] əl-Fəth, 29.
[3] ət-Tovbə, 120.

məzdilər. Səhabələr Peyğəmbərə ﷺ olan sevgi və ehtiramın nə dərədə böyük olduğunu Qureyş elçilərinə göstərmək üçün belə etdilər. Həm də belə etdilər ki, elçilər geri döndükdə Qureyş kafirlərinə səhabələrin öz peyğəmbərlərinə qarşı olan münasibətlərini danışsınlar. Elə buna görə də, Qureyşin elçisi *Urva* geri döndükdə müşriklərə belə dedi: "Vallahi, mən bir nümayəndə kimi çox padşahların Qeysərin, Xosrovun, Nəcaşinin və başqalarının hüzurunda olmuşam və padşahların tərəfdarlarının onlara necə təzim etdiklərini də görmüşəm. Lakin Muhəmmədin ﷺ əshabələrinin ona təzim etdikləri kimi heç bir padşaha təzim olunduğunu görməmişəm."[1] Allah onlardan razı olsun, onları zı etsin və bizə etdikləri yaxşılıqların əvəzini qat-qat versin!

Xülasə budur ki, adamın yanında ayaq üstə durmaqda məqsəd həmin adamı qorumaq və ya düşməni qəzəbləndirməkdirsə o halda bunu etmək caizdir. Yoxsa ki, bu əməl qadağan olunub.

Hədisin yuxarıda qeyd etdiyimiz hissəsindən çıxan üçüncü fayda budur ki, Allahın Öz lütfündən nemət bəxş etdiyi adamın, öz malının müəyyən hissəsini sədəqə verməsi sünnəyə müvafiq əməldir. Belə ki, Kəb رضي الله عنه, Qiyamətədək onun şərəfini xatırladacaq bu böyük hadisə baş verdikdə, Allaha olan tövbəsini daha da möhkəmlətmək üçün malının bir hissəsini sədəqə vermiş, Peyğəmbər ﷺ də bunun bəyənilən bir əməl olduğunu təsdiqləmişdir.

Allah Kəb ibn Malikin رضي الله عنه tövbəsini qəbul etdikdən sonra Kəb ibn Malik رضي الله عنه Allaha olan tövbəsini bir az da möhkəmlətmək üçün, heç vaxt yalan danışmayacağına dair söz verməsini və bu hadisədən sonra heç vaxt yalan danışmadığını bildirmişdir. Çünki Allah onu, məhz düz danışdığına görə, bu sıxıntıdan qurtarmışdır. Həqiqətən də, Kəb رضي الله عنه doğru danışmaq xüsusunda örnək göstərilirdi. Hətta uca Allah onun və onun iki dostu haqqında bu ayəni nazil etdi: **"Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun."[2]**

Uca Allah Kəb رضي الله عنه və onun iki dostunun tövbəsini qəbul etdiyini xəbər verdikdə, Peyğəmbəri ﷺ, mühacirləri və ənsarı əfv etdiyini, onların da tövbələrini qəbul etdiyini bildirmiş, bunun onlar üçün böyük

[1] Səhih əl-Buxari, 2731-2732.

[2] ət-Tovbə, 119.

bir lütf olduğunu xəbər vermiş və bu ayələri nazil etmişdir: **"Allah,** ***müsəlmanlardan*** **bəzilərinin qəlbi** ***cihaddan*** **yayınmaq üzrə olduqdan sonra, peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarın da** ***əvvəlcə*** **tövbəsini qəbul etdi, sonra da onları bağışladı."**[1]

Bu ayədə peyğəmbər deyildikdə, peyğəmbərlərin sonuncusu, Allahın rəsulu Muhəmməd ﷺ qəsd edilir. O Peyğəmbər ﷺ ki, Allah onun keçmiş və gələcək günahlarını bağışlamışdır. Mühacirlərə gəlincə, bunlar Allah və Onun rəsulu ﷺ üçün öz yurdları Məkkədən Mədinəyə hicrət etmiş, beləliklə də, həm yurdlarını tərk etmiş, həm də Peyğəmbərə ﷺ yardım etmə fədakarlıqlarını göstərmiş səhabələrdir. Onların hicrəti, həqiqətən də, Allah və Onun rəsulu ﷺ üçün olmuşdur. Demək, mühacirlər özlərində həm hicrəti, həm də Peyğəmbərə ﷺ yardım etmələrini cəm etmişlər.

Ənsara gəldikdə isə, bunlar mühacirlərdən əvvəl Mədinədə yurd salmış və onlar ora gəlməmişdən əvvəl iman gətirmiş Mədinəli müsəlmanlardır. Onlar öz yurdlarında Peyğəmbərə ﷺ sığınacaq vermiş, ona yardım etmiş, öz qadınlarını və övladlarını qoruduqları kimi onu da qorumuşlar. Uca Allahın bu ayədə mühacirləri ənsardan əvvəl zikr etməsinin səbəbi, mühacirlərin daha fəzilətli səhabələr olmasına görədir. Çünki onlar həm ənsar kimi Peyğəmbərə ﷺ kömək etmiş, həm də hicrət etmişlər.

Ayədə: **"çətin vaxtda onun ardınca gedənlər"**[2]– deyildikdə, ən isti mövsümdə, Mədinənin də ən gözəl və gün keçirmək üçün ən xoş vaxtında, Təbuk döyüşü üçün uzaq diyarlara getmək xüsusunda Peyğəmbərə ﷺ tabe olanlar nəzərdə tutulur. Həmin vaxt, havaların çox isti olduğu, meyvələrin yetişdiyi, kölgələrinin də xoş olduğu bir vaxt olmasına rəğmən onlar, belə çətin və əziyyətli bir gündə cihada çıxdılar.

Ayədə: "***müsəlmanlardan*** **bəzilərinin qəlbi** ***cihaddan*** **yayınmaq üzrə olduqdan sonra**"[3]– deyilir. Belə ki, onlardan bəzisi heç bir üzrü olmadığı halda az qala döyüşdən yayınacaq və qəlbi haqdan sapacaq-

---

[1] ət-Tovbə, 117.

[2] ət-Tovbə, 117.

[3] Əvvəlki ayə.

dı, lakin uca Allah Öz mərhəməti sayəsində onlara düz yol tutmağı müvəffəq etdi və beləliklə də, onlar Peyğəmbərlə ﷺ birlikdə bu döyüşə çıxdılar.

Ayədə uca Allah: "**sonra onların tövbəsini qəbul etdi**"[1]– deyə, onları bağışladığını bir daha vurğulayır.

**"Çünki *Allah* onlara qarşı Şəfqətlidir, Rəhmlidir."**[2] Allahın şəfqəti və rəhməti onları bürümüşdür. Şəfqət, mərhəmətdən daha incə və üstün duyğudur. Çünki şəfqət, ümumi mərhəmət və rəhmətdən daha incə və daha böyükdür.

Sonrakı ayədə: "**Geri qalmış üç nəfəri də *bağışladı*...**"[3] deyilir. Bunlar Kəb ibn Malik, Murara ibn ər-Rəbi və Hilal ibn Umeyyədir رضي الله عنهم. Bu ayədə: **"geri qalmış"** deyildikdə, cihaddan geri qalmağa deyil, barələrindəki hökmün *əlli gün* təxirə salınmasına işarə edilir. Bəli, Rəsulullah ﷺ onları sonraya saxlamışdır ki, gözləsin görsün uca Allah onların barəsində nə hökm verəcək.

**"Yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmişdi..."**[4] Ərəbcə "rahb" "genişlik" deməkdir. Kəb ibn Malik رضي الله عنه camaatın onlara qarşı soyuq münasibətinin onlara necə təsir etdiyini izah edərkən belə demişdir: "İş o yerə gəlib çatdı ki, bu yerlər mənim üçün qəribləşdi, hətta mən öz-özümə deyirdim: "Görəsən mən Mədinədəyəm, yoxsa başqa bir yerdə."

**"Ürəkləri *kədərdən* sıxılmış..."**[5] İnsanın ürəyi sıxıldıqda az qalır ki, nəfəsi kəsilsin. Lakin bu üç səhabə, Allah onları o sıxıntıdan qurtaranadək səbir etmişdir.

**"Onlar güman etmişdilər ki, Allahın *qəzəbindən*, Onun Özünə sığınmaqdan başqa çarə yoxdur..."**[6] Burada: "güman etmək" feili yəqin etmək mənasında işlənir. Yəni onlar heç kəsin onlara fayda verə bilməyəcəyini, hər şeyin ixtiyarının Allahın əlində olduğunu, üstəlik, Ona sığınmaqdan başqa çarələri qalmadığını yəqin etmişdilər.

---

1 Əvvəlki ayə.
2 Əvvəlki ayə.
3 ət-Tovbə, 118.
4 Əvvəlki ayə.
5 Əvvəlki ayə.
6 Əvvəlki ayə.

**"Sonra *Allah* peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir."[1]** Yəni yalnız Allahın müvəffəq etdiyi və Allahı sevən insanların nail ola biləcəyi, tövbənin *ən yüksək* mərtəbəsinə nail olsunlar deyə Allah onların tövbəsini qəbul etdi. Necə ki uca Allah buyurur: **"Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da."[2]**

Rəsulullahın ﷺ yanına gəlib cürbəcür bəhanələr gətirən münafiqlərə gəlincə, – o münafiqlər ki, Rəsulullah ﷺ *Allahdan* onlar üçün bağışlanma diləmiş, qəlblərində gizlətdiklərini isə Allaha həvalə etmişdi, – uca Allah onlar haqqında, insalar haqqında nazil etdiyi ən dəhşətli ayəni nazil etdi. Uca Allah onlar haqqında belə buyurur: **"Yanlarına qayıtdığınız zaman onlardan əl çəkəsiniz deyə qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz çevirin..."[3]** Yəni onları qınamayın. **"Çünki onlar murdardırlar..."[4]** Allah qorusun bizi! Murdardırlar: yəni onlar, içki, insanın arxa ifrazat çıxışından çıxan nəcis, yaxud uzunqulağın peyini kimi murdardırlar.[5] **"Qazandıqları *günahların* cəzası olaraq gedəcəkləri yer Cəhənnəm olacaqdır."[6]** Ora necə də pis yerdir! Allah qorusun! Onlar dünyadan Cəhənnəmə köçəcəklər. Allah bizi qorusun! Bu, Allahın yandırıb-yaxan odudur. ***"O Od* ki, *qalxıb* ürəklərə çatacaq. Bu od onların üzərində qapanacaq. *Özləri də orada* yüksək dirəklərə *bağlanmış olacaqlar."*[7]**

**"Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq adamlardan razı qalmaz."[8]** Siz onların qəlblərində gizlətdiklərini bilmirsiniz. Siz onların yalnız zahirdə etdiklərini görürsünüz. Biləsən ki, insanların hamısı səndən razı qalsa belə, Allah səndən razı qalmayınca etdiyin əməlin sənə heç bir faydası olmaz.

---

[1] Əvvəlki ayə.

[2] əl-Bəqərə, 222.

[3] ət-Tovbə, 95.

[4] Əvvəlki ayə.

[5] Burada söhbət mənəvi murdarlıqdan gedir. "Məcmuə Fətavə və Rəsail, Muhəmməd ibn Saleh əl-Useymin", 11/250-251.

[6] ət-Tovbə, 95.

[7] əl-Huməzə, 7-9.

[8] ət-Tovbə, 96.

Yox, əgər Allah səndən razı qalarsa, elə edər ki, insanlar da səndən razı qalar və sənə rəğbət bəsləyərlər. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah bir qulunu sevdiyi zaman Cəbrailə: "Mən filankəsi sevirəm, sən də onu sev!"– deyə buyurur. Cəbrail də həmin adamı sevir. Sonra Cəbrail göy əhlinə xitab edib: "Allah filankəsi sevir, siz də onu sevin!"– deyir, göy əhli də o adamı sevir. Daha sonra yer üzündəkilər də ona rəğbət bəsləməyə başlayırlar."[1] Həmçinin, bu xüsusda uca Allah buyurur: **"İman gətirib yaxşı işlər görənlər üçün Mərhəmətli *Allah qəlblərdə* bir sevgi yaradacaq."**[2]

Lakin insan Allahın qəzəbi müqabilində insanların razılığını qazanmağa çalışarsa, bir qədər əvvəl qeyd etdiyimizin əksi olar. Onu nə Allah sevər, nə də insanlar. Muaviyə رضي الله عنه xəlifə olduqdan sonra Aişə رضي الله عنها ona belə bir məktub yazmışdır: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: **"Kim insanların xoşuna gəlməsə də, Allahı razı salacaq əməllər edərsə, Allah elə edər ki, o insanlar ondan razı qalarlar. Kim də insanların xoşuna gəlsin deyə, Allahı qəzəbə gətirəcək əməllər edərsə, Allah elə edər ki, o insanlar ona qarşı çıxarlar."**[3] Təəssüflər olsun ki, Allahın qəzəbi müqabilində insanların razılığını qazanmağa çalışan nə çox insan var! Lakin beləəri, insanlar onlardan razı qalsalar da, Allahın qəzəbi altındadırlar və insanların onlardan razı qalmalarının onlara heç bir faydası yoxdur. Baxın, uca Allah ayədə nə buyurur: **"Siz onlardan razı olsanız da, Allah fasiq adamlardan razı qalmaz."**[4] Hətta yaradılanların ən xeyirlisi sayılan Peyğəmbərimiz ﷺ onlardan razı qalmış olsa belə, bunun onlara heç bir faydası olmaz, çünki uca Allah fasiq adamlardan razı deyildir.

Bu ayə insanı fasiqlikdən çəkindirir. Fasiqlik (fisq): günah işlər görməkdir ki, bunların da ən böyüyü küfrdür. Hər bir fisq dərəcəsinə görə Allahın insana olan razılığını azaldır. Çünki müəyyən bir vəsfə bağlı olan bir hökmün dərəcəsi, vəsfin artması ilə artır, əksilməsi ilə də əksilir, eləcə də, güclənməsi ilə güclənir, zəifləməsi ilə də zəifləyir. Fasiqlik

---

[1] Səhih əl-Buxari, 3209; Səhih Muslim, 2638.

[2] Məryəm, 96.

[3] Sunən ət-Tirmizi, 2414; Silsilətul-Əhadisis-Səhihə, 2311.

[4] ət-Tovbə, 96.

də Allahın insandan razı olmamasına səbəbdir və onun çoxlu növləri, müxtəlif dərəcələri vardır. Məsələn, ata-anaya asi olmaq, qohumluq əlaqələrini kəsmək, insanlara kələk gəlmək, əhdi pozmaq, yalan danışmaq – bunların hər biri fasiqlikdir. Deməkk, hər bir günah fasiqlik sayılır. Lakin qeyd etmək lazımdır ki, kiçik günahları saleh əməllər silib aparır. Bu xüsusda uca Allah belə buyurur: **"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *bəlli vaxtlarda* namaz qıl və sübh çağı Quran oxu! Çünki sübh çağı oxunan Quranın şahidləri olur."**[1] Başqa bir ayədə də belə buyurur: **"Gündüzün iki başında** – *əvvəlində və axırında* **və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır."**[2] Burada ancaq kiçik günahlar qəsd edilir. Böyük günahlar isə yalnız tövbə ilə silinir.

Xülasə budur ki, fasiqlik Allahın insandan razı qalmasına mane olan, itaətkarlıq isə, əksinə, Allahın insandan razı qalmasına səbəb olan amildir. Elə isə əziz qardaşlarım, həm Allahın, həm də insanların razılığını qazanmaq istəyirsinizsə, Allahı razı salmağa çalışın. Əgər Allah sizdən razı qalsa, insanlar da sizdən razı qalacaq, yox əgər Allahın sizə qəzəbi tutarsa, insanlar da sizə nifrət edər.

Kəb رضي الله عنه davam edib deyir ki; "Peyğəmbər ﷺ Təbuk döyüşünə cümə axşamı günü çıxdı. O, cümə axşamı günü *səfərə* çıxmağı xoşlayardı." Lakin qeyd etmək lazımdır ki, o, davamlı belə etməzdi. Bəzən şənbə günü səfərə çıxardı. Necə ki, son səfəri olan vida həccinə gedərkən məhz həmin gün səfərə çıxmışdır. Bəzən də başqa günlərdə səfərə çıxardı. Lakin çox vaxt cümə axşamı günü səfərə çıxarmış.

Bu rəvayətdə Kəb رضي الله عنه Peyğəmbərin ﷺ səfərdən gündüzün əvvəlində qayıtdığını, qayıtdığı vaxt da, məscidə gəlib, iki rükət namaz qıldığını xəbər verir. Bu haqda da əvvəldə danışmışıq.

Bu iki rükət namazı hər zaman, hətta ikrah vaxtlarında belə qılmaq caizdir. Çünki bu, müəyyən səbəbə bağlı olan namazlara aiddir. Yəni o səbəb hansı vaxta təsadüf edərsə, həmin vaxtda namaz qılmaq olar.

---

[1] əl-İsra, 78.

[2] Hud, 114.

٢٢ - عَنْ أبي نُجَيْد عِمْرانَ بْنِ الحُصيْنِ الخُزاعيِّ رضي الله عنهما أَنَّ امْرأَةً مِنْ جُهينةَ أَتَت رَسُولَ الله ﷺ وَهِيَ حُبْلَى مِنَ الزِّنَا، فقالَتْ: يَا رسول الله أَصَبْتُ حَدّاً فأَقِمْهُ عَلَيَّ، فَدَعَا نَبِيُّ الله ﷺ وَلِيَّهَا فقَالَ: أَحْسِنْ إِلَيْهَا، فَإِذَا وَضَعَتْ فَأْتِنِي. فَفَعَلَ فَأَمَرَ بِهَا نَبِيُّ اللَّهِ ﷺ، فَشُدَّتْ عَلَيْهَا ثِيَابُها، ثُمَّ أَمَرَ بِهَا فرُجِمتْ، ثُمَّ صلَّى عَلَيْهَا. فَقَالَ لَهُ عُمَرُ: تُصَلِّي عَلَيْهَا يَا رَسُولَ اللَّهِ وَقَدْ زَنَتْ، قَالَ: «لَقَدْ تَابَتْ تَوْبةً لَوْ قُسِمَتْ بَيْن سبْعِينَ مِنْ أَهْلِ المدِينَةِ لوسعتهُمْ، وَهَلْ وَجَدْتَ أَفْضَلَ مِنْ أَنْ جَادَتْ بِنفْسهَا للَّهِ عَزَّ وجَل؟!» رواه مسلم.

**22.** Əbu Nuceyd İmran ibn Husayn əl-Xuzaidən (radıyallahu anhuma) rəvayət edilir ki, Cuheynə qəbiləsindən zinadan hamilə qalmış bir qadın Rəsulullahın ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, günah iş görmüşəm. Məni cəzalandır." Peyğəmbər ﷺ onun vəlisini çağırıb dedi: "Onun qeydinə qal. Uşağı dünyaya gəldikdən sonra isə onu yanıma gətir." Vəlisi deyiləni yerinə yetirdi. Nəhayət, *uşaq dünyaya gəldikdən sonra* Peyğəmbər ﷺ qadının gətirilməsini əmr etdi. Qadın gətirildikdən sonra isə onu öz paltarı ilə bağlayıb daşqalaq etdilər. Sonra Peyğəmbər ﷺ ona cənazə namazı qıldı. Ömər ona dedi: "Ya Rəsulullah, sən ona cənazə namazı qılırsan? Axı o zina edib?" Peyğəmbər ﷺ də ona belə cavab verdi: "O, elə bir tövbə etdi ki, əgər bu tövbə Mədinənin yetmiş sakini arasında bölüşdürülsəydi, hamısına yetərdi. Sən canını qüdrətli və uca Allah üçün fəda edən bu qadından daha fəzilətli insan görmüsənmi?!"

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin (rahimahullah) burada nəql etdiyi hədisdə İmran ibn Husayn (radıyallahu anhuma) rəvayət etmişdir ki, zinadan hamilə qalmış bir qadın Rəsulullahın ﷺ yanına gəlib dedi: **"Ya Rəsulullah, günah iş görmüşəm. Məni cəzalandır."** Yəni, elə bir günah iş görmüşəm ki, bunun üçün cəza vardır. Elə isə məni cəzalandır. Onda Rəsulullah ﷺ onun hamisini çağırtdırıb ona bu qadının qeydinə qalmasını və övladı dünyaya gəldikdən sonra onu

[1] Səhih Muslim, 1696.

yanına gətirməsini əmr edir. Nəhayət, o qadın övladını dünyaya gətirdikdən sonra hamisi onu Peyğəmbərin ﷺ yanına gətirir. Rəsulullah ﷺ qadının öz paltarı ilə bağlanmasını, yəni bədəninə möhkəm sarınmasını əmr edir ki, onu daşqalaq etdikdə üstü-başı açılmasın. Bundan sonra onu nə çox böyük, nə də çox kiçik – orta həcmli daşlarla ölənədək daşqalaq edirlər. Sonra Peyğəmbər ﷺ onun cənazə namazını qılır və onun üçün ölmüş *müsəlman* üçün etdiyi duanı edir. Onda Ömər ona dedi: **"Ya Rəsulullah, sən ona cənazə namazı qılırsan? Axı o zina edib?"** Yəni böyük günah işlətmiş bir adama cənazə namazı qılırsan? Peyğəmbər ﷺ də ona belə cavab verir: **"O, elə bir tövbə etdi ki, əgər bu tövbə Mədinənin yetmiş sakini arasında bölüşdürülsəydi, hamısına yetərdi."** Yəni elə səmimi tövbə etdi ki, əgər bu tövbə böyük günah işlətmiş yetmiş adamın arasında bölüşdürülsəydi, hamısına yetərdi, hamısına fayda verərdi. Peyğəmbər ﷺ davam edib deyir: **"Sən canını qüdrətli və uca Allah üçün fəda edən bu qadından daha fəzilətli insan görmüsənmi?!"** Yəni Allaha yaxınlaşmaq və bu böyük günahdan təmizlənmək üçün canını təslim edən bu qadının etdiyindən daha üstün bir əməl bilirsənmi? Bundan daha fəzilətli əməl ola bilərmi?!

Bu hədisdən bir çox faydalar çıxır ki, bunlardan da bəzisi bunlardır:

1. Zina etmiş kişi və ya qadın əgər evlidirsə, onun daşqalaq edilməsi vacibdir. Bu, Allahın Kitabında oxunan bir ayə olmuş və müəslmanlar onu oxumuş, əzbərləmiş, mənasını öyrənmiş və onun tələbini yerinə yetirmişlər. Peyğəmbər ﷺ də, onun ardından gələn xəlifələr رضي الله عنهم də zinakarı daşqalaq etmişlər. Lakin Allah Öz hikmətindən dolayı bu ayənin ləfzini nəsx etmiş, hökmünü isə bu ümmət üçün saxlamışdır. Yəni əgər evli bir kişi və ya qadın zina edərsə, ölənədək daşqalaq edilməlidir. Bu günahı edən adam geniş bir sahəyə gətirilməli, camaat isə yığışıb orta həcmli daşlarla onu ölənədək daşqalaq etməlidir.

Bu, Allahın bir hikmətidir. Yəni Allah zinakarın qılıncla öldürülərək bir anda həyatına son qoyulmasını buyurmamış, əksinə, onun daşqalaq edilərək əzab çəkməsini və haram buyurulmuş əməldən aldığı ləzzətin əvəzi olaraq bu əzabın acısını dadmasını istəmişdir. Onun bütün bədəni bu haram işdən ləzzət aldığı kimi, bədəninin hər yerinin əzab çəkməsi də Allahın hikmətindəndir. Odur ki, alimlər – Allah onlara rəh-

mət eləsin! – belə demişlər: "Zinakarı böyük daşlarla daşqalaq etmək caiz deyil. Çünki belə olduğu təqdirdə o, tez ölə bilər və beləliklə də, canı əzabdan qurtarar. Həmçinin, onu çox kiçik daşlarla da daşqalaq etmək caiz deyil. Çünki belə olduqda, bu onun əzabını həddən ziyadə artırar və canının çıxmasını ləngidər. Onu orta həcmli daşlarla daşqalaq etmək lazımdır ki, əzabı daddıqdan sonra ölsün."

Əgər birisi: "Peyğəmbər ﷺ: **"Birisini öldürdükdə, onu gözəl tərzdə öldürün. Heyvan kəsdikdə də, onu gözəl tərzdə kəsin"**[1]– deyə buyurmamışdırmı?! Elə isə edam ediləcək kimsənin qılıncla öldürülməsi, daşqalaq edilərək öldürülməsindən daha yaxşı deyilmi?"– desə, bizim ona cavabımız belə olacaq: "Bəli, Peyğəmbər ﷺ belə buyurmuşdur. Lakin edamı gözəl tərzdə yerinə yetirmək üçün onu şəriətə müvafiq tərzdə yerinə yetirmək gərəkdir. Daşqalaq da gözəl tərzdə öldürməyə aiddir, çünki şəriətə müvafiqdir. Məsələn, bir adam birisini qəsdən öldürərsə, amma öldürməmişdən öncə ona işgəncə vermiş olarsa, biz də, həmçinin, ondan qisas alarkən onu öldürməmişdən əvvəl ona işgəncə verəcəyik. Yaxud məsələn, bir adam birisini öldürməzdən əvvəl onun əlini, sonra ayağını, sonra dilini, sonra da başını kəsmişdirsə, biz onu, sadəcə başını qılıncla kəsərək rahat öldürməyəcəyik. Əksinə, onun etdiyi kimi əvvəlcə onun əlini, sonra ayağını, sonra dilini, sonra da başını kəsəcəyik. Bu da gözəl tərzdə öldürmək sayılır. Çünki öldürmək şəriətə müvafiqdirsə, – nə şəkildə olursa olsun, gözəl tərzdə öldürmək sayılır."

2. Bu hədis adamın öz günahını açmaq məqsədi ilə yox, məhz Allahın buyurduğu cəzanı çəkməklə günahdan təmizlənmək məqsədi ilə, etdiyi zinanı etiraf etməsinin caiz olduğuna dəlalət edir. O adam ki, şəriət qanununa uyğun öz cəzasını almaq üçün, müsəlmanların əmiri və ya onun müavini qarşısında zina etdiyini etiraf edir, onu nə qınamaq, nə də alçaltmaq olar. Lakin zina etdiyini camaat arasında danışan adam öz günahını açmış sayılır və o əfv edilməyən kimsələrə aiddir. Bu xüsusda Rəsulullah ﷺ demişdir: **"Ümmətin hamısı əfv edilir. Yalnız günahı aşkarda edənlərdən başqa."** Səhabələr: "Günahı aşkarda edənlər kimlərdir?"– deyə soruşduqda, o belə cavab vermişdir: **"Bu, günah iş**

---

[1] Səhih Muslim, 1955.

**görmüş, sonra da, Allah onun günahını gizlin saxladığı halda, səhər açıldıqda onu camaata danışan kimsədir."**[1]

Əgər birisi: "Zina edən adamın hakimin yanına gedib etdiyi zinanı etiraf etməsi, beləliklə də, şəriət qanununa uyğun cəzasını çəkməsini tələb etməsi yaxşıdır, yoxsa o sirri özündə saxlaması?"– desə, ona belə cavab verərik: "Əgər adam səmimi-qəlbdən tövbə edib peşman olmuşdursa və bir daha o günahı etməyəcəyinə arxayındırsa, o halda hakimin yanına gedib etdiyi günahı etiraf etməməsi, əksinə, bu işi Allahla öz arasında sirr olaraq saxlaması daha yaxşıdır. Çünki kim Allaha tövbə edərsə, Allah onun tövbəsini qəbul edər. Yox əgər adam tövbəsinin səmimi-qəlbdən olmadığından və bir daha həmin günahı edəcəyindən qorxursa, o halda əmirin, hakimin və s. yanına gedib cəzasını almaq üçün günahını etiraf etməsi daha yaxşıdır."

٢٣ - وَعَنِ ابْنِ عَبَّاس ﭬ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لَوْ أَنَّ لابْنِ آدَمَ وَادِياً مِنْ ذَهَبٍ أَحَبَّ أَنْ يَكُونَ لَهُ وادِيانِ، وَلَنْ يَمْلأَ فَاهُ إِلاَّ التُّرَابُ، وَيَتُوب اللَّهُ عَلَى مَنْ تَابَ» مُتَّفَقٌ عَلَيْهِ.

**23.** İbn Abbas ﭬ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Əgər Adəm övladının bir vadi dolusu qızılı olsa, o, iki vadi dolusu qızıl istər. Onun ağzını ancaq torpaq dolduracaqdır. Allah tövbə edənlərin tövbəsini qəbul edər."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[2]

٢٤ - وَعَنْ أبي هريرة ﭬ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «يَضْحكُ اللَّهُ سبْحَانه وتَعالَى إِلَى رَجُلَيْنِ يقْتُلُ أحدُهُمَا الآخَرَ يدْخُلاَنِ الجَنَّة، يُقَاتِلُ هَذَا في سبيلِ اللَّهِ فيُقْتل، ثُمَّ يَتُوبُ اللَّهُ عَلَى الْقَاتِلِ فَيُسْلِمُ فيُسْتَشْهَدُ» مُتَّفَقٌ عَلَيْهِ.

**24.** Əbu Hureyra ﭬ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Bütün nöqsanlardan uzaq və uca olan Allah iki nəfərə gülür. Belə ki, onlardan biri digərini öldürür, *amma axırda* ikisi də Cənnətə girir. Biri Allah yolunda vuruşur və o birisi *tərəfindən* qətlə yetirilir. Sonra Allah

[1] Səhih əl-Buxari, 6069; Səhih Muslim, 2990.
[2] Səhih əl-Buxari, 6436; Səhih Muslim, 1049.

qatilin tövbəsini qəbul edir, o islamı qəbul edir və *Allah yolunda vuruşub* şəhid olur."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Bu iki hədis tövbənin qəbul olunması haqqındadır, yəni adamın günahı nə qədər böyük olursa olsun, tövbə edərsə, Allah onun tövbəsini qəbul edər. Çünki uca Allah Kitabında belə buyurur: **"Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. Qiyamət günü onun əzabı qat-qat artırılar və onun içində zəlil olub əbədi qalar. Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir."**[2]

İbn Abbasın ﷺ rəvayət etdiyi hədisin anlamı budur ki, Adəm övladı dünya malından heç vaxt doymaz. Onun bir vadi dolusu malı olsa, iki vadi dolusu malı olmasını istər. Axırda qarnına ancaq torpaq doldurar. O zaman ki, öləcək, torpağa qoyulacaq və bu dünyadan köçəcək. Artıq o zaman qane olacaq. Çünki həmin vaxt yığdıqlarını itirəcək. Odur ki, Rəsulullah ﷺ tövbə etməyə təşviq edir. Belə ki, mal-dövlət hərisi olan adam çox vaxt haram yolla qazandığı şeylərdən uzaq durmağa çalışmır. Bunun əlacı isə tövbə etməkdir. Elə buna görə də Rəsulullah ﷺ: **"Allah tövbə edənlərin tövbəsini qəbul edər"**– demişdir. Yəni hər kim günahlarından tövbə edərsə, onun bu günahları mal-dövlətlə əlaqəli olsa belə, Allah onun tövbəsini qəbul edər.

İkinci hədisdə – Əbu Hureyranın ﷺ rəvayət etdiyi hədisdə isə Rəsulullah ﷺ: **"Allah iki nəfərə gülür..."**– demişdir. Allahın gülməsinin səbəbi budur ki, bu dünyada o iki nəfərin arasında ədavət var ikən, üstəlik, onlardan biri digərini öldürdüyü halda, Allah hər ikisinin qəlbindən ədavəti və kini silmiş, yerini isə sevgi ilə doldurmuşdur. Çünki Cənnət əhlinin qəlbində kin və nifrət olmayacaq. Bu xüsusda uca Allah belə buyurur: **"Biz onların köksündəki kin-küdurəti çıxarıb kənar et-**

---

[1] Səhih əl-Buxari, 2826; Səhih Muslim, 1890.

[2] əl-Furqan, 68-70.

**dik. Onlar taxtlar üstündə qarşı-qarşıya oturan qardaşlar olacaqlar."**[1] Allahın bu iki nəfərə təəccüb etməsinin səbəbi budur ki, onların arasında ədavət olduğu halda, Allah kafir olan bu qatilə Öz lütfü sayəsində tövbə etməyi nəsib etmiş, sonra da onun tövbəsini qəbul etmişdir. Bu da dəlildir ki, kafir adam etdiyi küfrlərdən tövbə edib *İslamı qəbul edərsə,* hətta müsəlmanlardan kimisə qətlə yetirmiş olsa belə, uca Allah onun tövbəsini qəbul edər. Çünki İslamı qəbul etdikdə, keçmiş günahların hamısı silinir.

---

[1] əl-Hicr, 47.

## Üçüncü fəsil

## Səbir

**Mövzu ilə bağlı ayələr:**

Uca Allah belə buyurur:

﴿ يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱصْبِرُوا۟ وَصَابِرُوا۟ ﴾

**“Ey iman gətirənlər! Səbir edin, *düşmən qarşısında* səbirli olun...”**[1]

﴿ وَلَنَبْلُوَنَّكُم بِشَىْءٍ مِّنَ ٱلْخَوْفِ وَٱلْجُوعِ وَنَقْصٍ مِّنَ ٱلْأَمْوَٰلِ وَٱلْأَنفُسِ وَٱلثَّمَرَٰتِ ۗ وَبَشِّرِ ٱلصَّـٰبِرِينَ ﴾

**“And olsun ki, Biz sizi bir az qorxu, *bir az* aclıq, *bir az* da mal-dövlət, insan və məhsul itkisi ilə imtahan edəcəyik. Səbir edənləri müjdələ.”**[2]

﴿ إِنَّمَا يُوَفَّى ٱلصَّـٰبِرُونَ أَجْرَهُم بِغَيْرِ حِسَابٍ ﴾

**“Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir.”**[3]

﴿ وَلَمَن صَبَرَ وَغَفَرَ إِنَّ ذَٰلِكَ لَمِنْ عَزْمِ ٱلْأُمُورِ ﴾

**“Kim səbir edib bağışlasa, şübhəsiz ki, bu, məqsədə uyğun *və bəyənilən* işlərdəndir.”**[4]

﴿ ٱسْتَعِينُوا۟ بِٱلصَّبْرِ وَٱلصَّلَوٰةِ ۚ إِنَّ ٱللَّهَ مَعَ ٱلصَّـٰبِرِينَ ﴾

**“Səbir etmək və namaz qılmaqla *Allahdan* kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir!”**[5]

﴿ وَلَنَبْلُوَنَّكُمْ حَتَّىٰ نَعْلَمَ ٱلْمُجَـٰهِدِينَ مِنكُمْ وَٱلصَّـٰبِرِينَ ﴾

---

[1] Ali-İmran, 200.
[2] əl-Bəqərə, 155.
[3] əz-Zumər, 10.
[4] əş-Şura, 43.
[5] əl-Bəqərə, 153.

**"Biz aranızdakı mücahidləri və səbir edənləri ayırd edənədək sizi mütləq sınayacağıq."**[1]

Səbir etməyin vacib buyurulması və onun fəzilətinin bəyanı haqqında çoxlu məşhur ayələr vardır.

**Şərh:**

Səbir: lüğəti mənada tutmaq, saxlamaq deməkdir. İstilahi mənada isə nəfsi, üç şeydə tutmaq, saxlamaq deməkdir. Birincisi, Allaha itaət etməkdə; ikincisi, Allahın haram buyurduqlarından çəkinməkdə; üçüncüsü də, Allahın göndərdiyi müsibətlərə qarşı təhəmmül göstərməkdə. Bunlar elm əhlinin zikr etdiyi səbrin üç növüdür. Bunları belə izah etmək olar:

**Birincisi:** İnsanın Allaha itaətdə səbir etməsidir. Belə ki, itaət və ibadət nəfsə ağır gəlir və insanı məşəqqətə salır. İbadət ola bilər ki, bədənə də ağır gəlsin. İnsan acizlikdən və ya yorğunluqdan dolayı ibadət etmək istəmir. Bəzən də ibadət insana, zəkat və həcc məsələlərində olduğu kimi, maddi tərəfdən ağır gəlir. Dolayısıyla, itaət və ibadət etmək nəfsə və bədənə ağır gəlir və elə buna görə də səbir etmək və nəfsi buna məcbur etmək lazımdır. Odur ki, uca Allah buyurur: **"Ey iman gətirənlər! Səbir edin, *düşmən qarşısında* səbirli olun."**[2]

**İkincisi:** İnsanın, Allahın haram buyurduqlarından çəkinməklə bu haramlara qarşı səbir etməsidir. Yəni, insan nəfsini Allahın haram buyurduqlarından çəkindirməlidir. Belə ki, pis nəfs insanı pis işlərə təhrik edir. İnsan isə nəfsini saxlayıb pis işlərdən – yalan, alış-verişdə kələk gəlmək, faiz və ya başqa yollarla başqalarının malını haqsız yerə yemək, zina etmək, içki içmək, oğurluq etmək və başqa bu kimi günahlardan çəkinməlidir. İnsan bu günahları etməmək üçün nəfsini saxlamalıdır. Bunun üçün də mübarizə aparmaq və nəfsin istəklərinə güc gəlmək gərəkdir.

**Üçüncüsü:** Allahın yazdığı qədərə səbir etməkdir. Belə ki, Allahın insanın qədərinə yazdıqlarının bir qismi insanın istəyinə uyğun, digər qismi isə onu incidəcək şəkildədir.

---

[1] Muhəmməd, 31.

[2] Ali-İmran, 200.

İstəyinə uyğun gələn hər bir nemətə görə şükür etməsi gərəkdir. Şükür də itaət və ibadətə aiddir. Dolayısıyla, şükür məsələsində səbir etmək, səbrin birinci qisminə aiddir.

Qədərin insana ağrı verən qismi isə onun istəklərinə uyğun gəlməyən qismidir. Belə ki, insan, canı, yaxud malı – var-dövlətini itirmək, yaxud ailəsi, yaxud yaşadığı cəmiyyət xüsusunda sınağa çəkilə bilər. Allahın göndərdiyi neçə-neçə müsibətlər vardır ki, bunların hamısına səbir etmək və sinə gərmək gərəkdir. Belə olduğu halda insan nəfsini səbirli olmağa öyrətməli və dili, yaxud qəlbi, yaxud da əzaları ilə naşükürlük etməkdən çəkinməlidir. Belə ki, insanın başına bir müsibət gəldikdə, bu dörd şeydən birini edir: ya qəzəblənir, ya səbir edir, ya razı qalır, ya da şükür edir. Deməli insanın başına bir müsibət gəldikdə, o, bu dörd haldan birində olur:

Birincisi: ya qəlbi, ya dili, ya da əzaları ilə öz qəzəbini bildirir. Qəlb ilə qəzəblənmək, qəlbində Rəbbinə qarşı qəzəbli olmasıdır – belə olmaqdan Allaha sığınırıq! Belə olduqda, o, Allahın bu müsibətlə ona zülm etdiyini düşünür. Dil ilə qəzəblənməyə gəlincə, bu, ah-vay edib qədərdən narazı qalmaq, zamanı söymək və başqa buna bənzər asiliklər etməkdir. Qaldı ki, əzalarla qəzəblənməyə, bu, üzə-başa vurmaq, saç yolmaq, paltarı cırmaq və başqa buna bənzər asiliklər etməkdir. Bu, savabdan məhrum olan, müsibətdən də qurtulmayan kimsələrin halıdır. Əksinə, bunlar etdikləri bu asiliklərlə günah qazanırlar. Beləcə, onlar iki müsibətə birdən düçar olurlar: Allahın yazdığı qədərə qəzəblənməklə dində, başlarına gəlmiş bəla ilə də dünyada müsibətə uğramış olurlar.

İkinci hal, nəfsini boğub başına gəlmiş müsibətə səbir etməsidir. Hərçənd, bu müsibət onun xoşuna gəlməz, onu sevməz və başına gəlməsini istəməz, lakin nəfsini boğar, dili ilə Allahı qəzəbə gətirəcək söz danışmaz, əzaları ilə Allahı qəzəbləndirəcək hərəkətlər etməz, qəlbində də Allaha qarşı azacıq da olsun narazılıq olmaz. Beləsi, müsibəti sevmədiyi halda ona səbir edir.

Üçüncü hal, razılıq etməkdir. Belə ki, adam, başına gələn müsibətə görə sevinir, ondan tamamən razı qalır, sanki heç başına müsibət gəlməmişdir.

Dördüncü hal, şükür etməkdir. Belə ki, adam, başına gəlmiş müsibətə görə Allaha şükür edir. Necə ki, Peyğəmbər, ﷺ başına müsibət gəldikdə: "Hər bir halımıza görə Allaha həmd olsun!"– deyərmiş.[1] Adam, bu müsibətə səbir etdiyinə görə, Allahın ona daha çox savab qazanmaq imkanı yaratdığından dolayı Allaha şükür edir. Bu mövzuya aid rəvayətlərdən birində xəbər verilir ki, abid bir qadının barmağı kəsilmiş və o, bu halına görə Allaha həmd etmişdir. Yanındakılar ona: "Barmağın kəsildiyi halda, sən Allaha həmd edirsən?"– deyəndə, qadın onlara: "Onun savabının şirinliyi, mənə səbrinin acısını unutdurdu"– demişdir.[2] Müvəffəqiyyət Allahdandır.

Bu fəsildə müəllif – Allah ona rəhmət eləsin! – səbrə təşviq edən və səbir edənləri tərif edən bu ayəni zikr etmişdir: **"Ey iman gətirənlər! Səbir edin, *düşmən qarşısında* səbirli olun, növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!"[3]** Uca Allah bu ayədə möminlərə imanlarının gərəyi olan və şərəfi sayılan dörd şeyi əmr etmişdir: **"Səbir edin, *düşmən qarşısında* səbirli olun, növbə ilə keşik çəkin və Allahdan qorxun."** Yəni, günah işlərdən çəkinməkdə səbir etməyi, itaət etməkdə səbirli olmağı, çoxlu xeyirli işlər görməyi, bu işləri davamlı etməyi və bir də Allahdan qorxmağı. Təqva isə bunların hamısını əhatə edir.

**"Allahdan qorxun ki, bəlkə nicat tapasınız!"** Yəni, Allahın haram buyurduqlarına qarşı səbir edin: onları etməyin, onlardan uzaq durun, onlara yaxınlaşmayın. Məlum məsələdir ki, günah iş görməmək üçün səbir etmək, yalnız nəfsin bu işə təhrik etdiyi halda olur. Adamın ağlına günah iş görmək gəlmədiyi halda isə o adam haqqında: "O, günah işdən çəkinməkdə səbir etmişdir"– deyilməz. Əksinə, nəfsin səni günah iş görməyə təhrik etdikdə səbir etməli və nəfsini saxlamalısan.

**"Səbirli olun"** itaətə aiddir. İtaətdə isə iki şey vardır: Birincisi, insanın öz öhdəsinə götürdüyü və nəfsini məcbur etdiyi əməl. İkincisi isə bunun ona ağır və məşəqqətli gəlməsidir. Çünki itaət də günahları tərk etmək kimi, pis işləri əmr edən nəfsə ağır gəlir. Elə bu səbəbdən də ita-

---

[1] Sunən İbn Macə, 3803; Səhih əl-Cami, 4640.

[2] Mədaric əs-Salikin, 2/167.

[3] Ali-İmran, 200.

ətdə səbir etmək, günah işlərdən çəkinməkdə səbir etməkdən daha əfzəldir. Buna görə də uca Allah: **"Səbirli olun"** kəlməsi ilə ifadə etmişdir. Yəni döyüşdə düşməninizə qarşı səbirli və dözümlü olduğunuz kimi, itaətdə də səbirli və dözümlü olun.

**"Keşik çəkin"** sözünə gəlincə, bu, çoxlu xeyirli işlər görmək və bu işləri davamlı etməkdir. Odur ki, Rəsulullah ﷺ belə buyurmuşdur: **"Çətinliklərə rəğmən dəstəmazı kamil şəkildə almaq, məscidlərə getdikdə addımları çoxaltmaq**[1] **və namazdan sonra *növbəti* namazı gözləmək, məhz bunlar keşiyində durmağa layiq işlərdir, məhz bunlar keşiyində durmağa layiq işlərdir**[2]**"**[3] Çünki bunlarda davamlı itaət və çoxlu xeyirli işlər görmək vardır.

**"Təqva"** isə bunların hamısına şamil edilir. Çünki təqva; Allahın əzabından qoruyan yolu tutub getmək deməkdir. Bu isə əmr edilənləri yerinə yetirmək və qadağan edilənlərdən çəkinməklə olur. Belə ki, "təqva" kəlməsinin vav bağlayıcısı ilə özündən əvvəlkilərə bağlanması, ümuminin xüsusiyə bağlanması deməkdir.

Sonra ayədə uca Allah: "**bəlkə nicat tapasınız!**" buyuraraq, bu dörd əmri yerinə yetirməyin, insanın əzabdan qurtulmasına səbəb olacağını bəyan edir. "Nicat tapmaq" deyildikdə, iki məna qəsd edilir: arzu etdiyini əldə etmək və qorxduğundan qurtulmaq. Kim Allahdan qorxarsa, istədiyinə nail olar və qorxduğundan qurtular.

*Müəllifin zikr etdiyi* ikinci ayədə uca Allah buyurur: **"And olsun ki, Biz sizi bir az qorxu, *bir az* aclıq, *bir az* da mal-dövlət, insan və məhsul itkisi ilə imtahan edəcəyik. Səbir edənləri müjdələ."**[4] Bu ayədə uca Allah qullarını bu tərzdə sınayacağına and içir.

**"İmtahan edəcəyik"** yəni sınayacağıq.

---

[1] Burada uzaq məsafədən məscidə gəlmək nəzərdə tutulur.

[2] Hədisdə "keşiyində durmağa layiq işlər" deyildikdə üş şeydən biri qəsd edilir:

– ya həqiqətən də, sərhədin keşiyində durmaq qəsd edilir. Yəni sərhədin keşiyində duran adam düşməni gözətlədiyi kimi, abid adam da Allah üçün etdiyi ibadətləri qoruyur;

– ya Allah üçün olan xeyirxah işlərin keşiyində durmaq qəsd edilir;

– ya da keşik çəkmək deyildikdə nəfslə mübarizə aparmaq nəzərdə tutulur.

[3] Səhih Muslim, 251.

[4] əl-Bəqərə, 155.

**“Bir az qorxu,”** hər cür qorxu ilə deyil, əksinə, azı ilə. Çünki tam qorxu insanı həlak edər, onu pərişan edər. Odur ki, bir az qorxu ilə sınayar.

Qorxu; insanın özünü əmin-amanlıqda hiss etməməsidir. Bu isə aclıqdan daha böyük müsibətdir. Elə buna görə də Allah onu **“aclıq”** kəlməsindən əvvəl zikr etmişdir. Çünki ac adam axtarıb araşdırar, insanlardan yardım istəyər, ağac yarpağı da olsa bir şey yeyib aclığını aradan qaldırmağa çalışar. Lakin – Allaha qorusun! – qorxu içində olan insan, nə evində, nə də çöldə qərar tuta bilər. Demək qorxan adam ac adamdan daha acınacaqlı haldadır. Məhz buna görə də uca Allah ayədə ilk olaraq qorxunu zikr etmiş və belə demişdir: **“bir az qorxu, *bir az* aclıq.”** Bizim ən çox qorxacağımız şey günahlarımız olmalıdır. Çünki günahlar, bütün bədbəxtliklərin, fəlakətlərin, müsibətlərin, dini və dünyəvi cəzaların səbəbidir.

***“Bir az* aclıq,”** yəni aclıqla da sınanacaqsınız. Burada “aclıq” iki mənanı ifadə edir:

Birincisi, Allahın Öz qullarına aclıq xəstəliyi verməsidir. Bu xəstəliyə tutulan insanlar nə qədər yesələr də doymazlar. Belə müsibətlər zaman-zaman insanların başına gəlir. Bu ölkədə də camaatın “aclıq ili” adlandırdığı bir il olub-keçmişdir. İnsanlar çoxlu yemək yeyir, lakin – Allah qorusun! – doymurdular. Eşitdiyimizə görə, həmin vaxt adam bir oturuma böyük bir qabla dolu xurma yeyər, lakin – Allah qorusun! – doymazmış. Habelə, bir neçə kömbə çörəyi bir oturuma yeyər, lakin bu xəstəlik üzündən doymazmış. Bu, aclığın birinci növüdür.

Aclığın ikinci növü isə, heyvanların süd vermədiyi, taxılların da bitmədiyi qıtlıq və quraqlıq zamanıdır.

***“Bir az* da mal-dövlət itkisi ilə,”** yəni iqtisadi böhranla. Beləcə, xalq varını itirər, kasıblayar, istisadiyyatı geriləyər, hökuməti də, Allahın bəla və imtahan olaraq müəyyən etdiyi səbəblərin nəticəsi olaraq ortaya çıxan borclarla əlləşib-vuruşar.

**“İnsan itkisi ilə,”** yəni ölümlə. İnsanlar arasında yoluxucu bir xəstəlik yayılar və onları dəstə-dəstə həlak edər. Bu da zaman-zaman baş vermiş müsibətlərdəndir. Necə ki, Nəcddə xalq arasında “rəhmət ili” kimi bilinən bir ildə böyük bir vəba xəstəliyi yayılmış və bu xəstəlik

hansı evə girmişdirsə, o evdəki ailə üzvlərinin hamısını məzara soxmuşdur. Allah qorusun! On və ya daha çox fərddən ibarət ailəyə yoluxur, bir gün birini, o biri gün digərini, beləcə, hamısını bir-bir öldürürmüş. Qədim zamanlarda Uneyzə şəhəri balaca bir qəsəbə idi, günümüzdəki kimi əhalinin sayı çox deyildi. Fəqət buna rəğmən deyilənə görə, mərkəzi məscidə hər fərz namazından sonra yeddi-səkkiz cənazə gətirilirmiş.

Yoluxucu xəstəliklərdən Allaha sığınırıq!

**"Məhsul itkisi ilə,"** Bu aclıq deyil, sadəcə məhsuldarlığın az olmasıdır. Belə ki, taxılın, xurmanın və başqa ağacların bərəkəti aradan qalxır.

Allah insanlara bu bəlaları göndərir ki, **"etdikləri əməllərin bir qisminin** (cəzasını) **daddırsın. Bəlkə, onlar *haqqa* qayıdalar."**[1]

İnsanlar isə bu bəlaları, – əvvəldə izah etdiyimiz kimi, fərqli şəkildə – ya qəzəblə, ya səbirlə, ya razılıqla, ya da şükürlə qarşılayırlar.

Allah bizi ən xeyirlisinə müvəffəq etsin!

*Müəllifin zikr etdiyi* üçüncü ayədə uca Allah buyurur: **"Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir."**[2]

Ayədə **"hesabsız"** deyilir; çünki saleh əməllərin əvəzi on mislindən yeddi yüz qatına qədər, hətta daha çox qat-qat verilir. Səbrin mükafatı isə Allah tərəfindən hesabsız olaraq gəlir. Bu isə, səbrin mükafatının, insanın təsəvvür edə bilməyəcəyi qədər böyük olduğunu göstərir. Çünki səbrin müqabilində verilən mükafatın neçə qat olduğu bildirilməmişdir. Allah yanında onun böyüklüyü məlum olsa da, neçə qat olduğu bildirilməmişdir. Səbir edən kimsəyə: "On mislindən yeddi yüz qatına qədər savab qazanırsan" deyilmir, əksinə ona: "Onun savabı hədsiz-hesabsızdır"– deyilir. Bu ayənin insanı səbirli olmağa təşviq etməsi aydındır.

*Müəllifin zikr etdiyi* dördüncü ayədə uca Allah buyurur: **"Kim səbir edib bağışlasa, şübhəsiz ki, bu, məqsədə uyğun *və bəyənilən* işlərdəndir."**[3] Yəni insanların verdiyi əziyyətlərə dözmək, bunlara təhəm-

---

[1] əl-Bəqərə, 155.

[2] əz-Zumər, 10.

[3] əş-Şura, 43.

mül etmək və onların etdiyi pislikləri bağışlamaq, böyük əzm və səbir tələb edən, ağır və məşəqqətli, lakin əvəzi mütləq veriləcək yüksək davranışlardandır. Xüsusən də insanın qarşılaşdığı bu əziyyət Allah yolunda etdiyi cihaddan və ya itaətindən dolayıdırsa bu əzm və səbir tələb edən əməllərdəndir. Çünki insanların sənə verdiyi əziyyətlərin səbəbləri müxtəlifdir. Əgər əziyyətə məruz qalmağın səbəbi, Allaha itaət, Onun yolunda cihad etmək, yaxşı işləri insanlara buyurmaq və pis işlərdən onları çəkindirməkdirsə, o halda adam iki yöndən savab qazanır:

Birincisi, düşdüyü əziyyətə görə;

İkincisi isə əziyyətə məruz qalmasına rəğmən Allaha itaətdə səbir və əzm göstərdiyinə görə.

Bu ayə adamı, insanların verdiyi əziyyətlərə səbir etməyə və etdikləri pislikləri bağışlamağa təşviq edir. Lakin bilməlisən ki, sənə pislik edən kimsəni mütləq şəkildə, daim bağışlamaq bəyənilən əməllərdən deyil. Çünki uca Allah başqa bir ayədə bağışlamağın islah olunmaqla bağlı olduğunu vurğulayaraq belə buyurur: **"Kim bağışlasa və islah etsə, onun mükafatı Allaha aid olar."**[1] Elə buna görə də, əgər sənin əfv etməyin və bağışlamağın, qarşındakının islah olmasına – düzəlməsinə səbəb olmayacaqsa, onu əfv etmə və bağışlama.

Məsələn, sənə pislik edən adam şər yaymaq və fəsad törətməklə tanınırsa, sənin də onu əfv etməyin onun şərinə şər qatacaqsa, o halda onu əfv etməmək, əksinə, onun islah olunması üçün öz haqqını almağın daha əfzəldir. Yox əgər bir adamı əfv etməyin hər hansı bir fəsada yol açmayacaqsa, o halda onu əfv etməyin daha əfzəldir. Çünki uca Allah: **"Kim bağışlasa və islah etsə, onun mükafatı Allaha aid olar."**[2] buyurur. Əgər bu halda sənin mükafatını Allah verəcəksə, əlbəttə ki, bu sənin üçün, pislik edən adamın saleh əməllərinin savabından götürəcəyin haqdan daha xeyirli olar.

*Müəllifin zikr etdiyi* beşinci ayədə uca Allah buyurur: **"Səbir etmək və namaz qılmaqla *Allahdan* kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir!"**[3] Bu ayədə uca Allah başımıza gələn işlərdə səbir etmək-

[1] əş-Şura, 40.
[2] Əvvəlki mənbə.
[3] əl-Bəqərə, 153.

lə Allahdan yardım diləməyi buyurur. Çünki adam səbir edib qurtuluşu Allahdan umarsa, başına gələn müsibət ona asan gələr. Odur ki, səbir etməyin lazım gələn bir işdə səbir et və *müsibətə* təhəmmül et: "Bil ki, səbrin ardından qələbə, kədərin ardından sevinc, çətinliyin ardından da asanlıq gəlir."[1] Namaz qılmaq isə insana həm dini, həm də dünyəvi işlərdə kömək olur. Hətta rəvayət edilir ki, Rəsulullahın ﷺ başına bir iş gəldikdə namaz qılarmış.[2]

Uca Allah Öz Kitabında namazın insanı çirkin və yaramaz işlərdən çəkindirdiyini bəyan edir. Əgər insan *bütün* işlərində namaz qılmaqla Allahdan kömək diləyərsə, Allah onun işini asanlaşdırar. Çünki namaz, qul ilə onun Rəbbi arasında olan bir bağdır. İnsan namazda Allahın hüzurunda durub Ona yalvarsa, Ona dua etsə, namazdakı sözlər və hərəkətlərlə Ona yaxınlaşmağa çalışsa, bu, Allahın ona kömək etməsinə səbəb olar.

Ayədə: **"Həqiqətən, Allah səbir edənlərlədir!"[3]** deyilir. Bu, Allahın, *səbir edən qullarına* xüsusi mənada yaxın olmasıdır. Belə ki, Allahın yaxın olması iki qismdir:

Birincisi, hər kəsə şamil edilən, ümumi mənada olan yaxınlıqdır. Bu da, aşağıdakı ayələrdə zikr edilmişdir:

**"Siz harada olsanız, O sizinlədir."[4]**

**"Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, *onların* dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, *Allah* onlarladır."[5]**

Bu ümumi yaxınlıq, yaradılanların hamısına şamil edilir. Elə bir məxluq yoxdur ki, Allah onun yanında olmasın: belə ki, onun nə etdiyini bilir, Öz hökmranlığı, qüdrəti, eşitməsi, görməsi və s. ilə onu əhatə edir.

İkincisi isə xüsusi mənada olan yaxınlıqdır. Bu, kömək və yardım mənasını ifadə edən yaxınlıqdır. Bu da hər kəsə deyil, yalnız peyğəmbərlərə və onların ardıcıllarına aiddir. Uca Allahın: **"Həqiqətən, Allah**

---

[1] Musnəd İmam Əhməd, 1/307; Səhih əl-Cami, 6808.

[2] Sunən Əbu Davud, 1319; Səhih əl-Cami, 4703.

[3] əl-Bəqərə, 153.

[4] əl-Hədid, 4.

[5] əl-Mucadilə, 7.

***Ondan* qorxanlar və yaxşı işlər görənlərlədir.”**[1]**; “Həqiqətən, Allah səbir edənlərlədir!”**[2] kimi ayələri bu növ yaxınlığa aiddir.

Lakin bu iki yaxınlıq, uca Allahın *zatı ilə* insanlarla birlikdə, onların olduğu yerdə olduğuna dəlalət etmir. Uca Allah göylərin üstündə, Ərşinin üzərindədir. Allah Ərşinin üstündə ikən qullarının yanında ola bilər. Belə ki, hündürdə olan bir şey səninlə də ola bilər. Necə ki, ərəblərin deyimində: “Səfərimiz boyunca ay bizimlə idi”– deyirlər. Halbuki hər kəs bilir ki, ay göydədir. Həmçinin: “Səfərimiz boyunca Süheylə ulduzu bizimlə idi”– deyirlər. Halbuki o da göydədir. Məxluq üçün mümkün olan hal, Xaliq üçün niyə mümkün olmasın ki? Allah hər şeyin üstündədir, Ərşinin üzərində yüksəlmişdir. Bunufnla belə hər şeyi əhatə edir, hər kəsin yanındadır. Sən nə qədər tək qalırsan qal, Allah Öz elmi, qüdrəti, hökmranlığı, eşitməsi, görməsi və s. ilə səni əhadə edir.

**“Həqiqətən, Allah səbir edənlərlədir!”**[3] sözü, dəlildir ki, Allah səbir edən kimsəyə yardım edir, ona dəstək olur və onu himayə edir ki, Özünün sevdiyi əməlləri yerinə yetirməkdə tam şəkildə səbir etsin.

*Müəllifin zikr etdiyi* altıncı ayədə uca Allah buyurur: **“Biz aranızdakı mücahidləri və səbir edənləri ayırd edənədək sizi mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq.”**[4]

Ərəbcə: “İbtila” imtahan etmək, sınamaq deməkdir. Yəni Allah Öz qullarına cihadı fərz buyuraraq, kimlərin səbir edəcəyini, kimlərin də səbir etməyəcəyini üzə çıxartmaq üçün onları sınayar. Odur ki, uca Allah başqa bir ayədə belə buyurur: **“Əgər Allah istəsəydi, onlardan *döyüşsüz də* intiqam alardı. Lakin O sizi biri-birinizlə sınağa çəkmək üçün *belə etdi*. Allah Öz yolunda öldürülənlərin əməllərini heç vaxt boşa çıxartmaz. *Allah* onları doğru yola yönəldəcək, onların halını yaxşılaşdıracaq və onları özlərinə tanıtmış olduğu Cənnətə daxil edəcək.”**[5]

Ayədə keçən: **“ayırd edənədək”** ifadəsindən, dini savadı olmayanlar elə başa düşə bilərlər ki, uca Allah bir hadisə baş verməmiş onun

---

[1] ən-Nəhl, 128.

[2] əl-Bəqərə, 153.

[3] Əvvəlki mənbə.

[4] Muhəmməd, 31.

[5] Muhəmməd, 4-6.

necə olacağını bilmir. Bu cür düşünmək yanlışdır. Uca Allah hər bir işin necə olacağını əvvəlcədən bilir. Bu xüsusda uca Allah belə buyurur: **“Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir?! Həqiqətən, bu, Yazıda mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır.”**[1] Uca Allahın hadisələri yalnız baş verdikdən sonra bildiyini iddia edən kimsə isə, Onun hər bir şeyi əvvəlcədən bildiyini xəbər verən bu və buna bənzər ayələri yalan saymış olur.

Bu ayədə: **“ayırd edənədək”** deyildikdə, mükafatlandırmaq və ya cəzalandırmaq qəsd edilir. Çünki Allahın, hadisələri baş verədən öncə bilməsi, qulun nə edəcəyini bəlli etmiş olmur. Qul hələ sınanmamışdır ki, nə edəcəyi açıq-aydın ortaya çıxsın. Qul sınandığı zaman onun mükafat qazanacağı və ya cəzalandırılacağı ayırd edilər. Dolayısıyla, ayədə keçən: **“mücahidləri ayırd edənədək”** sözündəki qəsd, onlara mükafat və ya cəza verilməsini ayırd etmədir.

Bəzi alimlər, buradakı ayırd etmənin, ortaya çıxartmaq üçün ayırd etmək anlamında olduğunu söyləmişlər. Çünki uca Allahın bir hadisəni, o hadisə baş verməzdən əvvəl bilməsi “onun necə olacağını” bilməsidir, o hadisə baş verdikdən sonra onu bilməsi də, “onun necə olduğunu” bilməsidir. Bu iki bilgi arasında fərq var.

Birincisi, olacaq bir şey haqqında, ikincisi isə olmuş bir şey haqqında bilgidir. Bu ikisinin arasındakı fərq, indi deyəcəyimiz misallarda aydın olacaq: Məsələn, bir adam sənə: “Filan işi sabah edəcəm”– deyəndə, həmin vaxt onun verdiyi xəbər barədə bilgi alırsan. Ertəsi gün o işi gördükdən sonra isə səndə başqa bir bilgi olur. Yəni, adam, sənə dediyi kimi o işi gördü və bu barədə səndə *ikinci* bilgi oldu. Ayədəki bilmək/ayırd etmək ifadəsi də bu iki mənada təfsir edilmişdir.

**“Mücahidlər”**, mücahid: Allahın kəlamını ucaltmaq məqsədilə tam gücünü sərf edən kimsədir. Bu, həm elmi ilə cihad edənə, həm də silahla cihad edənə aiddir. Bunların ikisi də Allah yolunda cihad edən mücahiddir. Elmi ilə cihad edən, elm öyrənir, öyrədir, onu insanlar arasında yayır və bunu Allahın şəriətini hakim təyin etmək üçün vəsilə edir. Beləsi mücahid sayılır. Həmçinin, silah götürüb düşmənlərlə vuruşan kimsə də Allah yolunda cihad edən mücahid sayılır. Hər iki cihadda

---

[1] əl-Həcc, 70.

məqsəd Allahın kəlməsini ucaltmaq olarsa, o zaman bu, Allah yolunda cihad sayılar.

**"Səbir edənlər"**, yəni öhdələrinə düşən cihadda səbir edən, bu yükü çiyinlərində daşıyan və onu həyata keçirən kimsələr.

**"Barənizdəki xəbərləri yoxlayacağıq"**, yəni sizi sınayacaq, beləliklə də, mükafata və ya cəzaya layiq olduğunuz bəlli olacaq.

Uca Allah imtahandan bəhs etdikdən sonra: **"Səbir edənləri müjdələ"**[1] buyurur. Bu xitab Peyğəmbərə ﷺ və bu xitabın yetişdiyi hər kəsə aiddir. Yəni: "Ey Peyğəmbər, sən..." və "Ey bu ayəni eşidən kəs, sən.." bu müsibətlərə səbir edən, buna qəzəblənməyən, əksinə, səbirlə qarşılıq verən kimsələri müjdələ!" Bu səbirdən daha üstünü, o müsibətlərdən razı qalmaq, bundan da üstün olanı isə o müsibətlərə görə şükür etməkdir. Biz əvvəldə, Allahın göndərdiyi müsibətlərə mübtəla olmuş kimsələrin dörd halı olduğunu qeyd etmişik: qəzəblənənlər, səbir edənlər, razı qalanlar və bir də şükür edənlər.

Sonra uca Allah buyurur: **"Səbir edənləri müjdələ. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!"– deyirlər."**[2]

**"Biz, Allaha məxsusuq..."**, yəni başlarına bir müsibət gəldikdə, mülkün bütövlüklə Allaha məxsus olduğunu, özlərinin Allahın mülkünə aid olduqlarını, Allahın da Öz mülkünü istədiyi kimi idarə etdiyini etiraf edərlər. Odur ki, Peyğəmbər ﷺ oğlunu itirən qızına: "Şübhəsiz ki, Allahın aldığı da, verdiyi də Özünə aiddir."[3] Bil ki, sən Allahın mülküsən və səni Öz hikməti ilə istədiyi kimi idarə edir.

**"Və biz yalnız Ona qayıdacağıq!"**, onlar mütləq Allahın hüzuruna qayıdacaqlarını və etdikləri əməllərinin əvəzini alacaqlarını etiraf edərlər. Hərgah müsibətlərə qəzəblənsələr, bu qəzəbin qarşılığını alacaqlar; yox əgər, – bu ayədə zikr olunan adamlar kimi, səbir etsələr, uca Allah onları bu müsibətlərə səbir etdiklərinə görə mükafatlandıracaq. Bəli, Allah insanları müsibətlərlə sınayar və bu müsibətlərə səbir edənləri mükafatlandırar.

---

[1] əl-Bəqərə, 155.

[2] əl-Bəqərə, 155-156.

[3] Səhih əl-Buxari, 1284; Səhih Muslim, 923.

**“Onlara öz Rəbbi tərəfindən salavat və mərhəmət vardır.”**[1] Burada söhbət səbir edənlərdən gedir. “Salavat” deyildikdə, Allahın onları ali toplumun – mələklərinin yanında tərifləməsi qəsd edilir.

**“Məhz onlar doğru yolda olanlardır.”**[2] Yəni onlar, Allahın, başlarına müsibət gəldiyi zaman doğru yola yönəldib o müsibətə qəzəblənməməyə, əksinə, başlarına gələnlərə səbir etməyə müfəvvəq etdiyi kimsələrdir. Bu ayə dəlildir ki, Allahın salavatı, Onun rəhməti deyil, ondan daha xüsusi, daha mükəmməl və daha üstün bir şeydir. Bəzi alimlər, “Allahın salavatı” deyildikdə, rəhmət, “mələklərin salavatı” deyildikdə dua, “insanların salavatı” deyildikdə də, istiğfar qəsd edildiyini demişlər. Lakin bunların heç birinə dair dəlil yoxdur. Belə ki, salavat və rəhmət ayrı-ayrı mənalarda olan sözlərdir. Çünki, uca Allah ayədə rəhmət kəlməsini “vav” bağlayıcısı ilə salavat kəlməsindən sonra zikr etmişdir. Bu da, bu iki kəlmənin ayrı-ayrı mənalar ifadə etdiyinə dəlalət edir. Həm də, alimlərin yekdil rəyinə əsasən sən hər hansı bir mömin üçün: “Allahım filankəsə rəhm et!”– deyə bilərsən. Lakin onun üçün: “Allahım filankəsə salavat de!”– deyilməsinin caiz olub-olmaması barədə ixtilaf etmişlər. Bu barədə üç rəy vardır: Bəziləri bunun mütləq şəkildə caiz olduğunu, bəziləri mütləq şəkildə qadağan edildiyini, bəziləri də, səbəb olduğu təqdirdə salavat diləməyin caiz olduğunu demişlər. Səhih rəy budur ki, sünnəyə uyğun olduğu təqdirdə bir kimsə üçün Allahdan salavat diləmək olar. Necə ki: “Allahım, Muhəmmədə və onun ailəsinə salavat de!” – deyə dua edirik. Yaxud belə dua etməyə səbəb olduğu halda salavat demək olar. Bu xüsusda uca Allah buyurur: **“*Möminlərin* mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan və onlara salavat de.”**[3] Demək, əgər salavat demək üçün səbəb varsa və bu, şüar edilməyəcəksə, o halda salavat gətirmək: “Allahım, filankəsə salavat de!” demək icazəldir. Əgər bir adam zəkat malını gətirib sənə: “Bunu götür kasıblara payla!”– desə, sən ona: “Allahın salavatı olsun sənin üzərinə!”– deyə bilərsən. Yəni Allahın Öz Peyğəmbərinə ﷺ əmr etdiyi kimi, Allahın ona salavat deməsini diləyə bilərsən.

---

[1] əl-Bəqərə, 157.

[2] Əvvəlki mənbə.

[3] ət-Tovbə, 103.

**Mövzu ilə bağlı hədislər:**

٢٥ - وعن أبي مَالِكٍ الْحَارِثِ بْنِ عَاصِمِ الأشْعريِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «الطُّهُورُ شَطْرُ الإِيمَان، وَالْحَمْدُ للَّه تَمْلأُ الْمِيزانَ، وسُبْحَانَ الله والحَمْدُ للَّه تَمْلآنِ - أَوْ تَمْلأُ - مَا بَيْنَ السَّموَاتِ وَالأَرْضِ، وَالصَّلاَةِ نورٌ، والصَّدَقَةُ بُرْهَانٌ، وَالصَّبْرُ ضِيَاءٌ، والْقُرْآنُ حُجَّةٌ لَكَ أَوْ عَلَيْكَ. كُلُّ النَّاس يَغْدُو، فَبِائِعٌ نَفْسَهُ فمُعْتِقُها، أَوْ مُوبِقُهَا» رواه مسلم.

**25.** Rəvayət edilir ki, Əbu Malik əl-Haris ibn Asim əl-Əşari ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Təmizlik imanın yarısıdır. “Əlhəmdulillah” *sözü* tərəzini doldurur. “Subhanəllah vəlhəmdulillah” *kəlməsi isə* göylərlə yer arasını doldurur. Namaz nurdur. Sədəqə dəlildir. Səbir işıqdır. Quran isə sənin ya lehinə, ya da əleyhinə hüccətdir. Hər bir insan səhər *evindən çıxıb iş dalınca* gedər və nəfsini satar; kimisi onu azad edər, kimisi də onu məhv edər.”

Hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin ﷺ səbir, səbrin savabı, səbrə təşvik etmək və onun yeri xüsusunda dəlil gətirdiyi ayələr barədə danışdıq. Müəllif bu ayələrdən sonra mövzu ilə bağlı hədislər də zikr etmişdir. Müəllifin nəql etdiyi ilk hədisdə, Əbu Malik əl-Əşari ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ: **“Səbir işıqdır”**– demişdir. Yəni, səbir insan üçün işıq saçır. Belə ki, zülmətlər çökdüyü və sıxıntılar artdığı zaman adam səbir etdikdə, bu səbir, onu haqqa doğru aparan bir nur olur. Ona görə də uca Allah bizə xəbər verir ki, səbir sayəsində Allahdan yardım dilənən o əməllərdəndir. Belə ki, səbir insanın qəlbində bir aydınlıqdır; onun getdiyi yolu, tuduğu mənhəci və etdiyi əməli işıqlandırırır. Çünki adam səbir edib Allaha doğru getdikcə, Allah onun hidayətini və qəlbindəki nuru artırır, üstəlik, ona yol göstərir. Məhz buna görə də Peyğəmbər ﷺ: “Səbir işıqdır”– demişdir.

Hədisin qalan hissəsinə gəlincə, Peyğəmbər ﷺ: **“Təmizlik imanın yarısıdır”**– deyir. Burada insanın təmiz olması qəsd edilir. Belə ki,

[1] Səhih Muslim, 223.

iman insanı günahlardan və murdar şeylərdən təmizləyib pak edər. Yəni, adamı şirkdən və fasiqlikdən təmizləyər, müşriklərdən və fasiqlərdən uzaq edər. Budur əsl təmizlik! Yəni, insanın hissi və mənəvi baxımdan əziyyət verici hər bir şeydən təmizlənməsi. Elə buna görə Peyğəmbər ﷺ təmizliyi imanın yarısı hesab etmişdir.

"Subhanəllah" kəlməsinə gəlincə, onun mənası Allahı bütün nöqsanlardan uzaq tutmaq və Onu heç bir məxluqa bənzətməməkdir. Çünki Allahın adları, sifətləri, gördüyü işlər və verdiyi hökmlər bütün eyib və nöqsanlardan uzaqdır. Allahın adlarında eyib və nöqsan tapa bilməzsən. Odur ki, uca Allah: **"Ən gözəl adlar Allahındır"**[1]– buyurur. Həmçinin, Onun sifətlərində də eyib və nöqsan tapa bilməzsən. Odur ki, uca Allah buyurur: **"Yaramaz sifətlər axirətə inanmayanlara xasdır. Ən Uca sifətlər isə Allaha məxsusdur."**[2] Demək, hər yöndən ən kamil və ən uca sifətlər Allaha məxsusdur. Onun gördüyü işlər də, həmçinin, nöqsansızdır. Necə ki, buyurur: **"Biz göyləri, yeri və onların arasında olanları əyləncə yaratmadıq."**[3] Dolayısıyla, Allahın yaratmasında heç bir oyun və əyləncə yoxdur. Əksinə, bunlar hikmətlə yaradılmış məxluqatdır. Onun verdiyi hökmlərdə də, həmçinin, heç bir eyib və nöqsan tapa bilməzsən. Bu xüsusda da uca Allah belə buyurur: **"Məgər Allah hakimlərin ən üstünü deyilmi?"**[4] O, həmçinin, buyurur: **"Yoxsa onlar cahiliyyət** ***dövrünün*** **hökmünü istəyirlər?!** ***Nəyin haqq olduğunu*** **yəqin bilən bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?!"**[5]

**"Subhanəllah vəlhəmdulillah"** ***kəlməsi isə*** **göylərlə yer arasını doldurur."** Bunun səbəbi, "Subhanəllah" deməklə, Allahı bütün nöqsanlaradan uzaq tutmaq, "Əlhəmdulilləh" deməklə də, Onu hər cür kamil sifətlə vəsf etməkdir. Beləcə, bu iki cümlə təxliyə[6] ilə təhliyəni[7] cəm

---

[1] əl-Əraf, 180.

[2] ən-Nəhl, 60.

[3] əd-Duxan, 38.

[4] ət-Tin, 8.

[5] əl-Maidə, 50.

[6] Allahın bütün eyib və nöqsnlardan uzaq olduğunu demək.

[7] Bütün kamilliyi Allah üçün isbat etmək.

etmiş olur. Yəni, "Subhanəllah" kəlməsi nöqsanların inkarı, "Əlhəmdulilləh" kəlməsi isə kamilliyin isbatı deməkdir.

Xülasə budur ki, "Subhanəllah" deməklə, Allahın adlarını, sifətlərini, gördüyü işləri və verdiyi hökmləri bütün eyb və nöqsanlardan uzaq tuturuq.

Hər bir halda Allaha həmd etmək gərəkdir. Necə ki, Peyğəmbəri ﷺ sevindirən bir hadisə baş verdikdə:

(( الْحَمْدُ للهِ الَّذِي بِنِعْمَتِهِ تَتِمُّ الصَّالِحَاتُ ))

"Neməti sayəsində yaxşı işlər tamamlanan Allaha həmd olsun!"– deyər, xoşuna gəlmədiyi bir hadisə baş verdikdə isə:

(( الْحَمْدُ للهِ عَلَى كُلِّ حَالٍ ))

"Hər bir halda Allaha həmd olsun!"– deyərdi.[1]

Son vaxtlar bir çox insanlar arasında yeni bir söz yayılıb, həmd etmək istəyəndə belə deyirlər: "Xoşagəlməyən bir şeyə görə yalnız Özünə həmd edilən Allaha həmd olsun!" Bu, naqis bir həmddir. Çünki "xoşagəlməyən" ifadəsi səbrin az olduğuna, yaxud ən azı, səbrin kamil şəkildə olmadığına və bu sözü deyən adamın o şeyi xoşlamadığına dəlalət edir. Odur ki, adam bu üslubla Allaha həmd etməməlidir. Əksinə, o, Rəsulullahın ﷺ həmd etdiyi kimi: "Hər bir halda Allaha həmd olsun!" ya da "Hər bir halda yalnız Özünə həmd edilən Allaha həmd olsun!"– deməlidir. Lakin: "Xoşagəlməyən bir şeyə görə..." cümləsi, adamın Allahdan gələn müsibətə qarşı olduğunu və onu bəyənmədiyini açıq-aydın ifadə edən bir cümlədir.

Mən demirəm ki, insan başına gələn bir müsibətdən dolayı bikef ola bilməz. Belə ki, insan təbiətcə müsibətləri xoşlamır. Lakin dediyim odur ki, Allaha həmd edərkən bunu dilinə gətirməsin, əksinə, qoy bunu Peyğəmbər ﷺ ifadə etdiyi kimi ifadə etsin.

**"Namaz nurdur..."** Həqiqətən də, namaz insanın həm qəlbində, həm üzündə, həm qəbrində, həm də həşr olunacağı yerdə onun üçün nur saçar. Elə buna görə də, üzlərində ən çox nur olan insanların, ən çox

---

[1] Sunən İbn Macə, 3803; Səhih əl-Cami, 4640.

namaz qılan və namazlarında Allahdan ən çox qorxan kimsələr olduğunu görürük. Namaz insanın qəlbində olan elə bir nurdur ki, ona Allahı – Allahın hökmlərini, Onun etdiklərini, Onun adlarını və sifətlərini tanıdır. Namaz insan üçün qəbrində nur saçar. Çünki namaz İslamın dirəyidir. Dirək durduqca bina da dik durar, dirək yıxıldıqda isə bina uçar. Eləcə də, Qiyamət günü məhşərdə onun üçün nur saçar. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: **"Hər kim namazını vaxtlı-vaxtında qılsa, Qiyamət günü bu namaz onun üçün bir nur, onun lehinə bir dəlil və bir də onun nicat tapması üçün bir səbəb olacaq. Namazı qılmayan kimsənin isə Qiyamət günü nə bir nuru, nə bir dəlili, nə də nicat tapmaq üçün bir qurtuluş yolu olacaqdır. Beləsi Fironla, Hamanla, Qarunla və Ubey ibn Xələf ilə bir yerdə həşr olunacaq."**[1]

Demək, namaz, insan üçün hər bir halda nurdur. Odur ki, adam namazlarını vaxtlı-vaxtında və doğru-düzgün yerinə yetirməyə həris olmalı və *bacardığı qədər nafilə* namazlarını artırmalıdır ki, bunun sayəsində nuru, elmi və imanı artmış olsun.

Səbir haqqında isə: "O, işıqdır"– demişdir. İşıqda da nur vardır, lakin bu nurda hərarət olur. Bu xüsusda uca Allah buyurur: **"Günəşi işıqlı, ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə ona mənzillər - *səfhələr* müəyyən edən Allahdır"**[2]

Demək, işıqda mütləq istilik də olur. Səbirdə də, həmçinin, həm istilik, həm də yorğunluq olur. Çünki səbirdə böyük məşəqqət vardır. Elə buna görə də savabı hesabsızdır. Namazdakı nurla səbirdəki işıq arasındakı fərq isə budur ki, bəzən səbirdə qəlb və bədən yorğunluğu olduğuna görə, səbrin işığında hərarət də olur.

**"Sədəqə dəlildir..."** Sədəqə: Allaha yaxınlaşmaq üçün ailəyə, kasıblara və ümumiyyətlə camaatın rifahı – məscid tikintisi və başqa bu kimi xeyirli işlərə pul xərcləməkdir. Sədəqə, insanın imanlı olmasına dəlildir. Belə ki, dünya malı nəfsin sevdiyi bir şeydir, nəfs isə onu verməyə xəsislik edər. İnsanın öz malını, daha çox sevdiyi Allah rizası üçün xərcləməsi, onun imanının doğruluğuna və sağlam olmasına dəlalət

---

[1] Musnəd İmam Əhməd, 2/169; Muhəmməd Nasirəddin əl-Albani "Səmərul-Mustətab" (1/53) əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[2] Yunus, 5.

edir. Elə buna görə də, Allaha imanı ən qüvvətli olan və ən dürüst insanların, ən çox sədəqə verən kimsələr olduğunu görürsən.

*Şərh etdiyimiz hədisdə* Peyğəmbər ﷺ: **"Quran isə sənin ya lehinə, ya da əleyhinə hüccətdir"**– deyir. Çünki Quran Allahın möhkəm ipi və yaratdıqlarına qarşı bir dəlildir. Quran o halda sənin lehinə dəlil ola bilər ki, sən onun sayəsində Allaha yaxınlaşasan, içindəki xəbərləri təsdiqləyərək, buyuruqlarını yerinə yetirib qadağan etdiyi işlərdən çəkinərək, onu uca tutaraq və ona ehtiramla yanaşaraq bu əzəmətli Quranın tələblərini yerinə yetirəsən. Belə olduğu təqdirdə Quran sənin lehinə dəlil olar. Yox əgər tam əksinə, yəni Qurana dəyər verməyəcəyin, onu oxumayacağın, mənasını öyrənməyəcəyin, içindəkilərə əməl etməyəcəyin, tələblərini yerinə yetirməyəcəyin təqdirdə isə Qiyamət günü o sənin əleyhinə şahidlik edər.

Rəsulullah ﷺ bu iki halın ortasında *üçüncü* hal zikr etməmişdir. Yəni deməmişdir ki, *ola bilsin ki,* Quran nə sənin lehinə, nə də əleyhinə olsun. Çünki Quran hər bir halda insanın ya lehinə, ya da əleyhinə dəlil olur. Allahdan istəyimiz budur ki, Quranı bizim hamımız üçün dünya və axirətdə bizə yol göstərən bir rəhbər etsin.

**"Hər bir insan səhər *evindən çıxıb iş dalınca gedər və* nəfsini satar; kimisi onu azad edər, kimisi də onu məhv edər."** Yəni hər bir insan hər səhər gününü işə getməklə başlayar. Bu da, hər kəsin müşahidə etdiyi bir şeydir. Belə ki, uca Allah gecəni dincəlmək vaxtı etmişdir. Bu xüsusda O belə buyurur: **"Gecələr sizi öldürən, gündüzlər isə nələr etdiyinizi bilən Odur. Sonra O, sizi səhərlər oyadır ki, müəyyən olunmuş əcəliniz gəlib çatsın."**[1] Gecələr gələn bu yuxu elə bir kiçik ölümdür ki, həmin vaxt sinirlər sakitləşir, bədən dincəlir və günün yorğunluğunu ataraq növbəti gün iş görmək üçün güc yığır. Səhər açılan kimi hər kəs evindən çıxıb işinin dalınca gedir. Beləliklə də, müsəlmanlar xeyirli əməllər etməyə, kafirlər isə şər işlər görməyə tələsərlər.

Müsəlman səhər açılan kimi qalxıb dəstəmaz alıb təmizlənir. Necə ki, hədisdə: **"Təmizlik imanın yarısıdır"**– deyilir. Sonra gedib namaz qılır. Beləcə, gününü Allaha ibadətlə – dəstəmaz alıb namaz qılmaqla başlayır. Bu da bəndə ilə Rəbbi arasında əlaqə yaradan vasitədir. De-

---

[1] əl-Ənam, 60.

mək, adam gününü bu saleh əməllə başlayır. Hətta gününü tövhidlə də başlayır. Belə ki, hər bir müsəlmana yuxudan oyanan kimi Allahı zikr etmək[1] və "Ali-İmran" surəsinin son on ayəsini oxumaq müstəhəbdir.[2] Uca Allah buyurur: **"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır..."** ayəsindən başlayaraq surənin axırınadək. Budur müsəlmanın halı.

Səhər açıldıqda evindən çıxan adam nəfsini satır. Lakin görəsən adamın öz nəfsini satması onu *əzabdan* azad edəcək satışdırmı?! Müsəlmanın nəfsini satması, onu əzabdan qurtaran bir satışdır. Kafirin öz nəfsini satması isə onu həlak edəcək bir satışdır. Belə ki, kafir, səhər açıldıqda, özünü həlak edəcək işlərin dalınca gedər. Çünki o, gününü Allaha üsyan etməklə başlayır. Hətta gününü yemək-içməklə başlasa belə Qiyamət günü cəzalandırılacaqdır. Kafir ağzına qoyduğu hər loxmaya, içdiyi hər damla suya və geydiyi hər libasa görə, Haqq-hesab günü cəzasını alacaqdır. Buna dəlil uca Allahın bu ayəsidir: **"De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında, *xüsusilə də* Qiyamət günü yalnız möminlərə məxsusdur.""**[3] Yəni bu nemətlər dünya həyatında yalnız möminlərə məxsus olacaq. Qiyamət günü də bu nemətlərə görə onlara heç bir günah yazılmayacaq. Bu ayənin əks anlamından bu nemətlərin möminlərdən başqasına haram olduğu, Qiyamət günü kafirlərə nemət verilməyəcəyi və həmin gün onların bu nemətlərdən dolayı cəzalandırılacaqları başa düşülür.

---

[1] Yuxudan oyandıqda oxunan zikr belədir:

(( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللهِ، وَالْحَمْدُ للهِ، وَلاَ إِلَهَ إِلاَّ اللهُ، وَاللهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ الْعَلِيِّ الْعَظِيمِ، رَبِّ اغْفِرْ لِي ))

"Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Allah pak və müqəddəsdir. Həmd Allahadır. Allahdan başqa məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allahdadır! Ey Rəbbim məni bağışla!" Sunən İbn Macə, 3878; əl-Kəlim ət-Tayyib, 43.

[2] İbn Abbas ﺭﺿﻲ ﺍﻟﻠﻪ ﻋﻨﻬﻤﺎ rəvayət etmişdir ki, bir gecə Peyğəmbər ﷺ yuxudan oyandı və gözlərini ovxalayıb, yuxusunu dağıtdı. Sonra "Ali-İmran" surəsinin son on bir ayəsini oxudu. (Sunən ət-Tirmizi, 3401; Səhih əl-Cami, 716).

[3] əl-Əraf, 32.

Uca Allah, həmçinin, ən son nazil etdiyi əl-Maidə surəsində belə buyurur: **"İman gətirib yaxşı işlər görən kimsələrə daddıqları şeylərə görə heç bir günah gəlməz."[1]** Ayənin əks anlamından, iman gətirməyənlərin daddıqları hər nemətdən dolayı günah qazandıqları başa düşülür. Belə ki, kafir adam səhər açılan kimi nəfsini həlak edəcək işlər üçün satır. Mömin isə nəfsini azad etmək, Cəhənnəm əzabından qurtarmaq üçün çalışır. Allah bizim hamımızı o möminlərdən etsin!

Hədisin axırında Rəsulullah ﷺ insanların iki qismə ayrıldığını bəyan edir.

Onlardan biri: **"Quran sənin ya lehinə hüccətdir"** ifadəsində olduğu kimi Quranın, özlərinin lehinə olduğu kimsələr, digəri isə: **"ya da sənin əleyhinə hüccətdir"** ifadəsində olduğu kimi Quranın əleyhlərinə olduğu kimsələrdir.

Bir qismi saleh əməlləri ilə özlərini Cəhənnəmdən qurtaran kimsələr, digərləri isə pis əməlləri ilə özlərini həlaka sürükləyən kimsələrdir.

٢٦ - وَعَنْ أَبِي سَعِيدٍ سَعْدِ بْنِ مَالِكٍ بْنِ سِنَانٍ الخُدْرِيِّ رضي الله عنهما: أَنَّ نَاساً مِنَ الأنصَارِ سَأَلُوا رَسُولَ الله ﷺ فأَعْطاهُم، ثُمَّ سَأَلُوهُ فَأَعْطَاهُمْ، حَتَّى نَفِدَ مَا عِنْدَهُ، فَقَالَ لَهُمْ حِينَ أَنفَقَ كُلَّ شَيْءٍ بِيَدِهِ: «مَا يَكُنْ عِنْدِي مِنْ خَيْرٍ فَلَنْ أَدَّخِرَهُ عَنْكُمْ، وَمَنْ يسْتَعْفِفْ يُعِفَّهُ اللهُ، وَمَنْ يَسْتَغْنِ يُغْنِهِ اللَّهُ، وَمَنْ يَتَصَبَّرْ يُصَبِّرْهُ اللَّهُ. وَمَا أُعْطِيَ أَحَدٌ عَطَاءً خَيْراً وَأَوْسَعَ مِنَ الصَّبْرِ» مُتَّفَقٌ عَلَيْهِ.

**26.** Əbu Səid Səd ibn Malik ibn Sinan əl-Xudri رضي الله عنهما rəvayət edir ki, ənsardan bir qrup adam Peyğəmbərdən ﷺ *yardım* istədilər, o da onlara *istədiklərini* verdi. Sonra yenə istədilər, o, yenə onlara *istədiklərini* verdi. Nəhayət, onun yanındakı mal bitdi. O, əlində olan hər bir şeyi verdikdən sonra onlara belə dedi: "Əlimdə nə qədər mal olsaydı, onu sizdən əsirgəməzdim. İffətli olmaq istəyən kimsəni Allah iffətli edər. *İnsanlara* möhtac olmaq istəməyən kimsəni Allah heç kəsə möhtac etməz. Səbir etməyə çalışan kimsəni Allah səbirli olmağa müvəffəq edər. Heç kəsə səbirdən daha xeyirli və daha bol nemət verilməmişdir."

---

[1] əl-Maidə, 93.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Peyğəmbərin ﷺ gözəl əxlaqından idi ki, birisi ondan bir şey istədikdə, imkan daxilində ona istədiyini verərdi. İmkan olduğu halda kiməsə istədiyini vermədiyi heç görülməmişdir. Əksinə, özü kasıb yaşadığı halda, hətta bəzən aclıqdan qarnına daş bağladığı halda, kasıblıqdan qorxmayıb ehtiyacı olan insanları əli boş qaytarmazdı. Peyğəmbər ﷺ insanların ən səxavətlisi və ən cömərdi idi.

*Hədisdə xəbər verilir ki,* əlindəkilər bitdikdən sonra dedi: **"Əlimdə nə qədər mal olsaydı, onu sizdən əsirgəməzdim."** Yəni demək istəyir ki, əlində olan malı saxlayıb onlara verməməsi qeyri-mümkündür. Əgər vermirsə, demək əlində heç bir şey qalmamışdır.

Daha sonra Peyğəmbər ﷺ səhabələrinə: **"İffətli olmaq istəyən kimsəni Allah iffətli edər. *İnsanlara* möhtac olmaq istəməyən kimsəni Allah heç kəsə möhtac etməz. Səbir etməyə çalışan kimsəni Allah səbirli olmağa müvəffəq edər"**– deyərək onları üç şeyə təşviq edir:

**Birincisi**, iffətli yaşamaqdır. Kim iffətli yaşamaq istəsə, Allah onu iffətli edər. Yəni Allahın ona haram buyurduğu qadınlarla əlaqəyə girməkdən çəkinsə, Allah onu iffətli edər. İffət xüsusunda nəfsinə uyan kimsə isə həlak olar. Belə ki, adam nəfsinə uyub qadınların dalına düşərsə, məhv olar: əvvəlcə gözləri, qulaqları, əlləri və ayaqları zinaya mübtəla olar, axırda da cinsi əlaqəyə girər. Zina murdar əməllərdəndir. Lakin insan bu haramdan uzaq durub iffətli olmağa çalışsa, Allah onu iffətli edər, üstəlik həm onu, həm də onun ailəsini qoruyar.

**İkincisi**: **"*İnsanlara* möhtac olmaq istəməyən kimsəni Allah heç kəsə möhtac etməz."** Yəni Allahın verdiyi ruzi ilə kifayətlənib insanların əlində olana göz dikməyən, kimsəni Allah zəngin edər, onlara möhtac etməz. İnsanlardan istəyən və onların əlində olana möhtac olduğunu düşünən kimsənin isə qəlbi kasıb olar və daim onlara möhtac olar. Əsil zənginlik, qəlb zənginliyidir. Adam Allahın ona verdiyi ilə kifayətlənib insanların əlində olana göz dikməsə, Allah onu insanlara möhtac etməz, onu dilənməkdən uzaq tutar və onu qürurlu edər.

---

[1] Səhih əl-Buxari, 1469; Səhih Muslim, 1053.

<u>Üçüncüsü</u>, **"Səbir etməyə çalışan kimsəni Allah səbirli olmağa müvəffəq edər."** Yəni əgər nəfsini Allahın haram buyurduqlarından uzaq tutsan, öz kasıb və ehtiyaclı halına səbir edib insanlardan heç bir şey istəməsən, Allah sənə səbir etməkdə kömək edər və səni səbirli olmağa müvəffəq edər. Bu hədis bu cümləyə görə bu fəsildə zikr edilmişdir. Çünki söhbət səbirdən gedir.

Sonra Rəsulullah ﷺ: **"Heç kəsə səbirdən daha xeyirli və daha bol nemət verilməmişdir"** buyurur. Yəni Allah, heç kəsə səbirdən daha xeyirli və geniş bir nemət verməmişdir. Çünki əgər insan səbirli olarsa, hər bir çətinliyə dözə bilər. Başına bir müsibət gəlsə, səbir edər; şeytan onu haram iş görməyə təşviq etsə, səbir edər; şeytan onu Allahın əmrlərindən uzaqlaşdırmağa çalışsa, səbir edər. Əgər Allah insana səbir bəxş etmişdirsə, demək, ona ən xeyirli və ən böyük nemət nəsib etmişdir. Elə buna görə də, səbirli adam insanlardan bir əziyyət gördüyündə sakit və rahat halda olur. Onlar ona xoşagəlməz sözlər desələr də, onunla ədavət aparsalar da, o özünü sakit aparar, özündən çıxıb qəzəblənməz. Çünki o, Allahın ona göndərdiyi bu sınaq qarşısında səbir edir. Odur ki, beləsinin qəlbinin daim rahat və sakit olduğunu görürsən. Elə buna görə də Rəsulullah ﷺ: **"Heç kəsə səbirdən daha xeyirli və daha bol nemət verilməmişdir"**– demişdir. Müvəffəqiyyət Allahdandır.

٢٧ - وَعَنْ أبي يَحْيَى صُهَيْبِ بْنِ سِنَانٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ الله ﷺ: «عَجَباً لأمْرِ المُؤْمِنِ إنَّ أمْرَهُ كُلَّهُ لَهُ خَيرٌ، وَلَيسَ ذَلِكَ لأَحَدٍ إلاَّ للمُؤْمِن: إنْ أصَابَتْهُ سَرَّاءُ شَكَرَ فَكَانَ خَيراً لَهُ، وإنْ أصَابَتْهُ ضَرَّاءُ صَبَرَ فَكَانَ خَيْراً لَهُ» رواه مسلم.

**27.** Əbu Yəhya Suheyb ibn Sinan رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Möminin halı qəribədir! Həqiqətən də, onun hər bir işində onun üçün xeyir vardır. Bu da yalnız māminə xasdır. *Belə ki,* ona xoş bir şey nəsib olduqda şükür edər və bu onun xeyrinə olar, habelə, başına bir müsibət gəldikdə səbir edər və bu da onun xeyrinə olar."

Hədisi Muslim rəvayət etmişdir.[1]

---

[1] Səhih Muslim, 2999.

**Şərh:**

Rəsulullah ﷺ demişdir: **“Möminin halı qəribədir! Həqiqətən də, onun hər bir işində onun üçün xeyir vardır.”** Burada Rəsululullah ﷺ möminin halının yaxşı mənada heyrət doğuran bir hal olduğunu göstərir. Çünki möminin hər bir işi onun üçün xeyirdir və bu, ancaq möminə məxsusdur.

Rəsulullah ﷺ daha sonra bu xeyrin necə olduğunu açıqlayıb deyir: **“Ona xoş bir şey nəsib olduqda şükür edər və bu onun xeyrinə olar, habelə, başına bir müsibət gəldikdə səbir edər və bu da onun xeyrinə olar.”** Bu, möminin halıdır. Hər bir insan, Allahın qəza və qədəri qarşısında iki haldan birini yaşayar: ya sevindirəcək bir şey, ya da kədərləndirəcək bir bəla. İnsanlar bu durumlarda iki qismə bölünür: mömin və qeyri-mömin. Mömin üçün, Allahın onun qədərinə yazdığı hər bir şey xeyirlidir: başına bir müsibət gəldikdə Allahın qədərinə səbir edər, Allahın, onu bu müsibətdən qurtarmasını gözləyər, Allahın ona savab yazacağına ümid edər. Beləcə bu müsibət, onun üçün xeyirli olar və o, səbir edənlərin mükafatına nail olar. Həmçnin, mömin adama elm və saleh əməl kimi dini nemətlər, habelə mal-dövlət, övlad və həyat yoldaşı kimi dünyəvi nemətlər bəxş edildikdə, itaət və ibadət etməklə Allaha şükür edər. Çünki şükür sadəcə dildə “Allaha şükür edirəm” deməklə olmur, əksinə, şükür həm də Alaha itaət və ibadət etməklə olur. Beləcə, adam Allaha şükür edər və bu nemət onun xeyrinə olar. Bir nemət sayəsində iki neməti birdən qazanmış olar: dini və bir də dünyəvi nemət. Ona *Allah nemət verir və bu* verilən nemət dünyəvi nemət, *bu verilən* nemətə şükür etməsi isə dini nemət sayılar. Budur möminin halı. Hətta müsibət gəldikdə belə xeyir qazanmış olar.

Kafir isə həmişə şər içində olar. Başına bir bəla gəldikdə səbir etməz, əksinə, təşvişə düşər, ah-vay edib qədərdən narazı qalar, zamanı söyər, hətta Allahı da söyər. Ona bir nemət verildiyində isə Allaha şükür etməz, beləcə, o nemətə görə, Qiyamət günü ona cəza verilər. Çünki kafir, hər yediyi loxmaya və hər içdiyi suya görə günah qazanır. Bu, mömin üçün günah sayılmasa da, kafir üçün günah sayılır. Bu xüsusda uca Allah belə buyurur: **“De: “Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?” De: “Bunlar dünya hə-**

**yatında,** ***xüsusilə də*** **Qiyamət günü yalnız möminlərə məxsusdur."**[1] Bu nemətlər, həm bu dünyada, həm də Qiyamət günü ancaq möminlərə məxsusdur. Kafirlərin isə heç bir nəsibi yoxdur; onların yedikləri haram sayılar, axirətdə də onun cəzasını çəkərlər. Kafirin başına bir müsibət gəlsə də, ona bir nemət bəxş edilsə də, fərq yoxdur, hər bir halda o, ziyana uğrayar. Mömin isə tam əksinə, həmişə xeyir qazanar.

Bu hədis insanı imana təşviq edir, üstəlik, mömininin daim xeyir və nemət içində olduğunu göstərir.

Həmçinin, bu hədis müsibətlərə səbir etməyə təşviq edir və bunun möminə xas xislətlərdən olduğunu bildirir. Başına bir müsibət gəldikdə, səbir edir, qurtuluşu Allahdan gözləyir və bunun savabını Ondan umursansa, bil ki, bu, imanın əlamətidir. Yox əgər tam əksini duşunürsənsə, o halda yalnız özünü qına, əməllərini düzəlt və Allaha tövbə et.

Bu hədis, həmçinin insanı ona verilən nemətlərə şükür etməyə təşviq edir. Belə ki, insanın hər hansı bir nemətə görə Rəbbinə şükür etməsi, yalnız Rəbbinin onu şükür etməyə müvəffəq etməsinə bağlıdır. Şükür etmək, nemətlərin artmasına səbəb olan amillərdəndir. Bu xüsusda uca Allah belə buyurur: **"O zaman Rəbbiniz** ***belə*** **buyurmuşdu: "Əgər şükür etsəniz, sizə** ***olan nemətimi*** **artıraram, yox əgər nankorluq etsəniz,** ***bilin ki,*** **Mənim əzabım şiddətlidir."**[2] Əgər Allah, bir insanı şükür etməyə müvəffəq etmişsə, bunun özü bir nemətdir və bu nemətə görə ikinci dəfə şükür etmək lazımdır... insan buna şükür etməyə də müvəffəq olsa, bu da bir nemət sayılır və buna görə də üçüncü dəfə şükür etmək lazım gəlir... Beləcə, nemətlər artdıqca, şükrü də artırmaq gərəkdir. Çünki nemətlərə şükür edən çox azdır. Əgər Allah səni şükür etməyə müvəffəq etmişdirsə, bunun özü də bir nemətdir. Odur ki, bir şair öz şeirində belə deyir:

Allahın verdiyi nemətə şükür etməyim, özü bir nemətdirsə,
Mənim bu nemətə də, şükür etməyim gərəkdir.
Necə şükür etməyim? Axı bu ancaq Onun lütfü ilədir.
Günlər keçsə də, ömür davam etsə də, bu həmişə belə olacaq.

---

[1] əl-Əraf, 32.

[2] İbrahim, 7.

Necə də doğru söyləmişdir! Çünki əgər Allah səni şükür etməyə müvəffəq etmişsə, bunun özü yenə şükür tələb edən bir nemət sayılır. Əgər bu nemətə də şükr etsən, bu da şükür tələb edən ikinci bir nemət olar. Bu nemətə də şükr etsən, bu da şükür tələb edən üçüncü bir nemət olar. Beləcə, sonsuza qədər davam edər. Lakin biz, həqiqətdə bundan xəbərsizik. Allahdan, öz qəlbimizi və sizin qəlbinizi qəflətdən oyandırmasını, bizləri və sizləri islah etməsini diləyərik. Şübhəsiz ki, O, comərtdir, çox səxavətlidir.

٢٨ - وعنْ أَنسٍ ﵁ قَالَ: لمَّا ثقُلَ النَّبِيُّ ﷺ جَعَلَ يتغشَّاهُ الكرْبُ، فقَالتْ فاطِمَةُ ﵂: واكَرْبَ أبتَاهُ، فَقَالَ: «ليْسَ عَلَى أبيك كرْبٌ بعْدَ اليَوْمِ» فلمَّا مَاتَ قالَتْ: يَا أبتَاهُ أَجَابَ ربّاً دعَاهُ، يا أبتَاهُ جنَّةُ الفِرْدَوْسِ مأوَاهُ، يَا أَبَتَاهُ إِلَى جبْرِيلَ نْنعَاهُ، فلَمَّا دُفنَ قالتْ فاطِمَةُ ﵂: أطَابتْ أنفسُكُمْ أَنْ تَحْثُوا عَلَى رسُول الله ﷺ التُّرابَ؟ روَاهُ البُخاريُّ.

**28.** Rəvayət edilir ki, Ənəs ﵁ demişdir: "Peyğəmbərin ﷺ xəstəliyi ağırlaşıb bayıldığı zaman Fatimə ﵂: "Yazıq atam, iztirab çəkir!"– demiş, Peyğəmbər ﷺ də *ayıldıqda ona*: "Bu gündən sonra atan iztirab çəkməyəcək!"– demişdir." Rəsulullah ﷺ vəfat etdikdə isə, Fatimə ﵂ *ağlaya-ağlaya* demişdir: "Ey Rəbbinin dəvətini qəbul edən atam! Ey yurdu Firdovs cənnəti olan atam! Ey Cəbrailə ölüm xəbərini verdiyimiz atam!" Rəsulullahın ﷺ dəfni başa çatdıqda isə Fatimə ﵂ səhabələrə: "Rəsulullahın ﷺ üzərinə torpaq atmağa könlünüz necə razı oldu?!"– demişdir."

Hədisi Buxari rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin ﵀ Ənəs ibn Malikdən ﵁ rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbərin ﷺ ölümü ilə nəticələnən xəstəliyi ağırlaşdığı zaman **iztirabın şiddətindən özündən gedirdi."** Yəni, başına gələn xəstəliyin şiddətindən dolayı iztirab çəkir və bu iztiraba görə də özündən gedirdi. Rəsulullahın ﷺ xəstəliyi adi insan xəstəliyindən iki dəfə ağır keçər-

[1] Səhih əl-Buxari, 4462.

di. Bunun hikməti bu idi ki, o, səbrin ən ali dərəcəsinə yüksəlsin. Çünki səbir elə ali dərəcədir ki, ona yalnız Allahın göndərdiyi sınaqlar sayəsində yetişmək olar və yalnız xoşagəlməz şeylərə təhəmmül etməklə səbirli olmaq olar. Adamın başına müsibət gəlməsə, onun səbirli olub-olmadığı necə aşkar ola bilər?! Odur ki, uca Allah buyurur: **"Biz aranızdakı mücahidləri və səbir edənləri ayırd edənədək sizi mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq."**[1]

Rəsulullah ﷺ iztirabdan bayıldığı zaman Fatimə ﵂: **"Yazıq atam, iztirab çəkir!"**– dedi. Rəsulullahın ﷺ iztirabından dolayı Fatimə ﵂ də iztirab çəkirdi. Çünki o, qadındır və qadınlar belə halda səbir edə bilmirlər. Rəsulullah ﷺ onun sözünü eşidəndə: **"Bu gündən sonra atan iztirab çəkməyəcək!"**– dedi. Çünki Rəsulullah ﷺ bu dünyadan uca dostların yanına köçdüyü və əcəli yetişdiyi zaman: **"Allahım ən uca dostlara qovuşmağı, ən uca dostların yanında olmağı diləyirəm!"**[2]– deyir və evin tavanına baxırdı.

Rəsulullah ﷺ vəfat etdikdə, Fatimə ﵂ ağı çəkdi. Lakin bu, Allahın qəzavü-qədərinə etiraz əlaməti olmayan, sadə bir ağı idi.

Fatimə ﵂: **"Ey Rəbbinin dəvətini qəbul edən atam!"**– deyir. Belə ki, hər şeyin ixtiyarı, yaradılanların əcəli, varlıqların idarəsi məhz Allahın əlindədir. Hər şey Allahındır, dönüş Onadır, qayıdış yeri də Onun hüzurudur.

Rəsulullah ﷺ Allahın dəvətini qəbul etmişdir. Belə ki, vəfat etdiyi zaman digər möminlər kimi ruhu göyə yüksəlmiş, yeddi qat göyün üstündə uca Allahın hüzurunda durmuşdur.

Fatimə ﵂: **"Ey yurdu Firdovs cənnəti olan atam!"**– deyir. Çünki Cənnətdə ən yüksək mərtəbədə olan bəndə Rəsulullahdır ﷺ. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Müəzzinin azan verdiyini eşitdiyiniz zaman siz də onun dediklərini təkrar edin. Sonra mənə salavat oxuyun. Hər kim mənə bir salavat oxuyarsa, Allah ona bunun sayəsində on salavat yetirər. Sonra Allahdan mənim üçün vasitəçilik haqqı**

---

[1] Muhəmməd, 31.

[2] Səhih əl-Buxari, 4463; Səhih Muslim, 2444.

**diləyin.[1] Çünki, vasitəçilik Cənnətdə Allahın qullarından yalnız birinə məxsus olan bir məqamdır. Umuram ki, o qul mənəm. Hər kim mənim üçün *Allahdan* vasitəçilik haqqı diləyərsə, şəfaətimə nail olar."**[2] Şəkk yoxdur ki, Peyğəmbərin ﷺ yeri Firdovs cənnətidir. Firdovs cənnəti, Cənnətin ən yüksək mərtəbəsi, üzərindəki tavanı da, uca Allahın ərşidir. Peyğəmbərimiz ﷺ də bu cənnətin ən yüksək mərtəbəsindədir.

Fatimə رضي الله عنها: **"Ey Cəbrailə ölüm xəbərini verdiyimiz atam!"**– deyirdi. Ərəbcə: "nay" ölüm xəbərini vermək mənasını ifadə edir. Fatimə رضي الله عنها: "Biz, Cəbrailə Rəsulullahın ﷺ ölüm xəbərini veririk"– deyir. Çünki Rəsulullaha ﷺ səhər-axşam vəhy gətirən Cəbrail عليه السلام idi. Dolayısıyla Peyğambər ﷺ vəfat etdikdən sonra Cəbrail عليه السلام vəhy gətirmək üçün bir daha yer üzünə enməyəcəkdi. Çünki Rəsulullahın ﷺ vəfatı ilə birlikdə vəhy də kəsildi.

Səhabələr Peyğəmbəri ﷺ çiyinlərində aparıb dəfn etdikdən sonra Fatimə رضي الله عنها: **"Rəsulullahın ﷺ üzərinə torpaq atmağa könlünüz necə razı oldu?!"**– demişdir. Fatimə رضي الله عنها Rəsulullahın ﷺ vəfatından kədərləndiyi, bundan çox təsirləndiyi və səhabələrin onu necə çox istədiyini bildiyi üçün belə demişdir. Onun sualının cavabı belədir: Bəli, könülləri razı oldu. Çünki bu, Allahın dilədiyidir. Bu, Allahın şəriətidir. Əgər yer üzündəki sərvətləri vermək müqabilində Peyğəmbərin ﷺ dünyaya qaytarılması mümkün olsaydı, səhabələr yer üzündəkilərin hamısını fəda edərdilər. Lakin hökm yalnız Allaha aiddir və dönüş də ancaq Onadır. Necə ki, uca Allah buyurur: **"Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər! Sonra siz Qiyamət günü Rəbbinizin hüzurunda mübahisə edəcəksiniz."[3]**

**Hədisdən çıxan faydalar:**

---

[1] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim azandan sonra:

(( اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ وَالصَّلاَةِ الْقَائِمَةِ آتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِى وَعَدْتَهُ ))

"Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin təriflənən məqama çatdır"– desə, Qiyamət günü mənim şəfaətim ona yetişər" (Səhih əl-Buxari, 614).

[2] Səhih Muslim, 383.

[3] əz-Zumər, 30-31.

Bu hədis Rəsulullahın ﷺ digər insanlar kimi xəstələndiyini, acdığını, susadığını, üşüdüyünü, isindiyini və ümumiyyətlə insana aid olan hər şeyin ona da aid olduğunu bəyan edir. Necə ki, Rəsulullah ﷺ buyurur: **"Mən də, sizin kimi bir bəşərəm. Siz unutduğunuz kimi, mən də unuduram."**[1]

Bu hədisdə Rəsulullahı ﷺ Allaha şərik qoşan və Rəsulullah ﷺ qəbirdə olduğu halda onu çağıran və onun vasitəsi ilə yardım istəyənlərə rədd vardır. Hətta bəziləri Allahdan yox, bir başa Rəsulullahdan ﷺ istəyirlər. Sanki duaları qəbul edən Rəsulullahdır ﷺ. Bunlar dində yolunu azmış və ağlını itirmiş kimsələrdir. Rəsulullah ﷺ, heç özünə fayda verməyə və ya zərəri dəf etməyə qadir olmadığı halda, başqasına necə kömək edə bilər?! Uca Allah Peyğəmbərinə ﷺ belə buyurmuşdur: **"De: "Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm..."**[2] Yəni mən sadəcə bir qulam. Elə buna görə də ayənin davamında deyilir: "**Mən yalnız mənə vəhy olunana tabe oluram.**" Başqa bir ayədə də Allah, ona belə buyurur: **"De: "Mən sizə nə ziyan verməyə, nə də *sizi* doğru yola yönəltməyə qadirəm!" De: "Həqiqətən, məni Allahdan heç kəs xilas edə bilməz və mən Ondan başqa bir sığınacaq yeri tapa bilmərəm! *Mənim əlimdən gələn* ancaq Allahı və Onun göndərdiklərini təbliğ etməkdir."**[3]

Uca Allah: **"Ən yaxın qohumlarını qorxut!"**[4] ayəsini nazil etdikdə, Rəsulullah ﷺ qohumlarını çağırmış və onlara xitab edərkən belə buyurmuşdur: **"Ey Muhəmmədin qızı Fatimə, malımdan nə istəyirsənsə, istə. Mən səni Allahın *əzabından* qurtara bilməyəcəyəm."**[5] Əgər Peyğəmbər ﷺ öz ciyər-parəsi olan və başına bir iş gəldikdə olduqca

---

[1] Səhih əl-Buxari, 401 Səhih Muslim, 572.

[2] əl-Ənam, 50.

[3] əl-Cinn, 21-23.

[4] əş-Şuəra, 214.

[5] Səhih əl-Buxari, 2753; Səhih Muslim, 204. Hədisin əvvəli belədir: "Ey qureyşlilər, canınızı *Allahın əzabından* qurtarın!" Mən sizi Allahın *əzabından* qurtara bilməyəcəyəm. Ey Abdumənaf oğulları, mən sizi Allahın *əzabından* qurtara bilməyəcəyəm. Ey Abbas ibn Abdulmuttəlib, mən səni Allahın *əzabından* qurtara bilməyəcəyəm. Ey Peyğəmbərin bibisi Səfiyyə, mən səni Allahın *əzabından* qurtara bilməyəcəyəm. Ey Muhəmmədin qızı Fatimə..."

çox üzüldüyü qızına belə fayda verməyə qadir deyilsə, gerisini özünüz düşünün! Bu dəlildir ki, əgər Fatiməyə رضي الله عنها fayda və ya zərər verə bilməzsə, ondan qeyrisinə də həmçinin fayda və ya zərər verə bilməz.

Bu hədis Peyğəmbərə ﷺ dua edən kimsələrin zəlalətə düşdüyünü göstərir. Biz onları Peyğəmbərin ﷺ məscidində qəbrə tərəf üz tutub dua etdiklərini görürük. Onlar sanki namazda Allahın hüzurunda durmuş kimi, hətta ondan da müti halda qəbrin önündə dururlar.

Bu hədis dəlildir ki, Allahı qəzəbə gətirməyəcək tərzdə, ölən adam üçün yüngül ağı demək olar. Çünki Fatimə رضي الله عنها Rəsulullah ﷺ üçün yüngülvari ağı demiş, lakin Allahın yazdığı qədərə etiraz etməmişdir.

Bu hədisdən bizə o da aydın olur ki, Fatimə رضي الله عنها Rəsulullahın ﷺ vəfatından sonra həyatda qalmışdır. Rəsulullahın ﷺ vəfatından sonra onun övladlarından həyatda qalanı sadəcə Fatimədir. Digər övladları isə, o, həyatda ikən vəfat etmişlər. Qeyd edək ki, Fatiməyə رضي الله عنها atasından heç bir miras qalmamışdır. Ümumiyyətlə, Rəsulullahdan ﷺ nə ona, nə zövcələrinə, nə əmisi Abbasa رضي الله عنه, nə də başqa bir varisə miras qalmışdır. Çünki peyğəmbərlər özlərindən sonra miras qoymurlar. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Biz peyğəmbərlər özümüzdən sonra miras qoymuruq. Qoyub getdiyimiz ancaq sədəqədir."**[1] Bunda Allahın böyük bir hikməti var. Belə ki, əgər onlar özlərindən sonra mal-mülk qoyub getsəydilər, bəzi adamlar: "Bu peyğəmbərlər, Allahın elçiləri olduqlarını iddia etmiş, lakin atadan oğula keçən səltənət və zənginlik əldə etmək istəmişlər"– deyə bilərdi. Lakin Allah, buna yol vermədi. Odur ki, peyğəmbərlər özlərindən sonra miras qoymamışlar, əksinə, qoyub getdikləri hər şey sədəqə olaraq ehtiyacı olan kimsələrin arasında paylaşdırılmışdır. Müvəffəqiyyət Allahdandır.

٢٩ - وعنْ أبي زيْد أُسامَة بن زَيْدِ بْنِ حَارِثَةَ موْلَى رسُول الله ﷺ وحبَّهِ وابْنِ حبِّهِ رضي الله عنهما ، قالَ: أَرْسلَتْ بنْتُ النَّبِيِّ ﷺ: إنَّ ابْنِي قَدِ احتُضِرَ فاشْهدْنَا، فأَرسَلَ يقْرِئُ السَّلامَ ويَقُول: «إن للَّه مَا أَخذَ، ولهُ مَا أعْطَى، وكُلُّ شَيْءٍ عِنْدَهُ بأجَلٍ مُسمًّى، فلتصْبِر ولتحْتسبْ» فأرسَلَتْ إِليْهِ تُقْسمُ علَيْهِ ليأْتينَّها. فَقَامَ وَمَعَهُ سَعْدُ بْنُ عُبادَةَ، وَمُعَاذُ ابْنُ جبَلٍ، وَأُبَيُّ بْنَ

[1] Səhih əl-Buxari, 6727; Səhih Muslim, 1759.

كَعْبٍ، وَزَيْدُ بْنِ ثَابِتٍ، وَرِجَالٌ رضي الله عنهم ، فَرُفِعَ إِلَى رَسُولِ اللَّهِ ﷺ الصبيُّ، فأقعَدَهُ فِي حِجْرِهِ وَنَفْسُهُ تَقعْقعُ، فَفَاضتْ عَيْناهُ، فقالَ سعْدٌ: يَا رسُولَ الله مَا هَذَا؟ فقالَ: «هَذِهِ رَحْمةٌ جعلَهَا اللَّهُ تعَالَى فِي قُلُوبِ عِبَادِهِ»

وفي رِوايةٍ: «فِي قُلُوبِ منْ شَاءَ مِنْ عِبَادِهِ وَإِنَّمَا يَرْحَمُ اللَّهُ منْ عِبَادِهِ الرُّحَمَاءَ». مُتَّفَقٌ عَلَيْهِ.

وَمَعْنَى « تَقَعْقَعُ »: تَتحَرَّكُ وتَضْطَرِبُ.

**29.** Rəvayət edilir ki, Rəsulullahın ﷺ köləlikdən azad etdiyi və sevgili dostu Zeyd ibn Harisənin رضي الله عنه oğlu, çox sevdiyi Əbu Zeyd Usamə ibn Zeyd رضي الله عنهما demişdir: "Peyğəmbərin ﷺ qızı: "Oğlum ölüm ayağındadır, bizə gəl!"– deyə *atasına* xəbər göndərdi. Peyğəmbər ﷺ qızına salam göndərdi və *onun istəyinə* belə cavab verdi: "Allahın aldığı da, verdiyi də Ona məxsudur. Onun yanında hər bir şeyin müəyyən əcəli vardır. Səbir etsin və *bunun əvəzində Allahdan* savab umsun!" Buna rəğmən qızı "Allahı and verirəm, mütləq bizə gəlsin" deyə yenə atasına xəbər göndərmişdi. Peyğəmbər ﷺ də qalxıb Səd ibn Ubadə, Muaz ibn Cəbəl, Ubey ibn Kəb, Zeyd ibn Sabit və başqa bir neçə səhabə ilə onun yanına gəldi. *Evə daxil olduqda,* uşağı Peyğəmbərə ﷺ verdilər. O da onu alıb ayağının üstünə oturtdu. Uşağın bədəni titrəyirdi. *Bunu görəndə* Peyğəmbərin ﷺ gözləri yaşla doldu. Səd رضي الله عنه dedi: "Ya Rəsulullah, bu nədir, *ağlayırsan*?" Peyğəmbər ﷺ buyurdu: "Bu, Allahın qullarının qəlbinə saldığı bir rəhmətdir."

Digər rəvayətdə isə belə deyilir: "...Allahın qullarından istədiyinin qəlbinə yerləşdirdiyi bir rəhmətdir. Allah qullarından yalnız mərhəmətli olanlara rəhm edər."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Ərəbcə "təqa'qau" sözünün mənası hərəkət edir, titrəyir deməkdir.

**Şərh:**

Usamənin رضي الله عنه atası Zeyd ibn Harisə رضي الله عنه, Rəsulullahın ﷺ azad etdiyi kölədir. Belə ki, o, əvvəlcə Xədicənin رضي الله عنها köləsi olmuş, sonra Xədi-

---

[1] Səhih əl-Buxari, 1284; Səhih Muslim, 923.

cə ﵁ onu Rəsulullaha ﷺ hədiyyə etmiş, Rəsulullah ﷺ onu azad etmiş, beləliklə də, onun azad etdiyi köləsi sayılmışdır. Zeyd, "Rəsulullahın ﷺ sevimlisi" ləqəbə ilə tanınırdı. Oğlu Usamə də, həmçinin, Rəsulullahın ﷺ sevimlisi idi. Həm Usamə, həm də onun atası, – hər ikisindən Allah razı olsun! – Rəsulullahın ﷺ sevimli dostu idi. Usamə rəvayət edir ki, Rəsulullahın ﷺ qızlarından biri Rəsulullahın ﷺ yanına adam göndərərək oğlunun ölüm ayağında olduğunu və ondan körpənin yanına gəlməsini xahiş etmişdir. Gələn adam Rəsulullaha ﷺ qızının sözünü çatdırdıqda, Rəsulullah ﷺ buyurdu: "Qızıma de ki, səbir etsin və *bunun əvəzində Allahdan* savab umsun! Allahın aldığı da, verdiyi də Ona məxsusdur. Onun yanında hər bir şeyin müəyyən əcəli vardır."

Rəsulullah ﷺ qızının göndərdiyi elçiyə əmr etdi ki, qızına, yəni, körpənin anasına belə desin: **"Səbir et!",** yəni səbir etməklə Allahdan əcir/mükafat gözləsin. Çünki bəzi insanlar, səbir edir, lakin bunun əvəzində Allahdan savab ummur, günaha qarşı səbir edir və canı sıxılmır, lakin Allahdan əcr gözləmirlər, beləliklə də, çox böyük fürsəti və xeyri əldən verirlər. Lakin adam səbir edib, Allahdan savab gözləyərsə, yəni, səbir etməklə Allahın ona əcr və mükafat verməsini istəyərsə, *Allahdan* əsl savab ummaq budur. *Peyğəmbər ﷺ belə deyir*: **"ona əmr et ki, səbir etsin."** Yəni, bu müsibətə səbir etsin, və **"*Allahdan* savab umsun."** Yəni, bunun mükafatı izzət və cəlal sahibi olan Allaha aiddir.

**"Allahın aldığı da, verdiyi də Ona məxsudur."** Bu, çox əzəmətli cümlədir. Əgər hər şey Allahındırsa, demək, səndən aldığı və sənə verdiyi hər şey Onundur. Belə isə nə üçün, Allah Öz mülkünə aid olan bir şeyi səndən aldıqda qəzəblənirsən?! Halbuki, Allah sənin sevdiyini əlindən aldıqda, sən: "Bu, Allahındır. O, istədiyini alır, istədiyini də verir"– deməlisən. Elə isə başına bir müsibət gəlmiş adamın: "İnnə lilləhi və innə ileyhi raciun/Biz Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!"– deməsi sünnətdir. Yəni biz Allahın mülküyük və O, bizə istədiyini edə bilər. Həmçinin, bizim sevdiyimiz bir şeyi Allah bizim əlimizdən alarsa, bu da Onundur. Demək, Allahın bizdən aldığı, yaxud bizə verdiyi hər nə varsa, hamısı Onundur. Yəni, Allahın sənə verdiyi hər nə varsa, o sənə məxsus deyil, *əksinə,* Allahındır. Odur ki, Allahın sənə verdiyi nemətlərdən yalnız sənə izin verdiyi kimi istifadə edə bilərsən.

Bu da, sahib olduğumuz mülkün məhdud olduğuna, bu mülkü mütləq şəkildə istədiyimiz kimi istifadə etmək ixtiyarına malik olmadığımıza dəlalət edir. Elə buna görə də, bir adam öz malından Allahın izin vermədiyi bir işə sərf etmək istədikdə, biz ona: "Dayan, sənin belə etməyə ixtiyarın çatmır. Çünki əlindəki mal, Allahın malıdır. Bu malı yalnız Allahın sənə izin verdiyi işlərə sərf edə bilərsən"- deyirik. Necə ki, uca Allah buyurur: **"Allahın sizə verdiyi maldan onlara da verin."**[1] Odur ki, Rəsulullah ﷺ: **"Allahın aldığı da, verdiyi də Ona məxsudur"**– demişdir. Və əgər Allahın aldığı bir şey Ona məxsusdursa, onda biz hansı haqla, buna görə narazılıq edə bilər, mülk sahibinin öz mülkünü geri almasına qəzəblənə bilərik? Bu, həm məntiqə, həm də Allahdan nazil edilənə ziddir.

**"Onun yanında hər bir şeyin müəyyən əcəli vardır."** Uca Allahın Quran da: **"*Allah* yanında hər şeyin müəyyən ölçüsü var"**[2] buyurduğu kimi, hər şeyin Allah yanında bəlli bir ölçüsü vardır. Yəni hər şey öz zamanına, yerinə, zatına, vəsflərinə və ona aid olan hər nə varsa ona uyğun bəlli bir ölçüdə yaradılmışdır.

**"Onun yanında hər bir şeyin müəyyən əcəli vardır."** Əgər biz qəlbən inansaq ki, Allahın aldığı da, verdiyi də Ona məxsudur və Onun yanında hər bir şeyin müəyyən əcəli vardır, bu bizə yetər. Bu cümlə dəlildir ki, insan əzəldən yazılmış qədəri nə önə çəkməklə, nə də təxirə salmaqla dəyişdirə bilər. Necə ki, uca Allah buyurur: **"Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər."**[3] Və əgər hər şeyin ölçüsü bəllidirsə, o, nə önə çəkilər, nə də yubanar. Elə isə onda təlaş etmənin və qəzəblənmənin heç bir faydası yoxdur. Çünki təlaş etsən də, qəzəblənsən də, qədərə yazılanı dəyişdirə bilməzsən.

Sonra Peyğəmbərin ﷺ qızının göndərdiyi adam geri qayıdıb Peyğəmbərin ﷺ dediklərini ona çatdırdı. Lakin Peyğəmbərin ﷺ qızı onu təkrar atasının yanına göndərdi ki, gəlib uşağa baş çəksin. Beləliklə, Peyğəmbər ﷺ bir neçə səhabəsi ilə birlikdə qızının yanına getdi. *Evə*

---

[1] ən-Nur, 33.

[2] ər-Rəd, 8.

[3] Yunus, 49.

*daxil olduqda* uşağı Peyğəmbərin ﷺ qucağına verdilər. Uşağın bədəni titrəyirdi. Yəni, qalxıb enirdi. *Bunu görəndə* Peyğəmbərin ﷺ gözləri yaşla doldu və ağladı. Yanında duran – Xəzrəc qəbiləsinin böyüyü – Səd ibn Ubadə رضي الله عنه dedi: "Ya Rəsulullah, bu nədir, *ağlayırsan*?" Səd Rəsulullahın ﷺ dözməyib ağladığını zənn etmişdi. Peyğəmbər ﷺ isə ona: "Bu, Allahın qullarının qəlbinə saldığı bir rəhmətdir"– dedi. Yəni Allahın yazdığı qədərə etiraz etmək üçün deyil, körpəyə acıdığından dolayı ağladığını bildirdi. Sonra davam edib dedi: **"Allah qullarından yalnız mərhəmətli olanlara rəhm edər."** Bu, dəlildir ki, başına müsibət gəlmiş bir adamın halına acıyıb ağlamaq olar. Sən bir adamın başına müsibət gəldiyini gördükdə, ona acıyıb ağlayırsansa, demək, Allah sənin qəlbinə mərhəmət salmışdır. Allah bir insanın qəlbinə mərhəmət salmışsa, demək, o adam, Allahın rəhmət etdiyi mərhəmətli qullardandır. Allahdan, hamımızı Öz mərhəmətinə qovuşdurmasını diləyərik.

Bu hədis, müsibət gəldikdə səbir etməyin vacib olduğunu bildirir. Çünki Rəsulullah ﷺ: **"Səbir etsin və *Allahdan* savab umsun!"-** demişdir.

Bu hədisdən bizə o da aydın olur ki, Peyğəmbərin ﷺ təsəlli vermək üçün dediyi söz, başsağlığı və təsəlli vermək üçün deyilən sözlərin ən yaxşısıdır. Əlbəttə ki, bu ifadə, bəzilərinin istifadə etdiyi: **"Allah əcrini böyük etsin, sənə gözəl təsəlli nəsib etsin və sənin ölünü bağışlasın"**- ifadəsindən daha əfzəldir. Hərçənd bəzi alimlər, başsağlığı vermək üçün bu sözü işlətməyi münasib görmüşlər, lakin Rəsulullahın ﷺ dediyi kimi: **"Səbir et və *bunun savabını Allahdan* gözlə! Allahın aldığı da, verdiyi də Ona məxsusdur. Onun yanında hər bir şeyin müəyyən əcəli vardır"-** demək daha əfzəldir. Çünki başına müsibət gəlmiş adam bu sözü eşitdikdə, daha çox rahatlıq tapır. Başsağlığı vermək, bəzi avamların zənn etdiyi kimi, yas mərasimi keçirmək, oturacaqlar düzmək, şamlar yandırmaq, Quran oxutdurmaq üçün hafizlər çağırmaq, başsağlığı verməyə gələn adamlara yemək-içmək vermək deyil. Əksinə, başsağlığı vermək, başına müsibət gəlmiş adama təsəlli vermək və onun səbir etməsi üçün ona dəstək olmaqdır. Odur ki, əgər bir adam öz qohumunun, məsələn, əmisi oğlunun ölümü səbəbilə kədərlənməzsə, ona başsağlığı verilməz. Elə buna görə də alimlər: "Başına müsibət gələn

kimsəyə başsağlığı vermək sünnətdir"– demiş, "Ölünün hər bir qohumuna başsağlığı vermək sünnətdir"- deməmişlər. Çünki bəzən bir adamın ölümü, onun əqrabası üçün müsibət sayılmır, lakin ölənin dostları üçün, – ölənin qohumu olmasalar da, bu müsibət sayılır. Deməli, başsağlı qohumlar üçün yox, başına müsibət gəlmiş adam üçündür. Lakin təəssüflər olsun ki, bu günkü gün işlər tərsinə olub və başsağlığı, ölünün qohumlarına verilir. Hətta bəzən qohumlar bu müsibətə sevindikləri və təbil çaldıqları halda o qohumlara başsağlı verilir. Bəzən görürsən ki, kasib biri ilə zəngin əmioğlusu arasında çəkişmələr olur, sonra da əmioğlusu ölür. Əmioğlu milyonları miras qoyub getdiyi halda bu adam, onun ölümünə sevinərmi, yoxsa kədərlənərmi? Adətən sevinər və: "Onunla aramda olan bir çox müşkillərdən məni qurtaran və məni onun malına varis edən Allaha həmd olsun!"– deyər. Beləsinə başsağlığı və təsəlli vermək olmaz. Əgər beləsinə bir söz deyiləcəksə, istehza ilə: "Gözün aydın olsun!"- deyilər.

Elə isə, biz bilməliyik ki, başsağlığı, başına *həqiqi mənada* müsibət gəlmiş adamın səbrini gücləndirmək və ona təsəlli vermək üçündür. Ona görə də, həmin adam üçün ən əfzəl və ən münasib kəlmələrlə başsağlığı verilir. Peyğəmbərin ﷺ başsağlığı üçün dediyi kəlmələrdən yaxşısı da yoxdur. Müvəffəq edən Allahdır.

٣٠ - وَعَنْ صُهَيْبٍ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «كَانَ مَلِكٌ فِيمَنْ كَانَ قَبْلَكُمْ، وَكَانَ لَهُ سَاحِرٌ، فَلَمَّا كَبِرَ قَالَ لِلْمَلِك: إِنِّي قَدْ كَبِرْتُ فَابعَثْ إِلَيَّ غُلامَاً أُعَلِّمْهُ السِّحْرَ، فَبَعَثَ إِلَيْهِ غُلامَاً يعَلِّمُهُ، وَكَانَ فِي طَرِيقِهِ إِذَا سَلَكَ رَاهِبٌ، فَقَعَدَ إِلَيْهِ وَسَمِعَ كَلامَهُ فأَعْجَبهُ، وَكَانَ إِذَا أَتَى السَّاحِرَ مَرَّ بالرَّاهِب وَقَعَدَ إِلَيْه، فَإِذَا أَتَى السَّاحِرَ ضَرَبَهُ، فَشَكَا ذَلِكَ إِلَى الرَّاهِبِ فقال: إِذَا خَشِيتَ السَّاحِر فَقُلْ: حبَسَنِي أَهْلي، وَإِذَا خَشِيتَ أَهْلَكَ فَقُلْ: حَبَسَنِي السَّاحرُ. فَبيْنَمَا هُو عَلَى ذَلِكَ إِذْ أَتَى عَلَى دابَّةٍ عظِيمَة قدْ حَبَسَت النَّاس فقال: اليوْمَ أَعْلَمُ السَّاحِرُ أفْضَلُ أم الرَّاهبُ أفْضلُ؟ فأخَذَ حجَراً فقالَ: اللهُمَّ إنْ كان أمْرُ الرَّاهب أحَبَّ إِلَيْكَ مِنْ أَمْرِ السَّاحِرِ فاقتُلْ هَذِهِ الدَّابَّة حتَّى يمْضِيَ النَّاسُ، فرَماها فقتَلَها ومَضى النَّاسُ، فأتَى الرَّاهب فأخبَرهُ. فقال لهُ الرَّاهبُ: أىْ بُنيَّ أَنْتَ اليوْمَ أفْضلُ منِّي، قدْ بلَغَ مِنْ أمْركَ مَا أَرَى،

وإِنَّكَ ستُبْتَلَى، فإِنِ ابْتُليتَ فَلاَ تدُلَّ عليَّ، وكانَ الغُلامُ يُبْرئُ الأكْمهَ والأبرصَ، ويداوي النَّاس مِنْ سائِرِ الأدوَاءِ. فَسَمعَ جلِيسٌ للملِكِ كانَ قدْ عمِيَ، فأتَاهُ بهداياَ كثيرَةٍ فقال: ما ههُنَا لك أجْمَعُ إنْ أنْتَ شفَيْتني، فقال إنِّي لا أشفِي أحَداً، إِنَّمَا يشْفِي الله تعَالى، فإِنْ آمنْتَ باللَّهِ تعَالَى دعوْتُ الله فشَفاكَ، فآمَنَ باللَّه تعَالى فشفَاهُ اللَّهُ تَعَالَى، فأتَى المَلِكَ فجَلَس إليْهِ كما كانَ يجْلِسُ فقالَ لَهُ المَلكُ: منْ ردَّ علَيْك بصَرك؟ قال: ربِّي. قَالَ: ولكَ ربٌّ غَيْري؟، قَالَ: رَبِّي وربُّكَ الله، فأَخَذَهُ فلَمْ يزلْ يُعذِّبُهُ حتَّى دلَّ عَلَى الغُلاَمِ فجِيءَ بِالغُلاَمِ، فقال لهُ المَلكُ: أىْ بُنَيَّ قدْ بَلَغ منْ سِحْرِك مَا تبْرئُ الأكمَهَ والأبرَصَ وتَفْعلُ وَتفْعَلُ فقال: إنِّي لا أشْفي أَحَداً، إنَّما يشْفي الله تَعَالَى، فأخَذَهُ فَلَمْ يزَلْ يعذِّبُهُ حتَّى دلَّ عَلَى الرَّاهبِ، فجِيءَ بالرَّاهِبِ فقيل لَهُ: ارجَعْ عنْ دِينكَ، فأبَى، فدَعا بالمِنْشَار فوُضِع المنْشَارُ في مفْرقِ رأْسِهِ، فشقَّهُ بِه حتَّى وقَعَ شقَّاهُ، ثُمَّ جِيءَ بجَلِيسِ المَلكِ فقِيلَ لَهُ: ارجِعْ عنْ دينِكَ فأبَى، فوُضِعَ المنْشَارُ في مفْرقِ رَأسِهِ، فشقَّهُ به حتَّى وقَع شقَّاهُ، ثُمَّ جِيءَ بالغُلامِ فقِيل لَهُ: ارجِعْ عنْ دينِكَ، فأبَى، فدَفعَهُ إِلَى نَفرٍ منْ أصْحابِهِ فقال: اذهبُوا بِهِ إِلَى جبَلِ كَذَا وكذَا فاصعدُوا بِهِ الجبلَ، فإِذَا بلغتُمْ ذروتهُ فإنْ رجعَ عنْ دينِهِ وإِلاَّ فاطرَحوهُ، فذهبُوا به فصعدُوا بهِ الجَبَل فقال: اللَّهُمَّ اكفنِيهمْ بمَا شئْت، فرجَف بِهمُ الجَبَلُ فسَقطُوا، وجَاءَ يمْشي إِلَى المَلِكِ، فقالَ لَهُ المَلكُ: ما فُعِلَ بِأَصحَابكَ؟ فقالَ: كفانِيهمُ الله تعالَى، فدفعَهُ إِلَى نَفرَ منْ أصْحَابِهِ فقال: اذهبُوا بِهِ فاحملُوه في قُرقُور وَتوسَّطُوا بِهِ البحْرَ، فإِنْ رَجَعَ عنْ دينِهِ وإلاَّ فَاقْذفُوهُ، فذَهبُوا بِهِ فقال: اللَّهُمَّ اكفنِيهمْ بمَا شِئْت، فانكَفَأَتْ بِهِمُ السَّفينةُ فغرِقوا، وجَاءَ يمْشِي إِلَى المَلِك. فقالَ لَهُ المِلكُ: ما فُعِلَ بِأَصحَابكَ؟ فقال: كفانِيهمُ الله تعالَى. فقالَ للمَلِكِ: إنَّك لسْتَ بقَاتِلِي حتَّى تفْعلَ ما آمُركَ بِهِ. قال: ما هُوَ؟ قال: تجْمَعُ النَّاس في صَعيدٍ واحدٍ، وتصلُبُني عَلَى جذْعٍ، ثُمَّ خُذ سهْماً مِنْ كنَانتِي، ثُمَّ ضعِ السَّهْمَ في كَبِدِ القَوْسِ ثُمَّ قُل: بسْمِ اللَّهِ ربِّ الغُلاَمِ، ثُمَّ ارمِنِي، فإِنَّكَ إذَا فَعَلْتَ ذَلِكَ قَتَلْتنِي. فجَمَع النَّاس في صَعيدٍ واحِدٍ، وصلَبَهُ عَلَى جذْعٍ، ثُمَّ أَخَذَ سهْماً منْ كنَانَتِهِ، ثُمَّ وضَعَ السَّهمَ في كبِدِ القَوْسِ، ثُمَّ قَالَ: بِسْم اللَّهِ رَبِّ

الغُلامِ، ثُمَّ رمَاهُ فَوقَعَ السَّهمُ في صُدْغِهِ، فَوضَعَ يدَهُ في صُدْغِهِ فمَاتَ. فقَالَ النَّاسُ: آمَنَّا بِرَبِّ الغُلَامِ، فَأُتِيَ المَلكُ فَقِيلُ لَهُ: أَرَأَيْت ما كُنْت تحْذَر؟ قَدْ وَاللَّه نَزَلَ بِك حَذرُكَ. قدْ آمنَ النَّاسُ. فأَمَرَ بِالأخدُودِ بأفْوَاهِ السِّكك فخُدَّتَ وَأضْرِمَ فِيها النيرانُ وقالَ: مَنْ لَمْ يرْجَعْ عنْ دينِهِ فأقْحمُوهُ فِيهَا أوْ قيلَ لَهُ: اقْتَحمْ، ففعَلُوا حتَّى جَاءتِ امرَأَةٌ ومعَهَا صَبِيٌّ لهَا، فَتقَاعَسَت أنْ تَقعَ فِيهَا، فقال لَهَا الغُلَامَ: يا أمَّاهْ اصبِرِي فَإنَّكَ عَلَي الحَقِّ» روَاهُ مُسْلَمٌ.

« ذرْوةُ الجَبلِ »: أعْلاهُ، وَهي بكَسْر الذَّال المعْجمَة وضمها و « القُرْقورُ » بضَمِّ القَافَيْن: نوْعٌ منْ السُّفُن و « الصَّعِيدُ » هُنا: الأرضُ البارزَةُ و «الأخْدُودُ»: الشُّقوقُ في الأرْضِ كالنَّهْرِ الصَّغيرِ و « أُضرِمَ » أوقدَ « وانكفَأَت» أي: انقلبَتْ و « تقاعسَت » توقَّفتْ وجبُنتْ.

**30.** Suheyb ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Sizdən əvvəl yaşamış bir xalqın padşahı və onun da bir sehrbazı var idi. Sehrbaz qocaldıqda padşaha dedi: "Mən artıq qocalmışam. Yanıma bir uşaq göndər, ona sehri öyrədim." Padşah onun yanına bir gənc göndərdi və sehrbaz ona sehr öyrətməyə başladı. Gəncin, *sehrbazın yanına gedən* yolunun üstündə bir rahib yaşayırdı. Bir gün o gənc rahibin yanına gəlib onun danışdıqlarına qulaq asdı və rahibin dedikləri onun xoşuna gəldi. O gündən o hər dəfə sehrbazın yanına getdikdə yolüstü rahibin yanına gedər və bir qədər orada oturardı. Sehrbazın yanına gec gəldikdə isə sehrbaz onu döyərdi. Gənc bu haqda rahibə şikayət etdikdə, o dedi: "Sehrbazdan qorxsan, de ki, ailəm məni ləngitdi. Ailəndən də qorxsan, de ki, sehrbaz məni ləngitdi."

Gənc bir müddət beləcə *öz işinə* davam etdi. Nəhayət bir gün o, insanların yolunu kəsmiş böyük və qorxunc bir heyvana rast gəldi və öz-özünə: "Bu gün mən rahibin, yoxsa sehrbazın daha üstün olduğunu biləcəyəm"– deyib yerdən bir daş götürdü və: "Allahım, əgər rahibin əməli Sənin üçün sehrbazın əməlindən daha sevimlidirsə, onda bu heyvanı öldür ki, insanlar keçib gedə bilsin!"– deyə dua edib daşı atdı və heyvanı öldürdü. İnsanlar da öz yollarına davam etdilər. Sonra o, rahibin yanına gəlib başına gələni ona danışdı. Rahib dedi: "Oğlum, bu gün sən məndən də fəzilətlisən. Sən, artıq barəndə güman etdiyim də-

rəcəyə çatmısan. Çox güman ki, yaxında sən müsibətə uğrayacaqsan. Başına bir müsibət gəldiyi zaman məni ələ vermə."

Beləcə, gənc *Allahın qüdrətilə* anadangəlmə korları, cüzam[1] xəstəliyinə tutulanları sağaldır, habelə digər xəstəliklərə mübtəla olan insanları müalicə edirdi. Padşahın yaxın adamlarından kor olan birisi bundan xəbər tutduqda, çoxlu hədiyyələr götürüb gəncin yanına gəlib: "Əgər mənə şəfa versən, bunların hamısını sənə verərəm!"– dedi. Gənc: "Mən heç kəsə şəfa vermirəm, şəfa verən yalnız Allahdır. Əgər Allaha iman gətirsən, Ona dua edərəm və O da sənə şəfa verər"– deyə cavab verdi. Bundan sonra adam Allaha iman gətirdi, Allah da ona şəfa verdi. Sonra bu adam padşahın yanına gəldi və həmişəki kimi öz yerində oturdu. Padşah ondan: "Sənə gözlərini kim qaytardı?"– deyə soruşdu, o da: "Rəbbim!"– deyə cavab verdi. Padşah ondan: "Sənin məndən başqa Rəbbinmi var?"– deyə soruşduqda, adam: "Mənim də Rəbbim, sənin də Rəbbin Allahdır!"– deyə cavab verdi. Padşah onu həbs edib gəncin yerini söyləyənədək ona işgəncə verdi. Gənci padşahın hüzuruna gətirdilər və padşah ona dedi: "Oğlum! Deməк, sənin sehrin anadangəlmə korları və cüzam xəstəliyinə tutulanları sağalacaq həddə çatmışdır. Sən filan, filan işlər görürsən, elə deyilmi?" Gənc dedi: "Mən heç kəsə şəfa vermirəm, şəfa verən yalnız uca Allahdır." Padşah onu da həbsə atıb rahibin adını verənədək ona əzab verdi. Rahibi dərhal padşahın hüzuruna gətirdilər və ona: "Dinindən dön!"– dedilər, lakin o, bundan imtina etdi. Onda padşah mişar gətizdirdi və onu başının tən ortasından mişarlayıb iki hissəyə böldülər. Sonra padşahın yaxın adamını *onun hüzuruna* gətirdilər və ona da: "Dinindən dön!"– dedilər, lakin o da dönmədi. Onu da başının tən ortasından mişarlayıb iki hissəyə böldülər. Daha sonra gənci gətirdilər və ona da: "Dinindən dön!"– dedilər. Lakin o da bu təklifi rədd etdi. Onda padşah onu əsgərlərindən bir neçəsinə təhvil verib dedi: "Onu aparın filan dağa qaldırın. Elə ki o dağın zirvəsinə çatdınız, dinindən dönməzsə, onu oradan aşağı atın!" Padşahın adamları onu aparıb dağa qaldırdıqda, o: "Allahım, Özün istədiyin ki-

---

[1] Cüzam: dəri və toxumaların çürüməsi nəticəsində təzahür edən ağır xronik xəstəlik.

mi məni bunların əlindən qurtar!"– deyə dua etdi. Bu zaman dağ silkələndi və padşahın adamları dağdan yerə düşdülər. Gənc isə qayıdıb padşahın yanına gəldi. Padşah soruşdu: "Səninlə gedən adamlar necə oldu?" Gənc dedi: "Allah məni onlardan xilas etdi!" Padşah yenə onu adamlarından bir neçəsinə təhvil verib dedi: "Onu gəmiyə mindirib dənizin ortasına aparın. Əgər dinindən dönməzsə, onu dənizə atın!" Padşahın adamları dərhal onu apardılar. Gənc *yenə*: "Allahım, Özün istədiyin kimi məni bunların əlindən qurtar!"– deyə dua etdi. Bu vaxt gəmi yırğalandı və əsgərlər dənizə düşüb boğuldular. Gənc isə yenə qayıdıb padşahın yanına gəldi. Padşah soruşdu: "Səninlə gedən adamlar necə oldu?" Gənc: "Allah məni onlardan xilas etdi!"– deyə cavab verdi, sonra davam edib dedi: "Sən mənim əmrimi yerinə yetirməyincə məni öldürə bilməyəcəksən." Padşah: "Nədir əmrin?"– deyə soruşduqda, gənc belə cavab verdi: "Xalqı geniş bir yerə topla! Məni də bir ağacın gövdəsindən çarmıxa çək. Sonra ox qabımdan bir ox götür və onu yayın ortasına qoy. Sonra da: "Bu gəncin Rəbbi Allahın adı ilə!"– de və oxu at. Əgər belə etsən, məni öldürə bilərsən." Padşah camaatı meydana topladı, gənci də bir ağacın gövdəsindən çarmıxa çəkdi, sonra da onun ox qabından bir ox götürüb onu yayın ortasına qoydu və: "Bu gəncin Rəbbi Allahın adı ilə!"– deyib oxu atdı. Ox gəncin gicgahına batdı. Gənc əlini gicgahına qoydu və canını tapşırdı. Bunu görən camaat: "Biz bu gəncin Rəbbinə iman gətirdik!"– dedi. Padşahın adamları onun yanına gəlib dedilər: "Ehtiyat etdiyin işdən xəbərin varmı? Vallahi, qorxduğun başına gəldi. Camaatın hamısı iman gətirdi." Onda padşah yolların başında xəndəklər qazılmasını əmr etdi. Dərhal xəndəklər qazıldı və bu xəndəklərdə od qalandı. Sonra padşah: "Dinindən dönməyən hər kəsi zorla oda atın ya da onu oda girməyə məcbur edin!"– dedi. Padşahın adamları da *onun əmrini* dərhal yerinə yetirdilər. Nəhayət, qucağında körpəsi olan bir qadını *xəndəyin başına* gətirdilər. Qadın *dinindən* dönmək istədikdə, uşaq dedi: "Anacan, səbir et! Çünki sən haqq yoldasan!"

Hədisi Muslim rəvayət etmişdir.[1]

---

[1] Səhih Muslim, 3005.

Dağın zirvəsi onun ən uca yeri deməkdir. Ədəbcə "qarquq" sözü gəminin bir növüdür, "said" sözü isə açıq yer deməkdir. Habelə, "uxdud" sözü yerdə olan yarğan mənasını verir, kiçik çay kimi. "Udrimə" yandırdı, "inkəfəət" yırğalandı, "təqaasət" isə tərəddüd etmək deməkdir.

**Şərh:**

Müəllifin "Səbir" fəslində nəql etdiyi bu hədis, heyrət verici bir hadisəni xatırladır. Xəbər verilir ki, qədim zamandan bir padşah və onun da bir sehrbazı vardı. Padşah öz xeyrinə olan işlərdə sehrbazdan istifadə etmək üçün onu özünə sirdaş və yaxın etmişdir. Sehrbazın etdiyi dinə zidd olsa da, o buna fikir vermirdi. Çünki bu padşah yalnız öz xeyrini güdən adam idi. Hədisin axırında xəbər verildiyi kimi, bu padşah insanları özünə ibadət etməyə məcbur etmişdi. Bu sehrbaz qocaldıqda padşaha: "Mən artıq qocalmışam. Yanıma bir uşaq göndər, ona sehri öyrədim"– dedi. Sehrbaz, şagirdinin gənc olmasını istədi. Çünki gənc, həm elmə çox həris olur, həm də ona öyrədilən elm daima *onun yadında* qalır və onları unutmur. Odur ki, gənc ikən elm öyrənmək, yaşlandıqdan sonra elm öyrənməkdən qat-qat xeyirlidir. Elm öyrənənin hamısında xeyir var, lakin gənc yaşda elm öyrənməyin iki böyük faydası, hətta daha çox faydası vardır:

***<u>Birincisi:</u>*** Çox vaxt gənc adam yaşlıdan daha tez əzbərləyər. Çünki gəncin beyni yüklü olmur, müşkül işlər onu məşğul etmir.

***<u>İkincisi:</u>*** Gəncin əzbərlədikləri onun yadından çıxmır. Yaşlı adam isə öyrəndiklərini unudur. Elə buna görə də insanlar arasında belə bir hikmətli söz yayılmışdır: "Uşaqlıqda öyrənilən elm, daş üzərində yazılan yazı kimidir." Yəni heç vaxt silinməz.

***<u>Üçüncüsü:</u>*** Gənc, ömrünün ilk yaşlarında elm öyrənməyə başlayarsa, elm onun xasiyyətinə və təbiətinə sirayət edər. Beləcə elm onun içində, onunla yetişib onunla yaşlandığı bir xislət olar.

Bu sehrbaz da, yaşlı bir sehrbaz idi. Artıq yaşa dolmuş, həyatda təcrübə qazanmış və çox şeyi tanımışdır. Elə buna görə də o, padşahdan xahiş edir ki, sehr öyrətmək üçün bir gənc tapıb yanına göndərsin. Padşah sehrbazın yanına bir gənc göndərir, o da gəncə sehr öyrədir. Lakin uca Allah, bu gəncə xeyir nəsib etmək istəyir. Bir gün bu gənc bir rahi-

bin yanından keçərkən onun danışdıqlarına qulaq asır və rahibin söylədikləri onun xoşuna gəlir. Çünki bu rahib – yəni Allaha ibadət edən bu abid yalnız xeyirli sözlər danışırdı. O, elmli olmaqla yanaşı, həm də Allaha çoxlu ibadət etdiyinə görə, ona rahib deyilə bilər. O gənc evdən çıxıb sehrbazın yanına getdikdə, rahibin yanına gedib onu dinləyər, beləliklə də, sehrbazın yanına gec gələr və elə bu səbəbdən də, sehrbaz onu döyərdi. Gənc, sehrbazın onu gecikdiyinə görə döydüyünü rahibə bildirir. Rahib də ona bu vəziyyətdən çıxmaq üçün belə tövsiyə edir: "Sehrbazın yanına getdikdə onun səni cəzalandırmasından qorxsan, de ki, məni ailəm gecikdirdi. Ailənin yanına getdikdə isə, de ki, məni sehrbaz gecikdirdi. Beləcə, hər ikisinin qəzəbindən qurtulacaqsan.

Bu yalan olsa da sanki rahib bu yalan sözün verəcəyi faydanın, yalan danışmamağın zərərindən daha çox olduğunu düşünərək ona belə deməsini buyurmuşdur. Beləcə, o gənc, rahibin dediyi kimi edir – hər gün evdən çıxıb əvvəlcə rahibin yanına gəlib onu dinləyir, sonra da sehrbazın yanına gedir. Sehrbaz onu cəzalandırmaq istədikdə: "Məni ailəm gecikdirdi"– deyir, sonra evə gec qayıtdığına görə ailəsi onu cəzalandırmaq istədikdə də: "Məni sehrbaz gecikdirdi"– deyir. Nəhayət, bir gün o gənc, insanların yolunu kəsən və onların keçib getməsinə əngəl olan böyük bir heyvana rast gəlir. Hədisdə o heyvanın nə heyvan olduğu bildirilmir. Həmin vaxt bu gənc, özü üçün, rahibin, yoxsa sehrbazın daha xeyirli olduğunu sınamaq istəyir. Əlinə bir daş alır və: "Allahım, əgər rahibin əməli Sənin üçün sehrbazın əməlindən daha sevimlidirsə, onda bu heyvanı öldür ki, insanlar keçib gedə bilsin!"– deyə dua edib daşı heyvana atır. Heyvan ölür və insanlar öz yollarına davam edirlər. Beləcə o, rahibin sehrbazdan üstün olduğunu başa düşür. Bunda da heç bir şübhə ola bilməz. Çünki sehrbaz ya zalım və təcavüzkardır, ya da kafir və müşrikdir. Əgər o, bu sehri şeytanların köməyi ilə edirsə – onlara yaxınlaşır, onlara ibadət edir, onları çağırır və onlardan yardım diləyirsə, artıq o, kafir və müşrik sayılır. Yox əgər bunları etməyib, sadəcə sehrli vasitələrdən (ovsun və s.) istifadə edərək insanlara əziyyət verirsə o zaman o, zalım və təcavüzkar sayılır. Rahibə gəlincə, əgər o, elmə əsaslanaraq Allaha ibadət edirsə, demək o, doğru yolda-

dır. Yox əgər özündə cəhalət və yanlışlıq olarsa, əməlləri pis olsa da, niyyəti yaxşı sayılır.

Bu gənc rahibin yanına gedib hadisəni ona danışır. Rahib də ona: "Oğlum, bu gün sən məndən də üstünsən"– deyir. Çünki o gənc, Allaha dua etmiş, Allah da onun duasını qəbul etmişdir. Bu da, Allahın öz quluna bəxş etdiyi nemətdir. Belə ki, adam bir iş barəsində şəkk etdikdə Allahdan haqqın üzə çıxmasına dair bir dəlil istəyər və Allah da o kimsəyə o dəlili göstərərsə, bu, Allahın o kimsəyə bəxş etdiyi nemət olar. Elə buna görə də, adam belə halda iki rükət namaz qılıb istixarə duası etməlidir. Adam bir işi görməyə niyyət etdikdə, onun xeyirli olub-olmadığına şəkk edərsə, istixarə duasını oxuyub Allahdan xeyirlisini istəməlidir. Əgər ixlas və imanla Allaha istixarə edərsə, Allah ona o işi yerinə yetirməyin və ya yetirməməyin, hansının daha xeyiri olmasına dair bir əlamət göstərər: ya onun o işi edib-etməməsinə dair qəlbinə ilham verər, yaxud nəyin xeyirli olduğunu ona yuxusunda agah edər, yaxud bir kimsənin nəsihəti ilə və ya başqa bir vasitə ilə nəyin xeyirli oduğunu ona bildirər.

O gəncin kəramətlərindən biri də, anadangəlmə korları və cüzam xəstəliyinə tutulanları sağaltması idi. Yəni o xəstələr üçün Allaha dua edir, Allah da onlara şəfa verirdi. Bu, Allahın ona bəxş etdiyi kəramətlərdən idi. O gənc, Məryəm oğlu İsa عليه السلام kimi əlini xəstəyə sürtərək onu sağaltmırdı. Sadəcə olaraq Allaha dua edir, Allah da onun duasını qəbul edir və beləliklə də, korun gözü açılır, cüzam xəstəliyinə tutulanlar da sağalırdı. Rahib o gəncə, başına müsibətlər gələcəyini, yəni işgəncələrə və əziyyətlərə məruz qalacağını bildirir və ondan xahiş edir ki, bu müsibətlərə məruz qaldıqda onun adını verməsin.

Bu gənc, duası məqbul olan bir zat idi, Allaha dua etdikdə Allah onun duasını qəbul edirdi. Padşahın da, gözləri görməyən yaxın adamı vardı. Bu adam o gəncin nələr etdiyini eşitdikdə, çoxlu hədiyyələr götürüb onun yanına gəlib dedi: "Əgər mənə şəfa versən, bunların hamısını sənə verəcəm!" Gənc: "Mən heç kəsə şəfa vermirəm, şəfa verən yalnız Allahdır"– dedi. Bu imana bir baxın! Bu gənc, öz əməli ilə qürurlanmadı və demədi ki, xəstəyə şəfa verən mənəm, əksinə: "Sənə yalnız Allah şəfa verə bilər"– dedi. Bu hadisə, bir növ şeyxulislam İbn Tey-

miyyənin رحمه الله başına gələn hadisəyə bənzəyir: bir gün onun yanına, bədəninə cin girmiş adam gətirirlər. Şeyxulislam İbn Teymiyyə ona ruqya[1] oxuyur, lakin adamın içindəki cin çıxmır. Onda şeyxulislam İbn Teymiyyə əli ilə o adamın boynuna möhkəm vurmağa başlayır. O qədər vurur ki, axırda öz əli ağrıyır. Nəhayət, adamın içindəki cin danışmağa başlayır və: "Şeyxə ehtiram xatirinə çıxıram"– deyir. İbn Teymiyyə isə ona: "Mənə ehtiram xatirinə yox, Allaha və Onun rəsuluna ﷺ itaət edərək çıx!"– dedi. İbn Teymiyyə istəmir ki, hadisənin şahidləri o xəstənin onun əli ilə sağaldığını düşünsünlər, əksinə, bilsinlər ki, bu, lütf əvvəlindən axırınadək Allaha məxsusdur. Nəhayət, cin o adamın bədənindən çıxır və o, özünə gəlir. Adam: "Nə üçün məni şeyxin yanına gətirmisiniz?"– deyə soruşur. Çünki ola bilsin ki, o, bayıldıqda, ya öz evində, ya da bazarda imiş. Yanındakılar *təəccüblə* soruşur: "Subhanəllah! Şeyxin səni vurduğunu hiss etmirdinmi?" Adam: "Xeyr, nə bunun fərqinə vardım, nə də vurduğunun ağrısını hiss etdim"– deyə cavab verir. Onlar da şeyxin onun boynuna vurduğunu ona bildirdilər. Nəticədə o, bu xəstəlikdən qurtulur.[2]

Demək, Allaha iman gətirmiş alimlər, Allahın verdiyi nemətləri özlərinə nisbət etmirlər, əksinə, bütün nemətləri öz sahibinə yəni Allaha nisbət edərlər.

O gənc, gözləri tutulmuş adama: "Əgər Allaha iman gətirsən, *sənin üçün* dua edərəm"– deyir, o da iman gətirir. Onda gənc öz Rəbbinə dua edir ki, ona şəfa versin, Rəbbi də ona şəfa verir və adamın gözləri açılır. Sonra bu adam padşahın yanına gəlir və həmişəki kimi öz yerində oturur. Padşah ondan: "Sənə gözlərini kim qaytardı?"– deyə soruşur, o da: "Rəbbim!"– deyə cavab verir. Padşah ona: "Sənin məndən başqa Rəbbinmi var?"– deyəndə, adam: "Mənim də Rəbbim, sənin də Rəbbin Allahdır!"– deyə cavab verir. Onda padşah ona o qədər işgəncə verir ki, axırda o, gəncin adını verir. Gənci padşahın hüzuruna gətirirlər və ona da şiddətli işgəncə verirlər. Padşah ondan bunları kimdən öyrəndiyini soruşur. Halbuki *bir müddət əvvəl* rahib ona: "Sən müsibətə uğrayacaqsan.

---

[1] Ruqya: xəstənin sağalması üçün Quran və Sünnədə varid olmuş dualarla – ayələr və hədislərlə ovsun oxumaq.

[2] Zad əl-Məad, 4/60.

Başına bir müsibət gəldiyi zaman məni ələ vermə"– demişdi. Lakin ola bilsin ki, o gənc işgəncələrə dözməyib rahibin adını verir.

Zalım padşah rahibin yerini öyrənən kimi onu hüzuruna gətizdirir və ona: "Dinindən dön!"– deyirlər, lakin o, bundan imtina edir. Onda mişar gətizdirib onu başının tən ortasından mişarlayıb əvvəlcə başını, sonra boynunu, sonra kürəyini və bütün bədənini iki hissəyə bölürlər. Bu işgəncə ilə onu dinindən döndərə bilmirlər. O, dinindən dönmür və bu cür ölməyə razı olur. Sonra Allaha iman gətirmiş və padşahın ilah olduğunu rədd etmiş, vaxtı ilə gözləri tutulmuş və padşahın yaxın adamı olmuş kimsəni *onun hüzuruna* gətirirlər və ona da dinindən dönməyi buyururlar. Lakin o da dinindən dönmür. Beləliklə, rahibin başına gətirdiklərini onun da başına gətirirlər. Bu işgəncə onu dinindən döndərmir. Bu da, insanın belə halda səbir etməsinin vacib olduğunu bildirir.

Lakin bu halda insana səbir edib ölümü seçməsi vacibdir, yoxsa məcburiyyət qarşısında küfr söz danışaraq, *qəlbi də imanla dolu olduğu halda* canını ölümdən qurtarması caizdir?

Bunun təfsilatı vardır: Əgər adamın atdığı addım sadəcə onun özünə aiddirsə, onda o, seçim edə bilər. İstər qəlbi imanla dolu olduğu halda məcburiyyət qarşısında küfr sözü deyər, istər də qətlə yetirilsə belə, *haqq üzərində* israr edib dediyindən dönməz və qətlə yetirilər. Bu məsələdə, *dəyən zərər* yalnız insanın özünə aid olduğu halda belədir. Məsələn, ona: "Bütə səcdə et!"– deyilmiş, o da səcdə etməmiş, buna görə də qətlə yetirilmiş, yaxud məcburiyyət qarşısında, *qəlbi imanla dolu olduğu halda* səcdə etmiş və canını qurtarmışdır. Lakin əgər onun atdığı addım İslam dininə xələl gətirəcəksə, yəni insanların qarşısında küfr söz danışmaqla onların da küfr etməsinə səbəbkar olacaqsa, o zaman onun küfr söz danışması caiz deyildir, əksinə, öldürüləcək olsa belə səbir etməsi vacibdir. Bu, Allah yolunda olan cihada bənzəyir; belə ki, mücahid, öldürüləcək olsa belə cihad edir. Çünki o, Allahın kəlməsinin uca olmasını istəyir. Dolayısıyla, əgər bir adam camaatın öndəri olduğu halda küfr söz danışmağa məcbur edilərsə, bunu rədd etməli, xüsusilə də, fitnə zamanında küfr söz danışmaqdan imtina etməli, əksinə öldürüləcək olsa belə, səbir etməlidir.

Bunun bənzəri İmam Əhməd ibn Hənbəlin ﷺ başına gəlmişdir. Onun ağır sınaqlardan keçdiyi hər kəsə məlumdur. Belə ki, onu Quranın məxluq olduğunu, Allahın kəlamı olmadığını deməyə məcbur etmişlər, lakin o bunu rədd etmişdir. Odur ki, ağır işgəncələrə məruz qalmış, Əhli-Sünnənin bu böyük imamı qatırın quyruğuna bağlanıb küçələrdə sürüklənmiş və bayılanadək qamçıyla döyülmüşdür. Lakin hər dəfə ayıldıqda: "Quran, Rəbbimin kəlamıdır, məxluq deyildir"– deyərmiş. İmam Əhməd işgəncələrə məruz qalsa da, küfr söz deməyi qəbul etməmişdir. Çünki insanlar, onun nə deyəcəyini gözləyirdilər. Əgər o: "Quran məxluqdur"– desəydi, bütün insanlar Qurana məxluq deyər, beləliklə də, din bərbad hala qalardı. Lakin İmam Əhməd canını din üçün fəda etmiş, bu işgəncələrə rəğmən səbir etmiş və Allahdan bunun əvəzini gözləmiş, axırda da gözəl sonluq ona nəsib olmuşdur. Ona işgəncə verən xəlifələrin hər ikisi – bir-birinin ardınca dünyadan köçdükdən sonra, Allah onların yerinə əməlisaleh bir xəlifə gətirmiş və o, İmam Əhmədə böyük ehtiram göstərmişdir. Allaha həmd olsun ki, Allah İmam Əhmədi hələ həyatda ikən şad etmiş – haqqı uca səslə deməyi ona nəsib etmiş, insanları da onunla birlikdə haqqı deməyə müvəffəq etmişdir. Xəlifələri ona qarşı qaldıran düşmənləri isə rəzil və rüsvay olmuşlar. Bu dəlildir ki, gözəl sonluq səbir edənlərə nəsib olur. Müvəffəqiyyət Allahdandır.

Padşah rahibi və öz yaxın adamını öldürdükdən sonra, gənci hüzuruna gətizdirib ondan dinindən dönməsini və padşahın dininə qayıtmasını tələb edir. Halbuki padşah özünü Allaha şərik sayır və insanları da məcbur edirdi ki, ona tapınsınlar və onun ilah olduğunu qəbul etsinlər. O gənc padşahın tələbini rədd etdikdə, padşah onu əsgərlərindən bir neçəsinə təhvil verib deyir: "Onu aparın filan dağa qaldırın. Elə ki o dağın zirvəsinə çatdınız, dinindən dönməzsə, onu oradan aşağı atın!" Yəni, əvvəlcə ona dinindən dönməsini təklif edin, əgər dönməsə, onda onu dağın başından aşağı atın ki, ölsün.

Nəhayət, dağın zirvəsinə çatdıqda, padşahın adamları ondan dinindən dönməsini tələb edir, lakin o bunu rədd edir. Çünki iman onun qəlbinə yerləşmişdi və onun dəyişməsi, yaxud sarsılması mümkün deyildi. Onlar onu zirvədən aşağı atmaq istədikdə o: "Allahım, Özün istə-

diyin kimi məni bunların əlindən qurtar!"– deyə dua etdi. Bu, mömin adamın sıxıntı anında etdiyi duadır. Diqqət edin, o: "istədiyin kimi"– deyir və bunun necə olmasını təyin etmir. Allah da o dağı silkələyir və padşahın adamları dağdan yerə düşüb ölürlər. Gənc isə qayıdıb padşahın yanına gəlir və padşah ondan: "Sən necə qurtuldun? Səninlə gedən adamlar necə oldu?"– deyə soruşduqda, o belə cavab verir: "Allah məni onlardan xilas etdi!"

Sonra padşah yenə onu adamlarından bir neçəsinə təhvil verir və onlara onu gəmiyə mindirib dənizin ortasına aparmalarını, orada ondan dinindən dönməyi tələb etmələrini, dönmədiyi təqdirdə isə onu dənizə atmalarını əmr edir. Onlar dənizin ortasına çatdıqda ona dinindən, yəni Allaha imandan dönməsini əmr edirlər. O isə bundan imtina edir və: "Allahım, Özün istədiyin kimi məni bunların əlindən qurtar!"– deyə dua edir. Bu vaxt gəmi yırğalanır və əsgərlər dənizə düşüb boğulurlar. Beləcə, Allah o gənci onların da əlindən xilas edir. Gənc yenə qayıdıb padşahın yanına gəlir və padşah ondan: "Səninlə gedən adamlar necə oldu?"– deyə soruşduqda, o, başlarına gələn hadisəni ona xəbər verir, sonra davam edib deyir: "Sən mənim əmrimi yerinə yetirməyincə məni öldürə bilməyəcəksən." Padşah: "Nədir əmrin?"– deyə soruşduqda, gənc belə cavab verir: "*Məmləkətdə olan* camaatın hamısını geniş bir yerə topla! Məni də bir ağacın gövdəsindən çarmıxa çək. Sonra ox qabımdan bir ox götür və onu yayın ortasına qoy. Sonra da: "Bu gəncin Rəbbi Allahın adı ilə!"– de və oxu at. Əgər belə etsən, məni öldürə bilərsən." Nəhayət, padşah camaatı meydana toplayır, gənci də bir ağacın gövdəsindən çarmıxa çəkir, sonra da onun ox qabından bir ox götürüb onu yayın ortasına qoyur və: "Bu gəncin Rəbbi Allahın adı ilə!"– deyib oxu atır. Ox gəncin gicgahına batır və gənc əlini gicgahına qoyub canını tapşırır. Bunu görən camaat: "Biz bu gəncin Rəbbinə iman gətirdik!"– deyərək Allaha iman gətirir və padşahın etiqadını rədd edirlər. Gəncin istədiyi də elə bu idi.

Hədisin bu qismindən bir neçə fayda çıxartmaq olar:

**Birincsi;** o gəncin imanının möhkəm olması və onun imandan dönməməsi, sarsılmamasıdır.

**İkincisi;** bu hadisədə Allahın qüdrət əlamətlərindən birini görürük. Belə ki, Allah ona sayğı göstərib onun duasını qəbul edir və onu dağın başından atmaq istəyənlərin özləri oradan aşağı düşüb ölürlər.

**Üçüncüsü** budur ki, sıxıntıya düşmüş bir adam Allaha dua etdiyi zaman Allah onun duasını qəbul edər. İnsan çıxılmaz vəziyyətə düşdükdə, duasının qəbul olunacağına qətiyyətlə inanaraq Allaha dua edərsə, Allah onun duasını qəbul edər. Hətta kafirlər belə, sıxıntılı hallarda Allaha dua etdikdə, Allah onların duasını qəbul edir. Halbuki Allah onların daha sonra küfrə dönəcəklərini bilir. Quranda ifadə edildiyi kimi: ***"Dağların saldığı* kölgələr kimi dalğalar onları çulğadığı zaman onlar dini məhz Allaha məxsus edərək Ona yalvararlar. *Allah* onları xilas edib quruya çıxartdıqda isə aralarından bəziləri *küfrlə iman arasında* orta yol tutar."**[1] *Yəni* Allaha şərik qoşarlar. Allah onları xilas edər, çünki dua etdikdə ixlasla Allaha üz tutar və Ona sığınarlar. Kafir olsalar da, sıxıntı anlarında ixlasla dua etdiklərinə görə, Allah onların duasını qəbul edər.

**Dördünüsü** budur ki, adam müsəlmanların çoxunun xeyrinə olacaq bir işdə canını fəda edə bilər. Necə ki, bu gənc, padşaha onu öldürməsinin yolunu göstərmiş – ona ox qabından bir ox götürüb onu yayın ortasına qoymasını, sonra da: "Bu gəncin Rəbbi Allahın adı ilə!"– deyib oxu atmasını təklif etmişdir. Şeyxulislam İbn Teymiyyə ﷫ demişdir: "Bu, Allah yolunda edilən cihaddır. Belə ki, bu əməl sayəsində camaatın hamısı *Allaha* iman gətirmişdir. Gənc isə heç nə itirməmişdir. Hərçənd o, canını fəda etmişdir, lakin hər bir halda əvvəl-axır öləcəkdi." Qaldı ki, bəzi adamların əlinə bomba alıb, kafirlərin arasına girib onu partladaraq intihar etməsinə, bu, bilərəkdən cana qəsd etmək sayılır. Özünü öldürən kimsə isə, Peyğəmbərin ﷺ hədisində[2] buyrulduğu kimi, əbədi olaraq Cəhənnəmdə qalacaqdır. Çünki beləsi, İslamın xeyrinə olmayan bir yolda canına qəsd etmişdir. Belə ki, o, öz canına qəsd etməklə bərabər, on, yüz və ya iki yüz adamı öldürdükdə, İslama heç bir

---

[1] Loğman, 32.

[2] Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "...Kim dəmir parçası ilə öz canına qəsd edərsə, Cəhənnəm odunda bu dəmir parçasını daim qarnına soxar və orada əbədi olaraq qalar." (Səhih əl-Buxari, 5778; Səhih Muslim, 109).

fayda vermir və bu, insanların İslamı qəbul etməsinə səbəb olmur. Bu gəncin əhvalatı isə tam fərqlidir. O hadisədə meydana toplaşmış insanların hamısı tövhidi qəbul etmişlər. Lakin intihar yolu ilə düşməndən on və ya iyirmi, yaxud yüz və ya iki yüz adamı öldürmək insanların İslama girməsinə səbəb olmur. Əksinə, belə hərəkətlər düşmənin qəzəbini artırıb qəlbini nifrətlə doldura bilər, beləliklə də, düşmən müsəlmanları tamamən yox etmək qərarına gələr. Yəhudilərin fələstinlilərə etdiyi kimi... Belə ki, fələstinlilərdən biri öz canına qəsd edib, beş-altı yəhudi öldürdükdə, yəhudilər bunun əvəzinə altmış-yetmiş adamı həbsə atıb içgəncə verirlər. Beləcə, bunun nə müsəlmanlara, nə də bu partlayışı törədənlərə faydası olur. Elə buna görə də biz, bəzi adamların bu cür intihar etməsini, haqsız yerə cana qəsd etmək hesab edir, bu əməlin, sahibini əbədi olaraq Cəhənnəmə giriftar edəcəyinə və onun şəhid olmadığına etiqad edirik. Və əgər adam mövzuya aidiyyatı olmayan bir dəlilə əsaslanıb bu əməlin caiz olduğunu düşünərək onu həyata keçirmişdirsə, biz onun günah qazanmadığını güman edirik. Hərçənd belə adam şəhadət yoluna girmədiyinə görə şəhid sayılmır, lakin bununla belə onun günah qazanmadığını, hətta *elm əhli olduğu halda* ictihad etmiş və yanlış qərar vermişdirsə, bir savab qazandığını düşünürük.

Bu əzəmətli hədisin sonunda ibrət almaq istəyən kimsələr üçün ibrətlər vardır. Belə ki, özünün ilah olduğunu camaata qəbul etdirmək istəyən kafir padşah, camaatın: "Biz bu gəncin Rəbbinə iman gətirdik!"– dediyindən xəbər tutduqda, padşahın adamları – möminlərə nifrət edən və onlara pislik etmək istəyən adamlar onun yanına gəlib dedilər: "Ey hökmdar, ehtiyat etdiyin şey artıq baş verdi." Bu, camaatın Allaha iman gətirməsi idi. Padşah elə bundan ehtiyat edirdi. Çünki o, Firon kimi özünü ilah elan etmişdir. Bu padşah çox qəddar və zalım idi. Odur ki, yolların başında xəndəklər qazılmasını buyurur. Sonra da əsgərlərinə əmr edir ki, dinindən dönməyən hər kəsi oda atsınlar. Çünki xəndəklərin içində od qalanmışdı. Əsgərlər insanları xəndəklərin başına gətirib onlardan dinlərindən dönməyi tələb edirlər, lakin onlar dinlərindən və imanlarından dönmürlər. Beləliklə, həqiqi dinindən, yəni, Allaha imandan dönməyən hər kəsi oda atıb yandırırlar. Lakin onlar oda atıldıqdan sonra fani dünyadan köçüb nemətlə dolu əbədi həyata

qovuşurlar. Çünki onlar tər-təmiz olduqları halda, mələklər onların canlarını alıb belə deyirlər: **“Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!”**[1] Səbir etməklə bağlı bundan daha əzəmətli məqam ola bilməz. Belə ki, yandırıb-yaxan atəşin qarşısında durub içində yanacağını bilən adamın, səbir edib dinindən və imanından dönməməsi çox çətindir. Nəhayət, qucağında körpəsi olan bir qadını *xəndəyin başına* gətirdilər. Qadın yanar odu gördükdə sanki tərəddüd edir, lakin uşaq ona belə dedi: “Anacan, səbir et! Çünki sən haqq yoldasan!” Baxın, hələ dili açılmamış bir körpə danışır, çünki hər bir şeyi danışdırmağa qadir olan Allah onu danışdırır. Bu, onun anası üçün kəramət idi. Allah o qadının körpəsini danışdırır ki, onun bu əzab qarşısında səbir etməsi və imanında möhkəm olması üçün ona qüvvət versin. Südəmər körpənin dil açıb danışması, həqiqətən də, böyük möcüzədir. Körpə anasının haqq üzərində olduğuna şahidlik edir, anası da səbir edir və odda yanmağına dözür. Bu, Allahın möcüzələrindəndir. Və bu dəlildir ki: **“Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər.”**[2]

İmranın qızı Məryəm عليها السلام, uca Allahın “Ol!”– deməklə yaratdığı İsaya عليه السلام hamilə qaldığı zaman ailəsindən çıxıb uzaq bir yerə çəkilmişdi. **“Doğuş sancıları onu bir xurma ağacının gövdəsinə söykənməyə vadar etdi”**[3] və elə orada da övladını dünyaya gətirdi. Onda Allah onun ayaqlarının altından bulaq axıtdı və ona belə buyurdu: **“Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün.”**[4] Bu xurmalar yerə töküldükdə əzilmirdi. Bu da, Allahın möcüzələrindəndir. Belə ki, adətən adam ayaq üstə durduğu zaman, xurma adamın əlindən yerə düşdükdə əzilir, lakin o tər xurmalar yerə düşdükdə zədələnmirdilər. Halbuki onlar hündür yerdən yerə düşürdülər. Həmçinin, övladını yenicə dünyaya gətirmiş, sancı içində olan zəif bir qadının, özündə güc toplayıb o boyda ağacı gövdəsindən tutub silkələməsi və oradan da xurmaların tökülməsi ~~də~~, Allahın möcüzələ-

[1] ən-Nəhl, 32.
[2] əz-Zumər, 61.
[3] Məryəm, 23.
[4] Məryəm, 25.

rindəndir. Belə ki, xurma ağacını gövdəsindən tutub silkələmək üçün güc lazımdır. Sonra Məryəmə belə deyilir: **"Ye, iç, gözün aydın olsun!"**[1] Sonra o, körpəni götürüb qövmünün yanına gəlir. Onlar *uşağı görəndə heyrət içində* deyirlər: **"Ey Məryəm! Sən yaramaz bir iş tutdun."**[2] Onlar onun zina etdiyini düşünürlər. Yəni necə ola bilər ki, uşaq atasız dünyaya gəlsin. "**Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun deyildi."**[3] Yəni ata-anan pis yolun yolçusu olmadığı halda, necə oldu ki, sən bu yola düşdün? Beləcə onlar onu zinada ittiham edirlər. Onda Məryəm uşağı göstərir ki, ondan soruşsunlar. Onlar da *təəccüblə* deyirlər: **"Beşikdə olan körpə ilə necə danışaq?"**[4] Onlar Məryəmin onları ələ saldığını güman edir, lakin Allah körpəni danışdırır və körpə dil açıb deyir: **"Həqiqətən, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də *məni* anama qarşı qayğıkeş *etdi*; məni lovğa və bədbəxt etmədi. Doğulduğum gün də, öləcəyim gün də, yenidən diriləcəyim gün də mənə salam olsun!"**[5] Beşikdə olan bu körpə olduqca səlis şəkildə on cümlə deyir. Allahın qüdrətinə bir baxın, görün o, körpələri necə səlis şəkildə danışdırır. Bütün bunlar Allahın hər şeyə qadir olduğuna dəlalət edir. Bu, həm də, Məryəmin o böhtanlardan uzaq olduğunu, təmiz və pak olduğunu göstərir. Əvvəldəki hekayədə də, körpə dil açıb anasına səbir etməyi, dinində və imanında sabit qalmağı tövsiyə edir. Bu və buna bənzər hekayələr dəlildir ki, uca Allah Öz rəhməti ilə hər bir mömini və hər bir müttəqini sıxıntıdan qurtarır, yəni həlak olacağı yerdə onun imdadına yetişir. Allah beləsini məhz onun təqvasına görə sıxıntıdan qurtarır. Bax gör Peyğəmbər ﷺ bu xüsusda nə buyurur: **"Xoş gündə Allahı tanı ki, dar gündə, O da səni tanısın."**[6] Müvəffəqiyyət Allahdandır.

---

[1] Məryəm, 26.
[2] Məryəm, 27.
[3] Məryəm, 28.
[4] Məryəm, 29.
[5] Məryəm sursəi, 30-33.
[6] Musnəd İmam Əhməd, 1/307; əl-Mocəm əl-Kəbir, Təbərani, 11243.

٣١ - وَعَنْ أَنَسٍ ﷺ قَالَ: مَرَّ النَّبِيُّ ﷺ بِامْرَأَةٍ تَبْكِي عِنْدَ قَبْرٍ فَقَالَ: «اتَّقِي اللهَ وَاصْبِرِي» فَقَالَتْ: إِلَيْكَ عَنِّي، فَإِنَّكَ لَمْ تُصَبْ بِمُصِيبَتِي، وَلَمْ تعْرِفْهُ، فَقِيلَ لَهَا: إِنَّه النَّبِيُّ ﷺ، فَأَتَتْ بَابَ النَّبِيِّ ﷺ، فلَمْ تَجِد عِنْدَهُ بَوَّابِينَ، فَقالَتْ: لَمْ أَعْرِفْكَ، فقالَ: «إِنَّمَا الصَّبْرُ عِنْدَ الصَّدْمَةِ الأُولَى». متفقٌ عليه.

وفي رواية لِمُسْلِمٍ: « تَبْكِي عَلَى صَبِيٍّ لَهَا ».

**31.** Rəvayət edilir ki, Ənəs ﷺ demişdir: *"Bir dəfə* Peyğəmbər ﷺ qəbrin başında ağlayan bir qadının yanından keçərkən *ona*: "Allahdan qorx və səbir et!"– dedi. Qadın isə *ona*: "Əl çək məndən! Mənim başıma gələn müsibət sənin başına gəlməmişdir"– dedi. Qadın Peyğəmbəri ﷺ tanımırdı. Ona: "O, Peyğəmbər ﷺ idi"– deyildikdə, dərhal Peyğəmbərin ﷺ qapısına gəldi, lakin orada gözətçilərə rast gəlmədi. *Dərhal içəri girib*: "Mən səni tanımamışam"– dedi. Peyğəmbər ﷺ də ona belə cavab verdi: "Əsil səbir, *müsibətin* ilk sarsıntısı anında edilən səbirdir!"

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Muslimin rəvayətində: "Öz körpəsi üçün ağlayırdı" ifadəsi vardır.

**Şərh:**

Müəllifin Ənəs ibn Malikdən ﷺ nəql etdiyi bu hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ, çox sevdiyi övladının ölümünə üzülən və özünü ələ ala bilməyib onun qəbrinin başına gələrək ağlayan bir qadının yanından keçərkən onun ağladığını görüb ona: **"Allahdan qorx və səbir et!"**– deyə nəsihət edir. Qadın isə ona: **"Əl çək məndən! Mənim başıma gələn müsibət sənin başına gəlməmişdir"**- deyir. Yəni, məndən uzaq dur, mənim başıma gələn müsibətin bənzəri sənin başına gəlməmişdir. Bu, qadının o müsibətdən olduqca çox təsirləndiyini göstərir. *Bu cavabdan* sonra Peyğəmbər ﷺ o qadından uzaqlaşır. Sonra həmin qadına: "O, Peyğəmbər ﷺ idi"– deyildikdə, peşman olur və dərhal Peyğəmbərin ﷺ qapısına gəlir, lakin orada gözətçilərə rast gəlmir. Yəni orada, insanların Peyğəmbərin ﷺ yanına girməsinə mane olacaq

[1] Səhih əl-Buxari, 1283; Səhih Muslim, 926.

heç bir gözətçi yox idi. Qadın Peyğəmbərə ﷺ dərdini bildirir və: "Mən səni tanımamışam"– deyir. Peyğəmbər ﷺ: **"Əsil səbir, müsibətin ilk sarsıntısı anında edilən səbirdir!"**– deyə cavab verir. Belə ki, insanın, qarşılığında savab qazanacağı səbir, başına müsibət gəldikdə ilk sarsıntı anında göstərdiyi səbirdir. Əsl səbir budur. Sonradan səbir etmək isə, heyvanlarda olduğu kimi acını unudub təsəlli tapmaq sayılır. Deməк, həqiqi səbir, insanın başına müsibət gəldiyi ilk anda səbir etməsi, buna görə Allahdan savab umması və belə dua etməsidir:

(( إِنَّا للهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ اللَّهُمَّ أْجُرْنِي فِي مُصِيبَتِي وَأَخْلِفْ لِي خَيْراً مِنْهَا ))

"Biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq! Allahım, başıma gələn müsibət sayəsində məni mükafatlandır və əvəzinə ondan da xeyirlisini ver!"[1]

Bu hədisdən aşağıdakı faydaları çıxartmaq olar:

Birincisi, Peyğəmbərin ﷺ gözəl əxlaq sahibi olması, üstəlik, haqqa və xeyirli işə dəvət etməsidir. Belə ki, o, qəbrin başında durub ağlayan qadını görəndə, ona Allahdan qorxmağı və səbirli olmağı buyurur. Qadın ona: **"Əl çək məndən!"**– desə də, Peyğəmbər ﷺ öz nəfsinə görə onu cəzalandırmamış, onu vurmamış və onun səhvini zor gücü ilə düzəltməyə çalışmamışdır. Çünki o, bu qadının başına gəlmiş müsibətin, onun təhəmmül edə bilməyəcəyi qədər böyük olduğunu və elə bu səbəbdən də gəlib qəbrin başında ağladığını başa düşmüşdü. Əgər kimsə bizə: "Məgər qadının qəbri ziyarət etməsi haram deyilmi?"– deyə sual versə, deyərik ki: "Bəli, haramdır, hətta bu, böyük günahlardandır. Çünki Peyğəmbər ﷺ, qəbirləri ziyarət edən qadınlara, həmçinin, qəbirlərin üstündə ibadətgahlar tikənlərə və şam yandıranlara lənət etmişdir.[2] Lakin qeyd etmək lazımdır ki, bu qadın, ziyarət üçün deyil, sadəcə övlad itkisinə görə qəlbində olan yanğı və kədərdən dolayı dözməyib qəbirstanlığa getmişdir. Elə buna görə Peyğəmbər ﷺ onu üzürlü hesab etmiş, ona sərt şəkildə etiraz etməmiş və evinə qayıtmasını buyurmamışdır.

---

[1] Səhih Muslim, 918.

[2] Sunən ət-Tirmizi, 320; Sunən ən-Nəsai, 2043; Sunən Əbu Davud, 3236; Şeyx Albani bu hədisi həsən hesab etmişdir. Bax: İrva əl-Ğəlil, 3/313.

Hədisdən çıxarılan ikinci fayda budur ki, insan, cəhalətinə görə üzürlü sayılır. Bilməməzlik, istər dini hökmə aid olsun, istərsə duruma aid olsun fərq etməz. Necə ki, bu qadın Peyğəmbərə ﷺ : "Əl çək məndən!"– demişdir. Hərçənd Peyğəmbər ﷺ ona xeyirli bir şeyi, Allahdan qorxmağı və səbirli olmağı nəsihət etmişdir, lakin o, Peyğəmbəri ﷺ tanımamışdır. Buna görə də, Peyğəmbər ﷺ onu üzürlü saymışdır.

Üçüncü fayda budur ki, müsəlmanların işlərinə cavabdeh olan adam, evinin qarşısına, ehtiyac üzündən qapısına gələn insanları geri qaytaracaq gözətçilər qoymamalıdır. Yox, əgər adam, insanların qapısının ağzına toplaşıb onu yormasından, müşküllərinin başqa vaxtda həll edilməsinin mümkün olmasına rəğmən onu tez-tez bezdirmələrindən qorxarsa, bu halda qapıya gözətçi qoymaqda heç bir eybi yoxdur. Yad bir yerə daxil olmaq üçün izin istəmək də məhz *xəlvəti* baxışlardan dolayı vacib buyurulmuşdur ki,[1] içəri daxil olan adam, ona aid olmayan şeyləri görməsin, həm də, ev yiyəsi istədiyinə izin verib, istəmədiyini də geri qaytara bilsin.

Dördüncü fayda budur ki, öz sahibinə tərif qazandıran səbir, müsibətin ilk sarsıntısı anında edilən səbirdir. Belə ki, insan səbir edir və əvəzində savab qazanacağına ümid edir və bilir ki, Allahın aldığı da, verdiyi də Ona məxsusdur və Onun yanında hər şeyin öz əcəli vardır.

Hədisdən çıxan beşinci fayda budur ki, qəbrin yanında durub ağlamaq səbirsizlik əlamətidir.[2] Elə buna görə də Rəsulullah ﷺ o qadına: **"Allahdan qorx və səbir et"**– demişdir. Bəzilərinin əzizləri vəfat etdikdə onun qəbrini ifrat dərəcədə tez-tez ziyarət edib ağlayırlar. Bu da, səbirsizliyin əlamətidir. Belə adama nəsihətimiz budur ki, əgər ölüyə fayda vermək istəyirsə, evində oturub onun üçün Allaha dua etsin. Buna görə tez-tez qəbirstanlığa getməyə gərək yoxdur. Çünki bir qəbri tez-

---

[1] Rəvayət edilir ki, Səhl ibn Səd رضي الله عنه demişdir: "*Bir dəfə* bir nəfər Peyğəmbərin ﷺ hücrələrindən birinin qapısının dəliyindən içəri baxmağa başladı. Həmin vaxt Peyğəmbər ﷺ əlindəki dəmir daraqla başını qaşıyırdı. Sonra Peyğəmbər ﷺ ona dedi: "Əgər sənin *xəlvətcə* baxdığını bilsəydim, bu darağı sənin gözünə soxardım. İzn istəmək, məhz belə baxışlardan dolayı vacib buyurulmuşdur." (Səhih əl-Buxari, 6241).

[2] Təbii ki, burada söhbət ölən adama acıyaraq həzin-həzin ağlamaqdan yox, əksinə, qədərə etiraz edərək, yaxud vay-şivən salaraq ağlamaqdan gedir. Belə ki, Peyğəmbər ﷺ övladını, yaxud, nəvəsini, yaxud da səhabəsini dəfn etdikdə ağlayarmış.

tez ziyarət etmək, daim həmin ölən adam haqqında düşünməyə və heç vaxt onu yaddan çıxartmamağa səbəb olur. Belə olduğu halda isə adam heç vaxt bu müsibəti unuda bilmir. Halbuki insanın bacardığı qədər müsibətlərlə məşğul olmaması və onları yaddan çıxartması onun üçün daha xeyirlidir. Müvəffəqiyyət Allahdandır.

٣٢ - وَعَنْ أَبِي هَرَيْرَةَ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «يَقُولُ اللَّهُ تَعَالَى: مَا لِعَبْدِي الْمُؤْمِنِ عِنْدِي جَزَاءٌ إِذَا قَبَضْتُ صَفِيَّهُ مِنْ أَهْلِ الدُّنْيَا ثُمَّ احْتَسَبَهُ إِلاَّ الْجَنَّةَ» رواه البخاري.

**32.** Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Uca Allah buyurur: "Mömin qulumun sevdiyi bir adamın canını aldığım zaman o buna səbir edib savabını alacağına ümid edərsə, Mənim ona verəcəyim mükafat ancaq Cənnət olar."

Hədisi Buxari rəvayət etmişdir.[1]

**Şərh:**

Bu, Rəsulullahın ﷺ Allahdan nəql etdiyi bir hədisdir. Alimlər, belə hədisləri: "Qüdsi hədis" adlandırırlar. Çünki Rəsulullah ﷺ onu Allahdan rəvayət etmişdir. Ərəbcə hədisdə keçən **"safiyy"** kəliməsi, adamın çox sevdiyi və qəlbində xüsusi yeri olan ata-anası, ailəsi, övladı, qardaşı, bacısı, əmisi, dostu və başqa əzizləridir. Yəni qəlbində xüsisi yeri olan, çox sevdiyi və çox bağlı olduğu bir kimsədir. Allah adamın belə bir əzizini əlindən aldıqda, o adam da səbir edib əvəzini Allahdan umarsa, onun mükafatı ancaq Cənnət olar.

Bu hədisdən aşağıdakı faydaları çıxartmaq olar:

Birincisi, adamın, çox sevdiyi birisinin dünyadan köçməsinə səbir etməsinin fəzilətli əməl olması, üstəlik, bunun savabını Allahdan ümduğunda Allahın onu mükafatlandırması və bu mükafatın Cənnət olmasıdır.

İkincisi, uca Allahın Öz qullarına olan lütfü və səxavətidir. Belə ki, mülkün sahibi Odur və hökm vermək Ona məxsusdur. Sən və sənin

[1] Səhih əl-Buxari, 6424.

çox sevdiyin kimsə – hər ikiniz Allaha məxsussunuz. Bununla belə, Allah insanın əzizini əlindən aldıqda, o, bu müsibətə səbir edib savabını Allahdan umarsa, ona bu böyük mükafat verilər.

Üçüncüsü fayda: **"canını aldığım zaman"** ifadəsidir ki, bu, uca Allahın istədiyi işi görməsinə dəlalət edir. Heç şübhəsiz ki, Allah, istədiyini edər. Lakin bilməliyik ki, Allahın etdiyi əməllərin hamısı xeyirdir və şər əməli əsla Ona isnad etmək olmaz. Belə ki, xoşagəlməz bir hadisə baş verdikdə, o iş, işi görənə yox, işin özünə aid edilir. Məsələn, uca Allah, bir adamın xoşlamayacağı bir şeyi onun qədərinə yazmışdırsa, şübhə yoxdur ki, həmin adamın xoşlamadığı bu şey, o adama görə şər sayılır. Yəni bu şər, Allahın bunu qədərə yazmasında deyil, o işin özündədir. Belə ki, Allahın yazdığı hər şeydə böyük hikmət vardır. *Bu hikmət ya,* qədərinə yazılmış adamın özünə, ya da ümumiyyələ başqalarına aid olur. Bu hikmət bəzən sadəcə bir adamla, bəzən də bütün yaradılmışlarla əlaqəli olur. Qədərinə xoşagəlməz bir şey yazılmış adam buna səbir edib savabını Allahdan umarsa, buna görə xeyrə nail olar. Çünki ola bilsin ki, adam başına gəlmiş müsibəti görüb tövbə etsin və Rəbbinə qayıtsın. Belə ki, insan daim nemətlər içində yaşadıqda, lütf sahibinə şükür etməyi unudur, Allahı yada salmır. Başına bir müsibət gəldikdə isə Allahı yada salır və Ona üz tutur. Bunda da onun üçün böyük fayda vardır. Bu müsibətin başqalarına olan faydasına gəlincə, bəzən, bir adamın başına müsibət gəldikdə həmin adam ondan zərər çəksə də, ola bilər ki, bunun başqalarına xeyri dəyir. Məsələn, bir adamın evi gildən olarsa, Allah da hər dəfə leysan yağış yağdırdıqda, bu zaman həmin adam zərər görsə də, bu, insanların ümumi məsləhəti üçün olur və o yağışdan digər insanlar faydalanır. Beləcə bu yağış, bir adam üçün şər, digərləri üçün xeyir olur. Bununla belə bu müsibətin o kimsə üçün şər olması da nisbidir. Belə ki, bu işdə bir tərəfdən şər olsa da, digər tərəfdən xeyir vardır. Belə olduqda o adam bundan ibrət alar və başa düşər ki, yalnız Allaha sığınmaq gərəkdir və Ondan başqa sığınacaq yoxdur. Beləliklə, bu müsibətdən gördüyü zərərdən daha çox fayda görər. Xülasə budur ki, bu hədisdə böyük fayda olduğu üçün müəllif onu səbir bölümündə zikr etmişdir. Belə ki, Allah insanın əzizi-

ni əlindən aldıqda, o, bu müsibətə səbir edib savabını Allahdan umarsa, onun mükafatı yalnız Cənnət olar. Müvəffəqiyət Allahdandır.

٣٣ - وعَنْ عائشَةَ رضي الله عنها أنهَا سَأَلَتْ رسولَ اللَّه ﷺ عَن الطَّاعونِ، فَأَخبَرَهَا أَنَهُ كَانَ عَذَاباً يَبْعَثُهُ اللَّه تعالى عَلَى منْ يَشَاءُ، فَجَعَلَهُ اللَّهُ تعالَى رحْمةً للْمُؤْمنِينَ، فَلَيْسَ مِنْ عَبْدٍ يَقَعُ فِي الطَّاعُون فَيَمْكُثُ فِي بلَدِهِ صَابِراً مُحْتَسِباً، يَعْلَمُ أَنَّهُ لاَ يُصِيبُهُ إِلاَّ مَا كَتَبَ اللَّهُ لَهُ، إِلاَّ كَانَ لَهُ مِثْلُ أَجْرِ الشَّهِيدِ» رواه البخاري.

**33.** Rəvayət edilir ki, bir gün Aişə رضي الله عنها Peyğəmbərdən ﷺ taun[1] haqqında soruşmuş, Peyğəmbər ﷺ də ona belə cavab vermişdir: "Bu, Allah təalənin dilədiyi kimsələrə göndərdiyi bir əzabdır. Fəqət Allah onu möminlər üçün rəhmət etmişdir. Belə ki, taun xəstəliyinə tutulmuş bir adam səbir edib savabını *Allahdan* diləyərək və başına Allahın yazdığından başqa bir şey gəlməyəcəyinə etiqad edərək yaşadığı yerdə qalarsa, ona şəhidin savabı qədər savab yazılar."

Hədisi Buxari rəvayət etmişdir.[2]

**Şərh:**

Müəllifin səbir fəslində zikr etdiyi hədislər arasında, Aişədən رضي الله عنها nəql etdiyi bu hədisdə xəbər verilir ki, o, Peyğəmbərdən ﷺ taun haqqında soruşmuş, Peyğəmbər ﷺ də bunun, Allahın dilədiyi kəslərə göndərdiyi bir əzab olduğunu söyləmişdir.

**Taun:** bəzi alimlərin rəyinə görə bu, ayrıca vəba xəstəliyidir, digərlərinin fikrincə isə bu, ümumən yer üzünə yayılan və insanları öldürən istənilən yoluxucu xəstəlikdir. İstər ayrıca vəba xəstəliyi olsun, istərsə başqa yoluxucu xəstəliklər olsun, bu taun, Allahın göndərdiyi bir əzabdır. Lakin bu taun, mömininin olduğu yerə yayılsa və o da buna səbir edib Allahdan savabını umsa və Allahın yazdığı qədərdən artıq bir müsibətlə qarşılaşmayacağına etiqad etsə bu onun üçün bir rəhmət olar. Belə ki, Allah ona şəhid savabı yazar. Odur ki, Abdurrəhman ibn Aufdan رضي الله عنه

[1] Qusma və ishal şəklində təzahür edən, yoluxucu ağır epidemik xəstəlik.

[2] Səhih əl-Buxari, 3474.

rəvayət edilən səhih hədisdə Rəsulullah ﷺ belə buyurmuşdur: **"Hər hansı bir yerdə taun xəstəliyi yayıldığını eşitsəniz, ora getməyin. Və əgər olduğunuz bir yerdə bu xəstəlik yayılarsa, canınızı qurtarmaq üçün oradan qaçmayın."**[1] Demək, bir yerdə taun xəstəliyi yayıldıqda oraya getməməliyik. Belə ki, oraya getmək, özünü təhlükəyə atmaq deməkdir. Eləcə də, bizim olduğumuz yerdə bu xəstəlik yayılarsa, canımızı qurtarmaq üçün oradan qaçmamalıyıq. Çünki bir yerdə yoluxucu xəstəlik olduda Allahın yazdığı qədərdən nə qədər qaçmağa çalışsan da, bu qaçışın səni Allahın əlindən qurtara bilməz. Quranda Allahın bizə xəbər veridyi əhvalatı yada sal. "*Sayları* **minlərlə olduğu halda ölüm qorxusundan dolayı yurdlarından çıxanları görmədinmi?"**[2] Bəzi təfsir alimləri bu ayənin təfsirində deyirlər ki, onların diyarında vəba xəstəliyi yayıldığına görə onlar oranı tərk etmişdilər. **"Allah onlara: "Ölün!"– dedi. Sonra isə onları diriltdi."**[3] Allah onları öldürdükdən sonra dirildir ki, onlara, Allahın qəzavü-qədərindən qaçdıqda, axırda yenə Allahın yazdığı qədərə düçar olduqlarını bəyan etsin. Allah belə edir ki, onlar Allahın qədərindən qaçmağın mümkün olmadığını başa düşsünlər.

Aişədən رضي الله عنها rəvayət edilmiş bu hədis, müsibətə səbir etməyin və bunun əvəzini Allahdan ummağın fəzilətli əməl olduğunu göstərir. Hədisdən o da aydın olur ki, taun xəstəliyi yayılan bir yerdə özünü səbir etməyə məcbur edib heç yerə qaçmayan, sonra da orada vəfat edən kimsəyə, Allah şəhid savabı yazır. Çünki həyat insan üçün çox dəyərli sayıldığından, onun yaşadığı yerdə taun yayıldıqda o, taundan qorxub qaçmaq istəyir. Lakin orada qalıb səbir edər və Allahdan savabını umar, habelə, Allahın yazdığı qədərdən başqa başına heç nə gəlməyəcəyinə inanar, sonra da ölərsə, ona şəhid savabı yazılar. Bu da, Allahın bir lütfüdür.

٣٤ - وعَنْ أَنسٍ رضي الله عنه قال: سَمِعْتُ رسول الله ﷺ يقولُ: «إنَّ الله عَزَّ وجَلَّ قَالَ: إِذَا ابْتَلَيْتُ عَبدِي بحبيبتَيْهِ فَصبَرَ عَوَّضْتُهُ مِنْهُمَا الْجنَّةَ» يُريدُ عينيْه. رواه البخاريُّ.

---

[1] Səhih əl-Buxari, 5730.

[2] əl-Bəqərə, 243.

[3] Ayənin davamıdır.

**34.** Rəvayət edilir ki, Ənəs ibn Malik ﷺ demişdir: “Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: “Qüdrətli və uca Allah buyurur: “Qulumu, onun sevdiyi iki şeylə sınadığım zaman səbir edərsə, onların əvəzinə ona Cənnət bəxş edərəm.” Burada *Allah* iki gözü qəsd edir.

Hədisi Buxari rəvayət etmişdir.[1]

**Şərh:**

Bu hədisdə Peyğəmbər ﷺ xəbər verir ki, Rəbbi belə buyurmuşdur: **“Qulumu, onun sevdiyi iki şeylə sınadığım zaman...”**, yəni iki gözünü alıb onu kor etdikdən sonra, o adam buna səbir edərsə, Allah bunun əvəzinə ona Cənnəti verər. Çünki göz, insan üçün əzizdir. Uca Allah, insanın iki gözünü aldıqda, o buna səbir edib savabını Allahdan umarsa, Allah bunun əvəzinə ona Cənnət bəxş edər. Cənnət isə bütün dünyaya dəyər. Hətta Peyğəmbər ﷺ demişdir: **“Birinizin Cənnətdəki qamçısı boyda yeri, dünya və içindəkilərdən daha xeyirlidir.”**[2] Yəni oradakı bir metrəlik yer dünya və içindəkilərdən daha xeyirlidir. Çünki axirət nemətləri əbədidir, tükənməzdir. Dünya isə fani və keçicidir. Odur ki, Cənnətdəki çox kiçik bir yer, dünya və içindəkilərdən daha xeyirlidir. Bil ki, Allah subhanəhu və təalə insanın duyğu orqanlarından birini aldıqda, onun bu itkisinə olan kədərini və acısını yüngülləşdirmək üçün o naqisliyi, başqa bir duyğu orqanının fəaliyyyətini gücləndirməklə əvəz edir. Məsələn, Allah korların dərk etmə və hiss etmə gücünü artırır. Sən onların bazarlarda təkbaşına, gözləri görən insan kimi yeridiklərini görürsən. Onlar bazarlardakı döngələri, enişləri və yoxuşları hiss edərlər. Hətta bəzi korlar şəhərin o başından taksiyə minib evinə gedərkən, evin yerini tapa bilməyən sürücüyə: “Sağa sür, sola sür”– deyərək evin yolunu göstərir və nəhayət, onu qapının qarşısında saxlatdırırlar. Sürücü yolu tapa bilmir, *gözləri görməyən* sərnişin isə ona yol göstərir. Subhanəllah! Allahın hikmətindəndir ki, O, istənilən bir bəndəsinin duyğu orqanlarından birini aldıqda, əksər hallarda, aldığının əvəzi olaraq, onun itirdiyi bəzi duyğu orqanının yerinə, onun dərk etmə və hiss etmə qabiliyyətini gücləndirir. Müvəffəqiyyət Allahdandır.

---

[1] Səhih əl-Buxari, 5653.

[2] Səhih əl-Buxari, 2892.

٣٥ - وعنْ عطاءِ بْن أَبي رَباحٍ قالَ: قالَ لِي ابْنُ عبَّاسٍ ﵄: ألا أريكَ امْرَأَةً مِن أَهْلِ الجَنَّة؟ فَقُلت: بلَى، قَالَ: هذِهِ المْرَأَةُ السوْداءُ. أَتَتِ النبيَّ ﷺ فقالَتْ: إنِّي أُصْرَعُ، وإِنِّي أَتكَشَّفُ، فَادْعُ اللَّه تعالى لِي قَالَ: «إِن شئْتِ صَبَرْتِ ولكِ الْجنَّةُ، وإِنْ شِئْتِ دعَوْتُ اللَّه تَعالَى أَنْ يُعافِيَكِ» فقَالتْ: أَصْبرُ، فَقالت: إِنِّي أَتَكشَّفُ، فَادْعُ اللَّه أَنْ لا أَتكشَّفَ، فَدَعَا لَهَا. متَّفقٌ عليْهِ.

**35.** Rəvayət edilir ki, Əta ibn Əbu Rəbah ﵀ demişdir: "İbn Abbas ﵄ mənə dedi: "Sənə Cənnət əhlindən olan bir qadını göstərimmi?" Mən: "Əlbəttə, *göstər*!"– dedim. İbn Abbas dedi: "Budur, bu zənci qadın. O, Peyğəmbərin ﷺ yanına gəlib: "Məndə tez-tez bayılma halları olur və bu vaxt bədənimin bəzi yerləri açılır. Mənim üçün Allaha dua et, *sağalım*!"– dedi, Peyğəmbər ﷺ də *ona* belə buyurdu: "İstərsən səbir et, bunun əvəzində sənə Cənnət nəsib olsun, istərsənsə də, dua edim, Allah sənə şəfa versin." Qadın dedi: "Səbir edərəm, lakin bədənimin bəzi yerləri açılır. Allaha dua et ki, üstüm açılmasın." Peyğəmbər ﷺ də onun üçün dua etdi."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Bu rəvayətdə deyilir ki, İbn Abbas ﵄: **"Sənə Cənnət əhlindən olan bir qadın göstərimmi?"**- deyə, Ətaya Cənnət əhlindən olan bir qadın göstərəcəyini təklif edir. Cənnətliklər iki qisimdir: vəsflərinə görə cənnətlik olduqlarını söylədiyimiz ümumi adamlar və bir də cənnətlik olduqlarına şahidlik etdiyimiz xüsusi adamlar.

Vəsflərinə görə cənnətlik olduqlarını söylədiyimiz kimsələrə gəlincə, bu, Allahdan qorxan hər bir mömindir. Biz şahidlik edirik ki, onlar Cənnət əhlidirlər. Uca Allah onların Cənnət əhli olduğu haqqında belə buyurur: **"Rəbbinizin məğfirətinə və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin."[2]** Başqa bir ayədə də belə buyurur: **"İman gətirib yaxşı işlər görənlərə gəlincə, onlar**

---

[1] Səhih əl-Buxari, 5652; Səhih Muslim, 2576.

[2] Ali-İmran, 133.

**məxluqatın ən yaxşılarıdır. Onların Rəbbinin yanındakı mükafatı altından çaylar axan, içində əbədi qalacaqları Ədn cənnətləridir. Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu *nemətlər*, Rəbbindən qorxan kimsələrdən ötrüdür!"**[1] Beləliklə, biz, Allahdan qorxaraq yaxşı işlər görən hər bir möminin cənnətlik olduğuna şahidlik edirik. Lakin biz xüsusiləşdirib: "Filankəs, filankəs cənnətlikdir"– demirik. Çünki biz onun son aqibətinin necə olacağını, habelə, daxilinin də zahiri kimi olduğunu bilmirik. Elə buna görə də müəyyən bir adamın cənnətlik olduğuna şahidlik etmirik. Hərçənd, əməlisaleh bir adamın vəfat etdiyini gördükdə: "Ümid edirik ki, o, cənnətlikdir"– deyə bilərik, lakin onun mütləq şəkildə cənnətlik olacağına şahidlik edə bilmərik.

İkinci qism isə cənnətlik olduqlarına şahidlik etdiyimiz xüsusi adamlardır. Bunlar, Peyğəmbərin ﷺ cənnətlə müjdələdiyi kimsələrdir. Cənnətlə müşjdələnmiş on kişi kimi: Əbu Bəkr, Ömər, Osman, Əli, Səid ibn Zeyd, Səd ibn Əbu Vəqqas, Abdurrəhman ibn Auf, Talhə ibn Ubeydullah, Əbu Ubeydə Amir ibn əl-Cərrah və Zubeyr ibn əl-Əvvam – Allah onların hamısından razı olsun! Habelə, Sabit ibn Qeys ibn Şəmmas, Səd ibn Muaz, Abdullah ibn Səlam, Bilal ibn Rəbah – Allah onların hamısından razı olsun! Həmçinin, Sabit ibn Qeys ibn Şəmmas, Səd ibn Muaz, Abdullah ibn Səlam, Bilal ibn Rəbah رضي الله عنهم və başqa bunlar kimi, Rəsulullahın ﷺ cənnətlə müjdələdiyi xüsusi kimsələr. Biz bu şəxsiyyətlərin adlarını çəkərək onların cənnətlik olduqlarına şahidlik edə bilərik. Məsələn, "Şahidlik edirik ki, Əbu Bəkr رضي الله عنه cənnətlikdir, şahidlik edirik ki, Ömər رضي الله عنه cənnətlikdir, şahidlik edirik ki, Osman رضي الله عنه cənnətlikdir, şahidlik edirik ki, Əli رضي الله عنه cənnətlikdir..." deyə bilərik. Bunlardan biri də *hədisdə zikr olunan* bu qadındır. O qadın ki, İbn Abbas رضي الله عنهما, tələbəsi Əta ibn Əbu Rəbahdan رحمه الله: "Sənə Cənnət əhlindən olan bir qadını göstərimmi?"– deyə soruşduqda, o: "Əlbəttə, *göstər*!"– deyə cavab vermiş, İbn Abbas رضي الله عنهما da ona: "Budur, bu zənci qadın"– deyərək həmin qadını göstərmişdir. Toplumda heç bir dəyəri olmayan zənci bir qadın! Bu qadın tez-tez bayılır və həmin vaxt bədəninin bəzi yerləri açılırmış. Nəhayət, o, bu haqda Peyğəmbərə ﷺ xəbər verir və ondan özü üçün dua et-

[1] əl-Bəyyinə, 7-8.

məsini xahiş edir. Peyğəmbər ﷺ də ona belə cavab verir: "İstərsən səbir et, bunun əvəzində sənə Cənnət nəsib olsun, istərsənsə də, dua edim, Allah sənə şəfa versin." Qadın: "Səbir edərəm"– deyir. Hərçənd o, bu bayılmadan əziyyət çəkirdi, lakin cənnətlik olmaq üçün səbir edir. Sonra o, Peyğəmbərdən ﷺ: "Ey Allahın elçisi! *Bayıldıqda* mənim üstüm açılır. Elə isə Allaha dua et ki, üstüm açılmasın"– deyə xahiş edir. Peyğəmbər ﷺ də onun üstünün açılmaması üçün Allaha dua edir. Bundan sonra o qadın tez-tez bayılsa da, bədəni açılmırmış.

**Bayılma xəstəliyi iki növdür:**

Birincisi, sinirlərin gərginləşməsi nəticəsində olan bayılmadır. Bu, bir sinir xəstəliyidir və o, həkimlərin verdiyi sakitləşdirici, yaxud xəstəliyi tamamilə aradan qaldırıcaq dərmanlarla müalicə edilə bilər.

İkincisi isə cinlər vasitəsilə meydana gələn bayılmadır. Belə olduğu halda cin insanı vurub bayıldır, onun bədəninə girir və onu qaldırıb yerə çırpır. Bunun şiddətindən adam özündən gedir və heç bir şey hiss etmir. Cin adamın bədəninə girir və onun dili ilə danışmağa başlayır. Onu eşidən adam: "Danışan, bir insandır"– deyir, lakin o, cindir. Odur ki, onun danışığının bir az fərqli olduğunu, oyaq halındakı danışığı kimi olmadığını görürsən. Çünki onun tələffüzü cinin danışması səbəbilə ilə dəyişir. Bu növ bayılmadan və digər xəstəliklərdən Allaha sığınırıq. Bu bayılmanın əlacı, elm və fəzilət əhlinin o xəstəyə Quran oxumasıdır. Bəzən xəstənin içindəki cin, Quranı oxuyan adamla danışır və nəyə görə o xəstəni bu hala salmasının səbəbini bildirir. Bəzən də heç danışmır. Cinin insanı bayıltması həm Quran və Sünnədə öz əksini tapmış, həm də təcrübə ilə məlumdur. Quranda uca Allah buyurur: **"Sələm yeyənlər *qəbirlərindən,* şeytan vurmuş dəlinin qalxdığı kimi qalxarlar."**[1] Bu, şeytanın insanı vurub onu bayıltmasına dəlildir. Sünnəyə gəlincə, İmam Əhmədin "Müsnəd"ində rəvayət edilən hədisdə xəbər verilir ki, səfərlərin birində Peyğəmbər ﷺ, tez-tez bayılan körpəsi olan bir qadının yaşadığı yerə gəlir və qadın uşağı onun yanına gətirir. Peyğəmbər ﷺ uşağın içindəki cinə xitab edərək onunla danışır, axırda da cin onun bə-

---

[1] əl-Bəqərə, 275.

dənindən çıxır. Qadın da bu yaxşılığın əvəzini çıxmaq üçün Peyğəmbərə ﷺ hədiyyə verir."[1]

Həmçinin, alimlər də cin vurmuş kimsələrin içindəki cinlərlə danışardılar. Onlardan biri də İbn Teymiyyə ﵀ idi. Tələbəsi İbn əl-Qeyyim ﵀ rəvayət edir ki, bir gün bədəninə cin girmiş bir adamı İbn Teymiyyənin yanına gətirdilər. İbn Teymiyyə ona ruqya oxumağa başladı və içindəki qadın cinə xitab edib: "Allahdan qorx və çıx!"– dedi. O isə: "Mən onu istəyirəm, onu sevirəm"– deyə cavab verdi. Şeyxulislam ona: "Lakin o səni sevmir, çıx!"– dedi. O isə: "Mən onunla birlikdə həcc ziyarətini yerinə yetirmək istəyirəm"– deyə cavab verdi. Şeyxulislam: "Lakin o, sənin onunla birlikdə həcc etməyini istəmir, çıx!"– dedi. Cin bundan imtina etdikdə, Şeyxulislam xəstə kişiyə Quran oxumağa və *əli ilə* onu möhkəm vurmağa başladı. O qədər vurdu ki, axırda bu zərbələrdən öz əli ağrıdı. Nəhayət, adamın içindəki cin danışmağa başladı və: "Şeyxə ehtiram xatirinə çıxıram"– dedi. Şeyxulislam isə ona: "Mənə ehtiram xatirinə yox, Allaha və Onun rəsuluna ﷺ itaət edərək çıx!"– dedi. Nəhayət, cin o adamın bədənindən çıxdı və o, özünə gəldi. Adam: "Nə üçün məni şeyxin yanına gətirmisiniz?"– deyə soruşdu. Yanındakılar: "Subhanəllah! Şeyxin səni vurduğunu hiss etmirdinmi?"– deyə soruşdular. Adam: "Xeyr, nə bunun fərqinə vardım, nə də vurduğunun acısını hiss etdim"– deyə cavab verdi.[2]

Bu mövzuda nümunələr çoxdur. Bu cür bayılmaların iki cür əlacı var: biri əvvəlcədən onun qarşısını alır, o birisi isə olduqdan sonra onu aradan qaldırır.

**Birinci müalicə**, adamın, bu mövzuya aid Quran və Sünnədə varid olmuş ayə və duaları davamlı şəkildə səhər-axşam oxumasıdır. Bunlar,

---

[1] Hədisin tam variantı belədir: rəvayət edilir ki, bir qadın cin vurmuş körpəsini Peyğəmbərin ﷺ yanına gətirdi və Peyğəmbər ﷺ ona: "Çıx, ey Allahın düşməni, mən Allahın rəsuluyam"– deyə buyurdu, o da, çıxdı və beləliklə, uşaq sağaldı. Bu yaxşılığa görə qadın Peyğəmbərə ﷺ iki qoç, bir qədər pendir və yağ hədiyyə etdi. Peyğəmbər ﷺ də *yanındakı səhabəsinə*: "pendiri, yağı və qoçun birini götür, o birisini isə özünə qaytar"– deyə buyurdu." (Musnəd, 4/171-172). Hədisin isnadını şeyx Albani "Mişkat əl-Məsabih" əsərindəki hədislərin (№ 5922) şərhində səhih hesab etmişdir.

[2] Zad əl-Məad, 4/60.

elm əhlinin kitablarında zikr edilmişdir. Bu dualardan biri, Kürsü ayəsidir. Belə ki, gecə yatmazdan əvvəl bunu oxuyan kimsənin yanında, Allah tərəfindən bir mühafizəçi mələk durar və səhərə qədər şeytan ona yaxınlaşa bilməz. əl-İxlas, əl-Fələq və ən-Nas surələri də bu dualardandır. Həmçinin, Peyğəmbərdən ﷺ rəvayət edilən başqa dualar da vardır. Adam bunları səhər-axşam oxumaq üçün səy göstərməlidir. Çünki, bu dualar cinlərin verdiyi əziyyətləri dəf edən səbəblərdir.

**İkinci müalicə** üslubu, bu müsibət insanın başına gəldikdən sonra onu aradan qaldırmaq üçün, Quranda zikr edilən – qorxudan, xəbərdar edən, xatırladan və Allaha sığınılan ayələrdən oxumalı və xəstənin bədəninə girmiş cin oradan çıxana qədər oxumağına davam etməlidir.

Bu hədisin fəsilə aid olan hissəsi, Peyğəmbərin ﷺ o qadına: "İstərsən səbir et, bunun əvəzində sənə Cənnət nəsib olsun, istərsənsə də, dua edim, Allah sənə şəfa versin"– deməsi, qadının da ona, "Səbir edərəm..."– deməsidir. Bu, dəlildir ki, səbir fəzilətli əməldir, həm də, cənnətə daxil olmağa vəsilədir. Müvəffəqiyyət Allahdandır.

٣٦ - وعنْ أَبي عبْدِ الرَّحْمنِ عبْدِ اللَّه بنِ مسْعُودٍ رضي الله عنه قَال: كَأَنِّي أَنْظُرُ إِلى رسولِ اللَّه ﷺ يحْكِي نَبيّاً من الأَنْبِياءِ، صلواتُ اللَّهِ وسَلاَمُهُ عَليْهم، ضَرَبَهُ قَوْمُهُ فَأَدْمَوْهُ وهُو يمْسَحُ الدَّمَ عنْ وجْهِهِ، يقُولُ: «اللَّهمَّ اغْفِرْ لِقَوْمي فإِنَّهُمْ لا يعْلمُونَ» متفقٌ عَلَيْه.

**36.** Rəvayət edilir ki, Əbu Abdurrəhman Abdullah ibn Məsud رضي الله عنه demişdir: "Rəsulullahın ﷺ peyğəmbərlərdən – onlara Allahın salavatı və salamı olsun! – birinin başına gələn hadisəni danışması sanki gözümün önündədir. Belə ki, qövmü onu vurub al-qana boyamış, o isə qanı üzündən silərək: "Allahım, qövmümü bağışla, çünki onlar *haqqı* bilmirlər!"– deyirdi."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Bu hədisdə Rəsulullah ﷺ peyğəmbərlərin – onlara Allahın salavatı və salamı olsun! – başına gələn hadisələrdən birini danışır. Peyğəmbər-

---

[1] Səhih əl-Buxari, 3477; Səhih Muslim, 1792.

lər – onlara Allahın salavatı və salamı olsun! – uca Allahın, nazil etdiyi risaləti təbliğ etmək üçün vəzifələndirdiyi kimsələrdir. Çünki məhz onlar buna layiqdirlər. Bu xüsusda uca Allah buyurur: **"Allah Öz risalətini kimə verəcəyini yaxşı bilir."**[1] Bəli, peyğəmbərlər özlərinə nazil olan risaləti daşımağa, onu insanlara təbliğ etməyə, insanları ona dəvət etməyə, yaxşı işlər görməyi əmr edib pis işlərdən çəkindirməyə və bu yolda səbir etməyə iradəsi çatan insanlardır. Onlara həm təhqiramiz sözlərlə, həm də fiziki olaraq əziyyətlər verilmiş, hətta bəziləri kafirlər tərəfindən öldürülmüşdür. Uca Allah Öz kitabında bunu Peyğəmbərinə ﷺ belə bəyan edir: **"Səndən əvvəlki elçiləri də yalançı saymışdılar. Lakin Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbir etdilər. Heç kəs Allahın kəlmələrini dəyişə bilməz. Artıq peyğəmbərlərə aid bəzi xəbərlər sənə gəlib çatdı. Əgər onların *haqdan* üz döndərməsi sənə ağır gəlirsə, onda bacarırsansa yerin altına *ata biləcəyin* bir lağım və göyə *çıxa biləcəyin* bir nərdivan tap ki, onlara bir möcüzə gətirəsən. Əgər Allah istəsəydi onları toplayıb doğru yola yönəldərdi. Elə isə cahillərdən olma!"**[2]

Bu hədisdə Peyğəmbərimiz ﷺ, peyğəmbərlərdən biri haqda danışır. O peyğəmbər ki, qövmü onu yalançı sayaraq vurub üz-gözünü al-qana boyamış, o isə qanı üzündən silərək: "Allahım, qövmümü bağışla, çünki onlar *haqqı* bilmirlər!"– demişdir. Bu, səbrin zirvəsidir. Belə ki, adam dünyəvi bir işdən ötrü vurulduqda, dərhal qəzəblənir və onu vuran adamdan intiqam almağa çalışır. Bu *səbirli insan* isə Allahın dininə dəvət edir və buna görə heç bir zəhmət haqqı almır. Buna rəğmən onu vurub üzünü al-qana boyayırlar, o isə üzündəki qanı sil-silə: "Allahım, qövmümü bağışla, çünki onlar *haqqı* bilmirlər!"– deyir. Peyğəmbər ﷺ bu hadisəni bizə əbəs yerə və ya vaxtımızı almaq üçün danışmamışdır. Əksinə, bunu danışmışdır ki, biz bundan ibrət alaq və belə hallarda səbirli olaq. Necə ki, uca Allah buyurur: ***"Peyğəmbərlərin* hekayələrində ağıl sahibləri üçün ibrətlər vardır."**[3] Bu hekayədən götürəcəyimiz ibrət isə, Allaha dəvət edərkən məruz qalacağımız hər bir əziyyətə səbir et-

---

[1] əl-Ənam, 124.
[2] əl-Ənam, 34-35.
[3] Yusuf, 111.

məyimiz və özümüzə Peyğəmbərimizin ﷺ bu sözünü örnək götürərək belə deməyimizdir:

Sən sadəcə qaynayan bir barmaqsan,
Çəkdiyin əziyyət də, Allah yolundadır![1]

Bəli, bu hədis bizə, Allahın dininə dəvət etdiyimiz zaman eşidəcəyimiz təhqiramiz sözlərə və əleyhimizə aparılan təbliğatlara səbir etməyi, üstəlik, bu əziyyətlərin Allah yanındaki dərəcələrimizin yüksəlməsinə və günahlarımızın silinməsinə sabəb olduğunu düşünməyi öyrədir. Belə ki, Allahın dininə dəvət etdikdə, ixlasımızdakı naqislik və dəvət üslubumuzdakı xətalar səbəbi ilə bəzi nöqsanlar ola bilər. *Allah yolunda* məruz qaldığımız əziyyətlər isə nöqsanlarımızın aradan qalxmasına səbəb olur. Belə ki, insan nə qədər çalışsa da, əməllərində naqislik olacaq və Allah istəməyincə o əməlləri əsla mükəmməl edə bilməyəcək. Allahın dininə dəvət etdiyi zaman müsibətə və əziyyətə məruz qaldıqda isə, bu, onun dəvətinin kamil olmasına və dərəcəsinin yüksəlməsinə səbəb olar. İnsan *Allah yolunda başına gələn müsibətlərə* səbir edib bunun savabını Allahdan ummalı və geriyə addım atmamalı və: "Dəvət etməyə məcbur deyiləm. Gör, başıma nələr gəldi. Artıq yorulmuşam..."– deməməli, əksinə, səbir etməlidir. Biləsiniz, dünya həyatı uzunsürən deyil. Bir neçə gündür, o da keçib gedəcək. Elə isə sən Allah hökm verənədək səbir et!

İbn Məsudun رضي الله عنه **"Rəsulullahın ﷺ hadisəni danışması sanki gözümün önündədir"** sözü, dəlildir ki, mühəddis, yaxud hədisi danışan adam, danışdığı hədisi və ya xəbəri yaxşı yadında saxladığını isbat etmək üçün *bu cür* xəbər verə bilər. Bu, insanlar arasında yayılmış bir üslubdur. Məsələn, adam deyir ki: "Filankəsin, filan filan söz dediyini sanki görürəm." Yəni, sanki indi onun filan əməli etdiyini görürəm, yaxud filan sözü dediyini eşidirəm. Və əgər adam danışdıqlarını isbat etmək üçün bu üslubdan istifadə edirsə, bu, onun əməlisaleh sələflərdən[2] götürdüyü nümunədir.

---

[1] Rəvayət edilir ki, döyüşlərin birində Peyğəmbər ﷺ barmağından yaralandığı zaman bu sözü söyləmişdir. (Səhih əl-Buxari, 2802; Səhih Muslim, 1796).

[2] Burada "əməlisaleh sələflər"– deyildikdə, Abdullah ibn Məsud رضي الله عنه və onun kimi səhabələr qəsd edilir.

٣٧ - وَعنْ أَبي سَعيدٍ وأَبي هُرَيْرة رضي الله عنهما عن النَّبيّ ﷺ قَالَ: «مَا يُصِيبُ الْمُسْلِمَ مِنْ نَصَبٍ وَلاَ وَصَبٍ، وَلاَ هَمٍّ وَلاَ حَزَنٍ، وَلاَ أَذًى وَلاَ غمٍّ، حتَّى الشَّوْكَةُ يُشَاكُها إِلاَّ كفَّر اللَّه بهَا مِنْ خطَايَاه» متفقٌ عَلَيْه.

و « الْوَصَب »: المْرضُ.

**37.** Əbu Səid əl-Xudri və Əbu Hureyra رضي الله عنهما rəvayət edirlər ki, Peyğəmbər ﷺ demişdir: “Müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir naxoşluq, elə bir kədər, elə bir üzüntü, elə bir əziyyət, elə bir dərd, hətta *ayağına* batan elə bir tikan yoxdur ki, onun sayəsində Allah o müsəlmanın günahlarını bağışlamasın.”

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Hədisdəki “vəsəb” sözü, xəstəlik deməkdir.

٣٨ - وعن ابْن مسْعُود رضي الله عنه قَالَ: دَخلْتُ عَلى النَبيِّ ﷺ وَهُو يُوعَكُ، فَقُلْتُ: يا رسُولَ اللَّه، إِنَّكَ تُوعكُ وَعْكاً شَدِيداً، قال: «أَجَلْ إِنِّي أُوعَكُ كَمَا يُوعَكُ رَجُلانِ مِنْكُم» قُلْتُ: ذلك أَنَّ لَكَ أَجْرَيْن؟ قال: «أَجَلْ ذَلك كَذَلك، مَا مِنْ مُسْلِمٍ يُصِيبُهُ أَذًى، شوْكَةٌ فَمَا فوْقَهَا، إلاَّ كَفَّر اللَّه بهَا سيِّئاتِه، وَحطَّتْ عنْهُ ذُنُوبُهُ كَمَا تَحُطُّ الشَّجرةُ وَرقَهَا». متفقٌ عليه.

وَ « الْوَعْكُ »: مَغْثُ الحمَّى، وقيل: الْحُمى.

**38.** Rəvayət edilir ki, İbn Məsud رضي الله عنه demişdir: “*Bir gün* Rəsulullahın ﷺ yanına girdim və onun qızdırma içində olduğunu görüb dedim: “Ya Rəsulullah, sən qızdırmadan çox əziyyət çəkirsən.” O dedi: “Bəli, mən sizin aranızdan iki nəfərin qızdırmadan əziyyət çəkdiyi qədər əziyyət çəkirəm.” Mən dedim: “Bu, sənə ikiqat savab qazandırmaq üçündürmü?” Peyğəmbər ﷺ dedi: “Bəli, elədir. *Ayağına* tikan batan, yaxud bundan da ağrılı bir əziyyətə məruz qalan elə bir müsəlman yoxdur ki, Allah bunun sayəsində onun qəbahətlərini silmiş olmasın və ağac öz yarpaqlarını tökdüyü kimi onun da *kiçik* günahları tökülməsin.”

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[2]

---

[1] Səhih əl-Buxari, 5641; Səhih Muslim, 2573.

[2] Səhih əl-Buxari, 5648; Səhih Muslim, 2571.

Hədisdəki “əl-və'k” kəlməsi, qızdırmanın ağrısı və ya qızdırma deməkdir.

**Şərh:**

Əbu Səid, Əbu Hureyra və İbn Məsudun ﷺ rəvayət etdiyi bu iki hədis dəlildir ki, insana üz verən kədər, yorğunluq, üzüntü və başqa əziyyətlər onun günahlarını silib aparır. Bu, uca Allahın nemətidir. O, Öz qulunu müsibətlərlə sınayır və bunları onun qəbahətlərinin silinməsinə, günahlarının bağışlanmasına səbəb edir. İnsanın bu dünyada daim sevinməsi mümkün deyil. Əksinə, hərdən sevinər, hərdən kədərlənər; bəzən istədiyinə nail olar, bəzən də nail olmaz. Bu müsibətlər onun həm nəfsinə, həm bədəninə, həm yaşadığı cəmiyyətə, həm də ailəsinə üz verə bilər. İnsanın başına gələcək müsibətlər saysız-hesabsızdır. Lakin mömin adamın hər bir işində xeyir vardır. Belə ki, başına bir müsibət gəldikdə səbir edər və bu onun xeyrinə olar. Habelə, ona xoş bir şey nəsib olduqda şükür edər və bu da onun xeyrinə olar. Elə buna görə də, sənə bir müsibət üz verdikdə, düşünmə ki, səni bürüyən o kədər, yaxud çəkdiyin o iztirab, hətta ayağına batan tikanın acısı boşuna gedəcək. Əksinə, bunlar, daha xeyirlisi ilə əvəz ediləcək və ağac öz yarpaqlarını tökdüyü kimi, sənin də günahların töküləcəkdir. Bu, Allahdan bir nemətdir. Və əgər insan bütün bunlarla yanaşı, həm səbir edər, həm də savab qazanacağına ümid edərsə, bunların hamısının savabını da alar.

**Mömin in müsibətlər qarşısında halı iki cür olur:**

**1.** Bəzən başına bir müsibət gəldikdə, savab qazanacağını xatırlayır və Allahın ona savab əta edəcəyinə ümid edir. Bu halda iki xeyri birdən əldə etmiş olur: həm günahları silinir, həm də savabları artır.

**2.** Bəzən isə, bu onun yadına düşmür deyə qəlbi sıxılır və ya buna bənzər hallar baş verir və bunun mükafatını və savabını Allahdan ummağı niyyət etmək heç ağlına belə gəlmir. Bu halda, sadəcə günahları silinir. Deməli möminin başına gələn müsibət hər bir halda ona fayda verir. Belə ki, o, ya heç bir savab qazanmadan, sadəcə qəbahətlərinin silinməsinə və günahlarının tökülməsinə nail olur. Çünki o, müsibət gəldikdə, nə savab qazanacağını düşünmüş, nə müsibətə səbir etmiş,

nə də Allahdan bunun əvizini alacağına ümid etmişdir. Ya da bir qədər əvvəl qeyd etdiyimiz kimi, ikisinə də birdən nail olar – həm günahları silinər, həm da savab qazanar. Elə buna görə də, insan, başına bir müsibət gəldikdə, hətta ayağına bir tikan batsa belə, bu müsibətə səbir edəcəyinə görə Allahın ona savab əta edəcəyini yadına salmalıdır ki, günahlarının silinməsi ilə yanaşı buna görə savab da qazansın. Bu, Allahın nemətini, səxavətini və comərdliyini göstərir. Belə ki, O, mömin adamı əvvəlcə sınağa çəkir, sonra bu müsibət sayəsində ona savab əta edir və ya günahlarını silir. Bütün həmdlər, aləmlərin Rəbbi Allaha məxsusdur!

٣٩ - وعنْ أَبي هُرَيرة ﷺ قال: قال رسولُ اللَّهِ ﷺ: «مَنْ يُرِدِ اللَّهُ بِهِ خَيْراً يُصِبْ مِنْهُ» رواه البخاري.

**39.** Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Allah kimə xeyir nəsib etmək istəsə, ona müsibət göndərər.”

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

**Şərh:**

Bu hədisdə Peyğəmbərin ﷺ: **“ona müsibət göndərər”** sözündəki feil iki cür rəvayət edilmişdir: Biri, “yusib minhu/ona müsibət göndərər,” digəri “yusab minhu/ona müsibət üz verər” şəklindədir. İkisi də doğrudur. Birincinin mənası belədir ki, Allah, onun səbir edib-etməyəcəyini sınamaq üçün ona müsibət göndərər.” İkincisinin mənası isə daha əhatəlidir: Yəni başına müsibət gələr və bu müsibət həm Allahdan, həm də başqasından ola bilər. Lakin ümumi mənada olan bu hədisi digər hədislər xüsusiləşdirir. Həmin hədislərə görə, bu hədisin mənası belədir ki, Allah, kimə xeyir nəsib etmək istəsə, onu sınamaq məqsədi ilə ona müsibət göndərər, o da səbir edib Allahın savab əta edəcəyinə ümid edər. Belə ki, müsibət, o adam üçün ancaq bu halda xeyirli olar. Yox əgər səbir etməzsə, demək Allah onun üçün xeyir istəməmişdir. Ona görə insanın başına gələn bir çox müsibətdə xeyir olmaya bilər və Allah, o kimsə üçün xeyir diləməmiş ola bilər. Məsələn, kafirlərin başı-

[1] Səhih əl-Buxari, 5645.

na bir çox müsibətlər gəlir, lakin buna rəğmən ölənə qədər küfrlərindən əl çəkmirlər. Şübhə yoxdur ki, Allah onlara müsibət göndərdikdə, onlara xeyir nəsib etmək istəmir.

Demək, hədisin mənası belədir ki, Allah, kimə xeyir nəsib etmək istəsə, ona müsibət göndərər, o da bu müsibətlərə səbir edər və bu da onun üçün xeyir olar. Bir qədər əvvəl qeyd etdiyimiz kimi, Allah bu müsibətlər sayəsində qəbahətləri silər və günahları bağışlayar. Məlumdur ki, qəbahətlərin silinməsi və günahların bağışlanması, heç şübhəsiz insan üşün daha xeyirlidir. Çünki bu müsibətlər dünya həyatında baş verir və bir vaxtdan sonra keçib gedir. Hər keçən günlə müsibətinin acısı xəfifləşir. Axirət əzabı isə əbədidir. Elə buna görə də, Allahın bu müsibətlər sayəsində sənin günahlarını silməsi, sənin üçün daha xeyirli sayılır.

٤٠ - وعَنْ أَنَسٍ ﵁ قال: قال رسولُ اللَّه ﷺ: «لا يتَمنَّيَنَّ أَحدُكُمُ الْمَوْتَ لِضُرٍّ أَصَابَهُ، فَإِنْ كَانَ لا بُدَّ فاعلاً فليقُل: اللَّهُمَّ أَحْيني ما كَانَت الْحياةُ خَيراً لِي، وتَوَفَّني إِذَا كَانَتِ الْوفاَةُ خَيْراً لِي» متفق عليه.

**40.** Ənəs ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizdən heç biriniz başına gəlmiş müsibətə görə özünə ölüm diləməsin! Əgər bunu diləmək məcburiyyətində qalarsa, qoy desin: "Allahım, həyat mənim üçün xeyirli olduğu müddətcə məni yaşat! Ölüm mənim üçün xeyirli olduğunda isə canımı al!"

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Bu hədisdə Rəsulullah ﷺ insana, başına gəlmiş müsibətə görə özünə ölüm diləməsini qadağan edir. Bəzən insanın başına elə bir müsibət gəlir ki, ona dözə bilmir, axırda da bezir və özünə ölüm diləyib qəlbi ilə, yaxud dili ilə: "Allahım məni öldür!"– deyir. Peyğəmbər ﷺ isə bunu qadağan etmiş və: **"Sizdən heç biriniz başına gəlmiş müsibətə görə özünə ölüm diləməsin!"**- demişdir. Ola bilər ki, bu müsibət, o adam

[1] Səhih əl-Buxari, 5671; Səhih Muslim, 2680.

üçün xeyirlidir. Odur ki, başına bir müsibbət gəldikdə: "Allahım, səbir edə bilməyim üçün mənə kömək et!"– de ki, Allahın köməyi ilə səbir edəsən və beləliklə də, bu müsibət sənin üçün xeyirli olsun. Ölümü istəməyinə gəlincə, sən bilə bilməzsən, ola bilsin ki, ölüm sənin üçün xeyirli olmasın, onun sayəsində rahatlığa nail omayasan. Axı hər bir ölüm rahatlıq deyil. Necə ki, şair belə deyər:

Ölən adam, ölməklə rahatlaşmır,
Əsl ölüm, həyatda ikən ölməkdir.

Ola bilsin ki, insan öldükdə ona cəza verilsin, qəbir əzabına düçar olsun, lakin əgər həyatda qalarsa, olsun ki, nəfsini qınasın, tövbə edib Allaha qayıtsın və beləcə, həyatda qalması onun üçün daha xeyirli olsun. Xülasə budur ki, başına bir müsibət gəldikdə əsla ölüm diləməyəsən. Və əgər Allah Rəsulu ﷺ, müsibət gəldikdə ölüm diləməyi qadağan etmişdirsə, bəs onda görəsən, müsibət gəldikdə canına qəsd edən kimsənin halı necə olar? Necə ki, bəzi axmaqlar, başlarına bir müsibət gəldikdə, özlərini asır, yaxud bıçaqlayır, yaxud zəhərləyib öldürür və başqa bu kimi axmaqlıqlar edirlər. Beləlari ölməklə rahatlıq tapacaqlarını düşünürlər, lakin əksinə, düçar olduqları əzabdan daha şiddətlisinə düçar olurlar. Çünki öz canına qəsd edən kimsə əbədi olaraq Cəhənnəmdə qalacaq və özünü nə ilə öldürmüşdürsə, onunla da ona əzab veriləcəkdir. Bu xüsusda Peyğəmbərdən ﷺ hədis varid olmuşdur.[1] Özünü xəncər, yaxud bıçaq, yaxud mismar və ya başqa bu kimi dəmir parçası ilə öldürmüşsə, Qiyamət günü Cəhənnəmdə, özünü öldürdüyü bu dəmir parçasını *təkrar-təkrar* bədəninə soxmaqla əzab çəkəcək. Və əgər zəhər içib canına qəsd edibsə, Cəhənnəm atəşində davamlı olaraq zəhər içəcək. Yaxud özünü dağdan atıb öldürmüşsə, Cəhənnəmdə onun üçün bir dağ yaradılacaq və özünü davamlı olaraq oradan aşağı atacaq. Beləcə, hər kəsə öz cinayətinə uyğun cəza veriləcək.

Xülasə budur ki, əgər Peyğəmbər ﷺ insana, başına gəlmiş bir müsibətə görə ölüm arzulamağı qadağan etmişdirsə, onda, insanın, ölümə

---

[1] Peyğəmbər ﷺ demişdir: "...Kim dəmir parçası ilə öz canına qəsd edərsə, Cəhənnəm odunda bu dəmir parçasını daim qarnına soxar və orada əbədi olaraq qalar." (Səhih əl-Buxari, 5778; Səhih Muslim, 109).

can ataraq öz canına qəsd etməsi böyük cinayətdir. Allahdan afiyət diləyirik. Lakin qeyd etmək lazımdır ki, Rəsulullah ﷺ bir şeyi qadağan etdikdə, bu qadağanın mübah əvəzedicisi olduğu təqdirdə adətən bunun mübah sayılan əvəzedicisini etməyi buyurardı. Bu da Quranın üslubudur. Bu xüsusda uca Allah belə buyurur: **"Ey iman gətirənlər, "raina!"– deməyin; "Unzurna!"– deyin"**[1] Uca Allah Peyğəmbərə ﷺ "raina" deməyi qadağan etdikdə, bizə mübah olan sözü bəyan etmiş, "unzurna deyin" buyurmuşdur.

Həmçinin, rəvayət edilir ki, Peyğəmbərə ﷺ seçilmiş əla növ xurmalar gətirildikdə, o buna etiraz etmiş və: "Bu nədir? Məgər Xeybərin bütün xurmaları belədir?"– deyə soruşmuş, ona: "Xeyr! Ey Allahın elçisi, Allaha and olsun ki, *belə deyil*. Biz iki saa *başqa xurmadan* verib əvəzində bir saa *bu xurmadan*, həmçinin üç saa *başqa xurmadan* verib əvəzində iki saa *bu xurmadan* götürürük"– deyə cavab verildikdə, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Belə etmə! Əvvəlcə *əlində olan* xurmaları dirhəmə[2] sat, sonra da cənibi dirhəmlə al."**[3] Cənib, yəni seçilmiş əla növ xurma. Beləcə, Peyğəmbər ﷺ bu alış-verişi qadağan etdikdə, onun icazəli yolunu da öyrətmişdir.

Şərh etdiyimiz hədisdə də Peyğəmbər ﷺ: **"Sizdən heç biriniz başına gəlmiş müsibətə görə özünə ölüm diləməsin! Əgər bunu diləmək məcburiyyətində qalarsa, qoy desin: "Allahım, həyat mənim üçün xeyirli olduğu müddətcə məni yaşat! Ölüm mənim üçün xeyirli olduğunda isə canımı al!"** buyuraraq sənin üçün bir qapı - lakin sağlam bir qapı açmışdır. Çünki ölüm diləmək, insanın Allahın yazdığı qədərə səbir etmədiyini və bundan narazı olduğunu göstərir. Lakin **"Allahım, həyat mənim üçün xeyirli olduğu müddətcə məni yaşat! Ölüm mənim üçün xeyirli olduğunda isə canımı al!"** duası sayəsində insan, öz müqəddəratını Allaha həvalə edir. Çünki insan qeybi bilmir, buna görə də müqəddəratını onu bilənə həvalə edərək: **"Allahım, həyat mənim üçün xeyirli olduğu müddətcə məni yaşat! Ölüm mənim üçün xeyirli olduğunda isə canımı al!"** deyir.

---

[1] əl-Bəqərə, 104.

[2] Burada təkcə dirhəm yox, istənilən pul vahidi nəzərdə tutulur.

[3] Səhih əl-Buxari, 2201; Səhih Muslim, 1593.

Ölüm diləmək, insanın, Allahdan onun həyatını sona çatdırması üçün tələsməsidir. Ola bilsin ki, bu, onu bir çox xeyirdən, o cümlədən də, tövbə etməkdən və əlavə yaxşı işlər görməkdən məhrum etsin. Odur ki, hədislərin birində belə buyrulur: **"Ölən elə bir kimsə yoxdur ki, peşman olmasın. Əgər əməlisaleh adam olmuşdursa, daha çox saleh əməl etmədiyinə görə peşman olar. Pis adam olmuşdursa, tövbə etmədiyinə görə peşman olar."**[1]

Əgər kimsə: "Necə ola bilər: **"Allahım, həyat mənim üçün xeyirli olduğu müddətcə məni yaşat! Ölüm mənim üçün xeyirli olduğunda isə canımı al!"**– deyə dua etmək icazəli olsun?"– desə, ona belə cavab verərik: "Bəli, icazəlidir. Çünki uca Allah gələcəkdə nələr baş verəcəyini bilir, insan isə bunu bilmir. Bu xüsusda uca Allah belə buyurur: **"De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz."**[2]; **"Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, *hər şeyi* biləndir, *hər şeydən* xəbərdardır."**[3] Sən bilmirsən, ola bilər ki, yaşamaq sənin üçün xeyirli olsun, ola da bilər ki, ölmək sənin üçün xeyirli olsun. Elə buna görə da, adam birisinə uzun ömür sürməsi üçün dua etdikdə bunu xüsusi ilə vurğulamalı və: "Allah, sənin ömrünü itaət etmək üçün uzatsın!"– deyə dua etməlidir ki, ömrünün uzanmasının ona xeyri olsun.

Həmçinin, əgər kimsə: "Necə olub ki, İmranın qızı Məryəm: **"Kaş bundan əvvəl öləydim və birdəfəlik unudulaydım!"**[4]– deyərək özünə ölüm diləyib və qadağan olunmuş bir əməl edib?!"– desə, ona belə cavab verərik:

Əvvəla bilməyimiz vacibdir ki, əvvəlki şəriətlərdə buyurulan və bizim şəriətimizə zidd olan hökmlər, bizim üçün dəlil sayılmır. Çünki bizim şəriət qanunları, əvvəlki şəriət qanunlarının hamısını ləğv etmişdir.

İkincisi, Məryəm o əsnada ölməyi deyil, başına bu müsibət gəlməzdən öncə ölmüş olmağı təmənna etmişdir. Yəni min il yaşamış olsa be-

---

[1] Sunən ət-Tirmizi, 2403; Bəğəvinin "Şərh əs-Sunə" əsəri, 4309; Şeyx Arnavut demişdir: "*Bu hədisin isnadında* olan Yəhya ibn Ubeydullah ibn Abdullah əl-Mədəni mətruk/tərk olunan ravidir." Bu hədis "Daif əl-Cami" əsərində, 5148, mövcuddur.

[2] ən-Nəml, 65.

[3] Loğman, 34.

[4] Məryəm, 32.

lə, fitnəyə məruz qalmamışdan öncə ölməyi təmənna etmişdir. Xülasə budur ki, o, fitnəyə məruz qalmadan ölməyi təmənna etmişdir. Yusufun ﷺ bu duası da buna bənzəyir: **"Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur."**[1]

Bu, heç də o demək deyil ki, Yusuf ﷺ Allahdan özünə ölüm diləmişdir, əksinə, o, Allahın onun canını müsəlman olduğu halda almasını diləyir. Bunda isə heç bir qəbahət yoxdur. Məsələn, deyirsən: "Allahım, məni İslam, iman, tövhid və ixlas üzərində olduğum halda canımı al!", yaxud deyirsən: "Mənim canımı, məndən razı olduğun halda al!" Dolayısıyla başına gələn müsibətə görə ölümü istəyən kimsə ilə, Allahın razı olduğu bəlli bir hal üzrə ölmək üçün dua edən kimsə arasında fərq vardır. Birincisi Rəsulullahın ﷺ qadağan etdiyidir, ikincisi isə icazəlidir. Rəsulullahın ﷺ bunu qadağan etməsinin səbəbi budur ki, başına müsibət gəldikdə ölüm istəyən kimsə, öz hərəkəti ilə səbirsizlik göstərmiş olur. Halbuki belə hallarda insan, müsibətə səbir etməli və Allahdan bunun mükafatını alacağına ümid etməlidir. Çünki sənə üzə vermiş hər bir sıxıntı, kədər, xəstəlik və ya başqa bir müsibət, sənin günahlarının silinməsi üçün səbəbdir. Və əgər sən bunun əvəzində Allahdan savab alacağına ümid etsən, onda sənin Cənnətdəki dərəcən yüksələr. Bundan əlavə, insana üz verən iztirab, xəstəlik və başqa bir müsibət sürəkli olmur, axır-əvvəl sona yetir. Sona yetdikdə isə, səbir edib əvəzini Allahdan umduğuna görə, çoxlu savab qazanacaq, bu müsibət sayəsində günahların silinəcək və beləcə, bu, sənin üçün xeyirli olacaq. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Mömininin halı qəribədir! Həqiqətən də, onun hər bir işində xeyir vardır. Bu da yalnız möminə xasdır.** ***Belə ki,*** **ona xoş bir şey nəsib olduqda şükür edər və bu onun xeyrinə olar, habelə, başına bir müsibət gəldikdə səbir edər və bu da onun xeyrinə olar."**[2] Demək, mömininin başına gələn hər bir işdə onun üçün xeyir vardır.

٤١ - وعنْ أبي عبدِ اللَّهِ خَبَّابِ بْنِ الأَرَتِّ رضي الله عنه قال: شَكَوْنَا إِلَى رسولِ اللَّهِ ﷺ وَهُو مُتوسِّدٌ بُردةً لَهُ في ظلِّ الْكَعْبةِ، فَقُلْنَا: أَلا تَسْتَنْصرُ لَنَا، أَلا تَدْعُو لَنَا؟ فَقَالَ: «قَد كَانَ مَنْ

[1] Yusuf, 101.
[2] Səhih Muslim, 2999.

قَبْلَكُمْ يُؤْخَذُ الرَّجُلُ فيُحْفَرُ لَهُ فِي الأَرْضِ فيُجْعلُ فِيهَا، ثمَّ يُؤْتَى بالْمِنْشارِ فَيُوضَعُ على رَأْسِهِ فيُجعلُ نصْفَيْن، ويُمْشَطُ بِأَمْشاطِ الْحديدِ مَا دُونَ لَحْمِهِ وَعظْمِهِ، ما يَصُدُّهُ ذلكَ عَنْ دِينِهِ، واللَّهِ ليُتِمَّنَّ اللَّهُ هَذا الأَمْر حتَّى يسِيرَ الرَّاكِبُ مِنْ صَنْعاءَ إِلَى حَضْرمْوتَ لا يَخَافُ إِلاَّ اللهَ والذِّئبَ عَلَى غنَمِهِ، ولكِنَّكُمْ تَسْتَعْجِلُونَ» رواه البخاري.

وفي رواية: «وهُوَ مُتَوسِّدٌ بُرْدةً، وقَدْ لَقِينَا مِنَ الْمُشْرِكِين شِدَّةً»

**41.** Rəvayət edilir ki, Əbu Abdullah Xəbbab ibn əl-Ərat ﵁ demişdir: "Rəsulullah ﷺ Kəbənin kölgəsində, əbasını yastıq kimi başının altına qoyub dincələrkən biz onun yanına gəlib şikayət etdik və: "Bizim üçün *Allahdan* kömək diləməyəcəksənmi? Bizim üçün *Allaha* dua etməyəcəksənmi?"– dedik. O buyurdu: "Sizdən əvvəlki ümmətlərdə *mömin* adamı tutub aparar, onun üçün çuxur qazar, onu o çuxura salar, sonra da mişar gətirib onu başdan ayağa iki hissəyə bölər, dəmir daraqlarla əti sümüyədək darayardılar. Lakin bu *işgəncələr* onu dinindən döndərə bilməzdi. Vallahi, Allah bu işi tamamlayacaq, hətta iş o yerə gəlib çatacaq ki, atlı Sənadan Hədrəmövtə yola çıxasaq, *yolda* Allahdan və qoyunlarına hücum edəcək canavarlardan başqa heç nədən qorxmayacaqdır. Lakin siz tələsirsiniz."

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Digər rəvayətdə isə belə deyilir: "Peyğəmbər ﷺ Kəbənin kölgəsində əbasını yastıq kimi başının altına qoymuşdu. Biz müşriklərdən çox əziyyətlər görürdük."[2]

**Şərh:**

Əbu Abdullah Xəbbab ibn əl-Əratın ﵁ rəvayət etdiyi hədisdə, müsəlmanların, Məkkədə Qureyş müşriklərinin əziyyətlərinə məruz qaldıqları xəbər verilir. Həmin vaxt müsəlmanlar, Kəbənin kölgəsində, əbasını yastıq kimi başının altına qoyub dincələn Peyğəmbərin ﷺ yanına gəlib şikayət edirlər. Peyğəmbər ﷺ isə səhabələrinə, əvvəlki ümmətlərin öz dinləri uğrunda onlardan daha böyük işgəncələrə məruz

[1] Səhih əl-Buxari, 3612.

[2] Səhih əl-Buxari, 3852.

qaldıqlarını bildirir. Belə ki, mömin adam üçün bir çuxur qazılar, sonra onu o çuxura salar, sonra da mişar gətirib onu başdan ayağa iki hissəyə bölərdilər, habelə, əti sümüyədək dəmir daraqlarla darayardılar. Bu, həqiqətən də, ağır işgəncə və böyük əziyyətdir.

Sonra Peyğəmbər ﷺ and içərək Allahın bu işi, yəni Rəsululahın ﷺ gətirdiyi İslam dinini tamamlayacağını, hətta atlının Sənadan Hədrəmövtə yola çıxdıqda yolda Allahdan və qoyunlarına hücum edəcək canavarlardan başqa heç nədən qorxmayacağını xəbər verir və: "Lakin siz tələsirsiniz"– deyir; yəni səbir edin və Allahdan qurtuluş gözləyin. Çünki Allah, bu işi mütləq sona çatdıracaq. Həqiqətən də, bu deyilənlər, Rəsulullahın ﷺ xəbər verdiyi kimi olmuşdur. Bu hədisdə biz, Allahın bir möcüzəsini görürük. Belə ki, Peyğəmbərin ﷺ söylədikləri Allahın izni ilə gerçəkləşmişdir.

Bu, *həmçinin* Peyğəmbərin ﷺ möcüzələrindən biridir. Belə ki, Allah Peyğəmbərin ﷺ xəbər verdiklərini təsdiqləyir. Bu da Allahın, onun peyğəmbərliyinə etdiyi şahidlikdir. Necə ki uca Allah buyurur: **"Fəqət Allah sənə nazil etdiyinə şahidlik edər. O, bu *Quranı* Öz elmi ilə nazil etdi. Mələklər də *buna* şahidlik edərlər. Şahid olaraq Allah yetər."**[1]

Bu hədis, müsəlmanların düşmənlərinin verdiyi əziyyətlərə səbir etməyin vacib olduğunu bildirir. Adam səbir edərsə, zəfər qazanar. Odur ki, insan kafirlərin əziyyətlərinə səbir etməli, bunun savabını Allahdan ummalı və Onun köməyini gözləməlidir. İnsan, bu sıxıntıların qısa zamanda və asanlıqla bitəcəyəni düşünməməlidir. Bəzən uca Allah, möminləri kafirlərin əli ilə sınağa çəkir və kafirlər onlara işgəncə verirlər, hətta bəzən onları öldürürlər də. Necə ki, yəhudilər, İslam dəvətçilərindən və müsəlmanlardan daha üstün olan peyğəmbərləri öldürüblər. Odur ki, mömin adam səbir edib qurtuluşunu gözləməli, bezməməli və təlaş etməməlidir. Əksinə, dağ kimi möhkəm durmalıdır. Əlbəttə ki, gözəl aqibət müttəqilərindir və Allah, səbir edənlərlədir. Və əgər səbir edib səbat göstərər və tutduğu yola davam edərsə, məqsədinə çatar. Lakin bu yolu heç bir özbaşınalığa, hərc-mərcliyə və qarmaqarışıqlığa yol vermədən, planlı şəkildə getməlidir. Çünki İslam düşmənləri olan münafiqlər və kafirlər planlı addımlar ataraq yeriyirlər və hədəflərinə

---

[1] ən-Nisa, 166.

çatırlar. Duyğulara qapılıb özündən tez çıxan və tələsik davranan dar-düşüncəli insanlar isə çox şey itirə bilər, buraxdıqları səhvə görə, qurduqlarını bir anda yıxa bilərlər. Əlbəttə ki, əgər nə isə bir şey qurublarsa. Lakin mömin adam səbirli və təmkinli olar, ağılla hərəkət edər, yerini mökəmləndirər və Allahın düşmənləri olan münafiqlərin və kafirlərin qurduqlarını boşa çıxaracaq və onların axırına çıxacaq planlar hazırlayar. Çünki onlar müsəlmanlara bir bədbəxtlik üz verməsini gözləyib, onları təşvişə salmaq istəyirlər. Nəhayət müsəlmanların başına bir iş gəldikdə onların üzərində hakimiyyəti ələ alıb: "İstədiyimiz də, elə budur"– deyirlər. Beləliklə, müsəlmanlar böyük bir bəlaya düçar olurlar.

Rəsulullah ﷺ səhabələrinə buyurur ki, səbir edin. Sizdən öncəki ümmətlərə filan, filan əzablar verilərdi, lakin onlar səbir edərdilər. Siz səbir etməyə onlardan daha çox layiqsiniz. Çünki siz, ey Muhəmməd ümməti, səbir və təqva ümmətisiniz. Elə isə Allah Öz hökmünü verənədək səbir edin. Gözəl aqibət müttəqilərə nəsib olacaq.

Sən, ey insan, şər işlər qarşısında susma! Lakin nizam-intizamla, planlı şəkildə, doğru addımlarla, Allahın köməyini gözləyərək hərəkət et və bezmə, çünki bu yol uzundur. Xüsusilə də, əgər sən bu fitnənin başlanğıcındasansa, bil ki, fitnə əhli öz hədəflərinin zirvəsinə çatmaq üçün əllərindən gələni edəcəklər. Sən də onların yolunu kəs, onlardan daha cəsur və daha tədbirli ol. Heç şübhəsiz ki, düşmənlər hiylə qurur, Allah da *onların hiyləsinə qarşı* hiylə qurur, Allah hiylə quranların ən tədbirlisidir. Müvəffəqiyyət Allahdandır.

٤٢ - وعن ابن مَسعُودٍ رضي الله عنه قال: لمَّا كَانَ يَوْمُ حُنَيْنٍ آثر رسولَ الله ﷺ نَاساً فِي الْقِسْمَةِ: فَأَعْطَى الأَقْرعَ بْنَ حابِسٍ مائةً مِنَ الإِبِلِ، وأَعْطَى عُيَيْنَةَ بْنَ حِصْنٍ مِثْلَ ذلِكَ، وأَعطى نَاساً منْ أشرافِ الْعربِ وآثَرهُمْ يوْمئِذٍ فِي الْقِسْمَةِ. فَقَالَ رجُلٌ: واللَّهِ إنَّ هَذِهِ قِسْمَةٌ ما عُدِلَ فِيها، وما أُريد فِيهَا وَجهُ اللَّه، فَقُلْتُ: واللَّه لأُخْبِرَنَّ رَسُولَ اللَّهِ ﷺ، فأتيتُهُ فَأَخبرته بِما قال، فتغَيَّر وَجْهُهُ حتَّى كَانَ كَالصِّرْفِ. ثُمَّ قال: « فَمنْ يَعْدِلُ إِذَا لَمْ يعدِلِ اللَّهُ ورسُولُهُ؟ ثم قال: يرحَمُ اللَّهُ موسى قَدْ أُوذِيَ بِأَكْثَرَ مِنْ هَذَا فَصبرَ » فَقُلْتُ: لا جرمَ لا أَرْفعُ إِلَيه بعْدها حدِيثاً. متفقٌ عليه.

وقَوْلُهُ « كَالصِرْفَ » هُو بِكسْرِ الصادِ الْمُهْملةِ: وَهُوَ صِبْغٌ أَحْمَرُ.

**42.** Rəvayət edilir ki, İbn Məsud ﷺ demişdir: "Huneyn günü Peyğəmbər ﷺ qənimətləri bölüşdürərkən bəzi adamlara daha çox pay verməklə onları üstün tutdu. Əqra ibn Habisə yüz dəvə, Üyeynə ibn Hisnə də bir o qədərini verdi. Eləcə də, ərəblərin əyanlarından bir qisminə qənimətlərdən pay verərək o gün onları *digərlərindən* üstün tutdu. *Bundan narazı qalan* bir nəfər dedi: "Vallahi, bu bölgü, nə ədalətlə, nə də Allahın üzü xatirinə yerinə yetirilmişdir." Mən *ona*: "Vallahi, bunu Peyğəmbərə ﷺ xəbər verəcəm"– dedim və dərhal onun yanına gedib bunu ona xəbər verdim. Peyğəmbərin ﷺ rəngi dəyişdi, qıpqırmızı oldu və: "Allah və Rəsulu ədalətli olmazsa, kim ədalətli ola bilər?!"– dedi, sonra davam edib buyurdu: "Allah Musaya rəhmət eləsin! O, bundan artıq əziyyətlər gördü və səbir etdi." Mən *öz-özümə* dedim: "Bundan sonra bir də heç vaxt Peyğəmbərə bir xəbər çatdırmayacam."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Hədisdə keçən "sirf" kəlməsi, qırmızı boya deməkdir.

**Şərh:**

Müəllifin ﷺ Abdullah ibn Məsuddan ﷺ nəql etdiyi bu hədisdə o, **"Huneyn günü"**- deyir. Bu, Məkkənin fəthindən sonra həyata keçirilən Taif döyüşüdür. Rəsulullah ﷺ taiflilərə qarşı olan bu döyüşdən olduqca çox qənimət – dəvə, qoyun, dirhəm və dinar ələ keçirmişdir. Sonra Rəsulullah ﷺ Məkkənin Taif istiqamətindəki sərhədində yerləşən Ciranəyə gəldi və orada qənimətləri paylamağa başladı. Qəlbləri İslam dininə yenicə isinişən qəbilə başçılarının qəlblərini İslam dininə daha çox isinişdirmək üçün onlara çox pay verdi, hətta bəzisinə yüz dəvə verdi. *Bu vaxt* orduda olanlardan biri: "Vallahi, bu bölgü, nə ədalətlə, nə də Allahın üzü xatirinə yerinə yetirilmişdir"– dedi. Belə düşünməkdən Allaha sığınırıq! Bu sözü Rəsulullahın ﷺ yerinə yetirdiyi bir bölgü haqqında deyir! Dünya sevgisi və şeytan, necə də insanı həlaka sürükləyir! Allah qorusun! Belə söz danışmaq, yəni Allahın və Onun rəsulunun ﷺ ədalətli olmadığını, habelə, Peyğəmbərin ﷺ bu bölgünü Allahın

[1] Səhih əl-Buxari, 3150; Səhih Muslim, 1062.

üzü xatirinə etmədiyini demək, küfrdür. Şəkk yoxdur ki, Peyğəmbər ﷺ bu bölgü sayəsində Allahın üzünü diləmiş, üstəlik də, İslam dininin güclənməsi üçün, qəbilə və tayfa başçılarının qəlbini İslama isinişdirmək istəmişdir. Belə ki, qəbilə öndərləri İslamı qəbul edər və imanları güclənərsə, onlardan *İslama* çoxlu xeyir gələr – digər qəbilələr və tayfalar da onlara baxıb müsəlman ola bilər, beləliklə də, İslam güclənər. Lakin cəhalət öz sahibini həlaka aparır. Allaha sığınırıq.

Abdullah ibn Məsud رضي الله عنه, Rəsulullah ﷺ haqqında deyilən bu sözü eşitdikdə gedib bunu ona çatdırır, adamın dediklərini bir-bir ona xəbər verir. Rəsulullah ﷺ bunu eşidəndə üzünün rəngi dəyişib qıpqırmızı olur. Sonra deyir: **"Allah və Rəsulu ədalətli olmazsa, kim ədalətli ola bilər?!"** Peyğəmbər ﷺ doğru demişdir! Əgər Allahın bölgüsü və Onun rəsulunun ﷺ bölgüsü ədalətli deyilsə, onda kim ədalətli ola bilər?! Sonra davam edib deyir: **"Allah Musaya rəhmət eləsin! O, bundan artıq əziyyətlər gördü, və səbir etdi."** Hədisin səbir mövzusuna aid olan tərəfi də, elə bu sözdür. Yəni peyğəmbərlər – onlara Allahın salavatı və salamı olsun! – əziyyətlərə məruz qalmışlar və səbir etmişlər. Baxın, bu söz Peyğəmbərimizə ﷺ, onun hicrətindən səkkiz il sonra, yəni dəvətin ilk dönəmində yox, artıq Allah onun dəvətini gücləndirdikdən, doğru danışdığı *hamıya* bəlli olduqdan, Allah öz peyğəmbərinin ﷺ həm kainata, həm də insanlara aid möcüzələrini onlara göstərdikdən sonra deyilir. Bütün bunlara rəğmən, onun bu bölgüdə ədalətli olmadığı və bunu Allahın üzü xatirinə etmədiyi deyilir. Və əgər səhabələr arasında olan bir adam Peyğəmbər ﷺ haqqında belə demişdirsə, bəzi insanların bir alim haqqında: "Bu alim filan və filan səhvləri edib"– deyərək onda nöqsanlar tutması bizə qəribə gəlməməlidir. Çünki onları alimlərə tənə vurmağa təhrik edən şeytandır. Onlar alimlərə tənə vurduqdan və alimlərin sözü xalq yanında dəyərini itirdikdən sonra isə, artıq insanları Allahın Kitabı ilə *doğru yola* yönəldəcək bir kimsə qalmaz. İnsanlar alimlərə və onların dediklərinə inanmadıqdan sonra, kim onları haqq yola yönəldə bilər?! Belə olduğu təqdirdə insanları şeytanlar və şeytanın orduları istiqamətləndirər. Odur ki, alimlərin qeybətini etməyin fəsadı, sıravi insanların qeybətini etməyin fəsadından daha böyükdür. Belə ki, sıravi insanın qeybətini etmək şəxsi məsələyə aid olub, sadəcə qeybət edən kəslə qeybəti edilən kimsəyə zərər verir. Alimlərin qeybə-

tini etmək isə bütün İslama zərər verir. Çünki alimlər, İslam bayrağının daşıyıcılarıdır. Onların dediklərinə inam qalmadıqda isə İslam bayrağı enər və bu, İslam ümmətinə çox zərər verər.

Əgər insanların qeybətini etmək, meyit əti yemək sayılırsa, alimlərin qeybətini etmək, – bunun daha böyük fəsadı olduğuna görə, zəhərli meyit əti yemək sayılır. Elə isə, bir adamın alimləri söydüyünü eşitdikdə, təəccüblənmə. Bax gör, Allahın Rəsulu ﷺ haqqında nələr deyilmişdir. Odur ki, səbirli ol və Allahdan bunun savabını alacağına ümid et. Bil ki, gözəl aqibət Allahdan qorxanlara nəsib olacaq. İnsan Allahdan qorxduğu və Allahın göndərdiyi nura (Quran və Sünnəyə) tabe olduğu müddətcə gözəl aqibət onun olacaq.

Həmçinin, elə insanlar da var ki, dostu və ya qohumu bir xəta etdikdə – sadəcə bir xətaya görə, onu təqsirləndirir və onu söyür. Barəsində nalayiq sözlər deyilən kimsə isə səbir etməli və bilməlidir ki, peyğəmbərlər belə, söyülmüş, əziyyətlərə məruz qalmış, yalançılıqda ittiham edilmiş, üstəlik, onlara dəli, şair, kahin və sehrbaz deyilmişdir. Lakin uca Allahın xəbər verdiyi kimi: **“Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbir etmişlər.”**[1]

Bu hədisdən çıxan faydalar bunlardır:

**1.** Bu hədis dəlildir ki, müsəlmanların əmiri bir malı bölüşdürərkən, məsləhət bildiyi adamlara, digərlərindən daha çox pay verə bilər. Bir şərtlə ki, bu, İslam dininin xeyrinə olsun. Yoxsa ki, şəxsi mənfəətə görə, sevdiyi adama o maldan verib, sevmədiyini isə ondan məhrum etməsi caiz deyildir. Yalnız İslamın xeyrinə olacağını düşünüb bəzilərinə daha çox mal verməsi caizdir. Bu işdə qərar vermək yalnız əmirə aiddir və o, buna görə Allah qarşısında cavab verəcək. Kimsənin də ona etiraz etməyə haqqı yoxdur. Və əgər etiraz edərsə, özünə zülm etmiş olar.

**2.** Bu hədisdən bizə o da aydın olur ki, Peyğəmbərimiz ﷺ əvvəlki peyğəmbərlərdən ibrət alardı. Elə buna görə də: “Allah Musaya rəhmət eləsin! O, bundan artıq əziyyətlər gördü və səbir etdi”– demişdir. Çünki uca Allah buyurur: ***“Peyğəmbərlərin*** **hekayələrində ağıl sahibləri üçün ibrətlər vardır.”**[2] O, həmçinin, buyurur: **“Onlar Allahın doğru yola**

---

[1] əl-Ənam, 34.

[2] Yusuf, 111.

**yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl."**[1] Bu ayədə uca Allah Öz Peyğəmbərinə ﷺ özündən əvvəlki peyğəmbərlərin yolu ilə getməyi əmr edir. Biz də, həmçinin, əziyyətlərə səbir etmək məsələsində, peyğəmbərlərin – onlara Allahın salavatı və salamı olsun! – yolu ilə getməli, bu əziyyətlərə səbir etmək müqabilində savab qazanacağımıza ümid etməli və bilməliyik ki, bu, savab qazanmaqla yanaşı dərəcələrimizin yüksəlməsi və günahlarımızın silinməsi üçün səbəbdir. Müvəffəqiyyət Allahdandır.

٤٣ - وعن أنس رضي الله عنه قال: قال رسولُ اللَّه ﷺ: «إِذَا أَرَادَ اللَّهُ بعبْدِهِ خَيْراً عجَّلَ لَهُ الْعُقُوبَةَ فِي الدُّنْيَا، وإِذَا أَرَادَ اللَّه بِعبدِهِ الشَّرَّ أمسَكَ عنْهُ بذَنْبِهِ حتَّى يُوافِيَ بِهِ يَومَ الْقِيامةِ».

وقَالَ النبِيُّ ﷺ: «إِنَّ عِظَمَ الْجزاءِ مَعَ عِظَمِ الْبلاءِ، وإِنَّ اللَّه تعالى إِذَا أَحَبَّ قَوماً ابتلاهُمْ، فَمنْ رضِيَ فلَهُ الرضَا، ومَنْ سَخِطَ فَلَهُ السُّخْطُ».

ومَنْ سَخِطَ فَلَهُ السُّخْطُ » رواه الترمذي وقَالَ: حديثٌ حسنٌ.

**43.** Ənəs رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Allah bir quluna yaxşılıq etmək istərsə, onun *günahlarına görə* cəzasını tezləşdirərək bu dünyada verər. Yox əgər quluna pislik etmək istərsə, bu dünyada onun cəzasını təxirə salar ki, günahlarının cəzasını Qiyamət günü çəksin."

Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Mükafatın böyüklüyü bəlanın böyüklüyünə görədir. Şübhəsiz ki, Allah bir qövmü sevdiyi zaman onları *müsibətlə* sınağa çəkər. Bundan razı qalan kimsəyə Allahın razılığı, qəzəblənən kimsəyə də Allahın qəzəbi vardır."

Bu hədisi Tirmizi rəvayət etmiş və: "həsən-hədisdir" demişdir.[2]

**Şərh:**

Hər şey Allahın əlindədir və Onun iradəsi ilə baş verir. Çünki uca Allah Özü haqqında belə buyurur: **"Rəbbin istədiyini edəndir."**[3] O,

---

[1] əl-Ənam, 90.
[2] Sunən ət-Tirmizi, 2396; Səhih əl-Cami, 308.
[3] Hud, 107.

həmçinin, buyurur: **“Həqiqətən, Allah istədiyini edər.”**[1] Dolayısıyla bütün işlər Allahın əlindədir. İnsanın, özünə vacib buyurulan işlərdə xətalara, günahlara və nöqsanlara yol verməsi labüddür. Odur ki, Allah öz quluna xeyir nəsib etmək istədikdə, onun malına, yaxud ailəsinə, yaxud özünə ya da yaxınlarından birinə müsibət verərək, onun cəzasını bu dünyada verir. Çünki cəzalar, günahları silir. Və əgər cəza dünyada verilər və bunun sayəsində bəndənin günahları silinərsə, o bəndə Allahın hüzuruna, müsibətlər və bəlalar sayəsində təmizlənmiş və heç bir günahı qalmamış halda gedər. Hətta ölüm ayağında sıxıntı keçirər ki, axıra qalan bir-iki günahı da silinsin və beləliklə, dünyadan bütün günahlardan təmizlənmiş halda köçsün. Bu bir nemətdir. Belə ki, dünyadaki əzab, axirət əzabından daha yüngüldür.

Lakin Allah bir quluna yamanlıq etmək istədikdə, ona toxunmaz, onu tədricən həlaka sürükləyər, ona nemətlər əta edər və bəlaları ondan dəf edər. İş o yerə gəlib çatar ki, o, Allahın verdiyi nemətlər sayəsində azğınlaşar və məzəmmətə layiq şəkildə sevinər. Axırda da günahlara batmış bir halda ikən Rəbbinin hüzuruna çıxar və günahlarının cəzasını axirətdə çəkər. Allahdan bağışlanma diləyərik! Və əgər bir adamın açıq-aydın şəkildə Allaha üsyan etdiyini, Allahın da onu bəlalardan qoruduğunu və ona çoxlu nemətlər verdiyini görsən, bil ki, Allah ona yamanlıq etmək istəmişdir. Çünki Allah onun cəzasını təxirə salmışdır ki, günahlarının cəzasını Qiyamət günü çəksin.

Sonra bu hədisdə: **“Mükafatın böyüklüyü bəlanın böyüklüyünə görədir”**– deyilir. Yəni bəla nə qədər böyük olarsa, mükafat da o qədər böyük olar. Yüngül bəlaya görə kiçik, ağır bəlaya görə isə böyük savab vardır. Çünki Allah, insanlara qarşı lütfkardır. Onları ağır müsibətlərlə sınağa çəkdikdə, əvəzində böyük savab, yüngül müsibətlərlə sınadıqda isə az savab verər.

**“Allah bir qövmü sevdiyi zaman onları *müsibətlə* sınağa çəkər. Bundan razı qalan kimsəyə Allahın razılığı, qəzəblənən kimsəyə də Allahın qəzəbi vardır.”** Peyğəmbərin ﷺ bu sözü də mömin üçün bir müjdədir. Mömin adam, başına bir müsibət gəldiyi zaman Allahın onu sevmədiyini düşünməməlidir. Əksinə, ola bilər ki, Allahın onu müsi-

---

[1] əl-Həcc, 18.

bətlərlə sınağa çəkməsi, Allahın ona olan sevgisinin əlaməti olsun. İnsan, bu müsibətlərə razı qalıb səbir edər və buna görə savab qazanacağına ümid edərsə, Allah da ondan razı olar. Yox əgər qəzəblənərsə, Allah da ona qəzəblənər.

Bu hədis insanı, Allahın rizasını qazana bilmək üçün Onun göndərdiyi müsibətlərə səbir etməyə təşviq edir. Müvəffəqiyyət Allahdandır.

٤٤ - وعنْ أَنَسٍ ﷺ قـال: كَانَ ابْنٌ لأبي طَلْحـةَ ﷺ يَشْـتَكِي، فخـرج أبُـو طَلْحـة، فَقُبِضَ الصَّبِيُّ، فَلَمَّا رَجَعَ أَبُو طَلْحةَ قال: ما فَعَلَ ابنِي؟ قَالَت أُمُّ سُلَيْم - وَهِيَ أُمُّ الصَّبيِّ: هـو أَسْكَنُ مَا كَانَ. فَقَرَّبَتْ إِلَيْهِ الْعَشَاءَ فَتَعَشَّى، ثُمَّ أَصَابَ مِنْهَا، فَلَمَّا فرغَ قَالَتْ: وارُوا الصَّبِيَّ، فَلَمَّا أَصْبحَ أَبُو طَلْحَة أَتَى رسولَ الله ﷺ فَأَخْبرهُ، فَقَالَ: «أعرَّسْتُمُ اللَّيْلَةَ؟» قَالَ: نَعَمْ، قال: « اللَّهمَّ باركْ لَهُما » فَولَدتْ غُلاماً، فقَالَ لِي أَبُو طَلْحَةَ: احْمِلْهُ حتَّى تَأْتِيَ بِهِ النبيَّ ﷺ، وبَعثَ مَعهُ بِتمْرَات، فقال: «أَمعهُ شَيءٌ؟ » قال: نعمْ، تَمراتٌ، فَأَخَذَهَا النَّبِيُّ ﷺ فَمضَغَهَا، ثُمَّ أَخذَهَا مِنْ فِيهِ فَجَعَلَهَا فِي فِي الصَّبيِّ، ثُمَّ حَنَّكَه وسمَّاهُ عبدَ اللَّهِ. متفقٌ عليه.

وفي روايةٍ للْبُخَاريِّ: قال ابْنُ عُيَيْنَة: فَقَالَ رجُلٌ منَ الأَنْصارِ: فَرَأَيْتُ تِسعة أَوْلادٍ كلُّهُمْ قدْ قَرؤُوا الْقُرْآنَ، يعْنِي مِنْ أَوْلادِ عَبْدِ اللَّه الْمَوْلُود.

وفي روايةٍ لمسلِم: ماتَ ابْنٌ لأبِي طَلْحَةَ مِنْ أُمِّ سُلَيْمٍ، فَقَالَتْ لأَهْلِهَا: لا تُحَدِّثُوا أَبَا طَلْحَةَ بابنِهِ حتَّى أَكُونَ أَنَا أُحَدِّثُهُ، فَجَاءَ فَقَرَّبَتْ إِلَيْهِ عَشَاءً فَأَكَلَ وشَرِبَ، ثُمَّ تَصنَّعتْ لهُ أَحْسنَ ما كانتْ تَصنَّعُ قَبْلَ ذلكَ، فَوقَعَ بِهَا، فَلَمَّا أَنْ رأَتْ أَنَّهُ قَدْ شَبِعَ وأَصَابَ مِنْها قَالتْ: يا أَبَا طلْحة، أَرَايْتَ لَوْ أَنَّ قَوْماً أَعارُوا عارِيتَهُمْ أَهْل بيْتٍ فَطَلبوا عارِيَتَهُم، أَلَهُمْ أَنْ يمْنعُوهَم؟ قَالَ: لا، فَقَالَتْ: فاحتسِبْ ابْنَكَ. قَالَ: فغَضِبَ، ثُمَّ قَالَ: تركتنِي حتَّى إِذَا تَلطَّخْتُ ثُمَّ أَخْبرتِني بِابْني؟! فَانْطَلَقَ حتَّى أَتَى رسولَ اللَّه ﷺ فأَخْبَرهُ بما كَانَ، فَقَالَ رسولُ اللَّه ﷺ: «بَاركَ اللَّه فِي لَيْلَتِكُما ». قال: فحملَتْ، قال: وكَانَ رسول اللَّه ﷺ فِي سفَرٍ وهِي مَعَهُ، وكَانَ رسولُ اللَّه ﷺ إِذَا أَتَى الْمَدِينَةَ مِنْ سَفَرٍ لاَ يَطْرُقُهَا طُرُوقاً، فَدنَوْا مِنَ الْمَدِينَةِ، فَضَرَبَهَا الْمَخاضُ، فَاحْتَبَس عَلَيْهَا أَبُو طلْحَة، وانْطلَق رسولُ اللَّه ﷺ. قَالَ: يقُولُ أَبُو طَلْحةَ: إِنَّكَ

لتعلمُ يَا ربِّ أَنَّهُ يعْجبُنِي أَنْ أَخْرُجَ معَ رسولِ اللّه ﷺ إِذَا خَرَجَ، وأَدْخُلَ مَعهُ إِذَا دَخَلَ، وقَدِ احْتَبَسْتُ بِما تَرى. تقولُ أُمُّ سُلَيْمٍ: يا أَبَا طَلْحةَ مَا أَجِد الَّذي كنْتُ أَجِدُ، انْطَلِقْ، فانْطَلَقْنَا، وضَرَبهَا المَخَاضُ حينَ قَدِمَا فَولَدتْ غُلاماً. فقالَتْ لِي أُمِّي: يا أَنَسُ، لا يُرْضِعُهُ أَحدٌ تَغْدُوَ بِهِ عَلَى رسُول اللّه ﷺ، فلمَّا أَصْبحَ احتملْتُهُ فانطَلَقْتُ بِهِ إِلَى رسولِ اللّه ﷺ...

**44.** Rəvayət edilir ki, Ənəs ﷺ demişdir: "Əbu Talhənin oğlu xəstələnmişdi. Əbu Talhə evdə olmadığı əsnada uşaq öldü. O, evə qayıtdıqda: "Oğlum necədir?"– deyə soruşdu. Uşağın anası Ummu Suleym: "Uşaq əvvəlkindən daha rahatdır"– deyə cavab verdi, sonra da ona şam yeməyini gətirdi. Əbu Talhə *şam yeməyini yedikdən* sonra yoldaşı ilə yaxınlıq etdi. Yaxınlıq etdikdən sonra isə Ummu Suleym ərinə: "Uşağı dəfn edin."- dedi. Səhər açılan kimi Əbu Talhə Rəsulullahın ﷺ yanına getdi və olanları ona xəbər verdi. Rəsulullah ﷺ ondan: "Bu gecə yaxınlıq etmisinizmi?"– deyə soruşdu. Əbu Talhə: "Bəli!"– deyə cavab verdikdə, Rəsulullah ﷺ: "Allahım, *bu gecəni* onlar üçün bərəkətli et!"– deyə dua etdi. *Bu yaxınlıqdan* Ummu Suleymin oğlan uşağı dünyaya gəldi. Əbu Talhə mənə: "Uşağı götür, Peyğəmbərin ﷺ yanına apar"– dedi və bir neçə xurma verdi. *Peyğəmbərin* ﷺ *yanına gəldikdə*: "Uşağın yanında bir şey varmı?"– deyə soruşdu. Mən də: "Bəli, bir neçə xurma var"– deyə cavab verdim. Peyğəmbər ﷺ xurmaları götürüb ağzında çeynədi, sonra da onu öz ağzından çıxardıb uşağın ağzına qoydu, bu əzməni onun damağına sürtdü və ona Abdullah adını qoydu."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Buxarinin digər rəvayətində İbn Uyeynənin ﷺ belə rəvayət etdiyi xəbər verilir: "Ənsardan biri demişdir: "Abdullahın doqquz oğlunu gördüm, hamısı Quran oxuyan idi."[2] Yəni, anadan olan həmin Abdullahın.

Muslimin rəvayətində isə belə xəbər verilir: "Əbu Talhənin ﷺ Ummu Suleymdən ﷺ olan bir oğlu vəfat etdi. Ummu Suleym yaxınlarına: "Mən Əbu Talhəyə oğlunun öldüyünü deməyincə siz ona heç nə deməyin." Əbu Talhə evə gəldikdə Ummu Suleym ona şam yeməyini

---

[1] Səhih əl-Buxari, 5470; Səhih Muslim, 2144.

[2] Səhih əl-Buxari, 1301.

gətirdi. Əbu Talhə yeyib içdikdən sonra, Ummu Suleym həmişəkindən daha gözəl tərzdə bəzəndi və əri onunla yaxınlıq etdi. Ummu Suleym onun *yeməkdən* doyduğunu və cinsi əlaqəni bitirdiyini görüb dedi: "Ey Əbu Talhə! Əgər bir toplum bir ev əhlinə əmanət olaraq bir əşya versə, sonra da gəlib onu geri istəsə, ev əhli onu qaytarmaya bilərmi?" Əbu Talhə: "Xeyr!"– deyə cavab verdikdə, Ummu Suleym dedi: "Elə isə oğlunun vəfatına səbir et və savabını *Allahdan* istə!" Bunu eşidəndə Əbu Talhə qəzəbləndi və: "Mən cənabət halına düşənədək başımı qatır, sonra da mənə oğlumun ölüm xəbərini verirsən?!"– dedi. Sonra dərhal qalxıb Rəsulullahın ﷺ yanına getdi və baş verənləri ona danışdı. Rəsulullah ﷺ isə: "Allah sizin *bu* gecənizi bərəkətli etsin!"– deyə dua etdi. Beləliklə, Ummu Suleym hamilə qaldı. Bir kərə Rəsulullah ﷺ səfərdə ikən Ummu Suleym də onun yanında idi. Rəsulullah ﷺ səfərdən qayıtdığı zaman gecə vaxtı Mədinəyə daxil olmazdı. Nəhayət, onlar Mədinəyə yaxınlaşdıqları zaman Ummu Suleymi doğuş sancısı tutdu. Bu səbəbdən də Əbu Talhə onun yanında qaldı, Rəsulullah ﷺ isə yoluna davam etdi. Onda Əbu Talhə dedi: "Ey Rəbbim! Sən bilirsən ki, Rəsulullah ﷺ *Mədinədən* çıxdıqda onunla birlikdə çıxmaq, *Mədinəyə* girdikdə də onunla birlikdə girmək mənim xoşuma gəlir. Lakin bu dəfə gördüyün bu hadisədən dolayı bunu edə bilmədim." Elə bu vaxt Ummu Suleym: "Ey Əbu Talhə, bayaqki kimi sancılar hiss etmirəm. Gedə bilərik"– dedi, biz də yolumuza davam etdik. Mədinəyə çatdıqda Ummu Suleymin yenidən sancısı tutdu və o, bir oğlan uşağı dünyaya gətirdi. Anam[1] mənə dedi: "Ey Ənəs, sabah uşağı Rəsulullahın ﷺ yanına aparanadək heç kəs onu əmizdirməsin!" Səhər açıldıqda mən körpəni götürüb Rəsulullahın ﷺ yanına apardım..."[2]

**Şərh:**

Əbu Talhə رضي الله عنه, Ənəs ibn Malikin رضي الله عنه ögey atasıdır. Əbu Talhənin xəstə bir uşağı var idi. Bir gün Əbu Talhə evdən çıxıb iş dalınca gedir və bu əsnada uşaq ölür. Əbu Talhə evə qayıtdıqda uşağın anasından: "Oğlum necədir?"– deyə soruşur, *Ummu Suleym* də: **"Uşaq əvvəlkin-**

---

[1] Ummu Suleym رضي الله عنها Ənəsin رضي الله عنه anasıdır.

[2] Səhih Muslim, 2144.

**dən daha rahatdır"**– deyə cavab verir. Qadın doğru deyir, çünki uşaq ölmüşdü, ölümdən isə daha rahat heç nə yoxdur. Əbu Talhə isə bu sözdən onun xəstəliyinin yüngülləşdiyini və canının rahat olduğunu başa düşür. Sonra qadın ona şam yeməyi gətirir. Əbu Talhə oğlunun sağaldığından və halının yaxşılaşdığından arxayın olduğu halda yeməyini yeyir. Sonra da yoldaşı ilə yaxınlıq edir. Yaxınlıq etdikdən sonra Ummu Suleym ona: **"Uşağı dəfn edin!"**- deyir. Yəni, "Uşağı dəfn edin. O, vəfat edib." Səhər açıldıqda, Əbu Talhə uşağı dəfn edir. Peyğəmbər ﷺ bundan xəbər tutduqda, ondan: **"Bu gecə yaxınlıq etmisinizmi?"**– deyə soruşur. Əbu Talhə: "Bəli!"– deyə cavab verdikdə, Rəsulullah ﷺ: "Allahım, *bu gecəni* onlar üçün bərəkətli et!"– deyə onlar üçün dua edib bərəkət diləyir. Nəhayət, Ummu Suleymin oğlu olur və Peyğəmbər ﷺ ona Abdullah adını qoyur. Peyğəmbərin ﷺ duasının bərəkəti ilə Abdullahın doqquz oğlu olur və doqquzu da Quran əhli olur.

Bu hədisdən çıxan faydalar bunlardır:

**1-cisi,** Ummu Suleymin رضي الله عنها səbrinin gücüdür. Qadın o qədər səbirli idi ki, başına belə bir müsibət gəldiyi halda, bunu ərinə eyham edərək[1] bildirir, sonra şam yeməyini gətirir, sonra əri onunla yaxınlıq edir və nəhayət, ona: "Uşağı dəfn edin!"– deyir.

**2-cisi,** bu hədis həm də, eyhamla danışmağın caiz olduğuna dəlalət edir. Eyham: adamın dediyi bir sözlə onun başa düşülən mənasını deyil, başqa bir mənanı nəzərdə tutmasıdır. Belə sözün, bir xitab olunan adamın ilk anda ağlına gələn zahiri mənası, bir də ilk anda ağıla gəlməyən gizlin mənası olur. Eyham edən adam o sözü deyərkən, ilk mənaya eyham edir, lakin niyyətində ikinci məna olur. Hərçənd bunu etmək caizdir, lakin sadəcə ehtiyac olduğunda edilməlidir. Belə ki, adam xeyirli bir iş görmək və ya zərəri dəf etmək üçün eyham edə bilər. Lakin eyham etməyə ehtiyac olmadıqda onu etmək məsləhət deyil. Çünki əgər eyham etdikdən sonra qarşısındakı adam onun bir şey deyib başqa bir şey qəsd etdiyini başa düşsə, onu yalançı saya bilər, onun haqqında pis zənn edə bilər. Ehtiyac halında isə bunu etməyin heç bir qəbahəti yoxdur.

---

[1] Eyham etmək: ikimənalı və ya ikibaşlı danışmaq.

Gəlin, insana lazım olan faydalı eyhamlardan birini misal çəkək: Əgər bir zalım, camaatın mallarını haqsız yerə əllərindən alırsa və o zalımdan ehtiyat edən birisi də öz malını sənin yanına gətirib: "Qoy malım əmanət olaraq sənin yanında qalsın. Qorxuram bu zalım bundan xəbər tutub onu əlimdən alsın"– desə, sonra da həmin zalım sənin yanın gəlib: "Filankəsin malı səndədirmi?"– desə, sən ona: "Vallahi, mə indi ləhu şey"– deyə eyham edə bilərsən. Xitab etdiyin adam bu cümlədə, ərəbcə ifadə edilən "mə" ədatının "yoxdur" mənasında işləndiyini güman etsə də, sən nisbi əvəzlik, yəni ərəbcə "əlləzi/o şey" mənasında işlənən "mə" ədatını niyyət edirsən. Yəni sən bu sözü deyəndə, adam: "Məndə ona aid heç bir şey yoxdur"– demək istədiyini güman edir. Sən isə "mə" ədatını nisbi əvəzlik mənasında nəzərdə tutaraq: "Məndə olan o şey ona məxsusdur"– demək istəyərsən. Bu cür eyham etmək mübahdır. Hətta ehtiyac olduqda vacib də ola bilər. Başqa hallarda isə bu caiz deyildir.

**3-cü fayda budur ki,** Ənəs ibn Malik, Əbu Talhədən olan anabir qardaşını və bir neçə ədəd də xurma götürüb Rəsulullahın ﷺ yanına gətirdikdə, Rəsulullah ﷺ körpəni qucağına aldı, xurmaları da götürüb ağzında çeynədi, sonra da onları çıxardıb uşağın ağzına qoydu və bu əzməni onun damağına sürtdü. Yəni, barmağını uşağın ağsına salıb əzməni onun damağına sürtdü. Rəsulullah ﷺ belə etdi ki, ağız suyunun bərəkətini uşağa daddırsın və onun mədəsinə gedən ilk şey onun *bərəkətli* ağız suyu olsun. Səhabələrin hamısı belə edərdi: istər oğlan uşağı, istərsə də qız uşağı dünyaya gəldikdə, onu Peyğəmbərin ﷺ yanına gətirər və ona bir neçə xurma verərdilər ki, onları ağzında əzib uşağın damağına sürtsün.

Yaxşı, bəs bu təhnik (xurmanı ağızda əzib uşağın damağına sürtmək) məhz Peyğəmbərin ﷺ ağız suyunun bərəkətli olduğuna görə, yoxsa uşağın mədəsinə gedən ilk şeyin xurma əzməsi olmasına görə edilirdi? Əgər birincisini desək, təhnik Rəsulullaha ﷺ məxsus bir şey sayılar və başqa heç kəsin təzə doğulmuş uşağa təhnik etməsi caiz olmaz. Çünki Rəsulullahdan ﷺ başqa heç kəsin ağız suyu ilə və ya təri ilə təbərrük etmək, yəni bunun sayəsində bərəkətə nail olmaq qeyri-mümkündür. Yox, əgər uşağın mədəsinə gedən ilk şeyin xurma əzməsi

olduğunu, sanki uşağın mədəsini xurma şirəsi ilə aşılamaq istədiyimizi desək, bu halda: "Hər doğulan uşağa təhnik olunur"– deyə bilərik.

**4-cü fayda;** bu hədisdə Peyğəmbərin ﷺ möcüzələrindən biri zikr edilmişdir. Belə ki, Peyğəmbər ﷺ o körpə üçün dua etmiş, Allah da ona və onun nəslinə bərəkət əta etmişdir. Hədisdə qeyd edildiyi kimi, Abdullahın doqquz oğlu dünyaya gəlmiş və hamısı da Quran əhli olmuşdur. Bu da məhz Peyğəmbərin ﷺ duası sayəsində olmuşdur.

**5-ci fayda budur ki,** uşağa Abdullah adını qoymaq müstəhəbdır. Çünki Abdullah və Abdurrəhman adları ən gözəl adlar sayılır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Allahın ən çox sevdiyi adlar Abdullah[1] və Abdurrəhmandır.[2]"**[3] O ki qaldı: "Ən xeyirli adlar, həmd kökündən əmələ gəlmiş və bir də başında "abd/qul" kəlməsi gələn iki ismin birləşməsindən düzələn adlardır" rəvayətinə, onun əsli məlum deyil, yəni bu, Rəsulullahın ﷺ sözü deyil. Səhih hədisdəki ifadə isə belədir: **"Allahın ən çox sevdiyi adlar, Abdullah ilə Abdurrahmandır. Adların ən doğrusu isə Haris[4] və Həmmamdır.[5]"**[6] Haris və Həmmam ən doğru adlardır, çünki həqiqətə tamamilə uyğundur. Belə ki, hər bir insan harisdir, yəni, çalışıb gələcəkdə bəhrəsini götürəcək işlər görür, eləcə də, hər bir insan həmmamdır, yəni, həmişə düşünür, nə isə etməyə niyyət edir və daim istəkləri olur. Necə ki, uca Allah buyurur: **"Ey insan! Sən, həqiqətən də, səy göstərib Rəbbinə tərəf can atırsan. Sən Onunla qarşılaşacaqsan!"**[7] Yəni hər bir insan daim çalışmaqdadır. Demək, Adların ən doğrusu isə Haris və Həmmamdır, çünki həqiqətə uyğundur. Allah üçün ən sevimli adlar da Abdullah və Abdurrəhman adlarıdır.

Odur ki, adam gərək öz oğullarına və qızlarına ən gözəl adları seçsin, beləliklə də, həm savab qazanmış, həm də övladlarına yaxşılıq et-

---

[1] Abdullah: Allahın qulu.

[2] Abdurrəhman: ər-Rəhmanın (Mərhəmətli Allahın) qulu.

[3] Səhih Muslim, 2132.

[4] Haris: əkinçi, cütçü.

[5] Həmmam: fəal, yorulmaz, yorulmaq bilməyən.

[6] Sunən Əbu Davud, 4950; Musnəd Əhməd, 3/345; Sunən ən-Nəsai, 3565; Silsilə əl-Əhadis əs-Səhihə, 1040.

[7] əl-İnşiqaq, 6.

miş olsun. Cəmiyyətə yad olan adları uşaqlara qoymaq isə, gələcəkdə onlarda psixoloji sarsıntılar əmələ gətirə bilər. Biləsən ki, övladına qoyduğun ada görə onun keçirdiyi hər bir sıxıntının günahı və pis nəticəsi sənin boynuna qalacaq. Çünki insanların: "Bu ada bir bax!"– deyərək lağa qoyduqları bu qəribə adı övladına qoyaraq onun psixoloji sarsıntı keçirməsinin səbəbkarı sən olmusan. Elə buna görə də adam gərək adların ən gözəllərini seçsin. "Corc" və buna bənzər yalnız kafirlərə aid olan adları qoymaq isə haramdır. Çünki bu, kafirlərə bənzəmək qəbilindəndir. Peyğəmbər ﷺ isə bu xüsusda belə buyurmuşdur: **"Kim özünü bir qövmə bənzədərsə, o da onlardandır."**[1]

Biz müsəlmanlar kafirlərə son dərəcə nifrət etməli, onlara ədavət bəsləməli və bilməliyik ki, bu kafirlər özlərini bizə nə qədər yaxşı göstərsələr də, nə qədər bizə yaxın olmağa çalışsalar da, onlar həm bizim, həm də Allahın, mələklərin, peyğəmbərlərin və əməlisalehlərin həqiqi düşmənləridir. Dost kimi görünsələr də, dostlarımız olduqlarını iddia etsələr də, onlar, vallahi ki, düşməndirlər. Elə buna görə də onlara ədavət bəsləməliyik. Yer üzündə üstün məqamları və keyfiyyətləri olan kafirlərlə, heç bir dəyəri olmayan kafirlər arasında heç bir fərq qoymamalıyıq. Hətta ölkəmizdə qeyri-müsəlman xidmətçi kişi və qadınların olmasını istəməməliyik. Xüsusilə də, bilməliyik ki, Peyğəmbərimiz Muhamməd ﷺ belə buyurmuşdur: **"Yəhudiləri və nəsraniləri ərəb yarımadasından çıxardın!"**[2] O, həmçinin, demişdir: **"Yəhudiləri və nəsraniləri ərəb yarımadasından çıxardacam, orada müsəlmanlardan başqasını saxlamayacam."** [3] Həmçinin, ömrünün sonunda, ölüm ikən, ümməti ilə vidalaşarkən belə buyurmuşdur: **"Müşrikləri ərəb yarımadasından çıxardın!"**[4] Lakin bu günkü gün bəziləri müsəlman işçi ilə kafir işçi arasında seçim qarşısında qaldıqda, kafiri seçir. Allah islah eləsin! Batilə meyil etmiş, azmış, haqdan sapmış qəlblər, kafirlərə üstünlük verir. Şeytan onlara etdikləri əməlləri gözəl göstərir. Bunlar yalan danışaraq, iftira yaxaraq və böhtan ataraq: "Kafir öz işini müsəl-

[1] Sunən Əbu Davud, 4031; Musnəd Əhməd, 2/50; Səhih əl-Cami, 6025.
[2] Musnəd İmam Əhməd, 1691; Silsilə əl-Əhadis əs-Səhihə, 1132; Səhih əl-Cami, 232.
[3] Səhih Muslim, 1767.
[4] Səhih əl-Buxari, 3053; Səhih Muslim, 1637.

mandan daha səmimiyyətlə görür"– deyirlər. Həmçinin, deyirlər ki, kafir namaz qılmadığı üçün, namaza sərf edilən vaxtı işə sərf edir, həcc və ümrə ziyarətləri üçün icazə istəmir, oruc tutmur. O, davamlı olaraq öz işində çalışır. Müsəlmanı kafirdən üstün tutmaq məsələsi onları maraqlandırmır, halbuki göylərin və yerin xaliqi belə buyurur: **"Əlbəttə, iman gətirmiş bir kölə, sizi heyran edən müşrik bir kişidən daha xeyirlidir. Onlar Cəhənnəm oduna çağırırlar. Allah isə Öz izni ilə Cənnətə və bağışlanmağa çağırır."**[1] Elə isə, ey qardaşlarım, yolunu azmış və şeytanın vəsvəsələrinə uyaraq, kafirləri xidmətçi, işçi və başqa məqsədlərlə ölkəmizə gətirən qardaşlarınıza nəsihət edin. Onlar bilməlidirlər ki, bu hərəkətləri ilə müsəlmanların əleyhinə olan işdə kafirlərə yardım edirlər. Çünki o kafirlər öz hökümətlərinə vergi ödəyərək onları müsəlmanlara qarşı gücləndirirlər. Buna dair örnək çoxdur. Bizim öhdəmizə düşən budur ki, bacardığımız qədər kafirlərdən uzaq duraq, övladlarımıza onların adlarını qoymayaq, onlarla dost olmayaq, onlara ehtiram göstərməyək, onlara birinci salam verməyək və yollarda onları sıxışdıraq. Çünki Rəsulullah ﷺ belə buyurmuşdur: **"Yəhudilərə və nəsranilərə birinci salam verməyin. Yolda onlara rast gəldiyiniz zaman onları yolun ən dar hissəsi ilə getməyə məcbur edin!"**[2] Bu göstərişlərə biz necə əməl edirik? Nəfsinin istəyi ilə danışmayan Peyğəmbərin ﷺ sözünə nə dərəcədə itaət edirik? Aramızda belə rəzalətlər artdığı halda, nə üçün həlaka aparan bu yoldan çəkinmirik? Rəvayət edilir ki, bir gecə Peyğəmbər ﷺ, üzü qıpqırmızı olmuş halda yuxudan oyandı və: **"Allahdan başqa məbud yoxdur! Yaxınlaşmış şərdən dolayı vay** *İslam bayrağını daşıyan* **ərəblərin halına! Bu gün Yəcuc və Məcuc səddindən bu boyda dəlik açıldı"– dedi və baş barmağı ilə şəhadət barmağını birləşdirərək** ***onları*** **halqa şəklinə saldı."** Hədisi danışan Zeynəb bint Cəhş رضي الله عنها dedi: "Mən: "Ya Rəsulullah, aramızda əməlisaleh insanlar olduğu halda biz həlakmı olacağıq?"– deyə soruşdum. Peyğəmbər ﷺ buyurdu: **"Əgər rəzalətlər artarsa, bəli!"**[3] Yəni alçaq işlər və alçaq insanlar çoxalarsa. Əgər əməllərimizdə rəzalət artarsa biz

---

[1] əl-Bəqərə, 221.

[2] Səhih Muslim, 2167.

[3] Səhih əl-Buxari, 3346; Səhih Muslim, 2880.

hәlaka uğrayarıq, habelә ölkәmizdә murdar insanlar çoxalarsa, biz hәlaka uğrayarıq. Bu günkü halımız buna dәlildir. Allahdan, ölkәlәrimizi gizli vә aşkar düşmәnlәrimizdәn qorumasını, münafiqlәri vә kafirlәri rәzil vә rüsvay etmәsini, hiylәlәrini öz başlarında çatlatmasını dilәyәrik! Şübhәsiz ki, Allah Lütfkardır, Sәxavәtlidir.

**6-cı fayda;** Ummu Suleym ﵂: "Ey Әbu Talhә! Әgәr bir toplum bir ev әhlinә әmanәt olaraq bir әşya versә, sonra da gәlib onu geri istәsә, ev әhli onu qaytarmaya bilәrmi?"– deyә soruşmuş vә Әbu Talhә ﵁: "Xeyr!"– deyә cavab verdikdә, Ummu Suleym demişdir: "Elә isә oğlunun vәfatına sәbir et vә savabını *Allahdan* istә!" Yәni, övladlarımız bizә әmanәt olaraq verilmişdir, onlar Allahın mülküdür vә Allah istәdiyi vaxt onları әlimizdәn ala bilәr. Ummu Suleym öz әrinә belә misal çәkmişdir ki, o, Allahın yazdığı qәdәrdәn razı qalsın vә bunun әvәzindә Allahdan savab umsun. Bu, Ummu Suleymin ﵂ zәkalı olduğunu – onun ağıllı, sәbirli vә Allahdan mükafat gözlәyәn bir qadın olduğunu göstәrir. Yoxsa ki, ana da, övladının itkisinә ata qәdәr üzülür. Hәtta qadın zәif vә sәbirsiz olduğuna görә, daha çox daha çox üzülür.

**7-ci fayda,** Peyğәmbәrin ﷺ duasının bәrәkәtli olmasıdır. Belә ki, Abdullahın doqquz oğlu dünyaya gәlmiş vә hamısı da Quran әhli olmuşdur.

**8-ci fayda;** bu hәdisdә biz, Әbu Talhәyә ﵁ bәxş edilmiş bir kәramәt görürük. Xәbәr verilir ki, o, Rәsulullah ﷺ ilә birlikdә sәfәrdә ikәn, hamilә olan yoldaşı da yanında imiş. Nәhayәt, onlar sәfәrdәn qayıtdıqda, Mәdinәyә yaxınlaşdıqları zaman Ummu Suleymi doğuş sancısı tutur. Peyğәmbәr ﷺ dә sәfәrdәn qayıtdığı zaman gecә vaxtı Mәdinәyә daxil olmazdı. Yәni ailәsinә xәbәr vermәdәn, qәfil evә daxil olmaq istәmirdi. Onda Әbu Talhә dua edib deyir: "Ey Rәbbim! Sәn bilirsәn ki, Rәsulullah ﷺ *Mәdinәdәn* çıxdıqda onunla birlikdә çıxmaq, *Mәdinәyә* girdikdә dә onunla birlikdә girmәk mәnim üçün xoşdur. Lakin bu dәfә gördüyün bu hadisәdәn dolayı bunu edә bilmirәm." Elә bu vaxt Ummu Suleym onu çağırıb deyir: "Ey Әbu Talhә, bayaqki kimi sancılar hiss etmirәm." Sanki onu heç doğuş sancısı tutmamışdı. Sonra Ummu Suleym ona: "Gedә bilәrik"– deyir vә onlar sәfәrlәrinә davam edirlәr. Nәhayәt, Rәsulullahla ﷺ birlikdә Mәdinәyә daxil olurlar. Mәdinәyә

çatdıqda, Ummu Suleymin yenidən sancısı tutur və o, bir oğlan uşağı dünyaya gətirdi. Bu, Əbu Talhəyə رضي الله عنه bəxş edilmiş bir kəramətdir. Belə ki, uca Allah, onun duası sayəsində zövcəsinin doğuş sancısını yüngülləşdirmişdir. Ummu Suleym uşağı dünyaya gətirdikdə, oğlu Ənəs ibn Malikə رضي الله عنه: "Bunu Rəsulullahın ﷺ yanına apar" deyir. Ənəs, yeni doğulmuş bu körpənin anabir qardaşıdır. Mədinə əhlinin adəti belə idi ki, yeni doğulmuş körpəni, bir neçə xurma ilə birlikdə Rəsulullahın رضي الله عنه yanına gətirərdilər. O da xurmanı ağzında əzər, sonra da onu uşağın damağına sürtərdi. Bunda da iki fayda vardır:

**Birincisi,** Peyğəmbərin ﷺ ağız suyunun bərəkətli olmasıdır. Səhabələr, Peyğəmbərin ﷺ ağız suyu və təri ilə təbərruk edərdilər. Adətən Peyğəmbər ﷺ sübh namazını qıldıqdan sonra ona bir qabda su gətirilər və o, əllərini suya salıb onları suyun içində ovuşdurar, sonra da uşaqlar onu ailələrinin yanına aparar və onlar da Peyğəmbərin ﷺ artığı ilə təbərrük edərdilər. Həmçinin, Peyğəmbər ﷺ dəstəmaz alarkən səhabələr onun dəstəmaz suyunu əldə edə bilmək üçün az qala bir-biriləri ilə dava edər və əldə etdikləri su ilə təbərrük edərdilər. Habelə, onun təri və saçı ilə də təbərrük edərdilər. Hətta Peyğəmbərin ﷺ zövcəsi və möminlərin anası Ummu Sələmədə رضي الله عنها, içində Peyğəmbərin ﷺ bir neçə saç teli olan kərpic şəkilli gümüş zınqırov vardı. İnsanlar, bunu şəfa vəsiləsi edərdilər, yəni iki üç saç telini götürüb bir su qabına salıb qarışdırar və bu su ilə təbərrük edərdilər.[1] Lakin qeyd etmək lazımdır ki, bu, yalnız Rəsulullaha ﷺ məxsusdur.

**İkinci fayda**, Peyğəmbərin ﷺ təzə doğulmuş körpələrin damağına sürtdüyü xurmadır. Belə ki, xurmada xeyir-bərəkət vardır və o, mədə üçün faydalıdır. Əgər körpənin mədəsinə düşən ilk qida xurma əzməsi olarsa, bu onun mədəsi üçün faydalı olar.

---

[1] Rəvayət edilir ki, Osman ibn Abdullah demişdir: "Ailəm mənə bir qədəh su verib Ummu Sələmənin yanına göndərdi. Ummu Sələmə də içində, Peyğəmbərin ﷺ bir neçə saç teli olan gümüş zınqırov gətirdi. O vaxtlar bir adama göz dəydikdə və ya başqa bir xəstəlik üz verdikdə Ummu Sələmənin yanına bir qab su göndərər, o da Peyğəmbərin ﷺ tükünü həmin qabın içinə salıb bir qədər qarışdırar, sonra qabı yiyəsinə qaytarar və nəhayət, xəstə adam o sudan içib və ya yuyunub Allahın izni ilə şəfa tapardı" (Səhih əl-Buxari, 5896).

Rəsulullah ﷺ xurma əzməsini körpənin damağına sürtmüş və onun üçün Allahdan bərəkət diləmişdir.

Hədisin səbir mövzusuna aid olan hissəsi, Ummu Suleymin رضي الله عنها, Əbu Talhəyə رضي الله عنه dediyi: "Elə isə oğlunun vəfatına səbir et və savabını *Allahdan* istə!"– sözüdür. Müvəffəqiyyət Allahdandır.

٤٥ - وعنْ أَبِي هُريرةَ رضي الله عنه أَن رسول اللَّه ﷺ قال: «لَيْسَ الشديدُ بالصُّرَعةِ، إِنمَّا الشديدُ الَّذي يمْلِكُ نَفسَهُ عِنْد الْغَضَبِ» متفقٌ عليه.

« والصُّرَعَةُ » بِضمِّ الصَّادِ وفتْحِ الرَّاءِ، وأَصْلُهُ عنْد الْعربِ منْ يصرَعُ النَّاسَ كثيراً.

**45.** Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Güclü o kəs deyil ki, güləşdə hər kəsin kürəyini yerə vursun. Güclü o kəsdir ki, qəzəbləndikdə özünü ələ ala bilsin."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Ərəbcə "əs-Suraa" kəlməsi, güləşdə daim adamları yıxana deyilir.

٤٦ - وعنْ سُلَيْمانَ بْنِ صُرَدٍ رضي الله عنه قال: كُنْتُ جالِساً مع النَّبِي ﷺ، ورجُلان يستَبَّانِ، وأَحدُهُمَا قَدِ احْمَرَّ وَجْهُهُ. وانْتفَخَتْ أوداجهُ. فقال رسولُ اللَّه ﷺ: «إِنِّي لأعلَمُ كَلِمةً لَوْ قَالَهَا لَذَهَبَ عنْهُ ما يجِدُ، لوْ قَالَ: أَعوذُ بِاللّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ، ذَهَبَ عنْهُ ما يجدُ.» فقَالُوا لَهُ: إِنَّ النَّبِيَّ ﷺ قَالَ: «تعوَّذْ بِاللّهِ مِن الشَّيَطان الرَّجِيمِ». متفقٌ عليه.

**46.** Rəvayət edilir ki, Suleyman ibn Surad رضي الله عنه demişdir: "Bir dəfə mən Rəsulullahın ﷺ yanında ikən iki nəfər söyüşməyə başladı. Onlardan birinin rəngi qıpqırmızı oldu və boyun damarları şişdi. Rəsulullah ﷺ dedi: "Mən elə bir kəlmə bilirəm ki, əgər o, bunu desə, qəzəb hissi ondan gedər! Əgər o: "Məlun şeytandan Allaha sığınıram!"– desə, qəzəb hissi ondan gedər." Beləliklə, səhabələr ona: "Peyğəmbər sənə məlun şeytandan Allaha sığınmağı əmr edir" – dedilər."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[2]

---

[1] Səhih əl-Buxari, 6114; Səhih Muslim, 2609.

[2] Səhih əl-Buxari, 6115; Səhih Muslim, 2610.

**Şərh:**

Müəllif bu fəsildə qəzəblə əlaqəli bu iki hədisi zikr etmişdir. Qəzəb: şeytanın Adəm oğlunun qəlbinə atdığı bir gözdür. Bunun təsiri ilə insanın qəzəbi alovlanar, bədəninin hərarəti artar, damarları şişər, üzü qıpqırmızı olar və bəzən də fərqinə varmadığı sözlər danışar və ya fərqinə varmadığı hərəkətlər edər. Elə buna görə də səhabələrdən biri Peyğəmbərin ﷺ yanına gəlib: "Mənə nəsihət et!"– dedikdə, Peyğəmbər ﷺ: "Qəzəblənmə!"– deyə buyurmuş. Adam bunu bir neçə dəfə təkrar etdikdə, Peyğəmbər ﷺ *yenə*: "Qəzəblənmə!"– deyə buyurmuşdur."[1]

Müəllifin رحمه الله, Əbu Hureyradan رضي الله عنه nəql etdiyi hədisdə Rəsulullullah ﷺ: "Güclü o kəs deyil ki, güləşdə hər kəsin kürəyini yerə vursun"– deyir. Yəni həqiqi pəhləvan, insanlarla güləşdə onları yıxan və kürəklərini yerə vuran deyil. Hərçənd insanlar, belə adamı güclü və qüvvətli hesab edir, lakin Peyğəmbər ﷺ həqiqi güclü adamın o olmadığını bəyan edib demişdir: "Güclü o kəsdir ki, qəzəbləndikdə özünü ələ ala bilsin." Yəni həqiqi pəhləvan o kəsdir ki, nəfsi onunla güləşdikdə onu yıxsın və onu ələ alıb ona hakim olsun. Çünki məhz bu güc, həqiqi gücdür. O daxili və mənəvi güc ki, insan onun sayəsində şeytana qalib gəlir. Çünki səni qəzəbləndirmək üçün qəlbinə qəzəb atəşini salan məhz şeytandır.

Bu hədis insanı, qəzəbləndikdə nəfsinə hakim olmağa və özünü buraxmamağa təşviq edir. Çünki insan adətən bundan sonra peşman olur. Çox vaxt insan qəzəblənib həyat yoldaşını boşayır və bəlkə də bu, onun son boşama haqqı olur.[2] Həmçinin, çox vaxt adam qəzəbindən dolayı öz malını yandırır və ya onu sındırır. Bəzən qəzəbindən övladını elə vurur ki, bu zərbə öldürücü olur. Bəzən də zövcəsinə qəzəblənib onu bərk döyür. Ümumiyyətlə, qəzəb anında insanların başına bunlara bənzər çox hadisələr gəlir. Elə buna görə də, Peyğəmbər ﷺ, hakimin qəzəbli olduğu halda iki nəfər arasında hökm verməsini qadağan etmişdir.[3] Çünki qəzəb hissi, hakimin, məsələni düzgün qavramasına,

---

[1] Səhih əl-Buxari, 6116.

[2] **"Əgər kişi** ***zövcəsini üçüncü dəfə*** **boşayarsa, bundan sonra o** ***qadın*** **başqa bir kişiyə ərə getməyincə** ***əvvəlki ərinə*** **halal olmaz."** (əl-Bəqərə, 230).

[3] Səhih əl-Buxari, 7158; Səhih Muslim, 1717.

sonra da bunun üzərində şəri hökm çıxarmasına mane olur. Beləcə özünü həlak edir və insanlar arasında da haqsız qərarlar verir.

Müəllif ؒ, həmçinin, Suleyman ibn Suradın ؓ rəvayət etdiyi hədisi də zikr etmişdir. Hədisdə xəbər verilir ki, iki nəfər Rəsulullahın ﷺ yanında söyüşməyə başlayır. Onlardan biri elə qəzəblənir ki, boyun damarları şişir və üzü qıpqırmızı olur. Onda Peyğəmbər ﷺ belə buyurur: **"Mən elə bir kəlmə bilirəm ki, əgər o, bunu desə, qəzəb hissi ondan gedər! Əgər o: "Məlun şeytandan Allaha sığınıram!"– desə, qəzəb hissi ondan gedər."** "Şeytandan Allaha sığınaram"– deyir, çünki onu qəzəblənməsi, şeytandandır. Elə buna görə də, biz qəzəblənən adama tövsiyə edirik ki, özünü ələ alsın, səbir etsin və: "Əuzu billahi minəş-şeytanir-racim!"– deyərək məlun şeytandan Allaha sığınsın. Həmçinin, dəstəmaz da alsın. Çünki dəstəmaz qəzəbi soyudur. Əgər adam qəzəbləndikdə ayaq üstə olarsa, otursun, oturulu vəziyyətdə olarsa, uzansın. Və əgər qəzəbinin artacağından ehtiyat edərsə, o yeri tərk etsin ki, qəzəbinə görə hərəkət edib, sonra da tutduğu işdən peşman olmasın. Müvəffəqiyət Allahdandır.

٤٧ - وعنْ مُعاذ بْنِ أَنَسٍ ؓ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَنْ كَظَمَ غيظاً، وهُو قَادِرٌ عَلَى أَنْ يُنْفِذَهُ، دَعَاهُ اللَّهُ سُبْحانَهُ وتَعالَى عَلَى رُؤُوسِ الْخلائقِ يَوْمَ الْقِيامَةِ حَتَّى يُخَيِّرَهُ مِنَ الْحُورِ الْعِينِ مَا شَاءَ» رواه أَبُو داوُدَ، والتِّرْمِذيُّ وقال: حديثٌ حسنٌ.

**47.** Muaz ibn Ənəs ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim qəzəbini icra etməyə qadir olduğu halda onu boğarsa, pak və uca Allah Qiyamət günü onu bütün məxluqatın gözü önündə onu çağırar və ona hurilərdən dilədiyini seçməsini buyurar."

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş və Tirmizi onun: "həsən-hədis" olduğunu demişdir.[1]

٤٨ - وعنْ أَبِي هُرَيْرَةَ ؓ أَنَّ رَجُلاً قَالَ للنَّبِيِّ ﷺ: أَوْصِني، قَالَ: «لا تَغضَبْ» فَرَدَّدَ مِراراً قَالَ، «لا تَغْضَبْ» رواه البخاريُّ.

---

[1] Sunən Əbu Davud, 4777; Sunən ət-Tirmizi, 2021. Tirmizi: "Bu, həsən hədisdir"– demişdir. Sunən İbn Macə, 4186; Musnəd İmam Əhməd, 3/440; Şeyx Albani "Səhih əl-cami" əsərində, 6518, bu hədisi həsən hesab etmişdir.

**48.** Əbu Hureyradan ﷺ rəvayət edilir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Mənə nəsihət et!" Peyğəmbər ﷺ: "Qəzəblənmə!"– deyə buyurdu. Adam bunu bir neçə dəfə təkrar etdi. Peyğəmbər ﷺ ona *yenə*: "Qəzəblənmə!"– deyə buyurdu."

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

٤٩ - وَعَنْ أبي هُرَيْرَةَ رَضِيَ اللهُ عَنْهُ قال: قال رسولُ اللَّهِ ﷺ: «مَا يَزَال الْبَلاءُ بِالْمُؤْمِنِ وَالْمُؤمِنَةِ فِي نَفْسِهِ وَوَلَدِهِ ومَالِهِ حَتَّى يَلْقَى اللَّه تعالى وَمَا عَلَيْهِ خَطِيئَةٌ» رواه التِّرْمِذيُّ وقال: حديثٌ حسنٌ صحِيحٌ.

**49.** Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Mömin kişi və mömin qadın, günahsız halda Allahın hüzuruna çıxanadək, canından, övladından və malından bəla əskik olmaz." Bu hədisi Tirmizi rəvayət etmiş və "hədis həsən-səhihdir" demişdir.[2]

**Şərh:**

Səbir mövzusundaki bu hədislər, səbrin nə dərəcədə fəzilətli olduğunu göstərir. Muaz ibn Ənəsin ﷺ rəvayət etdiyi birinci hədisdə Peyğəmbər ﷺ: **"Kim qəzəbini icra etməyə qadir olduğu halda onu boğarsa, pak və uca Allah Qiyamət günü onu bütün məxluqatın gözü önündə onu çağırar"**– demişdir. Hədisdə keçən "ğayz" kəlməsi, şiddətli qəzəb mənasını ifadə edir. Qəzəbli insan o kəsdir ki, istədiyini edəcəyinə gücünün yetdiyini güman edir. Çünki istədiyini etməyə gücü yetməyən adam qəzəblənməz, sadəcə üzülər. Elə buna görə də, uca Allahın qəzəbləndiyini demək olar, üzüldüyünü isə demək olmaz. Çünki üzülmək naqis sifətdir, lazım gəldikdə qəzəblənmək isə kamil sifətdir. Əgər adam, birisinə qəzəblənib onu öldürməyə qadir olduğu halda, onu Allah rizası üçün buraxar və özündə qəzəb doğuran o hadisəyə səbir edərsə, ona bu böyük mükafat verilər: Qiyamət günü yaradılanların gözü önündə çağırılar və ona hurilərdən dilədiyini seçmək imkanı verilər.

---

[1] Səhih əl-Buxari, 6116.

[2] Sunən ət-Tirmizi, 2399. Tirmizi: "Bu, həsən-səhih hədisdir"– demişdir. Musnəd İmam Əhməd, 2/287; 450; Silsilə əl-Əhadis əs-Səhihə, 2280.

Əbu Hureyrənin (رضي الله عنه) rəvayətinə gəlincə, bu hədisdə xəbər verilir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib: “Mənə nəsihət et”– deyir. Peyğəmbər ﷺ də ona: “Qəzəblənmə!”– deyə cavab verir. Adam bu sualı bir neçə dəfə təkrar etsə də, Peyyğəmbər ﷺ ona: “Qəzəblənmə”– deyir. Bu hədis barədə daha öncə danışmışıq.

Üçüncü hədis də, həmçinin, dəllildir ki, insanın başına müsibət gəldikdə, buna səbir edib mükafatını Allahdan umarsa, Allah onun günahlarını silər. İnsanın öz canına, yaxud övladına və ya malına bir müsibət üz verdikdə, səbir edərsə, uca Allah ona müsibətlər göndərməyə davam edər ki, onun heç bir günahı qalmasın! Bu hədis dəlildir ki, insanın öz canına, yaxud övladına və ya malına üz verən müsibətlər onun günahlarının silinməsinə, beləliklə də, dünyadan günahsız və tərtəmiz getməsinə vəsilədir. Bu, səbir edən adama aiddir. Lakin əgər adam başına gəlmiş müsibətə qəzəblənərsə, o zaman Allahın qəzəbinə uğrayar. Müvəffəqiyyət Allahdandır.

٥٠ - وَعَنْ ابْنِ عَبَّاسٍ (رضي الله عنهما) قال: قَدِمَ عُيَيْنَةُ بْنُ حِصْنٍ فَنَزَلَ عَلَى ابْنِ أَخِيهِ الْحُرِّ بْنِ قَيْسٍ، وَكَانَ مِنَ النَّفَرِ الَّذِينَ يُدْنِيهِمْ عُمرُ (رضي الله عنه)، وَكَانَ الْقُرَّاءُ أَصْحابَ مَجْلِسِ عُمَرَ (رضي الله عنه) وَمُشَاوَرَتِهِ، كُهولاً كَانُوا أَوْ شُبَّاناً، فَقَالَ عُيَيْنَةُ لابْنِ أَخِيهِ: يَا ابْنَ أَخِي، لَكَ وَجْهٌ عِنْدَ هَذَا الأَمِيرِ فَاسْتَأْذِنْ لِي عَلَيْهِ، فاستأذنَ، فَأَذِنَ لَهُ عُمرُ. فَلَمَّا دخلَ قَالَ: هِيْ يا ابْنَ الْخَطَّاب، فَوَاللَّه مَا تُعْطِينَا الْجَزْلَ وَلا تَحْكُمُ فِينَا بِالْعَدْل، فَغَضِبَ عُمَرُ (رضي الله عنه) حتَّى هَمَّ أَنْ يُوقِعَ بِهِ، فَقَالَ لَهُ الْحُرُّ: يا أَمِيرَ الْمُؤْمِنِينَ، إِنَّ اللَّه تعالى قَال لِنبِيِّهِ ﷺ: ﴿خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ﴾ [ سورة الأعراف: ١٩٩ ]، وإِنَّ هَذَا مِنَ الجاهلينَ، وَاللَّه ما جاوَزَها عُمَرُ حِينَ تلاها، وكَانَ وَقَّافاً عِنْد كِتَابِ اللَّهِ تعالى. رواه البخاري.

**50.** Rəvayət edilir ki, İbn Abbas (رضي الله عنهما) demişdir: “Uyeynə ibn Hisn *Mədinəyə* gəldi və qardaşı oğlu Hurr ibn Qeysin evində qonaq qaldı. Hurr ibn Qeys Ömərin (رضي الله عنه) yaxın adamlarından (məşvərət əhlindən) idi. Yaşlı və ya cavan olmasından asılı olmayaraq, qarilər, Ömərin məclis və məşvərət əhlindən idilər. Uyeynə qardaşı oğluna dedi: “Qardaş oğlu,

sənin bu əmirin yanında hörmətin var. Onun hüzuruna çıxmağım üçün izn istə." Hurr izn istədi, Ömər də izn verdi. Adam Ömərin hüzuruna daxil olduqda dedi: "Ay-hay, ey Xattabın oğlu! Vallahi, sən bizə bol-bol vermirsən və barəmizdə ədalətlə hökm çıxarmırsan." Ömər qəzəbləndi, hətta onu cəzalandırmaq istədi. Onda Hurr Ömərə belə dedi: "Ey möminlərin əmiri! uca Allah Peyğəmbərinə ﷺ belə buyurmuşdur: **"Sən bağışlama *yolunu* tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər."**[1] Bu adam, həqiqətən, cahildir." Vallahi, Hurr bu ayəni oxuduqda, Ömər ayəyə qarşı getmədi. Çünki o, uca Allahın kitabına son dərəcə sayğı göstərərdi."

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

**Şərh:**

Müəllif ﷺ hələ də səbir etməyə və qəzəbi boğmağa dəlalət edən hədisləri zikr etməkdə davam edir. O, İbn Abbasın ﷺ, Peyğəmbərdən ﷺ və ilk xəlifə olan Əbu Bəkrdən ﷺ sonra müsəlman ümmətinin üçüncüsü olan möminlərin əmiri Ömər ibn əl-Xattab ﷺ haqqında rəvayət etdiyi bu hədisi zikr etmişdir. Ömər ﷺ İslamın ikinci xəlifəsidir. O, xalq arasında ədalətlə hökm verməsi və haqq qarşısında təvazökarlıq göstərməsi ilə tanınmışdır. Hətta bəzən elə olurdu ki, qadın xeylağı ona Allahın Kitabından bir ayə xatırladır, o da buna etinasız yanaşmaz və ayənin tələbini yerinə yetirərdi. Bir gün qəbilə böyüklərindən biri Uyeynə ibn Hisn onun yanına gəlib: "Ay-hay, ey Xattabın oğlu!"– deyə ona xitab etdi. Bu üslub adətən, bir məsələdə etiraz etmək və xitab olunan adamı qanamq üçün istifadə edilirdi. Adam ona: "Vallahi, sən bizə bol vermirsən və barəmizdə ədalətlə hökm çıxarmırsan"– dedi. Bu adamın, ədaləti ilə məşhur olan bir xəlifəyə dediyi bu sözə baxın! Halbuki, İbn Abbasın ﷺ dediyi kimi: "Ömərin məclisində qarilər iştirak edərdilər" – Rəsulullahın ﷺ səhabələrindən olan qarilər. Bu qarilər istər yaşlı, istərsə də gənc olsunlar, Ömər ﷺ onlarla məşvərət edər və onlara öz məclisində yer verərdi. Əlbəttə ki, hər bir əmir və xəlifənin oturub-durduğu kimsələr əməlisaleh insanlar olmalıdır. Belə ki,

---

[1] əl-Əraf, 199.

[2] Səhih əl-Buxari, 4642.

yaxın adamları əməlisaleh olmadığı təqdirdə, həm özü həlak olar, həm də ümmətini həlak edər. Və əgər Allah əmirə əməlisaleh insanları dost edərsə, bu əmir vasitəsilə ümmətə fayda verər. Elə buna görə də, müsəlmanların ixtiyar sahibinə vacibdir ki, oturub-durduğu və məşvərət etdiyi kimsələr elm və iman əhli olsun. Səhabələrin də arasında Quranı yaxşı bilənlər elm əhli sayılırdı. Çünki onlar, on ayə əzbərlədikdən sonra onların mənasını öyrənib onların tələblərini yerinə yetirməyincə o biri ayələrə keçməzdilər. O adam Ömərə: "bol vermirsən və barəmizdə ədalətlə hökm çıxarmırsan"– deyəndə, Ömər elə qəzəbləndi ki, az qala onu vuracaqdı. Lakin Uyeynə ibn Hisnin qardaşı oğlu Hurr ibn Qeys ona: "Ey möminlərin əmiri! Uca Allah Peyğəmbərinə ﷺ belə buyurmuşdur: **"Sən bağışlama *yolunu* tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər."**[1] Bu adam, həqiqətən, cahildir"– dedi. Ömər bu ayəni eşitdikdə, dayandı və ayəyə qarşı çıxmadı. Çünki o, Allahın kitabına son dərəcə sayğı göstərən bir adam idi. O, bu ayədə buyurulana tabe olduğuna görə, o adamı nə vurdu, nə də cəzalandırdı. Səhabələrin ﷺ Qurana olan ehtiramlarına baxın! Onlara: "Allah belə buyurur!"– deyildikdə, nə olursa olsun, dayanır və Allahın kitabına qarşı çıxmırlar.

**"Sən bağışlama *yolunu* tut...",** yəni insanları əfv et, onlarla yumşaq davran. Öz haqlarının hamısını əldə etməyə çalışma, çünki buna nail ola bilməyəcəksən. Sən asan olan bağışlama yolunu tut.

**"Yaxşı iş görməyi əmr et...",** yəni şəriətin buyurduğu və insanların yaxşı saydığı işləri əmr et. Şəriətin qadağan etdiyi və insanların yaxşı saymadığı işləri inkar et. Çünki bütün işlər üç qismə bölünür:

1-cisi pis işlərdir ki, onların qadağan edilməsi vacibdir;

2-cisi yaxşı işlərdir ki, onların yerinə yetirilməsini əmr etmək vacibdir;

3-cüsü isə nə pis, nə də yaxşı sayılan işlərdir ki, onlar barədə susmaq gərəkdir.

Lakin nəsihətimiz budur ki, adam danışanda ancaq xeyirli sözlər danışsın. Çünki Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun."**[2]

---

[1] əl-Əraf, 199.

[2] Səhih əl-Buxari, 6108; Səhih Muslim, 47.

**"Cahillərdən üz döndər",** yəni səninlə cahilcəsinə davranan və sənə qarşı həddini aşan kimsədən üz çevir. Təbii ki, əgər sənin bu hərəkətin, rəzil olmaq və alçalmaq sayılmayacaqsa... Bu hadisədə Ömər ibn əl-Xattabın ﷺ etdiyi kimi. Belə ki, bu hərəkəti, rəzil olmaq və alçalmaq anlamına gəlmir. Çünki o, etiraz edən bu adamı cəzalandırmağa qadir idi, lakin Allahın əmrinə tabe olub cahildən üz çevirmişdir. Cəhalət sözünün iki mənası var:

**Birincisi**, bir şey haqqında məlumatın olmamasıdır;

**İkincisi** isə, səfehlik etmək və həddi aşmaqdır. Cahiliyyə dövrünün şairlərindən birinin sözü də bu mənadadır.

> Heç kəs bizə qarşı əsla cahillik etməsin ki,
> Biz də bundan daha betər cahillik edərik.[1]

Yəni, kimsə bizə qarşı səfehlik edib həddini aşmasın ki, biz ona qarşı daha betərini etməyək. Təbii ki, bu, cahiliyyə dövrünün şeiridi. İslam əxlaqına uyğun olanı isə uca Allahın bu əmridir: **"Yaxşılıqla pislik eyni ola bilməz. Sən *pisliyi* yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar."[2]** Subhanəllah! Səninlə ədavət aparan bir adam sənə bir pislik etdikdə, sən bu pisliyi yaxşılıqla dəf et. Belə edən kimi, dərhal savab və mükafat qazanacaqsan. Ayədə: **"yaxın bir dost"** deyildikdə, son dərəcə yaxın və əziz bir dost qəsd edilir. Bu sözü, qəlbləri çevirən Allah azzə və cəllə deyir. Hər bir insanın qəlbi, ər-Rəhmanın iki barmağı arasındadır və O, onu istədiyi tərəfə yönəldir. Odur ki, sənə ədavət bəsləyən kimsəyə sən gözəl şəkildə cavab verdikdə, onun ədavəti dostluğa çevrilir.

Xülasə budur ki, **"Sən bağışlama *yolunu* tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər."[3]** ayəsi möminlərin xəlifəsi Ömər ibn əl-Xattaba ﷺ oxunduqda, dayanmış və o adamı cahilliyinə görə cəzalandırmamışdır. Biz də, həmçinin, bizi qəzəbləndirəcək və özümüzdən çıxardacaq belə hallarla qarşılaşdıqda, Allahın kitabını və Peyğəmbərinin ﷺ sünnəsini yada salmalıyıq ki, Allahın və Peyğəmbərinin ﷺ gös-

---

[1] Bu, Amr ibn Kulsumun şeiridir (əl-Bəyan vəl-Bədi, 1/202).

[2] Fussilət, 34.

[3] əl-Əraf, 199.

tərdiyi yoldan kənara çıxmayaq. Belə ki, Allahın göstərdiyi yolla gedən kimsə yolunu azmaz: **"Kim Mənim doğru yol göstərən *bələdçimin* ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar."**[1] Müvəffəqiyyət Allahdandır.

٥١ - وعَن ابْنِ مسْعُودٍ رضي الله عنه أنَّ رسولَ اللَّه ﷺ قال: «إنَّهَا سَتكُونُ بَعْدِى أَثَرَةٌ وَأُمُورٌ تُنْكِرونَها! قَالُوا: يا رسُولَ اللَّهِ، فَما تَأمرُنا؟ قالَ: تُؤَدُّونَ الْحقَّ الَّذي عَلَيْكُمْ، وتَسْألُونَ اللَّه الذي لكُمْ» متفقٌ عليه.

« والأَثَرَةُ »: الانفرادُ بالشيْءِ عمَّنْ لَهُ فيهِ حقٌّ.

**51.** İbn Məsud رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Məndən sonra xudbinlik və xoşunuza gəlməyən işlər olacaq." Səhabələr: "Ya Rəsulullah, *belə vəziyyətdə* bizə nə etməyi əmr edirsən?"– dedilər. O da belə buyurdu: "Öhdənizə düşən haqları yerinə yetirin, öz haqlarınızı da Allahdan istəyin!"

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[2]

Xudbinlik: haqqı çatan bir şeyin yalnız özündə olmasını istəmək, *ancaq özünü, öz mənafeyini düşünmək.*

٥٢ - وَعن أبي يحْيَى أُسَيْدِ بْنِ حُضَيْرٍ رضي الله عنه أَنَّ رَجُلاً مِنَ الأَنْصَارِ قال: يا رسولَ اللَّهِ، أَلا تَسْتَعْمِلُني كَمَا اسْتْعْملتَ فُلاناً؟ فَقَالَ: «إِنَّكُمْ سَتَلْقَوْنَ بَعْدي أَثَرَةً فاصْبِرُوا حَتَّى تلقَوْنِي علَى الْحوْضِ» متفقٌ عليه.

**52.** Əbu Yəhya Useyd ibn Hudeyr رضي الله عنه rəvayət edir ki, *bir dəfə* ənsardan bir kişi *Peyğəmbərin* ﷺ *yanına gəlib* dedi: "Ya Rəsulullah, filankəsi vəzifəyə təyin etdiyin kimi, məni də vəzifəyə təyin edə bilərsənmi?" Peyğəmbər ﷺ dedi: "Məndən sonra xudbinliklə qarşılaşacaqsınız. Fəqət siz, hovuz başında mənimlə görüşənədək səbir edin!"

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[3]

---

[1] Ta ha, 123.
[2] Səhih əl-Buxari, 7052; Səhih Muslim, 1843.
[3] Səhih əl-Buxari, 7057; Səhih Muslim, 1845.

**Şərh:**

Müəllif ﷺ Abdullah ibn Məsudun ﷺ və Useyd ibn Hudeyrin ﷺ rəvayət etdiyi bu iki hədisi, səbir mövzusuna aid olduğuna görə fəsildə zikr etmişdir. İbn Məsudun ﷺ rəvayətinə gəlincə, həmin hədisdə Peyğəmbər ﷺ: **"Məndən sonra** xudbinlik **olacaq"**– demişdir. Hədisdə ərəbcə "əsərə"– deyildikdə, bir şeyi haqqı olan insana verməyib mənimsəməkdir. Yəni, vaxt gələcək müsəlmanlar üzərində elə rəhbərlər olacaq ki, onlar müsəlmanların mallarını mənimsəyəcək, sonra da bu malları istədikləri kimi xərcləyəcək və müsəlmanları o maldakı haqlarından məhrum edəcəklər. Bu, o rəhbərlər tərəfdən xudbinlik və haqsızlıqdır. Belə ki, müsəlmanların haqqı olan mallara əl qoyacaq və onları müsəlmanlara yox, özlərinə xərcləyəcəklər.

Onda səhabələr **"Ya Rəsulullah, bizə nə etməyi əmr edirsən?"**– dedilər. Peyğəmbər ﷺ də belə buyurdu: **"Öhdənizə düşən haqları yerinə yetirin."** Yəni onların bu haqsızlıqları sizin onları eşidib itaət etmək, onlara qarşı haqsızlıq etməmək və onlara qarşı üsyan qaldırmaq kimi öhdənizə düşən vəzifələrinizi yerinə yetirməyə mane olmasın. Əksinə, siz səbir edin, onların əmr və qadağalarını eşidib itaət edin və Allahın onlara verdiyi idarəçilik xüsusunda çəkişməyin.

**"...öz haqlarınızı da Allahdan istəyin!"** Yəni, Allahdan onlara hidayət verməsini diləyin ki, onlar da sizə qarşı öhdəliklərini yerinə yetirib sizin haqlarınızı ödəsinlər. Bu, Peyğəmbərin ﷺ müdrik insan olduğunu göstərir. O, həqiqətən də, insanların tamahkar olduqlarını və onların haqlarını yeyən kimsələrə qarşı səbir edib susmayacaqlarını bildiyinə görə, ümmətini, özləri üçün xeyirli ola biləcək işi görməyə təşviq etmişdir. Bu da, rəhbərləri eşidib itaət etmək və onların idarəçiliyinə müdaxilə etməmək və başqa bu kimi onların haqlarına aid işlərdə üzərimizə düşən öhdəliyi yerinə yetirməyimiz və bizim haqlarımızı ödəmələri üçün Allaha dua etməyimizdir. Əgər biz: "Allahım, onlara hidayət ver ki, bizim haqqımızı ödəsinlər!"– deyə dua etsək, bu bizim üçün ikitərəfli xeyir olar.

Bu hədisdə, Peyğəmbərimizin ﷺ, həqiqətən də, Allahın elçisi olduğuna dəlil var. Belə ki, o, gələcəkdə baş verəcək hadisə haqqında xəbər

vermiş və bu, onun dediyi kimi olmuşdur. Belə ki, qədimdən bəri xəlifələr və əmirlər, müsəlmanların mallarına əl qoyublar. Tarixə baxanda, onların israfa yol verərək yeyib-içdiklərini, israfa yol verərək geyim geydiklərini, israfa yol verərək saraylar tikdirdiklərini və israfa yol verərək miniklər mindiklərini görürük. Onlar öz şəxsi mənafeləri üçün insanların mallarını mənimsəmişlər. Lakin bu, onlara itaətsizlik etməyimizə və ya onlara qarşı çıxmağımıza rəvac verməməlidir. Əksinə, öz haqqımızı Allahdan istəməli, öhdəmizə düşən vəzifələri də yerinə yetirməliyik.

Bu hədisdən o da aydın olur ki, belə haqsızlıqlarla üzləşdikdə hikmətlə davranmaq gərəkdir. Şəkk yoxdur ki, rəhbərlərin xalqın malını mənimsəmələri, xalqın hakimiyyətə qarşı qalxmasına və öz haqlarını tələb etməsinə rəvac verir. Lakin Rəsulullah ﷺ bizə, bu haqsızlıqlara səbir etməyi, üzərimizə düşən öhdəlikləri yerinə yetirməyi və haqqımızı Allahdan istəməyi əmr etmişdir.

Useyd ibn Hudeyrin رضي الله عنه rəvayət etdiyi hədis də, Abdullah ibn Məsudun رضي الله عنه hədisi kimidir. Bu hədisdə də Peyğəmbər ﷺ haqsızlıqlar olacağını xəbər vermiş, lakin: **"Hovuz başında mənimlə görüşənədək səbir edin!"**– demişdir. Yəni, əgər səbir edib rəhbərlərinizə qarşı çıxmasanız, mənimlə hovuz başında görüşəcəksiniz. Yəni, səbir etsəniz, Allah, səbrinizin sayəsində sizə mükafat olaraq, Peyğəmbərinin ﷺ hovuzundan su içməyi nəsib edəcək. Allahım, hamımızı Peyğəmbərin ﷺ hovuzunun başına toplaşan və ondan su içən qullarından et! Qiyamət günü bu hovuz, insanların suya ən çox ehtiyac duyduqları bir yerdə və zamanda olacaq. Çünki insanlar, həmin məkanda, həmin zamanda, axirət günündə qəm, kədər və hüzn, üstəlik, dəhşətli istidə qan-tər içində olacaqlarından dolayı suya daha çox ehtiyac duyacaqlar. Həmin vaxt möminlər, həm uzunluğu, həm də eni bir aylıq gedilən məsafə qədər olan, Peyğəmbərin ﷺ əzəmətli hovuzunun yanına gələcəklər. Bu hovuza Kövsərdən iki arx vasitəsilə su axıb töküləcək. Kövsər, Cənnətdə Peyğəmbərimizə ﷺ bəxş edilmiş bir çaydır. Bu hovuza axan su, süddən ağ, baldan şirin və ətirdən daha xoş iyli olacaq. Hovuzun başında ulduzlar qədər parlaq, gözəl və çox sayda qədəhlər olacaq. Bu

sudan bir qurtum içən kimsə bir daha susamayacaq. Allahım, bizi o sudan içəcək qullarından et!

Bu hədisdə Peyğəmbər ﷺ öz ümmətinə görəcəkləri haqsızlıqlara səbir etmələrini tövsiyəsini etmişdir. Çünki rəhbərlərin zülmünə səbir etmək, hovuzun yanına yetişmək və onun suyundan içmək üçün bir vəsilədir.

Bu iki hədis müsəlmanları, rəhbərlərin xalqa qarşı etdiyi haqsızlıqlar qarşısında səbir etməyə təşviq edir. Ancaq bilməliyik ki, insanlar hər bir halda özlərinə layiq rəhbərlər tərəfindən idarə edilirlər. Və əgər onlar Allah ilə olan münasibətlərini korlayarsa, Allah onları rəhbərlərin zülmünə məruz qoyar. Bu xüsusda uca Allah belə buyurur: **"Beləcə, qazandıqları *günahlara* görə zalımların bir qismini digərlərin üzərində hakim təyin edərik."**[1] Dolayısıyla, xalq əməlisaleh olarsa, Allah onlara əməlisaleh rəhbərlər nəsib edər. Bunun əksi olduğu təqdirdə isə, Allah onlara zalım hökmdarlar nəsib edər.

Rəvayət edilir ki, xəvariclərdən[2] biri Əli ibn Əbu Talibin رضي الله عنه yanına gəlib deyir: "Ey Əli, niyə insanlar sənə qarşı çıxırlar. Lakin Əbu Bəkr və Ömərə qarşı çıxmırdılar?" Əli رضي الله عنه də ona belə cavab verir: "Çünki Əbu Bəkr رضي الله عنه və Ömərin رضي الله عنه tərəfdarları, mən və mənim kimilər idi. Mənim yanımdakılar isə sən və sənin kimilərdir!" Yəni xeyirsiz insanlardır.

---

[1] əl-Ənam, 129.

[2] Xəvaric, ərəbcə xərəcə ( خرج ) felindən əmələ gəlmiş xarici sözünün cəmidir. Xərəcə: xaric olmaq, xarici isə xaric olan deməkdir. "Xarici" deyildikdə, müsəlman camaatından ayrılıb, özünə dəstə yaradan və ya yaranmış belə bir dəstəyə qoşulan, dəlil-sübutsuz olaraq böyük günah sahibini kafir sayan və şəriətə zidd olan digər əxlaqları özündə cəm edən fasiqlər nəzərdə tutulur. Bu firqə – müsəlmanlar arasında meydana gəlmiş ilk firqədir. Onlar Allahın razı qaldığı, Cənnətlə müjdələnmiş, İslam üçün canından və malından keçmiş, ölənədək Peyğəmbərə ﷺ sadiq olmuş Osman رضي الله عنه və Əli رضي الله عنه kimi iki böyük səhabəni kafir sayıb şəhid etmişlər. Bunlar böyük günah işlətmiş müsəlmanları kafir hesab edən və onların qanını halal sayan firqədir. Peyğəmbər ﷺ Xəvaricləri vəsf edərkən demişdir: "Axır zamanda yaşları az, beyinləri küt olan kimsələr gələcəklər", "Onlar Allahın Kitabını məlahətli səslə oxuyacaq, lakin oxuduqları xirtdəklərindən o yana keçməyəcəkdir. Ox öz ovunu dəlib keçdiyi kimi onlar da İslamdan çıxacaqlar", "Onlar bütpərəstləri qoyub müsəlmanları öldürəcəklər." (Bax: Səhih əl-Buxari, 3611-ci, 4351-ci və 6880-ci hədislər).

O insanlar ki, Əli ibn Əbu Talib رضي الله عنه haqqında pis fikirlərə düşüb ona qarşı üsyan etmiş, axırda da onu şəhid etmişlər.

Həmçinin, rəvayət edilir ki, Əməvi hökmdarlarından biri, – güman edirəm ki, bu, Abdulməlik ibn Mərvan idi, – camaatın onun özü haqqında dediklərini eşitdikdə, onların əşrəflərini bir yerə toplayıb onlara belə xitab edir: "Ey insanlar! Siz istəyirsiniz ki, biz sizə qarşı Əbu Bəkr və Ömər رضي الله عنهما kimi olaq?" Onlar: "Bəli!"– deyə cavab verdikdə, o dedi: "Əgər həqiqətən bunu istəyirsinizsə, onda siz də, bizə qarşı Əbu Bəkr və Ömərin رضي الله عنهما yanındakılar kimi olun!" Bəli... uca Allah hikmət sahibidir. İnsanlara, onların əməllərinə görə rəhbərlər təyin edir. Hərgah onlar pis əməllər etdikdə, rəhbərlərdən pis rəftar görər, yaxşı işlər gördükdə isə, rəhbərlər onlara qarşı yaxşı rəftar edərlər.

Lakin bununla belə, şəkk yoxdur ki, əsas rəhbərin özünün əməlisaleh olmasıdır. Əgər rəhbər öz əməllərini islah edərsə, rəiyyət də düzələr. Çünki rəhbərin əlində, yolunu azmış insanları düz yola gətirmək və zalım adamların da zülmünə son qoymaq üçün hökmranlıq vardır. Müvəffəqiyyət Allahdandır.

٥٣ - وَعنْ أبي إِبْراهيمَ عَبْدِ اللَّه بْنِ أبي أَوْفى رضي الله عنهما أَنَّ رسولَ اللَّه ﷺ في بعْضِ أَيَّامِهِ التي لَقِيَ فِيهَا الْعدُوَّ، انْتَظرَ حَتَّى إِذَا مَالَتِ الشَّمْسُ قَامَ فِيهِمْ فَقَالَ: «يَا أَيُّهَا النَّاسُ، لا تَتَمنَّوا لِقَاءَ الْعدُوِّ، وَاسْأَلُوا اللَّه العَافِيَةَ، فَإِذَا لقيتُموهم فاصْبرُوا، وَاعْلَمُوا أَنَّ الْجَنَّةَ تَحْتَ ظِلاَلِ السُّيُوفِ» ثُمَّ قَالَ النَّبِيُّ ﷺ: «اللَّهُمَّ مُنْزِلَ الْكِتَابِ وَمُجْرِيَ السَّحَابِ، وَهَازِمَ الأَحْزَابِ، اهْزِمْهُمْ وَانْصُرْنا عَلَيْهِمْ». متفقٌ عليه وباللَّه التَّوْفيقُ.

**53.** Əbu İbrahim Abdullah ibn Əbu Əufə رضي الله عنه rəvayət etmişdir ki, Rəsulullah ﷺ düşmənlə qarşılaşdığı günlərin birində gün batmağa meyil edənədək gözlədi, sonra camaatın arasında ayağa qalxıb: "Ey insanlar, düşmənlə qarşı-qarşıya gəlməyi arzulamayın, Allahdan salamatlıq diləyin! Düşmənlə qarşı-qarşıya gəldikdə isə səbir edin və bilin ki, Cənnət qılıncların kölgələri altındadır"– dedi, sonra da dua etdi: "Kitabı nazil edən, buludları hərəkət etdirən və müttəfiqlərin toplumunu darmadağın edən Allahım, onları darmadağın et və onlara qələbə çalmaqda bizə kömək et!"

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1] Allah müvəffəq etsin.

**Şərh:**

Müəllifin ﷬ Abdullah ibn Əbu Əufədən ﷛ nəql etdiyi rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ döyüşlərin birində gün batmağa meyil edənədək gözlədi. Gözləməyinin səbəbi bu idi ki, havanın hərarəti azalsın, kölgələr artsın və camaat fəal olsun. Peyğəmbər ﷺ gün batmağa meyil edənədək gözlədikdən sonra ayağa qalxıb camaata xütbə verdi. Rəsulullah ﷺ səhabələrinə davamlı olaraq cümə xütbələri kimi xütbələr verərdi. Bu cür xütbələri ehtiyac olduqda qalxıb nəsihət edərdi. Onun belə xütbələri olduqca çoxdur. Bu döyüşdə də belə nəsihət etmişdir: **"Düşmənlə qarşı-qarşıya gəlməyi arzulamayın"**, yəni insan, düşmənlə qarşılaşmağı arzulayaraq: "Allahım, məni düşmənlə qarşılaşdır!"– deyə dua etməməlidir.

**"Allahdan salamatlıq diləyin!"**, "Allahım, məni salamat et!" – deyin.

**"Düşmənlə qarşı-qarşıya gəldikdə..."**, yəni bununla sınağa çəkildikdə, **"səbir edin."** Hədisin fəsilə aid olan hissəsi bu cümlədir. Yəni onlarla döyüşdə səbir edin, Allahdan yardım diləyin və Allahın kəlməsinin ən uca olması üçün döyüşün.

**"Bilin ki, Cənnət qılıncların kölgələri altındadır."** Allahdan Onun lütfünü diləyirik. Əlbəttə ki, Cənnət, Allah yolunda cihad edənlərin daşıdığı qılıncların kölgələri altındadır. Belə ki, Allah yolunda vuruşan mücahid, şəhid edildikdə Cənnətlik olur. Bu xüsusda uca Allah belə buyurur: **"Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, *onlar* diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər. Onlar Allahın neməti və lütfünə görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə sevinirlər."**[2] Şəhid, Allah yolunda öldürüldükdə, aldığı yaranın və ya vurulan zərbənin ağrısını hiss etmir. Sanki heç bir

---

1 Səhih əl-Buxari, 2965-2966; Səhih Muslim, 1742.

2 Ali-İmran, 169-171.

şey olmamış kimi, sadəcə ruhu dünyadan köçüb əbədi nemətlərə qovuşur. Allahım, Səndən Öz lütfünü diləyirik. Elə buna görə də Rəsulullah ﷺ: "**Bilin ki, Cənnət qılıncların kölgəsi altındadır"**– demişdir. Odur ki, səhabələrdən Ənəs ibn ən-Nədr رضي الله عنه: "Mən Cənnətin iyini Uhuddan daha yaxında hiss edirəm"– demişdir.[1]

Baxın, uca Allah onun iybilmə orqanının fəaliyyətini nə dərəcədə gücləndirmişdirsə, onun sayəsində Cənnətin iyini Uhuddan daha yaxında hiss etmiş, sonra da şəhid olanadək döyüşmüşdür. O, səksəndən çox qılınc, nizə və ox yarası almış, axırda da şəhid olmuşdur. Elə buna görə də Peyğəmbər ﷺ: **"Bilin ki, Cənnət qılıncların kölgəsi altındadır"**– demişdir.

Sonra Peyğəmbər ﷺ belə dua etmişdir: **"Kitabı nazil edən, buludları hərəkət etdirən və müttəfiqlərin toplumunu darmadağın edən Allahım, onları darmadağın et və onlara qələbə çalmaqda bizə kömək et!"** Hər bir mücahid düşmənlə qarşılaşdıqda bu duanı oxumalıdır. Bu duada Peyğəmbər ﷺ Allaha, həm şəri ayələrlə, həm də kainat ayələri ilə təvəssül etmişdir. Əvvəlcə Allahın Kitab nazil etməsi ilə təvəssül etmişdir ki, burada "Kitab" deyildikdə, Qurani Kərim və ya nazil edilmiş bütün kitablar qəsd edilir. Odur ki, burada ümumiyyətlə nazil edilmiş səmavi kitablar qəsd edilir. Yəni "Muhammədə və başqa peyğəmbərlərə kitablar nazil edən Allahım!"

**"Buludları hərəkət etdirən",** bu da kainata aid olan bir ayədir. Çünki göylə yer arasında əmrə tabe olan buludları hərəkət etdirən yalnız Allahdır. Əgər yer üzündəki insanların hamısı bir yerə toplaşıb, öz alətləri və cihazları ilə buludları hərəkətə gətirmək və ya onların istiqa-

---

[1] Rəvayət edilir ki, Ənəs ibn Malik رضي الله عنه demişdir: "Əmim Ənəs ibn ən-Nədr Bədr döyüşündə iştirak etməmişdi deyə, Peyğəmbərə ﷺ dedi: "Ya Rəsulullah! Mən sənin müşriklərə qarşı apardığın ilk döyüşdə iştirak etməmişəm. Allah *nə vaxtsa* onlara qarşı döyüşməyi mənə nəsib edərsə, mənim necə vuruşacağımı görəcək." Uhud döyüşündə müsəlmanlar məğlub olarkən əmim dedi: "Allahım, mən bunların – yəni səhabələrin – etdikləri *səhvə* görə Səndən bağışlanma diləyirəm, onların – yəni müşriklərin – etdikləri *günahlardan da* Sənə sığınıram!" Sonra o, döyüşə atıldı. *İrəlidə o,* Səd ibn Muazla rastlaşdıqda ona belə dedi: "Ey Səd ibn Muaz! Cənnətə və Nədrin Rəbbinə *qovuşmağa tələsirəm.* Mən Cənnətin iyini Uhuddan daha yaxında hiss edirəm." (Səhih əl-Buxari, 4048; Səhih Muslim, 1903).

mətini dəyişdirmək istəsələr, bunu bacara bilməzlər. Buludları yalnız, bir şeyin olmasını istədikdə ona: "Ol"– deyən Allah hərəkət etdirir.

**"Müttəfiqlərin toplumunu darmadağın edən"**, yəni məhz Allah düşmənin ittifaqını darmadağın etməyə qadirdir. Buna, Allahın Əhzab döyüşündə[1] müttəfiqləri məğlubiyyətə uğratmasını misal çəkmək olar. Bu döyüşdə *kafirlərdən* on mindən çox döyüşçü Rəsulullaha ﷺ qarşı döyüşmək üçün Mədinə ətrafında toplanmışdı. Lakin uca Allah onları darmadağın etdi: **"Allah kafirləri qəzəbli olduqları halda geri qaytardı və onlar heç bir xeyrə nail olmadılar."[2]** Uca Allah onların üzərinə fırtına və gözəgörünməyən əsgərlər göndərdi. Beləliklə, onların ayaqlarının altı titrədi, qazanları dağıldı, çadırları da uçuldu *və iş o yerə gəlib çatdı ki,* bir yerdə qərar tuta bilmədilər. Şərq istiqamətindən elə bir soyuq və şiddətli fırtına qopdu ki, orada qala bilməyib çıxıb getdilər. Bu xüsusda uca Allah belə buyurur: "**"Allah kafirləri qəzəbli olduqları halda geri qaytardı və onlar heç bir xeyrə nail olmadılar. Döyüşdə Allah möminlərə kifayət etdi."[3]** Düşmən ordusunu məğlubiyyətə uğradan insanın gücü deyil, məhz Allahdır. Belə ki, insan gücü sadəcə səbəbdir; bəzən fayda verər, bəzən isə verməz. Bizə sadəcə icazə verilən səbəblərdən tutmaq əmr edilmişdir. Düşmən ordusunu məğlubiyyətə uğradan isə yalnız Allahdır. Bu hədisdə bir neçə fayda vardır:

1-cisi, adam düşmənlə qarşılaşmağı arzulamamalıdır. Lakin bunun şəhidlik arzulamağa heç bir aidiyyəti yoxdur. Şəhidlik arzulamaq caizdir, qadağan deyil, hətta əmr edilən bir şeydir. Düşmənlə qarşılaşmağı arzulamaq isə qadağan edilmişdir. Odur ki, onu arzulamamalıyıq. Çünki Peyğəmbər ﷺ: **"Düşmənlə qarşı-qarşıya gəlməyi arzulamayın"**– demişdir.

2-cisi, adam Allahdan sağlamlıq və salamatlıq diləməlidir. Çünki sağlamlıq və salamatlıq, əvəzi olmayan nemətlərdir. Odur ki, müharibə və düşmənlə döyüşməyi arzulama. Allahdan salamatlıq və dininə zəfər bəxş etməsini istə. Lakin düşmənlə qarşılaşdığın zaman da səbir et.

---

[1] Buna, Xəndək döyüşü də deyilir.

[2] əl-Əhzab, 25.

[3] Əvvəlki mənbə.

3-cü fayda budur ki, adam düşmənlə qarşılaşdıqda onun səbir etməsi vacibdir. Bu xüsusda uca Allah belə buyurur: **"Ey iman gətirənlər! *Kafir* bir dəstə ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız. Allaha və Onun Rəsuluna itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir."**[1]

4-cüsü budur ki, bir ordunun və ya dəstənin sərkərdəsi, əsgərlərə qarşı ürəyiyumşaq olmalı və döyüşə yalnız münasib vaxtda başlamalıdır. Günü, yaxud mövsümü nəzərə alaraq ən uyğun zamanı seçməlidir. Məsələn, yay aylarında döyüşə başlaması məsləhət deyil, çünki həmin vaxt əsgər istidən əziyyət çəkir. Həmçinin, bərk soyuqlarda da döyüşə başlaması məsləhət deyil, çünki bunda da məşəqqət vardır. Əksinə, mümkün olduğu qədər döyüşə, bu ikisinin arasında olan əlverişli mövsümdə – payızda və ya yazda başlamalıdır. Belə ki, bunlar döyüş üçün ən münasib vaxtlardır.

5-cisi, mücahid düşmənlə qarşılaşdıqda Peyğəmbərin ﷺ etdiyi bu duanı etməlidir: **"Kitabı nazil edən, buludları hərəkət etdirən və müttəfiqlərin toplumunu darmadağın edən Allahım, onları darmadağın et və onlara qələbə çalmaqda bizə kömək et!"**

6-cısı, düşmənə məğlubiyyət arzulamaqdır. Çünki onlar, həm sənin, həm də Allahın düşmənidir. Kafir, təkcə sənin düşmənin deyil. O, həm sənin, həm də sənin Rəbbinin, Onun peyğəmbərlərinin, mələklərinin, elçilərinin və hər bir möminin düşmənidir. Demək, kafir hər bir möminin, hər bir elçinin, hər bir peyğəmbərin, hər bir mələyin düşmənidir. Bir sözlə o, düşməndir. Odur ki, gərək Allahdan daim kafir düşmənləri rəzil etməsini, onları məğlubiyyətə uğratmasını və bizə onların üzərində qələbə qazandırmasını diləyəsən.

Müvəffəqiyyət Allahdandır.

---

[1] əl-Ənfal, 45-46.

## Dördüncü fəsil

## Doğruluq

**Mövzu ilə bağlı ayələr:**

Uca Allah belə buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ وَكُونُواْ مَعَ ٱلصَّٰدِقِينَ﴾

**“Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun.”**[1]

﴿وَٱلصَّٰدِقِينَ وَٱلصَّٰدِقَٰتِ﴾

**“Doğru danışan kişilər və doğru danışan qadınlar”**[2]

﴿فَلَوْ صَدَقُواْ ٱللَّهَ لَكَانَ خَيْرًا لَّهُمْ﴾

**“Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı.”**[3]

**Şərh:**

Müəllif رحمه الله demişdir: **“Doğruluq fəsli.”**

Ərəbcə sidq/doğruluq: verilən xəbərin gerçəyə uyğun olmasıdır. Bu, sidq kəlməsinin əsl mənasıdır. Bu da verilən xəbərə aid olur. Doğruluq, verilən xəbərlərdə bu cür olur: Məsələn, bir şey haqqında xəbər versən və dediklərin gerçəyə uyğun olsa: “Şübhəsiz ki, bu doğrudur”– deyilir. Hazırki günün bazar günü olduğunu desən, doğru söyləmiş olursan. Çünki, bu gün həqiqətən də bazar günüdür. Yox, əgər: “Bu gün, bazar ertəsidir” desən, onda bu yalan olar. Demək, verilən xəbər, gerçəyə uyğundursa doğru, deyilsə, yalan sayılır.

Doğruluq, sözdə olduğu kimi feildə də olur. Bu, insanın daxilindəkinin zahirindəkinə uyğun gəlməsidir. Yəni etdiyi əməlin qəlbindəkinə uyğun olmasıdır. Elə buna görə də, məsələn, riyakar adam sadiq/doğ-

---

[1] ət-Tovbə, 119.

[2] əl-Əhzab, 35.

[3] Muhəmməd, 21.

ruçu sayılmır. Çünki zahirdə özünü insanlara ibadət əhli kimi göstərir, lakin qəlbindəki buna uyğun gəlmir. Müşrik də, Allaha qarşı sadiq deyil. Çünki zahirdə özünü tövhid əhli kimi göstərir, lakin qəlbindəki buna uyğun olmur. Münafiq də sadiq deyil. Çünki mömin olmadığı halda zahirdə özünü iman əhli kimi göstərir. Bidətçi də sadiq deyil. Çünki zahirdə özünü Peyğəmbərin ﷺ ardıcılı kimi göstərir, əslində isə ona müxalif olur.

Xülasə budur ki, doğruluq, verilən xəbərin həqiqətə uyğun gəlməsidir ki, bu da, möminin xislətlərindəndir. Yalan isə bunun tam əksidir ki, bu da münafiqin xislətlərindəndir. Bundan Allaha sığınırıq.

Sonra müəllif رحمه الله, mövzu ilə bağlı bir neçə ayə zikr etmişdir:

Zikr etdiyi birinci ayədə uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun."**[1] Bu ayə, Təbuk döyüşündən yayınmış üç nəfərin qissəsindən sonra nazil olmuşdur. Bunlar, Təbük döyüşündən yayınmış Kəb ibn Malik və onun iki dostu idi. Bu haqda əvvəldə danışmışıq.

Bu üç nəfər heç bir üzrləri olmadığı halda o döyüşə qatılmamış və Peyğəmbər ﷺ döyüşdən qayıtdıqda onun yanına gəlib üzrləri olmadığını söyləmişlər. Peyğəmbər ﷺ də barələrində heç bir hökm vermədən onlardan əlaqəni kəsmişdir. Barələrində nazil olmuş: **"Geri qalmış üç nəfəri də *bağışladı*"**– ayəsində: **"geri qalmış"** deyildikdə, barələrindəki hökmün geri qalması, yəni təxirə salınması qəsd edilir. Çünki Rəsulullah ﷺ Təbuk döyüşündən qayıtdıqda, münafiqlər onun yanına gəlib cürbəcür bəhanələr gətirərək və Allaha and içərək üzürlü olduqlarını söyləmişlər. Uca Allah da onlar haqqında bu ayələri nazil etmişdir: **"Yanlarına qayıtdığınız zaman, onlardan əl çəkəsiniz deyə, qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar. Qazandıqları *günahların* cəzası olaraq sığınacaqları yer Cəhənnəm olacaqdır. Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq adamlardan razı qalmaz."**[2]

Bu üç səhabə isə Peyğəmbərə ﷺ doğrunu söyləmiş və döyüşdən yayındıqlarına dair heç bir üzrləri olmadığını bildirmişlər. Peyğəmbər

---

[1] ət-Tovbə, 119.

[2] ət-Tovbə, 95-96.

ﷺ də onların barəsindəki hökmü əlli gün təxirə saldı. *Əllinci gecənin səhəri* uca Allah onların tövbəsini qəbul etdiyini bildirən bu ayəni nazil etdi: **"Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri *kədərdən* sıxılmış və yəqin bilmişdilər ki, Allahın *əzabından*, Onun Özünə sığınmaqdan başqa çarə yoxdur. Sonra *Allah* peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir."**[1] Ardından da belə buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun."**[2] Bu ayədə Allah möminlərə, Allahdan qorxmağı və yalançılarla deyil, doğru danışanlarla birlikdə olmağı əmr edir.

*Müəllifin zikr etdiyi ikinci ayədə* uca Allah buyurur: **"doğru danışan kişilər və doğru danışan qadınlar."** Bu, Allahın "əl-Əhzab" surəsindəki: **"Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar"** ifadəsi ilə başlayan və: **"Allah onlar üçün bağışlanma və böyük mükafat hazırlamışdır."** cümləsi ilə bitən ayənin[3] bir hissəsidir. Bu ayədə uca Allah doğru danışan kişilər və doğru danışan qadınları, təriflədiyi və özlərinə də böyük mükafat verəcəyini vəd etdiyi kimsələr arasında zikr etmişdir.

*Müəllifin zikr etdiyi üçüncü ayədə* uca Allah buyurur: **"Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı."** Yəni, *əgər münafiqlər* Allaha qarşı dürüst davransaydılar, bu, onlar üçün xeyirli olardı. Lakin onlar, Allaha qarşı nadürüst davrandılar və qəlblərində olanın tam əksinə hərəkət edərək münafiqlik etdilər. Peyğəmbərə ﷺ yalan söylədilər və ona qarşı olduqları halda, özlərini Peyğəmbərə ﷺ tabe olan kimsələr kimi göstərdilər. Əgər onlar, öz niyyətlərində, sözlərində və hərəkətlərində Allaha qarşı dürüst olsaydılar, bu, onlar üçün daha xeyirli olardı. Lakin onlar Allaha yalan söylədilər, bu da onların zərərinə oldu.

Uca Allah buyurur: ***"Bu ona görədir* ki, Allah doğru danışanları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də istəsə ya əzab**

---

[1] ət-Tovbə, 118.
[2] ət-Tovbə, 119.
[3] əl-Əhzab, 35.

**versin, ya da onların tövbələrini qəbul etsin."**[1] Bu dəlildir ki, doğruluq əzəmətli bir xislətdir və Allahın bəxş etdiyi mükafatı qazanmaq üçün vasitədir. Elə isə biz doğru danışmalı, doğruçu və səmimi olmalıyıq. Qarşımızdakının xoşuna gəlmək və özümüzü göstərmək üçün həqiqəti gizlətməməliyik. İnsanların bir çoxu, özünün etdiyi, lakin aşkara çıxmasını istəmədiyi bir şey haqqında soruşulduqda: "Mən eləməmişəm"– deyərək yalan söyləyir. Nə üçün, insanlardan qorxub Allaha yalan danışırsan? Doğrunu söylə və heç kəsə fikir vermə. Əgər sən dilini doğru danışmağa öyrətsən, get-gedə öz nəfsini islah edəcəksən. Yox əgər yalan danışsan və həqiqəti insanlardan gizlədib onlara yalan danışsan, getdikcə azğınlaşacaqsan. Lakin doğru danışacağın təqdirdə öz həyat tərzini və davranışını düzəldəcəksən. Elə isə, istər sənin lehinə, istərsə də əleyhinə olan işlər olsun, doğru danış ki, uca Allahın ayədə buyurduğu kimi doğru danışanlarla birlikdə olasan: **"Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun."**[2]

**Mövzu ilə bağlı hədislər:**

٥٤ - عَن ابْنِ مَسْعُودٍ ﷺ عن النَّبِيِّ ﷺ قال: «إِنَّ الصِّدْقَ يَهْدِي إِلَى الْبِرِّ وَإِنَّ الْبِرَّ يَهْدِي إِلَى الجَنَّةِ، وَإِنَّ الرَّجُلَ ليصْدُقُ حَتَّى يُكتَبَ عِنْدَ اللَّهِ صِدِّيقاً، وإِنَّ الْكَذِبَ يَهْدِي إِلَى الفجُورِ وَإِنَّ الفجُورَ يَهْدِي إِلَى النَّارِ، وَإِنَّ الرَّجُلَ لَيَكْذِبُ حَتَّى يُكتَبَ عِنْدَ اللَّهِ كَذَّاباً» متفقٌ عليه.

**54.** İbn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Doğruluq *adamı* yaxşı işlərə yönəldir, yaxşı işlər də Cənnətə aparır. Həqiqətən, adam o qədər doğru danışar ki, nəhayət, Allah yanında siddiq sayılar. Yalan da *adamı* günah işlərə yönəldir; günah işlər də Cəhənnəmə aparır. Həqiqətən, adam o qədər yalan danışar ki, nəhayət, Allah yanında yalançı sayılar."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[3]

---

[1] əl-Əhzab, 24.

[2] ət-Tovbə, 119.

[3] Səhih əl-Buxari, 6094; Səhih Muslim, 2607.

**Şərh:**

Bu fəsil müəllifin ﷺ doğruluq *xislətinə* girişidir. Müəllif fəslə doğruluq adını vermiş və burada bir çox ayələr zikr etmişdir ki, onun barəsində bir az öncə danışmışıq. Sonra müəllif ﷺ bu fəslə aid hədislər də zikr etmişdir: Abdullah ibn Məsuddan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Doğruluq *adamı* yaxşı işlərə yönəldir, yaxşı işlər də Cənnətə aparır."** Bir başqa rəvayətdə bu hədisin əvvəlində: **"Doğru söz danışın!"**[1]– deyilir. Yəni daim doğru danışın. Doğruluq: verilən xəbərin gerçəyə uyğun olmasıdır. Yəni bir şey haqqında xəbər verirsən və dediklərin gerçəyə uyğun gəlir. Məsələn, səndən: "Bu gün, hansı gündür"– soruşan adama: "Bu gün çərşənbədir"– desən və həmin gün sən dediyin kimi çərşənbə günü olarsa, doğru söyləmiş olarsan. Yox əgər həmin gün çərşənbə axşamı olsa, o zaman yalan danışmış olarsan. Deməк doğruluq: verilən xəbərin gerçəyə uyğun olmasıdır. Kəb ibn Malikin ﷺ və onun iki dostunun hekayəsində, doğruluğun fəziləti və onun gözəl nəticəsi, habelə, doğru danışan kimsənin aqibətinin gözəl, yalançının isə əməllərinin puç olacağını artıq izah etmişik. Xalq arasında rəvayət edilir ki, bir adam: "Yalan, insanı xilas edir!"– dedikdə, dostu ona: "Doğruluq isə daha çox və daha çox xilas edir"– demişdir. Həqiqətən də, belədir.

Bil ki, verilən xəbər həm dillə, həm də əzalarla ifadə edilə bilər. Dillə ifadə edilənə, sözlər, əzalarla ifadə edilənə isə hərəkətlər aiddir. Dillə ifadə edilən yalan aydındır. Bəs hərəkətlə ifadə edilən yalan necə olur? Adam qəlbindəkinin əksinə hərəkət etdikdə, hərəkəti ilə yalan ifadə etmiş sayılır. Məsələn, münafiq, bir yalançıdır. Çünkü o, özünü camaata mömin kimi göstərir, onlarla birlikdə namaz qılar, oruc tutur, xəsis olduğu halda sədəqə verir, hətta həcc ziyarətinə də gedir. Onun əməllərini görən adam onun əməlisaleh bir insan olduğunu zənn edir, lakin bu əməllər onun daxilindəkinə uyğun gəlmir. Bu da, yalan sayılır.

Eynilə doğruluq da, həm dillə, həm də əzalarla ifadə edilə bilər. Deyilən xəbər, gerçəyə uyğun gələrsə, bu, dillə ifadə edilən doğru söz sayılar. Əzalarla yerinə yetirilən əməllər də qəlbdə olanlara uyğun gələrsə, bu da, əzalarla ifadə edilən doğru əməl sayılar.

---

[1] Səhih Muslim, 2607; Musnəd İmam Əhməd, 1/384; əl-Ədəb əl-Mufrəd, 386.

Rəsulullah ﷺ doğruluğu əmr etdikdən sonra, onun aqibəti barədə belə xəbər verir: **"Doğruluq *adamı* yaxşı işlərə yönəldir, yaxşı işlər də Cənnətə aparır."** Ərəbcə **"birr"**, çoxlu yaxşılıq etmək deməkdir. Allahın **"əl-Bərr"** adı da bu kökdən əmələ gəlmişdir, yəni çoxlu xeyirxahlıq və yaxşılıq edən. Çoxlu yaxşılıqlar etmək, doğruluğun nəticələrindən biridir.

**"...yaxşı işlər də Cənnətə aparır."** Demək, yaxşı işlər, sahibini Cənnətə aparır – Allah bizi də, sizi də yaxşı işlər görən kimsələrdən etsin! Cənnət isə, insanın istəyə biləcəyi ən böyük nemətdir. Elə buna görə də insana, Allahdan Cənnəti istəməsi, Cəhənnəmdən də Ona sığınması əmr edilir: **"Kim Cəhənnəmdən uzaqlaşdırılıb, Cənnətə daxil edilərsə, o, əlbəttə, uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir."**[1]

**"Həqiqətən, adam o qədər doğru danışır ki, nəhayət, Allah yanında siddiq sayılar."** Hədisin bu qismi, başqa bir rəvayətdə belədir: "Adam davamlı doğru söyləyər, doğru söyləməyə səy göstərər və nəhayət, Allah yanında siddiq sayılar." Siddiq: Uca Allahın nemət bəxş etdiyi qullar arasında ikinci mərtəbədə yer alar. Bu xüsusda uca Allah belə buyurur: **"Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar."**[2] Demək, adam doğru söyləməyə səy göstərərsə, Allah yanında siddiq sayılar. Məlumdur ki, siddiqlik çox böyük dərəcədir və bu dərəcəyə yalnız seçilmiş insanlar yetişə bilər. Kişilər arasında siddiqlər olduğu kimi, qadınlar arasında da siddiqlər ola bilər. Bu xüsusda uca Allah belə buyurur: **"Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Anası isə siddiq** (doğru danışan) **bir qadın idi."**[3] Siddiqlərin mütləq mənada ən fəzilətlisi, doğruçuluğunda ən üstün olanı Əbu Bəkr əs-Siddiqdir, yəni Abdullah ibn Osman ibn Əbu Quhafədir. Belə ki, Rəsulullah ﷺ onu İslama dəvət etdikdə, heç tərəddüd etmədən, bir an gözləmədən onun dəvətini qəbul edib müsəlman olmuşdur. Məkkəlilər Peyğəmbəri ﷺ yalançı sayarkən

---

[1] Ali-İmran, 185.

[2] ən-Nisa, 69.

[3] əl-Maidə, 75.

o, Peyğəmbərin ﷺ doğru söylədiyini təsdiqləmişdir. Peyğəmbər ﷺ İsra və Merac hadisəsindən danışarkən, onlar onu yalançı saydılar və ona: "Ey Muhəmməd, necə olur ki, bir gecədə Məkkədən Beytülməqdisə gedib qayıdırsan, sonra da: "Göyə yüksəldiyini" iddia edirsən?! Bu, mümkün deyil"– dedilər, sonra da, Əbu Bəkrin yanına gedib ona: "Dostunun nə dediyini eşitmisənmi?"– dedilər. Əbu Bəkr soruşdu: "Nə deyir ki?" Onlar: "Belə, belə deyir"– dedilər. Əbu Bəkr də onlara belə cavab verdi: "Əgər bunları deyibsə, doğru söyləmişdir." O gündən etibarən o, "siddiq" adı ilə xatırlandı.

Yalana gəlincə, başqa rəvayətdə Peyğəmbər ﷺ: **"Yalandan çəkinin!"**[1]– demişdir. Peyğəmbər ﷺ bu sözü ilə bizi yalandan uzaq durmağı buyurur. Yalan: verilən xəbərin gerçəyə müxalif olmasıdır. Bu, həm dillə, həm də əzalarla ifadə edilə bilər. Məsələn, adam çərşənbə günü səndən: "Bu gün, hansı gündür?"– deyə soruşduqda, sən: "Bu gün çərşənbə axşamıdır", yaxud: "Cümə axşamıdır"– desən, yalan söyləmiş olarsan. Çünki sənin sözün həqiqətə uyğun gəlmir. Çünki həmin gün, çərşənbə günüdür. Münafiq də yalançı sayılır. Çünki kafir olduğu halda, özünü müsəlman kim göstərir. Beləcə, o, öz hərəkəti ilə yalançılıq edər.

**"Yalan da *adamı* günah işlərə yönəldir; günah işlər də Cəhənnəmə aparır."** Günah: Allaha itaət etməkdən boyun qaçırmaqdır. Yəni, insan fasiqlik edir, Allahın qoyduğu hüdudları aşır və Onun itaətindən çıxaraq asiliklər edir. Günahların ən böyüyü küfr etməkdir. Belə ki, kafirlər günahkardırlar. Bu xüsusda uca Allah belə buyurur: **"Məhz onlar kafirdirlər, günahkarlardır!"**[2] **"Xeyr! Həqiqətən, günahkarların kitabı Siccindədir. Sən haradan biləsən ki, Siccin nədir?! O, yazılı bir kitabdır! O gün *haqqı* yalan hesab edənlərin vay halına! O kəslər ki, Din gününü yalan hesab edirlər."**[3] **"Şübhəsiz ki, günahkarlar da Cəhənnəmdə olacaqlar."**[4]

---

[1] Səhih Muslim, 2607; Musnəd İmam Əhməd, 1/384; əl-Ədəb əl-Mufrəd, 386.

[2] Əbəsə, 42.

[3] əl-Mutaffifin, 7-11.

[4] əl-İnfitar, 14.

Bəli, yalan adamı günah işlərə yönəldir, günah işlər də adamı Cəhənnəmə aparır. Cəhənnəmdən Allaha sığınırıq. **"Həqiqətən, adam o qədər yalan danışır ki,"** Digər rəvayətdə də: **"Adam davamlı yalan danışar, yalan danışmağa səy göstərər və nəhayət, Allah yanında yalançı sayılar"**– deyilir.[1] Yalan danışmaq haramdır. Hətta bəzi alimlər bunun böyük günahlardan olduğunu demişlər. Çünki Rəsulullah ﷺ yalan danışanın Allah yanında yalançı sayıldığını xəbərdar etmişdir. Ən böyük yalanlardan biri də, günümüzdəki bəzi insanların, başqalarını güldürmək məqsədi ilə bilərəkdən yalan əhvalatlar danışmasıdır. Rəsulullah ﷺ bu tip insanları təhdid edərək belə buyurmuşdur: "İnsanları güldürmək məqsədi ilə yalan danışan kimsənin vay halına, vay halına, vay halına!"[2] Bu xəbərdarlıq, bir çox insanlara adi bir şey kimi görünür.

Demək, yalanın hər növü haramdır və hamısı da günah işlərə yönəldir. Hərçənd yalan danışmaq üçün heç bir istisna yoxdur, lakin hədislərin birində üç hal müstəsna edilmişdir: döyüş əsanasında, küsülüləri barışdırdıqda və bir də ər-arvadın bir-birinə danışdığı yalan.[3] Lakin bəzi alimlər bu hədisdə "yalan" deyildikdə, açıq-aydın yalan danışmaq deyil, eyham etmək[4] qəsd edildiyini demişlər. Bəzən eyhama da "yalan" deyilir. Bu xüsusda Əbu Hureyradan رضي الله عنه rəvayət edilmiş hədisdə Rəsulullah ﷺ demişdir: "İbrahim عليه السلام yalnız üç dəfə yalan danışmışdır. Bunlardan ikisi uca Allah üçün idi. *Birinci dəfə* o: "Mən xəstəyəm!"[5]– demişdir. *İkinci dəfə isə*: "Xeyr, bunu onların bu böyüyü etmiş olar"[6]– demişdir. Üçüncü yalanı isə *zövcəsi* Saraya görə danışmışdır.[7] Əslində İbrahim عليه السلام bu üç halda yalan danışmamış, əksinə doğru mənanı qəsd edərək eyhamla danışmışdır.

Xülasə budur ki, əksər alimlərin rəyinə görə, – istər eyhamla, istərsə də açıq-aşkar olsun, yalan danışmaq yalnız istisana edilmiş üç halda caizdir.

---

[1] Səhih Muslim, 2607.
[2] Sunən Əbu Davud, 4990; Səhih əl-Cami, 7136.
[3] Səhih Muslim, 2605.
[4] Eyham etmək: ikimənalı və ya ikibaşlı danışmaq.
[5] əs-Saffat, 89.
[6] əl-Ənbiya, 63.
[7] Səhih əl-Buxari, 3357-3358; Səhih Muslim, 2371.

Bəzi alimlər də, ümumiyyətlə, yalan danışmağın, istər zarafatla, istər ciddi şəkildə, istərsə də insanların mallarını yemək üçün olsun, caiz olmadığını söyləmişlər.

Ən çirkin yalan isə, adamın, insanların mallarını haqsız yerə yemək üçün and içərək yalan danışmasıdır. Məsələn, bir adamın, ondan borcunu istəyən kimsəyə yalandan: "Vallahi, mənim sənə borcum yoxdur"– deməsi, yaxud haqqı çatmayan bir şeyi iddia edərək, yalandan: "Vallahi, mənə bu qədər borcun var"– deməsi kimi. Bu adam, iddiasını sübut etmək üçün yalandan and içərsə o *ən böyük* yalançıdır. Buna ərəbcə: "ğamus/batıran andı" deyilir. O and ki, sahibini əvvəlcə günaha batırır, sonra da Cəhənnəmə giriftar edir. Allah qorusun!

Rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Hər kim bir müsəlmanın malını ələ keçirmək məqsədilə nəfsinə uyub bilə-bilə yalandan and içərsə, Allahın hüzuruna gələcəyi gün Allahın ona qəzəbi tutar."[1] Xülasə budur ki, yalan danışmaq, haramdır. Yalan danışmaq mütləq olaraq haramdır. Nə zarafatla, nə da ki ciddi şəkildə yalan danışmaq olar. Yalnız üç halda yalan danışmaq caizdir. Bunun da ixtilaflı olması haqda bir qədər əvvəl ətraflı danışdıq.

٥٥ - عَنْ أبي مُحَمَّدٍ الْحَسنِ بْنِ عَلِيِّ بْنِ أبي طَالِبٍ، رضي الله عنهما، قَالَ حفِظْتُ مِنْ رسولِ اللَّه ﷺ: «دَعْ ما يَرِيبُكَ إِلَى مَا لا يَرِيبُكَ، فَإِنَّ الصِّدْقَ طُمأنينَةٌ، وَالْكَذِبَ رِيبةٌ» رواه التِّرْمذي وقال: حديثٌ صحيحٌ.

قَوْلُهُ: « يرِيبُكَ » هُوَ بفتحِ الياء وضَمِّها، وَمَعْناهُ: اتْرُكْ ما تَشُكُّ في حِلِّه، واعْدِلْ إلى مَا لا تَشُكُّ فيه.

**55.** Rəvayət edilir ki, Əbu Muhəmməd Həsən ibn Əli ibn Əbu Talib رضي الله عنهما demişdir: "Mən Rəsulullahın ﷺ belə buyurduğunu yadda saxlamışam: "Səni şübhəyə salanı tərk et, səni şübhəyə salmayana bax. Çünki doğruluq qəlbdə arxayınlıq yaradır, yalan isə onu şübhəyə salır."

Bu hədisi Tirmizi rəvayət etmiş və "səhih hədisdir" demişdir.[2]

---

[1] Səhih əl-Buxari, 4549; Səhih Muslim, 138.

[2] Sunən ət-Tirmizi, 2518. Tirmizi: "Bu, səhih hədisdir"– demişdir. Sunən ən-Nəsai, 5711; Musnəd İmam Əhməd, 1/200; Səhih əl-cami, 3377.

Ərəbcə "yuriybukə" sözünün mənası, halallığında şübhə etdiyin şeyi tərk edib, halallığında şübhə etmədiyin şeyə meyl etmək deməkdir.

**Şərh:**

Hədisdə **"Səni şübhəyə salanı tərk et"** deyilir, yəni, barəsində şübhə etdiyini və *qəlbinə* rahatlıq verməyəni tərk et. **"Səni şübhəyə salmayana bax",** yəni, heç bir şübhə olmayan bir şeyə yönəl.

Bu, İmam Nəvəvinin ﷺ "Qırx Hədis" kitabında keçən hədislərdən biridir. Bu yığcam cümlədən ibarət hədis, görüləcək işlərdə ehtiyat etmək və Allahdan qorxmaq mövzusunda əhəmiyyətli bir hədisdir. Alimlər də fıqhi məsələlərdə bu yolu tutmuşlar. Yəni, ehtiyat baxımından əlverişli olanı götürmüşlər. Bu qəbildən zikr etdikləri məsələlərin bəzisi bunlardır.

**1.** Bir adamın paltarına nəcasət bulaşsa və bulaşdığı yerin ön, yoxsa arxa tərəf olduğunu bilmədiyi halda, paltarının ön tərəfini yuyarsa, arxa tərəfinə nəcasət bulaşdığına şübhə edər, yox ancaq arxa tərəfini yuyarsa ön tərəfinə nəcasət bulaşdığına şübhə edər. Bu halda ehtiyat üçün nə etməlidir? Ehtiyat üçün paltarın həm önünü, həm də arxasını yumaq lazımdır ki, adamın qəlbində şübhə qalmasın və rahat olsun.

**2.** Əgər adam namaz əsnasında iki, yoxsa üç rükət qıldığına şübhə edər və bu ikisindən hansı birini yerinə yetirdiyinə əmin olmazsa, o halda iki rükət qıldığını düşünüb namazına davam etsə, qəlbində: "Bəlkə də üç qılmışdım" şübhəsi qalar, yox əgər üç rükət qıldığını düşünüb namazına davam etsə, qəlbində: "Bəlkə də az qılmışdım, bu halda namazım naqis olacaq" şübhəsi qalar. Belə olduğu təqdirdə, şübhə etmədiyinə, yəni, az olana etmad edib (iki rükət qılıdığını düşünüb) namazına davam etməlidir. Eləcə də, əgər üç, yoxsa dörd rükət qıldığına şübhə edərsə, üç rükət qıldığını düşünməli və bir rükət də qılıb namazını tamamlamalıdır.

Bu hədis, fıqhın təməl qaydalarından sayılır. Yəni, səni şübhəyə salan bir şey olduqda, onu buraxıb şübhə etmədiyin şeyə etimad edirsən.

Bu hədis, nəfsi tərbiyə edən bir hədisdir. Belə ki, insan bu hədisdə deyilənə əməl etdikdə, qəlbi arxayınlıq içində olur, heç nədən narahat olmur. Çünki bir çox insanların qəlbinə şübhə düşdükdə, əgər qəlbləri

həssasdırsa, həyəcan keçirir və daim öz-özünə: "Deyəsən bunu etmişəm", yaxud: "Deyəsən bunu etməmişəm"– deyə fikirləşir. Yəqinliyə etimad edərək şəkkə son qoyduqda isə artıq şübhələri aradan qalxmış olur.

Peyğəmbərin ﷺ: **"Çünki doğruluq qəlbdə arxayınlıq yaradır"** sözü, bu hədisin bu fəsilə aid olan hissəsidir. Həqiqətən də, doğru söz, insanın qəlbinin rahatlaşdırır. Doğru danışan adam heç vaxt peşman olmaz və: "Kaş ki,.."– deməz. Çünki doğruluq, qurtuluş vasitəsidir. Uca Allah doğru danışanları, doğruluqları sayəsində əzabdan qurtaracaq. Sən, doğru danışan adamın daim arxayın olduğunu görə bilərsən. Belə ki, o, olmuş və ya olacaq işlərə görə heyifsilənmir. Çünki o, *daim* doğru danışır. "Doğru danışan isə xilas olar."

Yalana gəlincə, Peyğəmbər ﷺ onun *qəlbə* şübhə saldığını bildirmişdir. Elə buna görə də, görürsən ki, yalan danışan adam haqqında ilk əvvəl şübhəyə düşən, elə onun özü olur. Yalan danışan adam özü barəsində şübhəyə düşür, görəsən insanlar onun dediyinə inanır, yoxsa inanmır? Elə bu səbəbdən də, görürsən ki, yalan danışan adam, bir hadisə haqqında xəbər verdikdə, sən onun verdiyi xəbərə şübhələnməyəsən deyə doğru danışdığına dair Allaha and içir. Halbuki onun danışdığı sözlər şübhə altındadır.

Quranda münafiqlərin küfr söz danışmadıqlarına dair and içdiyini görürük. Halbuki onlar bu sözə görə narahat olmuşlar. Bu xüsusda uca Allah buyurur: **"Onlar küfr danışmış, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar."**[1] Şəkk ki, yalan söz, adamın qəlbində şübhə və narahatlıq yaradır. Yalan danışan adam özü barəsində şübhəyə düşür ki, görəsən, insanlar onun yalan danışdığını bilir, yoxsa, bilmirlər? Beləsi daim şəkk və narahatlıq içində olar.

Bu hədis həm də, adamın, yalanı tərk edib doğru söz danışmasının vacib olmasına dəlalət edir. Çünki yalan qəlbdə şübhə doğurur, doğruluq isə onda arxayınlıq yaradır. Odur ki, Peyğəmbər ﷺ: **"Səni şübhəyə salanı tərk et, səni şübhəyə salmayana bax."**– demişdir. Müvəffəq edən Allahdır.

---

[1] ət-Tovbə, 74.

٥٦ - عنْ أبي سُفْيانَ صَخْرِ بْنِ حَربٍ ﷺ في حديثِه الطَّويلِ في قِصَّةِ هِرقْلَ، قَالَ هِرقْلُ: فَماذَا يَأْمُرُكُمْ - يعْني النَّبِيَّ ﷺ - قَالَ أَبُو سُفْيَانَ: قُلْتُ: يقول «اعْبُدُوا اللَّهَ وَحْدَهُ لا تُشرِكُوا بِهِ شَيْئاً، واتْرُكُوا ما يَقُولُ آباؤُكُمْ، ويَأْمُرنَا بالصَّلاةِ والصِّدقِ، والْعفَافِ، والصِّلَةِ». متفقٌ عليه.

**56.** Əbu Sufyan Saxr ibn Hərbdən ﷺ nəql edilən uzun bir hədisdə, Herakl ilə onun arasında olan söhbət haqqında xəbər verilir ki, Herakl Peyğəmbəri ﷺ nəzərdə tutaraq: "O sizə nəyi əmr edir?"– deyə soruşmuş, Əbu Sufyan da ona belə cavab vermişdir: "O bizə: "Tək Allaha ibadət edin, Ona heç nəyi şərik qoşmayın. Atalarınızın söylədiklərini tərk edin"– deyir və bizə namaz qılmağı, doğruluğu, iffətli olmağı və qohumluq əlaqələrini möhkəmləndirməyi əmr edir."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Müəllif ﷺ bizə Əbu Sufyan Saxr ibn Hərbin ﷺ hədisini nəql etmişdir. Əbu Sufyan ﷺ Herakl ilə görüşdüyü zaman müşrik idi. Əbu Sufyan *bu hadisədən* çox-çox sonra, Hudeybiyyə sülhü ilə Məkkənin fəthi arasındakı zamanda müsəlman oldu. Hudeybiyyə sülhü hicrətin altıncı ilində, Məkkənin fəthi isə səkkizinci ilində olmuşdur. Əbu Sufyan qureyşlilərdən olan bir dəstə ilə birlikdə Şama, Heraklın olduğu yerə getdilər. O vaxt Herakl xristianların hökmdarı idi. Herakl Tövratı və İncili oxumuş, əvvəlki səmavi kitabları bilən ağıllı hökmdar idi. Herakl Əbu Sufyan və onun yanındakıların Şama gəldiyini eşitdikdə, onları hüzuruna çağırtdırdı və onlardan Muhəmmədin ﷺ halı, onun nəsəbi, tərəfdarları, tərəfdarlarının ona göstərdiyi ehtiram və Peyğəmbərin ﷺ vəfası barədə soruşdu. O, hər dəfə verdiyi suala cavab aldıqda, onun əvvəlki səmavi kitablarda xəbər verilən peyğəmbər olduğunu anlayırdı. Lakin o, öz səltənətini tərk etmək istəmədiyi üçün İslamı qəbul etmədi. Bu da uca Allahın istədiyi bir hikmət idi.

Həmin vaxt Herakl Əbu Sufyandan, Peyğəmbərin ﷺ onlara nə əmr etdiyini soruşdu. Əbu Sufyan da, onlara Allaha ibadət etmələrini və

[1] Səhih əl-Buxari, 7; Səhih Muslim, 1773.

Ona heç bir şeyi şərik qoşmamalarını, Allahdan başqa nə bir hökmdara, nə bir peyğəmbərə, nə bir ağaca, nə bir daşa, nə günəşə, nə aya, nə də başqa bir şeyə ibadət etməmələrini əmr etdiyini xəbər verdi. Peyğəmbərimizin ﷺ gətirdiyi: "Yalnız Allaha ibadət etmək" qanunu, bütün peyğəmbərlərin gətirdiyi qanundur. Bu xüsusda uca Allah belə buyurur: **"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək."**[1] O, həmçinin, buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə,*** **elçi göndərdik."**[2] Burada "tağut" deyildikdə, şirk qəsd edilir. Elçilərin hamısının dəvəti bu olmuşdur. Peyğəmbərimiz ﷺ də, həmçinin, əvvəlki peyğəmbərlər kimi – insanları tək Allaha ibadət edib Ona heç kəsi şərik qoşmamağa dəvət etmişdir.

O belə demişdir: **"Atalarınızın yolunu tərk edin"**; Baxın, Peyğəmbər ﷺ haqqa necə boyun əyir! Hərçənd, Peyğəmbər ﷺ onlara vaxtı ilə atalarının ibadət etdikləri bütlərin hamısını tərk etməyi əmr etmiş, lakin onlara atalarının üstün cəhətlərini götürmələrini qadağan etməmişdir. Bu xüsusda uca Allah belə buyurur: **"Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir"– deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz."**[3]

Xülasə budur ki, Rəsulullah ﷺ dəvət etdiyi insanlara, atalarından qalmış etiqadı – Allaha şərik qoşmağı tərk etməyi əmr etmişdir.

**"Bizə namaz qılmağı əmr edir."** Namaz, qul ilə Rəbbi arasında rabitədir. Bu, şəhadət kəlməsindən sonra İslamın ən şox təkid olunmuş rüknüdür. Onun sayəsində mömin, kafirdən ayırd edilir. Belə ki, bizi, müşriklərdən və kafirlərdən ayırd edən əlamət, namazdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bizimlə müşriklər və kafirlər arasındakı fərq namazdır. Kim onu tərk edərsə, küfr etmiş olar."[4] Yəni dindən çıxmış kafir sayılar. Belə ki, namaz, möminləri kafirlərdən ayırd edən əlamətdir.

---

[1] əl-Ənbiya, 25.

[2] ən-Nəhl, 36.

[3] əl-Əraf, 28.

[4] Sunən ət-Tirmizi, 2621; Sunən ən-Nəsai, 463; Sunən İbn Macə, 1079; Musnəd İmam Əhməd, 5/346 və 355; Şeyx Albani "Mişkat əl-Məsabih" əsərində (574) bu hədisin "səhih" olduğunu demişdir.

Bəzi alimlər bu hədisi fərqli mənaya yozaraq demişlər ki, burada qəsd edilən küfr, Peyğəmbərin ﷺ: "İnsanlarda iki xislət vardır ki, bunların onlarda olması küfrdür..."[1] sözündə qəsd edilən küfrə bənzəyən kiçik küfrdür. Hər kim bu hədisi diqqətlə araşdırsa, bu yozumun yanlış olduğunu, hədisdə qəsd edilən küfrün, insanı dindən çıxardan böyük küfr olduğunu başa düşə bilər. Çünki iki şeyi – imanla küfrü bir-birindən ayaran amil, əlbəttə ki, birini digərindən ayırd etməlidir. Əks halda bu, ayırd edən amil sayıla bilməz. Biri Zeydə digəri də Amra məxsus olan iki torpaq sahəsi arasında çəkilmiş sərhəd kimi. Belə ki, bu, Zeydin yerini Amrın yerindən, Amrın yerini də Zeydin yerindən ayırd edən sərhəddir. Bunun sayəsində, birinin yeri o birinə aid edilə bilməz. Namaz da, həmçinin, ayırd edən sərhəddir. Belə ki, namazın xaricində olan kimsə onun daxilində sayıla bilməz. Demək, başqa əməllərdən fərqli olaraq – məhz namazı tərk edən insan kafir sayılır. Əgər adam ramazan orucunu tərk edir və ona məhəl qoymadan gündüz vaxtı yeyib-içirsə, biz ona kafir demirik. Lakin namazı tərk etsə, biz onu kafir hesab edirik. Eləcə də, əgər adam zəkatı tərk edirsə, mal-dövlət yığır, lakin onun zəkatını vermirsə, biz ona kafir demirik. Ancaq namazı tərk etsə, biz onu kafir hesab edirik. Həmçinin, əgər adam həcc ziyarətini yerinə yetirməyə qadir olduğu halda onu tərk edirsə, biz ona kafir demirik. Lakin namazı tərk etsə, biz onu kafir hesab edirik.

Məşhur tabiinlərdən olmuş Abdullah ibn Şəqiq رحمه الله demişdir: "Muhəmmədin ﷺ səhabələri namazdan başqa heç bir əməlin tərk edilməsini küfr saymazdılar."[2] Demək, Peyğəmbərin ﷺ vacib buyurduğu namazı tərk edən adam, tövhidi tərk etmiş kimi sayılar. Yəni belə olduğu təqdirdə o, müşrik kafir sayılar. Belə olmaqdan Allaha sığınırıq! Muslimin Cabirdən رضي الله عنه rəvayət etdiyi hədis də buna dəlalət edir. Həmin hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"İnsanla şirk və küfr arasında namazı tərk etmək durur."**[3]

---

[1] Hədisin davamı belədir: "*Bu,* əsil-nəsəbə tənə vurmaq və ölünün üstündə vayşivən salıb ağlamaqdır." (Səhih Muslim, 67).

[2] Sunən ət-Tirmizi, 2622; Şeyx Albani bu rəvayətin isnadının "səhih" olduğunu demişdir. Bax: Mişkat əl-Məsabih, 579.

[3] Səhih Muslim, 82.

**“O bizə doğruluğu əmr edir...”**; hədisin bu cümləsi fəsilin ünvanına aid olan hissəsidir. Peyğəmbər ﷺ ümmətinə dorğuluğu əmr edərdi. Uca Allah buyurduğu kimi: **“Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun.”**[1]

Doğruluq, səciyyəvi bir xislətdir və o, iki qismə bölünür:

Allahla olan münasibətdə və bir də Allahın qulları ilə olan münasibətdə doğruçu olmaq. Bunların hər ikisi səciyyəvi xislətdir. Doğruçu olmağın əksi isə yalançılıqdır. Bu, gerçəyin əksini xəbər verməkdir. Yalan danışmaq, münafiqlərə xas olan yaramaz əxlaqdır. Bu xüsusda Rəsulullah ﷺ demişdir: “Münafiqin əlaməti üçdür: danışdıqda yalan danışar; vəd verdikdə xilaf çıxar; ona əmanət verildikdə xəyanət edər.”[2] Bəzi insanlar yalan danışma xəstəliyinə tutulublar. Beləəri ancaq yalan danışdıqda kefləri açılır və qəlbləri rahatlıq tapır. Onlar daim yalan danışır və adamı aldatmağa çalışırlar. Hər hansı bir məclisdə olduqda, camaatı güldürmək üçün uydurma əhvalatlar danışırlar. Halbuki Peyğəmbər ﷺ demişdir: “İnsanları güldürmək məqsədilə yalan danışan kimsənin vay halına, vay halına, vay halına!”[3]

**“İffətli olmağı *əmr edir.*”** İffət iki növdür: şəhvət düşkünlüyündən və bir də yemək-içmək düşkünlüyündən çəkinmək.

Birinci növ iffət; insanın, haram buyurulan zinadan və ona aparan hər bir vasitədən və hər bir yoldan uzaq durmasıdır. Çünki uca Allah buyurur: **“Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!”**[4] Əgər adam zina edərsə, cəza olaraq ona yüz qamçı vurulur və bir il yaşadığı yerdən sürgün edilir. Bu cəza evli olmayan adamlara aiddir. Evli adam zina etdikdə isə, ölənədək daşqalaq edilir. Bu cəzalar insanları bu murdar əməldən çəkindirmək üçündür. Çünki zina, əxlaqı korlayır, dini bərbad edir, əsil-nəsəbi ləkələyir və dövrümüzdə yayılan yoluxucu xəstəliklər əmələ gətirir. Zinanın çoxaldığı bu dövrdə biz bunların şahidi oluruq. Elə buna görə də, uca Allah, zinaya gətirib çıxardan hər bir yoldan uzaq durmağı əmr etmişdir. Allah qa-

---

[1] ət-Tovbə, 119.

[2] Səhih əl-Buxari, 33.

[3] Sunən Əbu Davud, 4990; Səhih əl-Cami, 7136.

[4] əl-İsra, 32.

dınlara açıq-saçıq gəzməyi qadağan etmişdir. Bu xüsuda uca Allah belə buyurur: **"Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin."**[1] Demək, qadının öz evində oturması, ehtiyac və zərurət olmadığı halda bayıra çıxmaması onun üçün daha xeyirlidir. Qadın çölə çıxdıqda, Rəsulullahın ﷺ ona buyurduğu kimi – ətirlənmədən və hicablı halda çıxmalıdır.[2]

Rəsulullah ﷺ qadına naməhrəm kişilərin qarşısına da yalnız hicablı halda çıxmağı əmr etmişdir. Şəriətin buyurduğu hicab isə, qadının, baxanda şəhvət oyadacaq və zinaya səbəb olacaq bütün bədən üzvlərini örtməsidir ki, bunların da, ən önəmlisi onun üzüdür. Belə ki, yad kişilərin yanında üzü gizlətmək, başı, qolları və ayaqları gizlətməkdən daha vacibdir. Bəzilərinin: "Qadın, üzünü aça bilər" sözünə isə etimad etmək olmaz. Çünki bu sözdə ziddiyyət vardır. Necə ola bilər ki, qadının ayaqlarını örtməsinin vacib olduğunu deyən adam, üzünü açmasının caiz olduğunu söyləsin?! Bunlardan hansı biri daha böyük fitnədir və hansı biri zinaya daha çox səbəb ola bilər: qadının üzünü açması, yoxsa ayaqlarını açması? Ağıllı adam nə dedyinin fərqində olmalıdır. Deməlidir ki, qadının üzünün açıq olması, zinaya və fitnəyə daha çox yaxındır.

Qadının ətirlənmiş halda çölə çıxması da buna aiddir. Qadın ətirlənmiş halda çölə çıxdıqda, həm özünün, həm də naməhrəm kişinin yoldan çıxmasına səbəb olur. Qadın ətirlənmiş halda ictimai yerlərdə gəzib-dolaşmaqla, həm özü yoldan çıxır, həm də başqalarını yoldan çıxardır. Heç bir kişi, ailəsinin – istər zövcəsi, istər qızı, istər bacısı, istərsə anası, istərsə də başqa bir məhrəmi olsun, açıq-saçıq olduğu və ya ətirlənmiş halda çölə çıxmasına əsla izin verməməli, daim buna nəzarət etməlidir. Heç kəs öz əhli-əyalının şəriətə müvafiq olmayan şəkildə çölə çıxmasına razı olmamalıdır.

İkinci növ iffət isə yemək-içmək düşkünü olmamaqdır. Yəni insanların malına göz dikməməkdir. Bu xüsusda uca Allah belə buyurur:

---

[1] əl-Əhzab, 33.

[2] Əbu Hureyranın رضي الله عنه rəvayət etdiyi hədisdə Rəsulullah ﷺ belə buyurmuşdur: "Qadınların məscidlərə getmələrinə mane olmayın. Lakin *çıxmalı olsalar,* ətirlənərək və açıq-saçıq geyinərək çölə çıxmasınlar." (Sunən Əbu Davud, 565; Musnəd İmam Əhməd, 2/438, 475 və 528; Şeyx Albani "İrva əl-Ğəlil" əsərində (515) bu hədisin "səhih" olduğunu demişdir).

*"Bu adamlar* **iffətli olub dilənmədiklərinə görə tanımayan adam onları varlı hesab edir."**[1] Yəni iffətlərindən dolayı insanlardan heç bir şey istəməzlər. Çünki istəmək, zillətdir. İstəyən adamın əli alçaq, verən adamın əli isə uca olur.[2] Məcbur qalmadıqca isə insanlardan istəmək icazəli deyil. Adamın ehtiyacı olduqda və ya buna yaxın zəruri bir halda ehtiyacını istəyə bilər. Böyük bir ehtiyacı və ya zərurət olmadıqda istəmək isə haramdır. Bunun qadağan olunması haqqında neçə-neçə hədislər varid olmuşdur. Hətta hədislərin birində Peyğəmbər ﷺ xəbər vermişdir ki, dilənən kimsələr, Qiyamət günü – hər kəsin toplandığı o dəhşətli gündə insanların qarşısında üzündə heç bir ət parçası olmadığı, üzünün sümüyü göründüyü halda məhşərə gələcək.[3] Bundan əlavə, səhabələr də, insanlardan heç bir şey istəməyəcəklərinə dair Peyğəmbərə ﷺ beyət etmişdilər. Hətta onlardan biri minik üzərində olarkən qamçısı əlindən yerə düşdükdə, heç kəsə: "Qamçını ver"– deməz, əksinə, minikdən enib qamçını özü götürərdi. Allahın zənginlik və ismət bəxş etdiyi insan əsla dilənməz. Yalnız məxluq qarşısında zəlil olan kimsələrdən başqa. Bir insana necə əl açıb: "Mənə filan şey ver" deyə bilərsən?! Axı sən də onun kimi bir insansan. **"İstədikdə, yalnız Allahdan istə. Kömək dilədikdə də ancaq Allahdan kömək dilə."**[4]

Hədisdə zikr edilən beşinci əmr: **"Qohumluq əlaqələrini möhkəmləndirməkdir."** Qohumluq əlaqələrini möhkəmləndirmək deyildikdə, ən yaxın və ən yaxın olan qohumlarla əlaqə saxlamaqdır. Yaxınlar arasında ən yaxın olanı isə valideynlərdir. Valideynlə əlaqə saxlamaq, onların qeydinə qalmaq və onlardan hal-əhval tutmaq deməkdir. Qohum-əqrəba ilə də, həmçinin, ən yaxın, sonra ən yaxın olanlarla əlaqə saxlamaq gərəkdir. Məsələn, əminə nisbətdə qardaşınla, daha sıx əlaqə saxlamalısan. Atanın əmisinə nisbətdə də öz əminlə daha sıx əlaqə saxla-

---

[1] əl-Bəqərə, 273.

[2] Rəsulullah ﷺ belə buyurmuşdur: "Uca əl alçaq əldən daha xeyirlidir. Uca əl *sədəqə* verən əldir; alçaq əl isə dilənən əldir." (Səhih əl-Buxari, 1429).

[3] Peyğəmbər ﷺ demişdir: "Birisi o qədər dilənəcək ki, nəhayət, Qiyamət günü üzündə heç bir ət parçası olmadığı halda məhşərə gələcək." (Səhih əl-Buxari, 1474; Səhih Muslim, 1040).

[4] Sunən ət-Tirmizi, 2516.

malısan. Beləcə, bu cür müqayisə edərək ən yaxın və ən yaxın olanlarla daha sıx əlaqə saxlamalısan.

Qohumluq əlaqələrini möhkəmləndirmək Quran və Sünnədə qeyri-məhdud formada zikr edilmişdir. Ümumiyyətlə, Quran və Sünnədə qeyri-məhdud formada gələn hər nə varsa hamısı adətə qayıdır. Yəni adətə görə, nəyi qohumluq əlaqələri saxlamaq sayırlarsa, o da qohumluq əlaqələri saxlamaq sayılır. Bu da, şəxslərə, əhvala, zamana və məkana görə dəyişir. Məsələn, əgər sənin qohumunun maddi imkanı yaxşıdırsa, canı da sağlamdırsa və sən onun heç nəyə ehtiyacı olmadığını bilirsənsə, o halda hər ayda və ya ay yarımda bir dəfə onunla əlaqə saxlamağın, adətimizə görə əlaqə saxlamaq sayılır. Çünki insanlar artıq bir-birlərinə möhtac deyillər. Onlardan heç biri digərinin köməyinə ehtiyac duymur. Lakin əlaqə saxlayacağın adam sənin lap yaxınındırsa, atan, anan, qardaşın və əmindirsə, o zaman onlarla daha sıx əlaqə saxlamalısan. Həmçinin, əgər əlaqə saxlayacağın adam kasıbdırsa, yaxud xəstədirsə, onunla daha sıx əlaqə saxlamaq lazımdır.

Xülasə budur ki, Qohumluq əlaqələrini möhkəmləndirmək Quranda qeyri-məhdud formada gəldiyinə görə, bu, adətlə ölçülür. Bu da, bir qədər əvvəl qeyd etdiyimiz kimi, daha yaxın olanlara, şəxslərin halına, zamana və məkana görə dəyişir. Demək, nəyə, adətə görə qohumluq əlaqəsini saxlamaq deyirlərsə, o da, qohumluq əlaqəsi saxlamaq sayılır; nəyə də, adətə görə qohumluq əlaqəsini kəsmək deyirlərsə, o da, qohumluq əlaqəsini kəsmək sayılır. Belə ki, qohumlarla sıx əlaqə saxlamağın fəzilətinə dair, habelə, onlarla əlaqəni kəsməkdən çəkinmək barədə neçə-neçə hədislər varid olmuşdur.

٥٧ - عَنْ أبي ثَابِتٍ، وقِيلَ: أبي سعيدٍ، وقِيلَ: أبي الْوَلِيدِ، سَهْلِ بْنِ حُنَيْفٍ، وَهُوَ بدرِيٌّ، رضي الله عنه، أَن النبيَّ ﷺ قال: «مَنْ سَأَلَ اللَّهَ، تعالَى الشَّهَادَةَ بِصِدْقٍ بَلَّغهُ اللَّهُ مَنَازِلَ الشُّهدَاءِ، وإِنْ مَاتَ عَلَى فِراشِهِ» رواه مسلم.

**57.** Bədr döyüşünün iştirakçısı və Əbu Sabit, yaxud Əbu Səid, yaxud da Əbul-Vəlid kunyəsi ilə tanınan Səhl ibn Huneyf ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim Allahdan səmimi-qəlblə şəhid

olmağı diləsə, yatağında ölmüş olsa belə, Allah onu şəhidlər dərəcəsinə çatdırar."

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllif bu hədisi doğruluq fəslində zikr etmişdir. Hədisin mövzuya aid olan hissəsi: **"Kim Allahdan səmimi-qəlblə şəhid olmağı diləsə"** cümləsidir. Belə ki, şəhidlik, siddiqlikdən sonra gələn yüksək dərəcədir. Bu xüsusda uca Allah belə buyurur: **"Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar."[2]** Şəhadətin çoxlu növləri vardır:

Şəhadətin bir növü də, Allahın hökmlərinə əsasən, Allahın qulları üzərində şahidlik etməkdir. Bu da, alimlərin şəhadətdir. Bu xüsusda uca Allah belə buyurur: **"Allah ədalətli olaraq şahidlik etmişdir ki, Özündən başqa *ibadətə layiq olan* məbud yoxdur. Mələklər və alimlər də, *buna şahidlik etmişlər.*"[3]**

Bir çox alimlər, ayədəki **"şəhidlər"**[4] sözünün təfsirində, alimlərin qəsd edildiyini söyləmişlər. Şübhə yoxdur ki, alimlər, şəhadət əhlidirlər. Onlar şahidlik edirlər ki, uca Allah Öz rəsulu Muhəmmədi ﷺ hidayət və haqq din ilə göndərmişdir. Onlar, həmçinin, Allahın şəriətinin ümmətə təbliğ edildiyinə də, şahidlik edəcəklər. Alimlər: "Bu halaldır, bu haramdır, bu vacibdir, bu müstəhəbdir, bu məkruhdur"– deyərək Allahın hökmləri haqqında da şahidlik edirlər. Bunları ancaq alimlər bilir. Elə buna görə də onlar şəhadət əhli, yəni şəhid sayılırlar.

Şəhidliyin başqa növləri də vardır. Məsələn, taundan[5] ölən, qarındakı xəstəlikdən ölən, yanaraq ölən, boğularaq ölən və s. şəhiddirlər.

Allah yolunda öldürülənlər də şəhiddirlər.[6]

---

[1] Səhih Muslim, 1909.

[2] ən-Nisa, 69.

[3] Ali-İmran, 18.

[4] Bu kəlmə ən-Nisa surəsinin 69-cu ayəsində zikr edilmişdir.

[5] Qusma və ishal şəklində təzahür edən, yoluxucu ağır epidemik xəstəlik.

[6] Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Beş nəfər şəhid sayılır: taundan ölənlər, qarındakı xəstəlikdən ölənlər, suda böğularaq ölənlər, uçqun altında qalıb ölənlər və Allah yolunda vuruşub ölənlər *şəhiddirlər.*" (Səhih əl-Buxari, 653).

Mallarını və canlarını müdafiə edərkən ölənlər də şəhiddirlər. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, bir gün bir nəfər: "Ya Rəsulullah! De görək, əgər bir adam gəlib mənim malımı əlimdən almaq istəsə, *mən nə edim*?"– deyə soruşdu. Peyğəmbər ﷺ: "Malını ona vermə"– deyə buyurdu. Adam soruşdu: "Yaxşı, bəs mənimlə vuruşsa, necə olsun?" Peyğəmbər ﷺ: "Sən də onunla vuruş!"– deyə buyurudu. Adam soruşdu: "Bəs məni öldürsə, necə?" Peyğəmbər ﷺ: "Sən şəhid olarsan!"– dedi. Adam soruşdu: "Bəs mən onu öldürsəm necə?" Peyğəmbər ﷺ: "O, Cəhənnəmlik olar!"– dedi."[1] Başqa bir hədisdə də, Peyğəmbər ﷺ demişdir: "Canını qoruyaraq ölən şəhiddir, ailəsini qoruyaraq ölən şəhiddir, malını qoruyaraq ölən şəhiddir."[2]

Zülmə məruz qalaraq öldürülən kimsə də şəhid sayılır. Məsələn, hücuma məruz qalıb haqsızcasına öldürülən adam şəhid sayılır.

Lakin şəhidlərin ən yüksək dərəcədə olanı, Allah yolunda öldürülənlərdir. Bu xüsusda uca Allah belə buyurur: **"Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, *onlar* diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər. Onlar Allahın neməti və lütfünə görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə sevinirlər."[3]** Bu ayədə qəsd edilən şəhidlər, Allahın sözünü ucaltmaq məqsədilə vuruşmuş kimsələrdir. Onlar canlarını və ya mallarını qorumaq üçün yox, məhz Allahın sözünü ucaltmaq üçün vuruşmuşlar. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, bir gün bir nəfər Peyğəmbərə ﷺ dedi: "*İnsanlardan* kimisi qəhrəman adını qazanmaq, kimisi təəssübkeşliyi üzündən, kimisi də öz yerini göstərmək üçün vuruşur. Bunlardan hansı biri Allah yolundadır?" Peyğəmbər ﷺ buyurdu: "Kim Allahın sözü hər şeydən uca olsun deyə vuruşursa, o, Allah yolundadır."[4] Bu da, Rəsulullahın ﷺ qoyduğu və insanın əməllərini dəqiqliklə ölçən ədalətli bir ölçüdür.

---

[1] Səhih Muslim, 140.

[2] Sunən Əbu Davud, 4772; Sunən ət-Tirmizi, 1421; Səhih əl-Cami, 6445.

[3] Ali-İmran, 169-171.

[4] Səhih əl-Buxari, 2810; Səhih Muslim, 1904.

Demək, kim Allahın kəliməsini ucaltmaq məqsədilə vuruşarsa, Allah yolunda vuruşmuş sayılar. Bu yolda vuruşub öldürülsən, şəhid sayılarsan, yox həyatda qalsan, qənimət əldə edib sevinərsən. Bu xüsusda uca Allah belə buyurur: **"De: "Doğrudanmı siz bizlərə iki uğurdan –** ***qələbədən və ya şəhidlikdən*** **birinin yetişməsini gözləyirsiniz? Biz isə ya Allahın Özü tərəfindən və yaxud da bizim əllərimizlə sizi əzaba düçar etməsini gözləyirik."**[1] Yəni, Allah sizə əzab verməklə bizi sizin şərinizdən qoruyacaq. Necə ki, Xəndək döyüşündə müttəfiqlər birləşib, Peyğəmbəri ﷺ öldürmək üçün Mədinəni mühasirəyə almış, Allah isə onların üzərinə fırtına və gözə görünməyən əsgərlər göndərərək qəlblərinə qorxu salmışdır. **"Bizim əllərimizlə",** necə ki, Bədr döyüşündə baş vermişdir. Belə ki, Allah bu döyüşdə Rəsulullahın ﷺ və onun səhabələrinin əli ilə müşriklərə əzab vermişdir. Demək, kim Allahın kəliməsini ucaltmaq məqsədilə vuruşarsa, o şəhid sayılar.

Əgər insan öz Rəbbinə: "Allahım, mənə sənin yolunda şəhid olmağı nəsib et!"– deyə dua etdikdə qəsdi Allahın kəlməsini ucaltmaq yolunda vuruşub ölmək olarsa, uca Allah da onun sözündə və niyyətində səmimi olduğunu görərsə, yatağında ölsə belə, onu şəhidlərin dərəcələrinə yüksəldər.

Mövzu ilə bağlı bir məsələ də qaldı ki, bu da, ölkəsini qorumaq üçün vuruşan kimsənin bu əməlinin Allah yolunda olub-olmamasıdır.

Bunun izahı belədir ki, yaşadığın ölkənin müsəlman ölkəsi olduğuna görə, məhz müsəlmançılığı qoruma məqsədilə vuruşsan, Allah yolunda vuruşmuş sayılacaqsan. Çünki sən Allahın kəlməsinin ən uca olması üçün vuruşursan. Lakin sırf vətənin olduğu üçün vuruşsan, Allah yolunda vuruşmuş sayılmayacaqsan. Çünki bu, Peyğəmbərin ﷺ qoyduğu ölçüyə uyğun gəlmir. Yəni başqa məqsədlə deyil, məhz Allahın kəliməsini ucaltmaq məqsədilə vuruşmaq Allah yolunda vuruşmaq sayılır. Elə buna görə də biz, ölkəsini qorumaq məqsədilə vuruşan hər kəsə nəsihət etməliyik ki, qəsdini dəyişdirsin və ölkəsinin İslam ölkəsi olduğuna görə, müsəlmançılığı qorumaq üçün vuruşsun. Belə olduğu halda öldürülərsə, şəhidlərin savabını qazanar, yox həyatda qalarsa,

[1] ət-Tövbə, 52.

qənimət əldə edib sevinər. Ya *şəhiq olmaqla* Axirəti qazanar, ya da *həyatda qalmaqla* dünyanı qazanar. Bu məsələ barəsində əvvəldə danışmışıq. Müvəffəq edən Allahdır.

٥٨ - عَنْ أبي هُرَيْرة رضي الله عنه قال: قال رسولُ اللَّه ﷺ: «غزا نَبِيٌّ مِنَ الأَنْبِياءِ صلواتُ اللَّه وسلامُهُ علَيهِمْ فَقَالَ لقوْمِهِ: لا يتْبَعَنِّي رَجُلٌ ملَكَ بُضْعَ امْرَأَةٍ. وَهُوَ يُرِيدُ أَن يَبْنِيَ بِهَا وَلَمَّا يَبْنِ بِها، ولا أَحدٌ بنَى بيُوتاً لَمْ يرفَع سُقوفَهَا، ولا أَحَدٌ اشْتَرى غَنَماً أَوْ خَلِفَاتٍ وهُو يَنْتَظرُ أَوْلادَهَا. فَغزَا فَدنَا مِنَ الْقَرْيةِ صلاةَ الْعصْرِ أَوْ قَرِيباً مِنْ ذلكَ، فَقَال للشَّمس: إِنَّكِ مَأمُورةٌ وأَنا مأمُورٌ، اللهمَّ احْبسْهَا علَينا، فَحُبِسَتْ حَتَّى فَتَحَ اللَّهُ عليْهِ، فَجَمَعَ الْغنَائِم، فَجاءَتْ - يَعْنِي النَّارَ - لتَأكُلَهَا فَلَمْ تطْعمْهَا، فقال: إِنَّ فِيكُمْ غُلُولاً، فَلْيُبَايِعْنِي منْ كُلِّ قبِيلَةٍ رجُلٌ، فَلَزِقَتْ يدُ رَجُلٍ بِيدِهِ فَقَالَ: فِيكُم الْغُلولُ، فَلْيُبَايِعْنِي قَبِيلَتُك، فَلَزِقَتْ يدُ رجُليْنِ أو ثلاثَةٍ بِيَدِهِ فقَالَ: فِيكُمُ الْغُلُولُ، فَجَاؤُوا برَأْسٍ مِثْلِ رَأْس بَقَرَةٍ مِنَ الذَّهبِ، فَوَضَعَها فَجَاءَتِ النَّارُ فَأَكَلَتْها، فلمْ تَحِلَّ الغنَائِمُ لأَحَدٍ قَبلَنَا، ثُمَّ أَحلَّ اللَّهُ لَنا الغنَائِمَ لمَّا رأَى ضَعفَنا وعَجْزَنَا فَأَحَلَّها لنَا» متفقٌ عليه.

« الخَلِفَاتُ » بفتح الخاءِ المعجمة وكسرِ اللامِ: جمْعُ خَلِفَةٍ، وهِي النَّاقَةُ الحاملُ.

**58.** Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Peyğəmbərlərdən – onlara Allahın salavatı və salamı olsun! – biri döyüşə çıxarkən öz qövmünə: "Qadınla evlənib onunla gərdəyə[1] girmək istəyən, lakin hələ bunu etməyən kimsələr, ev tikib lakin tavanını vurmayan kimsələr, *boğaz* qoyun və ya dəvə alıb onların balalamasını gözləyən kimsələr mənim ardımca gəlməsinlər!"– dedi, sonra da döyüşə yollandı. Nəhayət, əsr namazının vaxtında və ya buna yaxın bir vaxtda *düşmən* məmləkətinə yaxınlaşdı. Günəşə üz tutub: "Sən də *Allahın* əmrinə tabesən, mən də"– dedi, sonra da: "Allahım, günəşin batmasını bizim üçün dayandır!"– deyə dua etdi. Allah öz peyğəmbərinə zəfər bəxş edənədək günəş olduğu yerdə dayandı. Sonra o, qənimətləri bir yerə topladı. *Bu vaxt göydən* qənimətləri yandırmaq üçün od gəldi, lakin qə-

[1] Gərdək: toy günü oğlan evində gəlin üçün pərdə ilə ayrılmış yer.

nimətləri yandırmadı. Bunu görən peyğəmbər: "Aranızda əmanətə xəyanət edənlər var. Qoy hər qəbilədən bir nəfər mənə beyət etsin"– dedi. *Beyət əsnasında* bir kişinin əli peyğəmbərin əlinə yapışdı. O dedi: "Xəyanətkar sizin içinizdədir. Qoy həmqəbilələrin mənə beyət etsinlər." *Bu dəfə* onlardan iki və ya üç nəfərin əli peyğəmbərin əlinə yapışdı. O: "Qənimətdən oğurlanan mallar sizdədir"– dedi. *İşin üstü açıldıqdan* sonra onlar gedib qızıldan inək başına oxşar bir baş gətirdilər. Peyğəmbər bu başı *qənimətlərin arasına* qoyan kimi od gəlib o qənimətləri yandırdı. Belə ki, bizdən əvvəl heç bir ümmətə qənimət götürmək halal buyurulmamışdır. Uca Allah bizim zəif və aciz olduğumuzu görüb qəniməti bizə halal buyurdu."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Ərəbcədə "xalifat" sözü "xalifə" sözünün cəm forması olub boğaz dəvə mənasını verir.

**Şərh:**

Müəllifin nəql etdiyi bu hədisdə böyük möcüzələr var. Bu hədisdə Peyğəmbərimiz ﷺ bir peyğəmbər haqqında danışır. Bildirir ki, o, peyğəmbərə bir qövmə qarşı cihad etmək əmr edilmiş, fəqət o, evlənib zövcəsi ilə gərdəyə girməmiş kimsələrin, ev tikib tavanını vurmamış kimsələrin və bir də boğaz qoyun, yaxud dəvə alıb onların balalamasını gözləyən kimsələrin bu cihada qatılmalarını qadağan etmişdir. Çünki bu adamlar özləri üçün əhəmiyyət kəsb edən işlərlə məşğul idilər. Təzə evlənmiş kişinin başı, gərdəyinə girməmiş zövcəsinə qarışmışdı və onun həsrətində idi. Evini tikmiş, lakin tavanını hələ də düzəltməmiş adam da, ailəsi ilə birlikdə köçəcəyi bu evin fikrini çəkirdi. Boğaz qoyun və dəvələri olan kimsə də bunların balalayacağını gözləyirdi.

Cihada çıxan kimsə isə heç nəyin dərdini çəkməməli, dərdi yalnız cihad olmalıdır. Elə buna görə də uca Allah: ***"İşlərini* qurtaran kimi *Allah yolunda* çalış!"**[2]– buyurur. Yəni dünyəvi işlərdən azad olan kimi ibadət etməyə çalış. Hədisdə də Peyğəmbər ﷺ belə buyurur: "*Süfrəyə* yemək verildiyi zaman, habelə kiçik və böyük təbii ehtiyacı saxlayıb rəf

---

[1] Səhih əl-Buxari, 3124; Səhih Muslim, 1747.

[2] əş-Şərh, 7.

etmədən namaz qılmaq olmaz."[1] Bu, dəlildir ki, adam ibadət etmək istədikdə, qəlbini və bədənini məşğuliyyətdən azad etməlidir ki, o ibadətə şövqlə başlasın və onu tələsmədən, rahat şəkildə və bundan zövq alaraq yerinə yetirsin.

Bundan sonra o peyğəmbər döyüşə çıxmış və döyüşəcəyi yerə əsrdən sonra, axşama yaxın çatmışdır. O, qaranlıq düşdükdən sonra zəfər qazana bilməyəcəyindən ehtiyat edib, günəşə: "Sən də *Allahın* əmrinə tabesən, mən də"– deyə xitab etmişdir. Fəqət günəşə verilən əmr kovni,[2] peyğəmbərə verilən əmr isə şəri[3] əmrdir. Yəni peyğəmbərə cihad etmək, günəşə isə Allahın əmr etdiyi orbitdə hərəkət etmək əmr edilmişdir. Bu xüsusda Uca Allah belə buyurur: **"Günəş də, özü üçün müəyyən edilmiş yerdə hərəkət edər. Bu, Qüdrətli, Bilən *Allahın* əzəli hökmüdür."[4]** Allahın azzə və cəllə onu yaratdığı gündən indiyədək, o, əmr olunduğu şəkildə hərəkət etməkdədir; *əlavə olaraq* nə irəli getmir, nə geri qalmır, nə aşağı enmir, nə də yuxarı qalxmır.

Sonra o peyğəmbər: **"Allahım, günəşin batmasını bizim üçün dayandır!"**– deyə dua etdi, Allah da onu dayandırdı və o, öz vaxtında batmadı. Beləcə, o peyğəmbər döyüşü *qələbə ilə* başa çatdırdı və çoxlu qənimət əldə etdi. Əvvəlki ümmətlərə döyüşdən qənimət götürmək halal edilməmişdi. Qənimətin halal olması bu ümmətin xüsusiyyətlərindəndir. Allaha həmd olsun. Əvvəlki ümmət isə qənimətləri bir yerə topladıqda göydən alov enib onu yandırardı. O peyğəmbər qənimətləri bir yerə toplatdı, lakin alov enib onu yandırmadı. Elə buna görə də o: "Aranızda əmanətə xəyanət edənlər var"– dedi. Sonra əmr etdi ki, hər qəbilədən bir nəfər özlərində oğurluq qənimət malı olmadığına dair beyət etsin. Beyət əsnasında bir kişinin əli peyğəmbərin əlinə yapışdı. O: "Xəyanətkar sizin içinizdədir"– dedi, sonra da əmr etdi ki, o adamın həmqəbilələri gəlib bir-bir ona beyət etsinlər. Qəbilə üzvləri beyət etdikdə onlardan iki və ya üç nəfərin əli peyğəmbərin əlinə yapışdı. Peyğəmbər: "Qənimətdən oğurlanan mallar sizdədir"– dedi və onlar gedib oğurladıqları şeyi – qızıldan inək başına oxşar bir baş gətirdilər. Onu

[1] Səhih Muslim, 560.
[2] Əzəli olan.
[3] Əzəli olmayan.
[4] Ya sin, 38.

gətirib qənimətlərin arasına qoyan kimi od o qənimətləri yandırdı. Subhanəllah! Bu, Allahın möcüzələrindəndir.

Bu hədisdən çıxan faydalar bunlardır:

1. Cihad etmək bu ümmətə vacib buyurulduğu kimi, əvvəlki ümmətlərə də vacib buyurulmuşdur. Bu xüsusda Allahın kitabında neçə-neçə ayə vardır ki, bunlardan biri də Allah bu sözüdür: **"Neçə-neçə peyğəmbər *olmuşdur ki,* bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələn *müsibətlərə* görə nə zəifləmiş, nə acizlik göstərmiş, nə də *düşmənə* boyun əymişlər."**[1] "əl-Bəqərə" surəsinin 246-252-ci ayələrində zikr edilən Talutla Calut və Davudun ﷺ əhvalatı da buna dəlildir.

2. Bu hədis, Allahın əzəmətinə dəlalət edir. Həmçinin, dəlalət edir ki, kainatı idarə edən, dilədiyi zaman – məsələn, peyğəmbərinə kömək etmək, yaxud hər hansı bir şəri ondan dəf etmək və ya İslama fayda verən bir iş üçün – təbiətdəki qanunu dəyişməyə qadir olan yalnız Allahdır.

Xülasə budur ki, peyğəmbərlərə verilən möcüzələr hər bir yöndən onları dəstəkləmək üçündür. Məlumdur ki, Günəş, Allahın onu yaratdığı qayəyə görə, daim hərəkət edir və Allahın əmri olmadıqca nə dayanar, nə geri qalar, nə də irəli gedər. Lakin orada Allah ona dayanmağı əmr etmiş və peyğəmbərinə zəfər qazandıranadək, əsr və məğrib arasındakı vaxt uzanmışdır.

3. Bu hədisdə: "Göy cisimlərinin hərəkətləri dəyişməzdir"– deyən materialistlərə rəddiyə vardır. Subhanallah! Bunların orbitini kim yaradıb? Əlbəttə ki, Allah azzə və cəllə. Onları xəlq edən Allah, onlarıın hərəkətlərini də dəyişdirməyə qadirdir. Lakin materialistlər Yaradanı inkar etdikələrinə görə etiqad edirlər ki, göy cisimlərinin hərəkətləri təbiətlə əlaqəlidir və onları heç kəs idarə etmir. Halbuki Quran və Sünnədə, göy cisimlərinin hərəkətlərinin Allahın əmri ilə dəyişə bilməsinə dair dəlillər vardır. Məsələn, bu peyğəmbər, dua etmiş və günəş olduğu yerdə dayanmışdır. Habelə, müşriklər, Allahın rəsulu Muhəmməddən ﷺ, onun doğru danışdığını isbat edəcək bir möcüzə göstərməsini tələb etdikdə, Peyğəmbər ﷺ əli ilə aya işarə etmiş və ay iki yerə bölünmüşdür – bir parçası Səfa dağının üstündə, digər parçası isə Mərva da-

[1] Ali-İmran, 146.

ğının üzərində görünmüş və müşriklər də bunu müşahidə etmişlər. Bu xüsusda uca Allah belə buyurur: **"*Qiyamət* saatı yaxınlaşdı və ay yarıldı. Onlar bir möcüzə gördükdə üz döndərib: "*Bu,* davam edən bir sehrdir" deyirlər."**[1] Həmin vaxt müşriklər: "Muhəmməd bizi ovsunlayıb. Ay yarılmadı, xeyr, Muhəmməd, gözlərimizi və nəzərlərimizi ovsunladığı üçün o bizə elə göründü"– dedilər. Təbii ki, Allahın əzabına layiq olan kafir, əsla iman gətirməz. Bu xüsusda uca Allah belə buyurur: **"Həqiqətən, sənin Rəbbinin Sözü özlərinin əleyhinə doğru çıxmış kimsələr iman gətirməzlər. Onlara ayələrin hamısı gəlsə belə, ağrılı-acılı əzabı görməyincə, *iman gətirməzlər.*"**[2]

Allahdan həm bizə, həm də sizə salamatlıq bəxş etməsini və qəlbimizi haqqa yönəltməsini diləyirik! Qəlblər, ər-Rəhmanın iki barmağı arasındadır, onları istədiyi kimi çevirir və istədiyi tərəfə yönəldir. Əzab çəkməyə layiq olan kimsəyə isə nə cür dəlil gətirsən də, əsla iman gətirməz. Necə ki, müşriklər, Peyğəmbərdən ﷺ bir möcüzə göstərməsini tələb etmiş, o da onlara heç kəsin qadir olmadığı bu heyrət verici möcüzəni göstərmişdir. Lakin onlar *bunu inkar edib* demişlər: **"*Bu,* davam edən bir sehrdir. Onlar haqqı yalan saydılar və öz nəfslərinin istəklərinə uydular. Halbuki hər bir iş bərqərar olacaq."**[3]

4. Bu hədis, Allahın bu ümmətə bəxş etdiyi neməti göstərir. Belə ki, əvvəlki ümmətlərə döyüşdə kafirlərdən qənimət götürmək haram buyurulduğu halda, bu ümmətə qənimət götürmək halal buyurulmuşdur. Çünki bu qənimətlərin, İslam ümmətinə çoxlu faydası vardır; düşmənlərinə qarşı vuruşmağa dəstək olur və bu işdə onlara güc-qüdrət verir. Onlar döyüşdə ələ keçirdikləri qənimətlər sayəsində kafirlərə qarşı təkrar döyüşə bilirlər. Bu, Allahın bir lütfüdür. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Mənə beş xislət verilib ki, bunlar məndən əvvəl heç bir peyğəmbərə verilməmişdir: "...qənimətlərin mənə halal olması; belə ki, bu, məndən qabaq heç bir kəsə halal olmamışdır..."[4]

5. Hədisdə xəbər verilən Allahın möcüzələrindən biri də, qənimətdən oğurluq edən adamların əllərinin peyğəmbərin əlinə yapışmasıdır.

---

[1] əl-Qəmər, 1-2.

[2] Yunus, 96-97.

[3] əl-Qəmər, 2-3.

[4] Səhih əl-Buxari, 335; Səhih Muslim, 521.

Hərçənd insanın əlləri bir-birinə yapışa bilməz, lakin Allah hər şeyə qadirdir. İnsanlar adətən bir-birinə əl verib görüşdükdə əlləri bir-birinə yapışmır, lakin burada oğurluq edən kimsələrin əlləri peyğəmbərin əlinə yapışır. Bu da peyğəmbərə verilmiş möcüzədir. Belə ki, peyğəmbər qeybi bilmirdi.

6. Hədisdən çıxan faydalardan biri də budur ki, peyğəmbərlər qeybi bilmirlər. Onlar qeybdən yalnız Allahın onları xəbərdar etdiyi qədərini bilirlər. Özləri isə qeybi bilə bilməzlər.

Buna bənzər şeylər Peyğəmbərimizin ﷺ başına da çox gəlmişdir. Belə ki, bir çox məsələlər ona müəmmalı qalmış, yalnız Allah onu xəbərdar etdikdən sonra bilmişdir. Bu xüsusda uca Allah buyurur: **"*Peyğəmbərin zövcəsi* dedi: Bunu sənə kim xəbər verdi?" O dedi: "Bunu mənə *hər şeyi* Bilən, *hər şeydən* Xəbərdar olan *Allah* xəbər verdi!"**[1] Bu dəlildir ki, Peyğəmbər ﷺ qeybi bilmirdi.

Həmçinin, səhabələrinin harda olduqlarını və nə iş gördüklərini bilmirdi. Məsələn, rəvayət edilir ki , bir dəfə Əbu Hureyra رضي الله عنه cənabətli olduğu halda Mədinənin küçələrindən birində Peyğəmbərlə ﷺ rastlaşdı. O Peyğəmbərdən ﷺ aralanıb getdi, sonra da qüsl alıb geri qayıtdı. Peyğəmbər ﷺ: **"Harada idin, ey Əbu Hureyra?"**– deyə soruşdu..."[2] Demək, Rəsulullah ﷺ qeybi bilmirdi. Yaradılanlardan heç kəs qeybi bilmir. Bu xüsusda uca Allah belə buyurur: **"O, qeybi biləndir və Öz qeybini heç kəsə açmaz, razı qaldığı elçidən başqa. Həqiqətən, *Allah* onların önündə və arxasında gözətçilər qoyur."**[3]

7. Bu hədis həm də Allahın qudrətinə dəlalət edir. Belə ki, alovun haradan gəldiyi bilinməmişdir, nə yaş ağaclardan, nə də quru odunlardan yandırılmışdır, sadəcə Allahın əmri ilə göydən enmiş və toplanmış qəniməti yandırıb yox etmişdir. Müvəffəq edən Allahdır.

٥٩ - عن أبي خالدٍ حكيمِ بنِ حِزَامٍ رضي الله عنه، قال: قال رسولُ الله ﷺ: «الْبَيِّعَانِ بالخِيارِ ما لم يَتَفَرَّقا، فإن صَدَقَا وبيَّنا بُورِكَ لهُما في بَيْعِهِما، وإن كَتَما وكذَبَا مُحِقَتْ بَرَكَةُ بيْعِهِما» متفقٌ عليه.

---

[1] ət-Təhrim, 3.

[2] Səhih əl-Buxari, 283; Səhih Muslim, 371.

[3] əl-Cinn, 26-27.

**59.** Əbu Xalid Həkim ibn Hizam rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Satıcı və alıcı bir-birindən ayrılmadıqca ixtiyar sahibidirlər. Əgər doğru danışar və *malın qüsurunu* bəyan edərlərsə, alış-verişləri bərəkətli olar. Yox əgər *malın qüsurunu* gizlədər və yalan danışarlarsa, alış-verişlərinin bərəkəti gedər."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

Burada ərəbcə "əl-Beyyiani/iki satıcı" deyildikdə satıcı ilə alıcı qəsd edilir. İkisinin də eyni adlandırılması, üstünlük baxımındandır. Günəşə və aya "qəməran/iki ay", yaxud Əbu Bəkir ilə Ömər "Uməran/iki Ömər" deyildiyi kimi, satıcı ilə alıcıya da iki satıcı deyilir.

**"İxtiyar sahibidirlər"** yəni, onlardan hər biri, müqavilə bağladıqları məclisdən ayrılanadək, istədikləri qərarı verməkdə ixtiyar sahibidirlər. Məsələn, bir adam başqa birisinə on minə maşın satır. Hər ikisi müqavilə bağladıqları məclisdən ayrılanadək, qərarlarını dəyişməkdə ixtiyar sahibidirlər; istər satıcı, istərsə də alıcı o müqaviləni poza bilər. Bu, Allahın öz qullarına bəxş etdiyi neməti və lütfüdür. Çünki mal, başqasının əlində olanda insanın gözündə onun dəyəri artır və onu hər vasitə ilə əldə etməyə çalışır. Ona yiyələndikdən sonra isə o mala olan rəğbəti yox ola bilər, çünki artıq ona sahib olmuşdur. Elə buna görə də İslam şəriəti, alıcının və satıcının yaxşı-yaxşı fikirləşmələri və görəcəkləri işi diqqətlə ölçüb-biçmələrini buyurur. Satıcı ilə alıcı öz aralarında müqavilə bağladıqdan sonra, həmin məclisi tərk edənədək, – bu müddət uzansa, hətta on saat keçsə belə, – müqaviləni pozma haqqına sahibdirlər. Məsələn, səhər müqavilə bağlasalar və günortayadək oturub söhbət etsələr belə, məclisi tərk edənədək o müqaviləni pozmağa haqları çatır. Belə ki, hədisdəki: **"Bir-birindən ayrılmadıqca"** ifadəsi ümumiyyətlə buna dəlalət edir. İbn Ömərin rəvayət etdiyi hədisdə isə belə deyilir: **"Onlardan biri digərinə seçim verənədək."**[2] Yəni biri o birinə: "Müqaviləni pozmaq yalnız sənin haqqındır"– desə, bu haqq sadəcə birinin olur. İkincinin isə müqaviləni pozmaq haqqı olur. Yaxud hər

---

[1] Səhih əl-Buxari, 2079; Səhih Muslim, 1532.

[2] Səhih əl-Buxari, 2112; Səhih Muslim, 1531.

ikisi: “Müqaviləni pozmağa haqqımız yoxdur”– desə, heç birinin onu pozmağa haqqı olmaz. Dolayısıyla, bunun dörd halı ola bilər:

1-cisi hər iki tərəfin müqaviləni pozmaq haqqına sahib olmasıdır. Bu, heç bir şərt qoymadan alış-veriş etdikdə baş verir. Belə olduğu halda, hər ikisinin məclisi tərk edənədək müqaviləni pozmaqda seçim haqqı olur.

2-ci hal, heç birinin müqaviləni pozmaq haqqına sahib olmadığına dair şərt qoymalarıdır. Belə olduğu halda, müqavilə bağlanan kimi alış-veriş tamamlanmalıdır. Bundan sonra heç birinin seçim haqqı qalmır.

3-cü hal, yalnız satıcının müqaviləni pozmaq haqqına sahib olmağına dair şərt qoymalarıdır. Belə olduğu halda, alıcı yox, ancaq satıcı ixtiyar sahibidir (o müqaviləni poza bilər).

4-cü hal, yalnız alıcının müqaviləni pozmaq haqqına sahib olmağına dair şərt qoymalarıdır. Belə olduğu halda, satıcı yox, ancaq alıcı ixtiyar sahibidir (o müqaviləni poza bilər). Belə ki, müqaviləni pozmaq, həm satıcının, həm alıcının haqqıdır. Və əgər hər ikisi, yaxud ikisindən biri bu haqdan imtina edərsə, qoyduqları şərtə əməl etməli və həddi aşmamalıdırlar. Çünki Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Haramı halal və ya halalı haram buyuran şərtlər müstəsna olmaqla, müsəlmanlar qoyduqları şərtlərə riayət etməlidirlər.”**[1]

Peyğəmbərin ﷺ: **“Birbirindən ayrılmadıqca”**– deyəndə, onların necə ayrıldıqlarını bəyan etməmişdir. Fəqət burada onların sözdə deyil, bədənlə ayrılması qəsd edilir. Elə ki, bir-birlərindən ayrıldılar, artıq heç birində sözləşməni pozmaq ixtiyarı qalmır və onu yerinə yetirmək vacib olur.

Peyğəmbərin: **“Əgər doğru danışar və *malın qüsurunu* bəyan edərlərsə, alış-verişləri bərəkətli olar”** sözü, bu hədisin bu fəsilə aid olan hissəsidir. Çünki, bu fəsil doğruluq fəslidir.

**“Əgər doğru danışar və *malın qüsurunu* bəyan edərlərsə, alış-verişləri bərəkətli olar.”** Yəni, əgər satıcı və alıcı, malın cəlbedici üstünlüklərini doğru-düzgün vəsf etsələr, habelə, malda olan qüsurları bəyan etsələr, o zaman alış-verişləri bərəkətli olar. Məsələn, adam birisinə bir

[1] Sunən ət-Tirmizi, 1352; İrva əl-Ğəlil, 1303.

maşın satarkən: "Bu maşın təzədir, filan ildə istehsal olunub. Təmiz maşındır, filan və filan üstünlükləri var" – deyərək maşında olmayan üstünlüklərlə onu tərifləyərsə, yalan danışmış olar. Və əgər maşının qüsurları olduğu halda onları bildirmədən onu satarsa, o zaman onun qüsurlarını gizlətmiş və onları bəyan etməmiş sayılar. Bərəkət isə doğru danışmaqda və nöqsanları bəyan etməkdədir. Doğru danışmaqla bəyan etmək arasındakı fərq budur ki, malın cəlbedici üstünlüklərini düzgün vəsf etmək, doğru danışmaq, malda olan qüsurları bildirmək də, bəyan etmək sayılır. Qısası, qüsuru gizlətmək, bəyan etməyin əksi, malda olmayan keyfiyyətlərlə onu tərifləmək isə doğru danışmağın əksidir.

Başqa bir misal göstərək; bir adam qoyun satarkən, yalandan: "Bu, çoxlu süd verən qoyundur, filan qədər süd verir"– desə, bu, doğru danışmağın əksi sayılar. Çünki o, bu malı onda olmayan cəlbedici vəsflərlə vəsf etmişdir. Əgər bu qoyunda xəstəlik olduğu təqdirdə onu gizlədərsə, malı bəyan etməmiş sayılar. Və əgər qoyunda olmayan vəsflərlə onu tərifləyərsə, yalan danışmış sayılar. Demək, bəyan etmək, qüsurları bildirmək üçün, doğru danışmaq da üstün keyfiyyətləri bildirmək üçündür.

Bu günkü gün bəzi insanlar mal satdıqda onun yaxşısını üstə, xarabını isə alta qoyur. Beləsi də, həmçinin, nə bəyan etmiş, nə də doğru danışmış sayılır. Bəyan etməmişdir, çünki xurmanın qüsurunu gizlətmiş; doğru danışmamışdır, çünki xurmaların xarab olduğunu gizlədərək onların keyfiyyətli olduğunu göstərmişdir.

Həmçinin, bəzi adamlar maşın satarkən, onu sərgidə satır və satıcı maşının qüsuru olduğunu yəqin bildiyi halda, onu gizlədir və müştəriyə: "Özün bax gör nə nöqsanı var"– deyir, müştəri də baxır. Əgər müştəriyə maşının eyibini göstərərsə, təbii ki, o bu maşını almaz. Odur ki, insanlara kəf gələrək *kinayə ilə* deyirlər ki: "Bu maşında nə qədər desən eyib var. Sənə bu maşının ancaq təkərlərini və faralarını satacam." Adam maşının qüsuru olduğunu yəqin bilir, lakin yalan danışır və onu müştəridən gizlədir. Bu da, həm dəllala (sərginin sahibinə), həm də maşın sahibinə haramdır. Hər ikisinə vacibdir ki, maşını satdıqda, müştəriyə bəyan edib desinlər ki: "Bu maşında filan və filan qüsurlar var." Lakin qüsurdan xəbəri olmadığı halda o malı sata bilər.

## Beşinci fəsil

## Nəzarət etmə

**Mövzu ilə bağlı ayələr:**

Uca Allah belə buyurur:

﴿ٱلَّذِي يَرَىٰكَ حِينَ تَقُومُ ۝ وَتَقَلُّبَكَ فِي ٱلسَّٰجِدِينَ﴾

**“O səni *namaza* duranda da görür, səcdə edənlər içində hərəkət edəndə də.”[1]**

﴿وَهُوَ مَعَكُمۡ أَيۡنَ مَا كُنتُمۡ﴾

**“Harada olursunuz olun, O sizinlədir.”[2]**

﴿إِنَّ ٱللَّهَ لَا يَخۡفَىٰ عَلَيۡهِ شَيۡءٞ فِي ٱلۡأَرۡضِ وَلَا فِي ٱلسَّمَآءِ﴾

**“Şübhəsiz ki, nə yerdə, nə də göydə, heç bir şey Allahdan gizli qalmaz.”[3]**

﴿إِنَّ رَبَّكَ لَبِٱلۡمِرۡصَادِ﴾

**“Həqiqətən, sənin Rəbbin nəzarət edir.”[4]**

﴿يَعۡلَمُ خَآئِنَةَ ٱلۡأَعۡيُنِ وَمَا تُخۡفِي ٱلصُّدُورُ﴾

**“*Allah* gözlərin xain baxışını və köksların *nələr* gizlətdiyini bilir.”[5]**
Bu mövzuaya aid bir çox başqa ayələr də vardır.

**Şərh:**

Müəllif رحمه الله “Doğruluq” mövzusu ilə əlaqəli ayə və hədisləri zikr etdikdən sonra “Nəzarət etmə” mövzusundan danışır.

---

[1] əş-Şuəra, 218-219.
[2] əl-Hədid, 4.
[3] Ali-İmran, 5.
[4] əl-Fəcr, 14.
[5] Ğafir, 19.

Nəzarət etmə iki məna ifadə edir:

Birincisi, sənin, uca Allahın nəzarət etdiyini bilməyindir;

İkincisi isə, uca Allahın sənə nəzarət etməsidir. Bu xüsusda uca Allah belə buyurur: **“Allah hər şeyə nəzarət edəndir.”**[1]

Sənin, Allahın nəzarət etdiyini bilməyin o deməkdir ki, sən, Allahın sənin danışdığın sözlərdən, etdiyin hərəkətlərdən və qəlbindəki etiqadlardan xəbəri olduğunu bilməlisən. Bu xüsusda uca Allah belə buyurur: **“Qüdrətli və Rəhmli olan *Allaha* təvəkkül et! O səni *namaza* duranda da görür, səcdə edənlər içində hərəkət edəndə də.”**[2]

**“Namaza duranda”**, yəni insan gecə vaxtı, heç kəsin görmədiyi sakit bir yerdə namaz qılarkən Allah onu görür. Hətta həmin vaxt hər tərəf zülmət qaranlıq içində olsa belə, Allah, o insanı görür.

**“Səcdə edənlər içində hərəkət edəndə də”**, yəni, sənin həmin vaxt Allaha səcdə edənlər arasında olmağını, onlarla bərabər olduğunu, qiyamda durduğunu və səcdə etdiyini uca Allah görür. Ayədə sadəcə qiyam[3] ilə səcdənin zikr edilməsinin səbəbi budur ki, namazdakı qiyam, əhatə etdiyi zikr etibarilə səcdədən daha fəzilətli, səcdə isə hal etibarı ilə qiyamdan daha fəzilətli sayılır. Qiyamın zikr baxımından səcdədən fəzilətli olmasının səbəbi, bu halda oxunan zikrin Quran olmasıdır. Quran isə ən fəzilətli kəlamdır. Səcdənin hal etibarilə qiyamdan fəzilətli olmasının səbəbi də, səcdədə olan insanın Rəbbinə daha yaxın olmasıdır. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ: **“Qulun Rəbbinə ən yaxın olduğu hal, səcdəyə qapandığı halıdır”**– demişdir.[4] Elə buna görə də bizə səcdədə çoxlu dua etmək əmr olunmuşdur.

Allahın nəzarət etdiyini bilməyinə o da aiddir ki, sən Onun səni eşitdiyini bilməlisən. Yəni, nə danışırsansa, uca Allah onu eşidir. Bu xüsusda uca Allah belə buyurur: **“Yoxsa onlar elə hesab edirlər ki, Biz onların sirlərini və gizli danışıqlarını eşitmirik?! Xeyr, onların yanında *əməlləri* yazan elçilərimiz var.”**[5] Yəni, Allah hər şeyi eşidir.

---

[1] əl-Əhzab, 52.

[2] əş-Şuəra, 217-219.

[3] Qiyam: ayaq üstə Allahın qarşısında namaza durmaqdır.

[4] Səhih Muslim, 482.

[5] əz-Zuxruf, 80.

Bundan əlavə, gizlində və ya aşkarda danışdığın hər bir xeyir və ya şər, sənin ya lehinə, ya da əleyinə yazılır. Bu xüsusda Uca Allab belə buyurur: **"Dediyi elə bir söz yoxdur ki,** ***onu yazmaq üçün*** **yanında hazır durmuş gözətçi olmasın."**[1] Elə isə bu məsələyə diqqət et və elə söz danışma ki, Qiyamət günü ona görə hesaba çəkilib peşman olasan. Həmişə haqqı söyləməyə, ya da susmağa çalış. Çünki Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun."**[2]

Üçüncüsü, bilməlisən ki, Allah sənin sirrini və qəlbində olanları bilir. Elə isə qəlbində, şirk, riya, xurafat, möminlərə qarşı kin-küdurət və nifrət, kafirlərə sevgi və başqa bu kimi, Allahın razı qalmadığı duyğulardan hansının olub-olmadığına diqqət et. Qəlbini daim nəzarətdə saxla, onu həmişə yoxla. Çünki uca Allah buyurur: **"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik."**[3] Yəni insan danışmamışdan əvvəl Allah onun qəlbində nələr olduğunu bilir. Elə isə, bu üç şeyə, yəni etdiyin hərəkətlərə, danışdığın sözlərə və qəlbində olanlara, Allahın nəzarət etdiyini bilməlisən ki, tam şəkildə əməllərinə nəzarət etmiş olasan. Elə buna görə də, Peyğəmbərdən ﷺ ehsan barədə soruşulduqda, o belə buyurmuşdur: ***"Ehsan odur ki,*** **Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də,** ***bil ki,*** **O səni görür."**[4] Yəni, sanki Allahı gözlərinlə görürmüşsən kimi Ona ibadət et. Əgər bunu edə bilməsən, bil ki, o səni görür.

Bunların birincisi, rəğbət və istəklə, yəni Allahı sanki görürmüşsən kimi Ona ibadət etmək; ikincisi isə Ondan qorxaraq və əzabından həzər edərək ibadət etməkdir. Elə buna görə də Peyğəmbər ﷺ: **"Sən Onu görməsən də,** ***bil ki,*** **O səni görür."**– deyir. Demək, insan, daim Rəbbinin ona nəzarət etdiyini bilməlidir. Bilməlidir ki, Allah onun gizlində dediyi hər bir sözü, etdiyi hər bir hərəkəti və qəlbindəki hər bir niyyəti bilir.

---

[1] Qaf, 18.

[2] Səhih əl-Buxari, 6108; Səhih Muslim, 47.

[3] Qaf, 16.

[4] Səhih Muslim, 8.

Müəllif ﷺ bu fəsildə mövzu ilə əlaqəli ayələri zikr etmişdir. İlk ayə, bir qədər əvvəl oxuduğumuz ayədir. Bu ayədə uca Allah Öz Peyğəmbəri Muhəmmədə ﷺ belə buyurur: **"Qüdrətli və Rəhmli olan *Allaha* təvəkkül et! O səni *namaza* duranda da görür, səcdə edənlər içində hərəkət edəndə də. Həqiqətən də, O, Eşidəndir, Biləndir!"**[1]

Müəllifin ﷺ mövzu ilə əlaqəli zikr etdiyi ikinci ayədə uca Allah buyurur: **"Harada olursunuz olun, O sizinlədir."**[2] Burada "O" şəxs əvəzliyi Allaha aiddir. Yəni insanlar harada olursa olsun, – istər quruda, istər dənizdə, istər havada, istər qaranlıqda, istərsə də aydınlıqda olsunlar pak və müqəddəs Allah onların yanında olur. Hansı halda və harada olursunuz olun, O sizin yanınızda olur. Bu da, Allahın bizi tam şəkildə – elmi, qüdrəti, hökmü və idarə etməsi ilə əhatə etdiyinə dəlalət edir. Bu heç də o demək deyil ki, uca Allah biz olduğumuz məkanda bizim yanımızda olur. Belə ki, uca Allah hər şeyin fövqündədir. Bu xüsusda uca Allah belə buyurur: **"Mərhəmətli *Allah* Ərşin üzərində ucaldı."**[3] **"O Öz qulları üzərində mütləq hakimiyyət sahibidir."**[4] **"Göydə olan *Allahın* sizi yerə batırmayacağına əminsinizmi?"**[5] **"O, Ucadır, Əzəmətlidir."**[6] **"Ən Uca Rəbbinin adına təriflər de!"**[7] Quranda Allahın hər şeyin fövqündə olmasına dəlalət edən neçə-neçə başqa ayələr də vardır. Allahın xislətləri və sifətləri xüsusunda heç bir tayı bərabəri yoxdur. O, bizə yaxın olduğu halda yüksəkdə və yüksəkdə olduğu halda bizə yaxındır. Bu xüsusda uca Allah buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm."**[8] Biz Allahın yer üzündə olduğuna etiqad etməməliyik. Əgər belə düşünsək, Allahın hər şeydən uca olduğunu inkar etmiş olarıq. Eləcə də bilməliyik ki, heç bir məxluq Allahı əhatə edə bilməz. **"Onun Kürsüsü göyləri və yeri**

---

[1] əş-Şuəra, 217-220.
[2] əl-Hədid, 4.
[3] Ta ha, 5.
[4] əl-Ənam, 18.
[5] əl-Mulk, 16.
[6] əl-Bəqərə, 255.
[7] əl-Əla, 1.
[8] əl-Bəqərə, 186.

**əhatə edir."**[1] Kürsü, göyləri və yeri tam şəkildə əhatə edir. Kürsü, ər-Rəhmanın ayaq qoyduğu yerdir. Ərş isə ondan dəfələrcə böyükdür. Necə ki, hədisdə Peyğəmbər ﷺ buyurur: **"Yeddi göy və yeddi yer, kürsüyə nisbəttə səhraya atılmış bir həlqə kimidir."** Yəni, səhraya, geniş bir əraziyə atılmış dəbilqənin həlqəsi kimi bir həlqədir. Bu həlqə səhraya nisbətdə heç bir şeydir.

Sonra Peyğəmbər ﷺ buyurdu: **"Ərşin kürsüdən olan böyüklüyü isə səhranın o həlqədən olan böyüklüyü qədərdir."**[2] *Əgər bu məxluqların biri digərindən bu qədər böyükdürsə,* bəs bunları yaradan Xaliq necə? Əlbəttə ki, pak və müqəddəs Xaliqin yerdə olması mümkün deyil. Çünki məxluqatdan heç bir şey Onu əhatə edə bilməz.

**"Siz harada olsanız, O sizinlədir."**[3] Bil ki, Allahın məxluqatın yanında olmasının mənası, cümlə quruluşuna bağlıdır:

Bəzən bu, Öz elmi, qüdrəti, hökmü və idarə etməsi ilə məxluqatı əhatə etdiyini ifadə edir. **"Siz harada olsanız, O sizinlədir"** ayəsində olduğu kimi. Həmçinin, bu ayədə olduğu kimi: **"Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, *onların* dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, *Allah* onlarladır."**[4]

Bəzən Allahın məxluqatın yanında olması deyldikdə, təhdid və qorxutmaq qəsd edilir. Bu xüsusda uca Allah belə buyurur: **"Onlar *Allahın* razı qalmadığı sözləri gecələr xəlvətdə söyləyərkən, *onu* insanlardan gizlədir, öz yanlarında olan Allahdan isə gizlətmirlər. Allah onların nə etdiklərini əhatə edir."**[5] Bu ayə onları təhdid edir və qorxudur ki, Allahın razı qalmadığı sözləri xəlvətdə söyləyib insanlardan gizlətdikdə elə güman etməsinlər ki, Allah bunu bilmir. Allah hər şeyi Biləndir.

Bəzən isə bu, kömək, dəstək, möhkəmləndirmək və buna bənzər mənaları ifadə edir. Bu xüsusda uca Allah belə buyurur: **"Həqiqətən, Allah *Ondan* qorxanlar və yaxşı işlər görənlərlədir."**[6] O, həmçinin, bu-

---

[1] əl-Bəqərə, 255.
[2] Təfsir İbn Kəsir, 1/332; Təfsir ət-Təbəri, 3/12; Silsilə əl-Əhadis əs-Səhihə, 109.
[3] əl-Hədid, 4.
[4] əl-Mucadilə, 7.
[5] ən-Nisa, 108.
[6] ən-Nəhl, 128.

yurur: **“Siz *cihadda* zəiflik göstərməyin və üstün olduğunuz halda *kafirləri* sülhə çağırmayın! Allah sizinlədir. O sizin əməllərinizi əsla əskiltməz.”**[1] Bu mənanı ifadə edən ayələr çoxdur.

Allahın məxluqatın yanında olmasını ifadə edən bu mənaların üçüncüsü, bəzən məxluqata vəsf olaraq, bəzən də şəxsən aid edilir. Məsələn, **“Həqiqətən, Allah *Ondan* qorxanlar və yaxşı işlər görənlərlədir.”**[2] ayəsində bu, məxluqata vəsf olaraq aid edilir. Yəni kim bu vəsflərə malik olar – Allahdan qorxar və yaxşı işlər görərsə, Allah onun yanında olar. Bəzən isə bu, şəxsən bir kimsəyə aid olur. Məsələn: **“Əgər siz ona kömək etməsəniz, *bilin ki,* Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq *Məkkədən* çıxartdılar. O iki nəfər mağarada olarkən *onlardan* biri öz dostuna dedi: “Qəm yemə, Allah bizimlədir!”**[3] ayəsində bu, Rəsulullaha ﷺ və Əbu Bəkrə رضي الله عنه aiddir. Belə ki, onlar mağarada ikən Əbu Bəkr رضي الله عنه Rəsulullaha ﷺ demişdir: “Ya Rəsulullah, əgər onlardan biri öz ayaqlarının altına baxsa, bizi görəcək.” Həmin vaxt qureyşlilər Rəsulullahı ﷺ və Əbu Bəkri رضي الله عنه ciddi şəkildə axtarırdılar. Elə bir dağ qalmamışdı ki, ora çıxmış olmasınlar; elə bir vadi qalmamışdı ki, ora enmiş olmasınlar; və elə bir səhralıq qalmamışdı ki, ora xəbər yollayıb, Rəsulullahı ﷺ və Əbu Bəkri رضي الله عنه tutub gətirən adama iki yüz dəvə – hər biri üçün yüz dəvə – verəcəklərini vəd etmiş olmasınlar. Müşriklər onları axtarmaqdan yoruldular, lakin Allah onların yanında idi. Nəhayət, onlar gəlib mağaranın ağzında durduqda, Əbu Bəkr رضي الله عنه dedi: “Əgər onlardan biri öz ayaqlarının altına baxsa, bizi görəcək.” Rəsulullah ﷺ də ona belə cavab verdi: **“Qəm yemə, Allah bizimlədir. Üçüncüsü Allah olan iki nəfər haqqında nə düşünürsən?”**[4] Vallahi, belə olduğu təqdirdə heç kəs onları yenə bilməz və heç kəsin onlara gücü çatmazdı. Elə belə də oldu. Mağaranın girəcəyində heç bir mane olmadığı halda, müşriklər onları görmədilər. Mağaranın girişinə hörümçəyin tor qurması, yaxud mağaranın girəcəyinə göyərçinlərin qonması, yaxud da mağaranın ağzında

---

[1] Muhəmməd, 35.

[2] ən-Nəhl, 128.

[3] ət-Tovbə, 40.

[4] Səhih əl-Buxari, 3922; Səhih Muslim, 2381.

ağac bitməsi haqqında deyilənlər isə doğru deyil. Bu, yalnız Allahın köməyi ilə olmuşdur. Çünki Allah onların yanında idi.

Uca Allah Musa عليه السلام və Harunu عليه السلام Fironun yanına göndərdikdə, onların yanında olduğunu xəbər vermişdir: **“Onlar dedilər: “Ey Rəbbimiz! Biz, onun bizə şiddətli cəza verməsindən və ya həddini aşmasından qorxuruq.”** ***Allah*** **buyurdu: “Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!”**[1] Allahu Əkbər! *Allah*: **“Mən sizinləyəm, eşidirəm və görürəm!”**– deyir. Allah Musanın عليه السلام və Harunun عليه السلام yanında olduğu halda, Firon və onun əsgərləri onlara zərər yetirə bilərdimi?! Bu, mümkün deyildi. Bu da, Allahın xüsusilə müəyyən şəxsin yanında olmasına aiddir.

Xülasə, biz iman gətirməliyik ki, Allah məxluqatın yanında olduğu halda, həm də Ərşinin üzərindədir. Və heç kəsin xüsusiyyətləri Allahın xüsusiyyətlərinə tay-bərabər ola bilməz. Nə sən, nə də başqa birisi Allahın həm bizim yanımızda, həm də səmada olduğunu dərk edə bilməz. Hərçənd Allahı məxluqatla müqayisə etmək olmaz, lakin məxluqun belə eyni vaxtda həm yüksəkdə, həm də kiminləsə bərabər olması mümkündür. Kimsə bizdən: “Ay haradadır?”– deyə soruşsa, biz: “Göydədir”– deyə cavab verərik. Necə ki, uca Allah buyurur: ***“Göydə*** **ayı bir nur etdi...”**[2] Həmçinin, kimsə bizə: “Ulduz haradadır?”– desə, biz: “Göydədir”– deyərik. Necə ki, ərəb dilində: “Səfərimiz boyunca ay bizimlə idi”, yaxud “Səfərimiz boyunca ulduz bizimlə idi”– deyilir. Halbuki hər kəs bilir ki, ay da, ulduz da göydədir. Lakin onlar eyni vaxtda da, yanımızdadır. Çünki hələ batmamışdır. Xülasə budur ki, uca Allah Ərşinin üzərində – yaradılanların hamısının fövqündədir.

Bu ayə, sənə doğru yol və düzgün mənhəc tutmağı göstərir. Belə ki, əgər sən, Allahın sənin yanında olduğuna iman etsən, Ondan qorxar və Onun sənə nəzarət etdiyini yəqin bilərsən. Sən harada olursan ol, O səni görür. Hətta heç bir kimsənin olmadığı qaranlıq bir otaqda olsan, yanında heç kəs olmasa da, uca Allah sənin yanında olur. Lakin *zatı ilə* sənin olduğun yerdə olmur, sadəcə səni əhatə edir və sənin əməllərindən

---

[1] Ta ha, 45-46.

[2] Nuh, 16.

heç bir şey Ondan gizli qalmır. Beləliklə də, sən Onun sənə nəzarət etdiyini bilir, Ondan qorxur, Ona itaət edir və Onun qadağan etdiklərini tərk edirsən. Müvəffəq edən Allahdır.

Müəllifin ﷺ bu fəsildə zikr etdiyi üçüncü ayədə uca Allah buyurur: **"Şübhəsiz ki, nə yerdə, nə də göydə, heç bir şey Allahdan gizli qalmaz."**[1] Bu ayədə zikr edilən "şey" kəliməsi, inkar cümləsində, qeyri-müəyyən mənada işləndiyi üçün ümümilik ifadə edərək və hər şeyi əhatə edir. Yəni yerdə və göydə heç bir şey Allahdan gizli qalmaz. Uca Allah, bunu başqa bir ayədə geniş bir şəkildə izah edərək belə buyurur: **"Qeybin açarları Onun yanındadır. Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru *şey* yoxdur ki, açıq-aydın kitabda olmasın."**[2] Alimlər deyirlər ki: "Əgər Allahın yerə düşən hər bir quru yarpaqdan xəbəri varsa, xəlq edib bitirdiyi təzə yarpağı, əlbəttə ki, daha yaxşı bilir."

**"Yerin qaranlıqlarında elə bir toxum yoxdur ki..."** cümləsindəki "toxum" kəlməsi, qəti inkar cümləsində, qeyri-müəyyən mənada işləndiyinə görə, özündən əvvəlki cümləni bir daha təsdiqləyir. Yəni, hər bir balaca və böyük yarpağa da aid olduğunu ifadə edir.

Fərz edək ki, bir toxum dənizin dibindəki palçığın içindədir. Belə olduğu halda bu, beş qat qaranlığın içində olur.

Birinci qaranlıq: Toxumun basdırılmış olduğu palçığın qaranlığı;

İkincisi: Dənizdəki suyun qaranlığı;

Üçüncüsü: Gecənin qaranlığı;

Dördüncüsü: Göydəki üst-üstə yığılmış buludların qaranlığı;

Beşincisi də: Yağan yağışın əmələ gətirdiyi qaranlıqdır.

Bu balaca toxumun üzərində beş qat qaranlığın olmasına rəğmən, Allah ondan xəbərdardır.

**"Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru *şey* yoxdur ki, açıq-aydın kitabda olmasın."** Yəni, aləmlərin Rəbbi yanında, yazılmış, açıq-aydın şəkildə bəyan olunmuş və məlum olmuş olmasın.

---

[1] Ali-İmran, 5.

[2] əl-Ənam, 59.

Allahın elmi bu qədər geniş olduğuna görə, mömin adam Allahın ona nəzarət etdiyini bilməli, aşkarda Ondan qorxduğu kimi, gizlində də Ondan qorxmalıdır. Hətta daha çox uğur qazanan kəs o kimsədir ki, gizlində Allahdan daha çox qorxur. Çünki gizlində Allahdan qorxmaq, daha ixlaslı olmaq deməkdir. Belə ki həmin vaxt adamın yanında heç kəs olmur. İnsanların olduğu yerdə Allahdan qorxmaq məsələsində isə adamın qəlbinə riya və özünü göstərmək istəyi gələ bilər.

Elə isə, – ey müsəlman qardaşım, çalış, daim Allahın nəzarətində olduğunu düşün və Onun əmrlərini yerinə yetirib, qadağan etdiklərindən çəkinməklə Ona itaət et. Allahdan istəyimiz budur ki, bu işdə bizə yardım etsin! Əgər O, bizə yardım etməsə, rəzil olarıq. Odur ki, uca Allah buyurur: **"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik."**[1] Əgər adam haqq yola və şəriətin buyuruqlarını yerinə yetirməyə müfəvvəq olarsa, Allahın nemətlərinə nail olmuş olar.

**"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. Bizi doğru yola yönəlt!"**[2] Demək, yerinə yetirilən ibadət, doğru yol üzərində olmalıdır, yoxsa bu, adama ancaq zərər yetirər. Bu üç əsas, Allahın nemət bəxş etdiyi qullarının yoludur. Odur ki, uca Allah buyurur: **"Bizi doğru yola yönəlt – nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların *yoluna* yox!"**[3]

Müəllifin ﷺ bu fəsildə zikr etdiyi dördüncü ayədə uca Allah buyurur: **"Həqiqətən, sənin Rəbbin nəzarət edir."**[4] Uca Allah bunu Ad, Səmud və başqa qövmləri həlak etdiyini bildirdikdən sonra buyurmuşdur: **"Məgər görmədinmi ki, Rəbbin nələr etdi Ad *qövmünə* – sütunlar sahibi İrəm *qəbiləsinə*? Halbuki, yer üzündə onlar kimisi xəlq edilməmişdi; *habelə* vadidə qayaları yonan Səmud *qövmünə*? Eləcə də sütunlar sahibi Firona? Onlar o kəslər idi ki, ölkələrində həddi aşmış, çoxlu fitnə-fəsad törətmişdilər. Rəbbin də onları əzabla qamçıladı. Həqiqətən, sənin Rəbbin nəzarət edir."**[5] Bununla, uca Allah, hər

---

[1] əl-Fatihə, 5.
[2] əl-Fatihə, 5-6.
[3] əl-Fatihə, 6-7.
[4] əl-Fəcr, 14.
[5] əl-Fəcr, 6-14.

bir azğına nəzarət etdiyini, habelə, onların belini qırdığını və onları darmadağın edib yox etdiyini bəyan edir.

Ad qövmü – sütunlar sahibi olan İrəm qəbiləsi, yəni möhkəm sütunlar üzərində tikilmiş böyük evlərə sahib olan qəbilə. Uca Allah onlara böyük bir güc vermişdi, onlar isə yer üzündə təkəbbür göstərib dedilər: "Bizdən daha qüvvətli kim ola bilər?!" Uca Allah da cavabında belə buyurur: **"Məgər onlar görmürdülər ki, onları yaradan Allah onlardan daha qüvvətlidir?!"**[1] Uca Allah, bu ayədə Özünün onlardan daha qüvvətli olduğunu bildirir və buna dair əqli bir dəlil gətirir. Bu dəlil onları yaradanın Allah olmasıdır. Odur ki, uca Allah: "Məgər onlar görmürdülər ki, Allah onlardan daha qüvvətlidir?!" yox, **"Məgər onlar görmürdülər ki, <u>onları yaradan</u> Allah onlardan daha qüvvətlidir?!"** deyir. Çünki ağıla görə məlum olan açıq-aşkar həqiqət budur ki, Yaradan, yaradılanlardan güclü olur. Dolayısıyla, onları yaradan Allah, onlardan daha güclüdür. **"Onlar ayələrimizi inkar edirdilər."**[2] Allah da onlara bəla göndərdi – onlara şiddətli quraqlıq üz verdi, göydən bir damla belə yağış yağmadı və onlar əllərini göyə qaldırıb yalvardılar, yəni Allahın onlara yağış endirəcəyini gözlədilər. Nəhayət, bir gün səhər Allah onların üstünə xeyir-bərəkətsiz bir külək göndərdi. Torpaq və qumları toplayıb onları sanki bulud halına gətirən bu əzəmətli külək onları yerlə yeksan etdi: **"Nəhayət, o *əzabı* vadilərinə doğru gələn bir bulud şəklində gördükdə: "Bu, bizə yağış yağdıracaq bir buluddur!"– dedilər."**[3] Allahın hikmətindəndir ki, bu qasırğa adi şəkildə gəlmədi. Əzabın şiddətinin daha çox olması üçün o elə bir şəkildə gəldi ki, onlar onun onlara yağış nazil edəcək bulud olduğuna ümid etdilər. Onlar bu küləyin sayəsində yağış yağacağını güman etdilər, lakin bu külək onları yerlə yeksan etdi. Belə ki, insan sıxıntıdan qurtulacağına ümid etdiyi vaxt ona əzab gəldikdə, bu onun üçün daha şiddətli olur. Bu, bir adama bir miqdar pul verib sonra bu pulları onun əlindən almağınıza bənzəyir. Belə ki, bu, ona pul verməməkdən daha ağırdır.

---

[1] Fussilət, 15.
[2] Əvvəlki mənbə.
[3] əl-Əhqaf, 24.

**"Nəhayət, o** *əzabı* **vadilərinə doğru gələn bir bulud şəklində gördükdə: "Bu, bizə yağış yağdıracaq bir buluddur!"– dedilər."**[1] Onlar özlərinə göndərilmiş *Hud* peyğəmbəri hədələyib: "Əgər əzab gətirməyə qadirsənsə və doğru danışırsansa, gətir onu görək"– deyirdilər. Nəhayət əzab onlara yetişdi. "**Bu, sizin tez gəlməsini istədiyiniz – özü ilə ağrılı-acılı əzab gətirən bir küləkdir! O öz Rəbbinin əmri ilə hər şeyi yerlə yeksan edəcək!" Onlar elə** *məhv* **oldular ki, evlərindən başqa heç bir şey görünmədi."**[2] Allah bizi qorusun! Qasırğa onların üzərinə yeddi gecə səkkiz gün boyunca əsdi. O, səhər tezdən başlayıb *səkkizinci gün* gün batanda dayandı. Beləliklə bu qasırğa yeddi gecə, səkkiz gün fasilə vermədən onların üstündə əsdi və onları darmadağın edib yerlə yeksan etdi. Qasırğa elə şiddətli idi ki, insanları alıb göyə qaldırır, sonra da yerə çırpırdı. Onlar xurma ağacının yıxılmış çürük gövdələri kimi yerə sərilmişdilər. Hamısıda səcdə halında idi. Çünki qasırğa onları göyə qaldırıb yerə çırpdıqdan sonra üzüqoylu səcdəyə qapıldılar ki, qasırğadan qurtula bilsinlər. Lakin bu onlara fayda vermədi.

Uca Allah belə buyurur: **"Biz onlara dünya həyatında rüsvayçılıq əzabını daddırmaq üçün uğursuz günlərdə üstlərinə vıyıltılı külək göndərdik. Axirət əzabı isə daha rüsvayedicidir. Onlara kömək də edilməz."**[3] Allah bizi qorusun!

**"Vadidə qayaları yonan Səmud** *qövmü də***"**[4] həmçinin, azğınlıq və asilik edir, üstəlik, özlərinə göndərilmiş peyğəmbəri hədələyirdilər. Hətta peyğəmbərlərinə: **"Ey Saleh! Sən bundan əvvəl içərimizdə ümid edilən bir kimsə idin"**[5]– demişdilər. Yəni biz səni ağıllı adam bilir və barəndə yaxşı zənn edirdik, lakin indi sənin səfeh olduğunu görürük. Çünki elə bir peyğəmbər göndərilməyib ki, qövmü ona "sehrbaz" yaxud "dəli" deməsin. Bu xüsusda uca Allah belə buyurur: **"Onlardan əvvəlkilərə elə bir peyğəmbər gəlmədi ki,** *onun barəsində*: **"Sehrbazdır, ya da dəlidir!"– deməsinlər."**[6]

---

[1] Əvvəlki mənbə.
[2] əl-Əhqaf, 24-25.
[3] Fussilət, 16.
[4] əl-Fəcr, 9.
[5] Hud, 62.
[6] əz-Zariyat, 52.

Uca Allah Səmud qövmünə üç gün möhlət verdi. **"*Saleh* dedi: "Yurdunuzda üç gün də kef eləyin. Bu, yalan olmayan bir vəddir"**[1] Üç gün keçdikdə, yer lərzəyə gəldi və onları tükürpədici bir səs bürüdü. Beləliklə, onlar, ağacın üzərində uzun müddət qalıb günəşdən və ya soyuqdan yanan xurma yarpaqları kimi oldular. Son nəfərədək hər kəs öldü.

Firona gəlincə, nə bilirsən Firon kimdir? O, yer üzündə asilik edən, Allahı inkar edən, Musaya ﷺ: "Aləmlərin Rəbbi kimdir?!"– deyən və öz qövmünə: "Sizin məndən başqa ilahınız yoxdur"– deyən qəddar və təkəbbürlü bir adam idi. İstehza edərək vəziri Hamana belə demişdi: **"Firon dedi: "Ey Haman! Mənim üçün uca bir qüllə tik ki, bəlkə yollara çatım – göylərin yollarına *çatım* və Musanın İlahını görüm. Həqiqətən, mən *Musanı* yalançı sayıram!"**[2]

Firon: "Mən onu yalançı sayıram!"– deyərkən yalan danışırdı, çünki o, Musanın ﷺ düz danışdığını bilirdi. Belə ki, Musa ﷺ Firona: **"Sən artıq bilirsən ki, bunları yalnız göylərin və yerin Rəbbi, açıq-aşkar möcüzə olaraq endirib. Mən isə, ey Firon, sənin məhv olacağını yəqin bilirəm"**[3]– deyəndə, o, Musanın ﷺ dediyini inkar etmədi, "Mən bilmirəm"– demədi, əksinə, susdu. Münaqişə və mübahisə əsnasında susmaq isə, qarşı tərəfin dediyini qəbul etmək deməkdir.

Başqa bir ayədə uca Allah, Firon və onun qövmü haqqında belə buyurur: **"Onlar buna yəqinliklə inandıqları halda, haqsızcasına və təkəbbürlə onu inkar etdilər."**[4] Firon və havadarları, Musanın ﷺ doğru danışdığını bildikləri halda təkəbbürlük göstərdilər və haqqı inkar etdilər. Yaxşı bəs onların aqibəti necə oldu?! Onlar məğlubiyyətə uğradılar. Ən acınacaqlısı isə sehrbazların məğlubiyyəti oldu. Firon, Musa ﷺ ilə sözləşdikdən sonra məmləkətindəki bütün sehrbazları bir yerə topladı. Görüş vaxtını da, Fironun hüzurunda Musa ﷺ təyin etdi. Halbuki Musa ﷺ, Fironun qarşısında zəif idi. Və əgər Allahın köməyi və dəstəyi olmasaydı, o bunu edə bilməzdi. Musa ﷺ onlara dedi: **"Görüş vaxtınız zinət günü, camaatın *bir yerə* toplaşacağı səhər vaxtıdır!"**[5]

---

[1] Hud, 65.
[2] Ğafir, 36-37.
[3] əl-İsra, 102.
[4] ən-Nəml, 14.
[5] Ta ha, 59.

Ayədə **“zinət günü”**– deyildikdə, bayram günü qəsd edilir. Çünki o gün insanlar bəzənib-düzənir və bəzəkli paltarlar geyinirlər. Musa ﷺ gecə vaxtını deyil, camaatın *bir yerə* toplaşacağı səhər vaxtını seçmişdi.

Beləliklə, Firon ən bacarıqlı və ən təcrübəli sehrbazları bir yerə topladı. Onlar Musa ﷺ ilə qarşı-qarşıya gəldikdə iplərini və əsalarını yerə atdılar. Sehrbazların atdıqları iplər və əsalar dərhal ilanlara çevrildi. Bir anda hər tərəfi ilanlar bürüdü və insanlar qorxuya düşdü. Hətta Musanın ﷺ ürəyi xoflandı. Lakin uca Allah ona cəsarət verərək belə buyurdu: **“Qorxma, qalib gələn mütləq sən olacaqsan! Sağ əlindəkini yerə at.”[1]** Musa ﷺ əlindəki əsanı yerə atdı və bu əsa, onların atdıqları iplərin və əsaların hamısını uddu. Əzəmətli Allah pak və müqəddəsdir! Bunu görsəydiniz: “Necə oldu ki, bu əsa onların hamısını uddu?”– deyə təəccüblənərdiniz. Hərçənd, o əsa bunların hamısını udacaq qədər böyük deyildi, lakin Allah azzə və cəllə hər şeyə qadirdir. Bu əsa, onların hamısını bir anda uddu. Şübhəsiz ki, sehrbazlar, sehrin nə olduğunu yaxşı bilirdilər. Odur ki, Musanın ﷺ və onun əsasının göstərdiyinin sehr olmayıb, Allahın bir möcüzəsi olduğunu anladırlar. Bunu görəndə **“Sehrbazlar səcdəyə qapandılar.”[2]** Ayədəki “qapandılar” sözünə diqqət edin. Sanki onlar sıxışdırılaraq, özləri də hiss etmədən səcdəyə qapandılar. Ayədə: “səcdə etdilər” və ya “səcdəyə getdilər” deyilmir, ayrıca “qapandılar” kəlməsi istifadə edilir. Sanki onlar gördüklərinin dəhşətindən dolayı özləri hiss etmədən, qeyri-ixtiyari şəkildə, Allaha və rəsuluna ﷺ iman gətirərək səcdəyə qapanıb dedilər: **“Biz Harunun və Musanın Rəbbinə iman gətirdik!”[3]** Firon özü bu sehrbazları meydana dəvət etdiyi halda, onları təhdid edib dedi: **“Şübhəsiz ki, o sizə sehr öyrədən böyüyünüzdür.”[4]** Subhanəllah! Məgər onlara sehri Musa ﷺ öyrətdi?! Axı onları meydana Fironun özü dəvət etmişdi! Subhanəllah! Fəqət təkəbbürlük insanı bu cür məntiqsiz danışmağa vadar edir.

Firon: **“Sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirəcəm”[5]**– dedi, yəni sağ əl və sol ayağı. **“Özünüzü də xurma ağaclarının gövdələrində**

---

[1] Ta ha, 68-69.
[2] Ta ha, 70.
[3] Ta ha, 70.
[4] Ta ha, 71.
[5] Ta ha, 71.

**çarmıxa çəkəcəyəm. Onda hansımızın əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz!"**[1]

Yaxşı bəs, sehrbazlar nə dedilər? **"Dedilər ki: "Biz heç vaxt səni bizə gələn bu aydın dəlillərdən və bizi yaradandan üstün tutmayacağıq."**[2] Yəni səni, gördüyümüz bu möcüzələrdən üstün tutmağımız mümkün deyil. Sən yalançısan, rəbb deyilsən. Əsl Rəbb, Musa ﷺ və Harunun ﷺ Rəbbidir. **"İndi nə hökm verəcəksənsə, ver."**[3] İmana bir baxın! O, qəlblərə daxil olduqdan sonra, dünya nə qədər dəyərsizləşir! **"İndi nə hökm verəcəksənsə, ver."** Yəni nə istəyirsənsə, et. **"Sən ancaq bu dünyada hökm verə bilərsən!"**[4] Yəni, uzaqbaşı bizi öldürə bilərsən. **"Həqiqətən, biz Rəbbimizə iman gətirdik ki, O bizi günahlarımıza və sənin bizi məcbur etdirdiyin sehrə görə bağışlasın."**[5] Çünki Firon, onları Musa ﷺ ilə çəkişməyə məcbur etmişdi. *Onlar dedilər:* **"Allahın *mükafatı* daha xeyirli, *cəzası* isə daha sürəklidir!"**[6]

İman və yəqinlik qəlbə daxil olduqdan sonra, heç bir şey insanı doğru və haqq yoldan sapdıra bilməz. Baxın, Fironun tərəfdarları olan o sehrbazlar günün əvvəlində kafir sehrbaz olduqları halda, qəlblərinə iman daxil olduqdan sonra, günün axırında Firona meydan oxuyan itaətkar mömin oldular. Hərçənd, bu, Firon üçün böyük bir məğlubiyyət idi, lakin o, buna rəğmən öz azğınlığına davam etdi.

Axırda Firon öz adamlarını toplayıb Musanı ﷺ öldürmək qərarına gəldi. Elə buna görə də, Musa ﷺ Allahın əmri ilə, qövmü ilə birlikdə o vaxt "Qulzum dənizi" adlanan – Qırmızı dənizə doğru yola çıxdı. Misiri, arxada qərb istiqamətində buraxaraq, şərqə – Qırmızı dənizə doğru hərəkət etdilər. Nəhayət, dənizə çatdıqda, Fironun öz əzəmətli ordusu ilə onları təqib etdiyini, qarşılarında da dəniz olduğunu gördükdə: **"Musanın səhabələri: "Biz yaxalanacağıq!"– dedilər."**[7] Önümüzdə də-

---

[1] Ta ha, 71.
[2] Ta ha, 72.
[3] Ta ha, 72.
[4] Ta ha, 72.
[5] Ta ha, 73.
[6] Ta ha, 73.
[7] əş-Şuəra, 61.

niz, arxamızda da Firon və ordusu! Hara qaçacağıq? *"Musa* **dedi: "Xeyr, Rəbbim mənimlədir. O mənə doğru yol göstərəcək!"**[1] Allahın salavatı və salamı olsun Musaya! Sıxıntılı və çətin məqamlarda peyğəmbərlərin – onlara Allahın salavatı və salamı olsun! – yəqinliklə inanması belə olur! Onlarda elə bir yəqinlik olur ki, çətinliyi, hətta qeyri-mümkün sayılan bir işi, asan və bəsit hala çevirir. Musa ﷺ: **"Xeyr, Rəbbim mənimlədir. O mənə doğru yol göstərəcək!"** – deyərək uca Allaha təvəkkül etdikdə, Allah ona: **"Əsanla dənizə vur!"**[2]– deyə vəhy etdi. Musa ﷺ dənizə bir dəfə vuran kimi dəniz yarıldı və on iki yol açıldı. Çünki İsrail oğulları on iki qəbilə idi. O, əsanı dənizə vuran kimi, dənizdə quru yollar əmələ gəldi. **"Onlar üçün dənizdə quru yol aç.** ***Düşmənin*** **sizə yetişməsindən qorxma, çəkinmə!"–** ***deyə*** **vəhy etdik."**[3] Beləliklə, Musa ﷺ öz qövmü ilə birlikdə dənizi əmin-amanlıq içində keçdi. Bu yollardan hər birinin arasındakı dəniz suyu dağ kimi dimdik durmuşdu. Hərçənd, su, axar mayedir, lakin Allahın əmri ilə dağ kimi dimdik durmuşdu. Hətta bəzi alimlər deyirlər ki, uca Allah dağlar kimi olan bu dəniz sularında yarıqlar da əmələ gətirmişdi ki, İsrail oğulları bir-birilərini görə bilsinlər və aralarından kimsənin suda boğulub ölmədiyindən arxayın olsunlar.

Musa öz qövmü ilə birlikdə dənizi keçdikdən sonra, Firon öz ordusu ilə birlikdə dənizə girdi. Nəhayət, hamısı dənizə daxil olduqda, Allah, dənizə, əvvəlki halına qayıtmasını əmr etdi və dəniz onları çulğaladı. İsrail oğulları, Firondan çox qorxduqlarına görə, onun boğulmadığını güman edirdilər. Odur ki, uca Allah, onun cəsədini suyun üzərinə qaldırdı ki, onun öldüyünü gözləri ilə görsünlər və onun öldüyünə əmin olsunlar. Bu xüsusda uca Allah belə buyurur: *"Ey Firon,* **bu gün sənin bədənini üzə çıxaracağıq ki, səndən sonra gələnlərə ibrət olasan."**[4]

Son dərəcə azğın olmuş bu üç millət haqqında bir düşünün, görün daim onlara nəzarət edən Allah onaları necə yaxaladı? Onlar nə ilə fəxr

---

[1] əş-Şuəra, 62.

[2] əş-Şuəra, 63.

[3] Ta ha, 77.

[4] Yunus, 92.

edirdilərsə, elə ona bənzər *əzabla da* həlaka uğradılar. Ad qövmü: "Bizdən daha qüvvətli kim ola bilər?!" dedi, sonra da, xilqətcə yumşaq və yüngül olan küləklə həlak edildi. Səmud qövmü də sarsıntı və tükürpədici səslə həlak edildi. Firon isə suda boğularaq həlak edildi. Halbuki vaxtı ilə ölkəsindəki sularla öyünüb deyərdi: "**Ey qövmüm! Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi?! Məgər görmürsünüz?! Yaxud mən bu aciz və az qala *sözünü* belə aydın başa sala bilməyən adamdan daha üstün deyiləmmi?! Nə üçün ona qızıl bilərziklər taxılmayıb, yaxud onunla birlikdə bir-birinin ardınca mələklər gəlməyib?"**[1] Firon "aciz və az qala *sözünü* belə aydın başa sala bilməyən adam" deyəndə, Musanı ﷺ qəsd edirdi. Allah da onu suya qərq etdi.

Bütün bu sadaladıqlarımız: **"Həqiqətən, sənin Rəbbin nəzarət edir."**[2] ayəsinin qəsd etdiyi mənalardır.

Müəllifin ﷺ zikr etdiyi beşinci ayə budur: **"*Allah* gözlərin xain baxışını və kökslərin *nələr* gizlətdiyini bilir."**[3] Ayədə gözlərin xainlik edə biləcəyi ifadə edilir. Belə ki, hiss etdirmədən harama baxan kimsənin harama baxdığını anlaya bilməzsən, lakin Allah onun xaincəsinə baxdığını bilir. Eləcə də, bir adam başqa birisinə nifrətlə baxdıqda, o birisi bunu hiss etməsə də, fəqət Allah bu adamın ona nifrətlə baxdığını bilir. Həmçinin, birisi harama baxdıqda, kənardan onu seyr edən adam, onun bu harama nifrətlə baxdığını, yoxsa onu xoşlayaraq seyr etdiyini bilmir, lakin Allah bunu bilir. Allah, gözlərin xain baxışlarını bilir.

Allah, həmçinin, kökslərin, yəni qəlblərin nələr gizlətdiyini də bilir. Belə ki, qəlb, köksdə yerləşir. Ağıl, anlamaq, idarə etmək, bunların hamısı qəlbdə yerləşir. Bu xüsusda uca Allah belə buyurur: **"Məgər onlar yer üzündə gəzib dolaşaraq *zalımların aqibətini* qəlbləri ilə düşünüb, qulaqları ilə eşitmirlər? Əslində gözlər deyil, kökslərdəki qəlblər kor olur."**[4]

Subhanəllah! Bu ayə, sanki qədimdə də, günümüzdə də, ağlın beyində, yoxsa qəlbdə olduğunu müzakirə edən insanlar üçün nazil olmuşdur!

---

[1] əz-Zuxruf, 51-53.
[2] əl-Fəcr, 14.
[3] Ğafir, 19.
[4] əl-Həcc, 46.

Bu məsələ, Allahın və Rəsulunun ﷺ dediklərinə müraciət etməyib, hər şeyi məntiqlə ölçüb-biçən bir çox materialistləri çaşqın vəziyyətə salmışdır. Halbuki məsələ gün kimi aydındır: ağıl qəlbdə, qəlb də köksdədir. *Uca Allah buyurur:* **"Məgər onlar yer üzündə gəzib dolaşaraq *zalımların aqibətini* qəlbləri ilə düşünüb, qulaqları ilə eşitmirlər? Əslində gözlər deyil, kökslərdəki qəlblər kor olur."[1]** Bu ayədə "beyinlərdəki qəlblər" yox, "**kökslərdəki qəlblər**"– deyilir. Bu məsələ *gün kimi* açıq-aydındır. Belə ki, ağıl qəlbdə olur. Bunu Peyğəmbərin ﷺ bu hədisi də təsdiqləyir: **"Diqqət edin! Bədəndə bir ət parçası var. Əgər o islah edilərsə, bütün bədən islah olar, yox, əgər korlanarsa, bütün bədən korlanar. Bilin ki, bu ət parçası qəlbdir."**[2]

Hər şeyi yardan və hər şeyi bilən Allahın Kitabının və Peyğəmbərin ﷺ sünnəsinin təsdiqlədiyi bir məsələ haqqında nə düşünürsünüz! Əlbəttə ki, belə hallarda biz Kitab və Sünnəyə müxalif olan hər bir sözü ayağımızın altına atmalı və bir daha ona tərəf baxmamalıyıq.

Demək, şəkk yoxdur ki, ağlın yerləşdiyi yer qəlbdir. Beyin isə sadəcə düşünüb təsəvvür etmək üçündür. Beyin, bir şey haqqında düşünüb götür-qoy etdikdən sonra, onu qəlbə göndərir. Sonra qəlb, onu etmək və ya etməmək barədə qərar verir. Beyin sanki bir katibədir, bir fikri formalaşdırdıqdan sonra onu qəlbə ərz edir, o da bunu etmək və ya etməmək əmrini verir. Bu, qəribə deyil: **"Sizin özünüzdə də *dəlillər var.* Məgər görmürsünüz?!"[3]** Həqiqətən də, insan bədənində ağılları heyrətə gətirən heyrətamiz şeylər var. Qəribə deyil ki, uca Allah, insanın təsəvvür etmə xislətini onun beyninə yerləşdirmişdir. Və bu beyin bir fikir formalaşdırdıqdan sonra onu qəlbə ötürür, qəlb də onu etmək və ya etməmək barədə əmr verir. Çünki Peyğəmbər ﷺ: **"Əgər o islah edilərsə, bütün bədən islah olar"**– demişdir. Əgər əmr vermə və qadağan etmə səlahiyyəti qəlbin ixtiyarında olmasaydı, o islah edildikdə, bütün bədən islah olmaz, korlandıqda da, bütün bədən korlanmazdı. Demək, qəlblər insandakı ağılın, qərar vermə və idarə etmənin yerləşdiyi yerdir. Şübhə yoxdur ki, qəlbin beyinlə əlaqəsi var. Elə buna görə də, beyin

---

[1] əl-Həcc, 46.

[2] Səhih əl-Buxari, 52, 2051; Səhih Muslim, 1599.

[3] əz-Zariyat, 21.

pozulduqda, insanın düşüncəsi və ağlı da pozulur. Bunlar, bir-biri ilə əlaqəlidir. Lakin qərar verən, idarə edən ağıl qəlbdədir və qəlb də köksdə yerləşir: "**Əslində gözlər deyil, kökslərdəki qəlblər kor olur.**"[1]

**Mövzu ilə bağlı hədislər:**

٦٠- عَنْ عُمرَ بنِ الخطابِ، ﷺ، قال: «بَيْنما نَحْنُ جُلُوسٌ عِنْد رسولِ الله ﷺ، ذَات يَوْمٍ إِذْ طَلع عَلَيْنَا رجُلٌ شَديدُ بياضِ الثِّيابِ، شَديدُ سوادِ الشَّعْر، لا يُرَى عليْهِ أَثَر السَّفَرِ، ولا يَعْرِفُهُ منَّا أَحدٌ، حتَّى جَلَسَ إِلَى النَّبِيِّ ﷺ، فَأَسْنَدَ رَكْبَتَيْهِ إِلَى رُكبَتيْهِ، وَوَضع كفَّيْه عَلَى فخِذيهِ وقال: يا محمَّدُ أَخبِرْني عن الإسلام، فقالَ رسولُ الله ﷺ: الإِسلامُ أَنْ تَشْهدَ أَنْ لا إِلَهَ إِلاَّ اللَّهُ وأَنَّ مُحَمَّداً رسولُ اللهِ، وَتُقِيمَ الصَّلاَةَ، وَتُؤتِيَ الزَّكاةَ، وتصُومَ رَمضَانَ، وتحُجَّ الْبيْتَ إِنِ استَطَعتَ إِلَيْهِ سَبيلاً.

قال: صدَقتَ. فَعجِبْنا لَهُ يسْأَلُهُ ويصدِّقُهُ، قَالَ: فَأَخْبِرْني عن الإِيمانِ. قَالَ: أَنْ تُؤْمِن باللَّهِ، وملائِكَتِهِ، وكُتُبِهِ، ورُسُلِهِ، والْيومِ الآخِرِ، وتُؤمِنَ بالْقَدَرِ خَيْرِهِ وشَرِّهِ. قال: صدقْتَ. قال: فأَخْبِرْني عن الإِحْسانِ. قال: أَنْ تَعْبُدَ اللَّه كَأَنَّكَ تَراهُ. فإِنْ لَمْ تَكُنْ تَراهُ فإِنَّهُ يَراكَ. قَالَ: فَأَخْبِرْني عن السَّاعةِ. قَالَ: مَا المسْؤُولُ عَنْهَا بأَعْلَمَ مِن السَّائِلِ. قَالَ: فَأَخْبِرْني عَنْ أَمَاراتِهَا. قَالَ: أَنْ تلدَ الأَمَةُ ربَّتَها، وَأَنْ تَرى الحُفَاةَ الْعُراةَ الْعالَةَ رِعاءَ الشَّاءِ يتطاوَلُون في الْبُنيانِ. ثُمَّ انْطلَقَ، فلبثْتُ ملِيًّا، ثُمَّ قَالَ: يا عُمرُ، أَتَدرِي منِ السَّائِلُ؟ قلتُ: اللَّهُ ورسُولُهُ أَعْلمُ. قَالَ: فَإِنَّهُ جِبْرِيلُ أَتَاكُمْ يُعلِّمُكم دِينَكُمْ » رواه مسلمٌ.

ومعْنَى: «تلِدُ الأَمَةُ ربَّتَهَا» أَيْ: سيِّدتَهَا، ومعناهُ: أَنْ تكْثُرَ السَّرارِي حتَّى تَلد الأمةُ السرِّيةُ بِنتاً لِسيدهَا، وبنتُ السَّيِّدِ في معنَى السَّيِّدِ، وقِيل غيرُ ذَلِكَ. و « الْعالَةُ »: الْفُقراءُ. وقولُهُ «مَلِيًّا» أَيْ زمناً طويلاً، وكانَ ذلك ثَلاثاً.

**60.** Rəvayət edilir ki, Ömər ibn əl-Xattab ﷺ demişdir: "Bir dəfə biz Peyğəmbərin ﷺ yanında oturmuşduq. Birdən ağappaq paltarlı, zil qara saçlı, üst-başında da səfərdən bir əsər-əlamət görünməyən və heç biri-

[1] əl-Həcc, 46.

mizin tanımadığı bir adam yanımıza gəldi. Nəhayət, o, yaxınlaşıb Peyğəmbərlə ﷺ üzbəüz oturdu, dizlərini onun dizlərinə dayadı, əllərini də budlarının üstünə qoyub dedi: "Ey Muhəmməd, mənə İslam haqqında xəbər ver!" Peyğəmbər ﷺ buyurdu: "İslam odur ki, Allahdan başqa *haqq* məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirəsən, namazı doğru-düzgün qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və imkanın olduğu təqdirdə *Kəbə* evini ziyarət edəsən." O: "Doğru söylədin!"– dedi.

*Ömər ibn əl-Xattab* رضي الله عنه *dedi*: "Biz ona təəccüb etdik, o həm sual verdi, həm də *cavabın doğru olduğunu* təsdiqlədi. Sonra o dedi: "Mənə iman haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "*İman odur ki,* Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə iman gətirəsən, habelə qədərə – onun xeyrinə və şərinə iman gətirəsən." O: "Doğru söylədin!"– dedi. Sonra o dedi: "Mənə ehsan haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "*Ehsan odur ki,* Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də, *bil ki,* O səni görür". Sonra o dedi: "Mənə Qiyamət saatı haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "Bu haqda soruşulan soruşandan çox bilmir." Sonra o dedi: "Mənə onun əlamətləri haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "O vaxt ki, cariyə öz sahibini dünyaya gətirəcək və sən ayaqyalın, çılpaq və kasıb çobanların hündür binalar tikməkdə yarışdıqlarını görəcəksən."

*Ömər* رضي الله عنه *dedi*: "Sonra o çıxıb getdi. Mən bir qədər gözlədim. Sonra Peyğəmbər ﷺ məndən soruşdu: "Ey Ömər, bilirsən, sual verən kim idi?" Mən: "Allah və Onun rəsulu daha yaxşı bilir!"– dedim. Peyğəmbər ﷺ buyurdu: "O, Cəbrail idi. Sizə dininizi öyrətməyə gəlmişdi."

Bu hədisi, Muslim rəvayət etmişdir.[1]

"Cariyə öz rəbbini dünyaya gətirəcək", yəni öz ağasını. Bu o deməkdir ki, vaxt gələcək əsir götürüləcək kənizlər çoxalacaq və iş o yerə gəlib çatacaq ki, əsir götürülmüş cariyə ağasından bir qız uşağı dünyaya gətirəcək və ağasından olan bu qız onun ağası sayılacaq. Bu cümləyə başqa izahlar da verilmişdir. Hədisdə: "bir qədər gözlədim" deyildikdə, uzun müddət nəzərdə tutulur. Digər bir hədisdə bunun üç gün olduğu xəbər verilir.

[1] Səhih Muslim, 8.

**Şərh:**

Müəllif bu fəsildə, Ömər ibn əl-Xattabın rəvayət etdiyi bu əzəmətli hədisi zikr etmişdir. Bu hədisin axırında Peyğəmbər Ömərdən : **"Bilirsən, sual verən kim idi?"** – deyə soruşduqda, o: "Allah və Onun rəsulu daha yaxşı bilir!"– deyə cavab verir. Peyğəmbər də ona: **"O, Cəbrail idi. Sizə dininizi öyrətməyə gəlmişdi"**– deyir. Deməк, bizim dinimiz bu hədisdə zikr edilmişdir. Çünki bu hədis bütün dini – İslamı, imanı və ehsanı əhatə edir.

Səhabələr çox vaxt Peyğəmbərin yanında oturardılar. Belə ki, Rəsulallah çox vaxt ya səhabələrinin yanında olar, ya da ailəsinin. O, ya öz evində ev işləri ilə məşğul olar – qoyun sağar, paltarını yamayar, ayaqqabısını təmir edər, ya da məsciddə səhabələri ilə birlikdə oturar, yaxud xəstə bir səhabəsinə baş çəkər, yaxud bir yaxınını ziyarət edər və ya başqa buna bənzər işlərlə məşğul olardı. Zamanını Allaha itaət etməklə keçirər, vaxtının qədrini bilərdi. Yoxsa bəzilərimiz kimi vaxtını hədər yerə keçirməzdi. Qəribədir ki, insana bəxş edilən ən dəyərli şey "vaxt" olduğu halda, insan onu dəyərləndirmir. Uca Allah buyurur: **"Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri *indi* edəm."**[1] Yəni vaxtımı boşuna keçirməyim. Diqqət edin, o: "Mal-dövlətimlə, həyat yoldaşımla, maşınlarımla, villalarımla bu həyatda zövq alım"– demir, əksinə: **"Bəlkə, tərk etdiyim yaxşı əməlləri *indi* edəm"**– deyir. Yəni ömrüm gəlib keçdi, lakin ondan istifadə edə bilmədim, deyər.

Vaxt, ən dəyərli nemətdir. Lakin bu günkü gün bəzilərimiz ona dəyər vermir. Vaxtımızın çoxunu boşuna keçiririk, hətta çox vaxt vaxtımızı ziyanlı işlərə sərf edirik. Mən bir adam haqqında yox, ümumiyyətlə günümüzdəki müsəlmanların çoxundan danışıram. Çox təəssüflər olsun ki, bu günkü gün onlar yanlışlıq, əyləncə və qəflət içindədirlər. Onlar özlərinin dininə aid olan işlərə ciddi yanaşmırlar. Əksəriyyəti qəflət içində və öz kefindədir. Dinlərini məvh etsələr də, öz keflərinə diqqət yetirirlər. Halbuki Rəsullullah daim ya özünə aid işlərlə, ya da müsəlmanların işləri ilə məşğul olardı.

[1] əl-Muminun, 99-100.

Yenə bir dəfə səhabələr Peyğəmbərin ﷺ yanında oturmuş ikən, birdən ağappaq paltarlı, zil qara saçlı, üst-başında da səfərdən bir əsər-əlamət görünməyən və səhabələrdən heç kəsin tanımadığı bir adam onların yanına gəldi. Təbii ki, bu, qəribə bir hal idi. O, müsafir deyildi ki, ona "o, yadellidir"– desinlər, habelə, onu tanımırdılar ki, ona "o, mədinəlidir"– desinlər. Odur ki, buna heyrət etdilər.

Həmçinin, bu adamın tərtəmiz halda – ağappaq paltarlı, zil qara saçlı, üst-başında da səfərdən bir əsər-əlamət görünməyən bir gənc olması onları təəccübləndirdi. Çünki yoldan gələn adamın, – xüsusilə də o dövrdə, üst-başı dağınıq və toz-torpaq içində olardı. Çünki o vaxt insanlar ya dəvə ilə, ya da piyada yol gedərdilər. Yollar da asfalt deyil, tamamilə torpaq idi. Lakin bu adamın üzərində səfərdən bir əsər-əlamət yox idi. Üstəlik, səhabələrdən heç kəs onu tanımırdı. Yəni bu adam mədinəli olmadığı halda, müsafirə də bənzəmirdi.

Nəhayət gəlib Peyğəmbərin ﷺ qarşısında oturdu. Bu adam, ən böyük mələklərdən biri, hətta – bildiyimiz qədər – mələklərin ən fəzilətlisi olan Cəbrail عليه السلام idi. Onun ən fəzilətli olması, yerinə yetirdiyi şərəfli əmələ görədir. Belə ki, ona, vəhyi Allahdan peyğəmbərlərə daşımaq əmr edilmişdir. O, çox böyük mələkdir. Rəsulullah ﷺ onu həqiqi surətində iki dəfə – bir dəfə yerdə, bir dəfə də göydə – görmüşdür. Onu yer üzündə *öz surətində* Hira mağarasında olarkən görmüşdü. Onun altı yüz qanadı var idi və o üfüqü tamamən bağlamışdı. Üfüq Rəsulullahın ﷺ gözləri önündə olmasına rəğmən onu görmürdü. Belə ki bu mələk üfüqü tamamilə bağlamışdı. Çünki onun altı yüz qanadı var idi. Subhanəllah! Uca Allah mələklər barəsində belə buyurur: **"Həmd, göyləri və yeri yaradan, mələkləri iki, üç və dördqanadlı elçilər edən Allaha məxsusdur!"**[1] Mələklərin qanadları var və onlar bu qanadlarla çox sürətlə uçub gedirlər.

O, həmçinin, buyurur: **"Bu, ona təlqin edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi – gözəl görünüşlü *Cəbrail*. O, yüksəlib *öz surətində göründü*. O, ən uca üfüqdə idi. Sonra *Muhəmmədə* yaxınlaşıb aşağı endi. O, iki yay uzunluğunda, hətta ondan da yaxın məsa-**

---

[1] Fatir, 1.

**fədə idi."**[1] Bu yer üzündə baş vermişdi. Muhəmməd peyğəmbər ﷺ yer üzündə ikən Cəbrail عليه السلام yuxarıdan aşağı enib ona yaxınlaşdı və Allahdan gətirdiyi vəhyi ona çatdırdı.

İkinci kərə isə Cəbraili عليه السلام *meracda* son həddəki Sidr ağacının yanında görmüşdür. Bu xüsusda uca Allah belə buyurur: **"Onu bir daha *öz surətində* enərkən gördü – son həddəki Sidr ağacının yanında."**[2]

Peyğəmbərin ﷺ məclisinə gələn bu adam Cəbrail عليه السلام idi. Fəqət uca Allah mələklərə elə bir qüdrət vermişdir ki, onlar özlərinin həqiqi surətini dəyişdirib insan qiyafəsinə girə bilirlər. Necə ki, bu hadisədə insan surətində gəlmişdir.

**"Nəhayət, o, yaxınlaşıb Peyğəmbərlə ﷺ üzbəüz oturdu, dizlərini onun dizlərinə dayadı."** Yəni Cəbrail عليه السلام öz dizlərini Peyğəmbərin ﷺ dizlərinə dayadı. **"Əllərini də budlarının üstünə qoydu.."** Alimlər, Cəbrailin عليه السلام əllərini Peyğəmbərin ﷺ yox, öz budlarının üstünə qoyduğunu söyləmişlər. Bu da, tələbənin müəllim qarşısında ən ədəbli oturuş qaydasıdır. Beləliklə, tələbə həm ədəbli şəkildə oturmuş, həm də müəlliminin söyləyəcəklərini dinləməyə hazır olmuş olur.

O, bu şəkildə oturduqdan sonra: **"Ey Muhəmməd, mənə İslam haqqında xəbər ver!"** – dedi. O, "Ey Allahın rəsulu!"- deyə xitab etmədi, əksinə, bədəvi ərəblər kimi xitab etdi. Belə ki, bədəvilər Peyğəmbərin ﷺ yanına gəldikdə: "Ey Muhəmməd!"– deyə xitab edərdilər. Uca Allahın, Peyğəmbərə ﷺ xitab etmək üçün öyrətdiyi ədəb qaydasını bilənlər isə: "Ey Muhəmməd!" yox, "Ey Allahın rəsulu!"– deyə xitab edərdilər. Çünki uca Allah öz Kitabında belə buyurur: **"Peyğəmbəri, öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın."**[3] Bu, Peyğəmbəri ﷺ adı ilə çağırmağa aid edildiyi kimi, onun əmr və qadağalarına da aid edilir. Yəni onun əmrlərini, digər insanların əmrləri ilə eyni tutmamalıyıq, yəni istədikdə bu əmrləri yerinə yetirib, istədikdə də onları tərk etməyə ixtiyarımız çatmır. Eləcə də, onun qadağalarını, digər insanların qadağaları ilə eyni tutmamalıyıq, yəni istədikdə bu qadağaları tərk etməyə, istədikdə də onları etməyə ixtiyarımız çatmır.

---

[1] ən-Nəcm, 4-9.

[2] ən-Nəcm, 13-14.

[3] ən-Nur, 63.

Biz Peyğəmbərə ﷺ xitab edərkən bir-birimizə və ya bir dostumuza: "Ey filankəs!"– dediyimiz kimi xitab etməməli, əksinə: "Ey Allahın rəsulu"– deməliyik. Lakin bədəvilərin həm elmdən uzaq, həm də əksəriyyətinin cahil olduğuna görə, onlar Peyğəmbərin ﷺ yanına gəldikdə, ona: "Ey Muhəmməd"– deyə xitab edərdilər.

Cəbrail ﵇: **"Mənə İslam haqqında xəbər ver"**– dedi. Yəni, İslam nədir? Peyğəmbər ﷺ də belə cavab verdi: ***"İslam odur ki,* Allahdan başqa *haqq* məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirəsən..."**

**Bu, İslamın birinci rüknüdür:** Yəni qəlbinlə təsdiqləyib qəbul etdiyin halda, dilinlə: "Lə ilahə illəllah" deyə şəhadət gətirirsən. Bu kəlmənin mənası budur: "Allahdan başqa haqq məbud yoxdur."

Uca Allahın uluhiyyəti[1] Onun rububiyyətinin[2] bir hissəsidir. Belə ki, Allahın haqq məbud olduğunu qəbul edən kəs, Onun Rəbb olduğunu etiraf etmiş olur. Çünki məbudun rəbb olması və kamil sifətlərə sahib olması şərtdir. Elə buna görə də, Allahın sifətlərini inkar edənlərin ibadətlərində böyük nöqsanlar görürük. Çünki onlar *sifətləri inkar etməklə* bir heçə ibadət edirlər.

Rəbb kamil sifətlərə sahib olmalıdır ki, bu sifətlərə müvafiq şəkildə ona ibadət edilsin. Odur ki, uca Allah buyurur: **"Ən gözəl adlar Allaha məxsusdur. Elə isə Ona bu adlar vasitəsi ilə dua edin!"[3]** Yəni Allaha ibadət edin və istəklərinizə çatmaq üçün Onun adları ilə təvəssül edin. Ayədə zikr edilən "dua" kəlməsi, həm Allahdan istəmək mənasındakı duanı, həm də ibadət mənasındakı duanı ifadə edir.

**"Allahdan başqa *haqq* məbud olmadığına şəhadət gətirməlisən",** yəni heç bir məxluq ilah sayıla bilməz: nə Allaha yaxın bir mələk, nə göndərilmiş bir peyğəmbər, nə günəş, nə ay, nə bir ağac, nə bir daş, nə

---

[1] Uluhiyyə: Allahın haqq məbud olmasıdır. Yəni, zəlillik, qorxu, sevgi, rüku, səcdə, qurban, nəzir və digər ibadətlər Tək Allaha yönəldilməli və Ona şərik qoşulmamalıdır.

[2] Rububiyyə: Allahın Rəbb olmasıdır. Yəni Allah, hər şeyin Rəbbi, Hökmdarı, Yaradanı və ruzi verənidir. Öldürən və dirildən, xeyir və zərər toxunduran, ehtiyacı olan kimsənin duasını qəbul edən də Odur. Hər bir işin aqibəti Ona məxsusdur, hər bir xeyir Onun Əlindədir, bütün işlər Ona qayıdır və Onun heç bir şəriki yoxdur.

[3] əl-Əraf, 180.

torpaq, nə dəniz, nə bir övliya, nə bir siddiq, nə bir şəhid... Allahdan başqa haqq məbud yoxdur, O tək İlahdır.

Allah bütün peyğəmbərləri bu tövhid kəlməsi ilə göndərmişdir. Bu xüsusda uca Allah belə buyurur: **"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək."[1]** Başqa bir ayədə də O belə buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə,*** **elçi göndərdik!"[2]** Tağutdan uzaq olun, yəni şirkdən uzaq durun!

Hər kim bu kəlmənin tələblərini yerinə yetirərsə, yəni onu səmimiqəlbdən tələffüz edərək iman gətirər və *onun tələb etdiyi* saleh əməlləri yerinə yetirərsə, bunun sayəsində Cənnətə daxil olar. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Bu dünyadan köçən hər kimin axır kəlməsi "lə ilahə illəllah" olarsa, o, Cənnətə daxil olar."[3]** Allah bizi də, sizi də o kimsələrdən etsin!

**"Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirməlisən"**, yəni Muhəmməd ibn Abdullah əl-Haşimi əl-Quraşinin ﷺ Allahın rəsulu olduğuna şahidlik etməlisən. Peyğəmbər ﷺ özündən başqa heç bir peyğəmbəri zikr etməmişdir. Çünki Rəsulullahın ﷺ gətirdiyi din, özündən əvvəlki dinlərin hamısını nəsx etmişdir. Rəsulullah ﷺ elçi göndərildikdən sonra artıq digər dinlərin hamısı batil hesab edilir. Yəhudilərin və xristianların dini batildir, heç biri Allah yanında məqbul deyil. Çünki uca Allah buyurur: **"Kim İslamdan başqa bir din arayarsa,** ***bilsin ki, o din*** **ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."[4]** Onlar, uydurduqları ibadətləri yerinə yetirməklə özlərini çox yorub əldən salsalar belə, bütün bu ibadətlər boşunadır, bunun onlara heç bir faydası olmayacaq və bu ibadətlər onlardan qəbul edilməyəcək.

**"O, axirətdə ziyana uğrayanlardan olar",** yəni dünyada qazanc əldə etsələr də, axirətdə heç bir qazanc əldə etməyəcəklər. Çünki onların

---

[1] əl-Ənbiya, 25.

[2] ən-Nəhl, 36.

[3] Sunən Əbu Davud, 3116; Musnəd imam Əhməd, 5/247; Mustədrək əl-Hakim, 1/35.

[4] Ali-İmran, 85.

dini batildir. Bü günkü gün Məryəm oğlu İsaya ﷺ tabe olduqlarını iddia edən xristianlar əslində yalan danışırlar. İsa Məsih ﷺ onların *batil əqidəsindən* uzaqdır. Əgər İsa Məsih ﷺ gəlmiş olsaydı, onlara qarşı vuruşardı. Necə ki, axır zamanda yer üzünə enəcək və İslamdan başqa heç bir dini qəbul etməyəcək. Üstəlik, xaçları sındıracaq, donuzları öldürəcək və cizyəni aradan qaldıracaq, heç kəsdən cizyə qəbul etməyəcək. Qəbul edəcəyi tək şey İslam olacaq.

**"Muhəmmədin Allahın rəsulu olduğuna..."**, yəni bütün insanlara və cinlərə peyğəmbər olaraq göndərildiyinə şəhadət gətirməkdir. Bu xüsusda uca Allah belə buyurur: **"Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı nazil edən *Allah ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır!"[1]** O, həmçinin, buyurur: **"De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm. Göylərin və yerin hökmranlığı Ona məxsusdur, Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur. O həm dirildir, həm də öldürür. Elə isə Allaha və Onun Elçisinə – yazıb-oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz."[2]** Dolayısıyla, Muhəmməd ﷺ bütün insanlara və cinlərə peyğəmbər göndərilmişdir. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: **"Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, bu ümmətdən hər *hansı* bir yəhudi və ya xristian mənim barəmdə eşidib, sonra da mənimlə göndərilənə iman gətirmədiyi halda ölərsə, mütləq Cəhənnəm əhlindən olar**."[3] Elə buna görə də biz inanırıq və etiqad edirik ki, xristianların, yəhudilərin və digər kafirlərin hamısı Cəhənnəm əhlindəndir. Çünki bunu Peyğəmbərimiz ﷺ xəbər vermişdir. Cənnət, onlara haram edilmişdir. Çünki onlar kafirdirlər, Allahın və Onun peyğəmbərlərinin düşmənləridir, İbrahimin, Nuhun, Muhəmmədin, Musanına, İsanın və digər peyğəmbərlərin – Allahın onlara salavatı və salamı olsun! – hamısının düşmənləridir.

Peyğəmbərin ﷺ: **"Allahdan başqa *haqq* məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirəsən"** sözü, ibadətin

---

[1] əl-Furqan, 1.
[2] əl-Əraf, 158.
[3] Səhih Muslim, 153.

qəbul olması üçün vacib olan iki şərti ifadə edir. Bu iki şərt bunlardır: ibadətin sırf Allah üçün edilməsi və Rəsulullahın ﷺ sünnəsinə uyğun olmasıdır. Çünki: "Allahdan başqa *haqq* məbud yoxdur" deyən kimsə, ibadətini sırf Allaha yönəltmiş olar, "Muhəmməd Allahın rəsuludur" deyən kimsə də başqasına yox, yalnız Muhəmmədə tabe olmuş olar. Elə buna görə də, bu iki şərt birlikdə İslamın bir rüknü sayılır. Çünki ikisi də bir şeyə qayıdır ki, bu da ibadətlərin səhih olmasıdır. Belə ki, ibadətlər, yalnız bu iki şəhadət kəlməsinin tələblərini yerinə yetirdikdə məqbul sayılır. Çünki: "Əşhədu ən lə ilahə illəllah" kəlməsi, ibadət etdikdə ixlaslı olmağı, "Əşhədu ənnə Muhəmmədən Rəsulullah" kəlməsi isə ibadəti Sünnəyə müvafiq şəkildə yerinə yetirməyi tələb edir.

**"Muhəmmədin Allahın rəsulu olduğuna..."**, yəni Muhəmmədin Allahın rəsulu olduğunu dilinlə tələffüz edib qəlbinlə təsdiqləməli, Allahın Muhəmmədi ﷺ bütün aləmlər üçün *peyğəmbər göndərdiyini,* habelə aləmlərə rəhmət olaraq göndərdiyini *etiqad etməlisən*. Bu xüsusda uca Allah belə buyurur: **"Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik."**[1] Həmçinin iman gətirməliyik ki, o peyğəmbərlərin sonuncusudur. Bu xüsusda uca Allah buyurur: **"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyil. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur."**[2] Odur ki, Muhəmməddən ﷺ sonra peyğəmbər gəlməyib. Ondan sonra peyğəmbərlik iddia edən hər kəs kafir və yalançı sayılır, habelə, beləsinin peyğəmbərliyinə inanan kimsə də kafir hesab edilir.

Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna şəhadət vermək, onun gətirdiyi şəriətə və onun sünnəsinə tabe olmağı, habelə, onun təbliğ etdiyi dində olmayan şeyləri dinə əlavə etməməyi tələb edir. Elə buna görə də biz deyirik ki, Rəsulullahın ﷺ şəriətinə aid olmayan əməlləri ona əlavə edən bidətçilər, əslində, Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna şəhadət vermiş sayılmırlar. Hətta Rəsulullahı ﷺ sevdiklərini və ona olduqca çox ehtiram göstərdiklərini söyləsələr belə, yenə də şəhadət kəlməsinin tələblərini yerinə yetirmiş sayılmırlar. Belə ki, əgər onlar Rəsulullahı ﷺ tam şəkildə sevmiş və ona ehtiram göstərmiş ol-

---

[1] əl-Ənbiya, 107.

[2] əl-Əhzab, 40.

saydılar, onun önünə keçməz və onun şəriətinə aid olmayan işləri ona əlavə etməzdilər. Çünki bidət, həqiqətdə Rəsulullaha ﷺ tənə vurmaqdır. Bidət edən kəs sanki demək istəyir ki, Rəsulullah ﷺ bu dini və şəriəti kamil şəkildə təbliğ etməmişdir. Belə ki, onların din və şəriət adlandırdığı bir çox əməllər var ki, Rəsulullah ﷺ onları təbliğ etməmişdir. Bundan başqa, bidətdə daha bir təhlükə də var ki, bunun da günahı olduqca böyükdür. Çünki, bidət etmək, uca Allahın: **"Bu gün dininizi sizin üçün kamil etdim"**[1] ayəsini təkzib etməkdir. Və əgər uca Allah bu dini kamil şəkildə nazil etmişdirsə, demək, Rəsulullahın ﷺ təbliğ etdiyindən başqa, dinə aid edilən heç bir əməl dindən sayıla bilməz. O bidətçilər isə Allahın dininə, ona aidiyyatı olmayan təsbihlər, təhlillər, xüsusi hərəkətlər və başqa bu kimi şeylər uydurmuşlar. Əslində, onlar uca Allahın: **"Bu gün dininizi sizin üçün kamil etdim"** ayəsini təkzib etmiş olurlar. Onlar, həmçinin, Rəsulullaha ﷺ tənə vurmuş və onu, İslam şəriətini bəşəriyyətə tam şəkildə təbliğ etməməkdə ittiham etmiş olurlar. Rəsulullah ﷺ onların bu ittihamından uzaqdır!

Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna dair verilən şəhadətin tam olmasının şərtlərindən biri də, onun verdiyi xəbərlərin doğruluğunu təsdiqləməkdir. Odur ki, Peyğəmbərə ﷺ istinad edilən səhih hədislərin doğruluğunu təsdiq etməli, üstəlik, ağlınıza, araşdırmalarınıza və düşüncənizə əsaslanaraq onları inkar etməməlisiniz. Əgər bu hədislərdən yalnız ağlınızın qəbul etdiklərinə inansanız, həqiqi mömin sayıla bilməzsiniz. Rəsulullahın ﷺ sünnəsinə yox, öz nəfsi istəyinizə tabe olmuş olarsınız. Rəsulullaha ﷺ həqiqətən iman gətirən adam, ondan rəvayət edilmiş səhih hədislər haqqında: "Eşitdik, inandıq və təsdiq etdik"– deyər. Yox əgər adam: "Bu necə ola bilər?" deyərsə, həqiqi mömin sayılmaz. Odur ki, Rəsulullahın ﷺ hədisləri barədə öz ağılları ilə hökm verən kimsələrin aqibəti çox qorxuludur. Belə ki, əgər ancaq ağıllarının təsdiq etdiyini qəbul edirlərsə, – ağıllarının naqis olduğuna isə şübhə yoxdur, – demək, onlar Rəsulullaha ﷺ həqiqətən iman etməmiş və onun Allahın rəsulu olduğuna həqiqətən şəhadət gətirməmişlər. Rəsulullahın ﷺ söylədiklərinə nə qədər şübhə edirlərsə, şəhadətləri də bir o qədər zəif hesab edilir.

---

[1] əl-Maidə, 3.

Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna dair verilən şəhadətin həqiqiliyini sübut etməyin bir şərti də budur ki, onu, Allahın ona bəxş etdiyi məqamdan daha yüksəyə ucaldaraq ifrata varmamalısınız. Necə ki, bəziləri Peyğəmbərin ﷺ insanları bəlalardan qurtardığına etiqad edir. Hətta bəziləri, Peyğəmbərin ﷺ qəbrinin yanında durub bir başa ona dua edirlər ki, onlardan başlarına gələn bəlanı dəf etsin və onlara xeyir əta etsin. Bu, həm Rəsulullaha ﷺ olan etiqadda həddi aşmaq, həm də onu Allaha şərik qoşmaqdır. Çünki Allahdan başqa heç kəs nə bəlanı dəf etməyə, nə də xeyir əta etməyə qadirdir. Peyğəmbər ﷺ vəfat etdikdən sonra, özü üçün bir şey etməyə belə qadir deyil, *o ki qalsın başqası üçün*. Möminlərin əmiri Ömər ibn əl-Xattabın رضي الله عنه xilafəti dövründə quraqlıq olduğu il, səhabələr Peyğəmərin ﷺ məscidində Allahdan yağmur dilədikdə, onun qəbrinin başına gəlib bir başa ona yalvarmamışlar, yaxud ona xitab edib: "Bizim üçün dua et" və ya "Allah yanında bizim  üçün şəfaətçilik et ki, bizə yağış yağdırsın!"– deməmişlər. Həmin vaxt Ömər رضي الله عنه Allaha dua edərək: "Allahım, biz Peyğəmbərimizin ﷺ vasitəsilə Səndən yağmur diləyərdik, Sən də bizə yağmur endirərdin. İndi isə biz Peyğəmbərimizin ﷺ əmisinin vasitəsilə Səndən yağmur diləyirik, bizə yağmur endir!"[1]– demiş, sonra da Abbasa رضي الله عنه əmr etmişdir ki, önə keçib Allahın yağış yağdırması üçün Ona dua etsin.

Səhabələr niyə belə etmişlər? Çünki Peyğəmbər ﷺ artıq həyatda deyildi və vəfatından sonra da, heç bir əməl etməyə qadir deyildi. Bu xüsusda Peyğəmbər ﷺ özü belə demişdir: **"İnsan ölən kimi onun bütün əməlləri dayanır. Yalnız üç şeydən başqa: davamlı sədəqə, yaxud fayda verən elm, yaxud da onun üçün dua edən əməlisaleh övlad."**[2]

Demək, Peyğəmbər ﷺ *həyatda yoxkən* öz istəyi ilə hər hansı bir əməli etməyə qadir deyil. O cümlədən də, qəbirdə olduğu halda sənin üçün dua etməyə də əsla qadir deyil. Odur ki, hər kim, onu Allahın ucaltdığı məqamdan daha uca tutarsa, Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna dair verdiyi şəhadətin həqiqiliyini sübut etmiş sayılmaz, əksinə, Muhəmmədin ﷺ Allahla yanaşı bir Rəbb olduğuna şəhadət gətirmiş olar. Çünki onun rəsul olmasının mənası budur ki, o, ibadətə haqqı çatma-

[1] Səhih əl-Buxari, 1010.

[2] Səhih Muslim, 1631.

yan bir qul, təbliğatında da yalan olmayan bir elçidir. Biz gündəlik olaraq hər namazımızda: "Əşhədu ən lə ilahə illəllah və ənnə Muhəmmədən abduhu və rəsuluh/mən şəhadət verirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur və Muhəmməd Onun qulu və elçisidir"– deyirik. Yəni o da başqa insanlar kimi bir quldur və Rəbbinin hökmü altındadır. İbadətə layiq olan məbud isə Allahdır və *həqiqi* Rəbb də yalnız Odur.

Elə isə, Rəsulullah ﷺ xüsusunda ifrata varan və onu Allahın ucaltdığı məqamdan daha uca tutan kimsələrə deyirik ki: "Siz, nə, Allahdan başqa haqq məbudun olmadığına dair verdiyiniz şəhadətin, nə də Muhəmmədin Allahın rəsulu olduğuna dair verdiyiniz şəhadətin tələbini yerinə yetirmisiniz."

Xülasə budur ki, İslam dini bütövlüklə bu iki şəhadət üzərində qurulub. Elə buna görə də, əgər adam bu şəhadət kəlməsinin ləfzi, mənası, tələbləri və aid olduğu məsələlər haqqında danışmaq istəsə, günlərlə bu haqda danışmalı olar. Biz isə sadəcə bununla əlaqəli bəzi məsələlərə toxunduq. Allahdan istəyimiz budur ki, həm etiqad, həm söz, həm də əməl baxımından hamımızı bu şəhadət kəlməsinin tələblərini yerinə yetirən qullarından etsin.

**İslamın ikinci rüknü; namaz qılmaqdır:**

Ərəbcə namaz "səlat" adlandırılmışdır. Çünki "səlat" sözü "sılə" *kökündən olub* bəndə ilə Allah arasında bir bağlılığı ifadə edir. Həqiqətən insan namaz qilarkən Rəbbi ilə xəlvətdə qalır və Onunla danışır. Necə ki, Əbu Hureyranın رضي الله عنه rəvayət etdiyi səhih hədisdə Rəsulullah ﷺ buyurur: **"Uca Allah buyurur: "Mən əs-Səlatı[1] Özümlə qulumun arasında iki qismə böldüm və qulum da dilədiyini alacaqdır." Qul: "Əlhəmdulillahi Rabbil aləmin"– dedikdə, Allah: "Qulum Məni həmd-səna ilə təqdis etdi"– deyir. Qul: "ər-Rəhmanir-Rəhim"– dedikdə, Allah: "Qulum Məni təriflədi"– deyir. Qul: "Maliki yəvmiddin"– dedikdə, Allah: "Qulum Məni mədh etdi"– deyir. Qul: "İyyakə nəbudu və iyyakə nəstəin"– dedikdə, Allah buyurur: "Bu, Mənimlə qulumun arasında iki hissəyə bölünür və o, dilədiyini alacaq." Qul: "İhdi-**

---

[1] "əl-Fatihə"siz namaz qəbul olunmadığına görə, bu surə "əs-Səlat (Namaz)" adlandırılmışdır.

**nəs-siratal-mustəqim siratal-ləzinə ənamtə aleyhim, ğeyril-məğdubi aleyhim vələddallin"– dedikdə, Allah buyurur: "Bu, quluma məxsusdur və o, dilədiyini alacaqdır."**[1]

İnsanla Rəbbi arasında olan bu xəlvəti danışığın *əzəməti* barədə bir düşün! Buna rəğmən bu xəlvəti danışıqda çoxumuzun fikri başqa yerdə olur, hətta bəzən onların sağa-sola baxdıqlarını görürsən. Halbuki onlar, kökslərdə olanları bilən Allahla xəlvəti söhbətə girmiş sayılırlar. Bu da, onların cahilliyindən və qafilliyindən irəli gəlir. Elə buna görə də, namaz əsnasında diqqətimizi cəmləyib namazdan başqa yerə yönəltməməliyik ki, həm öhdəmizə düşəni yerinə yetirək, həm də namazımızın faydasını əldə edək. Belə ki, namazın faydalarını yalnız kamil bir namaz qılaraq əldə etmək olar. Hərçənd, hər birimiz uca Allahın: **"Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir"**[2] ayəsini oxuyur, lakin buna rəğmən görürsən ki, adam namaz qılsa da, qəlbən pis əməllərə nifrət etmir, yaxşı əməllərə olan sevgisini də artırmağa çalışmır. Yəni qəlbi oyanmır və bu namazdan faydalanmır. Çünki namazı naqisdır.

Namaz, şəhadət kəlməsindən sonra İslamın ən böyük rüknu sayılır. Uca Allah namazın vacib olmasını Öz peyğəmbəri Muhəmmədə ﷺ bilavasitə bildirmişdir. Uca Allah, namazı, insan övladının gedib çatdığı ən yüksək bir yerdə, Rəsulullah ﷺ üçün ən şərəfli gecə sayılan merac gecəsində fərz buyurmuşdur. Həmin vaxt uca Allah ona gündəlik olaraq əlli vaxt namaz qılmağı fərz buyurmuşdur. Bunun da dörd məziyyəti var:

**Birincisi**, namaz; zəkat, oruc və həcc kimi vəhy vasitəsilə deyil, Allahdan Öz Peyğəmbərinə ﷺ bilavasitə fərz buyurulmuşdur.

**İkincisi**, məkan baxımından olan məziyyətdir; belə ki, o, yer üzündə yox, insanın gedib çatdığı ən yüksək bir məkanda fərz buyurulmuşdur.

**Üçüncüsü**, fərz buyurulmuş zamanıdır ki, bu da, Rəsulullah ﷺ üçün ən şərəfli gecə sayılan merac gecəsidir.

---

[1] Səhih Muslim, 395.

[2] əl-Ənkəbut, 45.

**Dördüncüsü** də, onun sayıdır. Bir vaxt deyil, əlli vaxt namaz qılmaq fərz buyurulmuşdur ki, bu da Allahın namazı nə qədər sevdiyinə və qulunun daima namazla məşğul olmasını nə qədər çox istədiyinə dəlalət edir.

Lakin uca Allah hər şey üçün bir səbəb yaratmışdır. Rəsulullah ﷺ Allahın bu əmrini qəbul edib və bundan razı olduğu halda geri dönərkən, Musanın عليه السلام yanından keçir. Bu zaman Musa عليه السلام ondan soruşur: "Allah sənin ümmətinə nəyi fərz buyurdu?" Rəsulullah ﷺ dedi: "Gündəlik olaraq əlli vaxt namaz qılmağı buyurdu." Musa عليه السلام dedi: "Sənin ümmətin bunun öhdəsindən gələ bilməyəcək. Mən səndən əvvəl bunu insanlara tətbiq etmək və İsrail oğullarını haqq yola çəkmək istədim, *lakin heç nə alınmadı.* Rəbbinin yanına qayıt və Ondan ümmətin üçün (bu hökmü) yüngülləşdirməyi xahiş et!"[1]

Bu minvalla Rəsulullah ﷺ bir neçə dəfə Allahın hüzuruna gedib, sonra yenidən Musanın عليه السلام yanına qayıtdı. Axırda uca Allah namazın sayını beşə endirdi. Ancaq Allah Öz lütfü və səxavəti ilə – hər növ həmd və fəzilət Ona məxsusdur! – belə buyurdu: "Onlar sayca beşdir, savab baxımından isə əllidir."[2] Bu, bir yaxşı əmələ on qat əvəz vermə qəbilindən yox, əksinə, edilən bir ibadətin on ibadət sayılması qəbilindəndir. Yəni bu beş namaz, əlli namazı əvəz edir. Yəni biz, beş vaxt namaz qıldıqda, sanki əlli vaxt namaz qılmış sayılırıq. Hər namazın savabı da on qat artıq olur. Əgər bu, sadəcə savabın artması qəbilindən olsaydı, namazla başqa ibadətlər arasında heç bir fərq olmazdı. Fəqət bu, namaza xas olan bir məziyyətdir. Beş vaxt namaz qıl, əlli namaz qılmış sayılacaqsan. *Ona görə də uca Allah belə* buyurdu: "Onlar sayca beşdir, savab baxımından isə əllidir." Bu da, bu namazların nə qədər əzəmətli bir ibadət olduğuna dəlalət edir. Elə buna görə də uca Allah, qullarına gündəlik olaraq beş vaxt namaz qılmağı fərz buyurmuşdur. Bunlar mütləq yerinə yetirilməlidir. Demək, hər gün beş dəfə Allahla xəlvəti danışıqda olmalısan.

Əgər bir adam hər gün beş dəfə ölkə başçısı ilə görüşsə, bu, onun üçün şərəf sayılar, o, buna çox sevinər və: "Mən hər gün beş dəfə başçı

---

[1] Bu, uzun hədisin bir hissəsidir. Bax: Səhih əl-Buxari, 3207 və səhih Muslim, 163.

[2] Əvvəlki mənbə.

ilə görüşürəm"– deyə fəxr edər. Sən isə gündəlik olaraq ən azı beş dəfə hökmdarlar Hökmdarı ilə danışırsan. Elə isə, nə üçün buna sevinmirsən?! Bu nemətə görə Allaha həmd et və namazlarını doğru-düzgün qıl.

Bu hədisdə Peyğəmbər ﷺ: **"Namazı doğru-düzgün qılmalısan"** buyurur. Yəni, namazın şərtlərini, rüknlərini və vaciblərini yerinə yetirərək, onu tam şəkildə, doğru-düzgün qılmalısan.

**Namazın ən mühüm şərtlərindən biri onun vaxtıdır.** Bu xüsusda uca Allah belə buyurur: **"Həqiqətən namaz, möminlərə vaxtları müəyyən edilmiş bir fərzdir."**[1]

Namazların sayı beş, qılınma vaxtları isə üzrü olmayan kimsələr üçün beş, üzrü olanlar üçün isə üç vaxtdır. Belə ki, üzrü olan kimsələrə namazları cəm etmək caizdir. Belə olduğu halda, zöhrlə əsr namazının bir vaxtı, məğriblə işa namazının da bir vaxtı olur. Üçüncü vaxt isə sübh namazının vaxtıdır. Bu iki vaxt və bir də sübh namazının vaxtı. Odur ki, uca Allah fəcr namazını ayrıca zikr edib buyurur: **"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *bəlli vaxtlarda* namaz qıl və sübh çağı Quran oxu (fəcr namazını da qıl)!"**[2] Bu ayədə uca Allah "Gün batmağa meyl edəndən dan yeri sökülənədək" demir, əksinə, "gecənin qaranlığınadək" deyir. "Gecənin qaranlığı" isə, "gecənin yarısı" mənasını ifadə edər. Belə ki, gecənin ən qaranlıq vaxtı onun yarısında olur. Çünki həmin vaxt, günəşin o nöqtədən ən uzaq olduğu vaxtdır. Daha doğru rəyə əsasən bu beş namazın qılındığı vaxtlar bunlardır:

1. Fəcr (sübh namazı); ikinci fəcrin doğması – dan yerinin sökülməsi ilə başlayır və günəş doğanadək davam edir. Yeri gəlmişkən qeyd edək ki, "Ummul-qura"nın illik təqvim olaraq, sübh namazı üçün tərtib etdiyi vaxt azandan beş dəqiqə tez vaxt göstərir. Beləliklə də, *bu təqvimə əsasən* sübh namazının azanı verilən kimi namaz qılan adam, vaxtından beş dəqiqə tez namaz qılmış sayılır. Biz bunu həm astronomik hesablamalarla, həm də gözlə müşahidə etməklə yoxlamışıq. Odur ki, fəcrin azanı xüsusunda bu təqvimə etimad etmək olmaz. Çünki vaxtından tez azan verilir. Bu, olduqca təhlükəli bir məsələdir. Əgər sən, yalnız *nama-*

---

[1] ən-Nisa, 103.

[2] əl-İsra, 78.

*za giriş* təkbirini belə namazın vaxtı girmədən etmiş olsan, o namaz fərz namazı kimi qəbul olmayacaq. Səhrada yaşayan və ətraflarında işıq olmayan çöl əhlindən bir çoxları mənə xəbər vermişlər ki, onlar dan yerinin sökülməsini, qeyd etdiyimiz təqvimdəki vaxtdan iyirmi və ya on beş dəqiqə sonra müşahidə edirlər. Lakin bəzi başqa astronomik təqvimlərlə bu təqvim arasında beş dəqiqə fərq var. Hər bir halda, fəcr namazının vaxtı, ikinci fəcrin doğmasından – dan yerinin sökülməsindən ta günəşin üfüqdə doğmasına qədərdir.

2. Zöhr namazı; günəş zeniti keçib batmağa doğru meyl etdiyi vaxt başlayır və hər şeyin kölgəsinin özü boyda olduğu vaxtadək davam edir. Lakin günəş zenitdə olduğu vaxt görünən kölgəni də buna əlavə etməlisiniz. Çünki kölgə, xüsusi ilə qış mövsümündə şimala doğru olur. Bu o qədər də önəmli deyil. Bu məsələdəki meyar budur: Kölgəyə nəzər salırsan. Kölgə kiçildiyi müddətcə günəş zeniti keçmiş sayılmaz. Kölgə uzanmağa başladıqda artıq günəş zeniti keçmiş sayılır. Kölgə uzanmağa başlar başlamaz ora işarə qoyun. Daha sonra kölgə, o işarədən etibarən o cismin boyu qədər olduqda, artıq zöhrün vaxtı çıxmış və əsrin vaxtı girmiş olur.

3. Əsr namazı; günəş göz qamaşdırmayacaq qədər saralanadək, zəruri halda isə günəş batanadək davam edir.

4. Məğrib namazı; günəş batdığı vaxt başlayır və onun qırmızı şəfəqinin itməsinədək davam edir. Bu vaxt (günün uzun və ya qısa olmasına görə) dəyişir; bəzən günəşin batdığı vaxtla onun şəfəqinin itməsi arasındakı vaxt 1 saat 15 dəqiqə, bəzən də 1 saat 32 dəqiqə olur. Ona görə də bu günkü gün işa namazı üçün təyin edilmiş vaxt, yəni məğriblə işa arasındakı vaxtın saat yarım olması məqbuldur.

5. İşa namazı; məğrib namazının vaxtının bitməsi ilə başlayır və gecənin yarısına qədər davam edir. Gecənin yarısı isə, günəşin batması ilə dan yerinin sökülməsi arasındaki vaxtın tam ortasıdır. Bu da, işa namazının son vaxtıdır. Bundan mühüm bir nəticə çıxır: Əgər qadın, gecənin son üçdə birində heyzdən təmizlənərsə, ona nə məğrib, nə də işa namazlarını qılmaq vacib olar. Çünki o, namazın vaxtı çıxdıqdan sonra təmizlənmişdir. Muslimin "Səhih"ində, Abdullah ibn Amr ibn əl-Asdan ﵄ rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"İşa**

**namazının vaxtı gecənin yarısınadəkdir."**[1] İşa namazının vaxtının dan yerinin sökülməsinədək davam etməsi haqqında isə Peyğəmbərdən ﷺ heç bir hədis rəvayət edilməmişdir. Odur ki, bu məsələdə doğru rəy işa namazının vaxtının gecənin yarısına qədər olmasıdır. Ayə də buna dəlalət edir. Belə ki, uca Allah həmin ayədə fəcrin vaxtını digər dörd vaxtdan ayırır. Uca Allah: **"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *bəlli vaxtlarda* namaz qıl"**[2] buyuraraq dörd namazın vaxtlarını cəm edir. Çünki *bu vaxtlar bir-birinə bitişikdir və* onların arasında onları bir-birindən ayıran boş bir vaxt yoxdur. Belə ki, zöhr namazının çıxması ilə əsr namazı girir, əsr namazının çıxması ilə məğrib namazı girir, məğrib namazının çıxması ilə də işa namazı girir. Sübh namazına gəldikdə isə, uca Allah: **"sübh çağı Quran oxu** (fəcr namazını qıl)**! Çünki sübh çağı oxunan Quranın şahidləri olur"**[3] – buyuraraq onun vatxını ayrıca zikr edir. Çünki sübh namazı özündən əvvəl və sonra heç bir namazla bitişik deyildir. Belə ki, onunla zöhr namazı arasında gündüzün ilk yarısı, işa namazı ilə də onun arasında isə gecənin son yarısı var.

Bil ki, vaxtından əvvəl qılınan namaz qəbul olmaz. Hətta adam namaz üçün giriş təkbirini gətirən kimi namazın vaxt girsə, bu namaz fərz namazı olaraq qəbul olmaz. Çünki yerinə yetirilməsi üçün bəlli bir vaxt müəyyən edilmiş bir əməlin, vaxtından tez yerinə yetirilməsi səhih sayılmır. Necə ki, adam ramazandan əvvəl bir gün oruc tutduğu təqdirdə bu oruc ramazandan sayılmaz, eləcə də, adam namazın vaxtı girməmiş giriş təkbir gətirib namaza başlayarsa, bu, fərz namazı kimi qəbul olmaz. Fəqət bunu bilmədən etmişdirsə, o halda, onun qıldığı namaz nafilə namazı kimi qəbul olar və ona fərz namazını yenidən qılmaq vacib olar.

Namazı vaxtı çıxdıqdan sonra qılmaqda isə iki ehtimal var:

**Birinci ehtimal:** adamın bunu bilmədən, yaxud unudaraq və ya yuxuya qaldığına görə etməsidir ki, bunlar üzrlü hal sayılır və qıldığı həmin namaz qəbul olur.

---

[1] Səhih Muslim, 612.

[2] əl-İsra, 78.

[3] əl-İsra, 78.

a) Bilməmək: məsələn, adam namazın vaxtının girmədiyini düşünür və bir də baxır ki, artıq vaxtı çıxıb. Belə olduğu halda o, günah qazanmır. Bunu bilən kimi namazını qılır və bu namaz ondan qəbul olur. Çünki bu halda o, üzrlü sayılır.

b) Unutmaq: məsələn, adam mühüm bir işlə məşğul olur və bu, onu namaz vaxtı çıxana qədər məşğul edir. Bu adam namazın vaxtı çıxsa da, xatırladıqda dərhal onu qılmalıdır.

c) Yuxu da belədir. Əgər adam, azan vaxtı oyanmaq niyyəti ilə yatsa, lakin dərin yuxuya getdiyindən, nə azanın, nə başının üstünə qoyduğu zəngli saatın səsini eşidib oyanmasa və namazın vaxt çıxsa, oyandıqdan sonra o namazı qılmalıdır. Çünki Rəsulullah ﷺ belə buyurmuşdur: **"Kim namaza yatıb qalarsa və ya onu unudarsa, qoy yadına düşən kimi onu qılsın. Həmin namazın bundan başqa kəffarəsi yoxdur."**[1]

**İkinci ehtimal:** namazı heç bir üzr olmadığı halda qəsdən vaxtı çıxana qədər qılmamaqdır. Alimlər, beləsinin günahkar olması, Allaha və Onun rəsuluna ﷺ asilik etməsi xüsusunda həmrəydirlər. Hətta bəzi alimlər, o adamın bu əməli ilə küfr edib İslam dinindən çıxdığını söyləmişlər. Allahdan əfv diləyirik! Alimlərin bəzisi bunu desə də, doğru və cumhurun rəyi budur ki, üzrlü səbəb olmadan namazını vaxtında qılmayan adam kafir yox, günahkar və asi sayılır. Sonra alimlər, heç bir üzrü olmadan namazı vaxtında qılmayıb sonradan onu qıldıqda, onun qəbul olub-olmayacağı xüsusunda ixtilaf etmişlər. Bəziləri: "Onun qıldığı namaz qəbul olur" demişlər. Çünki bu adam doğru və savab iş görməyə qayıtmışdır. Həm də, namazı unudan adamın sonradan qıldığı namaz qəbul olduğu kimi, onu bilərəkdən tərk edən adamın da sonradan qıldığı qəza namazı qəbul olur. Lakin dəlillərə əsasən doğru rəy budur ki, namazı bu şəkildə qəsdən və üzrsüz tərk edən kimsə, sonradan onu min dəfə qılsa belə, o namaz ondan qəbul edilməz. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: **"Hər kim dinimizə aid olmayan bir əməli edərsə, bu əməl rədd edilər."**[2] Yəni, Allah onu rədd edər, qəbul etməz. Bir əməlin Allah tərəfindən rədd edilməsi, onun qəbul edilməməsi deməkdir. Namazı qəsdən tərk edən kimsə də, onu

---

[1] Səhih əl-Buxari, 597; Səhih Muslim, 684.

[2] Səhih əl-Buxari, 2697; Səhih Muslim, 1718.

sonradan qıldıqda, onu Allahın və Onun rəsulunun ﷺ əmrinə müvafiq şəkildə qılmış sayılmır. Odur ki, bu namaz ondan qəbul olunmur.

Üzrlü kimsə isə istisnadır. Elə buna görə də, şəriət beləsinə, üzrü qalxdıqdan sonra namazını qılmağı əmr etmişdir. Üzrü olmayan kimsə isə ömrü boyu namaz qılsa belə, vaxtında qılmadığı o namaz qəbul olmaz. Belə adam yalnız Allaha tövbə edib doğru yola qayıtmalı, saleh əməllərini çoxaltmalı və Allahdan çoxlu bağışlanma diləməlidir. Allah tövbə edənin tövbəsini qəbul edər.

**Namazın 2-ci şərti,** təharətdir: belə ki, təharətsiz qılınan namaz qəbul edilmir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Sizdən birinizin dəstəmazı pozulduqda, dəstəmaz almayınca, onun namazı qəbul olunmaz!"**[1] Elə buna görə də, adam gərək təhارəti ona əmr olunduğu şəkildə yerinə yetirsin. Əgər o, böyük və kiçik təbii ehtiyacını rəf etməklə, yaxud yel buraxmaq, yatmaq və dəvə əti yeməklə dəstəmazını pozmuşdursa, dəstəmaz almalıdır.

Dəstəmazın fərzləri isə bunlardır: üzü və dirsəklərə qədər (dirsəklər də daxil olmaqla) qolları yumaq, başa məsh etmək və topuqlara qədər (topuqlar da daxil olmaqla) ayaqları yumaq. Bu xüsusda uca Allah ayədə belə buyurur: **"Ey iman gətirənlər! Namaza qalxdığınız zaman üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı *yuyun.*"**[2]

Başa məsh çəkmək deyildikdə, qulaqlar da ona aid edilir. Həmçinin, üzü yumaq deyildikdə, ağızı yaxalamaq və burunun içini yumaq da buna aid edilir. Deməк, dəstəmaz aldıqda bu dörd əza təmizlənməli – üçü yuyulmalı, birinə isə məsh çəkilməlidir.

Ayaqyolunda istinca və ya isticmar etməyə (su ilə və ya daşla təmizlənməyə) gəlincə, bu, nəcasətin təmizlənməsinə aiddir və onun dəstəmazla heç bir əlaqəsi yoxdur. Əgər adam ayaqyolunda kiçik və ya böyük ehtiyacını rəf etdikdən sonra su ilə təmizlənib, sonra öz işi ilə məşğul olsa və nəhayət, namazın vaxtı girdikdə dəstəmaz almaq istəsə, ayədə zikr edilən dörd əzanı təmizləyərək dəstəmaz almalıdır. *Yəni dəstəmaz almaq istədikdə,* istinca etməyə gərək yoxdur. Çünki istinca etmək,

[1] Səhih əl-Buxari, 135; Səhih Muslim, 225.
[2] əl-Maidə, 6.

nəcasəti təmizləmək üçündür. Belə ki, ön və arxa ifrazat çıxışlarından çıxan nəcasət bir dəfə yuyulduqdan sonra, növbəti dəfə oradan nəcasət çıxanadək onları yenidən yumağa lüzum yoxdur.

Doğru rəy budur ki, əgər adam, şəri qaydalara uyğun isticmar etməyi unudub dəstəmaz alarsa, dəstəmazı səhih sayılar. Çünki istinca ilə dəstəmaz arasında heç bir əlaqə yoxdur.

Yox, əgər adam cunub halındadırsa, o zaman onun qüsl etməsi və bədənin hər yerini su ilə yuması vacibdir. Bu xüsusda uca Allah belə buyurur: **"Əgər cunub olmusunuzsa, qüsl edin."**[1] Ağzı yaxalamaq və buruna su alıb təmizləmək də qüslə aiddir. Çünki ağız və burun, üzə aiddir. Belə ki, alnı, yanaqları və saqqalı yumaq vacib olduğu kimi, bunları da yumaq vacibdir.

Vacib qüsl üçün, bədəninin hər bir yerinə suyun dəyməsi kifayət edir. Bu halda, baş, yaxud sinə, yaxud bel və ya bədənin aşağı tərəfindən başlamağının, yaxud da qüsl niyəti ilə hovuza girib çıxmağının heç bir fərqi yoxdur.

Qüsl edərkən dəstəmaz almaq vacib deyil, sünnətdir. Demək dəstəmazı qüsüldən öncə almaq sünnətdir. Odur ki, qüsl etdikdən sonra dəstəmaz almağa lüzum yoxdur. Çünki Rəsulullahın ﷺ qüsl etdikdən sonra dəstəmaz alması heç bir hədisdə sabit olmayıb.

Adam su tapmadıqda, yaxud xəstə olduğu halda suyun ona zərər verəcəyindən ehtiyat etdikdə, yaxud da hava çox soyuq olduqda və suyu qızdırmaq imkanı olmadıqda, təyəmmüm etməlidir. Çünki uca Allah belə buyurur: **"Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaqyolundan gəlibsə və ya qadınlarla yaxınlıq etmisinizsə, su tapmasanız, təmiz torpaqla təyəmmüm edin və ondan üzünüzə və əllərinizə sürtün."**[2] Uca Allah bu ayədə xəstənin və su tapmayan müsafirin təyəmmüm edə biləcəyini bəyan etmişdir.

Soyuqdan dolayı təyəmmüm etmənin caiz olduğuna dəlil isə Amr ibn əl-Asın رضي الله عنه başına gəlmiş hadisədir. Rəvayət edilir ki, Peyğəmbər ﷺ onu bir dəstə ilə birlikdə səfərə göndərmişdi. Səfər əsnasında o, cunub oldu və təyəmmüm edib camaata namaz qıldırdı. Səhabələr Peyğəmbə-

[1] əl-Maidə, 6.
[2] əl-Maidə, 6.

rin ﷺ yanına qayıtdıqda, Peyğəmbər ﷺ ondan: **"Ey Amr, sən cunub olduğun halda camaata namaz qıldırmısan?"**– deyə soruşdu. Amr ﷺ dedi: "Bəli, ya Rəsulullah! Mən uca Allahın: **"Canınıza qəsd etməyin. Həqiqətən, Allah sizə qarşı rəhmlidir"**[1] ayəsini xatırladım və soyuq havanın mənə zərər verəcəyindən ehtiyat edib təmiz torpaqla təyəmmüm etdim."[2] Peyğəmbər ﷺ onun etdiyi bu əməli təsdiqlədi və ona namazını yenidən qılmasını əmr etmədi. Çünki zərərdən ehtiyat edən adam, zərərə uğramış kimidir. Lakin bir şərtlə ki, ehtiyat etdiyi şeyin zərərli olduğu dəqiq və ya böyük ehtimallı olsun. Sadəcə onun zərərli olduğunu güman etməsi yetərli deyil.

Bil ki, təyəmmüm, həm dəstəmazı, həm də qüslü əvəz edir və ancaq dəstəmazı və qüslü pozan amillərlə və ya təyəmmümə rüsxət verən üzrün aradan qalxması ilə pozulur. Odur ki, su tapılmadığına görə təyəmmüm edən kimsə su tapdıqda, artıq su ilə yuyunmalıdır. Çünki uca Allah, su tapılmadığı halda torpaqla təyəmmüm etməyə izn vermişdir. "Sunən" əsərlərində Əbu Hureyradan ﷺ rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Müsəlman adam on il su tapmasa belə, təmiz torpaq onun üçün dəstəmazı əvəz edər, – yaxud onun üçün təmizləyici vasitə olar. Su tapdıqda isə onunla bədənini yumalıdır. Bu onun üçün daha xeyirlidir."**[3] Həmçinin, Buxarinin "Səhih"ində, İmran ibn Husaynın rəvayət etdiyi hədisdə xəbər verilir ki, Rəsulullah ﷺ camaata qıldırdığı namazı bitirdikdən sonra bir nəfərin kənara çəkilib camaatla namaz qılmadığını gördü və: **"Sənə camaatla namaz qılmağa nə mane oldu, ey filankəs?"**– deyə soruşdu. O: "Mən cunub oldum; su da yoxdur"– deyə cavab verdi. Peyğəmbər ﷺ ona: **"Torpaqdan istifadə et! Bu sənə kifayət edər"**– dedi. Bir müddət sonra su tapıldı və Peyğəmbər ﷺ cunub olan kimsəyə bir qab su verib: **"Get bunu üstünə tök"**– dedi.[4] Yəni, qüsl et! Bu, su tapıldıqda təyəmmümün pozulduğuna

---

[1] ən-Nisa, 29.

[2] Sunən Əbu Davud, 334. İbn Həcər: "Bu hədisin isnadı mötəbərdir"– demişdir (Fəth əl-Bari, 1/541).

[3] Sunən Əbu Davud, 332 və 333; Sunən ət-Tirmizi, 124; Musnəd İmam Əhməd, 5/146, 147, 155, 180; şeyx Albani, "Səhih əl-Cami" əsərində (1666) bu hədisin "səhih" olduğunu demişdir.

[4] Səhih əl-Buxari, 344.

dəlalət edir. Bu, həm də, camaat arasında yayılan bir qaydadır, deyirlər ki: "Su tapıldıqda təyəmmüm batil olur." Lakin su tapılmadığı və ya (xəstəlik və başqa bu kimi) üzr aradan qalxmadığı müddətcə təyəmmüm, dəstəmazı və qüslü əvəz edir və vaxtın çıxması təyəmmümü pozmur. Məsələn, yanında su olmayan bir müsafir zöhr namazı üçün təyəmmüm etsə və işa namazınadək dəstəmazını pozmasa, onun zöhrdən sonrakı hər namaz üçün təyəmmüm etməsinə lüzum yoxdur. Belə ki, namazın vaxtının bitməsi təyəmmümü pozmur. Çünki təyəmmüm şəriətin buyurduğu təharətdir. Necə ki, uca Allah buyurur: **"təmiz torpaqla təyəmmüm edin və ondan üzünüzə və əllərinizə sürtün. Allah sizi çətinliyə salmaq istəməz, fəqət O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər..."**[1] Bu ayədə uca Allah, təyəmmümlə təmizlənmənin də, bir təharət olduğunu bəyan edir. Peyğəmbər ﷺ də belə buyurmuşdur: **"Yer üzü mənim üçün pak və namazgah edilmişdir. Belə ki, ümmətimdən olan hər bir kəs istənilən yerdə vaxtı girmiş namazı qılmalıdır."**[2] Bu dəlildir ki, torpaq təmizləyicidir. Başqa bir rəvayətdə də Peyğəmbər ﷺ: **"Namaz *vaxtı* yetişdikdə, onun namazgahı və təmizlik vəsiləsi yanında olar"** buyurur. Yəni *torpaqla* təmizlənib namazını qılsın. Təmizlənmək, namazla əlaqəli ən mühüm əməllərdəndir. Bil ki, təmizliyə riayət etmək; həm də bədənindəki, paltarındakı və namaz qılacağın yerdəki murdar şeyləri təmizləməkdir. Yəni bu üç yeri təmizləmək vacibdir: bədən, paltar, və namaz qılınan yer.

1. Paltarı təmizləməyə gəlincə, bunun dəlili budur ki, Peyğəmbər ﷺ, heyz qanına bulaşmış paltarları ilə namaz qılmaq istəyən qadınlara, paltarına bulaşmış qanı təmizləmələrini – onu dırnaqları ilə qaşıyıb, baş və işarət barmaqları ilə ovxaladıqdan sonra o yeri yumağı əmr etmişdir.[3] Həmçinin, rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ səhabələrinə namaz qıldırarkən ayaqqabısını çıxardıb kənara qoydu, camaat da *ona baxıb* ayaqqabılarını çıxartdılar. Peyğəmbər ﷺ salam verdikdənn sonra onlardan nə üçün ayaqqabılarını çıxardıqlarını soruşdu. Onlar: "Sənin ayaqqabılarını çıxardığını gördük, biz də çıxardıq"– dedilər. Onda Peyğəmbər ﷺ dedi: **"Cəbrail yanıma gəlib, ayaqqabılarıma murdar şey**

---

[1] əl-Maidə, 6.

[2] Səhih əl-Buxari, 335.

[3] Səhih əl-Buxari, 307; Səhih Muslim, 291.

**bulaşdığını xəbər verdi.** ***Elə buna görə də mən onları çıxartdım."***[1] Bu hədis dəlildir ki, geyilən şeylərin nəcasətdən təmizlənməsi vacibdir.

2. Məkanın təmizlənməsinə gəlincə, bunun dəlili budur ki, bir vaxt bədəvilərdən biri gəlib Peyğəmbərin ﷺ məscidinin bir tərəfinə təbii ehtiyacını rəf etdi, – bədəvilərin də çoxu cahil olur, – bunu görən səhabələr onun üstünə qışqırdı və onu dayandırmağa çalışdılar, lakin Rəsulullah ﷺ müdrik addım ataraq bunu onlara qadağan etdi və səhabələrinə: "Onu sərbəst buraxın!"– deyə buyurdu. Bədəvi bövl edib qurtardıqdan sonra Rəsulullah ﷺ onu yanına çağırıb dedi: **"Sidik və murdar olan heç bir şey bu məscidlərə bulaşmamalıdır. Bu yerlər İzzətli və Qüdrətli Allahı zikr etmək, namaz qılmaq və Quran oxumaq üçündür."**[2] Onda bədəvi: "Allahım, mənə və Muhəmmədə rəhm et, bizimlə yanaşı heç kəsə rəhm etmə"– dedi.[3] Bunu ona görə dedi ki, səhabələr onun üstünə getmək istədikdə, Rəsulullah ﷺ onunla mülayim rəftar etdi. Bədəvi Allahın mərhəmətinin hər kəsə yetəcək qədər olmadığını güman etdiyi üçün belə dua etdi. Yəni, "Allahım, mənə və Muhəmmədə rəhm et, bizimlə yanaşı heç kəsə rəhm etmə"– dedi. Hətta digər rəvayətdə xəbər verilir ki, Rəsulullah ﷺ ona: **"Sən geniş olanı daraltdın!"**[4] demişdir. Sonra Peyğəmbər ﷺ, sidik bulaşmış yerin üstünə bir çəllək su tökməyi əmr etdi ki, o yer təmizlənsin.[5]

3. Bədənin təmizlənməsinə gəlincə, Buxari və Muslimin "Səhih"lərində, İbn Abbasdan رضي الله عنهما rəvayət edilir ki, *bir dəfə* Peyğəmbər ﷺ iki qəbrin yanından keçdi və belə buyurdu: **"Bunlar əzab çəkirlər, amma böyük bir şeyə görə əzab çəkmirlər.[6] Onlardan biri sidiyindən qorunmazdı, digəri isə söz gəzdirərdi."**[7] – Allah qorusun!

---

[1] Sunən Əbu Davud, 650. Musnəd İmam Əhməd, 3/20 və 92.

[2] Səhih Muslim, 285.

[3] Səhih əl-Buxari, 6010.

[4] Əvvəlki mənbə.

[5] Səhih Muslim, 285.

[6] İbn Həcər رحمه الله (Fəth əl-Bari, 1/78) demişdir: "Yəni söz gəzdirən və sidikdən qorunmayan həmin iki nəfərin iddiasına görə bunlar böyük bir şey deyil. Lakin şəriətə görə bu əməllərin hər ikisi böyük günahlardan sayılır. Bu fikir İbn Abbasdan رضي الله عنهما nəql edilmiş rəvayətdə öz təsdiqini tapmışdır. Həmin rəvayətdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bunlar əzab çəkirlər, amma böyük bir şeyə görə əzab çəkmirlər. Əslində isə bu böyük günahdır..." (Səhih əl-Buxari, 6055).

[7] Səhih əl-Buxari, 216; Səhih Muslim, 292.

Bu hədis dəlildir ki, sidikdən və başqa nəcasətlərdən təmizlənmək vacibdir. Lakin fərz edək ki, adam çöldə ikən paltarı nəcasətə bulaşmış və bunu yumaq üçün su tapmamışdır. Belə olduğu halda bu adam o paltarda namaz qılmaq üçün təyəmmüm etməlidirmi? Xeyir, buna görə təyəmmüm edilmir. Eləcə də, əgər çöldə ikən bədəninə – ayağına, yaxud əlinə, yaxud qoluna və ya baldırına nəcasət bulaşmış olarsa və onu yumaq üçün su yoxdursa, bu halda o, buna görə təyəmmüm etməməlidir. Çünki təyəmmüm, yalnız dəstəmazı və qüslü əvəz etmək üçündür. Nəcasətin təmizlənməsi üçün təyəmmüm edilməməlidir. Çünki nəcasət murdar bir cisimdir və onun təmizlənməsi imkan daxilində *su və s. ilə* onu aradan qaldırmaqla olur, əks təqdirdə isə, onu təmizləməyə imkan tapanadək, olduğu halda qalmalıdır. Daha doğrusunu Allah bilir.

**Məstlər və sarğı üzərinə məsh etməyin hökmü:**

Bir qədər əvvəl biz, dəstəmazın dörd əza ilə əlaqəli olduğunu bildirdik. Bunlar: üz, əllər, baş və ayaqlardır. Dəstəmaz alqıda üz və əllər yuyulur, başa məsh çəkilir, ayaqlar da, ya yuyulur, ya da *ayaq geyimi üzərindən* üzərlərinə məsh çəkilir. İki əza yuylur, birinə məsh çəkilir, biri də ya yuyulur, ya da üzərinə məsh çəkilir.

Üzə gəldikdə ona məsh çəkilmir. Yalnız üzərində sarğı – yara bantı olması müstəsnadır. Belə olduğu halda onun üzərinə məsh çəkmək olar. Və əgər adam günəşin qızmar şüalarından qorunmaq üçün və ya başqa bu kimi səbəbdən dolayı üzünü örtmüşdürsə, o halda onun üzərinə məsh çəkə bilməz, onu açıb üzünü yumalıdır. Yalnız zəruri hallar istisnadır. Zərurət olduqda isə üzü yumayıb sarğı üzərindən məsh çəkmək olar.

Əllərə də, həmçinin, məsh etmək olmaz, onları yumaq vacibdir. Yalnız zəruri halda əllərə məsh çəkmək olar. Məsələn, adamın əlində allergiya varsa, ona su dəydikdə zərər verirsə və ona su dəyməsin deyə, əlinə əlcək və ya bez keçirmişdirsə, bu halda onun üzərinə məsh edə bilər.

Başa isə məsh edilməlidir. Digər əzalara nisbətdə, başın təmizlənməsi daha asandır. Elə buna görə də, əgər qadın, başına xına qoysa və onu bir bezlə sarısa, yaxud adam Rəsulullahın ﷺ etdiyi kimi, ehramda ikən başına bir şey yapışdırsa, onu çıxartmağa ehtiyac yoxdur, onun üzərinə məsh çəkə bilər.

Ayaqlara gəldikdə isə onlar ya yuyulur ya da üzərinə məsh edilir. Elə buna görə də, Qurani Kərimdə "ayaqlarınız" kəlməsi iki qiraətlə fəthə/yönlük və kəsrə/yiyəlik, hallarında – "ərculəkum/ayaqlarınızı" və "ərculikum/ayaqlarınıza" kimi oxunmuşdur.

Kəsrə ilə olan "ərculikum" qiraətinə gəlincə, bu kəlmə ayədəki "başınıza məsh çəkin" sözünə bağlı olub, "ayaqlarınıza da məsh edin" mənasını ifadə edir.

Fəthə ilə olan "ərculəkum" qiraətinə gəlincə, bu kəlmə ayədəki "üzünüzü yuyun" sözünə bağlı olub, "ayaqlarınızı da yuyun" mənasını ifadə edir.

Lakin meydana sual çıxır, ayaqlara hansı halda məsh edilə bilər? Cavab belədir ki, adam ayaqlarına yalnız corab və ya məst geyindiyi halda məsh çəkə bilər. Corab: pambıqdan, yundan və ya buna bənzər şeylərdən *hazırlanmış* ayaq geyimidir. Məst isə: dəridən və buna bənzər bir şeydən tikilmiş ayaq geyimidir. Bunların üzərinə məsh çəkmək olar, lakin dörd şərtlə:

**Birinci şərt:** onun təmiz olmasıdır. Yəni ayağa geyilən məstlər və ya corablar təmiz olmalıdır. Əgər murdar dəridən hazırlanmışdırsa, onların üzərinə məsh çəkmək olmaz. Çünki nəcasət murdar sayılır və murdar şeyi nə qədər silsən də, nə qədər yusan da, təmizlənməz. Və əgər məstlərə *və ya corablara* nəcasət bulaşmışdırsa, o halda bildiyimizə görə onunla nə namaz qılmaq, nə də onun üzərinə məsh etmək olar.

**İkinci şərt,** məstləri və ya corabları, dəstəmaz alıb ayaqları yuduqdan sonra ayağa geymək gərəkdir. Əgər adam onları, təyəmmüm etdiyi halda ayağına geyinmişdirsə, o halda onların üzərinə məsh çəkmək olmaz. Məsələn, adam səfərdə ikən təyəmmüm etdikdən sonra corablarını ayağına geyinsə, sonra məmləkətinə dönüb dəstəmaz aldıqda onların üzərinə məsh edə bilməz. Çünki onları təyəmmümlü halda ayağına geyinmişdir. Təyəmmümlə edilən təharət isə üz və əllərlə əlaqəlidir, *bu təharət növünün* ayaqlarla heç bir əlaqəsi yoxdur. Bu şərt, Rəsulullahın ﷺ Muğirə ibn Şöbəyə رضي الله عنه dediyi: **"Mən bunları dəstəmazlı ikən geyinmişəm"** sözündən çıxarılmışdır.

**Üçüncü şərt,** məshin yalnız dəstəmaz üçün keçərli olmasıdır. Qüsl etdikdə isə məstlər və corablar üzərinə məsh etmək olmaz. Əksinə,

bunları çıxardıb ayaqları yumaq vacibdir. Deməkl, boynunda cənabət qüslü olan adam məstlər üzərinə məsh çəkə bilməz.

**Dördüncü şərt,** şəriətin müəyyən etdiyi müddət ərzində edilməsidir. Bu da, məmləkətində olan adam üçün bir gün bir gecə, müsafir üçün isə üç gün üç gecədir. *Elə isə, bu müddət nə vaxtdan başlayır?* Bu, dəstəmaz pozulduqdan sonra növbəti dəstəmazı aldıqda, ilk məsh edildiyi vaxtdan etibarən başlayır. İlk məshdən əvvəlki vaxt isə hesaba alınmır. Məsələn, adam çərşənbə axşamı günü səhər dəstəmaz alıb məstləri geyinsə və işa namazını qılanadək dəstəmazlı qalsa, sonra *məstləri ayağından çıxartmadan* yatıb, çərşənbə günü sübh namazı üçün dəstəmaz alıb ayağına məsh etsə, cümə axşamı gününün səhərinədək məstləri üzərinə məsh edə bilər. Beləcə, çərşənbə axşamı günü onun üçün hesaba alınmaz. Çünki həmin gün o, məstləri üzərinə məsh çəkməmişdir. Bu məshin müddəti çərşənbə gününün sübh vaxtından hesablanır. Buna dəlil, Əli ibn Əbu Talibin ﷺ rəvayət etdiyi hədisdir. Həmin hədisdə o demişdir: "Rəsulullah ﷺ üç gün üç gecə müsafir üçün, bir gün bir gecə də yerli sakin üçün vaxt təyin etmişdir."[1]

Həmçinin, Safvan ibn Assal ﷺ demişdir: "Biz səfərdə olduqda, Rəsulullah ﷺ bizə, – cənabət halı istisna olmaqla – üç gün üç gecə xufları çıxarmamağı əmr edərdi. *Beləliklə də,* biz böyük və ya kiçik ehtiyacımızı rəf etdikdən, yaxud yuxudan oyandıqdan sonra *dəztəmaz alarkən* xufları çıxarmazdıq."[2] Demək, məsh çəkmək üçün nə məstlərin ayağa geyildiyi vaxt, nə də onları geydikdən sonra dəstəmazın ilk pozulduğu vaxt önəmli sayılır. Önəmli sayılan onların üzərinə çəkilən birinci məshdir. *Hədislərdə bildirildiyi kimi,* adam daimi yaşadığı yerdə bir gün bir gecə, yəni iyirmi dörd saat, müsafir olduqda isə üç gün üç gecə, yəni yetmiş iki saat boyunca məsh edə bilər. Əgər adam daimi yaşadığı yerdə məstləri üzərinə məsh çəksə, sonra da məsh müddəti başa çatmadan səfərə çıxsa, müsafir kimi yetmiş iki saat məsh edə bilər. Məsələn, bu gün səhər *məstləri və ya corabları* geyinsə və nəhayət, zöhr namazı üçün dəstəmaz aldıqda onların üzərinə məsh etsə, zöhrdən sonra da səfərə çıxsa,

---

[1] Səhih Muslim, 276.

[2] Sunən ət-Tirmizi, 96. Tirmizi demişdir: "Bu hədis "həsən-səhih"dir." Sunən ən-Nəsai, 127; Sunən İbn Macə, 478; Səhih İbn Xuzeymə, 196; Səhih ət-Tirmizi, Albani 2801.

müsafir kimi, üç gün ərzində məsh edə bilər. Eləcə də bunun əksi, yəni əgər adam müsafir ikən məsh etsə, sonra da daimi yaşadığı yerə qayıtsa, yerli sakin olaraq cəmi bir gün məsh edə bilər. Çünki burada önəmli olan başlanğıc deyil, sondur. Yəni, səfərdə və ya yaşadığı yerdə önəmli sayılan sonluqdur, başlanğıc deyil.

Bu, imam Əhmədin ﷺ son rəyidir. Belə ki, daha əvvəl o deyirdi ki, əgər yerli sakin *məstləri və ya corabları üzərinə* məsh etdikdən sonra səfərə çıxarsa, bir gün məsh edir. Lakin daha sonra bu rəyindən dönüb: "Müsafir kimi məsh edir" demişdir. Alimin öz rəyindən dönməsi qəribə görünməməlidir. Çünki haqqa tabe olmaq vacibdir; adam haqqı bilən kimə ona tabe olmalıdır. İmam Əhməddən ﷺ bir məsələdə dörd, beş, hətta bəzən yeddi rəy rəvayət edilir. Halbuki o bir adamdır. İmam Əhməd ﷺ bəzən ilk rəyindən döndüyünü bildirər, bəzən də bildirməzdi. Əgər rəyindən döndüyünü açıq-aydın bildirmişdirsə, onda ilk rəyin ona isnad edilməsi doğru deyil. Yalnız demək olar ki: "Əvvəlcə belə demiş, lakin sonradan rəyini dəyişmişdir." Yox əgər rəyindən döndüyünü açıq-aydın bildirməmişdirsə, o halda onun bütün rəyləri ona isnad edilməli və belə deyilməlidir: *bu məsələ barəsində* onun iki rəyi və ya üç rəyi, yaxud dörd rəyi vardır.

İmam Əhməddən ﷺ bir məsələdə çoxlu sayda rəylər rəvayət edilmişdir. Çünki o, rəvayətlərə əsaslanan bir alim idi (rəvayətlərə əsasən fətva verərdi). Rəvayətlərə əsaslanan alimə isə bir məsələ ilə bağlı rəvayətlərin hamısı eyni vaxtda gəlib çatmırdı ki, onların hamısına baxıb bir rəy söyləsin. Əksinə, bir məsələ ilə bağlı hədislər ona ayrı-ayrı zamanlarda – bu gün biri, sabah başqa birisi və ya bir müddət sonra yenə bir hədis rəvayət edilərdi.

Bil ki, adam dəstəmazlı ikən məshin müddəti bitərsə, dəstəmazı pozulmaz. Lakin *müddət bitdikdən sonra* dəstəmazı pozan bir amil onun dəstəmazını pozarsa, o zaman, dəstəmaz aldıqda məstlərini çıxardıb ayaqlarını yumalıdır. Sadəcə məshin vaxtının bitməsi dəstəmazı pozmur.

Həmçinin bu məsələdə başqa bir qayda da belədir ki, adam dəstəmazlı ikən, üzərinə məsh etdiyi ayaq geyimini çıxardarsa onun dəstəmazı pozulmur, əksinə, o dəstəmazlı sayılır. Lakin ayaq geyimini çıxartdıqdan sonra yenidən dəstəmaz almaq istədikdə ayaqlarını mütləq

yumalıdır. Bu məsələdə əsas qayda belədir ki, məsh edilmiş ayaq geyimi ayaqdan çıxarılarsa, onu yenidən geyinib üzərinə məsh çəkmək olmaz. Bu halda adam yenidən dəstəmaz almaq istədikdə ayaqlarını mütləq yumalıdır. Bundan sonra ayaq geyimlərini yenidən geyinib, *sonrakı dəstəmazda onun üzərinə məsh çəkə bilər.*

**Namazın 3-cü şərti,** qibləyə tərəf yönəlməkdir:

Qibləyə tərəf yönəlmək namazın şərtlərindən biridir. Onu etmədikdə namaz səhih sayılmır. Belə ki, uca Allah bunu əmr etmiş və bir daha əmrini təkrar edərək belə buyurmuşdur: **"Hara** ***səfərə*** **çıxsan,** ***namaz qıldıqda*** **üzünü Məscidulharama tərəf çevir! Harada olursunuzsa olun, üzünüzü ona tərəf çevirin."**[1] Peyğəmbər ﷺ Mədinəyə gəldiyi gündən namazlarını Beytulməqdisə[2] tərəf qılır və bu əsnada Kəbə onun arxa tərəfində, Qüds isə ön tərəfində qalırdı. Lakin sonra o, qiblənin əks istiqamətə (Kəbəyə tərəf) təyin olunmasını təmənna etməyə başladı. Zaman-zaman üzünü göyə tərəf tutur və Cəbrailin عليه السلام Kəbəyə tərəf dönməyi əmr edəcək bir vəhyi nə vaxt gətirəcəyini gözləyirdi. Bu xüsusda uca Allah belə buyurur: **"Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük. Odur ki, səni razı qalacağın qibləyə tərəf döndərəcəyik. Sən üzünü Məscidulharama tərəf çevir!"**[3] Beləliklə, uca Allah ona Məscidulharama tərəf, yəni o istiqamətə doğru yönəlməyi əmr etdi. Fəqət bu məsələdə üç müstəsna hal vardır:

**Birinci hal;** əgər adam xəstəliyindən və buna bənzər halından dolayı qibləyə yönəlməyə acizdir və buna gücü çatmırsa, bu halda qibləyə yönəlmək onun üçün vacib sayılımır. Çünki uca Allah belə buyurur: **"Allahdan bacardığınız qədər qorxun."**[4] O, həmçinin, buyurur: **"Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər."**[5] Peyğəmbər ﷺ də belə buyurmuşdur: "**Mən sizə bir işi əmr etdikdə, ona gücünüz yetdiyi qədər əməl edin!"**[6]

---

[1] əl-Bəqərə, 150.
[2] Beytulməqdis – Məscidul-Əqsa: Yerusəlimdə (Qüdsdə) yerləşən məsciddir.
[3] əl-Bəqərə, 144.
[4] ət-Təğabun, 16.
[5] əl-Bəqərə, 286.
[6] Səhih əl-Buxari, 7288; Səhih Muslim, 1337.

**İkinci hal;** əgər adam şiddətli qorxu içindədirsə, məsələn, düşməndən, yaxud yırtıcı heyvandan, yaxud yanğından və ya vadini basan güclü seldən qaçırsa, yəni şiddətli qorxu içindədirsə, o zaman getdiyi istiqamətə doğru namazını qıla bilər. Buna dəlil, uca Allahın bu ayəsidir: **"Əgər *nədənsə* qorxsanız, *namazınızı* ayaq üstə və ya minik üzərində *qılın*. Təhlükə sovuşduqda isə Allahı, sizə bilmədiklərinizi necə öyrədibsə, o cür yad edin!"**[1] Ayədəki **"qorxsanız"** ifadəsi ümumidir və hər növ qorxunu əhatə edir. Allahın: **"Təhlükə sovuşduqda isə Allahı, sizə bilmədiklərinizi necə öyrədibsə, o cür yad edin!"** sözü dəlildir ki, adamın təhlükədən dolayı hər hansı bir zikri, o cümlədən də, qibləyə tərəf yönəlməyi tərk etməsində heç bir qəbahət yoxdur. Bir qədər əvvəl zikr etdiyimiz, vacib əməllərin yerinə yetirilməsinin gücün yetməsi ilə bağlı olduğunu ifadə edən iki ayə və Peyğəmbərin ﷺ hədisi də buna dəlildir.

**Üçüncü hal;** əgər adam səfər əsnasında, – istər təyyarədə, istər maşında, istərsə də dəvənin üzərində olsun, – nafilə namazını üz tutduğu istiqamətə doğru qıla bilər. Beləcə, o, vitr, təhəccüd, duha və başqa bu kimi namazları qıla bilər.

Müsafir, evdə olduğu vaxt qıldığı nafilə namazlarını səfərdə də qıla bilər. Yalnız ratibə namazlarından başqa. Yəni zöhr, məğrib və işa namazlarının ratibələri müstəsnadır. Səfər əsnasında bunları tərk etmək sünnədir. Bunlardan başqa digər nafilə namazları isə səfərdə qılınır. Yəni, *ratibə namazlarından başqa digər nafilə namazları* yerli sakin üçün hansı hökmdədirsə müsafir üçün də həmin hökmdə qalır.

Deməк, səfərdə olan adam nafilə namazını təyyarədə, avtomobilində, dəvəsinin üzərində və ya uzunqulağının üzərində qılmaq istəsə, onu getdiyi istiqamətə doğru qılmalıdır. Çünki bu cür etmək, Buxari və Muslimin "Səhih"lərində Rəsulullahdan ﷺ sabit olmuşdur.[2] Beləliklə, bizə aydın oldu ki, bu üç halda qibləyə doğru üz tutmaq vacib deyil.

---

[1] əl-Bəqərə, 239.

[2] Həmin hədisdə Cabir رضي الله عنه rəvayət etmişdir ki, Rəsulullah ﷺ minik üzərində, getdiyi istiqamətə tərəf üz tutaraq namaz qılardı. Fərz namazını qılmaq istədikdə isə yerə enər və qibləyə tərəf üz tutardı (Səhih əl-Buxari, 400; Səhih Muslim, 700, 701).

Qiblə istiqamətini təyin edə bilməyən adama gəldiktə isə, onun da, *namaz qılmaq üçün* qibləyə doğru yönəlməsi vacibdir. Fəqət araşdırıb təxmin etdiyi istiqamətdə doğru namazını qıldıqdan sonra, yanlış istiqamətə üz tutduğu bəlli olarsa, o halda namazını təkrar qılmasına lüzum yoxdur. Biz demirik ki, qibləni təyin edə bilməyən adamın namaz qılmaq üçün qibləyə doğru üz tutması vacib deyil, əksinə, bu, vacibdir və o, gücünün yetdiyi qədər araşdırmaq məcburiyyətindədir. Lakin gücü yetdiyi qədər araşdırdıqdan sonra, xəta etdiyi ona bəlli olarsa, namazını yenidən qılmamalıdır. Dəlili də budur ki, Kəbənin qiblə təyin edildiyindən xəbəri olmayan bir dəstə səhabə Quba məscidində namaz qılarkən, səhabələrdən biri gəlib onlara belə buyurdu: "Peyğəmbərə ﷺ ayə nazil oldu və ona Kəbəyə doğru yönəlmək əmr edildi. Elə isə Kəbəyə tərəf dönün!" Səhabələr Peyğəmbərin ﷺ bu əmrini eşidən kimi, namazda ikən Kəbəyə tərəf döndülər – Kəbə arxa tərəflərində ikən tamamən dönüb ona doğru durdular və namazlarına davam etdilər. Bu hadisə Rəsulullahın ﷺ zamanında baş vermiş və Rəsulullah ﷺ onların bu hərəkətinə etiraz etməmişdir. *Yəni, o namazı yenidən qılmağı onlara əmr etməmişdir.* Bu da, şəriətin icazə verdiyi əməllərdən hesab edilmişdir. Yəni, əgər adam bilmədən yanlış istiqamətə tərəf namaz qılmışdırsa, onun həmin namazı təkrar qılmasına lüzum yoxdur. Və əgər yanlış istiqamətə durduğu namaz əsnasında bəlli olarsa, o zaman dərhal qibləyə tərəf yönəlməlidir. Məsələn, bir adam qibləyə tərəf üz tutduğunu güman edib namaza başlayarsa *və bu namaz əsnasında* başqa birisi onun yanlış istiqamətə durduğunu görsə və ona: "Qiblə sağ tərəfdədir və ya sol tərfdədir"– desə, ona, namazdan çıxmadan həmin adamın dediyi istiqamətə, *yəni,* sağ və ya sol tərəfə yönəlmək vacib olar. Çünki əvvəlcə o, şəriətin buyurduğu kimi ictihad edib o istiqamətə doğru durmuşdur. Odur ki, onun qıldığı rükətlər batil olmur. Xülasə budur ki, qibləyə yönəlmək namazın şərtlərindəndir və bunsuz namaz səhih sayılmır. Yalnız qeyd etdiyimiz üç hal, üstəlik də, insanın qibləni araşdırıb, yanlış istiqamətə üz tutması halı müstəsnadır.

Bu mövzuya dair bir məsələyə da toxunmaq gərəkdir. Birisinin evində qonaq olan adam namaz qılmaq istədikdə, ev yiyəsindən qiblənin istiqamətini soruşmalı və qiblənin istiqaməti ona bildirildikdən sonra,

namazını həmin istiqamətə doğru qılmalıdır. Belə ki, bəzi adamlar sual verməyi özlərinə sığışdırmır və ya sual verməyə utanır. Halbuki bu işdə onun utanması yersizdir. Bəziləri də, camaat onun barəsində: "O, heç nə bilmir"– deməsin deyə, sual verməyə utanır. Eybi yox, qoy nə deyirlər, desinlər, sən, ev yiyəsindən qiblənin istiqamətini soruş, öyrən!

Bəzən adam sual verməyi özünə sığışdırmadığına və ya utandığına görə, təxmin etdiyi istiqamətə tərəf namaz qılır, sonra da yanlış istiqamətə durduğu bəlli olur. Belə olduğu halda o, namazı yenidən qılmalıdır. Çünki onun etdiyi əməl şəriətə istinad edilməmişdir. Şəriətə istinad edilməyən ibadət isə məqbul sayılmır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Hər kim dinimizə aid olmayan bir əməli edərsə, bu əməl rədd edilər"**[1]

**Namazın 4-cü şərti,** niyyət etməkdir.

Belə ki, namaz niyyətsiz səhih sayılmır. Çünki Peyğəmbər ﷺ demişdir: **"Əməllər niyyətlərə görədir. Hər kəsə yalnız niyyət etdiyi şey qalacaq."**[2] Həmçinin, bir çox ayələr, ibadətdə niyyətə diqqət yetirməyin vacib olduğuna dəlalət edir. Uca Allah Öz Peyğəmbərini ﷺ və onun səhabələrini belə vəsf edir: **"Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən."**[3] Uca Allah, həmçinin, buyurur: **"Siz *möminlər* malınızı ancaq Allahın Üzünü dilədiyinizə görə sərf edirsiniz."**[4] O, həmçinin, buyurur: **"Kim Allaha və Onun rəsuluna tərəf hicrət edərək evindən çıxdıqdan sonra ölüm onu haqlayarsa, onun mükafatını Allah verər."**[5] Bu mövzuya aid başqa neçə-neçə ayələr vardır.

Demək niyyət, namazın səhih olması üşün şərtdir və onsuz namaz səhih sayılmır. Niyyət, əslində elə də çətin bir iş deyil. Belə ki, bir işi görmək istəyən, ağlı başında olan və o işi öz ixtiyarı ilə edən hər kəs onu etmək üçün niyyət edir. Niyyət etmək üçün adamdan nə fiziki güc, nə də onu dillə tələffüz etmək tələb edilir. Belə ki, niyyətin yeri qəlbdir.

---

[1] Səhih əl-Buxari, 2697; Səhih Muslim, 1718.

[2] Səhih əl-Buxari, 1; Səhih Muslim, 1907.

[3] əl-Fəth, 29.

[4] əl-Bəqərə, 272.

[5] ən-Nisa, 100.

**"Əməllər niyyətlərə görədir."** Həmçinin, Peyğəmbər ﷺ, nə özü niyyəti dillə tələffuz etmiş, nə ümmətinə bunu əmr etmiş, nə də səhabələrindən bir kimsə bunu etmişdir. Dolayısıyla, niyyəti dillə tələffüz etmək bidətdir. Doğru rəy də elə budur. Çünki Peyğəmbər ﷺ və onun səhabələri namaz qılarkən onlardan heç biri dili ilə: "Allahım, mən namaz qılmaq üçün niyyət etdim"– deməmişdir.

Bir adamın mənə danışdığı bir hadisə necə də ibrətamizdir! Adam deyir ki: "İllər öncə bir nəfər, Məscidulharamda iqamə oxunduqdan sonra namaza başlamaq istədikdə: "Allahım, dörd rükət zöhr namazını Məscidulharam imamının arxasında Allah üçün qılmağa niyyət etdim"– dedi. Adam təkbir gətirib namaza başlamaq istədikdə, yanındakı adam ona: "Dayan, bəzi şeylər qaldı"– dedi. Adam "Nə qaldı?"– deyə soruşduqda, dostumuz ona belə cavab verdi: "Filan ilin, filan ayının filan tarixini və həftənin filan gününü də qeyd et ki, bu vəsiqə keçərsiz olmasın." Adam çaş-baş qaldı! Həqiqətən də, bu, çox təəccüblü bir şey idi! Əcəba, sən nə istədiyini Allaha bildirmək istəyirsən?! Halbuki Allah sənin nəfsinin sənə nə vəsvəsə etdiklərini belə bilir. Yoxsa sən Allaha rükətlərin sayını və namazın vaxtlarını öyrədəcəksən?! Niyyəti tələffüz etməyə lüzüm yoxdur. Onsuz da Allah onu bilir. Niyyətin yeri qəlbdir.

Lakin biz bilirik ki, namazlar bir neçə qismə bölünür: mütləq şəkildə qılınan nafilə namazları, müəyyən vaxtlarda qılınan nafilə namazları və bir də fərz namazları.

**Fərz namaları beşdir:** fəcr, zöhr, əsr, məğrib və işa namazları. Dan yeri söküldüyü zaman məscidə getdikdə, hansı namazı qılmaq istəyirsən? Məğər məğrib namazını qılmaq istəyirsən? Xeyr, sübh namazını qılmaq istəyirsən. Sən artıq məscidə *həmin* namazı niyyət edib gəlmisən və onun üçün təkbir gətirmisən. Lakin qıldığın həmin namazın fəcr namazı olduğu ağlından çıxarsa *bunun heç bir xətəri yoxdur.*

Başqa bir məsələni də qeyd edək. Fərz edək ki, məscidə gəldin və "Allahu əkbər" deyib namaza başladın, lakin həmin an qıldığın namazın hansı namaz olduğu ağlına gəlmədi. Belə hallar tez-tez baş verir, xüsusilə də, adam namazın rükətinə çatmayacağından qorxub tələsik namaza başladıqda belə olur. Məsələn, məscidə gəldin və "Allahu əkbər" deyib namaza başladın, lakin həmin an fəcr namazını qılmaq istə-

diyini qəlbindən keçirmədin. Belə olduğu təqdirdə də, ayrıca niyyət etməyə lüzum yoxdur. Çünki o namazın öz vaxtında yerinə yetirilməsi, sənin niyyətindəki namazın həmin namaz olduğuna dəlalət edir. Belə olduğu halda kimsə səndən: "Hansı namazı qılmaq istəyirdin – zöhrümü, əsrimi, məğribimi, yoxsa işanımı?"– deyə soruşsa, sən: "Xeyr, yalnız sübh namazını!"– deyə cavab verərdin. Elə isə qıldığın namazın sübh olduğuna niyyət etmək o qədər də əhəmiyyətli deyil. Hərçənd, hansı namazı qılacağımızı müəyyən etsək daha mükəmməl olar, lakin bəzən həmin vaxt adamın hansı namazı qıldığı ağlına gəlməyə bilər. Belə olduğu təqdirdə qıldığımız namazın hansı namaz olduğunu, həmin vaxt təyin edir.

Deməl, fərz namazlarının müəyyən edilməsi iki yolla olur.

**Birincisi,** adam hansı namazı qılacağını, məsələn, zöhr namazını qılmaq istədiyini qəlbi ilə müəyyən edir. Bu, aydındır.

**İkincisi** isə, vaxt ilə təyin olunur. Yəni, namazı öz vaxtında qıldıqda, bu, həmin vaxtda qılınan namaz sayılır. Bu ikinci qisim, öz vaxtında qılınan fərz namazlarına aiddir. Lakin fərz edək ki, adam bir neçə namazın qəzasını qılmalıdır, məsələn, bütün günü yatıb qalıb və zöhr, əsr və məğrib namazlarını qılmayıb. Belə olduğu halda, adam buraxdığı namazların qəzasını qılarkən onların hər bir üçün ayrıca niyyət etməlidir. Çünki qəzaya qalmış namaz üçün vaxt müəyyən olunmayıb.

Müəyyən nafilə namazlarına – yəni, vitr, düha namazının iki rükəti və fərz namazlarından əvvəl və sonra qılınan ratibə namazlarına gəlincə, bunları qıldıqda niyyəti bəlli etmək vacibdir. Lakin dillə deyil, sadəcə qəlb ilə. Məsələn, vitr namazını qılmaq üçün, niyyət etmədən təkbir gətirib namaza başlasan, sonra namaz əsnasında niyyət etmədiyini xatırlayıb vitr namazını qılmaq üçün niyyət etsən, bu səhih sayılmır. Çünki vitr, müəyyən edilmiş nafilələrdəndir və niyyət etdikdə, təyin edilməsi vacibdir.

Mütləq nafilələr üçün isə niyyəti bəlli etməyə gərək yoxdur, sadəcə namaz qılmaq niyyətinin olması kifayətdir və bunu etmək labüddür. Məsələn, adam duha vaxtı dəstəmaz alıb mütləq (sərbəst) şəkildə dilədiyi qədər namaz qılmaq istəsə, sadəcə namaz qılacağına niyyət etməsi kifayətdir. Çünki bu, müəyyən edilmiş nafilələrdən deyil.

*Bu məsələ ilə bağlı meydana bir sual çıxır:* Namaz əsnasında niyyəti bir namazdan başqa bir namaza dəyişdirmək olarmı? Bu mümkündürmü? Cavab belədir ki, müəyyəndən müəyyənə və ya mütləqdən müəyyənə keçmək caiz deyil.

Mütləqdən müəyyənə keçməyə misal budur ki, adam iki rükət nafilə namazı qılmaq niyyəti ilə namaza başlayıb, namaz əsnasında fəcrdən əvvəl qılınan iki rükət ratibəni qılmadığını xatırlasa və *niyyətini dəyişib* həmin iki rükəti qılmağa niyyət edərsə, bu, ratibə namazı kimi qəbul olmaz. Çünki bu, mütləqdən müəyyənə keçməkdir. Müəyyən edilmiş nafilə üçün isə namaza başlamazdan əvvəl niyyət etmək şərtdir. Fəcr namazının ratibəsi giriş təkbiri ilə başlayıb salamlarla başa çatır.

Müəyyəndən müəyyənə keçməyə misal da budur ki, adam əsr namazına niyyət edib təkbir gətirsə və namaz əsnasında zöhrü qılmadığını və ya onu dəstəmazsız qıldığını xatırlayıb, qəlbində: "İndi zöhrü qılmağa niyyət edirəm"– desə, qıldığı bu namaz zöhr namazı sayılar, yoxsa yox? Bu halda həmin namaz zöhr namazı kimi qəbul olunmaz. Çünki müəyyəndən başqa bir müəyyənə keçmişdir. Həmçinin, əsr niyyəti ilə başladığı bu namaz da, əsr namazı olaraq qəbul olunmaz. Çünki namaz əsnasında zöhr namazına niyyət edərək qıldığı əsr namazını yarımçıq kəsmişdir. Deməli, bu namaz nə zöhr, nə də əsr kimi qəbul olar. Namaz əsnasında əsri yarımçıq kəsib niyyətini dəyişdirdiyinə görə, bu, əsr namazı kimi qəbul olmaz, namazın əvvəlindən zöhr niyyəti ilə başlamadığına görə də, zöhr namazı kimi qəbul olmaz.Çünki zöhr namazı giriş təkbiri ilə başlayıb salamlarla sona çatır.

Müəyyəndən mütləqə keçmək isə caizdir. Məsələn, bir adam fərz namazını qılmağa başlayır. Namaza başlayan kimi yadına düşür ki, vədələşdiyi bir görüş var və ona gecikmək olmaz. Bu halda həmin adam niyyətini dəyişib nafilə namazını niyyət edə bilər. Lakin bunu iki şərtlə edə bilər: təxirə saldığı fərz namazını daha sonra yerinə yetirə biləcəyinə yetərli vaxtı varsa və bir də fərz namazını camaatla qılmağı fövtə vermirsə.

Birinci şərt: Namazı sonradan qılmaq üçün yetərincə vaxtın olması.

İkinci şərt: Camaat namazı əldən çıxmırsa.

Məsələn: Adam camaat namazındadır və bu halda o, niyyətini mütləq nafilə namazına dəyişdirə bilməz. Çünki bu, camaat namazını tərk etmək deməkdir, bunu isə etmək caiz deyil.

Həmçinin namazın vaxtı dardırsa, bu halda da niyyəti mütləq nafilə namazına dəyişmək caiz deyil. Çünki namazın vaxtı o qədər dardır ki, fərzdən başqa bir namaz qılmağa vaxt çatmır. Lakin vaxt genişdirsə, habelə, artıq camaat namazı qılınıbsa, bu halda *namaz əsnasında* niyyətini dəyişib mütləq nafilə namazını niyyət edə bilərsən. Yəni, iki rükətdən sonra salam verərək namazı bitirirsən və vədələşdiyin işinin dalınca gedirsən. İşini bitirdikdən sonra isə fərz namazını yenidən qılırsan. Beləliklə, niyyəti bir namazdan başqa bir namaza dəyişməyin üç halı olduğu ortaya çıxır:

1. Mütləqdən müəyyənə keçmək: belə olduqda, qıldığı müəyyən namaz səhih sayılmır, lakin o namaz mütləq nafilə namazı kimi səhih sayılır.
2. Müəyyəndən müəyyənə keçmək: belə olduğu təqdirdə isə, ilk niyyət etdiyi namaz batil olur, ikincisinə də natamam sayılır.
3. Müəyyəndən mütləqə keçmək: bunu etmək isə caizdir. Lakin belə olduğu təqdirdə, əvvəlcə niyyət etdiyi müəyyən namazı qılmaq onun öhdəsində qalır.

**Camaat namazına imamlıq etmək üşün və bir də imamın arxasında namaz qılmaq üçün niyyət etmək:**

Camaat namazı qılmaq üçün imamın və məmumun (namazda ona tabe olan kimsənin) birlikdə namaz qılması gərəkdir. Bunun üçün ən azı iki nəfər – imam və məmum olmalıdır. Camaat nə qədər çox olarsa, bu, Allaha bir o qədər sevimli olar. Camaat namazı qılındıqda, imamın da, imama tabe olan şəxsin də, niyyət etməsi şərtdir və bu, alimlərin yekdil qəbul etdiyi rəydir. Yəni camaatla birlikdə namaz qılmaq istəsən, həmin namazı qıldıracaq imama tabe olacağına niyyət etməlisən. Lakin əvvəldə qeyd etdiyimiz kimi, niyyət etmək üçün böyük bir iş görməyə (onu müəyyən sözlərlə və dillə tələffüz etməyə) gərək yoxdur. Çünki namaz qılmaq üçün məscidə gələn adam, artıq o namazı imamla qılmağa niyyət etmişdir. Əgər bir adam başqa birisinə: “Mənə namaz qıl!”– desə, artıq o, imama tabe olacağına niyyət etmiş sayılacaq.

İmama gəlincə, alimlər onun, imam durmağa niyyət etməsinin vacib olub-olmaması barədə ixtilaf etmişlər. Bəzi alimlər onun imam durmağa niyyət etməsinin vacib olduğunu demişlər. Bu rəyə əsasən, məsələn, iki nəfər gəlib bir adamın namaz qıldığını görsə və o adamın xəbəri olmadığı halda, onun arxasında namaza durub ona tabe olacaqlarına niyyət etsələr, bu halda imamın imam durmağa niyyət etməsinin şərt olduğunu deyənlərin rəyinə görə bu iki nəfərin namazı səhih sayılmır. Çünki imam, imam durmağa niyyət etməmişdir. Bunun şərt olmadığını deyənlərə görə isə o iki nəfərin namazı səhih sayılır. Çünki onlar, o imama tabe olmuşlar.

Birinci rəy, imam Əhməd ibn Hənbəlin ﷺ məşhur rəyidir.

İkinci rəy isə imam Malikin ﷺ rəyidir. Dəlili də budur ki, Peyğəmbər ﷺ ramazan gecələrinin birində, məsciddə namaz qılarkən səhabələrdən bir qismi gəlib onun arxasında durub onunla birlikdə namaz qılmışlar.[1] Halbuki Peyğəmbər ﷺ namaza başladıqda imamlıq etməyə niyyət etməmişdir. İkinci dəlilləri də budur ki, bir gecə İbn Abbas ﷺ Peyğəmbərin ﷺ evində qalmış və nəhayət, Peyğəmbər ﷺ qalxıb təkbaşına gecə namazını qılmağa başladıqda, o, qalxıb dəstəmaz almış və gəlib Peyğəmbərin ﷺ yanında namaza durmuşdur.[2]

Heç şübhəsiz ki, ikinci hədis bu məsələyə dəlalət etmir. Çünki Peyğəmbər ﷺ imamlığa niyyət etmiş, lakin bunu namaz əsnasında etmişdir. İmamın namaz əsnasında imamlıq edəcəyinə niyyət etməsində isə heç bir qəbahət yoxdur. Hər bir halda, ehtiyat üçün deyirik ki, artıq namaza başlamış bir adamın arxasında namaza durmaq istəyənlər, bunu ona bildirməlidirlər. Və əgər o, sakitcə namazına davam etsə, bunu qəbul etmiş sayılar, yox əgər bunu rədd edib, əli ilə: "Arxamda namaza durmayın"– deyə işarə edərsə, onda onun arxasında namaz qılınmamalıdır. Ən yaxşı və ən uyğun olanı da elə budur.

---

[1] Səhih əl-Buxari, 2012; Səhih Muslim, 761.

[2] Rəvayət edilir ki, İbn Abbas ﷺ demişdir: "*Bir dəfə mən xalam* Meymunənin evində gecələdim. Gecə vaxtı Peyğəmbər ﷺ yuxudan oyanıb su başına çıxdı, sonra üzünü və əllərini yuyub yenə uzanıb yatdı. *Bir müddətdən* sonra qalxıb su tuluğuna yaxınlaşdı və onun ağzındakı ipi açıb suyu israf etmədən kamil şəkildə dəstəmaz aldı və namaza durdu. Onu güddüyümü başa düşməsin deyə, galxıb gərnəşdim, sonra dəstəmaz alıb namaz qılmaq üçün onun solunda durdum. O, qulağımdan tutub məni sağ tərəfinə keçirdi..." (Səhih əl-Buxari, 6316; Səhih Muslim, 763).

İkinci məsələ: İmamın namazı ilə arxasında duran camaatın namazının eyni namaz olması şərtdirmi? Yəni, fərz namazı qılan imamın arxasında nafilə namazını qılan, habelə, nafilə namazı qılan imamın arxasında fərz namazını qılan kimsənin namazı səhih sayılırmı?

Gəlin bu məsələni açıqlayaq:

Fərz namazını qılan adamın arxasında durub nafilə namazını qılmaq niyyəti ilə ona qoşulmaq caizdir. Çünki buna dəlalət edən hədislər vardır. Rəvayət edilir ki, Rəsulullah ﷺ bir səhər Minadakı Xayf məscidində camaata sübh namazını qıldırdıqdan sonra, camaata qoşulmayan iki nəfəri görüb onlardan: **"Camaatla birlikdə namaz qılmağınıza nə mane oldu?"**– deyə soruşdu. Onlar: "Ya Rəsulullah! Biz *namazımızı* qaldığımız yerdə qılmışıq"– dedilər. (Ehtimal edilir ki, onlar camaata yetişməyəcəklərindən ehtiyat edib və ya başqa bir səbəbdən dolayı namazlarını qaldıqları yerdə qılmışlar.) Onda Rəsulullah ﷺ belə buyurdu: **"Olduğunuz yerdə namazınızı qıldıqdan sonra, məscidə gəlib camaat *namazına* yetişsəniz, onlara qoşulun. Belə olduğu təqdirdə, *camaatla birlikdə qıldığınız* həmin namazı sizin üçün nafilə namazı sayılar."**[1]

**"Həmin namaz"**, yəni qılınan ikinci namaz nafilə sayılar. Çünki birincini qıldıqda, artıq fərz namazı yerinə yetirmiş sayılır və beləcə, onun məsuliyyəti ortadan qalxmış olar. Bu hədis də dəlildir ki, nafilə namazı qılmaq istəyən adamın fərz namazı qıldıran imamın arxasında namaz qılması caizdir.

Bunun əksinə, nafilə namazını qılan imamın arxasında durub fərz namazını qılmaq niyyəti ilə ona qoşulmaq məsələsinə gəlincə, bu, çox vaxt ramazanda baş verir. Bu məsələyə dair ən uyğun misal göstərib deyə bilərik ki, adam işa namazını camaatla birlikdə qılmağa yetişə bilmir və nəhayət, məscidə daxil olub camaatın təravih namazını qıldığını görür. Belə olduğu təqdirdə, bu adam işa namazını qılmaq niyyəti ilə camaata qoşulmalıdır, yoxsa yoxsa işa namazını tək başına qılıb, sonra təravih namazına qoşulmalıdır?

---

[1] Sunən Əbu Davud, 575; Sunən ət-Tirmizi, 219; İmam Tirmizi bu hədisin "həsən-səhih" olduğunu demişdir. Sunən ən-Nəsai, 858; Musnəd imam Əhməd, 4/160, 161.

Bu məsələdə alimlər ixtilaf etmişlər. Onlardan bəzisi: "Nafilə namazı qılanın arxasında fərz namazını qılmaq olmaz"– demişdir. Çünki fərz namazı nafilədən daha yüksəkdir və imama tabe olan adamın namazının imamın namazından yüksək olması caiz deyil. Bəziləri də: "Nafilə namazı qılanın arxasında fərz namazını qılmaq olar"– demişdir. Çünki sünnədə buna dair dəlillər vardır. Necə ki, Muaz ibn Cəbəl رضي الله عنه işa namazını Rəsulullahın ﷺ arxasında qılmış, sonra da qəbiləsinə gedib onlara bu namazı qıldırmışdır. Beləliklə də, onun qıldığı *ikinci* namaz onun üçün nafilə, həmqəbilələri üçün isə fərz sayılmış və Rəsulullah ﷺ də onun bu əməlini inkar etməmişdir.

Əgər kimsə: "Bəlkə də, Rəsulullahın ﷺ bundan xəbəri olmamışdır"– desə, ona belə cavab verərik: "Əgər Rəsulullah ﷺ bunu bilirdisə, deməli, bu hədis bizim dediyimizə dəlalət edir. Belə ki, Muaz ibn Cəbəl رضي الله عنه işa namazını uzatdığı üçün Rəsulullaha ﷺ şikayət edilmişdir. Bundan da belə aydın olur ki, bu hadisə barədə Rəsulullaha ﷺ ətraflı xəbər verilmişdir."

Fərz edək ki, Rəsulullah ﷺ, Muazın رضي الله عنه işa namazını onun arxasında qıldıqdan sonra, gedib bu namazı qəbiləsinə qıldırdığını bilmirdi. Axı Rəsulullahın ﷺ Rəbbi – yerdə və göydə olan hər şeydən xəbəri olan Allah bunu bilirdi. Və əgər uca Allah, Muazın رضي الله عنه bu əməlini bildiyi halda, Öz Peyğəmbərinə ﷺ bir xəbərdarlıq nazil etməmişdirsə, deməli, belə etmək caizdir. Çünki uca Allah, şəriətə müvafiq olmayan heç bir hökmü Öz qulları üçün təsdiqləməz. Hər iki ehtimal, söylədiyimiz rəyə dəlalət edir. Deməli, doğru rəy budur ki, adam fərz namazını, nafilə namazı qılan kimsənin arxasında qıla bilər. Bunu caiz hesab etməyənlərin dəlil olaraq zikr etdikləri qiyas isə səhih hədisə zidd olan, qeyri-məqbul, mötəbər sayılmayan bir qiyasdır. Odur ki, əgər ramazan gecələrində məscidə gəlib camaatın təravih namazını qıldığını görsən, özün də işa namazını qılmamısansa, o zaman işa namazını qılmaq niyyəti ilə camaata qoşul. Əgər ilk rükətə çatmısansa, imam iki rükəti bitirib salam verdikdən sonra qalx iki rükət də qıl ki, dörd rükət fərzi tamamlayasan. Yox əgər ikinci rükətə çatmısansa, o zaman imam salam verdikdən sonra qalx üç rükət də qıl. Çünki imamla birlikdə bir rükət qılmısan və namazı tamamlamaq üçün üç rükətin qalıb.

Hənbəli məzhəbinin bu rəyə müxalif olmasına rəğmən, imam Əhməd ibn Hənbəl ﷺ şəxsən bunun caiz olduğunu söyləmişdir.

Bütün bu deyilənlərin xülasəsi belədir:

– fərz namazını qılan adamın arxasında fərz namazını qılmaq caizdir;

– nafilə namazını qılan adamın arxasında fərz namazını qılmaq ixtilaflı məsələdir;

– fərz namazını qılan adamın arxasında nafilə namazını qılmaq yekdil rəylə caizdir;

Üçüncü məsələ, namazın növü haqqındadır: imamla ona tabe olan adamın namazlarının, növ etibarı ilə eyni olması şərtdirmi? Yəni hər ikisinin zöhr namazını, yaxud hər ikisinin əsr namazını və ya başqa eyni cinsdən olan namazı qılmağa niyyət etməsi şərtdir, yoxsa, yox?

Bu məsələdə də ixtilaf var. Bəzi alimlərin rəyinə görə həm imamın, həm də ona tabe olanın namazının eyni olması şərtdir. Yəni, zöhr namazı qılan imamın arxasında zöhr namazını, əsr namazı qılanın arxasında əsr namazını, məğrib namazı qılanın arxasında məğrib namazını, işa namazı qılanın arxasında işa namazını və fəcr namazı qılanın arxasında fəcr namazını qılmaq gərəkdir. Çünki Peyğəmbər ﷺ demişdir: **"İmam ona görə təyin olunmuşdur ki, *arxasında* namaz qılanlar ona tabe olsunlar. Odur ki, ona müxailf olmayın."**[1]

Bəzi alimlər isə bunun şərt olmadığını demişlər. Yəni zöhr namazı qılan imamın arxasında əsr namazını, yaxud əsr namazı qılan imamın arxasında zöhr namazını və ya işa namazı qılan imamın arxasında əsr namazını qılmaq caizdir. Çünki bu halda imama tabe olmağa heç bir xələl toxunmur. Və əgər hökmləri bir-birindən fərqli olmalarına rəğmən, nafilə namazı qılan kimsənin arxasında fərz namazını qılmaq caizdirsə, *hökmləri eyni olub* adlarının fərqli olması (birinin zöhr, digərinin əsr olması) da namaza xələl gətirməz. Bu, daha doğru rəydir.

Əgər bir adam: "Mən işa namazının azanı verildikdən sonra məscidə gəldim və iqamə verildikdə yadıma düşdü ki, zöhr namazını dəstəmazsız qılmışam. Belə olduğu halda, mən işa namazını qılan imamın arxasında zöhr namazını necə qılım?"– desə, deyərik ki: "İmamla birlikdə namaza başla və zöhr namazını qıl. Sənin niyyətinin zöhr, ima-

---

[1] Səhih əl-Buxari, 689; Səhih Muslim, 411.

mın niyyətinin də işa olmasının heç bir qəbahəti yoxdur. Çünki Rəsulullah ﷺ belə buyurmuşdur: **"Əməllər niyyətlərə görədir. Hər kəsə yalnız niyyət etdiyi şey qalacaq..."**[1] Rəsulullahın ﷺ: **"İmam ona görə təyin olunmuşdur ki, *arxasında* namaz qılanlar ona tabe olsunlar. Odur ki, ona müxailf olmayın"** hədisinə gəlincə, bu, heç də: "Niyyət etmək xüsusunda imama müxalif olmayın" demək deyil. Çünki bu hədisin davamında Rəsulullah ﷺ bunu izah edib deyir: **"O, təkbir gətirdiyi zaman siz də təkbir gətirin, o, səcdəyə getdiyi zaman siz də səcdəyə gedin, o, *başını* qaldırdığı zaman, siz də *başınızı* qaldırın..."**[2] Yəni imama tabe olun və ondan önə keçməyin. Burada Rəsulullahın ﷺ sözlərinin biri digərini izah edir.

Bu mövzu ilə əlaqəli başqa bir məsələ də vardır: belə ki, imamın və ona tabe olan kimsənin qıldığı namaz, rükətlərinin sayına və qılınma formasına görə eyni olarsa heç bir problem olmur. Məsələn, əsr namazını qılan imamın arxasında durub zöhr namazını qılmaq. Bunların rükət sayları da, qılınma forması da eynidir. Odur ki, bunda bir problem yoxdur. Lakin namazlar fərqli olduğu təqdirdə, məsələn, imama tabe olan iki rükət, imam isə dörd rükət qılsa və ya əksinə olsa, yaxud imama tabe olan üç rükət, imam isə dörd rükət qılsa və ya əksinə olsa, nə etməli? Sualın cavabı belədir ki, imama tabe olan şəxsin qılacağı namazın rükət sayının daha çox olmasında problem yoxdur. Məsələn, adam məğrib namazını qılmaq üçün məscidə gəlsə və iqamə verildikdə, əsr namazını dəstəmazsız qıldığını xatırlasa, o zaman əsr namazını qılmalıdır. Bu adama deyirik ki: "Əsr namazını niyyət edib imamla birlikdə namaza başla və nəhayət, imam salam verdikdə, qalx bir rükət də qıl ki, namazın dörd rükət olsun." Bu qaydada qılmaqda heç bir problem yoxdur.

Əgər imamın qıldığı namazın rükətlərinin sayı, ona tabe olan kimsənin qılacağı namazın rükətlərinin sayından çox olarsa, o halda: əgər tabe olan adam imama ikinci, yaxud üçüncü, yaxud da dördüncü rükətdə qoşularsa, bunda problem yoxdur. Yox əgər imama ilk rükətdə qoşularsa, o zaman artıq problem ola bilər.

---

[1] Səhih əl-Buxari, 1; Səhih Muslim, 1907.

[2] Səhih əl-Buxari, 689; Səhih Muslim, 411.

Buna bir misal göstərək: bəzən məğrib namazını qılmaq üçün məscidə gəldikdə, imamın işa namazını qıldığını görürsən. Namazların cəm edilərək qılındığı vaxtlarda buna tez-tez rast gəlmək olur. Adam məscidə gəlib görür ki, camaat leysan yağışdan və ya başqa səbəbdən dolayı namazları cəm şəkildə qılır. Əgər gəlib camaatın işa namazını qıldığını və üçüncü rükətdə olduqlarını görsən, bu halda məğrib niyyəti ilə namaza qoşulmalı və imam salam verdikdə qalxıb bir rükət də qılmalı, beləliklə də üç rükəti tamamlamalısan. Bunda bir problem yoxdur. Və əgər gəlib görsən ki, camaat işa namazının ikinci rükətindədir, yenə məğrib niyyəti ilə onlara qoşulmalı və imam salam verdikdən sonra sən də salam verib namazı bitirməlisən. Bu cür etmək namaza heç bir xələl gətirmir. Çünki *bu halda* sən namaza heç bir şey artırmır və ondan heç bir şey əksiltmirsən. Bunda da problem yoxdur. Fəqət bəziləri bunu problem hesab edir. Deyirlər ki, ikinci rükətdə camaata qoşulduqda, imam üçün ikinci, sənin üçün isə ilk rükət olan bu rükətdə sən təşəhhüdə oturacaqsan. Bu da o deməkdir ki, sən birinci rükətdə *əlavə olaraq* təşəhhüdə oturmuş olacaqsan. Cavabımız budur ki, belə etməkdə bir qəbahət yoxdur. Məgər sən zöhr namazının ikinci rükətinə qoşulduqdan sonra imam ilk təşəhhüdə oturduqda, bu sənin üçün birinci rükət olmurmu? Bunda da, həmçinin, heç bir problem yoxdur.

Əsas problem ondadır ki, sən məscidə gəlib camaatın işa namazını qıldığını və ilk rükətdə olduqlarını görürsən, sonra da məğrib niyyəti ilə onların birinci rükətlərindən başlayaraq namaza qoşulursan. Belə olarsa, imam üç rükət qılıb, dördüncü rükətə qalxarkən sən nə edəcəksən? Onunla davam etsən, dörd rükət qılmış olacaqsan. Halbuki məğrib namazı üç rükətdir. Yox əgər oturub gözləsən imama müxalif olmuş olacaqsan. Belə olduğu halda nə edəcəksən?

Cavabı belədir ki, *üçüncü rükətdə* otur və ayağa qalxma. Əgər məğriblə işanı cəm etmək istəyirsənsə, o zaman imamdan ayrılmağa niyyət et, təşəhhüdü oxu və salamları verib namazı tamamla. Sonra da işa namazına niyət edib yenidən imamla namaza qoşul. Bu şəkildə işa namazının sonuna yetişmiş sayılırsan. Yox, əgər *məğriblə işanı* cəm etmək istəmirsənsə, yaxud cəm etməyə haqqın yoxdursa, bu halda seçim etməkdə sərbəstsən. İstəsən, təşəhüddə oturub, imamın son rükəti ta-

mamlamasını gözlə və imam təşəhhüdü oxuyub salam verdikdə, onunla birlikdə təşəhhüdü oxu və salam ver. İstəsən də, camaatdan ayrılmağa niyyət et, təşəhhüdü oxu və salam ver. Bu məsələdə daha doğru rəy budur. Şeyxulislam İbn Teymiyyənin ﷺ seçimi də budur.

Burada camaatdan ayrılmağa niyət etmək zərurətdən dolayıdır. Çünki adamın məğrib namazını üç rükətdən çox qılması caiz deyil. Oturub gözləmək də şəri zərurətdən dolayıdır və bunda da bir qəbahət yoxdur.

Peyğəmərin ﷺ: **"namazı doğru-düzgün qılasan..."** sözü, namazın rüknlərini də əhatə edir. Namazın rüknləri deyildikdə, o sözlər və hərəkətlər qəsd edilir ki, onlarsız namaz səhih sayılımır və yalnız onları yerinə yetirdikdə namaz qəbul olur.

**Namazın rüknləri bunlardır:**

**1-cisi, açılış təkbiridir:** bu, adamın namaza başlayarkən "Allahu əkbər" deməsidir. Bunsuz namazın keçərli olması mümkün deyil. Əgər adam açılış təkbirini deməyi unudaraq camaat namazına qoşularsa, bundan sonra namaza aid olan sözlərin hamısını desə və hərəkətlərin hamısını yerinə yetirsə belə, namazı səhih və keçərli sayılmaz. Çünki açılış təkbiri olmasa namaz keçərli sayılmır. Belə ki, Peyğəmbər ﷺ, namazın qılınma qaydasını öyrətdiyi adama belə buyurmuşdur: **"Namaza durmaq istədikdə, kamil şəkildə dəstəmaz al, sonra qibləyə tərəf üz tut və "Allahu Əkbər" de."**[1] Demək, namaza başladıqda təkbir gətirmək labüddür. Peyğəmbər ﷺ də bunu əsla tərk etməmişdir.

---

[1] Hədisin tam variantı belədir: Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ məscidə daxil oldu, arxasınca da bir nəfər *ora* daxil olub namaz qıldı və *namazı bitirdikdən* sonra gəlib Peyğəmbərə ﷺ salam verdi. Peyğəmbər ﷺ onun salamını aldı və *ona belə* buyurdu: "Qayıt namazını qıl, çünki sən namaz qılmadın." Adam qayıdıb əvvəlki kimi namaz qıldı, sonra da Peyğəmbərin ﷺ yanına gəlib ona salam verdi. Peyğəmbər ﷺ *ona*: "və aleykəssəlam"– dedi, sonra yenə buyurdu: "Qayıt namazını qıl, çünki sən namaz qılmadın." Həmin adam bunu üç dəfə təkrar etdi. Nəhayət, o adam dedi: "Səni haqq *din* ilə göndərənə and olsun ki, mən bundan daha düzgün olanını qıla bilmirəm. Mənə *nə edəcəyimi* öyrət!" Peyğəmbər ﷺ buyurdu: "Namaza durmaq istədikdə, kamil şəkildə dəstəmaz al, sonra qibləyə tərəf üz tut və "Allahu Əkbər" de. Sonra Qurandan sənə asan gələni oxu, sonra rükuya get *və bunu* rahat-rahat yerinə yetir, sonra *başını* qaldırıb qamətini dümdüz tut, sonra səcdəyə get *və bunu* rahatlıqla yerinə yetir, sonra qalx otur *və* tam rahat ol və namazının qalan rükətlərində də belə et" (Səhih əl-Buxari, 6251; Səhih Muslim, 397).

**2-cisi, "əl-Fatihə"ni oxumaqdır:** "əl-Fatihə" surəsini oxumaq namazın rüknüdür və onsuz namaz səhih sayılmır. Dəlil də, uca Allahın: **"Elə isə *namaz qılarkən* Quradan *sizə* asan gələni oxuyun!"**[1] ayəsidir. Bu, əmrdir. Peyğəmbər ﷺ: **"Fatihətul-Kitabı[2] oxumayanın namazı yoxdur!"**[3] buyuraraq, bu ayədə zikr edilən: "**asan gələni**" sözünü izah edib, bunun "əl-Fatihə" surəsi olduğunu bildirmişdir. Başqa bir hədisdə də Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Qıldığı namazda Ummul-Quranı[4] oxumayan kimsənin namazı düşükdür, düşükdür, düşükdür.[5]"**[6] Yəni keçərsizdir, səhih deyildir.

Deməк, "əl-Fatihə" surəsini oxumaq namaz qılan hər kəsə – həm imama, həm ona tabe olana, həm də namazını fərdi şəkildə qılan kimsəyə fərzdir. Belə ki, bu xüsusda varid olmuş hədislər ümumi mənada olub, heç bir halı istisna etmir. Və əgər uca Allah və Onun rəsulu ﷺ heç bir halı istisna etməmişlərsə, o halda bu hökm namaz qılan hər bir kəsə aid edilir. Çünki müstəsna olunacaq bir hal olsaydı, Allah və Onun rəsulu ﷺ bunu bəyan edərdi. Belə ki, uca Allah buyurur: **"Biz Kitabı sənə hər bir şeyi bəyan etmək üçün nazil etdik."**[7]

Qeyd edək ki, imama tabe olan adamın istər səssiz, istərsə də səsli namazlarda "əl-Fatihə" surəsini oxumaması barədə Peyğəmbərdən ﷺ açıq-aydın mənada heç bir səhih hədis varid olmamışdır. Lakin səssiz və səsli namazlar arasında fərq bundadır ki, imama tabe olan kəs, səsli namazlarda yalnız "əl-Fatihə" surəsini oxumalı, sonra da imamın oxuduğu ayələri dinləməlidir. Səssiz namazlarda isə, yenə "əl-Fatihə" surəsini oxuyur, sonra da imam rükuya gedənədək istədiyi surəni oxuyur. Fəqət sünnədə varid olmuş hədislərə əsasən, imam rüku halında

---

[1] əl-Muzzəmmil, 20.

[2] Bu surə Quranın əvvəlində gəldiyinə görə ona "Fatihətul-Kitab/Kitabı açan" adı verilmişdir.

[3] Səhih əl-Buxari, 756; Səhih Muslim, 394.

[4] Mübarək Kitab bu surə ilə başladığına görə, ona "Ummul-Quran/Quranın anası" deyilir. Necə ki, Məkkə şəhəri "Ummu-Qura/Şəhərlər anası" adlanır.

[5] Hədisdə ərəbcə ( الخِدَاجُ ) kəlməsi lüğətdə: vaxtından əvvəl doğulmuş, yarımçıq deməkdir. Lakin burada: dəyərsiz, qüsurlu, nöqsanlı mənasını ifadə edir.

[6] Səhih Muslim, 395.

[7] ən-Nəhl, 89.

ikən ona qoşulan kimsənin "əl-Fatihə" surəsini oxumaması müstəsna haldır. Yəni, adam, imam rükuda ikən gəlib ona qoşulsa, "əl-Fatihə" surəsini oxumaq ona vacib olmur. Buna dəlil Buxarinin rəvayət etdiyi hədisdir. Həmin hədisdə xəbər verilir ki, bir dəfə Əbu Bəkrə ﷺ məscidə daxil olub, Rəsulullahın ﷺ rüku halında olduğunu gördü və cərgəyə daxil olmadan tələsik *təkbir gətirib* rükuya getdi, sonra da *bu vəziyyətdə yeriyərək gəlib* cərgəyə daxil oldu. Peyğəmbər ﷺ salam verib *namazı bitirdikdən sonra*: **"Hansı biriniz cərgəyə daxil olmamış rükuya getdi, sonra da bu vəziyyətdə yeriyərək gəlib cərgəyə daxil oldu?"**– deyə soruşdu. Əbu Bəkrə ﷺ: "Mən, ya Rəsulullah!"– deyə cavab verdi. Peyğəmbər ﷺ də ona belə buyurdu: **"Allah sənin hərisliyini artırsın. Amma bir daha belə etmə!"**[1] Peyğəmbər ﷺ bilirdi ki, Əbu Bəkrəni ﷺ tələsib, cərgəyə daxil olmadan rukuya getməsinin səbəbi, onun o rükətə yetişməyə həris olması idi. **Elə buna görə də ona: "Allah sənin hərisliyini artırsın. Amma bir daha belə etmə!"** buyurdu. Yəni, bu etdiyini bir daha etmə – cərgəyə daxil olmadan, tələsib rükuya getmə. Başqa bir hədisdə də Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Namaza sükunət içində gəlin. Yetişdiyiniz rükətləri *imamla birlikdə* qılın, buraxdıqlarınızı isə özünüz tamamlayın."**[2]

Peyğəmbər ﷺ Əbu Bəkrəyə ﷺ, tələsik qoşulduğu rükəti yenidən qılmasını əmr etməmişdir. Əgər o həmin rükətə çatmış olmasaydı, Peyğəmbər ﷺ ona o rükəti təkrar qılmasını əmr edərdi. Belə ki, Peyğəmbərin ﷺ, bəyan edilməsi vacib olan bir hökmü sonraya saxlaması mümkün deyil. Çünki o, təbliğçidir və təbliğçi insan, lazım gəldikdə dərhal təbliğ edir. Və əgər Rəsulullah ﷺ ona: "Sən bu rükətə yetişmədin"– deməmişdirsə, demək, o, həmin rükətə yetişmişdir. Belə olduğu halda isə ona "əl-Fatihə" surəsini oxumaq lazım gəlmir. Bu məsələnin nəqli dəlildən başqa əqli dəlili də var: belə ki, "əl-Fatihə" surəsi yalnız

---

[1] Səhih əl-Buxari, 783; Sunən Əbu Davud, 684.

[2] Hədisin əvvəlində rəvayət edilir ki, Əbu Qətadə ﷺ demişdir: "*Bir dəfə* biz Peyğəmbərlə ﷺ birgə namaz qılarkən Peyğəmbər ﷺ hay-küy səsi eşitdi. *Namazı bitirdikdən sonra onlardan*: "Sizə nə olub?"– deyə soruşdu. Onlar: "Biz namaza tələsirdik"– dedilər. Onda Peyğəmbər ﷺ buyurdu: "*Bir də* belə etməyin! Namaza sükunət içində gəlin..." (Səhih əl-Buxari, 908; Səhih Muslim, 603).

qiyamda oxunmalıdır. Barəsində söhbət açdığımız məsələdə isə, imama tabe olunduğuna görə, artıq "əl-Fatihə" surəsini oxumağın vacibliyi aradan qalxır. Və əgər belə olduğu təqdirdə qiyamda durmaq lazım deyilsə, qiyamda oxunması vacib olan surəni də oxumaq lazım deyil. Beləliklə, həm nəqli, həm də əqli dəlil, imam rükuda ikən ona qoşulmaq istəyən kimsənin ayaq üstə *namaza* giriş təkbirini gətirib, heç bir şey oxumadan rükuya getməsinə dəlalət edir. Fəqət *giriş təkbirindən sonra* rüku üçün də ayrıca təkbir gətirməsi daha əfzəl sayılır. Bu təkbiri gətirməməsində isə heç bir qəbahət yoxdur. Belə ki, ilk təkbiri yetərlidir.

Namaz qılan adamın "əl-Fatihə" surəsini ayaq üstə oxunması vacibdir. Məsələn, bu günkü gün bəzi adamlar, imam ikinci rükətə qalxdıqda, imamla birlikdə qalxmayıb yerlərində oturur və bu halda "əl-Fatihə" surəsini oxumağa başlayırlar. Görürsən ki onlar, imam "əl-Fatihə" surəsinin yarısına çatanadək yerlərində oturur və bundan sonra ayağa qalxırlar. Halbuki onlar ayağa qalxmağa qadir idilər. Beləsinə deməliyik ki: "Sənin oxuduğun "əl-Fatihə" surəsi səhih sayılmır. Çünki "əl-Fatihə" surəsi qiyamda oxunmalıdır. Odur ki, ayaq üstə durub oxumağa qadir olduğun halda, onun bir hissəsini oturulu halda oxuduğuna görə, oxuduğun səhih sayılmır.

Birinci və ikinci rükətlərdə "əl-Fatihə" surəsindən sonra əlavə surə oxumaq isə, sünnə sayılır. Məğrib namazının üçüncü, zöhr, əsr və işa namazlarının isə həm üçüncü, həm də dördüncü rükətlərində *əlavə surə oxumaq* isə sünnə sayılmır. Sünnəyə əsasən üçüncü və dördüncü rükətlərdə yalnız "əl-Fatihə"ni oxumaq kifayətdir. Lakin buna rəğmən, hərdən zöhr və əsr namazlarının üçüncü və dördüncü rükətlərində "əl-Fatihə"dən başqa surə oxumaq qəbahət sayılmır. Lakin sünnə budur ki, üçrükətli və dördrükətli namazların üçüncü və dördüncü rükətlərində sadəcə "əl-Fatihə" surəsini oxumaq kifayətdir.

**Namazın rüknlərinin 3-cüsü rüku etməkdir:** bu, Allaha təzim etmək üçün əyilməkdir. Belə ki, sən, Allahın hüzurunda durduğunu düşünür və Ona təzim edərək əyilərsən. Odur ki, Peyğəmbər ﷺ demişdir: **"Rükuda qüdrətli və qüvvətli Rəbbi uca və ulu tutun!"**[1] Yəni,

---

[1] Səhih Muslim, 479.

"Subhanə rabbiyəl-azim!"[1]– deyin. Belə ki, rüku etmək, hərəkətlə təzim etmək, "Subhanə rabbiyəl-azim!" demək isə sözlə təzim etməkdir. Beləcə, əsas təzimlə – qəlbən Allaha təzim etməklə yanaşı iki təzim də əlavə etmiş oluruq. Dolayısıyla, rükuda üç cür təzim vardır:

1. Qəlb ilə təzim etmək;
2. Əzalarla təzim etmək;
3. Dil ilə təzim etmək.

Yəni, qəlbinlə: Allaha təzim etmək üçün rüku etdiyini düşünməli, dilinlə: "Subhanə rabbiyəl-azim!"– deməli və əzalarınla: Onun qarşısında əyilməlisən.

Rükunu düzgün yerinə yetirmək üçün, adamın əlləri ilə dizlərini tutana qədər əyilməsi vacibdir. Yəni bir az əyilmək məqbul sayılmır. Belə ki, belini tam əyməlisən ki, əllərinlə dizlərini tuta biləsən.

Bəzi alimlər: "Adamın tam rüku halına, tam qiyam halından daha yaxın şəkildə durması yetərlidir"– demişlər. Hər halda beli əymək labüddür. Rükuda bel əyri deyil, düm-düz olmalı, adamın başı onun beli ilə eyni müstəvidə olmalı, əlləri ilə dizlərini tutduqda barmaqlarını ayırmalı, dirsəklərini hər iki böyründən aralı tutmalı və bu halda təkrar-təkrar: "Subhanə rabbiyəl-azim!"– deməlidir. Habelə: "Subhanəkə Allahummə Rabbənə və bihamdikə, Allahummə-ğfirli!"[2] və "Subbuhun, quddusun, Rabbul-məlaikəti vər-ruh!"[3] dualarını da oxuya bilər.

**Namazın rüknlərinin 4-cüsü səcdə etməkdir:** Bu xüsusda uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın, Rəbbinizə ibadət edin..."**[4] Peyğəmbər ﷺ də belə buyurmuşdur: **"Mənə yeddi əza üzərinə səcdə etmək əmr edilmişdir: alın, əllər, diz-**

---

[1] Ərəbcəsi: (( سُبْحَانَ رَبِّيَ الْعَظِيمِ ))

Tərcüməsi: Böyük Rəbbim pak və müqəddəsdir!

[2] Ərəbcəsi: (( سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدِكَ اللَّهُمَّ اغْفِرْ لِي ))

Tərcüməsi: "Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz! Sənə həmd olsun. Allahım, məni bağışla!" (Səhih əl-Buxari, 818; Səhih Muslim, 484).

[3] Ərəbcəsi: (( سُبُّوحٌ، قُدُّوسٌ، رَبُّ الْمَلَائِكَةِ وَالرُّوحِ ))

Tərcüməsi: "*Allah*, pakdır, müqəddəsdir, mələklərin və ruhun Rəbbidir!" (Səhih Muslim, 487).

[4] əl-Həcc, 77.

**lər və ayaq barmaqlarının ucları.”** Peyğəmbər ﷺ alın deyəndə burnuna da işarə etdi.[1] Demək, namazda səcdə etmək vacibdir. Çünki səcdə etmək namazın rüknüdü və onsuz namaz tamamlanmır.

Adam səcdə etdikdə: “Subhanə rabbiyəl-ə'la!”[2]– deməlidir. Rüku və səcdədəki təsbihlərin nə qədər hikmətli olduğunu bir düşün! Rükuda: “Subhanə rabbiyəl-azim”– deyirsən, çünki bu hal, təzim etmə halıdır; səcdədə də: “Subhanə rabbiyəl-ə'la”– deyirsən, çünki bu hal, yerə enmək halıdır. Belə ki, insan bədəninin ən yuxarı hissəsində yerləşən üzünü, ən aşağı hissəsində yerləşən ayaqlarının dəydiyi yerə endirir. Odur ki, səcdə edən adamın üzü ilə ayaqlarının eyni müstəvidə olduğunu görürsən. Bu da, Allahı bütün nöqsanlardan uzaq tutmanın ən yüksək həddidir. Elə buna görə də: “Subhanə rabbiyəl-ə'la”– deyirsən. Yəni, “Hər şeyin fövqündə olan ən Uca Rəbbimi, hər bir aşağı və alçaq yerdən uzaq tuturam. Mən Onun hüzurunda başımı və ən şərəfli sayılan üzümü ayaq basılan yerə endirirəm”- deyirsən. “Subhanə rabbiyəl-ə'la” sözünü üç dəfə və ya vəziyyətə görə daha çox təkrar edirsən. Həmçinin: “Subhanəkə Allahummə Rabbənə və bihamdikə, Allahummə-ğfirli!”[3] və “Subbuhun, quddusun, Rabbul-məlaikəti vər-ruh!”[4] dualarını da oxuya bilərsən. Bundan əlavə, dinə və dünyaya aid olan işlər üçün çoxlu dua edə bilərsən. Çünki Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Səcdədə çoxlu dua edin. Əlbəttə ki, orada duanızın qəbul olması gercəyə çıxmağa daha yaxındır.”**[5] O, həmçinin, demişdir: **“Qulun Rəbbinə ən yaxın olduğu hal, səcdəyə qapandığı halıdır.”**[6] Elə isə dilədiyin qədər bol-bol dua et: *Allahdan* Cənnəti istə, Cəhənnəmdən *Ona* sığın, habelə, *Ondan* sənə faydalı elm, saleh əməl, sarsılmaz iman və başqa bu kimi nemətlər nəsib etməsini dilə. Habelə, gözəl ev, əməlisaleh həyat yoldaşı, əməlisaleh övlad, minik və başqa bu kimi dini və dünyavi nemətlər istə. Çünki dua, dünyavi işlər üçün olsa belə, özü özlüyündə bir

---

[1] Səhih əl-Buxari, 812; Səhih Muslim, 230.

[2] Ərəbcəsi: ((سُبْحَانَ رَبِّيَ الْأَعْلَى)) Tərcüməsi: Ən uca Rəbbim pak və müqəddəsdir!

[3] Əvvəlki səhifədəki haşiyəyə bax.

[4] Əvvəlki səhifədəki haşiyəyə bax.

[5] Səhih Muslim, 479.

[6] Səhih Muslim, 482.

ibadətdir. Bu xüsusda uca Allah belə buyurur: **"Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizə cavab verim."**[1] O, həmçinin, buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm."**[2]

Bu çətin günlərdə[3] biz uzun müddət səcdəyə qapılıb çoxlu-çoxlu dua etməli və Rəbbimizdən azğın zalımların zülmünün qarşısını almasını diləməliyik; tələsib, duanın qəbul olmadığını düşünməməliyik. Çünki uca Allah hikmət sahibidir. Bəzən O, duanı birinci, yaxud ikinci, yaxud üçüncü dəfədən qəbul etmir ki, insanlar özlərinin Rəbbinə çox möhtac olduqlarını anlayıb daha çox dua etsinlər. Allah, hikmət sahiblərinin ən hikmətlisidir. Hikməti o qədər böyükdür ki, bizim onu dərk etməyə gücümüz çatmaz. Lakin bizim öhdəmizə düşən, bizə əmr olunduğu kimi çoxlu dua etməkdir.

Adam rükudan qalxıb dikəldikdən sonra səcdəyə getməli və yerə, öncə dizlərini, sonra əllərini, sonra da alnını və burnunu qoymalıdır. Əllər, dizlərdən əvvəl qoyulmamalıdır. Çünki Rəsulullah ﷺ bunu qadağan edib demişdir: **"Sizdən biriniz səcdə etdikdə, dəvənin çökdüyü kimi yerə çökməsin!"**[4] Məlumdur ki, dəvə yerə çökərkən, əvvəl ön ayaqlarını qoyur. Dəvəni müşahidə edən hər bir adam görür ki, o yerə çökdükdə, birinci qabaq ayaqlarını yerə qoyur. Rəsulullah ﷺ isə bu cür yerə çökməyi qadağan etmişdir. Rəsulullahın ﷺ bunu qadağan etməsinin səbəbi budur ki, insanın – xüsusilə də namazda – zahirən heyvana bənzəməsi bəyənilməyən bir haldır. Belə ki, uca Allah insanı, yalnız məzəmmət ediləcək məqamda heyvana bənzətmişdir. Uca Allahın bu ayəsinə diqqət edin: **"Onlara ayələrimizi verdiyimiz kimsənin əhvalatını oxu. O, ayələrdən kənara çıxdı, şeytanın təqibinə məruz qaldı, axırda da azmışlardan oldu. Biz istəsəydik, bu *ayələrin* sayəsində onu ucaldardıq. Lakin o, dünyaya meyl saldı və öz istəyinə uydu. Onun misalı itin misalına bənzəyir; onu qovsan da dilini çıxardıb ləhləyər, qov-**

---

[1] Ğafir, 60.

[2] əl-Bəqərə, 186.

[3] Şeyx ﷺ burada hicrətin 1411-ci ilində gedən ikinci körfəz müharibəsini qəsd edir.

[4] Sunən Əbu Davud, 480; Sunən ət-Tirmizi, 269; Sunən ən-Nəsai, 1091; Musnəd imam Əhməd, 2/381; Səhih əl-Cami, 595.

**masan da."**[1] O, həmçinin buyurur: **"Tövrata əməl etmək buyurulduqdan sonra ona əməl etməyənlər, belində çoxlu kitab daşıyan, *amma onlardan faydalana bilməyən* uzunqulağa bənzəyirlər. Allahın ayələrini yalan sayan adamların məsəli necə də pisdir."**[2] Peyğəmbər ﷺ də belə buyurmuşdur: **"Verdiyi hədiyyəni geri götürən adam, qusduqdan sonra qayıdıb qusduğunu yeyən itə bənzəyir."**[3] O, həmçinin demişdir: **"Cümə günü imam xütbə oxuyarkən danışan adamın halı, kitab daşıyan uzunqulağın halına bənzəyir."**[4]

Gördüyünüz kimi insan, yalnız məzəmmət ediləcək məqamda heyvana bənzədilmişdir. Elə buna görə Peyğəmbər ﷺ namaz qılan insana, səcdə etdikdə dəvə kimi çökməyi, yəni əvvəlcə əllərini yerə qoymasını qadağan etmişdir. Əksinə, əvvəlcə dizlər yerə qoyulmalıdır. Yalnız üzrlü hal istisnadır. Məsələn, adam yaşlı olduğuna görə öncə dizlərini qoymaqda çətinlik çəkirsə, yaxud xəstədirsə, yaxud dizində ağrı varsa və ya buna bənzər başqa narahatçılığı olarsa, öncə əllərini qoymasında heç bir qəbahət yoxdur.

Səcdənin yeddi əza üzərinə edilməsi vacibdir: alın – burun da ona aiddir; əllər, dizlər və ayaq barmaqlarının ucları. Bu yeddi əza üzərinə səcdə etmək bizə əmr edilmişdir. Necə ki, Rəsulullah ﷺ bu haqda bizə xəbər vermişdir. Əmr edən isə qüdrətli və qüvvətli olan Rəbbimizdir. Odur ki, biz: "Eşitdik və itaət etdik"– deyir və səcdə etdikdə bu yeddi əza üzərinə səcdə edirik. Səcdədə qaldığımız müddətcə isə bu əzalardan heç birini yerdən qaldırmağa ixtiyarımız çatmır. Əksinə, səcdədə qaldığımız müddətcə bu əzalar üzərində durmağımız vacibdir. Səcdə əsnasında adam, ayaqlarını bir-birinə bitişdirməli, onları bir-birindən aralamamalıdır. Dizlər haqqında bir hökm varid olmadığına görə, onlar olduğu halda qalmalıdır. Əllərə gəlincə, onların arasına alnımızı qoya bilməyimiz üçün əllərimizi çiyinlərimizin bərabərinə və ya biraz önə doğru – alnın bərabərinə qoymalıyıq. Demək, əllər iki cür qoyula bilər. Birincisi: onlar alın qoyulan yerdən geridə, çiyin bərabərində qoyulur.

---

[1] əl-Əraf, 175-176.

[2] əl-Cumuə, 5.

[3] Səhih əl-Buxari, 2589; Səhih Muslim, 1622.

[4] Musnəd imam Əhməd, 1/230; Daif əl-Cami, 5238; Silsilə əl-Əhadis əd-Daifə, 1760.

İkincisi: onlar bir az öndə, alın bərabərində qoyulur. Hər iksinə dair Rəsulullahdan ﷺ hədislər varid olmuşdur.

Səcdə əsnasında dirsəklərini böyürlərindən aralı tutmalı və belini yuxarı qaldırmalısan. Fəqət cərgədə olub, dirsəklərini böyürlərindən kənarlaşdıracağın halda yanındakına əziyyət verəcəyindən qorxsan, bunu etməməli, yanındakına əziyyət verməməlisən. Belə ki, qardaşına əziyyət verəcək və onu namazdan yayındıracaq əməl sünnə olsa belə, onu etməyin məsləhət deyil.

Sünnəyə riayət etməyi sevən bəzi qardaşlarımızın səcdə etdikdə alınlarını çox önə qoyduqlarını görmüşəm. O qədər önə doğru uzanırlar ki, hətta üzüqoyulu yerə yatmış olduqlarını sanırsan. Şüphəsiz ki, bu, sünnəyə ziddir və bidətdir. Əsl sünnə, belini yuxarı qaldırmağın və onu yüksəkdə tutmağındır.

Bəzi qardaşlarımızın bu şəkildə səcdə etməsi, sünnəyə müxalif olmaqla yanaşı, həm də bədənə böyük yorğunluq verən bir səcdə halıdır. Çünki bu halda bədənin ağırlığı alın və burun üzərinə düşür və adam səcdəni uzatdıqda narahat olur. Dolayısıyla, bu cür səcdə etmək həm sünnəyə muxalifdir, həm də bədənə əziyyət verir. Odur ki, birisinin bu şəkildə səcdə etdiyini görsən, onu haqq yola yönəltməli və etdiyinin sünnəyə müvafiq olmadığını ona bildirməlisən.

Həmçinin, səcdədə ikən Allahdan qorxmalı və Onun hər şeydən uca, pak və müqəddəs olduğunu düşünməlisən. Çünki bu halda sən: "Subhanə rabbiyəl-ə'la"– deyəcəksən, yəni hər şeyin fövqündə olan ən Uca Rəbbimi, hər bir aşağı və alçaq yerdən uzaq tuturam. Biz etiqad edirik ki, uca Allah Öz zatı ilə bütün yaratdıqlarının fövqündədir. Necə ki, uca Allah buyurur: **"Ən Uca Rəbbinin adına təriflər de!"**[1] Quran və sünnədə Allahın ülviliyini[2] isbat edən dəlillər olduqca çoxdur.

İnsan dua edərkən əllərini göyə, hər şeyin fövqündə olan İzzət və Cəlal sahibi olan Allaha doğru qaldırır. Uca Allah, Quranın yeddi ayəsində Öz Ərşinin üzərinə istiva etdiyini ifadə etmişdir. Ərş, yaradılanların ən yüksəkdə olanıdır. Allah da Ərşin üstündədir.

---

[1] əl-Əla, 1.

[2] Ülvilik: ucalıq, alilik, yüksəklik.

**Namazın rüknlərinin 5-cisi arxayınlıqdır;** yəni, namazın rüknlərini aramla və tələsmədən yerinə yetirmək. Belə ki, adam qiyamda, rükuda, rükudan qalxıb dikəldikdə, səcdədə, iki səcdə arasında oturduqda və namazın digər rüknlərini yerinə yetirdikdə, bunları rahat şəkildə yerinə yetirməlidir. Buxari və Muslimin, Əbu Hureyradan ﷺ rəvayət etdiyi hədisdə[1] xəbər verilir ki, bir nəfər məscidə daxil olub namaz qıldı və *namazı bitirdikdən* sonra gəlib Peyğəmbərə ﷺ salam verdi. Peyğəmbər ﷺ onun salamını aldı və *ona belə* buyurdu: **"Qayıt namazını qıl, çünki sən *lazımi qaydada* namaz qılmadın."** Adam qayıdıb əvvəlki kimi namaz qıldı, sonra da Peyğəmbərin ﷺ yanına gəlib ona salam verdi. Peyğəmbər ﷺ onun salamını aldı, sonra yenə buyurdu: **"Qayıt namazını qıl, çünki sən namaz qılmadın."** Həmin adam bunu üç dəfə təkrar etdi. Nəhayət, o adam dedi: "Səni haqq ilə göndərən *Allaha* and olsun ki, mən bundan daha düzgün olanını qıla bilmirəm. *Düzgün namaz qılmağı* mənə öyrət!..."

Peyğəmbərin ﷺ birinci dəfədən namazın düzgün qılınmasını o adama öyrətməyib, üç dəfə ona namazını yenidən qılmasını əmr etməsindəki hikmət bu idi ki, o, elm öyrənməyə səy göstərsin və ona yiyələnməyi arzulasın. Belə etdi ki, ona elm öyrədildikdə, yağış suyu quru torpağa hopduğu kimi, elm də onun canına hopsun. Elə buna görə də, adam qıldığı namazdan daha düzgün olanını bilmədiyinə dair and içdi və Peyğəmbərdən ﷺ ona namazı öyrətməsini xahiş etdi. Təbii ki, Peyğəmbər ﷺ bunu ona öyrədəcəkdi. Lakin səy göstərib bir şeyi əldə etməklə, əziyyət çəkmədən bir şeyə nail olmaq arasında, fərq var. Adam öz istəyi ilə öyrənməyə səy göstərdikdə, ona öyrədiləcək elmi daha yaxşı qavrayır və daha yaxşı yadda saxlayır.

Həmçinin, adamın, Peyğəmbəri ﷺ haqq ilə göndərən Allaha and içməsinə diqqət edin. Adam: "Allaha and olsun ki,..." deməli, "Səni haqq ilə göndərən *Allaha* and olsun ki,..."– dedi. O, Peyğəmbərin ﷺ dediyi hər sözün haqq olduğuna tamamilə inandığını etiraf etmək üçün belə dedi. Peyğəmbər ﷺ də ona belə buyurdu: **"Namaza durmaq istədikdə, kamil şəkildə dəstəmaz al, sonra qibləyə tərəf üz tut və "Allahu Əkbər" de."** Bu, namaza giriş üçün edilən təkbirdir. **"Sonra Qurandan**

---

[1] Səhih əl-Buxari, 793; Səhih Muslim, 397.

**sənə asan gələni oxu."** Digər hədislərdə əl-Fatihə surəsini oxumağın vacib olduğu bəyan edilmişdir. **"Sonra rükuya get *və bunu* rahat şəkildə yerinə yetir."** Yəni, rükunu tələm-tələsik etmə, onu rahat və arxayın şəkildə yerinə yetir. **"Sonra *başını* qaldırıb qamətini dümdüz tut."** Yəni, rükudan qalxıb dikəldikdən sonra, rükuda olduğun kimi rahat şəkildə dur. Ona görə də namazın rükusunun və rükudan sonrakı qıyamının müddəti sünnəyə görə ya eyni, ya da bir-birinə yaxın olmalıdır. **"Sonra səcdəyə get *və bunu* rahatlıqla yerinə yetir."** Yəni, *səcdədən qalxmağa tələsmə,* onu rahat və arxayın şəkildə yerinə yetir. **"Sonra qalx otur *və* tam rahat ol."** Bu, iki səcdə arasındakı oturuşdur. **"Sonra səcdəyə get *və bunu* rahatlıqla yerinə yetir."** Bu, ikinci səcdədir. **"Sonra namazının qalan rükətlərində də belə et!"** Yəni, bu rüknləri – qiyamı, rükunu, rükudan qalxmanı, səcdəni, iki səcdə arasındakı oturuşu və ikinci səcdəni digər rükətlərdə də yerinə yetir.

Bu hədisin mövzuya aid olan hissəsi, Peyğəmbərin ﷺ: "**rahat ol**" sözü və ondan əvvəlki: **"sən *lazımi qaydada* namaz qılmadın"** deməsidir. Bu dəlildir ki, namazın rüknlərini rahat şəkildə yerinə yetirməyən kimsənin namazı qəbul olmur. Rüknləri rahat yerinə yetirmək məsələsində – rüku, rükudan qalxma, səcdə və iki səcdə arasında oturmaq arasında heç bir fərq yoxdur; adam bunların hər birini rahat şəkildə, aramla yerinə yetirməlidir.

Bəzi alimlər deyirlər ki, rüknü rahat şəkildə yerinə yetirmək deyildikdə, adamın o rükundə vacib olan zikri deyəcəyi müddət qədər qalmasıdır. Yəni rükuda "Subhanə rabbiyəl-azim" deyəcək qədər, səcdədə "Subhanə rabbiyəl-ə'la" deyəcək qədər, iki səcdə arasında "rabbiğ-firli" deyəcək qədər, rükudan qalxıb dikəldikdə "Rabbənə və ləkəl-həmd" deyəcək qədər dayanmaq labüddür. Lakin hədislərdən bizə aydın olan budur ki, rahatlıq deyildikdə, daha geniş məna qəsd edilir. Belə ki, "Subhanə rabbiyəl-azim" deyəcək qədər rükuda qaldıqda, rahatlıq əlaməti aydın görünmür. Adam "Allahu əkbər" deyib *rükuya getsə,* ardından da "Subhanə rabbiyəl-azim" deyib dərhal qalxarsa, bunun harası rahatlıq sayıla bilər? *Dəlillərdən bizə* aydın olanı budur ki, adamın hər bir rükndə: "Bu adam rahat *şəkildə namaz qılır*"– deyilə biləcək qədər durması labüddür.

Şeytanın Adəm övladını ələ salması necə də qəribədir! Adam Allahın hüzurunda durub, Onun kəlamını oxuyaraq, Onu həmd-səna ilə tərifləyərək və Ona dua edərək, Onunla danışır və Ona yaxınlaşır, sonra sanki namazda onu qovalayan varmış, sanki düşmən onu təqib edirmiş kimi tələsik namazı başa çatdırır! Nə üçün?

Əgər sən dünyadakı padşahlardan birinin hüzurunda dursan və o, səninlə danışsa, sənə xitab etsə, Onun hüzurunda iki saat dursan belə, bu sənə ağır gəlməz. Hətta *bu müddət ərzində* rükudan səcdəyə getmədən, səcdədən qalxıb oturmadan, yalnız ayaq üstə dayansan belə *bu sənə asan gələr* və padşahın oturub səninlə uzun-uzadı söhbət etməsinə sevinərsən. Bəs necə olur ki, səni yaradan, sənə ruzi verən, sənə kömək edən və sənə dəstək verən Rəbbinlə söhbət edərkən, Onun hüzurundan tələsik qaçırsan?!

Lakin şeytan, insanın düşmənidir. Ağıllı və tədbirli mömin isə, şeytanı, uca Allahın buyurduğu kimi, düşmən qəbul edir: **"Şübhəsiz ki, şeytan sizin düşməninizdir, siz də onu düşmən qəbul edin! O öz tərəfdarlarını Od sakini olmağa çağırır."**[1]

Belə olduğu təqdirdə insana vacibdir ki, namazını rahat şəkildə qılsın, namazdakı sözlərin və hərəkətlərin hamısını rahatlıqla yerinə yetirsin.

Sual: "Namazı doğru-düzgün qılmayanın hökmü nədir?"

Cavabı belədir ki, adam namazı kamil şəkildə yerinə yetirmədikdə, yəni, namazı kamilləşdirən bəzi əməlləri etmədikdə, namazı kamil şəkildə yerinə yetirəcəyi təqdirdə qazanacağı savabdan məhrum olur. Lakin buna görə günah qazanmır. Məsələn, rükuda bir dəfə, rahat şəkildə: "Subhanə rabbiyəl-azim" desə, bu, namazın *səhih olması üçün* kifayət edər, lakin təsbihi[2] artırmaqla əldə edəcəyi savabdan məhrum olar.

Ümumiyyətlə namaz qılmayan, yəni namazı bir dəfəlik tərk edən kimsəyə gəlincə, beləsi, İslam dinindən dönmüş kafir sayılır. Beləliklə, o, bu dünyada müsəlman topluluğundan ayrılar və Qiyamət günü kafirlər topluluğuna daxil olmuş olar. Rəsulullah ﷺ beləsinin Qiyamət günü, kafirlərin başçıları sayılan Firon, Haman, Qarun və Übey ibn Xələf ilə bir yerdə həşr olunacağını xəbər vermişdir. Allah bizi qorusun!

---

[1] Fatir, 6.

[2] Təsbih: yəni, rükuda "Subhanə rabbiyəl-azim"– demək.

Beləsi, bu dünyada kafir sayılır. Müsəlmanların rəhbərinə vacibdir ki, ona namaz qılmasını əmr etsin. Əgər namazını qılarsa nə gözəl, yox qılmazsa, mürtəd sayılaraq edam edilməlidir. Ölüsünü bir maşına qoyub şəhərdən kənara aparmaq və bir çuxur qazıb onu ora basdırmaq lazımdır ki, insanlar onun üfunətli iyindən əziyyət çəkməsin, ailəsi və dostları da onun qəbrini gördükcə, narahat olmasınlar. Demək, onun bu halda yer üzündə heç bir dəyəri yoxdur. Odur ki, o, öldükdə, onu nə qüsl edir, nə kəfənləyir, nə onun üçün cənazə namazı qılır, nə də ki onun ölüsünü cənazə namazını qılmaq üçün müsəlmanların məscidlərinə yaxınlaşdırırıq. Çünki o, dindən dönmüş kafirdir.

Əgər kimsə: "Bu nə sözdür?! Məgər bu, düşünülməmiş, yaxud qərəzli və ya nəfsin istəyinə uyaraq söylənilmiş bir fikir deyilmi?"– desə, ona belə cavab verərik: "Xeyir, bunların heç biri deyil. Əksinə, biz bunu Allahın, Rəsulullahın ﷺ və onun səhabələrinin kəlamına əsaslanaraq söyləyirik:

Allahın kəlamına gəlincə, uca Allah "ət-Tovbə" surəsində müşriklər haqqında belə buyurur: **"Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır."**[1] Demək, belə etməsələr bizim din qardaşlarımız deyillər. Belə olduğu təqdirdə, onlar kafir sayılırlar. Çünki hər bir mömin, dindən çıxarmayan ən böyük günahı işləsə belə, yenə bizim din qardaşımızdır. Məsələn, iki mömin dəstə bir-biri ilə döyüşərsə, bu, onları İslam dinindən çıxartmaz. Halbuki hər kəsə məlumdur ki, müsəlmana qarşı döyüşmək küfrdür. Lakin adamı İslam dinindən çıxartmır. Belə ki, Peyğəmbər ﷺ: **"Müsəlmanı söymək fasiqlik, ona qarşı döyüşmək isə küfrdür"**– demişdir. Buna rəğmən, müsəlman qardaşına qarşı döyüşən kimsə bizim din qardaşımız sayılır və o, *bu əməlinə görə* iman dairəsindən kənara çıxmır. Çünki uca Allah belə buyurur: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edil-**

---

[1] ət-Tovbə, 11.

**sin."**[1] Demək, müsəlmanların bir-biri ilə vuruşması böyük günah sayılsa da, o vuruşanların hamısı bizim din qardaşımız sayılır.

Uca Allahın müşriklər haqqında buyurduğu: **"Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır"**[2] ayəsindən aydın başa düşülür ki, onlar bu əməlləri etmədikcə bizim din qardaşlarımız deyillər. Bu, Qurandan olan *dəlillərdir.*

Sünnədə varid olanlara gəlincə, Muslimin ﷺ öz "Səhih"ində Cabir ibn Abdullahdan ﷺ rəvayət etdiyi hədisi dinləyin. Hədisdə Rəsulullah ﷺ belə buyurmuşdur: **"İnsanla şirk və küfr arasında namazı tərk etmək durur."**[3] İki şey arasında maneənin olması, o iki şeyin bir-birindən seçildiyini və bir-birindən fərqli olduğunu bildirir. Yəni onlardan biri o birinə bənzəmir. Demək, adam namazı tərk etdikdə İslamdan çıxır, kafir və müşrik olur.

"Sunən" əsərlərinin müəlliflərinin rəvayət etdiyi hədisdə də Bureydə ibn Huseyb ﷺ Rəsulullahın ﷺ belə buyurduğunu rəvayət etmişdir: **"Bizimlə müşriklər və kafirlər arasındakı fərq namazdır. Kim onu tərk edərsə, küfr etmiş olar."**[4] Yəni, bizi onlardan ayırd edən əlamət namazdır. Kim namazı tərk edərsə kafir olar; bizlərdən yox, onlardan sayılar. Bu hədis, barəsində söhbət açdığımız mövzuya aid dəlildir.

Səhabələrin söylədiklərinə gəlincə, dinləyin, görün məşhur tabiin Abdullah ibn Şəqiq ﷺ nə deyir. Deyir ki: "Muhəmmədin ﷺ səhabələri namazdan başqa heç bir əməlin tərk edilməsini küfr saymazdılar."[5]

Məşhur imamlardan İshaq ibn Rahaveyh ﷺ və başqa bəzi alimlər, namazı tərk edənin kafir olmasına dair səhabələrin yekdil rəydə olduqlarını nəql etmişlər. Səhabələrdən bəzilərinin bu rəydə olmadığını fərz etsək belə, onların əksəriyyəti, ələlxüsus da, fətva əhli olanları, namazı tərk edən kimsənin kafir olduğunu söyləmişlər.

---

[1] əl-Hucurat, 9-10.

[2] ət-Tovbə, 11.

[3] Səhih Muslim, 82.

[4] Sunən ət-Tirmizi, 2621; Sunən ən-Nəsai, 463; Sunən İbn Macə, 1079; Musnəd İmam Əhməd, 5/346 və 355; Şeyx Albani "Mişkat əl-Məsabih" əsərində (574) bu hədisin "səhih" olduğunu demişdir.

[5] Sunən ət-Tirmizi, 2622; Şeyx Albani bu rəvayətin isnadının "səhih" olduğunu demişdir. Bax: Mişkat əl-Məsabih, 579.

Qeyd etdiyimiz bu dəlillər, Allahın, Rəsulullahın ﷺ və onun səhabələrinin kəlamındandır.

Həmçinin, Ömər ibn əl-Xattab رضي الله عنه demişdir: "Bilin ki, namaz qılmayan kimsənin İslamdan heç bir payı yoxdur."[1] Ömərin رضي الله عنه: "Lə həzza/heç bir payı yoxdur" sözündəki "lə", növü tamamilə inkar edən ədatdır, yəni, İslamdan olan payının azını da, çoxunu da ləğv edir. İslamdan az və ya çox heç bir payı olmayan kimsə isə kafir sayılır. Deməк, namazı tərk edən adam kafirdir.

Namazı tərk edən adama cəza olaraq tətbiq edilən dünya və axirət əhkamları vardır. Dünya əhkamlarına gəlincə, bunlar aşağıdakılardır:

**Birincisi;** namazı tərk edən adam, namaz qılmağa dəvət edilməlidir. Qəbul edərsə, çox gözəl, əks halda isə öldürülməlidir. Bu hökmü tətbiq etmək isə ancaq rəhbərlərə vacibdir. Əgər onlar bu işdə səhlənkarlıq göstərib onları əfv etsələr, uca Allahın hüzurunda duracaqları vaxt Allah onlardan bunun hesabını soruşacaq. Çünki İslamdan çıxan hər kəs, İslama dəvət edilməlidir. Qayıdarsa, nə gözəl, əks halda isə öldürülməlidir. Çünki Rəsulullah ﷺ belə buyurmuşdur: ***"Müsəlmanlardan* hər kim dinini dəyişdirərsə, onu öldürün."**[2]

**İkincisi;** elçi gəlsə, ona qız verilməməlidir. Əgər nikah kəsilərsə, bu nikah etibarsız sayılar və nikaha girdiyi qadınla yaxınlıq etmək ona halal sayılmaz. Yaxınlıq edərsə, naməhrəm qadınla əlaqəyə girmiş (zina etmiş) sayılar. Çünki kəsdikləri kəbin etibarsız sayılır. Çünki uca Allah belə buyurur: **"Əgər o qadınların mömin olduqlarını bilsəniz, onları kafirlərə qaytarmayın. Nə bunlar onlara halaldır, nə də onlar bunlara halaldır."**[3]

**Üçüncüsü;** belə adamın, nə övladı, nə bacızı, nə də başqa birisi üzərində vəlilik etməsi keçərli sayıla bilər. Çünki kafirin müsəlmana vəli olması heç vaxt mümkün deyil. Beləsinin hətta öz qızını ərə verməyə belə ixtiyarı yoxdur. Fərz edək ki, bir adam evləndikdən uzun illər sonra, artıq yaşa dolduqdan, qızları da böyüyüb yetkin yaşa çatdıqdan sonra namazını tərk edib; beləsinin qızını ərə verməyə haqqı yoxdur.

---

[1] Musannəf Abdurrazzaq, 581; Sunən əd-Daraqutni, 1750; Şərh əs-Sunnə, 347.

[2] Səhih əl-Buxari, 6922.

[3] əl-Mumtəhənə, 10.

Əgər sual verilsə ki: "Bu, müşkül məsələdir. Belə ki, *yetkinlik yaşına çatmış* qızları olan neçə-neçə insanlar var ki, namaz qılmırlar. *Onlarla* necə davranaq?" Bu suala belə cavab verməliyik: "Əgər qızın atasının nikahda iştirak etməsi qaçılmazdırsa, o halda, qıza elçi gələn oğlan, qızın atasından xəbərsiz olaraq, qızın qardaşının, yaxud əmisinin və ya ata tərəfdən, – vəli olmağa haqqı çatan kimsələrin ardıcıllığına müvafiq olaraq, – ən yaxın kişi qohumlarından birinin iştirakı ilə nikah kəsməlidir ki, o qızla kəsdiyi nikahı səhih sayılsın. Dindən dönmüş kafir atanın iştirakı ilə kəsilmiş nikah isə, min kərə kəsilsə belə, etibarsız sayılır.

**Dördüncüsü;** adam evləndikdən sonra namazı tərk edərsə, nikahı batil olar. Məsələn, namaz qılan bir kişi namaz qılan bir qadınla evlənmiş, lakin bir müddət sonra kişi namazı tərk etmişdir. Belə olduğu təqdirdə deyərik ki, bu adam namaza qayıdanadək, qadını ondan ayırmaq vacibdir. Və əgər ayrıldıqdan sonra qadının iddə (gözləmə) müddəti başa çatarsa, bundan sonra qadını geri qaytara bilməz. Yox əgər qadının iddəsi bitənə qədər tövbə edib dininə qayıdar və namaz qılmağa başlayarsa, o zaman qadın əvvəlki kimi onun zövcəsi sayılar. İddəsi bitdikdən sonra isə artıq boşanmış sayılar. Əgər qadının iddəsi bitdikdən sonra, tövbə edib dininə qayıdar və namaz qılmağa başlayarsa, o zaman ancaq yenidən nikah kəsməklə o qadın ona halal sayıla bilər. Bu da, əksər alimlərin rəyidir. Bəzi alimlər isə deyir ki, qadın iddə müddətini gözləyib bitirdikdən sonra artıq özü ixtiyar sahibi olur. Və əgər kişi İslamı qəbul edib namaza başladıqdan sonra, qadın yenidən onun yanına qayıtmaq istəsə, nikaha girmədən ərinin yanına qayıda bilər. Hədislərə əsasən daha doğru olan rəy də elə budur. Qadının iddə müddətini gözləməsinin faydası ondadır ki, əgər gözləmə müddəti bitməmiş kişi İslamı qəbul edib namaza başlayarsa, artıq qadının onun yanında qalıb-qalmamaq xüsusunda seçimi və ixtiyarı ola bilməz; yox əgər qadının iddə müddəti bitdikdən sonra kişi İslamı qəbul edib namaza başlayarsa, o zaman qadın ixtiyar sahibi olur, istəsə onun yanına qayıdar, istəsə də qayıtmaz.

**Beşincisi;** namazı tərk edən adam öz himayəsində olan müsəlmanın vəlisi sayıla bilməz. Çünki vəli olmağın şərtlərindən biri ədalətli olmaqdır. Kafir isə ədalətli deyil. Elə buna görə də, namazı tərk edən

adam Allahın müsəlman qullarından heç birinin əsla vəlisi kimi qəbul edilə bilməz. Hətta himayəsindəki qızını belə, ərə verməyə ixtiyarı çatmır. Çünki onun, o qız üzərində vəliliyi keçərli sayılmır.

**Altıncısı;** namazı tərk edən adam öldükdə, qüsl edilməməli, kəfənlənməməli, ona cənazə namazı qılınmamalı və müsəlmanların qəbirstanlığında dəfn edilməməlidir. Çöllükdə bir çuxur qazıb ölüsünü quyulamaq gərəktir. Çünki onun meyitinin heç bir dəyəri yoxdur.

Heç bir kəsə, yanında ölən şəxsin namaz qılmayan bir adam olduğunu bildiyi halda, onu yuması, yaxud kəfənləməsi, ya da cənazə namazını qılmaq üçün müsəlmanların yanına gətirməsi halal deyildir. Çünki belə etməklə o, müsəlmanları aldatmış olur. Uca Allah, daxilən kafir olub özlərini müsəlman kimi göstərən münafiqlər barədə Öz Peyğəmbərinə ﷺ belə buyurur: **"Heç vaxt onlardan ölmüş bir kəsin *cənazə* namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun rəsulunu inkar etdilər və günahkar olaraq öldülər."[1]** Bu ayə dəlildir ki, ölən adamın kafir olması, onun cənazə namazını qılmağı və basdırıldıqdan sonra qəbrinin başında durmağı qadağan edən amildir. Uca Allah həmçinin buyurur: **"Müşriklərin Cəhənnəm sakinləri olduqları *müsəlmanlara* bəlli olduqdan sonra, onlarla qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz."[2]**

Bəzi adamlar soruşurlar ki, əgər namaz qılmadığı iddia edilən bir adam öldükdən sonra cənazə namazı qılınması üçün *məscidə* gətirilərsə, sən də həmin adamın namaz qılan olub-olmamağında şübhə edirsənsə, *bu halda nə etməlisən?*

Sualın cavabı budur ki, əgər bu şəkk hər hansı bir əsasa söykənirsə, o halda sən, bu adam üçün belə dua edirsən: "Allahım, əgər o mömin olubsa, onu bağışla və ona rəhm et!"[3] Yəni, şərt qoyursan və bununla da onun şərindən özünü qoruyursan.

Namazı tərk edən adama cəza olaraq tətbiq edilən axirət əhkamlarına gəlincə, bunlar aşağıdakılardır:

---

[1] ət-Tovbə, 84.

[2] ət-Tovbə, 113.

[3] Ərəbcəsi: (( اللَّهُمَّ إِنْ كَانَ مُؤْمِنًا فَاغْفِرْ لَهُ وَارْحَمْهُ ))

1. Kafirlər qəbirlərində əzab çəkdikləri kimi, o da Qiyamətədək qəbrində əzab çəkəcək;

2. Qiyamət günü Fironla, Hamanla, Qarunla və Ubey ibn Xələf ilə bir yerdə həşr olunacaq.

3. Qiyamət günü Cəhənnəmə giriftar olacaq və əbədi olaraq orada qalacaq.

Bəzi alimlər namaz qılmayan adamın, İslamdan çıxaran bir küfrlə kafir olmadığını söyləmiş və bu fikri bəzi dəlillərlə əsaslandırmışlar. Lakin bu dəlillər, aşağıdakı beş haldan birinə aid edilir:

1. Ya onların istinad etdiyi dəlil bu məsələyə əsla dəlalət etmir; Məsələn, bəziləri deyirlər ki, bu rəy, uca Allahın: **"Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar"**[1] ayəsinə müxalifdir. Belə ki, namazı tərk etmək, Allaha şərik qoşmaqdan savayı olan günahlara aiddir. Onlara cavab olaraq deyirik ki: "Muslimin "Səhih"ində, Cabirdən ﷺ rəvayət edilmiş hədisin zahirindən aydın olur ki, namazı tərk edən müşrik sayılır. Belə ki, o, bütə səcdə etməsə də, nəfsinin istəyini ilahiləşdirməklə onu Allaha şərik qoşur. Bu xüsusda uca Allah belə buyurur: **"Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Allah *Öz əzəli* elmi sayəsində onu zəlalətə salmış, qulağını və qəlbini möhürləmiş, gözünə də pərdə çəkmişdir."**[2]

Bundan əlavə, fərz edək ki, *onların istinad etdiyi* ayədən, şirkdən başqa hər bir günahın bağışlanmasının Allahın istəyinə bağlı olduğu başa düşülür. Elə isə namazı tərk edənin kafir olduğunu bəyan edən hədislər, namazın tərkini, ayədə qəsd edilən böyük günahlardan istisna etmişdir. Və əgər məntuq (açıq-aşkar ləfz ilə söylənilmiş dəlil) – məfhumdan (mənaca dəlalət edən dəlildən) daha güclü sayılmasına rəğmən – xüsusi dəlillərə görə ümumi mənadan istisna edilirsə, əlbət ki, məfhum *xüsusi dəlillərə görə ümumi mənadan* daha tez istisna edilməlidir?

2. Namaz qılmayan kimsəni kafir saymayanlar, *bəzi* məxsusi hədisləri dəlil gətirirlər. Belə ki, *həmin hədisdəki* vəsfə malik olan o adamın namazı tərk etməsi mümkün deyil. Məsələn, Rəsulullah ﷺ demişdir: **"Allahın**

---

[1] ən-Nisa, 48.

[2] əl-Casiyə, 23.

**üzünü diləyərək "lə ilahə illəllah" deyən kimsəyə, Allah Cəhənnəm odunun toxunmasını haram etmişdir."[1]** Hədisdəki: "Allahın üzünü diləyərək" ifadəsi, bunu deyən kimsənin namazı mütləq şəkildə tərk etməsinin qeyri-mümkün olduğunu bildirir. Belə ki, Allahın üzünü diləyərək "lə ilahə illəllah" deyən kimsə, mütləq Onun razı qalduğu əməlləri edər. Allahın rizasını qazandıran ən böyük əməl isə namazdır. Demək, bu hədis, namazı tərk edən kimsənin kafir olduğuna dəlalət etmir. Çünki elə bir əməl qeyd edilmişdir ki, onu özündə əks etdirən insanın namazı tərk etməsi mümkün deyil.

3. Yaxud gətirdikləri dəlil məxsusi hədis olub, namazı tərk edən kimsənin üzürlü olduğuna aiddir. Məsələn, bəzi "Sünən" əsərlərində, Huzeyfədən ﵁, "lə ilahə illəllah"dan başqa bir şey bilməyən (Qiyamətə yaxın zamanda yaşayacaq) insanlar haqqında rəvayət edilmiş hədisi dəlil göstərirlər. Bu, insanların "lə ilahə illəllah"dan başqa bir şey bilmədikləri dövrə aiddir.[2] Həmin vaxt "lə ilahə illəllah" kəlməsi onları Cəhənnəmdən xilas edəcək. Çünki onlar İslamın fərz buyurduqlarını bilmədiklərinə görə üzrlü sayılacaqlar. Biz də bu rəyi dəstəkləyərək deyirik ki: "Əgər bir toplum şəhərdən uzaq bir kənddə yaşasa, elmdən uzaqda olsa, İslama aid "lə ilahə illəllah"dan başqa bir şey bilməsə və bu halda ölsə, onlar kafir sayılmırlar.

---

[1] Səhih əl-Buxari, 25.

[2] Huzeyfə ﵁ rəvayət etmişdir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Paltar üzərindəki naxışlar *tədricən* itib getdiyi kimi, İslam da itib gedəcək. İş o yerə gəlib çatacaq ki, insanlar orucun, namazın, qurbanın və sədəqənin nə olduğunu bilməyəcəklər. Allahın kitabındakı ayələr bir gecədə yox olacaq və yer üzündə bu kitabdan bir ayə belə qalmayacaq. Həmin vaxt yaşayan qocalar deyəcəklər: "Biz atalarımızın "lə ilahə illəllah" dediklərini eşitmişik, biz də: "lə ilahə illəllah" deyirik." Silə bu sözü eşitdikdə Huzeyfəyə ﵁ dedi: "Lə ilahə illəllah" kəlməsinin onlara heç bir faydası olmayacaq. Çünki onlar orucun, namazın, qurbanın və sədəqənin nə olduğunu bilməyəcəklər." Bunu eşidəndə Huzeyfə ﵁ ondan üz çevirdi. Silə bu sözü bir daha təkrar etdi. Huzeyfə ﵁ yenə ona tərəf baxmadı. O, üçüncü kərə bu sözü təkrar etdikdə, Huzeyfə ﵁ ona tərəf dönüb üç dəfə təkrar-təkrar dedi: "Ey Silə! Bu kəlmə onları Cəhənnəm odundan qoruyacaq" (Sunən İbn Macə, 4049; Mustədrək əl-Hakim, 4/473; Hakim: "Bu hədis səhihdir" demişdir; Həmçinin, şeyx Albani də onun "səhih" olduğunu demişdir. Bax: Silsilə əl-Əhadis əs-Səhihə, 87).

4. Namaz qılmayan kimsəni kafir saymayanlar, bu məsələyə aid ümumi məna ifadə edən hədisləri də dəlil gətirirlər. Fəqət bu hədislər, fiqhin təməl qaydalarından birinə aiddir. Bu qaydaya görə, xüsusi məna ifadə edən hədis, ümumi məna ifadə edən hədisi xüsusiləşdirir. Demək, "Kim "lə ilahə illəllah"– desə cənnətlikdir" hədisinin, habelə, başqa buna bənzər hədislərin ifadə etdiyi ümumi mənanı, namazı tərk edən kimsənin kafir olduğunu ifadə edən hədislər xüsusiləşdirir.

5. Bunlar həmçinin, namazı tərk edən kimsənin kafir olmasına dəlalət edən səhih hədislərə zidd olan elə zəif hədisləri dəlil gətirirlər ki, bu hədislər nəinki səhih hədislərə zidd, hətta onlarla müqayisə olunmayacaq dərəcədə zəifdir.

Bəziləri də, namaz qılmayanın kafir olmadığını isbat edən bir dəlil gətirə bilmədikdə: **"İnsanla şirk və küfr arasında namazı tərk etmək durur"**[1] hədisindəki küfr və şirk sözünün, kiçik küfr və kiçik şirk olduğunu, yəni İbn Abbasın ﷺ dediyi kimi: "Küfr altında bir küfr (kiçik küfr)" mənasında olduğunu deyirlər. Onlara belə cavab verilməlidir: "Bu hədisi, qəsd etdiyiniz mənaya yozmağa bizi vadar edən nədir? Belə ki, əgər küfr kəlməsi ümumi mənanı ifadə edirsə və bu mənanı xüsusiləşdirəcək başqa bir söz yoxdursa, bu halda, o, həqiqi, böyük küfr mənasını ifadə edir. Başqa mənaya necə yozula bilər? Axı Peyğəmbər ﷺ: **"İnsanla şirk və küfr arasında"** deyərək, onların arasında maneə olduğunu bildirir. Aralarında maneənin olması isə, bunların bir-birindən seçildiyini və bir-birindən fərqli olduğunu bildirir. Demək, bu hədisdə küfr deyildikdə, böyük küfr qəsd edilir.

Beləliklə, aydın oldu ki, namazı tərk edənin kafir olduğunu deyənlərin dəlillərini qəbul etmək vacibdir və buna müxalif və ya müqayisə oluna biləcək başqa bir dəlil də yoxdur. Hər bir möminə vacibdir ki, Allahın Kitabının və Rəsulunun ﷺ sünnəsinin buyurduğu hökmü buyursun. Belə ki, şəriət qanunlarını qoyan biz deyilik, Allahdır. Uca Allahın və Onun rəsulunun ﷺ hər bir hökmü şəriət qanunu sayılır. Bu hökmlər nəfsimizin istəyinə uyğun olsa da, olmasa da, biz şəriətin buyuruqlarını qəbul etməli, onların əsasında hökm verməli və onlara iman etməliyik. Şəriətin buyuruqlarını yerinə yetirmək bizə vacibdir.

---

[1] Səhih Muslim, 82.

Bil ki, əgər alimlər arasında baş vermiş hər hansı bir ixtilaf, gözəl məqsədlə həyata keçirilmiş və bu məsələdə hökm vermək üçün ictihad edilmişdirsə, ictihad edib müxalif rəyda olan alimi tənqid etmək və onun zəlalətə düşdüyünü demək olmaz. Çünki onların hər biri ictihad əhlidir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Əgər hakim hökm verdiyi zaman ictihad etsə, sonra da verdiyi hökm düz çıxsa, iki savab qazanar. Əgər hökm verdiyi zaman ictihad etsə, sonra da verdiyi hökm səhv olsa, bir savab qazanar."**[1]

Heç bir kəsin, dəlilə istinad edərək müxalif rəydə olan qardaşını məzəmmət etməyə haqqı yoxdur.

O ki qaldı, dəlilləri gördükdən sonra inad edib dediyindən dönməyən kimsəyə, beləsini qınamaq gərəkdir.

Bu deyilənlərdən bizə aydın olur ki, namaza laqeyd yanaşmaqdan son dərəcə çəkinməli, namaza səhlənkar yanaşan bir adam gördükdə də, ona böyük bir əzm və israrla nəsihət etməliyik. Ola bilsin ki, Allah bizim əlimizlə o insana hidayət versin və beləcə, böyük savaba nail olaq.

Peyğəmbərin ﷺ: **"zəkat verəsən"** sözü, İslamın üçüncü rüknünün zəkat olduğunu bildirir.

Zəkat vermək; yəni onu uca Allahın təyin etdiyi kimsələrə verməkdir. Zəkat kəliməsi, təmizlənmə və artma mənalarını ifadə edən "əz-zəka" kəlməsindən götürülmüşdür. Belə ki, adam zəkat verməklə, nəfsini xəsislikdən təmizləyir, üstəlik də, bunun sayəsində malını artırır. Bu xüsusda uca Allah belə buyurur: **"Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan."**[2]

Zəkatın tərifi belədir: xüsusi sinif adamlara vermək üçün, bəlli bir maldan, şəriətin müəyyən etdiyi miqdarda çıxarılan vacib haqdır.

Zəkat hər maldan deyil, "bəlli bir maldan" – Peyğəmbərin ﷺ bildirdiyi, habelə, bir qismi də, Quranda bəyan edilmiş müəyyən mallardan verilir. Bu malların hamısından dərhal zəkat vermək vacib deyil. Əksinə, zəkat verməyin xüsusi şərtləri var:

**Zəkat;** elə bir cüzi məbləğdir ki, insan onun vasitəsilə İslamın rüknlərindən bir rüknünü yerinə yetirir.

---

[1] Səhih əl-Buxari, 7352; Səhih Muslim, 1716.

[2] ət-Tovbə, 103.

**Zəkatın faydaları:**

**1.** İnsan, zəkat verməklə nəfsini xəsislikdən və rəzalətdən, əməl dəftərini də, kiçik günahlardan təmizləyir. Bu xüsusda Rəsulullah ﷺ belə buyurur: **"Sədəqə su odu söndürdüyü kimi günahları silir."**[1] Sədəqələrin ən fəzilətlisi isə zəkatdır. Yəni, zəkat olaraq verdiyiniz bir dirhəm, nafilə (sədəqə) olaraq verdiyiniz bir dirhəmdən daha əfzəldir. Çünki uca Allah qüdsi bir hədisdə belə buyurur: **"Qulumun Mənə sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir."**[2] Eləcə də, fərz namazının bir rükəti nafilə namazının bir rükətindən əfzəldir. Ümumiyyətlə, fərz buyurulanlar, nafilə ibadətlərindən əfzəldir. Beləcə, zəkat verməklə kiçik günahlar silinir.

**2. Zəkat;** məxluqata edilən bir yaxşılıqdır. Belə ki, zəkat çıxardan adam, o zəkatı verdiyi insana yaxşılıq edir və beləliklə də, uca Allahın sevdiyi muhsinlərdən (yaxşılıq edənlərdən) sayılır. Bu xüsusda uca Allah belə buyurur: **"Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir."**[3]

**3. Zəkat;** insanları bir-birinə isinişdirir. Belə ki, zənginlər kasıblara zəkat verdikdə, kasıbların zənginlərə bəslədiyi kin-küdurət yox olub gedir. Zənginlər onlara əl tutmayıb heç bir şey vermədikdə isə, onların qəlbində zənginlərə qarşı kin və nifrət yaranır.

**4. Zəkat;** kasıbların zənginlərə hücum etməsinin qarşısını alır. Belə ki, kasıb adam zəngin adamın ona heç bir şey vermədiyini gördükdə, ona hücum edib qapısını sındırar və malını qarət edə bilər. Çünki, o, yaşamaq və yeyib-içmək məcburiyyətindədir. Ona bir şey verilmədikdə isə, aclıq, susuzluq və geyimə həsrət qalmaq, onu insanlara hücum etməyə, oğurluq etməyə, qarət etməyə və başqa bu kimi cinayətləri törətməyə vadar edir.

**5. Zəkat;** göydən xeyir-bərəkətin nazil olması üçün səbəbdir. Hədislərin birində belə buyurulur: **"Hansı bir qövm mallarının zəkatını ver-**

---

[1] Sunən ət-Tirmizi, 2616; Sunən İbn Macə, 3973; Musnəd imam Əhməd, 5/248. Tirmizi bi hədisin "həsən səhih" olduğunu demişdir.

[2] Səhih əl-Buxari, 6502.

[3] əl-Bəqərə, 195.

**məkdən imtina edərsə, yağışdan məhrum olarlar."**[1] İnsanlar mallarının zəkatını verdikləri təqdirdə isə, uca Allah onlara göydən və yerdən bol-bol bərəkət yağdırar. Beləliklə, göydən yağmur yağar, yerdən növbənöv bitkilər yetişər, heyvanlar üçün otlar bitər, insanlar yağan yağışdan suvarmada istifadə edər və daha neçə-neçə faydalar əldə edilər.

**6. Zəkat;** Allah yolunda vuruşan mücahidlərə yardımdır. Belə ki, zəkat veriləcək səkkiz sinif insandan biri də mücahidlərdir. Bu xüsusda belə buyurulur: **"Allah yolunda cihad edənlərə"**[2]

**7. Zəkat;** həm də, kölələrin azad edilməsi üçündür. Belə ki, insan, zəkat verəcəyi pulla kölə alıb onu azad edə bilər. Çünki uca Allah belə buyurur: **"kölələrin azad olunmasına..."**[3]

**8. Zəkat;** borcluları borc yükündən qurtaran vasitədir. Borc içində batan nə çox insan var ki, zəkat malından onların borcunu qaytardıqda, çoxlu fayda əldə etmək olur. Beləcə, borclu adam borcdan qurtulmuş, borc yiyəsinin də haqqı özünə qaytarılmış olur.

**9. Zəkat;** yolda qalmış, özü ilə gətirdiyi pulunu itirmiş və məmləkətinə gedib çatmaq üçün yol pulu tapa bilməyən müsafirlərə yardımdır.[4] Hətta adam öz məmləkətində zəngin olsa belə, ona zəkat malından, məmləkətinə gedib çatmaq üçün kifayət edəcək qədər yol pulu verilməlidir.

Xülasə budur ki, zəkat verməkdə çoxlu fayda var. Elə buna görə də, o, İslamın rüknlərindən biri sayılır.

Alimlər, səhlənkarlıq edib zəkat verməyən kimsənin də, eyni ilə namazı tərk edən kimsə tək kafir sayılıb-sayılmayacağı barədə ixtilaf etmişlər.

Doğru rəy budur ki, səhlənkarlıq edib zəkat verməyən adam kafir sayılmır. Buna dəlil, Muslimin ﷺ Əbu Hureyradan ﷺ nəql etdiyi hə-

---

[1] Sunən İbn Macə, 4019; Mustədrək əl-Hakim, 4/540; şeyx Albani bu hədisin "həsən" olduğunu demişdir. Bax: Silsilə əl-Əhadis əs-Səhihə, 106.

[2] ət-Tovbə, 60.

[3] Əvvəlki ayə.

[4] Bu da, həmçinin, "ət-Tovbə" surəsinin 60-cı ayəsində zikr edilmişdir: **"Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur..."**

disdir. Həmin hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Qızıl və ya gümüş əldə edib onun zəkatını verməyən hər kəsin yığdığı sərvətlər, Qiyamət günü oddan lövhələrə çevriləcək, Cəhənnəm odunda qızdırılacaq və bununla onun alnına, böyrünə və kürəyinə damğa vurulacaq.[1] Bu lövhələr hər dəfə soyuduqca, təkrar qızdırılacaqdır. Bütün bunlar *dünyadakı* əlli min ilə bərabər olan bir gündə baş verəcək. Bu hal, Allahın qulları haqqında hökm verilənədək davam edəcək. Nəhayət, ona, Cənnətə, yoxsa Cəhənnəmə gedəcəyi yol göstəriləcək."**[2] Bu hədis, səhlənkarlıq edib zəkat verməyən kimsənin kafir olmadığına dəlalət edir. Çünki, əgər zəkatı vermədiyinə görə kafir sayılsaydı, Cənnətə getməsinə ehtimal olmazdı. Halbuki hədisdə: "**ona, Cənnətə, yoxsa Cəhənnəmə gedəcəyi yol göstəriləcək**" deyilir.

İmam Əhməddən ؓ nəql edilmişdir ki, o, xəsislik edərək zəkat verməyən kimsəni kafir hesab etmiş və demişdir: "Çünki zəkat, İslamın dirəklərindən biridir. Evin dirəklərindən biri olmadıqda isə ev çökər."

Lakin doğru rəy budur ki, xəsisliyindən dolayı zəkat verməyən adam kafir sayılmır. Fəqət o, böyük bir təhlükə içindədir. Bir qədər əvvəl zikr etdiyimiz hədisdəki əzab buna aiddir.

**Zəkat çıxarılan mallar:**

Belə ki, hər maldan zəkat vermək vacib deyil. Əksinə, bəzi mallardan zəkat vermək vacib, bəzilərindən isə vermək vacib deyil. Aşağıda sadalanan mallardan zəkat vermək vacibdir:

**1. Qızıl və gümüş:** bunlar hansı şəkildə olursa olsun; istər nağdı pul – dirhəm və dinar olsun, istər külçə şəklində olsun, istər geyinilən və ya taxılan bəzək əşyası olsun, istərsə də başqa şəkildə olsun, bu mədənlərin, yəni qızıl və gümüşün zəkatı hər bir halda verilməlidir. Lakin bir şərtlə ki, zəkat verilməsi vacib olan miqdara çatsın və üstündən də bir il keçsin.

---

[1] **"Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ. O gün bu *yığdıqları sərvətlər* Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və *onlara:* "Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!"– *deyiləcəkdir.*" (ət-Tovbə, 34-35).**

[2] Səhih Muslim, 987.

Qızılın zəkat verilməsi vacib olan miqdarı 85 qram, gümüşünkü isə 595 qramdır. Bu qədər qızılı və ya gümüşü olan adam, üstündən bir il keçdikdə, bunların zəkatını verməlidir. Əgər bunların çəkisi az olarsa, bundan zəkat çıxartmaq vacib olmaz. Məsələn 80 qram qızılı və ya 590 qram gümüşü olan adama zəkat vermək vacib deyil.

Alimlər, qızılın zəkat verilməsi vacib olan miqdarının gümüşlə tamamlanıb-tamamlanmaması barədə ixtilaf etmişlər. Yəni əgər adamın, zəkat verilməsi vacib olan miqdarın yarısı qədər qızılı, o biri yarısı qədər də gümüşü olsa, bunlar, bir-birini tamamlayırmı, yəni bunların cəmindən zəkat verməlidirmi, yoxsa bundan zəkat vermək vacib deyil?

Doğru rəy budur ki, nə qızıl gümüşün, nə də gümüş qızılın zəkat verilməsi vacib olan miqdarını tamamlayır; bunların hər biri ayrıca hesablanmalıdır. Necə ki, buğda arpanın, arpa da buğdanın zəkat verilməsi vacib olan miqdarını tamamlamır, eləcə də, gümüş qızılın, qızıl da gümüşün zəkat verilməsi vacib olan miqdarını tamamlamır. Belə ki, adamın, zəkat verilməsi vacib olan miqdarın yarısı qədər qızılı və zəkat verilməsi vacib olan miqdarın yarısı qədər də gümüşü olsa ona zəkat vermək vacib olmur.

Kağız, mis və bu kimi əskinazların zəkatı da, qızıl və gümüş kimi hesablanır. Yəni, bunların miqdarı, qızıl və ya gümüşün zəkat verilməsi üçün vacib olan miqdara çatdıqda zəkatı verilməlidir. Həmin əskinazlar bu miqdara çatmadıqda isə onlardan zəkat verilmir. Məsələn, adamın üç yüz riyal nağd kağız pulu var və bu, gümüşün zəkat verilməsi vacib olan miqdarına çatmır, bu halda ondan zəkat verilmir. Çünki nağd pul, gümüşlə ölçülür.

Qızıl və gümüşdən başqa, mirvari, mərcan, almaz və sairə bu kimi qiymətli mədənlərə gəlincə, bu mədənlər adamda nə qədər çox olursa olsun, əgər adam bunun ticarətini etmirsə, onda bunlardan zəkat vermək ona vacib deyil. Yox əgər bunun ticarətini edirsə, o zaman növündən asılı olmayaraq, ticarət malının zəkatını verməlidir.

**2. Ev heyvanlları: dəvə, inək (və camış[1]) və qoyun (və keçi[2]):** bunların da zəkatı verilməlidir. Bunların da zəkat verilməsi vacib olan miq-

---

[1] İbn Useymin, əş-Şərh əl-Mumti alə Zad əl-Mustəqnə, 6/49.

[2] Əvvəlki mənbə.

dara çatması vacibdir. Bu miqdar ən az 5 dəvəyə, yaxud 30 inəyə, yaxud 40 qoyuna çatdıqda, onların zəkatı verilməlidir.

Heyvanların zəkatı, digər malların zəkatı kimi artım sayı ilə deyil, tərtib edilmiş müəyyən saylarla hesablanır. Məsələn, 40 qoyuna bir qoyun zəkat verilir və bu qoyunların sayı 121-ə çatanadək aradakı artan saya zəkat verilmir. Say ancaq 121-ə çatdıqda iki qoyun zəkat vermək vacib olur. Bu iki say arasındakı qoyunlardan ayrıca zəkat verilmir. Yəni 40 qoyundan 120 qoyunadək sadəcə bir qoyun zəkat verilir. Həmçinin, 121-dən 200-ə qədər qoyunda iki qoyun zəkat verilir. Qoyunların sayı 201-ə çatdıqda üç qoyun zəkat vermək vacib olur və bu say 300-ə çatanadək üç qoyun zəkat verilir. (Bundan sonra hər yüz qoyuna bir qoyun zəkat verilir.) 399 qoyuna da 3 qoyun zəkat verilir. Say 400 olduqda dörd qoyun zəkat vermək vacib olur.

Dəvə 24 və bundan az sayda olduqda isə hər beş dəvəyə bir qoyun zəkat verilir. 25 və bundan çox olduqda isə dəvə olaraq zəkat verilir, lakin zəkat verilən dəvələrin yaşları fərqli olur.[1]

Heyvanlardan yalnız o vaxt zəkat vermək vacib olur ki, onların sayı zəkat veriləcək saya çatsın və bir də otarılmış heyvan olsun. Yəni yemlə yemlənmiş yox, il boyu yaxud ilin çox hissəsini otlaqda otarılmış olsun. Məsələn, adamın 40 qoyunu var və o, bu qoyunları ilin on iki ayını və ya səkkiz ayını otlaqda otarır. Belə olduğu təqdirdə, bu qoyunlardan

---

[1] Dəvənin, erkək və ya dişi, qoca və ya cavan heyvan olması heç bir əhəmiyyət kəsb etmir. Dəvələrin sayı 5-dən 9-a qədər olsa, 1 qoyun; 10-dan 14-ə qədər, 2 qoyun; 15-dən 19-a qədər, 3 qoyun; 20-dən 24-ə qədər 4 qoyun zəkat verilir. Say 24-ü keçdikdən sonra, 25-dən 35-ə qədər olsa, 1 ədəd 1 illik dişi dəvə; 36-dan 45-ə qədər 1 ədəd 2 illik dişi dəvə; 46-dan 60-a qədər 1 ədəd 3 illik dişi dəvə; 61-dən 75-ə qədər 4 illik dişi dəvə; 76-dan 90-a qədər 2 ədəd iki illik dişi dəvə; 91-dən 120-yə qədər 3 ədəd üç illik dişi dəvə zəkat verilir. Dəvələrin sayı 121 və ondan çox olarsa hər 40 dəvəyə 1 ədəd 2 illik dişi dəvə və hər 50 dəvəyə 1 ədəd 3 illik dişi dəvə zəkat verilir. (İbn Useymin, əş-Şərh əl-Mumti alə Zad əl-Mustəqnə, 6/53-57.)

İribuynuzlu heyvanların zəkatı: "İnəyin, erkək və ya dişi, qoca və ya cavan heyvan olması heç bir əhəmiyyət kəsb etmir. 30 maldan 1 ədəd 1 illik dişi və ya erkək mal; 40 maldan 1 ədəd 2 illik dişi mal; 50 maldan da 1 ədəd 2 illik dişi mal zəkat verilir. Malın sayı 60 və ya ondan çox olarsa, hər 30 maldan 1 ədəd 1 illik dişi və ya erkək və hər 40 maldan 1 ədəd 2 illik dişi mal zəkat verilir." (İbn Useymin, əş-Şərh əl-Mumti alə Zad əl-Mustəqnə, 6/58.)

zəkat verməlidir. Onları yeddi ay da otlaqda otarsa, həmçinin, zəkat verməlidir. Amma onları altı ay otarıb, altı ay da öz vəsaiti ilə yemləyərsə, bu halda onlardan zəkat verməməlidir. Həmçinin, onları beş ay otarıb, yeddi ay yemləyərsə, yaxud tam bir il yemləyərsə, bu halda onlardan zəkat verməməlidir. Çünki bu heyvanlardan zəkat vermək üçün onların il boyu, yaxud ilin çox hissəsi otlaqda otarılması şərtdir.

Əgər adam bu heyvanları artırmaq üçün deyil, onları ticarət məqsədilə saxlayır, tez-tez alıb-satır və qazanc əldə edirsə, o zaman onların dəyəri, – hətta bir dənə olsa belə – gümüşün zəkat verilməsi vacib olan miqdarına çatdıqda (o heyvanın qiyməti 595 qram gümüşün qiymətinə bərabər və ya bundan çox olduqda), onun zəkatını vermək vacibdir. Belə ki, ticarət mallarının zəkatı hər bir halda verilməli və bunlar, qızıl və ya gümüşün zəkatının verilməsi vacib olan miqdarla hesablanmalıdır. Bu günkü gün kasıblar üçün ən uyğun olanı isə, bunun gümüşlə hesablanmasıdır. Çünki qızıl çox bahadır.

**3. Dənli bitkilər və meyvələr:** xurma, buğda, düyü, arpa və başqa buna bənzər meyvə və dənli bitkilərdən zəkat verilməlidir. Bunların da zəkat verilməsi vacib olan çəkiyə çatması vacibdir. Bu da, Peyğəmbərin ﷺ dövründəki saa[1] ilə 300 saaya bərabərdir. Bunu kəndlilərdən zəkat toplayan kimsələr yaxşı bilirlər.

Əgər bir adamın məhsul verən xurma ağacları varsa və bu məhsul, zəkat verilməsi vacib olan miqdara çatıbsa, o halda onun zəkatını verməlidir. Adam meyvənin orta dəyərlisini zəkat verməlidir. Nə ən yaxşısını verib zərər görməli, nə də ən pisini verib haqsızlıq etməlidir. Məhsulu satdığı təqdirdə isə, onun pulundan zəkat verməlidir.

Dənli bitkilərdən və meyvələrdən verilən zəkat, məhsulun ya iyirmidə biri, ya da onda biri olur: əgər adamın ərazisi su matoru və başqa bu kimi texnika işlənmədən (yağış və s. ilə özbaşına) suvarılırsa, məhsulun onda birini zəkat verməlidir. Məsələn, adam 10 ton məhsul götürmüşdürsə, onun 1 tonunu zəkat verməlidir. Yox əgər öz ərazisini mator və başqa bu kimi texnika ilə suvarmışdırsa, o zaman məhsulun iyirmidə birini zəkat verməlidir. Yəni on min kiloqram məhsul götür-

---

[1] Saa – ölçü vahididir və dörd mudda bərabərdir. Bir mudd isə insanın iki ovucuna bərabərdir. (Səmərul Müstətab, 1/28)

müşdürsə, onun sadəcə beş yüz kiloqramını zəkat verməlidir. Çünki texnika istifadə edilərək suvarılan ərazi, əziyyətsiz (yağış və s. ilə) suvarılan ərazidən daha çox xərc və zəhmət tələb edir. Uca Allahın hikmətindən və rəhmətindəndir ki, xərc qoyub əziyyət çəkərək ərazisini suvaran kimsədən zəkat verəcək miqdarı yüngülləşdirmişdir.

**4. Ticarət Malı:** ticarət malı, insanın alış-veriş etmək üçün əlində tutduğu daşınmaz əmlak, parça çeşidləri, qablar, maşınlar və digər mallardır. Yəni, ticarət ediləcək mal üçün hədd yoxdur. Ticarət edilən hər bir mal bura aiddir. Belə ki, qazanc məqsədilə satışa qoyduğun hər bir malın zəkatını verməlisən. Ticarət malının zəkat miqdarı, qızıl və gümüşdəki kimi, onda birin dörddə biri, yəni qırxda biri qədər və ya hər bir yüzün 2.5%-dir.

Bunun hesabı çox asandır: əlindəki malın zəkat miqdarını öyrənmək istəyirsənsə, malını qırx yerə bölüb, bir hissəsini zəkat verirsən. Məsələn, qırx min dirhəmə min dirhəm, yüz iyirmi min riyala üç min riyal zəkat verilir. Xülasə budur ki, ticarət malının zəkatını vermək istəsən, onu qırx yerə bölüb, bir hissəsini zəkat verməlisən.

Ticarət mallarına ərəbcə cəm şəkildə "urud" (tək şəkildə "arad") deyilməsinin səbəbi budur ki, o, bir yerdə qalmır, gəlir gedir (alınır, sonra da satılır). Gəlib-gedən hər şeyə isə "arad" deyilir. Necə ki, uca Allah buyurur: **"Siz dünya həyatının keçici zövqünü istəyirsiniz."[1]** Bu ayədəki ərəbcə "arad/keçici zövq" də bu mənadadır. Tacirlərin əllərindəki ticarət malları da belədir. Belə ki, adam o malı istifadə etmək üçün yox, onu satıb qazanc əldə etmək üçün alır. Görürsən ki, səhər o malı alır, axşama qədər də satıb qacanc əldə edir. Demək, insanın alqı-satqı üçün hazırladığı hər bir mal ticarət malı sayılır və onun zəkatı verilməlidir.

Ticarət malının zəkatı belə hesablanır: malının zəkat vermə vaxtı gəldikdə, əlində olan ticarət mallarının hamısının, hətta son günlərdə aldığın malların da, dəyərini hesablamalı və bunun qırxda birini zəkat verməlisən. Məsələn, adam rəcəb ayında zəkat verməlidirsə və rabiyul-əvvəl ayında bir mal almışdırsa, rəcəb ayı yetişdikdə, mallarının hamısının qiymətini hesablayıb zəkatını verməlidir. Və əgər o: "Axı son aldığım malın üstündən bir il keçməyib?"– deyərsə, ona belə cavab verərik:

---

[1] ən-Nisa, 94.

"Bir il gözləmə hökmünün ticarət mallarına dəxli yoxdur. Belə ki, ticarət malının zəkatı pulla ölçülür. O pulun üstündən isə artıq bir il keçmişdir. Beləliklə, zəkat vermək vaxtı gəldikdə, aldığın malın dəyəri artmış və ya azalmış olsa bele, onun zəkatını hesablayıb verməlisən.

Tutaq ki, sən bir malı on min riyala almısan və zəkat vermək vaxtı gəlib çatdıqda, onun qiyməti səkkiz minə düşüb. O zaman səkkiz minin zəkatını verəcəksən. Və ya səkkiz minə almısan və zəkat vermək vaxtı gəlib çatdıqda, onun qiyməti on min olub. O zaman on minin zəkatını verəcəksən. Aldığın həmin malı neçəyə satacağını, yəni, qazanc əldə edəcəyini yoxsa etməyəcəyini bilmədiyin təqdirdə isə, maya dəyərinin zəkatını verməlisən.

**Zəkat veriləcək Kimsələr:**

Zəkat, uca Allahın Öz hikməti ilə təyin etdiyi kimsələrə verilər. Bu xüsusda uca Allah belə buyurur: **"Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah *hər şeyi* biləndir, hikmət sahibidir."**[1] Yəni zəkat, bu ayədə zikr olunan səkkiz sinif insana verilməlidir:

**1-2. Yoxsullar və kasıblar:** bunlar, özlərinin və ailələrinin bir illik dolanışığı üçün vəsait tapa bilməyən kimsələrdir. Məsələn, bir adam aylıq dörd min riyal maaş alır, lakin hər ay öz ailəsinə altı min riyal xərcləyir. Beləsi yoxsul sayılır, çünki özünə və ailəsinə kifayət edəcək qədər mala sahib deyil. Biz zəkatdan ona, illik ehtiyaclarını ödəyə bilsin deyə iyirmi dörd min riyal verməliyik.

Bir başqası da aylıq altı min maaş alır, lakin ailəsi böyük, xərcləri də çox olduğuna görə, ona aylıq olaraq on iki min riyal bəs edir. Beləsinə zəkatdan yetmiş iki min verməliyik ki, ehtiyaclarını ödəyə bilsin. Alimlər deyirlər ki, ona illik ehtiyacını ödəyəcək qədər puldan çox pul verilməməlidir. Çünki il boyunca ona, ehtiyacını təmin edəcəyi başqa zəkat malları da verilə bilər. Elə buna görə də, alimlər, *yoxsula veriləcək zəkatın miqdarını* bir illik *ehtiyacının miqdarı qədər* təyin etmişlər.

---

[1] ət-Tovbə, 60.

Əgər kimsə: "Yoxsul daha çox ehtiyaclıdır, yoxsa kasıb?"– deyə soruşsa, ona belə cavab verərik: "Alimlər deyirlər ki, zəkat verildikdə, ehtiyacı daha çox olan kimsələrdən başlanılır. Uca Allahın ayədə ilk əvvəl yoxsulu zikr etməsi, onun daha çox ehtiyaclı olduğuna dəlalət edir."

**3. Zəkatı yığıb paylayanlar:** yəni, dövlət başçısının zəkatı zənginlərdən alıb, onu, ona haqqı çatan insanlara verməyi tapşırdığı kimsələrdir. Onlar zəngin olsalar belə, dövlət başçısı onlara zəkatdan zəhmət haqqı verir. Bu onlara ehtiyaclı olduqlarına görə deyil, zəhmət haqqı olaraq verlir. Əgər dövlət başçısı: "Bu işi görən hər kəsin aylıq zəhmət haqqı min riyaldır"– deyərsə, biz, o min riyalı zəkat malından verərik. Çünki onlar, zəkatı haqq sahiblərinə çatdırmaq üçün onu yığıb paylamaqla məşğuldurlar. Və əgər dövlət başçısı yığılmış zəkatın, ona haqqı çatan insanların hamısına çatması üçün, zəkat yığıb paylayanların maaşını müsəlmanların ümumi dövlət xəzinəsindən (beytul-maldan) vermək istəsə, bu da caizdir.

**4. Qəlbləri isinişdiriləcək kimsələr: b**unlar, qəlbləri İslam dininə isinişdiriləcək kimsələrdir. Məsələn, adam, yenicə İslamı qəbul etmiş və onun imanının qüvvətləndirilməsinə ehtiyac var. Elə buna görə də zəkatdan ona bir pay veririk ki, İslama isinişsin, müsəlmanları sevsin, imanı möhkəmlənsin və İslam dininin insanlar arasında münasibətlər və əlaqələr quran bir din olduğunu başa düşsün.

Bəzi insanların şərindən qurtulmaq, habelə, qəlblərində müsəlmanlara qarşı olan nifrəti və ədavəti aradan qaldırmaq üçün, onlara zəkatdan pay verməyimiz də bu qəbildən sayılır.

Alimlər, qəlbləri İslama isinişdiriləcək kimsələrin öz qövmünün böyüklərindən və əşrəflərindən olmasının şərt olub-olmadığı barədə ixtilaf etmişlər. Doğru rəy budur ki, bu, şərt deyil. Hətta sıravi bir adamın qəlbinin İslama isinişdirilməsi üçün, zəkatdan ona pay verilə bilər. Fəqət sıravi bir adamın şərindən qurtulmaq üçün ona zəkat vermək caiz deyil. Belə ki, fərdi adamın şər əməlini ixtiyar sahiblərinə ərz etməlisən ki, onlar sənin haqqını ondan alıb sənə versinlər.

**5. Kölələrin azad olunmasına:** Alimlər, bunun üç növ olduğunu söyləmişlər:

Birincisi; bir kölə alıb onu azad etməyindir;

İkincisi; azadlığını öz ağasından satın almaq üçün sövdələşmiş köləyə maddi yardım etməyindir;

Üçüncüsü; kafirlərin və ya başqalarının əlinə əsir düşmüş bir müsəlmanı əsirlikdən azad etməyindir. Hətta bir müsəlman, zalımların əlinə keçsə və bu zalımlar onu sərbəst buraxmaq üçün fidyə tələb etsələr, bu fidyəni zəkat malından verməkdə heç bir qəbahət olmaz.

**6. Borclulara:** borclu; özü üçün borc alan və bunu ödəyə bilməyən, yaxud borcu ödəməyə imkanı olsa belə, toplumun mənfəəti üçün borca girmiş kimsəyə deyilir. Elə buna görə də alimlər, borclunun iki qism olduğunu söyləmişlər:

Birincisi, başqası üçün borca girənlər;

İkincisi; özü üçün borca girənlər.

Başqası üçün borca girənlər, bunu insanların arasını düzəltmək üçün edənlərdir. Məsələn, iki qəbilə arasında çəkişmə, dava, düşmənçilik, ədavət və nifrət olduğu zaman, xeyirxah insanlardan biri gəlib, bir miqdar pul qarşılığında onların arasını düzəldir və buna görə də borca girir. Bu halda həmin adam borclu hesab edilir, lakin özünə görə deyil, ümumi məsləhətə görə borca girmiş sayılır. Bu ümumi məsləhət də, həmin iki qəbilənin arasını düzəltməkdir.

Alimlər deyirlər ki, bu adam özü üçün deyil xalqın mənfəəti üçün borca girdiyinə görə – hətta zəngin olsa belə, zəkatdan ona borcunu ödəyəcək qədər pay verilir. Fərz edək ki, birinin yüz min riyalı var və o, öz pulundan on min riyal verib iki qəbiləni barışdırmışdır. Hərçənd, o, bu miqdarı öz cibindən ödəyə bilər, lakin bunu etməyə gərək yoxdur. Əksinə, biz zəkat malından onun bu borcunu ödəməliyik. Çünki onun etdiyi bu əməl, başqasının xeyri üçündür. Bundan başqa, bu əməl, başqalarını da insanların arasını düzəltməyə təşviq edir. Belə ki, əgər biz bu adama yardım etməsək və borcunu ödəməsək, insanlar, bir-biri ilə çəkişən və bir-birinə ədavət bəsləyən qəbilələrin arasını düzəltməkdə səhlənkarlıq edəcəklər. Əgər borclu adama zəkat malından versək, onda həmin adamda daha çox yaxşı işlər görməyə həvəs oyanacaq.

İkinci növə isə, özü üçün borca girən kimsələrdir. Məsələn, adam beş min riyala bir ev kirayələyib, amma kirayə pulunu ödəyə bilmir.

Hərçənd, yeməyə, içməyə və geyimə ehtiyacı yoxdur, sadəcə öhdəsinə götürdüyü kirayənin pulunu verməyə möhtacdır. Biz zəkatdan bu adamın kirayə pulunu ödəyə bilərik, çünki o, borclular sinfinə aiddir.

Həmçinin, yanğın, sel və başqa bu kimi fəlakətə məruz qalaraq malını itirmiş və bu səbəbdən də, borca girmiş kimsəyə də, borcunu ödəyəcək qədər zəkat verə bilərik, çünki o, borcunu ödəməyə qadir deyil.

Bu növ borclulara bir şərtlə kömək etmək olar ki, onların borcu ödəməyə imkanı olmasın. Yox əgər borcu ödəməyə imkanı varsa, onda ona zəkat verilməməlidir.

Lakin bir adamın, borcu verən kimsənin yanına gəlib: "Bu, sənin filankəsdən tələb etdiyin puldur!"– deyərək həmin borcu ödəməsi və bunu zəkatdan olduğunu niyyət etməsi caizdirmi?

Cavab: Bəli, caizdir. Belə ki, pulu borc yiyəsinə çatdırmaq üçün onu borcluya vermək şərt deyil. Əksinə, məsələdən agah olan kimi borc yiyəsinin yanına gedib, ona: "Ey filankəs, eşitdim ki, sən filankəsdən on min riyal tələb edirsən"– desə, həmin adam da: "Bəli!"– deyə etiraf etsə, o pulu ona verə bilər. Bunu borcluya bildirməyə ehtiyac yoxdur. Çünki əsas məqsəd, onun borcunu ödəməkdir. Bu halda isə, o bunu bilsə də, bilməsə də, artıq onun borcu ödənmişdir. Ayədəki ifadəyə diqqət edin: **"Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə..."** Burada zikr edilən son üç sinif, ayənin əvvəlində, ərəbcə "üçün" mənasını ifadə edən "ləm" ədatı ilə işlənmiş **"yoxsullar"** kəlməsinə bağlanır. Yəni zəkat yoxsulların özlərinə verildiyi kimi, bu üç sinifin də özlərinə verilir. Lakin **"Kölələrin azad olunmasına"** gəlincə, burada ərəbcə "ləm" yox, zərf mənasında işlənən "fi" ədatı zikr edilir ki, bu da: "olunmasına və ya olunmasında" mənasını ifadə edir. Yəni zəkat pulu ilə kölə azad etdikdə, bu pulu onun özünə verməsən də olar. Ayənin davamındakı **"borclulara"** kəlməsi, **"kölələrin azad olunmasına"** kəlməsinə bağlanır. Yəni, kölələri köləlikdən, borcluları da borcdan qurtarma yolunda, mənasını ifadə edir. Bundan da aydın olur ki, borclunun borcunu ödəmək üçün, pulu onun özünə vermək şərt deyil, əksinə, borc yiyəsinin yanına gedib o borcu ödəmək kifayətdir.

Əgər sual verilsə ki: "Borc yiyəsinin yanına gedib borcu ödəmək yaxşıdır, yoxsa pulu borclu adamın özünə vermək lazımdır ki, aparıb borcunu ödəsin?" Bu sualın cavabı belədir:

Əgər pulu borcluya verdiyin təqdirdə, onu borc yiyəsinə verməyib xərcləyəcəyindən və borclu qalacağına davam edəcəyindən ehtiyat edirsənsə, o halda, bu pulu borcluya yox, borc yiyəsinə verməlisən. Çünki pulu ona versən, onu lazımsız yerlərə xərcləyəcək və borcunu ödəməyəcək. Belə ki, bəzi adamlar öhdələrinə düşən borcu qaytarmağa laqeyd yanaşırlar. Odur ki, pulu borcluya verdiyin təqdirdə onu lazımsız yerə sərf edib borc yiyəsinə qaytarmayacağını təxmin etsən, o pulu ona yox, borc yiyəsinə ver. Yox, əgər borclunun ağıllı və dindar adam olduğunu, borclu qalmaqdan narahat olduğunu görsək və pulu ona verən kimi aparıb borcunu ödəyəcəyindən arxayın olsaq, o zaman onu borcluya verib: "Götür bu pulu, borcunu ödə!"– deməliyik. Belə ki, bu, onun eyibini örtmək üçün daha münasib və onun üçün daha xeyirlidir. Lakin bizə vacibdir ki, zəkatı payladıqda, bəzi dələduzların hiyləsindən özümüzü gözləyək. Məsələn, bəzi adamlar, bu il sənə borc sənədi göstərərək onu ödəməyini xahiş edir və sən imkan daxilində o borcu ödəyirsən. Nəhayət, bir il keçdikdən sonra yenə eyni sənədlə sənin yanına gəlir və sənəddə qeyd edilmiş borcun artıq *bir hissəsinin* ödənildiyini həmin borcdan çıxmır. Buna diqqət et! Çünki bəzi adamları halal və haram maraqlandırmır. Onlar üçün önəmli olan qazanc əldə etməkdır. Odur ki, köhnə siyahını gətirib sənə göstərir. Halbuki, həmin borcun artıq yarısı ödənilib. Elə isə buna diqqət et!

Bu cür işlər başımıza çox gəlib. Borclunun göstərdiyi sənədə əsasən, gedib borc yiyəsinə borcu ödəmək istədikdə, borc yiyəsi: "O artıq borcunu ödəyib"– deyib. Bu, müşkül məsələdir. Odur ki, diqqətli olmaq məcburiyyətindəyik. Buna rəğmən, əgər adam Allahdan qorxub əlindən gəldiyi qədər araşdırdıqdan sonra zəkatı münasib bildiyi adama versə və sonradan onun zəkat verilməyə layiq olmayan bir adam olduğundan agah olsa, buna görə məsuliyyət daşımaz. Bu, Allahın bir lütfüdür. Yəni, əgər sən bir adamın kimliyini araşdırdıqdan sonra zəkatını ona versən, sonra da onun zəkat veriləcək insanlardan olmadığını öyrənsən, buna görə məsuliyyət daşımazsan və zəkatın da qəbul olar.

**7. Allah yolunda cihad edənlərə:** Allah yolunda cihad etmək, yəni Allahın kəlməsi uca olsun deyə vuruşmaq. Belə ki, Rəsulullahdan ﷺ, qəhrəman adı qazanmaq, təəssübkeşliyi üzündən və ya özünü göstərmək üçün vuruşan kimsələrdən hansının Allah yolunda olduğu soruşulduqda, o belə buyurmuşdur: **"Hər kim Allahın kəlməsi uca olsun deyə vuruşarsa, o, Allah yolunda *vuruşmuş* sayılar."**[1] Bu cümlə, Allah yolunda olan cihadla belə olmayanı dəqiq şəkildə ayırd edir. Əvvəldə bu barədə *geniş* danışmışıq.

Qeyd edək ki, döyüş əsnasında zalım müsəlmanı, – müsəlman olmasına rəğmən – öldürmək caizdir. Əgər bizə: "Bəs, o buna məcbur edilibsə necə?"– deyə sual verilsə, deyərik ki: "Şeyxulislam İbn Teymiyyə رحمه الله belə demişdir: "Tatarlarla əlbir olub müsəlmanlara qarşı vuruşan kimsələr, müsəlmanlar olmuş və buna məcbur edilmiş olsalar belə, onlara qarşı vuruşmaq vacibdir. Əgər həqiqətən də, onlar buna məcbur edilmişlərsə, o halda şəhidin savabı qədər savab qazanarlar. Çünki bu müsəlmanlar, onları döyüşməyə məcbur edən zalımın zülmündən dolayı öldürülmüşlər. Belə ki, əsl zalım, onları buna məcbur edənlədir. Yox əgər məcbur edilməmişlərsə, əksinə, bunu öz seçimləri və istəkləri ilə etmişlərsə, o halda bu, onların öz əlləri ilə etdiklərinin cəzasıdır." Sonra da bunun səbəbini belə izah etmişdir: "Kənardan baxdıqda, məcbur edilənlə məcbur edilməyəni bir-birindən ayırd etmək mümkün deyil. Çünki bunun yeri qəlbdir. İstəyərək etmək və ya məcburiyyət altında etmək, insanın qəlbində olan bir şeydir və kənardan birini digərindən ayırd etmək qeyri-mümkündür. Odur ki, haqqı müdafiə etmək uğrunda, döyüşə məcbur edilən kimsəni də öldürmək lazım gəlir. Beləsinin hesabı isə Allaha aiddir. Bəli, əgər belə adam əsir götürüldükdən sonra onun həqiqətən də, müsəlman olduğu bəlli olarsa, o zaman onu öldürmək caiz deyil. Döyüş meydanında isə onu öldürmək icazəlidir." İbn Teymiyyə رحمه الله bunu "Məcmuə əl-Fətavə" kitabında, Cihad fəslində, 28-ci cild, 544-553-cü səhifələrdə zikr etmişdir.

Uca Allahın: **"Allah yolunda cihad edənlərə"** sözü, zəkat pulunu həm onların özünə verməyi, həm də bu puldan onlar üçün silah almağı

[1] Səhih əl-Buxari, 123; Səhih Muslim, 1904.

şamil edir. Demək zəkat pulundan Allah yolunda cihad üçün silah almaq caizdir.

Alimlər deyirlər ki, bir adamın işləyib pul qazanmaq imkanı olduğu halda, vaxtını sırf elm öyrənməyə sərf etməsi də buna aiddir. Əgər adam sırf elm öyrənməklə məşğuldursa, bu halda zəkatdan ona ehtiyacını ödəyəcək qədər pul vermək olar. Çünki elm öyrənmək də, Allah yolunda cihad etmək sayılır. Lakin kim sırf ibadət etməklə məşğul olarsa, ona zəkatdan heç nə verməməli, əksinə: "Get, işlə qazan!"– deməliyik. Beləliklə, bizə, elm öyrənməyin ibadət etməkdən daha şərəfli əməl olduğu aydın olur. Odur ki, əgər əməlisaleh dindar bir adam yanımıza gəlib: Mən işləyib pul qazana bilərəm, lakin ömrümü ibadətə – namaz qılmağa, oruc tutmağa, zikr etməyə, Quran oxumağa sərf etmək istəyirəm. Mənə zəkatdan pul ayırın ki, mən başqa işlə məşğul olmayım"– desə, ona: "Biz sənə zəkat verməyəcəyik. Get işlə pul qazan!"– deməliyik. Başqa biri də gəlib: "Mən işləyib pul qazana bilərəm, lakin vaxtımı sırf elm öyrənməyə sərf etmək istəyirəm. Əgər qazanc dalınca getsəm, elm öyrənə bilməyəcəm. Mənə ehtiyaclarımı ödəyəcək qədər zəkatdan pul ayırın ki, vaxtımı sırf elm öyrənməyə sərf edə bilim"– desə, ona: "Biz sənə elm öyrənməyinə yetəcək qədər pul verəcəyik"– deyərik. Bu da, elmin və elm öyrənməyin şərəfli əməl olduğuna dəlalət edir.

**8. Müsafirlərə:** bu da zəkat veriləcək səkkiz sinfin səkkizincisidi. Bu ayədə müsafirlər deyildikdə, yolda qalmış, özü ilə gətirdiyi pulu bitmiş və məmləkətinə gedib çatmaq üçün yol pulu tapa bilməyən müsafirlər nəzərdə tutulur. Zəkat malından ona, məmləkətinə gedib çatmaq üçün kifayət edəcək qədər yol pulu verilməlidir. Bu adama, yoxsul və kasıb olduğuna görə yox, səfərdə pulu qurtardığına görə zəkatdan pay verilir. Belə ki, o, öz məmləkətində zəngin adamdır, sadəcə olaraq səfər əsnasında pulu qurtarmışdır. Belə olduğu təqdirdə zəkat malından ona, məmləkətinə gedib çatmaq üçün kifayət edəcək qədər yol pulu verilməlidir. Hətta o adam varlı olsa belə.

Bu sadaladıqlarımız, zəkat veriləcək səkkiz sinif insandır. Zəkatı onlardan başqasına vermək olmaz. Odur ki, zəkat malını, məscid tikintisinə, yol təmirinə, məktəb tikintisinə və başqa bu kimi xeyirli işlərə sərf etmək olmaz. Çünki uca Allah, bu səkkiz sinifi, "yalnız, ancaq"

mənasını ifadə edən və özündən sonra gələnləri məhdudlaşdıran "innəmə" ədatı ilə zikr edərək: **"Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara...."** buyurmuşdur. Bu ədat, məhdudluq bildirir. Yəni hökmün zikr edilən sinifə aid olub, başqalarına aid olmadığını ifadə edir. Əgər biz zəkatın hər növ xeyirli işə sərf edilməsinin caiz olduğunu desək, bu məhdudluğun heç bir mənası olmaz. Məscid tikintisi, yol təmiri, məktəb tikintisi və başqa bu kimi xeyirli işlər isə başqa vəsaitlərlə – xeyriyyəçilik, yardımlar və sədəqələr vasitəsilə həyata keçirilir.

Bu, müəllifin zikr etdiyi uzun hədisdəki, Peyğəmbərin ﷺ Cəbrailə عليه السلام bildirdiyi, İslam ərkanlarının üçüncüsüdür.

Dördüncüsü isə, Peyğəmbərin ﷺ: **"ramazan ayını oruc tutasan"** sözüdür.

Ramazan: şaban ilə şəvval arasındakı aydır. Bəzi alimlərin fikrincə bu ayın ramazan adlandırılmasının səbəbi budur ki, aylara ilk dəfə ad qoyulduğu zaman bu ay çox isti bir vaxta təsadüf etmişdir.[1] Bəzilərinin fikrincə isə, bu ay günahların istisini apardığına görə belə adlandırılmışdır. Çünki günahlar istidir. **"Kim Ramazan ayını imanla, savabını *Allahdan* umaraq oruc tutarsa, keçmiş günahları bağışlanar."**[2]

Xülasə budur ki, bu ay, müsəlmanlara məlumdur. Uca Allah, onu Öz kitabında bu adla zikr edərək belə buyurur: **"Quran ramazan ayında nazil edilmişdir."**[3] Uca Allah Quranda bu aydan başqa heç bir ayın adını zikr etməmişdir.

Ramazan orucu, İslamın rüknlərindən biridir və onsuz İslam tamam sayıla bilməz. Lakin bu, yalnız aşağıda sadalanan şərtləri özündə cəm edən kimsələrə vacibdir:

1. Müsəlman olmaq;
2. Həddi-büluğa çatmaq;
3. Ruhi xəstə olmamaq;
4. Oruc tutmağa qadir olmaq;
5. Səfərdə olmamaq;

---

[1] Belə ki, ramazan sözü günəşin istisindən yanmış ərazini ifadə edən "ramda" sözündəndir.

[2] Səhih əl-Buxari, 38; Səhih Muslim, 760.

[3] əl-Bəqərə, 185.

6. Maneələrdən qurtulmaq.

Yəni azyaşlılara, dəlilərə və kafirlərə oruc tutmaq vacib deyil. Qadir olmayanlara gəlincə, bunlar iki qismdir:

1. Əgər adam müvəqqəti olaraq oruc tutmağa qadir deyilsə, məsələn, xəstəliyi keçib gedən bir xəstəlikdirsə, o halda oruc tutmamalı, lakin sağaldıqdan sonra tutmadığı günlərin sayı qədər onun qəzasını tutmalıdır.

2. Yox əgər oruc tutmağa əsla qadir deyilsə, məsələn, yaşlıdırsa və ya xəstəliyi sağalmayan xəstəlikdirsə, o halda oruc tutmadığı hər günün əvəzinə bir kasıb doyurmalıdır.

Həmçinin, müsafirə də oruc tutmaq vacib deyil. Lakin tutmadığı orucların qəzasını başqa günlərdə tutmalıdır.

"Maneələrdən qurtulmaq" deyildikdə isə, heyz və nifasdan təmizlənmək qəsd edilir. Belə ki, heyzli və nifaslı qadınlara oruc tutmaq vacib deyil, hətta caiz deyil, lakin tutmadığı orucların qəzasını başqa günlərdə tutmalıdırlar.

Ramazan orucu, hilalın gözlə görünməsindən asılı olaraq ya iyirmi doqquz ya da otuz gün tutulur. Çünki Rasulullah ﷺ belə buyurmuşdur: **"Hilalı gördüyünüz zaman oruc tutmağa başlayın, onu *təkrar* gördüyünüz zaman isə orucunuzu dayandırın. Hava buludlu olduğundan *hilalı görməsəniz* ayı otuza tamamlayın."[1]** Yəni orucun əvvəlində şaban ayını, axırında isə ramazan ayını otuza tamamlayın.

**Beşinci rükn: "Evi ziyarət etməyindir"**

Bu, uca Allahın evidir. Yəni uca Allahın Öz kitabında, habelə, Rəsulunun ﷺ dili ilə bəyan etdiyi həcc əməllərini yerinə yetirmək məqsədi ilə Allahın evini ziyarət etməkdir. Həcc ziyarəti, İslamın rüknlərindən biridir. Ümrə də, Allahın evini ziyarət etməyə aiddir. Elə buna görə də Peyğəmbər ﷺ onu "kiçik həcc" adlandırmışdır. Həcc və ümrə ziyarətlərini yerinə yetirməyin beş şərti var:

1. Müsəlman olmaq;
2. Ruhi xəstə olmamaq;
3. Həddi-büluğa çatmaq;

[1] Səhih əl-Buxari, 1909; Səhih Muslim, 1081.

4. Azad insan olmaq;

5. Ziyarəti yerinə yetirməyə qadir olmaq;

Bu şərtlərdən biri olmadığı təqdirdə, həcc və ümrə ziyarətini yerinə yetirmək vacib deyil.

Əgər adam maddi imkansızlıqdan dolayı həccə gedə bilmirsə, o halda onun nə özünün ziyarətə getməsi, nə də bir kimsənin onun yerinə ziyarət etməsi vacibdir. Yox əgər xəstəliyindən dolayı həccə gedə bilmirsə, o halda, – əgər bu, sağalmasına ümid edilən bir xəstəlikdirsə, uca Allah ona şəfa verib bu maneəni aradan qaldıranadək gözləsin; yox əgər aradan qalxması mümkün olmayan bir maneədirsə, məsələn, qocadırsa (yaxud xəstəliyi sağalmayan xəstəlikdirsə), onda o, başqa birisini ziyarətə göndərməlidir ki, onun yerinə həcc ziyarətini yerinə yetirsin. Belə ki, bir qadın Peyğəmbərdən ﷺ: "Allah Öz qullarına həcc ziyarətini elə bir vaxtda vacib buyurdu ki, artıq atam qocalmış və minik üzərində oturmağa halı qalmamışdır. Belə olduqda, mən onun əvəzinə həcc edə bilərəmmi?" – deyə soruşmuş, Peyğəmbər ﷺ də ona: **"Bəli!"**– deyə buyurmuşdur.[1] Qadın öz atasının yaşlı olduğundan dolayı ziyarətə gedə bilmədiyi, lakin maddi baxımdan buna imkanı çatdığı halda, həcc ziyarətinin ona vacib olduğunu qeyd etdikdə, Peyğəmbər ﷺ onun sözünü təsdiqlədi və ona, atasının yerinə həcc ziyarətini yerinə yetirməyi əmr etdi.

Sadaladığımız bu beş rükn, İslamın rüknləridir: Allahdan başqa *haqq* məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirmək, namazı doğru-düzgün qılmaq, zəkat vermək, ramazan ayını oruc tutmaq və Allahın evini ziyarət etmək.

Peyğəmbər ﷺ Cəbrailə عليه السلام İslamın nə olduğu barədə xəbər verdikdə, Cəbrail عليه السلام: **"Doğru söylədin!"**– dedi. Onda Ömər رضي الله عنه dedi: **"Biz ona təəccüb etdik, o həm sual verdi, həm də cavabın doğru olduğunu təsdiqlədi."** Çünki adam birisinin doğru söylədiyini təsdiqləyirsə, demək, verdiyi sualın cavabını bilir. Elə buna görə də səhabələr təəccüb etdilər. Necə olur ki, o sual verir, sonra da "doğru söylədin" deyir. Adətən, sual verən adam: "Doğru söylədin" demir, "başa düşdüm" deyir. Lakin Cəbrail عليه السلام bu sualın cavabını bildiyi üçün: **"Doğru söylədin!"**- dedi.

---

[1] Səhih əl-Buxari, 1513; Səhih Muslim, 1334, 1335.

Sonra Cəbrail ﷺ: **“Mənə iman haqqında xəbər ver”**– deyir.

İmanın yeri qəlb, İslamın yeri isə əzalardır. Odur ki, deyirik: “İslam, zahiri əməllər, iman isə batini inanclardır. Çünki iman qəlbdədir.”

**İman:** insanın bir şeyə şübhə və ehtimalla deyil, qətiyyətlə etiqad etməsi, hətta gündüz vaxtı günəşin mövcud olduğuna şübhə etmədən inandığı kimi inanmasıdır. Yəni, şəkk etmədən, qəti şəkildə təsdiqləməkdir. Bu da, Allahın şəriətində buyurulanları qəbul etməyi və deyilənlərə tam bir şəkildə boyun əyməyi vacib edir.

Peyğəmbər ﷺ Cəbrailə ﷺ: **“İman odur ki, Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə iman gətirəsən, habelə qədərə – onun xeyrinə və şərinə iman gətirəsən”**– deyir. Bu altı əsas, imanın əsaslarıdır.

**1. “Allaha iman gətirəsən”,** yəni iman gətirməlisən ki, Allah mövcuddur, Əbədi yaşayandır, hər şeyi Biləndir, hər şeyə Qadirdir, pak və müqəddəsdir, hər şeydən ucadır, aləmlərin Rəbbidir, Ondan başqa rəbb yoxdur, mülk və həmd mütləq şəkildə Ona məxsusdur, bütün işlər Ona qayıdır, ibadət edilməyə layiq olan tək məbud Odur və Ondan başqa ibadətə layiq məbud yoxdur, bütün nöqsanlardan uzaqdır və ucadır, təvəkkül ediləcək tək ilahdır, kömək və müvəffəqiyyət yalnız Allahdandır və O, məxluqatın sifətlərinə bənzəməyən bütün kamil sifətlərə malikdir. Çünki Allah subhanəhu və təalə belə buyurur: **“Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.”[1]**

Demək, Allahın varlığına, Onun rububiyyətinə,[2] uluhiyyətinə,[3] isim və sifətlərinə iman gətirmək vacibdir. Bunların hamısının olması labüddür. Kim Allahın varlığını inkar edirsə, kafirdir və əbədi olaraq Cəhənnəmdə qalacaq. Kim Allahın varlığına tərəddüd və şübhə edirsə, o da kafirdir. Çünki mömin sayılmaq üçün qətiyyətlə iman gətirməlisən ki,

---

[1] əş-Şura, 11.

[2] Rububiyyə: Allahın Rəbb olmasıdır. Yəni Allah, hər şeyin Rəbbi, Hökmdarı, Yaradanı və ruzi verənidir. Öldürən və dirildən, xeyir və zərər toxunduran, ehtiyacı olan kimsənin duasını qəbul edən də Odur. Hər bir işin aqibəti Ona məxsusdur, hər bir xeyir Onun Əlindədir, bütün işlər Ona qayıdır və Onun heç bir şəriki yoxdur.

[3] Uluhiyyə: Allahın haqq məbud olmasıdır. Yəni, zəlillik, qorxu, sevgi, rüku, səcdə, qurban, nəzir və digər ibadətlər Tək Allaha yönəldilməli və Ona şərik qoşulmamalıdır.

Allah Əbədi yaşayandır, hər şeyi Biləndir, hər şeyə Qadirdir və mövcuddur. Kim Allahın rububiyyətinə şəkk edirsə, kafirdir. Həmçinin, kim bir başqasını rububiyyətdə Allaha şərik qoşursa, o da kafirdir. "Övliyalar kainatı idarə edirlər, kainatdakı işləri yoluna qoymaq onlara məxsusdur"– deyən, onlara dua edən, onlardan mədəd diləyən və onlardan kömək istəyən kimsə də kafirdir. Çünki o, Allaha iman gətirməmişdir.

İbadətə aid istənilən bir əməli Allahdan qeyrisinə yönəldən kimsə də kafirdir. Çünki belə olduğu halda o, uca Allahın ibadətə layiq tək məbud olduğuna iman gətirməmişdir. Odur ki, kim günəşə, aya, ağaca, çaya, dənizə, dağlara, padşaha, peyğəmbərlərdən istənilən birinə və ya övliyalardan istənilən birinə səcdə edərsə, İslam dinindən çıxar və kafir olar. Çünki o, Allaha başqa birisini şərik qoşmuşdur.

Həmçinin, uca Allahın zatını vəsf edən hər hansı bir sifəti yalan sayaraq inkar edən kimsə də kafirdir. Çünki o, uca Allahı və Onun rəsulunu ﷺ inkar edir. Deməк, Uca Allahın sifətlərindən hər hansı birini yalan sayaraq inkar edən şəxs kafir sayılır. Çünki o, Quran və Sünnədə varid olanları yalan saymış olur. Məsələn, adam: "Allah, ərşə istiva etməmişdir", yaxud "Allah, dünya səmasına enmir" desə, kafir sayılır. Yox, əgər bu sifətlərdən birini başqa mənaya yozaraq inkar edərsə, o zaman onun halına baxmaq lazımdır. Onun bu yozumu mümkündürmü; bu məsələdə ictihad etmək mümkündür yoxsa yox? Əgər həmin sifəti başqa mənaya yozmaq mümkündürsə, o adam kafir sayılmır, lakin əhli-sünnə vəl-cəmaənin yolundan kənara çıxdığına görə fasiq sayılır. Yox əgər o sifəti başqa mənaya yozmaq mümkün deyilsə, bunu edən adam kafir sayılır. Çünki yozulması mümkün olmayan bir sifəti inkar etmək, elə o sifəti təkzib etməkdir.

Əgər sən Allaha doğru-düzgün iman gətirsən, Onun əmrlərini yerinə yetirib, qadağan etdiklərindən çəkinərək Ona itaət etməyə başlayacaqsan. Çünki Allaha doğru-düzgün iman gətirən adam, qəlbi ilə Ona mütləq şəkildə təzim edər və Onu mütləq şəkildə sevər. Allahı mütləq şəkildə sevdikdə isə, heç bir sevgi bu sevgi ilə eyni ola bilməz, həmçinin, Ona mütləq şəkildə təzim etdikdə, heç bir təzim növü Onun göstə-

rilən təzimə tay ola bilməz. Beləliklə, o, Allahın əmrlərini yerinə yetirmiş və qadağan etdiklərindən uzaq durmuş sayılar.

Allaha iman gətirməyə aid olan bir məsələ də, budur ki, Onun hər şeyin fövqündə olduğuna, Ərşin üzərində istiva etdiyinə iman gətirməliyik. Ərş, məxluqatın hamısının üstündə yerləşir və o, bizim bildiyimiz məxluqların ən böyüyüdür. Çünki hədislərin birində belə buyurulur: **"Yeddi göy və yeddi yer, kürsüyə nisbətdə, səhraya atılmış bir həlqə kimidir."**[1] Yeddi göyün və yeddi yerin – nə qədər böyük olmasına baxmayaraq kürsüyə nisbəti, həlqənin yerə nisbəti kimidir. Zirehin üzərində olan həlqələrdən birini götür səhraya at, sonra onun səhraya nisbətdə nə qədər balaca olduğuna bax və gör nə görəcəksən? Səhraya nisbətdə o heç nədir! O həlqə səhraya nisbətdə nə ola bilər ki?! Heç nə. Hədisin davamında belə buyurulur: **"Ərşin kürsüdən olan böyüklüyü isə səhranın o həlqədən olan böyüklüyü qədərdir."**[2] Demək, bu Kürsü də Ərşə nisbətdə, səhraya atılmış bir həlqə kimidir. Ərşin nə qədər böyük olduğuna bir baxın! Elə buna görə də uca Allah onun böyük olduğunu bildirir: **"O, böyük Ərşin Rəbbidir!"**[3] O, həmçinin buyurur: **"O, şanlı Ərşin sahibidir."**[4] Beləcə, Allah onun böyük və şanlı olduğunu, başqa bir ayədə[5] də dəyərli olduğunu bildirmişdir.

Uca Allah bu Ərşin üzərində istiva etmişdir. Yəni Allah Ərşin fövqündədir. Ərş də bütün məxluqatın fövqündədir. Ərşə nisbətdə kiçik olan Kürsü isə göyləri və yeri əhatə edir. Bu xüsusda uca Allah belə buyurur: **"Onun Kürsüsü göyləri və yeri əhatə edir."**[6] Biz iman gətirməliyik ki, uca Allah hər şeyin fövqündədir və yaradılanların hamısı Allahın böyüklüyünə nisbətdə heç bir şeydir. Uca Allah, ağıl və düşüncənin qavramayacağı qədər əzəmətli və böyükdür. Hətta Cənnətdə möminlər Allahı gördükdə, gözlər Onun nə dərəcədə əzəmətli və böyük olduğunu dərk edə bilməyəcəklər. Necə ki, uca Allah buyurur: **"Gözlər Onu**

---

[1] Təfsir İbn Kəsir, 1/332; Təfsir ət-Təbəri, 3/12; Silsilə əl-Əhadis əs-Səhihə, 109.

[2] Əvvəlki mənbə.

[3] ət-Tovbə, 129.

[4] əl-Buruc, 15.

[5] **"O, dəyərli Ərşin Rəbbidir"** (əl-Muminun, 116).

[6] əl-Bəqərə, 255.

**dərk etmir. O isə gözləri dərk edir."**[1] Uca Allahın şanı, ən böyük və ən ucadır. Siz hər bir nöqsandan uzaq və uca olan, bu cür əzəmətli Allaha iman gətirməlisiniz ki, bu iman sizi Ona layiqincə ibadət etməyə gətirib çıxartsın.

Allaha imanın bir hissəsi də budur ki, Onun elminin hər şeyi əhatə etdiyinə, gözlərin xaincəsinə baxışını və kökslərin nələr gizlətdiyini, habelə, göylərdə və yerdə çox sayda, az sayda, iri və xırda olan hər şeyi bildiyinə iman gətirəsən. "**Sözsüz ki, nə yerdə, nə də göydə, heç bir şey Allahdan gizli qalmaz."**[2]

Həmçinin, iman gətirməlisən ki, uca Allah hər şeyə qadirdir və bir işin olmasını istədikdə, – o iş nə cür olursa olsun, ona ancaq "Ol!" deyər, o da olar. İnsanların dirilməsini və xəlq edilməsini bir düşünün! Sayı yalnız Allaha bəlli olan milyardlarla insan xəlq edilmişdir. Bu xüsusda uca Allah belə buyurur: **"Sizin yaradılışınız və dirilməyiniz ancaq bir adamı yaratmaq və diriltmək kimidir."**[3] Bütün yaradılanların yaradılması və təkrar dirildilməsi, tək bir canlının yaradılması kimidir. Başqa bir ayədə də uca Allah dirilmə haqqında belə buyurur: **"O *surun üfürülməsi* təkcə qorxunc bir səsdir. *O vaxt* onlar ləngimədən *qəbirlərindən* yerin səthinə çıxacaqlar."**[4]

Allahın qüdrətinin əlamətlərini gündəlik həyatınızda da görə bilərsiniz. Məsələn, adam yatdıqda, Allah onu öldürür. Bu xüsusda uca Allah buyurur: **"Gecələr sizi öldürən Odur..."**[5] Fəqət bu ölüm, ruhun bədəndən tamamən ayrılaraq ölməsi deyil; sadəcə ruhun, bədənlə bağlılığı olduğu halda ondan ayrılmasıdır. Sonra Allah bu yatmış adamı yuxudan oyadır və o, özünün yenidən həyata qayıtmış olduğunu hiss edir. Bu, elektrikli lampalar icad olunmamışdan əvvəl daha yaxşı hiss edilirdi. Belə ki, əvvəllər insanları gecənin qaranlığı bürüdükdə, zülmət, vəhşət və sükunət hiss edər, səhər açıldıqda isə, aydınlıq və nur görər, habelə, könülləri açılardı. Beləcə, gecənin gedib, gündüzün gəl-

---

[1] əl-Ənam, 103.
[2] Ali-İmran, 5.
[3] Loğman, 28.
[4] ən-Naziat, 13-14.
[5] əl-Ənam, 60.

məsindən zövq alardılar. Bu günkü gün isə gecə ilə gündüz arasında fərq qalmadığına görə, əvvəllər aldığımız zövqü ala bilmirik. Lakin buna rəğmən adam yuxudan oyandıqda sanki yeni bir həyata başladığını hiss edir. Bu da Allahın rəhmətindən və hikmətindəndir.

Həmçinin, iman gətirməliyik ki, uca Allah Eşidəndir, Görəndir. Dediyimiz hər bir sözü, hətta pıçıltı ilə olsa belə, onu eşidir. Bu xüsusda uca Allah belə buyurur: **"Yoxsa onlar elə hesab edirlər ki, Biz onların sirlərini və gizli danışıqlarını eşitmirik?! Xeyr, onların yanında *əməlləri* yazan elçilərimiz var."**[1] O, həmçinin buyurur: **"*Allah* sirri də, *bundan* daha gizli olanı da bilir."**[2] Yəni insanın qəlbində olanları bilir. Necə ki, uca Allah buyurur: **"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik."**[3] Yəni qəlbində olanları üzə çıxartmasa da, Allah onları bilir. Uca Allah, gecənin qaranlığında, qara daşın üstündəki qara qarışqanı belə görür, bu, Ondan gizli qalmır.

Əgər Allahın hər şeyi bildiyinə, hər şeyə qadir olduğuna, hər şeyi eşitdiyinə və hər şeyi gördüyünə iman gətirmisənsə, bilməlisən ki, sən daim Rəbbinin nəzarətindəsən. Belə olduğu təqdirdə, sən ancaq Onun razı qalacağı sözləri danışacaq və Onun razı qalacağı əməlləri edəcəksən. Çünki O, sənin danışdığın hər bir sözü eşidəcək və etdiyin hər bir əməli görəcək. Beləcə, Rəbbinin, sənin qadağan olunan əməlləri etdiyini və vacib buyurulan əməlləri yerinə yetirmədiyini görəcəyindən, habelə, Onun razı qalmayacağı sözləri danışmaqdan və deyilməsi vacib buyurulan sözləri deməməkdən qorxacaqsan.

Əgər Allahın hər şeyə qadir olduğuna inanırsansa, dua etdikdə, – həddi aşmamaq şərtilə, Ondan nə istəyirsənsə, istə. Heç vaxt demə ki: "Bu ola bilməz! Bu, mümkün deyil." Çünki Allahın qüdrəti qarşısında mümkünsüz olan bir şey yoxdur. Musanın عليه السلام əhvalatına baxın; Firondan və onun ordusundan qaçarkən, Qırmızı dənizə gəlib çatdıqda, uca Allah ona əsasını dənizə vurmasını əmr etdi. Musa عليه السلام onu dənizə vuran kimi dəniz yarıldı və on iki yol açıldı. Bu yollardan hər birinin arasındakı dəniz suyu dağ kimi dimdik durmuşdu. Allahın qüdrəti ilə o

---

[1] əz-Zuxruf, 80.

[2] Ta ha, 7.

[3] Qaf, 16.

yollar bir anda qurudu və İsrail oğulları sanki səhrada yeriyirlərmiş kimi, ayaqlarına su dəymədən o yollarla getməyə başladılar.

Rəvayət edilir ki, Səd ibn Əbu Vəqqas ﵁ fars ölkələrini fəth edərkən İraqdakı məşhur Diclə çayına çatdıqda, farslar çayın şərq tərəfinə keçdilər və müsəlmanların çayı keçməsinə mane olmaq üçün körpüləri uçurtdular, gəmiləri də yandırdılar. Onda Səd ﵁ səhabələrlə məşvərət etdi və nəhayət, çayı keçmək qərarına gəldilər. Onların bəzisi atların və dəvələrin üstündə, bəzisi də yeriyərək çayın üstündən keçdi və heç birinə heç nə olmadı. Bu çayı dümdüz və daş kimi sərt edən, əsgərləri də, suda boğulmadan onun üstündən keçməyə müvəffəq edən kim idi? Əlbəttə ki, hər şeyə qadir olan Allah.

Eyni hadisə, Alə ibn əl-Hədrəminin ﵁ də başına gəlmişdir. O, başçılıq etdiyi ordu ilə birlikdə Bəhreyni fəth etməyə getdikdə, gəlib dənizin sahilinə çatmış və dənizi keçmək üçün Allaha dua etmiş, beləliklə də, bütün ordu heç bir əziyyətsiz suyun üstü ilə keçib getmişlər.

Allahın möcüzələri çoxdur. Odur ki, Allahın Öz kitabında xəbər verdiyinə, yaxud Rasulullahın ﷺ hədislərdə söylədiyinə, yaxud da Allahın insanlara göstərdiyi fövqəladə hadisələrə iman gətirmək, Allaha iman gətirməyə aiddir. Çünki bu, uca Allahın qüdrətinə iman gətirməkdir.

Allaha imanın bir qismi də budur ki, Allahın daim səni gördüyünü biləsən; belə ki, sən Onu görməsən də, O səni görür. Yəni Allaha, sanki Onu görürmüşsən kimi ibadət etməlisən. Sən Onu görməsən də, bil ki, O səni görür. Bu məsələdən insanların çoxu qafildir. Görürsən ki, adam Allaha ibadət edir, lakin bu ibadətə ciddi yanaşmadan onu bir adət olaraq yerinə yetirir. Adam ibadəti Qüdrətli və Uca Rəbbini görürmüş kimi yerinə yetirmir. Bu isə həm imanda, həm də əməldə olan nöqsandır.

Allaha imanın bir qismi də budur ki, hökmün yalnız uca və böyük Allaha məxsus olduğuna iman gətirəsən. Kainat və şəriət qanunlarını qoymaq haqqı yalnız Allaha məxsusdur. Ondan başqa hökm verəcək bir kimsə yoxdur, hər şey Onun əlindədir. Bu xüsusda uca Allah belə buyurur: **“De: “Ey mülkün sahibi olan Allahım! Sən mülkü istədiyin kəsə verir, istədiyindən də, onu geri alırsan; istədiyin kimsəni ucal-**

**dır, istədiyini də, alçaldırsan. Xeyir** *yalnız* **Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən."**[1]

Neçe-neçə padşah olub ki, onun səltənəti bir gecədə əlindən alınıb; neçə-neçə sıravi insan da olub ki, bir gecədə padşah olub. Çünki hər şey Allahın əlindədir. Neçə-neçə hörmətli insanlar olub ki, özlərini hamıdan üstün hesab edib, lakin bir gecədə alçalıblar. Neçə-neçə hörmətsiz insanlar da olub ki, bir gecədə yüksəliblər. Çünki mülk də, hökm vermək də yalnız Allaha məxsusdur.

Həmçinin, şəriət qanunlarını qoymaq da, heç kəsə yox, yalnız Allaha məxsusdur. Nəyin halal, nəyin haram, nəyin də vacib olduğunu müəyyən edən, yalnız Allahdır. Yaradılanlardan heç kəsin bu qanunları qoymağa haqqı yoxdur. Nəyinsə halal, yaxud haram və ya vacib olduğunu yalnız Allah deyə bilər. Odur ki, uca Allah Öz qullarına, icazəsiz olaraq hər hansı bir şey haqqında halal və ya haram deməyi qadağan edərək belə buyurmuşdur: **"Dilinizin uydurduğu yalana əsasən: "Bu halaldır, o haramdır!"– deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.** ***İndi onlar*** **az bir mənfəət** *əldə etmişlər, axirətdə isə* **onları ağrılı-acılı bir əzab gözləyir."**[2]

Xülasə budur ki, Allaha iman, olduqca geniş mövzudur. Əgər adam bu mövzudan ətraflı danışmaq istəsə, buna günlərlə vaxt sərf etməli olar. Fəqət qısa şəkildə işarə etdikdə, uzun sözə lüzum qalmır.

**2.** Rəsulullahın ﷺ: **"Mələklərə"** sözü:

**Mələklər;** qeyb aləmindəki məxluqlardır. Uca Allah onları nurdan yaratmış və onlara müəyyən işləri görməyi tapşırmışdır. Onların hər biri, Allahın ona əmr etdiyi tapşırığı yerinə yetirir. Məsələn, uca Allah, Cəhənnəm mələkləri haqqında belə buyurur: **"Cəhənnəmin üstündə, Allahın, özlərinə verdiyi əmrlərə** *heç vaxt* **asi olmayan və özlərinə buyurulanları yerinə yetirən, amansız və güclü mələklər var."**[3] Onlar özlərinə verilən əmrlər qarşısında nə təkəbbürlük, nə də laqeyidlik gös-

---

[1] Ali-İmran, 26.

[2] ən-Nəhl, 116-117.

[3] ət-Təhrim, 6.

tərirlər. Özlərinə buyurulanları yerinə yetirir və bu işləri görməkdə aciz qalmırlar. İnsanlar isə tam əksinə, bəzən əmrləri yerinə yetirməyə təkəbbürlük göstərir, bəzən də onları etməyə gücləri çatmır. Mələklər isə, istər Allaha ibadət etməklə əlaqəli olsun, istərsə yaradılanlara xidmət etməklə əlaqəli olsun, fərq yoxdur, uca Allahın əmrlərini yerinə yetirmək üçün yaradılmışlar.

Məsələn, mələklərin ən şərəflisi olan Cəbrailə عليه السلام, uca Allahdan aldığı vəhyi rəsullara və peyğəmbərlərə çatdırmaq tapşırılmışdır. Ona məxluqatın və insanların ən çox faydalanacaqları bir iş tapşırılmışdır. O, güvvətlidir, etibarlıdır və mələklər arasında itaət ediləndir. Elə buna görə də mələklərin ən şərəflisi sayılır.

Necə ki, Muhəmməd ﷺ peyğəmbərlərin ən şərəflisidir. Bu xüsusda uca Allah belə buyurur: **"Bunu ona çox qüvvətli və gözəl görünüşlü olan *Cəbrail* öyrətdi. O, yüksəldi. O, ən uca üfüqdə idi."**[1] Yəni Muhəmmədə ﷺ Quranı, çox qüvvətli olan Cəbrail عليه السلام öyrətdi. **"Gözəl görünüşlü"**, yəni gözəl biçimdə yaradılmış; **"yüksəldi"**, yəni ucaldı. Başqa bir ayədə də uca Allah belə buyurur: **"Həqiqətən, bu, göndərdiyimiz *Quran* möhtərəm bir elçinin sözüdür. *O elçi ki,* qüvvətlidir, Ərşin sahibi yanında *böyük* hörmət sahibidir, orada itaət ediləndir, etibarlıdır."**[2]

Mələklərdən bəzisinə də, məxluqatın xeyrinə olan işlər – yer üzünü canlandırmaq və bitkiləri yetişdirmək tapşırılmışdır. Məsələn, Mikail عليه السلام. Bu mələyə yağış yağdırmaq və bitkiləri yetişdirmək tapşırılmışdır ki, bunlar canlıların – insanların və heyvanların yaşaması üçün lazım olan ünsürlərdir. Dolayısıyla, Cəbrailə عليه السلام, qəlblərin yaşaması üçün lazım olan vəhyi nazil etmək, Mikailə عليه السلام isə bədənin yaşaması üçün lazım olan yağışı endirib bitkiləri yetişdirmək tapşırılmışdır.

Əzəmətli Ərşi daşıyan səkkiz mələkdən biri olan İsrafilə عليه السلام isə sura üfürmək tapşırılmışdır. Sur: diametri göylə yer arası böyüklüyündə olan əzəmətli şeypurdur. *Qiyamət günü* İsrafil ona üfürəcək. İnsanlar onun səsini – daha öncə heç eşitmədikləri o qorxulu səsi eşitdikdə, qorxuya düşəcək, sonra da bayılacaqlar, yəni bu səsin dəhşətindən öləcəklər.

---

[1] ən-Nəcm, 5-7.

[2] ət-Təkvir, 19-21.

**"Sonra bir daha sura üfürülən kimi onlar qalxıb baxacaqlar."[1]** Yəni, sur çalındığı vaxt ruhlar havaya qalxacaqlar. Sonra Allahın əmri ilə hər bir ruh bir tük fərqi qədər sapmadan dünyadakı bədəninə qayıdacaq.

Dolayısıyla, bu mələklərin üçünə də, yaşamağı təmin edən amilləri yerinə yetirmək tapşırılmışdır. Cəbrailə ﵇, qəlblərin canlanması üçün lazım olan vəhyi nazil etmək, Mikailə ﵇ torpağın və bitkilərin canlanması üçün yağışı endirmək, İsrafilə ﵇ isə bədənlərin *yenidən* canlanması üçün sura üfürmək tapşırılmışdır.

Elə buna görə də, Rasulullah ﷺ gecə namazına başladıqda, Allahı, bu üç mələyin Rəbbi olduğunu təsdiq edən dua ilə tərifləyərdi. Belə ki, o, namaza başladıqda: "Subhanəkəllahummə və bihəmdik..."[2] əvəzinə: **"Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım! İxtilafda olduqları şeylər barəsində bəndələrin arasında Sən hökm verirsən. Baş vermiş ixtilafda bizi Öz izninlə haqqa yönəlt! Həqiqətən, Sən istədiyini doğru yola yönəldirsən"[3]**– deyərdi.

Mələklərdən bəzisinə də can almaq tapşırılmışdır ki, bu da, Ölüm mələyidir. Bu işdə ona kömək edən mələklər də var. Onlar ölən adamın bədənindən çıxan ruhu kəfənləyib ətirləmək üçün, özləri ilə kəfən və ətir gətirirlər. Ölən adam iman əhlindən olarsa, – Allah bizi onlardan etsin! – bu mələklər onun üçün Cənnətdən kəfən və ətir gətirir, yox, Cəhənnəm əhlindən olarsa, onun üçün Cəhənnəmdən kəfən və ətir gətirirlər. Sonra əcəli çatmış can verən insanın baş tərəfində oturub canını boğazına qədər çıxardır və nəhayət, can boğaza yetişdikdə, ölüm mələyi onu çəkib çıxarır, sonra da onu həmin mələklərə verir. Onlar da onu kəfənləyib ətirləyirlər. Mələklər, ruhu, insanlar isə ölü bədəni kəfənləyib ətirləyirlər. Uca Allahın insana göstərdiyi qayğıya bir baxın! Mələklər onun ruhunu, insanlar isə bədənini kəfənləyib ətirləyirlər. Odur ki, uca Allah buyurur: **"Sizlərdən birinə ölüm gəldiyi zaman elçilərimiz**

---

[1] əz-Zumər, 68.

[2] Sunən Əbu Davud, 776; Sunən ət-Tirmizi, 243.

[3] Səhih Muslim, 770. Duanın ərəbcəsi:

(( اللَّهُمَّ رَبَّ جِبْرَائِيلَ، وَمِيكَائِيلَ، وَإِسْرَافِيلَ، فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ. اهْدِنَا لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِكَ، إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ ))

**onun canını alır və *bu işə* etinasız yanaşmırlar."**[1] Yəni, mələklər o ruhu mühafizə edir və ona etinasız yanaşmırlar. Uca Allah ölüm mələyinə elə bir qüdrət vermişdir ki, o, şərqdə və qərbdə eyni vaxtda ölən neçə-neçə insanın canını bir anda ala bilir. Məsələn, bir dəstə adam bir qəzaya uğrayıb öldükdə, ölüm mələyi onların hamısının canını bir anda alır. Burada təəccüblənəsi bir şey yoxdur. Belə ki, insanlar mələklərlə müqayisə edilə bilməz. Çünki uca Allah onlara, cinlərdən daha böyük güc-qüdrət vermişdir. Cinlər, insanlardan, mələklər də cinlərdən daha güclüdür. Baxın uca Allah, Süleymanın ﷺ əhvalatında nə buyurur: **"*Süleyman* dedi: "Ey əyanlar! Onlar müti olaraq yanıma gəlməmiş hansınız onun taxtını mənə gətirə bilər?" Cinlərdən çox qüvvətli birisi dedi: "Sən yerindən qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam!"**[2] Bu taxt Yəməndə, Süleyman ﷺ isə Şamda idi. Bu iki diyar arasındakı məsafə bir aylıq yol idi. Buna rəğmən: "**Cinlərdən çox qüvvətli birisi dedi: "Sən yerindən qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam!"** Süleyman ﷺ adətən yerindən bəlli vaxtlarda qalxardı. **"Kitabdan bilgisi olan birisi də: "Mən onu sənə bir göz qırpımında gətirərəm!"– dedi."**[3] İkincisi, birincisindən daha tezdir. Yəni, gözünü yumub açanadək o taxt sənin yanında olacaq. **"*Süleyman o* taxtı yanında hazır durmuş gördükdə"**[4] yəni həmin an. Alimlər deyirlər ki: "Kitabdan bilgisi olan kimsə Allaha, Onun əzəmətli adı ilə dua edən kimi, mələklər o taxtı həmin an Yəməndən Şama gətirdilər. Demək, mələklər cinlərdən daha qüvvətlidirlər.

Odur ki, eyni anda şərqdə və qərbdə ölən insanların canlarını sadəcə bir mələyin almasına təəccüb etmə. Necə ki, uca Allah buyurur: **"De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!"**[5] Uca Allah bu mələyə: "Əcəli çatmış hər kəsin canını al"– deyə əmr etdikdə, o: "Yox!"– deyə bilərmi? Bu, mümkün

---

[1] əl-Ənam, 61.
[2] ən-Nəml, 38-39.
[3] ən-Nəml, 40.
[4] Əvvəlki mənbə.
[5] əs-Səcdə, 11.

deyil. Çünki mələklər Allahın onlara əmr etdiyi işlərdə Ona asilik etmirlər. Odur ki, uca Allah, qələmə: "Qiyamətə qədər olacaq hər şeyi yaz!"– deyə əmr etdikdə, – cansız olmağına rəğmən, o, bunların hamısını dərhal yazmışdır. Uca Allah əmr etdiyi zaman yalnız asi cinlər və asi insanlar itaət etmirlər. Mələklər isə Ona əsla asilik etmirlər. Artıq dörd mələk haqqında məlumat aldıq.

Beşincisi isə Cəhənnəm müvəkkili – onu mühafizə edən Malikdir. Uca Allah Quranda Cəhənnəm əhlinin ona belə xitab etdiyini zikr etmişdir: **"Onlar: "Ey Malik! Qoy Rəbbin canımızı alıb qurtarsın!"– deyə səslənəcək, o isə: "Siz *burada* əbədi qalacaqsınız!"– deyəcək."**[1] Yəni, onlar: "Rəbbin bizi öldürsün, bizi yox etsin və bizi düçar olduğumuz əzabdan qurtarsın"– deyəcək, o isə onlara: "Siz həmişəlik burada qalacaqsınız" – deyə cavab verəcək.

Altıncı mələk isə Cənnətin gözətçisidir. Bəzi rəvayətlərdə onun adının "Ridvan" olduğu xəbər verilir.[2] Malik, Cəhənnəm müvəkkili olduğu kimi, o da Cənnət müvəkkilidir.

Beləliklə, adı bizə məlum olan hər bir mələyə adı ilə birlikdə iman gətiririk, adı məlum olmayana isə ümumi şəkildə – onun bizə məlum olan əməlinə və vəsfinə, ümumiyyətlə, mələklərin ayələrdə və hədislərdə zikr edilən vəsflərinin hamısına iman gətiririk.

Bir məsələyə toxunaq. Yuxarıda qeyd etdik ki: "Mələklər; qeyb aləmindəki məxluqlardır." Elə isə, onlar gözə görünə bilərlərmi? Cavab

---

[1] əz-Zuxruf, 77.

[2] Şeyx İbn Useymin ﷺ demişdir: "Cənnətin müvəkkili – "Ridvan" deyilən mələyə gəlincə, onun adının "Ridvan" olmasına dair tutarlı heç bir dəlil yoxdur." (Məcmuə Fətavə, 3/119); Həmçinin, böyük alimlər heyəti, bu xüsusda verilmiş suala belə cavab vermişlər: "Cənnət gözətçisi, alimlər arasında "Ridvan" adı ilə tanınır. Bəzi rəvayətlərdə bu ad zikr edilsə də, o rəvayətlərin səhih olduğu isbat edilməmişdir" (Fətavə əl-Ləcnə əd-Daimə, 28/53). Bu rəvayətlərin zəif olduğunu isə şeyx Albani və digərləri isbat etmişlər. Bax: Silsilə əl-Əhadis əd-Daifə, 12/791-792; 5870-ci hədis. Səhih rəvayətlərə görə isə bu mələyə "Xazinul-Cənnə/Cənnət gözətçisi"– deyilir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Mən Qiyamət günü Cənnət qapısının yanına gəlib onun açılmasını xahiş edəcəm. Bu vaxt gözətçi mələk: "Sən kimsən?"– deyə soruşacaq. Mən: "Muhəmmədəm!"– deyə cavab verəcəm. Onda o deyəcək: "Mənə, *bu qapıları* səndən əvvəl heç kəsə açmamaq – yalnız sənin üçün açmaq əmr edilmişdir"** (Səhih Muslim, 197).

belədir ki: "Bəli, gözə görünə bilərlər. Bəzən xəlq edilmiş surətlərində, bəzən də Allahın dilədiyi bir məxluq surətində görünə bilərlər. Məsələn, Rasulullah ﷺ, Cəbraili عليه السلام – Allahın onu yaratdığı surətdə, iki məqamda – yerdə və göydə görmüşdür. Yerdə: Məkkə yaxınlığında yerləşən Hira mağarasında ikən, göydə isə son həddəki Sidr ağacının yanında ikən görmüşdür. Bu xüsusda uca Allah belə buyurur: **"Onu bir daha** ***öz sürətində*** **enərkən gördü – son həddəki Sidr ağacının yanında."**[1]

Rəsulullah ﷺ Cəbraili عليه السلام gördükdə, o, altı yüz qanadı ilə üfüqü bağlamışdı. Yəni bu mələk öz qanadları ilə üfüqü tamamilə bağlamışdı. Hər bir qanadının nə boyda geniş olduğunu isə yalnız Allah bilir. Lakin bu qanadların üfüqü bağlaması, onların olduqca geniş olduğunu göstərir.

Rəsulullahın ﷺ, öz surətində gördüyü bu mələk, bəzən onun yanına insan surətində gələrdi. Ömərin رضي الله عنه, Cəbrailin عليه السلام gəlişi haqqında rəvayət etdiyi bu hədisdə olduğu kimi. Necə ki, zil qara saçlı, ağappaq paltarlı, üst-başında səfərdən bir əsər-əlamət olmayan və səhabələrdən heç kəsin tanımadığı bir insan surətində gəlmişdir. Uca Allah hər şeyə qadirdir. Allah onlara insan surətinə düşmək bacarığı vermişdir: ya öz istəkləri ilə, ya da Allahın əmri ilə insan surətində görsənirlər. Daha doğrusunu Allah bilir.

Bu, mələklərin – aleyhimussalətu vəssəlam! – halıdır. Onların barəsində Allahın Kitabında və Rəsulunun ﷺ sünnəsində ətraflı məlumatlar zikr edilmişdir. Biz, mələklərin qüvvətli və sərt olduqlarına da iman gətirməliyik. Uca Allah Bədr döyüşündə mələklərə belə buyurmuşdur: **"Mən sizinləyəm! İman gətirənləri gücləndirin. Mən kafirlərin qəlbinə qorxu salacağam. Onların boyunlarını vurun və barmaqlarının hamısını kəsin!"**[2] Beləcə, Bədr döyüşündə mələklər səhabələrlə birlikdə vuruşmuşdular. Həmin vaxt səhabələr, kafirin boynuna vurulan qılınc zərbəsindən yerə sərildiyini görsələr də, onun kim tərəfindən qətlə yetirildiyini bilmirdilər. Halbuki onları öldürən, mələklər idi. Çünki uca Allah onlara belə buyurmuşdu: **"Onların boyunlarını vurun və barmaqlarının hamısını kəsin! Bu, onların Allaha və Onun rəsuluna qar-**

---

[1] ən-Nəcm, 13-14.

[2] əl-Ənfal, 12.

**şı çıxmalarına görədir. Allaha və Onun rəsuluna qarşı çıxan kimsəyə Allah şiddətli əzab verər."**[1]

Bizim öhdəmizə düşən, bu mələklərə iman gətirməkdir; belə ki, adları bizə məlum olanlara şəxsən iman gətirməli, adlarını bilmədiklərimizə isə ümümi şəkildə, Quran və Sünnədə varid olduğu kimi, nə cür ibadət etdiklərinə və hansı vəzifələri yerinə yetirdiklərinə iman gətirməliyik. Onlara iman gətirmək, imanın altı əsasından biridir. Hər kim onları inkar etsə, yaxud onları yalançı hesab etsə, yaxud onların mövcud olmadığını desə və ya: "Mələklər xeyir güvvələri, şeytanlar isə şər qüvvələridir"– desə, küfr etmiş olar və dindən çıxar. Belə ki o, uca Allahı, Onun rəsulunu ﷺ və müsəlmanların icmasını təkzib etmiş olur.

Bəziləri də son dərəcədə azğınlıq edərək mələklərin varlığını inkar etmiş və demişlər: "Mələk deyilən bir məxluq yoxdur, bu, sadəcə xeyir qüvvələridir." Əgər onlar bu sözü nəyə isə əsaslanaraq yozurlarsa, o zaman onlara bu yozumun batil olduğunu, hətta təhrif sayıldığını bəyan etməliyik. Yox əgər yozmadan, həqiqi mənanı inkar edirlərsə, o zaman onlar kafir sayılırlar. Çünki onlar mələklərin varlığını isbat edən Quran, Sünnə və ümmətin yekdil rəyini təkzib etmiş olurlar. Belə ki, uca Allah, insanların öz hissiyat orqanları ilə hiss edə bilməyəcəkləri bir aləmi kamil şəkildə yaratmağa qadirdir. Məsələn, cinlər mövcuddur və onların mövcudluğuna heç bir şübhə yoxdur. Lakin buna rəğmən hissiyat orqanlarımız, zahirdəki şeyləri hiss etdiyi kimi onları hiss edə bilmir. Uca Allahın yaratdıqlarında xüsusiyyətlər vardır.

**3.** Rəsulullahın ﷺ: **"Kitablara"** sözü:

Bu, imanın üçüncü əsasıdır. Kitablar deyildikdə, uca Allahın Öz elçilərinə endirdiyi kitablar qəsd edilir. Hər bir elçinin kitabı olub. Bu xüsusda uca Allah belə buyurur: **"Kitabı və tərəzini gerçək həqiqət kimi nazil edən Allahdır."**[2] O, həmçinin buyurur: **"Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar."**[3] Lakin bu kitabların bir qismi bizə məlum, digər qismi isə məlum deyil.

---

[1] əl-Ənfal, 12.

[2] əş-Şura, 17.

[3] əl-Hədid, 25.

Məsələn, uca Allahın Musaya عليه السلام göndərdiyi Tövrat və İsaya عليه السلام göndərdiyi İncil bizə məlumdur. Həmçinin, İbrahimin عليه السلام səhifələri, Davudun عليه السلام Zəburu və Tövratdan hesab edilməsə də, Musanın səhifləri Quranda zikr edilmişdir. Allahın Quranda adlarını zikr etdiyi kitablara, adları ilə şəxsən iman gətirməli, adlarını zikr etmədiyi kitablar isə ümumi şəkildə iman gətirməliyik. Yəni uca Allahın Musaya عليه السلام Tövrat adlanan bir kitab, İsaya عليه السلام İncil adlanan bir kitab, Davuda عليه السلام Zəbur adlanan bir kitab və İbrahimə عليه السلام də səhifələr nazil etdiyinə iman gətirməliyik.

Bu heç də o demək deyil ki, bu günkü gün xristianların əllərindəki İncil, İsaya عليه السلام nazil edilmiş həmin İncildir. Belə ki, hazırkı gündə onların əllərində olan İncillər təhrif edilmiş, dəyişdirilmiş və *ayələri* başqa sözlərlə əvəz edilmiş kitablardır. Xristian keşişləri bu kitabı oyuncağa çevirib ona bəzi əlavələr etmiş, bəzi ayələri silmiş və onu təhrif etmişlər. Elə bu səbəbdən də, hazırki İncil, dörd və ya beş növdür. Halbuki uca Allahın İsaya عليه السلام nazil etdiyi kitab, bir kitab idi.

Uca Allah, yalnız Muhəmmədə ﷺ nazil etdiyi Qurani kərimi qoruyacağını Öz öhdəsinə götürmüşdür. Belə ki, ondan sonra insanlara nəyin doğru, nəyin də təhrif olunduğunu bəyan edəcək heç bir peyğəmbər gəlməyəcək. Digər səmavi kitablar isə təhrif edilmişdir. Çünki onlardan sonra insanlara o kitablarda nəyin haqq olduğunu, nəyin isə təhrif edildiyini bəyan edəcək peyğəmbərlər gələcəkdi. Uca Allahın bu kitablardan yalnız Quranı qorumağı Öz öhdəsinə götürməsinin əsas sirri də elə budur. Bu ona görədir ki, insanlar əllərindəki kitabların təhrif olduğunu gördükdə, peyğəmbərlərə ehtiyacları olduğunu bilsinlər və peyğəmbərlər də gəlib onlara haqqı bəyan etsinlər.

Xülasə budur ki, müəyyən bir peyğəmbərə nazil edilmiş bir kitabın Allah tərəfindən haqq olaraq nazil edildiyinə iman gətirməliyik. Lakin bu günkü gün onların davamçılarının əllərində olan kitabların həmin kitablar olmadığına, onların təhrif edildiyinə, dəyişdirildiyinə və ayələrinin başqa sözlərlə əvəz olunduğuna etiqad etməliyik.

Kitablara imanın bir qismi də, onun içindəki xəbərlərin hamısının haqq olduğuna iman gətirməyimizdir. Necə ki, Qurandakı xəbərlərin hamısının haqq olduğuna iman gətirmişik. Çünki peyğəmbərlərə nazil

olmuş kitabların içindəki xəbərlərin hamısı Allahdandır. Allahdan gələn hər bir xəbər isə haqqdır.

Həmçinin, iman gətirməliyik ki, səmavi kitablarda buyurulan hökmlərin hamısı Allahın buyurduğu doğru *hökmlərdir* və onlar haqdır. Yəni təhrif edilməmiş və dəyişdirilməmiş hər bir hökm haqqdır. Çünki Allahın Öz qullarına buyurduğu hökmlərin hamısı haqqdır. Lakin o kitablar bu günə qədər təhrif edilməmiş halda qalıbmı? Bu sualın cavabını bir qədər əvvəl bəyan etdik və dedik ki, o kitablar mötəbər deyillər, əksinə, ayələri təhrif edilmiş, dəyişdirilmiş və başqa sözlərlə əvəz edilmişdir.

Sual verilə bilər ki, biz əvvəlki səmavi kitablarda buyurulan hökmləri yerinə yetirməliyikmi? Sualın cavabı belədir ki, uca Allahın bu kitablardan bizə xəbər verdiyi və şəriətimizə müxalif olmayan hökmləri yerinə yetiririk. Məsələn, uca Allah Tövratda belə hökm verdiyini buyurur: **“Biz *Tövratda* onlara yazıb buyurduq ki, cana can, gözə göz, buruna burun, qulağa qulaq, dişə diş, yaralara *da misli ilə* qisas alınmalıdır. Kim bu *qisası* bağışlayarsa, bu onun üçün kəffarə olar. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar zalımdırlar.”**[1] Bu, Tövratda zikr edilən bir ayədir və uca Allah Quranda onu bizə xəbər vermişdir. Fəqət Allah bunu bizə həm ibrət almağımız, həm də bu hökmə əməl etməyimiz üçün bəyan etmişdır. Bu xüsusda uca Allah belə buyurur: **“*Peyğəmbərlərin* hekayələrində ağıl sahibləri üçün ibrətlər vardır.”**[2] O, həmçinin buyurur: **“Bunlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl.”**[3] Deməк, Allahın bizə əvvəlki səmavi kitablardan bəyan etdiyi və xəbər verdiyi hökmləri, bizim üçün də şəri hökm sayılır. Çünki Allah onları bizə əbəs yerə bəyan etməmişdir. Və əgər şəriətimizdə buna müxalif bir hökm varsa, bu hökm əvvəlkini ləğv etmiş olur. Necə ki, bizim şəriətimizdəki bəzi hökmlər, sonradan nazil olmuş ayələrlə ləğv edilmişdir. Eləcə də, əvvəlki səmavi kitablarda nazil olmuş bir çox hökmlər, bizim şəriətimizlə ləğv edilmişdir. Onların kitablarında yazılanlara gəlincə, biz bunları nə doğru sa-

---

[1] əl-Maidə, 45.

[2] Yusuf, 111.

[3] əl-Ənam, 90.

yır, nə də təkzib edirik. Çünki Rəsulullah ﷺ bizə, İsrail oğullarından rəvayət edilmiş xəbərləri nə doğru saymağı, nə də təkzib etməyi əmr etmişdir.[1] Əks halda bilməyib, batili doğru saya bilər və ya haqqı təkzib edə bilərik. Odur ki, biz: "Allaha, üstəlik, həm bizə nazil edilənə, həm də sizə nazil edilənlərə iman gətiririk"– deyir və şəriətimizdə onların rəvayət etdiklərini təsdiqləyən və ya təkzib edən hökmlər tapmadıqca, onları nə doğru sayır, nə də təkzib edirik. Şəriətimizdə onların söylədiklərini təsdiqləyən və ya təkzib edən hökmlər tapdıqda, onlara uyğun hərəkət edir, şəriətimizin təsdiqlədiyini təsdiqləyir, təkzib etdiyini də təkzib edirik.

Kitab əhlinin mənbələrində, Davud عليه السلام haqqında varid olmuş hadisəni misal çəkmək olar. Guya Davudun عليه السلام öz əsgərlərindən birinin xanımına gözü düşmüş və ona sahib olmaq istəmişdir. Elə buna görə də, həmin əsgəri döyüşə göndərmişdir ki, o, öldükdən sonra onun xanımını alsın. Nəhayət, Davud عليه السلام o əsgəri döyüşə göndərdikdən sonra, uca Allah onun yanına, bir-birilə çəkişən iki mələk göndərmiş və o iddiaçılardan biri belə demişdir: **"Bu mənim qardaşımdır. Onun doxsan doqquz qoyunu, mənim isə bircə qoyunum var.** *Bununla belə:* **"Onu mənə ver!"– dedi və mübahisədə mənə üstün gəldi."** *Davud* **dedi: "O sənin qoyununu öz qoyunlarına qatmaq istəməklə, sənə qarşı haqsızlıq etmişdir. Həqiqətən, şəriklərin çoxu bir-birinin haqqını tapdalayar. Yalnız iman gətirib yaxşı işlər görənlərdən başqa. Onlar isə çox azdırlar!"** *Bunları dedikdən sonra,* **Davud Bizim onu sınağa çəkdiyimizi yəqinləşdirərək, Rəbbindən özünün bağışlanmasını dilədi və səcdəyə qapanıb tövbə etdi."**[2] Kitab əhli deyir ki, Davudun عليه السلام doqquz xanımı olduğu halda, o əsgərin xanımını da əlindən alıb, xanımlarının sayını yüzə çatdırmaq istədiyinə görə, uca Allah ona belə dərs vermişdir. Bu hekayə açıq-aydın yalandır.[3] Çünki Davud عليه السلام peyğəmbərdir və onun belə bir hiyləyə əl atması mümkün deyil. Və əgər ağlı

---

[1] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"İsrail oğulları adından hekayətlər danışın və bilin ki, bunda da heç bir qəbahət yoxdur"** (Səhih əl-Buxari, 3461).

[2] Sad, 23-24.

[3] İbn Kəsir رحمه الله öz "Təfsir"ində bu ayələri izah edərkən, bu hekayənin mötəbər olmadığını demişdir.

başında olan sıravi bir insanın bunu etməsi ağlasığmazdırsa, bir peyğəmbərin belə bir şey etməsi necə mümkün ola bilər?! Odur ki, biz, İsrail oğullarından rəvayət edilmiş bu cür hekayələri yalan sayırıq. Çünki bu hərəkət nəinki bir peyğəmbərə, heç ağlı başında olan sıravi bir insana belə yaraşmır.

Xülasə budur ki, əvvəlki ümmətlərə nazil olmuş kitablarda varid olanlar iki əsas qismə bölünür:

**Birincisi:** Uca Allahın Quranda və ya Rəsulullahın ﷺ səhih hədislərdə verdiyi xəbərlərdir ki, bunlar məqbul və səhih sayılır.

**İkincisi:** Kitab əhlinin nəql etdiyi xəbərlərdir ki, bunlar da üç haldan birində ola bilər:

Birinci hal; şəriətimizin təkzib etdiyi xəbərlərdir ki, bunları təkzib etmək və rədd etmək bizə vacibdir.

İkinci hal; şəriətimizin təsdiqlədiyi xəbərlərdir ki, şəriətimiz bunları təsdiqlədiyinə görə, biz də onları təsdiqləməli və qəbul etməliyik.

Üçüncü hal; nə birinci, nə də ikinci hala aid olan xəbərlərdir ki, bunlar haqqında heç bir hökm verə bilmərik. Çünki kitab əhlinə etibar edilmir. Belə ki, onların nəql etdiyi xəbərlərdə yalanlar, təhriflər, əlavələr və nöqsanlar olur.

**4.** Rəsulullahın ﷺ: **"Elçilərinə"** sözü:

Bu, imanın dördüncü əsasıdır. Elçilər عليهم السلام, uca Allahın bəşəriyyətə göndərdiyi və şəriət qanunlarını onlara təbliğ etmək üçün Özü ilə qulları arasında vasitəçi seçdiyi insanlardır. Onlar bir atadan və bir anadan doğulmuş insanlardırlar. Yalnız İsadan عليه السلام başqa. Belə ki, o, dünyaya atasız olaraq gəlmişdir.

Uca Allah bu elçiləri عليهم السلام bəşəriyyətə həm rəhmət, həm də onların əleyhinə bir hüccət olaraq göndərmişdir. Bu xüsusda uca Allah belə buyurur: **"Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy etdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy etdik. Davuda da Zəburu verdik. Peyğəmbərlərin** ***bir qisimi*** **barəsində daha öncə sənə xəbər verdik, digərləri barəsində isə sənə** ***heç nə*** **söyləmədik. Və Allah Musa ilə sözlə** (vasitəsiz) **danışdı.** ***Biz*** **müjdə**

**verən və qorxudan peyğəmbərlər *göndərdik* ki, insanların peyğəmbərdən sonra Allaha qarşı heç bir bəhanəsi olmasın."[1]**

Allahın göndərdiyi elçilərin عليهم السلام sayı çoxdur. Onların birincisi Nuh عليه السلام, sonuncusu isə Muhəmməddir ﷺ. Buna dəlil, uca Allahın bu sözüdür: **"Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy etdik."[2]** Buxari və Muslimin "Səhih"lərində, habelə başqa mənbələrdə rəvayət edilmiş şəfaət barəsindəki hədisdə Peyğəmbər ﷺ demişdir: **"Qiyamət günü insanlar Nuhun عليه السلام yanına gəlib deyəcəklər: "Ey Nuh! Sən yer üzünə göndərilmiş ilk elçisən..."[3]**

Muhəmmədin ﷺ son peyğəmbər olduğuna dəlil isə uca Allahın bu ayəsidir: **"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyil. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur."[4]** Həmçinin, səhih hədisdə Rəsulullah ﷺ belə demişdir: **"Mən peyğəmbərlərin sonuncusuyam."[5]** Biz iman gətirməliyik ki, Allahın göndərdiyi elçilərin عليهم السلام hamısı özlərinə tapşırılmış vəzifəni yerinə yetirmək və risaləti insanlara çatdırmaq xüsusunda Allaha sadiq olmuşlar.

Həmçinin, adları bizə məlum olan peyğəmbərlərə adları ilə iman gətirməli, adları məlum olmayanlara isə ümumi şəkildə iman gətirməliyik.

Habelə, iman gətirməliyik ki, uca Allah hər ümmətə hüccət qaldırmaq üçün (Qiyamət günü bəhanələri olmasın deyə), onlara rəsul göndərmişdir. Bu xüsusda uca Allah belə buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"– *deyə*, elçi göndərdik!"[6]** O, həmçinin buyurur: **"Elə bir ümmət yoxdur ki, ona xəbərdar edən *bir peyğəmbər* gəlmiş olmasın."[7]**

Həmçinin, peyğəmbərlərin عليهم السلام xəbər verdiyi hər bir səhih rəvayəti təsdiqləməli və onun haqq olduğunu qəbul etməliyik.

Həmçinin, peyğəmbərlərin عليهم السلام sonuncusu Muhəmmədə ﷺ tabe olmalıyıq. Çünki Allah Özü bunu bizə vacib buyurmuşdur. Bu xüsusda

---

[1] ən-Nisa, 163-165.
[2] ən-Nisa, 163.
[3] Səhih əl-Buxari, 6565; Səhih Muslim, 194.
[4] əl-Əhzab, 40.
[5] Səhih əl-Buxari, 3535; Səhih Muslim, 2287.
[6] ən-Nəhl, 36.
[7] Fatir, 24.

uca Allah belə buyurur: **"De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm. Göylərin və yerin hökmranlığı Ona məxsusdur, Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur. O həm dirildir, həm də öldürür. Elə isə Allaha və Onun Elçisinə – yazıb-oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz."**[1] Beləcə uca Allah bizə ona tabe olmağı əmr edir. O, həmçinin buyurur: **"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da, sizi sevsin və günahlarınızı bağışlasın."**[2] Digər elçilərə gəlincə, yalnız şəriətimizin bizə əmr etdiyi işlərdə onlara tabe ola bilərik. Məsələn, Peyğəmbər ﷺ buyurur ki: **"Allahın ən çox xoşuna gələn namaz Davudun qıldığı namaz, ən çox xoşuna gələn oruc isə Davudun tutduğu orucdur. Davud gecənin yarısını yatar, sonra qalxıb onun üçdə birini namaz qılar, sonra da yerdə qalan altıda birini yatardı. Orucu da günaşırı tutardı."**[3] Peyğəmbər ﷺ Davudun عليه السلام ibadəti, gecə qıldığı təhəccüd namazı və tutduğu oruc haqqında xəbər vermişdir ki, bu işlərdə ona tabe olaq.

Şəriətimizin bizə əmr etmədiyi işlərdə peyğəmbərlərə tabe olub-olmamaq xüsusunda alimlər ixtilaf etmişlər ki: əvvəlki ümmətlərin şəriətlərində buyurulmuş hər hansı bir hökm, şəriətimizə zidd olmadığı təqdirdə, ona tabe olmalıyıq, yoxsa, şəriətimiz həmin hökmə tabe olmağı bizə əmr etməyincə, biz ona tabe olmamalıyıq? Doğru rəy budur ki, əvvəlki ümmətlərin şəriətlərində buyurulmuş hər hansı bir hökm, şəriətimizə zidd olmadığı təqdirdə, ona tabe ola bilərik. Çünki uca Allah, peyğəmbərləri və elçiləri عليهم السلام zikr edərkən, Peyğəmbərinə ﷺ belə buyurmuşdur: **"Bunlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl."**[4] Beləcə, uca Allah Öz peyğəmbəri Muhəmmədə ﷺ özündən əvvəlki peyğəmbərlərin عليهم السلام yoluna yönəlməyi əmr etmişdir. O, həmçinin buyurur: **"*Peyğəmbərlərin* hekayələrində ağıl sahibləri üçün ibrətlər vardır."**[5] Bu, bizim ibrət almağımız

---

[1] əl-Əraf, 158.
[2] Ali-İmran, 31.
[3] Səhih əl-Buxari, 1131; Səhih Muslim, 1159.
[4] əl-Ənam, 90.
[5] Yusuf, 111.

üçün, uca Allahın "Yusuf" surəsində bizə xəbər verdiyi Yusufun ﷺ uzun hekayəsinin son ayəsidir. Elə bu səbəbdən də, alimlər "Yusuf" surəsindən, məhkəmə qərarlarına və başqa məsələlərə aid şəriət hökmləri ilə bağlı bir çox nəticələr çıxartmışlar. Bunlardan biri, hökm verərkən qərinələrlə[1] əməl etməkdir. Belə ki, uca Allah buyurur: ***"Qadının* ailəsindən olan bir şahid belə şahidlik etdi: "Əgər onun köynəyi öndən cırılıbsa, qadın doğru deyir, o isə yalançılardandır. Yox əgər onun köynəyi arxadan cırılıbsa, qadın yalan deyir, o isə doğru danışanlardandır."**[2] Alimlər deyirlər ki, bu, bir qərinədir. Çünki əgər onun köynəyi öndən cırılmışdırsa, demək, o, qadına təcavüz etmək istəmiş, qadın da onun köynəyini öndən cırmışdır. Yox əgər köynəyi arxadan cırılmışdırsa, demək, qadın onu củnginə almaq istəmiş və o, qadının əlindən qaçarkən, qadın onun köynəyini arxadan tutub cırmışdır. Bu, bir qərinədir və buna istinad edilərək hökm verilmişdir. Sünnədə qərinə ilə əməl etməyə dəlalət edən hədislər olsa da, alimlər Qurandakı bu dəlilə də istinad etmişlər. Qeyd etdiyimiz kimi, ən doğru rəy budur ki, əvvəlki ümmətlərin şəriətlərində buyurulmuş hər hansı bir hökm, şəriətimizə zidd olmadığı təqdirdə, ona tabe ola bilərik.

Bizim öhdəmizə düşən vaciblərdən biri də, elçiləri ﷺ sevmək, onlara layiqincə ehtiram göstərmək və şahidlik etməkdir ki, onlar xeyirxah və əməlisaleh insanların ən üstün olanlarıdır. Bu xüsusda uca Allah belə buyurur: **"Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar. Onlar necə də gözəl dostlardır!"**[3]

**5. İmanın beşinci əsasına gəlincə, bu, "Axirət gününə iman gətirməkdir":**

**"Axirət günü"** deyildikdə, Qiyamət günü nəzərdə tutulur. Qiyamək gününün "Axirət günü" adlandırılmasının səbəbi budur ki, ondan sonra başqa bir gün olmayacaq. Belə ki, insanın dörd keçid mərhələsi

---

[1] Qərinə: dəlili gücləndirən əlamətlər.

[2] Yusuf, 26-27.

[3] ən-Nisa, 69.

var: ana bətnindəki mərhələ, dünyadakı mərhələ, bərzəx[1] aləmindəki mərhələ və bir də Qiyamət günündəki mərhələ. Bu da son mərhələdir. Elə buna görə bu son mərhələ, "Axirət günü/son gün" adlandırılmışdır. Bu son mərhələdə insanlar ya Cənnətə məskunlaşacaq, – Allah bizi onlardan etsin! – ya da Cəhənnəmə. Budur, son qayıdış yeri.

Şeyxulislam İbn Teymiyyə ﵀ əhli-sünnə vəl-cəmaənin əqidəsi haqqında müxtəsər şəkildə yazdığı, yığcam, əhatəli və çox yorucu olmayan, ən gözəl kitablarından birində – "əl-Əqidə əl-Vasitiyyə" kitabında deyir ki: "Axirət gününə iman gətirmək deyəndə, Peyğəmbərin ﷺ, insanın ölümündən sonra nələr baş verdiyi haqqında söylədiyi hər bir şeyə iman gətirmək qəsd edilir."[2]

Axirət gününə imanın bir qismi də, qəbirdəki imtahandır. Belə ki, meyit dəfn edildikdə, iki mələk gəlib onu otuzdurur və ona üç sual verir: "Rəbbin kimdir? Dinin nədir? Peyğəmbərin kimdir?" Allah iman gətirənləri möhkəm sözlə sabit saxlayır,[3] – Allah məni də, sizi də onlardan etsin! Mömin adam: "Rəbbim Allahdır, dinim İslamdır, peyğəmbərim Muhəmməddir ﷺ"– deyə cavab verir. Bu vaxt göydən belə bir səda gəlir: "Mənim qulum doğru danışır. Cənnət nemətlərini onun önünə sərin, Cənnət geyimlərindən ona geyindirin və onun üçün Cənnətdən bir qapı açın!" Beləliklə, qəbri gözlərinin gördüyü son məsafəyə qədər genişlənir, Cənnətin gözəl iyi və havası ona gəlir və orada ona çoxlu nemətlər bəxş edilir.

Münafiq və ya kafir isə: "Həə... həə... Bilmirəm. İnsanlar nə isə deyirdilər, mən də onların dediyini deyirdim"– deyə cavab verəcək. Çünki iman onun qəlbinə çatmamışdır, *o həmin sözləri* sadəcə dili ilə söylə-

---

[1] Bərzəx: dünya ilə axirət arasındakı aləmdir. Yəni insanın ölümündən sonra Qiyamətədək qalacağı aləm. Bu xüsusda Usa Allah belə buyurur: "**Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri *indi* edəm." Xeyr! Onun bu dedikləri ancaq *boş* bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bərzəx həyatı vardır.**" (əl-Muminun, 99-100).

[2] əl-Əqidə əl-Vasitiyyə, səh. 10.

[3] Bu xüsusda uca Allah belə buyurur: "**Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər.**" (İbrahim, 27).

mişdir. O, bunu eşitmiş, lakin onun mənasını anlamamışdır. Onun qəbri genişlənməz.[1] Qəbirdəki sorğu-sual, olduqca böyük bir imtahandır.

---

[1] Bu hədisin tam variantı belədir: Bəra ibn Azib ﷺ rəvayət edir ki, biz Peyğəmbər ﷺ ilə birgə ənsardan olan bir kişinin cənazəsini dəfn edərkən Rəsulullah ﷺ qəbrin yanında oturdu, biz də sakitcə onun ətrafında oturduq. O, əlindəki çubuğu yerə vururdu. Sonra başını qaldırıb buyurdu: "Qəbir əzabından Allaha sığının!" O bunu üç dəfə təkrar etdikdən sonra dedi: "Mömin bəndə dünyadan köçüb axirətə qovuşduqda, göydən onun yanına üzləri günəş kimi parlaq mələklər enir. Onlar özləri ilə Cənnətdən kəfən və ətir gətirir, *onun* gözünün gördüyü son məsafədə oturub gözləyirlər. Sonra ölüm mələyi gəlib onun başının üstündə oturub deyir: "Ey gözəl ruh! Allahın mərhəmətinə və xeyir-duasına qovuşmaq üçün çıx *oradan*!" Nəhayət, mömin bəndənin ruhu bədənindən, su damcısı qabın ağzından axıb töküldüyü kimi çıxır. Ölüm mələyi ruhu götürdükdən sonra onu bir göz qırpımında, *oturub gözləyən* mələklərə təhvil verir, onlar da onu kəfənə büküb ətirləyirlər. Bundan sonra ondan, yer üzündə mövcud olan ən gözəl ətirin qoxusuna bənzər gözəl bir qoxu gəlir. Sonra mələklər onu götürüb göyə qaldırırlar. Göyə qalxarkən mələklərdən ibarət hansı toplumun yanından keçirlərsə, onlar: "Görəsən bu gözəl ruh kimin ruhudur?"– deyə soruşurlar. Onlar: "Bu, filankəsin oğlu filankəsdir"– deyə bu bəndəni, *camaatın* onu həyatda ikən çağırdığı ən gözəl adla çağırırlar. Nəhayət, onlar birinci göyə gəlib yetişdikdə, göy qapılarının açılmasını xahiş edir və onun qapıları taybatay açılır. Hər bir göyün mələkləri o ruhu növbəti göyə qədər beləcə yola salır. Nəhayət, yeddinci göyə gəlib çatdıqda, qüdrətli və əzəmətli Allah buyurur: "Mənim qulum barədə olan qeydləri İlliyyuna yazın, sonra da onu qaytarın yerə. Çünki Mən söz vermişəm ki, onları torpaqdan yaratdım, öləndən sonra ora qaytaracaq və *Qiyamət günü* bir daha oradan *dirildib* çıxardacağam." Mələklər onu bədəninə qaytardıqdan sonra iki mələk gəlib onu otuzdurur və: "Rəbbin kimdir?"– deyə soruşurlar. O: "Rəbbim Allahdır!"– deyə cavab verir. Onlar: "Dinin nədir?"– deyə soruşurlar. O: "Dinim İslamdır!"– deyə cavab verir. Onlar: "Sizə göndərilmiş o kişi kim idi?"– deyə soruşurlar. O: "Bu, Allahın elçisi ﷺ idi!"– deyə cavab verir. Onlar: "Həyatda ikən sən nə öyrəndin?"– deyə soruşurlar. O: "Mən Allahın Kitabını oxuyub ona iman gətirdim və ona sadiq oldum"– deyə cavab verir. Bu vaxt göydən belə bir səda gəlir: "Mənim qulum doğru danışır. Cənnət nemətlərini onun önünə sərin və onun üçün Cənnətdən bir qapı açın!" Beləliklə, Cənnətin gözəl iyi və havası ona gəlir, qəbri də gözlərinin gördüyü son məsafəyə qədər genişlənir. Sonra gözəl görkəmli, əynində yaraşıqlı paltarı olan və üst-başından ətir iyi gələn bir kişi onun yanına gəlib deyir: "Səni sevindirəcək bir xəbərə sevin! Bu, sənə vəd olunan gündür!" Mömin: "Sən kimsən? Sənin üzündən xeyirxahlıq yağır!"– deyə soruşur. O da: "Mən sənin yaxşı əməlinəm!"– deyə cavab verir. Onda mömin dua edib deyir: "Allahım! Qoy Qiyamət günü tez gəlsin ki, mən öz ailəmə qayıdıb var-dövlətimə sahib olum."

Odur ki, Peyğəmbər ﷺ bizə hər namazda: **"Allahım, Cəhənnəm əzabından və qəbir əzabından Sənə sığınıram!"**[1]– deyərək Allaha sığınmağı əmr etmişdir.

---

Kafir bəndə dünyadan köçüb axirətə qovuşduqda göydən onun yanına zəhmli və qara simalı mələklər enir. Onlar özləri ilə Cəhənnəmdən giş (cod parça) gətirir və gözünün gördüyü son məsafədə oturub gözləyirlər. Sonra ölüm mələyi gəlib onun başının üstündə oturub deyir: "Ey yaramaz ruh! Allahın qəzəbi və qeyzinə düçar olmaq üçün çıx *oradan*!" Nəhayət onun ruhu bədənindən, tikanlı məftil yaş yunun arasından keçdiyi kimi çıxır. Ölüm mələyi ruhu götürdükdən sonra onu bir göz qırpımında, *oturub gözləyən* mələklərə təhvil verir, onlar da onu gişə bükürlər. Bundan sonra ondan, yer üzündə mövcud olan ən pis iyə bənzər bir iy gəlir. Sonra mələklər onu götürüb göyə qaldırırlar. Göyə qalxarkən mələklərdən ibarət hansı toplumun yanından keçirlərsə, onlar: "Görəsən bu iyrənc ruh kimin ruhudur?"– deyə soruşurlar. Onlar: "Bu, filankəsin oğlu filankəsdir"– deyə bu bəndəni, *camaatın* onu həyatda ikən çağırdığı ən pis adla çağırırlar. Nəhayət, onlar birinci göyə gəlib yetişdikdə göy qapılarının açılmasını xahiş edir, lakin onun qapıları açılmır.

Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "Şübhəsiz ki, ayələrimizi yalan sayanlara və onlara təkəbbürlüklə yanaşanlara göyün qapıları açılmayacaq və dəvə iynənin gözündən keçməyincə onlar Cənnətə girməyəcəklər" (əl-Əraf, 40).

Sonra o *rəvayətinə davam edib* dedi: "*Allah buyurur:* "Mənim qulum barədə olan qeydləri yerin alt təbəqəsində yerləşən Siccinə yazın. Çünki Mən söz vermişəm ki, onları torpaqdan yaradıb, öləndən sonra ora qaytaracaq və *Qiyamət günü* bir daha oradan *dirildib* çıxardacağam". Mələklər onun ruhunu göydən aşağı atırlar.

Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "Kim Allaha şərik qoşsa, sanki o, göydən yerə düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar" (əl-Həcc, 31).

Sonra o *rəvayətinə davam edib* dedi: "Onun ruhu bədəninə qayıtdıqdan sonra iki mələk gəlib onu otuzdurur və: "Rəbbin kimdir?"– deyə soruşurlar. O mızıldanıb deyir: "Həə, həə. Bilmirəm!" Onlar: "Sizə göndərilmiş o kişi kim idi?"– deyə soruşurlar. O yenə mızıldanıb deyir: "Həə, həə. Bilmirəm!" Bu vaxt göydən belə bir səda gəlir: "O yalan danışır. Onun yolunu alovlandırın və onun üçün Cəhənnəmdən bir qapı açın." Beləliklə, Cəhənnəm atəşi və alovlu külək ona dəyir, qəbri də o qədər sıxılır ki, qabırğaları bir-birinə keçir. Sonra eybəcər sifətli, əynində nimdaş paltarı olan və üst-başından pis qoxu gələn bir kişi onun yanına gəlib deyir: "Mən səni kədərli bir xəbərlə müjdələyirəm. Bu, sənə vəd olunan gündür!" Kafir: "Sən kimsən? Sənin üzündən şər yağır!"– deyə soruşur. O da: "Mən sənin yaramaz əməllərinəm!"– deyə cavab verir. Onda kafir yalvarıb deyir: "Allahım! Qoyma Qiyamət qopsun" (Sunən Əbu Davud, 4753; Səhih əl-Cami, 1676).

[1] Səhih əl-Buxari, 832; Səhih Muslim, 589.

Axirət gününə imanın bir qismi də, qəbirdə nemət veriləcəyinə və qəbir əzabına iman gətirməyimizdir. Qəbirdəki nemətlər, ona haqqı çatan möminlər, oradakı əzab isə ona haqqı çatan kimsələr üçündür. Bu xüsusda Quran və Sünnədə kifayət qədər dəlillər varid olmuş, habelə, əhli-sünnə vəl-cəmaə alimləri bunun üzərində ittifaq etmişlər.

Quranda uca Allah belə buyurur: **"Allah müttəqiləri belə mükafatlandırır. O kəslər ki, tər-təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!"**[1] Yəni, ölüm anında. Həmçinin, "əl-Vaqiə" surəsinin axırında uca Allah belə buyurur: **"Amma əgər o, *Allaha* yaxın olanlardandırsa, onda o, rahatlığa, gözəl ruziyə və Nəim bağına yetişər."**[2] Burada da söhbət insanın ölüm anındaki halından gedir. Əgər ölən insan, Allaha yaxın olanlardandırsa, həmin gün onu rahatlıq, gözəl ruzi və Nəim cənnəti gözləyir.

Qəbir əzabına gəlincə, uca Allahın bu ayəsinə diqqət edin: **"Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb onlara: "Canınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaqsınız!"– *dediklərini* bircə görəydin."**[3] Burada kafirlərin ölüm anındaki halı barədə xəbər verilir. Onlar əzabla müjdələndiklərinə görə, sanki canlarını vermək istəmirlər. Ayədə "**bu gün**" deyilir, yəni öldükləri gün canları alındıqları zaman.

Uca Allah Firon nəsli haqqında belə buyurur: **"Onları səhər-axşam oda salırlar."** Bu, onların Qiyamətdən əvvəlki (bərzəx aləmindəki) halıdır. Sonra uca Allah davam edib buyurur: **"*Qiyamət* saatı gələcəyi gün isə; Firon nəslini ən şiddətli əzaba salın!"**[4]

Lakin bilməliyik ki, qəbirdə verilən nemətlər və əzab, bizim gözlə görə bilmədiyimiz qeyb aləmidir. Çünki belə olmasaydı, heç birimiz ölümüzü dəfn etməzdik. Belə ki, insan, ölüsünü, öz qulağı ilə eşitdiyi əzabın olduğu yerə gömməz, bundan qorxar. Çünki kafir və ya müna-

---

[1] ən-Nəhl, 31-32.

[2] əl-Vaqiə, 88-89.

[3] əl-Ənam, 93.

[4] Ğafir, 46.

fiq, verilən suala cavab verə bilmədikdə, mələklər onu dəmir çəkiclə vurur və o elə qışqırır ki, insanlar və cinlərdən başqa hər şey onun səsini eşidir.[1] Rəsulullah ﷺ deyir ki: **"Əgər insan o qışqırığı eşitsəydi, bayılardı."[2]** Başqa bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Əgər ölülərinizi dəfn etməməyinizə səbəb olacaq olmasaydı, Allaha dua edərdim ki, sizə qəbir əzabını eşitdirsin."[3]** Lakin qəbir əzabını hiss etməməyimiz, uca Allahın bizə olan lütfüdur. Biz qəbir əzabını görmədən və eşitmədən onun olduğuna inanırıq.

Hərgah qəbir əzabı, görünən və hiss edilən bir şey olsaydı, rüsvayçılıq olardı. Bir adamın qəbrinin yanından keçərkən ona əzab verildiyini və onun bağırdığını eşitsəydiniz, o, rüsvay olmuş olardı.

Həmçinin, əgər qəbir əzabı, görünən və hiss edilən bir şey olsaydı, ölünün ailəsi və yaxınları daim iztirab içində olar, yaxınlarının gecə-gündüz əzab çəkdiyinə görə, yata bilməzdilər. Lakin uca Allahın rəhmətindəndir ki, bunu bilinməyən qeyb aləmi etmişdir. Və əgər kimsə çıxıb desə ki, biz dəfndən iki gün sonra qəbri açsaq, ölünün bədənində əzabdan əsər-əlamət görməyəcəyik. Ona cavab olaraq deyərik ki, bu əzab qeyb aləmində baş verən bir şey olduğuna görə biz onu görmürük. Lakin uca Allah bəndələrindən dilədiyi kimsələrə bunu eşitdirir. Buxari və Muslimin "Səhih"lərində rəvayət edilmiş hədisdə İbn Abbas رضي الله عنهما demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ iki qəbrin yanından keçdi və belə buyurdu: **"Bunlar əzab çəkirlər, amma böyük bir şeyə görə əzab çəkmirlər.[4] Onlardan biri söz gəzdirərdi, digəri isə sidiyindən qorunmaz-**

---

[1] Peyğəmbər ﷺ demişdir: "Kafir və ya münafiqə gəlincə, *verilən suala o*: "Bilmirəm, mən insanların dediyini deyirdim" deyə cavab verdikdə, ona belə deyilir: "Sən *haqqı* başa düşməmisən və *Quran* oxumamısan!" Bundan sonra dəmir çəkiclə onun qulaqlarının arasına bir zərbə vurulur və o elə bağırır ki, cinlər və insanlar istisna olmaqla, yanındakıların hamısı onun səsini eşidir" (Səhih əl-Buxari, 1338).

[2] Səhih əl-Buxari, 1314.

[3] Səhih Muslim, 2867.

[4] İbn Həcər رحمه الله (Fəth əl-Bari, 1/78) demişdir: "Yəni söz gəzdirən və sidikdən qorunmayan həmin iki nəfərin iddiasına görə bunlar böyük bir şey deyil. Lakin şəriətə görə bu əməllərin hər ikisi böyük günahlardan sayılır. Bu fikir İbn Abbasdan رضي الله عنهما nəql edilmiş rəvayətdə öz təsdiqini tapmışdır. Həmin rəvayətdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bunlar əzab çəkirlər, amma böyük bir şeyə görə əzab çəkmirlər. Əslində isə bu böyük günahdır..." (Səhih əl-Buxari, 6055).

**dı."**[1] Beləcə, uca Allah Öz Peyğəmbərinə ﷺ o iki nəfərin qəbirdə əzab çəkdiyini bildirmişdir.

Xülasə budur ki, biz qəbir fitnəsinə, yəni iki mələyin ölüdən onun Rəbbi, dini və peyğəmbəri barədə soruşmasına, habelə, qəbirdə nemət və əzab verilməsinə iman gətirməliyik.

Axirət gününə imanın bir qismi də budur ki, adam həmin gün baş verəcək hadisələrə iman gətirməldir. Belə ki, ikinci dəfə sura üfürüldükdə, insanlar qəbirlərindən qalxıb, ayaqyalın, lüt-üryan və sünnət olunmamış halda, yanlarında heç bir əşya olmadan aləmlərin Rəbbinin hüzurunda duracaqlar. İnsanların hamısı, hətta peyğəmbərlər və rəsullar da bu halda diriləcəklər. Bu xüsusda uca Allah belə buyurur: ***"Məxluqatı* ilk dəfə yaratdığımız kimi yenə əvvəlki halına qaytaracağıq."**[2]

İnsan anasının bətnindən necə ayaqyalın, lüt-üryan, sünnət olunmamış halda və əlində də heç bir mal-dövlət olmadığı bir halda çıxırsa, Qiyamət günü də torpaqdan bu halda çıxacaq. Kişilər, qadınlar, uşaqlar, böyüklər, kafirlər, möminlər – insanların hamısı ayaqyalın, lüt-üryan, sünnət olunmamış halda və əllərində də heç bir mal-dövlət olmadıqları halda aləmlərin Rəbbinin hüzuruna toplanacaqlar. Kimsə kimsəyə baxmayacaq. Çünki onları elə bir dəhşət bürüyəcək ki, bir-birlərinə baxmağı onlara unutduracaq. Onların işi elə çətin olacaq ki, bir-birlərinə baxmaq onları heç maraqlandırmayacaq.

Qadınla kişi yan-yana olduqları halda, nə kişi qadına, nə də qadın kişiyə baxar. Bu xüsusda uca Allah belə buyurur: **"Qulaqbatırıcı bir səs gəldiyi zaman – o gün insan öz qardaşından, anasından, atasından, həyat yoldaşından və övladlarından qaçacaq! O gün onlardan hər birinin yetərincə işi olacaq."**[3]

Axirət gününə imanın bir qismi də, uca Allahın yer üzünü, bükülmüş dəri açılıb yerə sərildiyi kimi, açıb dümdüz edəcəyinə iman gətirməyimizdir. Çünki hazırkı gün üstündə durduğumuz yer kürə şəklindədir. Şimal və cənub tərəfdən bir az batıqlıq olsa da, yenə kürə şəklindədir. Buna, uca Allah bu ayələri dəlalət edir: **"Göy yarılacağı və Rəb-**

---

[1] Səhih əl-Buxari, 216; Səhih Muslim, 292.

[2] əl-Ənbiya, 104.

[3] Əbəsə, 33-37.

**bini dinləyib boyun əyməyə hazır olacağı zaman; habelə, Yer dümdüz ediləcəyi zaman."**[1] Ayədən aydın başa düşülür ki, yer yalnız göy üzü yarıldıqdan sonra açılıb dümdüz olacaq. Bu da Qiyamət günü baş verəcək. Yer kürəsi, aşılanmış dəri açılıb yerə sərildiyi kimi, açılıb dümdüz olacaq. Orada nə bir vadi, nə bir dağ, nə bir ağac, nə də bir tikili qalacaq. Uca Allah onu dümdüz və bomboş edəcək, üzərində nə bir qabarıq, nə də bir çuxur görünməyəcək.

Bir qədər əvvəl qeyd etdiyimiz kimi, insanlar ayaqyalın, lüt-üryan, sünnət olunmamış halda və əllərində də heç bir mal-dövlət olmadıqları halda məhşərə toplanacaqlar. Həmin gün göylər büküləcək; Uca Allah, onları sağ əli ilə bükəcək. Günəş yaradılanların başları üzərində, onlardan cəmi bir mil uzaqlıqda olacaq. Hədisdə "mil" deyildikdə, məsafə bildirən mil də ola bilər (yəni 1,609 km), gözə sürmə çəkmək üçün istifadə edilən mil də ola bilər. Hər bir halda, Günəş insanların başı üstə çox yaxında olacaq. Lakin biz inanırıq ki, bəzi insanlar onun istisindən qurtulacaqlar. Bunlar, heç bir kölgənin olmadığı gündə, uca Allahın Öz kölgəsi altında kölgələndirəcəyi kimsələrdir. Rəsulullahın ﷺ bir hədisdə zikr etdiyi yeddi sinif insan da bunlardandır. O, belə buyurmuşdur: **"Yeddi qisim insan vardır ki, Allah onları Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcəkdir: ədalətli rəhbər, Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc, qəlbi məscidlərə bağlı olan kişi, bir-birini Allah xatirinə sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər, gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: "Mən Allahdan qorxuram!"– deyən kişi, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam və bir də xəlvətə çəkilib Allahı yad etdikdən sonra gözləri yaşla dolan adam."**[2]

İndi gəlin bunları bir-bir izah edək:

**1. Ədalətli rəhbər:** Bu, rəiyyəti ilə ədalətlə davranan kimsədir. Belə davranışın ən doğru və ən vacib olanı isə, insanlar arasında Allahın şəriəti ilə hökm verməkdir. Bu, ədalətin başı sayılır. Çünki uca Allah belə buyurur: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qo-**

---

[1] əl-İnşiqaq, 1-3.

[2] Səhih əl-Buxari, 660; Səhih Muslim, 1031.

**humlara *haqqını* verməyi əmr edir."**[1] Elə isə, kim rəiyyətinə Allahın şəriətindən başqa bir qanunla hökm edərsə, ədalətlə hökm etmiş sayılmaz, hətta beləsi, kafir sayılar. Çünki uca Allah buyurur: **"Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirdirlər."**[2] Əgər bir hakim Allahın şəriətinə zidd qanunlar qoysa və bu qanunların şəriətə zidd olduğunu bildiyi halda, şəriət qanunlarından üz çevirərək: "Mən, qoyduğum qanunlardan başqası ilə hökm verməyəcəm"– desə, kafir olar. Belə kimsə, namaz qılsa da, oruc tutsa da, zəkat versə də, həccə getsə də, uca Allahı zikr etsə də, Peyğəmbərimizin ﷺ peyğəmbərliyinə şəhadət gətirsə də, kafir sayılır və Qiyamət günü Cəhənnəmdə əbədi qalacaq. Müsəlman bir xalqın belə bir rəhbəri hakimiyyətdən uzaqlaşdırmaq imkanı olduğu halda, onu özlərinə rəhbər qəbul etməsi caiz deyildir. Xülasə budur ki, rəhbərin ədalətli olmasının ən önəmli şərti, Allahın şəriəti ilə hökm etməsidir.

Ədalətli olmağın şərtlərindən biri də, hakimin, kasıbla zəngin arasında, dost ilə düşmən arasında, qohumla yad arasında fərq qoymadan, onlarla eyni səviyyədə davranmasıdır. Hətta hökm verərkən dostu ilə düşməni arasında ayrıseçkilik etməməlidir. Alimlər deyirlər ki, hakimin yanına, biri kafir digəri müsəlman olan iki iddiaçı gəldiyi təqdirdə, onun istənilən bir şeydə müsəlmana üstünlük verməsi ona haram sayılır. Hər ikisi eyni vaxtda hakimin hüzuruna daxil olmalı, eyni vaxt onun qarşısında oturmalı və hakim onların hər birini dindirməlidir. Onlardan birini dinləyib digərini isə tərk etməməlidir, habelə, müsəlmanın üzünə gülüb, kafirə isə üzünü turşutmamalıdır. Əksinə, hər ikisi ilə eyni rəftar etməlidir. *Bütün bunlar* hökm çıxarma məqamına aiddir. Lakin şübhə yoxdur ki, uca Allahın buyurduğu kimi kafirlə müsəlman eyni deyil: **"Biz heç müsəlmanları günahkarlara tay tutarıqmı?! Sizə nə olub, necə hökm verirsiniz?!"**[3], lakin məhkəmə qarşısında insanlar bərabərdirlər.

Ədalətli olmağın şərtlərindən biri də, rəhbərin, uca Allahın qoyduğu qanunları hər kəsə, hətta öz övladlarına və nəslinə belə, tətbiq etmə-

---

[1] ən-Nəhl, 90.
[2] əl-Maidə, 44.
[3] əl-Qələm, 35-36.

sidir. Necə ki, insanların ən ədalətlisi sayılan Rəsulullah ﷺ, Bənu Məxzum qəbiləsindən olan və oğurluq edən *zadəgan* bir qadının əlinin kəsilməsinə hökm verdikdən sonra, o qadın üçün havadarlıq edən Usamənin رضي الله عنه bu havadarlığını inkar edərək: **"Allahın qoyduğu hökmü ləğv etmək üçün havadarlıq edirsən?!"**– demişdir. Sonra da ayağa qalxıb Allahı həmd səna ilə təriflədikdən sonra belə buyurmuşdur: **"Sizdən əvvəlki ümmətləri məhv edən əməl bu idi ki, içərilərindən zadəgan birisi oğurluq etdikdə, ona dəyməzdilər; kasıb oğurluq etdikdə isə, ona cəza tətbiq edərdilər. Allaha and olsun ki, əgər Muhəmmədin qızı Fatimə oğurluq etsəydi, onun da əlini kəsərdim."**[1] Baxın, ən şərəfli qadınlardan biri, Cənnət qadınlarının hörmətlisi, ən fəzilətli insanın – Muhəmmədin ﷺ qızı Fatimə رضي الله عنها oğurluq etsəydi, atası onun əlini kəsərdi. Diqqət edin! Peyğəmbər ﷺ: "Onun əlinin kəsilməsini əmr edərdim" demir, "onun əlini kəsərdim" deyir. Bu sözün zahiri mənası budur ki, əgər onun qızı oğurluq etsəydi, onun əlini şəxsən özü kəsərdi. Budur, ədalət. Göylər və yer məhz ədalət üzərində qurulmuşdur.

Rəhbərin ədalətli olmasının şərtlərindən biri də, onun hər bir vəzifəyə, ancaq buna layiq olan – həm dinində sabit olan, həm də tapşırılan vəzifəni yerinə yetirməyə qadir olan birisini təyin etməsidir. Bu insanlar, özlərinə tapşırılan vəzifəni yerinə yetirməyə layiq olan, etibarlı və bacarıqlı kimsələr olmalıdır.

Vəzifəyə qoyulan adamda iki xislətin olması vacibdir: qüvvət və etibar. Bu xüsusda uca Allah belə buyurur: **"*Şueybin* qızlarından biri dedi: "Atacan! Onu muzdla işə götür, çünki o, muzdla işə götürdüklərinin ən yaxşısı, güclü və etibarlı olanıdır."**[2] O, həmçinin buyurur: **"Cinlərdən qüvvətli birisi** (Suleymana عليه السلام) **dedi: "Sən yerindən qalxmamış mən** (Bilqeysin) **taxtını sənə gətirərəm. Mən bu işi görməyə qüvvətliyəm, etibarlıyam!"**[3] Deməк, ixtiyar sahibinin ədalətli olmasının şərtlərindən biri də, onun vəzifəyə, ona layiq olanı – qüvvətli və etibarlı birisini təyin etməsidir. Və əgər rəhbər, vəzifəyə daha layiqli olan bi-

---

[1] Səhih əl-Buxari, 3475; Səhih Muslim, 1688.

[2] əl-Qəsəs, 26.

[3] ən-Nəml, 39.

risi olduğu halda, ona layiq olmayan birisini o vəzifəyə təyin edərsə, o kimsə ədalətli sayılmaz.

Peyğəmbər ﷺ ədalətli rəhbərin, Allah Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcəyi yeddi sinif insandan biri olduğunu xəbər vermiş və onu bunların ilki olaraq zikr etmişdir. Çünki rəiyyətlə ədalətlə rəftar etmək çox çətindir. Və əgər Allahın Öz bəndələri üzərində rəhbər olmağı nəsib etdiyi bir kimsə ədalətlə hökm verməyə müvəffəq olarsa, bu işdə çoxlu xeyirə nail olar; həm rəhbərlik etdiyi dövrdə yaşayan ümmət, həm də ondan sonrakılar bundan faydalanar. Belə ki, o, bu əməli ilə sonrakılar üçün gözəl nümunə olar. Belə rəhbər, Allahın Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcəyi kimsələrdəndir.

**2. Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc: G**ənc deyildikdə, on beş yaşla otuz yaş arası qəsd edilir. Şüphəsiz ki, gənc adam müxtəlif yönlərə və düşüncələrə meyilli olur, bir yerdə qərar tuta bilmir. Çünki gəncdir, dəliqanlıdır; hər cazibədar şey onu özünə cəzb edə bilər, onu cənginə ala bilər. Elə buna görə də, Rəsulullah ﷺ döyüşlərdə müşriklərin yaşlılarının öldürülməsini, gənclərinin isə sağ buraxılmasını əmr edərdi. Çünki gənclərə İslam dini ərz edildikdə, çox vaxt onu qəbul edirdilər. Gənc yaşlarında olan adamın öz fikirləri və istəkləri, habelə, müxtəlif yönlü düşüncəsi, əxlaqı və davranışı olduğu halda, Allahın lütfünə nail olar və Ona itaət etməyə müvəffəq edilərsə, Allahın Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcəyi kimsələrdən olar.

Allaha itaət: Onun əmrlərini yerinə yetirmək və qadağan etdiklərindən çəkinməkdir. Onun əmrlərini yerinə yetirmək və qadağan etdiklərindən çəkinmək isə, əmrləri və qadağaları bilməklə mümkündür. Bunları bilmək üçün də əvvəlcədən onları öyrənmək gərəkdir. Beləliklə, bu gənc, həm elm öyrənən, həm də əmrləri yerinə yetirib, qadağalardan çəkinən gənc hesab edilir.

**3. Qəlbi məscidlərə bağlı olan kişi:** Yəni məscidləri sevən insan. Məscidləri sevmək deyildikdə, çoxlu namaz qılmaq qəsd edilir, yoxsa məxsusi olaraq məscidləri sevmək? Hər iki məna ifadə edilə bilər. Yəni,

bu adam daim məsciddə olmaq istəyir, habelə, namazgahlarda olmağı, namaz qılmaqla məşğul olmağı, bir namazı qıldıqdan sonra növbəti namazı gözləməyi sevir.

Bu mövzu ilə bağlı insanın: "Allahım, məni namazla rahatla!" sözü ilə, "Allahım, məni namazdan rahatla!" sözü arasında fərq var.

Birincisi, xeyirli duadır: yəni, Allahım, namazı qəlbimin rahatlıq tapması üçün vasitə et.

İkincisi isə: "Məni namazdan azad et!"– deməkdır. Belə deməkdən, Allaha sığınırıq!

*Hədisdə zikr edilən* adama gəldikdə isə, bu, qəlbi daim məscidə bağlı olan kişidir. Belə ki o, namazgahlarda olmağı, namaz qılmaqla məşğul olmağı, bir namazı qıldıqdan sonra növbəti namazı gözləməyi sevir.

**4. Bir-birini Allah xatirinə sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər:** Yəni aralarında heç bir qohumluq bağı, yaxud ticarət əlaqəsi və ya adi dostluq olmadığı halda, bir-birini məhz Allah rizası üçün sevmişlər. Birinin digərini Allah üçün sevməyinin səbəbi də bu idi ki, onu Allaha ibadət edən və Onun şəriətinə tabe olan bir kimsə olaraq görmüş və onu sevmişdir. Və əgər sevdiyi bu adam onun qohumu, yaxud dostu və ya başqa bir yaxını olarsa, onu iki yöndən sevmiş olar: həm qohumu, yaxud dostu və ya başqa bir yaxını olduğuna görə, həm də imanlı olduğuna görə.

Bu iki nəfər, aralarında dini və şəri əlaqə olduğuna görə bir-birini Allah rizası üçün sevmiş və doğma qardaş kimi olmuşlar. Bu da Allaha ibadət etmək sayılır.

**"Onun yolunda birləşib"** yəni, bu dünyada, **"Onun yolunda ayrılan"** yəni, onları bir-birindən yalnız ölüm ayırmış və ölənədək bir-birini sevmişlər. Uca Allah, bu iki nəfəri Öz kölgəsindən başqa heç bir kölgənin olmadığı bir gündə Öz kölgəsi altında kölgələndirəcək. Onlar, Qiyamət günündə də bir-birini sevəcək və dost olacaqlar. Bu xüsusda uca Allah belə buyurur: **"O gün müttəqilərdən başqa *bütün* dostlar bir-birinə düşmən kəsiləcəklər."**[1] Müttəqilərin arasındakı dostluq, həm bu dünyada, həm də axirətdə qalacaq. Allahım Səndən Sənin lütfünü diləyirik.

---

[1] əz-Zuxruf, 67.

**5. Gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: "Mən Allahdan qorxuram!"– deyən kişi:** yəni yaxınlıq etməyə qadir olan bir adamı, zadəgan və gözəl bir qadın, yəni sıradan birisi deyil, tanınmış bir ailədən olan gözəl bir qadın, kimsənin görə bilməyəcəyi bir yerdə zinaya dəvət edərkən, onun şəhvəti oyansa da, nəfsi qadına meyl etsə də, fəqət: "Mən Allahdan qorxuram!"– deyərək onun təklifini rədd edir. Bu kişinin zina etməsinə mane olan, yalnız Allah qorxusudur.

Bu adama bir baxın! Zinaya rəvac verən bütün amillər mövcuddur: belə ki, kişi cinsi əlaqəyə girməyə qadirdir, qadın da həm gözəl, həm də zadəgan ailəsindəndir, üstəlik, onlar kimsənin görə bilməyəcəyi bir yerdədirlər. Lakin bu amillərdən daha güclü bir maneə onun zina etməsinə mane olur. Bu da, Allah qorxusudur! Adam: "Mən, Allahdan qorxuram" deyir. Demir ki: "Qadınlara marağım yoxdur", yaxud: "Sən gözəl deyilsən", yaxud: "Sən səviyyəsiz qadınlardansan", yaxud: "Bizi görə bilərlər." Sadəcə: "Mən, Allahdan qorxuram!"– deyir. Beləsini də, uca Allah, Öz kölgəsindən başqa heç bir kölgənin olmadığı bir gündə Öz kölgəsi altında kölgələndirəcək.

Yusuf ibn Yəqub ibn İshaq ibn İbrahimə عليهم السلام bir baxın! Misir hökmdarının xanımı ona aşiq olur. Bu xanım gözəl və zərif bir qadın idi. Qapıları bağlayıb, Yusufa عليه السلام: "Yanıma gəl!"– deyir. Yəni onu zinaya dəvət edir. Yusuf عليه السلام gənc idi. Hərçənd, o, bəşəri xislətindən dolayı qadına meyl edir, qadın da ona meyl edir, lakin Rəbbinin dəlilini gördükdə, qəlbinə Allah qorxusu düşür və onunla yaxınlıq etməkdən imtina edir. Qadın onu zindana salmaqla hədələdikdə, Yusuf عليه السلام deyir: **"Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən, mən onlara meyl edər və cahillərdən olaram." Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, Eşidəndir, Biləndir.** ***Bu qədər*** **dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər."**[1] Yusuf, Allah rizası üçün zindana girməyi seçdi və zinaya rəvac verən tutarlı səbəblər olduğu halda, qadından imtina etdi; Rəbbinin dəlilini gördü və Ondan qorxdu.

---

[1] Yusuf, 33-35.

**6. Sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam:** Bu, əməl sahibinin son dərəcədə ixlaslı olmasına dəlalət edir. Adam bu yaxşılığı səmimi-qəlbdən Allah rizası üçün edir, insanların onun etdiyi əməli görməsini istəmir, əksinə, bunun sadəcə özü ilə Rəbbi arasında qalmasını istəyir. Həmçinin, sədəqə verdiyi kimsələrin ondan minnət götürməsini[1] də istəmir. Belə ki, başqalarının gözü önündə sədəqə verən adam, sədəqə verdiyi insana minnət qoymuş olur. Odur ki, o, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədir. Yəni sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədə bilməsi həqiqətən mümkün olsaydı, onu da edərdi. Bu adam, son dərəcədə ixlaslı və sədəqə sayəsində minnət qoymaqdan tamamilə uzaq olan birisidir. Uca Allah, onu da Öz kölgəsindən başqa heç bir kölgənin olmadığı bir gündə Öz kölgəsi altında kölgələndirəcək.

Hərçənd sədəqəni gizlətmək əfzəldir, lakin bəzi hallarda onu aşkarda vermək daha fəzilətlidir. Məsələn, sədəqəni aşkarda vermək, insanları sədəqə verməyə təşviq edəcəksə, o halda onu aşkarda vermək daha fəzilətlidir. Elə buna görə də uca Allah, vəziyyəti nəzərə alıb həm gizlində, həm də aşkarda sədəqə verən kimsələri tərifləmişdir.[2]

Burada üç haldan biri ola bilər: ya gizlində vermək daha əfzəldir, ya aşkarda vermək daha əfzəldir, ya da əgər ikisi də eyni dərəcədə olarsa, o halda gizlində vermək daha əfzəl sayılır.

**7. Xəlvətə çəkilib Allahı yad etdikdən sonra gözləri yaşla dolan adam:** Bu adam xəlvətdə, kimsənin onun zikr etdiyini görmədiyi bir yerdə, dünyadan tamamilə ayrılmış və qəlbi Allaha bağlanmış halda, həm dili ilə, həm də qəlbi ilə Allahı zikr edır. Uca Rəbbini dili və qəlbi ilə zikr edib, Onun əzəmətini və böyüklüyünü düşünərək Onun üçün darıxır və ağlayır. Bu da, həmçinin, uca Allahın, Öz kölgəsindən başqa heç bir kölgənin olmadığı gündə Öz kölgəsi altında kölgələndirəcəyi kimsələrdəndir.

Bir insan, bu yeddi əməldən birini, yaxud ikisini, yaxud üçünü, yaxud dördünü, yaxud beşini, yaxud altısını ya da hamısını yerinə yetir-

---

[1] Minnət götürmək: edilən hörmət və yaxşılıq qarşısında özünü borclu bilmək.

[2] **"Mallarını gecə və gündüz, gizli və aşkar xərcləyənlərin öz Rəbbi yanında mükafatı vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər."** (əl-Bəqərə, 274).

məyə müvəffəq edilə bilər. Bu, mümkündür. Çünki bu əməllərin heç biri digərinə zidd deyil. Hətta ola bilər ki, adam bunların hamısını yerinə yetirməyə nail olsun. Necə ki, bir hədisdə Rəsulullah ﷺ belə buyurur: **"Cənnətin qapıları var.[1] Namaz qılanlar namaz qapısından, sədəqə verənlər sədəqə qapısından, cihad edənlər cihad qapısından, oruc tutanlar da Rəyyan adlı qapıdan, Cənnətə çağırılacaqlar."** Bu vaxt Əbu Bəkr رضي الله عنه dedi: "Ya Rəsulullah! Bu qapıların birindən çağırılanların heç bir sıxıntı keçirməyəcəkləri bəllidir. Bəs bu qapıların hamısından çağırılan bir kimsə olacaqmı?" Peyğəmbər ﷺ dedi: **"Bəli və mən ümid edirəm ki, sən onlardan olacaqsan, ey Əbu Bəkr."[2]** Allahdan Onun lütfünü diləyirik! Hədisdən aydın başa düşülür ki, Əbu Bəkr رضي الله عنه bu qapıların hamısından çağırılacaq. Çünki o, namaz qılan, oruc tutan, sədəqə verən, cihad edən və ümumiyyətlə hər bir xeyirli işdə nəsibi olan bir adam idi. Allah ondan razı qalsın və Cənnətdə onu görməyi bizə nəsib etsin!

Mövzu ilə bağlı qeyd etmək istədiyim bir məsələ var: bəzi tələbələr elə zənn edirlər ki, hədisdə: **"Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında"** deyildikdə, Allahın kölgəsi qəsd edilir. Bu, olduqca yanlış zəndir. Yalnız cahil insan belə zənn edə bilər. Çünki hər kəs bilir ki, insanlar yer üzündə həşr olunacaq və kölgə də Günəşdən əmələ gələcək. Və əgər fərz edilsə ki, bu, uca Allahın kölgəsidir, o zaman günəşin Allahın fövqündə olduğunu və insanlarla günəşin arasında maneə olacağını demək gərəkdir. Belə olması isə mümkün deyil. Çünki uca Allahın, hər yandan, mütləq şəkildə məxluqatın fövqündə olması sabitdir. Lakin bu o deməkdir ki, uca Allah, həmin gün kölgə yaradaraq bu kölgədə kölgələnməyə layiq olan kimsələri kölgələndirəcək. Allahın bu kölgəni özünə nisbət etməsi, həmin gün heç bir varlığın heç bir vasitə ilə kölgələnə bilməyəcəyinə görədir. Həmin gün məhşərdə nə bir tikili, nə də başa qoyulacaq bir şey olacaq. Tək kölgə, uca Allahın həmin gün Öz *mömin* qulları üçün yaratdığı köl-

[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ Cənnətin səkkiz qapısı olduğunu xəbər vermişdir (Səhih əl-Buxari, 3257; Səhih Muslim, 234).

[2] Səhih əl-Buxari, 3666; Səhih Muslim, 1027.

gə olacaq. Həmin gün kölgələndirmək yalnız Allaha məxsus olduğu üçün uca Allah, onu özünə nisbət etmişdir.[1]

Həmin gün baş verəcək hadisələrdən biri də, insanın həyatda ikən etdiyi əməllərinin yazıldığı səhifələrin ortaya qoyulmasıdır. Çünki uca Allah hər bir insanın əməllərinin yazılmasını, onun sağında və solunda duran iki mələyə tapşırmışdır. Bu xüsusda uca Allah belə buyurur: **" İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. Sağında və solunda iki** ***mələk*** **oturub** ***onun əməllərini qeydə alır.*** **Dediyi elə bir söz yoxdur ki,** ***onu yazmaq üçün*** **yanında hazır durmuş gözətçi olmasın."**[2] Bu möhtərəm iki mələk, insanın danışdığı hər bir sözü və etdiyi hər bir əməli yazır. Yalnız qəlbindən keçən fikirlərdən başqa. Bunları o iki mələk yazmır. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: **"Allah mənim ümmətimin qəlbindən keçən, lakin dilinə gətirmədiyi, yaxud həyata keçirmədiyi günahlarını bağışlayır."**[3]

Lakin insanın danışdığı sözlər və etdiyi əməllər yazılır. Savab işləri yazan mələk sağda, günah işləri yazan isə soldadır. Yazılması əmr olunan hər bir şeyi *kitaba* yazırlar. Qiyamət günü bu kitab hər bir insanın boynunda olacaq. Bu xüsusda uca Allah belə buyurur: **"Biz hər bir insanın əməlini öz boynundan asdıq."**[4] Bu kitab onun qarşısına qoyulacaq və ona: **"Kitabını oxu! Bu gün sənə özün-özünü hesaba çəkməyin yetər"**[5]– deyiləcək. O da orda yazılanların hamısını oxuyacaq və etdiyi hər bir əməl ortaya çıxacaq.

İnsanlara veriləcək bu kitabları, kimisi sağ əli, kimisi də arxa tərəfindən sol əli ilə götürəcək. Kitabı sağ əlinə veriləcək kimsə – Allahdan istəyirəm ki bizi onlardan etsin – insanlara belə deyəcək: **"Budur, oxuyun kitabımı!"**[6] O adam fərəhlənərək və sevinərək, Allahın ona bəxş etdiyi bu neməti onlara göstərəcək.

---

[1] Bax: İbn Useymin, Şərh əl-Əqidə əl-Vasitiyyə, səh: 497.

[2] Qaf, 16-18.

[3] Səhih əl-Buxari, 6664; Səhih Muslim, 127.

[4] əl-İsra, 13.

[5] əl-İsra, 14.

[6] əl-Həqqa, 19. Ayənin davamında belə deyilir: **"Mən bilirdim ki, etdiklərimin hesabına qovuşacağam." O, uca Cənnətdə xoşbəxt həyat sürəcək"** (əl-Həqqa, 20-22).

Kitabı sol əlinə veriləcək kimsə isə hüzn, kədər və sıxıntı içində belə deyəcək: **“Kaş kitabım mənə verilməyəydi!”**[1]

Axirət gününə imanın bir qismi də, haqq-hesaba – uca Allahın məxluqatı sorğu-suala çəkəcəyinə iman gətirməyimizdir. Bu xüsusda uca Allah belə buyurur: **“Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir.** *Görülmüş iş* **bir xardal dənəsi mislində olsa belə, onu gətirib** *tərəziyə* **qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik.”**[2] O, həmçinin buyurur: **“O, yüngül haqq-hesaba çəkiləcək.”**[3] Uca Allah məxluqatı sorğu-suala çəkəcək, lakin mömininin hesabı, yüngül və münaqişəsiz olacaq. **O gün uca Allah Öz mömin qulu ilə xəlvətdə olacaq, onun üstünə örtük çəkəcək və ona günahlarını etiraf etdirəcək; ona: “Filan günahını xatırlayırsanmı? Filan günahını xatırlayırsanmı?”– deyə soruşacaq. Mömin: “Bəli,** *ey Rəbbim*!**”– deyə cavab verəcək. Beləcə, o, etdiyi günahların hamısını etiraf edəcək. Onda uca Allah ona belə buyuracaq: “Dünyada sənin günahlarını ört-basdır etdim. Bu gün də, Mən sənin günahlarını bağışlayıram.”**[4] Nə çox günahlarımız vardır ki, Allah onları ört-basdır etmişdir. İnsan mömin olduğu təqdirdə, uca Allah: **“Dünyada sənin günahlarını ört-basdır etdim. Bu gün də, Mən sənin günahlarını bağışlayıram.”**– deyəcək.

Kafirə gəlincə, o, rüsvay və rəzil olacaq, üstəlik, məhşərə toplanmış hər kəsin gözü önündə ona belə xitab ediləcək: **“Bunlar Rəbbinə iftira yaxanlardır. Allahın lənəti olsun zalımlara!”**[5]

Axirət gününə imanın bir qismi də, məhşərdə Peyğəmbərimiz Muhəmməd ﷺ üçün hovuz qurulacağına iman gətirməyimizdir. Bu hovu-

---

[1] əl-Həqqa, 25. Ayənin davamında belə deyilir: **“Hesabımdan da xəbərim olmayaydı! Kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni** *əzabdan* **qurtarmadı. Hökmranlığım da məhv olub getdi.”** *Mələklərə deyiləcək*: **“Onu yaxalayıb zəncirləyin! Sonra da Cəhənnəmə atın! Onu uzunluğu yetmiş dirsək olan zəncirə vurun! Çünki o, Böyük Allaha iman gətirmirdi və** *heç kəsi* **kasıbı yedirtməyə rəğbətləndirmirdi.”** (əl-Həqqa, 20-22).

[2] əl-Ənbiya, 47.

[3] əl-İnşiqaq, 8.

[4] Səhih əl-Buxari, 2441; Səhih Muslim, 2768.

[5] Hud, 18.

za, Kovsərdən iki nov[1] vasitəsi ilə su axacaq. Kovsər isə Peyğəmbərimizə ﷺ bəxş edilmiş Cənnət çayıdır. Bu xüsusda uca Allah belə buyurur: **"Həqiqətən, Biz Kovsəri sənə bağışladıq."**[2] Qiyamət günü bu çaydan, ərəsatda[3] quralacaq hovuza iki nov vasitəsilə su axacaq.

Peyğəmbər ﷺ bu hovuzun suyunun süddən ağ, baldan şirin, müşkdən daha xoş rayihəli, *ətrafına düzülmüş* qədəhlərin ulduzların sayı qədər, uzunluğunun və eninin də bir aylıq məsafəyə bərabər olduğunu, bu sudan bir dəfə içənin heç vaxt susamayacağını xəbər vermişdir.[4]

Yalnız Muhəmməd peyğəmbərin ﷺ ümmətindən olan möminlər bu hovuzun ətrafına toplaşacaq və onun suyundan içəcəklər. Allah bizləri o hovuzun ətrafına toplaşan möminlərdən etsin! Peyğəmbərimizə ﷺ iman gətirməyən kimsələr isə o hovuzun yanına buraxılmayacaq və onun suyundan içə bilməyəcəklər. Uca Allahın Öz Peyğəmbərinə ﷺ bəxş etdiyi bu hovuz, peyğəmbərlərə عليهم السلام bəxş edilmiş hovuzların ən böyüyüdür. Hər bir peyğəmbərin bir hovuzu olacaq və ümmətindən ona iman gətirmiş kimsələr həmin hovuzun ətrafına toplanacaqlar. Lakin o hovuzlar, Peyğəmbərimizin ﷺ hovuzuna nisbətdə çox kiçik olacaq. Çünki Muhəmməd ﷺ ümməti Cənnət əhlinin üçdə birini təşkil edəcək. Və təbii ki, Peyğəmbərimizin ﷺ hovuzu, hovuzların ən əzəmətlisi, ən böyüyü, ən genişi və ən tutumlusu olacaq.

Axirət gününə imanın bir qismi də, Sirata iman gətirməyimizdir. Sirat: Cəhənnəm üzərində qurulmuş, tükdən nazik və qılıncdan iti bir körpüdür. İnsanlar onun üstündən, əməllərinə müvafiq şəkildə keçəcəklər; dünyada xeyirxah işlər görməyə tələsən kimsələr o körpünün üstündən sürətlə, ləng tərpənənlər isə yavaş keçəcəklər. Həm yaxşı, həm də pis işlər görmüş, uca Allahın bağışlamadığı kimsələr isə körpüdən Cəhənnəmə düşəcəklər.

İnsanların o körpünün üzərində yeriməsi, fərqli olacaq; kimisi bir göz qırpımında, kimisi ildırım sürətilə, kimisi külək sürətilə, kimisi

---

[1] Nov: cu axıtmaq üçün dəmirdən, ağacdan, daşdan və sairədən yarımdairə şəklində düzəldilmiş su yolu; arx; kanal Qeyd edək ki, bu novun necəliyi bizə bəlli deyil.

[2] əl-Kovsər, 1.

[3] Ərəsat: məhşər günü insanların öz əməllərinə görə haqq-hesaba çəkilmək üçün toplaşacaqları yer.

[4] Səhih əl-Buxari, 6579; Səhih Muslim, 2292.

bərk qaçan at sürətilə, kimisi dəvə sürətilə, kimisi yeriyərək, kimisi də sürünərək o körpünün üstündən keçəcək. Bir qismi isə oradan keçərkən Cəhənnəmə düşəcək. O körpüdən yalnız möminlər keçəcəklər. Kafirlər isə onun üzərindən keçməyəcəklər. Çünki onlar, ərəsatdan bir başa Cəhənnəmə sürüklənəcəklər. Allahdan bizi salamat etməsini diləyirik!

Möminlər bu körpünü keçdikdən sonra, Cənnətlə Cəhənnəm arasındakı qövsvari körpünün yanında dayandırılacaq və dünyada bir-birilərinə etdikləri haqsızlıqlara görə, bir-birilərindən qisas alacaqlar. Bu qisas, ərəsatda olan qisas yox, başqa bir qisasdır. Burada qisas almaqda məqsəd budur ki, möminlərin qəlbindəki bir-birilərinə olan ədavət, kin-küdurət və nifrət yox olsun, beləliklə də, onlar Cənnətə ən gözəl halda daxil olsunlar. Çünki insan, ona zülm etmiş kimsədən haqqını alsa da, yenə qəlbində ona qarşı kin və nifrət qalır. Cənnət əhli isə bir-birilərindən öz haqqlarını tam şəkildə aldıqdan sonra, ən gözəl halda Cənnətə girəcəklər. Onlar bir-birindən qisas aldıqdan və tam təmizləndikdən sonra, Cənnətə girmələrinə izin veriləcək.

Cənnətin qapısı, Rəsulullahdan ﷺ əvvəl heç kəs üçün açılmayacaq. Elə buna görə də, Rəsulullah ﷺ, ərəsatdakı insanların mühakimə olunması üçün, habelə, onların üzləşdikləri qorxunun, qəm-qüssənin və kədərin aradan qalxması üçün şəfaətçilik etdiyi kimi, Cənnət əhlinin Cənnətə girməsi üçün də, şəxsən şəfaətçilik edəcək. Bu iki növ şəfaətçilik Rəsulullaha ﷺ məxsusdur. Yəni ərəsatdakı insanların mühakimə olunması üçün şəfaətçilik etməsi və bir də Cənnət əhlinin Cənnətə girməsi üçün şəfaətçilik etməsidir. Beləliklə, Rəsulullah ﷺ iki cür şəfaətçilik edəcək: birincisi, məhşərdəki insanları qəm-qüsədən və kədərdən qurtarmaq üçün; ikincisi isə, onların istəklərinə nail olması, yəni Cənnət qapısının onların üzünə açılması üçün.

Beləliklə, Cənnətə girəcək ilk insan Rəsulullah ﷺ, ilk ümmət də Rəsulullahın ﷺ ümməti olacaq. Cəhənnəmə əhlinə gəlincə, onlar toplum halında Cəhənnəmə tərəf sürüklənəcək, sonra da bu ümmətlər bir-birinin ardınca Cəhənnəmə giriftar olacaqlar. **"Hər bir ümmət *Cəhənnəmə* gir-**

**dikdə digərini lənətləyəcək."**[1] Beləcə, hər sonrakı ümmət əvvəlkinə lənət oxuyacaq və bir-birindən uzaq duracaq. Onlar Cəhənnəmin qarşısına gətirildikdə, onun qapılarının açıq olduğunu görəcək və içindəki mənzərə onları dəhşətə gətirəcək. Nəhayət, bu günahkarlar Cəhənnəmə giriftar olacaq və aralarındakı kafirlər əbədi olaraq orada qalacaqlar. Bu xüsusda uca Allah Quranda belə buyurur: **"Kafirləri və zalımları Allah əsla bağışlamaz və *doğru* yola yönəltməz. Fəqət içərisində əbədi qalacaqları Cəhənnəm yoluna *yönəldər*. Bu isə Allah üçün çox asandır."**[2] O, həmçinin buyurur: **"Həqiqətən, Allah kafirləri lənətləmiş və onlar üçün *yandırıb-yaxan* Od hazırlamışdır. Onlar orada əbədi qalacaq, *özlərinə* nə bir himayəçi, nə də bir yardımçı tapa biləcəklər. Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: "Kaş, Allaha itaət edər və Onun rəsuluna itaətkar olaydıq!" Onlar deyəcəklər: "Ey Rəbbimiz! Biz başçılarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar. Ey Rəbbimiz! Onlara ikiqat əzab ver və onları böyük bir lənətə məruz qoy!"**[3] O, həmçinin buyurur: **"Kim Allaha və Onun rəsuluna asi olarsa, onun üçün içərisində əbədi qalacaqları Cəhənnəm odu hazırlanmışdır."**[4]

Allahın kitabında zikr edilən bu ayələr Cəhənnəm əhlinin Cəhənnəmdə əbədi qalacaqlarını açıq-aydın ifadə edir. Allahın sözünün qabağına isə söz qoyula bilməz.

Həmçinin, Cənnət əhli də, Cənnətdə əbədi olaraq qalacaq.

Əgər kimsə sual versə ki, uca Allah "Hud" surəsində: **"Bədbəxtlərə gəlincə, onlar Od içərisində qalacaqlar. Onlar orada zarıyacaq və bağıracaqlar. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Həqiqətən, Rəbbin istədiyini edəndir. Xoşbəxtlərə gəldikdə isə, onlar Cənnətdə olacaqlar. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. *Bu,* tükənməz bir sovqatdır"**[5] buyurur. Uca Allah, Cənnət əhlinə veri-

---

[1] əl-Əraf, 38.

[2] ən-Nisa, 168-169.

[3] əl-Əhzab, 64-68.

[4] əl-Cinn, 23.

[5] Hud, 106-108.

lən nemətlər barədə: ***“Bu,* tükənməz bir sovqatdır”** deyir, yəni daim olacaq nemətlərdir. Cəhənnəm əhli barədə isə: **“Həqiqətən, Rəbbin istədiyini edəndir”**– buyurur. Məgər bu o deməkdir ki, Cəhənnəm əhlinə verilən əzab, nə vaxtsa sona yetəcək?”

Sualın cavabı belədir: “Xeyr! Fəqət Cənnət əhli, Allahın onlara bəxş etdiyi nemətlər sayəsində kef çəkdiklərinə görə, uca Allah onlara bəxş edilmiş nemətlərin tükənməz olduğunu bəyan etmişdir. Cəhənnəm əhli isə, Allahın ədaləti sayəsində əzabı daddıqlarına görə, Allah: **“Həqiqətən, Rəbbin istədiyini edəndir”**– buyurur. Onun verdiyi hökmü, kimsə tənqid edə bilməz. O, Cəhənnəm əhlinin Cəhənnəmdə qalmasını istəyir. Və O, istədiyini edir. Cəhənnəm əhli ilə Cənnət əhli arasında olan fərq budur. Cənnət əhlinə verilən nemətlər tükənməzdir. Cəhənnəm əhli isə Allahın ədalətlə verdiyi hökmə boyun əyəcəklər. Uca Allah istədiyini edəndir. Axirət gününə imanla bağlı qısa şəkildə bəyan edəcəyimiz şeylər bunlar idi.

**6.** Rəsulullahın ﷺ: **“Qədərə – onun xeyrinə və şərinə iman gətirmək”** - sözü. Bu, imanın altıncı əsasıdır.

Qədər, uca Allahın qiyamət gününə qədər nələr baş verəcəyini müəyyən edib yazmasıdır. Belə ki, uca Allah, qələmi yaratmış, sonra da ona: “Yaz!”– deyə əmr etmişdir. O: “Ey Rəbbim, nə yazım?”– deyə soruşduqda, Allah: “Nələr olacağını yaz!”– buyurmuşdur. O da, həmin andan Qiyamətə qədər nələr olacağını yazmışdır.[1] Odur ki, insanın qədərinə yazılmış bir şey ondan yan keçməz, həmçinin, qədərinə yazılmamış bir şey də, onun başına gələ bilməz. Uca Allah bunu Öz kitabında müxtəsər şəkildə belə zikr etmişdir: **“Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən, bu, Yazıda mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır.”**[2] O, həmçinin buyurur: **“Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda *müəyyən edilmiş* olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır.”**[3]

---

[1] Sunən ət-Tirmizi, 2155; Sunən Əbu Davud, 4700.

[2] əl-Həcc, 70.

[3] əl-Hədid, 22.

**"Biz onu yaratmamışdan əvvəl"**, yəni yeri, sizi və müsibətləri xəlq etməmişdən əvvəl. Belə ki, uca Allah qədəri, göyləri və yeri yaratmamışdan əlli min il öncə yazmışdır.[1]

İslam alimləri deyirlər ki, qədərə iman gətirmək üçün, onun dörd mərtəbəsinin dördünə də iman gətirmək şərtdir:

**Birinci mərtəbə:** Uca Allahın hər şeyi bildiyinə iman gətirməkdir. Əzəmətli Kitabda uca Allahın hər şeyi bildiyinə, elminin hər şeyi əhatə etdiyinə dair ayələr çoxdur. Məsələn, uca Allah buyurur: **"Vəhy onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz."**[2] O, həmçinin buyurur: **"Qeybin açarları Onun yanındadır. Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru *şey* yoxdur ki, açıq-aydın kitabda olmasın."**[3]

**İkinci mərtəbə:** Uca Allahın, Qiyamət gününədək nələr baş verəcəyini, göyləri və yeri yaratmamışdan əlli min il öncə yazdığına iman gətirməkdir. Olacaq hər bir şey yazılmışdır. Artıq qələmlər (mürəkkəb) qurumuş, səhifələr də bükülmüşdür.[4] Artıq sənin qədərinə yazılmış bir şey səndən yan keçməz, həmçinin, qədərinə yazılmamış bir şey də, sənin başına gələ bilməz. Odur ki, başına bir iş gəldikdə: "Belə etsəydim, başıma bu iş gəlməzdi"– demə. Çünki bu, artıq qədər yazılmışdır və onun, Allahın yazdığı kimi baş verməsi labüddür. Nə qədər çalışsan da, bundan qaça bilməzsən. Hər şey yazıldığı kimi baş verəcək və əsla dəyişməyəcək. Çünki bu, artıq yazılmışdır.

Əgər kimsə desə ki: "Məgər hədisdə: **"Qoy ruzisinin artmasını və ömrünün uzanmasını istəyən kəs, qohumları ilə əlaqə saxlasın"**[5] deyilmirmi?" Biz ona belə cavab verərik: "Bəli, belə bir hədis var. Lakin qohumlarla əlaqə saxladığına görə ruzisi artan və ömrü uzanan insanın artıq qədərinə yazılmışdır ki, o, qohumları ilə əlaqə saxlayacaq və bu

---

[1] Səhih Muslim, 2653.
[2] ət-Talaq, 12.
[3] əl-Ənam, 59.
[4] əl-Mocəm əl-Kəbir, Tabərani, 12/238; Şuəb əl-İman, 192.
[5] Səhih əl-Buxari, 5986; Səhih Muslim, 2557.

səbəbdən də, onun ruzisi artacaq və ömrü uzanacaq. Bunun yazıldığı kimi olması labüddür. Fəqət Rəsulullahın ﷺ: **"Qoy ruzisinin artmasını və ömrünün uzanmasını istəyən kəs..."**– deməsinin səbəbi budur ki, biz qohumlarla əlaqə saxlamağa tələsək. Yoxsa ki, bir kimsənin qohumları ilə əlaqə saxlayacağı və buna görə həmin savabı qazanacağı və ya əlaqə saxlamayacağı və o savabdan məhrum olacağı, artıq qədərinə yazılmışdır. Lakin Rəsulullah ﷺ, bizi qohumlarla əlaqə saxlamağa təşviq etmək üçün belə demişdir.

Bil ki, Lovhi-Məhfuzda yazılanlara, daha sonra yazılan bəzi yazılar da aiddir:

Bunlardan biri budur ki, insan rüşeymi ana bətnində xəlq edilərkən, dörd aylığında Allah onun yanına, ana bətninə nəzarət edən bir mələk göndərir və bu mələk ona ruh üfürür. Bu mələyə dörd şey: uşağın ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını yazmaq əmr edilir, o da bunların hamısını yazır. Bu yazı Lovhi-Məhfuzdakından fərqli yazıdır. Bu, insanın ömrünün əvvəlində yazılan yazıdır. Elə buna görə də alimlər buna: "Ömür qədəri" deyirlər. Yəni ömürə aid olan qədər.

Həmçinin, hər il yazılan qədər də vardır ki, bu da Qədr gecəsində yazılır. Belə ki, həmin gecə uca Allah il boyu nələr baş verəcəyini yazır. Bu xüsusda uca Allah belə buyurur: **"Biz *Quranı* mübarək bir gecədə nazil etdik. Həqiqətən, Biz xəbərdar edirik. Hər bir hikmətli iş o *gecədə* ayırd edilir."**[1] **"Ayırd edilir"**, yəni bəyan edilir, açıqlanır. Elə buna görə də, bu gecə "Qədr gecəsi" adlanır.

**Üçüncü mərtəbə:** Hər şeyin Allahın istəyi ilə baş verdiyinə və bu istəkdən kənara çıxmadığına iman gətirməkdir. Burada, yağış yağdırmaq, ölüləri diriltmək və başqa bu kimi yalnız Allaha xas olan işlərlə, Allahın məxluqata öyrətdiyi namaz, oruc və başqa buna bənzər əməllər arasında heç bir fərq yoxdur. Bunların hamısı Allahın istəyi ilə baş verir. Bu xüsusda uca Allah belə buyurur: **"Sizlərdən doğru *yolda* olmaq istəyənlər üçün. Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!"**[2] O, həmçinin buyurur: **"Əgər Allah istəsəydi, onlardan sonra gələnlər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra bir-birilə-**

---

[1] əd-Duxan, 3-4.

[2] ət-Təkvir, 28-29.

**ri ilə vuruşmazdılar. Lakin onlar ixtilaf etdilər. Onlardan kimisi iman gətirdi, kimisi də, kafir oldu. Əgər Allah istəsəydi, onlar bir-biriləri ilə vuruşmazdılar. Lakin Allah istədiyini edər."**[1] Bu ayələrdə uca Allah bizə bəyan edir ki, O istəmədikcə, heç bir istəyimiz baş tuta bilməz və biz hər nə ediriksə, bunlar yalnız Onun istəyi ilə baş verir. Ayədə: **"Allah istəsəydi, onlar bir-biriləri ilə vuruşmazdılar"**– deyilir. Yəni hər şey Allahın istəyi ilə baş verir. Onun mülkündə, istəmədiyi bir şey əsla ola bilməz. Odur ki, müsəlmanlar bu mənanı ifadə edən bu sözü deməkdə yekdil rəydədirlər: "Allahın istədiyi olmuş, istəmədiyi isə olmamışdır."

**Dördüncü mərtəbə:** Hər şeyin Allahın yaratdığı məxluq olduğuna iman gətirməkdir. Bu xüsusda uca Allah belə buyurur: **"Allah hər şeyin xaliqidir. O, hər şeyi qoruyandır."**[2] O, həmçinin buyurur: **"O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir."**[3] Demək, baş verən hər bir şey Allahın yaratdığı məxluqdur. İnsanın həm özü, həm də əməlləri Allahın yaratdığı məxluqdur. Uca Allah, İbrahimin ﵇ öz qövmünə belə xitab etdiyini xəbər verir: **"Sizi də, sizin etdiyiniz əməlləri də Allah yaratmışdır."**[4] Demək, bəndənin gördüyü hər bir iş, Allahın yaratdığı məxluqdur. Sadəcə olaraq onu yerinə yetirən Allah deyil, bəndədir. Allah o əməli yaradır, bəndə isə onu yerinə yetirir. Beləcə, bu əməl, yaradılış baxımından Allaha, yerinə yetirmək və qazanmaq baxımından isə bəndəyə nisbət edilir. Dolayısıyla, əməli edən və qazanan bəndə, o əməli yaradan isə Allahdır.

Baş verən hər bir şey məxluq sayılsa da, Allahın sifətlərinə aid olan şeylər məxluq sayılmır. Məsələn, Quran. Allah, onu Muhəmmədə ﷺ nazil etmişdir. Fəqət o, məxluq deyil. Çünki Quran, Allahın kəlamıdır. Allahın kəlamı da Onun sifətlərindən biridir. Allahın sifətləri isə məxluq deyil.

Bu sadaladıqlarımız, qədərə iman gətirməyin dörd mərtəbəsidir. Bunların hamısına iman gətirməyiniz vacibdir. Yoxsa qədərə iman gətirmiş sayılmayacaqsınız.

---

[1] əl-Bəqərə, 253.
[2] əz-Zumər, 62.
[3] əl-Furqan, 2.
[4] əs-Saffat, 96.

Qədərə imanın olduqca böyük faydası vardır. Belə ki, adam bir işin həqiqətən də, Allahın buyurduğu kimi baş verdiyini bilərsə, rahat olar. Başına bir müsibət gəldikdə səbir edər və: "Bu, Allahdandır"– deyər. Bir nemət əldə etdikdə də, şükür edər və yenə: "Bu, Allahdandır"– deyər. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: **"Möminin halı qəribədir! Həqiqətən də, onun hər bir işində onun üçün xeyir vardır. Bu da yalnız möminə xasdır.** ***Belə ki,*** **ona xoş bir şey nəsib olduqda şükür edər və bu onun xeyrinə olar, habelə, başına bir müsibət gəldikdə səbir edər və bu da onun xeyrinə olar."**[1] Çünki mömin adam, hər bir şeyin Allahın qədəri ilə olduğuna iman gətirir və buna görə də, daim kefi kök, qəlbi də rahat olur. Çünki başına gələn *hər bir* işin Allahdan olduğunu yəqin bilir. Başına bir müsibət gəldikdə səbir edir, Allahdan kömək gözləyir və o müsibətin aradan qalxması üçün Allaha sığınır. Bir nemət əldə etdikdə isə Allaha şükür və həmd edir, üstəlik, bu nemətə öz gücü və qüdrəti ilə deyil, yalnız Allahın lütfü və mərhəməti sayəsində nail olduğunu bilir.

Rəsulullahın ﷺ: **"onun xeyrinə və şərinə"** sözü:

**Xeyir:** faydalı elm, bol və halal ruzi, sağlıq, həyat yoldaşı, övladlar və başqa bu kimi, insana fayda verən və könlünə yatan hər şeydir.

**Şər isə:** cahillik, kasıblıq, xəstəlik, həyat yoldaşını və övladı itirmək və başqa bu kimi xeyrin əksi olan şeylərdir. Bunların hamısı – xeyir də, şər də, Allahdandır. Belə ki, xeyiri də, şəri də, uca Allah Öz hikməti ilə əzəldən müəyyən edir. Bu xüsusda uca Allah belə buyurur: **"Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!"**[2] Uca Allah bir şərdə xeyir və hikmət olduğunu bildikdə, bu şərdən böyük fayda əldə etmək üçün onu əzəldən müəyyən edir. Bu xüsusda uca Allah belə buyurur: **"İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki,** ***Allah*** **onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar** ***haqqa*** **qayıdalar."**[3]

Əgər kimsə: "Rəsulullahın ﷺ: **"Qədərə – onun xeyrinə və şərinə iman gətirməlisən"** sözü ilə, onun: ***"Allahım,*** **şər sənə nisbət edilməz"**

---

[1] Səhih Muslim, 2999.

[2] əl-Ənbiya, 35.

[3] ər-Rum, 41.

sözünü necə cəm edə bilərsiniz?"– desə və beləliklə də, şərin Allahdan olduğunu qəbul etməsə, ona belə cavab verərik:

**Əvvəla,** qeyd edək ki, sırf şər əməl əsla Allahın feili ola bilməz. Yəni istər hazırki vaxtda, istərsə də gələcəkdə bir xeyir gətirməyəcək sırf şərin Allahın feili olması əsla mümkün deyil. Belə ki, Allahın əzəldən müəyyən etdiyi şərin, nəticə etibarı ilə xeyirli olması və ya bir toplum üçün şər olsa da, digərləri üçün xeyirli olması labüddür. Diqqət edin! Allah leysan yağış yağdırdıqda, bir kimsənin əkin sahəsini sel basa bilər, lakin digər tərəfdən bu yağış həm torpağa yararlı olar, həm də başqa insanlar bundan yararlana bilərlər. Beləcə, bu yağış, ondan zərər çəkən insanlar üçün şər, fayda əldə edən insanlar üçün isə xeyirli olar. Beləcə bir yöndən xeyirli, digər yöndən isə şər olar.

**İkincisi,** Allahın əzəldən insanın müqəddəratına yazdığı şər belə, əslində xeyir sayılır. Çünki əgər adam səbir edib savabını Allahdan umarsa, başına gəlmiş müsibətdən qat-qat artıq savaba nail olar. Hətta ola bilsin ki, bu bəla, adamın haqq yola gəlməsinə və Allahın verdiyi nemətin qədrini bilməsinə səbəb olsun və beləliklə də, nəticəsi xeyirli olsun. Rəvayət edilir ki, abid bir qadının barmağı kəsilmiş və o, bu halına görə səbir edib Allaha şükür etmişdir. Yanındakılar ona: "Barmağın kəsildiyi halda, sən Allaha həmd edirsən?"– deyəndə, qadın onlara: "Onun savabının şirinliyi, mənə səbrinin acısını unutdurdu"– demişdir.[1]

Onu da qeyd edək ki, şər, əslində, Allahın feilində yox, feilin təsir etdiyi şeylərdədi. Xeyir və şər məhz Onun yaratdıqlarındadır. Feilin özü isə yalnız xeyirdən ibarətdir. Odur ki, uca Allah buyurur: **"De: "Sığınıram sübhün Rəbbinə! Xəlq etdiklərinin şərindən."**[2] Yəni Allahın yaratdıqlarının şərindən. Demək, şər, Allahın feilində yox, Onun yaratdıqlarındadır. Feilin özü isə yalnız xeyirdən ibarətdir.

Bir misal çəksək, sizin üçün daha aydın olar. Əgər sizin bir xəstəniz olsa və sizə: "Ona dağ bassanız, şəfa tapar"– deyilsə, siz də onu odda qızdırılmış bir şeylə, alovla dağlasanız, heç şübhəsiz ki, bu ona ağrı verən bir şey olacaq. Lakin gördüyünüz iş, şər sayılmaz, əksinə xəstə

---

[1] Mədaric əs-Salikin, 2/167.

[2] əl-Fələq, 1-2.

üçün xeyir sayılar. Çünki siz bu dağlamanın xeyirli nəticə verəcəyini gözləyirsiniz. Allahın xoşagetməz şeyləri və şər işləri yaratması da belədir. Deməк, Allahın feili və yaratması xeyir sayılır. Çünki bunun nəticəsində çoxlu xeyir əldə edilir.

Əgər bir adam: "Bu dediyinizlə, uca Allahın: **"Sənə gələn yaxşılıq Allahdandır, sənə üz vermiş bəla isə sənin özündəndir"**[1] ayəsini necə cəm edə bilərik?"– desə, ona belə cavab verərik: **"Sənə gələn yaxşılıq Allahdandır",** yəni Onun lütfü sayəsindədir. Əvvəldə də, axırda da, sənə lütf edən Odur. **"Sənə üz vermiş bəla isə sənin özündəndir",** yəni bunun səbəbkarı sənsən. Yoxsa ki, onu sənin müqəddəratına yazan, Allahdır. Lakin səbəbkarı sənsən. Bu xüsusda uca Allah belə buyurur: **"Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız *günahlar* üzündəndir. *Allah günahların* çoxunu bağışlayır."**[2]

Söylədiklərimizin xülasəsi budur ki, baş verən hər nə varsa, – istər xeyir, istərsə də şər olsun, Allahın əzəldən yazdığı qədərlə baş verir.

Sonra Ömərin ﷻ rəvayət etdiyi hədisin davamında deyilir ki, Cəbrail ﷺ Peyğəmbərə ﷺ: **"Mənə ehsan haqqında xəbər ver"**– dedi. Peyğəmbər ﷺ də belə cavab verdi: **"*Ehsan odur ki,* Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də, *bil ki,* O səni görür."**

**Ehsan:** pislik etmənin əksidir, yəni yaxşılıq etmək. Burada "ehsan" deyildikdə isə əməli yaxşı yerinə yetirməkdir. Elə buna görə də, Peyğəmbər ﷺ: **"*Ehsan odur ki,* Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən"**– demişdir. Yəni, namazı sanki Allahı görürmüşsən kimi qılmalı, zəkatı sanki Onu görürmüşsən kimi verməli, orucu sanki Onu görürmüşsən kimi tutmalı, həcc ziyarətini sanki Onu görürmüşsən kimi yerinə yetirməli, dəstəmazı sanki Onu görürmüşsən kimi almalı və beləcə, digər əməlləri də bu şəkildə yerinə yetirməlisən.

İnsanın Allaha, sanki Onu görürmüş kimi ibadət etməsi, onun Allah qarşısında ixlaslı olduğuna və Rəsulullahın ﷺ sünnəsini doğru-düzgün yerinə yetirməsinə dəlalət edir. Çünki hər kim bu qaydada Allaha ibadət edirsə, onun qəlbində, əməllərini doğru-düzgün və kamil şəkil-

[1] ən-Nisa, 79.

[2] əş-Şura, 30.

də yerinə yetirməyə yönəldən Allah sevgisinin və qorxusunun olması labüddür.

**"Sən Onu görməsən də,** ***bil ki,*** **O səni görür"**, yəni əgər Allahı görürmüş kimi ibadət edə bilməsən, Onun nəzarətində olduğunu bilərək və Ondan qorxaraq ibadət et. Çünki **"O səni görür."** Məlumdur ki, Allahı istəyərək ibadət etmək, Ondan qorxaraq ibadət etməkdən daha fəzilətlidir. Hədisdəki bu söz iki dərəcədən ibarətdir:

**Birinci dərəcə;** Allaha, sanki Onu görürmüşsən kimi ibadət etməkdir ki, bu, Onu istəyərək ibadət etmək dərəcəsidir.

**İkinci dərəcə;** Allaha, Onun səni gördüyünü düşünərək ibadət etməkdir ki, bu da, Ondan qorxaraq ibadət etmək dərəcəsidir.

Bunların hər ikisi çox yüksək dərəcədir. Lakin birincisi, ikincisindən daha mükəmməl və daha fəzilətlidir.

Sonra Cəbrail عليه السلام: **"Mənə Qiyamət saatı haqqında xəbər ver"– dedi",** yəni insanların dirildilib, əməllərinin haqq-hesabını çəkəcəkləri Qiyamət vaxtının nə zaman olacağını söylə. Peyğəmbər ﷺ də ona: **"Bu haqda soruşulan soruşandan çox bilmir"– dedi",** yəni özünün Cəbraildən عليه السلام daha bilgili olmadığını bildirdi. Yəni, "Ey Cəbrail! Əgər sən bunu bilmirsənsə, mən də, həmçinin, bilmirəm!" Biri insanlardan, digəri də mələklərdən olan bu iki elçi, elçilərin ən fəzilətliləridir. Buna rəğmən onlardan hər biri, Qiyamətin nə zaman qopacağını bilmədiyini söyləyir. Çünki Qiyamət haqqında bilgi, onu gətirəcək uca Allahın yanındadır. Uca Allah bir çox ayələrdə bu haqda xəbər verir: **"Səndən** ***Qiyamət*** **saatı barəsində soruşurlar ki, nə vaxt qopacaq? De: "Bu haqda bilgi ancaq Rəbbimə aiddir."**[1] O, həmçinin buyurur: **"Camaat sənə** ***Qiyamət*** **saatı barədə sual verir. De: "Onu yalnız Allah bilir!"**[2] Yəni Qiyamət haqqında bilgi yalnız Allaha aiddir. Odur ki, Qiyamətin nə zaman qopacağını bildiyini iddia edən insan yalançı sayılır. Ən fəzilətli elçilər sayılan Rəsulullahın ﷺ və Cəbrailin عليه السلام bu haqda bilgisi olmadığı halda, bu adam onu necə bilə bilər?!

Lakin Qiyamət gününün qopacağına işarə edən neçə-neçə əlamətləri var. Bu xüsusda uca Allah belə buyurur: **"Yoxsa** ***kafirlər Qiyamət***

---

[1] əl-Əraf, 187.

[2] əl-Əhzab, 63.

**saatının qəfildən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər?! Artıq onun əlamətləri gəlmişdir."**[1]

Odur ki, Peyğəmbər ﷺ Qiyamətin nə zaman qopacağını bilmədiyini Cəbrailə عليه السلام söylədikdə, o: **"Mənə onun əlamətləri haqqında xəbər ver"**– dedi. Yəni, onun yaxınlaşdığını bildirən əlamətləri haqqında xəbər ver. Peyğəmbər ﷺ də belə cavab verdi: **"O vaxt ki, cariyə öz sahibini dünyaya gətirəcək və sən ayaqyalın, çılpaq və kasıb çobanların hündür binalar tikməkdə yarışdıqlarını görəcəksən."**

**Birincisi: "Cariyə öz sahibini dünyaya gətirəcək**", yəni vəziyyət o qədər dəyişəcək ki, bir cariyədən dünyaya gələn qız, zəngin olaraq digər cariyələr üzərində hökmranlıq edəcək. Bu, mal-dövlətin artmasına işarədir.

**İkincisi** də həmçinin: **"Sən ayaqyalın, çılpaq və kasıb çobanların hündür binalar tikməkdə yarışdıqlarını görəcəksən."** Yəni imkansızlıqdan dolayı ayağına ayaqqabı, əyninə də paltar tapa bilməyən kasıblar hündür binalar tikməkdə yarışacaqlar. Yəni bunlar, tez bir zamanda zəngin olub, yüksək binalar tikməkdə maddi və mənəvi yöndən bir-biriləri ilə yarışacaqlar. Maddi yöndən yüksək binalar tikməkdə yarışmaları, getdikcə o binaların mərtəbələrini artırmalarıdır; mənəvi baxımdan yüksək binalar tikməkdə yarışmaları isə, bu binaları gözəl şəkildə tikmələri, onları cürbəcür bəzəklərlə bəzəmələri, içərisini də dəbdəbəli əşyalarla doldurmalarıdır. Çünki onlar çox zəngin olacaqlar. Bunlar artıq baş vermişdir.

Bu əlamətlərdən başqa, İslam alimlərinin öz kitablarında – "Hərcmərcliklər", "Fitnələr" və "Qiyamətin əlamətləri" adlı bölümlərdə zikr etdikləri daha çox əlamətlər var.

Sonra Cəbrail عليه السلام çıxıb getdi. Səhabələr bir müddət gözlədikdən sonra Peyğəmbər ﷺ Ömərdən رضي الله عنه soruşdu: **"Ey Ömər, bilirsən, sual verən kim idi?"** Ömər رضي الله عنه dedi: "Allah və Onun rəsulu daha yaxşı bilir!" Onda Peyğəmbər ﷺ belə buyurdu: **"O, Cəbrail idi. Sizə dininizi öyrətməyə gəlmişdi."**

Hədisdən çıxan bəzi faydalar bunlardır:

---

[1] Muhəmməd, 18.

**1.** Tələbələri yoxlamaq məqsədilə onlara sual vermək. Necə ki, Rəsulullah ﷺ Ömərə رضي الله عنه sual vermişdir.

**2.** Adamın: "Allah və Onun rəsulu daha yaxşı bilir!" deməsi caizdir. "Allah, sonra Onun rəsulu daha yaxşı bilir!" demək şərt deyil. Çünki Rəsulullaha ﷺ nazil edilən şəriət elmi də Allahın elmindəndir. Dolayısıyla: "Allah və Onun rəsulu daha yaxşı bilir!" deməkdə heç bir qəbahət yoxdur. Necə ki, uca Allah: **"Kaş ki, onlar Allahın və Onun rəsulunun onlara verdiyinə razı qalardılar..."[1] –** demişdir. Belə ki, uca Allah "sonra Onun rəsulunun onlara verdiyinə"– deməmişdir. Çünki burada "onlara verdiyinə" deyildikdə, şəriətə aid olanları vermək qəsd edilir. Rəsulullahın ﷺ şəriətə uyğun verdiyi isə, elə Allahın verdiyinə aiddir.

Dolayısıyla, şəri məsələlərdə "sonra" demədən bir başa "Allah və Onun rəsulu" demək caizdir. Lakin istəmək kimi kovni,[2] məsələlərdə: "Allah və Onun rəsulu" yox, "Allah, sonra Onun rəsulu" deyilməlidir. Elə buna görə də, Rəsulullah ﷺ, ona: "Allah və sən istəsən!"– deyən adama: **"Məni Allaha şərik qoşdun?! Əksinə, "Yalnız Allah istəsə"– de!"[3]** – demişdir.

**3.** Həmçinin, bu dəlildir ki, adam, məclis iştirakçıları fayda əldə etsinlər deyə, bildiyi bir şey barəsində *alimə* sual verərsə, bunu olanlara öyrətmiş olur. Çünki bu hadisədə suallara cavab verən Rəsulullah ﷺ, sual verən Cəbrail عليه السلام idi. Cəbrail عليه السلام bunları səhabələrə özü, bilavasitə öyrətməsə də, onların bu cavablardan faydalanmasına səbəbkar olmuşdur.

Bəzi alimlər deyirlər ki: "Elm tələbəsi, bir alimin məclisində iştirak etdikdə, məclisdəkilərin faydalanması üçün, onlara bilmədiklərini öyrətmək məqsədilə, özünün bildiyi və onlar üçün əhəmiyyətli olan məsələlər barədə alimə suallar verə bilər.

**4.** Bu hədis həm də, elmin bərəkətli olmasına, habelə, sual verənin də, cavab verənin də bu elmdən fayda əldə etməsinə dəlalət edir. Necə ki, Rəsulullah: **"O, sizə dininizi öyrətməyə gəlmişdi"**– demişdir.

---

[1] ət-Tovbə, 59.

[2] Allahın əzəli istəyi ilə əlaqəli olan işlər.

[3] Musnəd imam Əhməd, 1/214.

**5.** Bu, həmçinin dəlildir ki, bu, bütün dini özündə əhatə edən əzəmətli bir hədisdir. Elə buna görə də, Rəsulullah ﷺ: **"O, sizə dininizi öyrətməyə gəlmişdi"**– demişdir. Çünki bu hədis, həm əqidə məsələlərinin, həm də şəri əməllərin əsaslarını əhatə edir. Əqidə məsələlərinin əsasları, imanın altı rüknü, şəri əməllərin əsasları da İslamın beş rüknüdür. Müvəffəqiyyət uca Allahdandır.

٦١ - عن أبي ذَرٍّ جُنْدُبِ بْنِ جُنَادَةَ، وأبي عبْدِ الرَّحْمنِ مُعاذِ بْنِ جبل رضي الله عنهما، عنْ رسولِ اللَّهِ ﷺ قال: « اتَّقِ اللَّهَ حَيْثُمَا كُنْتَ وأَتْبِعِ السَّيِّئَةَ الْحسنةَ تَمْحُهَا، وخَالقِ النَّاسَ بخُلُقٍ حَسَنٍ » رواهُ التِّرْمذيُّ وقال: حديثٌ حسنٌ.

**61.** Əbu Zər Cundub ibn Cunadə və Əbu Abdurrəhman Muaz ibn Cəbəl رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Harada olursan, ol Allahdan qorx! Pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın. Və bir də insanlarla gözəl əxlaqla davran!"**

Bu hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, "həsən" hədisdir."[1]

**Şərh:**

Bu hədis, müəllifin رحمه الله "Nəvəvinin qırx hədisi" kitabında da nəql edilmişdir. Bu hədisdə Rəsulullah ﷺ üç dəyərli tövsiyə etmişdir:

**Birinci tövsiyə: "Harada olursan, ol Allahdan qorx!"**

Allahdan qorxmaq (təqva); haramlardan çəkinmək və əmrləri yerinə yetirməkdir. Təqva budur ki, sırf Allah rizası üçün və Rəsulullahın ﷺ sünnəsinə tabe olaraq Allahın əmrlərini yerinə yetirəsən və sırf Allah rizası üçün Onun qadağan etdiklərindən çəkinəsən, haram buyurduqlarından da uzaq durasan. Məsələn, şəhadət kəlməsindən sonra İslamın ən əzəmətli rüknü sayılan namazın bütün şərtlərinə, rüknlərinə, vaciblərinə və onu tamamlayan sünnələrə riayət edərək onu kamil şəkildə yerinə yetirməlisən. Hər kim namazın şərtlərindən və ya vaciblərindən, yaxud rüknlərindən hər hansı birini yerinə yetirməzsə, Allahdan qorxmuş sayılmaz, əksinə, Allahın namaz xüsusunda ona buyur-

---

[1] Sunən ət-Tirmizi, 1987; Musnəd İmam Əhməd, 5/153; 158, 228; Səhih əl-Cami, 97.

duqlarından nə qədər tərk edərsə, bir o qədər də təqvasında naqislik olar.

Zəkat xüsusunda Allahdan qorxmağa gəlincə, gərək, zəkat verilməsi vacib olan mallarının hamısını hesablayıb, zəkatını könül xoşluğu ilə, xəsislik və simiclik etmədən, habelə, sonraya saxlamadan sahiblərinə verməlisən. Kim bunları etməzsə, Allahdan qorxmuş sayılmaz.

Oruc xüsusunda Allahdan qorxmağa gəlincə, onu əmr olunduğu kimi tutmalı – orucun savabını əksildən, onun ruhunu və əsl mənasını yox edən boş sözlər danışmaq, söyüş söymək, bağırmaq, qeybət qırmaq, söz gəzdirmək və başqa bu kimi əməllərdən uzaq durmalısan. Yəni Allahın haram buyurduqlarından çəkinərək oruc tutmaq gərəkdir.

Həmçinin, digər vacib əməlləri də, uca Allaha itaət edərək, Onun əmrlərini yerinə yetirərək, ixlasla və Rəsulullahın ﷺ sünnəsinə tabe olaraq yerinə yetirməlisən. Habelə, qadağan olunmuş əməlləri də, Allaha itaət edərək tərk etməlisən.

**İkinci tövsiyə: "Pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın."** Yəni bir pislik etdikdə, ardından bir yaxşılıq et. Belə ki, yaxşılıqlar pislikləri silib aparır. Pis əməllərin ardından Allaha tövbə etmək də, pisliyin ardınca yaxşılıq etməyə aiddir. Çünki tövbə, ən üstün olan yaxşılıqlardandır. Bu xüsusda uca Allah belə buyurur: **"Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da."**[1] O, həmçinin buyurur: **"Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız."**[2]

Həmçinin, saleh əməllər də, pislikləri silib aparır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Böyük günahlardan çəkinildiyi təqdirdə, beş *vaxt* namaz, *bunların arasındakı günahlar üçün*, habelə cümə namazı, növbəti cüməyədək və Ramazan ayı, növbəti Ramazan ayınadək arada olan *kiçik günahlar üçün* kəffarədir."**[3] O həmçinin demişdir: **"Ümrə ziyarəti, növbəti ümrəyədək arada olan *kiçik günahlar üçün* kəffarədir."**[4] Demək, yaxşılıqlar, pislikləri silib aparır.

---

[1] əl-Bəqərə, 222.
[2] ən-Nur, 31.
[3] Səhih Muslim, 233.
[4] Səhih əl-Buxari, 1773; Səhih Muslim, 1349.

**Üçüncü tövsiyə: “İnsanlarla gözəl əxlaqla davran!”** İlk iki tövsiyə, Xaliqə olan münasibətə, üçüncü tövsiyə isə məxluqata olan münasibətə aiddir. İnsanlarla elə gözəl rəftar etməlisən ki, bu əmələ görə səni tərifləsinlər, ona görə səni pisləməsinlər. Dolayısıyla, gülər üzlü olmalı, doğru danışmalı, xoş sözlər söyləməli və başqa bu kimi gözəl əxlaqla davranmalısan. Gözəl əxlaqın fəzilətinə dair bir çox hədislər varid olmuşdur. Hətta hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Möminlərin iman baxımından ən kamil olanı, əxlaqı ən gözəl olanlarıdır!”[1]** Başqa bir hədisdə də Rəsulullah ﷺ, Qiyamət günü məclisinə görə ona ən yaxın olanlarının, əxlaqı ən gözəl olanları olacaqlarını xəbər vermişdir.[2]

Gözəl əxlaq, cəmiyyət arasında gözəl məslək sayıldığına görə, belə əxlaq sahibini insanlar daim sevərlər. Belə əxlaq sahibi Qiyamət günü böyük savaba nail olar. Elə isə Peyğəmbərin ﷺ bu üç tövsiyəsini yadınızda saxlayın: Harada olursan, ol Allahdan qorx! Pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın. Və bir də insanlarla gözəl əxlaqla davran! Müvəffəqiyyət Allahdandır.

٦٢ - عن ابنِ عبَّاسٍ، رضي الله عنهما، قال: « كُنْتُ خَلْفَ النَّبِيِّ ﷺ يوْماً فَقال: « يَا غُلامُ إِنِّي أُعلِّمكَ كَلِمَاتٍ: « احْفَظِ اللَّهَ يَحْفَظْكَ احْفَظِ اللَّهَ تَجِدْهُ تُجَاهَكَ، إِذَا سَأَلْتَ فَاسْأَلِ اللَّه، وَإِذَا اسْتَعَنْتَ فَاسْتَعِنْ بِاللَّهِ، واعلَمْ: أَنَّ الأُمَّةَ لَو اجتَمعتْ عَلَى أَنْ ينْفعُوكَ بِشيْءٍ، لَمْ يَنْفعُوكَ إِلاَّ بِشَيْءٍ قَد كَتَبَهُ اللَّهُ لَكَ، وإِنِ اجْتَمَعُوا عَلَى أَنْ يَضُرُّوك بِشَيْءٍ، لَمْ يَضُرُّوكَ إِلاَّ بَشَيْءٍ قد كَتَبَهُ اللَّه عليْكَ، رُفِعَتِ الأَقْلامُ، وجَفَّتِ الصُّحُفُ».

رواهُ التِّرمذيُّ وقَالَ: حديثٌ حسنٌ صَحيحٌ.

وفي رواية غيرِ التِّرْمِذيِّ: « احفظِ اللَّهَ تَجِدْهُ أَمَامَكَ، تَعَرَّفْ إِلَى اللَّهِ في الرَّخَاءِ يعرِفْكَ في الشِّدةِ، واعْلَمْ أَنّ مَا أَخْطَأَكَ لَمْ يَكُنْ لِيُصيبَك، وَمَا أَصَابَكَ لمْ يَكُن لِيُخْطِئَكَ، واعْلَمْ أنّ النَّصْرَ مَعَ الصَّبْرِ، وأَنَّ الفَرَجَ مَعَ الكَرْب، وأَنَّ مَعَ الْعُسرِ يُسْراً ».

---

[1] Sunən ət-Tirmizi, 2612; Sunən Əbu Davud, 4682; Musnəd imam Əhməd, 6/47; Səhih əl-Cami, 1230, 1231, 1232.

[2] Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: “Sizin mənə ən sevimli və Qiyamət günü məclisinə görə mənə ən yaxın olanınız, əxlaqı ən gözəl olanlarınızdır” (Sunən ət-Tirmizi, 6035; Silsilə əl-Əhadis əs-Səhihə, 791).

**62.** Rəvayət edilir ki, İbn Abbas ﷺ demişdir: "Bir gün mən Peyğəmbərin ﷺ arxa tərəfində ikən, o mənə belə buyurdu: **"Oğul bala, gəl sənə bəzi kəlmələr öyrədim: "Allahı qoru ki, O da səni qorusun. Allahı qoru ki, Onu qarşında görəsən. İstədikdə, yalnız Allahdan istə. Kömək dilədikdə də ancaq Allahdan kömək dilə. Bil ki, bütün ümmət sənə xeyir vermək üçün toplansa belə, Allahın sənin lehinə yazdığı xeyirdən başqa bir şeylə sənə fayda verə bilməzlər. Habelə, onlar sənə zərər vurmaq üçün toplansalar belə, Allahın sənin əleyhinə yazdığından başqa bir şeylə sənə zərər yetirə bilməzlər. Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur."**

Bu hədisi Tirmizi ﷺ rəvayət etmiş və: "hədis həsən-səhih"dir"– demişdir.[1]

Tirmizidən başqalarının rəvayət etdiyi hədisdə də xəbər verilir ki, Peyğəmbər ﷺ demişdir: **"Allahı qoru ki, Onu önündə görəsən. Xoş gündə Allahı tanı ki, dar gündə, O da səni tanısın. Bil ki, sənin qədərinə yazılmamış bir şey, sənin başına gələ bilməz, həmçinin, qədərinə yazılmış bir şey də səndən yan keçməz. Bil ki, səbrin ardından qələbə, kədərin ardından sevinc, çətinliyin ardından da asanlıq gəlir."**[2]

**Şərh:**

**"Mən Peyğəmbərin ﷺ arxa tərəfində ikən"**, yəni minik üzərində onun arxasında oturmuşdum.

"O mənə belə buyurdu: **"Oğul bala, gəl sənə bəzi kəlmələr öyrədim: "Allahı qoru ki, O da səni qorusun."** Peyğəmbər ﷺ İbn Abbasa ﷺ: **"Oğul bala!"** deyə müraciət edir. Çünki İbn Abbas ﷺ azyaşlı idi. Rəsulullah ﷺ vəfat etdikdə həddi buluğa yeni çatmışdı; yəni on beş-on altı yaşlarında, yaxud daha kiçik idi. O, minik üzərində, Rəsulullahın ﷺ arxasında ikən Rəsulullah ﷺ ona belə xitab etdi: **"Oğul bala, gəl sənə bəzi kəlmələr öyrədim: "Allahı qoru ki, O da səni qorusun."** Bu, şox dəyərli və əzəmətli bir sözdür: **"Allahı qoru!"** Yəni, Allahın əmrlərini yerinə yetirib, qadağan etdiklərindən çəkinməklə, habelə, ibadət etmə-

---

[1] Sunən ət-Tirmizi, 2516; Musnəd İmam Əhməd, 1/293; Səhih əl-Cami, 7957.

[2] Musnəd İmam Əhməd, 1/307; əl-Mocəm əl-Kəbir, Təbərani, 11243; Silsilə əl-Əhadis əs-Səhihə, 2382.

yin və insanlarla davranmağın üçün Onun dinindən və şəriətindən lazım olan bilgiləri öyrənməklə, Onun şəriətini və dinini qoru. Çünki bunların hamısı, Allahı qorumağa aiddir. Düzdür, Allahın Özünün qorunmağa ehtiyacı yoxdur, lakin burada "Allahı qoru!" deyildikdə, Onun dinini və şəriətini qorumaq nəzərdə tutulur. Necə ki, uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Əgər siz Allaha kömək göstərsəniz, Allah da sizə kömək göstərər..."**[1] Bu, heç də, Allahın Özünə kömək göstərmək, demək deyil. Çünki uca Allahın heç kimin köməyinə ehtiyacı yoxdur. Odur ki, başqa bir ayədə uca Allah belə buyurur: **"Əgər Allah istəsəydi, onlardan *döyüşsüz də* intiqam alardı."**[2] Yəni onlar Allahdan qaçıb qurtula bilməzdilər. Başqa bir ayədə O buyurur: "**Göylərdə və yerdə Allahdan qaçıb xilas ola biləcək heç bir şey yoxdur.**"[3]

Demək: **"Allahı qoru ki, O da səni qorusun"** cümləsinin mənası budur ki; insan, Allahın dinini qoruduqca, Allah da onun canını, malını, ailəsini və dinini qoruyar. Ən önəmlisi də sonuncusudur – səni dinində sabit etməsi. Yəni səni haqq yoldan sapmaqdan və zəlalətə düşməkdən qoruyar. Belə ki, insan doğru yolla irəlilədikcə, Allah onun hidayətini artırar. Bu xüsusda uca Allah belə buyurur: **"Doğru yolla gedənlərə gəldikdə isə, *Allah* onlara hidayətini artırar və onları təqvalı olmağa müvəffəq edər."**[4] Eləcə də, insan doğru yoldan sapdıqca, Allah onun sapqınlığını artırar. Necə ki, hədislərin birində buyurulur: **"Adam bir günah işlədikdə, qəlbində qara bir nöqtə əmələ gələr. Əgər o, bu günahdan uzaqlaşıb, Allahdan bağışlanma diləyər və tövbə edərsə, qəlbi tərtəmiz olar. Yox əgər yenə günah işlər görərsə, o nöqtələr artar və axırda, onun qəlbini tamamilə qaplayar."**[5] Yəni ikinci günahı etdikdə, qəlbində ikinci nöqtə, sonra üçüncü, dördüncü nöqtələr əmələ gələr və beləcə, nöqtələrin sayı o qədər artar ki, axırda qəlbi möhürlənər. Allahdan afiyət diləyirik.

---

[1] Muhəmməd, 7.

[2] Muhəmməd, 4.

[3] Fatir, 44.

[4] Muhəmməd, 17.

[5] Sunən ət-Tirmizi, 3334; Sunən İbn Macə, 4244; Musnəd İmam Əhməd, 2/297; şeyx Albani bu hədisin "həsən" olduğunu demişdir: Səhih əl-Cami, 1670.

Xülasə budur ki, Allah sizin dininizi, canınızı, malınızı, və ailənizi qorusun. Bunların ən önəmlisi isə dinin qorunmasıdır. Allahdan istəyimiz budur ki, hamımızın dinini qorusun!

**"Allahı qoru ki, Onu qarşında görəsən",** digər rəvayətdə də: **"Allahı qoru ki, Onu önündə görəsən"**– deyilir. Yəni Allahın əmrlərini yerinə yetirib, qadağan etdiklərindən çəkinməklə, Onun şəriətini qoru ki, Onu qarşında və önündə tapasan. İkisinin də mənası eynidir. Yəni Allahı qarşında görəsən; səni hər cür xeyirə yönəltsin və hər cür şəri səndən dəf etsin. Xüsusilə də, Allahdan kömək diləməklə Onun dinini qorumağın yaxşıdır. Çünki insan Allahdan yardım diləyib Ona təvəkkül edərsə, Allah ona yetər, yəni kifayət edər. Kimə də Allah yetərsə, o insan, Allahdan başqa kimsəyə möhtac olmaz. Bu xüsusda uca Allah belə buyurur: **"Ey Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə Allah yetər."**[1] O, həmçinin buyurur: **"Əgər onlar səni aldatmaq istəsələr, *bil ki,* sənə Allah yetər."**[2] Və əgər Allah insana yetərsə, yəni kifayət edərsə, ona heç bir zərər toxunmaz. Odur ki, Rəsulullah ﷺ: **"Allahı qoru ki, Onu qarşında görəsən"** yaxud **"önündə görəsən"** – deyir. **"Allahı qoru"** deyildikdə, Onun dinini və şəriətini qorumaq nəzərdə tutulur; ələlxüsus da, Ona təvəkkül etmək və Ondan kömək diləməklə.

Sonra Rəsulullah ﷺ ona: **"İstədikdə, yalnız Allahdan istə"** buyurdu. Yəni heç bir məxluqa güvənmə, istədikdə, yalnız Allahdan istə. Məsələn, heç bir malı olmayan kasıb bir insan: "Allahım, mənə ruzi ver! Mənə ruzi qazanmaq yolunu asanlaşdır!"– deyə dua etdikdə, ona gözləmədiyi yerdən ruzi gələr. Lakin insanlardan istəsə, onlar ona istədiyini verə də bilər, verməyə də bilər. Odur ki, hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Birinizin ip götürüb bir şələ odun yığıb belində *bazara satmaq üçün* aparması, onun üçün kiməsə ağız açmaqdan daha xeyirlidir. Bir də ki, bilmək olmaz, *o adam* ona istədiyini verəcək, ya imtina edəcək."**[3]

---

[1] əl-Ənfal, 64.

[2] əl-Ənfal, 62.

[3] Səhih əl-Buxari, 1470.

Siz də, həmçinin, istədikdə yalnız Allahdan istəyin və: "Allahım, mənə ruzi ver!" "Allahım, Öz lütfün sayəsində məni Özündən başqasına möhtac eləmə!" və başqa buna bənzər dualarla Allaha üz tutun.

**"Kömək dilədikdə də ancaq Allahdan kömək dilə."** Yəni, məcbur qalmadıqca, heç bir insandan kömək istəmə. Bir adamdan kömək istəmək məcburiyyətində qaldıqda da, onu güvənc yeri kimi qəbul etmə, onu sadəcə bir vəsilə və səbəb kimi qəbul et. Qoy əsl güvənc yerin Allah olsun.

İstədikdə, yalnız Allahdan istə. Kömək dilədikdə də ancaq Allahdan kömək dilə. Bu iki cümlə dəlildir ki, insanın Allahdan başqasından istəməsi, onun tövhidinin naqisliyi üzündəndir. Odur ki, istər az miqdarda olsun, istərsə də çox, hər bir halda Allahdan başqasından kömək diləmək bəyənilmir. Yalnız Allahdan istəməli və yalnız Ondan kömək diləməlisən.

Uca Allah sənə kömək etmək istəsə, bunu məlum olan və ya məlum olmayan səbəblərlə sənin üçün asanlaşdırar. Bəzən uca Allah sənə məlum olmayan bir səbəblə sənə kömək edərək heç kəsin dəf etməyə gücü yetməyəcəyi bir bəlanı səndən dəf edir. Bəzən də bir qulunun əli ilə sənə kömək edir; onu sənə ram edir və sənə tabe edir ki, o sənə yardım etsin. Lakin bununla belə, – Allah bir kimsənin əli ilə sənə kömək etdikdə, əsl kömək edəni – yəni Allahı unutmamalısan. Necə ki, bu günkü gün bəzi cahillər, kafir dövlətdən yardım aldıqda, onlara etimad edir, Allaha olan etimadları zəifləyir və bilmirlər ki, kafirlər onlara yardım etsələr də, etməsələr də, onlar Qiyamət gününə qədər bunların düşmənidir. Əksinə, fayda verən də, zərər vuran da, yalnız uca Allahdır. Kafirlərin sizə kömək etməsi isə, Allahın onları Öz mömin qullarına ram etməsidir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Şübhəsiz ki, Allah bu dini günahkar bir adamın vasitəsilə də, qüvvətləndirir."**[1] Elə isə, bizə vacibdir ki, o kafirləri bizim tabeçiliyimizə verən Allahın lütfünü unutmayaq, üstəlik, kafirlərə etimad edib: "Bizə yüzdə yüz yardım edən məhz onlardır. Əvvəldə də, axırda da, bizə kömək edən ancaq onlardır"– deyən bir adam gördükdə, ona, bu cür etiqadın tövhidə xələl gətirdiyini bəyan edək.

---

[1] Səhih əl-Buxari, 6606; Səhih Muslim, 111.

**"Bil ki, bütün ümmət sənə xeyir vermək üçün toplansa belə, Allahın sənin lehinə yazdığı xeyirdən başqa bir şeylə sənə fayda verə bilməz."** Peyğəmbər ﷺ bununla bildirmək istəyir ki, insanların hamısı yığışıb sənə bir fayda vermək istəsə, Allahın sənin xeyrinə yazdığından başqa bir şeylə sənə fayda verə bilməzlər. Onların sənə bir xeyiri dəydikdə, bil ki, bu, Allahdandır. Çünki bunu əzəldən sənin qədərinə yazan Odur. Peyğəmbər ﷺ: "Bütün ümmət sənə xeyir vermək üçün toplansa belə, sənə fayda verə bilməz"– deməmişdir, əksinə, **"Allahın sənin lehinə yazdığı xeyirdən başqa bir şeylə sənə fayda verə bilməz"**– demişdir.

Şübhəsiz ki, insanlar bir-birilərinə fayda verir, bir-birilərinə kömək edir və bir-birilərinə dəstək olurlar. Lakin bütün bunlar, yenə Allahın insan üçün əzəldən yazdığı qədərə aiddir. Demək, bu işdə ilk əvvəl lütf sahibi olan Allahdır. Sənə fayda verəcək, sənə yaxşılıq edəcək və sənin sıxıntını aradan qaldıracaq kimsəni sənə ram edən də, yenə Allahdır. Həmçinin, bunun əksi də belədir; yəni insanların hamısı sənə zərər vurmaq üçün toplansalar belə, Allahın sənin əleyhinə yazdığından başqa bir şeylə sənə zərər yetirə bilməzlər.

Buna iman gətirmək, insandan, yalnız Rəbbinə bağlanmasını, yalnız Ona təvəkkül etməsini və Ondan başqa heç kəsə arxayın olmamasını tələb edir. Çünki iman gətirən adam yəqin bilir ki, məxluqatın hamısı ona zərər yetirmək üçün əlbir olsalar belə, Allahın onun əleyhinə yazdığından başqa bir şeylə ona zərər yetirə bilməzlər. Belə olduğu təqdirdə, o, ümidini yalnız Allaha bağlayır, Ondan möhkəm tutur və ona qarşı toplaşmış kimsələrə məhəl qoymur. Odur ki, biz, bu ümmətin sələfilərinin Allaha etimad edib Ona təvəkkül etdiklərinə görə, hiylə quranların hiyləsinin, həsəd aparanların da həsədinin onlara zərər vermədiyini görürük: **"Əgər səbir etsəniz və *Allahdan* qorxsanız, onların hiyləsi sizə heç bir zərər yetirməz. Şübhəsiz ki, Allah onların etdiklərini əhatəyə almışdır."**[1]

Sonra Peyğəmbər ﷺ buyurur: **"Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur."** Yəni Allahın əzəldən yazdığı, artıq sona çatmışdır. Səhi-

---

[1] Ali-İmran, 120.

fələrdəki mürəkkəb qurumuş və bir daha gözdən keçiriləcək bir şey qalmamışdır. Necə ki, ikinci rəvayətdə deyilir: "**Bil ki, sənin qədərinə yazılmamış bir şey, sənin başına gələ bilməz...**"

Həmçinin, ikinci rəvayətdə Peyğəmbər ﷺ belə buyurur: **"Bil ki, səbrin ardından qələbə, kədərin ardından sevinc, çətinliyin ardından da asanlıq gəlir"**, yəni yəqin bil ki, səbrin ardından qələbə gəlir. Əgər səbir etsən və Allahın əmr etdiyi, qələbə qazanmağa səbəb olan vasitələrdən tutsan, Allah mütləq sənə kömək edər.

Buradaki səbir; həm Allaha itaətdə səbir etməyi, həm Ona asi olan işlərdən çəkinməkdə səbir etməyi, həm də müsibətlər qarşısında səbir etməyi əhatə edir. Belə ki, düşmən adamı hər yöndən sarsıda bilər; bəzən adam düşmənə qalib gələ bilməyəcəyini düşünür və ruhdan düşərək cihadı tərk edir; bəzən döyüşə başlayır, lakin döyüş əsnasında əziyyətə məruz qaldıqda, yenə ruhdan düşüb döyüşü dayandırır; bəzən də döyüşür və düşməndən aldığı yaralara məruz qalır. Belə halda səbir etməsi vacibdir. Bu xüsusda uca Allah belə buyurur: **"Əgər siz *Uhud döyüşündə* yara almışsınızsa, *albəttə, düşməniniz olan* o qövm də bu cür yara almışdı."**[1] O, həmçinin buyurur: **"*Kafir* qövmü təqib etməkdə zəiflik göstərməyin. Əgər siz *döyüşdə* ağrı-acı çəkirsinizsə, onlar da sizin kimi ağrı-acı çəkirlər. *Fəqət* siz onların ummadıqlarını Allahdan umursunuz. Allah *hər şeyi* biləndir, hikmət sahibidir."**[2] Əgər adam səbir etsə, düşmən qarşısında dözümlü olsa və mübarizəsinə davam etsə, uca Allah ona kömək edər.

Sonra Rəsulullah ﷺ buyurur ki: **"Kədərin ardından sevinc gəlir."** Sıxıntılar nə qədər çoxalar və insan nə qədər çox sıxılarsa, sevinc də bir o qədər yaxın olar. Çünki uca Allah Öz kitabında belə buyurur: **"Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir?! Heç Allahla yanaşı başqa bir məbud varmı?! Siz necə də az düşünürsünüz?!"**[3] Beləcə, hər dəfə sıxıntılar artdıqca, Allah tərəfindən sevinc gələcəyini gözləyin.

---

[1] Ali-İmran, 140.

[2] ən-Nisa, 104.

[3] ən-Nəml, 62.

Rəsulullahın ﷺ: “**çətinliyin ardından da asanlıq gəlir**” sözündən aydın başa düşülür ki, hər çətinlikdən sonra asanlıq vardır. Hətta hər çətinlik, biri əvvəlində, digəri də sonrasında olan iki asanlıqla əhatə edilmişdir. Bu xüsusda uca Allah belə buyurur: **“Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir.”**[1] İbn Abbas رضي الله عنهما demişdir: “Bir çətinlik, iki asanlığı məğlub edə bilməz.”

Hər bir müsəlman Rəsulullahın ﷺ Abdullah ibn Abbasa رضي الله عنهما etdiyi bu tövsiyələr barədə daim düşünməli, öz əmisi oğluna etdiyi bu dəyərli nəsihətlərdən möhkəm tutmalıdır.

٦٣ - عنْ أَنَس رضي الله عنه قالَ: « إِنَّكُمْ لَتَعْمَلُونَ أَعْمَالاً هِيَ أَدَقُّ فِي أَعْيُنِكُمْ مِنَ الشَّعَرِ، كُنَّا نَعُدُّهَا عَلَى عَهْدِ رسولِ اللَّهِ ﷺ مِنَ الْمُوبِقاتِ » رواه البخاري وقال: « الْمُوبِقَاتُ » الْمُهْلِكَاتُ.

**63.** Rəvayət edilir ki, Ənəs رضي الله عنه demişdir: **“Siz tükdən daha nazik saydığınız elə əməllər edirsiniz ki, biz onu Rəsulullahın ﷺ zamanında həlak edən günahlardan hesab edərdik.”** Hədisi Buxari rəvayət etmiş[2] və “mubiqat” sözünün həlak edən günahlar olduğunu demişdir.

**Şərh:**

Ənəs ibn Malik رضي الله عنه uzun ömür yaşamış səhabələrdəndir. Rəsulullahdan ﷺ sonra doxsan ilə yaxın yaşamışdır. Onun yaşadığı *son* dövrlərdə vəziyyət o qədər dəyişmiş, insanlar o qədər korlanmışdır ki, səhabələrin رضي الله عنهم dövründə vacib hesab edilən bəzi əməllərə məsuliyyətsiz yanaşmağa başlamışlar. Məsələn, səhabələrin رضي الله عنهم dövründə camaat namazını, yalnız münafiqlər və ya üzürlü olan xəstə insanlar buraxardılar. Lakin artıq insanlar, Rəsulullahın ﷺ zamanında səhabələrin رضي الله عنهم camaat namazına məsuliyyətlə yanaşdıqları kimi yanaşmır, əksinə, səhlənkarlıq edirdilər. Bu günkü gün isə insanlar, nəinki camaatla namaz qılmağa, hətta fərz namazlarına belə məsuliyyətsiz yanaşırlar. Ya ümumiyyətlə qılmırlar, ya hərdən qılıb hərdən tərk edirlər, ya da namazı vaxtından gec qılırlar. Bu günahları etmək bəzi isanlara asan gəlir, halbuki səhabə dövründə bunlar həlak edici günahlardan sayılırdı.

---

[1] əş-Şərh, 5-6.

[2] Səhih əl-Buxari, 6492.

Həmiçinin, Peyğəmbərin ﷺ zamanında insanlara kələk gəlmək də, həlak edici günahlardan sayılırdı. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Bizə kələk gələn bizdən deyildir."**[1] Lakin bu günkü gün insanların halına baxdıqda görürsən ki, bunu bir çox günahlardan yüngül hesab edirlər. Hətta bəzi adamlar alış-veriş etdikdə və müqavilə bağladıqda kələk gəlməyi, diribaşlıq, zəkalılıq və məharət hesab edirlər. Halbuki Rəsulullah ﷺ, insanlara kələk gələn kimsələrdən uzaq olduğunu söyləmişdir.

Həmçinin, yalan danışmaq; belə ki, bu da səhabələrin رضي الله عنهم dövründə həlak edici günahlardan sayılırdı. Lakin hazırkı gün insanların çoxu bunu yüngül bir günah hesab edir. Görürsən ki, heç veclərinə almadan yalan danışırlar. Halbuki Rəsulullah ﷺ bu xususda belə buyurmuşdur: **"Adam o qədər yalan danışar və yalana can atar ki, nəhayət, Allah yanında yalançı sayılar."**[2]

Bəzən daha böyük günah qazandıracaq işlərdə yalan danışır – borc yiyəsinə borclu olduğunu inkar edir, yaxud özünə məxsus olmayan bir malın sahibi olduğunu iddia edir və mətləbinə nail olmaq üçün məhkəməyə müraciət edir, hətta iddiasını isbat etmək üçün yalandan and içirlər. Belələri, Allahın qəzəbinə uğramış halda Onun hüzuruna gətiriləcəklər.

Bunlardan başqa bir çox əməllər var ki, səhabələr رضي الله عنهم bunları həlak edici günahlardan saymış, lakin sonraki insanlar korlanmış və bu günahlar onların gözündə tükdən daha nazik hesab edilmişdir. Çünki iman nə qədər güclü olarsa, günah da insanın gözünə bir o qədər böyük görünər. İman nə qədər zəif olarsa, günah da onun gözünə bir o qədər kiçik görünər; beləliklə də, vacib əməlləri yerinə yetirməkdə səhlənkarlıq və tənbəllik edər və buna görə heç narahat da olmaz. Çünki imanı zəifdir.

---

[1] Hədisin tam variantı belədir: Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ bir ərzaq topası görüb əlini onun içinə saldı. Barmaqları yaş bir şeyə dəydikdə, o: "Bu nədir, ey mal yiyəsi?"– deyə soruşdu. Mal sahibi: "Ona yağış dəyib, ya Rəsulullah!"– deyə cavab verdi. Onda Peyğəmbər ﷺ dedi: "Bəs niyə sən onu üstə qoymursan ki, insanlar onu görə bilsin?! *Bil ki,* bizə kələk gələn bizdən deyildir" (Səhih Muslim, 102).

[2] Səhih əl-Buxari, 6094; Səhih Muslim, 2607.

٦٤ - عَنْ أبي هريْرَةَ، ﷺ، عن النبيِّ ﷺ قال: إِنَّ اللَّهَ تَعَالَى يَغَارُ، وَغَيْرَةُ اللَّهِ تَعَالَى، أَنْ يَأْتِيَ الْمَرْءُ مَا حَرَّمَ اللَّهُ عَلَيْهِ » متفقٌ عليه.

و « الْغَيْرَةُ » بفتح الغين: وَأَصلهَا الأَنَفَةُ.

**64.** Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən, uca Allah qısqanır. Adam Allahın haram buyurduqlarını etdikdə, Allah onu qısqanır."**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Hədisdə ərəbcə keçən "ğayra" kəlməsinin əsli qürur sözündəndir.

**Şərh:**

Müəllifin رحمه الله Əbu Hureyradan رضي الله عنه nəql etdiyi bu hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Həqiqətən, uca Allah qısqanır. Adam Allahın haram buyurduqlarını etdikdə, Allah onu qısqanır."**

Qısqanclıq, uca Allahın sabit olmuş həqiqi sifətidir. Fəqət Onun qısqanclığı, bizim qısqanclığımız kimi deyil, əksinə, daha əzəmətli və daha böyükdür. Uca Allah Öz hikmətinə görə qullarına bəzi şeyləri vacib, bəzi şeyləri halal, bəzi şeyləri də haram buyurmuşdur. Onun Öz qullarına vacib buyurduqları, onların həm dinləri, həm də dünyaları üçün, habelə, həm hazırkı gündə, həm də gələcəkdə onlar üçün xeyirlidir. Həmçinin, haram buyurduqları da, onların həm dinləri, həm də dünyaları üçün, habelə, həm hazırkı gündə, həm də gələcəkdə onlar üçün zərərlidir. Dolayısıyla, uca Allah, bəzi işləri qullarına haram buyurduqdan sonra, onların bunları etməsinə qısqanır. İnsan Allahın ona haram buyurduqlarını necə edə bilər?! Axı Allah bunu onun öz xeyri üçün haram buyurmuşdur. Əslində, insan öz Rəbbinə asi olmaqla, Ona heç bir zərər toxundura bilməz. Fəqət Allah bunu ona qısqanır. Axı necə ola bilər ki, insan, Allahın hikmət sahibi və mərhəmətli olduğunu, hər hansı bir şeyi Öz qullarına xəsisliyindən dolayı deyil, məhz onların xeyri üçün haram buyurduğunu bildiyi halda, Ona asilik edir?! Xüsusilə də zina məsələsində! Hədislərin birində rəvayət edilir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: **"Kişi və ya qadın qulunun zina etməsi xüsu-**

[1] Səhih əl-Buxari, 5223; Səhih Muslim, 2761.

**sunda, heç kəs Allahdan daha qısqanc ola bilməz.”**[1] Çünki zina, iyrənc bir əməl və murdar bir yoldur. Elə buna görə də uca Allah zinanı və ona səbəb olan hər bir vasitəni haram etmişdir. Bu xüsusda uca Allah belə buyurur: **“Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!”**[2] Odur ki, qul zina etdikdə, Allah onun etdiyi digər haram işlərinə-nisbətdə bu əməlinə daha çox qısqanır.

Homoseksualizm – kişinin kişi ilə yaxınlıq etməsi isə bundan daha pis və daha iyrəncdir. Odur ki, uca Allah bunun zinadan daha iyrənc olduğunu bildirir. Ayədə deyilir ki, Lut ﷺ öz qövmünə belə demişdir: **“Sizdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz?!”**[3] Bu ayədə uca Allah “əl-fahişə/iyrənc əməl” kəlməsini müəyyənlik artikli ilə, bir qədər əvvəl qeyd etdiyimiz zina ayəsində isə onu artiklsız zikr edir. Yəni zina ayəsində, zinanın iyrənc əməllərdən biri olduğu, bu ayədə isə homoseksualizmin konkret iyrənc əməl olduğu bildirilir. Allah bizi belə iyrənc əməllərdən qorusun!

Həmçinin, oğurluq etdikdə, içki içdikdə və digər haram işləri gördükdə də, Allah bunlara görə qısqanır. Fəqət günahın dərəcəsinə və onun zərərinə görə birinə o birindən daha çox qısqanır.

Bu hədis Allahın qısqanmasını isbat edir. Əhli-sünnə vəl-cəmaənin bu və buna bənzər ilahi sifətlərdən bəhs edən ayələrə və hədislərə yanaşması belədir ki, onlar, bu sifətlərin uca Allaha, – Ona layiq şəkildə aid olduğuna etiqad edir və belə deyirlər: “Allah qısqanır, lakin Onun qısqanması məxluqun qısqanması kimi deyil. Habelə, Allah sevinir, lakin Onun sevinməsi məxluqun sevinməsi kimi deyil. Uca Allahın Özünə layiq kamil sifətləri var və bunların heç biri məxluqatın sifətlərinə bənzəmir. Bu xüsusda uca Allah belə buyurur: **“Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.”**[4] Müvəffəqiyyət Allahdandır.

٦٥ - عَنْ أبي هُرَيْرَةَ رضي الله عنه أَنَّهُ سمِع النَّبِيَّ ﷺ يَقُولُ: « إِنَّ ثَلاَثَةً مِنْ بَنِي إِسْرائيلَ: أَبْرَصَ، وأَقْرَعَ، وأَعْمَى، أَرَادَ اللَّهُ أَنْ يَبْتَلِيَهُمْ فَبَعث إِلَيْهِمْ مَلَكاً، فأَتَى الأَبْرَصَ فَقَالَ: أَيُّ شَيْءٍ

---

[1] Səhih əl-Buxari, 5221; Səhih Muslim, 901.

[2] əl-İsra, 32.

[3] əl-Əraf, 80.

[4] əş-Şura, 11.

أَحبُّ إِلَيْكَ؟ قَالَ: لَوْنٌ حسنٌ، وَجِلْدٌ حَسَنٌ، ويَذْهَبُ عنِّي الَّذي قَدْ قَذِرَنِي النَّاسُ، فَمَسَحهُ فذَهَب عنهُ قذرهُ، وَأُعْطِيَ لَوْناً حَسناً. قَالَ: فَأَيُّ الْمَالِ أَحَبُّ إِلَيْكَ؟ قال: الإِبلُ - أَوْ قَالَ الْبَقَرُ - شَكَّ الرَّاوِي - فأُعْطِيَ نَاقَةً عُشراءَ، فَقَالَ: بارَك اللَّهُ لَكَ فِيها.

فأَتَى الأَقْرعَ فقَالَ: أَيُّ شَيْءٍ أَحب إِلَيْكَ؟ قال: شَعْرٌ حسنٌ، ويَذْهَبُ عنِّي هَذَا الَّذي قَذِرَنِي النَّاسُ، فَمسحَهُ، فَذَهَبَ عنْهُ. وأُعْطِيَ شَعْراً حسناً. قال فَأَيُّ الْمَالِ أَحَبُّ إِلَيْكَ؟ قال: الْبَقَرُ، فأُعطِيَ بقرةً حامِلاً، وقَالَ: بَارَكَ اللَّهُ لَكَ فِيهَا.

فَأَتَى الأَعْمَى فقَالَ: أَيُّ شَيْءٍ أَحَبُّ إِلَيْكَ؟ قال: أَنْ يردَّ اللَّهُ إِلَيَّ بَصَري فَأُبْصِرَ النَّاس. فَمَسَحَهُ فَردَّ اللَّهُ إِلَيْهِ بصَرَهُ. قال: فَأَيُّ الْمَالِ أَحَبُّ إِلَيْكَ؟ قال: الْغنمُ، فَأُعْطِيَ شَاةً والِداً. فَأَنْتجَ هذَانِ وَولَّدَ هَذا، فكَانَ لِهَذَا وَادٍ مِنَ الإِبِلِ، ولِهَذَا وَادٍ مِنَ الْبَقَرِ، وَلِهَذَا وَادٍ مِنَ الْغَنَم.

ثُمَّ إِنَّهُ أَتَى الأَبْرَصَ في صورَتِهِ وَهَيْئَتِهِ، فَقَالَ: رَجُلٌ مِسْكِينٌ قَدِ انقَطعتْ بِيَ الْحِبَالُ في سَفَرِي، فَلا بَلاغَ لِيَ الْيَوْمَ إِلاَّ باللَّهِ ثُمَّ بِكَ، أَسْأَلُكَ بِالَّذي أَعْطَاكَ اللَّوْنَ الْحَسَنَ، والْجِلْدَ الْحَسَنَ، والْمَالَ، بَعيراً أَتبلَّغُ بِهِ في سفَرِي، فقَالَ: الحقُوقُ كَثِيرةٌ. فقال: كَأَنِّي أَعْرِفُكَ، أَلَمْ تَكُنْ أَبْرص يَقْذَرُكَ النَّاسُ، فَقيراً، فَأَعْطَاكَ اللَّهُ، فقَالَ: إِنَّما وَرِثْتُ هَذا المالَ كَابراً عَنْ كابِرٍ، فقَالَ: إِنْ كُنْتَ كَاذِباً فَصَيَّرَكَ اللَّهُ إِلى مَا كُنْتَ.

وأَتَى الأَقْرَعَ في صُورَتِهِ وهيئَتِهِ، فَقَالَ لَهُ مِثْلَ ما قَالَ لِهَذَا، وَرَدَّ عَلَيْه مِثْلَ ماردَّ هَذَا، فَقَالَ: إِنْ كُنْتَ كَاذِباً فَصَيّرَكَ اللهُ إِلى مَاكُنْتَ.

وأَتَى الأَعْمَى في صُورَتِهِ وهَيْئَتِهِ، فقَالَ: رَجُلٌ مِسْكينٌ وابْنُ سَبِيلٍ، انْقَطَعَتْ بِيَ الْحِبَالُ في سَفَرِي، فَلا بَلاغَ لِيَ اليَوْمَ إِلاَّ بِاللَّهِ ثُمَّ بِكَ، أَسْأَلُكَ بالَّذي رَدَّ عَلَيْكَ بَصَرَكَ شَاةً أَتَبلَّغُ بِهَا في سَفَرِي؟ فقَالَ: قَدْ كُنْتُ أَعْمَى فَرَدَّ اللَّهُ إِلَيَّ بَصري، فَخُذْ مَا شِئْتَ وَدعْ مَا شِئْتَ، فَوَاللَّهِ ما أَجْهَدُكَ الْيَوْمَ بِشْيءٍ أَخَذْتَهُ للهِ عزَّ وجلَّ. فقَالَ: أَمْسِكْ مالَكَ فَإِنَّمَا ابْتُلِيتُمْ فَقَدْ رضيَ اللَّهُ عنك، وَسَخَطَ عَلَى صَاحِبَيْكَ » متفقٌ عليه.

« وَالنَّاقةُ الْعُشَرَاءُ » بِضم العينِ وبالمدِّ: هِيَ الحامِلُ. قولُهُ: « أَنْتجَ » وفي روايةٍ: «فَنَتَجَ » معْنَاهُ: تَوَلَّى نِتَاجَهَا، والنَّاتجُ للنَّاقةِ كالْقَابِلَةِ لَلْمَرْأَةِ. وقولُهُ: « ولَّدَ هَذا » هُوَ بِتَشْدِيدِ اللام:

أَيْ: تَولَّى وِلادَتَهَا، وهُوَ بمَعْنَى نَتَجَ في النَّاقَةِ. فالمُوَلِّدُ، والناتِجُ، والقَابِلَةُ بمَعْنى، لَكِنْ هَذا لِلْحَيَوانِ وذاكَ لِغَيْرِهِ. وقولُهُ: « انْقَطَعَتْ بِي الحِبالُ » هُوَ بالحاءِ المهملة والباءِ الموحدة: أَي الأَسْبَاب. وقولُه: « لا أَجهَدُكَ » معناهُ: لا أَشَقُّ عليْك في رَدِّ شَيْءٍ تَأْخُذُهُ أَوْ تَطْلُبُهُ مِنْ مَالِي. وفي رواية البخاري: « لا أَحْمَدُكَ » بالحاءِ المهملة والميمِ، ومعناهُ: لا أَحْمَدُكَ بِتَرْك شَيْءٍ تَحتاجُ إِلَيْهِ، كما قالُوا: لَيْسَ عَلَى طُولِ الحياةِ نَدَمٌ، أَيْ عَلَى فَوَاتِ طُولِهَا.

**65.** Rəvayət edilir ki, Əbu Hureyra ﵁ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: **"İsrail oğullarından biri albinos,[1] biri keçəl və biri də kor olan üç kişi var idi. Uca Allah onları imtahana çəkmək istədi. Odur ki, onların yanına bir mələk göndərdi. Mələk albinosun yanına gəlib: "Ən çox istədiyin şey nədir?"– deyə soruşdu. O da: "Gözəl rəng, gözəl dəri və bir də insanların məndən diksinmələrinə səbəb olan albinizmdən xilas olmaq"– deyə cavab verdi. Mələk əlini *onun bədəninə* çəkən kimi bu çirkinlik yox oldu və bədəninə gözəl rəng gəldi. Sonra mələk: "Ən çox sevdiyin mal nədir?"– deyə soruşdu. O da: "Dəvə və ya inək[2]"– deyə cavab verdi və beləcə, ona *qarnındakı balası* on aylıq *olan* boğaz dəvə verildi. Mələk də: "Allah bunu sənin üçün bərəkətli etsin!"– deyə dua etdi.**

**Sonra mələk keçəlin yanına gəlib: "Ən çox istədiyin şey nədir?"– deyə soruşdu. O da: "Gözəl saç və insanların məndən diksinmələrinə səbəb olan keçəllikdən xilas olmaq"– deyə cavab verdi. Mələk əlini *onun başına* çəkən kimi bu çirkinlik yox oldu və başına gözəl saç gəldi. Sonra mələk: "Ən çox sevdiyin mal nədir?"– deyə soruşdu. O da: "İnək"– deyə cavab verdi və beləcə, ona boğaz inək verildi. Mələk onun üçün də: "Allah bunu sənin üçün bərəkətli etsin!"– deyə dua etdi.**

**Sonra mələk korun yanına gəlib: "Ən çox istədiyin şey nədir?"– deyə soruşdu. O da: "Allahın gözlərimi geri qaytarması və insanları görməyim"– deyə cavab verdi. Mələk əlini *onun gözlərinə* çəkən kimi,**

---

[1] Albinizm: piqment azlığı nəticəsində dəri və saçların qeyri-normal ağlığı və gözlərin qırmızılığı. Albinos da: bu xəstəliyə tutulan adamdır.

[2] Hədisi nəql etmiş İshaq ibn Abdullah ﵀ tərəddüd edərək, albinosun və keçəlin – ikisindən birinin dəvə, digərinin isə inək istədiyini iki cür rəvayət etmişdir.

**Allah onun gözlərini qaytardı. Sonra mələk: "Ən çox sevdiyin mal nədir?"– deyə soruşdu. O da: "Qoyun"– deyə cavab verdi və beləcə, ona bala verən bir qoyun verildi. Beləcə, bu ikisinin[1] heyvanları balalayıb artdı, bunun da qoyunu doğaraq çoxaldı və beləliklə, birinin bir vadi dolu dəvə sürüsü, o birisinin bir vadi dolu naxırı, digərinin də bir vadi dolu qoyun sürüsü oldu.**

**Bir müddət sonra mələk albinosun xəstə vaxtında olduğu görkəmdə və qiyafədə onun yanına gəlib dedi: "Mən miskin bir adamam. Səfərdə mənim bütün vəsaitim tükənib. Bu gün mən gedəcəyim yerə yalnız Allahın, sonra da sənin köməyinlə gedə bilərəm. Səni and verirəm sənə gözəl rəng, gözəl dəri və *bu qədər* sərvət verən *Allaha*! Yoluma davam etmək üçün mənə bir dəvə ver." Adam: "Malımda haqqı olanlar çoxdur!"– deyə *ona kömək etməkdən* imtina etdi. Mələk dedi: "Deyəsən, mən səni tanıyıram. Sən insanların səndən diksindiyi kasıb albinos deyildinmi? Bütün bunları Allah sənə vermədimi?" O isə: "Bunlar mənə ata-babalarımdan miras qalıb"– deyə cavab verdi. Onda mələk: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!"– deyə bəd dua etdi.**

**Sonra mələk keçəlin əvvəlki halındakı görkəmdə və qiyafədə onun yanına gəlib, albinosdan kömək istədiyi kimi ondan da kömək istədi. Lakin keçəl də albinosun verdiyi cavablar kimi cavab verdi. Mələk ona da: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!"– deyə bəd dua etdi.**

**Sonra mələk korun əvvəlki halındakı görkəmdə və qiyafədə onun yanına gəlib dedi: "Mən miskin bir adamam, yolda qalmışam. Səfərdə mənim bütün vəsaitim tükənib. Bu gün mən gedəcəyim yerə yalnız Allahın, sonra da sənin köməyinlə gedə bilərəm. Səni and verirəm sənə gözlərini qaytaran *Allaha*! Yoluma davam etmək üçün mənə bir qoyun ver." Adam dedi: "*Düzdür,* mən kor idim, Allah mənim gözlərimi özümə qaytardı. İstədiyini götür, istədiyin də qalsın. Vallahi ki, bu gün izzətli və qüdrətli Allah rizası üçün götürdüyün heç bir şeydə sənə mane olmayacağam." Mələk dedi: "Malını özünə sax-**

---

[1] Dəvə və inək verilmiş o iki kimsənin.

**la. Siz imtahana çəkildiniz. Allah səndən razı qaldı, sənin iki dostuna isə qəzəbləndi.”**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Hədisdə ərəbcə keçən “ən-Nəqa əl-Uşəra” kəlməsi, boğaz dəvə; “unticə” kəlməsi, dəvənin balalayıb çoxalması; “vəllədə” kəlməsi isə qoyunun balalayıb artması deməkdir. “Unticə” və “vəllədə” kəlmələri eyni mənada olub, biri dəvənin, digəri isə qoyunun balalamasını bildirir. “Səfərdə mənim bütün vəsaitim tükənib” yəni, *bütün* səbəblər tükənib. “Lə əchədukə” yəni, mənim malımdan götürəcəyin şeyi mənə qaytarmaqda sənə çətinlik törətməyəcəm. Buxarinin rəvayətində “lə əhmədukə/sənə təşəkkür etməyəcəm” deyilir. Yəni, ehtiyacından artıq qalanları mənə tərk etdiyinə görə sənə təşəkkür etməyəcəm. Buna bənzər belə bir misal da var: Uzun ömür üçün peşmançılıq yoxdur. Yəni, ömrün çox hissəsinin keçməsində peşmançılıq yoxdur.

**Şərh:**

**“İsrail oğullarından...”** İsrail: İbrahimin عليه السلام oğlu İshaqdır عليه السلام. O, İsmailin عليه السلام qardaşıdır. Musa عليه السلام, Harun عليه السلام və İsa عليه السلام peyğəmbər, habelə, bütün İsrail oğulları İshaqın عليه السلام nəslindəndirlər.

İsmail عليه السلام İshaqın عليه السلام qardaşıdır. Dolayısıyla, İsrail oğulları ilə ərəblər, əmiuşağıdırlar. İsrail oğulları haqqında olan rəvayətlər çoxdur və bunlar üç qismə bölünür:

**Birincisi**: Quranda zikr edilən rəvayətlər;

**İkincisi:** Səhih hədislərdə varid olmuş rəvayətlər;

**Üçüncüsü:** Onların levitlərindən[2] və alimlərindən nəql edilmiş rəvayətlərdir.

Birincisinin və ikincisinin haqq olduğuna və məqbul sayıldığına heç bir şübhə yoxdur. Birincisinə, Qurandan bu ayəni misal çəkmək olar: **“Musadan sonra İsrail oğullarından olan əyanların *başına gələnləri* bilmirsənmi? O zaman onlar özlərinə *göndərilmiş* peyğəmbərə: “Bizə bir hökmdar təyin et ki, Allah yolunda döyüşək!”– dedilər...”**[3]

---

[1] Səhih əl-Buxari, 3464; Səhih Muslim, 2964.

[2] Levit: qədim yəhudilərdə ruhani.

[3] əl-Bəqərə, 246.

İkincisinə isə misal, Əbu Hureyranın ﷺ Peyğəmbərdən ﷺ rəvayət etdiyi bu hədisdir.

Onların levitlərindən və alimlərindən nəql edilmiş rəvayətlərə gəlincə, bunlar üç qismə bölünür:

**Birincisi:** İslam şəriətinin batil saydığı rəvayətlərdir ki, bunlar batil sayılır və onları rədd etmək vacibdir. Buna, Quran təfsirlərində nəql edilmiş israiliyyatlarda[1] tez-tez rast gəlmək olur. Quran təfsirlərində bir çox israiliyyatlar vardır ki, İslam şəriəti bu rəvayətlərin batil olduğuna şahidlik edir.

**İkincisi:** İslam şəriətinin doğru hesab etdiyi rəvayətlərdir ki, bunlar məqbul sayılır. Belə ki, bu rəvayətlərin məqbul sayılması israiliyyat olduğuna görə deyil, fəqət İslam şəriətinin onların doğruluğunu və haqq olduğunu təsdiqlədiyinə görədir.

**Üçüncüsü:** İslam şəriətinin nə təsdiqlədiyi, nə də təkzib etdiyi rəvayətlərdir. Bu rəvayətlər barəsində heç bir hökm verilməməli: nə təsdiqlənməli, nə də təkzib edilməlidir. Belə ki, əgər biz o rəvayətləri doğru saysaq, – ola bilər ki, əslində onlar batil olsun, beləliklə də, biz batilin doğru olduğunu təsdiqləmiş olarıq. Yox əgər onları təkzib etsək, – ola bilər ki, əslində onlar səhih olsun, beləliklə də, biz haqqı yalan saymış olarıq. Elə bu səbəbdən də, belə rəvayətlər barəsində heç bir hökm verməməliyik. Lakin buna rəğmən, yaxşı işlərə təşviq edən və pis işlərdən çəkindirən rəvayətlərini danışmaqda heç bir qəbahət yoxdur.[2]

Şərh etdiyimiz hədisdə Rəsulullah ﷺ Allahın, İsrail oğullarından üç nəfərin bədəninə xəstəlik verməklə onları sınadığını xəbər vermişdir. Bunlardan biri, albinos, ikincisi keçəl, üçüncüsü də kor idi. Allah, onları sınamaq istədi. Belə ki, Allah Öz qulunu istədiyi kimi sınağa çəkir ki, ona bəla verdikdə səbir edəyəcəyini, yoxsa gileylənəcəyini, habelə, nemət bəxş etdikdə də, şükür edəcəyini, yoxsa xəsislik edəcəyini aşkara çıxartsın.

Uca Allah mələklərdən birini onların yanına göndərmiş, mələk də onların yanına gəlib ən çox istədikləri şeyin nə olduğunu soruşmuşdur.

---

[1] İsrailiyyat: İsrail ﷺ oğullarından nəql edilmiş rəvayətlər.

[2] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"İsrail oğulları adından hekayətlər danışın və bilin ki, bunda heç bir qəbahət yoxdur"** (Səhih əl-Buxari, 3461).

Əvvəlcə albinosun yanına gəlib: "Ən çox istədiyin şey nədir?"– deyə soruşdu. O da: "Gözəl rəng, gözəl dəri və bir də insanların məndən diksinmələrinə səbəb olan albinizmdən xilas olmaq"– deyə cavab verdi. Çünki insan üçün ən önəmli şey, bədənin qüsurlardan, ələlxüsus da, insanların çirkin gördüyü qüsurlardan qurtulmasıdır. Mələk əlini onun bədəninə çəkdi və o, Allahın izni ilə sağaldı; albinizmi yox oldu, bədəninə də gözəl rəng və gözəl dəri gəldi. Sonra mələk: "Ən çox sevdiyin mal nədir?"– deyə soruşdu. O da: "Dəvə və ya inək"– deyə cavab verdi. Hədisin zahirinə əsasən onun: "Dəvə"– dediyi anlaşılır. Çünki keçələ inək verilmişdir. Buna isə ona *qarnındakı balası* on aylıq olan boğaz dəvə verildi və mələk ona: "Allah, bu dəvəni sənin üçün bərəkətli etsin"– dedi. Beləliklə onun kasıblıq və bədən xəstəliyi onu tərk etdi. Mələk də onun üçün dua etdi ki, Allah, bu dəvəni onun üçün bərəkətli etsin.

Sonra mələk keçəlin yanına gəlib: "Ən çox istədiyin şey nədir?"– deyə soruşdu. O da: "Gözəl saç və insanların məndən diksinmələrinə səbəb olan keçəllikdən xilas olmaq"– deyə cavab verdi. Mələk əlini onun başına çəkən kimi onun başına gözəl saç gəldi. Sonra mələk: "Ən çox sevdiyin mal nədir?"– deyə soruşdu. O da: "İnək"– deyə cavab verdi. Beləliklə, ona boğaz inək verildi və mələk: "Allah bunu sənin üçün bərəkətli etsin!"– deyə dua etdi.

Sonra mələk korun yanına gəlib: "Ən çox istədiyin şey nədir?"– deyə soruşdu. O da: "Allahın gözlərimi geri qaytarması və insanları görməyim"– deyə cavab verdi. Korun dediyi bu sözə diqqət edin! O, insanları görə bilmək üçün sadə bir göz istədi. (Yəni bu gözün gözəl olmasını təmənna etmədi.) Albinos ilə keçəl isə ehtiyaclarından artığını istədilər. Belə ki, albinos sadəcə dəri və rəng deyil, daha artığını, yəni bunların həm də gözəl olmasını istədi. Keçəl də sadəcə saç deyil, daha artığını, yəni bunun həm də gözəl olmasını istədi. Kor isə zahid bir adam idi. Odur ki, insanları görə bilmək üçün yalnız göz istədi.

Sonra mələk ondan: "Ən çox sevdiyin mal nədir?"– deyə soruşdu. O da: "Qoyun"– deyə cavab verdi. Bu da, həmçinin, onun zahidliyinə görə idi. Belə ki, o, dəvə və inək deyil, qoyun istədi. Qoyun isə, dəvəyə və inəyə nisbətdə dəyərsizdir. Beləcə, ona bala verən bir qoyun verildi

və mələk onun üçün də: "Allah bunu sənin üçün bərəkətli etsin!"– deyə dua etdi.

Uca Allah, birincinin dəvəsinə, ikincinin inəyinə, üçüncünün də qoyununa bərəkət verdi və bir müddət sonra hər birinin bir vadi dolu heyvanı oldu: birincinin bir vadi dolu dəvəsi, ikincinin bir vadi dolu mal-qarası, üçüncünün də bir vadi dolu qoyunu oldu.

Bir müddət sonra mələk albinosun xəstə vaxtında olduğu görkəmdə və qiyafədə – dərisi onun dərisi kimi, özü də kasıb geyimdə onun yanına gəlib dedi: "Mən miskin bir adamam. Səfərdə mənim bütün vəsaitim tükənib. Bu gün mən gedəcəyim yerə yalnız Allahın, sonra da sənin köməyinlə gedə bilərəm." Beləliklə, o, kasıb olduğunu və yolda qaldığını, yəni müsafir olduğunu, ailəsinin yanına gedib çatmaq üçün götürdüyü yol xərcinin tükəndiyini və gedəcəyi yerə yalnız Allahın, sonra da onun köməyi ilə gedə biləcəyini bildirərək ondan yardım istəyib dedi: "Səni and verirəm sənə gözəl rəng, gözəl dəri və *bu qədər* sərvət verən *Allaha*! Yoluma davam etmək üçün mənə bir dəvə ver." O isə: "Malımda haqqı olanlar çoxdur!"– deyə, bir dəvə verməyə xəsislik etdi. Halbuki onun bir vadi dolu dəvə sürüsü var idi. Lakin o: "Malımda haqqı olanlar çoxdur!"– dedi. Hədisin zahirindən belə başa düşülür ki, bu adam heç o malda haqqı olanlara da heç nə vermirmiş. Belə ki, mələyin zahiri görkəmi – onun kasıb və müsafir olması, yol xərcinin də tükənməsi, o maldan götürməyə haqqı çatdığına dəlalət edirdi. Maddi yardım edilməyə ondan daha möhtac kim ola bilərdi ki?! Lakin buna rəğmən, o, yardım etməkdən imtina etdi. Mələk bu adama onun əvvəlki halını xatırladıb dedi: "Deyəsən, mən səni tanıyıram. Sən insanların səndən diksindiyi kasıb albinos deyildinmi? Bütün bunları Allah sənə vermədimi?" Yəni, Allah sənə mal-dövlət, gözəl rəng və gözəl dəri bəxş etdi. O isə: "Bunlar mənə ata-babalarımdan miras qalıb"– deyərək, Allahın nemətini inkar etdi. Onda mələk ona belə bəd dua etdi: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!" Yəni əgər yalan deyirsənsə, Allah səni əvvəlki kasıb və xəstə halına qaytarsın! Hədisdən belə başa düşülür ki, Allah mələyin duasını qəbul etdi. Hərçənd, mələk şərt qoyaraq dua etdi, lakin bu adam yalançı olduğuna

görə buna layiq idi. Belə ki, qoyulan şərt baş verdiyi təqdirdə, barəsində şərt qoyulan kəs də buna layiq olur.

Sonra mələk keçəlin yanına gəlib, albinosa dediyini, ona da dedi. O da, albinosun verdiyi cavab kimi cavab verdi. Mələk də: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!"– deyə ona bəd dua etdi.

Sonra mələk korun yanına gəlib, ona Allahın verdiyi neməti xatırlatdı. O isə: "*Düzdür,* mən kor idim, Allah mənim gözlərimi özümə qaytardı"– deyərək, Allahın ona nemət verdiyini etiraf etdi və davam edib dedi: "İstədiyini götür, istədiyin də qalsın. Vallahi ki, bu gün izzətli və qüdrətli Allah rizası üçün götürdüyün heç bir şeydə sənə mane olmayacağam." Yəni Allah rizası üçün götürdüyün heç bir şeydə sənə əngəl törətməyəcəm və heç bir hədd qoymayacağam. Şükrə və nemətə olan etirafa bir baxın!

Mələk dedi: "Malını özünə saxla. Siz imtahana çəkildiniz. Allah səndən razı qaldı, sənin iki dostuna isə qəzəbləndi." Bu söz, bu hadisənin insanlar arasında məşhur əhvalat olduğuna dəlalət edir. Elə buna görə də: "Sənin iki dostuna qəzəbləndi" demişdir. Mələk onun malından heç bir şey götürmədi və adamın malı özünə qaldı. Üstəlik, Allah ona göz vermişdi, onu da geri almadı. O biri iki nəfərə gəlincə, hədisdən aydın olan budur ki, Allah onların hər ikisini əvvəlki kasıblığını və qüsurlarını geri qaytardı.

Bu hədis dəlildir ki, qulun, Allahın ona bəxş etdiyi nemətə şükr etməsi, o nemətin davamlı əta edilməsinə və artmasına səbəbdir. Bu xüsusda uca Allah belə buyurur: **"Bir zaman Rəbbiniz *belə* buyurmuşdur: "Əgər şükür etsəniz, sizə *olan nemətimi* artıraram, yox əgər nankorluq etsəniz, *bilin ki,* Mənim əzabım şiddətlidir."**[1]

Onların bu əhvalatında Allahın möcüzələri var ki, onlardan bəziləri bunlardır:

**1.** Mələklərin varlığı: mələklər, qeyb aləmindəki məxluqlardır. Uca Allah onları nurdan yaratmış və onlara Allahın əmrlərini yerinə yetirmək üçün güc və Allaha itaət etmək üçün iradə vermişdir. Mələklər

---

[1] İbrahim, 7.

Allahın onlara verdiyi əmrlərə əsla asi olmurlar və özlərinə buyurulanları yerinə yetirirlər.

**2.** Mələklər, bəzən insan görkəmi alırlar. Bu hədisdə də xəbər verilir ki, mələk o üç nəfərin yanına insan surətində gəlmişdir.

**3.** Mələklər, bəlli bir adamın görkəmini ala bilirlər. Necə ki, bu hədisdə zikr edilən mələk ikinci dəfə albinosun, keçəlin və korun yanına onların əvvəlki surətlərində gəlmişdir.

**4.** Bir insanı sınağa çəkmək üçün onun yanına bəlli bir surətdə gəlmək mümkündür. Necə ki, bu mələk, o üç nəfərin yanına ehtiyaclı və əlil bir insan surətində gəlmişdir ki, onların ona yazığı gəlsin. Halbuki bizə məlum olduğuna görə, mələk, xilqətcə xəstəliyə məruz qalmır. Daha doğrusunu Allah bilir! Lakin Allah, insanları sınamaq istədikdə mələklərin bu surətdə onların yanına gəlməsini buyurur.

**5.** Mələk əlini bircə dəfə albinosun bədəninə, kecəlin başına və korun gözünə çəkən kimi, Allah onlardakı qüsurları yox elədi. Çünki Allah bir şeyin olmasını istədikdə ona sadəcə: "Ol"– deyir, o da olur. Uca Allah istəsəydi, heç bu mələyi göndərmədən, onlardaki qüsurları yox edərdi. Lakin Allah bunu onların sınağa çəkilməsi üçün səbəb etdi.

**6.** Allah istədikdə insanın malına bərəkət verir və bu mal artıb çoxalır. Necə ki, bu üç nəfərdən birinin bir vadi dolu dəvə sürüsü, digərinin bir vadi dolu naxırı, üçüncüsünün də bir vadi dolu qoyun sürüsü olmuşdur. Bu, Allahın verdiyi bərəkətdir. Həm də mələk, onların hər biri üçün Allahdan bərəkət diləmişdir.

**7.** İnsanlar, Allahın nemətlərinə şükr etmək və Onun qullarına yaxşılıq etmək xüsusunda fərqlidirlər. Necə ki, uca Allah, albinosa və keçələ daha dəyərli və daha iri mal verdiyi halda, Allahın nemətini inkar etdilər və: "Bunlar bizə ata-babalarımdan miras qalıb"– dedilər. Onlar bilərəkdən yalan danışdılar. Çünki onlar kasıb idilər, Allah onlara mal-dövlət əta etdi. Lakin onlar Allahın nemətini inkar etdilər və: "Bunlar bizə ata-babalarımızdan miras qalıb"– dedilər. Kor isə Allahın nemətinə şükr etdi və Allahın lütf sahibi olduğunu etiraf etdi. Elə buna görə də, Allah onu doğru hərəkət etməyə müvəffəq etdi və onu haqq yola yönəltdi. Odur ki, o, mələyə: "İstədiyini götür, istədiyin də qalsın"– dedi.

**8.** Bu hədis dəlildir ki, uca Allah istədikdə razı qalır, istədikdə də qəzəblənir. Yəni istədiyi kimsədən razı qalır, istədiyinə də qəzəbi tutur. Bu iki sifət, Rəbbimizə aid edilməsi vacib olan sifətlərdəndir. Çünki O, Özünü bu sifətlərlə vəsf etmişdir.

Allahın razı qalması barədə Quranda belə buyurulur: **"Allah onlardan razıdır, onlar da Ondan razıdırlar."**[1] Qəzəb xüsusunda da belə buyurulur: **"Allah *kafirlərə* qəzəblənmişdir və onlar əzab içində əbədi qalacaqlar."**[2] O, həmçinin buyurur: **"Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar."**[3] Əhli-sünnə vəl-cəməa bu və buna bənzər sifətlərin həqiqi mənada Allaha aid olduğuna iman gətirir, lakin bunların məxluqatın sifətlərinə bənzəmədiyinə etiqad edirlər. Uca Allah, məxluqata bənzəmədiyi kimi, Onun sifətləri də məxluqatın sifətlərinə bənzəmir.

**9.** İsrail oğulları barədə heyrətamiz və möcüzələrlə dolu hekayələr vardır ki, bunlardan ibrət almağımız üçün, Peyğəmbər ﷺ onları bizə rəvayət etmişdir. Belə hekayələrdən biri də, mağaraya daldalanmış üç kişinin əhvalatıdır. O üç nəfər ki, mağaraya girdikdən sonra dağdan böyük bir qaya parçası yuvarlanıb aşağı düşmüş və mağaranın ağzını örtmüşdür. Bu qaya parçasını mağaranın ağzından götürməyə aciz qaldıqda isə, onlardan hər biri vaxtı ilə etdiyi saleh əməli ilə təvəssül edərək uca Allaha dua etmişdir.

Peyğəmbər ﷺ bizə, İsrail oğullarının başına gəlmiş ibrətamiz əhvalatlar danışır *ki, biz onlardan ibrətlər götürək*. Odur ki, biz bu hədisdən ibrət götürməli və bilməliyik ki, insanın, Allahın nemətlərinə şükr etməsi, Allahın ona lütf etdiyini etiraf etməsi və malında haqqı olanlara haqqlarını verməsi, onun malının daim qalmasına və bərəkətli olmasına səbəbdir. Müvəffəqiyyət uca Allahdandır.

٦٦ - عَنْ أبي يَعْلَى شَدَّادِ بْن أَوْسٍ رضي الله عنه عن النبي ﷺ قال: «الكَيِّس مَنْ دَانَ نَفْسَهُ، وَعَمِلَ لِمَا بَعْدَ الْمَوْتِ، وَالْعَاجِزُ مَنْ أَتْبَعَ نَفْسَه هَواهَا، وتمَنَّى عَلَى اللَّهِ الأماني» رواه التِّرْمِذيُّ وقالَ حديثٌ حَسَنٌ.

---

[1] ət-Tovbə, 100.

[2] əl-Maidə, 80.

[3] ən-Nisa, 93.

قال التِّرْمذيُّ وَغَيْرُهُ مِنَ الْعُلَمَاءِ: مَعْنَى « دَانَ نَفْسَه »: حَاسَبَهَا.

**66.** Əbu Yə'lə Şəddad ibn Ovs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Ağıllı insan, nəfsini mühakimə edən və ölümdən sonrakı həyat üçün çalışan kimsədir. Aciz insan isə nəfsini öz istəklərinə tabe edən və boş arzularla Allaha ümid edən kimsədir."** Bu hədisi Tirmizi rəvayət etmiş və "həsən hədisdir"- demişdir.[1]

Tirmizi və digər alimlər demişlər: "danə nəfsəhu/nəfsini mühakimə edər" kəlməsinin mənası "onu hesaba çəkər" deməkdir.

**Şərh:**

Hədisdə: **"keyyis/ağıllı"**– deyildikdə, fürsətlərdən istifadə edən, günlərini və gecələrini fövtə verməyib, ömrünü boşa keçirməmək üçün qözüaçıq olan insan qəsd edilir.

**"Nəfsini mühakimə edən",** yəni nəfsini hesaba çəkən və dini əmrlərdən hansını yerinə yetirdiyinə, qadağalardan da hansını tərk etdiyinə baxan; şəriətin buyurduqlarını yerinə yetirib-yetirmədiyi, habelə, qadağan etdiklərindən də çəkinib-çəkinmədiyi barədə özünü hesaba çəkən kimsədir. Belə adam, vacibləri yerinə yetirmək xüsusunda səhlənkarlıq etdiyini gördükdə, mümkün olduğu halda, buraxdığı vacibi təkrar yerinə yetirməyə və ya onun kəffarəsini ödəməyə çalışar. Günah əməl işlətdiyini gördükdə isə, dərhal ondan əl çəkər, peşman olar, tövbə edər və Allahdan bağışlanma diləyər.

**"Ölümdən sonrakı həyat üçün çalışan",** yəni axirət üçün çalışan. Belə ki, ölümdən sonra nə varsa (bərzəx aləmi, məhşər günü və s.), axirət sayılır. Bax elə, haqq yola yönəlmək və tədbirli olmaq budur ki, insan ölümdən sonrakı həyatı üçün hazırlıq görsün. Çünki onun bu dünyadakı həyatı çox sürətlə keçib-gedəcək. Aqibət isə, ölümdən sonraki hə-

---

[1] Sunən ət-Tirmizi, 2459; Sunən İbn Macə, 4260; Musnəd İmam Əhməd, 4/124; Mustədrək əl-Hakim, 1/57; Hakim bu hədisi səhih hesab etmiş və demişdir: "Bu, Buxarinin şərtinə əsasən səhih hədisdir. Lakin Buxari *öz səhihində* onu nəql etməmişdir." İmam Zəhəbi: "Xeyr, vallahi ki elə deyil. *Hədisin isnadındakı* Əbu Bəkr zəif ravidir"– demişdir. Bax: Mustədrək əl-Hakim, 1/57. Şeyx Albani də bu hədisin zəif olduğunu demişdir. Bax: "Daif əl-Cami əs-Səğir, 4305.

yatdadır. Əgər adam səhlənkarlıq göstərib günlərini boşa keçirir və vaxtını axirətdə ona fayda verməyəcək işlərlə zay edirsə, o, ağıllı adam hesab edilmir. Ağıllı adam, ölümdən sonrakı həyat üçün çalışan kimsədir. Aciz insan isə nəfsini öz istəklərinə tabe edən, yalnız dünya işlərinə önəm verən kimsədir. Beləsi, nəfsinin istəklərinə tabe olub əmrləri tərk edir, habelə, nəfsinin istəklərinə tabe olub günah işlər görür, sonra da Allahın onu bağışlayacağını təmənna edib: "Allah bağışlayandır, rəhmlidir. Gələcəkdə Allaha tövbə edərəm. Qocalanda özümü düzəldərəm" və başqa bu kimi yalan sözlər deyərək, şeytanın ona vəsvəsə etdiyi boş arzularla Allaha ümid edir. Ola bilsin ki, bu adam təmənna etdiyinə nail olsun, ola da bilər ki, nail olmasın.

Bu hədis insanı fürsətlərdən istifadə etməyə, vaxtını yalnız Allahı razı salacaq işlər görməklə keçirməyə, üstəlik, tənbəlliyi, səhlənkarlığı və boş arzuları tərk etməyə təşviq edir. Çünki sadəcə təmənna etmək adama heç bir fayda vermir. Bu xüsusda Həsən əl-Bəsri ﷺ belə demişdir: "İman, nə zahiri gözəlliklə, nə də arzularla ölçülür. Lakin iman qəlbdə yerləşən və əməllərin təsdiq etdiyi bir şeydir."[1]

Əziz qardaşlar, bizim öhdəmizə düşən budur ki, Allaha yaxınlaşdıran hər bir işdə – əmrləri yerinə yetirməkdə və qadağalardan çəkinməkdə, fürsətlərdən istifadə edək ki, Allahın hüzuruna ən kamil halda çıxaq. Allahdan istəyimiz budur ki, Onu zikr etməyə, Ona şükür etməyə və Ona gözəl tərzdə ibadət etməyə bizi müvəffəq etsin!

٦٧ - عَنْ أبي هُرَيْرَةَ رضي الله عنه قال: قالَ رسولُ اللَّه ﷺ: مِنْ حُسْنِ إِسْلامِ الْمَرْءِ تَرْكُهُ مَالاَ يَعْنِيهِ » حديثٌ حسنٌ رواهُ التِّرْمذيُّ وغيرُهُ.

**67.** Əbu Hureyra رضي الله عنه rəvayət etmişdir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: **"Adamın İslamının gözəlliyindəndir ki, özünə aid olmayan işləri tərk etsin."**

Bu hədis "həsən" hədisdir. Hədisi Tirmizi və başqaları rəvayət etmişlər.[2]

---

[1] əl-İman, İbn Teymiyyə, səh: 173.

[2] Sunən ət-Tirmizi, 2318; Sunən İbn Macə, 3976; Səhih İbn Hibban, 229; Albani, Səhih İbn Macə, 3211.

**Şərh:**

Adamın müsəlman olması; həm zahirində, həm daxilində Allaha təslim olmasıdır. Daxilən təslim olmağa gəlincə, bu, qulun öz əqidəsini və qəlbini islah etməklə Rəbbinə təslim olmasıdır. Bu, Cəbrail hədisində zikr edilən və iman gətirilməsi vacib olan hər bir şeyə iman gətirməkdir.

Zahirən təslim olmağa gəlincə, bu, insanın zahiri əməllərini islah etməsidir; yəni dili ilə dediklərini və əzaları ilə etdiklərini düzəltməsidir. İnsanlar zahiri görünüşlərinə görə bir-birilərindən fərqli olduqları – kimisinin hündürboy, kimisinin alçaqboy, kimisinin kök, kimisinin arıq, kimisinin çirkin, kimisinin də gözəl olduğu kimi, zahirən İslamın tələblərini yerinə yetirmək xüsusunda da, bir-birilərindən fərqlənirlər. Bəli, insanlar Allaha təslim olmaq xüsusunda bir-birilərindən fərqlənirlər. Bu xüsusda uca Allah belə buyurur: **Sizlərdən *mallarını Məkkənin* fəthindən əvvəl xərcləyib döyüşənlər *başqaları ilə* eyni deyillər. Onların dərəcəsi *mallarını fəthdən* sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir."**[1]

İnsanlar İslam dini xüsusunda bir-birilərindən fərqlənirlərsə, o zaman adamın İslamının gözəlliyini artıran amillərdən biri də, özünə aid olmayan, həm dünyəvi, həm də dini işləri tərk etməsidir. Məsələn, bir işi görüb-görməmək barədə tərəddüd edirsənsə, bax, əgər bu iş sənin dinin və dünyan üçün əhəmiyyətli bir işdirsə, onu yerinə yetir, əks halda isə onu tərk et. Çünki ehtiyatla davranmaq, salamat qalmaq üçün daha münasibdir.

Həmçinin, sənə aidiyyəti olmayan məsələlərdə insanların işlərinə qarışma. Lakin bu gün bəzi adamlar, əksinə, insanların şəxsi həyatı və onların halı ilə maraqlanmağa çalışır: iki nəfərin öz aralarında söhbət etdiyini gördükdə, nə danışdıqlarını eşitmək üçün onlara yaxınlaşır; yaxud bir adamın haradansa gəldiyini gördükdə, baxırsan ki, onun haradan gəldiyini araşdırır, hətta bəzən tələsik o adamın yanına gedib: "Haradan gəlirsən? Filankəs sənə nə dedi? Sən filankəsə nə dedin" kimi suallar verərək, özünə aid olmayan işlərə burnunu soxur.

---

[1] əl-Hədid, 10.

Odur ki, sizə aid olmayan işləri tərk edin. Belə ki, bu, müsəlmanlığınızın gözəlliyindəndir. Üstəlik, bunda insan üçün rahatlıq var. Çünki əsl rahatlıq, insanın yalnız özünə aid olan işlərlə məşğul olmasıdır. İnsanların nə işlər gördüklərini araşdıran kimsə isə özünü olduqca çox yorar və buna rəğmən heç bir fayda əldə etməyib, çoxlu xeyirdən məhrum olar. Elə isə işiniz, öz işiniz, habelə dərdiniz də, öz dərdiniz olsun. Baxın görün sizə nə fayda verəcəksə onları yerinə yetirin, faydası olmayacaq işləri isə tərk edin. Əlbəttə ki, sizə aid olmayan işlərlə maraqlanmaq, müsəlmanlığınızın gözəl olmamasına xələl gətirir. Əgər həmişə belə etsək – ancaq özümüzə aid olan işlərlə məşğul olsaq və başqalarının işinə qarışmasaq, çoxlu xeyir əldə edərik.

Lakin görürsən ki, bəzi insanlar, başqasına aid olan və özlərinə heç bir fayda verməyən işlərlə məşğul olurlar. Beləsi, öz vaxtını zay edir, qəlbini məşğul edir, fikrini dağıdır və bir çox xeyirdən məhrum olur.

Sırf özü ilə və özünə aid olan işlərlə məşğul olan kimsənin isə gözəl nəticə əldə etdiyini, uğur qazandığını və xeyrə nail olduğunu, beləliklə də, əqlinin, qəlbinin və canının rahat olduğunu görürsən.

Elə buna görə də, bu hədis, Rəsulullahın ﷺ yığcam mənalı hədislərindən sayılır. Siz bir işi görmək və ya onu tərk etmək istədikdə, onun sizə aid olub-olmadığına baxmalısınız. Əgər o iş sizə aid deyilsə, o zaman onu tərk edin, ona müdaxilə etməyin və ondan qurtulun; beləliklə də, həm qəlbiniz, həm də canınız rahat olsun. Yox əgər bu, sənə aid olan bir işdirsə, o zaman lazım gəldiyi qədər o işlə məşğul ola bilərsən.

Hər bir halda, ağıllı insan, bundan əvvəlki hədisdə zikr edildiyi kimi: **"Nəfsini mühakimə edən və ölümdən sonrakı həyat üçün çalışan"** kimsədir. Hər bir ağıllı insan, ölümdən sonrakı həyat üçün çalışar və etdiyi əməllərinə görə özünü hesaba çəkər. Müvəffəqiyyət Allahdandır.

٦٨ - عَنْ عُمَرَ رضي الله عنه عَنِ النَّبِيِّ ﷺ قال: « لا يُسْأَلُ الرَّجُلُ فيمَ ضَربَ امْرَأَتَهُ » رواه أبو داود وغيرُه.

**68.** Ömər رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Kişidən, öz zövcəsini nədən dolayı döydüyü soruşulmaz."**

Bu hədisi Əbu Davud və başqaları rəvayət etmişlər.[1]

**Şərh:**

Müəllif ﷺ bu hədis haqqında: "Onu Əbu Davud və başqaları rəvayət etmişlər"– deməklə səhlənkarlıq etmişdir. Çünki burada "başqaları" deyildikdə, Əbu Davuddan ﷺ başqa hədis rəvayət edən mühəddislərin hamısı nəzərdə tutulur. Belə ki, bu ifadə həmin hədisin daha üst mənbələrdə rəvayət edilmədiyini bildirir. Yəni "Əbu Davud və başqaları rəvayət etmişlər" deyildikdə, bu ifadə, Buxarinin, Muslimin və dərəcə baxımından Əbu Davuddan daha üstün digər mənbələrin rəvayət etmədiyini bildirir. Yəni hədisi Əbu Davud və dərəcə baxımından ondan aşağı mərtəbədə olanlar rəvayət etmişdir.

Hədisin izahına gəlincə, burada Allahdan qorxan bir möminin, öz həyat yoldaşı ilə, uca Allahın ayədə zikr etdiyi üç mərhələnin ən sonuncusuna gəlib çatdığı halını xəbər verir. Həmin ayədə uca Allah belə buyurur: **"Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin,** ***bunun faydası olmadığı təqdirdə,*** **yataqda onları tərk edin,** ***bu da fayda verməzsə,*** **onları döyün! Əgər sizə itaət etsələr, onlara** ***əziyyət vermək üçün başqa*** **yol axtarmayın. Həqiqətən, Allah ucadır, böyükdür."[2]** Ayədən aydın başa düşülür ki, döymək, bu mərhələlərin sonuncusudur. Ola bilər ki, kişi öz zövcəsini, izah edilməsi utanc verici bir səbəbdən dolayı döysün. Belə ki, əgər bu hədis "səhih"dirsə, Allahdan qorxan mömin kimi tanınan adam öz zövcəsini döydüyü təqdirdə, ondan qadınını nə üçün döydüyü barədə soruşulmur. Lakin bu hədis "zəif"dir. Yox əgər adam yaramaz əxlaq sahibidirsə, onda o, zövcəsini nədən dolayı döydüyü barədə sorğu-suala çəkilməlidir. Çünki o, yoldaşına zülm etməyin və onu haqqsız yerə döyməyin qarşısını ala biləcək təqvaya (Allah qorxusuna) sahib deyil. Çünki ola bilər ki, onun zövcəsi döyülməyə layiq deyil. Müvəffəqiyyət Allahdandır.

---

[1] Sunən Əbu Davud, 2147; Sunən İbn Macə, 1986; Musnəd İmam Əhməd, 1/20; Şeyx Albani bu hədisin "zəif" olduğunu demişdir İrva əl-Ğəlil, 2034.

[2] ən-Nisa, 34.

## Altıncı fəsil

## Təqva

Təqva kəliməsi ərəbcə "viqayə/qorunmaq" kəlməsindən əmələ gəlmiş isimdir. Təqva: insanın özünü Allahın əzabından qoruyacaq vasitələri əldə etməsi deməkdir. Bizi Allahın əzabından qoruyacaq vasitə isə, Onun əmrlərini yerinə yetirmək və qadağalarından çəkinməkdir. Məhz bunlar, Allahın əzabından qoruyacaq vasitələrdir. Yəni Allahın buyuruqlarını yerinə yetirmək və qadağan etdiklərindən çəkinmək.

Bil ki, təqva kəlməsi bəzən "yaxşılıq" kəlməsi ilə birlikdə "Yaxşılıq və təqva" şəklində, uca Allah bu ayəsində zikr edildiyi kimi: **"Yaxşılıq etməkdə və təqvada** (Allahdan qorxub pis əməllərdən çəkinməkdə) **bir-birinizə yardım edin.",**[1] bəzən də fərdi şəkildə zikr edilir. "Yaxşılıq" kəlməsi ilə birlikdə zikr edildikdə, "yaxşılıq" əmrləri yerinə yetirmək, "təqva" isə qadağan edilmiş əməllərdən çəkinmək mənasını ifadə edir. "Təqva" kəlməsi fərdi şəkildə zikr edildikdə isə *hər ikisini* özündə cəm edir, yəni həm əmrləri yerinə yetirmək, həm də qadağan edilənlərdən çəkinmək mənasını ifadə edir. Uca Allah Öz kitabında Cənnəti mütttəqilər üçün hazırladığını xəbər verir. Demək, təqva əhli cənnətlik olacaq. Allah bizi onlardan etsin. Odur ki, insan Allahın əmrlərini yerinə yetirərək, Onun mükafat verəcəyinə və əzabdan qoruyacağına ümid bəsləyərək, Allahdan qorunmalıdır.

**Mövzu ilə bağlı ayələr:**

Uca Allah belə buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ حَقَّ تُقَاتِهِۦ﴾

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun."**[2]

﴿فَٱتَّقُواْ ٱللَّهَ مَا ٱسْتَطَعْتُمْ﴾

**"Allahdan bacardığınız qədər qorxun."**[3]

---

[1] əl-Maidə, 2.
[2] Ali-İmran, 102.
[3] ət-Təğabun, 16.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ وَقُولُواْ قَوۡلٗا سَدِيدٗا﴾

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın."[1]**

﴿وَمَن يَتَّقِ ٱللَّهَ يَجۡعَل لَّهُۥ مَخۡرَجٗا وَيَرۡزُقۡهُ مِنۡ حَيۡثُ لَا يَحۡتَسِبُ﴾

**"Kim Allahdan qorxarsa, *Allah* ona *hər sıxıntıdan* bir çıxış yolu nəsib edər və ona gözləmədiyi yerdən ruzi bəxş edər."[2]**

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِن تَتَّقُواْ ٱللَّهَ يَجۡعَل لَّكُمۡ فُرۡقَانٗا وَيُكَفِّرۡ عَنكُمۡ سَيِّـَٔاتِكُمۡ وَيَغۡفِرۡ لَكُمۡۗ وَٱللَّهُ ذُو ٱلۡفَضۡلِ ٱلۡعَظِيمِ﴾

**"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir."[3]**
Bu mövzuya aid bir çox məlum ayələr də vardır.

**Şərh:**

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun."** Bu ayədə uca Allah möminlərə xitab edir. Çünki möminin imanı, onu Allahdan qorxmağa yönəldir.

**"Allahdan Ona layiq olan tərzdə qorxun"** ayəsindəki, "Ona layiq olan tərzdə" sözünü, müəllifin zikr etdiyi növbəti ayə: **"Allahdan bacardığınız qədər qorxun"** ayəsi izah edir. Yəni, "**Allahdan, Ona layiq olan tərzdə qorxun"**– deyildikdə, Ondan bacardığınız qədər qorxmaq qəsd edilir. Çünki Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər.

Həmçinin: **"Allahdan bacardığınız qədər qorxun"** deyildikdə, Allahdan qorxmaq xüsusunda səhlənkarlıq göstərmək qəsd edilmir, əksinə, Ondan gücün yetdiyi qədər qorxmağa təşviq etmək qəsd edilir. Yəni, Allahdan qorxmaq xüsusunda əlindən gələni etməlisən! Lakin Allah,

---

[1] əl-Əhzab, 70.
[2] ət-Talaq, 2-3.
[3] əl-Ənfal, 29.

insana daşıya bilmədiyi yükü də yükləməz. Necə ki, uca Allah buyurur: **"Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər."**[1]

Uca Allahın: **"Allahdan bacardığınız qədər qorxun"** sözündən belə nəticə çıxır ki, insan Allahın əmrini kamil şəkildə yerinə yetirə bilmədiyi təqdirdə, gücü yetdiyi qədər onu yerinə yetirməlidir. Bu xüsusda Peyğəmbər ﷺ İmran ibn Husayna ﷺ belə buyurmuşdur: **"Namazı ayaq üstə qıl; bunu bacarmasan, oturulu halda qıl; bunu da bacarmasan, uzanmış vəziyyətdə qıl."**[2] Burada Peyğəmbər ﷺ namaz qılma formalarını, səhabənin gücünün yetməsinə uyğun şəkildə sıralamışdır. Yəni gücü yetərsə namazı ayaq üstə qılmalı, bunu bacarmasa oturulu halda, bunu da bacarmasa uzanmış vəziyyyətdə qılmalıdır. Digər əmrlər də, həmçinin, bu cürdü.

Oruc da belədir. Məsələn, adam ramazan ayında oruc tuta bilmədiyi təqdirdə, onun qəzasını sonrakı ayda tutmalıdır: **"Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda *oruc tutmalıdırlar.*"**[3] Həcc ziyarəti də, həmçinin, belədir: **"Yoluna gücü çatan hər kəsin *müqəddəs* Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır."**[4] Əgər Allahın evini ziyarət etməyə (istər fiziki, istərsə də maddi baxımdan) gücünüz çatmırsa, sizə həcc ziyarətini yerinə yetirmək vacib deyil. Və əgər sağlamlığınız buna yol vermirsə, lakin maddi imkanınız çatırsa, o zaman həcc və ümrə ziyarətlərini sizin yerinizə yetirəcək birisini öz hesabınıza ziyarətə göndərməlisiniz. Xülasə budur ki, təqva da digər ibadətlər kimi insanın gücündən asılıdır. Belə ki, adam Allahın əmrini yerinə yetirməyə gücü çatmadığı təqdirdə, onu gücü yetdiyi qədər yerinə yetirməlidir. Eləcə də, Allahın haram buyurduğundan istifadə etməyə məcbur qaldıqda, ondan sadəcə öz ehtiyacını ödəyəcək qədər istifadə etməlidir. Bu xüsusda uca Allah belə buyurur: **"Allah, məcburiyyət qarşısında yeyəcəyiniz şeylər istisna olmaqla – haram buyurulanları təfsilatı ilə sizə bildirmişdir."**[5] Odur ki, insan, leş, donuz əti, uzunqulaq və başqa

---

[1] əl-Bəqərə, 286.
[2] Səhih əl-Buxari, 1117.
[3] əl-Bəqərə, 185.
[4] Ali-İmran, 97.
[5] əl-Ənam, 119.

bu kimi yeyilməsi haram buyurulanlardan yeməyə məcbur qaldıqda, zəruri ehtiyacını ödəyəcək qədər ondan yeyə bilər. Budur, Allahdan qorxmaq; Onun əmrlərini bacardığın qədər yerinə yetirmək, habelə, qadağan edilənlərdən də, bacardığın qədər çəkinmək.

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın"** ayəsinə gəlincə, uca Allah, burada iki şeyi əmr edir: Allahdan qorxmağı və doğru söz danışmağı. Allahdan qorxmaq barədə bir qədər əvvəl qeyd etdik ki, bu, Allahın əmrlərini yetrinə yetirmək və qadağan etdiklərindən çəkinməkdir. Doğru söz danışmağa gəlincə, bu, xeyirli olan hər cür sözü əhatə edər. Fərq etmir, istər Allahı zikr etmək, istər elm öyrənmək, istər yaxşılığı əmr edib pisliyi qadağan etmək, istər insanın başqalarının qəlbini ələ almaq və onların məhəbbətini qazanmaq üçün söylədiyi xoş söz, istərsə də buna bənzər başqa xeyirli sözlər olsun. Bunların hamısını Peyğəmbərin ﷺ bu sözü özündə cəm etmişdir: **"Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun."**[1] Bunun əksi isə doğru olmayan sözdür. Yanlışlıq isə, ya sözün kökündə, ya da onun məqamında olur:

Kökü yanlışlıq olan sözlərə gəlincə, bu, söyüş söymək, qeybət qırmaq, söz gəzdirmək və başqa buna bənzər çirkin sözləri əhatə edər.

Məqam baxımından yanlış olan sözlərə gəlincə, bu, özlüyündə gözəl olduğu halda, *yanlış zaman və ya* yalnız məkanda söylənilən sözlərdir. Çünki hər məqamda aidiyyatına görə deyiləcək sözlər vardır. Demək, deyəcəyin söz əslində xeyirli söz olsa belə, onu deyəcəyin bir yerdə və ya zamanda fitnə-fəsada səbəb olacaqsa, onu deməməlisən. Çünki bu, doğru söz deyildir. Belə ki, bu söz, məqamına görə doğru söz sayılmır. Əksinə, yanlış söz sayılır, hətta bu sözün əsli haram olmasa belə.

Məsələn, bir adam başqa birisinin bir günah işlətdiyini gördükdə onu bundan çəkindirmək istəsə, lakin bunu, qeyri-münasib bir vaxtda, yaxud kobud şəkildə və ya başqa buna bənzər hikmətsizlik edərsə, bu, doğru olmayan bir söz sayılar.

İnsan Rəbbindən qorxub doğru söylədikdə, iki fayda əldə edir: **"O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın."** Demək, təq-

---

[1] Səhih əl-Buxari, 6108; Səhih Muslim, 47.

valı olmaq və doğru söz danışmaqla, əməllər islah olur və günahlar bağışlanır. Bu ayənin əks anlamından aydın olur ki, Allahdan qorxmayan və doğru söz danışmayan adam, Allahın, əməllərini islah etdiyi və günahlarını bağışladığı kimsələrdən olmağa layiq deyil. Dolayısıyla, bu ayə insanı Allahdan qorxmağa təşviq edir və ona bunun faydalarını bəyan edir.

Müəllifin zikr etdiyi dördüncü ayədə uca Allah buyurur: **"Kim Allahdan qorxarsa,** ***Allah*** **ona** ***hər sıxıntıdan*** **bir çıxış yolu nəsib edər və ona gözləmədiyi yerdən ruzi bəxş edər."** Yəni Allahın əmrlərini yerinə yetirib, qadağan etdiklərindən çəkinməklə Allahdan qorxarsa, Allah ona hər sıxıntıdan bir çıxış yolu nəsib edər. Belə ki, adam təqvalı olarsa, istər dolanışığı, istər mal-dövləti, istər övladı, istər cəmiyyət, istərsə də başqa bir səbəbdən dolayı hər dəfə sıxıntıya düşdükdə, Allah ona bir çıxış yolu göstərər. Əgər Allahdan qorxursunuzsa, Onun, hər bir sıxıntıdan bir çıxış yolu göstərəcəyinə inanmalı və yalnız Ona güvənməlisiniz. Çünki: **"Kim Allahdan qorxarsa,** ***Allah*** **ona** ***hər sıxıntıdan*** **bir çıxış yolu nəsib edər"** sözü, bir şeyin olmasını istədikdə ona: "Ol!"– deyən Allahın sözüdür.

Allahdan qorxan neçə-neçə insanlar olub ki, Allah onları sıxıntıdan qurtarıb. Buna, mağaraya daldalanmış üç nəfəri misal çəkə bilərik. Onlar mağaraya daxil olduqdan sonra dağdan böyük bir qaya parçası yuvarlanıb aşağı düşmüş və mağaranın ağzını örtmüşdür. Onlar, mağaradan çıxmağa çalışsalar da, aciz qalmışlar. Onda onlardan hər biri vaxtı ilə etdiyi saleh bir əməllə təvəssül edərək Allaha dua etmiş, Allah da o qayanı mağaranın ağzından çəkərək onları o sıxıntıdan qurtarmışdır.[1] Buna dair misallar çoxdur.

**"Və ona gözləmədiyi yerdən ruzi bəxş edər"** sözündə də böyük fayda var. Belə ki, *Allahdan qorxsanız,* Allah sizə gözləmədiyiniz yerdən ruzi verər. Məsələn, camaata kəf gəlməklə, yaxud sələmə pul verməklə və ya başqa buna bənzər haram yolla pul qazanan bir adama nəsihət edilsə və o da bunu Allahdan qorxub tərk edərsə, uca Allah ona çıxış yolu nəsib edər və ona gözləmədiyi yerdən ruzi bəxş edər. Lakin tələsməyin və əgər Allahın köməyi bir qədər geç gələrsə, onun ümumiyyət-

---

[1] Səhih əl-Buxari, 2215; Səhih Muslim, 2743.

lə gəlməyəcəyini zənn etməyin! Çünki bəzən Allah Öz qulunu sınayıb, ona verəcəyi mükafatı gecikdirir ki, onun vaxtı ilə etdiyi günaha qayıdıb-qayıtmayacağını sınasın. Fərz edək ki, faizlə məşğul olmusunuz, sonra bir kimsənin sizə etdiyi nəsihət nəticəsində bu işi tərk etmisiniz. Əgər bunu tərk etdikdən sonra bir-iki ay ruzi tapmasanız, ümidsizliyə qapılmayın və: "Hanı, gözləmədiyim yerdən gələcək o ruzi?"– deməyin. Əksinə, gözləyin, Allahın vədinə inanın və Onun Öz vədində sadiq qaldığına əmin olun. Belə etsəniz, xeyir tapacaqsınız. Tələsməyin! Elə buna görə də, hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Sizlərdən hər biri dua etdikdə, tələsmədikcə onun duası qəbul olar."** Səhabələr رضي الله عنهم soruşdular: "Tələsmək necə olur, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: ***"Tələsən adam:*** **"Mən dua etdim, lakin duam qəbul olmadı"– deyər."**[1] Elə isə səbir edin, Allahın sizə haram buyurduqlarını tərk edin və gözləmədiyiniz yerdən sizə çıxış yolu və ruzi gələcəyini gözləyin.

Müəllifin zikr etdiyi beşinci ayədə uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir."** Bu ayədə təqvanın üç böyük faydası zikr edilir:

**Birinci fayda: "O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər."** Yəni Allah sizə haqq ilə batili, habelə, zərərli olanla xeyirli olanı bir-birindən ayırd edə biləcəyiniz bir fəhm bəxş edər. Faydalı elm buna aiddir. Belə ki, Allah, təqvalı insanın elmə yiyələnməsi üçün, başqalarına açmadığı qapıları onun üzünə açır. Həqiqətən də, adamın təqva sayəsində hidayəti artır, elmi çoxalır və hafizəsi möhkəmlənir. Bu xüsusda imam Şafii belə demişdir:

Şikayət etdim Vəkiyə,[2] hafizəmin zəifliyindən,
Tövsiyəsi bu oldu, əl çək asiliyindən.
Sonra bəyan eylədi: bil ki, elm bir nurdur,
Allahın nuru isə, verilməz asi qula.[3]

---

[1] Səhih əl-Buxari, 6340; Səhih Muslim, 2735.

[2] Əbu Süfyan Vəkiy ibn əl-Cərrah ibn Məlih ibn Adiy ər-Ruasi əl-Kufi رحمه الله. İraq mühəddislərindən olmuşdur. Süfyan əs-Sovri, Abdullah ibn əl-Mubarək, Əhməd ibn Hənbəl, Yəhya ibn Məin və bir çox başqa mühəddislər ondan səhih hədislər rəvayət etmişlər. (Siyər Ə'lam ən-Nubələ, 17/147).

[3] Divan İmam əş-Şafii, səh: 106.

Şəkk yoxdur ki, insanın elmi artdıqca, onun həm mərifəti, həm də haqq ilə batili, zərərli olanla xeyirli olanı bir-birindən ayırd etmə bacarığı artır. Həmçinin, Allahın insana düzgün fəhm[1] əta etməsi də buna aiddir. Çünki təqva, fəhmin güclənməsinə səbəbdir. Fəhm nə qədər güclü olarsa, elm də bir o qədər artar. Odur ki, sən iki nəfərin Allahın kitabından eyni ayəni əzbər bildiyini, lakin onlardan birinin həmin ayədən üç şəri hökm çıxartmağa qadir olduğunu, digərinin isə eyni ayədən dörd, beş, on və daha çox hökm çıxartmağa qadir olduğunu görürsən. Bu, Allahın ikinciyə verdiyi fəhmə görədir. Təqva isə, fəhmin artmasına səbəbdir.

Fərasətli[2] olmaq da, təqvadan irəli gəlir. Allah, təqva sahibinə elə bir fərasət verir ki, bunun sayəsində insanları dərhal tanıyır. Bir adamı görən kimi onun yalançı, yoxsa doğruçu, əməlisaleh, yoxsa günahkar olduğunu anlayır. Hətta Allahın ona bəxş etdiyi bu fərasət sayəsində, heç vaxt oturub-durmadığı, barəsində də heç nə bilmədiyi bir kimsə haqqında hökm verir (onun necə adam olduğunu təxmin edir).

Başqalarına deyil, məhz müttəqilərə verilən kəramətlər də, həmçinin, təqvadan irəli gəlir. Səhabələrin və tabiinlərin ﵃ bir çoxuna belə kəramətlər əta edilmişdir. Rəvayət edilir ki, bir dəfə Ömər ibn əl-Xattab ﵁ Mədinə məscidində minbərdən xütbə verərkən, camaat onun xütbə əsnasında: "Ey Sariyə, dağa, ey Sariyə dağa!"– dediyini eşitdilər.[3] Camaat onun kimə xitab etdiyinə və xütbə əsnasında nə üçün belə söz dediyinə təəccüb etdilər. Halbuki uca Allah həmin an, İraqda, Sariyə ibn Zuneymin ﵁ baçşılığı altında döyüşən ordunu əyani olaraq Ömərə ﵁ göstərmişdi. Həmin vaxt düşmən ordusu müsəlmanları mühasirəyə almışdı. Onda uca Allah, müsəlman ordusunun mövqeyini Ömərə ﵁ göstərdi və o, sanki gözünün önündə onları müşahidə edirdi. Onda Ömər ﵁ ordunun sərkərdəsinə: "Ey Sariyə, dağa!"– deyə səsləndi. Yəni "Dağa tərəf çəkil!"– dedi. Beləcə, qoşunun başçısı, İraqda olan Sariyə ﵁

---

[1] Fəhm: anlama, qavrama.

[2] Fərasət: dərhal anlama, dərk etmə, zehin itiliyi.

[3] Bu əhvalatı İbn Teymiyyə ﵀ "Minhac əs-Sünnə" əsərində, (6/64) İbn Vəhbə ﵀ istinad edərək nəql etmiş, İbn Həcər əl-Əsqalani ﵀ də "əl-İsabə" kitabında, Sariyənin ﵀ tərcümeyi-halında bu rəvayətin "həsən" olduğunu demişdir.

onun səsini eşitdi və dağa tərəf çəkildi. Bu, təqvadan irəli gəlir. Çünki övliyaların kəramətlərinin hamısı, təqvalarına görə, Allahın onlara bəxş etdiyi mükafatlardır. Xülasə budur ki, Allahın müttəqilərə haqq ilə batili, yaxşı insanla pis insanı, habelə, bir çox başqa şeyləri bir-birindən ayırd etmək üçün fəhm bəxş etməsi, təqvadan irəli gəlir. Bu da, yalnız müttəqilərə məxsusdur.

**İkinci fayda: "günahlarınızdan keçər."** Günahlar isə yalnız saleh əməllərlə silinir. Belə ki, yaxşı əməllər pis əməlləri silib aparır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Böyük günahlardan çəkinildiyi təqdirdə, beş** *vaxt* **namaz,** *bunların arasındakı günahlar üçün*, **habelə cümə namazı, növbəti cüməyədək və Ramazan ayı, növbəti Ramazan ayınadək arada olan** *kiçik günahlar üçün* **kəffarədir."**[1] O həmçinin demişdir: **"Ümrə ziyarəti, növbəti ümrəyədək arada olan** *kiçik günahlar üçün* **kəffarədir."**[2] Kəffarə isə yalnız saleh əməllər sayəsində olur. Bu da o deməkdir ki, əgər adam Allahdan qorxarsa, Allah onu, günahlarının silinməsinə kəffarə olacaq saleh əməlləri yerinə yetirməyə müvəffəq edər.

**Üçüncü fayda: "...və sizi bağışlayar",** yəni Allahdan bağışlanma diləməyi və Ona tövbə etməyi sizin üçün asanlaşdırar. Həqiqətən də, Allahın bunları Öz qulu üçün asanlaşdırması, Onun quluna bəxş etdiyi bir nemətdir.

Qulun düçar olduğu bəlalardan biri də, etdiyi günahları günah hesab etməyib, o günahları işləməyə davam etməsidir. Bu xüsusda uca Allah belə buyurur: **"De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər."**[3] İnsanların çoxu günah işlərdən əl çəkmirlər. Bu günahlar adama gözəl göründüyü üçün, üstəlik də, ona aludə olduğuna görə, onları tərk etməyə çətinlik çəkir. Lakin adam Allahdan qorxarsa, Allah onu bağışlamaq üçün, bu günahları tərk etməyi onun üçün asanlaşdırar və məhz təqvasına görə onun günahlarını bağışlayar. Beləcə, təqvası onun günahları üçün kəffarə olar.

---

[1] Səhih Muslim, 233.

[2] Səhih əl-Buxari, 1773; Səhih Muslim, 1349.

[3] əl-Kəhf, 103-104.

Necə ki, bu, Bədr döyüşündə iştirak etmiş səhabələrə ﷺ nəsib olmuşdur. **"Həqiqətən də, uca Allah Bədrdə döyüşənlərə baxıb belə buyurmuşdur: "İstədiyinizi edin, artıq Mən sizin günahlarınızı bağışladım!"** [1] Bu döyüşdə qazandıqları böyük savaba görə, daha sonra edəcəkləri günahlar əvvəlcədən bağışlanmışdır.

**"Allah böyük lütf sahibidir."**[2] Yəni, bu xüsusda Onun heç bir tayıbərabəri yoxdur. Və əgər Allah böyük lütf sahibidirsə, onda o lütfü Ondan diləyin. Buna da yalnız Allahdan qorxmaq və Ona üz tutmaqla nail olmaq olar. Daha doğrusunu isə Allah bilir.

٦٩ - عَنْ أبي هُرَيْرَةَ ﷺ قال: قِيلَ: يا رسولَ اللَّهِ مَن أَكْرَمُ النَّاسِ؟ قال: « أَتْقَاهُمْ » فقَالُوا: لَيْسَ عَنْ هَذا نَسْأَلُكَ، قَالَ: « فيُوسُفُ نَبِيُّ اللَّهِ ابن نَبِيِّ اللَّهِ ابن نَبِيِّ اللَّهِ ابنِ خَلِيلِ اللَّهِ ». قَالُوا: لَيْسَ عن هَذَا نَسْأَلُكَ، قال: فعَنْ مَعَادِنِ الْعَرَب تسْأَلُونِي؟ خِيَارُهُمْ فِي الْجاهِلِيَّةِ خِيَارُهُمْ فِي الإِسلامِ إِذَا فَقُهُوا » متفقٌ عليه.

و « فَقُهُوا » بِضَمِّ الْقَافِ عَلَى الْمَشْهورِ، وحُكِي كسْرُهَا. أَي: عَلِمُوا أَحْكَامَ الشَّرْعِ.

**69.** Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "*Bir dəfə səhabələr* Allahın elçisindən ﷺ soruşdular: "Ya Rəsulullah, insanların ən hörmətlisi kimdir?" O da: **"Allahdan ən çox qorxanı"**– deyə cavab verdi. *Səhabələr* dedilər: "Səndən bu haqda soruşmuruq." O dedi: **"Allahın sevimli dostu *İbrahimin* oğlu *İshaq* peyğəmbərin oğlu *Yaqub* peyğəmbərin oğlu Yusuf peyğəmbərdir."** *Səhabələr* yenə dedilər: "Səndən bu haqda da soruşmuruq." Onda Rəsulullah ﷺ dedi: **"Yəqin ki, ərəblərin əcdadı barədə soruşursunuz?"** Onlar: "Bəli!"– deyə cavab verdikdə, o, belə buyurdu: ***"Bilin ki,* onların cahiliyyət dövründə xeyirli olanları, əgər şəriəti anlasalar, İslamda da xeyirli olacaqlar."**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[3]

Hədisdə ərəbcə keçən "fəquhuu/şəriəti anlasalar" kəlməsi, şəriətin hökmlərini öyrənsələr anlamındadır.

---

[1] Səhih əl-Buxari, 4274; Səhih Muslim, 2494.

[2] əl-Ənfal, 29.

[3] Səhih əl-Buxari, 3353; Səhih Muslim, 2378.

**Şərh:**

Peyğəmbərin ﷺ: "İnsanların ən hörmətlisi kimdir?" sualına: **"Allahdan ən çox qorxanı"**– deyə cavab verməsi o deməkdir ki, insanların ən hörmətli olanları, Allahdan ən çox qorxanlarıdır. Bu cavab, uca Allahın bu ayəsinə tamamilə uyğundur: **"Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Ondan* ən çox qorxanınızdır."**[1] Belə ki, uca Allah insanların nə əsil-nəcabətlərinə, nə onların mövqelərinə, nə mal-dövlətlərinə, nə də zahiri gözəlliklərinə baxır. Allah onların yalnız əməllərinə baxır. Odur ki, Allah yanında insanların ən hörmətli olanı, Ondan ən çox qorxanıdır. Elə buna görə də, O, təqva sahiblərinə zahiri və batini kəramətlər əta edir. Çünki onlar Onun yanında məxluqatın ən hörmətli olanlarıdır.

Bu hədis insanı Allahdan qorxmağa təşviq edir. Belə ki, insan Allahdan nə qədər çox qorxarsa, bir o qədər də, Allah yanından hörməti artar. Lakin səhabələr bu sualla Allah yanındakı ən hörmətli insanın kim olduğunu soruşmurdular. Odur ki: "Səndən bu haqda soruşmuruq"– dedilər. Sonra Peyğəmbər ﷺ onlara bildirdi ki, insanların ən hörmətlisi, peyğəmbərlərin عليهم السلام nəslindən olmuş Yusuf ibn Yaqub ibn İshaq İbn İbrahimdir عليه السلام. O, ən hörmətli insanlardan idi.

Səhabələr yenə: "Səndən bu haqda da soruşmuruq"– deyəndə, Peyğəmbər ﷺ belə buyurdu: **"Yəqin ki, ərəblərin əcdadı barədə soruşursunuz?"** Burada "ərəblərin əcdadı"– deyildikdə, onların əsil-nəcabətləri və nəsəbləri nəzərdə tutulur. Peyğəmbər ﷺ davam edib dedi: ***"Bilin ki,*** **onların cahiliyyət dövründə xeyirli olanları, əgər şəriəti anlasalar, İslamda da xeyirli olacaqlar."** Yəni əsil-nəcabət, əcdad və nəsəb baxımından insanların ən hörmətli olanları, cahiliyyə dövründə də xeyirli olanlarıdır. Bir şərtlə ki, Allahın dinini anlamış olsunlar.

Məsələn, məlumdur ki, Haşim oğulları cahiliyyə dövründə qureyşlilərin ən hörmətliləri olduqları kimi, İslam dinini qəbul etdikdən sonra da, onların ən hörmətliləri sayılırlar. Lakin bir şərtlə ki, Allahın dinini anlamış və onu öyrənmiş olsunlar. Yox əgər Allahın dinini anlamasalar, nəsəb etibarı ilə ərəblərin ən hörmətlisi olsalar da, Allah yanında

---

[1] əl-Hucurat, 13.

insanların ən hörmətlisi sayılmazlar. Habelə, insanların ən xeyirlisi sayılmazlar.

Bu hədis dəlildir ki, insan öz nəsəbinə görə şərəfli sayılır, lakin bir şərtlə ki, dinini anlamış olsun. Şübhəsiz ki, insanın şərəfli olmasında nəsəbin də rolu var. Odur ki, Haşim oğulları, insanların ən xeyirlisi və nəsəbcə ən şərəflisi sayılır. Elə buna görə də, məxluqatın ən şərəflisi sayılan Muhəmməd ﷺ o nəsildən olmuşdur: **"Allah Öz risalətini[1] kimə verəcəyini daha yaxşı bilir."[2]** Adəm övladlarından olan bu qəbilə, ən şərəfli qəbilə olmasaydı, Rəsulullah ﷺ onlardan olmazdı. Belə ki, hər bir rəsul ən şərəfli qəbilədən və hörmətli nəsəbdən göndərilmişdir.

Bu hədisin fəslin ünvanına aid olan hissəsi: **"İnsanların ən hörmətlisi, Allahdan ən çox qorxanı"** cümləsidir. Və əgər Allah yanında ən hörmətli və ən şərəfli insanlardan olmaq istəyirsinizsə, Allahdan qorxun! Çünki insan Allahdan nə qədər çox qorxarsa, bir o qədər də, Allah yanından hörməti artar. Allahdan istəyim budur ki, bizi müttəqilərdən etsin!

٧٠ - عَنْ أبي سَعيدٍ الْخُدْرِيِّ رضي الله عنه عن النبيِّ ﷺ قال: « إنَّ الدُّنْيا حُلْوَةٌ خضِرَةٌ، وإنَّ اللَّهَ مُسْتَخْلِفُكُمْ فِيهَا. فينْظُر كَيْفَ تَعْمَلُونَ. فَاتَّقوا الدُّنْيَا واتَّقُوا النِّسَاء. فَإِنَّ أَوَّلَ فِتْنةِ بَنِي إسْرَائيلَ كَانَتْ فِي النسَاء » رواه مسلم.

**70.** Əbu Səid əl-Xudri رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Dünya şirin və valehedicidir. Həqiqətən, Allah sizi yer üzündə xəlifə təyin edəcək və sizin nə etdiklərinizə baxacaq. Elə isə dünyadan çəkinin! Qadınlardan da çəkinin! Çünki İsrail oğullarının uğradıqları ilk fitnə qadınlara görə olmuşdur."**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

**Şərh:**

Müəllifin رحمه الله bu hədisi zikr etməsinin səbəbi, Rəsulullahın ﷺ bu hədisdə dünyanın halını bəyan etdikdən sonra təqvanı əmr etməsidir. Belə ki, Rəsulullah ﷺ: **"Dünya şirin və valehedicidir"**– deyir. Yəni dadı şi-

---

1 Risalət: peyğəmbərlik vəzifəsi.

2 əl-Ənam, 124.

3 Səhih Muslim, 2742.

rin, görünüşü də gözəldir. Bir şey gözəl və dadlı olduqda isə, onu əvvəlcə göz, sonra da nəfs arzulayır. Bir şeyi də həm göz, həm də nəfs istədikdə, insanın ona aldanması asan olur. Bəli, dünyanın dadı şirin, görünüşü də gözəldir. Elə buna görə də, insan ona aldanır, ona qərq olur və ən böyük qayəsi də onu əldə etmək olur. Lakin Rəsulullah ﷺ, uca Allahın bizi bu dünyaya ixtiyar sahibi təyin edəcəyini və sonra da bizim nələr edəcəyimizə baxacağını bəyan edərək belə demişdir: **"Allah sizi yer üzündə xəlifə təyin edəcək və sizin nə etdiklərinizə baxacaq."** Yəni, Allaha itaət edəcək, nəfsin istəklərindən çəkinəcək və Allahın sizə vacib buyurduqlarını yerinə yetirəcək, beləliklə də, dünyaya aldanmayacaqsınız, yoxsa tam əkisni edəcəksiniz?!

Odur ki, Rəsulullah ﷺ buyurur: **"Elə isə dünyadan çəkinin!"** Yəni Allahın əmr etdiklərini yerinə yetirin, qadağan etdiklərindən də çəkinin; dünyanın şirinliyi və gözəlliyi sizi aldatmasın. Necə ki, uca Allah buyurur: **"Qoy dünya həyatı sizi aldatmasın, hiyləgər *şeytan* da sizi Allahın *əzabından* arxayınlaşdırıb tovlamasın."**[1]

Rəsulullah ﷺ, həmçinin: **"Qadınlardan da çəkinin!"**– buyurur. Onlardan həzər edin, yəni ehtiyatlı olun. Bu, həm kişinin öz həyat yoldaşının hiylələrindən qorunmasına, həm də digər qadınlardan və onların fitnəsindən qorunmasına aiddir. **"Çünki İsrail oğullarının uğradıqları ilk fitnə qadınlara görə olmuşdur."** Onlar qadınların fitnəsinə uyaraq həm özləri azmış, həm də başqalarını azdırmışlar. Odur ki, bu gün biz düşmənlərimizin, yəni dinimizin düşmənlərinin qadınlar xüsusunda – onların açıq-saçıq olmaları, kişilərə qaynayıb-qarışmaları və kişilərlə bir yerdə işləmələri üçün səy göstərdiklərini görürük. Onlar çalışırlar ki, insanlar heyvan kimi olsunlar; dərdləri ancaq qarınlarını doldurmaq və cinsi tələbatlarını ödəmək olsun. Onlar istəyirlər ki, insanları qadının ancaq zahiri görünüşü maraqlandırsın və maraqları sadəcə qadınları zinətləndirmək, onlara yaraşıq vermək, onlara zinət əşyaları və ənlik-kirşanlar[2] almaq olsun, pullarını da bəzək əşyalarına, saç boyalarına və kosmetik[3] maddələrə, habelə, ayaqda, qolda və üzdə olan tüklərin

---

[1] Loğman, 33.

[2] Ənlik-kirşan: qadınların üzlərinə sürtdükləri kosmetik maddələr.

[3] Kosmetika: gigiyena və ya üzə və bədənə gözəllik və təravət vermək üçün işlədilən müxtəlif maddələr – kremlər, yağlar, və s.

təmizlənməsinə xərcləsinlər. Hətta iş o yerə gəlib çatsın ki, qadını nə ibadət, nə də övlad tərbiyəsi maraqlandırsın, o sadəcə zahiri gözəlliyi olan bir kukla olsun.

Düşmənlərimiz – Allahın dininə, Onun şəriətinə və İslam əxlaqına düşmən olan kimsələr, qadınları kişiyə aid olan vəzifələrə yerləşdirirlər ki, kişiləri sıxıntıya salsınlar, gənclər işsiz-güczüs, bazarlarda avara-avara gəzib-dolaşsınlar, beləliklə də, onların bu avaraçılığından böyük fitnə-fəsadlar meydana gəlsin. Belə ki, cavanlıq, işsizlik və zənginlik ən böyük fəsadlardandır. Bu xüsusda şair belə demişdir:

Cavanlıq, işsizlik, bir də zənginlik,
İnsançün fəsaddır, böyük bir fəsad.[1]

Bu günkü gün onlar qadınları kişiyə aid olan vəzifələrə yerləşdirir, gənc oğlanları isə kənarda qoyurlar ki, həm gəncləri, həm də qadınları pozsunlar. Bilirsiniz sonra nə baş verəcək? O iş yerlərində kişilərlə qadınların bir-birilərinə qaynayıb-qarışması, axırda pozğunçuluğa və zinaya – göz, yaxud dil, yaxud əl və ya cinsi orqanla edilən zinaya gətirib çıxardacaq. Qadın kişilərin arasında işləyərsə, bunların hamısının baş vermə ehtimalı böyükdür.

Qadınların kişilərlə bir yerdə işlədikləri ölkələrdə baş verən fitnə-fəsadlar həddən artıq çoxdur! Bu cür vəzifədə çalışan qadın, evindən və yoldaşından uzaq düşər, bu da, ailənin dağılması ilə nəticələnə bilər. Üstəlik, qadın işlədiyi təqdirdə, onun ev işlərini görmək üçün xidmətçiyə ehtiyacı olar. Belə olduğu təqdirdə isə kişilər dünyanın hər yerindən, yad dinə və yad əxlaqa sahib olan – qeyri-müsəlman və əxlaqsız qadın xadimələr gətizdirirlər ki, onlar ev işlərini görsünlər, həyat yoldaşları isə kişilərin arasında işləsinlər. Yavaş-yavaş kişilərimizi vəzifədən uzaqlaşdırıb, qadınlarımızı iş başına gətirirlər. Bu da böyük fəsada yol açır və axırda ailənin dağılmasına gətirib çıxardır. Belə ki, uşaq *günün çox hissəsini* ata-anasını görmədən, sadəcə xidmətçinin yanında böyüyərsə, ata-anasını unudar və onlara olan bağlılığını itirər. Beləcə, ailədə fəsad baş verər, ailə dağılar və bundan, Allah bilir, nə qədər böyük fəsadlar meydana gələr.

---

[1] Bu, Əbul-Ətahiyanın şeridir. Bax: əd-Divan, səh 141.

Şübhəsiz ki, düşmənlərimiz və onların quyruqları – aramızda olan əlaltıları var. Bu quyruqlar gedib onların ölkələrində təhsil alır və onların yaramaz düşüncələrinə bulaşırlar. Mən demirəm ki, onlar bunların beynindəkini tamamilə siliblər, yox, demək istəyirəm ki, onlar bunların beynini İslam dininə zidd olan murdar düşüncələrlə kirlətmişlər. Onlar deyə bilərlər ki, bu düşüncələr əqidəyə zidd deyil. Cavabında onlara deməliyik ki: "Əksinə, bu düşüncələr əqidəni kökündən yox edir." İnsanın əqidəsi, sadəcə Allahın şəriki olduğunu deməklə, yaxud Allahın varlığını inkar etməklə və ya buna bənzər küfr sözlər danışmaqla batil olmur. Bundan əlavə, bu günahlar da əqidəni yerli-dibli yox edir. Belə ki, insan o murdar düşüncələrə bulaşdıqda, öküz və ya uzunqulaq kimi olur; nə əqidə ilə, nə də ibadətlə maraqlanır. Çünki artıq onun qəlbi dünyaya, dünyanın bər-bəzəyinə və qadınlara bağlanır. Bu xüsusda rəvayət edilmiş səhih hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Mən özümdən sonra kişilər üçün ehtiyat etdiyim ən təhlükəli fitnə qadınlardır."**[1] Elə buna görə də, biz, bir müsəlman ümməti olaraq bu düşüncələrə qarşı çıxmalı, hər yerdə və hər məclisdə bunun əleyhinə təbliğat aparmalıyıq. Məlumdur ki, aramızda bu düşüncələri yayaraq fitnə-fəsad törətmək istəyən, bu salamat əqidəli və dinc müsəlman ölkəsində şər yaymaq istəyən insanlar var. Allah onların kökünü kəssin və onları məqsədlərinə çatdırmasın! Onlar, müsəlmanların müqəddəs saydıqları yerləri və onların qibləsini mühafizə edən son İslam qalasının bu məmləkət olduğunu bilir və elə bu səbəbdən də, bu məmləkəti korlamaq istəyirlər ki, bunun sayəsində bütün İslam ölkələri korlansın. İslam ölkələrinin hamısı bu məmləkətin nə əməl etdiyinə baxır. Və əgər bu ölkədə həya və din aradan qalxarsa, digər müsəlmanların da dini və həyası əldən gedər.

Odur ki, qardaşlar, biz, gənclərimiz, yaşlılarımız, qocalarımız, alimlərimiz və elm tələbələrimizlə birgə bü düşüncələrə qarşı mübarizə aparmalı və insanların hamısını bü düşüncələrə qarşı qaldırmalıyıq ki, alov quru otu yandırdığı kimi, onlar da içimizə sızıb bizi yandırmasınlar. Allahdan diləyimiz budur ki, belə hiylələr quran kimsələrin hiylələrini öz başlarında çatlatsın, onları məqsədlərinə çatdırmasın və alov-

---

[1] Səhih əl-Buxari, 5096; Səhih Muslim, 2740, 2741.

landırdıqları fitnə atəşini söndürmək üçün onları əməlisaleh kişilərin əli ilə darmadağın etsin. Şübhəsiz ki, O, lütfkardır, səxavətlidir.

٧١ - عَنْ ابْنِ مَسْعُودٍ رضي الله عنه أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَقُولُ: «اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْهُدَى وَالتُّقَى وَالْعَفَافَ والْغِنَى » رواه مسلم.

**71.** İbn Məsud رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə dua edərdi: **"Allahım, Səndən hidayət, təqva, iffətlilik və zənginlik diləyirəm."**
Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Müəllifin رحمه الله bu fəsildə nəql etdiyi bu hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ: **"Allahım, Səndən hidayət, təqva, iffətlilik və zənginlik diləyirəm"**– deyə Allaha dua edərmiş.

Burada **"hidayət"** deyildikdə, elm qəsd edilir. Peyğəmbər ﷺ də, başqa insanlar kimi elmə möhtacdır. Çünki uca Allah ona belə buyurmuşdur: **"Allahın sənə nazil etdiyi vəhy tamamlanmayınca Quranı oxumağa tələsmə və: "Ey Rəbbim! Elmimi artır!"– de."**[2] O, həmçinin buyurmuşdur: **"*Allah* sənə bilmədiklərini öyrətdi. Allahın sənə olan lütfü böyükdür."**[3] Bəli, Peyğəmbər ﷺ elmə möhtac olduğu üçün Allahdan hidayət diləmişdir.

Hidayət kəlməsi cümlədə tək zikr edildikdə, elm və haqq yola yönəlmək mənasını ifadə edir. Haqq yola yönəlmək mənasını ifadə edən başqa bir kəlmə ilə birlikdə eyni cümlədə zikr edildikdə isə, yalnız elm mənasını ifadə edir. Belə ki, ərəb dilinin qaydasına görə, eyni cümlədə "və" bağlayıcısı ilə bir-birinə bağlanan kəlmələrin hər biri ayrı-ayrı mənalar ifadə edir. Belə olduğu təqdirdə, "hidayət" kəlməsinin öz mənası, ondan sonra gələn kəlmələrin hər birinin də öz mənası var.

**"Təqva"** kəlməsinə gəlincə, bu, Allahdan qorxmaq deməkdir. Peyğəmbər ﷺ Rəbbindən təqva diləyir, yəni Allahdan qorxmağa müvəffəq olmağı istəyir. Çünki hər şeyin ixtiyarı Onun əlindədir. Əgər O Öz

---

[1] Səhih Muslim, 2721.
[2] Ta ha, 114.
[3] ən-Nisa, 113.

qulunu nəfsi ilə başlı-başına buraxsa, o, yolunu azar və heç bir xeyir əldə edə bilməz. Yox əgər Allah onu təqvalı olmağa müvəffəq edərsə, Allah qorxusu sayəsində haqq yolda sabit qalar.

**"İffətlilik"** sözünə gəlincə, Rəsulullah ﷺ Allahın onu iffətli etməsini, yəni Allahın haram buyurduqlarının hamısından uzaq durmağı ona nəsib etməsini diləmişdir. Əgər bu cümlədə "iffət" kəlməsinin "bəlli şeylərdən uzaq olmaq" mənasını ifadə etdiyini desək, onda onun, bu cümlədə "və" bağlayıcısı ilə "təqva" kəlməsinə bağlılığı, xüsusi mənada olan kəlmənin ümumi mənada olan kəlməyə bağlılığı sayılacaq. Əks halda isə iki sinonim[1] kəlimənin bir-birinə bağlılığı hesab ediləcək. Çünki iffət, Allahın haram buyurduğu hər bir şeydən uzaq durmağa deyilir.

**"Zənginlik"** sözünə gəlincə, bu, Allahdan başqasına möhtac olmamaqdır. Yəni insanın öz Rəbbindən savayı heç kəsə ehtiyacı olmamalıdır. Əgər Allah insana lütf edib, onu heç kəsə möhtac olmamağa müvəffəq edərsə, o insan izzətli olar, heç kəsin qarşısında zəlil olmaz. Belə ki, insanlara möhtac olmaq zillət və alçaqlıq, Allaha möhtac olmaq isə izzət və ibadətdir. Odur ki, Peyğəmbər ﷺ uca Allahdan zənginlik diləmişdir.

Biz də, bu xüsusda Peyğəmbəri ﷺ örnək götürərək Allahdan hidayət, təqva, iffətlilik və zənginlik diləməliyik. Bu hədis dəlildir ki, Peyğəmbər ﷺ özünə nə bir fayda, nə də bir zərər verməyə qadirdir; fayda və zərər verməyə qadir olan yalnız Allahdır.

Bu hədis, həmçinin, fayda əldə etmək və zərəri dəf etmək xüsusunda övliyalara və əməlisaleh insanlara ümid bağlayanların əqidələrinin batil olduğuna dəlalət edir. Necə ki, bəzi cahillər, Peyğəmbərin ﷺ qəbrinin yanında ona dua edir, yaxud Allahı qoyub övliya saydıqları kimsələrə dua edirlər. Bunlar dinlərində zəlalətə düşmüş, ağıldan kəm olan kimsələrdir. Çünki dua etdikləri kimsələrin özləri, heç özlərinə belə nə bir fayda, nə də bir zərər verə bilərlər. Bu xüsusda uca Allah Öz Peyğəmbərinə ﷺ belə buyurur: **"De: "Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm."**[2] O, həmçinin buyurur: **"De: "Mən Allahın**

---

[1] Sinonim: mənaca eyni olan kəlmələr.

[2] əl-Ənam, 50.

**istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadirəm."**[1] O, həmçinin buyurur: **"De: "Mən sizə nə ziyan verməyə, nə də *sizi* doğru yola yönəltməyə qadirəm!" De: "Həqiqətən, məni Allahdan heç kəs xilas edə bilməz və mən Ondan başqa bir sığınacaq yeri tapa bilmərəm!"**[2]

İnsan bilməlidir ki, yaradılanların Allah yanındakı şanı, məqamı və dərəcəsi nə qədər yüksək olsa da, onlar Allahdan savayı dua edilməyə layiq deyillər, əksinə onlar – Allah yanında hörmətli olan peyğəmbərlər ﷺ və əməlisalehlər, Allahı qoyub onlara dua edən kimsələrdən tamamilə uzaq olduqlarını elan edəcəklər. Necə ki, uca Allah İsaya ﷺ deyəcək: **"Ey Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahı qoyub məni və anamı iki məbud qəbul edin!"– demişdin?" İsa da belə cavab verəcək: "Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz."**[3] Yəni nə İsanın ﷺ, nə də başqa birisinin insanlara: "Allahı qoyub məni məbud qəbul edin!" deməyə haqqı yoxdur. Odur ki, ayənin davamında İsa ﷺ deyir: **"Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən! Mən onlara ancaq Sənin mənə əmr etdiyini: "Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!"– demişəm."**[4]

Xülasə budur ki, bəzi İslam ölkələrində olan bəzi cahil müsəlmanların, övliya saydıqları kimsələrin qəbirlərini ziyarət edib, onlardan mədəd diləmələri ağılsızlıq və dində azğınlıqdır. O övliyalar heç bir kəsə əsla fayda verə bilməzlər. Çünki onlar ölü cəsədlərdir. Onların özləri hərəkət etməyə qadir olmadıqları bir halda, başqalarını necə hərəkətə gətirə bilərlər. Müvəffəqiyyət uca Allahdandır.

٧٢- عَنْ أبي طَرِيفٍ عدِيِّ بْنِ حاتِمٍ الطائِيِّ رضي الله عنه قال: سمعت رسولَ اللَّه ﷺ يقُولُ: « مَنْ حَلَفَ عَلَى يمِينٍ ثُمَّ رَأَى أتقَى للَّهِ مِنْها فَلْيَأْتِ التَّقْوَى » رواه مسلم.

---

[1] əl-Əraf, 188.
[2] əl-Cinn, 21-22.
[3] əl-Maidə, 116.
[4] əl-Maidə, 116-117.

**72.** Rəvayət edilir ki, Əbu Tərif Adiy ibn Hatim ət-Taiy ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişəm: **"Hər kim *bir işi görmək və ya görməmək üçün* yəmin etsə, sonra da bunun xaricində edəcəyi əməlin təqvaya daha yaxın olduğunu görərsə, qoy təqvaya yaxın olanı etsin."**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Yəmin: Allahın hər hansı bir adı və ya hər hansı bir sifəti ilə Ona and içməkdir. Allahdan başqasına, – istər Peyğəmbərə ﷺ, istər Cəbrailə ﷺ, istərsə də başqa bir məxluqa and içmək isə caiz deyil. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Hər kim and içmək istəsə, qoy Allaha and içsin, ya da sussun!"[2]** Başqa bir hədisdə də o, belə buyurur. **"Kim Allahdan başqasına and içərsə, küfr etmiş və ya Allaha şərik qoşmuş olar."[3]** Yəni, kim Allahdan başqasına and içərsə, günah işləmiş olar və andı qəbul olmaz. Belə ki, bu cür and məqbul sayılmır. Çünki Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Hər kim dinimizə aid olmayan bir əməli edərsə, bu əməl rədd edilər."[4]**

İnsan tez-tez and içməkdən çəkinməlidir. Belə ki, bəzi təfsirçilərin rəyinə görə, uca Allahın: **"Andlarınızı qoruyun!"[5]** ayəsi bu mənanı ifadə edir. Yəni, Allaha çox and içməyin.

Əgər and içmək istəyirsənsə, o zaman buna Allahın istəyini də qeyd etməli, yəni "İn şaa Allah"– deməlisən. Belə etsən, iki böyük fayda əldə etmiş olarsan:

1. And içdiyin şey sənin üçün asanlaşdırılar;

2. Andını pozsan, buna görə kəffarə vermək lazım gəlməz. Kim Allaha and içdikdə, "İn şaa Allah"– desə, bu andına müxalif əməl etmiş olsa belə, onu pozmuş sayılmır.

---

[1] Səhih Muslim, 1651.

[2] Səhih əl-Buxari, 6646; Səhih Muslim, 1646.

[3] Sunən Əbu Davud, 3251; Sunən ət-Tirmizi, 1535; Musnəd imam Əhməd, 2/86, 87; Mustədrək əl-Hakim, 1/18; Silsilə əl-Əhadis əs-Səhihə, 2042.

[4] Səhih əl-Buxari, 2697; Səhih Muslim, 1718.

[5] əl-Maidə, 89.

Kəffarə verilməsi vacib olan and, gələcəkdə görülən bir iş üçün edilən anddır. Keçmişdə olan bir şey üçün edilən anda isə kəffarə düşmür. Lakin yalan danışarsa, günah qazanmış olar, yox əgər doğru danışarsa, buna görə kəffarə vermək lazım gəlməz. Məsələn, bir adam: "Vallahi belə etməmişəm"– desə, bu sözü doğru da olsa, yalan da olsa, ona görə kəffarə vermək lazım gəlmir. Lakin adam doğru söyləyirsə, yəni o işi görməyibsə, günahdan qurtulmuş olur; yox əgər yalan danışırsa, yəni o işi görübsə, onda günah qazanmış olur.

Kəffarəni vacib edən anda gəlincə, bu, gələcəklə bağlı olan andlara aiddir. Məsələn, gələcəkdə görəcəyin bir iş haqqında: "Vallahi belə etməyəcəm!"– desən, sonra onu etsən, kəffarə ödəməli olacaqsan, yox əgər onu etməsən, onda heç bir kəffarə ödəməyəcəksən. Çünki "Vallahi belə etməyəcəm!"– deyə içdiyin bu and, məqbul and sayılıq. Odur ki, həmin əməli etmiş olsan sənə kəffarə vermək vacib olur. Əgər həmin əməli etməsən, onda sənin boynuna heç bir kəffarə düşmür.

Yaxşı bəs hansı daha məsləhətdir, barəsində and içdiyin işi tərk etməyin, yoxsa andını yerinə yetirməyin? Şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ bildirmişdir ki, əgər *bir işi görəcəyinizə və ya görməyəcəyinizə dair* and içdikdən sonra, onun xaricində edəcəyiniz əməlin təqvaya daha yaxın olduğunu görsəniz, onda andınızı pozub kəffarə ödəyin və təqvaya daha yaxın olanı yerinə yetirin. Məsələn, sən: "Vallahi, filankəslə danışmayacam"– desən və qəsd etdiyin adam müsəlman birisi olarsa, o halda, təqvaya yaxın olanı budur ki, andını pozub o müsəlmanı danışdırasan. Çünki müsəlmanla əlaqəni kəsmək haramdır. Elə isə onu danışdır və andını pozub kəffarə ödə. Çünki bu, təqvaya daha yaxındır. Yaxud: "Vallahi filan qohumumu ziyarət etməyəcəm"– demisənsə, sənə bildirəməliyik ki, qohumları ziyarət etmək, qohumluq əlaqələrini saxlamağa aiddir. Qohumluq əlaqələrini saxlamaq isə vacibdir. Elə isə qohumunu ziyarət et və andını pozub kəffarə ödə. Çünki Peyğəmbər ﷺ belə buyurur: "**Kim *bir əməl etmək və ya etməmək* üçün and içsə, sonra da başqa bir əməlin bundan xeyirli olduğunu görsə, qoy xeyirli olanı etsin və andını pozduğuna görə kəffarə ödəsin.**"[1] Buna bənzər məsələləri də buna qiyas et.

---

[1] Səhih Muslim, 1651.

Xülasə budur ki, keçmişdəki bir şey üçün and içilsə, buna görə kəffarə ödəməyə lüzum yoxdur. Çünki buna görə kəffarə verilmir. Lakin belə olduğu təqdirdə, and içən adam, ya doğru söz danışıb salamat qalacaq, ya da yalan danışıb günah qazanacaq. Andı pozmağa görə kəffarə vermək isə, gələcəklə bağlı andlara aiddir. Əgər adam gələcəkdə hər hansı bir işi görəcəyinə dair and içsə, sonra da andına müxalif əməl etsə, buna görə kəffarə ödəməsi vacibdir. Fəqət bu andı Allahın istəyi ilə qeyd etməsi, yəni and içərkən: "İn şaa Allah"– deməsi istisnadır. Yəni belə olduğu təqdirdə, adam andını pozsa belə, onun kəffarə ödəməsinə lüzum yoxdur. Müvəffəqiyyət Allahdandır.

٧٣- عنْ أبي أُمَامَةَ صُدَيِّ بْنِ عَجْلانَ الْباهِلِيِّ رضي الله عنه قال: سَمِعْتُ رسول الله ﷺ يَخْطُبُ فِي حَجَّةِ الْوداعِ فَقَالَ: « اتَّقُوا اللَّه، وصَلُّوا خَمْسَكُمْ، وصُومُوا شَهْرَكُمْ، وأَدُّوا زَكَاةَ أَمْوَالِكُمْ، وَأَطِيعُوا أُمَرَاءَكُمْ، تَدْخُلُوا جَنَّةَ رَبِّكُمْ » رواه التِّرْمذيُّ، في آخر كتابِ الصلاةِ وقال: حديثٌ حسنٌ صحيح.

**73.** Əbu Umamə Sudey ibn Aclən əl-Bahili رضي الله عنه demişdir: "Mən Rəsulullahın ﷺ vida həccində xütbə verərkən belə dediyini eşitmişəm: **"Allahdan qorxun, beş vaxt namazınızı qılın, ayınızın orucunu tutun, mallarınızın zəkatını verin, əmirlərinizə itaət edin ki, Rəbbinizin Cənnətinə daxil olun!"**

Bu hədisi Tirmizi "Namaz" fəslinin axırında rəvayət etmiş və: "Bu hədis "həsən səhih"dir"– demişdir.[1]

**Şərh:**

Rəsulullahın ﷺ xütbələri iki cür idi: mütəmadi xütbələr və bir də müstəsna hallarda verdiyi xütbələr.

Mütəmadi xütbələrə gəlincə, bunlar cümə və bayram namazlarının xütbələridir. Belə ki, Rəsulullah ﷺ hər cümədə və hər bayramda xütbə oxuyardı. Alimlər, kusuf[2] namazından sonra verilən xütbənin mütəma-

---

[1] Sunən ət-Tirmizi, 616; Musnəd imam Əhməd, 5/251; Səhih İbn Hibban, 795; Mustədrək əl-Hakim, 1/9/389; Silsilə əl-Əhadis əs-Səhihə, 867.

[2] İslam alimlərinin icmasına görə "kusuf" və "xusuf" – günəş və ayın tam, yaxud qismən tutulmasına deyilir. Hər ikisinin tutulmasını həm "kusuf" həm də "xusuf" adlandırmaq olar. Kusuf namazı günəş və ayın tam yaxud qismən tutulduğu zaman iki rükətli səslə qılınan namazdır.

di xütbələrdən, yoxsa müstəsna hallarda verilən xütbələrdən olması barədə ixtilaf etmişlər. İxtilaf etmələrinin səbəbi isə, bu hadisənin Rəsulullahın ﷺ həyatında yalnız bir dəfə baş verməsidir. Həmin vaxt Rəsulullah ﷺ kusuf namazını qıldırmış, sonra qalxıb camaata xütbə oxumuşdur. Odur ki, bəzi alimlər bu xütbənin mütəmadi xütbələrə aid olduğunu demişlər. Çünki əsas, Rəsulullahın ﷺ qanuniləşdirdiyi bir hökmün dəyişməməsidir. Belə ki, Rəsulullahın ﷺ zamanında günəşin ikinci dəfə tutulması və Rəsulullahın ﷺ namazdan sonra xütbəni tərk etməsi baş verməmişdir ki, biz: "Bu, müstəsna hallarda verilən xütbələrdəndir"– deyək.

Bəzi alimlər isə bunun müstəsna hallarda verilən xütbələrdən olduğunu demişlər. Yəni bu namazdan sonra xütbə oxumağa ehtiyac olduğu halda, xütbə oxumaq, əks təqdirdə isə onu tərk etmək gərəkdir. Lakin daha doğru rəy budur ki, bu xütbə mütəmadi xütbələrdəndir və Rəsulullahın ﷺ etdiyi kimi, kusuf namazından sonra camaata xütbə oxumaq, onlara nəsihət etmək və onları Allahın əzabı ilə qorxutmaq gərəkdir.

Müstəsna hallarda verilən xütbələrə gəlincə, bu, Rəsulullahın ﷺ, ehtiyac olduqda verdiyi xütbələrdir. Məsələn, Aişə رضي الله عنها, Bərirə رضي الله عنها adında bir cariyəni satın alıb onu azad etmək istədikdə, o cariyənin ağaları: "Biz, bu cariyəni satsaq da, azad etmək haqqı yenə bizə aid olacaq"– deyə şərt qoydular. Aişə رضي الله عنها bu şərtlə razılaşmadı və bu haqda Peyğəmbərə ﷺ xəbər verdikdə, o belə buyurdu: **"Sən onu satın al və azad et. Müqavilə bağladıqda isə vəlilik haqqının sənə aid olduğuna aid şərt qoy!"** Sonra Peyğəmbər ﷺ ayağa qalxıb camaata xütbə oxudu və onlara bildirdi ki, köləyə ağalıq etmək ancaq *onu* azad edən kimsəyə aiddir.[1]

---

[1] Səhih əl-Buxari, 2563; Səhih Muslim, 1504. Hədisin tam variantı belədir: Rəvayət edilir ki, Bərirə رضي الله عنها Aişənin رضي الله عنها yanına gəlib, ondan əvvəlcədən yazılmış müqaviləyə əsasən ağasına müəyyən məbləğdə pul ödəyib onu köləlikdən azad etməsini xahiş etdi. Həmin vaxt o, *müəyyən edilmiş puldan* hələ heç bir şey ödəməmişdi. Aişə رضي الله عنها ona dedi: "Ağalarının yanına qayıt, *gör* əgər onlar, müqavilədə yazılmış məbləği ödəyəcəyim təqdirdə ağalıq hüququnu mənə verməyə razıdırlarsa, *pulu* ödəyim." Bərirə رضي الله عنها onun təklifini ağalarına bildirdikdə, onlar razılıq vermədilər və dedilər: "Əgər o, savab qazanmaq məqsədilə sənin yerinə pul vermək istəyirsə, versin, *lakin* sənə ağalıq etmək

Bir başqa misal da, Üsamə ibn Zeydin ﷺ, Məxzum qəbiləsindən olan, insanlardan kirayəyə əşya alıb, sonra aldığını inkar edən bir qadın üçün şəfaətçilik etdiyi vaxt, Peyğəmbərin ﷺ verdiyi xütbədir. Peyğəmbər ﷺ o qadının əlinin kəsilməsinə hökm verdikdə, qadının bu halına çox üzülən qureyşlilər, Rəsulullahın ﷺ onu əfv etməsi üçün bir kimsənin şəfaətçilik etməsini axtarmış və nəhayət, Üsamə ibn Zeydi ﷺ tapmış və ondan bunu xahiş etmişlər. O da, onların xahişini yerinə yetirdikdə, Peyğəmbər ﷺ ona: **"Allahın verdiyi hökmü ləğv etmək üçün havadarlıq edirsən?!"**– demiş, sonra ayağa qalxıb xütbə verərək belə buyurmuşdur: **"Sizdən əvvəlki ümmətləri məhv edən əməl bu idi ki, içərilərindən zadəgan birisi oğurluq etdikdə, ona dəyməzdilər; kasıb oğurluq etdikdə isə, ona cəza tətbiq edərdilər."**[1]

Həmçinin, vida həccində Peyğəmbər ﷺ Ərəfa günü, sonra bayram günü xütbə oxumuş və insanlara öyüd-nəsihət etmişdir. Bu xütbə də, mütəmadi xütbələrdəndir. Və necə ki, Peyğəmbər ﷺ ziyarət əsnasında insanlara xütbə oxumuşdur, eləcə də, həcc rəhbərlərinin ziyarət əsnasında insanlara xütbə oxuması sünnədir.

Rəsulullahın ﷺ vida həccində oxuduğu xütbələrindən birində dediyi sözlərdən bəzisi bunlardır:

**"Ey insanlar, Rəbbinizdən qorxun!"** Bu, Allahın: **"Ey insanlar, Rəbbinizdən qorxun!"**[2] sözü kimidir. Burada Rəsulullah ﷺ insanların hamısına, özlərinin Rəbbindən qorxmağı əmr etmişdir. O Rəbb ki, onları yaratmış, onlara çoxlu nemətlər əta etmiş, onlara Öz risalətini qəbul etməyə fürsət vermiş və onlara Allahdan qorxmağı əmr etmişdir.

**"Beş vaxt namazınızı qılın"**, yəni Allahın Rəsulullaha ﷺ fərz buyurduğu beş vaxt namazları qılın.

**"Ayınızın orucunu tutun"**, yəni ramazan ayının orucunu tutun.

---

hüququ yenə bizə aid olacaq." Aişə ﷺ bunu Peyğəmbərə ﷺ xəbər verdikdə, Peyğəmbər ﷺ ona belə buyurdu: "Sən onu al və azad et! Ağalıq etmək yalnız *köləni* azad edən kimsəyə aiddir." Sonra Peyğəmbər ﷺ *camaatın qarşısında* ayağa qalxıb dedi: "Nə üçün bəzi adamlar Allahın Kitabında olmayan şərtlər qoyurlar?! Kim Allahın Kitabında olmayan bir şərt qoyarsa, bu şərt keçərli sayılmaz. Hətta yüz dəfə şərt kəssə belə. Allahın şərtləri daha doğru və daha etibarlıdır."

[1] Səhih əl-Buxari, 3475; Səhih Muslim, 1688.

[2] ən-Nisa, 1.

**"Mallarınızın zəkatını verin",** yəni zəkatı, ona haqqı çatan insanlara verin və xəsislik etməyin.

**"Əmirlərinizə itaət edin",** yəni Allahın sizin üzərinizdə hökmran təyin etdiyi ixtiyar sahiblərinə itaət edin. Bu əmr, həm məntəqə rəhbərlərinə, həm də dövlət başçılarına şamil edilir. Xalqın öhdəsinə düşən budur ki, Allaha asilik sayılmayan işlərdə onlara itaət etsinlər. Allaha asi olan işlərdə isə, onlar əmr etsələr belə, onlara itaət etmək caiz deyil. Çünki məxluqa itaət, Xaliqə itaətdən üstün ola bilməz. Bu xüsusda uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Allaha itaət edin, Rəsuluna itaət edin və özünüzdən olan rəhbərlərə *itaət edin*."**[1] Bu ayədə rəhbərlərə itaət, "və" bağlayıcısı ilə, Allaha və Onun rəsuluna ﷺ olan itaətə bağlanır. Bu da, onlara itaətin, Allah və Onun rəsuluna ﷺ olan itaətdən sonra gəldiyini göstərir. Çünki cümlədə "və" bağlayıcısından sonra gələn söz müstəqil söz olmayıb, bağlayıcıdan əvvəl gələn sözə tabedir. Odur ki, ayədə uca Allah: **"Allaha itaət edin, Rəsuluna itaət edin"** buyurur. İkisini də ayrı-ayrı **"itaət edin"** əmri ilə təkrar edir ki, Rəsuluna ﷺ olan itaətin müstəqil olduğu anlaşılsın. Yəni Allaha itaət etmək vacib olduğu kimi, Onun rəsuluna ﷺ da itaət etmək vacibdir. Ona itaət etmək, elə Allaha itaət etmək deməkdir. Çünki Peyğəmbər ﷺ yalnız Allahın razı qaldığı əmrləri buyurmuşdur. Rəhbərlər isə bəzən Allahın razı qalmayacağı işləri də əmr edirlər. Elə buna görə də, uca Allah onlara itaəti, Allaha və Onun rəsuluna ﷺ olan itaətə tabe etmişdir.

İnsanın, Allaha asilik sayılmayan işlərdə rəhbərlərə itaət etməməsi və: "Bu əmr, dinə aid deyil"– deməsi caiz deyil. Belə ki, rəhbərlər şəriətə zidd olmayan qanunlar qoyduqda, bəzi cahillər: "Bu qanuna tabe olmaq mənə vacib deyil. Çünki bu, şəriətə aid deyil. Allahın Kitabında və Rəsulullahın ﷺ sünnəsində belə bir qanun yoxdur"– deyirlər. Bu, onların cahilliyindən irəli gəlir. Əksinə, deməliyik ki: "Bu qanunlara tabe olmaq, həm Allahın kitabında, həm də Rəsulullahın ﷺ sünnəsində mövcuddur. Bu xüsusda uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Allaha itaət edin, Rəsuluna itaət edin və özünüzdən olan rəhbərlərə *itaət edin*."**[2] Peyğəmbərdən ﷺ də bir çox hədislər rəvayət edilmişdir

---

[1] ən-Nisa, 59.

[2] Əvvəlki mənbə.

ki, həmin hədislərdə Peyğəmbər ﷺ əmirlərə itaət etməyi vacib buyurmuşdur. O hədislərdən biri də, şərh etdiyimiz bu hədisdir. Demək, rəhbərlər Allah və Onun rəsulunun ﷺ əmrinə müxalif olmayan qanunlar qoyduğu təqdirdə onlara itaət etmək vacibdir. Əgər rəhbərlərə, yalnız Allah və Onun rəsulunun ﷺ əmr etdikləri işlərdə itaət edəcək olsaydıq, onda rəhbərlərə itaət etmənin bir mənası olmazdı. Belə ki, Allaha və Onun rəsuluna ﷺ itaət, rəhbərlər bunu əmr etsələr də fərzdir, etməsələr də. Rəsulullahın ﷺ vida həccində əmr etdiyi – Allahdan qorxmaq, beş vaxt namazı qılmaq, ramazan ayının orucunu tutmaq, malın zəkatını vermək və əmirlərə itaət etmək kimi önəmli əmrlərinə diqqət yetirməli və bunları yerinə yetirməliyik. Daha doğrusunu isə Allah bilir.

## Yeddinci fəsil

## Yəqinlik və təvəkkül

**Mövzu ilə bağlı ayələr:**

Uca Allah belə buyurur:

﴿ وَلَمَّا رَءَا ٱلْمُؤْمِنُونَ ٱلْأَحْزَابَ قَالُوا۟ هَٰذَا مَا وَعَدَنَا ٱللَّهُ وَرَسُولُهُۥ وَصَدَقَ ٱللَّهُ وَرَسُولُهُۥ ۚ وَمَا زَادَهُمْ إِلَّآ إِيمَٰنًا
وَتَسْلِيمًا ﴾

**“Möminlər müttəfiqləri gördükdə: “Bu, Allahın və Onun Rəsulunun bizə olan vədidir. Allah və Onun Rəsulu doğru söyləmişlər!”– dedilər. Bu onların yalnız imanını və itaətini artırdı.”** [1]

﴿ ٱلَّذِينَ قَالَ لَهُمُ ٱلنَّاسُ إِنَّ ٱلنَّاسَ قَدْ جَمَعُوا۟ لَكُمْ فَٱخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَٰنًا وَقَالُوا۟ حَسْبُنَا ٱللَّهُ وَنِعْمَ
ٱلْوَكِيلُ ﴿١٧٣﴾ فَٱنقَلَبُوا۟ بِنِعْمَةٍ مِّنَ ٱللَّهِ وَفَضْلٍ لَّمْ يَمْسَسْهُمْ سُوٓءٌ وَٱتَّبَعُوا۟ رِضْوَٰنَ ٱللَّهِ ۗ وَٱللَّهُ ذُو فَضْلٍ عَظِيمٍ ﴾

**“O kəslər ki, *bəzi* adamlar onlara: “Camaat sizə qarşı *ordu* toplayıb, onlardan qorxun!”– dedikdə, *bu söz* onların imanını daha da artırdı və onlar: “Allah bizə yetər. O nə gözəl Qoruyandır!”– dedilər. Beləcə, özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və lütfü sayəsində geri döndülər və beləliklə də, Allahın rizasına uydular. Allah böyük lütf sahibidir.”** [2]

﴿ وَتَوَكَّلْ عَلَى ٱلْحَىِّ ٱلَّذِى لَا يَمُوتُ ﴾

**“Ölməz, *əbədi* Yaşayana təvəkkül et!”** [3]

﴿ وَعَلَى ٱللَّهِ فَلْيَتَوَكَّلِ ٱلْمُؤْمِنُونَ ﴾

**“Qoy möminlər ancaq Allaha təvəkkül etsinlər.”** [4]

---

[1] əl-Əhzab, 22.
[2] Ali-İmran, 173-174.
[3] əl-Furqan, 58.
[4] İbrahim, 11.

﴿ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى ٱللَّهِ ﴾

**“Qəti qərara gəldikdə isə Allaha təvəkkül et!”**[1]
Təvəkkülün əmr olunmasına dair bu cür ayələr çoxlu saydadır.
Uca Allah buyurur:

﴿ وَمَن يَتَوَكَّلْ عَلَى ٱللَّهِ فَهُوَ حَسْبُهُۥٓ ﴾

**“Kim Allaha təvəkkül etsə, *Allah* ona kifayət edər.”**[2]

﴿ إِنَّمَا ٱلْمُؤْمِنُونَ ٱلَّذِينَ إِذَا ذُكِرَ ٱللَّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ ءَايَٰتُهُۥ زَادَتْهُمْ إِيمَٰنًا وَعَلَىٰ رَبِّهِمْ يَتَوَكَّلُونَ ﴾

**“Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər.”**[3]
Təvəkkülün fəzilətinə dair bu cür ayələr çoxlu saydadır.

**Şərh:**

Müəllif bu fəsildə yəqinliklə təvəkkülü bir yerə cəm etmişdir. Çünki təvəkkül yəqinliyin bəhrələrindən biridir. Yəqinlik isə imanın və sabitliyin gücüdür. Hətta insanın yəqinliyi o qədər güclü ola bilər ki, bunun sayəsində Allahın və Onun rəsulunun ﷺ verdiyi xəbərləri gözləri ilə görə bilər. Deməki, yəqinlik heç bir yöndən şübhə qarışığı olmayan sabitlik və imandır. Adam Allahın və Onun rəsulunun ﷺ verdiyi xəbərləri sanki iştirakçısı olan adamın gördüyü kimi görə bilər. Bu da imanın ən yüksək dərəcələrindəndir. Bu cür yəqinlik çox böyük bəhrələr verir. Bu bəhrələrdən biri də uca Allaha olan təvəkküldür. Təvəkkül: mənfəətlərin əldə olunması və zərərlərin dəf edilməsi üçün həm zahirdə, həm də batində insanın öz Rəbbinə etimad etməsidir. Uca Allah buyurur: **“Kim Allaha təvəkkül etsə, *Allah* ona kifayət edər.”**[4]

[1] Ali-İmran, 159.
[2] ət-Talaq, 3.
[3] əl-Ənfal, 2.
[4] ət-Talaq, 3.

Bu iki mərtəbə – yəqinlik və təvəkkül – sayəsində insan dünya və Axirətdə olan məqsədlərinə nail olur, xöşbəxt və rahat həyat sürür. Çünki, Allahın və Onun rəsulunun ﷺ verdiyi bütün xəbərlərə yəqinliklə inanır və yalnız uca Allaha təvəkkül edir.

Sonra müəllif bu fəsilə aid ayələr zikr etmişdir. Həmin ayələr bunlardır:

**Birinci ayə:** Uca Allah buyurur: **"Möminlər müttəfiqləri gördükdə: "Bu, Allahın və Onun rəsulunun bizə olan vədidir. Allah və Onun rəsulu doğru söyləmişlər!"– dedilər. Bu onların yalnız imanını və itaətini artırdı."**[1]

**Müffəfiqlər:** bunlar, Peyğəmbərin ﷺ əleyhinə iş birliyi quran və ona qarşı müharibə etmək üçün bir yerə toplanan müxtəlif qəbilələrdən olan dəstələrdir. Onlar Peyğəmbərin ﷺ axırına çıxmaq üçün, Qureyş və digər qəbilələrdən on minə yaxın döyüşçü toplamış və gəlib Mədinə şəhərini mühasirəyə almışdılar. Peyğəmbərin ﷺ səhabələri bu döyüşə görə çox böyük sarsıntı keçirmişdilər. Uca Allah onları vəsf edərək belə buyurur: **"O vaxt** *qorxudan* **gözlər bərəlmiş, ürəklər xirtdəyə çatmış və siz də Allah barəsində zənnə qapılmışdınız. Orada möminlər imtahana çəkilmiş və güclü sarsıntıya məruz qalmışdılar."**[2]

Bu böyük və ağır sarsıntı zamanı insanlar iki qismə bölündü: **"Orada möminlər imtahana çəkilmiş və güclü sarsıntıya məruz qalmışdılar."**[3] Bu iki qismin hər ikisini uca Allah bu ayələrdə belə bəyan edir:

**Birinci qisim:** Uca Allah buyurur: **"O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: "Allah və Onun rəsulu bizə ancaq yalan vəd vermişdir"– deyirdilər."**[4] Münafiqlər o kəslərdir ki, üzdə özlərini mömin kimi göstərir, içlərindəki küfrü isə gizlədirlər. Onların qəlbində möminlərə qarşı mərəz, yəqinliklərində isə nöqsan var. Onlar belə deyirdilər: "Allah və Onun rəsulu bizə yalan vəd vermişdir." Yəni, necə ola bilər ki, Muhəmməd bir tərəfdən deyir ki, Kisranı, Qeysəri, Sənanı fəth edəcək, digər tərəfdən isə hal-hazırda bu adamlar tərəfindən mü-

---

[1] əl-Əhzab, 22.

[2] əl-Əhzab, 10-11.

[3] əl-Əhzab, 11.

[4] əl-Əhzab, 12.

hasirəyə alınıb. Axı bu necə ola bilər? Odur ki onlar: **"Allah və Onun rəsulu bizə ancaq yalan vəd vermişdir"**[1]– deyirdilər.

**İkinci qisim:** Bunlar mömilərdir. Uca Allah onlar barədə belə buyurur: **"Möminlər müttəfiqləri gördükdə: "Bu, Allahın və Onun rəsulunun bizə olan vədidir. Allah və Onun rəsulu doğru söyləmişdir!"– dedilər."**[2] Bu iki dəstə arasındakı fərqə baxın. Möminlər müttəfiqləri və bu ağır sınağı gördükdə bildilər ki, bunun ardından böyük qələbə və zəfər gələcək. Ona görə də, "Bu, Allahın və Onun rəsulunun bizə olan vədidir. Allah və Onun rəsulu doğru söyləmişdir!"– dedilər." Yəni, onlar qələbə qazanacaq, üstəlik, Qeysər, Kisra və Yəmən torpaqlarını da fəth edəcəklər. Allaha həmd olsun, həqiqətən, belə də oldu.

*Müəllifin zikr etdiyi birinci ayənin fəslə aid olan hissəsi uca Allahın bu* kəlamıdır: **"Bu, Allahın və Onun rəsulunun bizə olan vədidir. Allah və Onun Rəsulu doğru söyləmişdir!"** Bu, yəqinliyin son nöqtəsidir. Belə ki, adam, müsibət və sıxıntı zamanı imanında və yəqinliyində sabit qalır. Təvəkkülü və yəqinliyi zəif olan adam isə tamamilə bunun əksinə olur. Müsibət və sıxıntı zamanı onun imanı və yəqinliyi azalır, hətta bəzən dinindən dönür. Bu xüsusda uca Allah belə buyurur: **"İnsanlardan eləsi var ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib *küfrə* qayıdar. O *adam* dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur."**[3]

İnsanların əksəriyyəti firavanlıq içində olduğu müddətdə *qəlbi* rahat olur, başına bir müsibət gəldikdə isə, küfr və mürtədlik dərəcəsinə çatacaq qədər *Allahdan* üz döndərir, Onun qəzavü-qədərinə etiraz edir, Allahın əzəli hökmünü bəyənmir, hətta Allahı belə bəyənmir. Çünki birinci halda o adamın başına heç bir müsibət və ya sınaq gəlməmiş; ikinci halda isə adamın başına sınaq gəlmiş və *bu səbəbdən də Allahdan* üz döndərmişdir.

Həm bu ayələr, həm də buna bənzər digər ayələr onu göstərir ki, insan, qəlbinin azmasından qorxub ehtiyat etməli və daim sabit qalması-

---

[1] əl-Əhzab, 12.
[2] əl-Əhzab, 22.
[3] əl-Həcc, 11.

nı Allahdan diləməlidir. Çünki, Adəm övladlarının hər birinin qəlbi ər-Rəhmanın iki barmağı arasındadır, onu istədiyi kimi çevirə bilər. İstəsə onu sabit edər, istəsə də onu azdırar. Odur ki, qəlbləri çevirən Allahdan istəyirik ki, qəlbimizi Öz itaəti üzərində sabit etsin, bizə Öz dini üzərində möhkəm və sabit qalmağı nəsib etsin.

**İkinci ayə:** Uca Allah buyurur: **"O kəslər ki, *bəzi* adamlar onlara: "Camaat sizə qarşı *ordu* toplayıb, onlardan qorxun!"– dedikdə, *bu söz* onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!"– dedilər."**[1]

Bu ayə səhabələr ﷺ barəsində nazil olmuşdur. Belə ki, Uhud döyüşündə onların başlarına müsibətlər gəldikdən, *çoxlu sayda* yaralar aldıqdan və şəhidlər verdikdən bir müddət sonra onlara: "Əbu Sufyan sizi bir dəfəlik yox etmək istəyir. O sizə qarşı ordu toplayıb"– deyildi. Belə olduqda, Peyğəmbər ﷺ səhabələrini düşmənin qarşısına çıxmağa çağırdı və onlar yara aldıqdan sonra belə Allahın və *Onun* rəsulunun ﷺ dəvətini qəbul etdilər. *Yəni, Uhud döyüşündə* yaşadıqları o böyük faciədən, Allah yolunda yetmiş nəfər şəhid verdikdən, habelə, Peyğəmbərin ﷺ və onun səhabələrinin başına gələn müsibətdən sonra, yenə də onlar Allahın və *Onun* rəsulunun ﷺ dəvətini qəbul etdilər. Uca Allah onlar barədə belə buyurur: **"Yara aldıqdan sonra belə Allahın və *Onun* Rəsulunun dəvətini qəbul edən kimsələrdən yaxşı işlər görənlər və *Allahdan* qorxanlar üçün böyük bir mükafat vardır. O kəslər ki, *bəzi* adamlar onlara: "Camaat sizə qarşı *ordu* toplayıb, onlardan qorxun!"– dedilər."**[2] Yəni, Əbu Sufyan ﷺ və Qureyş qəbiləsinin sağ qalmış digər başçıları Peyğəmbərə ﷺ qarşı ordu toplayıb onları yox etmək istədilər. Lakin, Allah buna yol vermədi və Öz nurunu tamamladı.

Səhabələrə ﷺ belə deyildi: "Onlardan qorxun!" Lakin *bu söz* onların imanını daha da artırdı. Çünki mömінin başına gələn sıxıntılar nə qədər şiddətli olarsa, bir o qədər də Allaha olan imanı artar. Habelə, mömin inanır ki, səbrin ardından qələbə, kədərin ardından sevinc, çətinliyin ardından da asanlıq gəlir. Məhz buna görə də onların

---

[1] Ali-İmran, 173.

[2] Ali-İmran, 172-173.

imanları artdı və: **"Allah bizə yetər. O nə gözəl Qoruyandır!"–** dedilər. Yəni, bu çətin vəziyyətimizdə və sıxıntımızda Allah bizə yetər. **"O nə gözəl Qoruyandır!"** Yəni, Allah nə gözəl Himayədar, nə gözəl Yardımçıdır! Lakin onu da bilməliyik ki, Allah yalnız Onun dininə yardım edən kimsəyə yardım edir. Həqiqətən, O, comərdlərin ən comərdi və səxavətlilərin ən səxavətlisidir. İnsan öz işlərini Allaha tərəf yönəltsə, O həmin insana yardım edər, onun köməyində durar və onun işini Öz öhdəsinə götürər. Lakin nöqsan adamın özündə olur. Belə ki, əksər hallarda insanın özü Allahdan üz döndərir və mənəviyyatla bağlı olan işlərə deyil, yalnız maddiyatla bağlı olan işlərə etimad edir.

Uca Allah buyurur: **"Beləcə, özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və lütfü sayəsində geri döndülər."**[1] Yəni, səhabələr döyüşə çıxdılar, lakin heç bir çətinliklə üzləşmədilər, Əbu Sufyan ﷺ və onunla birlikdə gələnlər, Peyğəmbərə ﷺ qarşı heç bir həmlə etmədən geri qayıtdılar. Beləcə, heç bir döyüş olmadan səhabələrə ﷺ qələbə bəxş edildi. Yəni, düşmənin məyus halda geri qayıtması, səhabələr üçün qələbə sayıldı. Bu xüsusda uca Allah belə buyurur: **"Beləcə, özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və lütfü sayəsində geri döndülər və beləliklə də, Allahın rizasına uydular. Allah böyük lütf sahibidir."**[2]

Sonra uca Allah belə buyurur: **"Şeytan sizi sadəcə öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!"**[3] Yəni, öz dostları sayəsində sizin qəlbinizə qorxu salır. Əgər möminsinizsə, onlardan qorxmayın, Allahdan qorxun. Şeytan möminin yanına gəlib ona: "Filankəs barədə danışmaqdan çəkin, çünki o səni həbs edə bilər və ya sənin başına filan, filan işləri açar"– deyərək onu qorxuya salır. Lakin mömininin şeytanın dostlarından qorxması mümkün deyil. Çünki uca Allah belə buyurur: **"Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir."**[4] Allah yolunda olan insan tənə edənlərin tənəsindən qorxmamalı, yalnız Allahdan qorxmalı və yalnız

---

[1] Ali-İmran, 174.
[2] Əvvəlki mənbə.
[3] Ali-İmran, 175.
[4] ən-Nisa, 76.

Allahın buyurduğu doğru yolu tutub getməlidir. Əgər adam Allahın buyurduğu doğru yol üzərində olarsa, o, heç kəsdən qorxmaz.

**Üçüncü ayə:** Uca Allah buyurur: **"Ölməz, *əbədi* Yaşayana təvəkkül et!"**[1] Bu, uca Allahdır. Odur ki, istər kiçik, istərsə də böyük olsun – bütün işlərində Allaha güvən. Çünki Allah sənin işini asanlaşdırmasa, onu yerinə yetirmək sənə müyəssər olmaz. Allahın sənin işlərini asanlaşdırmasının səbəblərindən biri də, sənin Ona təvəkkül etməyindir. Xüsusilə də, başına gözləmədiyin işlər gəldikdə, qayğıların çoxaldıqda və sıxıntıların artdıqda *Ona təvəkkül etməlisən*. Çünki sənin Allahdan başqa sığınacaq yerin yoxdur. Elə isə yalnız Allaha təvəkkül etməli və Ona güvənməlisən ki, O sənə kifayət etsin.

Ayədəki: **"Ölməz"** kəlməsi dəlildir ki, Rəbbinin ölməsi qeyri-mümkündür. Bu xüsusda uca Allah buyurur: **"*Yer* üzündə olan hər kəs ölümə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir."**[2] Allahın yaşaması kamil olduğu üçün O, ölməzdir. Çünki O, Əvvəldir və Ondan əvvəl heç bir şey olmayıb, habelə Axırdır və Ondan sonra heç bir şey yoxdur. Həmçinin, Allah subhanəhu və təalə heç vaxt yatmır. Bu da Onun yaşamasının və *bütün yaradılanların* Qəyyumu olmasının kamilliyindən irəli gəlir. Uca Allah buyurur: **"Allah Özündən başqa *haqq* məbud olmayandır, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar."**[3] İnsanlara və cinlərə gəldikdə isə onlar həm yatır, həm də ölürlər. Aləmlərin Rəbbi isə heç vaxt yatmır. Çünki O, yatmağa möhtac deyil. İnsanlar isə yatmağa möhtacdırlar. Çünki bədən yorulur, usanır və bezir. Yuxu isə bu yorğunluqdan sonra rahatlıq gətirir və insanı, gələcək işlərini görmək üçün yenidən canlandırır. Allahı isə nə mürgü, nə də yuxu tutmur.

Uca Allah buyurur: **"Kim Allaha təvəkkül etsə, *Allah* ona kifayət edər."**[4] Yəni, ona yetər. Əgər Allaha təvəkkül etsən, hər bir işdə O sənə kifayət edər. Allahdan qeyrisinə təvəkkül etsən, Allah səni təvəkkül etdiyin kimsəyə həvalə edər və sənköməksiz qalarsan, işlərin də qaydasına düşməz.

---

[1] əl-Furqan, 58.
[2] ər-Rəhman, 26-27.
[3] əl-Bəqərə, 255.
[4] ət-Talaq, 3.

Uca Allah buyurur: **“Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər, namaz qılar və Bizim onlara verdiyimiz ruzidən *Allah yolunda* xərcləyərlər. Məhz onlar həqiqi möminlərdir.”**[1]

**“Allah anıldığı zaman”** yəni, Onun böyüklüyü, əzəməti və hakimiyyəti anıldığı zaman qəlblər qorxuya düşər, titrəyər və insan təsirlənər. Hətta sələflərdən elələri olub ki, onlara qorxu ayələri oxunduqda günlərlə xəstə yatıb və bu xəstəlikdən dolayı insanlar onu ziyarət ediblər. Bizə gəldikdə isə, qəlbimiz sərtləşibdir. Allahdan istəyirik ki, qəlbimizi yumşaltsın. Belə ki, bizə qorxu ayələri oxunduqda, elə bil ki, soyuq su içirik – Allahın rəhm etdiyi kimsələrdən başqa, heç birimiz bundan təsirlənmirik və ibrət götürmürük. Allahdan salamatlıq diləyirik.

Lakin mömin o kəsdir ki, Allah anıldığı zaman qəlbi titrəsin və qorxuya düşsün. Sələflərdən elələri olub ki, ona “Allahdan qorx!” deyildikdə titrəyərdi, hətta əlindəki şey *əlindən* yerə düşərdi.

**“Onun ayələri onlara oxunduqda imanları artar”** yəni, Allahın kəlamını eşitdikdə, iki yöndən onların imanları artardı:

**Birinci yön:** Allahın, keçmişdə baş vermiş və gələcəkdə baş verəcək qeyb aləmindən verdiyi xəbərləri təsdiq etməklə.

**İkinci yön:** Allahın hökmlərini qəbul etmək və bu hökmlərə boyun əyməklə. Yəni möminlər Allahın əmrlərini yerinə yetirirlər və bunun sayəsində onların imanları artır. Habelə, Allaha yaxınlaşaraq və Ondan qorxaraq Onun qadağalarından çəkinirlər və bunun sayəsində yenə də onların imanları artır. Demək onlara Allahın ayələri oxunduqda bu iki yöndən onların imanları artar.

Həmçinin, sən görsən ki, hər dəfə Quran oxuduqda imanın artır, bil ki, bu müvəffəqiyyətin əlamətlərindəndir. Yox, əgər Quran oxuduqda bundan təsirlənmirsənsə, onda özünü müalicə etməlisən. Mən, sənə, xəstəxanaya gedib dəva-dərman qəbul etməyini demirəm. Sən qəlbini müalicə etməlisən. Əgər qəlb Qurandan faydalanmırsa, ondan ibrət almırsa, demək, o, sərtləşmiş və xəstə qəlbdir. Allahdan bizi salamat etməsini diləyirik.

---

[1] əl-Ənfal, 2-4.

Qardaşım, sən özün özünə həkim olmalısan. Başqalarının yanına getməyə ehtiyac yoxdur. Sən Quran oxu. Əgər görsən ki, Quran sənin imanına, haqqı təsdiq etməyinə və əmrlərə boyun əyməyinə təsir edir, onda xoş sənin halına. Deməki, sən möminsən. Əks halda isə, dəva-dərmana müraciət etməlisən. Odur ki, özündən sonra heç bir yaşayış olmayan ölüm sənə yetişməmişdən öncə özünü müalicə et. Bu ölüm, qəlbin ölümüdür. Bədənin ölümünə gəldikdə isə, ondan sonra həm həyat, həm yenidən dirilmə, həm də haqq-hesab vardır.

**"Yalnız öz Rəbbinə təvəkkül edər"** yəni, bütün işlərini, başqasına deyil, yalnız özlərinin Hökmdarına və onları idarə edən Allaha həvalə edərlər. Ayənin ərəbcəsində "Rəbb" kəlməsinin "təvəkkül edər" sözündən əvvəl gəlməsi və bu cümlənin "və" bağlayıcı ilə ayənin əvvəlindəki möminlər kəlməsinə aid edilməsi buna dəlalət edir. Bu da, məxsusiyyət və məhdudiyyət bildirir. Yəni, onlar təvəkkülü Allaha məxsus etdikləri üçün yalnız Allaha təvəkkül edərlər. Çünki Allahdan qeyrisinə təvəkkül etsən, özün kimi bir insana təvəkkül etmiş olarsan və sən özünə fayda verməyə sən göstərdiyin qədər, o insan sənə fayda verməyə səy göstərməz. Elə isə həm dini, həm də dünyəvi işlərində yalnız Allaha təvəkkül et.

**"Namaz qılar və Bizim onlara verdiyimiz ruzidən *Allah yolunda* xərcləyərlər."** Yəni, namazları, onun vaciblərini, şərtlərini, rüknlərini və onu kamilləşdirən hər bir şeyi yerinə yetirərək doğru-düzgün şəkildə qılırlar. Buna, namazları öz vaxtlarında, habelə, məscidlərdə müsəlmanlarla camaat şəklində qılmaq da aiddir. Çünki, camaat namazından yalnız münafiq və ya üzrü olan kimsə yayınar. İbn Məsud ﷺ demişdir: "Biz bilirdik ki, namazdan[1] ancaq münafiqliyi yəqin bilinən münafiq, yaxud xəstə adam yayınırdı. Xəstə olan adam namaza gəlmək üçün iki nəfərin arasında *əllərini onların çiyninə qoyduğu halda* gedərdi."[2] Səhabələri ﷺ məscidlərə gəlməkdən xəstəlik belə yayındırmazdı.

Bu günkü gün isə insanların əksəriyyəti bunun əksinə hərəkət edir. Onların tənbəllik göstərib camaat namazına gecikdiklərini görürsən. Elə buna görə də, günorta namazları ilə fəcr namazını müqayisə etdik-

---

[1] Söhbət camaat namazından gedir.

[2] Səhih Muslim, 654.

də, məscidə gələnlərin sayında açıq-aydın fərqi görürsən. Çünki insanları fəcr namazında yuxu səbəbindən tənbəllik bürüyür və onlar bu namaza elə də çox əhəmiyyət vermirlər.

**"Bizim onlara verdiyimiz ruzidən *Allah yolunda* xərcləyərlər."** Yəni, öz mallarını Allahın razı qaldığı işlərə, Onun əmrlərinə uyğun və münasib sahələrə xərcləyirlər.

**"Məhz onlar həqiqi möminlərdir."** Bu ayə özündən əvvəlki cümləni bir daha təsdiq edir. Yəni, əvvəldə zikr edilən vəsflərə layiq olanlar həqiqi möminlərdir.

**"Onlar üçün Rəbbi yanında dərəcələr, bağışlanma və bolluca ruzi vardır."** Allahdan, Onun lütfü və səxavəti ilə həm bizi, həm də sizi o möminlərdən etməsini diləyirəm. Həqiqətən O, səxavətlidir, comərddir.

**Mövzu ilə bağlı hədislər:**

٧٤ - عَن ابْن عَبَّاسٍ رضي الله عنهما قَال: قَال رسولُ الله ﷺ: « عُرِضَت عليَّ الأمَمُ، فَرَأَيْت النَّبِيَّ وَمعَه الرُّهيْطُ، والنَّبِيَّ ومَعهُ الرَّجُل وَالرَّجُلانِ، وَالنَّبِيَّ وليْسَ مَعهُ أحدٌ إذ رُفِعَ لِي سوادٌ عظيمٌ فظننتُ أَنَّهُمْ أُمَّتِي، فَقِيلَ لِي: هذا موسى وقومه، ولكن انْظُرْ إلى الأُفُقِ، فَنَظَرْتُ فَإِذَا سَوَادٌ عَظِيمٌ، فَقِيلَ لِي: انْظُرْ إلى الأُفُقِ الآخَرِ، فَإِذَا سَوَادٌ عَظِيمٌ، فَقِيلَ لِي: هَذِهِ أُمَّتُكَ، ومَعَهُمْ سَبْعُونَ أَلْفاً يَدْخُلُونَ الْجَنَّة بِغَيْرِ حِسَابٍ ولَا عَذَابٍ » ثُمَّ نَهَضَ فَدَخَلَ منْزِلَهُ، فَخَاضَ النَّاسُ في أُولَئِكَ الَّذينَ يدْخُلُونَ الْجنَّةَ بِغَيْرِ حِسَابٍ وَلا عَذَابٍ، فَقَالَ بعْضُهُمْ: فَلَعَلَّهُمْ الَّذِينَ صَحِبُوا رسول الله ﷺ، وقَال بعْضُهُم: فَلعَلَّهُمْ الَّذينَ وُلِدُوا في الإسْلامِ، فَلَمْ يُشْرِكُوا بِاللَّهِ شَيْئاً - وذَكَروا أشْياء - فَخرجَ عَلَيْهِمْ رَسولُ اللهِ ﷺ فَقَالَ: « مَا الَّذي تَخُوضُونَ فِيهِ؟ » فَأَخْبَرُوهُ فَقَالَ: « هُمْ الَّذِينَ لا يَرْقُونَ، وَلا يَسْتَرْقُونَ، وَلاَ يَتَطَيَّرُونَ، وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ » فَقَامَ عُكَّاشَةُ بنُ مِحْصَنٍ فَقَالَ: ادْعُ اللَّه أنْ يجْعَلَني مِنْهُمْ، فَقَالَ: «أَنْت مِنْهُمْ» ثُمَّ قَام رَجُلٌ آخَرُ فَقَالَ: ادْعُ اللَّه أنْ يَجْعَلَنِي مِنْهُمْ فقال: «سَبَقَكَ بِهَا عُكَّاشَةُ» متفقٌ عليه.

« الرُّهَيْطُ بِضَمِّ الرَّاءِ: تَصغيرِ رَهْط، وهُم دُونَ عَشَرَةِ أَنْفُس. « والأفُقُ »: النَّاحِيةُ والْجانِب. « وعُكاشَةُ » بِضَمِّ الْعيْن وتَشْديد الْكاف وَبِتَخْفيفها، والتَّشْديدُ أفْصحُ.

**74.** İbn Abbas ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Ümmətlər mənə göstərildi. Mən elə bir peyğəmbər gördüm ki, yanında kiçik bir dəstə var idi. Başqa bir peyğəmbər gördüm, yanında bir və ya iki adam var idi. Hətta elə bir peyğəmbər də gördüm ki, yanında heç kəs yox idi. Bu vaxt mənə böyük bir qaraltı göstərildi. Mən onların, mənim ümmətim olduğunu zənn etdim. Mənə: "Bu, Musa və onun qövmüdür. Sən üfüqə doğru bax"– deyildi. Baxdım ki, orada böyük bir qaraltı var. Mənə yenə: "Üfüqün digər tərəfinə bax!"– deyildi. Mən daha əzəmətli bir qaraltı gördüm. Mənə: "Bu sənin ümmətindir. Onların içində yetmiş min nəfər var ki, onlar sorğu-sual olunmadan və əzab çəkmədən Cənnətə girəcəkdir"– deyildi."**

*Bunu deyəndən* sonra Peyğəmbər ﷺ qalxıb evinə daxil oldu. Camaat sorğu-suala çəkilmədən və əzaba giriftar olmadan Cənnətə girəcək o kimsələr barədə fikilər söyləməyə başladılar. Bəziləri: "Yəqin ki, bunlar Peyğəmbərə ﷺ yoldaş olmuş kimsələrdir"– dedilər. Bəziləri də: "Ola bilsin ki, bunlar İslam dövründə doğulmuş və Allaha şərik qoşmamış kimsələrdir"– dedilər. Beləcə, onlar bir çox şeylər zikr etdilər. Bu əsnada Peyğəmbər ﷺ onların yanına çıxdı və: **"Nə haqda söhbət edirsiniz?"**– deyə soruşdu. *Səhabələr söhbət etdikləri məsələ barədə* ona xəbər verdilər. Onda Peyğəmbər ﷺ buyurdu: **"Bunlar ovsun oxumayan, özlərinə ovsun oxunmasını tələb etməyən, *hər hansı bir hadisəni* uğursuzluq əlaməti hesab etməyən və yalnız öz Rəbbinə təvəkkül edən kimsələrdir."** *Bu vaxt* Ukkaşə ibn Mihsən ayağa qalxıb dedi: "*Ya Rəsulullah!* Allaha dua et, məni onlardan etsin!" Peyğəmbər ﷺ: **"Sən onlardansan!"**– dedi. Sonra başqa bir adam ayağa qalxıb: "*Ya Rəsulullah!* Allaha dua et, məni onlardan etsin!"– dedi. Peyğəmbər ﷺ buyurdu: **"Bu xüsusda Ukkaşə səni qabaqladı."**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Hədisdə ərəbcə keçən "ruheyt" kəlməsi, on nəfərdən az olan kiçik bir dəstə deməkdir. "Üfüq" kəlməsi isə, tərəfi, istiqaməti ifadə edir.

---

[1] Səhih əl-Buxari, 6541; Səhih Muslim, 220.

**Şərh:**

Müəllif fəslə *aid olan* ayələri gətridikdən sonra bu əzəmətli hədisi zikr etmişdir. Hədisdə Peyğəmbər ümmətlərin ona göstərilməsi barədə xəbər verir. Yəni, ona, ümmətlər və onların peyğəmbərləri göstərildi. Peyğəmbər **"Mən elə bir peyğəmbər gördüm ki, yanında kiçik bir dəstə var idi"**- deyir. Yəni, o peyğəmbərin yanında kiçik bir dəstə, üçdən çox, ondan az adam var idi.

Peyğəmbər **"Başqa bir peyğəmbər gördüm, yanında bir və ya iki adam var idi. Hətta elə bir peyğəmbər də gördüm ki, yanında heç kəs yox idi"**- deyir. Yəni, peyğəmbərlərin hamısına qövmləri itaət etməmişdir. Hətta, elə peyğəmbər olub ki, qövmündən heç kim ona itaət etməmiş, bəzisi də olub ki, ona kiçik bir dəstə itaət edib. Elələri də olub ki, ona bir və ya iki nəfər itaət edib. Sən Nuha baxsan görərsən ki, doqquz yüz əlli il ərzində qövmünün arasında qalıb onlara Allahı xatırlatdı, onları tək olan Allaha ibadət etməyə çağırdı. Uca Allah buyurur: **"*Lakin*, onunla birlikdə az adam iman gətirmişdi."**[1] Bütün bu müddət ərzində Nuhun qövmü onun dediklərini qəbul etmədi. Hətta Nuh belə onların şərindən yaxa qurtara bilmədi. Nuh belə demişdir: **"Sən onları bağışlayasan deyə, mən hər dəfə onları *imana* dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, *küfrlərində* israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər."**[2] Onlar Nuhun yanından keçərkən onu ələ salırdılar.

Hədisin davamında Peyğəmbər: **"Bu vaxt mənə böyük bir qaraltı göstərildi"**- deyir. Yəni, çoxlu insanlar. Onların sayı çox olduğuna görə qaraltı kimi görünürdülər. **"Mən onların, mənim ümmətim olduğunu zənn etdim. Mənə: "Bu, Musa və onun qövmüdür"- deyildi."** Çünki, peyğəmbərlər arasında *qövmü tərəfindən* ən çox itaət olunan Musa olmuşdur. O, İsrail oğullarına peyğəmbər göndərilmişdi. Uca Allah ona İsrail oğullarının ana kitabı olan Tövratı nazil etmişdir.

Peyğəmbər davam edib dedi: **"Sonra mənə, "Sən üfüqə doğru bax"– deyildi. Baxdım ki, orada böyük bir qaraltı var."** Digər rəvayət-

---

[1] Hud, 40.
[2] Nuh, 7.

də: ***“Bu qaraltı* bütün üfüqü tutmuşdu”–** deyilir. **“Mənə yenə: “Üfüqün digər tərəfinə bax!”– deyildi. Mən daha əzəmətli bir qaraltı gördüm. Mənə: “Bu sənin ümmətindir”– deyildi.”** Peyğəmbərimiz ﷺ o peyğəmbərlər عليهم السلام arasında ən çox itaət olunan peyğəmbərdir. Çünki, peyğəmbər göndərildiyi gündən Qiyamət gününə qədər insanlar ona itaət edəcəklər. Beləliklə də, o, peyğəmbərlər عليهم السلام arasında ən çox itaət olunan peyğəmbər olacaq. Ona itaət edənlər bütün üfüqü tutacaq.

**“Onların içində yetmiş min nəfər var ki, onlar sorğu-sual olunmadan və əzab çəkmədən Cənnətə girəcəkdir.”** Yəni, bu ümmət arasında Cənnətə girən yetmiş min nəfər olacaq ki, onlar nə haqq-hesaba çəkiləcək, nə də əzab görəcəklər. Haqq-hesaba çəkilmədən və əzab görmədən birbaşa Cənnətə girəcəklər. Allahım, bizi onlardan et!

Bəzi rəvayətlərdə bu yetmiş min nəfərin hər birinin yanında yetmiş min nəfər də olacağı varid olmuşdur.[1]

***“Bunu deyəndən* sonra Peyğəmbər ﷺ qalxıb evinə daxil oldu. Camaat sorğu-suala çəkilmədən və əzaba giriftar olmadan Cənnətə girəcək o kimsələr barədə fikilər söyləməyə başladılar. Bəziləri: “Yəqin ki, bunlar Peyğəmbərə ﷺ yoldaş olmuş kimsələrdir”– dedilər.”** Yəni, yəqin ki, bunlar səhabələrdir رضي الله عنهم.

**“Bəziləri də: “Ola bilsin ki, bunlar İslam dövründə doğulmuş və Allaha şərik qoşmamış kimsələrdir”– dedilər. Beləcə, onlar bir çox şeylər zikr etdilər.”** Hər kəs öz düşündüyünü dedi. Sonra Peyğəmbər ﷺ onların yanına çıxdı və onlardan nə barədə söhbət etdiklərini soruşdu. Onlar da *söhbət etdikləri məsələ barədə* ona xəbər verdilər. Onda Peyğəmbər ﷺ belə buyurdu: **“Bunlar ovsun oxumayan, özlərinə ovsun oxunmasını tələb etməyən, *hər hansı bir hadisəni* uğursuzluq əlaməti hesab etməyən və yalnız Rəbbinə təvəkkül edən kimsələrdir.”** Bu Muslimin rəvayət etdiyi ləfzdir. Bu ləfzdə **“ovsun oxumayan”-** deyilir.

---

[1] Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: “Ümmətimdən yetmiş min nəfər Cənnətə sorğu-sualsız girəcək. Onların üzü bədr gecəsindəki ay kimi nur saçacaq, qəlbləri də *mömin* bir adamın qəlbi kimi olacaq. Mən Rəbbimdən bundan artığını istədim, O da, mənə *həmin yetmiş min nəfərdən* hər bir kəslə yetmiş min də əlavə olaraq Cənnətə sorğu-sualsız girəcəyini nəsib etdi” (Musnəd imam Əhməd, 1/203; “Səhih əl-Cami”, 1057). Yəni bu ümmətdən dörd milyard doqquz yüz milyon mömin sorğu-sualsız Cənnətə girəcək. Allah bizi o kəslərdən etsin!

Müəllif ﵀: "Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir."– deyir. Əslində isə o, bu ləfzin Buxariyə deyil, Muslimə məxsus olduğunu bəyan etməli idi. Belə ki, **"ovsun oxumayan"** kəlməsi səhih deyil. Bu kəlmənin Peyğəmbərdən ﷺ varid olması səhih deyil. Çünki **"ovsun oxumayan"** kəlməsinin mənası, "xəstələrə ovsun oxumurlar" deməkdir. Bu isə batil fikirdir. Çünki, Peyğəmbər ﷺ xəstələrə ovsun oxuyardı. Üstəlik, xəstələrə ovsun oxumaq yaxşı əməl sayılır. Belə olduğu təqdirdə necə ola bilər ki, onu tərk etmək, sorğu-sual olunmadan və əzab çəkmədən Cənnətə daxil olmaq üçün səbəb olsun.

Xülasə budur ki, **"ovsun oxumayan"** ləfzi şəzdır,[1] yəni xətadır və ona etimad etmək olmaz. Səhih olan isə belədir: **"Bunlar özlərinə ovsun oxunmasını tələb etməyən kimsələrdir."** Yəni, onlar, başlarına bir iş gəldikdə heç kimdən özləri üçün ovsun oxunmasını tələb etmirlər. Çünki onlar *yalnız* Allaha güvənən kimsələrdir. Belə ki, başqasından bir şey istəməyin özündə, nə qədər olmasa da alçalma vardır. Çünki bu əməl başqasına əl açmaq sayılır. Ola bilsin ki, adam ovsun oxumaq istəmir, amma sən bunu ondan tələb etməklə onu çətin vəziyyətə salırsan. Bəlkə də adam sənə ovsun oxuduqda xəstəlik sağalmadı və belə olduğu təqdirdə sən onu təqsirkar görəcəksən. Buna bənzər hallar çox olur. Odur ki, hədisdə: **"Özlərinə ovsun oxunmasını tələb etmirlər"**– deyilir.

Buxarinin rəvayətində: ***"Müalicə məqsədilə*** **bədənlərini dağlatmayanlar"**– deyilir. Yəni, xəstələndikdə heç kimdən müalicə məqsədi ilə bədənlərinə dağ basılmasını tələb etmirlər. Çünki dağ basmaq odla əzab verməkdir. Yalnız zəruri hallarda bunu etmək olar.

***"Hər hansı bir hadisəni*** **uğursuzluq əlaməti hesab etməyənlər."** Yəni, onlar gördükləri, eşitdikləri, iysini və dadını hiss etdikləri heç bir şeyi uğursuzluq əlaməti hesab etmirlər. Bir sözlə, heç vaxt hər hansı bir hadisəni uğursuzluq əlaməti saymırlar. Cahiliyyə dövründə ərəblər quş uçurdar və buna uyğun əməl edərdilər. Quşu göyə uçurtduqda, o sol tərəfə və ya arxaya uçardısa, bunu uğursuzluq əlaməti sayar, qabağa və ya sağ tərəfə uçduqda isə, bunu başqa bir əlamət hesab edərdilər.

---

[1] Şəzz: bu kəlmə ( شاذ ) ərəbcə "şəzzə" ( شذ ) felinin məlum növündən əmələ gəlmiş feli sifət olub, tək-tənha, yana çəkilmiş mənaları ifadə edir. İstilahi mənada isə rəvayəti məqbul ("səhih", yaxud "həsən") sayılan ravinin özündən də nüfuzlu raviyə müxalif olaraq rəvayət etdiyi hədis "şəzz" adlanır.

Hər hansı bir şeyi uğursuzluq əlaməti saymaq haramdır. Heç bir kəsə, nə quşları, nə günləri, nə ayları, nə də bunlardan qeyrilərini uğursuzluq əlaməti hesab etmək caiz deyil. Qədimdə ərəblər şəvval ayında evlənməyi uğursuzluq əlaməti hesab edərdilər. Onlar deyərdilər ki, adam şəvval ayında evləndikdə xeyrə müvəffəq olmur. Aişə ﵂ *bu cür etiqadın batil olduğunu bildirib* deyərdi ki: "Subhanəllah! Peyğəmbər ﷺ mənimlə şəvval ayında nikah bağlamış, zifaf gecəsi şəvval ayında baş vermiş və onun üçün qadınların ən sevimlisi mən idim." Elə isə, şəvval ayında evlənən şəxsin xeyrə müvəffəq olmayacağını necə deyə bilərlər. *Bundan başqa o vaxt* ərəblər çərşənbə gününü də uğuzsuz əlamət hesab edərdilər. Halbuki, çərşənbə günü həftənin digər günləri kimidir. Bu gündə uğursuzluq yoxdur. Habelə, bəziləri adamların üzlərini uğursuz əlamət hesab edirlər. Onlar xoşlarına gəlməyən adam üzü gördükdə bunu uğursuzluq əlaməti sayırlar. Bəziləri də dükanını açarkən qarşısına çıxan ilk adamın kor və ya təkgöz olduğunu gördükdə dükanı bağlayır və "bu gün ruzi" yoxdur deyir. Hər hansı bir şeyi uğursuzluq əlaməti saymaq kiçik şirk olması ilə yanaşı, insana üzüntü də gətirir. Belə ki, o, gördüyü hər bir şeyə görə üzülür. Lakin adam bütün bu xurafatları tərk edib Allaha güvənərsə, *həmin üzüntülərdən* canı qurtarar və güngüzaranı xoş, özü də xoşbəxt olar.

**"Yalnız öz Rəbbinə təvəkkül edən kimsələrdir."** Yəni, onlar hər bir şeydə yalnız Allaha güvənirlər. Ondan qeyrisinə güvənmirlər. Çünki uca Allah Öz kitabında belə buyurur: **"Kim Allaha təvəkkül etsə, *Allah* ona kifayət edər."**[1] Kim Allahla kifayətlənərsə, artıq Allah o adama hər bir şeydə yetər.

Bu əzəmətli hədisdə, Cənnətə sorğu-sualsız və əzab görmədən girənlərin vəsfləri verilmişdir. Burada dörd xislət zikr edilmişdir: Onlar özlərinə ovsun oxunmasını tələb etmirlər, *müalicə məqsədilə* bədənlərini dağlatmırlar, *hər hansı bir şeyi* uğursuzluq əlaməti saymırlar və yalnız özlərinin Rəbbinə təvəkkül edirlər. Bu hədisin fəslə aid olan hissəsi: **"Yalnız öz Rəbbinə təvəkkül edən kimsələrdir"** kəlməsidir.

**"*Bu vaxt* Ukkaşə ibn Mihsən ayağa qalxıb dedi: "*Ya Rəsulullah!* Allaha dua et, məni onlardan etsin!"** Bu səhabə xeyrə nail olmağa tə-

---

[1] ət-Talaq, 3.

ləsdi və hamını qabaqladı. Peyğəmbər ﷺ: **"Sən onlardansan!"**– dedi. Məhz buna görə biz şahidlik edirik ki, Ukkaşə ibn Mihsən رضي الله عنه Cənnətə sorğu-sual olunmadan və əzab görmədən girəcək. Çünki Peyğəmbər ﷺ ona: **"Sən onlardansan!"**– demişdir.

**Sonra başqa bir adam ayağa qalxıb: "*Ya Rəsulullah!* Allaha dua et, məni onlardan etsin!"– dedi. Peyğəmbər ﷺ buyurdu: "Bu xüsusda Ukkaşə səni qabaqladı."** Peyğəmbər ﷺ ona yox cavabı verdi, lakin mülayim şəkildə. Ona: "Sən onlardan deyilsən" demədi, əksinə, ona: **"Bu xüsusda Ukkaşə səni qabaqladı"**– dedi. Peyğəmbərin ﷺ həmin adama: **"Bu xüsusda Ukkaşə səni qabaqladı"**– deməsinin səbəbi barəsində alimlər ixtilaf etmişlər. Bəziləri demişlər ki: Çünki, Peyğəmbər ﷺ, "Allaha dua et, məni onlardan etsin"– deyən adamın münafiq olduğunu bilirdi. Münafiq isə Cənnətə daxil ola bilməz. O ki qaldı, onun sorğu-sual olunmadan və əzab çəkmədən Cənnətə daxil olmasına, bəzi alimlər belə demişlər: Peyğəmbər ﷺ bu məsələyə qapı açmamaq üçün belə demişdir ki, sorğu-sual olunmadan və əzab çəkmədən Cənnətə girməyə layiq olmayan hər kəs, qalxıb: "Allaha dua et məni də onlardan etsin"– deməsin. Hər bir halda, biz, Peyğəmbərin ﷺ həmin adam üçün Allaha dua etməməsinin müəyyən bir səbəbinin olduğunu bilirik. *Lakin bu səbəbin nə olduğunu* yəqinliklə bilmirik. Daha doğrusunu Allah bilir.

Lakin biz Peyğəmbərin ﷺ o adama verdiyi cavabından fayda əldə edirik. Belə ki, Peyğəmbərin ﷺ: **"Bu xüsusda Ukkaşə səni qabaqladı"**– sözü həmin adamın nə xətrinə dəydi, nə də onu kədərləndirdi. Subhanəllah! Bu söz bü günkü günə qədər bir məsəl olaraq işlənir. Hər dəfə bir adam nə isə istədikdə, əgər onu kimsə qabaqlamış olarsa, ona: "Bu işdə Ukkaşə səni qabaqladı"– deyə cavab verilir.

Bəzi alimlər bu hədisdə bir anlaşılmazlıq olduğunu zikr edərək belə demişlər: "Əgər bir adam özünə ovsun oxutdurması məcburiyyətində qalarsa, yəni, hər hansı bir şəxsdən özü üçün ovsun oxunmasını tələb etmək məcburiyyətində qalarsa, məsələn, ona göz dəydikdə, yaxud sehr olunduqda, yaxud bədəninə cin daxil olduqda, özü üçün ovsun oxunması məcburiyyətində qalsa və gedib bir adamdan özünə ovsun oxunmasını tələb edərsə, sorğu-sual olunmadan və əzab görmədən Cənnətə girən insanlar sinfindən çıxır, yoxsa yox?"

**Bəzi alimlər bu suala belə cavab vermişlər:** "Bəli, çıxır. Çünki hədisin zahiri buna dəlalət edir. Odur ki, həmin adam Allaha təvəkkül etsin, səbirli olsun və Allahdan salamatlıq diləsin."

**Bəzi alimlər isə belə demişlər:** "Əksinə, bu, başına müsibət gəlməmişdən öncə ovsun oxunmasını tələb edən kimsələrə aiddir. Yəni, adam, "Mənə göz dəyməsin və ya sehr, cinn, qızdırma toxunmasın deyə ovsun oxu"– desə, onda bu əməl baş verməmiş hadisəyə görə özünə ovsun oxunmasını tələb etmək sayılar. Bədəni dağlatmaq da bu cürdür.

Əgər bir adam: "*Müalicə məqsədi ilə* başqalarına dağ basan şəxs *Cənnətə sorğu-sual olunmadan və əzab görmədən girməkdən* məhrum olurmu?"– deyə sual versə, onun cavabı belədir: Xeyir, *məhrum olmur.* Çünki Peyğəmbər ﷺ: **"*Müalicə məqsədilə* bədənlərini dağlatmayanlar"**– demişdi. Yəni, onlar, *müalicə məqsədi ilə* bədənlərinə dağ basılmasını tələb etmirlər. Peyğəmbər ﷺ: "Onlar *müalicə məqsədilə* dağ basmırlar"– deməmişdir. Çünki Peyğəmbərin ﷺ özü, Səd ibn Muazın رضي الله عنه venasına dağ basmışdır. Səd ibn Muaz رضي الله عنه Ovs qəbiləsindən və Mədinə əhlindən idi. O, Xəndək döyüşündə venasından yaralanmışdı deyə *qolundan* qan fışqırırdı. Vena elə bir yerdir ki, oradan qan fışqırsa insan ölə bilər. Elə buna görə də, Peyğəmbər ﷺ Səd ibn Muazın رضي الله عنه həmin damarına dağ basmışdır ki, qanaxma dayansın. *Deməк,* Peyğəmbər ﷺ başqasına damğa basmışdır. *Bundan başqa* Peyğəmbər ﷺ Cənnətə, sorğu-sual olunmadan və əzab görmədən girən ilk insan olacaqdır.

Demək *müalicə məqsədilə* xəstələrə dağ basanlar yaxşı əməl sahibləridir. İnsanlara ovsun oxuyanlar da yaxşı əməl sahibləridir. Lakin *hədisdə* söhbət, özlərinə ovsun oxunmasını tələb etməyən şəxslərdən gedir. Yəni, onlar başqalarından özləri üçün ovsun oxumalarını tələb etmirlər. Yaxud, *müalicə məqsədilə* bədənlərini dağlatmırlar. Yəni, başqasından, bədəninə dağ basmasını tələb etmirlər. Müvəffəqiyyət Allahdandır.

٧٥ - عَنْ ابْن عبَّاس رضي الله عنهما أيْضاً أَنَّ رسول اللهِ ﷺ كانَ يقُولُ: «اللَّهُم لَكَ أَسْلَمْتُ وبِكَ آمنْتُ، وعليكَ توَكَّلْتُ، وإلَيكَ أنَبْتُ، وبِكَ خاصَمْتُ. اللَّهمَّ أعُوذُ بِعِزَّتِكَ، لا إلَه إلاَّ أنْتَ أنْ تُضِلَّنِي، أنْت الْحيُّ الَّذي لا تمُوتُ، وَالْجِنُّ وَالإنْسُ يمُوتُونَ» متفقٌ عليه.

وَهَذا لَفْظُ مُسْلِمٍ وَاخْتَصرهُ الْبُخَارِيُ.

**75.** İbn Abbas ﵄ rəvayət edir ki, Rəsulullah ﷺ belə deyərmiş: “Allahım, yalnız Sənə təslim oldum, yalnız Sənə iman gətirdim, yalnız Sənə təvəkkül etdim, tövbə edib yalnız Sənə döndüm, yalnız Sənin uğrunda mübarizə apardım. Allahım, Səndən başqa *haqq* məbud yoxdur. Məni zəlalətə salmamağın üçün Sənin izzətinə sığınıram. Sən Ölməyən, *əbədi* Yaşayansan. Cinlər və insanlar isə ölürlər.”

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1] Bu, Muslimin rəvayətidir. Buxari isə onu müxtəsər olaraq nəql etmişdir.

٧٦ - عن ابْنِ عَبَّاس ﵄ أيضاً قال: «حسْبُنَا اللَّهُ ونِعْمَ الْوكِيلُ، قَالَهَا إبْراهِيمُ ﷺ حينَ أُلْقِى في النَّارِ، وَقالَهَا مُحمَّدٌ ﷺ حينَ قَالُوا: ﴿إِنَّ ٱلنَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَٱخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَٰنًا وَقَالُواْ حَسْبُنَا ٱللَّهُ وَنِعْمَ ٱلْوَكِيلُ﴾ رواه البخاري.

وفي رواية له عن ابْنِ عَبَّاسٍ ﵄ قال: « كَانَ آخِرَ قَوْلِ إبْراهِيمَ ﷺ حِينَ أُلْقِي في النَّارِ « حسْبِي اللَّهُ وَنِعمَ الْوَكِيلُ ».

Rəvayət edilir ki, İbn Abbas ﵄ demişdir: **“Allah bizə yetər. O, nə gözəl Qoruyandır!”**– sözlərini İbrahim ﵇ oda atıldığı zaman demişdir. Muhəmməd ﷺ *və onun səhabələri* isə, *münafiqlər* onlara: **“Camaat sizə qarşı *ordu* toplayıbdır, onlardan qorxun!”– dedikdə, bu, onların imanını daha da artırdı və onlar: “Allah bizə yetər. O nə gözəl Qoruyandır!”– dedilər.”**[2] Bu hədisi Buxari rəvayət etmişdir.[3]

Buxarinin İbn Abbasdan ﵄ nəql etdiyi digər rəvayətdə isə o belə demişdir: “İbrahim ﵇ oda atıldığı zaman onun son sözü: **“Allah mənə yetər. O nə gözəl Qoruyandır!”**– olmuşdur.”[4]

**Şərh:**

İbrahim ﵇ və Muhəmməd ﷺ – hər ikisi xəlilullahdır, yəni Allahın ən yaxın dostlarıdır. Uca Allah buyurur: **“Allah İbrahimi *Özünə ən yaxın***

---

[1] Səhih əl-Buxari, 1120; Səhih Muslim, 2717.
[2] Ali-İmran, 173.
[3] Səhih əl-Buxari, 4563.
[4] Səhih əl-Buxari, 4564.

**dost tutmuşdur."**[1] Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Uca Allah İbrahimi özünə ən yaxın dost seçdiyi kimi, məni də özünə ən yaxın dost seçmişdir."[2] Xəlil sözü, sevgisi ən yüksək mərtəbəyə çatmış sevimli dost mənasındadır. Muhəmməd ﷺ və İbrahimdən ﵇ başqa bu vəsfə malik olan ikinci bir şəxs tanımırıq. Onların hər ikisi xəlilullahdır. Hərdən bəzi insanların: "İbrahim ﵇ xəlilullah, Muhəmməd ﷺ həbibullah, Musa ﵇ isə kəlimullahdır"[3]– dediklərini eşidirsən. Muhəmməd ﷺ haqqında: "O, həbibullahdır"– deyən adamın sözündə problem var. Çünki, xəlil sözü həbib sözündən daha yüksəkdir. Əgər adam "Muhəmməd ﷺ həbibullahdır"– desə, bu sözlə Peyğəmbəri ﷺ haqqı ilə vəsf etmiş sayılmaz. Çünki Allaha sevimli olanlar çoxdur. Allah möminləri, muhsinləri, ədalətli olanları sevir. Deməк, Allaha sevimli olanlar çoxdur. Lakin, ən sevimli dosta gəldikdə, bunun yalnız Muhəmməd ﷺ və İbrahim ﵇ barəsində sabit olduğunu bilirik. Buna əsasən də: "İbrahim ﵇ xəlilullahdır, Muhəmməd ﷺ xəlilullahdır, Musa ﵇ isə kəlimullahdır"– deməyimiz daha doğru olardı. Hərçənd, uca Allah Muhəmmədlə ﷺ də, yeddi göyün üzərinə qaldırıldıqda, *meracda* bilavasitə danışmışdır.

**"Allah bizə yetər. O nə gözəl Qoruyandır!"** kəlməsini İbrahim ﵇ oda atıldığı zaman demişdir. Belə ki, İbrahim ﵇ öz qövmünü, heç bir şəriki olmayan tək Allaha ibadət etməyə dəvət etmiş, onlar isə buna razı olmamış, əksinə, küfr və şirk etmələrinə davam etmişlər. Belə olduqda, o, günlərin bir günü onların bütlərinin yanına gəlib, onları sındıraraq qırıq-qırıq etmiş və yalnız onlardan ən böyüyünə toxunmamışdır. Onun qövmü geri qayıtdıqda öz ilahlarının sındırıldığını görmüş və İbrahimdən ﵇ öz nəfslərinə görə intiqam almaq istəmiş və: "İbrahimə nə edək?"– demişlər. Bu xüsusda uca Allah belə buyurur: **"Onlar dedilər: "Əgər *İbrahimdən* əvəz çıxmaq istəyirsinizsə, onu yandırın ki, məbudlarınıza kömək edəsiniz."**[4] Elə buna görə də, onlar böyük bir od qaladılar və İbrahimi ﵇ onun içinə atdılar. Deyilənə görə od o qədər

---

[1] ən-Nisa, 125.

[2] Səhih Muslim, 532.

[3] Xəlilullah sözü, Allahın ən yaxın dostu, həbibullah, Allahın ən sevimlisi, kəlimullah isə Allahın *bilavasitə* danışdığı *insan* deməkdir.

[4] əl-Ənbiya, 68.

böyük idi ki, ona yaxınlaşa bilmirdilər. Ona görə də İbrahimi ﷺ həmin odun içinə mancanaq vasitəsi ilə atdılar. Onlar İbrahimi ﷺ oda atdıqda o: **"Allah mənə yetər. O nə gözəl Qoruyandır!"**– dedi. Bəs sonra nə baş verdi? Bu xüsusda uca Allah belə buyurur: **"Biz: "Ey od, İbrahim üçün sərin və zərərsiz ol!"– dedik."**[1] Ayədəki **"sərin"** sözü istinin əksini, **"zərərsiz"** sözü isə həlak sözünün əksini bildirir. Çünki od həm isti, həm də həlakedici olur. Odur ki, Allah oda, İbrahim ﷺ üçün həm sərin, həm də zərərsiz olmağı əmr etdi. Od da sərin və zərərsiz oldu.

Bəzi təfsirçilər bu əhvalat barədə İsrail oğullarından belə rəvayət edirlər ki, uca Allah oda: **"Ey od, İbrahim üçün sərin və zərərsiz ol!"–** dedikdə, dünyada olan bütün odlar sərin oldu. Bu rəvayət səhih deyil. Çünki uca Allah müəyyən bir oda xitab edib: **"Ey od, sərin ol!"**– demişdir. Qeyri müəyyən formada gələn od kəlməsinin son hərəkəsi "damma" olduğu üçün, nəhv alimləri bu cür cümlə quruluşuna görə, xitabın qeyri müəyyən formada olub xüsusi bir oda yönəldiyini deyirlər. Yəni, xitab bütün odlara deyil yalnız İbrahimin ﷺ atıldığı oda aiddir. Doğru olan rəy də, elə budur. Dünyada olan digər odlar isə öz təbii halında olaraq qalmışdır.

Alimlər həmçinin qeyd edirlər ki, uca Allah oda: **"Sərin ol!"**– deyə buyurduqda, buna: **"zərərsiz ol!"** sözünü də əlavə etmişdir. Çünki yalnız **"sərin"** sözü ilə kifayətlənsə idi, od soyuq olub onu həlak edə bilərdi. Belə ki, hər bir varlıq dərhal Allahın əmrinə tabe olur. Gəlin Allahın bu ayəsinə nəzər salaq: **"Sonra O, tüstü halında olan göyə tərəf yönəlib ona və yerə: "Könüllü surətdə və ya məcburi olaraq gəlin *əmrimə boyun əyin!*"– dedi. Onlar: "Könüllü olaraq gəldik!"– dedilər."**[2] Bu iki varlıq dərhal Allahın əmrinə boyun əydi.

**"Allah bizə yetər. O nə gözəl Qoruyandır!"** kəlməsini, ikinci xəlilullah olan Peyğəmbər ﷺ və onun səhabələri demişdi. Onlar Uhud döyüşündən qayıtdıqdan sonra bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıb, Mədinəyə gəlib sizin axırınıza çıxmaq istəyirlər"– dedilər.

---

[1] əl-Ənbiya, 69.

[2] Fussilət, 11.

Onlar isə belə cavab verdilər: **"Allah bizə yetər. O nə gözəl Qoruyandır!"** Bu xüsusda uca Allah belə buyurur: **"O kəslər ki,** ***bəzi*** **adamlar onlara: "Camaat sizə qarşı** ***ordu*** **toplayıb, onlardan qorxun!"– dedikdə,** ***bu söz*** **onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!"– dedilər. Beləcə, özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və lütfü sayəsində geri döndülər və beləliklə də, Allahın rizasına uydular. Allah böyük lütf sahibidir."** [1]

Odur ki, adam, insanların ona qarşı toplandığını və ya ona qarşı düşmənçilik etdiklərini gördükdə: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!"– deməlidir. Əgər adam bunu deyərsə, Allah İbrahimi ﷺ və Muhəmmədi ﷺ qoruduğu kimi, onu da pis insanların şərindən qoruyar. Bu sözləri daim yadında saxla. Əgər bəzi adamların sənə qarşı düşmənçilik etdiklərini görsən: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" de. O zaman Allah səni onların şərindən və fitnəsindən qoruyacaq. Müvəffəqiyyət Allahdandır.

٧٧ - عَن أبي هُرَيْرةَ رضي الله عنه عن النبي ﷺ قَالَ: « يَدْخُلُ الْجَنَّةَ أقْوَامٌ أفْئِدتُهُمْ مِثْلُ أَفْئِدَةِ الطَّيْرِ » رواه مسلم.

قيل: معْنَاهُ مُتوَكِّلُونَ، وَ قِيلَ: قُلُوبُهُمْ رَقِيقَةٌ.

**77.** Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Cənnətə qəlbləri quş qəlbi kimi olan bir toplum girəcəkdir."**

Bu hədisi Muslim rəvayət etmişdir. [2]

Bir görüşə görə *bu hədisdə keçən toplumun* "təvəkkül əhli" olduğu, digər görüşə görə isə "incə ürəkli *insanlar*" olduğu deyilir.

٧٨ - عنْ جَابِرٍ رضي الله عنه أَنَّهُ غَزَا مَعَ النَّبِيِّ ﷺ قِبَلَ نَجْدٍ، فَلَمَّا قَفَلَ رَسُولُ اللَّهِ ﷺ قَفَلَ مَعَهُمْ، فَأَدْرَكَتْهُمُ الْقَائِلَةُ فِي وادٍ كَثِيرِ الْعِضَاهِ، فَنَزَلَ رسولُ اللَّهِ ﷺ، وتَفَرَّقَ النَّاسُ يَسْتَظِلُّونَ بِالشَّجَرِ، ونَزَلَ رسولُ الله ﷺ تَحْتَ سَمُرَةٍ، فَعَلَّقَ بِهَا سَيْفَه، ونِمْنَا نَوْمَةً، فَإِذَا

---

[1] Ali-İmran, 173, 174.

[2] Səhih Muslim, 2840.

رَسُولُ اللَّهِ ﷺ يَدْعُونَا، وإِذَا عِنْدَهُ أَعْرَابِيٌّ فقَالَ: « إِنَّ هَذَا اخْتَرَطَ عَلَيَّ سَيْفِي وأَنَا نَائِمٌ، فاسْتَيْقَظْتُ وَهُوَ فِي يَدِهِ صَلْتاً، قَالَ: مَنْ يَمْنَعُكَ مِنِّي؟ قُلْتُ: اللَّه - ثَلاثاً » وَلَمْ يُعَاقِبْهُ وَجَلَسَ. متفقٌ عليه.

وفي روايةٍ: قَالَ جابِرٌ: كُنَّا مع رسول اللهِ ﷺ بِذَاتِ الرِّقَاعِ، فَإِذَا أَتَيْنَا عَلَى شَجَرَةٍ ظَلِيلَةٍ تَرَكْنَاهَا لرسول اللَّه ﷺ، فَجَاءَ رجُلٌ مِنَ الْمُشْرِكِينَ، وَسَيْفُ رَسُول اللَّه ﷺ مُعلَّقٌ بِالشَّجَرَةِ، فَاخْتَرَطَهُ فَقَالَ: تَخَافُنِي؟ قَالَ: « لا » قَالَ: فَمَنْ يَمْنَعُكَ مِنِّي؟ قَالَ: «اللَّهُ».

وفي رواية أبي بكرٍ الإِسْمَاعِيلِي في صَحِيحِهِ: قَالَ: مَنْ يَمْنَعُكَ مِنِّي؟ قَالَ: « اللَّهُ » قال: فَسَقَطَ السَّيْفُ مِنْ يَدِهِ، فَأَخَذَ رَسُولُ اللَّهِ ﷺ السَّيْفَ فَقال: « مَنْ يَمْنَعُكَ مِنِّي؟ » فَقَالَ: كُنْ خَيْرَ آخِذٍ، فَقَالَ: « تَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، وأَنِّي رَسُولُ اللَّهِ؟ » قال: لَا، ولَكِنِّي أُعَاهِدُكَ أَنْ لَا أُقَاتِلَكَ، وَلا أَكُونَ مَعَ قَوْمٍ يُقَاتِلُونَكَ، فَخَلَّى سَبِيلَهُ، فَأَتَى أَصْحَابَهُ فَقَالَ: جِئْتُكُمْ مِنْ عِنْدِ خَيْرِ النَّاسِ.

قَوْلُهُ: « قَفَلَ » أَيْ: رَجَعَ. و « الْعِضَاهُ » الشَّجَرُ الَّذِي لَهُ شَوْكٌ. و «السَّمُرَةُ » بِفَتْحِ السِّينِ وضَمِّ الْمِيمِ: الشَّجَرَةُ مِنَ الطَّلْحِ، وَهِيَ الْعِظَامُ مِنْ شَجَرِ الْعِضَاهِ. وَ « اخْتَرَطَ السَّيْفَ» أَيْ: سَلَّهُ وهُوَ فِي يَدِهِ. « صَلْتاً » أَيْ: مَسْلُولاً، وهُوَ بِفَتْحِ الصادِ وَضَمِّهَا.

**78.** Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Nəcdə yürüş etdiyi zaman o da onunla birlikdə ora getmiş və Peyğəmbər ﷺ geri qayıtdıqda o da onunla birgə geri qayıtmışdır. Günorta, *istirahət* vaxtı onlar akasiya ilə dolu bir vadiyə gəlib çatdılar. Peyğəmbər ﷺ *dəvəsindən* yerə endi. Camaat ağacların kölgəsində kölgələnmək üçün ətrafa dağılışdı. Peyğəmbər ﷺ *böyük* bir akasiya ağacının altında uzandı, qılıncını da ağacdan asdı. *Cabir dedi:* "Biz bir qədər yatdıqdan sonra, birdən Peyğəmbər ﷺ bizi yanına çağırdı. Biz gəlib gördük ki, onun yanında bir bədəvi ərəb var. Peyğəmbər ﷺ dedi: **"Mən yuxuda ikən bu adam qılıncımı siyirib üstümə qaldırdı və mən oyandıqda *gördüm ki,* artıq qılınc siyirilmiş vəziyyətdə onun əlindədir. O məndən: "Səni mənim əlimdən kim xilas edə bilər?"- deyə soruşdu. Mən: "Allah!"-**

**dedim.** Bu hal üç dəfə təkrarlandı. Peyğəmbər ﷺ onu cəzalandırmadı və adam yerə oturdu."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Başqa bir rəvayətdə Cabir رضي الله عنه demişdir: "Biz Peyğəmbərlə ﷺ birlikdə Zatur-Riqa[2] döyüşündə idik. *Yolda* kölgə salan ağaca rast gəldikdə, Peyğəmbərin ﷺ *onun altında dincəlməsi üçün* onu üçün yer saxlayardıq. Peyğəmbərin ﷺ qılıncı ağacdan asılı ikən müşriklərdən biri onun yanına gələrək qılıncı *götürüb Peyğəmbərin ﷺ üstünə* siyirdi və dedi: "Məndən qorxursanmı?" Peyğəmbər ﷺ: **"Xeyr!"**- deyə cavab verdi. O dedi: "Səni mənim əlimdən kim xilas edə bilər?" Peyğəmbər ﷺ: **"Allah"**- deyə cavab verdi.

Əbu Bəkr əl-İsmailinin "Səhih" əsərində nəql olunan rəvayətdə isə belə deyilir: "Adam *Peyğəmbərdən* ﷺ: "Səni mənim əlimdən kim xilas edə bilər?"- deyə soruşdu. Peyğəmbər ﷺ: **"Allah"**- deyə cavab verdi. Birdən qılınc adamın əlindən yerə düşdü. Peyğəmbər ﷺ dərhal qılıncı götürdü və ona: **"*Bəs* səni mənim əlimdən kim xilas edə bilər?"**- dedi. Adam: "Sən cəza verənlərin ən xeyirlisi ol!"- deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: **"Allahdan başqa *haqq* məbudun olmadığına və mənim Allahın rəsulu olduğuma şahidlik edirsənmi?"** O dedi: "Xeyir! Lakin mən sənə söz verirəm ki, heç vaxt sənə qarşı döyüşməyəcəm və sənə qarşı döyüşən dəstələrlə birlikdə də olmayacam." Peyğəmbər ﷺ onu sağ buraxdı. O da dostlarının yanına getdi və onlara "insanların ən xeyirlisinin yanından gəlirəm"- dedi.

Hədisin ərəbcəsində keçən "qafələ" sözü geri qayıtmaq deməkdir. Akasiya: tikanlı ağac növüdür. Ərəbcə "səmurə" sözü isə nəhəng akasiya ağacı deməkdir. Qılıncı siyirdi deyildikdə, onu siyirilmiş vəziyyətdə əldə tutmaq qəsd edilir.

٧٩ - عنْ عُمَرَ رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « لَوْ أَنَّكُمْ تَتَوَكَّلُونَ عَلَى اللَّهِ حَقَّ تَوَكُّلِهِ لَرَزَقَكُمْ كَمَا يَرْزُقُ الطَّيْرَ، تَغْدُو خِمَاصاً وتَرُوحُ بِطَاناً» رواه الترمذي، وقَالَ: حديثٌ حسنٌ.

---

[1] Səhih əl-Buxari, 4135; Səhih Muslim, 843.

[2] Bu sözün hərfi tərcüməsi "yamaqlı" deməkdir. Çox güman ki, bu döyüşdə olan müsəlmanların bayrağı yamaqlı olduğundan döyüşə belə ad verilmişdir.

مَعْنَاهُ تَذْهَبُ أَوَّلَ النَّهَارِ خِمَاصاً: أَيْ: ضَامِرَةَ الْبُطُونِ مِنَ الْجُوعِ، وَتَرْجِعُ آخِرَ النَّهَارِ بِطَاناً: أَيْ مُمْتَلِئَةَ الْبُطُونِ.

**79.** Rəvayət edilir ki, Ömər ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: **"Əgər siz Allaha haqqı ilə təvəkkül etsəniz, Allah, səhər qarınları ac halda çıxan, axşam isə qarınları tox halda geri qayıdan quşlara ruzi verdiyi kimi sizə də ruzi verər."**

Bu hədisi Tirmizi rəvayət etmiş və: "həsən hədisdir"– demişdir.[1]

**Şərh:**

Peyğəmbər ﷺ ümmətini təvəkkül etməyə sövq edərək belə deyir: **"Əgər siz Allaha haqqı ilə təvəkkül etsəniz..."** yəni, həqiqi mənada təvəkkül etsəni, ruzinizin və digər şeylərin tələbində Allaha tam olaraq güvənsəniz, **"quşlara ruzi verdiyi kimi sizə də ruzi verər."** Quşların ruzisini vermək uca Allaha aiddir. Çünki quşların sahibi olmur. Onlar yuvalarından çıxaraq havada uçur və Allahın *onlara yazdığı* ruzini axtarırlar. Səhər tezdən qarınları ac halda çıxırlar. Yəni, günün əvvəlində çıxırlar. Çünki səhər tezdən deyildikdə, günün əvvəli başa düşülür. Hədisdə ərəbcə keçən "ximas" kəlməsi ac mənasını verir. Necə ki, uca Allah buyurur: **"Kim aclıq üzündən çarəsiz qalarsa, günaha meyl etməyərək, *haram edilmiş ətlərdən yeyə bilər.* Çünki Allah bağışlayandır, rəhmlidir."**[2] Ayədəki "məxməsə" kəlməsi də həmin kökdən olub aclıq mənasını verir.

**"Səhər qarınları ac halda çıxan",** yəni, qarınlarında heç bir şey olmadığı halda çıxırlar. Lakin özlərinin Rəbbinə təvəkkül edərlər.

**"Axşam isə qarınları tox halda geri qayıdan",** yəni, günün sonunda. Çünki axşam, günün sonu deməkdir.

---

[1] Sunən ət-Tirmizi, 2344; Sunən İbn Macə, 4164; Musnəd İmam Əhməd, 1/30, 52; Mustədrək əl-Hakim, 4/318. Hakim demişdir: "Bu, səhih isnadlı hədisdir. Lakin Buxari və Muslim öz səhihlərində onu nəql etməmişlər." Bu hədis barədə Zəhəbi "Təlxis" əsərində susmuşdur. Şeyx Albani "Səhih əl-Cami" əsrində bu hədisi səhih hesab etmişdir. Səhih əl-Cami, 5254.

[2] əl-Maidə, 3.

**"Tox halda"** yəni, qarınları Allahın verdiyi ruzi ilə dolu halda geri qayıdırlar. Burada bir çox məsələlərə aid dəlillər vardır:

**Birincisi:** İnsan Allaha haqqı ilə etimad etməlidir.

**İkincisi:** Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Hətta havada uçan quşların da. Onları *havada* saxlayan və onlara ruzi verən ancaq Allahdır. Zərrə qədər kiçik olan canlılardan tutmuş, fil və ona bənzər ən nəhəng canlılara qədər hamısının ruzisini Allah verir. Bu xüsusda uca Allah belə buyurur: **"Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. *Allah* onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir."**[1] Rəbbinə qarşı pis zəndə olub, "övladlarınızın sayını artırmayın, yoxsa ruziniz daralar"- deyənlər açıq-aydın zəlalətə düşmüş olar. Ərşin Rəbbinə and olsun ki, onlar yalan söyləyirlər. Onlar övladlarının sayını artırdıqca Allah da onların ruzisini artırar. Çünki yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Odur ki, övladlarının və körpələrin ruzisini Allah verir. Malından onlara xərcləyəsən deyə sənə ruzi qapılarını açan Allahdır. Lakin insanların əksəriyyəti Allaha qarşı pis zəndə olurlar. Onlar gözlə görünən maddiyyata aid işlərə daha çox etimad edirlər. Uzaq məsafəyə, Allahın qüdrətinə baxmırlar. Halbuki, övladları çoxalsa belə onların ruzisini verən Allahdır. Elə isə övladlarının sayını artır ki, Allah da sənin ruzini artırsın. Doğru olan məhz budur.

Bu hədis həmçinin dəlildir ki, adam Allaha haqqı ilə təvəkkül etdikdə səbəbləri də yerinə yetirməlidir. Mən təvəkkül əhliyəm və heç bir səbəbi yerinə yetirmirəm deyən adam yolunu azmış sayılar. Bu doğru deyil. Əsl təvəkkül edən adam, Allaha güvənib səbəbləri yerinə yetirən adamdır. Məhz buna görə də Peyğəmbər ﷺ belə demişdir: **"Səhər qarınları ac halda çıxan, axşam isə qarınları tox halda geri qayıdan quşlara ruzi verdiyi kimi sizə də ruzi verər."** Demək, quş ruzi əldə etmək üçün yuvasından çıxır. Quşlar heç vaxt yuvalarında oturub gözləmirlər, səhər tezdən ruzi əldə etmək üçün çıxırlar.

Sən də, həmçinin, Allaha haqqı ilə təvəkkül etdikdə, ruzi qazanmaq üçün Allahın sənə şəriətdə icazə verdiyi səbəbləri mütləq yerinə yetirməlisən. Əkinçilik, yaxud ticarət, yaxud da ruzi qazandıran istənilən ha-

---

[1] Hud, 6.

lal bir vasitədən tutmalısan. Allaha güvənərək ruzi qazanmağa çıx, Allah da ruzi qazanmağı sənə müyəssər etsin.

**Hədisdən çıxan faydalar bunlardır:**

Həm quşlar, həm də Allahın digər məxluqları Allahı tanıyırlar. Bu xüsusda uca Allah belə buyurur: **"Yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız."**[1] O, həmçinin buyurur: **"Məgər göylərdə və yerdə olanların, günəşin, ayın, ulduzların, dağların, ağacların, heyvanların və insanların xeyli hissəsinin Allaha səcdə etdiyini görmürsənmi? Onların əksəriyyəti isə əzab çəkməyə layiq olanlardır. Allahın alçaltdığı kimsəyə heç kəs hörmət qoymaz. Həqiqətən, Allah istədiyini edər."**[2]

Demək, quşlar öz Yaradanını tanıyır. Onlar uçaraq, Allahın yartdığı və onları özlərinə fayda verəcək şeylərə yönəldən fitrət üzrə ruzi dalınca çıxırlar. Günün sonunda isə qarınları dolu halda öz yuvalarına qayıdırlar. Hər gün bu cür davam edir. Allah onların ruzisini verir və onları ruzi qazanmağa müyəssər edir.

Allahın hikmətinə bir nəzər sal. Necə olur ki, bu quşlar, səhər tezdən uçaraq uzaq məsafələrə gedir, sonra isə yolunu azmadan öz yuvalarına qayıdırlar. Çünki qüdrətli və qüvvətli Allah hər şeyə öz xilqətini vermiş, sonra da ona doğru yolu göstərmişdir! Müvəffəqiyyət Allahdandır.

٨٠ - عن أبي عِمَارةَ البَرَاءِ بْنِ عازِبٍ رضي الله عنهما قال: قال رسولُ الله ﷺ: « يا فُلان، إذَا أَوَيْتَ إِلَى فِرَاشِكَ فَقُلْ: اللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، ووَجَّهْتُ وَجْهِي إِلَيْكَ، وفَوَّضْتُ أَمْرِي إِلَيْكَ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ. رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ، لَا مَلْجَأَ وَ لَا مَنْجَى مِنْكَ إِلاَّ إِلَيْكَ، آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَبِنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ، فَإِنَّكَ إِنْ مِتَّ مِنْ لَيْلَتِكَ مِتَّ عَلَى الْفِطْرَةِ، وإِنْ أَصْبَحْتَ أَصَبْتَ خَيْراً » متفقٌ عليه.

وفي رِوَايَةٍ فِي الصَّحِيحَيْنِ عَنْ الْبَرَاءِ قَالَ: قَالَ لِي رَسُولُ اللهِ ﷺ: « إذَا أَتَيْتَ مَضْجِعَكَ فَتَوَضَّأْ وُضُوءَكَ لِلصَّلاَةِ، ثُمَّ اضْطَجِعْ عَلَى شِقِّكَ الأَيْمَنِ وَقُلْ: وَذَكَرَ نَحْوَهُ، ثُمَّ قَالَ: وَاجْعَلْهُنَّ آخرَ مَا تَقُولُ ».

---

[1] əl-İsra, 44.

[2] əl-Həcc, 18.

**80.** Əbu İmarə Bəra ibn Azib ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Ey filankəs, yatağına uzandıqda de: "Allahım! Sənə ümid edərək və Səndən qorxaraq canımı Sənə təslim etdim, üzümü Sənə çevirdim, işimi Sənə həvalə etdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Səndən (əzabından) xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!" Əgər həmin gecə ölsən, fitrət üzərində ölmüş olarsan. Yox, əgər səhərə çıxsan xeyirə nail olarsan."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

Buxari və Muslimin səhih əsərlərində[2] Bəra ibn Azibdən ﷺ rəvayət olunan digər hədisdə o, belə demişdir: "Rəsulullah ﷺ mənə belə buyurdu: "Yatmaq istədikdə namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al; sonra sağ böyrün üstə uzan; sonra de:" Sonra həmin duanı zikr etdi, sonra da belə dedi: "Sən bu zikri, yatmazdan əvvəl etdiyin zikrlərin axırıncısı et."

**Şərh:**

Müəllif ﷺ – yəqinlik və təvəkkül fəslinə dair – Bəra ibn Azibin ﷺ hədisini zikr etmişdir. Bu hədisdə Peyğəmbər ﷺ ona, yatmaq istədikdə; yatağına uzandıqda həmin zikri deməyi tövsiyə etmişdir. Bu zikr, insanın öz işlərini Rəbbinə həvalə etməyi özündə cəm edir. Çünki adam həm zahirdə, həm də batində Allaha güvənməli, işlərini Ona həvalə etməlidir.

Bu hədisdə Peyğəmbər ﷺ Bəra ibn Azibə ﷺ sağ böyrü üstə uzanmağı əmr edir. Çünki bu cür uzanmaq daha əfzəldir. Həkimlər, sol böyrü üstə yatmağa nisbətdə, sağ böyrü üstə yatmağın daha düzgün və bədən üçün daha əfzəl olduğunu demişlər. Həmçinin, etika qaydalarına uyan insanlar, sağ böyrü üstə yatmağın, yuxudan daha tez oyanmaq üçün münasib olduğunu demişlər. Çünki sol böyrü üstə uzandıqda qəlb də yatır və bu səbəbdən də adam tez oyana bilmir. Sağ böyrü üstə uzandıqda isə əksinə, qəlb yuxarıda qalır və dərin yuxuya dalmır. Bu səbəbdən də adam tez oyanır.

---

[1] Səhih əl-Buxari, 6313, 6315; Səhih Muslim, 2710.

[2] Səhih əl-Buxari, 247; Səhih Muslim, 2710.

Həmçinin, bu hədisdə Peyğəmbər ﷺ Bəra ibn Azibə رضي الله عنه həmin zikri dediyi zikrlərin ən axırıncısı etməyi əmr edir. Halbuki, yatmazdan öncə deyiləcək bu zikrdən başqa zikrlər də vardır. Məsələn: Təsbih, təhmid və təkbir: yəni adam yatağına uzandıqda, otuz üç dəfə "subhanəllah", otuz üç dəfə "əlhəmdulilləh" və otuz dörd dəfə "Allahu əkbər" deməlidir. Bu da, zikrdir. Lakin Bəra ibn Azibin رضي الله عنه hədisi dəlalət edir ki, Rəsulullahın ﷺ tövsiyəsinə əsasən həmin zikri, zikrlərin ən sonuncusu etməlisən.

Bəra ibn Azib رضي الله عنه bu zikri mükəmməl şəkildə öyrənmək üçün Peyğəmbərə ﷺ təkrarlayır və axırında belə deyir: **"Sənin nazil etdiyin Kitaba və göndərdiyin Rəsula iman gətirdim!"** Peyğəmbər ﷺ isə ona belə buyurur: **"Göndərdiyin Rəsula"**– yox, **"Göndərdiyin Peyğəmbərə"**– de."

Elm əhli bu xüsusda belə deyir: "Belə ki, rəsul həm insanlardan olur, həm də mələklərdən. Necə ki, uca Allah Cəbrail عليه السلام barəsində buyurur: **"Həqiqətən, bu, göndərdiyimiz möhtərəm bir rəsulun sözüdür.** ***O rəsul ki,*** **qüvvətlidir, Ərşin sahibi yanında** ***böyük*** **hörmət sahibidir."**[1] Peyğəmbər isə yalnız insanlardan olur. Əgər adam **"Göndərdiyin rəsula"**– deyərsə, ləfz olaraq bu da doğru sayılar. Belə olduğu təqdirdə burada Cəbrail عليه السلام də qəsd ediləcək. Lakin, **"Göndərdiyin Peyğəmbərə"**– deyildikdə, Muhəmməd ﷺ xüsusiləşdiriləcək. Bu bir tərəfdən. Digər tərəfdən isə: "Göndərdiyin rəsula" sözü peyğəmbərliyə dolayısıyla dəlalət edir. Lakin: "Göndərdiyin Peyğəmbərə" dedikdə, bu ləfz peyğəmbərliyə birbaşa dəlalət edir. Məlumdur ki, birbaşa dəlalət etmə, dolayısıyla dəlalət etmədən daha güclüdür.

Bu hədisin fəslə aid olan hissəsi: **"İşimi Sənə həvalə etdim"** və **"Sığınacaq və Səndən** (əzabından) **xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir"**– sözləridir. Təvəkkül: insanın öz işini Rəbbinə həvalə etməsidir. Habelə, insan yalnız Allaha sığınmalı və Allahın əzabından xilas olmaq üçün yalnız Onun Özünə üz tutmalıdır. Çünki Allah hər hansı bir qövmə bəla göndərmək istəsə, heç nə onun qarşısını ala bilməz. Həmçinin, Allah bir insana bir xeyir nəsib etmək istəsə, Özündən başqa heç kəs onun qarşısını ala bilməz. Yəni, sən yalnız Rəbbinə sığınmalı və yalnız Ona tərəf yönəlməlisən.

---

[1] ət-Təkvir, 19, 20.

Deməl, adam yatmaq istədikdə sağ böyrü üstə yatmalı və həmin zikrləri deməlidir. Bir də ki, bu zikri, zikrlərin ən sonuncusu etməlidir. Müvəffəqiyyət Allahdandır.

٨١ - عنْ أبي بَكْرٍ الصِّدِّيق ﷺ عبدِ اللَّهِ بنِ عثمانَ بنِ عامِرِ بنِ عُمَرَ بن كَعْبِ بنِ سعدِ بْنِ تَيْمِ بْن مُرَّةَ بْنِ كَعْبِ بْن لُؤَيِّ بْنِ غَالِبٍ الْقُرَشِيِّ التَّيْمِيِّ ﷺ وهُو وأَبُوهُ وَأُمَّهُ صحابَةٌ، ﷺ قال: نَظَرْتُ إِلَى أَقْدَامِ المُشْرِكِينَ ونَحْنُ فِي الْغارِ وهُمْ عَلَى رُؤُوسِنَا فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ لَوْ أَنَّ أَحَدَهُمْ نَظَرَ تَحْتَ قَدَمَيْهِ لَأَبْصَرَنَا. فَقَالَ: « مَا ظَنُّكَ يَا أَبَا بَكْرٍ بِاثْنَيْنِ اللَّهُ ثَالِثُهُمَا » متفقٌ عليه.

**81.** Rəvayət olunur ki, həm özü, həm atası, həm də anası səhabə olan Abdullah ibn Osman ibn Amir ibn Ömər ibn Kəb ibn Səd ibn Teym ibn Murra ibn Kəb ibn Luey ibn Ğalib əl-Quraşi ət-Teymiyy Əbu Bəkr əs-Siddiq ﷺ demişdir: "Biz *hicrət əsnasında* mağarada olarkən, başımızın üstündə duran müşriklərin ayaqlarını gördüm və: "Ya Rəsullulah, onlardan biri ayaqlarının altına baxsa bizi mütləq görər"– dedim. Peyğəmbər ﷺ dedi: **"Ey Əbu Bəkr! Üçüncüsü Allah olan iki nəfər haqqında sən nə zənn edirsən."**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişdir.[1]

**Şərh:**

**"Ey Əbu Bəkr! Üçüncüsü Allah olan iki nəfər haqqında sən nə zənn edirsən."** Yəni, necə düşünürsən, kiminsə bu iki nəfərə gücü yetərmi, yaxud onlara bir pislik edə bilərmi?

Bu hadisə Peyğəmbər ﷺ Məkkədən Mədinəyə hicrət etdiyi vaxt baş vermişdir. Belə ki, Rəsulullah ﷺ insanları *Allahın dininə* aşkar şəkildə dəvət etməyə başladıqda onlar *onun dediklərini qəbul edib* ona tabe oldular. *Belə olduqda,* müşriklər qorxuya düşdülər və Peyğəmbərin ﷺ dəvətinə qarşı çıxıb onu sıxışdırmağa, həm sözlə, həm də hərəkətlə ona əziyyət verməyə başladılar. Onda uca Allah ona Məkkədən Mədinəyə hicrət etməyə izn verdi. Peyğəmbər ﷺ də, peyğəmbərliyin on üçüncü ilinin sonunda Məkkədən Mədinəyə hicrət etdi. Bu hicrət zamanı ona,

[1] Səhih əl-Buxari, 4663; Səhih Muslim, 2381.

Əbu Bəkr, bələdçi və xidmətçidən başqa heç kim yoldaşlıq etməmişdi. O, Allahın əmri ilə hicrət etmiş və *bu hicrətdə* Əbu Bəkr ona yoldaşlıq etmişdir.

Müşriklər Peyğəmbərin Məkkədən çıxdığını eşitdikdə, onu gətirən adama iki yüz dəvə, Əbu Bəkri gətirən adama isə yüz dəvə ənam veriləcəyini vəd etmişdilər. Onda bir çox insanlar onları tapmaq üçün hər yeri – dağları, dərələri və vadiləri axtarmağa başladılar. Hətta Peyğəmbərin və Əbu Bəkrin olduğu mağaraya belə gəlib çıxdılar. Bu, ara sakitləşənə qədər onların üç gün boyu gizləndikləri sövr mağarası idi. *Onlar mağaranın ağzında ikən* Əbu Bəkr belə demişdi: "Ya Rəsullulah, onlardan biri ayaqlarının altına baxsa bizi görər. Çünki biz onun *ayağının* altındakı mağaradayıq." Onda Peyğəmbər dedi: "Ey Əbu Bəkr! Üçüncüsü Allah olan iki nəfər haqqında sən nə zənn edirsən." Allahın Kitabında isə Peyğəmbərin Əbu Bəkrə belə dediyi xəbər verilir: **"Qəm yemə, Allah bizimlədir!"** [1] Deməк Peyğəmbər ona hər iki sözü demişdir. Ona həm, **"Üçüncüsü Allah olan iki nəfər haqqında sən nə zənn edirsən?"** həm də, **"Qəm yemə, Allah bizimlədir!"**– demişdir.

**"Üçüncüsü Allah olan iki nəfər haqqında sən nə zənn edirsən?"** Yəni, məğər kiminsə bu iki nəfərə əziyyət verməyə və ya başqa bir *xətər toxundurmağa* gücü yetər?

**Cavab isə belədir:** Heç kəsin buna gücü yetməz. Çünki, Allahın verdiyinə mane olan, mane olduğunu da verən, habelə izzətli etdiyini alçaldan, alçaltdığını isə izzətli edən bir kəs yoxdur. *Uca Allah buyurur:* **"De: "Ey mülkün sahibi olan Allahım! Sən mülkü istədiyin kəsə verir, istədiyindən də, onu geri alırsan; istədiyin kimsəni ucaldır, istədiyini də, alçaldırsan. Xeyir *yalnız* Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən."** [2]

Bu hekayə Peyğəmbərin Rəbbinə olan təvəkkülünün kamilliyinə dəlalət edir. Bəzi tarix kitablarında zikr olunur ki, guya mağaranın ağzında hörümçək tor qurur, habelə, mağaranın ağzında ağac bitir və o ağacın budağında da göyərçin oturur. Müşriklər də, həmin mağaraya

---

[1] ət-Tovbə, 40.

[2] Ali-İmran, 26.

gəldikdə öz-özlərinə deyirlər ki: "Burada heç kəs ola bilməz. Çünki mağaranın ağzında olan bu ağacın üstündə göyərçin var, mağaranın ağzında da hörümçək tor qurub." Bütün bunların heç biri səhih deyil. Çünki, Peyğəmbəri ﷺ və Əbu Bəkri رضي الله عنه görməyə mane olan səbəblərin heç biri maddi varlıqlar deyildi, əksinə, bu, mənəvi səbəb idi. Bu da, Allahın möcüzələrindən biri idi. Belə ki, müşriklər Peyğəmbəri ﷺ və onun dostu Əbu Bəkri رضي الله عنه görməsinlər deyə, Allah onların gözlərinə pərdə çəkdi. Amma, hörümçəyin tor qurması, göyərçin və ağac kimi maddi varlıqlara gəldikdə, bunların arxasında hər kəs gizlənə bilər. Lakin məsələ *bunların heç biri olmadığı bir halda* Allahın möcüzəsindədir. Xülasə budur ki, bu barədə tarix kitablarında zikr olunanlar səhih deyil. Əksinə, heç bir şübhə doğurmayan həqiqət budur ki, mağarada olan Peyğəmbəri ﷺ və onun dostunu görməsinlər deyə, Allah müşriklərin gözlərinə örtük çəkdi. Müvəffəqiyyət Allahdandır.

٨٢ - عَنْ أُمِّ المُؤمِنِينَ أُمِّ سلَمَةَ، واسمُهَا هِنْدُ بنْتُ أَبِي أُمَيَّةَ حُذَيْفةَ المَخْزُومِيَّة رضي الله عنها أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا خَرَجَ مِنْ بَيْتِهِ قَالَ: « بِسْمِ اللَّهِ، تَوَكَّلْتُ عَلَى اللَّهِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَضِلَّ أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ أَوْ يُجْهَلَ عَلَيَّ » حديثٌ صحيحٌ رواه أبو داود، والتِّرمذيُّ وَغيْرُهُمَا بِأسانِيدَ صحيحةٍ. قالَ التِّرْمذي: حديثٌ حسنٌ صحيحٌ، وهذا لَفظُ أبي داودَ.

**82.** Möminlərin anası, adı Hind bint Əbu Umeyyə Huzeyfə əl-Məxzumiyyə olan Ummu Sələmə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ evindən çıxanda belə deyərdi: **"Allahın adı ilə. Allaha təvəkkül etdim. Allahım! *Doğru yoldan* azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahillik etməkdən və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram!"**

Hədis səhihdir. Bu hədisi Əbu Davud, Tirmizi və digərləri səhih isnadlarla rəvayət etmişlər. Tirmizi: "Bu hədis, "həsən-səhih"dir"– demişdir. Bu, Əbu Davudun rəvayətidir.[1]

---

[1] Sunən Əbu Davud, 5094; Sunən ət-Tirmizi, 3427; Sunən İbn Macə, 3884; Sunən ən-Nəsai, 5486; Musnəd İmam Əhməd, 6/306, 318, 322. Şeyx Albani "Səhih əl-Cami" əsərində (4708) bu hədisi səhih hesab etmişdir.

٨٣ - عنْ أنسٍ ﷺ قال: قال: رسولُ اللَّهِ ﷺ: « مَنْ قَالَ - يعني إذا خَرَجَ مِنْ بيْتِهِ - : بِسْمِ اللَّهِ تَوَكَّلْتُ عَلَى اللَّهِ، وَلَا حَوْلَ وَلَا قُوَّةَ إلاَّ بِاللَّهِ، يُقَالُ لَهُ هُدِيْتَ وَكُفِيْتَ وَوُقِيْتَ، وَتَنَحَّى عَنْهُ الشَّيْطَانُ » رواه أبو داودَ والترمذيُّ، والنّسائِيُّ وغيرُهم: وقال الترمذيُّ: حديثٌ حسنٌ، زاد أبو داود: « فَيَقُولُ: - يَعْنِي الشَّيْطَانَ - لِشَيْطَانٍ آخَرَ: كَيْفَ لَكَ بِرَجُلٍ قَدْ هُدِيَ وَكُفِيَ وَوُقِيَ؟ »

**73.** Ənəs ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə demişdir: **“Hər kim – evindən çıxdığı zaman: “Allahın adı ilə! Allaha təvəkkül etdim! Qüqrət və güc yalnız Allahdadır!”- deyərsə, həmin vaxt ona: “Doğru yola yönəldin, işlərin sahmana düşdü və şərdən qorundun!”– deyilər və üstəlik şeytan ondan uzaqlaşar.”**

Bu hədisi Əbu Davud, Tirmizi, Nəsai və digərləri rəvayət etmişlər. Tirmizi: “Bu, “həsən” hədisdir”– demişdir. Əbu Davudun rəvayətində isə bu əlavə də var: “Şeytanlardan biri o birinə deyər: **“Doğru yola yönəldilmiş, işləri sahmana düşmüş və şərdən qorunmuş adama sən nə edə bilərsən ki?”**[1]

٨٤ - وَعنْ أنَسٍ ﷺ قَالَ: كَانَ أَخَوَانِ عَلَى عَهْدِ النَّبِيِّ ﷺ، وكَانَ أَحَدُهُمَا يَأْتِي النَّبِيَّ ﷺ، وَالآخَرُ يَحْتَرِفُ، فَشَكَا الْمُحْتَرِفُ أَخَاهُ لِلنَّبِيِّ ﷺ فَقَالَ: « لَعَلَّكَ تُرْزَقُ بِهِ » رواه التِّرْمذيُّ بإسناد صحيح على شرط مسلمٍ.

« يَحْتَرِفُ »: يَكْتَسِبُ ويَتَسَبَّبُ.

**84.** Rəvayət olunur ki, Ənəs ﷺ demişdir: “Peyğəmbərin ﷺ zamanında iki qardaş var idi. Onlardan biri Peyğəmbərin ﷺ yanına gəlib *elm alar,* digəri isə qazanc dalınca gedərdi. Bir gün qazanc dalınca gedən kəs öz qardaşından Peyğəmbərə ﷺ şikayət etdi. Peyğəmbər ﷺ də ona belə dedi: ***“Nə bilirsən?*** **Bəlkə də sənə, onun sayəsində ruzi verilir.”**[2]

---

[1] Sunən Əbu Davud, 5095; Sunən ət-Tirmizi, 3426. Şeyx Albani “Səhih əl-Cami” əsərində (6419) bu hədisi səhih hesab etmişdir.

[2] Sunən ət-Tirmizi, 2345. Mustədrək əl-Hakim, 320. Şeyx Albani bu hədisin isnadının “səhih” olduğunu demişdir. Bax: Mişkat əl-Məsabih, 5238.

Bu hədisi Tirmizi, Muslimin şərtlərinə uyğun səhih isnadla rəvayət etmişdir.

Hədisin ərəbcəsində keçən "yəhtərifu" kəlməsi, qazanc dalınca getmək və səbəblərdən tutmaq deməkdir.

**Şərh:**

Hədisin bu fəslə aid olan hissəsi: **"Allahın adı ilə. Allaha təvəkkül etdim"**– sözüdür. Bu dəlildir ki, insan evindən çıxdıqda, tərkibində Allaha təvəkkül və Ona sığınma olan bu zikri mütləq etməlidir. Çünki insan evindən çıxdığı zaman, başına bir işin gəlməsi, yaxud əqrəb, ilan və bu kimi heyvanların ona hücum etməsi üçün bir hədəfə çevrilir. Odur ki, o: **"Allahın adı ilə. Allaha təvəkkül etdim"**– deməlidir. Biz əvvəldə demişdik ki, Allaha təvəkkül və etimad etməklə yanaşı, Ona güvənmək və Onun barəsində gözəl zənndə olmaq lazımdır.

**"Allahım! *Doğru yoldan* azmaqdan"** yəni, özümün azmağımdan.

**"Və ya azdırılmaqdan"** yəni, bir kimsənin məni azdırmasından.

**"Çaşmaqdan"** yəni, yanlışlıqdan, xəta etməkdən.

**"Və ya çaşdırılmaqdan"** yəni, bir kimsənin məni xəta edəcək bir həddə gətirib çatdırmasından.

**"Zülm etməkdən"** yəni, başqasına qarşı zülm etməkdən.

**"Və ya zülmə məruz qalmaqdan"** yəni, başqasının mənə zülm etməsindən.

**"Cahil olmaqdan"** yəni, səfeh hərəkətlər etməkdən.

**"Və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram."** Yəni, bir kimsənin mənə qarşı səfeh hərəkətlər və azğınlıq etməsindən Sənə sığınıram.

Bu zikrdə Allaha sığınma və Ona güvənmə olduğu üçün, adam evindən çıxdıqda mütləq bu zikri deməlidir. Müvəffəqiyyət Allahdandır.

## Səkkizinci fəsil

## Doğru yol tutmaq

**Mövzu ilə bağlı ayələr:**

Uca Allah belə buyurur:

﴿ فَٱسۡتَقِمۡ كَمَآ أُمِرۡتَ ﴾

**“Sənə əmr edildiyi kimi doğru yolda ol.”**[1]

﴿ إِنَّ ٱلَّذِينَ قَالُواْ رَبُّنَا ٱللَّهُ ثُمَّ ٱسۡتَقَٰمُواْ تَتَنَزَّلُ عَلَيۡهِمُ ٱلۡمَلَٰٓئِكَةُ أَلَّا تَخَافُواْ وَلَا تَحۡزَنُواْ وَأَبۡشِرُواْ بِٱلۡجَنَّةِ ٱلَّتِي كُنتُمۡ تُوعَدُونَ ٣٠ نَحۡنُ أَوۡلِيَآؤُكُمۡ فِي ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا وَفِي ٱلۡأٓخِرَةِۖ وَلَكُمۡ فِيهَا مَا تَشۡتَهِيٓ أَنفُسُكُمۡ وَلَكُمۡ فِيهَا مَا تَدَّعُونَ ٣١ نُزُلٗا مِّنۡ غَفُورٖ رَّحِيمٖ ﴾

**“Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub *deyirlər:* “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli *Allah tərəfindən verilən* ziyafət kimi.”**[2]

﴿ إِنَّ ٱلَّذِينَ قَالُواْ رَبُّنَا ٱللَّهُ ثُمَّ ٱسۡتَقَٰمُواْ فَلَا خَوۡفٌ عَلَيۡهِمۡ وَلَا هُمۡ يَحۡزَنُونَ ١٣ أُوْلَٰٓئِكَ أَصۡحَٰبُ ٱلۡجَنَّةِ خَٰلِدِينَ فِيهَا جَزَآءَۢ بِمَا كَانُواْ يَعۡمَلُونَ ﴾

**“Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar Cənnət əhlidirlər və etdikləri əməllərin əvəzi olaraq orada əbədi qalacaqlar.”**[3]

**Şərh:**

**İstiqamə:** İnsanın, Allah subhanəhu və təalənin əmr etdiyi kimi Onun şəriəti üzərində sabit qalmasıdır. Bundan öncə isə ixlas gəlir.

---

[1] Hud, 112.

[2] Fussilət, 30-32.

[3] əl-Əhqaf, 13, 14.

Müəllif ﷺ bu xüsusda bir neçə ayə zikr etmişdir. *Onun zikr etdiyi birinci* ayədə uca Allah belə buyurur: **"Sənə əmr edildiyi kimi doğru yolda ol."** Bu ayədə xitab Peyğəmbərə ﷺ ünvanlanır. *Lakin xitab* Peyğəmbərə ﷺ ünvanlansa da, bu həm ona, həm də onun ummətinə aid edilir. Əgər xitabın, məxsusi olaraq onun özünə aid olmasına dəlil varsa, onda bu müstəsna hal sayılır. *Yəni,* bu halda xitab yalnız onun özünə aid olur. Lakin xitabın, məxsusi olaraq onun özünə aid olmasına aid dəlil yoxdursa, o halda bu xitab həm ona, həm də onun ummətinə ünvanlanmış sayılır.

Xitabın məxsusi olaraq Peyğəmbərin ﷺ özünə aid olmasına dəlil uca Allahın bu ayəsidir: **"Məgər Biz sənin üçün köksünü açmadıqmı? Yükünü səndən götürmədikmi? *Onlar* belini bükürdü."**[1] Həqiqətən, bu xitab, xüsusi olaraq Peyğəmbərin ﷺ özünə aiddir. Xüsusi xitaba aid başqa bir ayəni də misal gətirək. Uca Allah buyurur: **"Biz sənə təkrarlanan yeddi ayəni və əzəmətli Quranı verdik."**[2] Bu xitab da həmçinin, məxsusi olaraq Peyğəmbərin ﷺ özünə aiddir.

Lakin xitabın məxsusi olmasına dəlil yoxdursa, onda bu xitab həm ona, həm də bütün ümmətə ünvanlanmış olur. Bu qaydaya əsasən **"Sənə əmr edildiyi kimi doğru yolda ol"-** ayəsindəki xitab ümumi olaraq həm onun özünə, həm də ümmətinə aiddir. Deməli, hər bir şəxsə, *ayədə* əmr edildiyi kimi doğru yolda olmaq vacibdir. Elə isə Allahın dinində *heç bir* dəyişiklik etmək, ona nə isə əlavə etmək və ya əksiltmək olmaz. Ona görə də uca Allah başqa bir ayədə belə buyurur: **"Sənə əmr olunduğu kimi düz yolla get. Onların nəfslərinin istəyinə uyma!"**[3]

Müəllifin zikr etdiyi ikinci ayədə uca Allah belə buyurur: **"Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub *deyirlər:* "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli *Allah tərəfindən verilən* ziyafət kimi."**[4]

---

[1] əş-Şərh, 1-3.

[2] əl-Hicr, 87.

[3] əş-Şura, 15.

[4] Fussilət, 30-32.

**“Rəbbimiz Allahdır!”** Yəni, bizi Yaradan, Sahibimiz, işlərimizi idarə edən Odur. Elə isə biz Ona səmimi-qəlbdən bağlanırıq.

**“Sonra düz yol tutan kəslərə”** yəni, “Rəbbimiz Allahdır” sözü üzərində sabit qalaraq, Allahın şəriətinə *layiqincə* riayət edənlərə. Bu iki vəsfə malik olanlara, yəni, **“Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutan kəslərə”, “mələklər nazil olub *deyirlər*”** yəni, mələklər bir-birinin ardınca nazil olur və *deyirlər:* **“Qorxmayın və kədərlənməyin!”** Yəni, Allahın əmri ilə hər bir təhlükəli yerdə, ələlxüsus da, ölüm anında onlara mələklər nazil olub deyərlər: **“Qorxmayın və kədərlənməyin!”** *Yəni,* qarşılaşacağınız işlərinizdən qorxmayın və ötüb keçmiş işlərinizə görə də kədərlənməyin. **“Sizə vəd olunan Cənnətlə sevinin!”** Müjdə, insanı sevindirən *hadisə barəsində* xəbər verməkdir. Şübhə yoxdur ki, bir insanın Cənnət əhlindən olması onu sevindirər. Allahdan həm məni, həm də sizi Cənnət əhlindən etməsini diləyirəm! **“Sizə vəd olunan Cənnətlə sevinin!”** Çünki, “Rəbbim Allahdır”- deyib Allahın dinində düz yol tutan hər bir kəs Cənnət əhlindən olacaq. Onlara həmçinin, belə deyiləcək: **“Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq.”** Mələklər**:** “Rəbbimiz Allahdır”– deyib sonra düz yol tutan kəslərin bu dünya həyatında dostlarıdır, onlara doğru yol göstərir, olara kömək edir. Habelə axirətdə də, diriləcəkləri və haqq-hesaba çəkiləcəkləri gün mələklər onları qarşılayıb: **“Bu sizə vəd olunmuş gününüzdür!”**[1]– deyərək, qorxulu və ağır məqamda onları müjdələyəcəklər.

Uca Allah buyurur: **“Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır.”** Yəni, axirətdə nəfsinizin çəkə biləcəyi hər bir şey hazırlanmışdır. Bunlar Cənnət nemətlərindəndir. Çünki Cənnətdə nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır.

**“Orada istədiyiniz hər şey vardır.”** Yəni, tələb etdiyiniz hər bir şey, hətta bundan da üstünü: **“Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik hüzurumuzda bundan da artığı –** ***Allahı görmək*** **var.”** Onlar üçün istədiklərindən, tələb etdiklərindən və təmənna etdiklərindən də artığı vardır.

---

[1] əl-Ənbiya, 103.

**“Bağışlayan və Rəhmli** ***Allah tərəfindən verilən*** **ziyafət kimi.”** Yəni, Cənnət, Bağışlayan və Rəhmli *Allah* tərəfindən onlar üçün verilən bir ziyafət, bir qonaqlıqdır.

**“Bağışlayan”** yəni, *Allah* onların günahlarını bağışlayacaq, **“Rəhmli”** yəni, onların dərəcələrini yüksəldəcəkdir. Bu: “Rəbbimiz Allahdır”- deyib sonra düz yol tutan kəslərin mükafatıdır.

Bütün bunlar, Allahın dinində düz yol tutmağın nə dərəcədə əhəmiyyətli bir əməl olduğuna dəlalət edir. Belə ki, insan sabit qalmalı, *dinə* nə bir şey əlavə etməli, nə ondan bir şey azaltmalı, nə də onu dəyişdirməlidir. Allahın dinində ifrata varanlara, yaxud sərtlik göstərənlərə, yaxud da onu dəyişdirənlərə gəldikdə, həmin adam Allahın şəriətində doğru yol tutmuş sayılmır. *Adamın* doğru yolda olması üçün hər bir işdə orta yolu tutması gətəkdir. Belə olduğu halda, insan Allahın şəriətində doğru yol tutmuş sayılar.

**Mövzu ilə bağlı hədislər:**

٨٥ - وَعَنْ أَبِي عَمْرٍو، وَقِيلَ أَبِي عَمْرَةَ سُفْيانَ بنِ عَبْدِ اللَّهِ ﷺ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ قُلْ لِي فِي الإِسْلَامِ قَوْلاً لَا أَسْأَلُ عَنْهُ أَحَداً غَيْرَكَ. قَالَ: « قُلْ: آمَنْتُ بِاللَّهِ: ثُمَّ اسْتَقِمْ » رواه مسلم.

**85.** Əbu Amr və ya Əbu Amra Süfyan ibn Abdullah ﷺ demişdir: “Mən *Peyğəmbərə* ﷺ: “Ya Rəsulullah! İslam haqqında mənə elə bir söz söylə ki, səndən başqa heç kəsdən bu haqda soruşmayım”– dedim. Peyğəmbər ﷺ buyurdu: **“Allaha iman gətirdim” de, sonra da düz yol tut!”**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

**Şərh:**

Səhabə: “Ya Rəsulullah! İslam haqqında mənə elə bir söz söylə ki, artıq səndən başqa heç kəsdən bu haqda soruşmayım”– demişdir. Yəni, mənə elə bir söz de ki, səndən başqa heç kəsdən bu haqda soruşmayım və bu söz həlledici bir söz olsun. Elə bir söz ki, onun barəsində kim-

[1] Səhih Muslim, 38.

dənsə soruşmağa ehtiyac qalmasın. Peyğəmbər ﷺ ona belə buyurdu: **"Allaha iman gətirdim" de, sonra da düz yol tut!"**

Peyğəmbər ﷺ səhabəyə: **"Allaha iman gətirdim" de"**– buyurur. Burada, məqsəd bu sözü sadəcə dillə tələffüz etmək deyil. Çünki insanlardan elələri vardır ki, *qəlblərində* iman gətirmədikləri halda *dillərində* "Allaha və axirət gününə iman gətirdim"– deyir. Burada həm qəlbən etiqad etmək, həm də bu sözü dillə tələffüz etmək qəsd edilir. Yəni, *iman* insanın qəlbində qərar tutduqdan sonra, bunu dili ilə də deməlidir. Habelə bunu, heç bir şübhə doğurmayan qəti bir etiqadla *qəlbində* etiqad etməlidir. Çünki, təkcə qəlbən iman gətirmək bəs etmir. Həmçinin təkcə dildə iman gətirmək bəs etmir. *Hər ikisi ilə,* həm qəlbən, həm də dil ilə iman gətirmək lazımdır. Məhz ona görə də, Peyğəmbər ﷺ insanları İslama dəvət etdikdə belə deyərdi: **"Ey insanlar! "Lə ilahə illəllah" deyin ki, nicat tapasız."[1]** Yəni, qəlbən etiqad etmək vacib olduğu kimi, dilinizlə tələffüz etmək də *vacibdir*.

**"Allaha iman gətirdim"** sözü özü özlüyündə, Allahın varlığına, rububiyyətinə,[2] uluhiyyətinə,[3] ad və sifətlərinə, hökmlərinə, verdiyi xəbərlərə və ümumiyyətlə Allahdan gələn hər bir şeyə iman gətirməyi şamil edir. Əgər bunlara iman gətirmisənsə, onda Allahın dinində düz yol tut. Nə sağa, nə də sola meyl et, nə bir şey azalt, nə də bir şey artır.

Dində düz yol tut, habelə kəlmeyi şəhadət - "Lə ilahə illəllah, Muhəmmədun rəsulullah" xüsusunda düz yol tut. Buna isə Allaha ixlasla yönəlməklə və Onun rəsuluna ﷺ tabe olmaqla nail olmaq olar. Habelə, namaz, zəkat, oruc, həcc və Allahın bütün şəriəti xüsusunda doğru yol tut.

---

[1] Səhih İbn Xuzeymə, 159; Sünən əl-Beyhəqi, 1/76, Mustədrək əl-Hakim, 2/612. Hakim demişdir: "Bu, səhih isnadlı hədisdir. Lakin Buxari və Muslim öz səhihlərində onu nəql etməmişlər." Zəhəbi bu hədisin səhih olduğunu söyləmişdir.

[2] Rububiyyə: Allahın Rəbb olmasıdır. Yəni Allah, hər şeyin Rəbbi, Hökmdarı, Yaradanı və ruzi verənidir. Öldürən və dirildən, xeyir və zərər toxunduran, ehtiyacı olan kimsənin duasını qəbul edən də Odur. Hər bir işin aqibəti Ona məxsusdur, hər bir xeyir Onun Əlindədir, bütün işlər Ona qayıdır və Onun heç bir şəriki yoxdur.

[3] Uluhiyyə: Allahın haqq məbud olmasıdır. Yəni bu, zəlillik, qorxu, sevgi, rüku, səcdə, qurban, nəzir və digər ibadətlər Tək Allaha yönəldilməli və Ona şərik qoşulmamalıdır.

Peyğəmbərin ﷺ **"Allaha iman gətirdim" de, sonra da düz yol tut"** – sözü, dəlildir ki, düz yol tutmaq yalnız iman gətirdikdən sonra olur və bu iman saleh əməllərin şərtlərindəndir. Yəni, əməlin səhih və qəbul olunması imanla bağlıdır. Əgər insan zahirdə əməli lazımınca yerinə yetirər, lakin batini xarab olarsa, *qəlbində* şəkk, şübhə, inkar və təkzib olarsa, bu əməl ona heç bir fayda verməz. Elə buna görə də, alimlər yekdil rəydədirlər ki, insanın Allaha iman gətirməsi, habelə həm Onu, həm də Onun tərəfindən gələn hər bir şeyi qəbul etməsi, ibadətin səhih və qəbul olunmasının şərtlərindəndir.

**Hədisdən çıxan fayda:** İnsan hər hansı bir əməli etdiyi zaman hiss etməlidir ki, həmin əməli Allah üçün, Allahın sayəsində, Allah yolunda edir. Çünki o, Allahın dinində, yalnız uca Allaha iman gətirdikdən sonra doğru yol tuta bilər. Yəni, insan hiss etməlidir ki, ibadəti Allah üçün, yəni, ixlasla, habelə Allahın sayəsində, yəni, Ondan yardım diləməklə və Onun yolunda, yəni, şəriətinə tabe olaraq edir. Bu fayda uca Allahın **"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. Bizi doğru yola yönəlt!"**[1] ayəsindən götürülür. Birincisi, yəni, **"Biz yalnız Sənə ibadət edirik"** Allah üçündür, ikincisi, yəni, **"Yalnız Səndən kömək diləyirik"** Onun *yardımı* ilədir, üçüncüsü, yəni, **"Bizi doğru yola yönəlt"** Onun yolundadır, yəni onun şəriətinə riayət etməklədir. Elə buna görə deyə bilərik ki, ayədə qəsd olunan "Siratal-mustəqim", yəni, doğru yol, Allahın şəriətidir. Müvəffəqiyyət Allahdandır.

٨٦ - وَعَنْ أَبِي هُرَيْرَةَ ﵁: قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « قَارِبُوا وَسَدِّدُوا، وَاعْلَمُوا أَنَّهُ لَنْ يَنْجُوَ أَحَدٌ مِنْكُمْ بِعَمَلِهِ » قَالُوا: وَلَا أَنْتَ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: « وَلَا أَنَا إِلَّا أَنْ يَتَغَمَّدَنِيَ اللَّهُ بِرَحْمَةٍ مِنْهُ وَفَضْلٍ » رواه مسلم.

و « الْمُقَارَبَةُ »: الْقَصْدُ الَّذي لا غُلُوَّ فيه ولا تقْصيرَ. و « السَّدَادُ »: الاسْتِقَامَةُ وَالإِصَابَةُ، و « يَتَغَمَّدَنِي » يُلْبِسُنِي ويَسْتُرُنِي.

قَالَ الْعُلَمَاءُ: مَعْنَى الاسْتِقَامَةِ: لُزُومُ طَاعَةِ اللَّهِ تَعَالَى، قَالُوا: وَهِيَ مِنْ جَوَامِعِ الْكَلِمِ، وَهِيَ نِظَامُ الأُمُورِ، وَبِاللَّهِ التَّوفِيقُ.

---

[1] əl-Fatihə, 5-6.

**86.** Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"*Ən kamil olanı yerinə yetirə bilməsəniz, heç olmasa, ona* yaxınlaşın, doğru yol tutun və bilin ki, sizlərdən heç kəs öz əməli sayəsində *Cəhənnəm odundan* xilas olmayacaq."** *Səhabələr* soruşdular: "Hətta sən də, ya Rəsulullah?" *Peyğəmbər* ﷺ dedi: **"Hətta mən də. Yalnız Allahın mənə Öz tərəfindən rəhmət və lütf göstərməsi istisnadır."**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "əl-muqarəbə" sözü, ifrata varmadan və nöqsana yol vermədən can atmaq, çalışmaq; "əs-sədad" sözü, doğru yol tutmaq və hədəfə nail olmaq; "yətəğammədəniy" sözü isə, məni bürüməsi və örtməsi deməkdir.

Alimlər belə demişlər: "İstiqamə, Allaha itaətdə davamlı olmaqdır; Həmçinin, demişlər: Bu, genişmənalı yığcam kəlmələrdən olub, bütün işlərin nizamıdır. Müvəffəqiyyət Allahdandır.

**Şərh:**

Bu hədis dəlildir ki, "istiqamə" *insanın* gücü yetəcək qədər olur. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"*Ən kamil olanı yerinə yetirə bilməsəniz, heç olmasa, ona* yaxınlaşın, doğru yol tutun."** Yəni, heç olmasa sizə əmr olunanları yerinə yetirməyə yaxınlaşın, gücünüz yetəcək qədər onlara yaxınlaşmağa çalışın.

**"Doğru yol tutun."** Yəni, hədəfə nail olmaq üçün doğru yol tutun; bacardığınız qədər əməllərinizin haqqa uyğun olmasına çalışın. Çünki, insan nə qədər təqvalı olsa da, onun xəta etməsi labüddür. Bu xüsusda varid olan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Adəm övladlarının hamısı xəta edəndir. Xəta edənlərin ən xeyirlisi isə tövbə edənlərdir."**[2] Peyğəmbər ﷺ həmçinin demişdir: **"Əgər siz günah işlər görməsəydiniz, Allah sizi öldürər və *sonra* sizin əvəzinizə elə bir qövm gətirərdi ki, onlar günah edər, sonra da Allahdan bağışlanma diləyərlərdilər, Allah da onları bağışlayardı."**[3]

---

[1] Səhih Muslim, 2816.

[2] Sunən ət-Tirmizi, 2499; Sunən İbn Macə, 4251; Musnəd İmam Əhməd, 3/198. mizi *bu hədisin* "ğarib" *olduğunu* demişdir. Şeyx Albani "Səhih əl-Cami" əsərində, 4515, bu hədisi həsən hesab etmişdir.

[3] Səhih Muslim, 2749.

Odur ki, insan ən kamil olanı yerinə yetirə bilməsə də, bacardığı qədər ona yaxınlaşmağa və doğru yol tutmağa əmr olunmuşdur.

Sonra Peyğəmbər ﷺ davam edib dedi: **"Bilin ki, sizlərdən heç kəs öz əməli sayəsində *Cəhənnəm odundan* xilas olmayacaq."** Yəni, öz əməli sayəsində Cəhənnəmdən qurtulmayacaq. Çünki *insanın* əməli, Allaha ediləcək vacib olan şükrün əvəzini verməyə yetmir, habelə, Allahın Öz qulları üzərində vacib olan haqqlarının əvəzini verməyə yetmir. Lakin Allah bəndəyə Öz rəhmətini göstərir və onu bağışlayır.

Peyğəmbər ﷺ: "**Sizlərdən heç kəs öz əməli sayəsində *Cəhənnəm odundan* xilas olmayacaq"**– dedikdə, səhabələr soruşdular: "Hətta sən də?" Peyğəmbər ﷺ dedi: **"Hətta mən də."** Hətta Peyğəmbər ﷺ öz əməli sayəsində xilas olmayacaq. Yalnız Allahın ona Öz tərəfindən rəhmət göstərməsi istisnadır.

Bu dəlildir ki, insan nə qədər yüksək məqama çatsa da, nə qədər Allahın dostu olsa da, o, öz əməli sayəsində xilas ola bilməyəcək. Əgər Allah Peyğəmbərin ﷺ keçmiş və gələcək günahlarını bağışlamaqla ona Öz lütfünü göstərməsəydi, hətta onu, öz əməli xilas etməzdi.

**Belə bir sual verilə bilər ki:** "Axı saleh əməlin insanı Cəhənnəmdən xilas edəcəyinə dair Quran və Sünnədə dəlillər var. Məsələn, uca Allah buyurur: **"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq."[1]** Elə isə bu ayə ilə əvvəldə zikr olunan hədisi necə cəm etmək olar?"

**Sualın cavabı belədir:** "*Əməl sayəsində Cənnətə girməyi* inkar edən hədis, insanın Cənnətə öz əməli müqabilində girməyəcəyinə aiddir. *Əməl sayəsində Cənnətə girməyi* təsdiq edən ayə isə, əməlin *Cənnətə girmək üçün* əvəz yox, sadəcə səbəb olduğunu bildirir."

Şübhə yoxdur ki, əməl, Cəhənnəmdən xilas olub, Cənnətə girmək üçün bir səbəbdir. Lakin əməl, *Cəhənnəmdən xilas olub, Cənnətə girməyi* əvəz etmir. İnsan Cənnətə yalnız əməl sayəsində girmir. Əksinə, Cənnətə girmək üçün iki *əsas* səbəb vardır ki, bunlar da, Allahın lütfü və rəhmətidir. İnsanı Cəhənnəmdən xilas edib, Cənnətə salan da elə bu ikisidir.

---

[1] ən-Nəhl, 97.

**Hədisdən çıxan faydalar:**

1. İnsan öz əməli ilə qürrələnməməlidir. Sən nə qədər saleh əməllər etsən də, öz əməlinlə qürrələnməməlisən. Çünki Allahın sənin üzərində olan haqqına nisbətdə sənin əməlin çox azdır.

2. İnsan, Allahı zikr etməyi çoxaltmalı və Allahdan ona rəhmət göstərməsini istəməlidir. Bunları çoxlu et! Daim belə dua et: "Allahım, mənə öz tərəfindən rəhmət və lütf göstər!" Çünki sənin əməlin, səni Allahın rizasına qovuşdurmur. *Səni Allahın rizasına qovuşduran* yalnız Allahın rəhmətidir.

3. Bu hədis, səhabələrin elmə həris olmalarına dəlalət edir. Çünki Peyğəmbər ﷺ: "**Sizlərdən heç kəs öz əməli sayəsində *Cəhənnəm odundan* xilas olmayacaq"**– dedikdə, səhabələr bunun təfsilatını soruşdular. Onlar bu ümumi hökmün Peyğəmbərə ﷺ də şamil olub-olmadığını öyrənmək istədilər. Peyğəmbər ﷺ isə, bu hökmün ona da şamil olduğunu bəyan etdi. Səhabələrin رضي الله عنهم Peyğəmbərlə ﷺ bu cür davranışları barədə düşündükdə görürsən ki, insanlar arasında elmə ən çox həris olan kəslər onlar olmuşlar. Belə ki onlar, həm dini, həm də dünyəvi məsələlərdə ehtiyac duyduqları hər bir şey barəsində Peyğəmbərdən ﷺ dərhal soruşmuşlar. Müvəffəqiyyət Allahdandır.

## Doqquzuncu fəsil

## Uca Allahın məxluqatının böyüklüyü, dünyanın faniliyi, axirətin dəhşətləri və bu iki dünyadakı diğər işlər barədə təfəkkür etmək; nəfsin istəklərinə mane olmaq və onu islah edib düz yola istiqamətləndirmək.

**Mövzu ilə bağlı ayələr:**

Uca Allah belə buyurur:

﴿إِنَّمَآ أَعِظُكُم بِوَٰحِدَةٍ أَن تَقُومُواْ لِلَّهِ مَثْنَىٰ وَفُرَٰدَىٰ ثُمَّ تَتَفَكَّرُواْ﴾

**“Mənim sizə yalnız bircə nəsihətim var; Allah üçün iki-iki, bir-bir ayağa qalxın, sonra da bir düşünün.”** [1]

﴿إِنَّ فِى خَلْقِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ وَٱخْتِلَٰفِ ٱلَّيْلِ وَٱلنَّهَارِ لَءَايَٰتٍ لِّأُوْلِى ٱلْأَلْبَٰبِ ﴿١٩٠﴾ ٱلَّذِينَ يَذْكُرُونَ ٱللَّهَ قِيَٰمًا وَقُعُودًا وَعَلَىٰ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِى خَلْقِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَٰذَا بَٰطِلًا سُبْحَٰنَكَ﴾

**“Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər *və deyərlər*: “Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən.”**[2]

﴿أَفَلَا يَنظُرُونَ إِلَى ٱلْإِبِلِ كَيْفَ خُلِقَتْ ﴿١٧﴾ وَإِلَى ٱلسَّمَآءِ كَيْفَ رُفِعَتْ ﴿١٨﴾ وَإِلَى ٱلْجِبَالِ كَيْفَ نُصِبَتْ ﴿١٩﴾ وَإِلَى ٱلْأَرْضِ كَيْفَ سُطِحَتْ ﴿٢٠﴾ فَذَكِّرْ إِنَّمَآ أَنتَ مُذَكِّرٌ﴾

**“Məgər onlar dəvənin necə yaradıldığını görmürlər? Göyün necə yüksəldiyini *görmürlər*? Dağların necə sancıldığını *görmürlər*? Yerin necə döşədildiyini *görmürlər*? *Onlara* nəsihət ver! Sən yalnız nəsihətçisən.”** [3]

---

[1] Səba, 46.
[2] Ali-İmran, 190-191.
[3] əl-Ğaşiyə, 17-21.

﴿أَفَلَمۡ يَسِيرُواْ فِي ٱلۡأَرۡضِ فَيَنظُرُواْ﴾

**"Məgər onlar yer üzündə gəzib dolaşıb görmürlərmi?"**[1]

Bu fəslə aid daha çox ayələr vardır.

Fəslin mövzusu ilə bağlı hədislərə gəlincə, bunlardan biri əvvəldə[2] zikr etdiyimiz: **"Ağıllı kimsə nəfsini hesaba çəkən və ölümdən sonrakı həyat üçün əməl edəndir."** hədisidir.

**Şərh:**

**Təfəkkür:** Bu, hər hansı bir məsələdə nəticə əldə etmək üçün, onun barəsində insanın öz düşüncəsini işlətməsidir. Uca Allah düşünməyi əmr etmiş və Öz kitabında insanları ona təşviq etmişdir. Çünki insan təfəkkür etməklə ən yüksək mətləbə, imana və yəqinliyə çatır.

Bu xüsusda uca Allah belə buyurur: **"De: "Mənim sizə yalnız bircə nəsihətim var."** *Yəni,* ey Muhəmməd, bütün insanlara: **"Mənim sizə yalnız bircə nəsihətim var"-** de. Yəni, mən sizə yalnız bir *şeyi* tövsiyə edəcəm. Əgər onu yerinə yetirsəniz həm mətləbinizə çatar, həm də qorxub çəkindiyiniz şeydən xilas olarsınız. *Həmin nəsihət* budur: **Allah üçün iki-iki, bir-bir ayağa qalxın, sonra da bir düşünün."**

**"Allah üçün ayağa qalxın."** Yəni, ixlasla, sizə əmr olunan şəkildə Allaha itaət edərək ayağa qalxın. Bundan sonra isə bir düşünün. Əgər belə etsəniz *bilin ki,* bu bir tövsiyədir.

Bu ayə onu göstərir ki, insan hər hansı bir əməli Allah üçün yerinə yetirdikdə, düşünməlidir. Düşünməlidir ki, görəsən onu tələb olunan şəkildə yerinə yetirib, yoxsa naqis şəkildə yerinə yetirib və ya özündən nə isə artırıb? Bu əməl sayəsində qəlbin paklaşması, nəfsin təmizə çıxarılması və sairə, bu kimi şeylərdən nəyə nail olub? Odur ki, saleh əməllərini gündəlik vərdiş kimi yerinə yetirən adam kimi olmayın. Əksinə, bir düşün *və gör* bu ibadətdən nə əldə etdin, *bu ibadətin* sənin qəlbinə və düz yol tutmağına necə təsiri oldu. Gəlin bu məsələyə aid namazı misal çəkək. Uca Allah buyrur: **"Səbir etmək və namaz qılmaqla *Allah-***

---

[1] Muhəmməd, 10.

[2] 66 nömrəli hədis.

*dan* **kömək diləyin!"**[1] Həmçinin buyurur: **"Namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir."**[2] Gəlin düşünək görək, namaz qıldığımız zaman, bu namaz, saleh əməllərə qarşı gücümüzün, qüvvətimizin, həvəsimizin artmasına yardımçı olurmu? Gerçək odur ki, bu, həm insanın özündə nadir hallarda baş verir, həm də fərdi insanlar arasında nadir hallarda olur. Elə isə bax gör namaz qıldıqdan sonra səndə nə baş verir. *Bu namaz,* Allaha itaətdə, müsibətlərə qarşı *səbir etməkdə* və *bu kimi* digər şeylərdə sənə yardımçı oldumu? Bu xüsusda, Peyğəmbər ﷺ barəsində zikr olunur ki, onun başına bir iş gəldikdə *dərhal* namaz qılarmış.[3] Yəni, ona üzüntü və sıxıntı baş verdikdə namaz qılarmış. Həmçinin, uca Allah buyurur: **"Namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir."**[4] Elə isə sən də öz namazına bax və gör namaz qıldıqda özündə, çirkin, yaramaz və günah işlərə qarşı nifrət hiss edirsənmi? Yoxsa, namaz bu işlərdə sənə heç bir fayda vermir? Bunları bildikdən sonra *etdiyin* saleh əməllərin nəticəsini də biləcəksən və Peyğəmbərin ﷺ sənə etdiyi nəsihətindən ibrət götürmüş olacaqsan. Başqa bir misalı da zəkat barəsində çəkək.

**Zəkat:** bu, zəkata düşən mallardan, *çıxarılması* vacib olan bir maldır. İnsan onu Allahın əmr etdiyi istiqamətlərə sərf edir. Uca Allah zəkatın faydalarını bəyan etmiş və bu barədə Öz rəsuluna belə buyurmuşdur: **"Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan."**[5] Elə isə zəkat verdikdə bax gör, bu zəkat səni yaramaz əxlaqdan, habelə, günah işlərdən təmizlədimi? Sənin malını təmizə çıxartdımı? Sənin nəfsini təmizə çıxartdımı?!

İnsanların əksəriyyəti zəkatı sanki bir ziyan kimi ödəyirlər. Onu könülsüz olaraq yerinə yetirirlər. *Adam* zəkatını verir, amma bu zəkatın onu pak edib təmizə çıxartdığını hiss etmir. Digər əməllər də bunun kimidir. Əməli Allah üçün et, sonra fikirləş gör, səndə nə baş verdi.

---

[1] əl-Bəqərə, 45.
[2] əl-Ənkəbut, 45.
[3] Sunən Əbu Davud, 1319; Səhih əl-Cami, 4703.
[4] əl-Ənkəbut, 45.
[5] ət-Tovbə, 103.

Bu çox böyük bir nəsihətdir. Əgər insan bu nəsihətdən ibrət götürərsə, onda bu ona fayda verər və durumunu düzəldər. Allahdan bizim əməllərimizi və durumumuzu islah etməsini diləyirik!

Sonra müəllif ﷺ uca Allahın bu ayəsini zikr etmişdir: **"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər** *və deyərlər*: **"Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən."**[1]

Bu ayələr, Peyğəmbərin ﷺ, hər dəfə gecə namazı üçün oyandıqda oxuduğu on ayənin ilk ayələridir.[2]

Gecə namazına oyanan hər bir insanın, oyandığı zaman bu ayələrdən başlayıb "Ali-İmran" surəsinin sonuna qədər oxumalıdır.

Uca Allah buyurur: **"Həqiqətən, göylərin və yerin yaradılışında."** Yəni, həcminə, böyüklüyünə, əzəmətinə və Allahın onlara verdiyi digər xüsusiyyətlərə görə, hər ikisinin yaradılışında *ağıl sahibləri üçün dəlillər vardır.* Bu yaradılışda dəlillər olduğu kimi, ulduzların və günəşin *yaradılışında* da, Allahın dəlilləri vardır. Həmçinin, ay, ağaclar, dənizlər, çaylar və Allahın yaratdığı digər məxluqatlar da, Allahın böyük dəlillərindəndir. Bütün bunlar Allahın vəhdaniyyətinin, qüdrətinin, rəhmətinin və hikmətinin kamilliyinə dəlalət edir. *Elə buna görə də* uca Allah buyurur: **"Həqiqətən, göylərin və yerin yaradılışında."** Bu ayədə uca Allah göyləri cəm halda, yeri isə tək halda zikr edir. Çünki, göylər yeddidir. Bunu uca Allah bir çox ayələrdə zikr etmişdir. *Uca Allah buyurur:* **"Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır."**[3] *Həmçinin, buyurur:* **"De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?"**[4] Yerə gəldikdə isə uca Allah onu yalnız tək halda zikr edir. Çünki burada *yer deyildikdə,* onun, bütün qatlarını özündə şamil edən növü qəsd edilir. Uca Allah "ət-Talaq" surəsində yerin yeddi qat olduğuna işarə edərək belə demişdir: **"Yeddi göyü və yerdən də bir o qədərini**

---

[1] Ali-İmran, 190-191.
[2] Səhih əl-Buxari, 183; Səhih Muslim, 763.
[3] ət-Talaq, 12.
[4] əl-Muminun, 86.

**yaradan Allahdır."**[1] Yerdən də bir o qədəri deyildikdə, say qəsd edilir. *Çünki* yaradılışına və böyüklüyünə görə, yer, heç də göylər kimi deyil. Əksinə, göylər yerdən çox böyükdür. Lakin yer, sayca göylər qədərdir. Bu barədə açıq-aydın hədis varid olmuşdur. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **"Hər kim bir qarış ərazini haqsızcasına ələ keçirərsə, Qiyamət günü Allah yerin yeddi qatını onun boynuna keçirər."**[2]

Uca Allah buyurur: **"Gecə ilə gündüzün bir-birini əvəz etməsində."** *Gecə ilə gündüzün biri-birini əvəz etməsi* bir neçə yöndən olur:

**1.** Gecə qaranlıq, gündüz isə işıqlı olur. Bu xüsusda uca Allah buyurur: **"Biz gecə və gündüzü iki əlamət etdik. Rəbbinizdən lütf diləyəsiniz, illərin sayını və hesabı biləsiniz deyə gecənin əlamətini silib gündüzün işıqlı əlamətini gətirdik."**[3]

**2.** Uzunluğuna və qısalığına görə bir-birini əvəz edirlər. Hərdən gecə uzun olur, hərdən də gündüz. Bəzən də hər ikisi eyni olur. Bu xüsusda uca Allah belə buyurur: **"Allah gecəni gündüzə, gündüzü də gecəyə qatır."**[4] Yəni, hərdən gecənin vaxtından alıb gündüzə qatır, hərdən də gündüzün vaxtından alıb gecəyə qatır. Bu da, gecə ilə gündüzün bir-birini əvəz etməsidir.

**3.** Gecə ilə gündüzün bir-birilərini əvəz etməsinə, onların isti və soyuq xüsusunda bir-birilərini əvəz etmələri də aiddir. Belə ki, hərdən hava soyuq, hərdən də isti olur.

**4.** Həmçinin, bolluq və qıtlıq məsələsi də, onların bir-birilərini əvəz etmələrindəndir. Hərdən dünyada qıtlıq, quraqlıq və çətinlik olur, hər dən də bolluq, yaşıllıq və firavanlıq olur.

**5.** Müharibə və sülh məsələsi də, gecə ilə gündüzün bir-birini əvəz etməsindəndir. Hərdən müharibə, hərdən də sülh olur. Hərdən qələbə, hərdən də məğlubiyyət olur. Necə ki, uca Allah buyurur: **"Biz bu günləri –** ***qalibiyyəti və məğlubiyyəti,*** **insanlar arasında növbə ilə dəyişdiririk."**[5]

---

[1] ət-Talaq, 12.
[2] Səhih əl-Buxari, 3198; Səhih Muslim, 1610.
[3] əl-İsra, 12.
[4] əl-Həcc, 61.
[5] Ali-İmran, 140.

Gecə ilə gündüzün bir-birini əvəz etməsi barəsində düşünən hər kəs, onların hər ikisində, Allahın, ağılları heyrət gətirən dəlillərini tapar.

**"Dəlillər vardır",** yəni, Allahın vəhdaniyyətinə, Onun qüdrətinin, izzətinin, elminin və rəhmətinin kamilliyinə, habelə, digər dəlillərə dair açıq-aydın əlamətlər vardır.

**"Ağıl sahibləri üçün",** yəni, düşüncə sahibləri üçün. Düşüncə, ağıl deməkdir. Düşüncə sahibləri də elə ağıl sahibləridir. Çünki ağıl düşüncədir. Ağlı olmayan insan, ləpəsi olmayan qabıqdır. Belə ki, insanın əsli ağıldır. Elə buna görə də, o, ağıl sahibi adlanır. Ağlı omayan insan isə, *əvvəldə dediyimiz kimi, ləpəsi olmayan* qabıq kimidir. Bəs ağıl deyildikdə nə qəsd edilir? Ağıl deyildikdə zəkamı qəsd edilir?

**Cavab:** Xeyr, *zəka qəsd edilmir.* Çünki zəka bir şey, ağıl isə başqa bir şeydir. Ola bilər ki, insan zəkalı və istedadlı olsun, lakin davranışlarında ağılsızlıq etsin. Əslində, ağıl öz sahibini pis davranışlardan tutub saxlayır. Əsl ağıl da, elə budur. Hətta adam zəkalı olmasa da, bu belədir. Əgər Allah bir adama həm ağıl, həm də zəka əta etmişsə, demək, ona olan nemətini tamamlamışdır. Bəzən adamda zəka olur, amma ağıl olmur. Bəzən də ağıl olur, amma zəka olmur. Kafirlərin hamısı – hətta zəkalı olsalar belə – ağılsızdırlar. Bu xüsusda uca Allah belə buyurur: **"Şübhəsiz ki, Allah yanında canlıların ən pisi *haqqı* anlamayan karlar və lallardır."**[1]

Pis davranışı olan hər bir insan ağılsız sayılır. Odur ki, əsl düşüncə sahibləri, göylərin və yerin yaradılışı barəsində düşünən, Allahın dəlillərinə baxıb onlardan ibrət götürən və bu dəlillər vasitəsilə onların kimə məxsus olduğunu isbat edən ağıl sahibləridir. Əsl ağıl sahibləri də, məhz onlardır. Elə isə, əziz qardaşım, göylərin və yerin yaradılışı haqqında düşünməyə çalış. Habelə onlarda olan *Allahın* ayələri barəsində də *yaxşı-yaxşı* fikirləş. Eləcə də gecə və gündüz barəsində, onların bir-birini necə əvəz etmələri, habelə, bir haldan digər bir hala necə və nə cür keçmələri barəsində düşün. Bil ki, bütün bunlar Allahın əlindədir və bunların hamısı Onun dəlillərindəndir.

Sonra uca Allah ağıl sahiblərini vəsf edərək belə buyurur: **"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər."**

---

[1] əl-Ənfal, 22.

Yəni, hər bir vəziyyətdə; ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edərlər.

Allahı zikr etmək iki növdür:

**Birinci növ:** şərtsiz olaraq, hər bir zaman içində olunan zikr. İnsana, zikrin bu növünü etmək hər bir zaman caizdir. Rəvayət edilir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, İslam ayinlərinin çoxluğu mənə ağır gəlir. Bütün xeyirli əməlləri əhatə edən bir qapı varmı, mən ondan möhkəm tutum?" Peyğəmbər ﷺ buyurdu: **"Çalış, dilin daim Allahı zikr etməklə islaq qalsın."**[1]

Həmçinin Aişə رضي الله عنها rəvayət etmişdir ki, Peyğəmbər ﷺ hər bir halında Allahı zikr edərdi. Demək burada, Allahı zikr etmək şərtsiz olaraq gəlmiş və heç bir sayla məhdudlaşmır. Əksinə, bu, hər bir insanın öz çalışqanlığından asılıdır.

**İkinci növ:** müəyyən bir sayla və ya vəziyyətlə məhdudlaşan zikr. Bu növ zikrlər çoxdur. Buna, rükuda, səcdədə və salamdan sonra edilən namaz zikrləri, evə daxil olarkən və evdən çıxarkən edilən zikrlər, məscidə daxil olarkən və oradan çıxarkən, yatarkən və oyanarkən edilən zikrlər, habelə miniyə minərkən edilən zikrlər aiddir. *Ümumən*, Allahı daim zikr etmək üçün, Onun Öz qullarına buyurduğu çoxlu sayda zikrlər vardır ki, onlar buna aiddir. Xülasə budur ki, uca Allah Öz qullarına elə bir zikrlər buyurmuşdur ki, əgər onlar bu zikrlərə *vaxtlı vaxtında* riayət etsələr, həm ayaq üstə duranda, həm oturanda, həm də uzananda Allahı zikr etmiş olarlar.

Onu da bilin ki, zikr, başqa yöndən də iki növ olur:

**1. Mükəmməl zikr:** bu, qəlbin və dilin bir yerdə etdiyi zikrdir.

**2. Naqis zikr:** bu isə, qəlbin qəflət içində olduğu halda, yalnız dilin etdiyi zikrdir. Allahdan istəyirik ki, *bu növ zikrlərə görə* bizi əfv etsin. İnsanların əksəriyyəti Allahı yalnız dil ilə zikr edir. Qəlbə gəldikdə isə, o, qəflət içində olur. Odur ki, Allahı zikr etdiyi zaman, həmin adamın qəlbinin sağa-sola meyl etdiyini - *fikrinin* dükanında, avtomobilində və alış-verişində olduğunu görürsən. Lakin hər bir halda, bu adam savab qazanır. Mükəmməl zikrə gəlincə, bu, *eyni zamanda* həm dillə, həm də

---

[1] Musnəd İmam Əhməd, 4/188 və 190; Sunən ət-Tirmizi, 3375; Sunən İbn Macə, 3793; Səhih əl-Cami, 7700.

qəlb ilə Allahı zikr etməkdir. Yəni, sən, həm dilinlə Allahı zikr edirsən, həm də qəlbinlə. Hərdən elə olur ki, Allahı *yalnız* qəlbi ilə zikr etmək, bəndə üçün, *dil ilə edilən* sadə zikrdən daha faydalı olur. Əgər insan, öz nəfsində və qəlbində, Allahın həm kainatda, həm də şəriətdə olan dəlilləri barəsində bacardığı qədər düşünərsə, çoxlu xeyrə nail olar.

**"Göylərin və yerin yaradılışı haqqında düşünər** ***və deyərlər:*** **"Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan."** Yəni, *ağıl sahibləri* göylərin və yerin yaradılışı haqqında düşünərək: *"Görəsən bunlar* nə üçün və necə yaranıb?"– deyə buna bənzər *sözlər deyirlər*. Sonra da, həm qəlbləri, həm də dilləri ilə: **"Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan"**– deyirlər. Yəni, göylərin və yerin yaradılışında, əlbəttə ki, gözəl məqsəd olmalıdır. Məhz buna görə Rəbbimizə həmd edilir. Göylərin və yarin yaradılışı əbəs yerə deyildir. Məgər onlar insanların yeyib-içmələri və kef etmələri üçün yaradılıb?! Necə ki, bunu heyvanlar edir! Əksinə, bunlar böyük bir məqsəd üçün yaradılmışdır. Uca Allah buyurur: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım."**[1] Başqa bir ayədə də belə buyurulur: **"Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan."** Göylərin və yerin əbəs yerə yaradıldığını düşünən kimsələr Cəhənnəm əhlidirlər. Bu xüsusda uca Allah belə buyurur: **"Biz göyü, yeri və onların arasındakıları əbəs yerə xəlq etməmişik. Bu, kafirlərin zənnidir. Vay o kafirlərin Oddakı halına!"**[2]

Allahın, bu məxluqatı, boş-boşuna və məqsədsiz olaraq yaratdığını zənn edən hər bir kəs kafir sayılır. Çünki uca Allah buyurur: **"Bu, kafirlərin zənnidir. Vay o kafirlərin Oddakı halına!"**

Deməк, insanlar mütləq ölməli, *sonra* mütləq dirilməli, *sonra* mütləq haqq-hesab olunmalı, *sonra da* mütləq iki yurddan birinə, ya Cənnətə, ya da Cəhənnəmə girməlidirlər. Üçüncü bir yurd yoxdur. Allahdan istəyirəm ki, həm bizi, həm də sizi Cənnət əhlindən etsin və Cəhənnəmdən qorusun.

**"Sən pak və müqəddəssən."** Yəni, Sən, bu göyləri və yeri əbəs yerə yaratmaqdan uzaqsan.

---

[1] əz-Zariyat, 56.

[2] Sad, 27.

**"Bizi Odun əzabından qoru!"** Onlar: *"Sən pak və müqəddəssən"– deyərək,* Allahı vəsf etdikləri bu kamil sifətlə Ona təvəssül edib, Ondan özlərini Cəhənnəm əzabından qorumalarını istəyirlər. Cəhənnəm əzabından qorunmaq iki cür olur:

**Birincisi:** Allahın səni günahlardan qorumasıdır. Çünki *insanı* Cəhənnəmə giriftar edən səbəb günahlardır.

**İkincisi:** Günah etdikdə, Allah, Öz lütfü ilə sənə tövbə etməyi və günahdan əl çəkməyi nəsib etməsidir. Çünki insan bəşərdir və onun günah etməsi labüddür. Lakin, Allaha həmd olsun ki, tövbə qapısı açıqdır. Uca Allah buyurur: ***"Qullarıma mənim bu sözümü*** **de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır."**[1] Nə qədər günah etsən də, sonra Allaha uz tutub tövbə etsən, Allah sənin tövbəni qəbul edər. Lakin etdiyin günah insan haqqı ilə bağlı olarsa, onun haqqından mütləq yaxa qurtarmalısan. Bu, ya onun haqqını qaytarmaqla, ya da ondan halallıq almaqla olur. Çünki insan haqqı bağışlanmır. Allah, Öz haqqını, nə qədər böyük olsa da bağışlayır. Allahın haqqından fərqli olaraq, insanın haqqından, ya onu qaytarmaqla, ya da halallıq almaqla xilas olmaq mümkündür.

Bununla belə, fərz edək ki, sən, haqqına girdiyin adamı tapa bilmirsən və ya onu tanımırsan, ya da pulun məbləği çox olduğuna və sənin də heç bir şeyin olmadığına görə onun haqqını qaytara bilmirsənsə, Allah sənin niyyətin sayəsində tövbəndə sadiq olduğunu biləcək. Belə olduğu halda Allah, sənin əvəzinə həmin haqqı Öz üzərinə götürüb, o adamı razı salacaq.

*Müəllifin zikr etdiyi üçüncü ayədə u*ca Allah belə buyurur: **"Məgər onlar dəvənin necə yaradıldığını görmürlər? Göyün necə yüksəldiyini *görmürlər*? Dağların necə sancıldığını *görmürlər*? Yerin necə döşədildiyini *görmürlər*?"**[2]

**"Məgər onlar ... görmürlər?"** Bu, *insanı, ayələrdə zikr olunan* dörd şeyə nəzər salmağa təşviq edir:

---

[1] əz-Zumər, 53.

[2] əl-Ğaşiyə, 17-20.

**1. "Dəvənin necə yaradıldığını."** Allahın, bu cür böyük bədənə sahib olan və yük daşımağı bacaran bu heyvanı, necə yaratdığı barədə bir düşün. Uca Allah buyurur: **"Onlar yüklərinizi, özünüzün çətinliklə apara biləcəyiniz bir ölkəyə daşıyırlar."**[1] Uca Allah, böyük və güclü bədənə sahib olan bu dəvəni Öz bəndələrinə ram etmişdir. Hətta körpə uşaq belə, bu heyvanı istədiyi kimi idarə edə bilir. Halbuki, dəvə əmrə tabe olmasa, insanlar onu tutub saxlaya bilməzlər. Elə buna görə də, şəriətimiz bizə, dəvəyə *və ya başqa miniyə* minərkən: **"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. *Yoxsa* bizim ona gücümüz çatmazdı"**[2]– deməyi buyurub. *Bu ayədə keçən **"muqrinin"** sözü,* gücü çatan mənasını ifadə edir. Çünki *eyni kökdən olan* "qarin" yəni, yoldaş dedikdə, insanın özü kimisi olan və ona bənzəyən birisi başa düşülür. *Hər bir insanın da yalnız özü kimisinə gücü çatır.* Demək, "muqrin" sözünün mənası gücü çatan deməkdir. *Ayədə keçən məna isə, inkar formasında gəlmişdir.* Yəni, Allah bunu bizə ram etməsəydi, bizim ona gücümüz çatmazdı. Allah isə onu insanlara ram etmişdir. İnsanlar ondan minik kimi istifadə edir, onun ətini yeyir, yüklərini onun üzərində daşıyır və onun üzərində uzaq məsafələri qət edirlər. Habelə, dəvədə onlar üçün başqa faydalar və içəcəkləri süd də var. Belə ki, insanlar onun dərisindən çadırlar, yunundan, tiftiyindən və tükündən isə müəyyən vaxta qədər istifadə edəcəkləri ev əşyaları və başqa şeylər düzəldirlər. Dəvənin bacara biləcəyi digər böyük əlamətlər də vardır.

**2. "Göyün necə yüksəldiyini *görmürlər*?"** Uca Allah bu səmanı böyük və möhtəşəm şəkildə yüksəltmişdir. Odur ki, məxluqatdan heç biri göyə yüksələ bilmir. Cinlər güclü olmalarına rəğmən, belə deyirlər: **"Halbuki *daha öncə* biz *mələklərin söhbətinə* qulaq asmaq üçün göyün bəzi yerlərində otururduq. Amma kim indi *onları* dinləmək istəsə, o, pusquda gözləyən yandırıb-yaxan alova rast gələr."**[3] Uca Allah buyurur: **"Göyü mühafizə olunan bir tavan etdik."**[4]

---

[1] ən-Nəhl, 7.
[2] əz-Zuxruf, 13.
[3] əl-Cinn, 9.
[4] əl-Ənbiya, 32.

*Görəsən,* bu əzəmətli göyləri uca Allah dirəksiz necə yüksəltmişdir? *Uca Allah buyurur:* **"Gördüyünüz göyləri dirəksiz yüksəldən Allahdır."**[1] Yəni, siz göylərin necə dirəksiz olaraq yüksəldildiyini görürsüz. Elə isə bundan ibrət götürün. Bu göylərdə Allahın çoxlu sayda dəlilləri var. Belə ki, onlar bu cür əzəmətli şəkildə yüksəldilmişdir. Habelə, göylərlə yer arasında olan göy cisimləri, ulduzlar, günəş, ay, küləklər, buludlar və başqa bu kimi, Allahın dəlilləri vardır.

**3. "Dağların necə sancıldığını *görmürlər*?"** Bu dağlar, *Allahın yaratdığı,* çox nəhəng, möhtəşəm və əzəmətli *məxluqlardır.* Əgər bütün məxluqat güclərini bir yerə toplayıb dağlar kimi bir şey yaratmaq istəsələr, bunu bacarmazlar. İndiki dövrdə böyük avadanlıqların olmasına rəğmən, *insanıar dağlarda* bir yeri qazmaq istədikdə, çox böyük çətinliklə, yalnız kiçik bir yeri qaza bilirlər. Odur ki, bu əzəmətli dağlar barəsində düşünmək lazımdır. Görəsən, uca Allah onları necə sancmışdır? Allahın onları yerə sancmasında böyük hikmət vardır. Belə ki, uca Allah yerə sancdığı bu dağlarda böyük faydalar yaratmışdır. O faydalardan biri, onun möhkəm olub, yer üzünü möhkəmləndirməsi və titrəməkdən saxlamasıdır. Bu xüsusda uca Allah buyurur: **"O, yer sizi silkələməsin deyə, orada möhkəm dağlar qurmuşdur."**[2] Yəni, titrəməsin deyə. Əgər Allah yer üzünü bu dağlar vasitəsilə möhkəmləndirməsəydi, şiddətli dalğalar zamanı suyun üzərində yırğalanan gəmi tək, o da yırğalanardı. Lakin, Allah, bu dağlar sayəsində yeri hərəkətsiz və sabit etdi. Odur ki, yer həm titrəmir, həm də öz əhlini silkələmir.

Dağlar, həmçinin bəzi əraziləri güclü küləklərdən də qoruyur. Habelə, qütb istiqamətindən gələn dəhşətli soyuqdan və şiddətli istidən də qoruyur. Həmçinin, dağların ətəklərində olan bitkilərdə, vadilərdə və mədənlərdə də Allahın çoxlu sayda böyük əlamətləri var. Ona görə də uca Allah belə demişdir: **"Dağların necə sancıldığını *görmürlər*?"**

**4. "Yerin necə döşədildiyini *görmürlər*?"** Allah yeri hamar edib, insanlara ram etdi. Habelə onu itaətkar etdi. Belə ki, onun torpağı həddən artıq elastik deyil. *Əgər elə olsa idi* insanlar onun üzərində dayana bilməzdilər. Habelə onun torpağı həddən artıq sərt də deyil. *Elə də olsa*

---

[1] ər-Rəd, 2.

[2] Loğman, 10.

*idi, insanlar* ondan faydalana bilməzdilər. Əksinə, uca Allah onu yumşaq və hamar etmişdir ki, insanlar onun üzərində, Allahın müyəssər etdiyi və özlərinə fayda verəcək sahələrdən istifadə etsinlər.

Hamar olan bu yer, həm də kürə formasındadır. Yəni, kürəyə yaxın formada olub hər tərəfdən yuvarlaqdır. Yalnız şimal və cənub nahiyəsi yastı formadadır. Yəni, şimal və cənub qütbləri olan nahiyə də *yastı formadadır.* Ona görə də, əgər bir adam düz xətt boyunca gün batan istiqamətə hərəkət edən təyyarəyə minərsə, yenidən təyyarənin qalxdığı yerə gəlib çatar. Bu da onu göstərir ki, yer yuvarlaq formadadır. Çünki insan onun bir tərəfindən *hərəkətə başladıqda, həmin* tərəfə gəlib çata bilir. Buna, uca Allahın bu ayəsi dəlalət edir: **"Göy yarılacağı və Rəbbini dinləyib boyun əyməyə hazır olacağı zaman; Yer dümdüz ediləcəyi, içindəkiləri kənara atıb boşalacağı zaman."**[1] Bu hadisə Qiyamət günü baş verəcək. Uca Allahın: **"Yer dümdüz ediləcəyi zaman"**– ayəsi dəlil ki, yer hal-hazırda dümdüz deyil. Lakin o, hamardır. Yəni, səth kimidir. Belə ki, onun sahəsi nəhəng olduğundan dolayı kürədə olan əyriliyi bilinmir.

**"Məgər onlar dəvənin necə yaradıldığını görmürlər? Göyün necə yüksəldiyini *görmürlər*? Dağların necə sancıldığını *görmürlər*? Yerin necə döşədildiyini *görmürlər*?"** Uca Allah bizi təşviq edir ki, *bu ayələrdə zikr olunan* dörd şeyə həm adi gözümüzlə, həm də bəsirət gözü ilə nəzər salaq. Həm hissi idrak sayılan adi gözlə, həm də dərk edən və hiss edən bəsirət gözü ilə baxaq ki, bunların, Allahın qüdrət, elm, rəhmət, hikmət və digər bu kimi dəlillərindən olduğunu *başqalarına* dəlil kimi göstərə bilək.

*Müəllifin zikr etdiyi dördüncü ayədə* uca Allah belə buyurur: **"Məgər onlar yer üzündə gəzib dolaşıb görmürlərmi?"** Müəllif bu ayəti tam olaraq gətirməmişdir. Çünki bu, Allahın kitabında bir neçə ayədə varid olmuşdur. Belə ki, uca Allah bir neçə ayədə, Öz bəndələrini yer üzündə gəzib dolaşıb, özlərindən əvvəlkilərin aqibətinin necə olduğuna baxmağa çağırır. Muhəmməd surəsindəki ayə də, bu qəbildəndir: **"Məgər onlar yer üzündə gəzib dolaşıb özlərindən əvvəlkilərin aqibətinin**

---

[1] əl-İnşiqaq, 1-4.

**necə olduğunu görmürlərmi? Allah onları yerli-dibli yox etmişdir. Kafirləri də buna bənzərləri gözləyir."**[1]

*Bu ayədə* Allah gəzib dolaşmağı əmr etmişdir. Gəzib dolaşmaq isə iki qismdir: ayaqla gəzib dolaşmaq, bir də qəlb ilə gəzib dolaşma:

**1. Ayaqla gəzib dolaşmaq:** belə ki, insan kafirlərin başlarına nələr gəldiyini, onların hansı hala düşdüklərini görmək üçün yer üzündə ya piyada, ya da dəvə, avtomobil, təyyarə və digər minik vasitələri ilə gəzib dolaşsın.

**2. Qəlblə gəzib dolaşmaq:** bu, onlar barəsində gələn xəbərlər haqqında düşünmək və təfəkkür etməklə olur.

Əvvəlkilər barəsində olan xəbərləri bizə çatdıran ən səhih, ən doğru və ən faydalı kitab Allahın kitabıdır. Bu xüsusda uca Allah belə buyurur: **"Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır."**[2]

Quran, həm peyğəmbərləri yalançı sayan, həm də onlara dəstək olan əvvəlki nəsillərin xəbərləri ilə doludur. Allah həm onların, həm də bunların aqibətini bəyan etmişdir. Elə buna görə də, hər bir insana vacibdir ki, gəlib getmiş ümmətlər barəsində olan ayələri oxusun, onların mənası və təfsiri barəsində başqalarından soruşsun. Belə etməlidir ki, onlar barəsində məlumatlı olsun. Həmçinin, keçmiş ümmətlərin xəbərləri barədə sünnədə də, hədislər varid olmuşdur. Onlar barəsində çoxlu sayda faydalı hədislər rəvayət edilmişdir. Bu hədislərin Peyğəmbərdən ﷺ səhih olduğu isbat olunduğu təqdirdə, onlar, nəql olunmuş ən doğru xəbərlərdən sayılar.

Bundan sonra isə tarixçilərin nəql etdikləri xəbərlərə baxılır. Lakin, tarixçilərin nəql etdikləri xəbərlərlə isə ehtiyatla davranmaq lazımdır. Çünki tarix kitablarının əksəriyyətinin nə əsli olur, nə də ki isnadı. Bu, sadəcə, insanların öz aralarında yaydıqları xəbərlər olur. Odur ki, bu cür xəbərlərdən mütləq şəkildə ehtiyatlı olmaq lazımdır. Həmçinin, insan bu xəbərləri yaxşı bir şəkildə araşdırmağa çalışmalıdır.

Kitab və Sünnədən başqa, digər mənbələrdə varid olan xəbərlər üç qismə bölünür:

---

[1] Muhəmməd, 10.

[2] Yusuf, 111.

**Birinci qisim;** *o xəbərlərdir ki,* şəriətimiz onların batil olduğuna şahidlik edir; belə xəbəri həm tərk etmək, həm də onda olan xətanı və yalanı bəyan etmək lazımdır ki, insanlar ondan ehtiyatlı olsunlar.

**İkinci qisim:** Quran və Sünnənin təsdiqlədiyi xəbərlərdir; Quran və Sünnə, belə xəbərlərin səhih olduğunu təsdiqlədiyi üçün, bu xəbərlər qəbul olunur.

**Üçüncü qisim:** həm Quranın, həm də Sünnənin təsdiqləmədiyi xəbərlərdir; belə xəbərlərin nə doğru, nə də yanlış olduğunu demək olar. Çünki bizimlə əvvəlki ümmətlər arasında bir-birinə bağlı bir isnad yoxdur ki, bunun sayəsində bizə nəql olunan xəbərin səhih olduğunu bilək. Lakin bu xəbər nəql olunur və israiliyyat xəbərlərindən sayılır. Bu xəbərlər barəsində hökm verilmir. Yəni, bu xəbərlər, nə qəbul olunur, nə də ki, tərk olunur. Ən ədalətli hökm də budur.

Sonra müəllif ﷺ əvvəlki fəsildə nəql etdiyi hədisə işarə edir. Hədisdə Peyğəmbər ﷺ belə deyir: **"Ağıllı kimsə nəfsini hesaba çəkən və ölümdən sonrakı *həyat* üçün əməl edəndir. Aciz kimsə isə nəfsinin istəklərinə tabe olan və Allah barəsində boş ümidlərə qapılandır."**[1]

**Ağıllı:** Bu, sağlam düşüncəli, dərrakəli, diqqətli və fürsətdən istifadə edən adamdır. Nəfsini hesaba çəkən də, elə budur. Yəni, adam nəfsini islah etmək üçün onu hesaba çəkir ki, görəsən vacib olan əməllərdən nəyi tərk edib, haram olanlardan hansını edib, habelə, vacib olan əməllərdən hansı birini yerinə yetirib, haramların hansı birindən çəkinib.

**Aciz:** Bu, nəfsinin istəklərinə tabe olan adamdır. Həmin adam, Allahın şəriətinə müvafiq olsa da, olmasa da, həmin adam nəfsi istədiyini yerinə yetirir, istəmədiyini isə tərk edir. Aciz olan insan da, məhz beləsidir. Bu günkü gündə acizlərin sayı *həddən artıq* çoxdur. Onlar, Quran və Sünnəyə müxalif olmalarına məhəl qoymadan və buna önəm vermədən nəfslərinin istəklərinə tabe olurlar. Həm özümüz, həm də onlar üçün Allahdan hidayət diləyirik.

**"Allah barəsində boş ümidlərə qapılandır."** Yəni, *həmin adam özü barəsində belə* deyir: "Mən bağışlanacam, düz yolu sonra tutacam, vacibləri sonra yerinə yetirəcəm, bunu sonra tərk edəcəm." Yaxud da belə deyir: "Allah mənə hidayət verər." Bəzən də ona nəsihət etdikdə belə

---

[1] Bu hədisin təxrici 66-cı hədisdə qeyd olunmuşdur..

deyir: “Allahdan mənim üçün hidayət dilə.” Adam buna bənzər sözlər deyir. Aciz olan da, beləsidir.

Ağıllı adam isə, əzm və ciddiyyətlə əməl edir və nəfsini hesaba çəkir. Nəfsinə qalib gəlmək üçün, həmin adamda, Allahın əmrini, dinini və şəriətini yerinə yetirməyə güc və qüvvət olur. Yoxsa ki, uca Allah zadəgan kişinin zövcəsi barədə Öz kitabında belə deyir: **“Mən özümə bəraət qazandırmıram. Çünki, Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs *adama* pis işləri əmr edər.”[1]** Allahdan, Öz rəhməti sayəsində həm bizə, həm də sizə rəhm etməsini, habelə, Onu zikr etmək, Ona şükr etmək və Ona gözəl tərzdə ibadət etmək üçün həm bizə, həm də sizə yardım etməsini diləyirik!

[1] Yusuf, 53.

## Mündəricat

**Müqəddimə** ..... 5
**İmam Nəvəvinin ﵀ müqəddiməsi** ..... 8
**Şərhçinin müqəddiməsi** ..... 12
**Birinci fəsil: İxlaslı olmaq, üstəlik, gizlində və aşkarda yerinə yetirilən hər bir əməl və deyilən hər bir söz üçün niyyət etmək** ..... 14
1-ci hədis ..... 17
2-ci hədis ..... 27
3-cü hədis ..... 30
4-cü hədis ..... 34
5-ci hədis ..... 37
6-cı hədis ..... 40
7-ci hədis ..... 56
8-ci hədis ..... 59
9-cu hədis ..... 64
10-cu hədis ..... 66
11-ci hədis ..... 69
12-ci hədis ..... 72
**İkinci fəsil: Tövbə** ..... 79
13-cü hədis ..... 90
14-cü hədis ..... 90
15-ci hədis ..... 93
16-cı hədis ..... 96
17-ci hədis ..... 96
18-ci hədis ..... 97
19-cu hədis ..... 99

20-ci hədis ........ 107
21-ci hədis ........ 111
22-ci hədis ........ 157
23-cü hədis ........ 160
24-cü hədis ........ 160
**Üçüncü fəsil: Səbir** ........ 163
25-ci hədis ........ 176
26-cı hədis ........ 182
27-ci hədis ........ 184
28-ci hədis ........ 187
29-cu hədis ........ 191
30-cu hədis ........ 196
31-ci hədis ........ 212
32-ci hədis ........ 215
33-cü hədis ........ 217
34-cü hədis ........ 218
35-ci hədis ........ 220
36-cı hədis ........ 224
37-ci hədis ........ 227
38-ci hədis ........ 227
39-cu hədis ........ 229
40-cı hədis ........ 230
41-ci hədis ........ 234
42-ci hədis ........ 237
43-cü hədis ........ 241
44-cü hədis ........ 243

45-ci hədis ........ 253
46-cı hədis ........ 253
47-ci hədis ........ 255
48-ci hədis ........ 255
49-cu hədis ........ 256
50-ci hədis ........ 257
51-ci hədis ........ 261
52-ci hədis ........ 261
53-cü hədis ........ 265
**Dördüncü fəsil: Doğruluq** ........ 270
54-cü hədis ........ 273
55-ci hədis ........ 278
56-cı hədis ........ 281
57-ci hədis ........ 287
58-ci hədis ........ 291
59-cu hədis ........ 296
**Beşinci fəsil: Nəzarət etmə** ........ 300
60-cı hədis ........ 317
61-ci hədis ........ 445
12-ci hədis ........ 447
63-cü hədis ........ 454
64-cü hədis ........ 456
65-ci hədis ........ 457
66-cı hədis ........ 467
67-ci hədis ........ 469
68-ci hədis ........ 471

**Altıncı fəsil: Təqva** ... 473
69-cu hədis ... 481
70-ci hədis ... 483
71-ci hədis ... 487
72-ci hədis ... 489
73-cü hədis ... 492
**Yeddinci fəsil: Yəqinlik və təvəkkül** ... 497
74-cü hədis ... 506
75-ci hədis ... 513
76-cı hədis ... 514
77-ci hədis ... 517
78-ci hədis ... 517
79-cu hədis ... 519
80-ci hədis ... 522
81-ci hədis ... 525
82-ci hədis ... 527
83-cü hədis ... 528
84-cü hədis ... 528
**Səkkizinci fəsil: Doğru yol tutmaq** ... 530
85-ci hədis ... 533
86-cı hədis ... 535
**Doqquzuncu fəsil: Uca Allahın məxluqatının böyüklüyü, dünyanın faniliyi, axirətin dəhşətləri və bu iki dünyadakı digər işlər barədə təfəkkür etmək; nəfsin istəklərinə mane olmaq və onu islah edib düz yola istiqamətləndirmək** ... 554